Cəlal Qasımov

BİRİNCİ TÜRKOLOJİ QURULTAY: ŞAHİDLƏR VƏ ŞƏHİDLƏR

AMEA-nın Folklor İnstitunun
Elmi Şurasının 25 oktyabr
2019-cu il tarixli qərarı ilə
(protokol №6) nəşrə tövsiyə olunmuşdur.

Bakı - 2019

Redaktoru: **Muxtar İmanov**
Akademik

Rəyçilər: **Nizami Cəfərov**
Akademik

Kamran Əliyev
Akademiyanın müxbir üzvü

Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər. Bakı, "Gənclik" nəşriyyatı, 2019.

Professor C.Qasımovun yeni faktlarla zəngin olan bu monoqrafiyasında Birinci Türkoloji Qurultayın ədəbi-mədəni, fəlsəfi və siyasi mahiyyəti araşdırılır. Müəllif arxiv materialları əsasında bu qurultayın türkologiya elminin, eləcə də türk xalqlarının tarixində və taleyində oynadığı rolun müsbət və mənfi cəhətlərini, türkoloji qurultayın iştirakçılarının repressiyaya məruz qalmalarının səbəblərini faktlı, predmetli və konseptual şəkildə tədqiq edir. Arxiv sənədləri əsasında yazılmış bu monoqrafiyadan geniş oxucu kütlələri istifadə edə bilər.

İSBN: 978-8020-1934-5-4

© "Cəlal Qasımov" 2019



Cəlal Qasımov



BİRİNCİ TÜRKOLOJİ QURULTAY
BU İKİ ŞƏXSİN - İ.QASPİRALLI VƏ V.RADLOVUN
ŞƏRƏFİNƏ KEÇİRİLMİŞDİR.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 80 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

SƏRƏNCAMI

2006-cı ilin fevral ayında Bakıda Birinci Türkoloji Qurultayın keçirilməsinin 80 illiyi tamam olur. Qurultay türkdilli xalqların tarix və etnoqrafiyasının, dil və ədəbiyyatının aktual problemlərinin həllində mühüm rol oynamış, bu xalqların mədəni inkişafında yeni bir mərhələnin təməlini qoymuşdur. Qurultayda müzakirə obyekti olan problemlər arasında türk dillərinin əlifba, orfoqrafiya və terminologiyası məsələləri xüsusi yer tutmuş, bu sırada isə yeni əlifbaya keçidi təmin etmək başlıca məqsəd olmuşdur.

Əlifba islahatı məsələsi Azərbaycanda XIX əsrdən başlayaraq Mirzə Fətəli Axundov başda olmaqla dövrün tərəqqipərvər ziyalılarının diqqət mərkəzində dayanmışdır. Həmin dövrdən etibarən Azərbaycan mədəniyyətinin inkişafını müəyyənləşdirən Avropa yönümlü maarifçilik hərəkatının nümayəndələri latın qrafikası əsasında tərtib olunmuş əlifba ideyası uğrunda mübarizə aparmışlar. Məhz buna görə belə mütərəqqi hərəkatın önündə gedən Azərbaycanın əlifba islahatlarının həyata keçirilməsində də qabaqcıl mövqe tutması təbii hal kimi qarşılanmalıdır. Hələ 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə yaradılmış "Yeni türk əlifba komitəsi"nin səyləri nəticəsində 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətlənmiş, bu isə yeni əlifbaya keçidlə bağlı tərəddüd edən türkdilli xalqların daha mütəşəkkil fəaliyyətinə təkan vermişdir. Bu baxımdan türk dünyasında uzun illər ərzində aparılan mübahisə və müzakirələrə son qoymuş Türkoloji Qurultayın artıq dünya türkologiyasının mərkəzinə çevrilən Bakıda keçirilməsini qanunauyğun hal hesab etmək mümkündür. Qurultaydan sonra yeni əlifbanın tətbiqi xüsusilə geniş vüsət alsa da, təəssüf ki, 1940-cı ildə siyasi motivlərə görə qəti olaraq dayandırılmışdır.

Bununla belə, Azərbaycan xalqının qabaqcıl nümayəndələri sonralar da dilimizin inkişafı yolunda öz imkanları daxilində bu və ya digər dərəcədə fəaliyyət göstərmişlər. Əllinci illərin siyasi ab-havasında meydana çıxan yumşalma ana dili ilə bağlı proseslərin müsbət istiqamətdə sürətlənməsinə müəyyən təsir göstərmişdir. Xalqımızın ümum-

milli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə dilimizin inkişafı yeni mahiyyət kəsb etmişdir.

Bu proses Azərbaycan dilinin tərəqqisində növbəti mərhələnin başlanğıcı olmuşdur. Həmin illərdən etibarən Azərbaycan dilinin istifadə dairəsi genişlənmiş, onun tədrisi və tədqiqi ilə məşğul olan müəssisələrə xüsusi qayğı göstərilməyə başlanmışdır. Azərbaycan dili sabiq Sovet İttifaqı xalqlarının dilləri arasında öz ölkəsinin konstitusiyası ilə təsbit edilmiş az sayda dövlət dillərindən biri olmuşdur.

Müstəqillik illərində dilimiz sözün əsl mənasında dövlət dili statusu qazanmışdır. Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli 506 nömrəli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli 552 nömrəli müvafiq fərmanlar isə ana dilimizin inkişafında mühüm istiqamətverici sənədlər hesab edilə bilər. Bütün bunlar Türkoloji Qurultayın qərarlarının məntiqi davamı olmaqla həmin qərarların tarixi əhəmiyyətini təsdiq edir və onların obyektiv zərurətdən meydana gəldiyini göstərir.

Türkdilli xalqların, eləcə də Azərbaycan xalqının mədəni həyatında böyük rol oynamış Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 noyabr 2005-ci il

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

SƏRƏNCAMI

2016-cı ildə Bakı şəhərində Birinci Türkoloji Qurultayın keçirilməsinin 90 illiyi tamam olur.

Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisələrdəndir. Qurultayda əsaslı müzakirə obyektinə çevrilmiş problemlərlə bağlı böyük perspektiv əhəmiyyətə malik qərarlar qəbul edilmiş, latın qrafikalı yeni əlifbaya keçidin elmi-metodik prinsipləri işlənib hazırlanmışdır. Həmin əlifbanın ilk kütləvi tətbiqinə türkdilli respublikalardan məhz Azərbaycanda başlanılması hələ XIX əsrdən etibarən burada mütərəqqi ziyalıların əlifba islahatı uğrunda fəal şəkildə apardıqları mübarizənin nəticəsi idi. Lakin sovet idarə üsulu çox keçmədi ki, bütün bunların ardıcıl gerçəkləşdirilməsinin qarşısını müxtəlif vasitələrlə aldı.

XX yüzilliyin sonlarına doğru Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusu qəti surətdə təsbit edildi və Türkoloji Qurultay tərəfindən vaxtilə irəli sürülmüş tövsiyələrin müasir şəraitdə uğurla həyata keçirilməsi üçün əlverişli zəmin yarandı. Bir əsr boyunca üçüncü dəfə dəyişdirilməyə məruz qaldıqdan sonra latın qrafikalı yeni əlifbaya keçildi və ölkənin ictimai-siyasi həyatının, xalqın yazı mədəniyyəti tarixinin taleyüklü məsələlərinin həlli istiqamətində mühüm addımlar atıldı.

Qurultaydan bəri ötən dövr türkologiyaya dair araşdırmalar sahəsində yeni konsepsiyaların formalaşdırılması, Azərbaycanın türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması və türk xalqlarının mədəni-mənəvi birliyinin nəzəri-elmi bünövrəsinin yaradılması ilə əlamətdardır. Qazanılan nailiyyətlər eyni zamanda qurultayın təşkili işinə töhfələr vermiş totalitar rejim qurbanı görkəmli alimlərin xatirəsinə ehtiramın ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında müstəsna rol oynadığını nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 fevral 2016-cı il

Ön söz

Filologiya elmləri doktoru, professor Cəlal Qasımovun təxminən iyirmi beş illik bir dövrü əhatə edən ardıcıl (və məhsuldar!) araşdırmaları, cəsarətlə deyə bilərik ki, Azərbaycan ədəbi-ictimai fikir tariximizin öyrənilməsində ən mötəbər qaynaqlardan birini təşkil etməkdədir.

Cəlal Qasımov özünün növbəti kitabını – "Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər"i hörmətli oxuculara təqdim edərkən bu qədər zəngin faktları ortaya çıxarmaq üçün nə qədər böyük tədqiqatçı zəhməti çəkib, nə qədər toz basmış sənədləri vərəqləyib, nə qədər mübhəmləri aşkar edib öz yerində, ancaq mənsub olduğu xalqın taleyində hansı haqsızlıqlar olduğuna, onun intellektuallarına münasibətdə hansı kobud, vəhşi hərəkətlər edildiyinə, bağlı qapılar arxasında hansı qansız qərarlar çıxarıldığına da dözüb. Və Cəlal müəllimi yaxından tanıyan, onun tədqiqatçı obyektivliyi (və vicdanı!) ilə yanaşı, milli təəssübkeşliyinə (və qeyrətinə!) də yaxşı bələd olanlardan biri kimi heç bir tərəddüdsüz deyə bilərəm ki, nə şahidləri "dinləmək", nə də şəhidlərin halına acımaq ona asan gəlməyib. Doğrudur, müəllif "Oxucu ilə mütəqabil dialoq"da yazır ki, "biz bu kitabda çalışdıq ki, türkoloqların imperiyasının antitürk siyasəti qarşısında göstərdikləri fədakarlıqları onların vəkili kimi deyil, obyektiv tədqiqatçısı kimi oxucu kütlələrinin diqqətinə çatdıraq. Hesab edirik ki, hər hansı bir şəxsiyyəti tədqiq edərkən onun tədqiqatçısı deyil, vəkili olan obyektivliyini itirir. Bir də bu obyektivliyi qorumaq üçün türkoloq alimlərimizi gücü və gücsüzlüyü ilə birgə tədqiq və təqdim etməyə çalışdıq", ancaq kitabı vərəqlədikcə elə ilk səhifələrdən görünür ki, Cəlal Qasımovun alim-tədqiqatçı obyektivliyi, nə qədər gecikmiş olsa da, hər halda tarixi bir vəkillik, hətta elə bir retrospektiv ittiham (və intiqam)dır ki, bunsuz nə repressiyaya məruz qalmış türkoloqların ruhu şad ola, nə də (və ən başlıcası!) türkoloji təfəkkür inkişaf edə bilər.

Birinci Türkoloji Qurultayın metafizikasını dərk etməyə təşəbbüs göstərərkən, fikrimizcə, üç amil üzərində xüsusilə dayanmaq lazımdır ki, onların birincisi türk xalqlarının təsəvvüründə "qurultay" adlanan hadisənin tutduğu yerdir. Və bu yeri (mövqeyi!) türk cəmiyyəti bizə məlum olan beş min illik tarixinin son iki min beş yüz ili boyu ardıcıl olaraq davam (və inkişaf) etdirmiş, ən avtoritar rejimlər dövründə belə dövlət idarəçiliyində qurultay ənənəsinin texnologiyalarına laqeydlik göstərilməmiş, bu cür cəhdlərə hər hansı meyil "türk törəsi"nə qəsd sayılmışdır. Ona görə də sovet hakimiyyətinin ilk illərində Türkoloji

Qurultay keçirmək qərarına gələn siyasi iradə nə qədər özünə inamlı (və eyforik!) səciyyə daşısa da tarixi yaddaşın metafizik miqyası ilə hesablaşmalı idi. Və qurultayın İsmayıl bəy Qaspirallı ilə Vasili Radlovun şərəfinə keçirilməsi də, əlbəttə, o mənada bunun nəticəsi idi ki, hər ikisinin türkologiyaya (və türkçülüyə) xidmətləri nə qədər çox olsa da, heç birinin sovet ideologiyasına aidliyi barədə söhbət belə gedə bilməzdi.

Lakin sağlam düşüncə (və qurultaya münasibətin sonrakı tarixinin təlqin etdiyi məntiq) israr edir ki, sovetlər bu qurultay eksperimentindən gözlədikləri nəticələri ya ala bilmədilər, ya da ümumiyyətlə bu tipli məclislər onlara gözləmədikləri qədər intellektual göründü ki, sovet ideologiyası həmin səviyyəni həzm etməyə hazır deyildi.

İkinci amil odur ki, Qurultaydakı müzakirələrin nə gedişi, nə də qəbul olunan qərarların mahiyyəti getdikcə daha çox "vüsət alan" sosializm quruculuğu hərəkatının nə strategiyası, nə də xüsusilə taktikası ilə uyğun gəlmədi. Belə ki, Qurultay türk xalqlarının dil, ədəbiyyat və tarixlərinə onların milli varlıqlarını təsdiq (və inkişaf) etdirməyə hesablanmış elmi prinsiplərlə yanaşırdı, halbuki, məsələn, professor Bəkir Çobanzadənin rəhbər tutduğu həmin elmi prinsiplər çox keçmədi ki, Sovetlər Birliyində burjua millətçiliyi, onun (ümumiyyətlə, elmin!) tərəfdarları isə burjuaziyanın agentləri kimi amansızlıqla təqib olunmağa başladı.

Və nəhayət, üçüncü amil də nəzərdən qaçmamalıdır ki, birinci halda ümumən xalqların tarixi heysiyyatına hər cür konyuktur münasibəti rəva görən, ikinci halda hər hansı hadisəyə elmi-intellektual yanaşmanı son dərəcədə vulqar təpkilərlə qarşılayan sovet ideologiyası (və imperiyası!) yarandığı ilk illərdən başlayaraq türk xalqlarına (və türkçülüyə!) qarşı həmişə dözülməz münasibət göstərmiş, hər nə qədər Rusiya imperiyasının varisi olduğunu danmağa çalışsa da, ən azı strateji məsələlərdə həmin imperiyanın bu mənfur siyasətini yürütməkdə davam etmişdir.

Sovetlər Birliyinin türklərə (və türkologiyaya) kökündən sağlam olmayan münasibətinin get-gedə daha da "xəstə" hal almasında 20-ci illərin ortalarından Atatürk Türkiyəsinin qazandığı böyük uğurların təsiri varmı? Əlbəttə, var!.. Stalin "troyka"sının hökmü ilə güllələnmiş türkoloqların əksəriyyəti məhz Türkiyənin "agentləri" deyildilərmi?

"Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər"in bir əsər olaraq fundamentallığını təmin edən iki əlamətindən birincisi olduqca zəngin arxiv materialının sistemli şəkildə (və böyük bir qisminin ilk dəfə) təd-

qiqata cəlb etməsidirsə, ikincisi elmi-nəzəri ümumiləşdirmələrinin professional səviyyəsidir. Xüsusi qeyd etmək lazım gəlir ki, həmin mövzudakı (ümumən repressiya probleminə aid) əsərlərdə, bir qayda olaraq, məhz sonuncu məziyyət çatışmır; baş vermiş hadisələrin qeyri-insani, hər cür məntiqdən uzaq, xaotik xarakteri istər- istəməz ən təmkinli araşdırıcını belə özündən çıxarıb o qədər emosiyaya çəkir ki, həmin hadisələrə soyuq ağılla qiymət vermək cəhdləri arxa planda qalmış olur. Biz israr edə bilmərik ki, Cəlal Qasımov öz mühakimələrində həmişə, hər yerdə təmkinli və ya soyuqqanlıdır, ancaq etiraf eləməliyik ki, "Birinci Türkoloji qurultay: şahidlər və şəhidlər"in dəyərini ilk növbədə onun elmi mükəmməlliyi müəyyən edir.

Bu nədən irəli gəlir?.. Əlbəttə, özləri də istəmədən dövrün mürəkkəb siyasi-ideoloji münaqişələrinə cəlb edilmiş, həmin sahədə heç bir peşəkar hazırlıqları olmadığı halda müxtəlif xarakterli sorğu-suallara cavab verməyə məhkum olunmuş bu şəxsiyyətlər – Bəkir Çobanzadə, Artur Zifeld, Hənəfi Zeynallı, Vəli Xuluflu, Xalid Səid Xocayev... böyük alimlər idilər. Və onların istər istintaqı, istərsə də "cəzalandırılması" zahirən bir sıra siyasi motivlərlə (məsələn: ayrı-ayrı xarici ölkələrə və ya ümumən beynəlxalq imperializmə cəsusluq, Stalinə və ya Bağırova sui-qəsdin təşkili və s.) əlaqələndirilsə də, əsas "günahlar"ı sovetlərin xoşuna gəlməyən bir sahə - elmlə, özü də türkoloji elmlə məşğul olmaları idi... Ona görə də Cəlal Qasımov, tamamilə doğru olaraq, məsələyə məhz bu baxımdan yanaşır, repressiya qurbanlarının türk xalqlarının dili, ədəbiyyatı, tarixi barədəki mülahizələrində, genişmiqyaslı elmi təşkilatçılıq, quruculuq fəaliyyətlərində, türkologiya üçün xüsusilə onun təşəkkül dövründə bu və ya digər dərəcədə səciyyəvi olan milli təəssübkeşlikdə yol verdikləri "səhvlər"in "anatomiya"sını ortaya çıxarmağa çalışır ki, bunda da ona, heç şübhəsiz, çoxcəhətli filoloji hazırlığı yardım edir. Və belə bir ideya kitab boyu öz aydın ifadəsini tapır ki, repressiyaya məruz qalmış türkoloqların timsalında türkologiya elmi Sovetlər Birliyi məkanında hər cür intellektual-metodoloji əsaslardan məhrum edilib elə bir acınacaqlı vəziyyətə gətirildi ki, türk xalqlarının dilləri, ədəbiyyatları, tarixləri üzərində istənilən vulqar ideoloji eksperimentin keçirilməsi üçün "münbit" şərait yarandı. Ən acınacaqlısı isə o idi ki, bir tərəfdən, türklüyün ortaq dəyərləri unutdurulur, digər tərəfdən, türk xalqları arasında yeni dövrün əvvəllərindən etibarən onsuz da zəifləmiş əlaqələrin tamamilə aradan qaldırılmasına həm ideoloji- mənəvi, həm də siyasi- praktik təyinatlı təzyiqlərlə rəvac verilirdi. XIX əsrin sonu – XX əsrin əvvəllərində sürətlə təşəkkül tapmaqda

olan türkçülük məfkurəsini beşiyindəcə boğmaq, ona pantürkizm möhrü vurmaqla məhv etmək sovet sosialist ideoloqlarının ən mənfur "əqidə"-lərindən idi.

"Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər"in müəllifi professor Cəlal Qasımov yüksək ixtisaslı filoloq olmaqla yanaşı, geniş dünyagörüşlü tarixçi-ideoloq, mənsub olduğu millətin təəssübkeş ziyalısıdır.

Yalnız sovet türkologiyasının deyil, sovet hakimiyyətinin (və ideologiyasının) tarixi üçün də çox səciyəvidir ki, bütün möhtəşəmliyilə birlikdə türkoloji sahədə uzun müddət ancaq bir Qurultayla kifayətlənildi, rəsmi şəkildə nəzərdə tutulan, zamanı və məkanı da elan edilən İkinci Qurultay keçirilmədi... Və "Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər"in də göstərdiyi kimi, müzakirə olunan məsələlər, qəbul edilən qərarlar elə bir geniş elmi, mədəni, siyasi (və metodoloji!) rezonans doğurdu ki, hansısa təsadüfdən, yaxud zərurətdən görülməyə başlamış işi davam etdirmək nəinki məsləhət olmadı, mövcud rezonansı söndürmək üçün hər cür aqressiyaya, şərə, böhtana əl atıldı.

Azərbaycan ədəbiyyatının ən zəngin xəzinəsi olan (o xəzinə ki, yalnız onun sayəsində keçən əsrin 20-ci, 30-cu illərində Azərbaycan ədəbiyyatının bir sıra mötəbər qaynaqları üzə çıxarılmışdı) "Salman Mümtaz kitabxanası"nın taleyi isə (bu barədə Cəlal Qasımov müfəssəl bəhs edir) sovet ideologiyasının elmə, mədəniyyətə münasibətinin əyani göstəricisidir.

Əlbəttə, Birinci Türkoloji Qurultayın həm tarixinin dərindən öyrənilməsi, həm də onun intellektual ənənələrinin davam etdirilməsi olduqca zəruridir. Və təsadüfi deyil ki, Azərbaycan müstəqillik qazandıqdan sonra Qurultaya maraq əsaslı şəkildə artmış, Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi sərəncamları ilə 2006-cı ildə onun 80, 2016-cı ildə isə 90 illik yubileyləri geniş qeyd olunmuşdur. Sonuncu sərəncamda göstərilir ki, "Qurultaydan bəri ötən dövr türkologiyaya dair araşdırmalar sahəsində yeni konsepsiyaların formalaşdırılması, Azərbaycanın türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması və türk xalqlarının mədəni-mənəvi birliyinin nəzəri-elmi bünövrəsinin yaradılması ilə əlamətdardır. Qazanılan nailiyyətlər eyni zamanda Qurultayın təşkili işinə töhfələr vermiş totalitar rejim qurbanı görkəmli alimlərin xatirəsinə ehtiramın ifadəsidir".

Görkəmli tədqiqatçı Cəlal Qasımovun Birinci Türkoloji Qurultaya həsr olunmuş çoxsaylı araşdırmaları, həmçinin "Birinci Türkoloji Qurul-

tay: şahidlər və şəhidlər” kitabı da həmişə borclu olduğumuz həmin ehtiramın intellektual təzahürüdür.

Nizami Cəfərov
Akademik, Millət vəkili

OXUCU İLƏ MÜTƏQABİL DİALOQ

“Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər” kitabı uzun illər millətdən gizlədilən tarixi həqiqətlərin müasir dönəmdə təqdimatıdır. Sovetlər dönəmində bu qurultaydan “millilik və millətçilik”, “türklük və türkçülük” iyi, ətri gəlir deyə onun tədqiqinə və təbliğinə icazə verilmirdi. Cənab Prezident İlham Əliyevin Birinci Türkoloji Qurultayın 2006-cı ildə 80 və 2016-cı ildə 90 illiyinin keçirilməsi ilə əlaqədar imzaladığı Sərəncamlar bu qurultayın daha ətraflı, dafa fundamental şəkildə, həm də ideoloji ehkamlardan uzaq olan müstəqillik işığında tədqiqinə şərait yaratdı. Adı gedən Sərəncamlardan sonra qurultayla bağlı bir çox arxiv sənədləri və stenoqrafik materiallar işıq üzünə çıxarılaraq elmi dövriyyəyə buraxıldı. Yalnız bu Sərəncamlardan sonra üzərində “Birinci Türkoloji Qurultay” sözləri yazılan monoqrafik tədqiqatlar və elmi-praktik konfrans materialları oxucuların ixtiyarına verildi. Həmin tədqiqatlar yalnız bu sahədəki, mövcud boşluğu doldurmadı, eyni zamanda görüləcək işlərin gələcək istiqamətlərini və perspektivlərini də müəyyənləşdirdi. Məlum oldu ki, hələ arxivlərdə qalan sənədlər də üzə çıxarılmalı və tədqiq edilməlidir.

Bu problemin tədqiqi hər şeydən öncə sovet totalitar rejimini, imperiyanın siyasi baxışlarını və maraqlarını, türkə və türkçülüyə münasibətini, bütövlükdə isə türk xalqlarının tarixində və taleyində oynadığı tragik-dramatik rolu öyrənmək baxımından da olduqca maraqlıdı.

Birinci Türkoloji Qurultayın əlifba, terminologiya, orfoqrafiya, ədəbiyyat, folklor, tarix, etnoqrafiya sahəsində islahatlarının aparılması ilə bağlı çağırılması Moskvanın mədəni inqilab adı altında hansı məkrli siyasət yeritdiyini də öyrənməyə imkan verir.

Birinci Beynəlxalq Türkoloji Qurultayda bolşevikləri yalnız türkologiyanın tarixi və genologiyası deyil, daha çox türkoloqların taleyi və sosializmə münasibəti düşündürürdü. Hesab edirik ki, qurultayın türkoloqların qarşısında qoyduğu tələblərin və vəzifələrin müasir dövrdə öyrənilməsi də olduqca vacibdir.

Bu qurultayın materialları ilə ilkin tanışlıqdan iki rəngin paralel şəkildə hərəkətinin şahidi olursan. Birincisi, işığı-xeyiri simvollaşdıran

ağ rəng, ikincisi isə, qaranlığın-şərin simvolikası olan qırmızı rəngdir. İctimai – siyasi həyatda olduğu kimi Birinci Türkoloji Qurultayda da alim və ziyalı baxışı ilə siyasətçi və imperiya baxışı yalnız görüntü olaraq biri-birini tamamlayır. Ziyalıların imperiyanı və onu idarə edənləri axıra qədər dərk edə bilməmələri və bəlkə də, daha doğru olar deyək ki, böyük türkoloqların "sadəlövhlükləri" bu alimlərin bolşevik siyasətinin alt qatındakı çirkinlikləri görə bilməyənləri onların soyqırımları ilə nəticələndi. Qurultayda aydın və nümayişkarənə şəkildə görünən türkoloq alimin elmi təfəkküründən doğan və ondan qaynaqlanan humanizmi ilə, maskalanan və görünməz şəkil alan imperiya gücə və zora söykənən idarəçilik "məharətini" nümayiş etdirir.

Belə bir situasiyada intellektlə inkvizasiya, təfəkkür sahibi ilə zopa və dəyənək sahibi, ağılla tırtıllı repressiya maşını üz-üzə və göz-gözə dayanır. Lakin tarix çoxdan sübut edib ki, Mənsur Həllacın boğazına kəndiri salanın da, C.Brunonu və J.Darkı tonqala atanın da, "Kəlilə və Dimnə"ni fars dilinə tərcümə edəni diri-diri və həm də tikə-tikə təndirdə yandıranın da, Nəsimini qətlə yetirənin də, Cavada və Müşfiqə... güllələnmə hökmü oxuyanın da, Cavidi və Mümtazı... sürgünə göndərənin də bir adı var; NADAN!

Həmişə və hər yerdə müdriki - Nəsimini, Cavidi... eşafota yaxınlaşdıran, dar ağacına aparan, çarmıxa çəkən də nadan olub. Nadan ağıllını, cahil müdriki, inkvizasiya intellekti mühakimə edəndə fərdlər yox, bütövlükdə xalq şəhidə və qurbana çevrilir.

Böyük təfəkkür sahibləri üçün ip, kəndir həmişə və hər yerdə məişət əşyası, total mühit və sistemləri idarə edən tiranlar üçün isə silahdır. Hətta adi silah deyil, Mənsur Həllacın və Heydər Hüseynovun boğazına keçirilən "demokratiya" silahıdır.

Milli mənəvi dəyərlər, elmi-məntiqi və humanitar düşüncə repressiyalara hədəf seçiləndə əxlaqi dəyər və təsəvvürlər də deqradasiyaya, erroziyaya məruz qalır. Məhz belə olanda hakimin Femida, həkimin isə Hipokrat qarşısındakı sədaqət andı özünün kutsallığını itirir. Nəticədə zərərdidə milli yaddaş və milli ziyalı olur.

Birinci Türkoloji Qurultayda yalnız mütəfəkkirlər deyil, milli, mənəvi-əxlaqi dəyərlər də, türkçülük və islamçılıq baxışlarımız da, kökümüz, şəcərəmiz, yaddaşımız da, cüng və əlyazmalarımız da "37-nin" repressiyayalarına məruz qaldı. Oradan sağ çıxanlar olduğu kimi, zədə alan və məhv olanlar da oldu.

Nə etməli? Tarixdən, kökdən, şəcərədən imtina, yoxsa tarixə, kökə və şəcərəyə sədaqət göstərərək onu tədqiq və təqdir etmək. Birincidə

manqurtluq, tale ilə barışmaq, ikincidə mübarizə və mücadilə, ağrı və arxiv, toz basmış və üzərinə "məxfi" və "tam məxfi" yarlıqları vurulmuş qovluqlar və bu qovluqlarda dəfn olunmuş düşüncə tərzimiz, qaranlıqdakı işıqlar, şahidlər və şəhidlər. Bütün çətinliklərinə baxmayaraq mən ikincini - şahidi və şəhidi, qaranlıqdakı işıqları, yəni ZİRVƏNİ seçirəm.

Əlbəttə, həmin mütəfəkkir düşüncə sahibi olan türkoloqları yalnız qurultaydakı iştiraklarına və ya çıxışlarına görə qətlə yetirmişlər demək sadəlövhlük olardı. **Əsas o idi ki, həmin ziyalıların böyük əksəriyyəti ideologiya adamı deyil, ideya adamı idi. Yəni onlar sovet hökumətinin, böyük imperiyanın ideologiyasını həyata keçirən qul deyildi, müstəqil düşüncə tərzinə malik olan təfəkkür adamları, mütəfəkkirlər idi. Buradan belə çıxmasın ki, bu ziyalılar imperiyaya qarşı üsyan edir, onu lənətləyirdi.** Şübhəsiz ki, bələləri də vardı, lakin bələləri olduqca az idi. Onların böyük əksəriyyəti öz ideyalarını araşdırmalarında və çıxışlarında bəzən açıq, bəzən isə qapalı şəkildə deyə bilirdilər. Onların və digər repressiya qurbanlarının qətlə yetirilməsinin əsas səbəblərindən birini də burada – onların deyə bilmək bacarığında, milliliyində və ideya adamı olmalarında axtarmaq lazımdı.

Folklor İnstitunun təşkilatçılığı ilə 10 iyun 2016-cı ildə keçirilən **"Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər"** adlı elmi sessiyada çıxış edən akademik İsa Həbibbəyli deyirdi: "Birinci Türkoloji Qurultayın əsas məsələlərindən biri latın əlifbasına keçmək məsələsi olmuşdur. Əslində Birinci Türkoloji Qurultayın əlifba islahatlarının aparılması ilə bağlı çağırılması düşünülmüşdü. Sonra bura terminologiya, orfoqrafiya, dilçiliyin digər məsələləri, eyni zamanda ədəbiyyat, folklor, tarix, etnoqrafiya kimi məsələlər də əlavə olunmuşdu. Beləliklə, Birinci Türkoloji Qurultayda türkologiyaya geniş miqyasda, elmlərin kompleksində baxılmışdır. Yeri gəlmişkən qeyd edim ki, türkologiya dedikdə çox vaxt yalnız dilçilik məsələləri başa düşülür. Belə təsəvvür olunur ki, türkologiya ancaq dilçilik məsələlərini əhatə edir. Əlbəttə, dil faktoru burada əsasdır, birincidir, təməldir. Amma ədəbiyyat, folklor, etnoqrafiya, incəsənət və tarix də türkologiya məsələsidir və hesab edirəm ki, bugünkü müstəqillik şəraitində məhz türkologiyaya bu baxımdan yanaşmaq zəruridir. Müasir baxımdan yanaşdıqda azərbaycanşünaslıq özü də türkologiyanın aparıcı bir qolu, ana xəttidir. Azərbaycanı öyrənən elmin bütün istiqamətləri - tarix, etnoqrafiya, dilçilik, folklor, ədəbiyyat və başqa sahələr bir yerdə, həm də türkoloji elmlər sistemi deməkdir. Birinci Türkoloji Qurultaydan çıxan digər

ibrətamiz nəticə ondan ibarətdir ki, bu qurultay türk xalqları arasında elmi-mədəni inteqrasiyanın zəruriliyini meydana qoyub. Bu gün müstəqillik şəraitində türk xalqları ilə, dünya türkoloji mühiti ilə Azərbaycanın dövlət səviyyəsində də, akademiya və universitetlər səviyyəsində də sıx əlaqələri vardır. Amma hesab edirəm ki, bu əlaqələr daha ardıcıl və sistemli olmalıdır. Bu istiqamətdə çalışmağa, Birinci Türkoloji Qurultaydan irəli gələn vəzifələri yerinə yetirməyə çox böyük ehtiyac vardır. Hələki, türk xalqları içərisində latın qrafikasına Türkiyə, Azərbaycan, Özbəkistan və Türkmənistan keçməyə nail olmuşdur. Belə bir şəraitdə Birinci Türkoloji Qurultayın 90 illiyini keçirməyimizin bir məqsədi həm də latın qrafikasına keçidin əhəmiyyətini, zəruriliyini, elmi əsaslarını təbliğ etməkdən ibarət olmalıdır. Eyni zamanda, Birinci Türkoloji Qurultayda məruzələrlə çıxış etmiş, sonra isə repressiyaya məruz qalmış, ömrü sürgündə, həbsxanada keçmiş görkəmli şəxsiyyətlərin hər biri haqqında tədqiqatlar aparmalı, onların xatirəsini ölkəmizdə əbədiləşdirməyə çalışmalıyıq"[1].

Biz də çalışdıq ki, **"Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər"** kitabında repressiyaya məruz qalan qurultay iştirakçılarını müəyyənləşdirək, onların cəzalandırılmasının, daha doğrusu, güllələnmələrinin və sürgün olunmalarının səbəblərini aydınlaşdıraq. Biz repressiyaya məruz qalan qurultay iştirakçılarını müəyyənləşdirmək istərkən gördük ki, məsələni düzgün qoymamışıq. Əslində məsələ belə qoyulmalı idi "repressiyaya məruz qalmayan" qurultay iştirakçıları. Tədqiqat nəticəsində müəyyənləşdirdik ki, qurultayda iştirak edənlərin hamısı repressiyaya məruz qalıb, yalnız o adamlar məruz qalmayıb ki, onlar ya xaricdən – Türkiyədən, Almaniyadan və s. qonaq qismində qurultaya qatılıb, ya da "37-yə" kimi dünyasını dəyişib. Nə qədər təəccüblü də olsa deməliyik ki, "37-ni görən" türkoloqlar, tez rəhmətə gedən və bu dəhşətləri görməyən türkoloqlara qibtə edə bilər. Həm də ən azı ona görə ki, "37-ni görməyən"lərin məlum məzarları və başdaşları var. Bir həqiqət də unudulmamalıdır ki, əgər kimsə repressiyaya məruz qalmayıbsa bu o demək deyildir ki, həmin şəxs bolşeviklərin mərhəməti nəticəsində həbs edilməyib. Əslində onlar (əgər eləsi varsa) ikiqat repressiyaya məruz qalıb. Belə ki, həmin şəxslərin keçirdiyi stres və həyacanlar, "indi gəlib apararlar" düşüncəsi həmin şəxsləri ölənə kimi narahat edib. Necə deyərlər, onlar gündə min kərə ölüb dirilib. Bütün bunlar əsas verir

[1] Həbibbəyli İ. Birinci Türkoloji Qurultayin ideallari işiğinda, "Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər", Elmi Sessiyanin materialları, Baki, 2016, s.7-8.

deyək ki, repressiyaya təkcə ziyalılar deyil, imza yerinə barmaq basandan mütəfəkkir şəxsiyyətə qədər – hamı məruz qalıb. Ən dözülməzi odur ki, 37-dən sağ çıxanları bu gün biz özümüz mühakimə edirik. Təəssüf!

Biz çalışdıq ki, sovetlər dönəmində üzərinə "məxfi" və ya "tam məxfi" (qrifi) yarlığı vurularaq yasaqlanan, bu azmış kimi "vətən xaini" və "xalq düşməni" elan edilən türkoloqların millətlə görüşünü təmin edək. Oxucu ilə görüşə gələn alim və ziyalılar bir qayda olaraq yazıçılar birliyindən, jurnalistlər və ya bəstəkarlar ittifaqından gəlir. Mənim qəhrəmanlarım isə oxucu ilə görüşə məhbəsdən, sürgündən gəlir. Həm də özləri kimi, göründükləri kimi deyil, olduqları kimi, gücü və gücsüzlükləri ilə birgə gəlirlər.

"37-nin" repressiya qurbanları arxiv rəflərindən çıxaraq elmi dövriyyəyə daxil ediləndə, şəhidlərin ittiham olunmalarının səbəbləri, geniş oxucu kütlələrinə obyektiv şəkildə çatdırılanda, istintaq materiallarının üzərindəki "məxfi" və ya "tam məxfi" yarlıqları "qoparılanda" ədalət bərpa olur. Zamanın çarxı tərsinə fırlanır. Bu zaman müstəntiqlər müttəhimləri deyil, müttəhimlər müstəntiqləri ittiham edir. Mütəfəkkirin reablitasiyası da, bu zaman – Markaryanlar və Qriqoryanlar, Muradyanlar və Seyranyanlar, Avetikyanlar və Təhməzyanlar mühakimə olunanda baş tutur.

Akademik lüğətlərdə "bir hadisəni, əhvalatı, işi öz gözü ilə görmüş və ya görən adam"lar, eləcə də "məlum olan bir iş haqqında şəhadət vermək üçün məhkəməyə çağrılan şəxs"lər **ŞAHİD** adlandırılır. Mənim hadisələri gözləri ilə görən və ya bir iş haqqında şəhadət vermək üçün məhkəməyə çağırılası şahidim və ya şahidlərim yoxdu. Onların hamısı (həqiqəti deyən də, deməyən də) dünyasını dəyişib. Mənim hakimə çevrilib yenidən məhkəmə qurmaq, kimləri isə mühakimə etmək kimi bir niyyətim də yoxdu. Və mən bu gün kimisə şahid qismində aramaq və axtarmaq fikrində də deyiləm. **Həmin illərin istintaq qovluqları, şahid ifadələri, dindirmə protokolları, güllələnmə hökmləri və s. sənəd və materiallar mənim ən etibarlı və ən obyektiv şahidlərimdi.** Yalnız bu sənədlərin şahidliyi ilə onların nə dərəcədə obyektiv və subyektiv olmasından asılı olmayaraq biz həqiqəti üzə çıxara və gələcək nəsillərə çatdıra bilərik. Hesab edirik ki, qələm sahiblərinin bundan müqəddəs vəzifəsi olmamalıdır.

Yuxarıda qeyd etdiyimiz akademik lüğətlərdə **ŞƏHİDLƏR** aşağıdakı kimi şərh edilir; yüksək amal, məslək, əqidə yolunda ölən, həlak olan, canını fəda edən vətənpərvər adam və ya şəxsiyyət.

Biz bu kitabda çalışdıq ki, türkoloqların imperiyanın antitürk siyasəti qarşısında göstərdikləri fədakarlıqları onların vəkili kimi deyil, obyektiv tədqiqatçısı kimi oxucu kütlələrinin diqqətinə çatdıraq. Hesab edirik ki, hər hansı bir şəxsiyyəti tədqiq edərkən onun tədqiqatçısı deyil, vəkili olan obyektivliyini itirir. Biz də bu obyektivliyi qorumaq üçün türkoloq alimlərimizi gücü və gücsüzlüyü ilə birgə tədqiq və təqdim etməyə çalışdıq.

Sirr deyildir ki, tarix boyu iki ad – İblis və Mələk, iki ünvan – Göy (Kosmos, ucalıq Mələyin Vətəni) və yeraltı dünya (Xaos, İblisin qovulduğu məkan), iki xislət - xeyir və şər həmişə və hər yerdə əks qütblər kimi çıxış edib. Tarixin müəyyən zaman kəsiyində İblis insanları aldadaraq özünü kutsal Mələk, Mələyi isə şər qüvvə kimi təqdim edə bilib. Lakin hər kəsi öz yerində və həm də olduğu kimi göstərmək gücünə malik olan zaman kimin İblis, kimin Mələk olduğunu da göstərə bilir. Bax bu zaman, İblis – imperiya dərk ediləndə rədd edilir, Mələk – mütəfəkkir dərk olunanda isə qəbul olunur. Səhv düşən yerlər bərpa olunanda, hərə öz yerində olanda xaosu, anarxiyanı harmoniya və nizam-intizam əvəz edir.

Əziz oxucu, mən çalışdım ki, bu kitabla sizinlə şəhidlərin və şahidlərin mütəqabil dialoqunu, ünsiyyətini yaradım. Artıq mən bu dialoqda passiv iştirakçı və ya sadəcə təqdimatçıyam. Elə əsas məsələ də necə təqdim etməkdədi. Sizin mütəqabil dialoqunuz baş tutdumu? Bilmirəm.

Bu qərarı siz verəcəksiniz.

Tanrı Sizi qorusun!

I FƏSİL

QURULTAYIN İDEYA-SİYASİ VƏ FƏLSƏFİ MAHİYYƏTİ

Birinci Beynəlxalq Türkoloji Qurultay türkdilli xalqların ictimai-siyasi həyatında olduğu kimi, onların tarixində və taleyində, eləcə də dilində və mədəniyyətində də mühüm rol oynadı.

Cəlal Qasımov

QURULTAYIN TÜRK XALQLARININ TARİXİNDƏKİ VƏ TALEYİNDƏKİ ROLU

Müasir tarixşünaslığa və filoloji fikrimizə "Birinci Türkoloji Qurultay", "Birinci Bakı Türkoloji Qurultayı", "Birinci Beynəlxalq Türkoloji Qurultay" adları ilə daxil olan türkşünas alimlərin toplantısı "Birinci Ümumittifaq Türkoloji Qurultay" adı ilə 1926-cı ilin 26 fevralından martın 6-na kimi Bakıda keçirildi. Stenoqrafik hesabatın üzərində ümumittifaq sözü yazılsa da, qurultaya dəvət olunanların təmsil olunduqları dövlətlərin siyahısına, eləcə də türkoloq alimlərin milliyyət müxtəlifliyinə diqqət yetirsək görərik ki, bu qurultay SSRİ-nin sərhədlərini aşaraq beynəlxalq miqyaslı bir qurultaya çevrilmişdir. Ona görə də hesab edirik ki, bu qurultayı "Birinci Beynəlxalq Türkoloji Qurultay" adlandırmaq daha doğru olardı.

Türk xalqların tarixində və taleyində ən böyük elmi, ədəbi-mədəni hadisələrdən biri olan Birinci Türkoloji Qurultay XIX əsrdən başlayaraq ziyalıların həyata keçirmək istədikləri maarifçilik hərəkatının zirvə məqamıdır. Türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin əsasını qoyan Türkoloji Qurultay ümumtürk maarifçi ziyalılarının arzu və istəklərinin ifadəsi idi.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 2001-ci il iyun ayının 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanda Birinci Türkoloji Qurultayın fəaliyyətini, eləcə də qurultayın türk xalqlarının tarixində və taleyindəki rolunu yüksək qiymətləndirərək göstərirdi: "Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məqsədilə 1921-ci ildə əlifba komitəsi yaradıldı və həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tətbiq etmək tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi. 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi".

Təəccüblüdür ki, qurultayda türkdili xalqların nümayəndələrinin ana dilində etdikləri çıxışların bir çoxu tərcümə edilərək stenoqrafik materiallara daxil edilməmiş, "filankəs türk dilində məruzə ilə çıxış etdi" qeydi ilə kifayətlənmişlər. Bu onu göstərir ki, qurultayda səslənmiş fikirlərin özü də müəyyən qədər təhrif edilmiş, daha doğrusu marksist düşüncənin materialına çevrilmişdir. Lakin buna baxmayaraq, Birinci Türkoloji Qurultay bütün türk xalqlarının həyatında tarixi bir rol oynadı. Bu qurultayın tarixi əhəmiyyətini, ümumiyyətlə türk xalqlarının, xüsusilə Azərbaycan xalqının ictimai-mədəni həyatındakı müstəsna rolunu nəzərə

alan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu böyük hadisənin 80 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzaladı. Həmin Sərəncamda möhtərəm prezidentin aşağıdakı sözləri bu cəhətdən daha çox diqqəti cəlb edir: "Qurultay türkdilli xalqların tarix və etnoqrafiyasının, dil və ədəbiyyatının aktual problemlərinin həllində mühüm rol oynamış, bu xalqların inkişafında yeni bir mərhələnin təməlini qoymuşdur. Qurultayda müzakirə obyekti olan problemlər arasında türk dillərinin əlifba, orfoqrafiya və terminologiyası məsələləri xüsusi yer tutmuş, bu sırada isə yeni əlifbaya keçidi təmin etmək başlıca məqsəd olmuşdur".

İstər ümummilli liderin dövlət dilinin tətbiqi ilə bağlı məlum Fərmanı, istərsə də cənab prezidentin Türkoloji Qurultayın 80 və 90 illik yubileyi ilə bağlı imzaladığı Sərəncamlar hər şeydən əvvəl dövlət rəsmilərinin tarixi yaşantılarımıza, ədəbi-mədəni irsimizə verdiyi qiymətin ifadəsi kimi dəyərləndirilməlidir. O da unudulmamalıdır ki, dövlət rəsmilərinin türkoloji qurultaya olan bu münasibətindən sonra qurultay materiallarının, eləcə də onun təşkilatçılarının bu yöndəki fəaliyyətlərinin öyrənilməsi və tədqiqi istiqamətində xeyli işlər görüldü. Məhz bu Fərman və Sərəncamlardan sonra uzun müddət tədqiqatlardan kənarda qalan qurultay materialları arxiv künclərindən işığa çıxaraq elmi tədqiqatların predmetinə çevrildi. Daha doğrusu, sovetlər dönəmində xalqdan gizlədilən bu tarixi əhəmiyyətli faktlar, müstəqillik illərində dövlət rəsmilərinin və qədirşünas tədqiqatçılarımızın, eləcə də milli ziyalılarımızın zəhməti və səyləri nəticəsində bu əvəzsiz sərvət maarifçilik hərəkatımızın olduqca əhəmiyyətli bir səhifəsi kimi ədəbi-elmi və ictimai mühitə çatdırıldı. Məlum oldu ki, Azərbaycanın ictimai-siyasi fikir tarixində müstəsna əhəmiyyətə malik olan bu qurultayda XIX əsrin sonlarından başlayan tarix və filoloji, fəlsəfi və humanitar düşüncəmizin bir çox həll olunmamış problemləri öz həllini tapıb.

O illərdə nəinki maddi-mənəvi mədəniyyət abidələrini, heç xalqların özünü qorumaq gücü də qalmamışdı. Görkəmli qumuq tədqiqatçısı Murad Adjı «Qıpçaq çölünün yovşanı» adlı əsərində yazır: «İlk siyahıyaalmaya görə, 1917-ci ildə Rusiyada 196 xalq yaşayırdı, sovet hakimiyyətindən sonra yüzə qədəri qalıb. Qalanlarını komissarlar sadəcə olaraq siyahıdan siliblər, rusların və ya başqa xalqların üstünə yazıblar; o zamanlar hakimiyyətin göstərişi ilə insanın milliyyətinə onun əmlakına baxılan kimi baxıblar».

Maraqlıdır ki, Murad Adjının dediyi bu fikirlər qurultay nümayəndələrinin dilindən də eşidilirdi. Məsələn, 27 fevral 1926-cı ildə

ikinci iclasda çıxış edən Şabaşkin deyirdi: "Bu qurultayda iştirak edən yoldaşların çoxu öz millətini tanımır. Bunların arasında oyratların nümayəndəsi olan mən də varam. Keçmişdə bizi müxtəlif millətlərə aid edirdilər: kalmık, "özgə xalqdan olan" ("inoredes"), altay, teleuq adlandırırdılar. Milliyyətimizin bu qədər müxtəlif şəkildə müəyyənləşdirilməsi nəticəsində biz öz milliyyətimizi itirdik. Yalnız bu yaxınlarda ali təhsil müəssisəsində təhsil alan və türkologiyanın bəzi elmi qüvvələrilə təmasda olarkən öyrəndim ki, mən türkəm. Bizi möhtərəm alimlər - Radlov, Verbitski, Xaruzin və b. belə adlandırırdılar, burada məruzə edən prof. Kubenko da bizim milliyyətimizi eyni şəkildə müəyyənləşdirir - "türkləşdirilmiş monqollar". Mən bu tərifə etiraz edirəm, çünki bu qurultayda təmsil edilmiş millətin nümayəndəsi olmaq istəyirəm. Bizim həqiqətən türk tayfalarına mənsub xalq olduğumuza tarix özü və rus militarizimi qarşısında geri çəkilərkən etdiyimiz hərəkət dəlalət edir. Tayfamız İrtış ətrafında idi və rus militarizimi tərəfindən sıxışdırılarkən biz Sibirin cənubuna köçməli və Yakutiyanı taleyin ixtiyarına buraxmalı olduq" [2].

Başqa bir sarsıdıcı nümunəyə diqqət yetirək. Bu adi çıxış deyil, dili, dini və milli kimliyi əlindən alınmış İsidor Nikifiroviç Baraxovun fəryadı və ya qurultaydakı üsyanı idi: "Biz yakutların latın qrafikasından istifadə etməkdə zəngin təcrübəsi vardır. Təəssüf ki, biz qurultaya xüsusi məruzə təqdim etməmişik. Amma biz indi qurultaya öz tezislərimizi təqdim edir və inanırıq ki, onlar qurultayın "Bülleten"ində çap ediləcək. Hər şeydən əvvəl, qeyd etmək istərdim ki, biz yakutlar üçün latın əlifbasına keçmək zərurəti olmamışdır. Bu onunla əlaqədardır ki, bizdə əvvəllər ərəb əlifbası qəbul edilməmişdir. Biz tarixin iradəsi ilə uzaq şimala atılmışıq, bununla da türk xalqlarının əsas hissəsindən təcrid olunmuşuq. Bir çox halda dil ümumiliyini də itirmişik. Ərəb əlifbasının əsası olduğu islam dini də bizdə qəbul edilməmişdir. Yakut xalqına XVII əsrdə, rus dinini zorla qəbul etdiriblər. "Biz türk xalqları ilə rastlaşanda əsasən bizim adımıza görə - "İvan", "Sergey", "Vasili" adlandığımıza görə bizi rus kimi qəbul edirlər. Amma elə ki, bizim üzümüzə baxırlar, onda

[2] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 90.

inanmıram bir adamda şübhə ola ki, biz türkə oxşamırıq. Dillərimizin uzaqlaşmasına və fərqli cəhətlərinin olmasına baxmayaraq, bizim Azərbaycan dilini başa düşə bilməməyimizə baxmayaraq, bizim dilimizin kökü birdir. Buna görə də biz bu qurultaya fövqəladə bir məhəbbətlə yanaşırıq" [3].

Çuvaş xalqının kimliyi barədə çoxlarının bilgiyə malik olmadığını diqqətə çatdıran çuvaşların nümayəndəsi Petrov Mixail Petroviç deyirdi: "Bəziləri çuvaşları türkləşmiş finlər sayır, digərləri deyirlər ki, bu, hansısa başqa bir xalqdır. Lakin keçən ilin yayında bizdə çuvaşların tədqiqinə müəyyən qədər vaxt sərf edən prof. Marrın, həmçinin başqa alimlərin (Nikolay Nikolayeviç Poppe) tədqiqatları bu xalqın çox qədim olması barədə ciddi material təqdim edir. Çuvaşların dili, məişəti və həyatının digər hadisələrində elə qədimlik elementləri var ki, türk dillərinin müxtəlif hadisələrini yalnız onlara əsaslanaraq izah etmək mümkündür" [4].

Eyni ağrılı məqamı Ulbaşovun söylədiyi aşağıdakı sözlərdə də görürük: "Yoldaşlar, mən söz istəmişdim və məncə, rus dilində danışmalı olacağam, çünki, balkar dilində məni başa düşməyəcəksiniz". Yəqin Ulbaşov bu dilin türk dilindən uzaq salındığına işarə edirdi.

Belə nümunələrin sayını kifayət qədər artırmaq da olar, lakin yuxarıdakı nümunələr də əsas verir deyək ki, bəli, çar (elə həm də sovet) Rusiyası türk dilli xalqların sayını azaltmaq, onları başqalaşdırmaq, yadlaşdırmaq, gendən, şəcərədən uzaq salmaq məqsədilə tarix səhnəsindən silməyə çalışdılar. Daha doğrusu, **millətləri milli kimliklərini itirmək məcburiyyəti ilə üz-üzə qoydular. Millətin və ya tayfanın adı ironiya ilə yad edilir və ya onlara milli kimlikləri düşünülmüş surətdə unutdurulurdu.** Görünür ona görədir ki, XIX və XX əsrin əvvəllərindəki türk ziyalılarının ən böyük sualı "Biz kimik?" sualı idi. Bizə elə gəlir ki, bu suala ən aydın və ən mükəmməl cavabı Birinci Türkoloji Qurultay verdi. Bu mənada 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay təkcə elmi mübadilənin hətta müzakirə və mübahisələrin başlanğıcı deyildi. Bu qurultaya yalnız ictimai-siyasi xadimlərin, müəllimlərin, türkoloqların, ümumiyyətlə

[3] Yenə orada, s. 262.

[4] Yenə orada, s. 97.

dünyanın ən tanınmış şərqşünaslarının bir yerə cəm olduğu elmi toplantı və ya elmi form da deyildi. Bu qurultay həm də (və hər şeydən öncə) türk xalqlarının bir millət kimi özünədönüşü, özünüifadəsi, özünütəsdiqi, bir sözlə, milli kimliyini tanıması idi. Şabaşkin kimi bir ziyalının "Yalnız bu yaxınlarda ali təhsil müəssisəsində təhsil alan və türkologiyanın bəzi elmi qüvvələrilə təmasda olarkən öyrəndim ki, mən türkəm" – deməsi olduqca acınacaqlıdır. Minlərlə təhsil görməmiş türkə onların milli kimlikləri unutdurulmuşdu. Maraqlıdır ki, onlar hansı millətə məxsus olmaları barədə düşünməmişlər belə. Manqurtlaşmaya bundan tutarlı fakt tapmaq olarmı?

Həqiqətən də, böyük əhəmiyyətə malik olan Birinci Türkoloji Qurultay türklərin milli kimliyini qurultay səviyyəsində təsdiq etdi və o, türkdilli xalqların tarixində mühüm elmi, ədəbi-mədəni hadisəyə çevrildi.

Birinci Türkoloji Qurultay türkdilli xalqların, ortaq dilə, ortaq mədəniyyətə malik olduğunu, genetik qohumluğunu elmi-nəzəri əsaslarla və konseptual şəkildə, qurultay səviyyəsində üzə çıxardı.

Birinci Türkoloji Qurultay türkologiyanin fundamental elm sahəsi olduğunu təsdiqlədi və ciddi bir elm sahəsi kimi türkşünaslığın yeni mərhələsinin əsasını qoydu. Eyni zamanda türkologiyaya dair sanballı monoqrafik və elmi-nəzəri tədqiqat əsərlərinin meydana gəlməsi üçün zəmin yaratdı. Nəticədə, Azərbaycan dünya miqyasında türkoloji araşdırmaların nüfuzlu elmi mərkəzlərindən birinə çevrildi. Beləliklə də, bu qurultayda türkdilli xalqların etnoqrafiyası, folkloru, ortaq mədəniyyət abidələri dünya türkoloqlarının və şərqşünas alimlərin elmi tədqiqatlarının predmetinə çevrildi. Bir sözlə, daxildə və xaricdə türkologiyaya maraq günü-gündən artmağa başladı.

İlk dəfə olaraq bu qurultayda latın əlifbasına keçid, türk dillərindən ibarət ortaq terminologiya yaratmaq, ortaq mədəniyyət abidələrini tədqiq etmək və s. məsələlərlə bağlı qətnamələr qəbul edildi.

Birinci Türkoloji Qurultayda iştirak edən türkşünas və şərqşünas alimlər əski (ərəb) əlifbadan latın qrafikalı yeni əlifbaya keçidin elmi-metodiki prinsiplərini işləyib hazırladı və onun qətnaməsini qəbul etdi.

Qurultay dünyada özünəməxsus yeri və mövqeyi olan türk xalqlarının dilinin, tarixinin, etnoqrafiyasının, mədəniyyətinin qədimliyini və zənginliyini, mənəvi birliyinin vacibliyini üzə çıxardı. Türk xalqlarının avropalıların dediyi kimi "köçəri", "barbar" deyil,

intellektual zəka və təfəkkür, eləcə də yüksək mədəniyyət sahibi olduqlarını faktlı və predmetli şəkildə sübuta yetirdi. Birinci Türkoloji Qurultay türk xalqlarının oyanışında və mədəni inkişafında yeni mərhələnin başlanğıcı oldu.

Birinci Türkoloji Qurultay türklərin zəngin tarixi və qədim mədəniyyət nümunələri ilə dünyanın ən sivil xalqlarıyla yan-yana durmaq səlahiyyətinə malik olduğunu bir daha sübut etdi. Akademik İsa Həbibbəylinin təbirincə desək, "Birinci Türkoloji Qurultay türk xalqları kimi, türkologiyanın da böyük coğrafiyasını bütün genişliyi və zənginliyi ilə əks etdirmişdi. Elmi fikrin və coğrafi mühitin genişliyi bu forumu böyük elm hadisəsinə çevirmişdi. Bu, türkologiyanın elmi coğrafiyası, türk xalqları coğrafiyasının isə türkologiyasıdır. Bu, Böyük Çöl və Bozqır landşaftı və mədəniyyətinin bütövlüyünün elmi-nəzəri əsaslarının bəyannaməsidir. Bu məclisin elmi-nəzəri irsi türk dünyasının dünya türkologiyasına möhtəşəm töhfəsidir. Bu toplantı dünya türkoloji mühitində Azərbaycanın yerini və mövqeyini göstərən şərəfli tarixdir"[5].

[5] İsa Həbibbəyli. Türkologiya elminin böyük təməli və müasir dövr (Birinci Türkoloji Qurultay – 90), "Xalq qəzeti", 23 noyabr, 2016. № 259.

II FƏSİL

QURULTAYIN KEÇİRİLMƏSİ VƏ GÜNDƏLİKDƏ DURAN MƏSƏLƏLƏR

Birinci Beynəlxalq Türkoloji Qurultayın gündəliyində duran məsələr türk xalqlarının milli kimliyini faktlı və predmetli şəkildə təsdiqləyən elmi sənamədir. Qurultayda hər hansı bir türk xalqının etnik-mədəni sistem kontekstində tədqiqi, sözün geniş mənasında türkologiyanın fundamental türkoloji sisteminin yaradılmasına xidmət edir.

Cəlal Qasımov

Birinci Türkoloji Qurultayın 131 nəfər nümayəndə heyətinin və onlarla ziyalının iştirakı ilə keçirilən 17 iclasında 37 məruzə dinlənilmiş və türkdilli xalqların əlifba, terminologiya, etnoqrafiya, ölkəşünaslıq, tarix, mədəniyyət, ana dilinin tədrisi metodikası – imla və orfoqrafiya ilə bağlı problemlər müzakirə edilmişdir. Bu da inkar edilməzdir ki, qurultayda qaldırılan və müzakirə edilən hər bir məsələ Şərq xalqlarının, xüsusilə də azərbaycanlıların ədəbi-mədəni həyatında həm qurultay dövründə, həm də qurultaydan sonrakı illərdə mühüm rol oynadı.

Məlumdur ki, Birinci Türkoloji Qurultayda bir çox məsələlər müzakirəyə çıxarılaraq özünün elmi həllini tapmasına baxmayaraq onun ana xəttini yeni əlifbanın (latın əlifbasının) qəbulu məsələsi təşkil edirdi. Başqa sözlə desək, qurultaya aparan yol əlifbadan başlayan yol idi ki, o, əlifba ilə yanaşı, bir çox problemləri də həll etmək məcburiyyətində qaldı.

Qurultayın gördüyü böyük işləri şübhə altına alıb onu, yalnız əlifbanın qəbulu və ya yeni əlifbaya keçidlə məhdudlaşdırmaq da ədalətsizlik olardı. Əlifba məsələsi əsas məsələ olsa da işin hamısı deyildi. Qurultayda bununla yanaşı, imla və orfoqrafiya problemi; terminologiya və tədris-metodika məsələləri; qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferansiya problemləri; türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi; türk dillərinin tarixi problemləri özünün ciddi elmi-nəzəri və praktik həllini tapdı. Qurultay eyni zamanda bu istiqamətdə müəyyən işlərin başlanması ilə yadda qaldı.

Bütövlükdə 10 gün Bakı şəhərində keçirilən Birinci Türkoloji Qurultayın keçdiyi yolu üç böyük mərhələyə bölmək olar.

1) Qurultaya qədərki mərhələ;
2) Qurultay ərəfəsi və qurultay dövrü;
3) Qurultaydan sonrakı mərhələ.

BİRİNCİ MƏRHƏLƏ.
QURULTAYA QƏDƏRKİ DÖVR

Cəsarətlə demək olar ki, M.Füzulidən başlayan qurultaya qədərki mərhələdə əsasən əlifba məsələsi müzakirə predmeti olmuşdur. Elə bu səbəbdən də, birinci mərhələni şərti olaraq **əlifba uğrunda mücadilə mərhələsi də** adlandırmaq olar. Ona görə mücadilə deyirik ki, o illərdə əski əlifba tərəfdarları ilə yeni əlifba tərəfdarları arasında sözün həqiqi mənasında mücadilə gedirdi. Bu mücadilənin iştirakçıları təkcə Azərbaycan aydınları deyil, bütövlükdə türkdilli xalqların maarifpərvər

ziyalıları və dünya şərqşünaslarının bilim adamları, eləcə də rus alimləri idi. Yeni əlifba tərəfdarlarının bəziləri sosializm inqilabının şüarlarından yararlanaraq məsələni siyasiləşdirməyə çalışır, hətta əski əlifba tərəfdarlarını yeniliklərə qarşı çıxmaqda ittiham edirdilər. Ona görə də, həmişə tərəzinin latınçılar gözü ağır gəlirdi.

Məlumdur ki, əlifba məsələsi M.Füzulidən M.F.Axundzadəyə qədər bir çox Azərbaycan ziyalılarını düşündürmüşdür. Böyük Füzuli ərəb əlifbasının çətinliklərindən gileylənərək:

Gah bir hərf süqutilə qılır nadiri nar
Gah bir nüqtə qüsurilə gözü kur eylər.

deyirdisə, M.F.Axundzadə öz sələfindən bir qədər irəli gedərək ərəb qrafikasını islah etməyin və ya latına keçməyin tərəfdarı kimi mübarizə aparırdı. Azərbaycan dilinin özünəməxsusluqlarını dərindən bilən M.F.Axundzadə göstərirdi ki, mən iki cür əlifba düşünmüşəm. Bunlardan biri latın əlifbasıdır ki, onu soldan sağa yazmaq gələcəkdir. İkincisi isə ərəb hürufatıdır ki, onlar üzərində müəyyən dəyişikliklər edilməlidir. Belə ki, bütün nöqtələrdən imtina edilməli, hərflərin bir şəkli saxlanılmalı, sait hərflər samit hərflərin sırasına daxil edilməlidir. Sonrakı hadisələr də göstərdi ki, Axundzadə düşüncələrini qətiləşdirərək belə qərara gəldi ki, birmənalı şəkildə latın əlifbasına keçmək lazımdır. O, 2 iyun 1871-ci ildə Mirzə Melkum xana yazdığı məktubunda deyirdi: "Nə qədər ki, mən sağam, əlifba fikrindən və onu həyata keçirmək arzusundan ayrıla bilməyəcəyəm. On ildən artıqdır ki, bu yolda ağır zəhmətlərə və böyük xərclərə qatlaşmışam. İşin başlanğıcında tələbələri həvəsləndirmək üçün dəftərimdə qeyd etdiyimə görə, hər birisinə bir əşrəfi ənam adı ilə verməklə 80 qızıl əşrəfi bağışlamışam ki, yeni əlifbanı öyrənsinlər. Bir qədər pul da xoşbəxt mirzələrə vermişəm ki, yeni əlifbanın bir çox surətlərini çıxartmışlar. İstanbula gedib-gəlmək üçün beş yüz manat xərcim çıxıb... Bundan sonra da bu yolda nə qədər zəhmət və məxaric lazım olarsa, səmimi qəlbdən qəbul edəcəyəm ki, öz həmvətənlərimi qaranlıqdan işığa çıxarım və bunun mənəvi ləzzətini dadım". Məktubdan aydın görünür ki, çəkdiyi maddi ziyana və mənəvi ağırlıqlara baxmayaraq Mirzə Fətəli millətin tərəqqisi naminə etdiyi qədirşünaslıq işindən sonadək vaz keçməyəcək.

M.F.Axundzadənin bu ideyaları XIX əsrdə həyata keçməsə də bir çox maarifpərvər ziyalılar tərəfindən dəstəkləndi və davam etdirildi. Belə ki, 1853-cü ildə Təbrizdə anadan olan Mirzə Riza Xan, 1879-cu ildə

Şərqdə ilk dəfə 49 hərfdən ibarət (latın qrafikası ilə) "Risaleyi- Rüşdiyə" adlı əlifba kitabçasını çap etdirdi. Mirzə Riza Xanın (1853-1935) bu kitabçası işıq üzü görsə də, geniş şəkildə tətbiqinə imkan verilmədi.

M.F.Axundzadənin əlifba islahatlarını ardıcıl və sistemli şəkildə, həm də elmi əsaslarla həyata keçirən dəyərli alimlərimizdən biri də Məhəmmədağa Şahtaxtlı idi. Məhəmmədağa Şahtaxtılının Tomson Mətbəəsində rus dilində nəşr etdirdiyi "Təkmilləşdirilmiş müsəlman əlifbası" (1879) kitabı Azərbaycan mütəfəkkiri Mirzə Fətəli Axundovdan (1812-1878) sonra ərəb əlifbasının sadələşdirilməsinə həsr olunmuş ikinci yeni əlifba layihəsi idi[6].

Akademik İsa Həbibbəyli yazır ki, Məhəmmədağa Şahtaxtlı 1902-ci ildə həyatında dördüncü dəfə Tiflisə qayıtmişdır. Bu dəfəki qayıdış artıq düşünülmüş, məqsədyönlü əməli fəaliyyətə istiqamətlənmişdi. Yeni mərhələdə Məhəmmədağa Şahtaxtlı əsasən iki sahə üzrə ciddi və sanballı xidmətlər göstərmişdir: Əlifba və mətbuat. Əlifba məsələsi ilə Məhəmmədağa Şahtaxtlı hələ Fransada ikən məşğul olmuşdu. Parisdə Beynəlxalq Fonetika Cəmiyyətinin iclaslarında iştirak edərkən o, Avropa alimlərinin öz ölkələrinin inkişafı naminə vahid latın əlifbasına keçmələri üçün etdikləri təşəbbüslərin şahidi olmuşdu. Buna uyğun olaraq M.Şahtaxtlı da mənsub olduğu xalqın dirçəlişini təmin etmək məqsədilə əlifbanın daha da sadələşdirilməsi və Azərbaycan dilinin tələffüz xüsusiyyətlərinə uyğunlaşdırılması işinin zəruriliyi qənaətinə gəlmişdi. Tiflisdə Tomson mətbəəsində 1879-cu ildə Azərbaycan və rus dillərində çap olunmuş "Təkmilləşdirilmiş müsəlman əlifbası" kitabı onun bu sahədəki ilk təşəbbüsünün nəticəsi kimi meydana çıxmışdı. Sonralar o, əlifba islahatı istiqamətində axtarışlarını davam etdirmiş, yeni elmi qənaətləri əsasında daha mükəmməl əlifba layihəsi hazırlayıb nəşr etdirmişdir. Belə ki, Məhəmmədağa Şahtaxtlı 1902-1903-cü illərdə əlifba islahatına dair Azərbaycan, rus və fransız dillərində beş kitab çap etdirmişdir. Azərbaycanda ilk dəfə olaraq Məhəmmədağa Şahtaxtlı ərəb əlifbasında xüsusi işarəsi olmayan sait səslərin hər birinə aid konkret işarə təklif etmişdir. Təklif edilən işarələr birdən doqquza qədər olan rəqəmlərin tərsinə yazılmış işarələrindən təşkil olunmuşdu. Məsələnin bu cəhəti əlifba islahatı sahəsində Məhəmmədağa Şahtaxtlının "yeni əlifba hərəkatının atası" kimi dəyərləndirdiyi Mirzə Fətəli Axundzadədən də irəli getdiyini göstərirdi. Bu layihəni "natamam və fonetik cəhətdən qüsurlu" hesab edənlərin əksinə olaraq, dövrünün görkəmli ziyalısı

[6] Şaxtaxtlı M. Seçilmiş əsərləri, Bakı, 2006, s.6.

Firudin bəy Köçərli "Xətti-Məhəmmədağanı" yüksək dəyərləndirmiş, layihəyə dair meydana çıxmış tənqidi münasibəti "yeni ideyaları, yeni tərəqqi meyillərini qavramaq üçün hazır olmayan bacarıqsız, yuxulu, süst cəmiyyətin" qüsurunun, geriliyinin ifadəsi saymışdır. Yeri gəlmişkən, onu da qeyd etməliyik ki, Firudin bəy Köçərli də avropalılardan geri qalmağımızın səbəblərindən birini də əski əlifbada görürdü: "Ərəbdən götürdüyümüz Sillabi xətdə o qədər qüsur və nöqsan vardır ki, təhrirə sığası və təqrirə gələsi deyil və müsəlmanların tərəqqi və təalı yolunda Avropa əhlindən dalda qalmağımızın 4 böyük səbəblərindən birisi də bu mayeyi səadət, məbdayi tərəqqimiz olan oxumaq və yazmaq alət və əsbabının qüsur ilə dolu olmasıdır"[7].

Bütövlükdə Məhəmmədağa Şahtaxtlının təklif və tərtib etdiyi əlifba layihəsi Azərbaycanda əlifba islahatı baxımından irəliyə doğru atılmış mühüm addım idi. Bu layihə və ona Azərbaycan, rus və fransız dillərində yazılmış elmi xarakterli izahatlar M.Şahtaxtlını geniş dairədə-Avropada və Rusiyada mükəmməl dünyagörüşlü bir dilçi kimi tanıtmağa xidmət etmişdir. Görkəmli ictimai xadimin 1903-cü ildə Rusiya İmperator Cografiya Cəmiyyəti Qafqaz şöbəsinin həqiqi üzvü seçilməsi onun şöhrətini artırmış, fəaliyyətinin əhatə dairəsini daha da genişləndirmişdir[8].

Maraqlıdır ki, 1907-ci ildə müəllimlərin ikinci qurultayında çıxış edən Məhəmmədağa Şahtaxtlı ərəb əlifbasının islahını müdafiə edənlər arasında idi. Diqqəti çəkən məqam ondan ibarətdir ki, bolşevikləşməyə qədərki illərdə M.Şaxtaxtlı bir qayda olaraq ərəb əlifbasının islahını təqdir etmiş və ərəb qrafikalı əlifba ilə bağlı layihələr hazırlamışdır. Lakin sovetləşmədən sonra tədricən fikirləri dəyişmiş və latın qrafikasının müdafiəçilərindən birinə çevrilmişdir.

XX əsrin əvvəllərində əlifba məsələsini maarifçi ziyalılar yenidən gündəmə gətirdi. Belə ki, Nəriman Nərimanovun (1870-1925), Həsən bəy Zərdabinin (1842-1907), Fərhad Ağazadənin (1880-1931) və digərlərinin iştirakı ilə müəllimlərin Bakı şəhərində keçirilən birinci (1906) və ikinci (1907) qurultayında əlifba, tədris proqramları, dərsliklər, yeni təlim metodları, məktəblərdə tədrisin vəziyyəti, Azərbaycan dili dərslərinin həftəlik saatlarının artırılması və başqa bu kimi məsələlər müzakirə edildi. 1907-ci il avqust ayının 25-də fəaliyyətə başlayan müəllimlərin ikinci qurultayında Fərhad Ağazadə, Abdulla Əfəndizadə

[7] F.Köçərli, Axundov həzrətlərinin təvəllüdündən 100 il mürur etməsi münasibəti ilə yazılmış risaleyi yadigarənədir. Tiflis, 1911, s. 17.
[8] Şaxtaxtlı M. Seçilmiş əsərləri, Bakı, 2006, s.11-13.

və Süleyman Sani Axundovun birgə hazırladıqları "Əlifba" kitabının layihəsi də müzakirə olunur və qərara alınır ki, bu əlifbanı tətbiq etməyə müvəqqəti icazə verilsin, müəyyən müddətdən sonra bunun məktəblilər tərəfindən necə qavranılması, uşaqların hansı zaman ərzində kitab və ya qəzet oxumaq səviyyəsinə çatması yoxlanılsın və sonra qəti qərar qəbul edilsin. Bu xüsusda Fərhad Ağazadə yazırdı: «Qurultayın sədarətində əyləşmiş şəxslərin məharəti buradadır ki, nə şişi yandırdılar, nə də kababı, əlifbamızın qüsurlarını inkar etmədilər. Bizə də izn verdilər ki, yeni əlifbamızı təcrübədən keçirək. Lakin maarif direktoru bizə izn verərdimi ki, hökumət məktəbində hələ misli görünməmiş, nəticəsi bəlli olmamış bir əlifbanı təlim edəydik, rəsmi məktəbdə təcrübələr yapaydıq? İştə, qüsurlar etiraf olundu. Bizim təklif etdiyimiz əlifba da əllərimizdə qalıb dünya işığını görmədi. Bundan istifadə edərək, yoldaşlarımızdan Mahmud bəy Mahmudbəyov cənabları, Çernyayevskinin üsuluna tabe olaraq müsəvvər türk əlifbasını yaratdı ki, indiyə qədər davam edən əlifbaların ən dəyərlisidir».

Fərhad Ağazadənin dediyi kimi, bu əlifba layihəsi də "əllərimizdə qalıb dünya işığını görmədi". Onu da qeyd etməliyik ki, mənbələrin verdiyi məlumata görə, həmin illərdə F.Ağazadənin tərtib etdiyi latın əlifbası da var idi. Lakin Mövcud şəraitdən çıxış edən F.Ağazadə ərəb əlifbasının müzakirəsinə daha çox üstünlük verirdi. İşin işıqlı tərəfi onda idi ki, istər latın, istərsə də ərəb əlifbası ilə bağlı müzakirələrin meydanı getdikcə genişlənirdi. Hətta bəzi tədqiqatçılar latın əlifbasının tərəfdarı olduğunu da gizlətmirdi. Heç təsadüfi deyildir ki, Fərhad Ağazadə 1919-cu ildə «Azərbaycan» qəzetində çap etdirdiyi «Əlifba tarixində türklərin vəziyyəti» və «Dilimizin türkləşməyinə çarələr» adlı məqalələrində millətin maariflənməsində və tərəqqisində ərəb əlifbasının deyil, latın əlifbasının daha mühüm rol oynayacağı qənaətində idi. F.Ağazadənin "Ərəb əlifbası türk dilinə niyə yaramır?", "Yeni türk əlifbalarının unifikasiyası üzrə materiallar", "Yeni türk əlifbasının tarixi", "Azərbaycanda yeni türk əlifbasının inkişafı və həyata keçirilməsi tarixi" kimi əsərləri dilçilik, xüsusilə də əlifba tariximizin öyrənilməsində mühüm rol oynayır.

***

Sirr deyildir ki, əlifba islahatı sahəsində ilk əməli addımlar 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra atılıb. Belə ki, 1919-cu ildə milli hökumət yeni Azərbaycan əlifbasının layihəsini hazırlamaq məqsədilə Xalq Maarifi Nazirliyi yanında Xüsusi Komissiya yaratdı. Bu komissiyada 3 (Abdulla Əfəndizadənin,

Məhəmmədağa Saxtaxtlının və Abdulla Tağızadə ilə Mirəziz Seyidovun birlikdə hazırladığı) layihəyə baxıldı. Xalq Maarifi Nazirliyi yanında yaradılmış xüsusi komissiya görkəmli maarifçi alim Rəşid bəy Əfəndiyevin qardaşı, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü (Məclisi-məbusanın deputatı) Abdulla bəy İsmayıl oğlu Əfəndizadənin hazırladığı layihəni bəyəndi. Hətta "əlifba islahatı, xüsusilə latın əlifbasına keçidin zəruriliyi ilə bağlı 1919-cu ildə Bakıda "Son türk əlifbası" adlı dərslik də nəşr edilmişdir. Dərslikdə o (Abdulla bəy Əfəndizadə nəzərdə tutulur – C.Q.) ilk dəfə olaraq ərəb və latın əlifbasını müqayisəli şəkildə vermiş, birincinin ana dilimizə uyğunsuzluğunu, ikincinin isə daha münasib olduğunu zəngin dil faktları ilə əsaslandırmışdı"[9]. Lakin 1920-ci ildə reallaşan aprel işğalı Abdulla Əfəndizadənin "Son türk əlifbası" layihəsinin ölkə miqyasında tətbiqinə imkan vermədi. Fərhad Ağazadənin dediyi kimi, "Abdulla bəyin əsəri olan "Son türk əlifbası" həm ərəb, həm də latın hərflərilə çap edilib ortalığa çıxmışdı isə də, aprel döndərişi səbəbilə məktəbə, məişətə tətbiq edilməyib, boş-boşuna əllərdə qalmışdı". Göründüyü kimi, əlifbanın dəyişdirilməsi və ya islahı uğrunda mübarizə sovetləşməyə qədərki mərhələdə də mütəmadi olaraq aparılmışdır.

***

Yuxarıda deyilənlər bir daha sübut edir ki, Azərbaycanda əlifbanın dəyişdirilməsi bolşevizmdən çox-çox əvvəl ortaya atılan həlli vacib məsələlərdən biri idi. Belə ki, bu məsələ M.Füzulidən M.F.Axundzadəyə, M.F.Axundzadədən M.Şaxtaxtılıya, M.Şaxtaxtılıdan S.Ağamalıoğluna qədər bir çox Azərbaycan ziyalılarını və siyasi xadimlərini düşündürmüş, onlar həm də bu sahədə mühüm işlər görmüşlər.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra bir çox həyati vacib məsələlər kimi dövlət dili məsələsi də gündəmdə durdu. Müstəqil dövlətin dilinin inkişafı naminə Azərbaycandilli məktəblərin yaradılması günün tələbatına çevrildi. Bunun vacibliyini dərk edən M.Ə.Rəsulzadə yazırdı: "Məktəblərin çoxunda ana dili varsa da, dərsin özü də müəllimlər qədər və heysiyyəti yox dərəcəsindədir. Ana dili dərsi o dərəcədə bir əhəmiyyətsizliyə düçar olmuşdur ki, hər mütəəllim bilatənbih dərsindən qaçdığı kimi bir çox müəllimlər də artıq bir qeydsizlik birüzə verirdilər və indi də çoxları qabakı sürətlə davam etməkdə və müəllimliklərini ləng etməkdədirlər. Nə maarif idarəsi tərəfindən bir himayə, nə müəllimlər tərəfindən bir həmiyyəti-kəmalə, nə

[9] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı 2004, s. 340.

cəmaət tərindən bir qeydkeşlik görən ana dilinin rəsmi varlığı həqiqi yoxluq dərəcəsinə gəlmişdir. Demək olar ki, hənuz indi də bu haldadır”[10].

1908-ci ildə yazdığı “İbtidai yerli məktəblər” adlı başqa bir məqaləsində Məmməd Əmin Rəsulzadə dilimizin inkişafının çıxış yollarını göstərir və qeyd edirdi ki, ibtidai məktəblərdə ana dilinə çar Rusiyası dövründən qalma 6-ca saatla kifayətlənmək olmaz. Ona görə də ibtidai siniflərdə ana dilinin tədris saatlarını artırmaq lazımdır. Dilin inkişafında orta məktəblərin rolunu yüksək qiymətləndirməkdə müəllif tamamilə haqlı idi. Təbii ki, məsələ bununla məhdudlaşmır. Azərbaycan dilini dövlət dilinə çevirmək üçün təklifdən əməli işə keçməyin vaxtı çatdığını yaxşı dərk edən cümhuriyyətçilər daha ciddi tədbirlər həyata keçirməyə başladılar. Bu tədbirlərdən ən başlıcası Nazirlər Şurasının 27 iyun 1918-ci ildə qəbul etdiyi qərar oldu. Qərarda dövlət dili Azərbaycan dili kimi qəbul edilsə də mövcud vəziyyəti nəzərə alaraq göstərilirdi: “Bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin”[11].

AXC dövründə gündəmdə olan məsələlər içərisində əlifba sahəsində aparılacaq islahatlar da az əhəmiyyət daşımırdı. Görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli hürufat məsələsinə toxunaraq yazırdı ki, hürufat məsələsi yalnız Azərbaycan üçün deyil, Şərq üçün ən zəruri məsələlərdən biridir[12]. Ona görə də yazıçı hesab edirdi ki, hürufatımız latın hürufatı olsa idi, az bir zamanda milli maarifimiz ölkəmizin hər nöqtəsinə yayılardı. Cümhuriyyət dövründə yeni əlifbaya keçidlə əlaqədar olaraq (Y.V.Çəmənzəminli, Abdulla Əfəndizadə və başqaları tərəfindən) bir neçə əlifba layihəsi də hazırlanıb müzakirə olundu.

Yeni əlifba məsələsi Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin də gündəmində olmuşdur. Məclisi-məbusanın üzvləri bu işlərin intensiv aparılması məqsədi ilə komissiya da yaratmışdır. Komissiya üzvləri tərəfindən Azərbaycan dilinin özünəməxsusluqlarını nəzərə almaqla ədəbi dilin formalaşması, imla məsələlərinin qanunauyğunluqları istiqamətində mühüm addımlar atılmış, eləcə də yeni əlifba layihəsi hazırlanmışdır. Lakin bolşevik işğalı bir çox qlobal məsələlər kimi Cümhuriyyətin dil sahəsində gördüyü işlərin də reallaşmasına imkan vermədi.

[10] Rəsulzadə M.Ə. Yerli məktəblər, Əsərləri, I cild, Bakı, 1992, s. 225.
[11] Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 27 iyun, 1918-ci il tarixli qərarı.
[12] Yusif Vəzir Çəmənzəminli. “Müstəqilliyimizi istəyiriksə”, Bakı, Gənclik, 1994, s.69.

XX əsr Azərbaycan ziyalıları da əsasən iki əlifbanın (əski və latın əlifbalarının – C.Q.) üzərində dayandı (qeyd etməliyik ki, ziyalılar arasında kirilçilər də az deyildi). Təbii ki, bu qarşılıqlı mübarizədə yeni əlifbanın tərəfdarları olan latınçılar fikir, iddia və mülahizələrində daha israrlı idi. Təbii ki, bu qarşılıqlı mübarizədə yeni əlifbanın, latınçıların tərəfdarları daha məntiqli görünürdü. Firudinbəy Köçərli, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Rəşid bəy Əfəndiyev, Fərhad Ağazadə, Ömər Faiq Nemanzadə, Məhəmmədağa Şahtaxtlı, Sultan Məcid Qənizadə, Bəkir Çobanzadə, Vəli Xuluflu və başqaları yeni mərhələdə M.F.Axundzadə ideyalarını daha da inkişaf etdirdi.

Xalid Səid Xocayev yazırdı: "Əski əlifba tərəfdarlarının da ümidləri kəsilməmişdi. Onlarca qurultay yeni əlifba üçün qəbir qazıyan bir yer, kəfən hazırlayan bir müəssisə idi. Qazaxlar ilə kazanlıların yeni əlifba əleyhinə olduqlarına dair xalq arasında qüvvətli bir şayiə dolaşırdı. Yeni əlifba əleyhinə olanlar "a kişi, osmanlılar da qəbul etməyəcəklər, qurtardı getdi, vəssalam" -deyə bir-birlərinə ürək verirdilər"[13].

Bolşevizmə qədərki və bolşevizm mərhələsində Firudinbəy Köçərli, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Rəşid bəy Əfəndiyev, Fərhad Ağazadə, Ömər Faiq Nemanzadə, Məhəmmədağa Şahtaxtlı, Sultan Məcid Qənizadə, Bəkir Çobanzadə, Vəli Xuluflu və onlarla başqaları M.F.Axundzadə ideyalarını daha da inkişaf etdirdi və yeni əlifbanın qəbul olunmasında hərə öz töhfəsini verdi.

Latın əlifbası ilə çıxan ilk "Yeni yol" qəzetinin baş redaktoru Cəlil Məmmədquluzadə "Yeni əlifba nə istəyir" adlı məqaləsində yazırdı: "Bizim yazımızda və danışığımızda bir çox hallar örtülü qalırdı. Bu hallar o qədər əhəmiyyətli görsənmirdi. Amma həqiqətdə bizim evimizi yıxan, dilimizi pozan və öldürən, yazıçılarımızı şadıran haman hallar idi. Yeni əlifbamız o halların hamısını açıb aydınca göstərir və onların atılmasını, dəyişilməsini çox bərk istəyir. O hallar bunlardır: Birinci hal, neçə yazıçımız varsa, o qədər də yazı qaydalarımız var. Hər kəs kəlmələri özü istədiyi kimi və ağlı kəsdiyi kimi yazmaqdan çəkinmir... İkinci hal, yazıçılarımız özgə millətdən aldıqları kəlmələri türkləşdirə bilmirdilər. Çünki ərəb əlifbası bu işə mane olurdu. Üçüncü hal, özgə millətlərdən aldığımız kəlmələri hər kəs bir cür tələffüz edirdi... Yeni əlifba bu kimi kəlmələrin doğru tələffüzünü tapıb, bir cür yazılmasını və bir cür söylənməsini bərkə-bərk istəyir. Dördüncü hal. Biz ərəb-fars

[13] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 88.

kəlmələrinə, şivələrinə elə alışmışıq ki, öz dilimizin gözəl qanunlarını və qaydalarını o tərkiblərə tabe edib, dilimizi öldürürük"[14]

Yeni əlifbanın təbliğində və kütlələr arasında yayılmasında "Yeni yol"çuların və onun baş redaktorunun xidmətləri danılmazdı. Qəzet 28 oktyabr 1922-ci il sayında İrəvanda yaşayan türklərin də yeni əlifba tərəfdarları olduqlarını bildirirdi. Qəzet oxucularının diqqətinə belə bir mühüm məlumatı çatdırmağı da özünə borc bilirdi. O qeyd edirdi ki, Naxçıvanda da yeni əlifba komitəsi yaranıb. Bu komitə Ordubadda və Şərurda yeni əlifba ilə tərtib olunmuş 300 ədəd kitabçanı tez bir zamanda türkdilli əhali arasında payladı. Lakin yeni əlifbaya maraq böyük olduğundan kitabça azlıq təşkil etdi.

O illərin dövri mətbuatından aydın olur ki, yeni əlifbanın qəbulu ilə bağlı təbliğat işləri Azərbaycanın bir çox rayonlarında uğurla həyata keçirilirdi. Qəzetlərin ən böyük gileyi isə latın əlifbalı makinaların azlığı ilə bağlı idi. Bütün bunlar göstərir ki, sovetləşmənin ilk illərində latın əlifbasına keçmək dövlət səviyyəsində həyata keçirilən siyasi aksiya idi. Qurultaya qədərki mərhələdə latın əlifbasına keçidlə bağlı bir çox məsələlər özünün müsbət həllini tapmışdı.

Maraqlıdır ki, yeni əlifbanın qəbul edilməsinə etiraz edən, onu müsbət hadisə kimi dəyərləndirməyən qüvvələr də vardı. Belə qüvvələr bolşeviklər, eləcə də Fövqəladə Komissiyanın əməkdaşları arasında da vardı. Əgər belə olmasaydı, Ruhulla Axundov Mərkəzi Komitəyə aşağıdakı məzmunda məktub göndərməzdi: "Şübhəsiz, Türkoloji Qurultay bütün Sovetlər İttifaqı ilə birlikdə Azərbaycan üçün də böyük əhəmiyyət kəsb edən hadisədir. Təklif edirəm Fövqəladə Komissiyaya tapşırılsın ki, lazım olmayan yerə burnunu soxmasın və Mərkəzi Komitəyə vəz oxumasın"[15].

Başında Mir Cəfər Bağırovun dayandığı Azərbaycanın Fövqəladə Komissiyasının Türkoloji Qurultayın işlərinə "burnunu soxması" çox mətləblərdən xəbər verirdi. Görünür, bu "burun soxma" məsələsi o qədər həddini aşıb ki, Ruhulla Axundovun qəzəbinə səbəb olub. Bu bir daha sübut edir ki, hələ 1925-ci ildən əvvəl də qurultayla bağlı proseslər bolşeviklərin təhlükəsizlik orqanlarının nəzarəti altında olmuşdur. Yeri gəlmişkən, qeyd etməliyəm ki, 1920-ci illərin əvvəllərində Lavrenti Pavloviç Beriya da Azərbaycanın təhlükəsizlik orqanlarında məxfi şöbənin rəisi vəzifəsində işləyirdi. Bu o deməkdir ki, bütün əməliyyat işlərinə rəhbərlik L.P.Beriyaya həvalə edilmişdi.

[14] "Yeni yol" qəzeti. 1922. 28 sentyabr, № 2.
[15] Qasımov C. Bağırov X. Azərbaycan Təhlükəsizlik orqanlarının qısa tarixi, Bakı, 2008.

Deyilənlərdən aydın görünür ki, yeni əlifbanın (latın əlifbasının) qəbulunda və Birinci Türkoloji Qurultayın keçirilməsində Azərbaycan ziyalılarının müstəsna rolu vardır. Heç kimə sirr deyildir ki, sovetlər dönəmində latın əlifbasına keçid Bəkir Çobanzadənin Bakıya dəvətindən əvvəl müzakirə obyektinə çevrilsə də, onun gəlişi ilə, daha dəqiq desək, yeni əlifba komitəsi yanında elmi şuraya rəhbərliyi ilə növbəti mərhələyə qədəm qoydu.

Əslində B.Çobanzadə yeni əlifbanın qəbul olunmasının təbliğatı ilə Bakıya gəlməzdən əvvəl də məşğul olmuşdu. Belə ki, o, 1924-cü ildə S.Ağamalıoğlunun rəhbərliyilə yaradılmış komissiyanın üzvləri (Cəlil Məmmədquluzadə, Vəli Xuluflu, Xalid Səid Xocayev – C.Q) Krımda yeni əlifbanın tərəfdarları və əleyhdarları ilə keçirdikləri görüşlərdə yaxından iştirak etmiş və yeni əlifbanin aktiv təbliğatçılarından biri olmuşdur. Ağməsciddə (Simferepol) keçirilən iclasların birində çıxış edən B.Çobanzadə deyirdi: "Yoldaşlar, əlifbaya, əvvəla, elmi nöqteyi-nəzərdən yanaşalım: əlifbanı bir lisanda mövcud olan səslərə görə təşkil etmək lazımdır. Ərəb əlifbası lisanımızda olan səsləri ifadədən acizdir.

İkinci: bir lisan şəxsi deyildir, ictimai bir müəssisədir (əhalisinin ümumi nəzəri etibara alınmalı).

Üçüncü: bir cəmiyyətin təşəkkülü süni deyil, təbiidir; madam ki, cəmiyyət təşəkkül etmiş, onun mazisi unudulmamalıdır.

Dördüncü: yazıda fənn tərbiyə dəxi nəzəri etibara alınmalıdır.

Beşinci: bizə bir-birinə yaxın dildə danışan türk-tatar xalqlarını kəndi ətrafına toplayıb hərs və mədəniyyət yolu ilə sürətlə irəlilədəcək bir əlifba lazımdır"[16].

Başqa bir yerdə isə professor Çobanzadə göstərirdi ki: "Arkadaşlar, mən dilçiyəm. Dilçi demək hürufatçı demək deyildir, ancaq bu xüsusdakı fikrimi söyləmək məcburiyyətindəyəm. Hərflər xalqın lisanında işlənmə səsləri əda edə biləcək bir mahiyyətdə olduğu təqdirdə iyi sayıla bilir. Ərəb hürufatı bu xidməti göstərəməyir. Əlifbada diqqət ediləcək tərbiyəvi, iqtisadi nöqtələr var. Əlifba alətdir. Alət mükəmməl olmalıdır.

İndi əlifbada üç cərəyan var:

1. Əski imla. Bu, doğru deyildir.

2. İslah. Bu islahdan biri qazan sistemidir. Bu sistem islah, islah deyil, əfsaddır.

3. Yeni hürufat. Ən əlverişlisi yeni hürufatdır.

Biz bu əlifbanı dərhal qəbul etməliyik"[17].

[16] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 21.
[17] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 43-44.

Yeni əlifbaya elmi-nəzəri prinsiplər müstəvisindən yanaşan Bəkir Çobanzadə "əlifbanı bir dildə olan səslərə görə təşkil etmək lazımdır və bu baxımdan ərəb əlifbası lisanımızda olan səsləri ifadədən acizdir" – qənaətində idi. Ərəb əlifbasının dilimizin qanunlarına cavab vermədiyini göstərən B.Çobanzadə yazırdı: «Türklər məlum olduğu üzrə indiyə qədər 13 əlifba kullanmışlar və bunların heç birisi türk dilinin təbiət və üzviyyətinə uyğun olmamışdır. Bunlardan ən fənası ərəb əlifbası saymaq mümkündür. Ərəb əlifbası yalnız ərəb və farsca yazmağa alışan ziyalıların əlifbasıdır ki, bu gün təmiz və xalq türkcəsilə yazmaq istəyən adamların işinə gəlməz»[18].

Professor Adil Babayev qeyd edirdi ki: «B.Çobanzadə… məruzəsində öz tezislərini o qədər inandırıcı şəkildə irəli sürdü ki, hətta qurultaya köhnə əlifba tərəfdarı kimi gələnlər (məs., Tatarıstan nümayəndəsi Həsən Səbri Ayvazov) yeni əlifba tərəfdarı kimi qurultaydan getdilər»[19].

Yeri gəlmişkən, qeyd etməliyik ki, bəzi faktlar tanınmış alim Adil Babayevin bu fikirlərini təsdiq etmir. Belə ki, bu məsələ ilə bağlı Xalid Səid Xocayev 1929-cu ildə nəşr etdirdiyi "Yeni əlifba yollarında əski xatirə və duyğularım" adlı kitabında göstərirdi ki, əlifba məsələsi Krımda müzakirə edilərkən (bu müzakirə B.Çobanzadənin Bakıya gəlməsindən, hətta Bakıya dəvət almasından əvvəl idi – C.Q.) S.Ağamalıoğlunun çıxışından sonra Həsən Səbri Ayvazov ayağa qalxdı, həyəcansız, tələssiz, gülə-gülə sözə başladı:

- Yoldaşlar, mən söz alırkən, ehtimal ki, sizə qarşı yeni etirazlar edəcəyimi təxmin etdiniz, ehtimal ki, yeni əlifbanı çürütmək üçün söz aldığımı zənn etdiniz, ehtimal ki, ərəb əlifbasını bütün qüvvətimlə müdafiə edəcəyimi düşündünüz; halbuki, məqsədim heç də öylə deyildir. Mən bu dəqiqələrə qədər əski əlifbanı mühafizə etmək tərəfdarı idim. Bu, onun nöqsanlarını bilmədiyimdən dolayı deyil, onun nöqsanlarını məndə hər kəs qədər bilirdim, yenə mühafizə tərəfdarı idim. Səbəbini yuxarıda ərz etmişdim. İndi gərək möhtərəm Ağamalıoğlunun sözlərindən və gərəksə başqa yoldaşların sözlərindən mənə qənaət hasil oldu. Mənim qorxularım bərtərəf oldu. Bundan sonra, artıq, qəti surətdə yeni əlifba tərəfdarı olduğumu elan edirəm. İştə onun üçün söz aldım. Səməd Ağa sözündə, məsləkində sabit bir adam olduğundan, verdiyi sözləri də yerinə gətirəcəyindən əminəm[20].

[18] Bəkir Çobanzadənin müsahibəsi "Yeni yol" qəzeti. 1924, 3 noyabr, № 35.
[19] A.Babayev. Bəkir Çobanzadə, Bakı, 1998, s. 57-58.
[20] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 30.

Göründüyü kimi, X.S.Xocayevin verdiyi bu informasiya həmin hadisənin nə zaman baş verdiyini dəqiq ifadə edir və yuxarıda göstərdiyimiz faktın təshih edilməsində tədqiqatçılara yardımçı olur. Deməli, Həsən Səbri Ayvazov qurultaya qədər ərəb əlifbasının tərəfdarı olsa da, Ağamalıoğlunun bu çıxışından sonra yeni əlifbanın tərəfdarı olmuş və qurultaya da latınçı kimi qatılmışdır.

Mətləbdən uzaqlaşmadan qeyd etməliyik ki, Azərbaycan ziyalılarının əsas məqsədi ayrı-ayrı ziyalıların yox, bütövlükdə türk əqvamının anlayacağı və intellektual inkişafına səbəb olacağı unifikasiya edilmiş (sabitləşmiş) bir əlifba yaratmaq idi. B.Çobanzadə belə bir əlifbanı türk xalqlarının dilinin özünəməxsus xüsusiyyətlərini nəzərə almaqla latın əlifbası əsasında lazimi islahatların aparılmasında görür, «çürük təməl üzərində yeni binə qurmaq, yəni bütün mahiyyəti ilə dilimizə uymayan ərəb əlifbasını islah etmək çətindir. Ərəb əlifbasını islah etmək, yalnız yeni hərflər icad etmək deyil, bəlkə bütün sistemi dəyişmək məsələsidir ki, bu təqdirdə də yeni bir əlifba meydana gətirmiş oluruq. Latın əlifbası xaricdən əvvəl Azərbaycanda tam müvəffəqiyyət qazanmalıdır»[21] - deyirdi.

Görkəmli alim hesab edirdi ki, «yeni və dilimizin qanunlarına uyğun bir əlifba xalq dili ilə ədəbi üslub arasındakı divarı yıxaraq vahid bir maarif və ziyalı sinif yetişdirəcəkdir ki, çox keçmədən bunlar bütün xalq arasında elmin və texnikanın mənfəətlərini nəşr və ümumiləşdirə bilərlər»[22].

Ərəb əlifbasının tərəfdarları böyük inam hissi ilə deyirdilər ki, əski hürufatın çətinliyi mədəniyyətə mane ola bilməz, ərəb əlifbası çətin olsaydı, farslar və ərəblər də şikayətlənərdi. Əski əlifbaçılar təlaş hissi ilə bildirirdilər ki, Azərbaycanda latın hürufatı qəbul edilərsə, onda klassik ədəbiyyatımız necə olacaq, latın hurufatını camaat qəbul etməz. Onlar hesab edirdilər ki, latını qəbul edəriksə, Azərbaycan islam ölkələrindən ayrı düşər və nəhayət, latın hürufatına keçmək inqilab yolu ilə deyil, təkamül yolu ilə olmalıdır – deyərək latın əlifbasına keçməməkdə israr edirdilər.

B.Çobanzadənin fikrincə, çox asan isbat etmək mümkündür ki, ərəb əlifbası bizi ərəb dili və ədəbiyyatı ilə sıxı-sıxıya bağlamış və türk xalq dilinin ədəbiləşməsinə mane olmuş və olacaqdır. Alimin müşahidələrinə görə, latın əlifbasının ən böyük məziyyətlərindən biri dilimizin əcnəbilər tərəfindən çox tez öyrənilməsinə və ədəbiyyat və

[21] Bəkir Çobanzadənin müsahibəsi "Yeni yol" qəzeti. 1924, 3 noyabr, № 35.
[22] «Yeni yol» 1924, 3 noyabr, № 35.

mədəniyyətimizin millətlər arasında geniş şəkildə yayılmasına sürətlə yardım edəcəkdir.[23]

Feodor Dimitreviç Aşnin B.Çobanzadənin əlifba istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirir və haqlı olaraq yazırdı: "Professor Çobanzadə çox sürməyən on altı il davamında cani könüldən və səmimiyyətlə əməkdar xalqa, onun mədəni inkişaf işlərinə xidmət etdi. Latınlaşdırma cəbhəsində beş il içində qazanılan böyük müvəffəqiyyətlərdən sonra B.Çobanzadəyə "Ümumittifaq sahəsində mədəni inqilabı dərinləşdirməyə yardım etdim" deməyə tamamilə haqq verdi"[24].

Bütün bunlar Şərq və Qərb mədəniyyətinə dərindən bələd olan Bəkir Çobanzadənin Şərq mədəniyyəti ilə Qərb mədəniyyəti arasına körpü salmaq, əcnəbilərin dilimiz vasitəsi ilə ədəbi-mədəni irsimizlə yaxından tanış olmaq amalına xidmət edirdi. Ona görə də alim elə bir əlifba yaratmaq istəyirdi ki, bunun vasitəsi ilə türk-tatar xalqlarını ətrafına toplayıb onları elm və mədəniyyət yolu ilə, həm də böyük sürətlə irəlilədə bilsin. Onun fikrincə, bunu həyata keçirmək üçün ayrı-ayrı qəzet səhifələrində və ya yığıncaqlarda çıxış etmək, müzakirələr açmaq, fikir mübadiləsi aparmaq nə qədər əhəmiyyətli olsa da kifayət deyildi. Məhz bu səbəbdən **yeni əlifbaya keçmək üçün başqa türkdilli xalqların maarifpərvər ziyalılarını, eləcə də türkologiya ilə məşğul olan mütəxəssis alimləri bu işə cəlb etmək, mövcud əlifba layihələrini birləşdirib daha mütərəqqi vahid türk əlifbası yaratmaq işində mühüm rol oynaya biləcək bir qurultayın çağrılmasını məqsədəuyğun hesab edirdi.** O, 1924-cü ildə «Yeni yol» qəzetinə verdiyi müsahibəsində deyirdi: «Bu xüsusda Bakı kibi bir yerdə lisaniyyat, istilah və ədəbi dil məsələsilə uğraşan bir elmi əncüman vücuda gətirmək və vakıt-vakıt bunun təşəbbüsü ilə digər türk mətbuat və maarif xadimlərindən ibarət qurultay çağırmaq hər halda faydadan xali olmazdı»[25].

B.Çobanzadə hesab edirdi ki, bu qurultay əski əlifba tərəfdarları ilə yeni əlifba tərəfdarlarının dövri mətbuatda, eləcə də ictimai yerlərdə bir-birinin təhqirinə, hətta hədə qorxularına, mübahisə, müzakirə və elmi polemikalarına son qoyacaqdır. Qurultayın əhəmiyyətini yüksək qiymətləndirən alimin fikrincə, Türkoloji Qurultayın çağırılması yalnız türkologiya sahəsində deyil, ümumilikdə XX əsr elminin inkişafında mühüm rol oynayacaqdır.

[23] «Yeni yol» 1924, 3 noyabr, № 35 (89).
[24] Babayev A. Bəkir Çobanzadə, Bakı, 1998, s. 9.
[25] «Yeni yol» 1924, 7 noyabr, № 36 (90), s. 3.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin rəyasət heyətinin 2 may 1925-ci ildə keçirilən iclasında Tağı Şahbazinin təklifi ilə Türkoloji Qurultayın çağırılması barədə qərar qəbul edilir. Həmin qərarda göstərilirdi ki, Tədqiq və Tətəbbö cəmiyyətinin rəhbərliyi altında 1925-ci ildə Türkoloji Qurultay keçirilsin. Aşağıda göstərilən şəxslərdən ibarət komissiya yaradılsın: 1.Ağamalıoğlu S., 2.Pavloviç İ., 3. Vroydo Q.İ., 4. Çobanzadə B., 5. Haqverdiyev Ə., 6. Baharlı M., 7. Asmarin N.İ. 8. Bartold V.V., 9. Cəbiyev H., 10. Zifeld A.R. 11. Pepinov Ə., 12. Samoyloviç A.İ., 13. Hikmət İ.[26]

1925-ci ildə Azərbaycan MİK-in bu qərarından sonra qurultayın tezliklə keçirilməsinə inam bir qədər də artdı. Qurultayın keçirilməsi ziyalıların bütün yığıncaqlarında müzakirə predmetinə çevrildi və qəzet səhifələrinə çıxarıldı.

B.Çobanzadə 20 noyabr 1925-ci ildə yeni əlifba cəmiyyətinin türkoloji bölməsinin iclasında etdiyi məruzəsində türkoloji qurultayın elmi və tarixi-ictimai əhəmiyyətini önə çəkir və türkoloji qurultayın çağırılmasını böyük tarixi hadisə adlandıraraq yazırdı: "Bu günə qədər türk-tatar xalqları müxtəlif sivilizasiyaların təsir dairəsində olmuş müxtəlif mədəniyyətlərin mühüm tərkib hissəsi kimi çıxış etmişlər. Hələ xristianlıqdan öncəki dövrdə bu xalqları Hindistan-Çin mədəni-iqtisadi dünyasının mühüm elementi olmuş və təxminən VII əsrdən orta Asiya və İran xalqlarının mədəni-iqtisadi həyatının tənzimləyici amili olmuşlar. Nəhayət IX əsrdən başlayaraq bu xalqlar müsəlman mədəniyyətinin təsiri altına düşür ki, bu da Bizans və fars-semit həyat elementlərinin qarışığından ibarət olmuşdur. XI-XIII əsrlərdən Avropa sivilizasiyası türk-tatar xalqlarının yaşadığı əraziləri fəth etməyə və bu xalqların ictimai-iqtisadi məişətini özlərinə uyğunlaşdırmağa başlayırlar. Bu təsirin nəticəsində şimali Çin və orta Asiya köçəri tayfaları Avropa şəhər həyatının normal nümayəndələrinə çevrilmişlər"[27].

B.Çobanzadə qeyd edirdi ki, türk-tatar xalqlarının tarix, dil-ədəbiyyat və mədəniyyəti Mahmud Kaşğari, Yusuf Hacib, Əlişir Nəvai, Əbülqazi Bahadur Xan, Rubrukvis, Plano Karprur, Marko Polo, Radlov, Tomson və onlarla başqaları tərəfindən tədqiq edilmişdir. Lakin bunlar türkologiyanın bütün sahələrinin tam şəkildə formalaşdığını deməyə əsas vermir. Bəkir Çobanzadə buna örnək olaraq göstərirdi ki, biz hələ də bütün türk şivələrinin elmi və tarixi cəhətdən tam işlənilmiş lüğətinə malik deyilik. Yalnız belə lüğəti əldə etdikdən sonra biz türk-monqol və

[26] AR MAİ. F. 103, siy. 1, s.v. 11, v. 59.
[27] İzvestiya Obşestva obsledovaniya i izuçeniya Azerbaydjana. 1926, № 1, s 101.

ural-altay dillərinin əlaqəsi məsələlərini dərindən araşdıra bilərik. Eyni problemlər bu xalqların maddi və mənəvi mədəniyyətlərinin öyrənilməsi sahəsində də mövcuddur. Böyük türkoloq haqlı olaraq göstərirdi ki, türk-tatar xalqlarının mədəniyyət tarixi bu cür fundamental tədqiqatlar aparılmadan müasir elmi nəticələr əldə etmək olmaz.

Türkologiya ilə bağlı müəyyən tədqiqatlar aparılsa da, həmin araşdırmaların heç də hamısı alimi qane etmirdi. Belə ki, bəzi tədqiqatların təsadüfi xarakter daşıması, türkoloji elmi təşkilatların dağınıq olması və onların gördüyü işlərin nəticələrinin qeydiyyatının aparılmaması B.Çobanzadəni narahat edirdi.

Türkoloji qurultayın çağırılması barədə bir çox görkəmli alimlər və SSRİ-nin elmi təşkilatları tərəfindən ortaya atılmış fikir (Elmlər Akademiyası və Ümumittifaq Şərqşünaslıq Assosiyasiası) gənc türk respublikalarının elmi təşkilatları tərəfindən dəstəklənmişdir.

***

İKİNCİ MƏRHƏLƏ. QURULTAY ƏRƏFƏSİ VƏ QURULTAY DÖVRÜ, YAXUD QURULTAYA HAZIRLIQ VƏ ONUN KEÇİRİLMƏSİ



Səmədağa Ağamalıoğlu (1867-1930)

Elmi-təşkilati işlərin çoxluğuna baxmayaraq Azərbaycanı Tətqiq və Tətəbbö Cəmiyyəti, eləcə də SSRİ Şərqşünaslar Cəmiyyəti Azərbaycan ziyalılarının qurultay keçirmək arzularını reallaşdırdı. Böyük türkoloqlardan İsmayıl bəy Qasprallı və V.V.Radlovun şərəfinə 1926-cı ilin fevral ayının 26-dan mart ayının 6-na kimi Bakı şəhərində ("İsmailiyyə" binasında) keçirilən Birinci Türkoloji Qurultay nəinki Azərbaycanın, bütövlükdə türkdilli xalqlarının ictimai-siyasi həyatında olduqca mütərəqqi rol oynadı. Öz işinə başlayan qurultay iştirakçıları ilkin olaraq təşkilati məsələləri həll etməyə çalışdı. Qurultaya sədrlik edən Səmədağa Ağamalıoğlu (1867-1930) iştirakçıları salamladı və Sovet Sosialist Azərbaycanında keçirilən ilk Türkoloji Qurultayın ilk iclasını açıq elan edərək bildirdi ki: "Türkoloji qurultayın əhəmiyyətini bir neçə sözlə ifadə etmək kifayət

qədər çətindir. Lakin şübhəsiz bu qurultay qurtuluş səciyyəli inqilabımızın üzə çıxartdığı bir çox praktiki məsələni elmi cəhətdən işıqlandırmağa imkan verərək ölkənin mədəni həyatında dərin iz buraxacaq. Maddi və mənəvi mədəniyyətin inkişafı ilə yazının təkamülü arasında əlaqə, dilin səs quruluşu ilə hərf tərkibinin əlaqəsinin elmi işıqlandırılması kimi məsələlərin müzakirəsi, əlifba sisteminin seçilməsi və əlifbanın özünün qurulması üçün gözəl zəmin yaradacaqdır. Təbiidir ki, bundan əlavə türkoloji qurultayda aparılacaq elmi-fikir mübadiləsi bütövlükdə elmin inkişafı baxımından ciddi əhəmiyyət kəsb edir. Əlbəttə müzakirə olunacaq bütün məsələlərə yanaşma sırf elmi xarakter daşıyacaq və bu müzakirələrin praktiki əhəmiyyəti elmi mülahizələrin praktika ilə necə uzlaşmasından asılıdır. Halbuki belə uzlaşmanın özü sırf mexaniki xarakter daşıya bilməz və qurultayın nəticələrinə, ictimaiyyətin subyektiv münasibətinə bağlıdır. Şübhəsiz, türkoloji qurultay böyük Sovet İttifaqında yaşayan türk-tatar xalqlarının mədəni yüksəlişinə təkan verəcək. Bundan əlavə, bu qurultay türkoloji ədəbiyyatın inkişafı və bütövlükdə türkologiyanın inkişafına zəmin yaradır. Mən bu qurultayın ümumdünya əhəmiyyətindən danışmağa ehtiyat edirəm. Lakin qurultaya dəvət olunmuş həm Sovet İttifaqından olan, həm də xarici qonaqların hamısının gəlməsi təbiidir ki, qurultay belə bir əhəmiyyət qazanacaqdır. Şübhəsiz, həm Azərbaycan türkləri, həm də digəriləri bu qurultayı böyük maraqla qarşılayacaqlar. Çünki bu qurultayın nəticəsində ən azı və artıq qəbul olunmuş ədəbiyyat əsasında türk-tatar dillərində kifayət qədər geniş yazılı material toplusu formalaşacaqdır ki, bu da türk-tatar xalqlarının kasad ədəbiyyatına bir kisə qızıldan da dəyərli hədiyyədir. Mən qurultaya müvəffəqiyyətlər, azərbaycanlılara isə böyük qonaqpərvərlik arzulayıram”[28].

Çıxışını davam etdirən S.Ağamalıoğlu qeyd etdi ki, indi əsas məsələ rəyasət heyətini formalaşdırmaqdı və biz də işimizi bu istiqamətdə quracağıq.

Deyildiyi kimi, Birinci Beynəlxalq Türkoloji Qurultay ilkin olaraq təşkilati işlərə baxdı və qurultayın **Rəyasət Heyətini seçdi.** Rəyasət Heyətinə 22 nəfərdən ibarət aşağıdakı namizədlər seçildi:

1. S.Ağamalıoğlu
2. Axundov Ruhulla - Azərbaycan
3. Bartold - akademik
4. Baytursun - Qazaxıstan

[28] Bölletenc Orqanizaüionnoy Komissii po sozıvu I Vsesoöuznoqo Törkoloqiçeskoqo Scezda. Baku, 27 fevralə, 1926 qoda, № 1.

5. Barahov - Yakut respublikası
6. Borozdin - Şərqşünaslıq Assosiasiyası
7. Cəbiyev Həbib
8. İbrahimov Qəlimcan - Tatarıstan
9. İdelquzin - Başqırdıstan
10. Köprülüzadə - Türkiyə
11. Korkmasov - Dağıstan
12. Nahamov İ. - Özbəkistan
13. Naqovitsın - RSFSR Xalq Maarif Nazirliyi
14. Oldenburq - akademik
15. Pavloviç - Şərqşünaslıq Akademiyası
16. Samoyloviç - professor
17. Tınstanov - Qara-Qırğızıstan
18. Çobanzadə - professor
19. Berdiyev - Türkmənistan
20. Akçökraklı - Krım
21. Əliyev Umar - Şimali Qafqaz
22. Menzel - professor, Avropa alimlərinin nümayəndəsi

Bundan sonra qurultaya Əli bəy Hüseynzadə, Banq, Mustafa Quliyev, Marr, Lunaçarski və Tomsendən ibarət **Rəyasət Heyətinin fəxri üzvləri seçildi.**

Qurultayın **Mandat Komissiyasına** isə Məmmədzadə, Tomaşevski, İvanov (Yakutustan), Əbdül Cabbarov, İvanov (Çuvaşistan) seçilir.

Redaksiya komissiyasının kürsüsündə isə qurultay iştirakçılarından Zifeld, Yakovlev, Maqsudov, Qabitov, Rəhimi, Xocayev Xalid əyləşdilər.

Qurultayın katibləri Pənah Qasımov, Solomon Veltman, Muxammed Qeldiyev, Xabibulla Odabaş və Ayna Sultanova oldular.

Mandat komissiyasının məruzəsinə əsaslanaraq deyə bilərik ki, Birinci Turkoloji Qurultaya 131 nəfər nümayəndə dəvət olunmuşdu. Onlardan 93 nəfər türk, 38 nəfər isə qeyri-türk idi.

Qurultaya respublika və vilayətlər üzrə dəvət olunanları isə aşağıdakı kimi qruplaşdırmaq olar: Azərbaycandan - 6 nəfər, Təşkilat Komitəsindən - 15 nəfər, Gürcüstandan - 1 nəfər, Tatarıstandan - 6 nəfər, Ermənistandan - 1 nəfər, Acarıstandan – 1 nəfər, Başqırdıstandan - 3 nəfər, Qazaxıstandan - 1 nəfər, Özbəkistandan - 6 nəfər, Türkmənistandan - 4 nəfər, Qırğızıstandan - 2 nəfər, Oyrat vilayətindən - 1 nəfər, Yakut Respublikasından - 3 nəfər, Kalmık vilayətindən - 1 nəfər, Çuvaş

Respublikasından - 2 nəfər, Qərbi Çinin Uyğur vilayətindən - 1 nəfər, Abxaziyadan - 1 nəfər, Xakas dairəsindən - 1 nəfər, Şimali Qafqaz Qaraçay vilayətindən - 2 nəfər, Şimali Osetiyadan - 1 nəfər, Cənubi Osetiyadan - 1 nəfər, Şimali Qafqazın Türkmən rayonundan - 1 nəfər, Balkar vilayətindən - 1 nəfər, Çeçenistandan - 1 nəfər, İnquşetiyadan - 1 nəfər, Adıgey-Çərkəz vilayətindən - 1 nəfər, Türkistandan - 1 nəfər, Elmlər Akademiyasından - 3 nəfər, Şərqşünaslıq Assosiasiyasından - 3 nəfər, Leninqrad Canlı Şərq Dilləri İnstitutundan - 1 nəfər, Daşkənd Universitetindən - 1 nəfər, Leninqrad Universitetindən - 1 nəfər, Şimali Qafqaz Diyar İcraiyyə Komitəsinin Millətlər Şurasından - 2 nəfər, Şimali Qafqaz Diyarşünaslıq İnstitutundan - 1 nəfər, Ufa Xalq Maarif Komissarlığından - 1 nəfər, RSFSR XMK Millətlər Şurasından - 4 nəfər, SSRİ MİK Millətlər Şurası Rəyasət Heyətindən - 1 nəfər, İran Azərbaycanından - 2 nəfər, Şimali Qafqaz Elm Assosiasiyasından - 1 nəfər.

Bundan başqa, qurultaya bəzi şəxslər fərdi şəkildə dəvət olunmışdu: Bunlardan Azərbaycandan - 2 nəfər, Tatarıstandan - 2 nəfər, Şimali Qafqazdan - 2 nəfər, Moskvadan - 2 nəfər, Ukraynadan - 1 nəfər, Leninqraddan - 4 nəfər, Krımdan - 2 nəfər, Dağıstandan - 2 nəfər, Zaqafqaziyadan - 2 nəfər, Ermənistandan - 1 nəfər, Özbəkistandan - 4 nəfər, Başqırdıstandan - 2 nəfər, xaricdən: Türkiyədən - 3 nəfər, Almaniyadan - 2 nəfər, Avstriyadan - 1 nəfər, Macarıstandan - 1 nəfər[29].

Birinci Türkoloji Qurultaya rəsmi və qeyri-rəsmi dəvət olunanlar əsasən aşağıdakılar idi:

Azərbaycandan: Səmədağa Ağamalıoğlu, Fərhad Ağazadə, Ruhulla Axundov, Hənəfi Zeynallı, Həbib Cəbiyev, Mustafa Quliyev, Nikolay Aşmarin, Əziz Qubaydullin, Xalid Səid Xocayev, Bəkir Çobanzadə, Cabbar Məmmədzadə, Zifeldt-Simumyaqi Artur Rudolfovic, Pənah Qasımov, Museyib İlyasov, Cəlil Məmmədzadə, Ayna Sultanova, Fərid Xurşid, Həmid Sultanov, Mirzə Davud Hüseynov, Hüseyn Musayev, Əhməd Pepinov, İbrahim Rza Şəbüstəri, Həsən Musayev.

Türkiyə Cümhuriyyətindən: Əlibəy Hüseynzadə, Mehmet Fuad Körpülüzadə, Vitek Paul (alman), Gyula Messaroş (macar).

Rusiya Federasiyasından: Akademik Vasili Bartold, Sergey Malov, Aleksandr Miller, Aleksandr Samoyloviç, Feodor Menzel

[29] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 173.

(alman), Lev Şerbak, Aleksey Başkirov, İlya Borozdin, Solomon Veltman, Anatoli Cenko, Lev Jirixov, Sergey Oldenburq, Nikolay Poppe, Sergey Rudenko, Vsevolod Tomoşevskiy, Konstantin Yudaxin, Nikolay Yakovlev, Rauf Sabirov, Şamil Usmanov, Qani İtamişev, İbrakim Yumankulov; Qara, aylardan: Umar Aliyev, Abdulkərəm Xubiyev, Nana Tokov; Yakutiyadan: İsidar Baraxov, Anempodist Satronov, Aleksey İvanov; Başqırd: Cuvaş Pamel İvanov, Xakas: Nikolay Ratanov, Rulayev; Ukraynalı: Aqafangil Krımski; turkmən Beşim Kulbeşirov, İnquş Zaurbek Malsatov, Rostovdan: Cahangir Nacıyev, Votyak İosif Naqovitsin, çeçen: Xalid Oşayev, yəhudi: Mixail Pavlovic, Çuvaş: Mixail Petrov, oryot: Aleksey Savaşkin, adigey Səfərbəy Siyuxov, Leninqraddan Abdulla Tağızadə, balkar İbrahim Usbayev, Tsey Davud Xatirovic, noqay Əbdulhəmid Canibekov, avar Əbdullətif Şamxalov, Tatarıstandan: Qaley Əbdurrəhimov, İbad Alnarov, Səttar Arifullin, Sabah Alnaqubov, Sibqat Qafurov, Qalimcan İbrahimov, Qayaz Maqsudov, Qəbdurrəxman Sədi, Şərəf Alimcan, İ.Lemanov; Başkırdıstandan: Qabdiləhəl Vilqadonov, Həbibbulla Qabibov, Kərim İdelqujin, Sadiq Miryasov, Zakir Zakirov, Dağıstandan: İbrahim Əliyev, Qalıncan Ayyupov, Şevgi Bekturə, Cəlaləddin Qorxmazov, Kərim Mamedbekov, Edhem Feyzi, Krımdan: Həbibulla Odabaş, Həsən Səbri Eyvazov, Hüseyn Akcokraklı, Yaqub Kamal.

Almaniyadan: Elmlər doktoru Radebold Valter.

Qazaxıstandan: Əhməd Baytursunov, Lides Omarov, Əziz Bayseyidullin, Bilal Suleyev.

Özbəkistandan: Əbducabbar Əbducabbarov, Mixail Qavrilov, Aşurəli Zahiri, Meşriq İlbek, Rəhim İnoqarnov, Bikcan Rəhmanov, Sadri İsmail, Mecid Usmanov, Neymət Həkimov, Qazi Yunusov, Rəhimi Şakircan.

Türkmənistandan: Bekki Berdıyev, Məhəmməd Qəldiyev, Həşim Perenqliyev, Bazarkul Daniyarov.

Gürcüstandan: Bassariya Simon, Hikmət Cövdətzadə, Rzaqulu Nəcəfov, Aleksandr Tibilov, Nikolay Roqdayev, Şərif Manafov.

Ermənistandan: Bala Əfəndiyev, Raçiya Açaryan.

Yeri gəlmişkən qeyd etməliyik ki, təqdim etdiyimiz siyahıda müəyyən fərqlər də aydın görünür. Bu fərq rəsmi dəvət olunanlardan başqa qeyri-rəsmi dəvət olunanların siyahıya daxil edilməsindən irəli gəlir.

Təşkilati məsələ bitdikdən sonra qurultayda təbrik nitqi ilə çıxış edən **Qəzənfər Musabəyov** iştirakçıları salamladı və qurultayın əhəmiyyətinə xüsusi önəm verərək bildirdi ki, yoldaşlar, bu Qurultayın

müstəsna olaraq türkologiya məsələlərinə həsr olunan, onları planlı şəkildə nəzərdən keçirmək imkanına malik olan birinci qurultayın açılması, şübhəsiz türk-tatar xalqlarının həyatında möhtəşəm tarixi əhəmiyyətə malik faktdır. Qurultayın nəticələri Türkiyə, İran, Əfqanıstan xalqları və bir sıra illər ərzində aparılan işləri yekunlaşdırmaq və türkologiyanın sonrakı inkişafı üçün yollar müəyyənləşdirmək imkanı əldə edən elm aləmi üçün böyük əhəmiyyətə malik olacaqdır.

Yoldaşlar, təsadüfi deyil ki, Birinci Ümumittifaq Türkoloji Qurultay Azərbaycanın paytaxtı Bakı şəhərini özünə iş yeri seçib. Şərqin giriş qapısı olan coğrafi mövqeyinə və son 5 il ərzində zəhmətkeşlərin əldə etdikləri nəhəg mədəni və iqtisadi nailiyyətlərə görə Azərbaycan əziz qonaqları, türkologiyanın elmi nümayəndələrini qəbul etmək kimi yüksək şərəfə layiqdir.

Fikirlərini davam etdirən Qəzənfər Musabəyov deyirdi: "Qurultay qarşısında bilavasitə duran və həyatın özünün irəli sürdüyü vəzifələr arasında aşağıdakıları xüsusilə fərqləndirmək istərdim: birinci, sovet ərazisində kənarda olan elmi-mədəni aləmlə səciyyəvi, sıx və bilavasitə əlaqədar, ikinci, yerli Diyarşünaslıq cəmiyyətində onun elmi fəaliyyəti axarına yönəldilməsi sahəsində yardım göstərilməsi; üçüncü, türk-tatar xalqlarının sosial-siyasi həyatının və onların inqilabi hərəkat tarixinin son dərəcə diqqətlə araşdırılması.

Bundan əlavə, Türkoloji Qurultay qarşısında bilavasitə əməli əhəmiyyətə malik olan məsələlər durur ki, bunlar dil, terminologiya məsələləri, qanunsuzluğu ləğv etmək kimi möhtəşəm təşəbbüs, dövlət aparatının zəhmətkeşlərə bilavasitə yaxınlaşması, orta və ali məktəblərdə ana dilində dərs deyilməsi, dərsliklərin ana dilinə tərcümə olunması və digər məsələlərdir. Əsasən bizim bütün böyük təşəbbüslərimiz dil və terminologiyanın qeyri-mükkəməl olması ilə üzləşir. Bu həddən artıq mühüm məsələlərlə türkoloji qurultaya son dərəcə böyük ümüdlər bəslənir. Birinci Beynəlxalq Türkoloji Qurultay Sovet hakimiyyətinə Yaxın Şərqin ən mühüm mədəni məsələlərinin həllində dəyişiklik göstərməli, türk-tatar xalqlarının ən mühüm problemlərini həll edir.

Geridə qalmış türk-tatar xalqları elm çırağının işığında yeni, işıq həyat quruculuğunu daha yaxşı həyata keçirər, müstəmləkəçilər və kapitalistlərin onlara aşıladıqları cəhalət və savadsızlığın öhdəsindən gələrlər.

Yoldaşlar, bu Türkoloji Qurultay, şübhəsiz, sərhəddin o biri tərəfində olan türk-tatar xalqları kütlələrinin birləşməsi və tam enerji ilə

bugünkü məşəqətli həyatlarının intibahına başlamaları üçün güclü təkan olacaq[30].

Çıxışında SSRİ Mərkəzi İcraiyyə Komitəsi nəzdində Ümumittifaq Elm Assosiyasının sədri **Pavloviç Mixail Pavloviç** qurultay iştirakçılarını SSRİ MİK nəzdində elmi Ümümittifaq Şərqşünaslıq Assosisiyası, həmçinin Nərimanov adına Moskova Şərqşünaslıq İnstitutu adından salamlayaraq diqqətə çatdırdı ki, hazırki Türkoloji Qurultay türk-tatar xalqları tarixində çox böyük hadisə olacaq. Sədası təkcə Bakı və Azərbaycan deyil, Sovetlər İttifaqının da hüdudlarından uzaqlara yayılacaq qüdrətli həyacan sədaları kimi, Türkoloji Qurultay təkcə ziyalılara yox, aşağıdan yuxarıya kimi geniş xalq kütlələrinin də diqqətini türk-tatar xalq kütlələrinin indiyənədək yalnız Avropa xalqlarının nəsibi olan mədəniyyət və sivilizasiyalara qoşulmalarına mane olan qeyri-mükəmməl əlifba, orfoqrafiya, terminologiya və i.a. məsələlərə yönəlməlidir. Bu qurultay türk-tatar xalqlarının inqilabi batolyonlarının savadsızlığın aradan götürülməsinə, xalq kütləri arasında maarifin yayılmasına mane olan cəhalət və savadsızlıq hibraltar və port-arturalarına qarşı möhtəşəm hücümünün qüdrətli həmləsinin başlanğıcıdır. Bu Qurultayın böyük sovet hakimiyyətinin tərkibinə daxil olan Azərbaycan Respublikasında çağırılması və Sovet hakimiyyətinin, fəhlə-kəndli hakimiyyətinin milli siyasətinin prinsiplərinin böyüklyünə sübutdur, yoxsa belə bir Qurultay hər hansı başqa ölkədə ola bilərdimi? Məgər siz Sovet İttifaqından kənarda akedemik Bartold, Elmlər Akasdemiyasının nümayəndələri Oldenburq, Krımski və b. elm nəhənglərinin savadsızlığı aradan götürməyə kömək edə biləcək bütün yolları müzakirə edə bilmək üçün zəhmətkeş kütlələrinin nümayəndələri ilə birlikdə toplaşdığı başqa bir qurultay görmüsünüzmü? Bu Qurultay Sovet hakimiyyətinin milli siyasətinin mərhələrindən yalnız biridir[31].

Sonra təbrik nitqi söyləyən **Mirzə Davud Hüseynov** iştirakçıları salamlayaraq dedi ki, yoldaşlar... Siz bilirsiniz ki, qəddar çarizm təkcə Rusiyada fəhlə və kəndlilərinə deyil, başqa xalqlara da zülm edirdi. Bu siyasət ondan ibarətdir ki, çar hökuməti nə az, nə çox bütün özgə millətlərdən olanları məhv etmək, onları ruslara çevirmək istəyirdi.

---

[30] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 21-23.

[31] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 23.

Yoldaşlar çar hökumətinin Özbəkistan, Azərbaycan və Qazaxıstanın torpaqlarını tədricən tutmasını, "türk" sözünün hətta dilə gətirilməsini qadağan etməsini başqa heç bir şeylə izah etmək mümkün deyil.

Bilirsiniz ki, bu yolda biz çox böyük bir maneə ilə üzləşirik. Söhbət əlifbamızdan, ərəb əlifbasından gedir və hamı dərk edir ki, o, mövcud olduğu şəkildə bizim üçün böyük əngəl. Bu məsələ sizin qarşınızda durur. Siz bu məsələni o baxımdan həll etməlisiniz ki, savadlılıq türk kütlələrinin geniş təbəqələri, əhalimizin geniş kütlələrinin nəsibi olsun. Fikrimcə, qarşısında türklərin tarixi, ədəbiyyatı, filologiyasının mühüm məsələləri duran Türkoloji Qurultay öz əsas problem, işinin əsas qayəsi kimi bu problem, yəni kütlələrimizin savadlanmasını əhəmiyyətli dərəcədə məsələsini seçməlidir. Bu məsələ bizim üçün xüsusilə əhəmiyyətlidir məncə, partal alim -turkoloqların və böyük İttifaqımızın bütün türk xalqları nümayəndələrinin iştirak etdiyi Türkoloji Qurultayımız bu məsələyə məhz tam birdəfəlik, tam obyektivliklə yanaşacaq və onu kütlələrimizin, xalqımızın mənafeyini tələb edən şəkildə həll edəcək.

İcazə verin Zaqafqaziya hökuməti adından sizə atəşli salamlar, türkologiyanın bütün ağrılı məsələlərini tam təfərrüatı ilə həll edə bilmək üçün bu sahədə məhsuldar işləmək arzularımı çatdırım [32].

RSFSR Xalq Maarif Komissarlığı adından danışan Naqovitsin çıxışında diqqəti gənclərin maariflənməsinə yönəldərək bildirdi ki, əvvələr türk xalqları və yabancı millətlər adlandırılan digər xalqların nümayəndələri üçün yasaq olan ali məktəblərdə hazırda sizin mədəni qüvvə, öz xalqları üçün mədəni işçilər ola biləcək minlərlə gənclərniz var. Bununla yanaşı, bu xalqlar arasında gənc elmi qüvvələr irəli çıxır. Siz hər bir xalqda bilik çeşmələrinin özünə yol açdığının şahidi olursuz. Bu çeşmələr çaylara çevrilir, həmin çaylar isə mədəni hərəkatın nəhəng mədəni hərəkət axınını yaradır. Əvvələr əsarət altında cəhalətdə olan bu nəhəng, zəhmətkeş kütlələri bizim bütün bəşəriyyət üçün qurduğumuz möhtəşəm, xoşbəxt həyat okeanına doğru can atır[33].

Beləliklə də, qurultay təşkilati məsələlərə baxaraq öz işini bitirmiş hesab etdi.

***

[32] Yenə orada. s.26-27.

[33] Yenə orada. s.28.

Gündəlikdə duran məsələlərə, çıxış və məruzələrə keçməzdən öncə qeyd etməliyik ki, bir çox türkoloqlar nitqlərində tez-tez "türk xalqları" əvəzinə "türkdilli xalqlar" ifadəsi işlədirlər. Təəssüf ki, bu ənənə bugün də davam edir. Türkləri birləşdirən və qohuma çevirən yalnız dil birliyi (qlottogenezis) deyil, həm də eyni kök və mənşə (etnogenezis) birliyidi. Biz də yeri gəldikcə hər iki termindən istifadə etsək də, türklərin həm "qlotto", həm də "etno" genezis baxımdan qohumluğunu unutmamışıq.

Qurultayın 27 fevral 1926-cı ildə keçirilən ikinci iclasında olduqca ciddi məsələlər müzakirə predmetinə çevrildi. İlk olaraq akademik V.V.Bartold **"Müasir vəziyyət və türk xalqları tarixinin araşdırılmasının ən yaxın vəzifələri"**, İ.Borozdin **"Tatar mədəniyyəti sahəsində ən yeni kəşflər",** Ə.S.Qubaydullin **"Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı"**, S.İ.Rudenko **"Türk tayfalarının etnoqrafik tədqiqinin müasir vəziyyəti",** Gyula Messaroş **"Anadolu və balkan türklərinin etnoqrafiyasının tədqiqinin müasir vəziyyəti və ən yaxın vəzifələri"** adlı məruzələrlə çıxış etdilər.

Akademik Bartold məruzəsində bildirirdi ki, türklər öz tarixlərini və etnoqrafiyalarını yazmadıqlarından onlar barədə bilgini də mədəni qonşu dövlətlərdən almaq olar. Akademikin fikrincə, türk xalqlarının tarixini öyrənmək üçün yalnız türkoloq olmaq kifayət deyil. Hansı dövrlə maraqlandığından asılı olaraq çinşünas, ərəbşünas, iranşünas da olmaq lazımdır. V.V.Bartold türkdilli xalqların öyrənilməsi zamanı arxeloji qazıntıların əhəmiyyətinə xüsusi önəm verir və göstərirdi ki, qədim türklərin mədəni vəziyyəti haqqında yazılı məlumatlardan başqa, arxeoloji məlumatlar da var. O, hesab edirdi ki, arxeoloji yolla əldə edilmiş materiallar da xalqların tarixinin və taleyinin öyrənilməsinə, eləcə də onların qohumluğu və yaxınlığı barədə dürüst məlumat əldə etməyə imkan verir. Məruzəsində türk, Çin, İran alimlərinin araşdırmalarına, eləcə də arxeoloji qazıntıların son nailiyyətlərinə söykənən akademik Bartold bir çox türkdilli xalqların qohumluq əlaqələrini elmi dəlillərlə sübut edir və belə bir nəticəyə gəlir ki, türk xalqlarının tarixi dünya tarixinin ayrılmaz tərkib hissəsidir.

Əgər akademik Bartold ümumi şəkildə türk xalqlarının tarixindən bəhs açırdısa, Borozdin **"Tatar mədəniyyəti sahəsində ən yeni kəşflər"** adlı məruzəsinin adından da göründüyü kimi, konkret bir sahə - tatar mədəniyyəti barədə təşkil etdikləri ekspedisiyanın Özbək məscidinə bitişik mədrəsənin xərabələrinin, karvansaranın ərazisinin tədqiqi məsələsinə həsr etmişdi. O, abidələrin qeydiyyatı və toplanması, təmizlənməsi, şəkillərin və fotoşəkillərin çəkilməsi, yazı və

ornametlərdən estampajların çıxarılması, hərtərəfli memarlıq ölçmələrinin aparılması barədə araşdırmaları da qurultay iştirakçılarının nəzərinə çatdırırdı. Təbii ki, belə araşdırma və tədqiqatların aparılması tatar mədəniyyətinin dərindən öyrənilməsində müstəsna əhəmiyyətə malikdir.

Qurultayda iştirak edən Əziz Qubaydullinin **"Sovet ittifaqı xalqlarının dillərində tatar xalqlarının tarixinin tətbiqinin müasir vəziyyəti və cari vəzifələri"** mövzusunda etdiyi çıxışından aydın olur ki, XIX əsrin sonlarında doğma xalqlarının tarixini qərbi avropa metodikası əsasında öyrənən türk-tatar alimlərinin oktyabr inqilabı türk dillərində tarixi tədqiqatların və ədəbiyyatın inkişafına güclü təkan vermiş, bir sıra gənc tarixçiləri önə çəkmiş, yaşlıları isə yeni əsərlər yaratmağa sövq etmişdir.

Ə.Qubaydullin göstərirdi ki, uzun müddət türk-tatar tarixçiləri qədim dövrün ərəb-fars tarixçilərinin ənənələrindən yaxa qurtara bilməyərək onların fikirlərinin və məlumatların çatdırılması ilə məşğul olmuşlar. Türkdilli xalqların tarixinə dair ilk Avropa tipli tədqiqatlara Avropa tarix elmi ilə təmasda olan türk xalqlarında rast gəlinir. XIX əsrin ikinci rübündə kazan-tatar alimi İbrahim Halfi Əbdülqazi Bahadır xanın "Şəcəreyi-türk" (1824) əsərini, eyni zamanda "Çingiz Xan və Axsaq Teymurun həyatı" (1822) adlı anonim kitabı nəşr etdirdi. İbrahim Halfi "Çingiz Xan və Axsaq Teymurun həyatı" kitabına yazdığı ön sözdə türkdilli xalqları məhv olmaqda olan əlyazmaları və xalq ədəbiyyatı örnəklərini toplamağa çağırdı.

Əziz Qubaydullin tədqiqatçılar arasında Avropa və rus alimlərindən Qotvald, Radlov, Berezin, Qriqoryev, Velyaninov-Zernov və digərlərinin metolarından istifadə etməyi də türk alimlərinə tövsiyə edirdi. O, göstərirdi ki, XIX əsrin türk-tatar alimləri tarix elmi sahəsində bir çox yeniliklər və naliyyətlər əldə edə bilməsələr də, tarixi materialların toplanması və nəşri istiqamətində müəyyən işlər görmüşlər.

Alim göstərirdi ki, XIX əsrin əvvəllərində türk-tatar xalqlarının dirçəlişi ilə onların öz tarixlərinə maraqları da artdı. Bunun nəticəsidir ki, türk-tatar dilində çıxan ilk mətbu nəşrlərdə tarixi-publisistik məqalələr əks olunub (misal üçün Qasprinskinin "Tərcüman" qəzetində).

Rusiyanın bəzi türk xalqlarının məktəb və mədrəsələrində milli tarixin tədrisinin başlanması bu tarixin öyrənilməsinə olan praktiki ehtiyacı artırmışdır. Bununla bağlı türk-tatar xaqlarının tarixi ilə əlaqədar bir sıra dərsliklər də işıq üzü görmüşdür. Dərsliklərlə yanaşı ayrı-ayrı kitablar, jurnallar, broşür və qəzet məqalələr də nəşr edilmişdir.

Doğrudur bu yazıların əksəriyyətində müəlliflər ilkin mənbələrə istinad edərək, yalnız publisistik üslübda yazmışlar, lakin bu işlərin arasında sırf elmi səciyyəvi əsərlərdə mövcuddur (Fəxruddinov, Zəki Validi və digərləri). Qubaydullin göstərirdi ki, məktəbin və xüsusi hazırlığın olmaması türk-tatar müəlliflərinin əsərlərinə ciddi təsir etmişdir.

Tarixçi alim göstərirdi ki, əgər buna qədər türk-tatar alimləri yalnız qədim dövrü öyrənirdilərsə, oktyabrdan sonra daha çox yeni dövrü tədqiq edirlər. Əgər əvvəllər siyasi və mədəni tarix diqqət mərkəzində idisə, indi daha çox iqtisadi və sosial tarixə üstünlük verilir. Alim görkəmli şəxsiyyətlərin yubileylərinin qeyd olunmasını, bununla bağlı topluların və məqalələrin nəşrini təqdirəlayiq hallardan biri kimi yüksək qiymətləndirdi. Bütün bunlarla yanaşı, alimi narazı salan cəhətlər də var idi. Belə ki, o, hazırlanmış əsərlərin elmi cəhətdən zəyif olduğunu, elmi məxəzlərdən lazımi səviyyədə istifadə olunmadığını qeyd edirdi.

Əziz Qubaydullin türk-tatar xalqlarının tarixinin öyrənilməsini asanlaşdırmaq və bu elmi xalq kütlələrinə yaxınlaşdırmaq məqsədi ilə aşağıdakıların həyata keçirilməsini vacib sayırdı: 1. Əksər hallarda mədəni mərkəzlərdən uzaqda yaşayan türk-tatar alimləri müxtəlif jurnallarda, toplularda, Şərq, Avropa və qədim dillərdə nəşr olunmuş mənbələrdən istifadə edə bilmirlər. Türk-tatar alimlərinin bu dilləri bilmələri şərt deyil. Bu boşluğu aradan qaldırmaq üçün SSRİ-də daha geniş yayılmış türk dillərindən birində türk-tatar xalqlarının tarixini nəşr etmək lazımdır. 2. Eyni məsələ tarixi mənbələrə də aiddir. Onların əksəriyyəti indiyədək nəşr olunmayıb və hələ də arxivlərdə saxlanılır. Həm bu günə qədər nəşr olunmuş, həm nəşr olunmamış və arxiv materiallarının türk dilinə tərcümə olunaraq sistemli qaydada nəşr edilməsi vacibdir. 3. Bu və ya digər xalqın tarixi ilə bağlı bütün arxiv materiallarının nəşri mümkün olmadığına görə bu materialların qısa açıqlanması, saxlandığı yer, fond nömrəsi, səhifə və s. məlumatların əks olunduğu göstərişlərin nəşr olunmasına ehtiyac var. 4. Bizim xalqlarımızın tarixi ilə bağlı rus və xarici alimlərin bir çox əsərləri türk-tatar alimləri üçün əlçatmaz olaraq qalır. Bunun səbəbi həmin əsərlərin ya nadir nüsxələrdə əks olunması, ya da türk-tatar alimlərinin bu əsərlərin yazıldığı dilləri bilməmələridir. Ona görə də bu əsərlərin türk dillərinə tərcümə olunması vacibdir. 5. Sovet İttifaqında yaşayan türk-tatar xalqlarının əcdadları ya yazılı mənbələri heç saxlamamışlar, ya da bu mənbələrin sayı çox azdır. Bu səbəbdən bu xalqların qədim tarixinin öyrənilməsi üçün mənbə qismində maddi mədəniyyət abidələrinin qalıqları və xalq danışıq dili çıxış edə bilər. Ona görə arxeloji qazıntıların

aparılmasına və məhv olmaq təhlükəsi ilə üz-üzə qalan xalq danışıq dili nümunələrinin daha sürətlə toplanılmasına ehtiyac var.

Əziz Qubaydullinin məruzəsindən sonra söz S.İ.Rudenkoya verilir. Rudenko **"Türk tayfalarının etnoqrafiyasının öyrənilməsinin müasir vəziyyəti və ən yaxın vəzifələri"** mövzusunda çıxış edir. Çıxışı zamanı türklərin yaşayış tərzi, etnoqrafiyası, antropologiyası və s. məsələlərindən bəhs edən alim, onların yaratdığı mədəniyyətə də münasibətini bildirərək deyirdi: "Uzun əsrlər boyu, bir tərəfdən qədim sivilizasiyalı xalqlar, digər tərəfdən isə primitiv etnik qruplarla yanaşı, birgə yaşayış da türklərin əvvəlki məişətinə önəmli dəyişikliklər gətirdi. Bununla yanaşı, heç bir mübaliğəyə yol vermədən, ayrıca türk mədəniyyəti haqqında danışmaq mümkündür". Rudenko göstərirdi ki, türklərin qədim köçəri maldar olduqlarını diqqətə çəkməklə yanaşı, onların məişətindəki əkinçilik, ovçuluq, xüsusilə də at türklərin həyatının əsasını təşkil edirdi: "At türk tayfalarının çevikliyini, geniş coğrafi ərazidə yayılmasını, mövsimi köçlərini, qida rejimini, əhəmiyyətli dərəcədə geyimlərinin və yaşayış yerlərinin xarakterini, məişətlərini şərtləndirirdi. Atın türk tayfalarının qədim dəfn kultunda, mifologiyasında və işıqlı tanrılar mərasimində, belə görkəmli rol oynaması heç də təsadüfi deyil. Köçəri türklərin təsərrüfatlarında qaramal və qoyunlar mühüm, lakin tabe rol oynayır. Onlarda bolluq, var-dövlət at ilxılarının sayı ilə ölçülür"[34].

Professor Sergey İvanoviç Rudenko çıxışında türklərin alaçıq və evləri, bitki materiallarının və metalın emalı, xəz, dəri və yun parçalardan tikilən geyimlər, türk kişilərinin baş geyimləri, eləcə də qadınların davranışı və zinət əşyaları barədə müfəssəl məlumat verirdi.

S.İ.Rudenkonun Aqnatik (kişi tərəfindən) qohumluq sistemi, ailə və nəsildə böyüklərlə kiçiklərin münasibəti, ailədə yad qadınların vəziyyəti, başlıq və əri ölən qadının mütləq öz qaynına getməsi (levilatla), toy adətləri, toyda həyata keçirilən güləş və at yarışları və s. barədə verdiyi məlumatlar türklərin sosial quruluşu barədə ümumi təsəvvür yaradır.

Rudenko göstərirdi ki, türklərin dini dünya görüşləri haqqında mühakimə yürütmək qat-qat çətindir. İslam türklər arasında hakim dindir. O bizim mövcud olmuş türk dünyagörüşünü görməyə qoymur,

---

[34] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 67.

yalnız çox az türk tayfası həqiqətən türklərə mənsub saymalı olduğumuz dinlərin bəzi cəhətlərini qoruyub saxlamışlar.

Alim təəssüf hissi ilə qeyd edirdi ki, türk dünyası sahəsində poleoetnoloji tədqiqatlar, hələlik yalnız rüşeym halındadır. Türklərin məskunlaşdıqları ərazilərdə, xüsusən şərq ucqarlarında, türk dünyasının mənşəyində planlı, gözəl və elmi şəkildə təşkil edilmiş paleoetnoloji ekspedisiyaların təşkili birinci növbədə həll edilməli məsələ olmalıdır. Müasir maddi və mənəvi məişətin tədqiqi məsələsinə qayıdarkən, ümumi, metodiki səciyyəli və nisbətən fərdi vəzifələr müəyyənləşdirilməlidir. O, çıxışının sonunda türk tayfalarının vokal və təsviri sənədlərinə qısaca da olsa toxundu və qeyd etdi ki, bu barədə prof. A.A.Miller daha ətraflı danışacaq[35].

Türk xalqlarının təsviri sənəti barədə danışan A.A.Miller isə bildirdi ki, türk xalqlarının təsviri sənət fəaliyyətinə nəzər salsaq, belə bir nəticəyə gələrik ki, bu təsviri sənətin nümunələrinə müxtəlif tərəfdən baxmaq mümkündür. İlk növbədə, bu fəaliyyətdə dekorativ işin bu və ya digər məişət əşyasına özünəməxsus tədbiqini görəcəyik. Türk xalqlarının təsviri işlərinin bu əlamətdar baxımdan tədqiqinə başlasaq, bu və ya digər baxımdan bir-birindən müəyyən dərəcədə, bəzən isə hətta kəskin şəkildə fərqlənən kiçik sahələrin lokallaşmasına gəlib çıxarıq. Bu yolla getmək üçün külli miqdarda müqayisə materialları olmalıdır ki, hələlik, sərəncamımızda bu qədər material yoxdur.

Xalq yaradıcılığının başqa sahələrindən bəhs açan Millerin fikrincə, ornamentlər türklərin qarşılıqlı mədəni münasibətlərinin anlaşılması üçün müəyyən material verər, bu qarşılıqlı münasibət və təsirlərin əldə olunan ümumi mənzərəsi isə elə həmin münasibətlərin başqa material üzərində qurulan mənzərəsi ilə üst-üstə düşər. Ornamental baxımdan türk dünyasının təsviri sənəti bizi zənginliyi və rəngarəngliyi ilə heyran edir. Bu materialı diqqətlə təhlil edərkən və ornamental elementləri mühüm əlamətlərinə görə qruplaşdırarkən bizə aydın olur ki, bu rəngarənglik və hətta alabəzəklik müəyyən və qanunauyğun əsaslara malikdir. O, hesab edirdi ki, ornament baxımından ən zəngin olan türk xalqları yüksək

[35] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 69-70.

inkişafa malik mədəniyyətlərlə çoxdan təmasda olan və onların güclü təsirinə məruz qalanlardır[36].

İkinci iclasda deyilənlərdən, xüsusilə də V.V.Bartoldun məruzəsindən aydın olur ki, türklər öz tarixlərini yazmadıqlarından türkologiyanın tədqiqi zamanı İran, Çin və ərəb mənbələrinə üz tutmalıyıq. Bu fikirdə olan məruzəçilərlə razılaşmaq bir qədər çətindir. Biz sadalanan mənbələrdən istifadənin əleyhinə deyilik, lakin "türklər tarix yazmayıb" və ya onların "yazılı tarixləri olmayıb" - deyərək türklərin qədim yazılı mənbələrini inkar etmək də olmaz.

V.Tomsenin qədim türk (run) yazılarını oxuması təkcə türkologiya sahəsində deyil, bütövlükdə elmdə bir inqilab oldu. İndiyə kimi türklərin qədimliyini qəbul etməyənlərin qısqanclığına (tam olmasa da) son qoyuldu. Üzə çıxan materiallar türkologiyanın ilk və həm də olduqca ciddi mənbələrindən biri kimi özünü göstərməyə başladı. Tədqiqatçıların qeyd etdiyi kimi, "Türklər özləri barədə müstəqil bir etnos kimi formalaşdıqları, tarix səhnəsinə çıxdıqları dövrdən "düşünməy"ə başlamışlar. Lakin bu düşüncələr I minilliyin ortalarına qədər, şifahi xarakter daşımış, yalnız I minilliyin ortalarından sonra meydana çıxan qədim türk (run) yazısı türklərin özləri barədə "yazılı düşünmə"ləri üçün şərait yaratmışdır. E.ə. I minilliyin ortalarından b.e. I minilliyinin ortalarına qədərki dövrdə türklər haqqında ən mötəbər mənbə qədim türk mifologiyası, sonra isə eposdur ki, onların (türklərin) yaranması, dünyada tutduqları ictimai-siyasi mövqe, etnik xarakterləri, vərdişlər sistemi və s. barədə kifayət qədər geniş məlumat verir. "Yaradılış", "Törəyiş", "Ərgənəkon", "Alp Ər Tonqa", "Oğuz kağan" və s. mənbələr özünüdərkin bilavasitə təzahürləridir. Qədim türk (run) yazılı abidələri, xüsusilə Kül tiqin, Bilgə xaqan, Tonikuk mətnləri artıq özü barədə "düşünmə"yi bacaran bir xalqın yaradıcılıq məhsuludur"[37].

Bu yanaşmadan da aydın görünür ki, türkoloqlar bu mətnlərdən – mifdən Kaşqariyə və Kaşqaridən Mirzə Kazım bəyə, Mirzə Kazım bəydən İsmayıl bəy Qaspirallıya və Əli bəy Hüseynzadəyə, eləcə də türkoloji qurultaya qədərki dövrlərdə yaranmış yüzlərlə ədəbi mətnləri və elmi araşdırmaları nəzərə almamaq ədalətsizlik olardı. Deməli, V.V.Bartoldun mövqeyində olanlar adı gedən mənbələrə (Çin, İran, ərəb və s.) ən etibarlı olan türk mənbələrini də əlavə etməlidirlər.

---

[36] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 84-85.

[37] Cəfərov N., Qəribli A., Qəribli E. Türkologiya, Bakı, 2018, s. 25-26.

***

Fevralın 27-də keçirilən ikinci iclasdakı məruzə və çıxışlardan aydın görünür ki, qurultayda ciddi müzakirəyə çevrilən məsələlərdən biri də etnoqrafiya (yunan sözü olub, **"etnos"** xalq, **"qrafis"** isə təsvir etmək, xalqı öyrənmək deməkdi) məsələsi idi. Bir elm sahəsi kimi etnoqrafiyanın başlıca vəzifəsi xalqı öyrənmək, onun tarixini tədqiq etmək və daha da zənginləşdirməkdən ibarətdir. Etnoqrafiya xalqın məişətini və mədəniyyətini tədqiq edən elm sahəsidir. Etnoqrafiya bir elm sahəsi kimi müxtəlif xalqların məişət və mədəniyyətində olan müxtəlifliyi öyrənməklə yanaşı, onların oxşar cəhətlərini də nəzərdən qaçırmır, yalnız müasir xalqları deyil, həmçinin, hazırda siyasi fəaliyyət səhnəsindən çıxmış, yox olmuş xalqları da öyrənir. Bununla etnoqrafiyanın xüsusi bir sahəsi olan tarixi etnoqrafiya məşğul olur. Elmi mənbələrdə deyildiyi kimi, əgər arxeologiya tarix elminin ixtiraçısı hesab olunursa, etnoqrafiya onun bərpaçısı funksiyasını daşıyır. Ona görə də hər bir tədqiqatçı tarixin tədqiqi zamanı arxeoloji və etnoqrafik mənbələrə üstünlük verməlidir[38]. Görünür, qurultayın təşkilatçıları və iştirakçıları məsələnin vacibliyini və aktuallığını dərk etdiklərindən bu problemə xüsusi önəm vermiş, onun gələcək perspektivlərini göstərmiş və bununla da türkdilli xalqlarda etnoqrafiyanın bir elm sahəsi kimi formalaşmasının əsasını qoymuşlar.

Qurultaya Türkiyədən qatılan macar alimi kimi Gyula Messaroş etnoqrafiya məsələlərindən danışarkən qeyd edirdi ki, etnoqrafiya, daha geniş götürdükdə isə, etnologiya (etnik prosesləri öyrənən elm - C.Q.) özünün xəlqi-psixoloji sisteminə malik müqayisəli elm kimi, qarşısına ümumbəşəri mədəniyyətin mənşəyi sirrini açmaq vəzifəsini qoyur. Anadolu türklərinin də aid olduqları nisbətən inkişaf etmiş xalqlarla bağlı, belə beynəlxalq genetik məsələlər tədqiqatçını heç də birinci növbədə maraqlandırmır. Burada ilkin vəzifə xalqın etnoqrafik növünün təzəhürlərini və kollektiv düşüncə üsulunu göstərə bilən maddi materialları toplamaq və təsnif etmək zəruridir. Bu cür materiallar toplanılır və Ankarada təşkil olunan Etnoqrafiya muzeyində saxlanılır.

Professor qeyd edirdi ki, "İlyarım bundan əvvəl Türkiyə Cümhuriyyəti hökuməti Ankarada Türkiyə Etnoqrafiya Muzeyini təsis etdi. Bu müəssisənin vəzifəsi Anadolu türklərinin qədim və ənənəvi mədəniyyətlərinin ölməkdə olan abidələrini elmi üsullarla qoruyub saxlamaqdır. Muzeyin layihəsinin hazırlanması və bu sahədə əşyaların

[38] https://az.wikipedia.org/wiki/Etnoqrafiya

toplanması artıq ilyarımdır ki, davam edir. İndiyədək gələcək sistemli kolleksiyalar üçün təməl ola bilən dəyərli materiallar toplanıb. Yaxın illərin proqramına ölkənin ayrı-ayrı vilayətlərinin tədqiqi və orada maddi mədəniyyət əşyalarının toplanması daxildir. Güman ki, Türkiyə hökumətinin xeyirxah dəstəyilə bir neçə il ərzində Anadolunun müasir etnik strukturu və etnoqrafiyası haqqında əyani təsəvvür əldə olunacaq"[39].

G.Messaroş geniş məruzəsində Anadolu və Balkan türklərinin əski tarixinin, etnoqrafiyasının, antropologiyasının, linqvistikasının, şifahi xalq yaradıcılığının kifayət qədər mükəmməl tədqiq olunmadığını, daha doğrusu, tədqiqatlardan bir qədər kənarda qaldığını nəzərə alaraq türkoloqların və şərqşünas alimlərin diqqətini bu problemin həlli istiqamətinə yönəldirdi.

"Qafqaz türklərinin etnoqrafiyasının tədqiqinin ən yaxın vəzifələri" mövzusunda çıxış edən Q.F.Çursin də professor G.Messaroş və digərləri ilə eyni mövqedə dayanaraq göstərirdi ki, Zaqafqaziya türkləri iqtisadi və siyasi həyatda ciddi rol oynamalarına baxmayaraq, etnoqrafik cəhətdən (məişət, adət, folklor, antropologiya, dialektologiya və s.), demək olar ki, öyrənilməmiş qalırlar. Buna görə də, Qafqaz Türk xalqlarının etnoqrafik cəhətdən tədqiqi işinin sistematik, eləcə də planlı şəkildə həyata keçirilməsi mühüm və təxirəsalınmaz məsələdir. Q.F.Çursin hesab edirdi ki, Qafqaz türk xalqlarının etnoqrafiyasının tədqiqini sistemli həyata keçirmək üçün Bakıda Türkoloji Tədqiqat İnstitutunun və onun nəzdində etnoqrafik şöbənin, bunların fəaliyyətini işıqlandıra bilən mətbu orqanın yaradılması vacibdir. Bundan başqa o, Qafqazın türk xalqları haqqında ədəbiyyatın son dərəcə dəqiqliklə işlənib hazırlanmış bioqrafik siyahısını tərtib etməyi, türk xalqları haqqında olan ən qədim kitabələri toplu şəklində ayrıca çap etdirməyi də vacib sayırdı. O, göstərirdi ki, əgər Qafqaz türklərinin etnoqrafiyasını özündə əks etdirən dəyərli tədqiqatlar varsa, şübhəsiz, onları da bir yerə toplamaq və ayrıca toplu şəklində çap etdirmək lazımdır. Ona görə ki, indiyənədək çap olunan tədqiqatlar artıq nadir kitablara çevrildiyindən, onlardan istifadə xeyli çətinləşib. Daha sonra ən mühüm məsələ-ümümiyyətlə etnoqrafiyanın, xüsusən də Qafqazın türk xalqlarının entologiyasının ardıcıl və planlı şəkildə tədqiqini öz üzərinə götürəcək müəssisənin

[39] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 73.

yaradılmasıdır. Bundan başqa, o, türkologiya məsələlərinə həsr olunmuş xüsusi mətbuat orqanlarının yaradılmasını da faydalı sayırdı. Bu xüsusda Q.F.Çursin deyirdi: "Bizim belə bir orqanımız yoxdur və onun yaradılması son dərəcə məqsədəuyğun olardı. Çünki o təkcə türkoloji elmi qüvvələr üçün mərkəz yox, həm də türkologiya sahəsində yeni tədqiqatçılar yetişdirilməsi üçün ocaq da ola bilər. Daha sonra, kolleksiyaların toplanması işi də son dərəcə pis haldadır. Məlumdur ki, Sovet İttifaqının heç bir muzeyində SSR-nin bütün türk xalqları bir yana dursun, heç Qafqazın türk xalqlarının məişətini səciyyələndirən sistemli şəkildə tərtib olunmuş kolleksiyalar yoxdur"[40].

Maraqlıdır ki, qurultayda Q.F.Çursinin **"Qafqaz türklərinin etnoqrafiyasının öyrənilməsinin ən yaxın vəzifələri",** A.A.Millerin "**Türk xalqlarının təsviri sənəti haqqında",** eləcə də S.İ.Rudenkonun **"Türk tayfalarının etnoqrafiyasının öyrənilməsinin müasir vəziyyəti və ən yaxın vəzifələri"** mövzusunda dinlənilən məruzələri müasir tədqiqatçılar tərəfindən birmənalı qarşılanmır. Bu məsələyə həsr olunmuş məqalələrin birində oxuyuruq: "Bu məruzələrdə (söhbət yuxarıda adlarını çəkdiyim şəxslərdən gedir – C.Q.) xarakterik cəhət nədən ibarət idi? Bu hər şeydən əvvəl, məruzələrin müəyyən mənada dayazlığında özünü göstərirdi. Bunu müzakirədə çıxış edən Tatarıstan nümayəndəsi Qalımcan Şərəf də qeyd etmişdi: "Məruzələr öz mövzusunu geniş və dərinliyi ilə əhatə edə bilmir. Bunu onunla izah etmək olar ki, (məruzəçilərin əməyini kiçiltmədən) onların heç biri türk deyildi. Bu səbəbdən də onlar türklərin təsərrüfat həyatını, məişət tərzini, adət-ənənəsini yalnız uzaqdan seyr etməklə, qəbrüstü daşları, tikililər üzərindəki yazıları oxumaqla öyrənmişdilər. Amma, hər halda, onların məruzələri olmasaydı, həmin məsələ qurultayın gündəliyinə çıxarılmazdı. Məruzələrin adlarından da göründüyü kimi, onlar arasında bir yaxınlıq var idi"[41].

Əlbəttə, müəllifin mövqeyi ilə müəyyən qədər razılaşmaq olar. Həqiqətən də, həmin məruzələr həm də türk kökənli alimlər tərəfindən edilsəydi daha yaxşı olardı. Çünki onlar türkdilli xalqların xarakterini, fəlsəfi dünyagörüşünü, milli psixologiyasını və milli mentalitetini, adət-ənənələrini, rituallarını, qan və gen yaddaşını daha yaxşı bilirlər.

---

[40] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 82.

[41] Birinci Türkoloji Qurultayın 80 illiyinə həsr olunmuş respublika elmi-nəzəri konfransın materialları. 24-25 mart 2006-cı il. Bakı, 2006, s.182-183.

Buradan belə çıxmasın ki, türkün tarixi ilə türk, almanın tarixi ilə alman, rusun tarixi ilə rus, ingilisin tarixi ilə ingilis, Fransanın tarixi ilə fransız... məşğul olmalıdır. Əsla, elmlərin və mədəniyyətlərin qarşılıqlı şəkildə öyrənilməsi olduqca vacib və inkaredilməzdir. Bunsuz hər hansı bir elmin inkişafından söhbət gedə bilməz. Çünki xalqların tarixi inkişafı biri-biri ilə sıxı surətdə bağlıdır. Etnoloji elmlər içərisində özünəməxsus yeri və mövqeyi olan türkologiyanın tədqiqində milli alimlərin iştirakı olduqca vacibdir. Etnoqrafiya və adət-ənənə məsələsində yuxarıda saydığımız amillər unudulmamalıdır. Fikrimizcə, belə məsələlərin araşdırılmasında yerli alimlərin iştirakı, onların bilgilərindən istifadə, yəni müştərək tədqiqat aparmaq daha çox fayda verə bilər. Bu məsələ qurultay iştirakçılarının özləri tərəfindən də etiraf edilirdi.

***

27 fevralda Həbib Cəbiyevin sədrliyi ilə keçən üçüncü iclası əvvəlki iclasın, xüsusilə də, etnoqrafiya ilə bağlı məruzələrin müzakirəsi kimi də dəyərləndirmək olar. İclasda ilk çıxış edən Aleksey Makaroviç Şabaşkin təəssüf hissi ilə bildirirdi ki, bizim türklüyümüzü bizə unut-durmağa çalışan bəzi şərqşünas alimlər oyratları bir türk xalqı kimi tanımaq istəmir və onları kalmık, "özgə xalqdan olan" ("inoredes"), altay, teleuq, türkləşmiş monqollar adlandırırdılar. Bunun səbəbini çar Rusiyasının yeritdiyi siyasətdə görən A.M.Şabaşkin qurultaydan obyektiv tədqiqatların aparılmasını xahiş edirdi. O, bu tədqiqaqtlarda yalnız arxiv və kitablara deyil, arxeoloji qazıntılara da önəm verməyi tövsiyə edir və deyirdi: "...Tariximiz, yoldaşlardan birinin ifadəsinə görə, "yer altında" olduğundan, yəni onu bel və ya balta ilə əldə etmək lazım gəldiyindən, burada təkcə əqli yox, fiziki qüvvə də tətbiq edilməlidir. Deməli, bu tayfalar arasında işləyən yoldaşlar bu tarixi bərqərar etmək üçün hərtərəfli yardım axtarmalı olurlar. Bizim xalqımızın, bizim tayfanın tarixi torpaq altındadır. Qazıntılar vaxtaşırı aparılır, lakin mən burada həmin işi aparan yoldaşlardan xahiş etmək istərdim ki, onların işində yerlərdəki işçilər də iştirak etsinlər"[42].

Dəfn edilmiş tarixin və tarixi həqiqətlərin üzə çıxarılması və dünya ictimaiyyətinə çatdırılması təkcə Şabaşkinin deyil, hesab edirik ki, tarixi təhrif olunmuş bütün xalqların arzusudu.

---

[42] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 90.

Yeri gəlmişkən qeyd etməliyik ki, S.İ.Rudenko Şabaşkin tərəfindən düzgün başa düşülmədiyini bildirir və məsələyə belə aydınlıq gətirirdi: "Məruzəmdə demirdim ki, oyratlar, daha dəqiq desək, teleutlar, altaykıjlar və telenketlər türkləşdirilmiş monqollardır; onlar təkcə türk yox, güman ki, qədim türk məişətini qoruyub saxlayan ən qədim türklərdir"[43].

Üçüncü iclasda çıxış edən Nikolay Feofanoviç Yakovlev türkdilli xalqların etnoloji tədqiqatının aparılmasını gündəmə gətirdi və etnoloji tədqiqatla paralel olaraq iqtisadi tədqiqatın aparılmasının əhəmiyyətindən danışdı.

Qazi Alim Yunusov isə etnoqrafiya ilə bağlı məruzələrə münasibət bildirərək qeyd etdi ki, məruzələr olduqca kasad idi ki, onlar jurnallardan götürülmüş məqalə təsiri bağışlayırdı. Yunusov məruzələrdən türk xalqlarının həyatı və maddi mədəniyyətinə dair faktlarla zəngin olan elmi yenillik tələb edirdi. O, cəsarətlə deyirdi ki, dilçilərimiz özbəklərdə hansı ləhçələrin olduqlarını bilmirlər. Sartları özbək dilinin bir ləhcəsi adlandıranlara etiraz edən alim göstərirdi ki, sartlar farsdır. Onlar özbək dilində danışanda belə fars olduqları bəlli olur. Sonda Moskva və Leninqrad türkoloqlarının etnoqrafiya ilə ciddi məşğul olmadıqlarını vurğulayan natiq qurultay iştirakçılarından bu sahə ilə dərindən məşğul olmalarını xahiş edirdi.

Türk xalqlarının maddi mədəniyyət abidələrinin toplanmasından və sistemləşdirilməsindən danışan Həbibulla Odabaş müəllimləri "mədəni qüvvə" adlandırdı və bu sərvətlərin toplanmasında onların köməyindən istifadə etməyi vacib hesab etdi. O, təklif etdi ki, etnoqrafik tədqiqatlar aparmaq üçün türklərin özlərindən mütəxəssislər, yəni mlli kadrlar hazırlanmalı, etnoqrafik konfranslar keçirilməli və etnoqrafiya muzeyləri yaradılmalıdır. Etnoqrafiya müzeylərinin yaradılması məsələsinə münasibət bildirən S.İ.Rudenko qeyd edirdi ki, mən etnoqrafik tədqiqatlar kifayət qədər aparılmadığından Odabaşı "belə bir təşəbbüsdən çəkinməyə çağırıram"[44].

Çıxışında Əyupov Qalimcan Süleymanoviç türk xalqlarının tarixinin və etnoqrafiyasının tədqiqinin kortəbii aparıldığını göstərdi və qeyd etdi ki, bunu aradan qaldırmaq üçün işlər planlı və təşkilatlanmış şəkildə aparılmalı, türkdilli xalqlar arasında əlaqələr yaradılmalıdır. Əyupovun bu mövqeyi ilə razılaşaraq deyə bilərik ki, həqiqətən də,

---

[43] Yenə orada. s. 97.

[44] Yenə orada. s. 100.

türkdilli xalqlar arasında belə bir ədəbi-mədəni, elmi-nəzəri əlaqənin yaradılması gələcək tədqiqatların daha fundamental və daha konseptual aparılmasına xidmət edərdi.

Tatar Respublikasında etnoqrafiya sahəsində görülən işlər barədə məlumat verən Əziz Qubaydullin bildirirdi ki, tatarların etnoqrafiyasının öyrənilməsi istiqamətində hazırda 5 elmi işçi iş aparır. Tat respublikası elan olunan gündən Şərəfi Tat respublikanın türk-tatar əhalisnin ümumi etnoqrafiyasının, Vorobyov mənzillərin, Dulski tətbiqi sənətin, F.Seyfi isə tədricən itib gedən islamaqədərki şamanizmin mənzərəsini bərpa etməyə cəhd göstərərək, dini etiqadların öyrənilməsilə məşğul olurdular.

Etnoqrafiya sahəsində görülən işləri ümumiləşdirən alim ilkin olaraq qeyd edirdi ki, keçən ilin payızında Tatar Respublikasının xalqlarının, xüsusən də tatarların məişətini sinfi əsaslarla – varlı kəndlərin, kasıb kəndlərin, eləcə də şəhər əhalisinin məişətini öyrənən tatar etnoqrafiya şöbəsi açıldı ki, bu şöbə muzeydə bir neçə otaqdan ibarətdir.

Coğrafi təsvirin çapını ikinci nailiyyət hesab edən Ə.Qubaydullin göstərirdi ki, kifayət qədər qalın olan ikinci cild çapdan çıxıb ki, burada tarixi məqalələrlə yanaşı, respublikanın tatar əhalisinin maddi məişəti haqqında kiçik tədqiqatlar da yerləşdirilib.

Üçüncü əsas nailiyyət kimi o, tatarlar tərəfindən yaradılan cəmiyyətləri hesab edir və bu xüsusda deyirdi: "Tatar alimləri dilçilik tarixi sahəsində də bəzi işlər görüblər. Keçən il Tatarşünaslıq cəmiyyətində bir neçə məruzə edilib. Tat respublikada etnoqrafik elmlərlə iki cəmiyyət məşğul olur: Qazan Universiteti nəzdində Etnoqrafik və Arxeoloji Cəmiyyət – bu cəmiyyət yeni həyatla möhkəmləndirilib və bura ilk dəfə olaraq tatar işçiləri də daxil edilib və ikinci – bu yaxınlarda Şərqşünaslıq Assosiasiyasının təşəbbüsü ilə yaradılan Tatarşünaslıq Cəmiyyəti. Sonuncu cəmiyyət bir tərəfdən, tatar əhalisinin keçmişini, digər tərəfdən isə tatarların məişət və etnoqrafiyasını öyrənir. Bir neçə ekspedisiya da elə məhz bu qaydada keçirilib. Keçən ilin yayında üzvləri tatar xadimlərindən ibarət olan kifayət qədər böyük və uğurlu ekspedisiya həyata keçirilib. O, respublikanın tatar əhalisinin maddi və mənəvi mədəniyyətinə dair külli material toplayıb. Sonuncu nailiyyət kimi Pedaqoji Universitetin Şərqşünaslıq (indi artıq tatarşünaslıq) şöbəsi nəzdində yeni kafedranın – tarix kafedrasının açılmasını göstərə bilərik. 1922-ci ildə Şərq Akademiyası yaratmağa təşəbbüs göstəriləndən sonra, Qazanda türk-tatar

xalqlarının etnoqrafiyasına yönəldilib, eyni zamanda, tatar folklorunun öyrənilməsinə də istiqamət götürülüb".

Əziz Qubaydullinin bu hesabat xarakterli çıxışından aydın olur ki, artıq etnoqrafiya sahəsində ilkin addımlar atılmağa başlanmışdır ki, bu da gələcəkdə bu sahədə olan mövcud boşluğun aradan qalxmasına zəmin yaradacaqdır.

Qubaydullindən sonra çıxış edən Petrov Mixail Petroviç çuvaşların tarixi və taleyi barədə kiçik bir arayışdan sonra bildirdi ki, sizə təqdim etdiyim tarixi icmaldan görünür ki, çüvaş dünyası ciddi və sistemli tədqiqat obyekti olmayıb. Bununla ayrı-ayrı şəxslər məşğul olub ki, bu da ötəri, təsadüfi səciyyə daşıyıb. Bütün varlığını, bütün gənclik istedadını bu işə sərf edən yeganə adam çuvaş dilinin qrammatikasını yaradan Nikolay İvanoviç Aşmarin olub. Fikrimcə, bir çoxlarının belə qrammatikası yoxdur. Biz bu məsələyə hələ ancaq hazırlıq görürük. Qarşımızda hələ çuvaşların həyatının məişətinin öyrənilməsi ilə bağlı bir sıra məsələlər durur. Sonda M.Petrov bildirdi ki, xalqın həyat və məişətinin tədqiqi kollektiv şəkildə olmalıdır. Yəni o, bu sahəyə maraq göstərən xalqın nümayəndələrinin həmin işə cəlb edilməsini arzulayırdı.

Fevralın 27-də keçirilən iclasda son məruzəni Bəkir Çobanzadə etdi və o, bu sahədə də özünün alim sözünü dedi. Ümumiyyətlə, alimin Birinci Ümumittifaq Türkoloji Qurultaydakı **«Türk şivələrinin yaxın qohumluğu haqqında"** adlı məruzəsi həm qurultayda, həm də qurultaydan sonrakı dövrlərdə (alimlərin və bolşevik siyasətçilərinin) geniş müzakirə obyektinə çevrildi. Bunlar əsas verir deyək ki, Bəkir Çobanzadənin qurultayda etdiyi bu məruzə olduqca və olduqca ciddi, həm də yalnız elmi yox, siyasi bir məsələ idi. Çünki istər qurultaya qədərki, istərsə də qurultaydan sonrakı dövrlərdə türkdilli xalqların dil və ya gen qohumluğu məsələsi çar və sovet Rusiyası iqtidarının diqqət mərkəzində idi. Belə bir ciddi problemi (türklərin dil, gen və genezis problemini) elmi-konseptual əsaslarla, dünyanın müxtəlif ölkələrindən gəlmiş nümayəndələrin iştirak etdiyi qurultay səviyyəsində faktlı-predmetli şəkildə sübut etmək, adi elmi hadisə deyil. Fikrimizcə, B.Çobanzadənin bilərəkdən və ya bilməyərəkdən imperiya siyasətinə qarşı yönələn etiraz aktı idi.

B.Çobanzadə adı keçən məruzəsində qurultay iştirakçılarına bildirirdi ki, türk dillərinin və türk şivələrinin qohumluğu məsələsi zamanında Vilhelm Vundt, Vilhelm fon Hunbolt və Karl Marks kimi görkəmli şəxslər tərəfindən elmi şəkildə araşdırılmışdır. Ona görə də alim diqqəti türk şivələrinin qədimliyi, tarixiliyi məsələsinə cəlb edir və

bildirirdi ki, türk şivələri hələ Orxon yazılarından da əvvəl mövcud olmuşdur. Orxon yazılarında bu şivələr 2 hissəyə bölünür (Şərq-Qərb və ya Şimal-Cənub). Bu yazılarda türk tayfaları olan karluklar, uyğurlar, tokuz oğuzlar, qırğızlar və digərlərinin adlarının çəkilməsi, nəhayət, yazıların özlərinin mövcudluğu bunu sübut edir[45].

Dilçi alimin fikrincə, o zamankı türklərin özlərini türk adlandırması şübhə doğurmur. Bütün tarix boyu bunun əsaslı sübutlarına rast gəlirik. Əgər biz müxtəlif dövrlərdə yazılmış "Kudatku-Bilik", "Divani-Hikmət", "Divani-lüğət-it-türk" kimi əsərlərə diqqət yetirsək, görərik ki, onlar müxtəlif şivələrdə yazılmalarına baxmayaraq, türk əsərləri və türk müəlliflərinin əsərləri kimi tanınır. Əgər bizim dediklərimizin doğru olduğunu qəbul etsək, o zaman türk şivələrinin hələ Orxon yazılarından əvvəl mövcud olduğunu qəbul etməliyik. Əslində, Orxon yazılarından başqa mənbələrin olmaması, başqa imkanları da istisna edir. XIII əsrə qədər "Kudatku-Bilik" və "Divani-lüğət-it-türk" və bir sıra digər əsərlərdən başqa mənbəyə rast gəlinmir.

Məruzəçi M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərini son dərəcə dərin və dəqiq tədqiqat, hətta dahi əsər adlandırırdı. B.Çobanzadə göstərirdi ki, son dərəcə hazırlıqlı, bilikli və geniş dünyagörüşlü insan olan M.Kaşğari xüsusi elmi sistem quraraq türk şivələri arasında əlaqəni təmin etmişdir: "Türk şivələrinin leksik əsasları vahiddir. Burada heç bir fərq yoxdur. Yalnız hərflərdə (səslərdə) və onların dəyişməsində fərqlər var". Kaşğarinin bu fikirlərindən qaynaqlanan alim hesab edirdi ki, yuxarıdakı ifadələr yüksək intellekt sahibi olan Kaşğarinin dərin təhlil və elmi düşüncələrinin məntiqi nəticəsidir[46].

M.Kaşğarinin şivə və səs xüsusiyyətlərinə, tələffüzdəki (səslənmədəki) 9 fərqli məqama xüsusi diqqət yetirdiyini araşdıran Bəkir Çobanzadə "Divani-lüğət-it-türk"ə istinadən belə bir elmi nəticəyə gəlmişdir ki, müasir türk-tatar şivələri hələ XI əsrdən formalaşmağa başlamışdır. Bu şivələr arasında hələ də səs və forma fərqləri gözə çarpır. Bunlar da şimal və cənub şivələrini bir-birindən fərqləndirir.

B.Çobanzadə türk dillərinin və xüsusilə də şivələrinin M.Kaşğaridən Samoyloviçə qədər keçdiyi yolu aşağıdakı kimi ümumiləşdirirdi:

1) Türk şivələrinin tətbiqi tarixi yalnız iqtisadi və siyasi məsələlərin həllinə kömək etmək məqsədilə aparılır.

---

[45] Pervıy Vsesoyuznıy Tyurkoloqiçeskiy cyezd. 26 fevralya, 6 marta 1926 q. (Stenoqrafiçeskiy otçot. Baku, 1926), s. 96.

[46] Yenə orada, s.100-101.

2) Şivələrin müqayisəsi zamanı yalnız bir şivə əsas götürülüb.

3) Türk şivələrinin təsnifatı ilə bağlı aşağıdakı çatışmazlıqlar mövcuddur:

a) Yalnız səs xüsusiyyətləri nəzərə alınır

b) Tarixi xüsusiyyələr nəzərə alınmır.

c) Çox zaman prinsiplər qarışdırlır[47].

Türkologiyanın müxtəlif sahələrinin tədqiqi ilə məşğul olan Betlinq, Radlov, Tomsen, Van Beri, Budents, Ramsted kimi tanınmış simaların əməyini yüksək qiymətləndirən B.Çobanzadə bu alimlərin türk şivələrinin qohumluğu istiqamətində də müəyyən işlər gördüklərini göstərir, onların zəhmətinin böyük və danılmaz olduğunu vurğulayırdı. Bununla yanaşı, B.Çobanzadə Radlovun materialları yetərincə sistemləşdirmədiyini vurğulayır və onun lüğətinin yenidən nəşr olunmasını əhəmiyyətli hadisə hesab edirdi: "Bu materialların yenidən işlənməsi müqayisəli qrammatika və türk şivələrinin lüğətinin yaranmasına kömək edəcək. Bunsuz türk şivələrinin qohumluğu barədə elmi baxımdan danışmaq mümkün deyil. Lakin bizim dediklərimizdən bu məsələnin tamamilə öyrənilməsi nəticəsinə də gəlmək olmaz. Əksinə əsas kimi akademik Korş və Radlova məxsus olan, Samoyloviç tərəfindən təkmilləşdirilən təsnifatı götürmək olar" [48].

Fikirlərini davam etdirən B.Çobanzadə göstərirdi ki, M.Kaşğaridən Korşa, Radlova, Samoyloviçə qədər aparılan təsnifatların heç biri türk şivələri haqqında dolğun məlumat vermir. Şübhəsiz, bu təsnifatın praktiki əhəmiyyəti yoxdur. Onun əsasında terminologiyanı və qrammatikanı qurmaq olmaz. Bu ona görədir ki, bizim dövrümüzdə türk şivələrinin yaxınlığı və əlaqələri bu təsnifatın tərtib olunduğu dövrdən fərqlidir. Samoyloviçə görə, Berezin, Korş və Radlovun Orta Asiya tədqiqatlarında Özbək və Şərqi Türküstan şivələri şimal və cənub arasında orta yer tutur. Əgər biz türk xalqlarının tarixini gözdən keçirsək, deyilənlərin təsdiqini tapa bilərik. Deməli, Özbək və Şərqi Türküstan şivələri təsnifatda mərkəzi yer tutur və istinad nöqtəsi ola bilər. Buradan haçalanma başlayır. İstiqamətlərdən biri Türkmən-osmanlı, digəri Tatar-Başqırd-Qazax, Qırğız, Noqay və Başkir şivələridir. Yakut şivəsinin harada və necə yaranması barədə bu günə qədər heç bir məlumat yoxdur. Sibir və Altay türklərinin şivələri Mərkəzi Asiya şivələrinə daha yaxındır. Çuvaş şivəsinin tədqiqində bir tərəfdən Poppe, Nemetin əsərləri

[47] Pervıy Vsesoyuznıy Tyurkoloqiçeskiy cyezd. 26 fevralya, 6 marta 1926 q.(Stenoqrafiçeskiy otçot. Baku, 1926), s. 100.

[48] Yenə orada, s. 100-101.

böyük rol oynayır və bu alimlər çuvaş və yakut şivələrinin yaxınlığı barədə danışır. Əgər bununla razılaşmasaq, biz bu şivələri qazax və oyrat şivələrinə aid etməliyik. Halbuki, çuvaş şivəsi müstəqil fonetikaya və morfologiyaya malikdir. Bir daha qeyd edək ki, mövcud əsərlər türk şivələrinin əlaqəsi və müqayisəli qrammatikasını ortaya qoya bilmir. Burada Villi Banqın "Göktürklərdən osmanlıya qədər" əsərini yada salmaq lazımdır. Əgər vəziyyət belədirsə, bütün fantaziyaları kənara atıb ayrı-ayrı şivələrin tədqiqi və müqayisəli təhlili ilə məşğul olmaq lazımdır. Hal-hazırda göktürklərdən osmanlı şivəsinə qədər ümumi tədqiqat üsulunu tapmaq mümkün deyil. Nəticə olaraq türk şivələrinin tədqiqinin keyfiyyəti baxımından bu tədqiqatların türkologiyanın digər sahələri ilə və ilk növbədə tarixi araşdırmalarla sıx əlaqədə aparılması vacibdir. Akademik Bertold və doktor Mesaroşun çıxışlarından məlum olur ki, bu hələ yaxın dövrdə mümkün olmayacaq[49].

S.Ağamalıoğlunun sədrliyi ilə fevralın 28-də keçirilən dördüncü iclasda Nikolay Nikolayeviç Poppe **"Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti"** barədə məruzə ilə çıxış etdi. Altay dillərinin müqayisəli tədqiqində iki mühüm məqamı fərqləndirən Poppe Ural-Altay dilçiliyinin başlanğıcını XVIII əsrlə bağlayır. Poppenin fikrincə, Ural-Altay dillərinin müqayisəli tədqiqi uzun illər Sibirdə yaşayan, bir sıra xalqların dilləri üzərində tədqiqatlar aparmış Johann Stranlerberqin adı ilə bağlıdır. Johann Stranlerberq qohum və ya yaxın saydığı xalqları "tatar" adı altında birləşdirərək tədqiq etmişdir. O, bu xalqların ilk təsnifatını verən tədqiqatçıdır. J.Stranlerberqin fikrincə, həmin xalqları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Uyğurlar.
2. Türk-tatarlar.
3. Samoyedlər.
4. Monqollar və mancurlar.
5. Tunquslar.
6. Qara və Xəzər dənizləri arasında məskunlaşan tayfalar.

Bu təsnifatın mükəmməl olmadığını, kifayət qədər mübahisəli və qüsurlu olduğunu diqqətə çəkən N.N.Poppe ilkin təsnifat olduğuna və Ural-altay xalqlarının qohumluğu problemini qaldırdığına görə, Johann Stranlerberqin əməyini yüksək qiymətləndirirdi. Tədqiqatçılardan heç kim bu məsələyə, demək olar ki, düz bir əsr müraciət etməmişdir. Bir

[49] Yenə orada, s.101-102.

əsrdən sonra bu məsələyə müraciət edən görkəmli Danimarka dilçisi R.Rask oldu. Rask Johann Stranlerberqdən fərqli olaraq bu xalqları Ural-altay adı ilə deyil, "skif" dilləri qrupu adı altında tədqiq etməyə başladı. R.Rask "skif" xalqları sırasına yalnız tunqusları, monqolları, türkləri və fin-uqor xalqlarını deyil, Qrenlandiya sakinlərini, paleoasiyalıları, İspaniyanın və Avropanın digər xalqlarını da daxil etdi.

Maks Müller bu dillər qrupuna siam, tibet, cənubi-hind və Malay arxipelaqı dillərini də artırır. O, bu genişləndirilmiş qrup üçün "Ural-altay", "tatar" və ya "skif" deyil, "turan" adının verilməsini daha məqsədəuyğun hesab edir. N.N.Poppe göstərirdi ki, "turan" və ya turançılıq geniş yayılmadı. Ural-altay dillərini doğru yola Castren yönəltdi.

Natiq qurultay iştirakçılarına bildirdi ki, "Ural-altay dillərinin geniş miqyasıda öyrənilməsi, sözün həqiqi mənasında, Schott dövründən başladı. Ümumiləşdirmələrini, əsasən, Ural-altay dillərinin bəzi ümumi əlamətləri üzərində müşahidələr əsasında edən sələfləri və müasirlərindən fərqli olaraq, Schott öz qənaətlərini leksik materialdakı uyğunluqlar əsasında qurur, bununla yanaşı, Ural-altay dillərinin morfologiyasına da diqqət yetirirdi. Ural-altay dillərinin müqayisəli morfologiyası sahəsindəki əsərlərinə əlavə olaraq, bu qrupa daxil olan müxtəlif dillərə məxsus sözlərin bir sıra qarşılaşdırılmalarını verən Schott, Ural-altay problemini durğunluq vəziyyətindən çıxardı və Ural-altay müqayisə dilçiliyini indi də irəlilədiyi yola istiqamətləndirdi. Tədqiqatlarının əhatə dairəsini "çud dilləri" adlandırdığı fin-uqor və ümumi "tatar" adı altında birləşdirdiyi türk, monqol və tunqus dillərilə məhdudlaşdıran Schott da Castren kimi, Ural-altay dillərinin bütün qrupuna "Altay" və ya "çud altay" adını verir. Tək-tük istisnalar olmaqla, Schott müqayisəyə hər hansı bir başqa dil cəlb etmir və bu baxımdan, Castrenlə əl-ələ irəliləyir. Ural-altay nəzəriyyəsinin dayaqlarından biri olan Schott da, müasiri Castren kimi, Ural-altay dillərini bir-birilə eyni qohumluq əlaqələrilə bağlamir. Məlum olduğu kimi, Castren fin-uqor və samoyed dillərini daha yaxın qohumluq əlaqələrilə birləşdirir, bununla onları xüsusi Ural dilləri və ailəsi kimi ayırır Ural-altay qrupunun qarşılıqlı münasibətlərini dəqiqləşdirməyi digər dillərinə qarşı qoyur. Eynilə Schott fin-uqor dillərini bir-birilə daha yaxın əlaqələrində olanlar

kimi bir-fin və ya "çud" ailəsində fəqləndirirvə ümumi "tatar" adı altında birləşdirdiyi türk, monqol və tunqus dillərini onlara qarşı qoyur"[50].

N.N.Poppenin müşahidələrinə və dəqiqləşdirmələrinə görə, Altay müqayisəli dilçiliyi Schott dövründən başlanır və həmin dövrdən etibarən tədqiqatçıların səyləri, bir tərəfdən türk, monqol və tunqus, digər tərəfdən isə finuqor və samoyed dillərinin qarşılıqlı münasibətlərinin aydınlaşdırılmasına yönəldilir. Odur ki, ilk altayşünasların bütün əsərlərinin qənaətbəxş olmaması heç də təəcüblü deyil. Məsələn, Grunzelin müqayisəli qrammatikası Altay dillərinin müqayisəli tədqiqnin fərdi məsələlərinə dair bir sıra tədqiqatlardan sonra yerinə düşərdi və heç də Altay dillərinin müqayisəli tədqiqi sahəsində ilk addım olmamalı idi, çünki müqayisli qrammatika elə indinin özündə də meydana çıxsaydı və yalnız iki - monqol və türk dillərini əhatə etsəydi, bu yenə də vaxtından əvvəl baş vermiş hadisə olardı. Bütün Altay dillərinin qrammatikası isə, ümumiyyətlə, bir çox illərdən sonra meydana çıxa bilər.

Alim hesab edirdi ki, belə şəraitdə Altay dillərinin müqayisəli tədqiqinin vaxtı hələ yetişməmişdi və belə bir tədqiqat yalnız hələ öyrənilməyən Altay dilləri – canlı monqol və tunqus ləhcələri haqqında bu və ya digər dərəcədə qənaətbəxş materiallar toplandıqdan sonra mümkündür. Əlbəttə Poppenin bu mövqeyi ilə razılaşmamaq mümkün deyil, həqiqətən də mövcud materiallar toplanmadıqca fundamental tədqiqatların aparılması da mümkün deyil.

N.N.Poppe haqlı olaraq göstərirdi ki, monqol və türk dillərinin qohumluğunun heç də hamı dərhal qəbul etmədi. Belə ki, Nemeth hələ 1912-ci ildə türk-monqol qohumluğu nəzəriyyəsinə şübhə ilə yanaşdığını bildirmiş, lakin tezliklə oda türk və monqol dillərinin bir-birilə qohum olması qənaətinə gəlmişdir. Bununla yanaşı, o, monqol, türk və çuvaş dillərinin tarixində əsas mərhələləri müəyyənləşdirməyə çalışmış və dörd dövrə ayırmışdır. 1) ibtidai qohumluq dövrü, 2) çuvaş-monqol qarşılıqlı dil təsirləri dövrü, 3) tatar-manqol qarşılıqlı təsirləri dövrü, 4) monqol dilindən yakut alınmaları dövrü. Şübhəsiz ki, bu dövrlərin hər birinin özünəməxsus xüsusiyyəti vardı.

Nikolay Nikolayeviç Poppedən sonra **"Türk dillərinin Yafəs dilləri ilə münasibəti haqqında"** məruzə ilə çıxış edən professor Anatoli Nesteroviç Genko oldu. A.N.Genko ilk öncə dillərin fonetik, qrammatik-morfoloji qohumluğunu, nəsil və iqtibas kimi əlaqələrin elmi-

[50] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 111.

nəzəri əsasları barədə düşüncələrini qurultay iştirakçıları ilə bölüşür və bundan sonra yafetik xalqlar anlayışına aydınlıq gətirir: "Hazırda yafəs dillər dedikdə, elmi ədəbiyyatda Qafqazın bir tərəfdən Dağlı, digər tərəfdən Zaqafqaziya (gürcü və onunla qohum olan digəri) adı altında tanınan yerli dillər nəzərdə tutulur"[51]. Natiq hesab edirdi ki, türk dillərinin yafəs dilləri ilə əlaqəsi özünü substrat və iqtibas tiplərində büruzə verir, gələcəkdə tədqiqatlar genişləndikcə bu məsələlərə də aydınlıq gətiriləcəkdir. Müzakirələr zamanı da bəzi mübahisəli maqamlar müzakirə predmetinə çevrildi.

Fevralın 28-də qurultayın beşinci iclası baş tutdu. Qurultaya sədrlik edən Dağıstanın Xalq Komissarlar Sovetinin sədri Cəlaləddin Qorxmazov **"Türk dillərinin tədqiqinin müasir vəziyyəti və ən yaxın vəzifələri"** mövzusunda çıxış etmək üçün sözü Aleksandr Nikolayeviç Samoyloviçə verdi. Professor türkoloji qurultayın əhəmiyyətini yüksək qiymətləndirdi və Sibirdə yaşayan yakutların, Abakay türklərinin (saqayların, kaçinlərin), soyotların, cəmi 400 nəfərdən ibarət olan karaqas türklərinin, kamasinlərin, sarı uyğurların, Altayların canlı danışıq dilinin və xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqində mühüm rol oynayan Katanovun, S.Y.Malovun, Radlovun əməyini qədirşünaslıq işi adlandırırdı.

Orta Asiya türklərindən bəhs açan A.S.Samoyloviç qazaxların, qırğızların, özbəklərin, türkmənlərin, başqırdların, qazan tatarlarının, çuvaşların, noqayların, Dağıstan türklərinin şivə və ləhcələrinin, danışıq dili və xalq ədəbiyyatının vəziyyəti barədə məlumat verdi və Azərbaycan türklərinə gəldikdə bildirdi ki, İranda və Azərbaycanda yaşayan Azərbaycan türkləri dil baxımından bir o qədər də intensiv tədqiq olunmayıb. Azərbaycanın Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvlərindən olan N.İ.Aşmarinin Azərbaycan şivələrinin öyrənilməsi istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirən Samoyloviç deyirdi: "Aşmarinin gərək ki, bu gün çapdan çıxan işi buradakı şivələrin zənginliyini nümayiş etdirir ki, onların tədqiqi türkoloqlara zəngin materiallar vəd edir"[52].

Məruzəsinin sonunda o, türkdilli xalqların danışıq dilinin, şivə və ləhcələrinin, eləcə də xalq ədəbiyyatının toplanması və tədqiqi ilə bağlı təkliflərini də qurultay iştirakçılarının diqqətinə çatdırdı:

[51] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 121.

[52] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 137.

“Türkologiyanın qədəm qoyduğumuz yeni dövründə işin müasir elmin tələb etdiyi kimi getməsi, türk xalqlarının özlərinin nümayəndələrinin bu məsələyə göstərdikləri marağın nəzərə alınması üçün, ilk növbədə, hər bir respublikada yerli diyarı onun canlı dialektləri baxımından öyrənən mərkəzlərin yaradılmasının qeydinə qalmaq lazımdır. Daha sonra, həmin mərkəzlər müasir elmin tələbləri baxımından tamamilə hazırlıqlı, öz xalqlarını dil baxımından da öyrənə bilən əməkdaşlarla təmin edilməlidir. Türk dialektlərinin öyrənilməsi dərindən və təfsilatı ilə aparılmalıdır, bunun üçün türk tayfalarının yaşadıqları hər bir ayrıca bölgədə onların canlı şivələri təcrid olunmuş şəkildə yox, əhatəsində olduqları mühitlə əlaqədar öyrənilməli və həmin şivələrin qonşu dillərə, qonşu dillərin isə bu şivələrə qarşılıqlı təsiri də nəzərə alınmalıdır. Bu mövzuya burada artıq məruzəçilərdən bir neçəsi toxunduğundan, mən onun üzərində dayanmayacağam. Yerli əməkdaşların canlı türk şivələrinin öyrənməsi, ilk növbədə, xalq ədəbyyatına dair zəngin materialların, daha sonra isə sitatlarla əsaslandırılan söz materialının toplanması və nəhayət, hər bir ayrıca şivənin fonetika, morfologiya və sintaksisinin daxil olduğu təsviri qrammatikasının tərtibi istiqamətində aparılmalıdır. Yerlərdə hər bir şivənin hərtərəfli tədqiqinə yönəlmiş bu işlərlə yanaşı, indiyədək aparılan işin davamı olaraq, ümumiləşdirmə xassəli iş də təşkil edilməlidir. Əgər biz ümumiləşdirmə səciyyəli işlər sahəsində kollektiv iş prinsipinə müraciət ediriksə, bu işləri çox geniş təşkil etməli, beynəlxalq əməkdaşlığa əsaslanmalı və buna əsaslanaraq, hazırlıq işini həmin şivələrin tarixi-müqayisəli qrammatikada tam təfərrüatı ilə tədqiqi zəminində aparmalıyıq. Ayrı-ayrı lüğətlər, şivə və ləhcələri öyrənmək əsasında biz beynəlxalq zəmin əsasında kollektiv şəkildə ümumi terminoloji, ümumtürk lüğətinin hazırlanmasının qeydinə qalmalıyıq. Daha sonra işin mümkün qədər intensiv getməsi, daha az maneələrlə rastlaşması üçün eyni kollektiv əmək sayəsində və elə həmin beynəlxalq zəmində türk xalqlarının və onların dillərinin tədqiqinə dair xüsusi bibliioqrafiya toplansın, təşkil olunsun və yaradılsın”[53].

Qurultayda **“Qədim türk dillərinin tədqiqi”** mövzusunda çıxış edən Malov Sergey Yefimoviç Orxan və Gül-Təkin abidələrindən Mahmud Kaşqariyə qədərki və ondan sonrakı mərhələlərdə yazılmış əsərlərə diqqət çəkir və onların əhəmiyyətini yüksək qiymətləndirdi. **“Türkologiyanın keçmişi və onun hazırkı vəziyyəti haqqında bəzi**

[53] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, “Çinar-Çap” nəşriyyatı, 2006, s. 137.

məlumatlar” verən professor Nikolay İvanoviç Aşmarin türkologiyanin əsasının XIX əsdə Rusiyada alman alimləri Vilhelm Humbold, Frans Bopp və Şampalion tərəfindən qoyulduğunu göstərdi. Bu tezisə qarşı çıxan professor Adil Babayev yazır: “Yeri gəlmişkən qeyd etmək lazımdır ki, N.İ.Aşmarinin belə bir tezisi ilə razılaşmaq olmaz. Çünki Rusiyada alman alimlərindən əvvəl Mirzə Kazımbəy nəinki türkologiyanın, hətta şərqşünaslığın əsasını qoymuşdur”[54].

Əlavə olaraq deməliyik ki, M.Kazımbəy bir azərbaycanlı və şərqli kimi bu xalqların dilinə və mədəniyyətinə daha dərindən bələd olan və türk xalqlarının pisixologiyasını və ruhunu duyan ilk şərqli şərqşünas idi.

Türkologiyanın keçdiyi yola ümumi nəzər salan N.İ.Aşmarin türkologiyanın və türkdilli xalqların şifahi ədəbiyyatını ən çox toplayan, Sibir, Orta Asiya, Volqaboyu və Krım türklərini öyrənən alimlər arasında möhtəşəm xidmətləri ilə seçilən Vasili Padlovu türkologiya sahəsində ən çox iş görən alim adlandırırdı.

Türkologiyanın keçmişi ilə bağli düşüncələrini ümumiləşdirən alim belə bir nəticəyə gəlirdi ki, hazırda türkologiyanın qəhrəmanlıq dövrünü bitmiş saymaq olar və ayrı-ayrı dialektlərin diqqətlə tədqiqinə başlamağın tam vaxtıdır. Bunun üçün yerlərdə özlərini həmin xalqın həyatı və varlığnın bütün xüsusiyyətləri ilə birlikdə öyrənməyə həsr edən zəhmətkeş tədqiqatçılar lazımdır. Xalq ədəbiyyatını, qədim əlyazmalar, nadir kitablar, divarlarda olan qədim yazıları və i.a. toplamaq və öyrənmək zəruridir.

N.İ.Aşmarin tövsiyə edirdi ki, qədim yazı abidələrini, onlar haqqında məlumatları tapmaq, toplamaq və bu abidələri çap etdirmək lazımdır. Əyalətlərdəki əməkdaşlara lazımi diqqət yetirilərsə, türkologiya sürətli addımlarla irəliləyə bilər. Hətta sadəcə çiy materialların çapı türkologiyanın inkişafına çox böyük xidmət göstərə bilər. Söz, qrammatika və folklor materiallarının yazıya alınmasına dair təlimatlar çap etmək və xalq ədəbiyyatı nümunələrinin çapı işini düzgün qurmaq, bu zaman sonuncular imkan daxilində rus və ya türk ədəbi dillərindən birinə tərcümə etmək lazımdır. Çünki, əks halda, həmin mənbələrdən səmərəli istifadə xeyli çətin olacaq[55].

---

[54] Babayev A. Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya. Bakı, “Elm”, 2016, s. 75-76.

[55] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, “Çinar-Çap” nəşriyyatı, 2006, s. 144.

Göründüyü kimi, Aşmarin türkologiyanın gələcək inkişafını lazımi materialların toplanmasında, nəşrində və tədqiqində görürdü. Aşmarindən sonra Şabaşkin, Şerba, Samoyloviç də türkologiyanın müxtəlif sahələrindən danışdı və bəzi mübahisəli məsələlərə aydınlıq gətirdi.

***

Qurultaya Ermənistandan qatılan **"Türk və erməni dillərinin qarşılıqlı təsiri"**ndən danışan R.Açaryan məruzəsini türk dilində edir. O, bu məruzəsində özünün erməni xislətini bir daha birüzə verir. O, tədqiqatçıdan daha çox ermənilərin vəkili kimi çıxış edir. Maraqlıdır ki, onun bu məruzəsi, demək olar ki, tədqiqatçıların diqqət mərkəzindən kənarda qalmışdır. Tədqiqatçılarımız ya buna diqqət yetirməmiş, ya da sadəcə qarşılıqlı təsir ifadəsi onları razı salmışdır. Əslində isə R.Açaryan yalnız qarşılıqlı təsirdən danışmır, ötəri də olsa ermənilərin qaldırdığı bir çox problemləri o, təkrarən yada salır, bəlkə də daha doğru olar deyək ki, türkoloq alimlərin baxışlarını bu yönə istiqamətləndirir. O, məruzəsinin elə birinci cümləsində deyir: "1021-ci ildə türklər ilk dəfə Ermənistana qədəm qoydular və qısa bir müddət ərzində bütün ölkəni ələ keçirib, qərbə doğru irəlilədilər. O, dövrdən indiyədək doqquz əsr ərzində ermənilərlə müxtəlif türk-tatar tayfaları (səlcuqlar, tatarlar, türkmənlər, özbəklər, azərbaycanlılar və osmanlılar) yaşamışlar. Bu birgə yaşayış mədəni həyatın müxtəlif sahələrində qarşılıqlı əlaqəyə səbəb oldu, lakin mən yalnız dil hadisələri üzərində dayanacağam".

Göründüyü kimi, Açaryan müxtəlif ölkələrdən gəlmiş qurultay iştirakçılarına çatdırırdı ki, bu yerlərin sahibi ermənilərdi və 1021-ci ildə Qafqaza gələn türklər Ermənistanı ələ keçiriblər. Bununla o, bir tərəfdən aborgen olduqlarını, digər tərəfdən isə qarşılıqlı təsirin hansı şəraitdə baş tutduğunu göstərmək istəyirdi. Açaryan mesaj verirdi ki, ermənilər türklərin işğalı nəticəsində dillərini itirmişlər. Ən mühüm olan odur ki, Açaryan əsas fikrini diqqətə çatdıqdıqdan sonra "mən yalnız dil hadisələri üzərində dayanacağam" – deyərək, guya mətləbə keçir. O, çıxışını iki məsələ üzərində qururdu:

1) Türk dilinin erməni dilinə təsiri

Türk dilinin erməni dilinə təsirinin böyüklüyündən danışan Açaryan deyirdi ki, mən hələ 1902-ci ildə bu məsləyə geniş bir xüsusi tədqiqat həsr etmişəm (Eçmiədzindəki "Emins Etnoqrafiya Toplusu"nda çap edilib) və Konstantinopol, Van-Qarabağ və Naxçıvan-Don ləhcələrindəki bütün türk iqtibaslarını qeydə almışam. Belələrinin sayı

4000-ə çatır. Konstantinopol ədəbi türkçəsi ərəb və fars sözlərilə dolu olduğu kimi, bir çox vilayətlərdə erməni xalq dili və türk sözlərilə zəngindir. Bütövlükdə türk sözlərindən ibarət cümlələrə də rast gəlinir.

Bir dildən digərinə, adətən, isimləri, bəzən yalnız sifətləri və çox nadir hallarda, felləri iqtibas edirlər. Saylar, həmçinin bağlayıcılar və zərflər iqtibas olunmur. Lakin erməni dilində bütün bu elementlər eyni dərəcədə nüfuz edib. Bir çox sahələrdə 70, 80 və 90 türk formalarında çıxış edir. Rodostoda 69-dan 99-a qədər bütün rəqəmlər sırf türk rəqəmləridir.

Kiçik Asiyanın Qərb hissəsi, Kipr, Bolqarıstan, Şərqi Rumeli, Ruminiya, Bessarabiya da, həmçinin İran və Zaqafqaziyanın bəzi kəndlərində türk dilinin erməni dilinə təsiri o dərəcəyə çatmışdı ki, ermənilər öz doğma dillərini tamamilə itirmişdilər. Bu hadisə artıq bir neçə əsr bundan əvvəl baş vermişdi. 1530-cu ildən etibarən, Polşa ermənləri erməni dilini unudub, tatar dilini qavradılar və həmin dildə erməni əlifbasından istifadə edən bütöv bir ədəbiyyat yaratdılar. Hətta kilsə kitabları da erməni dilinə tərcümə edildi. Eynilə kiçik Asiya və Konstantinopolda da ermənilər erməni yazısının köməyilə türk dilində zəngin ədəbiyyat yaratdılar. Türk əlifbaları həmişə qeyri-mükəmməl olduğundan və xalq dilinin bütün səs xüsusiyyətlərini dəqiq əks etdirə bilmədiyindən, erməni əlifbası isə belə bir üstünlük verdiyindən, təbii ki, erməni işarələri ilə yazılan bütün bu ədəbiyyat türk-tatar dilinin tarixinin tədqiqi üçün çox mühümdür. İqtibas olunmuş türk sözləri türk fonetik qanunlarının xronologiyasını müəyyənləşdirməyə imkan verir. Bu zaman erkən əsrlərdə türk-tatarlarının məişət və tarixini təsvir edən erməni yazıçılarından qalmış zəngin materiallardan da istifadə etmək lazımdır[56].

2) Erməni dilinin türk dilinə təsiri

Erməni dilinin türk-tatar dilinə təsiri məsələsindən danışarkən o qeyd edirdi ki, Kopenhagen alimlərindən prof. Olqe Pedersen və Vyana alimi Krelits-Qrenfenqorst güman edirlər ki, türklər və tatarlar bir qrup sözü ən qədim dövrlərdə ermənilərdən iqtibas ediblər, lakin mən burda bu məsələyə toxunmayacağam.

Göründüyü kimi, Açaryan yenə də əvvəlki kimi erməni dilinin qədimliyini və türk dilinə təsirini xarici alimlərin adından diqqətə çatdırır və yenə də "mən burda bu məsələyə toxunmayacağam" – deyərək başqa məsələyə keçirdi: "Mən sizin diqqətinizi daha sonrakı dövrlərin

[56] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 150.

hadisələrinə cəlb edəcəyəm ki, bunlar müxtəlif türk-tatar şivələrində, əsasən Anadolu şivələrində qeydə alınır. Bu sözlərdən bir hissəsi ədəbi dilə keçib, qalanları isə xalq arasında yaşamaqdadır. Belə iqtibasların ümümi sayı 200-dür və onların məzmununa görə 14 qrupa bölünür. Belə ki, əkinçilik, bitki aləmi, inşaat texnikası, ev əşyaları və qab-qacaq, sənətlər, mətbəx, heyvandarlıq, xəstəliklər, təqvimə aid sözlər, cürbəcür atalar sözləri, məsəllər qarğış və alqışlar, ləqəblər və şərti-gizlin sözlər var. Bu sözlərin onların erməni dilindəki qarşılıqları ilə siyahısı ayrıca çapdan çıxacaq"[57].

Biz bu məsələyə sonrakı illərdə digər ermənilərin də cızma-qaralarında rast gəlirik. Belə ki, 1970-ci illərdə R.A.Baqramyan «Kitabi-Dədə Qorqud»un dilində olmayan erməni sözləri axtarır (hətta tapır), 1989-cu ildə isə N.Təhmizyan qusan (aşıq) sənətindən bəhs açarkən yazırdı ki, "Kitabi-Dədə Qorqud" dastanının bir hissəsi (yəqin ki, bir müddətdən sonra yazacaqlar hamısı – C.Q.) ermənilər tərəfindən yazılmışdır[58]. Fikir verin, əvvəl söz axtarılır, sonra bir qisminə şərik çıxılır və nəhayət sonda hamısına yiyələnmək, sahib çıxmaq istəyirlər. Bütün bunlar göstərir ki, "Kitabi-Dədə Qorqud"un yasaqlanmasında ermənilərin də böyük "xidmətləri" olmuşdur.

1930-cu illərdə ermənilərin Azərbaycan nağıllarının süjetlərini necə mənimsədiklərini özü də bilmədən Marietta Şahinyan dilə gətirərək bildirirdi ki, ermənilərin nağıl qəhrəmanlarının adı «ermənicədən deyil, türkcədən gəlir»[59].

Maraqlıdır ki, ermənilər yalnız nağıllarımızı və dastanlarımızı deyil, eyni zamanda el nəğmələrimizi də oğurlayırdılar. Sovetləşmənin əvvəllərində Üzeyir bəyin el nəğmələrinin erməni müəllifləri tərəfindən oğurlanmasına (təəssüf ki, bu proses bugün də davam edir) etirazında da bunu aydın görürük: «Azərbaycanda özlərindən əsər yaradan bir çox Avropa musiqişünaslarından başqa bir neçə Şərq musiqişünasları vardır. Bu musiqişünaslardan Avropada təhsil görmüş və Bakıda xormeystr olan Anton Mailyandır ki, bir neçə kiçik nəğmələri vardır. Bununla fəxr etmək kafi deyilmiş kimi başqalarının əsərlərini də xorda oxudaraq öz musiqisi adlandırır. Bu nəğmələrdən biri «Şah İsmayıl» operasından

[57] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 151.

[58] Rafiq İmrani. Muğam tarixi. I cild. Bakı, 1998, s. 57; Taqmizən N. Ob arməno-persidsko-tadjikskix muzıkalğnıx vzaimosvəzəx v drevnosti. – V sb.: Borbad, gpoxa i kulğturnıe tradiüii. Duşanbe: Doniş, 1989, s. 79.

[59] Armyanskie skazki. Akademya, 1930, s. 168-192.

«haydı qızlar!» nəğməsidir ki, musamirə vaxtı proqramda öz musiqisi olduğunu göstərir. Bundan əlavə «Ay yoldaşlar!» nəğməsini notaya alaraq, öz musiqisi hesab edir. Bu nəğmə, əvvələn, bir neçə il bundan əqdəm fars dilində oxunan və fars ahəngi ilə gedən bir nəğmədir. Sonra nəğmə Bakıya gətirilərək, burada 1924-cü ildən etibarən türkcə qoftələnib məktəblərdə oxunur»[60]. Ermənilər yalnız xalq mahnılarını deyil, hətta müəllifi olan əsərləri, o cümlədən Üzeyir bəyin özünün «Arşın mal alan»ını ermənileşdirməyə cəhd ediblər.

Başqa sözlə, «ermənilərin və ermənipərəstlərin XIX əsrdəki bu saxtalaşdırmalarının arxasında rus imperiyası və beynəlxalq erməni təşkilatlarının, əslində Qafqazda yad olan erməni etnosunun burada yalançı qədim tarixinin təsdiq edilməsi niyyəti dururdu. Bunun üçün təkcə yalançı tarix əsərləri yazılmamış, eyni zamanda Azərbaycan folklor nümunələri erməni folkloru kimi qələmə verilmişdir. Erməni ideologiyasının Azərbaycan tarixi ilə yanaşı, folklora qarşı yönəlmiş bu işinin arxasında çox ciddi niyyətlər gizlənirdi. Belə ki, ermənilər və onların ağası olan rus imperiyası folklorun hər bir xalqın tarixində oynadığı rolu gözəl dərk edirdilər. Folklor öz arxaik-funksional mahiyyətinə görə, əslində, tarixdir: onu yaradan etnosun bədii sözlə reallaşmış tarixi. Folklorun bütün məzmunu və forması ilə bağlı olduğu mifologiya onu yaradan və yaşadan xalqın necə meydana gəlməsini təsvir edir... Ermənilər XIX əsrdə rus imperiyasının türklərin milli oyanışının əleyhinə yönəlmiş mənfur siyasətinin nəticəsində Azərbaycan ziyalılarının hələ bu məsələlərə çox az fikir vermələrindən və ümumiyyətlə, azərbaycanlı folklorşünas kadrların olmaması faktorundan istifadə edərək folklorumuzu mənimsəmiş və «erməni folklor tarixinin» yaradılması istiqamətndə xeyli işlər görmüşdülər»[61].

Təəccüb doğuran odur ki, repressiyaya məruz qalan bəzi ziyalılarımızı Azərbaycan xalqına məxsus folklor nümunələrimizi ermənilərdən oğurladığına görə ittiham edirdilər: «V.Xuluflunun repressiyasından sonra Azərbaycanda «Koroğlu»nun nəşri işi, əslində, yarımçıq qaldı. 1939-cu ilin yazında H.Əlizadə dastanın bizə məlum mətnini hazırlayıb nəşriyyata təqdim etdi. Az sonra folklor mətni toplamaq üçün Qazax-Şəmkir və Kəlbəcər-Qubadlı rayonlarına yola düşən H.Əlizadə 1939-cu il 25 iyununda Qubadlı rayonunun Əliuşağı kəndində axşam radələrində NKVD tərəfindən həbs edildi. H.Əlizadəyə

[60] Üzeyir Hacıbəyov. Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1985, s. 184.
[61] M.İmrani. Smompk məcmuəsində paremioloji vahidlər / Namizədlik dissertasiyası. Bakı, 2007, s. 21.

qarşı irəli sürülən ittiham aktında göstərilirdi: «H.Əlizadə xalqa qarşı düşmən sifətini uzun illər folklor toplamaq adı altında gizlətmişdir. O, xalq düşməni V.Xuluflunun qardaş erməni xalqından oğurladığı «Koroğlu» kitabındakıları guya yenidən xalqdan topladığını göstərmək istəyərkən ifşa ediləcəyini biləndə evinə qonaq düşdüyü kəndin sakini Axundov Ələddinin tövlədən atını oğurlayıb aradan çıxmaq istəmişdir»[62]. Əslində bütün bunlar Azərbaycan ziyalısını ifşa etmək və folklor örnəklərimizi ermənileşdirmək üsullarından biri idi.

«H.Berberyan adlı erməni mənşəli bir alim 1938-ci ildə Parisdə erməni dilində «II Arşak-Koroğlu» adlı bir kitab çap etdirmiş və «Koroğlu»nun genezisini birtərəfli qaydada Qafqazın hind-Avropa mənşəli xalqlarına, ilk növbədə ermənilərə bağlamağa çalışmışdır. «Koroğlu»nun II Arşakla bağlı erməni mənqəbəsindən təsirləndiyini iddia edən H.Berberyanın qənaətlərinin əsassızlığı Azərbaycan folklorşünasları tərəfindən sübut olunsa da, müəyyən məsələlərə burada toxunmadan keçmək mümkün deyil. Birincisi, qeyd edək ki, H.Berberyanın II Arşak mənqəbəsi ilə «Koroğlu» dastanı arasında gördüyü süjet oxşarlığı tipoloji hadisədir və qəhrəmanlıq dastanları arasında belə oxşarlıqları kifayət qədər tapmaq olar. İkincisi, erməni tədqiqatçının «kor oğlu» motivinin və onun atasının intiqamını almaq uğrunda vuruşmasının guya ki, dastanın yalnız Kisik Asiya – Azərbaycan variantlarında rast gəlindiyi və bunun da erməni mənqəbəsinə bağlı olduğu iddiası da əsassızdır. Çünki «Koroğlu»nun Şərq versiyalarında qəhrəmanın at üstündə kor edilmiş vəzirin övladı olduğu (Tobol rəvayəti) və ya düşmənin kor etdiyi bəyin nəvəsi olduğu (türkmən «Goroğlu»su, Qarrıyev nəşri) variantlar mövcuddur. Özbək variantlarının birində də «Koroğlu»nun atası Şahdar xan tərəfindən kor edilmişdir. Üçüncüsü, onu da bildirək ki, H.Berberyanın «Koroğlu»da erməni xalqının tarixi ilə bağlı saydığı hadisələrin oxşarına «Koroğlu»nun yayıldığı Orta Asiyadan Balkan yarımadasınadək əksər xalqların tarixində rast gəlmək mümkündür»[63].

Erməni Q.Ağayan yazır ki, «Bizim ölkəmizdə (Qafqazda) Koroğlu bütün xalqlara məlumdur. Türklər onu türk, kürdlər – kürd, ermənilər – türkləşmiş erməni hesab edirlər. Onun mahnılarını (fikir verin dastanı yox, oradakı mahnıları – C.Q.) hər xalq öz dilində oxuyur, təkcə

[62] Nəbiyev A. V.Xuluflunun «Koroğlu» nəşrinə yazdığı ön söz. B. 2007, s. 7-8.
[63] Elçin Abbasovun «Koroğlu» eposunun poetikası (Paris nüsxəsi əsasında) yazdığı namizədlik dissertasiyasının Avtoreferatı. B. 2007, s. 9.

ermənilər bəzən türk, bəzən kürdcə oxuyurlar»[64]. Q.Ağayan bir tərəfdən türklərin qəhrəmanlıq simvolu olan Koroğlunun genezisindən söhbət açaraq onu türkləşmiş erməni adlandırır. Digər tərəfdən isə qeyd edir ki, ermənilər oradakı mahnıları türk və ya kürdcə oxuyurlar. Onda belə bir məntiqi sual doğur. Nə üçün «mənşəcə erməni olan Koroğlu»nun erməni nəvələri onun mahnılarını ermənicə deyil, türk və ya kürd dilində oxuyur? Əslində Ağayanın bu məntiqsiz fikirlərinin arxasından bir həqiqət aydın görünür; ermənilərin «Koroğlu» dastanı olmamış və ola da bilməzdi. Belə bir dastanın yaranmasına erməni dilinin leksik fondu da imkan vermirdi. Maraqlıdır ki, bəzi erməni müəlliflərinin özləri də bunu etiraf edirdi. Belə ki, Leo (Aranel Babaxanyan) «Ermənistan tarixi» əsərində (Yerevan, 1946. III tom, s. 1072, erməni dilində) yazır: «Aşıq sənətinin ancaq kiçik, çox əhəmiyyətsiz bir hissəsini erməni ədəbiyyatına aid etmək olar. İri həcmli əsərlərin böyük qismi (dastanlar, qəhrəmanlar haqqında nağıllar) türk (Azərbaycan – C.Q.) dilində yazılmışdır»[65]. Başqa bir müəllif Qeqan Tarverdyan özünün «Erməni aşıqları» kitabında (I tom, səh. 19, Yerevan, 1937, erməni dilində) göstərir ki: «Erməni aşıqlarından yığdığım şeirlərin müəyyən hissəsi bütünlüklə Azərbaycan dilindədir. Digər aşıqların böyük bir hissəsi isə öz əsərlərini Azərbaycan və erməni dillərində yazmışlar. Yalnız 20-25 aşıq öz şeirlərini erməni dilində yazmışdır»[66].

Manuk Abeqyanın «Xalq havaları» kitabında (Vaqarşabad, 1904, s.35, erməni dilində) oxuyuruq: «Bizim əlimizdə 1700-ə yaxın bayatı var. Təəssüf ki, bizim dilimiz çoxmənalı sözlər baxımından son dərəcə kasaddır, ona görə də türk (Azərbaycan – C.Q.) dilinə müraciət edirik»[67]. Qazeros Ağayan bunun səbəbini «erməni dilində oxumaq vərdişinin erməni aşıqları arasında yayılmaması» ilə izah edirdi[68].

Ermənilərin özgə mədəniyyətinə yiyələnməsi vaxtında tənqid hədəfinə tutulub ifşa edilmədiyindən və ya buna icazə verilmədiyindən «Sarı gəlin», «Köçəri», «Uzundərə» və digər mədəniyyət nümunələrimiz, eləcə də musiqi alətlərimiz – ney, zurna, kaman, tar ermənilər tərəfindən mənimsənildi. Həm çar, həm də Sovet Rusiyasının belə mühüm bir məsələyə düşünülmüş biganəliyi ermənilərı daha da ruhlandırdı və onlar mədəniyyətin özəlləşdirilməsindən torpaqların işğalına, eləcə də özəlləş-

[64] Antonyan Q. Erməni və Azərbaycan xalqlarının ədəbi əlaqəsi. Bakı: Azərnəşr, 1955, s. 76.
[65] Azerbaydjanskie istını v armənskix literaturnıx istoçnikax. Baku, 2008, s. 27.
[66] Yenə orada. s. 31.
[67] Yenə orada. s. 33.
[68] Yenə orada. s. 19.

dirilməsinə – «Böyük Ermənistan» xülyasına qədər yol gəldilər. Açaryan da haqqında bəhs açdığımız ermənilərdən biridir. Onun dediklərini də həmin sərsəm düşüncələrin məntiqi davamı kimi qəbul etməliyik.

Mətləbdən uzaqlaşmadan deməliyik ki, türkdilli xalqların orfoqrafiyasına dair məruzələr və həmin məruzələrin müzakirəsi 1 mart 1926-cı ildə keçirilən altıncı və yeddinci iclasın gündəliyinin əsas mövzusu oldu. "Orfoqrafiya elmi əhəmiyyətlə yanaşı, mədəni əhəmiyyətə də malikdir. Bir dilin vahid yazma qaydalarının olması mətbuat, təhsil sistemi və s. sahələrdə sabitlik yaratdığı kimi, ədəbi dilin normalarının da sabitləşməsinə kömək edir. Orfoqrafiya normaları ilə orfoepiya normaları arasındakı münasibətin sabitləşməsi üçün onların hər biri özlüyündə müəyyənləşdirilməlidir"[69]. Birinci Beynəlxalq Türkoloji Qurultayda orfoqrafiya məsələləri əsas müzakirə predmeti olsa da orfoepiya məsələləri də diqqətdən kənarda qalmadı.

Lev Vladimiroviç Şerba öz çıxışında orfoqrafiya məsələlərinə geniş yer ayıraraq bildirdi ki, orfoqrafiyanın 4 prinsipi var: 1. Fonetik prinsip. Fonetik prinsip o deməkdir ki, söz necə yazılırsa elə də tələffüz edilir. Bir çox dillərdə elə sözlər var ki, necə deyilirsə elə də yazılır.

2. Etimoloji prinsip. Bu prinsip etimoloji və ya söz yaradıcı prinsipdir. Sözlər qohumluğa, daha doğrusu, sözün hissələrinin – kök, ön qoşma, şəkilçi və söz sonluqlarının qohumluğuna müvafiq şəkildə yazılır. Məsələn, rus dilində "voda" deyilir "vada" yazılır.

3. Tarixi prinsip. Bu prinsip ondan ibarətdir ki, sözləri əcdadlarımız yazdıqları kimi yazırıq.

4. İdeoqrafik prinsip. İdeoqrafik prinsip haqqında da qeyd etməliyik ki, o millətlərin fövqündə duran prinsipdir. Çünki etimoloji prinsip dialektlərin fövqündə durur, millidir, millətin müxtəlif dialektlərə mənsub şəxslərini birləşdirir.

L.V.Şerba belə hesab edirdi ki, türk xalqları üçün ən düzgün prinsip fonetik və etimoloji prinsiplərin kombinə edilməsi olardı. Natiq qeyd edirdi ki, məruzənin əsas məqsədi fonetik prinsipə həddən artıq alüdə olmamaqdır. Ondan imtina etmək yox, ona alüdə olmamaq.

Orfoqrafiyanı qurultayın mərkəzi məsələsi hesab edən Lev İvanoviç Jirkov Lev Vladimiroviç Şerbadan fərqli olaraq fonetik prinsiplə etomoloji prinsipin kombinəsinə deyil, fonetik prinsipə daha çox üstünlük verir və göstərirdi ki, "türk xalqlarının hazırda mövcud olan

[69] Sayalı Sadöqova, Şəbnəm Həsənli-Qəribova, Azərbaycan Xalq Cümhuriyyəti və milli ədəbi dilin inkişaf tarixi (1918-2018). Bakı, 2018, s. 68.

böyük savadsızlığı şəraitində indi həmin prinsip – fonetik yazılış prinsipi ola bilər”[70].

Kazan tatarlarından olan Qalimcan İbrahimov deyirdi ki, mənim məruzəm; 1) XIX əsrin II yarısına qədər mövcud olmuş köhnə orfoqrafiyaların tənqidi təhlilinə, uyğur Orxan və köhnə ərəb əlifbalarının təhlilinə, 2) ərəb əlifbasının və türk xalqlarının orfoqrafiyasının islahatına yönəldilən hərəkatların təsvirinə 3) türk xalqlarının dili arasında mövcud uyğunsuzluqları, ziddiyyətləri yüngülləşdirməyə, aradan qaldırmağa həsr olunub. Çıxışını bu məsələlərə həsr edən Qalimcan İbrahimov nitqinin sonunda təklif edirdi ki, türk orfoqrafiyasının dəqiqləşdirilməsi üçün türk dillərinin aşağıdakı xüsusiyyətləri nəzərə alınmalıdır.

1) Sinharmonizm – bunun izaha ehtiyacı yoxdur və mahiyyəti ondan ibarətdir ki, bütün türk ləhcələrindəki bütün sözlər qalın və ya incə olur və bütün şəkilçilər bu qanuna tabedir; orfoqrafiyamızı tərtib edərkən bu xüsusiyyəti nəzərə almaq lazımdır.

2) Aqqlyütinativləşmə. Məlumdur ki, dillər üç qrupa bölünür və Ural-altay dilləri ikinci qrupa mənsubdur. Həmin qrupda isə kök və şəkilçilər bütün hallarda eyni cür qalır. Məsələn, rus dilində hallar var və sözlər müvafiq şəkildə dəyişir, bizdə isə, məsələn, “süz” bütün hallarda olduğu kimi qalır, həm isimlər, həm də sifətlər üçün hal şəkilçiləri eynidir. Bu, bütün dillər üçün ümumi olan xüsusiyyətdir və onu qəbul etmək lazımdır. Orfoqrafiyanın dəqiqləşdirilməsi üçün təkcə fonetik məqamı götürmək yox, əsasən morfoloji məqamı nəzərə almaq lazımdır. Məsələ ondadır ki, bizdə türk ədəbi dillərində ləhcələr xüsusilə çoxdur, məsələn, Qazan tatarlarında 6-7 ədəbi ləhcə var – mişarların, qazan tatarlarının və i.a. hamısı fonetik tərkibinə görə çox rəngarəngdir və təkcə fonetik əsasları nəzərə alsaq, bir ləhcəni götürmək lazımdır, qalanları üçün isə bu, eybəcərlik olacaq. Odur ki, mən morfoloji məqamı qəbul etməyi təklif edirəm.

3) Demək olar ki, bütün dillərdə mövcud olan özbaşınalığa son qoymaq üçün əməli bir üsul təklif edirəm. Qurultay adından sanballı söz demək, yəni düzgün yazı qaydalarını ləhcələrə tabe etmək cəhdlərilə mübarizə aparmaq lazımdır.

4) Türk ədəbiyyatının yaranmasını asanlaşdırmaq üçün elə bir ölçü götürmək lazımdır ki, yeni sözlər, yeni hərflərin təklif edildiyi bütün

[70] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, “Çinar-Çap” nəşriyyatı, 2006, s. 157.

hallarda türk ədəbi dilləri bunu öz aralarında razılaşdırsın. Məsələn, ahəng qanununa əsasən qazax dili incə, tatar, başqırd dilləri isə qalın sözlərlə fərqlənir. Biz buna diqqət yetirməliyik. Bütün ləhcələrin ümumi işarə və hərflərinin olmasını da tənzimləmək və bunu qaydaya salmaq zəruridir.

Qurultayın həmin iclasında Azərbaycan dilində çıxış edən Fərhad Ağazadə sonda məruzəsinin tezislərini rusca oxuyur. Həmin tezislərin əhəmiyyətini nəzərə alaraq tərcüməsini olduğu kimi oxucuların diqqətinə çatdırırıq:

1. Türk dilinin bütün sözləri, o cümlədən onda istifadə edilən ərəb sözləri də istisnasız olaraq vahid yazılış qaydalarına malik olmalıdır.

2. Mədəni dillərdə qəbul olunmuş düzgün yazı qaydalarından türk dilləri üçün ən münasib olanı fonetik prinsipdir.

3. Fonetik yazılış tələffüzə əsaslanır; odur ki, canlı türk dili üzərində müşahidələrdə dilin səs tərkibi, həm kök, həm də törəmə sözlərin heca növlərini, onlarda sait və samit səslərin iştirakını, sait ahənginin rolunu, nəhayət türk sözlərinin əvvəli, ortası və axırında sait və samit səslərin uyuşmasını müəyyənləşdirmək lazımdır.

4. Bundan sonra bütün ərəb sözləri ərəb dilinin fonetika və yazısına xas olan xüsusiyyətlərini itirir və türk fonetikasının əsas tələblərinə tabe olur.

5. Türk-tatar dünyasında mövcud olan üç əlifbadan: şəklini dəyişməyən köhnə ərəb əlifbası türk dilinin fonetik yazı tələblərinə cavab vermir; islah olunmuş ərəb əlifbası bu tələbləri tam ödəmir; Azərbaycanda qəbul olunmuş yeni əlifba isə fonetik yazının istisnasız olaraq bütün tələblərinə cavab verir.

6. Bu baxımdan, yeni əlifba yazı qaydaları məsələlərində bu və ya digər rol oynayan üstünlüklərə malikdir. Bunlara aşağıdakıları aid etmək lazımdır:

a) xüsusi və coğrafi adları böyük hərflə göstərmək imkanı;

b) bütün hərflərin öz aralarında əlaqələnməsi; bu həm sadə, həm də mürəkkəb sözlərin qruplaşdırılması üçün zəruridir;

v) sözləri sətirdən-sətrə keçirmək üçün onların düzgün hecalara bölünməsi;

q) uşaq əlifbalarında saitlər üzərində vurğu qoyulması, başqa uşaqların həm düzgün oxumalarına, həm də düzgün yazmalarına kömək edir;

7. Yeni türk əlifbası ilə fonetik yazı qaydalarının bərqərar olması üçün zəruri olan şərtlər (sayı 7 olan şərtlər bu məruzədə sadalanıb);

8. Türk ədəbiyyatına daxil olmağa başlayan Avropa sözləri məruzədə sadalanan 9 şərtə əməl etməklə türk dilinin fonetikasının qanunlarına tabe olur.

9. Türk dilinin səmərəli fonetik yazı qaydalarını bərqərar etmək üçün türk-tatar diyarının qrup şəklində lüğətlərini yaratmaq zəruridir ki, birləşdikləri zaman, bu lüğətlər bütün türk-tatar ləhcələrinin həm lüğət ehtiyatını, həm də fonetik orfoqrafiyasını əks etdirən ümumi lüğət yaradacaq[71]. Bu təkliflərin böyük əksəriyyəti aktuallığını bu gün də qoruyub saxlayır.

F.Ağazadədən sonra çıxış edən Baytursun belə bir suala aydınlıq gətirmək istəyir: yazı qaydalarından nə tələb olunur? Natiq bu sualı belə cavablandırırdı. A) Dilin səsləri uğurla, dəqiq çatdırılsın, b) onları öyrənmək asan olsun.

Fikirlərini davam etdirən Baytursun yazı qaydaları ilə əlifbanın əlaqəsinin olması məsələsinə də münasibət bildirir və qeyd edirdi ki, yazı qaydalarının əlifba ilə əlaqəsi əlifba mükəmməl olmadıqda olur. O da bəziləri kimi fonetik əlifbanın tərəfdarı olduğunu bildirdi və qeyd etdi ki, ərəb əlifbasının tərəfdarı olanları "müqəddəs" əlifbadan əl çəkməməkdə və ya mühafizəkarlıqda, ərəblərdən keçənləri qoruyub saxlamağı küfr hesab etməkdə günahlandırmaq doğru deyil.

Yakovlev də çıxışında əlifba ilə orfoqrafiyanın əlaqəsinin olub-olmaması məsələsinə toxundu və bunlar arasında əlaqənin olduğunu vurğuladı. Bu və buna bənzər elmi mübahisələr yeddinci iclasda, yəni "Orfoqrafiya məsələsi üzrə müzakirələr" zamanı da aparıldı. Onu da qeyd etməliyik ki, bu iclasda birbaşa da olmasa dolayısı ilə orfoepiya məsələlərinə də toxunuldu.

***

Qurultayın gündəliyində duran ən aktual müzakirə predmetlərindən biri də türk dillərinin elmi terminoloji sistemi, onun müasir vəziyyəti, inkişaf perspektivləri məsələsi idi. Birinci Türkoloji Qurultay termin yaradıcılığı məsələsində demokratik prinsiplərin rəhbər tutulduğunu göstərir, bu isə XX əsrin 20-ci illərindəki mürəkkəb dil mübahisələri kontekstində gərəkli iş idi. Lakin burası da məlum olur ki, məsələyə münasibətdə dörd meyil var:

1) ərəb-fars mənbəyini əsas götürənlər – islamlaşma tərəfdarları;

[71] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 160-161.

2) avropalaşma tərəfdarları;

3) türkləşmə tərəfdarları;

4) dialekt materialını əsas götürənlər – «demokratlaşma» tərəfdarları.

Bu meyillərin hər biri ayrı-ayrılıqda naqis və qüsurlu idi[72]. O da qeyd edilməlidir ki, Birinci Türkoloji Qurultayın düzgün mövqe tutmasına baxmayaraq, keçən əsrin 20-ci illərində bu meyllər lüğət tərkibinin inkişafına da təsirsiz qalmırdı.

Məlumdur ki, Birinci Türkoloji Qurultayın hər iclasında, demək olar ki, bir məsələ müzakirəyə çıxarılır və elmi-nəzəri həllini tapırdı. Mart ayının 2-də, qurultayın 8-ci iclasında terminologiya məsələləri müzakirə edildi. Məsələ ilə bağlı A.R.Zifeld-Simumyaqi **"Türk dillərində elmi terminologiyanın yaranması prinsiplərinə dair",** B.Çobanzadə **"Elmi terminologiya sistemi haqqında",** H.Zeynallı "**Türk dillərində elmi terminologiyanın sistemi haqqında"**, H.A.Odabaş **"Türk dillərində terminologiya"**, Ə.B.Baytursun **"Kazax terminologiyasının prinsiplərinə dair"** məruzələri ilə çıxış etdilər.

Terminologiya probleminin gündəmə gətirilməsi və müzakirə predmetinə çevrilməsi heç də təsadüfi deyildi. İclasdakı məruzələrin adları da imkan verir deyək ki, qurultayda əsas məqsəd terminologiyanın elmi sistemini yaratmaq idi. Bunun üçün hansı prinsiplər əsasında dilin terminoloji lüğət fondunu zənginləşdirmək, bu prosesdə hansı metod və metodologiyalardan istifadə etmək kimi aktual məsələlərin elmi və həm də əsaslandırılmış şərhini vermək məruzəçilərin qarşısında qoyulmuş əsas vəzifə idi. 8-ci iclasda **"Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında"** məruzə ilə çıxış edən Artur Zifeld dillərin inkişafında marksist mövqedən çıxış edərək "dilin inkişaf mərhələləri insan cəmiyyətinin mədəni-iqtisadi inkişaf mərhələləri ilə bu və ya digər dərəcədə üst-üstə düşür" - deyirdi. Dilə təkamül hadisəsi kimi baxan A.Zifed bu prosesin, yalnız bir aul və ya kiçik dil qrupu daxilində deyil, həm də hər hansı bir dil daxilində baş verəcəyini əsaslandırırdı: "Darvinizmin bütün qaydalarına müvafiq olaraq, bir dil daxilində də belə bir mübarizə ayrı-ayrı sözlər və formalar arasında baş verir. Müəyyən fikri qeyri-dəqiq, qarışıq ifadə edən söz pis, talaşa, ağac dəyənək, yaxud taxta təkərləri olan arabadan heç də yaxşı olmayan bir vasitədir. Belə söz arxaizmə çevrilir və yalnız gerçəklilkdən uzaq olan dəbdən düşmüş poeziyada, yaxud kafe və ya hamamda aparılan sakit söhbətdə özünə yer

[72] Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. II hissə, Bakı, 1987, s. 266-272.

tapa bilir. İşgüzar adamların nitqində isə onun yerini yeni, fikri dəqiq ifadə edən sözlər tutur"[73].

Artur-Zifeld haqlı olaraq qeyd edirdi ki, ədəbi dil xalq dilinin normalarına uyğun olaraq formalaşmalıdır. Deməli, bir dil hüdudlarından ya bütün dialekt və şivələr üçün orta, yaxud ümumi olanı tapmaq, ya da ümumi tarixi təcrübədən göründüyü kimi, ləhcələrdən birini, adətən, paytaxtın bədii ədəbiyyat və dövri mətbuat dilini əsas götürmək olar. Lakin termin yaradıcılığında, yalnız xalq dili ilə də kifayətlənmək olmaz. Başqa sözlə desək, elmi terminologiya bir dilin lüğət fondu, şivə və ləhcələri hesabına da yarana bilməz. Dünyanın, yaxud da ən yaxın regionun (Rusiya və ya Türkiyənin) elmi arenasına çıxmaq üçün, yalnız ədəbi dil əsasında formalaşmış terminlər fikrin mükəmməl ifadəsi üçün azlıq edir. Ona görə də, ərəb-fars, eləcə də rus-avropa dillərindən götürülmüş pasport almış söz və ya terminləri zorla dildən "qovmaq" və ya işlənməsini yasaqlamaq doğru deyil. Dilə pasport almayan terminləri də lazım oldu, ya olmadı dilə gətirmək də həmişə müsbət nəticələr verə bilməz.

Artur Zifeldin "**Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında"** adlı məruzəsi bəzi mübahisəli – qəbul olunan və olunmayan məqamlarına baxmayaraq, terminoloji sistemin formalaşma qanunauyğunluqları ilə bağlı bu gün də aktuallığını qoruyub saxlayan ciddi bir elmi çıxış idi. Bu məruzənin özünəməxsus xüsusiyyətlərindən biri onun termin yaratmanın mənbələrinin, üsul və prinsiplərinin dəqiqləşdirilməsi istiqamətində atılan addımlar və irəli sürülən tezislərdi. Böyük alim Artur Zifeld-Smumyaqi Rudolfoviçin məruzədə irəli sürdüyü tezislərin bir çoxu bugün də aktual olaraq qalır. Biz Zifeldlə bağlı son fəsildəki oçerkdə bu məsələni geniş şərh etdiyimizdən burada həmin məqalə barədə ötəri məlumatla kifayətlənirik.

Bu məruzələr içərisində özünün elmliyi, əhatə dairəsinin genişliyi, problemə yanaşma və ciddi elmi-məntiqi əsaslandırmalar baxımdan seçilən, yadda qalan və maraq doğuran çıxışlardan biri və bəlkə də birincisi professor B.Çobanzadənin qurultayın səkkizinci iclasında etdiyi **"Elmi terminologiya sistemi haqqında"** adlı məruzəsi idi. O, elmi terminologiya sistemindən bəhs edən məruzəsində Avropa xalqlarının terminologiyasının əhəmiyyətini yüksək qiymətləndirərək xüsusi vurğulayırdı ki, artıq Avropa dillərində vahid elmi terminologiya

[73] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 173.

formalaşmışdır. Bu istənilən sahə üzrə avropalı mütəxəssislərin digər millətdən olan avropalı mütəxəssislə (qərbşünas alimlə) rahat anlaşmasına imkan verir.

B.Çobanzadə bunun səbəbini ilk növbədə Avropada elmi dilin əsasını sxolastika dili olan latın dilində, intibah və dirçəliş dövrünün terminoloji baxımdan vəhdət təşkil etməsində görürdü. Eyni zamanda məruzəçi göstərirdi ki: "Əlbəttə Avropa dilləri arasında sıx əlaqənin mövcudluğu bu dillərin vahid dil ailəsi olan hind-german dillər qrupuna aid olması ilə bağlıdır. Digər tərəfdən, Asiya tarixindən fərqli olaraq Avropa tarixinin bütövlüyü və vahidliyi terminoloji vəhdətin əsasını təşkil etmişdir. Asiyada isə vəziyyət tamamilə fərqli idi. Misal olaraq, Asiya tarixinin ən mühüm dövrləri olan moğollar, monqollar, hunlar, teymurilər və ya islamın genişlənməsi kimi hadisələr bütün Asiyanı əhatə etməmişdir. Halbuki böyük Fransız inqilabı və ya bizim dövrümüzün inqilabı reformasiya və anti-reformasiya olduğu kimi bütün Avropa xalqlarını əhatə edir. Avropa xalqlarının sıx bağlılığı həm də iqtisadi əlaqələrlə şərtlənir. Bütün bunlar isə elmi-mədəni dilin vəhdətinə gətirib çıxarır"[74].

Bütün bunların məntiqi nəticəsi kimi, türk dillərində terminoloji sistemin yaradılmasına diqqət çəkən alim leksik lüğətimiz üçün 3 zəminin mövcudluğunu xüsusi vurğulayırdı.

Birincisi, ümumtürk zəminidir. Alim göstərirdi ki, türk şivələrinin fərqli cəhətləri barədə danışmağımıza baxmayaraq, bu şivələri birləşdirən çox böyük və ciddi bağlar da mövcuddur. Terminologiyanın yaradılması prosesində bu amil mütləq nəzərə alınmalıdır. Yəni terminologiyanın yaradılması prosesində ortaq mədəni abidə kimi türkdilli xalqların dil vahidlərinin müştərək iştirakı qaçılmazdır. Türk dillərinin vahid terminologiya sistemini yaratmaq üçün ən doğru olan da, prosesdə, türk xalqlarının dilinin vahid ailə, vahid orqanizm kimi iştirakıdır. Bu gələcəkdə təkcə, türk dillərinin qohumluğunu deyil, onların monolit birliyini (elmi, iqtisadi, siyasi, mənəvi... birliyini) də təmin etmiş olardı. Əlbəttə bunun çətin və uzun bir proses olduğunu B.Çobanzadə yaxşı anlayır, onların reallaşması üçün zamana ehtiyacın olduğunu bilirdi.

İkinci zəmin ərəb-fars sözlərinin mənimsənilməsi ilə bağlıdır. Alim göstərirdi ki, yoldaş Zifeldin "ruhani" və digər bənzər sözlərin əleyhinə çıxmasına baxmayaraq, bizim dillərimiz tam şəkildə sinharmoniya və aqqlyutonasiya qanunlarına tabe olmur. Hətta ən təmiz

[74] Pervıy Vsesoyuznıy Tyurkoloqiçeskiy cyezd. 26 fevralya, 6 marta 1926 q. (Stenoqrafiçeskiy otçot. Baku, 1926).

türk şivəsi sayılan Qazax dilində də vəziyyət eynidir. Buna səbəb ərəb və fars sözlərinin mövcudluğudur.

İstənilən klassikə müraciət etsək – istər 500 illiyini qeyd etdiyimiz Əlişir Nəvai olsun, istərsə də, 15-16-cı əsrlərdə osmanlı klassikləri Bakiyə, Nabiyə və Nadəmi olsunlar – onların dili bənzər və bizim üçün anlaşılandır. Bunun da bir səbəbi onaların istifadə etdiyi terminologiyada ərəb və fars sözlərinin olmasıdır.

Tarixin müəyyən zaman kəsiyində ərəb-fars istilalarına məruz qalmağımız, geniş yayılan və intişar edən klassik şairlərin yaradıcılığı, iqtisadi-siyasi və ticari əlaqələrin mövcudluğu, ortaq dini dəyərlərin daşıyıcısı (müsəlman) olmağımız ərəb-fars sözlərinin məişətimizə, eləcə də mətbəximizə daxil olduğunu bir daha sübut edir və böyük alimin bu məsələdə də tamamilə haqlı olduğunu göstərirdi.

Görkəmli türkoloq alim qeyd edirdi ki, **üçüncü zəmin** bizim terminoloji baza yaradarkən Avropaya yönəlməyimizdir. Heç bir xalq hətta Çin səddində yaşayanlar belə öz inkişafında Şərqə yönəlməmişdir. Yaponiya əslində çox qapalı, təcrid olunmuş olduğundan uzaq Şərq türk tayfalarına təsir edə bilmir. Yakutlardan başlayaraq biz Avropaya, Avropa sivilizasiyasına yönəlmənin şahidi oluruq. B.Çobanzadə açıq şəkildə qeyd etməsə də, əslində bu üç zəmin türkləşmək, islamlaşmaq və müasirləşmək formulunun müdafiəsi idi. Maraqlıdır ki, B.Çobanzadə bilərəkdən və ya bilməyərəkdən Sovet idarə sisteminə qarşı çıxırdı. Belə ki, o, türkləri vahid ailə kimi görmək istəməyən Sovet idarə üsulundan fərqli olaraq türkdilli xalqların mənəvi-ideoloji birliyini təmin etməyə çalışırdı.

Terminoloji sistemin yaradılmasında **türk, ərəb-fars və Avropa** terminlərindən istifadəni vacib hesab edən məruzəçi qurultay iştirakçılarının diqqətinə çatdırırdı ki, "terminlər ikili əhəmiyyət kəsb edir: birincisi elmi, ikincisi isə pedoqoji əhəmiyyət. Terminlər olmadan məktəbdə dərs demək və ya elmi kitablar yazmaq mümkün deyil. Belə olduğuna görə bizim elmi inkişaf səviyyəmizi və mədəni şərtlərimizi nəzərə alaraq hələlik işin pedoqoji tərəfini əsas götürmək lazımdır.

Vahid terminoloji sistemin yaradılmasında məktəbin rolunu yüksək qiymətləndirən alim qeyd edirdi ki, bizim artıq müəyyən dərəcədə türk dilində tədris aparan ibtidai və orta məktəblərimiz var. Yəqin bir neçə ildən sonra ali məktəblər üçün terminologiyanın formalaşmasına da ehtiyac yaranacaq. Deyilənləri nəzər alaraq mən hələlik məsələnin

pedoqoji tərəfini əsas götürürəm və hesab edirəm ki, beləliklə əslində elmi əhəmiyyəti olan məsələlər də əhatə olunur” [75].

Məruzənin sonunda B.Çobanzadə təklif edirdi: 1. Ümumtürk elmi tərcümə mərkəzi yaradılmalıdır. Bu mərkəz Maarif Komissarlığına və ya digər inzibati orqana tabe olmadan avropa ədəbiyyatı və terminologiyasını öyrənməlidir. Türk dillərində hələ ki, elmi anlayışların ifadə olunmasının vahid üsulları yoxdur. Ümumi elmi dilimiz yoxdur, lakin bunun üçün baza mövcuddur. Qazan, azərbaycanlı və osmanlı yazıçılar hansı dildə yazırlar? Dil təxminən eynidir-türk dilinin çığatay osmanlı şivəsi. Deməli, üslubu da yaxınlaşdırmaq olar. İkinci təklif isə Elmi Türkoloji Komitənin yaradılması ilə bağlıdır. Bu komitə yerli terminoloji komitələrin təkliflərini nəzərə almalıdır. Yerlərdə-Tatarıstan, Azərbaycan, Türkiyə terminoloji komissiyalarının olmasını və lüğətlərin tərtib olunduğunu nəzərə alsaq bu daha da əhəmiyyətli görünür. Belə bir komitə yerli terminoloji komitələrin işlərini uzlaşdırardı[76].

B.Çobanzadənin hələ türkoloji qurultayda terminologiya və dilin terminoloji sistemi haqqında söylədiyi elmi-nəzəri fikirlər bugün də aktuallığını və elmiliyini qoruyub saxlamaqdadır. B.Çobanzadə yazırdı: “Elmi terminologiya əlifba prinsiplərinə müşabehdir; oradakı hər səs ayrıca işarəsinin olmasını tələb etdiyi kimi, terminologiyada da hər hansı bir anlayışın qarşılığı olaraq ayrıca bir söz-termin olmasını tələb edir”. Deyilənlərdən aydın olur ki, qurultay türkologiyanın bir çox problemlərini həll etsə də, həllini tapmayan məsələ də az deyildi. Bu xüsusda B.Çobanzadə yazırdı: “Bununla bərabər, bu qurultayda bütün məsələlərin tamamilə çözülmədiyini, bəzi xətaların, ehmalların bulunması mümkün olduğunu heç kimsə inkara qalxışmaz. Əgər böylə olmasa idi, heç kimsə Səmərqənddə ikinci bir qurultayın çağrılmasını təklif etməz və böylə bir təklifi qəbul etməzdi. Qısası, ortada şimdilik tam yetmiş bir bina olmasa da, təməl, həm də qayət sağlam bir təməl atılmışdır ki, bunun üzərinə bir-birindən gözəl binalar qurmaq mümkün olur. Əgər bu məqaləçiliyimizdə bu təməlin nədən ibarət olduğunu göstərirsək, gələcək məqalələrimizdə daha irəliyə gedərək, bu təməl üzərinə qurula biləcək binaların projelərindən bəhs edə biliriz” [77].

Əlbəttə, B.Çobanzadə tamamilə haqlı idi. Qurultay çox böyük işlər görsə də, müəyyən çatışmamazlıqlar və natamamlıqlar da oldu. Qurultay

[75] Yenə orada.
[76] Pervıy Vsesoyuznıy Tyurkoloqiçeskiy cyezd. 26 fevralya, 6 marta 1926 q.(Stenoqrafiçeskiy otçot. Baku, 1926).
[77] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. Bakı, 2007, III cild, s. 198.

türkologiyanın bütün problemlərini həll etməyi qarşısına məqsəd də qoymamışdı. Qurultay problemləri axıradək həll etmir. O, bu gücə və səlahiyyətə də malik deyil. Qurultay qəbul etdiyi qərar və qətnamələrlə, bir çox məsələləri həll etsə də, bir çoxunu da üzə çıxarır və həlli yollarını göstərir. Qurultaydan sonrakı mərhələdə isə həmin problemlər tədricən həll edilir.

***

Qurultayda **"Türk dillərində elmi terminologiyanın sistemi haqqında"** məruzə ilə çıxış edən Hənəfi Zeynallı terminologiyanın keçdiyi yola nəzər salaraq bildirirdi ki, 1917-ci ilə qədər türk dillərində elmi anlayışlarla bağlı az çox işlənilmiş sistemli terminologiya mövcud olmamışdır. Hər tərcüməçi, hər müəllif daha düzgün hesab etdiyi termini məqbul saymış və istifadə etmişdir. Müəllif göstərirdi ki, xalqdan uzaq məlum təbəqələr o dərəcədə sosial həyatdan qopmuşdular ki, türk xalqı üçün vahid terminoloji bazanın yaradılması məsələsi onları qətiyyən narahat etmirdi. Elm və bədii ədəbiyyat məhz bu imtiyazlı təbəqənin sərəncamında olmuş, onun maraq və zövqlərinə xidmət etmişdir.

Çağdaş zamana, sosializm dövrünə diqqəti yönəldən alim bildirirdi ki, indiki şəraitdə ictimai səhnəyə geniş fəhlə və kəndli kütləsinin çıxdığı bir dövrdə elmi nailiyyətlərlə "qara camaat" arasında bütün maneələr aradan qalxmalıdır. Orijinal və qabaqcıl elmi ədəbiyyatın yaradılması ehtiyacı hər bir respublikanın öz doğma dilində vahid və sabit elmi terminologiya yaratmaq barədə düşünməyə vadar edir. Bu məqsədlə müxtəlif yanaşmalar irəli sürülür ki, onlar arasında mövcud olan ziddiyyətlər hələ bu günə qədər həll olunmamış qalır. Buna görə də bu məsələdə nüfuzlu və düşünülmüş müdaxiləyə böyük ehtiyac var. Məsələnin qurultayın gündəminə çıxarılması məhz bu zərurətdən doğmuşdur.

H.Zeynallı terminologiyanın indiyə kimi elmi sisteminin olmamasının əsas səbəblərindən biri kimi türk-tatar dillərində vahid təsnifatın yoxluğunda görürdü. Müəllif qeyd edirdi ki, türk-tatar xalqlarının dilləri öz quruluşuna görə bənzər olsalar da, həyat tərzi fərqindən doğan dialekt müxtəlifliyi vahid terminologiyanın yaranması baxımından çətinliklər törədir. Müxtəlif türk tayfalarının digər xalqlarla müvafiq tarixi əlaqələrdə olması onların dillərinə elə təsir etmişdir ki, hələ bu gün də bəziləri əslində qəbul olunmaz təsirləri rəhbər tuturlar (misal üçün, ərəb-fars təsiri Türkiyə və Azərbaycanda, rus təsiri isə Tatarıstanda). Belə anomaliyaların, eləcə də köhnəlmiş sözlərə "qayıdış"

cəhdlərinin qarşısı alınmalıdır. Əks təqdirdə dildə sünilik artacaqdır. Bunun qarşısını almaq üçün müəllifin türk şivələrinin düzgün elmi təsnifatının aparılmasını və sabit terminologiya baxımından vahid prinsiplər sisteminin yaradılmasını vacib sayması elmi və məntiqi cəhətdən doğrudur.

Hənəfi Zeynallı təklif edirdi ki, türk xalqlarının siyasi və iqtisadi vəziyyəti təxminən eyni olduğundan terminlərin müəyyən olunması baxımından mənbələr də təxminən eyni olmalıdır.

Məruzəsində Azərbaycan terminoloji komissiyasının işləyib hazırladığı prinsiplərə diqqəti yönəldən alim deyirdi: 1) Termin qismində məhz türk sözləri istifadə olunmalıdır, ərəb-fars mənşəli sözlərə nisbətdə türk sözlərinə üstünlük verilməlidir. 2) Əgər ümumən qəbul olunan və anlayışı ifadə edən türk sözü yoxdursa, türk dilində mövcud olan ərəb-fars mənşəli sözü saxlamaq olar, lakin onun istifadəsi türk qrammatikasına tabe tutulmalıdır. 3) Avropa dillərinin əksəriyyətində qəbul olunmuş terminlər tərcüməsiz olduğu kimi mövcud tələffüzlə qəbul olunmalıdır. 4) Birbaşa tərcümələrə yol verilməməlidir. Bunu yalnız istisna hallarda etmək olar.

Elmi dilin çərçivəsi məsələsinə toxunan H.Zeynallı göstərirdi ki, indi elm dar kabinetlərdən çıxaraq xalqın sərvətinə çevrilib, bu vəziyyət qarşımızda yeni tələblər yaradır. Türk-tatar tayfalarının dilində bəzən bir anlayış bir neçə sözlə ifadə olunur, bəzən isə əksinə. Müəllifin fikrincə, bu insanların dəstələr halında biri-birindən uzaq yaşamaları, qaynayıb-qarışmamaları ilə bağlıdır. Hənəfi Zeynallı hesab edirdi ki, ümumrespublika terminologiyasının yaradılması zamanı üç prinsipi tətbiq etmək olar:

1) Elmi tərcümələrin türk dilində müəyyən edilməsi prosesində şivələrin xüsusiyyətlərini yaddan çıxartmaq olmaz, çünki bu iş bu dil qrupuna aid digər şivələrlə əlaqənin kəsilməməsinə səbəb olmamalıdır.

2) Əsas kimi ədəbiyyatda daha tez-tez rast gəlinən terminləri götürmək lazımdır.

3) Anlayışın özünə mənaca daha yaxın və daha gözəl səslənən terminlər götürülməlidir.

Qəbul olunmuş terminlərin konstruksiyası necə olmalıdır sualına cavab axtaran alim deyirdi. “Bu suala biz bu cür cavab veririk: 1) Xarici dillərdən sözlərin yalnız kökləri götürülməlidir. Qeyd: xarici dildən sözün götürülməsi və türk artikulyasına uyğunlaşdırlıması baş verməlidir. 2) Sözlərin kökləri ilə bağlı digər etimoloji əlavələr türk-tatar dillərinə uyğun şəkildə aparılmalıdır, yəni bu sözlərə, onların köklərinə

dilimizə uyğun əlavələr edilməlidir. 3) Elmi anlayışı ifadə edən termini yaradarkən onu tam əks etdirən sözü tapmaq bəzən çox çətindir. Bu halda məna etibarilə bu anlayışa ən uyğun termini seçmək lazımdır".

Məruzəçi qısaldılmış sözlər barədə danışdıqdan sonra fikirlərini ümumiləşdirərək gəldiyi qənaətləri qurultay iştirakçıları ilə bölüşür və belə nəticəyə gəlirdi:

1) Türk-tatar dillərində elmi terminologiyanın işlənilməsində kustar yanaşmadan uzaqlaşmaq lazımdır.

2) Elmi terminologiya sisteminin əsasını qruplara aid edilməsi prinsipi təşkil edilməlidir.

3) Terminlər sırasında ələlxüsus biologiya və humanitar elm sahələrində türk sözləri ciddi dərəcədə təmsil olunmalıdır, eyni zamanda xalq tərəfindən asimilə edilmiş ərəb-fars sözləri türk sözləri kimi qəbul edilməlidir. Bu mənada Azterm komissiyanın işi ilə fəxr etmək olar – Biologiyada-80, Humantiar sahədə isə 50% terminlər türk sözləri ilə ifadə olunub.

4) Ədəbi və elmi dillərin sərhədləri müəyyən edilməlidir. Belə ki, bunsuz vahid terminologiya sistemi yaratmaq mümkün deyil.

5) Hazırlanmış terminologiyanın xalq dilinə uyğunlaşdırılması üçün türk-tatar sözlərinin semasiologiyası və sintaksisi dərindən öyrənilməlidir.

6) Bir tərəfdən qəbul olunmuş xarici sözlərin dilimizə təsiri nəzər alınmalı, digər tərəfdən isə bu sözlərin türk-tatar dillərinə tabe tutulmasının qrammatik şərtləri müəyyən edilməlidir. Burada barbarlığa yol vermək olmaz – səadət sözündən səadətli doğmalıdır, məsud sözü yox.

7) Bütün məsələlərin gələcəkdə nəzərdən keçirilməsi və qurultayın qərarlarının icrası üçün türkologiyanın praktiki problemlərini həll edəcək müvafiq elmi mərkəzin yaradılması vacibdir.

Qurultayda H.A.Odabaşın **"Türk dillərində terminologiya"** və Ə.B.Baytursunun **"Qazax terminologiyasının prinsiplərinə dair"** məruzələri də maraqla dinlənilmişdi. H.A.Odabaş məruzəsində haqlı olaraq göstərirdi ki, hər bir sosial çevriliş, hər bir yeni hərakat, hər bir ədəbi məktəbin yaranması, hər bir kəşf və ixtiralar yeni terminlərin yaranmasını tələb edir. O göstərirdi ki, yeni sözlər dildə daha çox aşağıdakı yollarla meydana gəlir:

- dilin əsas qanunlarına əsaslanaraq, yeni sözlər həmin dildə mövcud olan leksik materiallardan doğur. Bu iş aşağıdakı istiqamətlərdə gedə bilər: a) çoxdan unudulan sözlərin (arxaizimlər) ya köhnə

mənasında, ya da yeni anlamda istifadəyə verilməsi: qurultay, bilik və i.a.; b) canlı dilin materiallarından yeni sözlərin yaradılması: Başkarma-İcraiyyə Komitəsi (Qazan, xızlı gediş-böyük sürət (Azərbaycan), al baylık-ilkin kapitalizm (Qaraçay), köçurultay-idarəetmə (Krım) və i.a.; v) canlı dilin sözlərinin onların ilkin mənasında ilk nəzərə yaxın olan dar xüsusi mənada işlədilməsi, məsələn: muçe (cəmiyyətin üzvü), baş (rəhbər, sədr), baylık (kapital), birlik (ittifaq).

- Yeni anlayışlar həmin dilin müəyyən sosial-tarixi münasibətlərdə olduğu dillərin sözləri ilə ifadə edilir. Əgər hazırda mövcud olan və bələd olduğumuz bütün mədəni dillərə müraciət etsək, görərik ki, bu baxımdan iki istiqamət var: Avropa dillərində xüsusi anlayışları ifadə etmək üçün yeni sözlər, əsasən latın, bəzi hallarda isə yunan dilində götürülür; rus, fransız, ingilis və i.a. dillərdə elmi terminlərin 50-60% məhz adları çəkilən dillərdən alınıb; 2) müsəlman Şərqindəki dillərdə, xüsusən türk dillərində yeni sözlər demək olar ki, bütövlükdə ərəb dilindən, bəzi hallarda isə fars dilindən alınır.

Bu iki istiqamətin başlanğıcını xristian və İslam mədəniyyətlərinin yayılması dövrlərinə aid etmək olar. Son əsrlərdə din əhəmiyyətini xeyli dərəcədə itirsə də, adları çəkilən dillər arasında bərqərar olan sanki üzvi qohumluq onlardan zəruri sözlərin alınması mənasında indi də özünü göstərməkdədir.

- yeni kəşf və ixtiralar yarandıqları ölkələrdə ad alır və oradan digər dillərə elə həmin şəkildə keçir, məsələn: ”alqebra” (“əl-cəbr”), “telefon”, “samovar” və i.a.

- yeni sözlər başlanğıcını ixtiraçılar, alimlər və i.a. şəxsi adlarından alır, məsələn: darvinizm, leninizm, ampermetr, halvanizasiya[78].

Odabaş 15 maddədən ibarət olan tezislərini elmi cəhətdən kifayət qədər əsaslandırırdı. Ona görə də müzakirələrdə çıxış edən bəzi nümayəndələr onun tezislərini müsbət qarşıladı. Bəziləri isə müzakirələr zamanı mübahisəli hesab etdikləri cəhətləri tənqid etdilər. Mübahisəli və mübahisəsiz cəhətləri ilə birlikdə terminologiyadan bəhs edən məruzəçilərin çıxışlarının əsasını türkdilli xalqların ortaq terminoloji sisteminin yaradılması kimi ciddi bir ideya təşkil edirdi. Odabaş balkar, kumuk, qaraçay, krım tatarları, başqırd, türkmən və s. kimi azsaylı xalqların termin yaradıcılığındakı çətinliklərə toxunaraq onlara inkişaf etmiş türkdilli xalqların terminoloji bazalarına müraciət etməyi tövsiyə edirdi.

[78] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, “Çinar-Çap” nəşriyyatı, 2006, s. 189.

Odabaşdan sonra çıxış edən Ə.B.Baytursun bildirdi ki, mənim tezislərimlə bütün nümayəndələr tanış olduğundan məsələlərin təfərrüatına varmayacam. Mənim çıxışım daha çox izahat xarakteri daşıyacaqdır. O göstərdi ki, mədəniyyət zəif olduğu yerdə torpağın məhsuldarlığı da aşağı olur, sənaye və ticarət inkişaf etmir, xəstəlik və ölümlə mübarizə zəif aparılır və s.

Qazax dilində terminyaratma təcürbəsindən danışan Ə.B.Baytursun hesab edirdi ki, müasir mədəniyyət ayrıca bir millət və ya irqin məhsulu yox, bütün bəşəriyyətin səy və vərdişlərinin məhsuludur. Məruzəçi bildirirdi ki, hər bir millətin mədəniyyətində özünün yaratdığı mədəniyyətlə yanaşı alınma mədəniyyət də vardır. Alınma mədəniyyətlər həm istila, həm də dinc şəraitdə baş verir. Alim qeyd edirdi ki, çar Rusiyasının yeritdiyi siyasət nəticəsində Qazax xalqının mədəniyyəti inkişaf edə bilməmişdir. Yalnız 1905-ci ildən sonra qazaxların mədəniyyətinə dair kitabçalar, jurnallar, qəzetlər, dərsliklər çıxmağa başlamışdır. O bildirirdi ki, termin məsələsində qazax sözlərinə daha çox üstünlük verirdik. Qarşılığı qazax dilində olmayan sözləri bu dilə qohum olan dillərdən alırdıq. Çünki, qohum dillərin sözləri daha asan başa düşülür. Ümumdünya terminləri qəbul edərkən qazax dilinin spesfik xüsusiyyətləri nəzərə alınmalıdır. Maraqlıdır ki, yalnız Baytursun deyil, digər məruzəçilərin, eləcə də müzakirələrdə iştirak edən alimlərin yekdil fikri belədir ki, terminyaratma prosesində ilk öncə xalq dilinin öz imkanlarına üstünlük verilməli, zərurət yarandıqda digər dillərə müraciət edilməlidir.

Müzakirələr bitdikdən sonra terminologiya məsələləri üzrə qətnamə hazırlamaq üçün 1. Çobanzadə (sədr), 2. Zifeld, 3. Zeynallı, 4. Odabaş, 5. Baytursun, 6. Geldiyev, 7. Maksudov, 8. Şakircan Rəhimi, 9. Mahmud Nədim, 10. Əyyubov, 11. Sədidən ibarət komissiya yaradıldı. Növbəti fəsildə həmin komissiyanın hazırladığı qətnamə oxuculara təqdim ediləcəkdir.

***

Məlumdur ki, qurultayın gündəliyində duran **ən mühüm məsələlərdən biri və birincisi əlifba məsələsi idi**. Mirzə Fətəli Axundzadədən başlayan əlifbanı dəyişdirmək ideyası Səmədağa Ağamalıoğlunda, daha doğrusu, Birinci Türkoloji Qurultayda ideyadan reallığa çevrildi.

Biz yuxarıda əlifbanın keçdiyi yola ümumi bir nəzər saldığımızdan burada qısa şəkildə yalnız qurultayda əlifba ilə bağlı çıxışları,

müzakirələri təhlil və təqdim etməyə çalışacağıq. Təsadüfi deyildir ki, 9-cu iclasın son çıxışından (Yakovlevin çıxışından) əlavə olaraq 3 iclas (yəni 17 iclasdan 3-ü) əlifba məsələsinə və onun müzakirəsinə həsr edilmişdi. Bu, əlifba məsələsinin türkdilli xalqlar üçün nə qədər önəmli olmasının əyani göstəricisidir.

Qurultayda çıxış edən Yakovlev Moskvadakı Şərq Xalqlarının Öyrənilməsi Komitəsinin Şərq xalqlarının milli əlifbalarının yayılması ilə əlaqədar tərtib etdiyi xəritəni göstərərək bildirirdi ki, bu rəngli xəritəyə baxarkən siz rus, latın və ərəb əlifbalarının Şərqdə daha geniş yayıldığının şahidi olacaqsınız. Əlifbaların əhəmiyyətini önə çəkən alim onu da vurğulayırdı ki, əlifba məsələsində dini mənsubiyyət çox mühüm əhəmiyyətə malikdir. Lakin bu da unudulmamalıdır ki, "Həm mədəniyyət, həm də mədəniyyət faktı olmaqla yazı tarixi bizə nümayiş etdirir ki, inkişaf edərkən mədəniyyət, yazı və elm yalnız müəyyən mərhələyə qədər dinlə bütövlükdə bağlı olur. Milli özünütəyinə keçərkən bütün xalqlar qaçılmaz şəkildə əlifba məsələrində elm və yazının dindən ayrılması mərhələsindən keçib. Şriftin özünü ən yeni Avropa texnikası tələblərinə çap tələblərinə tətbiq etmək ehtiyacı özünü burada qismən də olsa göstərirdi. Fikrimcə, bir çox türk xalqları da elə məhz bu mərhələdədir. Məncə, biz bu fakta türk xalqları arasında yazının sonrakı inkişafının yolunu görməliyik. Ən çətin məsələ latın şriftinin qəbul olunması son dərəcə mürəkkəb olan xalqlar, məsələn, Qazaxıstan və Tatar Respublikası haqqında bir neçə kəlmə. Fikrimcə, yoldaşlar, burada sadəcə olaraq bir başqa tərəfdən işə başlamaq lazımdır. Ən asanından başlamaq lazımdır. Bu baxımdan ən asan vəziyyət ən geridə qalmış xalqlardadır və hazırda onlarda bu məsələ ən ümdə məsələdir. Və əgər islahat bu yolla gedərsə-mənə isə elə gəlir ki, bu yolla getməyə bilməz, çünki bu birbaşa inkişaf deməkdir, yaxud milli yazının inkişafının tarix tərəfindən nəzərdə tutulan istiqamətinin davamıdır, - bu halda burada ərəb şriftinin qızğın tərfdarları kimi çıxış edən yoldaşlar, fikrimcə, yerlərdə məsələni özləri də artıq yeni şəkildə həll edərlər" [79].

Qurultayın stenoqramı ilə tanışlıqdan və araşdırmalardan aydın olur ki, əlifba ilə bağlı müzakirələr böyük prinsipiallıqla və hətta qrup-laşmalarla nəticələnmişdir. Onları şərti olaraq dörd qrupa bölmək olar.

1) **Ərəbpərəstlər.** Bunlar ərəb əlifbasının tərəfdarı idi və belə hesab edirdilər ki, ərəb əlifbası olduqca mükəmməl bir əlifbadı, bizim

[79] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 209.

dilin leksik-semantik xüsusiyyətlərinə uyğundu və onu olduğu kimi saxlamaq lazımdı.

Qurultayın nümayəndəsi Şərif Manatov 10-cu iclasda çıxış edərək deyirdi: "Ərəb və latın şirift sistemləri və onların türk-tatar xalqları üçün tətbiqi məsələsi" adlı məruzəsində Qalimcan Şərəf ərəb və latın əlifbalarının həm texniki, həm də elmi imkanlarından bəhs açır və fikirlərini ümumiləşdirərək yazırdı: "...kəndlilərin mövcud şriftin latın şrifti ilə əvəz olunmasının qətiyyətlə iddia edilməsi, ən azı, vaxtsız və kifayət qədər yoxlanılmamış bir bəyanatdır, çünki kəndlilərimizin mədəni-iqtisadi geriliyinə əsasən mühakimə yürütmək olar ki, bunun səbəbi heç də şrift və başqa ideoloji üst qurumlarda yox, iqtisadiyyatda və əvvəllər mövcud olmuş siyasi istibdaddadır. Şriftdə gəldikdə isə, mənim mədəniyyətşünas, dilçi və statist-iqtisadçı kimi apardığım bütün hesablamalara görə, ərəb şriftinin latın şiriftinə dəyişdirilməsi nəinki mədəni və iqtisadi yüksəlişə xidmət etməyəcək, əksinə, mədəni və iqtisadi irəliləyişimizi bir neçə il yubadacaq. Beləliklə, gəlin bizi türk-tatar xalqlarının dini və iqtisadi tərəqqisinə aparan düz yoldan sapınmayaq"[80].

Latınçılar hesab edirdi ki, ərəb qrafikasının tərəfdarları arqumentsiz və məntiqsiz danışdıqlarından çox vaxt istehza və ironiya ilə üz-üzə qalırdılar. Ərəb əlifbasının tərəfdarları bununla razılaşmır və sübut etmək istəyirdilər ki, bu əlifba quran əlifbasıdır və allah kəlamları onun vasitəsilə müsəlmanlara çatdırılıb. Ona görə də, ona toxunmaq olmaz. Ərəbistlər iddia edirdi ki, min illik mədəniyyətimiz ərəb əlifbası ilə yazılıb və latına keçsək həmin irs batıb gedəcək. Yeri gəlmişkən deməliyik ki, burada müəyyən həqiqət vardır. Belə ki, əski əlifbadan, bir qədər sonra isə kiril qrafikasından uzaq salındıqdan sonra ədəbi-mədəni irsimizə və klassik mədəniyyətimizə müəyyən zərbə və zədələr dəydi. Xüsusilə də, klassik ədəbiyyat tərcümə zamanı sovetləşdirildi, leninləşdirildi, marksistləşdirildi. Həmin ədəbiyyatın əsasını təşkil edən tanrı və dini dəyərlər ateizm mövqeyindən dəyərləndirilərək mürtəce elan edildi.

Ərəb əlifbasının tərəfdarlarının fikrincə, əlifba dəyişdirilərsə biz tərəqqidən geridə qalacaq və inkişaf etməyəcəyik. Bütün bunlara etiraz edən Umar Əliyev ərəb qrafikasının tərəfdarlarına üz tutaraq deyirdi: "Səhiyyə orqanları dağlı kütlələrini mollaların dualarla müalicəsindən kinə və piramidonla müalicə vasitəsilə azad etdikləri kimi, eynilə

[80] Yenə orada, s. 238.

latınçılar da dağlı uşaqlarını müqəddəs ərəb qrafikalarının bütün "gözəlliklərindən", onlar üçün anlaşılmaz olan ərəb qəməri, hicri, xəstə hərflərindən, təşdidlər, cəzmlər və s. xilas etdilər. Ərəb əsaslı qarfika və yazının öyrənilməsi üçün sərf edilən aylar və illər əvəzinə, beş-altı həftə ərzində öyrənilə bilən latın əsaslı qrafika və yazını tətbiq etməklə tədrisi asanlaşdırdılar. Bu gün vaxtilə çarizmin sıxışdırdığı "vəhşi" dağlı xalqları azad edərkən, biz onları mənəvi və fiziki istibdaddan xilas edirik, onların keçmişdən miras qalan mədəni-iqtisadi geriliyini ən sürətli templə məhv edəcək tədbirlər həyata keçiririk. Buna aparan yolda iqtisadi sahədə dağlıların ibtidai istehsal alətlərini təkmilləşdirilmiş alətlərlə - kotanı traktorla, uzunqulaq minməyi təkərli nəqliyyatda gəzməklə əvəz etmək, qranit dağları deşib keçmək, elə həmin ərəbpərəstlərin – mollalar, müridlər və başqalarının şeytan əməli saydıqları teleqraf, telefon və dəmir yol əlaqəsini yaratmaq lazım gəlir" [81].

Latın əlifbasının tərəfdarı olan Raximov uca səslə deyirdi: "Köhnə ərəb şrifti heç nəyə yaramır. Mən hamının yaxşı eşitməsi üçün xüsusi olaraq qeyd edirəm – köhnə ərəb şrifti heç nəyə yaramır" [82].

Qalimcan Şərəf isə böyük inam hissi ilə bildirirdi: "Əgər biz bu və ya digər şrift sistemini müqayisə etsək, belə bir qərara gələrik ki, ərəb əlifbası bizim şəraitdə daha kütləvi üstünlüyə malikdir... bir mədəniyyətşünas, dilçi, statistik-iqtisadçı kimi belə hesab edirəm ki, ərəb şriftlərindən latın şriftinə keçmək nəinki mədəni və iqtisadi inkişafımıza kömək edər, əksinə, bir neçə il bizim irəliyə doğru inkişafımızı ləngidər".

2) **İslahatçılar.** Bunlar ərəb əlifbasını saxlamağın, lakin asanlaşdırmaq məqsədilə üzərində müəyyən dəyişikliklərin aparılmasının tərəfdarı idilər.

Qurultayda çıxış edən Özbəkistanın nümayəndəsi **Raxim Axundcan oğlu İnoqamov** ərəb əlifbasının və ya islah edilmiş ərəb əlifbasının əleyhinə idi və onların əlifbanın dəyişdirilməməsi ilə bağlı arqumetlərini belə cavablandırırdı: "Ərəbpərəstlər – mən, əsasən, tatar nümayəndə heyətinin üzvlərini nəzərdə tuturam – köhnə yox, islahat üçün nəzərdə tutulmuş ərəb əlifbasının üç əsas layihəsini təqdim ediblər. Mən əminəm ki, onların sayı üç yox, daha çox olacaq. İslah olunmuş ərəb əlifbaları ilə latın əlifbası arasında nə fərq var? Fərq yoxdur. Özbəkistanın təcrübəsi əsasında deyə bilərəm, bizdə məktəbdə oğlanlar yeni əlifba ilə oxuyurlar. Onlar köhnə əlifbanı bilmirlər, lakin islah olunmuş bu yeni əlifbanı da çətinliklə oxuyurlar və latın əlifbasını qəbul

[81] Yenə orada, s. 244.
[82] Yenə orada, s. 255.

edəcəyimiz halda məsələnin "bu, kütlədən təcrid olunma olacaq" şəklində qoyulması əsassız bir dəlildir. Deyirsiniz, 500 il bu əlifba ilə ədəbiyyat yaratmısınız. Məgər o, islah olunmuş yeni əlifba ilə yaradılıb? Axı, əhali islah olunmuş əlifbanı yox, köhnəsini oxuyur. Bəs yeni əlifbanı kim oxuyacaq? İslah olunmuş əlifbanı yeni nəslin adamları bilir, bəs 500 illik ədəbiyyat necə oldu? Həmin əlifbanın qəbulu üçün bu qəbildən olan dəlillər tamamilə yalnışdır (daha sonra yoldaş İnoqamov lövhədə türk sözlərini islah olunmuş ərəb əlifbası və latın əlifbası ilə yazır və sonuncunun üstün olduğunu sübut edir).

Mənə elə gəlir ki, Tatarıstandan olan nümayəndələr və bir sıra digər yoldaşlar bu məsələyə aydınlıq gətirməli və onlar haqqında millətçi və dinçi olmaları barədə rəy yaranmaması üçün prinsipial etirazları olmadığını deməməlidirlər. Əsla! Sübut edə bilsəydiniz, bunu işdə sübut edərdiniz"[83].

Qurultayın iştirakçılarından olan Azərbaycan Dövlət Universitetinin müəllimi Cabbar Abbas oğlu Məmmədzadə bildirirdi ki, ərəb əlifbası türk dilinə qəti yaramır. Əslində bu əlifba ərəblərə finikiyalılardan keçmişdir. Ərəb əlifbasında 28 və 32 hərf, üstəgəl, sətraltı və sətrüstü işarələr cəmi 28 edir. Ərəb əlifbasında 3 sait olduğu halda, türk dilində 9 sait səs vardır. Bu 9 saiti göstərmək üçün "i" hərfindən başqa heç bir hərfin üstündə və ya altında bircə nöqtə qoyulmur. Ərəb əlifbası ilə "cümə axşamı" sözünü yazmaq üçün düz 10 nöqtə qoymaq lazım gəlir. Hələ onu demirəm ki, həmin nöqtələri harada qoyasan. Çünki əgər nöqtələr öz yerinə qoyulmasa, onu "cümə axşamı" deyil, "çərşənbə" oxuyacaqsan. Bu da, Cabbar Məmmədzadənin ərəb əlifbasına və ya islahatçılara etirazının ifadəsi idi.

3) **Latınpərəstlər.** Bu əlifbanın tərəfdarları çoxluq təşkil edirdi və onlar çalışırdı ki, latın əlifbasına keçirilsin. Etiraf edilməlidir ki, qurultaya qədər bu istiqamətdə müəyyən əməli işlər də görülmüşdü. Məsələn, "Yeni yol" qəzetinin 1922-ci ildən latın əlifbası ilə çap edilməsi buna sübutdur.

Qurultayın özündə də bir çox ziyalılar latın əlifbasına keçməyin səmərəliliyində israrlı olduqlarını gizlətmədilər. Məsələn, Sultan Məcid Əfəndiyev çıxışında bildirirdi ki, əvvəlki məruzəçilər latın əlifbasının üstünlüyünü sübut etmək üçün burada məsələnin texniki və digər tərəfləri üzərində kifayət qədər dayandılar. Mən latın əlifbasının qəbulu

[83] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 256-257.

əleyhinə onun əleyhdarlarının söylədikləri etirazlarla bağlı yalnız bəzi qeydlərimi söyləyəcəyəm. Yeri gəlmişkən, yeni türk əlifbasının bəzi əleyhdarları latın əlifbasına müqavimət göstərmələrini Avropanın qabaqcıl ölkələrində də strukturuna, formasına görə kifayət qədər mürəkkəb əlifbaların mövcud olması və bunun həmin ölkələrə tərəqqi yolu ilə irəliləməkdə qabaqcıl ölkələr olmaqda heç bir maneçilik törətməməsilə əsaslandırırlar. Deməliyəm ki, bu cür düşünən adamlar bir mühüm cəhəti – haqqında danışılan ölkələrdə elm və texnikanın ən son nailiyyətlərilə yanaşı, asanlıqla bir kənara atıla bilən, lakin burjua aləminin qoruyub saxladığı köhnənin qalıqlarının mövcudluğunu nəzərdən qaçırırlar. Burjua dünyası bunları öz varlığını ört-basdır etmək, həmçinin kütlələrin yeniliyə meylini aradan qaldırmaq, köhnə ənənələri qoruyub saxlamaq məqsədilə edir. İngiltərə və Fransadakı bu cür keçmişin qalıqlarının taleyi onları süpürüb bir kənara atacaq, ən yaxınlarda baş verəcək inqilablar zamanı həll olunacaq. Latın əlifbasının əleyhdarları isə bizə münasibətdə nəzərə almırlar ki, biz artıq bu cür ingilis-fransız mühafizəkarlığını arxada qoymuşuq və bizdə köhnənin qalıqlarını ləğv edən, Sovet İttifaqının zəhmətkeşləri üçün tərəqqiyə aparan yolu təmizləyən Oktyabr İnqilabı kimi möhtəşəm bir fakt mövcuddur.

Sultan Məcid Əfəndiyev qeyd edirdi ki, latın əlifbasının əleyhdarları ilə bağlı ikinci qeydim onların həmin əlifbanın qəbulunun bir sıra ciddi nəticələrə gətirəcəyini göstərməmələri ilə əlaqədardır. Guya nəticədə ərəb əsaslı əlifba ilə çap olunmuş bütün ədəbiyyatımızı, qədim irsimizi arxivə verməli olacağıq; latın əlifbasının qəbulu bu irsi qiymətdən salır, yararsız, xeyirsiz edir; bütün kitabları yenidən çap etmək lazım gələcək, yeni əlifba ilə həyata keçirilməli olan bu ədəbiyyat və bütün bu işlər çox böyük çətinliklər və məsrəflərə səbəb olacaq. Mən demək istərdim ki, bu məsrəflər bir o qədər də böyük deyil. Əvvəlki dövrün ən görkəmli latınpərəstlərindən biri olan Mirzə Mülküm Xan hesablamışdı ki,Yaxın Şərqdə mövcud olan bütün ədəbiyyatı – İran, Əfqanıstan və b. ölkələrin ədəbiyyatını yenidən çap etməkdən ötrü bircə zirehli gəminin inşası üçün tələb olunan məbləğ qədər xərc lazımdır. Həyata keçirilən islahatın mühümlüyünü nəzərə aldıqda isə demək lazımdır ki, bu islahat üçün tələb olunan məsrəflərin nəhəngliyinin qabardılması bizi heç vəchlə durdurmamalıdır və bununla biz əleyhdarlarımızı təslim olmağa məcbur etməliyik. Lakin onu da deməliyəm ki, yeni türk əlifbasının qəbulu heç də köhnə əlifbadan istifadə etmək və ondan faydalanmaq imkanından məhrum etmir, latın

əlifbası ilə yanaşı, ərəb əlifbası da mövcud ola bilər və ondan istifadə mümkündür. Almaniyanın nümunəsini götürək. Orada latın əlifbası ilə yanaşı, texniki baxımdan demək olar ki, ərəb əlifbası qədər çətin olan qotik əlifba da var və buna baxmayaraq, hər iki əlifba dinc yanaşı mövcud olmaqdır.

Latın əlifbasının siyasi tərəflərini önə çəkən məruzəçi göstərirdi ki, yeni latın əlifbasını qəbul etməli olan ölkələr son dərəcə geridə qalmış ölkələrdə tərəqqi yolu ilə irəliləyişimiz yalnız bu sahədə ən mükəmməl vasitələrdən istifadə edəcəyimiz halda mümkündür. Nəqliyyat yolları ilə müqayisə etsək deməliyik ki, həmin sahələrdə çox böyük gerilik olduğu halda, bu və ya digər ölkədə surətlə yol getmək istəyən xalqlar ən mükəmməl vasitələrə müraciət edirlər. Məsələn, dəmiryol nəqliyyatı ilə müqayisədə aviasiya daha mükəmməl hərəkət vasitəsidir və bu səbəbdən də o, nəqliyyat yollarının tamamilə olmadığı ölkələrdə daha tez və daha çox yayılır. Dəmiryol hərəkəti olan yerdə vəziyyət daha asandır, o olmayanda isə nəqliyyat yolları baxımından böyük tələblər irəli sürülür və aviasiya bərqərar olur. Elektrikləşdirmə və geridə qalmış aqrar ölkələr sahəsində də vəziyyət eyni cürdür.

S.M.Qənizadə deyirdi ki, niyə latın əlifbasına xüsusi müqavimət göstərilir və o min cür bəlanın səbəbi adlandırılır? İslahatın əleyhdarları özləri də bu islahatı aparmaq istərdilər, lakin sinfi mənafelər üzündən əks cəbhədə durur, islahatın həyata keçirilməsi şərəfinin Sovet hakimiyyətinin nəsibi olmasını istəmirlər. Daha sonra latın əlifbasının qəbulu ilə əlaqədar Şərqin təcrid olunacağını iddia edirlər. Biz bilirik ki, Şərq, İran və Əfqanıstan bizimlə müqayisədə mədəni baxımdan çox geri qalıb. Biz geridə qalmış xalqlarla tən gələ bilmərik, biz irəliləməliyik, daha geridə qalmış xalqları ardımızca aparmalı, bunu onlara işdə sübut etməliyik. Burada təbliğatın xeyri olmayacaq, ən yaxşı təbliğat işdə sübut etməkdir. Bu islahatı həyata keçirməklə və onun əsasında irəliləməklə biz Şərq xalqlarını da onu qəbul etməyə inandırarıq.

Sonda natiq qeyd edirdi ki, latın əlifbasının qəbul edilməsi daim geriliyimizə olan klerikalizmdən uzaqlaşmağımıza gətirib çıxarır. Bizim ərəb əlifbamız dinlə, bununla da din xadimlərinin, kapitalizmlə birgə kütlələrin şüuruna məhvedici təsir göstərən qüvvənin hökmranlığı ilə əlaqədardır. Əgər Avropa kapitalistləri bizim fiziki qüvvəmizi istismar edirlərsə, ruhanilər şüurumuzu zorlayırlar. Latın əlifbasının qəbulu bizi ruhanilərin hökmranlığından xilas edir və bununla da mədəni nailiyyətlər amilini qüvvətləndirir.

Ruhanilərin hökmranlığından xilas olmaqdan başqa, latın əlifbasının qəbulunun ən mühüm cəhəti odur ki, bu həm də avropalı kapitalistlərin şüurlarında müəyyən çevriliş edəcək bir amildir. Həmin çevrilişin təzahürü isə özünü Avropa kapitalistlərinin bizə olan münasibətlərini dəyişməli olmalarında göstərəcək. Onlar indiyədək xalqlarımızı yalnız sağmal inək olmağa layiq xalqlar kimi görürdülər. Odur ki, yeni addımlarımızı, yeni yolumuz – latın əlifbası – bizə olan münasibəti dəyişdirəcək. Təkrar edirəm, bu, burjuaziyaya zərbə olacaq və onu öz münasibətini Şərq xalqlarına böyük ehtiram istiqamətində dəyişməyə məcbur edəcək[84].

Qurultayın 12-ci iclasında çıxış edən Qaraçaylı İslam latın əlifbasını daha mütərəqqi əlifba hesab edir və deyirdi: "Qaraçaylar əlifba məsələsini – Qurultayımızın qarşısında duran ən möhtəşəm məsələni özləri üçün artıq həll ediblər. Xalqımızı uzun əsrlər boyu qul vəziyyətində, biabrçı əsarətdə saxlayan, boyunduruq altında inləməyə vadar edən, quruluşu müşayiət edən əlifba üçün bizdə yer yoxdur. Bizdə yeni, başqa bünövrə, yeni əsaslar üzərində qurulmuş əlifba olmalıdır. Fikrimizcə, belə əlifba burada təklif edilən latın əlifbası, daha doğrusu, latın yazıları sistemi olmalıdır" [85].

4) **Kiril tərəfdarları.** Keçən əsrin 20-ci illərində azlıq təşkil etsələrdə onlar kirilə keçməyin tərəfdarları idi. Məsələn, Kalmık vilayətindən gəlmiş Kosiyev Xonin Kosıyeviç öz çıxışında kiril əlifbasının tərəfdarı olduğunu ifadə edərək deyirdi: "Kalmık vilayətində əlifba məsələsi artıq 8-9 il bundan əvvəl qaldırılıb. Bəlkə də burada bunların heç biri bilmirdi ki, biz əvvələr yuxarıdan aşağıya yazırdıq. Avropa xalqları soldan sağa, siz sağdan sola yazırsınız, bizcə, yazı yuxarıdan aşağıya doğru idi. Biz belə qərara gədik ki, yuxarıdan aşağıya doğru olan köhnə yazımız bizim üçün narahatdır və şəraitimizə uyğun yeni əlifba qəbul etdik. Lakin bu əlifba latın əlifbası olmadı. Çünki bizdə şərait sizdəki kimi deyil. Odurki,biz rus əlifbasını qəbul etdik və ona dildə olmayan səslər üçün öz yeni işarələrimizi artırdıq" [86].

Baytursun Əhməd Baytursunoviç də kiril əlifbasının tərəfdarı olduğunu gizlətmirdi: "O adamlar ki, əvvəlcə rus əlifbasından istifadə etmişlər, onda yenidən latın əlifbası məsələsi qoymaq ağılsızlıqdır. Ərəb əlifbası ya latın əlifbası fərqi yoxdur, hər ikisinin müsbət və mənfi cəhətləri vardır. Əgər siz ağlınızın gücü ilə hərəhət etmək istəyirsinizsə,

[84] Yenə orada, s. 257-259.
[85] Yenə orada, s. 267.
[86] Yenə orada, s. 266.

heç bir şey düşünmədən, heç bir hissə qapılmadan rus əlifbasını qəbul etməlisiniz".

İvanov Pavel İvanoviç isə yeni əlifbanın qəbulunu alqışlasa da uzun illər istifadə etdikləri kiril əlifbasında da heç bir problemlə üzləşmədiklərini qeyd edirdi: "Bizim yazı rus əlifbasına əsaslanır və o 50 il bundan əvvəl meydana çıxdığı şəkildədir. Əlifbaya gəldikdə isə onda, əlbəttə, iki cəhəti aydınlaşdırmaq lazımdır: növbədə, əlifbanın həmin dili səs baxımından nə dərəcədə əhatə etməsi bundan sonra isə qrafikanın özü. Son 50 il ərzində biz çox kitab çap etmişik, əhali - kitabları yazanlar və bu əlifba ilə məktəblərdə təhsil alanlar arasında bir dəfə də olsun əlifbamızın səs və qrafika baxımdan müəyyən dərəcədə qeyri-mükəmməl olması məsələsi qaldırılmayıb"[87].

***

3 mart 1926-cı ildə S.Ağamalıoğlunun sədrliyi ilə keçən onuncu iclasda professor Jirkov **"Əlifbanın texniki baxımdan quruluşunun əsasları"** adlı məruzə ilə çıxış edir. Alim bildirir ki, əlifbaya sırf texniki cəhətdən nəzər saldıqda üç mühüm məqam unudulmamalıdır.

Birincisi, əlifbanın rahat oxunması.

İkincisi, texniki meil, işarələrin təsviri.

Üçüncüsü, asan mənimsəmə, pedaqoji nöqteyi-nəzər.

Bu üç mühüm cəhətə diqqət yetirən alim hesab edirdi ki, latın əlifbası bu prinsiplərə asanlıqla cavab verir. Ərəb və latın əlifbalarını müqayisə edən professor deyirdi: "Ərəb əlifbasının ərəb, fars və türk dillərinə xidmət göstərə bilmək üçün zəruri olan 81 işarəni əldə edirik. Çox böyük təəssüflə bunlardan daha dördünü istisna edə bilərik, amma bu halda türk dillərini artıq tam halda əhatə edə bilməyəcəyik. Qalır 77 işarə. Rus makinasının 76 işarəsi var və o 76 işarəyə yaxşı xidmət edə bilər. Mən hazırda ərəb əlifbasına gərək olan vergül, nöqtə, tire, mötərizə, sual işarəsi kimi durğu işarələrini, rus dili üçün isə nöqtə-vergül və i.a. daxil etmişəm" [88].

Bu təqdimatdan da aydın olur ki, əlifbanın qəbulu zamanı məsələnin texniki tətəfləri də əhəmiyyətli dərəcədə ciddi rol oynayır. Professor Jirkov əlifba məsələsində yalnız onun texniki tərəfləri barədə

[87] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 268.

[88] Yenə orada, s. 216.

əsaslandırılmış fikir irəli sürmür, eyni zamanda yeni əlifbanın əleyhinə çıxanlara da arqumentli cavab verirdi: "Yeni əlifbanın əleyhinə çıxış edərkən islahatçılar deyirlər ki, biz türk kütləsindən təcrid oluruq və bu səbəbdən aramızda böyük uçurum yarana bilər. Mən buna mədəniyyətə doğru gedən yolu seçən xalqların sözü ilə cavab verəcəyəm. Türkləri (Türkiyə türkləri nəzərdə tutulur - C.Q.) götürək. Bu məsələ ilə bağlı Türkiyədə tam iki cərəyan var: islahatçılar və latın şriftli yeni türk əlifbasının tərəfdarları onun əleyhdarlarına cavab verərkən deyirlər – "Tanin" qəzetinin 27 fevral 1924-cü il tarixli nömrəsindən sitat gətirirəm – "biz xatırlamalıyıq ki, ərəb əlifbası bizim əlifbamız deyil və ərəb əlifbası ilə çap olunan nəşrlər əhalinin çox kiçik hissəsi tərəfindən oxunur".

Biz əcdadlarımızdan, ulu babalarımızdan miras qalan ədəbiyyatı itirmək fikrində deyilik və onu heç də bir kənara atmırıq. Lakin biz çalışmalıyıq ki, həmin ədəbiyyat oxunsun. Bəs nə baş verir? Ərəb əlifbası, yaxşı islah edilmiş əlifba ilə yazılan bu ədəbiyyatı bütün əhalinin on-on beş mini oxuyur. Əgər cəmi on-on beş min adam islah olunmuş əlifba oxumaq və yazmaq bacarırsa, kitabxanalarda bunlardan həmişə istifadə edə bilir. Qoy onlar orada bununla məşğul olsunlar, amma biz onunla hesablaşmalıyıq ki, qarşımızda mədəniyyəti, savadı olmayan çoxmilyonlu kütlə durur və bu kütlə üçün həmin ədəbiyyat əlçatmazdır"[89].

Göründüyü kimi, Jirkovu kütlənin deyil, xalqın taleyi düşündürürdü. O klassik ədəbi-mədəni irsdən imtina etmir, əksinə o irsi mənimsəməklə savadsızlığın ləğvinin mümkünlüyünü, keçmişdəki intellektual sərvətlərimizin dünya ictimaiyyətinə inteqrasiyasının tərəfdarı olduğunu sübut etməyə çalışırdı.

***

"Əski ərəb əlifbası tarix tərəfindən məhkum edilib, bir dəfəlik və həmişəlik rədd olunub" - deyən Nazir Tyüryakulov əlifbanın müzakirəsi zamanı haqlı olaraq göstərirdi ki, meydanda yalnız iki əlifba rəqabətdədir – islah olunmuş yeni ərəb əlifbası və latın əlifbası[90]. Qeyd etməliyik ki, bu iki əlifba ilə bağlı uzun-uzadı mübahisə və müzakirələrdən sonra qətnamənin qəbul edilməsi istiqamətində təkliflər müzakirəyə çıxarıldı. Daha doğrusu, iki təklif dinlənildi.

Birincisi, Qorxmazovun təklifi:

[89] Yenə orada, s. 209.
[90] Yenə orada, s. 239.

1.Yeni türk-tatar əlifbasının ərəb və islah olunmuş ərəb əlifbası üzərindəki üstünlüklərini və texniki üstünlüyünü (alqışlar), həmçinin ərəb əlifbası ilə müqayisədə yeni əlifbanın möhtəşəm mədəni-tarixi və mütərrəqi əhəmiyyətini təsdiq edərək, Qurultay həmin əlifbanın ayrı-ayrı türk–tatar respublikaları və vilayətlərində qəbulunu və həyata keçirilmə üsulunu hər bir respublika və xalqın öz işi sayır.

2. Bununla əlaqədar qurultay Azərbaycanın, SSRİ respublikalarının (Yakutiya, İnquşetiya, Qaraçay, Çərkəz, Kabarda, Balkar və Osetin) yeni türk latın əlifbası qəbul etmələrini çox böyük əhəmiyyətə malik fakt kimi dəyərləndirir. Yeni türk tatar əlifbasının qəbulu sahəsində SSRİ-nin adları çəkilən vilayət və respublikalarında aparılmış nəhəng müsbət işi qeyd edən və qızğın salamlayan Qurultay bu işi özləri üçün həyata keçirmək məqsədilə bütün türk-tatar respublikalarında Azərbaycanın və digər vilayət və respublikaların təcrübəsini və iş üsulunu öyrənməyi tövsiyə edir.

İkincisi, Tiflisdən gələn başqırd Manatov Şərif Axmedoviçin təklifi:

1) Hər iki - həm ərəb, həm də latın şirif sisteminin türk dillərinə xidmət edə bilməsini təsdiqləmək;

2) Latın sisteminin türk dillərinə tədbiqi sahəsində Azərbaycan Respublikasının gördüyü möhtəşəm işi, həmçinin əvvəlki ərəb şriflərinin islahı istiqamətində Tatar respublikasının apardığı işi nəzərə alaraq, məsələnin türk dilləri üçün bu və ya digər sistemin daha yaxşı olacağı anlamında qəti həllini açıq saxlamaq ;

3) Hər halda razılaşmaq ki, bütün türk dilləri , ən azı onlardan indiyənədək ərəb sistemində istifadə edənlər üçün vahid heroqlif sistemi müəyyənləşdirilməli və həmin məsələ II Türkoloji Qurultay tərəfindən həll olunmalıdır.

4) Həm latın sistemi, həm də digər sistem üzrə digər türk xalqlarından eyniyyət olması məqsədilə, təklif edilən işarələrin razılaşdırılması üçün biri islahatçılardan, digər isə latınpərəstərdən ibarət olan iki komissiya yaratmaq. Ərəb xətti üzrə islahatın qəti prinsiplərini müəyyənləşdirmək və yazılı razılaşdırmaq[91].

Hər iki təklif səsə qoyulur və səsvermənin nəticələrinə görə Qorxmazovun qətnaməsinin lehinə - 101 nəfər, Şərəfin qətnaməsinin lehinə isə - 7 nəfər səs verir. 9 nəfər isə səsvermədə iştirak etmir.

[91] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 289.

***

5 mart 1926-cı ildə S.Ağamalıoğlunun sədrliyi ilə keçirilən on dördüncü iclasda **"Türk xalqlarında ədəbi dilin inkişafı"** ilə bağlı məsələlər müzakirə predmetinə çevrildi.

Türk xalqlarında ədəbi dilin inkişafından bəhs açan Fuad Köprülüzadə daha çox ədəbi dilin tarixi inkişafına diqqət yetirdi və bildirdi ki, İslamın qəbulundan əvvəl də türklər arasında bəzi əlifbalar mövcud idi və həmin əlifbalardan istifadə edən bəzi ləhcələr "ədəbi" dillər adlandırıla bilər. Alim qeyd edirdi ki, Orxon abidələrinin dili artıq inkişaf etmiş ədəbi dildir. Bu ədəbi dildən savayı, həm də hələ Sasanilər dövrünə gedib çıxan türk dilində əsərlərin mövcud olması haqqında tarixi dəlillər də mövcuddur ki, bu barədə mən "Türk ədəbiyyatında ilk mütəsəvviflər" və "Türk ədəbiyyatı tarixi" əsərlərimdə ətraflı danışmışam. Göründüyü kimi, böyük alim Orxan abidələrin dilini ədəbi dil elan edir və ədəbi dilin qədim tarixə malik olduğunu göstərirdi.

Köprülüzadə göstərirdi ki, müsəlman erasının V əsrinə qədər Çin və müsəlman mənbələrində verilən kiçik məlumatlardan ciddi elmi nəticə çıxarmaq olmaz. O, böyük inam hissi ilə deyirdi ki, yalnız Mahmud Kaşqarinin çox qiymətli əsərini digər tarixi və linqvistik mənbələrlə tutuşdurmaq və birincini həddən artıq diqqətlə və hərtərəfli araşdırmaq nəticəsində biz aşağıdakı qənaətə gələ bilərik. Həmin dövrdə artıq iki türk ədəbi dili mövcud idi - qərb və şərq.

Birincisi, "Xəqaniyə, yaxud sadəcə "türk" ləhcəsi Qaşqar və onun bölgələrində hakim idi və "cigil", "yağma", "arqu", "tohsi", "uyğur" ləhcələrilə böyük oxşarlığı vardı.

Qərb ləhcəsi adlandırılan **ikinci** ədəbi dil isə oğuz ləhçəsidir, onunla "qıpçaq", "emak", "peçeneq", "balkar", xüsusən də "qıpçaq-emak" ləhcələri arasında böyük oxşarlıq mövcuddur. Bu iki qrup arasında hələ müsəlman erasının V əsrində həm morfologiya, həm də fonetika və semantika baxımından hiss olunacaq dərəcədə fərqlər var[92].

Müəllif göstərirdi ki, müxtəlif tarixi amillərin təsiri altında oğuz ləhcəsi müsəlman erasının VII əsrində iki qrupa parçalandı: şərqi və qərbi. Şərqi oğuz ləhcəsi, yaxud "Azəri" məlum olduğu kimi, VIII əsrdən etibarən formalaşmağa başladı. Qərbi oğuz, yəni Anadolu ləhcəsinə gəldikdə isə, o, hələ monqol istilasından da əvvəl ədəbi məhsullar yetişdirməyə başladı və əsr ərzində minlərlə elmi və ədəbi əsər meydana

[92] Yenə orada, s. 291.

çıxardı ki, bunlar həm də ərəb və fars dillərindəki əsərlərdən geri qalmırdı[93].

Köprülüzadənin ədəbi dillə bağlı bu təsnifatı olduqca ciddi bir alimin on illərlə apardığı elmi araşdırmaların məntiqi nəticəsi idi.

Köprülüzadədən sonra N.Xakimov, Qabitov, Berdiyev çıxış edərək ədəbi dillə bağlı öz fikir və düşüncələrini qurultay iştirakçıları ilə bölüşdülər. Berdiyev çıxışında göstərirdi ki, xalq dili ilə ədəbi, ədəbi dillə kütlələrin dilini fərqləndirmək lazımdı. Ədəbi dil hər hası bir ləhcədən deyil, ümumxalq dilindən yarana bilər.

Samoyloviç Aleksandr Nikolayeviç göstərirdi ki, bürokratik yolla, əmr etməklə dərhal vahid ədəbi dil yaratmaq olmaz. Bunun üçün ilkin olaraq ədəbi dillə danışıq dilləri arasında yaxınlıq olmalıdır. Yalnız bu yaxınlıqlardan sonra vahid ədəbi dilin yaranmasından bəhs açmaq olar. Samoyloviç qeyd edirdi ki, "mənə elə gəlir ki, ədəbi dilin işlənib hazırlanmasına pessimistcəsinə baxılması üçün əsas yoxdur. Sosial hadisə kimi dil ünsiyyət vasitəsi olduğundan, əlbəttə, onun vahidləşdirilməsi tamamilə zəruri və arzu edilən olacaq. Axı həqiqətən də ayrı-ayrı türk xalqlarının həm iqtisadi, həm də təmas üsullarının kənardan, ayrı-ayrı şəxsiyyətlər tərəfindən heç bir zor tətbiq olunmadan, yalnız öz aralarında daim artmaqda olan ədəbiyyat mübadiləsi yolu ilə yaxınlaşması nəticəsində biz yalnız ədəbi dilin yox, danışıq dilinin də eyniləşməsi və yaxınlaşmasının şahidi oluruq"[94].

Tyuryakulov da bəzi məsələlərdə A.N.Samoyloviçlə eyni mövqedə dayanırdı. Belə ki, o da dilin labaratoriya şəraitində deyil, dillər arasında müəyyən yaxınlaşma baş verdikdə, təmas və əlaqələr artdıqda ədəbi dilin də yaranmasının mümkünlüyü qənaətində idi.

Tyuryakulovun "Kommunist" qəzeti ilə "Molla Nəsrəddin" jurnalı arasında apardığı paralelliyə etiraz edən Həbib Cəbiyev bildirdi ki, "Kommunist"in "Molla Nəsrəddin"lə tutuşdurulması gülməlidir. Yumorustik jurnalın dilini ciddi qəzetin dili ilə müqayisə etmək, əlbəttə, mümkün deyil... Mən bəyan edirəm ki, "Molla Nəsrəddin"in dili bu jurnalın bütün səhifələrində tənqid olunan elementlərin – mollalar, axundlar, qəssablar, xırda burjuaziya, baqqallar və i.a. mühitindən götürülüb. Bu ifadələrlə biz onları gülüş hədəfinə çeviririk. Əlbəttə, bu dil ədəbi dil ola bilməz. Odur ki, yoldaş Türyaqulovun müqayisəsi tamamilə yolverilməzdir. Hətta rus mətbuatında da "Pravda" qəzeti ilə "Krokodil"

[93] Yenə orada, s. 292.
[94] Yenə orada, s. 295.

jurnalının dilini müqayisə etmək olmaz. Bu məsələyə daha ciddi yanaşmaq lazımdır”[95].

Həqiqətən də, belə müqaisə aparmaq bütün tərəfləri ilə qüsurludu. Bu da danılmaz həqiqətdir ki, hər hansı bir ciddi və ya yumoristik mətbuat orqanının dilini ədəbi dil meyarı kimi qəbul etmək doğru deyil. Biz də hesab edirik ki, ədəbi dil ümumxalq dilinin köynəyindən çıxmalıdır.

Ədəbi dildə terminlərin rolunu yüksək qiymətləndirən Sergey Fyodroviç Ömərov hesab edirdi ki, bəzi türkdilli xalqların dilində ərəb-fars tərkibləri çox olduğundan, nə qədər yaxınlaşma olsa da onların dillərini Orta Asiya türkləri başa düşə bilməyəcəkdir. Ona görə də, bu dillərdən həmin sözlər çıxarılmalı və türk dillərinin birləşdirilməsi istiqamətində mühüm addımlar atılmalıdır.

Maraqlıdır ki, dildən sözün çıxarılması və ya dilə hər hansı bir sözün daxil edilməsi sifarişlə olmur. Bu mexanizm kənardan süni surətdə həyata keçirilə bilməz, o təbii olaraq dilin öz qanunları əsasında həyata keçir.

Türk xalqlarında ədəbi dilin inkişafı ilə bağlı mübahisə, müzakirə, çıxış və məruzələr bir daha göstərir ki, türkdilli xalqların vahid ədəbi dilini yaratmaq onların vahid əlifbasını yaratmaqdan qat-qat ağırdı. Vahid ədəbi dilin yaradılması olduqca ciddi və olduqca mürəkkəb bir prosesdir. Məsələ burasındadır ki, “türkdilli xalqlar bir-birinə yaxınlaşsın, əlaqə yaratsın” – deyən alimlər nəzərə almırdılar ki, “parçala və hökm sür” siyasəti yeridən Sovet imperiyası buna imkan verməz.

5 martda keçirilən iclasın ən əhəmiyyətli cəhətlərindən biri o oldu ki, türk dilli xalqlar qurultaydan sonrakı illərdə də ortaq türk ədəbi dili yaratmaq uğrunda mübarizə apardılar. Doğrudur, bu mübarizə idarə və iş üsulu repressiya olan totalitar rejimin qətliamları ilə nəticələndi, lakin bütün çətinliklərə baxmayaraq türkdilli xalqlar arasında ortaq ədəbi dilin yaradılması ideyası da gündəmdən düşmədi.

5 və 6 mart tarixlərində keçirilən iclaslarda ədəbi dilə dair müzakirələr davam etməklə yanaşı, dilin tədrisi metodikası, diyarşünaslıq məsələləri, türkdilli xalqlarının ədəbiyyatı və mədəniyyəti ilə bağlı bir çox məsələlər də müzakirə olundu və sonda qurultayın qətnamələri qəbul edildi.

Vaxtı ilə Hüseyn Cavid yazırdı ki, bu gün məktəbimiz və ədəbiyyatımız necədirsə, sabah millətimiz də elə olacaq. Cavid əfəndi

[95] Yenə orada, s. 295.

haqlı idi. Həqiqətən də, məktəb, təhsil, maarifçilik təsisatı millətin gələcəyinin necəliyini müəyyənləşdirən əsas amildir. Ona görə də, qurultayda tədris prosesi, ədəbiyyat və mədəniyyət məsələləri önəmli yerlərdən birini tuturdu. Tədrisin metodikası məsələlərinə toxunan Lev Vladimir Şerba dəbdə olan iki üsulu – səs və bütöv söz (buna Amerika üsulu da deyilir – C.Q.) üsullarını qurultay iştirakçılarının diqqətinə çatdırır və həmin üsulların xarakterik xüsusiyyətlərindən danışır. Amerika üsulunun üstünlüyünü bildirən alim göstərir ki, Amerika üsulunda əvvəl əşyalar, sonra isə yazı öyrədilir. Başqa sözlə desək, əvvəl əşyanın özü, sonra isə qrafik işarələrlə adı öyrədilirdi.

Qurultaydaki müzakirələr zamanı bəziləri Amerika üsulunun üstünlükləri ilə razılaşmasalar da, əslində tədris prosesini əşyadan başlamaq uşaqların əşya və təbiətlə tanışlığı yaddaşın möhkəmləndirilməsinə xidmət edir. Təbii ki, yazı prosesində həmin əşyanın adını yazan uşaqlarda əşya onların hafizəsində yenidən canlanır və möhkəmlənir. Sanki texnikanın inkişaf etmədiyi dövrdə tədris prosesinə bir vizuallıq gətirirdi. Şerba təkcə yazmağın deyil, həm də düzgün yazmağın, nitqin inkişaf etdirilməsinin və başqa məsələlərin metodiki əsaslarını elmi şəkildə qurultay iştirakçılarının diqqətinə çatdırır.

"Türk dillərinin tədris metodikasının əsasları" adlı məruzə ilə çıxış edən İ.Lemanov isə öz tezislərində doğma dilin tədrisinin metodikasının anlayışını verir, dilin qanunlarını, eləcə də tədrisin müxtəlif üsullarını diqqətə çəkirdi. İ.Lemanov göstərirdi ki, doğma dilin tədrisi baxımından məqsədəuyğun hesab edilən hər hansı bir metodu yabançı bir ailədən olan dilə qeyd-şərtsiz tətbiq etmək doğru deyil. Hesab edirik ki, bu nöqtədə İ.Lemanov tamamilə haqlıdır. Tədris prosesində hər bir millətin milli-psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır. Sonra Lemanov çar Rusiyası dövründə türk dillərinin vəziyyəti və ruslaşdırma zamanı türk dillərinin inkişafına şəraitin yaradılmaması, SSRİ-də isə türk dillərinə yaradılan şərait, türk müəllimlərinin sovet pedaqogikası ilə daim təmasda olması və başqa məsələlərdən danışır.

Bu çıxışdan sonra Əfəndizadə, Səəddin, Şerba, Qalimcan Şərəf və başqaları çıxış etdilər. Onların bəziləri söz üsulunun qeyri-fonetik orfoqrafiyası olan ölkələrdə yarandığını qeyd edərək bu üsulun da harda və necə gəldi tətbiq edilməsinə qarşı çıxdılar. Odabaşın çıxışından sonra ana dilinin tədris üsulları üzrə 1. Şerba, 2. Lemanov, 3. Əfəndizadə, 4. Şərəf, 5. Siyuxov, 6. Bəytursun, 7. Zakir Şakirov, 8. Bəkturədən ibarət komissiya yaradıldı.

6 mart iclasında çıxış edən Oldenburq SSRİ Elmlər Akademiyası adından qurultay iştirakçılarını təbrik etdi. Diyarşünaslığın işinin lazımi səviyyədə inkişaf etmədiyini göstərən alim onun öyrənilməsinin əhəmiyyətini xüsusilə vurğuladı və bildirdi ki, hər bir türkoloq yer adlarını, toponimləri dəqiq bilməlidi. Çünki, bunlar həm tarix, həm də dil faktıdı.

Oldenburq diyarşünaslıq sahəsinə diqqətin artırılmasını, xəritəçəkmə zamanı yerli dilləri bilən mütəxəssislərdən yararlanmağı vacib hesab edirdi. Yerli mütəxəssislər və ya dil bilməyən şəxslər yer, dağ, çay və s. adların düzgün qeydiyyatını aparmadıqlarından gülməli situasiyalarla yadda qalır. Belə hallar yerli əhalinin səhlənkarlığı və ya məsələnin ciddiliyinin məsuliyyətini dərk etməməsindən də ola bilir. Məsələn, diyarşünas yerli sakindən "bu dağın zirvəsi necə adlanır" - deyə soruşdurduqda o, belə cavab verir. "Xudo bile" (Allah bilir). Əslində həmin sakin həmin zirvənin adını bilmədiyini deyir. Diyarşünas isə yerli sakinin dilini bilmədiyindən zirvəni "Xudo bile" adlandırır. Beləliklə də, zirvənin adı təhrif olunur.

Alim göstərirdi ki, yer, çay, su, dağ, bulaq və b. adları təhriflərdən xilas etmək üçün siyahıyaalmalar ciddi aparılmalı, dəqiqlik əsas meyar olmalıdır. O deyirdi: "Siyahıyaalma ittifaqın türk əhalisinin qeydiyyatı üçün bizə etibarlı material verməlidir. Bütün respublikalar buna diqqət yetirməli və əhalini diyarşünaslıq təşkilatlarının köməyi ilə hazırlaşdırmalıdırlar". Oldenburq hesab edirdi ki, bu işdə mətbuat orqanlarından Xalq Maarif Komissarlığına qədər hamı diyarşünaslıq işinin inkişafına köməklik göstərməlidir.

6 mart iclasında müzakirə olunan məsələlərdən biri də türk xalqlarının ədəbiyyatının araşdırılması idi. Qurultayın stenoqrafik materialları arasında yalnız milliyətcə alman olan professor Teodor Teodoroviç Mentselin məruzəsi vardır. Türkdilli xalqların ədəbiyyatının araşdırılmasının nəticələri və perespektivləri barədə türk alimlərindən Fuad Köprülüzadə türkiyə türkcəsində, Ə.E.Saadi isə tatar dilində çıxış etmişdir. Təəssüf hissi ilə deməliyik ki, türk dilində edilən çıxışlar stenoqrafik materiallara daxil edilməmişdir.

T.T.Mentsel **"Anadolu-balkan türklərinin ədəbiyyatının araşdırılmasının nəticələri və perespektivləri"** barədə məruzə ilə çıxış edərək bildirdi ki, ən qədim dövrlərdən etibarən türk xalqlarında bizə qədər ayrı-ayrı 4 misralıq formalar – mani, türkü, türkhani, tuyuğ şəkilində gəlib çatan özəl xalq ədəbiyyatı olmuşdur. Mentsel qeyd edirdi ki, türklər öz ədəbiyyatlarına qarşı kifayət qədər soyuqqanlı idilər və başqaları bu ədəbiyyatı dəyərləndirəndə belə başqalarında olana dəyər

verirdilər. Bunun təsirindəndir ki, onlar yaratdıqlarını belə yabançı dillərdə - ərəb və fars dillərində yazırdılar. Osmanlı dövrünə qədər fars dili Orta Asiya səlcuqlarının saray və idarəçilik dili kimi qalmaqda idi. Beləcə türk yaradıcılığının məhsulu olan çoxsaylı əsərlər türk dilində olmayan ədəbiyyatlara məxsusdur. Alimin fikrincə, özgələrinin yaratdıqlarını özününkülərdən daha yüksək dəyərləndirməyi türk xalqlarının ədəbiyyat tarixində də müşahidə etmək olar[96].

Alman alimi T.T.Mentselin müşahidələri dəqiqdi. Bəlkə də bunu təvəzökarlıq adlandırıb məsələnin üzərindən sükutla keçmək də olar. Əgər belə olsa onda bu təvəzökarlıqdan daha çox, sadəlövhlük olardı. Həqiqətən də, türklər şifahi və yazılı ədəbiyyatlarını nə bədii, nə də elmi-tənqidi təsərrüfat kimi Avropaya (hətta türk xalqlarının özünə belə) ixrac edə bilməyib. Ədəbi-mədəni irs vahid coğrafi məkanda qalanda, azərbaycanlıların dediyi kimi "Biləcəridən o yana getmədikdə", yalnız öz məhvərində fırlandıqda milli sərvət kimi itirir. Əks təqdirdə isə milliklə yanaşı bəşəriliyi də özündə ehtiva edir. T.T.Mentsel göstərirdi ki, tarixilik hissi bu qədər güclü olan və tarixə məhəbbəti şübhə doğurmayan türk xalqında ədəbiyyat tarixinin yazılmasına bu qədər diqqətsizlik göstərmək təəccüb doğurur. Məruzəçi oğuz səlcuqlarının varisi və sələfləri olan Anadolu-Balkan türklərinin şifahi ədəbiyyat nümunələrinin türk ədəbiyyatı tarixçilərinin diqqətindən kənarda qalmasını da təəssüf hissi ilə xatırladırdı. Professor Mentsel türk ədəbiyyatı tarixlərindəki əsl türkün, əsl farsın və ya əsl ərəbin başa düşəcəyi (bəlkə də belə demək daha doğru olar, danışdığı və yaratdığı) dildə deyil, xüsusi adamların anlaya biləcəyi süni, bəzəkli və bəlağətli dildə yaradılmış əsərlərin ədəbiyyat tarixlərində geniş yer almasına da narazılıqla yanaşırdı: "İstənilən xalqın ədəbiyyatı dil həyatı hadisələrinin yazılı və ya şifahi şəkildə ötürülmüş toplusundan ibarətdir. Odur ki, bu ədəbiyyatda kitabələr və xalq nəğmələri, nağıllar və atalar sözləri, tapmacalar, dram əsərləri və hər cür nəzm əsərləri, həmçinin mühüm qəzet yazıları orada elə əsl süni poeziya qədər yer tutur"[97]. Bu bərabərliyə etiraz edən alim tövsiyə edirdi ki, nəzm əsərlərinin daha çox araşdırılmasına, hər qafiyəpərdazın deyil, xalqın həyatını əks etdirən yazarlara üstünlük verilməsinə, təzkirəçilərin, sultanların yaşam tərzinə, saraydakı həyatına

[96] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 322.

[97] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 323.

deyil, xalqın əqli inkişafındakı roluna önəm verən ədəbiyyat və təzkirələrə... diqqət yetirilsin. O, göstərirdi ki, indiyədək təzkirələrin bir qismi çap olunub və çalışmaq lazımdır ki, xalq həyatına yaxın olan materiallarda nəşr edilsin. Təzkirələrin əhəmiyyətini yüksək qiymətləndirən alim hesab edirdi ki, mükəmməl ədəbiyyat tarixlərinin yaranmasında təzkirələrin müstəsna rolu vardır.

Məruzəçinin qurultay iştirakçılarının diqqətinə çatdırmaq istədiyi əsas məsələlərdən biri də türkoloqların, xüsusilə də Avropa alimlərinin türk xalqlarinin ədəbiyyatina marağı və bu istiqamətdə apardığı tədqiqatlar idi. Alim hesab edirdi ki, türk ədəbiyyatının sistemli təsvirini vermək baxımından birincilik italyanlara, xüsusilə də, Donatoya məxsusdu.

Alman və fransız dillərinə edilən tərcümələr Avropa oxucusunun türk ədəbiyyatına marağını bir qədər də artırdı və bu istiqamətdə tədqiqatlar tədricən çoxalmağa başladı. T.T.Metsel Vasili Vasilyeviç Radlovun türkologiyanin inkişafındakı xidmətlərini yüksək qiymətləndirir, onu türkologiya elminin banisi adlandırır və deyirdi ki, Orxan yazılarının oxunması Tomsenin adı ilə bağlı olsa da, bütövlükdə türkologiya Radlovun əsərlərinə əsaslanır, ona görə də Radlovsuz türkologiyanın bir çox naliyyətləri mümkünsüz olardı.

Metsel akademik A.Y.Krımskini türk ədəbiyyatına dair dəyərli oçerklərinə, Gibbi türk poeziyasının ən mükəmməl araşdırıcısı olduğuna, V.Qordlevskini "Yeni osmanlı ədəbiyyatına dair oçerklər" əsərinə, F.Köprülüzadəni türk ədəbiyyatını müasir elmi səviyyəyə qaldırdığına, Dr.Rupkanı yazarların tərcümeyi-halını və xarakteristikasını verərkən onların öz əsərlərindən çıxış etdiyinə görə təqdir edirdisə, Paul Hornu "Ən yeni türk ədəbiyyatı tarixi" əsərini tələsik yazıldığına, ortaya qoyduğu tədqiqat işini dərin və məzmunlu olmadığına görə tənqid edirdi.

Məruzəçi ədəbiyyatşünaşların, şərqşünasların və türkoloqların qarşısında aşağıdakı mühüm vəzifələri qoyurdu:

a. Qədim, önəmli, yalnız əlyazma şəklində qalan əsərlərin tədqiqi və çapı (hansısa komissiyaların imkanları ilə);

b. Bu günə qədər hər yerə səpələnmiş materiallar və sənədlərin, o cümlədən bütün türk qəzet və jurnalların toplanması;

c. Ən önəmli monoqrafiyaların nəşri (bu, bütün dövrün həqiqi təsvirini verərdi)[98].

[98] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 328.

Göründüyü kimi, T.T.Metsel dəyərli qədim əlyazmaların tədqiqini və çapını, pərakəndə halında olan materialların toplanmasını və dəyərli monoqrafik araşdırmaların nəşrini vacib sayırdı. Deyilənlərdən çıxış edərək belə qənaətə gəlmək olar ki, bir çox problemlər kimi türkdilli xalqların ədəbiyatı da qurultayın gündəliyində mühüm yerlərdən birini tutmuşdur.

6 mart 1926-cı ildə keçirilən qurultayın sonuncu – 17-ci iclasında Oktyabr inqilabından sonra türk-tatar xalqlarının ədəbi-mədəni və maarifçilik istiqamətində əldə etdiyi nailiyyətlər, sovet hökumətinin mədəni inqilab, məktəbdarlıq, mətbuat (əsasən qəzetçilik), nəşriyyat, incəsənət və milli məsələ sahəsində xalqlara verdiyi azadlıqlar məruzəçilərin çıxışlarının əsasını təşkil etdi. On yeddinci iclası sovet hökumətinin nümayəndələrinin xalqların tərəqqisi və inkişafı sahəsində verdiyi hesabat da adlandırmaq olar. İclasın sonunda mandat komissiyasının məruzəsi dinlənildi və qurultay dövründə müzakirə edilmiş məsələlərlə bağlı qətnamələr (həmin qətnamələri oxuculara ayrıca bir fəsildə təqdim edəcəyik) qəbul edildi.

ÜÇÜNCÜ MƏRHƏLƏ.
QURULTAY BİTDİKDƏN SONRA
GÖRÜLƏN İŞLƏR

Qurultaydan sonra SSRİ MİK-in 11 may 1927-ci il tarixli Sərəncamı ilə Yeni Türk Əlifbasının Mərkəzi Komitəsi yaradıldı və həmin komitənin sədri S.Ağamaloğlu seçildi. Qurultayın nəticələrinin öyrənilməsi, qəbul olunmuş qətnamələrin icrasına nəzarət diqqətdən kənarda qalmadı. Azərbaycan alimləri və türkoloqları qurultayın tələblərindən irəli gələn məsələlərlə bağlı dövri mətbuatda çıxışlar edir və qurultayda qaldırılan problemlərin həlli istiqamətində əməli addımlarını atırdılar.

Türkoloji qurultayın nəticələri B.Çobanzadəni də düşündürürdü. Türk xalqlarının yeni əlifbaya keçməsi uğrunda fəal mübarizə aparan B.Çobanzadə qurultaydan bir qədər sonra yazdığı məqalələri, göstərdiyi əməli fəaliyyəti ilə qəbul olunmuş qərar və qətnamələrin necə yerinə yetirilməsi məsələlərini gündəmə gətirdi və öz səlahiyyətləri çərçivəsində onların icrasına nəzarəti diqqət mərkəzində saxladı.

1927-ci ildə Ümumittifaq Yeni Əlifba Mərkəzi Komitəsi elmi şurasının sədri kimi fəaliyyətə başlayan alim bu komitənin fəaliyyətini gücləndirdi və bir çox Şərq xalqlarının yeni əlifbanı qəbul etmələri uğrunda mübarizə apardı, xalq danışıq dilində olan sözlərin xalqdan toplanması və bunun əsasında imla lüğətlərinin tərtibi istiqamətində də öz bilik və bacarığını əsirgəmədi.

Deyilənlər göstərir ki, alimin türk xalqlarının vahid əlifbaya keçmələri uğrunda apardığı mübarizə, elə həm də ortaq türk dili uğrunda apardığı mübarizə idi. Maraqlıdır ki, B.Çobanzadə bu böyük amalını 20 may 1917-ci ildə Budapeştdən yaxın qohumu Həmdi Atamana ünvanladığı məktubunda belə şərh edirdi: «Sayı və sərvətləri etibarı ilə çox böyük bir millət olan türk-tatarlar həmən hər yerdə azlıqda və əcnəbilərin hakimiyyəti altındadırlar. Buna qarşı ən böyük çarəmiz heç olmasa bir neçə tipdə təcəlliyə müqtədir lisan birliyidir»[99]. Deməli türk xalqlarının dil birliyi ideyası alimi hələ gəncliyindən düşündürmüşdür.

Məlumdur ki, qurultayda qəbul olunmuş qətnamələrdə qaldırılan məsələlərin böyük əksəriyyəti öz realizəsini tapmadı. Buna baxmayaraq, bu qətnamələrin olduqca böyük əhəmiyyəti vardı. Belə ki, qurultaydan sonra ziyalıların əksəriyyəti elmi müəssisələrdə və məktəblərdə işlərini

[99] Bəkir Çobanzadə. Seçilmiş bədii əsərləri. (Tərtib edəni Ramiz Əskər), Bakı, 2012, s. 229.

bu və ya digər qətnamələrin tələblərinə uyğun qurmağa başladı. Daha doğrusu, dövlət (imperiya) öz üzərinə düşən vəzifələrin böyük bir qismini yerinə yetirməsə və yetirilməsinə əngəl olsa da, ziyalılar yeni əlifbanın tətbiqi, elmi terminologiyanın yaradılması, lüğətlərin hazırlanması, imla məsələsi kimi həlli vacib işləri böyük həvəslə yerinə yetirdilər. Hətta bir çox alimlər qurultayın ziyalılar qarşısında qoyduğu tələbləri dövri mətbuatın səhifələrinə çıxararaq, onları bu vəzifələrin yerinə yetirilməsinə səslədi. Təhsil müəssisələrində, eləcə də məktəblərdə qətnamələrin tələblərindən irəli gələn məsələlərin həlli istiqamətində ciddi işlərin aparılması müəllimlərin, maarif işçilərinin və ziyalıların qarşısında bir vəzifə kimi qoyuldu.

Professor Bəkir Çobanzadə **"Türkoloji qurultayın müəllimlər üçün əhəmiyyəti"**[100] (1926) məqaləsində müəllif qurultaydan sonrakı mərhələdə görüləcək işlər, qarşıda duran vəzifələr və perspektivlər barədə düşüncələrini oxucu ilə bölüşür və bu qurultayın Azərbaycan, xüsusilə də, Azərbaycan müəllimləri üçün əhəmiyyətini diqqət mərkəzinə çəkirdi. B.Çobanzadə göstərirdi ki, türkoloji qurultayın gündəliyində duran məsələlər elmi və əməli olmaq üzrə ikiyə bölünmüşdür. Müəllifin fikrincə, əməli məsələlər dedikdə məktəb, pedoqoji proses başa düşülməlidir.

Bəkir Çobanzadə qurultayda əməli məsələlərin müzakirəyə çıxarılmasını tələb edənlərə, bu qurultayın türkoloji qurultayından ziyadə türk xalqlarının qurultayı olduğunu iddia edərək onun mahiyyətini və mütərəqqi rolunu aşağı salmaq istəyənlərə etiraz edərək yazırdı: "Bəzi kabinet türkoloqları qurultayda əməli məsələlərin də müzakirəyə qonulmasından, bu qurultayın türkoloji qurultayından ziyadə türk xalqlarının qurultayı olduğunu zənn etmişlərsə də, onlara yanıldıqları qurultay bitmədən əvvəl isbat edilmişdir. Çünki artıq türkoloji elmi tamamilə mücərrəd, nəzəri və metafizik bir sahə olmaqdan çıxıb, canlı dillərin, ədəbiyyatların, müasir mədəni və ictimai cərəyanların təhlil və tədqiqini üzərinə almışdır və bu etibarla türkoloji də, başqa bilgi budaqları kibi, elmi, əməli, nəzəri və tətbiqi qisimlərinə ayrılmışdır.

Artıq yalnız türklərin əski yurdu, hüyunğ-noların əsli, sədalı sayelərin rolu... kibi mücərrəd tarixi və lisani məsələlər üzərinə qurultay çağırmaq, müzakirə açmaq dövrü keçmişdir. Böylə məsələləri qurultaylardan ziyadə müəyyən elmi jurnallar və müəssisələrdə müzakirə

[100] B.Çobanzadə. Türkoloji qurultayın müəllimlər üçün əhəmiyyəti. «Maarif işçisi» jurnalı, 1926, № 3-4.

altına alıb çözməkdən başqa çarə yoxdur. Bu qurultay gerçəkçi elmi və əsri bir türkoloji konqresi idi.

Bundan başqa, qurultayda iştirak edən müməssillərin yüzdə səksəni sənət etibarilə müəllimlər idi. Türk-tatar aləminin ən təcrübəli və ən məlumatlı müəllimlərinin bu qurultayda iştirakındandır ki, bir çox qarışıq və dolambaclı məsələlər qayət açıq və bugünkü məktəb və maarif həyatımızın istəklərinə uyğun çözüldü.

Qurultay ətrafında çıxan ikinci yanlış məsələ də, zənn ediyorum ki, əlifba məsələsinin qurultaydakı yeri və əhəmiyyəti haqqındadır. Bəzi adamlar Birinci Türkoloji Qurultayını "əlifbaçılar qurultayı" və hətta bəzi daha əsəbi vətəndaşlar "latınçılar qurultayı" adlandırmağa meyl etməkdədirlər[101].

B.Çobanzadə göstərirdi ki, əlifba məsələsinin zamanımız üçün haiz olduğu böyük və dərin əhəmiyyəti heç bir zaman inkar etməməklə bərabər, heç bir zaman da əlifba məsələsinin dil, tarix, ədəbiyyat, ictimaiyyat... məsələlərindən ayrı olaraq iləri sürülməsinin tərəfdarı olmadıq və qurultayda da bu nöqteyi-nəzərin parlaq surətdə təsdiq edildiyini gördük.

Hər kəsi əlifbaçılıqla ittiham edənlər, zənn ediyorum ki, bir tərəfdən, qurultayın proqramı və işilə aşina deyillər, digər tərəfdən, həqiqi və mütəəssib əlifbaçılardır. Çünki qurultayda da gördüyümüz kibi, bilxassə ərəb əlifbasını əksirdən qüvvətli əlac və zəncirdən sağlam bir bağ olaraq düşünənlər əlifba məsələsində başqa, bir məsələ haqqında nə düşünmək, nə də danışmaq tərəfdarı deyildilər. Burada ərəb əlifbasının hər hankı bir ərəbdən ziyadə tərəfdarı olan dostlarımdan birisinin qurultaydan sonra söylədiyi şu sözləri xatırlamamaq əlimdən gəlməz: "Yeni türk əlifbasını qəbul etməklə Şərq mədəniyyətini gömdünüz və qalan məsələlərinizdə az-çox ahənglə gözəl birər mərsiyə oxudunuz. İştə qurultayınız bundan ibarətdir!"

Bu sözlərdən sonra bən dostuma ərəb əlifbasının qüsurlarından, imla, üsul, istilah... məsələlərindən bəhs edə bilirmi idim? Hər ikimizdən də acınacaqlısı, şübhəsiz, "Şərq mədəniyyəti" idi ki, yüz bir səs ilə gömüldü getdi[102].

"Türkoloji qurultayın müəllimlər üçün əhəmiyyəti" məqaləsində müəllif türkoloji qurultayın gündəliyində olan beş məsələni **(1) imla; 2)**

[101] B.Çobanzadə. Türkoloji qurultayın müəllimlər üçün əhəmiyyəti. «Maarif işçisi» jurnalı, 1926, № 3.

[102] Çobanzadə B. Türkoloji qurultayın müəllimlər üçün əhəmiyyəti. «Maarif işçisi» jurnalı, 1926, № 3.

üsuli-tədris; 3) əlifba; 4) istilah; 5) ölkəşünaslıq) xüsusilə qabardırdı. Məqalə müəllifi mədəniyyət və irfan həyatımızda önəmli yeri olan birinci məsələ kimi **imlanı dəyərləndirir** və yazırdı ki, "imla məsələsində qurultayda ona qədər məruzə və yarımməruzə və yarım gündən ziyadə münaqişə olmuşdur. Bu çıxışlar arasında bir çox imla prinsipləri və əməli qərarlar irəliyə sürülmüşdür. Bu məsələ haqqında doqquz müfəssəl nöqtədən ibarət ola qərarlarında qurultay birinci qərar nöqtəsində izah edilən prinsipi qəbul etmişdir: "İmla hqqında bu gün mövcud olan dörd əsası və elmi prinsipdən türk dilinin təbiətinə uyğun başlıca prinsip şəkillər morfolojik, yaxud etimolojik prinsiplə müxtəlif dərəcədə birləşdirilmək şərtilə sövti (fonetik) prinsipdir".[103]

Bəkir Çobanzadə göstərirdi ki, türkoloji qurultayda iştirak edən bəzi maarifçilərimiz bugünə qədərki imlamızın əhəmiyyətli tarixi xüsusiyyətlərə malik olduğunu irəli sürərək, tarixi prinsipin bundan sonra da əsas olaraq alınmasını təklif etmişlər. Alim göstərirdi ki, əgər ingilis, fransız, rus kimi bir çox Avropa xalqlarının imlalarında tarixi prinsip mühüm bir yer tutmuşdursa bunun səbəbi bu imlaların vaxtilə "fonetik olub, sonra get-gedə dilin dəyişib, yazının sabit qalması ilə bugünkü tələffüzdə olmayan xüsusiyyətlərin yazıda qüvvətli izlər buraxmasıdır"[104].

Alim göstərirdi ki, yalnız fonetik əsasın yetişməyəcəyini görən imla komissionu və ümumiyyətlə, qurultay pək doğru olaraq buna etimoloji prinsipi də əlavə etmiş və daha doğru olaraq birinci nöqtəyə bu üç mühüm maddəni də əlavə etmişdir ki, bu maddələr imla komissionu tərəfindən qəbul edilmiş qərarların 7, 8, 9-cu paraqraflarını təşkil etməkdədir:

7) Müəyyən ədəbi dillərdən imlanın vahid şəkildə bulunmasını tövsiyə etməklə bərabər, qurultay bəzi türk şivələrində görülən məhəlləçilik meylini rədd ediyor.

8) Türk şivələrində məntiqi və əqli sövti əsas üzərinə qurulmuş bir imla meydana gətirmək üçün türk-tatar dillərinin imla lüğətlərini meydana gətirməlidir.

9) Qurultay bütün türk-tatar dillərinin səslərini əks etdirmək üçün aid olan elmi müəssisələr tərəfindən latın əsasında bir elmi transkripsion, istintaq əlifbasının meydana gətirilməsini arzu edər.

İştə bu üç nöqtə yalnız sövti əsasla kifayətləndiyimiz təqdirdə qarşımıza çıxacaq çətinlikləri həll edə bilmək üçün mühümdür. Çünki

[103] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 198-199.
[104] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 198-199.

qurultay, bir tərəfdən, məhəlləçilikdən qaçılmasını, digər tərəfdən, ədəbi tələffüzlərin göz önündə tutulmasını və nəhayət, bütün türk-tatar şivələrinin ümumi xüsusiyyətlərini əsas alaraq, vahid, birlik transkripsion əlifbası meydana gətirilməsini tövsiyə etməklə fərdi, anarxiyalı, qaydasız və ölçüsüz imlanın qarşısına keçmək üçün ən əsaslı çarələri göstərmiş oluyor. Azərbaycan, Tatarıstan, Özbəkistan... kibi az-çox uzun bir maziyə malik ədəbiyyatları olan türk ölkələri üçün ədəbi tələffüz üzərində birlik imla yaratmaq qayət qolay bir işdir. Yalnız burada müəyyən iradəvi və qaidəvi (normativ) fəaliyyət şərtdir. Xülasə, qurultayın göstərdiyi elmi və əməli yollarla birli və düz bir imla sahibi olmaq mümkündür[105].

***

Məqalə müəllifi qeyd edirdi ki, **Üsuli-tədris məsələsi** də türkoloji qurultayda olduqca müfəssəl və ətraflı şəkildə müzakirə olunmuş və üsuli-tədris komissionu tərəfindən on bir maddəlik qərarda bu məsələnin başlıca cəhətləri haqqında məlumat verilmiş və onun həlli yolları göstərilmişdir.

B.Çobanzadə yazırdı: "Üsuli-tədris haqqındakı qərarnamənin birinci maddəsi indiyə qədər müəllimlərimiz və lisançılarımız arasında davam edib gələn və çox dəfələr bir çox anlaşılmazlıqların mənbəyi, bulağı olan mühüm və olduqca qarışıq bir məsələni, bizcə, çox açıq bir surətdə çözüyor. Netekim bu qərarnamənin birinci maddəsində şöylə deyiliyor: "Ayrı-ayrı şivələrin tədqiqi və müəllimlərin lisaniyyat elmində lazım gələn hazırlıqları olmadıqca türk xalqlarında ana dili tədrisinin müvəffəqiyyətli bir surətdə götürülməsi mümkün deyildir. Bunun üçün də gərək şivələrin və gərəksə lisaniyyat bilgisinin orta və yüksək məktəblərin proqramında ayrı və mühüm bir yer tutması lazım gəlir".[106]

Qəbul olunmuş qərarın konkret maddələrinə diqqəti yönəldən alim qeyd edirdi ki, qərarnamənin 10-cu, 11-ci və 12-ci maddələri bir-birini tamamladığından bu maddələri burada eynilə köçürməyi faydalı hesab edirik.

10) İkinci dərəcə məktəblərdə ayrı bir dərs (predmet) olaraq elmi sərfin oxudulması arzu olunur.

11) Birinci dərəcə məktəblərdə ana dili üçün başlıca material türk xalqlarının xalq ədəbiyyatından alınmalıdır.

[105] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 198-199.
[106] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 201.

12) İkinci dərəcə məktəblərdə ədəbiyyat ictimaiyyata bağlı olaraq epizodik bir tərzdə və müasir ədəbiyyata daha ziyadə əhəmiyyət verilərək tədqiq olunmaq lazım gəldiyi kibi, tarixi cəhətdən də öyrənilməlidir. Ədəbiyyat tarixi cəhətdən keçildiyi zaman başqa türk xalqlarının ədəbiyyatları göz önündə tutulmalı və bu məqsədə uyğun surətdə qiraət, material kitabları (ədəbi xrestomatiyalar) yapılmalıdır.

Bütün bu qərarlar türk çocuğunun ana dilindən yavaş-yavaş yüksələrək ədəbi dilə və nəhayət, öz ölkəsindən başqa ölkələrdə yaşayan türk xalqlarının ədəbiyyatlarına yetişməsini təmin etdiyi kibi, ədəbiyyatın ictimaiyyat ilə, dilin lisaniyyat ilə bağlanması da onun, türk tələbəsinin öz dil və ədəbiyyatının ümumi, əsl cərəyanlarla müvazi və bağlı olaraq təhlil və tədqiq edə bilməsinə yol açıyor[107].

***

Qurultayda daha geniş müzakirə olunan və mübahisə predmetinə çevrilən **Əlifba məsələsi qurultaydan sonra da B.Çobanzadənin** diqqətindən kənarda qalmır. O əlifba məsələsinin qurultaydan sonrakı taleyini də düşünür və türkdilli xalqların həmin əlifbaya keçməsi üçün həm görüşlərində, həm müxtəlif ölkələrdə dediyi dərslərdə, həm də yazılarında bunu təbliğ etməyə çalışırdı. Əlifba məsələsini "bir çox münaqişə və müzakirələrə ana olan xəstələrimizdən birisi" hesab edən alim yazırdı: "Qurultay, bütün başqa məsələlərdə olduğu kibi, burada da əsas olaraq türk dilinin təbiət və mahiyyətini almış və bu nöqteyi-nəzərdən yürüdülən uzundan-uzun, müfəssəldən-müfəssəl münaqişə və çıxışlar nə əski, nə də islah olunmuş hərflərinin türk dilinə yaramayacağını bütün qurultaya göstərmiş və bu surətlə ərəb əlifbası tərəfdarı olub gələnlərdən bir çoxu da latın əsasını qəbul etmək cəhətinə rəy vermişlərdir. Türk dillərinin bütün səslərini qeyd və bütün şəkli xüsusiyyətlərini işarət edə biləcək bir əlifba varsa, o da, heç şübhəsiz, latın əsasında yapılacaq ümumi türk əlifbasıdır"[108].

Maraqlıdır ki, bu mövqe alimin gənclik illərindən içində yaşatdığı arzularından biridir. Alimin qənaətinə görə, Azərbaycan Yeni Türk Əlifba Komitəsinin təşəbbüsilə ümumi bir türk əlifba projesi hazırlamaq üçün lazım gələn qərarları qəbul etmişdir. Bu surətlə yeni türk əlifbasının yapılma, intişar dairəsi heç bir dürlü ərəb əlifbasınınkından dar olmayacaqdır.

[107] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 201-202.
[108] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 202.

Adı gedən məqalədə müəllif **istilah məsələsi ilə bağlı** on üç maddədən ibarət qərarın qəbul edildiyini diqqətə çatdırır və yazırdı: "Burada bir-birinə müvazi olaraq şu əsaslar irəliyə sürülmüşdür:

1) Türk dilinə, istilah yapılırkən, bütün başqa dillərə qarşı üstünlük verilməlidir.

2) İstilah ararkən şivə, şivə qruppası, ümumi türk dili dərəcələrini göz önündə tutmalıdır.

3) Bu lisani dərəcələrlə məktəb və təhsil dərəcələrini bir-birilə birləşdirə bilməlidir.

4) Yəni birinci dərəcə məktəblərin öz xüsusi istilahları üçün məhəlli şivə, ikinci dərəcə məktəb üçün şivə qruppası, darülfünün üçün ümumi əsasa dayanaraq istilah meydana gətirməyə çalışmalıdır.

5) Bütün əcnəbi istilahlar damar olaraq alınıb, türk dilinin sövti və şəkli qanunlarına uydurulmalıdır.

İştə bu surətlə qurultay, bir tərəfdən, türk və əcnəbi sözlərin dilimizdəki münasibətini, digər tərəfdən, xalq şivələri ilə ümumi türk lüğətinin rollarını pək açıq və məntiqi bir tərzdə göstərməsilə istilah işimiz şimdiyə qədər görülməmiş bir surətdə aydınlaşmışdır. Bununla bərabər, bu mühüm qərarların həyata keçirilməsi bizdən, yəni türk müəllimlərindən böyük diqqət və çalışqanlıq istəyir... Bu məsələyə lazımi dərəcədə cavab və həll verə bilmək üçün qurultay bütün türk istilah komissionlarının ümumittifaq müşavirəsini çağırmağı münasib görmüşdür" [109].

Qurultayın müzakirə etdiyi əsas problemlərdən biri də, **ölkəşünaslıq** məsələsi idi. Qurultay dörd maddəlik qısa, lakin olduqca faydalı və əhəmiyyətli olan qərarında ölkəşünaslığı türkologiyanın başlıca xüsusiyyətlərindən biri kimi qeyd edirdi.

B.Çobanzadə göstərirdi ki, ölkəşünaslıq əqli və məntiqi bir surətdə çözülə bilməsi üçün lazım gələn əsas materialları verən birinci mənbədir. ÖIkəşünaslıq bilgisinin ən yeni üsullarını əldə edərək bütün türk ölkələri gərəyi kibi tədqiq və təftiş olunmadıqca türkolojinin nə nəzəri, nə də əməli cəhətlərini tam bir surətdə işıqlandırmaq, qarşımıza çıxan və çıxacaq şəkilləri ehtiyaclarımıza uyğun bir şəkildə çözmək qabil olamaz.

Bəkir Çobanzadə belə nəticəyə gəlirdi ki, qurultayın ruznaməsindən ayırıb aldığımız bu beş məsələ yalnız türkoloji müəssisələrinin deyil,

[109] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 202-203.

ondan da ziyadə, məktəb və müəllimlərimizin hərgünki məsələlərindəndir. Türkoloji alimləri və türk maarifçiləri bu məsələləri az-çox doğru bir surətdə çözməklə türk müəllimlərinə böyük, pək böyük bir arxadaşlıq yardımı göstərmiş oldular[110].

Həqiqətən də, qısa zaman kəsiyindən sonra bəzi xalqlar (onların arasında türkdilli olmayanlar da var idi) öz əlifbalarının dəyişdirilməsi uğrunda mübarizəyə qalxdılar. Belə ki, onlar Yeni Türk Əlifbası Mərkəzi Komitəsinə müraciət edərək əlifbalarının dəyişdirilməsi xahişini etmişlər. B.Çobanzadə göstərirdi ki, Türkoloji Qurultaydan sonra "tacik, Londan, Dağıstan, talış, abxaz və s. kimi türk olmayan xalqlar bizə müraciət edərək, onların dilləri üçün latın əsasında əlifbalar tərtib olunmasını rica etmişlər". Alim böyük ruh yüksəkliyi ilə çalışır və müxtəlif xalqların, o cümlədən azərbaycanlıların latın əlifbasına keçməsi üçün bütün səylərini əsirgəmirdi.

Qurultayın qəbul etdiyi qətnamə, eləcə də bir çox ziyalılar kimi Bəkir Çobanzadənin uğrunda mübarizə apardığı müqəddəs ideyalar öz təsdiqini SSRİ MİK və XKS-nin 7 avqust 1929-cu ildə qəbul etdiyi qərarda tapdı. Həmin qərarda göstərilirdi ki, türk-tatar dillərində bütün yazılı və çap işlərində, xüsusilə SSRİ hökumətinin qanunlarının nəşrində yeni latın sistemli əlifbadan istifadə edilməyə başlanılsın. Beləliklə də yeni əlifbaya keçidin rəsmi əsası qoyuldu.

Yeni əlifba tərəfdarlarının qədirşünaslıq işinin əhəmiyyətini azaltmadan qeyd etməliyik ki, əlifbanın dəyişdirilməsi ayrı-ayrı fərdlərin deyil, bütövlükdə dövlətin, bolşevik hakimiyyətinin yeritdiyi siyasət idi. S.Ağamalıoğlunun V.İ.Leninlə söhbəti və V.İ.Leninin əlifbanın dəyişdirilməsini «Şərqdə mədəni inqilab» adlandırması bir daha təsdiqləyir ki, bu mədəni hadisədən daha çox məqsədli şəkildə həyata keçirilən siyasi hadisə idi. Hər hansı bir millətin əlifbasının 13 dəfə (B.Çobanzadə) dəyişdirilməsi həmin xalqların gendən və şəcərədən uzaq düşməsinə, varis irs əlaqələrinin qırılmasına xidmət edirdi.

Təsadüfi deyildir ki, B.Çobanzadə məqalələrindən birini belə adlandırırdı «Yeni əlifbanı doğan Oktyabr inqilabıdır». Həmin məqaləsində o, məsələlərə sırf marksist mövqedən yanaşaraq əski əlifbanı «ruhanilərin, feodalların, burjuaziyanın yeganə pənahı» adlandırır və yazırdı: «Şərq dillərinin geridə qalmasına, əsrlərdən bəri cəhalət və ətalət içərisində can çəkişməsinə böyük mane olan,

[110] Çobanzadə B. Seçilmiş əsərləri. 5 cilddə. III cild, Bakı, 2007, s. 202-203.

zəhmətkeşlərin tərəqqisi yolunda bir tormoz təşkil edən, ruhanilərin, feodalların, burjuaziyanın yeganə bir pənahı olan əski əlifba meydandan qaldırılırdı… Ərəb əlifbası yüz illərcə zəhmətkeşi, həyatı zəhərləmiş, əzib boğmuşdur. Hələ bəlkə bir neçə əsrlər də davam edəcək, o məhus rolunu oynayacaq idi. Qurtuluş yolu əsla görünməyirdi. Bu barədə, söz açan, təşəbbüsdə bulunan yox, Şərq dərin yuxuya dalmış idi. Şərqi oyadan, Şərqi silkələyib ayıldan böyük bir amil, Oktyabr inqilabı oldu… Bu qədər ciddi, bu qədər böyük bir reformanı ilk dəfə Aəzrbyacan zəhmetkeşləri başladılar. Bu uğurda olan bütün maneələri, bütün çətinlikləri meydandan qaldıran, düşmənləri susduran, Şərqə yol açan Azərbaycan şura cümhuriyyəti oldu. Bu tarixi addım onundur».[111]

B.Çobanzadənin bu mülahizələrindən də aydın görünür ki, Azərbaycanın ictimai-siyasi xadimlərinin, eləcə də maarifpərvər ziyalılarının yeni əlifbaya keçidində ən böyük uğuru kirili deyil, latını qəbul etmələri idi. Təəssüf ki, bu uzun sürmədi, bolşevik ideoloqları 10 ildən sonra latını kirillə əvəzlədilər.

Məlumdur ki, yeni əlifbanın qəbul olunması, yeni vahid orfoqrafiya və orfoepiya qaydalarının qəbul edilməsi zərurətini də meydana çıxarmışdır. Azərbaycanda imla məsələlərinin elmi prinsiplər əsasında (müəyyən çatışmamazlıqlarına baxmayaraq) hazırlanmasında və həyata keçirilməsində professor Bəkir Çobanzadənin və onun məslək dostlarının müstəsna xidmətləri olmuşdur.

Birinci Türkoloji Qurultayı bir çox məsələlər kimi yeni imla mətnlərinin və mükəmməl imla lüğətlərinin hazırlanmasını da Azərbaycan ziyalılarının qarşısında bir vəzifə kimi qoydu. «Birinci Azərbaycan imla konfransı «İmlada ümumi prinsiplər» mövzusuna dair professor Çobanzadə və «Yeni əlifbada imla əsasları» mövzusunda Vəli Xuluflu yoldaşların məruzəsi üzrə olan tezislərə əsaslanaraq» qırx bir maddədən ibarət imla qaydaları qəbul etmişdi».

Bəkir Çobanzadə yalnız Azərbaycanda deyil, türkdilli xalqların bir çoxunun latın qrafikasına keçməsində, imlanın orfoqrafiyanın prinsiplərinə uyğunlaşdırılmasında mühüm rol oynamışdır. Professor Ramiz Əskər yazır ki, latın əlifbasının qəbulu, türk dillərində ortaq orfoqrafiya, leksikologiya və terminologiya ilə bağlı məsələlərdə Bəkir Çobanzadənin mövqeyi axıradək dəyişmədi. Bakıda 1926-cı ildə çağrılan ümumittifaq türkoloji konfransda unifikasiya problemi alimin ən çox

[111] Bəkir Çobanzadə. Seçilmiş Şeirləri, Bakı, 2011, (tərtib edəni Ramiz Əskər) kitabına yazdığı ön söz.

müdafiə elədiyi, uğrunda mübarizə apardığı məsələ idi. O, konfransdan sonra da öz prinsiplərinə sadiq qaldı[112].

Alim konfransda yeni əlifba ilə əlaqədar qətnamənin qəbul olunmasına baxmayaraq sonrakı illərdə yeni əlifbadan lazımi səviyyədə istifadə olunmamasına etiraz edir və göstərirdi ki, "... yeni əlifba bütün mətbuat və nəşriyyatımızı qaplayıb, ərəb əlifbasını tamamilə meydandan sürümədiyindən yeni əlifbadan gözlədiyimiz və gözləyə biləcəyimiz bu təsir və nəticə özünü göstərə bilmir.

Məmləkətimizdə yalnız yeni əlifba kullanılan, işlədilən dövrəyə çatsaq, yuxarıda göstərdiyimiz nəticəni pək tez əldə edə biləcəyiz".

Dilçi alim ərəb əlifbasına göydən yenmiş əlifba kimi baxan mollalara da etiraz edir və qeyd edirdi ki, vaxtı ilə İsmayıl bəy Qaspirallı türk dili ərəb əlifbasında tam ifadəsini tapmadığından digər hərflərin əlavə olunmasını təklif edəndə Qazan mollaları buna etiraz edərək "həmin hərflər göydən düşmədiyindən müsəlmanlar tərəfindən işlədilə bilməz" - deyirdi.

Yeni əlifba yeni təfəkkür, yeni ideya, yeni baxış, B.Çobanzadənin dediyi kimi, "yeni zehniyyət" tələb edirdi. Bəkir Çobanzadə yeni əlifbaya keçidi yalnız Azərbaycanla məhdudlaşdırmır, onu türkdilli və müsəlman xalqlarının ortaq əlifbasına çevirmək istəyirdi. Heç təsadüfi deyildir ki, alim yeni əlifbanı "yeni Şərq əlifbası" adlandırırdı. Bəkir Çobanzadə latın əlifbasının yalnız türk xalqlarının deyil, tezliklə dünya xalqlarının əlifbasına çevriləcəyinə inanırdı: "Biz inanırıq ki, öz inkişafının gələcək mərhələlərində yeni əlifbanın sami, monqol və başqa dünya dillərini də əhatə edəcəyi gün uzaq deyil".

Yeni əlifbanın əhəmiyyətini yüksək qiymətləndirən Vəli Xuluflu göstərirdi ki, "Yeni türk əlifbası yalnız azərbaycanlılar üçün düşünülməmişdir. Azərbaycan ləhcə və şivələri nəzərdə tutulmamışdır. Bütün türk qövmünə mənsub olan xalq bu əlifbadan istifadə edə bilər"[113].

Afaq Xürrəmqızının verdiyi bilgiyə istinadən deyə bilərik ki, 7 avqust 1929-cu ildə SSRİ MİK-in «О новом латинизированном алфавите народов арабской письменности Союза ССР» adlı Sərəncamı ilə bütün ərəb qrafikalı türk və qeyri türk dillərində latın qrafikasına keçid tam rəsmiləşdirildi. Qəzetlər, jurnallar, kitablar ilk növbədə latınlaşdırıldı.

Birinci Türkoloji qurultaya qədər və sonra latın qrafikasına keçən qeyri-türk millətlərinin və azsaylı xalqların siyahısı təqribən belədir:

---

[112] Bəkir Çobanzadə. Seçilmiş Şeirləri, Bakı, 2011, (tərtib edəni Ramiz Əskər) kitabına yazdığı ön söz.

[113] "Yeni yol" qəzeti. 1923, 5 iyun, № 17 (32).

1. Abazin dili - qurultaydan sonra - 1932-ci ildə latın qrafikasına keçid (1938 kiril)

2. Abxaz dili - (1862-ci ildən kiril əsaslı əlifbaları olub, 1892-ci ildə gürcü əlifbasına keçid olub) - qurultaydan dərhal sonra latına keçid, 1938-ci ildə gürcü əlifbasına, 1954-cü ildə yenidən kiril əlifbasına

3. Avar dili - 19-cu yüzilin sonlarına qədər ərəb qrafikası, 1861-ci ildə kirilə keçiblər, qurultaydan sonra 1928-ci ildə latına keçid (1938-ci ildə kiril)

4. İnquş dili - 20-ci yüzilin əvvəllərinədək ərəb qrafikası, 1923-cü ildə latına keçid, 1938-ci ildə kirilə keçid.

5. Çərkəz dili - 1924-cü ilə qədər ərəb qrafikası və kiril, 1924-cü ildən 1936-cı ilədək latın qrafikası, 1936-cı ildən sonra yenidən kiril.

6. Kalmık dili - 1924-cü ildən kiril, 1930-cu ildə latın, 1938-ci ildən kiril

7. Ləzgi dili - ərəb qrafikalı, 1928-ci ildən sonra latın qrafikası, 1938-ci ildən kiril

8. Osetin dili - 1923-cü ildə latın qrafikası, 1938-ci ildə kiril.

9. Talış dili - 1929-cu ildə latına keçiblər, 1938-ci ildə kirilə

10.Tacik dili - ərəb qrafikası olub, 1929-cu ildən latına keçid, 1940-cı ildən kiril

11.Tat dili, dağ yəhudilərin dili - qədim ivrit əlifbası olub, 1928-ci ildə latına keçid ediblər, 1938-ci ildə kiril, Latın qrafikalı əlifba 1925-ci ildə Aqarunov tərəfindən yaradılıb, amma məhz türkoloji qurultaydan sonra 1926-cı ilin mayında Nalçikdə dağ yəhudilərinin qurultayında tat əlifbasının latına keçidinə qərar verilmişdir. 1928-ci ildə yeni əlifba komitəsinə latın qrafikalı tat əlifbası təqdim edilmişdir.

12. Saxur dili - 1934-cü ildə latın qrafikalı saxur əlifbası yaradılıb.

13. Çeçen dili - Çeçenistanda islamın yayılmasından sonra ərəb qrafikası işlənməyə başlayır. 1862-ci ildən Uslarov kiril qrafikalı çeçen əlifbasını yaradır. 1925-ci ildə latın qrafikalı əlifba yaradılır. 1938-ci ildə kirillə əvəzlənir[114].

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, qurultaydan sonra əlifba, orfoqrafiya, ədəbi dil və imla, etnoqrafiya və tarix, eləcə də türkologiyaya aid olan digər sahələr böyük inkişaf yolu keçərək günümüzə qədər gəlib çıxmışdır.

[114] Afaq Xürrəmqızı. Türkoloji qurultayda qeyri-türk xalqlarinin iştiraki və əlifba məsələsi, "Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər". Elmi Sessiyanin materialları, Baki, 2016, s.19-20.

III FƏSİL

BİRİNCİ BEYNƏLXALQ TÜRKOLOJİ QURULTAYIN QƏBUL ETDİYİ QƏTNAMƏLƏR

Birinci Beynəlxalq Türkoloji Qurultayın qəbul etdiyi qətnamələr o illərdə olduğu kimi bu gündə aktuallığını qoruyub saxlayır.

Cəlal Qasımov

Məlumdur ki, qurultayda müzakirə olunan məsələlər barəsində ayrıca qətnamələr qəbul edilmişdi. Biz qurultayın işinin məntiqi nəticələri olan həmin qətnamələri şərh və təhlil etmədən geniş oxucu kütlələrinin ixtiyarına veririk.

YENİ TÜRK ƏLİFBASI BARƏDƏ QURULTAYIN

QƏTNAMƏSİ

Birinci Beynəlxalq Türkoloji Qurultayın latın qrafikalı əlifbaya keçməklə bağlı qəbul etdiyi qətnamə belə olmuşdur.

1. Qurultay ərəb əlifbasının islah edilməsi və yeni türk əlifbasının (latın qrafikalı əlifbanın) ərəb əlifbasından texniki cəhətdən mükəmməl olmasını təsdiq edir, o cümlədən yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə mütərəqqi mahiyyətini və mədəni-tarixi nüfuzunu qəbul edir. Qurultay hesab edir ki, yeni əlifbanın həyata keçirilməsi hər bir türk-tatar respublikasınını, vilayətinin və xalqının işidir.

2. Bununla bağlı olaraq qurultay yeni əlifbanın həyata keçirilməsini müsbət hal kimi qiymətləndirir. Latın əlifbası əsasında yaranmış yeni türk əlifbasının qəti olaraq vilayətlərdə və respublikalarda (Azərbaycanda, Yakutiyada, Qırğızstanda, İnquşiyada, Qaraçay-Çərkəzdə, Kabardində, Balkarda, Osetiyada, Çeçenistanda, Başqırdıstanda, Türkmənistanda, Özbəkistanda, Adıgey-Çərkəzdə) həyata keçirilməsini geniş bir hərəkat kimi qəbul edir.

Qurultay yuxarıda adları göstərilən vilayətlərdə və respublikalarda yeni türk əlifbasının (latın) həyata keçirilməsi ilə bağlı görülmüş müsbət işləri ürəkdən alqışlayır, məsləhət görür ki, bütün türk-tatar və başqa xalqlar yeni reformalar aparmaq üçün Azərbaycanın, eləcə də digər respublikaların təcrübəsindən, metodundan (üsulundan) istifadə etsinlər.

TÜRK DİLLƏRİNİN ÖYRƏNİLMƏSİ VƏ TÜRK DİLLƏRİNİN DİGƏR DİL AİLƏLƏRİ İLƏ ƏLAQƏSİNİN ÖYRƏNİLMƏSİ HAQQINDA

QƏTNAMƏ

Qurultay türk dillərinin və dialektlərinin öyrənilməsi, eləcə də qarşıda duran bir sıra vəzifələrin həyata keçirilməsi ilə bağlı aşağıdakıları qəbul etmişdir:

1. Ayrı-ayrı türk dillərini, dialekt və şivələrini dərindən, hərtərəfli öyrənmək, toplanmış dil materiallarını çap etmək, ayrı-ayrı elmi qrammatikaların (türk dillərinin qrammatikası) və lüğətlərin tərtib olunmasını təşkil etmək.

2. Müqayisəli-tarixi qrammatika, müqayisəli-etimoloji lüğətlər, türk dillərinin və dialektlərinin təsnifi ilə əlaqədar hazırlıq işləri görmək.

3. Türkologiya üzrə biblioqrafiya tərtib etmək.

4. Türk dillərinin altay, fin-uqor dilləri və yasəf nəzəriyyəsi ilə əlaqəsi barədə araşdırmaları davam etdirmək

5. Türkoloji işlərin çapını plan üzrə kollektiv əmək əsasında beynəlxalq aləmdə təmin və təşkil etmək.

ANA DİLİNİN TƏDRİSİ METODİKASI ÜZRƏ

QƏTNAMƏ

1. Ana dilinin müvəffəqiyyətli tədrisini ayrı-ayrı türk dillərini və dialektlərini ciddi şəkildə öyrənmədən təşkil etmək mümkün deyildir. Bunun üçün orta və ali təhsil məktəblərinin xüsusi rolu vardır. Həm də bu iş ali təhsilli dilçi müəllimlər olmadan da mümkün deyildir.

2. Ana dilini öyrənmədə çox vaxt tarixi orfoqrafiya böyük rol oynayır.

3. Səsli metod (üsul) dildə fonetik prinsipdə müvəffəqiyyətlə tətbiq edilə bilir.

4. Məsləhət bilinir ki, öyrətmə zamanı Montessorun səsli metoduna diqqət yetirmək lazımdır.

5. Mexaniki olaraq köçürmə yazını öyrətmədə pis üsuldur. Ona görə də yaxşı nəticəni əldə etmək üçün lazımdır ki, öyrənənlər yazı yazarkən diqqətlərini bir yerə toplayaraq dilin zahiri formasını və yazı ilə bağlı olan səsləri lazımınca təhlil etsinlər.

6. Bu cür metodla dili təhlil etməklə ayrı-ayrı elementlərin mənasını axtarıb tapmaq, dərsi keçmək, nitqi inkişaf etdirmək olar.

7. Təbii olaraq ikidillilik çoxlu şagird üçün faydalıdır. Şagirdlərin ümumi mədəni inkişafını ələ almaq bu səpgidə olur.

8. Qrammatika formadan törəyir, tədris zamanı isə onların mənası axtarılıb tapılır. Unutmaq olmaz ki, dilin mənalı hissəsi yanlız sözün forması deyil, həm də sözlər arasındakı əlaqə formaları və digər sintaktik vasitələrdir.

9. Yaxşı olardı ki, elmi qrammatika iki pillədə müstəqil surətdə dil materialları ilə öyrənilsin

10. Öyrətmənin birinci pilləsində türk xalqlarının ədəbiyyatı dil materialı olaraq üstünlük təşkil etməlidir.

11. Öyrətmənin ikinci pilləsində ədəbiyyat epizodik (təsadüfü) olmalı, ictimaiyyət ilə bağlı daha çox müasir ədəbiyyata və plan üzrə ədəbiyyat tarixinə yer verilməlidir. Ədəbiyyat tarixindəki oçerklərə digər türk xalqlarının ədəbiyyatı ilə müxtəlif tanışlıq da əlavə olunmalıdır. Bununla bağlı müvafiq ədəbiyyat müntəxəbatı (seçilmiş əsərlərin məcmuəsi, dərslik) nəşr olunmalıdır.

“TÜRK XALQLARININ TARİXİNİ ÖYRƏNMƏYİN MÜASİR VƏZİYYƏTİ VƏ YAXIN VƏZİFƏLƏRİ” MƏRUZƏLƏRİ ÜZRƏ

QƏTNAMƏ

Komissiya məruzələrə diqqət yetirdikdən sonra komissiya iclasına aşağıdakı fikir mübadiləsini təklif etmişdir:

1. Sovet Sosialist Respublikalar İttifaqındakı türk xalqlarının yazılı mədəniyyət abidələrinə ciddi şəkildə fikir vermək lazımdır. Birinci növbədə qədim yazılı abidələrin siyahısının uçota alınmasını keçirtmək lazımdır. Çoxlu tarixi abidələr dağıdıldığına görə lazımdır ki, təcili tədbir görülsün və onlar qorunsun. Onlardan ən iriləri qoruq yeri elan olunmalıdır.

2. Bütün şərq respublikalarında və vilayətlərində qazıntı işlərini inkişaf etdirmək, onu məlum plan üzrə aparmaq lazımdır. Birinci növbədə yaxşı olardı ki, Orta Asiyadan Qara dənizə qədər və İrandan Volqanın mənbəsinə, eləcə də Xəzər dənizi boyunca arxeoloji yoxlama aparmaq üçün ticarət karvanı göndərilsin. Yaxşı olardı ki, arxeoloji plan yaxın 5 il üçün tərtib olunsun.

3. Arxeoloji ekspedisiyanı təşkil edərkən yerli əhalidən, yerli işçilərdən daha çox cəlb edilməlidir.

4. Arxeoloji ekspedisiya ilə yanaşı yazılı materialları toplamaq üçün arxeoqrafik ekspedisiya da olmalıdır.

5. Türk xalqlarının tarixini öyrənmək sahəsində monoqrafik tədqiqatları da gücləndirmək lazımdır, necə ki, sosioloji izahla ümumi tarixi icmallar tərtib edilir.

6. Türk xalqlarının tarixini öyrənməkdə yeni araşdırmalara diqqət yetirmək lazımdır. Xüsusilə, iqtisadi və sosial tarix hələ də az işlənilmişdir.

7. Türk xalqları arasında xalq və inqilabi hərəkatın öyrənilməsinə ciddi fikir vermək lazımdır. İnqilabi hadisələri müayinə etmək də son dövrlər lazımdır. Bu sırada müxtəlif səpgili yazılı abidələr inqilab iştirakçılarını dindirməklə toplanmalıdır.

8. Türk xalqlarının mədəniyyəti ilə bağlı aparılmış ekspedisiyaların nəticələrini çap etmək lazımdır. Şərq respublikalarında, vilayətlərində və Sovet Sosialist Respublikaları İttifaqında siyahıya alınmış abidələr, arxeoloji xəritələr çap edilməlidir.

9. Türk xalqlarının tarixinə dair ən vacib mənbələrin çapına ardıcıl surətdə başlamaq lazımdır. Hələ də çap olunmamış arxiv materialları yerli türk xalqlarının dilinə tərcümə edilərək çap olunmalıdır. Müxtəlif dağıdılmış salnamələr toplanmalıdır.

10. Türk xalqlarının tarixinə dair arxiv materiallarının göstəricilərini tərtib etmək vacibdir.

11. Türk xalqlarının tarixinə dair rus və xarici alimlərin ən vacib işlərini türk dillərinə tərcümə etmək lazımdır.

12. İkinci türkoloji Qurultaya qədər arxeoloji ekspedisiyalar keçirmək və tarixi materialları bütün şərq respublikalarında və türk əhalisi olan İttifaq vilayətlərində çap etdirmək lazımdır.

ÖLKƏŞÜNASLIQLA BAĞLI MƏRUZƏLƏR ÜZRƏ

QƏTNAMƏ

1. Qurultay belə hesab edir ki, ölkəşünaslığın böyük əhəmiyyəti vardır. Türkologiyanın işi üçün yeganə böyük və etibarlı mədəniyyət bazasıdır.

2. Qurultay Xalq Komissarlarının diqqətinə çatdırır ki, respublikalarda türkologiya sahəsindəki nailiyyətlərdə xalq komissarları tərəfindən büdcədən ayrılmış maddi vəsait ölkəşünaslığa düzgün paylanmalıdır

3. Qurultay hesab edir ki, ölkəşünaslığın təşkili aşağılarda özəkləri yaradır, sonra ayrı-ayrı respublika və vilayətlər üzrə mərkəzi büro formasında olur.

4. Qurultay belə hesab edir ki, bütün ölkəşünaslıq təşkilatları ölkəşünaslıq məsələləri üzrə kartotekalar yaratsın.

TÜRK DİLLƏRİNİN ORFOQRAFİYASI BARƏDƏ

QƏTNAMƏ

1. Birinci Beynəlxalq Türkoloji Qurultay orfoqrafiya ilə bağlı türk dilləri üçün bu məsələləri əhatə edir: Mədəni dillərdə düzgün yazmaq üçün dörd elmi prinsip olur. Bunlardan türk dilləri üçün ən uyğun olanı başlıca olaraq fonetik prinsipdir. Bu və ya digər ölçülər etimoloji, morfoloji prinsiplə uyğunlaşmalıdır.

2. Etimoloji prinsipinin həyata keçirilməsi ədəbi ənənədən asılı olmalıdır. Hər bir dilin dialektlərinin böyük və ya kiçik olmasından asılı olmayaraq etimoloji prinsip yazıda dialektlərə imkan yaradır, hər cür danışanların düzgün yazmasını əsaslandırır.

3. Düzgün yazmaq üçün təkcə etimologiyadan istifadə etmək olar. Etimoloji prinsip tarixi prinsiplə qarışdırılmalarıdır.

4. Məlum dillərdə danışan xalqlar fonetik prinsiplə yazarkən ərəb və xarici (avropa) sözləri xalq kütləsi mənimsəməlidir.

5. Fonetik prinsip tələffüzə əsaslanır. Ona görə də canlı türk dilləri üzərində heca tipləri və onlarda əvvəldə, ortada, sonda iştirak edən saitlər, samitlər aydınlaşmalıdır.

6. İslah olunmuş ərəb əlifbası işlənilmiş orfoqrafiyaya hələlik ardıcıllıqla xidmət etməmişdir. Azərbaycanda, digər respublikalarda və vilayətlərdə qəbul olunmuş yeni latın əlifbası orfoqrafiyanı yaratmaq üçün daha əlverişli şərait yaradır.

7. Qurultay məsləhət bilir ki, ədəbi dildə vahid orfoqrafiya qaydası qorunsun. Qurultay bir sıra türk dillərində rast gəlinən provinsializm (məhəlli söz və ya ifadə, əyalətə məxsus görüş və ədalar) ənənəsini qəbul etmir.

8. Səmərəli surətdə düzgün yazmağı qurmaq üçün türk-tatar dillərinin orfoqrafiya lüğətlərini yaratmaq lazımdır.

9. Qurultay təklif edir ki, müvafiq elmi təşkilatlar vahid fonetik transkripsiyaları təşkil etmək məsələlərini latın əlifbası əsasında səslərin ifadə olunması üçün bütün türk-tatar dillərində işlər görsünlər.

TƏŞKİLATIN KOMİSSİYASI BARƏDƏ

QƏTNAMƏ

1. Yerlərdə türkoloji komitələr təşkil etmək.
2. Bu komitələrin vəzifələrinə aşağıdakılar daxildir:

a) Türkologiyaya aid bütün materialları toplamaq, çap olunmuşların hesabatını aparmaq;

b) Yerlərdəki bütün türk yazılı abidələrini toplamaq və siyahısını uçota almaq;

c) Yerli dialekt və şivələri öyrənmək.

3. Türk respublikalarının Xalq Komissarları yerli komitələrin çap işlərinə vəsait ayırmalıdır.

4. Bütün yerli türkoloji komitələrin öz aralarında daimi maddi mübadilə və iş əlaqələri olmalıdır.

5. Qarşılıqlı xidmət və türkologiyanın inkişafı üçün üç aydan bir çıxan müntəzəm toplular yaratmaq lazımdır. Materiallar bütün türk dillərində və Sovet Sosialist Respublikaları İttifaqının digər dillərində çap olunmalıdır. Çap işləri Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yanında aparılmalıdır.

6. İttifaqın elmi müəssisələrinin, elmi işçilərinin elmi ekspedisiyalarda fəal iştirak etməsi üçün tədbirlər görmək lazımdır.

7. Qurultay Sovet Sosialist Respublikaları İttifaqının Elmlər Akademiyasının qəbul etdiyi planı alqışlayır. Türkiyə və Berlin Akademiyasını yeni nəşr olunmuş V.V.Radlovun lüğətinə görə salamlayır və belə hesab edir ki, bu cür böyük elmi işləri dəstəkləmək lazımdır.

8. Qurultayın bütün məruzələri hansı dildə oxunmuşdursa da, həmin dildə də çap olunmalıdır. Onların rus dilinə tərcüməsi də vacibdir. Qurultay belə hesab edir ki, yaxşı olardı ki, protokolların qısa xülasəsi fransız dilində də çap olunsun. Protokolların çapı üçün Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yanında üç nəfərdən ibarət komissiya təşkil edilsin: Çobanzadə, Zifeld, Cəbiyev.

9. Professor B.Çobanzadənin məruzəsi oxunmasa da, çap olunacaq protokola əlavə olunsun.

Qeyd: Qurultayın proqramının on dördüncü bəndində professor B.Çobanzadənin məruzəsinin adı göstərilmişdir: “Şuralar İttifaqındakı elmi türkoloji müəssisələrin hazırkı vəziyyəti, təşkilat quruluşu və yaxın vəzifələri”

10. Yaxşı oları ki, İkinci Türkoloji Qurultay iki ildən gec olmayaraq Səmərqənd şəhərində çağırılsın.

TÜRK DİLLƏRİNDƏ ELMİ TERMİNLƏR SİSTEMİ BARƏDƏ

QƏTNAMƏ

1. Türk sözlərindən ibarət elmi terminologiyanı yaradan zaman müxtəlif dillərə aid olan müəyyən qrup terminlərlə hesablaşmaq lazımdır. Ona görə ki, müxtəlif termin qrupları ilə olan əlaqə itməməlidir.

2. Terminologiyanın əsasında tez-tez təsadüf olunan və mənası aydın olan sözlər durur. Onları termin kimi götürmək, qəbul etmək lazımdır.

3. Təsadüfən termin qruplarına uyğun gəlməyənlər olmadıqda sözləri digər türk dillərindən götürmək, onları almamışdan qabaq isə türkcə olmayan sözlərə üstünlük vermək.

4. Geniş şəkildə mənimsənilmiş ərəb-fars mənşəli terminlər türk dillərinin qrammatikasına tabe olmaq şərtilə saxlanmalıdır.

5. Belə hesab olunur ki, türk dilləri üçün ərəb-fars mənşəli terminlərin gələcəkdə istifadəsi mümkün deyil, ərəb-fars terminlərindən qəti surətdə imtina edilməlidir. Yeni terminləri yaradan zaman ümumi-avropa meylini saxlmaq lazımdır.

6. Ümumi-avropa mənşəli terminlər türk dillərinin təbiətinə uyğun artikulyasiya edilməli və yanlız sözün kökü qəbul olunmalıdır. Digər dillərdən alınmış terminlər də türk dillərinin artikulyasiyasına uyğunlaşmalıdır. Bu mənada alınma terminlərdə hecaların, səslərin yerini dəyişmək, yaxud tam şəkildə mənimsənilmişləri olduğu kimi saxlamaq lazımdır.

7. Bütün sonrakı etimoloji təbəqələşmə və bu köklərlə bağlı olan terminlər türk dillərinin təbiətinə tabe edilməlidir.

8. Pedaqoji mülahizələrdən belə çıxır ki, məktəb ədəbiyyatları, dərslikləri üçün terminləri yaradan zaman əsas istiqamət mümkün qədər belə olmalıdır:

I pilləli məktəb üçün terminlər;

II pilləli məktəb üçün terminlər;

ali məktəblər üçün terminlər

I pilləli məktəblərdə xarici terminlərin sayını azaltmaq lazımdır.

9. Elmi dilin sərhədini yaradan zaman daha çox işlənən terminlərin sistemləşdirilməsi vacibdir. Dilin aşağı və yuxarı qatlarını yaratmaqdan, yeni mənalı mürəkkəb terminlərdən qaçmaq lazımdır.

10. Çoxmənalı sözlərdən yalnız mənasının biri dəqiqləşməli və işlənməlidir.

11. Terminləri yaradarkən süni surətdə ixtisar olunmuş və mənası çətin mənimsənilmiş terminlərdən qaçmaq vacibdir.

12. Hər bir respublikada daimi terminoloji komissiya yaradılmalıdır. Bu komissiyalar öz təcrübələrini digərləri ilə bölüşdürməlidirlər. Eyni zamanda onlardan biri təşəbbüs üzrə bu sahədə bütün irəliləyişləri yekunlaşdırmaq üçün müşavirə (mazakirə, məsləhət) çağırmalıdır.

13. Gələcək işləri asanlaşdırmaq üçün hər bir respublikada ümumtürk elmi terminlər lüğətini yaratmaq lazımdır.

TÜRKOLOJİ QURULTAYIN
ETNOQRAFİYA KOMİSSİYASININ
QƏTNAMƏSİ

1. Türk xalqlarının tayfa tərkiblərinin dəqiq hesaba alınmasının böyük əhəmiyyəti vardır. Komissiya Qurultay adından təklif edir ki, Mərkəzdə buna diqqət yetirilsin. Bu məqsədlə təklif edir ki, Moskvada rəhbərlik bu ildə (cari ildə) beynəlxalq siyahıya almanı keçirən zaman xüsusi olaraq yerli təşkilatları cəlb etməklə əhalinin tayfa tərkibinin dəqiq hesaba alınmasına diqqət yetirməlidir.

2. Son dərəcədə arzu olunur ki, yaxın Türkoloji Qurultaya qədər bütün türk xalqlarının son məlumatlar əsasında bir yerdə, eləcə də ayrı-ayrı respublika və vilayətlər üzrə ətraflı tayfa xəritəsi yaradılsın.

3. Az saylı xalqların sosial gigiyena və nəslin kəsilməsi əlamətləri, assimilyasiya olunması halları, tibbi-antropoloji xüsusiyyətlərlə bağlı bir sıra məsələlərin səmərəli surətdə ilkin əsaslarla mümkün qədər bütün respublikalarda və vilayətlərdə yaxın qurultayda həll olunması vacibdir.

4. Komissiya hesab edir ki, planauyğun və öz aralarında razılaşmaqla türk tayfalarının tədqiq olunmasını təşkil etmək lazımdır. Bu araşdırmalar birinci növbədə təsərrüfat formalarının öyrənilməsi (tədqiq edilməsi) istiqamətində olmalıdır: ovçuluq, maldarlıq təsərrüfatı (oturaq həyat tərzinə keçənə qədər), əkinçilik, torpaqdan istifadə etmə və ev işləri. Mədəniyyətin adı sadalanan elementlərini öyrənən zaman təsdiq edilən hadisənin keyfiyyətinə deyil, həm də kəmiyyət uçotuna diqqət yetirilməlidir. Vaciblərinin aydınlaşdırma sərhəddini (hüdudunu) genişləndirmək lazımdır (bu sırada məişət ünsürlərinin geniş xəritəsini yaratmaq).

5. Son dərəcə vacib hesab olunur ki, türklərin mərkəzlərinin birində (türk xalqlarının yaşadığı ərazilərin birində) türk xalqlarına aid olanları öyrənmək üçün türklərin mərkəzi mədəniyyət muzeyini yaratmaq lazımdır. Komissiya təklif edir ki, növbəti türkoloji qurultayların birində bu ideyanın müvəffəqiyyətlə həyata keçməsi yerli respublikalarda və vilayət mərkəzlərində olan şöbələrin planauyğun, güclü inkişafı ilə bağlıdır. Komissiya türk respublikalarında və vilayətlərində muzey

tikilişinə xüsusi əhəmiyyət verir və onların inkişafına mərkəzi muzeyin özünün təcrübəsi, eləcə də texniki avadanlığı ilə hər cəhətdən kömək etməsinə inanır.

6. Komissiya qəbul edir ki, tədqiqat işlərinin çapı üçün növbəti qurultaya hər cür vasitə ilə təmin olunma vacibdir.

7. Komissiya hesab edir ki, cəmiyyətin mədəni qüvvələrinin və birinci növbədə müəllimlərin gücü ilə uyğun gələn tədris müəssisələrinin planına etnoqrafiyanın tədrisini daxil etmək vacibdir.

8. Komissiya hesab edir ki, türk xalqları arasında etnoqrafiya və antropologiya müəssisələrinin olmaması səbəbindən Sovet Sosialist Respublikaları İttifaqının ali təhsil müəssisələrində türk gələcəyinin nümayəndələrinin lazımi sayda yerləşdirilməsi vacibdir. O cümlədən onlara xaricə ezam edilməyə imkan verilməlidir.

9. Xalqın məişəti və antropologiyası məsələləri böyük elmi və praktik əhəmiyyət kəsb edir. Komissiya xahiş edir ki, təşkilat komitəsi növbəti qurultay çağırılana qədər qarşıda duran işlərin lazımi qayğısına qalsın və növbəti qurultayla bu məsələləri qoysun.

IV FƏSİL

QURULTAYLA BAĞLI MÜBAHİSƏLƏR, HƏQİQƏTLƏR

Birinci Beynəlxalq Türkoloji qurultayın aktları və faktları millətdən gizlədildiyinə görə bir çox həqiqətlərin yeri və ünvanı səhv düşüb. Hesab edirik ki, müasir tədqiqatçının ən böyük vəzifəsi tarixi həqiqətləri bərpa etməkdən ibarət olmalıdı.

Cəlal Qasımov

QURULTAY NƏ ÜÇÜN BAKIDA KEÇİRİLİRDİ?

Qurultayın keçirilib keçirilməməsi məsələsi kimi onun harada keçirilməsi məsələsi də Moskvanın nəzarətindən kənarda qalmamışdı. Bu məsələ qurultayın gündəliyinə çıxarılan məsələlər qədər aktual və önəmli idi. Bəkir Çobanzadə yazırdı: "Gənc Azərbaycan geridə qalmış Şərqin zülmət səhrasında mədəni oazis olması, nümunəvi ölkəyə çevrilməyi möhkəm qərara almışdır. Bu respublikanın elm və texnika sahəsindəki hədsiz nailiyyətlərini nəzərə alaraq heç kim qurultayın Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsinə etiraz etmədi".[115]

Mövcud faktlar B.Çobanzadənin bu qənaətlərini təsdiqdən daha çox inkar edir. Çünki mərkəz Bakı məsələsində bir qədər tərəddüd edirdi. Hətta bəziləri belə bir mötəbər qurultayın Moskvada keçirilməsində daha maraqlı idi. Məsələn, A.N.Samoyloviç 1924-cü ilin mart ayının 13-də Birinci Türkoloji Qurultayın Moskva şəhərində keçirilməsini təklif edir və bildirirdi ki, bu qurultaya 13 ölkədən 70 nümayəndə dəvət etməli və aşağıdakı üç məsələ müzakirə predmetinə çevrilməlidi:

1) Əlifba.
2) Ədəbi dil.
3) Elmi terminologiya.

A.N.Samoyloviç yəqin ki, fikirlərini Moskvanın SSRİ-nin paytaxtı olması və buraya gediş-gəlişin rahatlığı ilə əsaslandırırdı.

Bir qism alimlər isə onun Orta Asiyada keçirilməsi təşəbbüsündə idi. Onlar da Orta Asiyanı elmi mərkəz kimi görür və buradakı alimlərin naliyyətlərini mühüm hesab edirdilər. Ona görə də, qurultayın nə üçün Bakıda keçirilməsi sualı qurultay zamanı və ondan sonrakı vaxtlarda da tədqiqatçı alimlərin, imperiya rəsmilərinin, eləcə də hüquq mühafizə orqanlarının diqqət mərkəzində olmuşdur.

Bu da inkar edilməz faktdır ki, həm qurultayın keçirildiyi dövrdə, həm də ondan sonrakı mərhələlərdə ictimai-siyasi xadimlərin, eyni zamanda tədqiqatçıların bu məsələyə münasibəti yekdil olmamışdı. Məsələn, qurultayda təbrik nitqi ilə çıxış edən Qəzənfər Musabəyov qurultayın Bakıda keçirilməsinin səbəbini belə izah edirdi: "Təsadüfi deyildir ki, Birinci Beynəlxalq Türkoloji Qurultay öz işini Azərbaycanın paytaxtı Bakı şəhərində planlaşdırmışdır. Bunun səbəbi Azərbaycanın coğrafi mövqeyinin Şərqə bir qapı kimi açılması, eyni zamanda mədəni

[115] İzvestiya Obşestva Obsledovaniya i izuçeniya Azerbaydjana, 1925, №1, s. 101-102.

və iqtisadi nailiyyətlər baxımından nəhəng respublika olmasıdır. Azərbaycan türkoloq alimlərinin sayına görə də digər respublikalardan irəlidədir."[116]

Göründüyü kimi, natiq qurultayın Bakıda keçirilməsinin səbəbini bir neçə amillə bağlayırdı. Birincisi, Azərbaycanın coğrafi mövqeyi ilə bağlı olması. Həqiqətən də, Azərbaycanın yerləşdiyi coğrafi məkan buna əsas verirdi ki, qurultay Bakı şəhərində keçirilsin. İkincisi, Azərbaycanın Şərqə bir qapı kimi açılması idi. Üçüncüsü, ölkəmizin mədəni və iqtisadi nailiyyətlər baxımından nəhəng respublika olması. Və nəhayət, türkoloq alimlərinin sayına görə digər respublikalardan irəlidə olması. Buradakı bəzi məqamlarla razılaşmamaq da olar. Belə ki, sayca türkoloq alimlərin çoxluğu məsələsi heç də inandırıcı deyil. Keçən əsrin 20-ci illərində belə bir hökm vermək və qurultayın Bakıda keçirilməsini bununla əsaslandırmaq fikrimizcə, elmi olmadığı kimi, doğru da deyil. Əlbəttə həmin illərdə Azərbaycanda türkologiya ilə məşğul olan alimlər vardı, bunu inkar etmək olmaz. Lakin başqa respublikalarla müqayisədə bu çoxluq da təşkil etmir və bəlkə də bir qədər geri qalırdı. Belə də demək olar ki, həmin illərdə türkologiya bir elm sahəsi kimi nə Azərbaycanda, nə də Orta Asiyada "şünaslıq" səviyyəsinə qalxmamışdı. Fundamental türkologiya məktəbinin yaranmasına zəmin yaradan da elə Birinci Beynəlxalq Türkoloji Qurultay oldu.

***

Müasir dövrdə də alimlər qurultayın Bakıda keçirilməsinin səbəblərini müxtəlif elmi əsaslarla şərh etməyə çalışmışlar. Belə ki, professor Fəxrəddin Veysəlli bu xüsusda yazırdı: "Birinci Türkoloji Qurultayın Bakıda çağırılması təsadüfi deyildi. Hələ N.Nərimanovun dövründə belə bir forumun çağırılması fikri ortalığa qoyulmuşdu. Digər tərəfdən, artıq 1922-ci ildən başlayaraq S.Ağamalıoğlunun təşəbbüsü ilə professor B.Çobanzadə Bakıya dəvət edilmiş (B.Çobanzadə 1922-ci ildə deyil, 1924-cü ildə Bakıya dəvət edilmişdi – C.Q.) və latın əlifbasına keçidə hazırlıq işləri görülürdü. Ümumiyyətlə, ərəb əlifbasından qurtulmaq üçün Azərbaycanın görkəmli ziyalıları, o cümlədən M.F.Axundov tutarlı dəlillər gətirərək latının üstünlüyü fikrini dəfələrlə söyləmişdilər. Elə S.Ağamalıoğlunun qurultayda Leninin "kəndlilər bu işə necə baxırlar?" sualını "müsbət" kimi cavablandırması bir daha göstərir ki, bizim o zamankı rəhbərlərimiz latın əlifbasına keçmək fikrini

[116] B.Xəlilov. Birinci Beynəlxalq Türkoloji Qurultay, Bakı, 1999, s. 11.

mərkəzdə dəfələrlə müzakirə ediblərmiş, partiya və hökümətin bu məsələ ilə bağlı razılığını alıblarmış. Elə buna görə də qurultayın keçirilməsi üçün sosialist inqilabında, xüsusilə də latın əlifbasına keçid sahəsində, böyük təcrübəsi olan Azərbaycanın paytaxtı - Bakı şəhəri seçilmişdi"[117].

Professorun fikirlərindən aydın olur ki, Azərbaycanın latın əlifbasına keçid sahəsində böyük təcrübəsi olduğuna görə Bakı şəhərində keçirilmişdir. Azərbaycanın latın əlifbasına keçid sahəsində böyük təcrübəsi ola bilməzdi. Latın Əlifbasına keçid, ümumiyyətlə əlifbanın dəyişdirilməsi M.F.Axundzadədən qurultaya qədərki mərhələdə ilk hadisə idi ki, o da 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultayda baş tutdu. Latın əlifbasına keçid sahəsində Azərbaycanın böyük təcrübəsi olmasa da, bu istiqamətdə Mirzə Fətəli Axundzadədən türkoloji qurultaya qədərki mərhələdə israrlı mücadilə və mübarizəsi olmuşdur. M.F.Axundzadədən başlayan proses Birinci Türkoloji Qurultay vasitəsi ilə reallaşdı. Beləliklə də, arzudan reallığa keçidin əsası qoyuldu. Bu, Azərbaycanda əlifbanı dəyişdirmək istiqamətində baş tutan ilk hadisə idi. Sonrakı hadisə 1939-cu və 1959-cu illərdə kirilə keçid və ya kiril əlifbasında müəyyən islahatların aparılması ilə yadda qaldı. Sonda yenidən latına keçid müstəqillik illərində baş tutdu.

Bəzi tədqiqatçılar isə qurultayın Bakıda keçirilməsini mərkəzin – Moskvanın Azərbaycana diqqət və qayğısı kimi mənalandırırdı. Sovetlər dönəmində məsələnin bu şəkildə qoyuluşu başa düşüləndir.

Fikrimizcə, qurultayın Bakıda keçirilməsi yuxarıda deyilənlərlə yanaşı aşağıdakı siyasi amillərlə də bağlı idi. Əvvəla, qurultayı Orta Asiyada keçirmək heç də uğurlu hesab edilmirdi. Çünki, hələlik Orta Asiya buna hazır deyildi və mərkəz 1922-ci ildən əlifbanı dəyişdirmək istiqamətində siyasətini həyata keçirmək üçün komissiya yaratmışdı və həmin komissiyanın üzvlərinin bəziləri müxtəlif türkdilli respublikalarda ziyalılarla görüşlər keçirir və öz təbliğatlarını aparırdılar. 1924-cü ildə S.Ağamalıoğlunun rəhbərliyi ilə Dağıstanda, Krımda, Orta Asiyada və başqa yerlərdə ziyalılarla keçirilən görüşlər və latın əlifbasının üstünlükləri ilə bağlı aparılan söhbətlər dediklərimizə sübutdur. O da maraqlıdır ki, Orta Asiyada bir çox ziyalılar, elə həm də respublikalar latına keçməyin tərəfdarı deyildi və bunu açıq şəkildə deməkdən də çəkinmirdilər. Bu da inkar edilməz faktdır ki, qurultaydan sonra da onların bəziləri respublika olaraq latına keçməkdən imtina etdilər.

[117] "I Türkoloji Qurultayın 80 illiyinə həsr olunmuş respublika elmi-nəzəri konfransın materialları". Bakı, 2006, s. 31.

İkincisi, Orta Asiyada sovetləşməyə qarşı müqavimət hərəkatı başa çatmadığından təhlükəsizliyə təminat da yüksək səviyyədə deyildi. Hesab edirik ki, qurultayın Orta Asiyada keçirilməsinə mane olan amillərdən biri də bu ola bilərdi.

Üçüncüsü, Bakıda başqa-başqa yerlərdən gəlmiş Bəkir Çobanzadə, Xalid Cəid Xocayev, İsmayıl Hikmət kimi milli təfəkkürə malik dil, ədəbiyyat və mədəniyyət biliciləri olan böyük türk övladları da vardı. Bu alimlər də latına keçməyi təbliğ edir və Azərbaycan ziyalılarını latın əlifbasına keçməyə hazırlayırdılar.

Bolşeviklərin Birinci Beynəlxalq Türkoloji Qurultayı Bakıda keçirmələrində əsas məqsədlərindən biri də Türkiyə ilə iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələr qurmaq idi. Türkiyədə sosializm idarə üsulu yaratmaq üçün coğrafi baxımdan Orta Asiya deyil, Bakı şəhəri daha əlverişli idi.

Məlumdur ki, hələ çar Rusiyası dövründən başlayaraq türkləri, xüsusilə də Azərbaycan türklərini pantürkizm və panislamizm də ittiham edirdilər. Azərbaycan coğrafi və geostrateji cəhətdən Türkiyəyə və İrana yaxın idi və bolşeviklər hesab edirdi ki, pantürkizm, eləcə də panislamizm öz qaynağını Türkiyə və İrandan alır. Türkiyə və İranın sovetləşmədiyini görən bolşevik hakimiyyəti islami dəyərləri, türkçülüyü və türkçüləri məhv etmək üçün Bakı şəhərini seçdi. Fikrimizcə, qurultayın Bakıda keçirilməsi həm də bu amillərlərlə bağlı idi. Doğru olar deyək ki, qurultayın Bakıda keçirilməsi daha çox siyasi hadisə idi. Keçən əsrin 30-cu illərində qurultay iştirakçıları olan türkoloqlara qarşı həyata keçirilən repressiv aksiyalar bunları təsdiqlədi. Deyilənləri ümümiləşdirərək belə nəticəyə gəlmək olar ki, türkçülüyü və islamçılığı əsaslı şəkildə məhv etmək üçün bolşeviklərə Bakı şəhəri lazım idi.

ƏLİFBANI DƏYİŞMƏK BOLŞEVİKLƏRƏ NƏ VERİRDİ, YAXUD NİYƏ KİRİL YOX, LATIN ƏLİFBASI?

Birinci Türkoloji Qurultay türkdilli xalqları birləşdirmək missiyasını həyata keçirirdi ki, bu da bolşevikləri razı sala bilməzdi. Türkdilli xalqları idarə etmək üçün onları birləşdirmək yox ayırmaq lazım idi. Bu "Bütün dünyanın proletarları birləşin" – deyən bolşevik partiyasının əsas siması, əsas amalı idi.

Türk xalqlarının tarixində ən böyük elmi, ədəbi-mədəni hadisələrdən biri olan Birinci Türkoloji Qurultay XIX əsrdən başlayaraq ziyalıların həyata keçirmək istədikləri maarifçilik hərəkatının zirvə məqamıdır. Ümumtürk maarifçi ziyalılarının arzu və istəklərinin reallığının ifadəsidir.

Birinci Türkoloji Qurultay sovet Azərbaycanının Şərqdə mədəni inqilab siyasətinin tərkib hissəsi idi.

Əlifbanı dəyişmək klassik ədəbiyyatı və mədəniyyəti asanlıqla təhrif etməyə xidmət edirdi.

Əlifbanı dəyişmək bolşeviklərə irs varis əlaqələrini qırmaq, baba ilə nəvə arasındakı bağları və ilişkini kəsmək üçün lazım idi.

Əlifbanı dəyişmək bolşeviklərə Nizamiyə utopik, Nəsimiyə və Füzuliyə ateist demək üçün lazım idi.

Əlifbanı dəyişdirmək türkdilli xalqlarla, xüsusilə də Türkiyə ilə ədəbi-mədəni əlaqələri qırmağa xidmət edirdi.

Xüsusilə qeyd etməliyik ki, bolşeviklər kirildən imtina etmirdilər. Onların kiril iddiasında olmaları barədə Qlimcan Şərəf deyirdi: "Burada professor Jirkov və professor Yakovlev latın şriftinin qəbulunu dəstəkləyirdilər, professor Jirkov isə dəfələrlə "səmimi" olduğuna inandırmağa çalışırdı. Bununla bağlı yadıma bir tatar məsəli düşür: "Xain xoflu olar". Həmin yoldaşların "Yeni Şərqdə" və ya "Yeni türk əlifbası uğrunda mübarizədə" toplusundakı məqalələrinə müraciət etmək kifayətdir. Orada oxuyuruq: "Rus əlifbası elə məziyyətlərə malikdir ki, bunlar latın əlifbasında yoxdur"[118]. Göründüyü kimi, professor Jirkov və professor Yakovlev kiril qrafikasının daha yüksək məziyyətlərə malik olduğunu qeyd edirdilər. Deməli, kirilə keçmək də gündəmdə idi. Belə

[118] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 275.

olan surətdə nədən latını tərciyə etdilər? Niyə vaxtı ilə V.İ.Leninin yazıb oxuduğu əlifbaya keçmədilər?

Professor Adil Babayev bolşeviklərin nədən kirilə keçməməsi məsələsinə toxunaraq yazır: "Əslində, Moskva türk xalqlarının ərəb əlifbasından latın qrafikalı əlifbaya yox, birbaşa kiril əlifbasına keçməsini istəyirdi, lakin 1930-cu ilə qədər Moskva Kommunist Partiyası loyal nisbi demokratiya siyasəti yeridirdi.

Qurultayda bəzən rus alimlərininin, örtülü şəkildə də olsa, belə fikirləri bildirilirdi. Amma hələ bolşevik rejimi möhkəmlənməmişdi, bolşevizm öz simasını göstərə bilməmişdi. Bu, 1930-cu ildən sonra olacaqdı"[119].

Mübahisəsiz və mübaliğəsiz demək olar ki, bolşeviklər əlifbanı dəyişməklə bizi min illik mədəniyyətimizdən, kökdən, şəcərədən, tarixi ədəbi-mədəni əlaqələrimizdən qoparmağa çalışırdı və buna qismən də olsa nail oldular.

***

Kirilə keçid məsələsinə gəldikdə qeyd etməliyik ki, Mirzə Fətəlidən Mirzə Cəlilə qədərki dövrdə Azərbaycan ziyalılarının müzakirə predmeti yalnız latın qrafikası olmuşdur. Daha doğrusu, kirilə keçmək milli Azərbaycan ziyalılarının ağlına belə gəlmirdi.

Sovetləşmənin əvvələrində bəzilərində kiril əlifbasına keçmək meyilləri müşahidə olunsa da bu, epizodik xarakter daşıyırdı. Biz yuxarıda bu barədə danışdıq. Bolşeviklər latın qrafikasına keçməyə mane olmamaqla həm daxildə, həm də xaricdə demokratik imic formalaşdırmağa çalışırdı.

Əslində isə bolşeviklərin məqsədi türkoloqların, daha geniş anlamda şərqşünasların kimliyini və mövqeyini müəyyənləşdirmək idi.

Qeyd etməliyik ki, bolşeviklərin canfəşanlıqla əlifbanı dəyişdirmələri bizim Avropaya inteqrasiya etməyimizə xidmət etmirdi. "Bütün ölkələrin proletarları birləşin" – deyən bolşeviklər bütün dünyanı bolşevikləşdirmək istəyirdi. Onlar bir partiyalı (Kommunist Partiyası) sistem kimi, bir izmli – kommunizm kimi idarə üsulu yaratmaq eşqi ilə yaşayırdılar. Ona görə də, bizim Avropaya çıxışımız onlar üçün qəbul olunmaz idi. Bütövlükdə kommunistlər yeni dünya qurmaq iddiasında olduqlarından bizi öz kökümüzdən, genetik kodumuzdan, yaddaş və

[119] Babayev A. Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya. Bakı, "Elm", 2016, s. 28.

şəcərəmizdən ayırmaq istəyirdilər. Bunun üçün Azərbaycan ziyalıları bolşevikləşməyə qədər yaratdıqları çoxsaylı əlifba layihələri ilə müəyyən işləri artıq görmüşdülər.

Moskva əlifbanın dəyişdirilməsi işini Azərbaycan ziyalılarının öz əlləri ilə həyata keçirmək istəyirdilər. Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycan ziyalılarının böyük əksəriyyəti M.F.Axundzadədən sovetləşməyə qədərki mərhələdə latın əlifbasının tərəfdarı və təəssübkeşi kimi çıxış edirdilər. Bunu görən bolşeviklər ilanı seyid Əhməd əli ilə öldürərək, işi Azərbaycan ziyalılarının və Azərbaycan bolşeviklərinin həyata keçirmələrinə çalışırdılar. N.Nərimanov 1922-ci ildə bu xüsusda yazırdı: "Yeni türk əlifbası tədricən həyata keçiriləcək və bir müddət ərəb əlifbası da saxlanılacaq. Millətin özü ərəb əlifbasının ləğv edilməsi və yeni, asan və əlverişli latın əlifbasının qəbul edilməsi zərurətini dərk edib qəti qərara gəlincəyə qədər bütün yazı-pozu iki əlifbada icra ediləcək".

Keçən əsrin 20-ci illərində bolşevikləri türklərin və türkdillilərin hansı əlifba ilə oxuyub yazmaları deyil, kökdən, şəcərədən, yaddaşdan necə qoparılmaları düşündürürdü. Məqsəd baba ilə nəvə, varislə irs, yaddaşla çağdaş zaman arasındakı əlaqəni qırmaq idi. Yetişən sovet nəslini Nizamini, Füzulini, Vaqifi, Mirzə Fətəlini və başqalarını öz yazdığı əlifbada oxuyub öyrənməyə qoymadılar. Bolşeviklər bizim klassiklərimizi yeni nəslə öz ideallarına uyğun şəkildə tanıtmaq üçün marksçı-leninçi ideologiya müstəvisindən çıxış edərək tanıtmağa başladılar.

Deyilənləri belə ümumiləşdirmək olar ki, 1920-ci illərdə bolşeviklərə türk xalqlarının, o cümlədən azərbaycanlıların hansı əlifba ilə yazmaları maraqlı deyildi. Maraqlı olan bizi ədəbi-mədəni irsimizdən uzaq salmaq idi ki, buna da əsasən nail oldular və sonrakı mərhələdə bizi kirilləşdirə bildilər.

GÜMANDAN HƏQİQƏTƏ,
YAXUD TƏHRİFDƏN TƏSHİHƏ

Məlumdur ki, istər qurultay ərəfəsində, istər qurultay, istərsə də qurultaydan sonrakı dövrlərdə bir çox həqiqətlər təhrif edilmişdir ki, biz onlardan bəzilərini təshih etməyə çalışacağıq. Təhrifdən təshihə aparan yolda ilkin olaraq diqqəti qurultayın keçirilmə tarixinin üzərinə yönəltmək istərdik. Belə ki, qurultayla bağlı fikir və düşüncələrini oxucularla bölüşdürən bəzi tədqiqatçılar onun mart ayının 5 də başa çatdığını qeyd edir: "Birinci Beynəlxalq Türkoloji Qurultay öz işini 1926-cı ilin fevral ayının 26-da başlamış və martın 5-nə kimi davam etdirmişdir"[120].

Fikrimizcə, "Birinci Ümumittifaq Türkoloji Qurultay"ın stenoqrafik hesabatı ilə tanış olan hər bir kəs 1926-cı ildə Bakıda rus dilində nəşr edilən həmin hesabatın üz qabığında "26 fevral – 6 mart" tarixlərini görər və türkdilli xalqların tarixində mühüm rol oynayan belə bir ciddi və önəmli əhəmiyyətə malik qurultayın nə zaman bitdiyi tarixi təhrif etməz. Əslində mübahisəyə əsas verən amillərdən biri stenoqrafik materialların özüdür. Belə ki, kitabın üz qabığında qurultayın keçirilmə tarixi "26 fevral – 6 mart" kimi qeyd edilmişdirsə, titul vərəqində "26 fevral – 5 mart" göstərilmişdir.

Stenoqrafik materialda səhiifə 369-dan 409-a kimi təqdim edilmiş qurultayın 17-ci iclasının məlumatları və materialları ilə tanışlıq göstərir ki, titül vərəqində səhv getmiş "5 mart" tarixi texniki xətadan başqa bir şey deyildir. Lakin müasir tədqiqatçının titül vərəqində verilmiş "5 mart" tarixinə əhəmiyyət vermədən, kor-koranə şəkildə qurultayın bitdiyi gün kimi təqdim etməsi bizcə, artıq texniki xəta deyil, elmi səhvdir, tarixi həqiqətin təhrifidir. Əslində qurultay 5 martda deyil, 6 martda bitmişdir.

Yeri gəlmişkən bir mübahisəli məsələyə də münasibət bildirmək istərdik. Türkoloji qurultayın tədqiqatçılarından olan professor Buludxan Xəlilov yazır: «Birinci Beynəlxalq Türkololoji Qurultayda iştirak etmiş bir çox nümayəndələrin adları qurultayın stenoqramasına daxil olmamışdır. Məsələn; türkiyəli Ənvər Paşa və Dilican qəzasından göndərilmiş Hacıyev Qurban Hacı oğlu qurultayın iştirakçıları olsalar da, bunların barəsində heç bir materiala rast gəlmədik. Yeri gəlmişkən qeyd edim ki, 1998-ci ilin yayında öz dədə-baba yurdlarından didərgin salınmış Ermənistan azərbaycanlılarının bir qisminin məskunlaşdığı

[120] B.Xəlilov. Birinci Türkoloji Qurultay, Bakı, 1999, s. 6.

Şəmkir rayonunun Çənlibel (Çardaxlı) kəndində olarkən maraqlı bir söhbətin şahidi oldum. Bu söhbəti mənə Gölkənd kəndinin sakini olmuş, hazırda Çənlibel kəndində məskunlaşmış Nəriman müəllim danışdı. Nəriman Qurbanov dil-ədəbiyyat müəllimidir. O, dedi ki, Ənvər Paşa və onun babası (Nəriman müəllimin) Hacıyev Qurban Hacı İsmayıl oğlunun qurultay iştirakçısı olması barəsində bildiklərini ona atası Ermənistan SSR-in əməkdar müəllimi Hacıyev Hacı Qurban oğlu (1905-1995) danışmışdır. Hacıyev Hacı Qurban oğluna isə onun atası Hacıyev Qurban Hacı İsmayıl oğlu söhbət etmişdir. Nəriman müəllimin dediyinə görə, Hacıyev Qurban Haci İsmayıl oğlu Dilican qəzasından göndərilmiş nümayəndə kimi Birinci Türkoloji Qurultayda iştirak etmişdir. O, rühani təhsili almış və ərəb, fars, rus, erməni dillərini yüksək səviyyədə bilmişdir. Hacıyev Qurban öz oğlu Hacıyev Hacıya danışmışdır ki, Birinci Türkoloji Qurultayda çıxış etmək üçün Ənvər Paşa söz alıb kürsüyə çıxmışdır. Lakin bu zaman onun nitq söyləməsinə zaldakı müəyyən adamlar imkan yaratmamış, qalmaqal və səs-küy salmışlar. Bunun səbəbi isə onunla bağlı olmuşdur ki, guya Ənvər Paşa daşnak-millətçi ermənilərə qarşı vuruşmuş və çoxlu qan tökmüşdür. Ona görə də belə bir tarixi şəxsiyyətin söz deməsinə "beynəlmiləl qüvvələr" mane-çilik göstərmişlər. Ənvər Paşa isə nitq söyləməmiş, kürsüdən aşağı düşərək incik bir halda zalı tərk etmişdir. Deyilənlərə görə o, həmin vaxtdan Orta Asiyaya üz tutmuşdur. Onun sonrakı taleyi də Orta Asiyada keçmişdir.

Professor B.Xəlilov fikirlərinin davamı kimi yazır ki, Nəriman müəllim Birinci Türkoloji Qurultayın iştirakçısı olmuş Bala Əfəndiyevin həbs olunması və güllələnməsi ilə bağlı eşitdiklərini də mənə danışdı. O, dedi ki, tələbə olduğum vaxt (1953-1957-ci illər) təsadüfən Tiflis bəylərindən olan Camal bəyin qızı Güllü xanım Camalbəyovanın bir söhbətinin iştirakçısı oldum. Güllü xanım böyük yanğıyla danışdı ki, o, Bala Əfəndiyevin həyat yoldaşı Fatma xanımla Bayılda bir kamerada həbs olmuşdur. O zaman onlar yetmiş nəfərin Xəzərin içərilərində güllələnməyə aparılmasından daha tez xəbər tutmuşlar. Fatma xanımin dediyinə görə həmin yetmiş nəfər içərisində güllələnlərdən biri də Bala Əfəndiyev olubdur»[121].

Maraqlıdır ki, qurultayın materiallarını rus dilindən Azərbaycan dilinə tərcümə edən müəlliflərdən biri professor Kamil Vəli Nərimanoğlu da Buludxan Xəlilovla eyni mövqedən çıxış edərək yazır: "Biz

[121] B.Xəlilov. Birinci Türkoloji Qurultay, Bakı, 1999, s. 79-80.

qurultayın stenoqramını olduğu kimi Azərbaycan türkcəsinə çevirdik. Ancaq nəzərə almaq lazımdır ki, qurultayın mənzərəsi yalnız bu stenoqram deyil. Bir sıra məruzələrin yalnız qısa xülasəsinin (məsələn, R.Açaryan) verilməsi və ya heç verilməməsi (məsələn, Əli bəy Hüseynzadə) və ya iştirakçıların tam siyahısının olmaması (məsələn, Ənvər Paşanın qurultayda iştirakı və ya yeganə qadın nümayəndə Ayna Sultanovanın orada olması və s.), eləcə də qurultayın qurultaydan öncə və sonrakı əks-sədası və mənzərəsi I Bakı Türkoloji Qurultayını tam şəkildə öyrənmək üçün zəruridir" [122].

Göründüyü kimi, hər iki müəllif göstərir ki, türkiyəli Ənvər Paşa qurultayın iştirakçısı olsa da, onun barəsində heç bir materiala rast gəlmədik. Əvvəla, Ənvər Paşa ilə bağlı məlumatı Birinci Türkoloji Qurultayın nümayəndələri və ya stenoqrafik materialları arasında aramaq və axtarmaq doğru deyil və nə qədər arasaq da onun barəsində heç bir məlumat əldə edə bilməyəcəyik. Ona görə ki, Ənvər Paşa Birinci Türkoloji Qurultaydan dörd il əvvəl (hətta bir qədər də çox), yəni 4 avqust 1922-ci ildə indiki Tacikistan ərazisində, Abi-Dərya çayı kənarında bolşevik qüvvələrinə qarşı döyüşdə həlak olmuşdur[123]. Onun nəşi Düşənbənin 200 kilometrliyindəki Belçivan rayonunun Obtar kəndində torpağa tapşırılmışdı. Ənvər Paşanın Türkiyənin bayrağına bürünmüş cənazəsi 4 avqust 1996-cı ildə ölümünün 74-cü ildönümü günündə dövlət başçısı Süleyman Dəmirəlin təşəbbüsü ilə İstanbula gətirilmiş və Şişlidəki Abideyi Hürriyət təpəsində dəfn edilmişdir.

Birinci Türkoloji Qurultayda Ənvər Paşanın nitq söyləməsinə müəyyən adamların imkan verməməsi, qalmaqal və ya səs-küy salması məsələsinə gəldikdə deməliyik ki, həqiqətən belə bir hadisə olmuşdur. Lakin bu, Birinci Türkoloji Qurultayda yox, 1920-ci il sentyabrin birindən yeddisinədək Bakıda keçirilən Şərq Xalqlarının Birinci Qurultayında baş vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasında bu xüsusda oxuyuruq: "Müttəfiqlər tərəfindən məğlub edilmiş osmanlı dövləti üçün təslim aktı olan Mudros barışığı (1918) imzalanandan sonra Ənvər Paşanın həyatına təhlükə yarandı. Belə olduqda o, 1918-ci il noyabrın 8-də hökumətin bir neçə üzvü ilə birlikdə Azərbaycana gəlmək üçün gizlicə Türkiyəni tərk etmək məcburiyyətində qaldı. Alman gəmisi ilə Krıma gələn Ənvər paşa Şimali Qafqazda hərbi

---

[122] 1926-cı il I Bakı Türkoloji Qurultayı. (Rus dilindən tərcümə, ön söz və şərhlərin müəllifləri, professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 458.

123 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı 2004, s. 366.

şəraitin kəskinləşməsi üzündən Azərbaycana gələ bilmədi və Moskvaya getdi. Ənvər Paşa burada "İslam İhtilal Cəmiyyətləri İttihadi"ni yaratdi. Bu cəmiyyətin nümayəndəsi kimi Azərbaycana gəldi və 1920-ci il sentyabrin 1-7-də Bakıda keçirilən Şərq xalqlarının qurultayında iştirak etdi. Qurultayda iştirak edən türk kommunistlərinin tələbi ilə onun çıxışına imkan verilmədikdə, Zinovyevin təklifi ilə Ənvər Paşanın çıxışının mətni bolşevik Ostrovski tərəfindən oxundu. Lakin Bolşevik hökuməti ilə əməkdaşlığın onun əqidəsinə zidd olduğunu anlayan Ənvər Paşa 1922-ci ildə yenidən Bakıya gəldi və buradan Türküstana keçdi. Türkistanda sovet-bolşevik işğalçılarına qarşı azadlıq mübarizəsinə qoşuldu" [124].

Deyilənlərdən aydın olur ki, Ənvər Paşa Bakıdakı Dövlət Opera Teatrının binasında V.İ.Leninin təşəbbüsü ilə 1 sentyabr 1920-ci ildə keçirilən Şərq Xalqlarının Birinci Qurultayında iştirak etmişdir. Görünür, Nəriman müəllim 1920-ci ildə keçirilən Şərq Xalqlarının Birinci Qurultayı ilə 1926-cı ildə keçirilən Birinci Türkoloji Qurultayı səhv salmışdır.

Bu məsələnin davamı kimi bəzi tədqiqatçılar yazır: "Müşahidələr gostərir və mənbələr təsdiq edir ki, Azərbaycandan Birinci Turkoloji Qurultaya rəsmi siyahıya daxil edilməyən, müəyyən təkliflər əsasında dəvət olunan tanınmış ziyalılar, elm adamları və yazıçılar da olmuşdur. Məsələn, gorkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavid, tanınmış tədqiqatcılardan Vəli Xuluflu, Salman Mumtaz, İsmayıl Hikmət, Əli Nazim, Əmin Abid və başqaları da Birinci Turkoloji Qurultayda iştirak etmişlər. Hazırda Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi binanın üçüncü mərtəbəsində, böyük akt zalında kecirilmiş Birinci Turkoloji Qurultayda Azərbaycan ziyalıları geniş tərkibdə təmsil edilmişdir. Bizdə olan məlumata gorə "Molla Nəsrəddin" jurnalının redaktoru, boyuk demokrat yazıçı Cəlil Məmmədquluzadə də Turkoloji Qurultayın iştirakcıları sırasında olmuşdur. Birinci Turkoloji Qurultaya aid foto şəkillərdən Abdulla Şaiqi və Əziz Şərifi də tanımaq mümkün olur. Bu böyük elmi forumun Azərbaycandan olan təmsilçilərinin, rəsmi və qeyri-rəsmi şəkildə iştirak edənlərin tam siyahısını muəyyən etmək qarşıda duran vəzifələrdən biridir. Bu, Azərbaycanda türkologiya elminə olan marağı ifadə etməklə bərabər, həm də XX əsrin əvvəllərində Azərbaycan ziyalılığının inkişaf səviyyəsini aydın şəkildə təsəvvür etmək baxımından da əhəmiyyətlidir".

124 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı 2004, s. 366.

Bütün məsələlərdə haqlı olan müəllifin Əmin Abidin də türkoloji qurultaya qatılması fikri ilə razılaşmaq olmur. Ona görə ki, Əmin Abid həmin vaxt (1926-cı ildə) Türkiyədə idi. Onun elmi tərcümeyi-hal materialları da bunu təsdiq edir. Maraqlıdır ki, Əmin Abidin sovet-ləşmənin ilkin dövründə harada olması dindirmə zamanı müstəntiqlərin də diqqətindən qaçmamışdır. Ə.Abidin 23 iyul 1938-ci il dindirmə protokolunda oxuyuruq:

Sual: Hansı ildə və kim tərəfindən Azərbaycandan Türkiyəyə göndərilmisiniz?

Cavab: Mən Türkiyəyə 1918-ci ildə – Müsavatın Azərbaycanda hakimiyyətə gəlməsindən əvvəl getmişəm. Məni heç kəs göndərməyib, şəxsən özüm təhsil almaq məqsədi ilə getmişəm.

Sual: Təhsili nə üçün Azərbaycanda almırdınız, burada kifayət qədər təhsil ocağı vardı?

Cavab: Türkiyədə oxumağa getməyimi mən öz millətçi mövqelərimlə izah edirəm, hansı ki, mən 1918-ci ildən əvvəl də bu mövqedə olmuşam.

Sual: Türkiyədə neçə il olmusunuz?

Cavab: Türkiyədə 1918-ci ildən 1926-cı ilə kimi olmuşam. Lakin 1921-ci ildə 3 ay müddətinə Türkiyədən Bakıya gəlmişdim. Sonra təhsilimi davam etdirmək üçün yenidən Türkiyəyə qayıtdım.

Sual: Türkiyədə hansı vəsaitlə oxuyurdunuz?

Cavab: 1918-ci ildən 1921-ci ilə kimi öz vəsaitim hesabına, bundan sonra isə Azərbaycan hökuməti tərəfindən təyin olunmuş 35 dollar təqaüd hesabına oxumuşam.

Sual: Hansı məktəbdə və neçə il oxumusunuz?

Cavab: 4 il Müəllimlər Seminariyasında (Darülmüəllimdə), sonra İstambul Universitetinin ədəbiyyat bölməsinə daxil olaraq 4 il də orada təhsil almışam. Oranı bitirdikdən sonra isə 1927-ci ilin əvvəllərində Azərbaycana gəlmişəm[125].

***

1938-ci il avqustun 11-də Batumda həbs olunaraq Az.SSR XDİK-in sərəncamına göndərilən Əmin Abidin həyat yoldaşı Əhmədova Nafiə Tanur qızının dindirmə protokolundan oxuyuruq:

Sual: Tərcümeyi-halınızı qısaca danışın.

[125] DTX-nin arxivi. Əmin Abidin istintaq qovluğu, PR- № 32796.

Cavab: Mən 1903-cü ildə Konstantinopol şəhərində dəmiryol məmurunun-mühasibinin Teyfik Tanurun ailəsində doğulmuşam. 7 il «Çamlıc» litseyində təhsil almışam. Litseyi bitirdikdən sonra bir illik pedaqoji kursa daxil olmuşam. Kursu bitirdikdən sonra 1922-ci ildə Konstantinopol universitetinin ədəbiyyat fakültəsinə daxil oldum. Universitetdə mən Azəbaycandan Konstantinopola təhsil almağa gəlmiş Əmin Abidlə tanış oldum. O zaman mən ona ərə getdim.

1926-cı ilə kimi biz Konstantinopolda yaşadıq. 1927-ci ilin əvvəllərində ərim təhsilini başa vurduqdan sonra SSRİ-yə gəldik. 1927-ci ildən Bakıda yaşamağa başladıq. Mənim ərim Azərbaycan Universitetinə elmi işçi təyin olundu. 1933-cü ildə SSRİ EA Azərbaycan filialında fəaliyyət göstərməyə başladı.

1931-ci ildə mən doğmalarımı görmək üçün Konstantinopola getdim və 1935-ci ildə Bakı şəhərinə ərimin yanına qayıtdım[126].

Deyilənlərdən aydın olur ki, Ənvər Paşa kimi Əmin Abidin də qurultayda iştirakı mümkün deyildi.

[126] DTX-nin arxivi.Əhmədova Nafiə Tanur qızının istintaq qovluğu, PR- № 39675.

QURULTAYIN KEÇİRİLMƏSİNDƏ SİYASİ MARAQLAR

Birinci Türkoloji Qurultay yalnız ədəbi-mədəni, tarixi-filoloji hadisə deyil, doğru olar deyək ki, o, ədəbi-mədəni, tarixi-filoloji hadisədən daha ziyadə siyasi-ideoloji hadisə idi. Qurultayın keçirilməsi hər şeydən öncə tarixi zərurət idi. Moskvanın nəzərində həmişə hür və azad yaşamağa üstünlük verən türkləri öyrənmək və idarə etmək üçün ən yaxşı vasitə Birinci Türkoloji Qurultay idi.

Türkoloji qurultayın əlifba islahatı ilə bağlı fəaliyyətini qiymətləndirərkən iki mühüm cəhət diqqətdən kənarda qalmamalıdır.

1) Ziyalı «latınçılar» – yeni əlifbaya keçməyə və bütövlükdə qurultayda qaldırılan məsələlərə daha çox intibah hadisəsi kimi baxırdı;

2) siyasi «latınçılar» – yeni əlifbaya keçməyi tamamilə siyasiləşdirərək, buna marksizmin-leninzmin qələbəsi, başqa sözlə desək, inqilab hadisəsi kimi yanaşırdı.

Ziyalı «latınçılar» (F.Ağazadə, B.Çobanzadə, C.Məmmədquluzadə, V.Xuluflu və b.) yeni əlifbaya keçidi yalnız elm və təlim baxımından dəyərləndirir, ərəb əlifbasında islahatlar aparılmasının mümkünsüzlüyünü irəli sürərək latın əlifbasının qəbul edilməsini zəruri hesab edirdilər. Ziyalı "latınçı"lardan fərqli olaraq, siyasi «latınçılar» (R.Axundov, S.Ağamalıoğlu, S.M.Əfəndiyev, Q.Musabəyov və b.) bu məsələni ideolojiləşdirir və ona siyasi çalar əlavə edirdilər. Bu baxımdan Azərbaycan, Türkmənistan, Özbəkistan və başqa türk dövlətlərində ərəb əlifbasından latın qrafikasına keçid məsələsində Moskvanın məkrli niyyətini bəzi yerli bolşeviklər görə bilməmiş, əksinə, bunu bolşevizmin savadsızlığın kütləvi ləğvi istiqamətində atdığı uğurlu addım, mədəni inqilab kimi təbliğ etmişlər.

Deyilənlərdən aydın görünür ki, bu məsələdə müxtəlif maraqlar olmuşdur, onu qısa şəkildə aşağıdakı kimi ümumiləşdirmək olar.

A) Azərbaycan ziyalılarının marağı: əlifbanın dəyişdirilməsi, ortaq türk terminlərinin yaradılması, imla məsələləri, türkologiya elminə dünya türkoloqlarının diqqətini yönəltmək və s.

Diqqətlə fikir versək görərik ki, Azərbaycanın maarifpərvər ziyalıları qurultayın müzakirəsinə çıxarılmış məsələlərə **intibah hadisəsi, maarifçilik hərəkəti, dünyanın intellekt məkanına inteqrasiya faktı** kimi baxırdı.

B) Azərbaycan kommunistlərinin marağı: savadsızlığın ləğvi, əlifbanin dəyişdirilməsi və s. məsələlər də Şərqdə marksizm-leninizm

ideyalarını təbliğ etmək, mədəni inqilab siyasətinin həyata keçməsinə nail olmaq. Bu Azərbaycan kommunistlərinin baxışı idi.

Mərkəzi qəzetlər Moskvadan yazırdı ki, S.Ağamalıoğlu qurultayı bağlayarkən deyirdi: "Oktyabr inqilabının nəticəsində iki inqilab baş verdi: Birinci, Anadolu inqilabıdır ki, sultanları və xəlifələri ölkədən qovdu. İkinci inqilab, yeni əlifbadır ki, biz onun qəbulu ilə cəsarətlə deyə bilərik ki, türk-tatar xalqları qabaqcıl bəşəriyyətin mədəni sıralarına daxil olmuşdur"[127]. Göründüyü kimi, Azərbaycanın siyasi xadimləri bu proseslərə **mədəni inqilab hadisəsi** kimi baxırdı.

C) İmperiyanın marağı: Dünyada türkçülüyü, islami dəyərləri təbliğ edən, türkdilli xalqların qohumluq əlaqələrini ciddi və fundamental tədqiqatların predmetinə çevirən (xaricdə və daxildə) şərqşünas və türkoloq alimlərin kimliyini və baxışlar sistemini müəyyənləşdirmək. Bu da Moskvanın – **imperiyanın məkrli marağı** idi.

Göründüyü kimi, Azərbaycan ziyalıları ölkəmizdə gedən bu proseslərə intibah, tərəqqi, inkişaf, Azərbaycan kommunistləri mədəni inqilab hadisəsi kimi baxırdısa, imperiya da türkçülüyü təbliğ edən qüvvələri, milli məfkurə və milli düşüncə sahiblərini üzə çıxarmaq vasitəsi, yəni məkrli siyasi hadisə kimi baxırdı. **Bu mənada Birinci Türkoloji Qurultay Moskvanın – imperiyanın milli əxlaqa, milli təfəkkürə, yaddaşa, şəcərəyə, bir sözlə, "Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq" düşüncəsini çarmıxa çəkmək üçün qurduğu dar ağacı idi. Çarmıxa çəkilən təkcə türkoloqlar deyil, həm də türkologiyamız və türkoloji təfəkkürümüz idi.**

Türkoloqların repressiyası bir daha göstərdi ki, qurultay elmi nəticələri ilə deyil, daha çox antitürk əhvali-ruhiyyəsi ilə yadda qaldı.

Ümummilli lider Heydər Əliyev qurultaydan sonrakı hadisələrin xalqımızın tarixində buraxdığı faciəvi hadisələri böyük təəssüf hissi ilə qeyd edərək "Dövlət dilinin tətbiqi işinin təkminləşdirilməsi haqqında" Fərmanında göstərirdi: "Təəssüflə qeyd etmək lazımdır ki, sonralar qurultayın qərarlarının yerinə yetirilməsi yolunda süni maneələr yaradıldı, türkdilli xalqların mədəni inteqrasıyasına yönəldilmiş bu nəcib iş siyasi məqsədlərə qurban verildi. Azərbaycanın dilçi alimlərinin böyük əksəriyyəti isə totalitar rejimin represiyalarına məruz qaldı. 1939-cu ildə latın qrafikası əlifbasından kiril qrafikası əsasında yaradılmış yeni Azərbaycan yazısına qəti və məcburi keçmək haqqında qərar verildi".

[127] "Pravda" qəzeti. 1926, 9 mart, № 56.

Türkoloji qurultayın iştirakçılarının, demək olar ki, hamısı repressiyalara məruz qaldı. Totalitar rejimin repressiya maşını təkcə şəxsiyyətləri deyil, türkologiyanın bütün sahələrini iflic vəziyyətinə saldı. Azərbaycan, eləcə də sovet türkologiyası 1970-ci illərin sonuna kimi 30-cu illərdə vurulmuş zərbələrin ağrısını yaşadı. Professor Fərhad Zeynalov "Türkologiyanın əsasları" (1981) əsəri ilə 1920-ci illərdəki türkologiyaya olan elmi marağı yenidən gücləndirdi. 1990-cı ildən başlayaraq yeni şəraitdə türkologiya məktəbinin əsası qoyuldu. Öz qaynağını Birinci Türkoloji Qurultaydan alan yeni tipli Azərbaycan türkoloji məktəbinin formalaşmasında görkəmli alimlərimizdən Fərhad Zeynalovun, Aydın Məmmədovun, Tofiq Hacıyevin, Nizami Cəfərovun və başqalarının danılmaz rolu vardır.

Bütün bunlar əsas verir deyək ki, geniş bir elm sahəsi olan türkologiya və türkoloqlar totalitar sovet rejiminin məhrumiyyətləri ilə üz-üzə qalsalar da, sonda öz sözünü deyən bir qüvvəyə çevrilə bildi.

V FƏSİL

QURULTAYIN ŞAHİDLƏRİ VƏ ŞƏHİDLƏRİ, YAXUD QARANLIQDAKI İŞIQLAR

Ədəbi-mədəni, tarixi-filoloji hadisədən daha ziyadə siyasi-ideoloji hadisə olan Birinci Türkoloji Qurultay sovet imperiyasının yaddaşa, şəcərəyə, bir sözlə, "türkləşmək, islamlaşmaq və müasirləşmək" düşüncəsini çarmıxa çəkmək üçün qurduğu dar ağacı idi. Çarmıxa çəkilən təkcə türkoloqlar deyil, həm də yenicə formalaşmağa başlayan türkologiya oldu.

Cəlal Qasımov

BİRİNCİ ÜMUMİTTİFAQ TÜRKOLOJİ QURULTAYIN REDAKSİYA KOMİSSİYASININ ÜZVÜ ARTUR ZİFELDİN TALEYİ

Birinci Ümumittifaq Türkoloji Qurultayın 2 mart 1926-cı ildə keçirilən səkkizinci iclası terminologiya problemlərinə həsr edilmişdi. Şübhəsiz ki, terminologiya problemi şərqşünas və türkoloq alimləri qurultaya qədər də düşündürmüş, bu istiqamətdə müəyyən elmi-nəzəri əsərlər nəşr edilmişdi. Bu problemin qurultayda yenidən gündəliyə gətirilməsi və müzakirə predmetinə çevrilməsi heç də təsadüfi hadisə deyildi. İclasdakı məruzələrin adlarına diqqət yetirsək görərik ki, qurultayda əsas məqsəd terminologiyanın elmi sistemini yaratmaq idi. Bunun üçün hansı prinsiplər əsasında dilin terminoloji lüğət fondunu zənginləşdirmək, bu prosesdə hansı metod və metodologiyalardan istifadə etmək kimi aktual məsələlərin elmi və həm də əsaslandırılmış şərhini vermək məruzəçilərin qarşısında qoyulmuş əsas vəzifələr idi. Məsələlərə bu elmi genişlikdə yanaşmanı şərtləndirən amillər bəzi dillərin inkişafı, elmi-texniki və iqtisadi tərəqqi, yeniləşən sistem (sosializmin yaranması) və buna uyğun dil vahidlərinin azlığı idi. Ona görə də, türkoloji qurultayda terminologiya məsələlərinin müzakirəsi qaçılmaz idi. Adı gedən iclasda **"Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında"** məruzə ilə çıxış edən Artur Zifeld dillərin inkişafında tarixi marksist mövqedə dayanaraq bildirirdi ki, dilin inkişaf mərhələləri insan cəmiyyətinin mədəni-iqtisadi inkişaf mərhələləri ilə bu və ya digər dərəcədə üst-üstə düşür. Hər bir texniki və sosial-iqtisadi inqilab dil inqilabını da qaçılmaz edir. İqtisadi təsərrüfat kimi dil təsərrüfatı da ictimai həyatdakı yeniləşmələrlə ayaqlaşmağı bacarmalıdır. Alim qeyd edirdi ki, "yaşamaq uğrunda amansız mübarizədə dəyişən sosial şəraitə pis uyğunlaşan dillər tarix səhnəsini tərk edir, yerlərini daha yaxşı uyğunlaşa bilənlərə verirdi"[128]. Artur Zifeld aydınlıq üçün belə bir müqayisə aparır. Quba qəzasındakı hər hansı bir aulun, deyək ki, Xınalıq və ya Cək sakini yalnız bir aul daxilində öz dilində danışsa, o, ömrü boyu çoban olaraq qala bilər. Onu əhatə edən türk dilini mənimsədikdən sonra onun üçün yeni bir dünya açılır. O, dar və qapalı mühitdən, açıq və geniş bir mühitə çıxır. Aul mədəniyyətindən və aul təfəkküründən uzaqlaşaraq dünyaya inteqrasiya edir. Aul adamından sivil insana çevrilir. Dilin

[128] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 172.

dünya dilləri arasındakı yerini və nüfuzunu yüksək qiymətləndirən alim qeyd edirdi ki, Anadolunun əhalisinin böyük əksəriyyəti irqi baxımdan heç də türk deyil, lakin türkdillidi... İrqi baxımdan, müasir velikoroslar slavyandan daha çox findirlər; Şimali Afrikadakı "ərəblər" semitdən daha çox kabil-bərbərlərdir...

Dilə təkamül hadisəsi kimi baxan A.Zifeld bu prosesin, yalnız bir aul və ya kiçik dil qrupu daxilində deyil, həm də hər hansı bir dil daxilində baş verəcəyini əsaslandırır: "Darvinizmin bütün qaydalarına müvafiq olaraq, bir dil daxilində də belə bir mübarizə ayrı-ayrı sözlər və formalar arasında baş verir. Müəyyən fikri qeyri-dəqiq, qarışıq ifadə edən söz pis, talaşa, ağac dəyənək, yaxud taxta təkərləri olan arabadan heç də yaxşı olmayan bir vasitədir. Belə söz arxaizmə çevrilir və yalnız gerçəklikdən uzaq olan, dəbdən düşmüş poeziyada, yaxud kafe və ya hamamda aparılan sakit söhbətdə özünə yer tapa bilir. İşgüzar adamların nitqində isə onun yerini yeni, fikri dəqiq ifadə edən sözlər tutur"[129].

Məruzəçi çıxışında qeyd edirdi ki, ədəbi dilin qaynaqlarını və bağlarını möhkəmləndirdikdən, ədəbi dili formalaşdırdıqdan sonra onun terminologiya məsələsinə də baxmaq olar. Alimin fikrincə, terminologiya ilk növbədə canlı xalq danışıq dili əsasında formalaşan ədəbi dildən qaynaqlanmalıdır. Daha doğrusu, əsasən ədəbi dilə söykənməlidir. Bu səbəbdən də, həmin illərdə həm dövri mətbuatda, həm də qurultayda terminlərin yaradılması və ya haradan alınması məsələsi ciddi mübahisələrə səbəb olurdu. Bunları ümumiləşdirən A.Zifeld deyirdi: "Ədəbi dilə münasibətdə türkdilli xalqların böyük əksəriyyətində 4 əsas cərəyan fərqləndirir və sadəlik üçün onlara şərti adlar veririk: panislamçılar, avropalılaşdıranlar, pantürkçülər və xalqçılar (demokratlar). **Panislamçılar** köhnə qəbildən olan adamlar, irticaçılar, ərəb-fars jarqonunu saxlamağa və türk dilinin ərəb və fars sözlərilə yüklənməsini davam etdirməyə çalışanlardır. **Avropalılaşdıranlar** daha müasir, daha mütərəqqi, daha inqilabi adamlardır, onlar mədəniyyət idealını orta əsrlərin müsəlman dünyasında yox, qabaqcıl xalqlar arasında axtarırlar, lakin rus və ya Avropa məktəbindən mənimsədikləri vərdiş nəticəsində, dili amansızcasına Avropa varvarizmlərilə doldururlar və burada tez-tez kəmiyyət keyfiyyəti üstələyir. Əqidəcə inqilabçı və demokrat olduqlarından, onlar əlbəttə, kütlələrə daha yaxın olmaq istərdilər, lakin belə bir ədəbi jarqon yaratmaqla, kütlələr üçün anlaşılmaz olan külli

[129] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 173.

sayda Avropa terminləri daxil etməklə, onlar əlverişsiz nəticələr əldə edir və ziyalılarla xalq arasında elə həmin səddi yaradırlar.

Mən **pantürkçü,** bir tərəfdən, bir dili - əksər hallarda, osmanlı dilini süni şəkildə bütün türk xalqlarına zorla qəbul etdirməyə çalışan, digər tərəfdən, bütün türk xalqları üçün ümumtürk dilini dərhal işləyib hazırlamağa can atanları adlandırıram.

Nəhayət, **xalqçı-demokratlar**. Bunlar bütün terminləri xalq dilində axtarmaq, tapmadıqda isə rus dilindəki "parovoz", "usoverşenstvovaniye", "samolet" və i.a. sözlər kimi, onları xalq dilinin köklərindən süni şəkildə yaratmağın zəruri olduğunu sayanlardır"[130].

Göründüyü kimi, hər bir cərəyanın üzvləri məsələlərə öz prizmalarından yanaşır və bütün halda özlərini haqlı sayırlar. Lakin diqqətlə fikir versələr özlərinin baxışlarındakı çatışmayan cəhətləri də aydın görərlər. Terminologiya məsələsinə belə birqütblü yanaşmaq qətiyyən doğru deyil və bu yolla terminologiyanın kamil və mükəmməl elmi sistemi yarana bilməz. Yaransa belə, o, bir tərəfli, naqis olar. Bizim qənaətimizə görə, termin yaratmada dövlətlərarası ictimai-siyasi əlaqələr az rol oynamır. Bu əlaqələr nə qədər güclü olsa, terminlərin qəbulu da (alınma terminlər) bir o qədər çox və həm də qarşılıqlı olar. Dövlətlərarası iqtisadi, siyasi, hərbi, ədəbi-mədəni və s. əlaqələr zəif olanda və ya olmayanda alınma terminlər də ya olmur, ya da olduqca az olur. Mübahisəli görünsə də deməliyik ki, elmi terminləri dilə xalq deyil, onun ziyalı nümayəndəsi olan alim, konkret elm sahəsinin nümayəndələri gətirir. Bir sözlə demək olar ki, hər hansı bir dildən elmi terminlərin alınmasında biznes, alqı-satqı, pul rol oynamır. Yəni söz, xüsusilə də elmi termin bazardan pulla alınmır. Çünki, bu proses elmi yaradıcılıq və elmi ünsiyyət prosesidir. Ona görə də, hər hansı bir dildən qəbul olunan termin məqsədli şəkildə deyil, yaradıcılıq və ya qarşılıqlı ünsiyyət prosesindəki zərurətdən doğur. Bu proses hər hansı bir pantürkistin, Panislamistin, Avropalılaşdıranın, xalqçı-demokratın maraqları xaricindədir. Bütün bunlar onların istək və arzularından başqa bir şey deyildir.

Zifeld haqlı olaraq qeyd edirdi ki, ədəbi dil xalq dilinin normalarına uyğun olaraq formalaşmalıdır. Deməli, bir dil hüdudlarından ya bütün dialekt və şivələr üçün orta, yaxud ümumi olanı tapmaq, ya da ümumi tarixi təcrübədən göründüyü kimi, ləhcələrdən birini, adətən, paytaxtın bədii ədəbiyyat və dövri mətbuat dilini əsas götürmək olar. Lakin termin

[130] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 173.

yaradıcılığında, yalnız xalq dili ilə də kifayətlənmək olmaz. Başqa sözlə desək, elmi terminologiya bir dilin lüğət fondu, şivə və ləhcələri hesabına da yarana bilməz. Dünyanın, yaxud da ən yaxın regionun (Rusiya və ya Türkiyənin) elmi arenasına çıxmaq üçün, yalnız ədəbi dil əsasında formalaşmış terminlər fikrin mükəmməl ifadəsi üçün azlıq edir. Ona görə də, ərəb-fars, eləcə də rus-avropa dillərindən pasport almış söz və ya terminləri zorla dildən "qovmaq" və ya işlənməsini yasaqlamaq doğru deyil. Dilə pasport almayan terminləri də lazım oldu, ya olmadı dilə gətirmək də həmişə müsbət nəticələr verə bilməz.

Alınma terminlər zamanı məsələnin ciddiliyini dərindən dərk edən Artur Zifeld hesab edirdi ki, alınma terminlər zamanı aşağıdakı qaydalara mütləq riayət etmək lazımdır.

1) alınan söz iqtibas edən dilə xas olan müəyyən səslər sərhədini aşmamalıdır (məsələn, onda "ü" affrikatı olmamalıdır);

2) alınan sözdə yalnız iqtibas edən dilə xas olan səs uyuşmaları və sıraları ola bilər (məsələn, söz samit diftonqu ilə başlamamalıdır);

3) alınma söz ahəng qanununa uyğun gəlməlidir;

4) danışanın qüvvələrinin psixo-fiziki qənaəti baxımından, dilin ümumi üslubunu ciddi şəkildə saxlamaq zəruridir.

Alim haqlı olaraq qısaldılmış "Komandarm", "ispolkom", "NEP" və sair bu kimi sözlərdən daha geniş şəkildə istifadə etməyi təqdir edirdi. Onun qənaətinə görə, qısaldılmış sözlər fikrin daha lakonik ifadəsinə kömək edir. O, haqlı olaraq alınma terminlərin dilin fonetik qaydalarına, xüsusilə də ahəng qanununa uyğunluğu məsələsinə də diqqət yetirməyi vacib sayırdı.

Ərəb-fars mənşəli sözlərə gəldikdə isə Artur Zifeldin mövqeyi ilə razılaşmaq olmaz. Ərəb-fars mənşəli sözləri dinin mirasından başqa bir şey hesab etməyən alim türk dilində yalnız dini anlayışları ifadə edən terminlərin saxlanılmasını mümkün sayırdı: "Elə məhz kilsələri bağlamadığımız, adamlara etiqad etməyi qadağan etmədiyimiz üçün ərəb dilindən alınmış "Allah", "şeytan", "molla", "axund", "namaz", "hacı", fars dilindən alınmış "dərviş", "abdəst", "aftaba" kimi sözləri dini anlayışlar üçün saxlamaq olar, lakin ümumi bir qayda əsasında - əcnəbi dillərdən terminləri yalnız ən zəruri hallarda, dilin özünün bütün imkanları istifadə edildikdə götürmək lazımdır"[131].

[131] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 178.

Göründüyü kimi, məsələlərə ateist mövqedən, marksist platformadan yanaşan alim ərəb-fars mənşəli sözlərə dinin mirası kimi baxır. Hansı ki, bu dillər Şərq mədəniyyətinin tərkib hissəsidir və o dildən keçən sözləri yalnız dinlə məhdudlaşdırmaq olmaz. Əslində bizim klassik ədəbi-mədəni irsimiz ərəb-fars sözləri və tərkibləri ilə o qədər zəngindir ki, ondan imtina etmək elə də asan deyil. Fikrimizcə, o illərdə mövcud olandan (xalqın qəbul etdiyindən) imtinaya deyil, yeni yaradılan terminlərin vaciblik dərəcəsinə, zəruriliyinə fikir vermək lazım idi. Onsuz da yaranmış yeni sosializm sistemi və bu sistemin həyata keçirdiyi klassik ədəbi-mədəni irsə nihilist münasibət ərəb-fars terminlərinin, söz və izafət tərkiblərinin əlehinə işləyirdi.

Zifeldin **"Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri haqqında"** adlı məruzəsi bəzi mübahisəli – qəbul olunan və olunmayan məqamlarına baxmayaraq, terminoloji sistemin formalaşma qanunauyğunluqları ilə bağlı bu gün də aktuallığını qoruyub saxlayan ciddi bir elmi çıxış idi. Bu məruzənin özünəməxsus xüsusiyyətlərindən biri də onun termin yaratmanın mənbələrinin, üsul və prinsiplərinin dəqiqləşdirilməsi istiqamətində atılan addımlar və irəli sürülən tezislərdi. Böyük alim Artur Zifeld-Smumyaqi Rudolfoviçin məruzədə irəli sürdüyü tezislərin bir çoxu bu gün də aktual olaraq qalır.

Milliyyətcə eston, ixtisasca tarixçi və dilçi olan Artur Zifeld-Smumyaqi Rudolfoviç 1889-cu ildə Estoniyanın indiki Tallin, keçmiş Revel şəhərində anadan olub. 1898-1905-ci illərdə Odessada lüteran-kilsə prixod məktəbində təhsil alıb. 1905-1912-ci illərdə inqilabi fəaliyyətdə fəal iştirak edib. O, 1906-cı ildə eserlər partiyasına daxil olmuş, 1907-ci ildə "xalq sosialistləri" (sağ eserlər) partiyasına keçmiş, lakin 1908-ci ildə onlardan ayrılan, əqidəcə sol eserlərə yaxın olan "anarxo-sosialistlər" partiyasının başına keçmişdir.

Zifeld 26 mart 1939-cu ildə verdiyi ifadəsində bolşeviklər partiyasına qədər hansı partiyaların üzvü olduğunu belə şərh edirdi: "İnqilab dövründə, 1905-ci ildə Odessa peşə məktəbində oxuyarkən eserlər təşkilatının üzvü olmuşam. 1907-ci ilin yanvar ayında mən Xalq Sosialistlər Partiyasına qoşuldum. 1908-ci ildə mənim iradəmlə çoxsaylı insan Anarxo-sosialistlər təşkilatına keçdi. Qrupun siyasi platforması eserlərdən, bolşeviklərdən və menşeviklərdən ibarət idi. Aparıcı qüvvə isə mən idim. Bu qrup 1910-cu ilə qədər mövcud oldu. 1910-cu ildə mən təsadüfən sosial demokratlardan biri ilə tanış oldum və qonaq qismində onların bir iclasına dəvət aldım. Dəvətdə Marksizmə qarşı aktiv çıxış edərək, anarxistlərdən, eserlərdən və menşeviklərdən qarışıq ideyalarla

çıxış etdim. Anarxo-sosialistlərlə mən 1911-ci ilə qədər qaldım, onlar marksizmə uyan kimi mən sosial demokratlara tərəf keçdim[132].

Müstəntiqin "sizi Rusiyanı tərk etməyə və mühacir olmağa nə vadar etdi" sualına cavab olaraq Zifeld bildirirdi ki, 1912-ci ildə mən təxribatçı adı qazandığım üçün Rusiyanı tərk etməli oldum. Göründüyü kimi, 1912-ci ildə Zifeld-Smumyaqi təxribatçı kimi ifşa edilir, qeyri-qanuni fəaliyyətə keçir, daha sonra saxta pasportla Almaniyaya mühacirət edir. O, öz ifadəsində bu xüsusda deyirdi: "1912 ci ilin yayı yaşadığım Odessadan, guya izlənilən çar ailəsi üzvü kimi saxta pasportla, Kaçman Moisey Volfoviç adı altında Almaniyaya getdim. Bu pasportu mənə dostum olan Kaçmanın özü verdi. Almaniyada mən Qanburq yaxınlığında, Vandsbek şəhərində qalırdım, ölkəyə daxil olan kimi, yolda xarici pasportumu itirmək bəhanəsi ilə öz doğum haqqında şəhadətnaməm ilə qeydiyyata düşdüm. Mən Rusiyadan pasportun nüsxəsini istəyə bilmədiyim üçün mənim Almaniyadan çıxmağımı tələb etdilər. 1913 cü ildə mən İsveçrəyə keçdim.

1916-cı ildə mən Lozanda keçirilən Milliyyətlərin 3-cü konfransında jurnalist qismində iştirak etdim. Orada Rusiya müsəlmanlarının nümayəndə heyətinin sədri, İstanbulda nəşr olunan Türk Yurdu adlı pantürkçü jurnalın redaktoru olan Akçurin Yusiflə tanış oldum. Mənim Şərq xalqlarının tarixi ilə məşğul olduğumu öyrənən Akçurin məndən Türkiyə ərazisində yaşayan xalqların tarixi haqqında məqalələr göndərməyimi xahiş etdi. Bundan sonra 1916-cı ildə mən Şumerlər haqqında məqalə göndərdim. Məqalədə nisbətən turançılıq xarakteri var idi. Əlavə etmək istəyirəm ki, o dövrdə mən, bütün türk-tatar, monqol və s dillərin eyni mənbəyə malik olduğunu deyən turan məktəbi ilə həmfikir idim[133]".

F.D.Aşnin, B.M.Alpatov və D.M.Nasilovun birgə hazırladıqları "Repressiya olunmuş türkologiya" kitabında yazırlar ki, Zifeld-Smumyaqi emiqrant olduğu müddətdə dilçilik elmi ilə də maraqlanmağa başlayır. Gənc inqilabçı o dövrdə elmdə geniş müzakirə obyektinə çevrilən fin-uqor, samayed, türk, monqol, tunqus-mancur (bəzən yapon və Koreya dilləri də aid edilirdi) dillərinin böyük Ural-Altay ailəsində birləşməsini təsdiq edən Ural-Altay hipotezi ilə maraqlanırdı. Müasir elm bu hipotezi daha fərqli formada təsdiq edir: Ural (fin-uqor, samayed) və altay (türk, monqol, tunqus-mancur, Koreya, yapon) dilləri hind-Avropa və digərləri ilə birlikdə qiqant makroailənin üzvü hesab edilir, ayrıca Ural-Altay

[132]DTX-nin arxivi. Artur Zifeld Ruldolfoviçin istintaq qovluğu, PR - № 22326.
[133]DTX-nin arxivi. Artur Zifeld Ruldolfoviçin istintaq qovluğu, PR - № 22326.

ailəsini qəbul etmir. Lakin XX əsrin 10-30-cu illərində bu hipotezi nə sübut etmək, nə də təkzib etmək mümkün idi, çünki bir çox Ural və Altay dilləri tam öyrənilməmişdi. Odessada olarkən böyük linqvist A.V.Tomsonun mühazirələrinə qulaq asma ehtimalı olsa belə, çətin ki, linqvistik hazırlığı yaxşı olan bu gənc tədqiqatçı problemin çətinliyini özü də dərk etmədən siyasi mübarizələrindən boş qalan zamanlarında güclü hipotezlər hazırlamışdı. O, şumerlərə aid olan hər hansı materialı, hətta ikinci, üçüncü əldən alsa da, istifadə etməkdən qorxmurdu[134].

Mənbələrin verdiyi məlumata görə, Zifeld 1921-1926-cı illərdə Bakı Xalq Maarif Şöbəsinin müdiri, Ali Partiya Məktəbinin təhsil bölməsinin rəhbəri vəzifəsində işləyir. 1925-1926-cı illərdə Birinci Ümumittifaq Türkoloji Qurultayının çağırışı üzrə təşkilati komissiyanın məsul katibi olur. 1923-1930-cu illərdə isə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin sədr müavini, həqiqi üzvü və elmi katibi vəzifəsində çalışır. 1930-cu ildən Azərbaycan Elmi Tədqiqat Neft İnstitutunda ölkəşünaslığın tarixi-etnoqrafik şöbəsinin müdiri işləyir.



1932-1935-ci illərdə Gürcüstanda Qafqazşünaslıq İnstitutunun dil şöbəsinin müdiri və baş mütəxəssisi vəzifəsində çalışır. Daha sonra Azərbaycanda SSRİ EA-nın Azərbaycan filialının dil şöbəsinin baş mütəxəssisi, 1935-1937-ci illərdə Dil və Ədəbiyyat İnstitutunun, Xarici dillər və Ədəbiyyat İnstitutunun direktoru olur. 1937-ci il mayın 8-dən iyulun 13-ə qədər SSRİ EA-nın Azərbaycan filialının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutuna rəhbərlik edir.

1937-ci ilin sentyabrında institutun direktoru vəzifəsindən azad edilir. Təbii ki, keçən əsrin 30-cu illərində institut rəhbərliyindən azad edilmə növbəti tragik-dramatik faciənin başlanğıcı idi. Qısa müddətdən sonra onu bolşeviklər partiyasının sıralarından da xaric etdilər ki, bu da onun tezliklə həbs olunacağına bir işarə idi.

11 fevral 1938-ci ildə Azərbaycan SSR XDİK-in DTİ-nin 4 idarəsinin rəisi dövlət təhlükəsizliyi kapitanı Raskazşikov arayış tərtib edərək bildirmişdir ki, Azərbaycan SSR XDİK-in DTİ tərəfindən həbs olunmuş

[134] Aşnin F.D., Alpatov B.M. və Nasilov B.M. "Repressiya olunmuş türkologiya".

pantürkçü təşkilatının fəal üzvləri Əziz Qubaydullin, Mahmudzadə və Bəkir Çobanzadə öz ifadələrində göstərmişlər ki, Zifeld Artur Rudolfoviç əksinqilabi pantürkçü təşkilatın üzvüdür.

Onlardan B.Çobanzadə 29 iyul 1937-ci ildə verdiyi ifadəsində Artur Zifeldin siyasi baxışları barədə bildirirdi ki, "Zifeld 1924-cü ildə, müsavatçıların təsiri altında olan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində işləyib. Müsavatçıların razılığı ilə mən Akademik Samoyloviçin cəmiyyətinin türkologiya şöbəsinin sədri oldum. Bu cəmiyyət pantürkist ideyaların təbliğatı ilə məşğul olurdu. Cəmiyyətin sədr müavini olan Zifeld də bu işi yaxşı bilirdi. Tanışlığın ilk günü Zifeld pantürkist olduğunu, pantürkistlərin mərkəzi orqanı olan "Birlik və İnkişaf", "Türk yurdu" jurnallarında "Arslan Muradlı"[135] ləqəbi ilə əməkdaşlıq etdiyini bildirdi. 1926-cı ildə Zifeld Türkoloji Qurultayın hazırlanmasında iştirak edib. Daha sonra öz pantürkist ideyalarını gizlətmək üçün o, akademik Marrın Yafetin nəzəriyyəsinə əsaslandığını söyləsə də öz işlərində pantürkçü fikirlərinə geri döndüyü görünür. Zifeld hazırda həbsdə olan, hansısa ispan və ya portuqal generalın oğlu və V.Xuluflunun dediyinə görə, ingilis kəşfiyyatçısı olan Dalovesserlə yaxın dost münasibətində olmuş və hazırda Aşqabadda olan aktiv daşnak Fatuni ilə də tanış idi[136].

Bundan başqa, Xalid Səid Xocayev, Boris Tixomirov da ifadələrində Zifeldin pantürkist olduğunu bildirmişlər.

Yuxarıda sadaladığımıza əsasən, Az. SSR CM-nin 72, 73-cü maddələri ilə Zifeldin həbsini vacib sayıram.

11 fevral 1938-ci ildə Az. SSR XDİK DTİ-nin əməkdaşı M.Mustafayev 3609 saylı axtarışaparma orderinə əsasən Bakı şəhəri, İzmayılov küç. 25, mənzil 4-də yaşayan A.R.Zifeldin evində axtarış apardı. Axtarış zamanı ona məxsus olan:

429011 nömrəli partiya bileti
544024 nömrəli pasport
190308 nömrəli həmkarlar bileti
Hərbi bilet
Müxtəlif kitablar
Müxtəlif yazışmalar
Əlyazmalar
Müxtəlif sənədlər müsadirə edilərək götürüldü.

---

[135] Məlumat üçün bildirməliyəm ki, B.Çobanzadənin belə rahatlıqla deyə bildiyi "Arslan Muradlı" ləqəbi məsələsinə Zifeld belə aydınlıq gətirirdi. "Dəqiq deyə bilmərəm, amma çox güman ki, mən "Arslan Nurəddinov" ləqəbi ilə əməkdaşlıq etmişəm.

[136] DTX-nin arxivi. B.Çobanzadənin istintaq qovluğu, PR - № 26926.

Yeri gəlmişkən qeyd etməliyik ki, Zifeldə məxsus olan əlyazma və sənədlər 29 mart 1939-cu ildə aktlaşdırılaraq məhv edildi. Bu sənədlər və əlyazmalar ona görə məhv edildi ki, həmin materiallar istintaq üçün əhəmiyyət kəsb etmirdi. Deməli, həmin materiallar istintaq üçün əhəmiyyət kəsb etsəydi müttəhimin əleyhinə istifadə olunacaqdı, lakin bu sənədlərin bu millət üçün elmi əhəmiyyəti nəzərə alınmırdı. Alınmırdı ki, ona görə ki, bu materiallarda yaddaş və tarix yaşayırdı. Bu materiallar təkcə Zifeldin deyil, türkdilli xalqların sərvəti idi. Elə müstəntiqlər də əslində bunu – yaddaş və şəcərə ilə, xalqın tarixi və taleyi ilə bağlı olan hər şeyi məhv etmək missiyasını yerinə yetirmirdilərmi?.

Müttəhimin anketi

Zifeld Artur Rudolfoviç
Doğulub – 1889-cu il
Doğum yeri – Revil şəhəri (Estoniya)
Yaşadığı ünvan - Bakı, İsmayılov 25, mənzil 4
Peşəsi – Tarixçi, professor
Vəzifəsi – Qədim Şərq tarixi üzrə məsləhətçi - professor
Təhsili - ali
Partiyallığı – 1915-ci ildən ÜK(b)P-nin üzvü.
SSRİ vətəndaşı
Bakı hərbi komissarlığının ehtiyatında
Cinayət məsuliyyətinə cəlb olunmayıb
Həyat yoldaşı: Sara
Qızı: Uraltay - 4 yaş

1938-ci il fevralın 20-si dövlət təhlükəsizliyi leytenantı Mustafayev cinayətkar qismində həbs edilən, 1889-cu il təvəllüdlü, Tallində doğulan, Bakı şəhər sakini, estoniyalı, tarixçi, linqvist, professor Zifeld Artur Rudolfoviçi dindirmişdir. Dindirmə zamanı Mustafayevin "Siz əksinqilabi pantürkist cəmiyyətin üzvü olmaqda təqsirli bilinirsiniz. Bunu təsdiq edirsinizmi sualına o belə cavab verir: "Xeyr, mən heç bir əksinqilabçı pantürkist cəmiyyətin üzvü olmamışam və deyiləm" [137].

Sual: Sizin əksinqilabçı pantürkist cəmiyyətinə üzvlüyünüz istintaqla müəyyənləşib. Doğrusunu söyləyin.

Cavab: Mən doğru deyirəm və bir daha bəyan edirəm ki, əksinqilabçı pantürkist cəmiyyətin üzvü deyiləm.

[137]DTX-nin arxivi. Artur Zifeld Ruldolfoviçin istintaq qovluğu, PR - №22326.

Sual: İstintaq sizi xəbərdar edir ki, siz əksinqilabçı pantürkist cəmiyyətin üzvü olduğunuzu inkar etsəniz istintaq bunun üstünü açacaq. Məsləhət görürəm ki, səmimi olasınız.

Cavab: Mən əvvəlki ifadəmi bir daha təsdiqləyirəm.

Sual: İstintaq sizə inanmır, o, sizin əksinqilabi pantürkist cəmiyyətinə üzvlüyünüz məsələsinə bir daha qayıdacaq[138].

Sual: Siz Bəkir Çobanzadəni tanıyırsınız?

Cavab: Bəli, tanıyıram. Onunla ilk dəfə Bakıda "Avropa" mehmanxanasında tanış olduq. Mənə onu bizim ümumi tanışımız professor Samoyloviç təqdim etdi. Onda o, Bakıya köçməsi ilə əlaqədar məsələlərin müzakirəsi üçün gəlirdi. 1925-ci ildə o, keçmiş ADU-nun şərqşünaslıq fakültəsinə dekan vəzifəsinə təyin olundu. O andan etibarən onunla elmi əlaqələrimiz yarandı və onun həbsinə qədər davam etdi.

1929-cu ildə nəşr materiallarından mənə məlum oldu ki, B.Çobanzadə keçmişdə krım millətçilərinin əksinqilabçı təşkilatları olan "Milli firqə"yə daxil idi və əksinqilabi cəmiyyətin ən aktiv iştirakçısı idi.

Bundan başqa, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"ndə, Birinci Türkoloji Qurultayın münsiflər heyətində, onunla birgə fəaliyyətim prosesində onun əksinqilabi pantürkist üzü mənə aydın oldu. Bu 1925-36-cı illər arası dövrə aiddir.

Sual: Siz Axundov Ruhullanı tanıyırsınızmı?

Cavab: Onunla birinci dəfə 1923-cü ildə partiya işinə görə görüşmüşəm. 1926-cı ildə Türkoloji qurultay vaxtı onunla tez-tez görüşməyə başladım. Nəşr materiallarından və nallı Hənəfi ilə şəxsi söhbətdən məlumdur ki, Axundov Ruhulla 1919-cu ildən sol eserlər partiyasının üzvü olub.

Bundan başqa, Az.FAN da birlikdə işlədiyimiz dövrlərdə mövqecə milliyyətçi xarakter daşıyırdı.

Sual: Siz Əziz Qubaydullini tanıyırsınız?

Cavab: Bəli, tanıyıram. Onunla 1925-ci ildə ADU-da tanış oldum. Onunla 1937-ci ilə, yəni həbs olunana qədər əlaqəm var idi. Onunla söhbətdən bilirəm ki, Əziz böyük tacir ailəsindəndir. Onun atası Saleh Orta Asiyada böyük ticarət işləri aparırdı. Əziz özü Çexoslovakiya ilə əlaqədə olan eserlər partiyasının üzvü olmuşdur. Azərbaycanda fəaliyyətinin ilk illərində pantürkist mövqeyində dururdu.

Sual: Siz Xuluflu Vəlini tanıyırsınızmı?

[138]DTX-nin arxivi. Artur Zifeld Ruldolfoviçin istintaq qovluğu, PR - №22326.

Cavab: Bəli, 1926-cı ildə o, şərqşünaslıq fakültəsində tələbə olarkən və "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"ndə tanış olmuşam. Onun danışığından mənə məlumdur ki, o, "əkinçi" olmuşdur. Azərbaycanın sovetləşməsindən əvvəl isə o, 1921-ci ildə AK(b)P-nin Gəncə mahal komitəsinin katibi olmuş və millətçilik ideyalarına görə işdən kənar edilmişdir. Orfoqrafik lüğətin tərtibi müddətində o, osmanlı mövqeyində dururdu.

Sual: Siz Zeynallı Hənəfini tanıyırsınız?

Cavab: Bəli, Zeynallı Hənəfini tanıyıram. Onunla Tibilisidə 1920-ci ildə tanış olmuşam. O, onda Bakıya oxumağa Türkiyədən keçərək gedirdi. Zeynallı özü danışırdı ki, 1919-cu ildə sol eserlər partiyasının üzvü idi. Onunla yaxın münasıbətim 1925-ci ildə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"ndə işləyəndə başladı və 1937-ci ilə - onun həbsinə qədər davam etdi.

O, nəşrin cavabdeh işçilərindən olub, öz fəaliyyətində osmanlı və pantürkist ideyaları yayırdı. 1929-cu ildə türk konsulunun ziyafətində iştirakına görə AK(b)P-dən uzaqlaşdırılmışdır.

Sual: Siz Tağızadə Abdullanı tanıyırsınız?

Cavab: Bəli, Tağızadə Abdullanı tanıyıram. Onunla 1925-ci ildə Leninqradda Şərq Dilləri İnstitutunda tanış olmuşam. Abdulla o zaman tələbə idi və mən onunla Azərbaycanın gələcək elmi işçisi kimi əlaqə qurdum. 1926-cı ildə o, institutu bitirib Bakıya gəldi.

Sual: Siz Xocayev Xalid Səidi tanıyırsınız?

Cavab: Bəli. 1928-ci ildə şəxsən tanış olmuşam. Daha sonra onunla Az.FAN-da dil institutunda işləmişəm. Həbsinə qədər münasibətimiz olub.

O, milliyyətcə özbək idi, lakin nədənsə Özbəkistanda yaşamayıb. 1926-cı ildə pantürkist mövqeyində durduğu "Özbək, qazax və osmanlı dillərinin müqayisəli qrammatikası" adlı kitab nəşr etmişdir. Öz siyasi baxışlarını açıqlamırdı.

Sual: Siz Kazımov Cəfəri tanıyırsınız?

Cavab: Bəli, Kazımov Cəfəri tanıyıram. Onunla 1928 ci ildə "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"ndə tanış olmuşam. O, Almaniyada oxuyurdu və gəlişindən sonra qeydiyyatdan keçməmişdi. Müsavatın vaxtında Əmək Nazirliyində işləmişdir. Az.FAN-da o, öz partiya və bolşevik simasını heç yerdə göstərmədi.

Sual: Yuxarıda adı çəkilən insanlarla sizin nə münasibətiniz olub?

Cavab: Bu şəxslərlə mən adi iş münasibətində olmuşam.

Protokol mənim sözlərimə uyğun tərtib olunub, tərəfimdən oxunub, ifadəmin doğruluğunu təsdiq edirəm[139]. İmza. Zifeld.

***

20 fevral 1938-ci il dindirməsi zamanı Artur Zifeld bildirir ki, mən boynuma alıram ki, Türkoloji qurultaya qədər terminologiya məsələləri barəsində, Azərbaycan dilinin demokratikləşdirilməsi uğrunda qeyri-türk mənşəli sözlərin dildən çıxarılması üçün mübarizə aparırdım. Sözləri Azərbaycan və ya türk mənşəli sözlərlə əvəz etmək, düzəltmə və ya mürəkkəb sözlər vasitəsilə əvəzləmək tərəfdarı idim. Zifeld 1925-ci ilə kimi "Azərbaycan kommunisti" jurnalında yazdığı məqalələrində, eləcə də Türkoloji Qurultayda etdiyi "**Türk dillərində elmi terminologiyanın yaranması prinsiplərinə dair**" məruzəsində də həmin mövqedə olduğunu qeyd edirdi. O, bildirirdi ki, 1929-cu ildə yazdığım "Türkoloji etüdlər"də mən Azərbaycan dilinin sərbəst dil olduğunu sübut edən bir sıra dəlillər gətir-mişəm, bu səpkidə bir sıra mühazirələr oxumuşam.

Zifeldin Azərbaycanda Azərbaycan və ya türk mənşəli sözlərə üstünlük verməsi, ədəbi dilin saflaşması uğrunda mübarizəsi qəbul olunan və şübhəsiz ki, olduqca mütərəqqi hadisədi. Lakin totalitar rejim rus dilindən, imperiyanın qanunlarından kənarda olan heç nəyi qəbul etmirdi. Ona görə də, bu gün, Artur Zifeld müstəqil düşüncələrinin ağrısını yaşayaraq müttəhimlər kürsüsündə əyləşmişdi.

***

Maraqlıdır ki, Zifeldi ikinci dəfə düz bir ildən bir qədər də artıq vaxt keçdikdən sonra - 26 mart 1939-cu ildə dindirirlər. Bu artıq üçüncü metodun tətbiqi demək idi. Yəni onu dindirmir, qəsdən yaddan çıxmış adam kimi kamerada saxlayırdılar. Bu da müttəhimə verilən mənəvi-psixoloji cəzalardan biri idi.

Sual: Sizin əksinqilabi pantürkçü təşkilatına üzvlüyünüz məsələsinə keçək.

Cavab: Mən heç vaxt, heç bir əksinqilabi təşkilata üzv olmamışam.

Sual: Sizin əksinqilabi pantürkist təşkilatına üzv olduğunuz istintaqla artıq müəyyənləşib, sizə məsləhət görürəm ki, düz danışasınız.

Cavab: Mən yalnız düzünü söyləyirəm və heç bir əksinqilabi təşkilata üzv olmamışam.

Sual: İstintaq sizin yalanınızın üstünü açacaq, sonuncu dəfə soruşuram, Siz əksinqilabçı pantürkist təşkilatın üzvüsünüz?

Cavab: Mən bir daha təkrar edirəm ki, deyiləm.

[139]DTX-nin arxivi. Artur Zifeld Ruldolfoviçin istintaq qovluğu, PR - №22326.

Sual: Sizə Bəkir Çobanzadənin 17-20 aprel 1937-ci ildə verdiyi ifadəsini təqdim edirik. O, deyir: "...əksinqilabi pantürkist təşkilatının üzvü kimi mənə Azərbaycandan ÜK(b)P-nin üzvü, Azərbaycan Dil və Ədəbiyyat İnstitutunun direktoru Artur Zifeld məlumdur... Mən onunla 1925-ci ildə əksinqilabi əlaqədə olmuşam və bu mənim həbsimə qədər davam edib". Buna nə deyə bilərsiniz?

Cavab: Çobanzadənin ifadəsini tamamilə inkar edirəm. Qəti şəkildə deyirəm ki, mən heç bir əksinqilabi pantürkist təşkilatın üzvü olmamışam.

Sual: Sizin yalanınızın üstünü açmağa davam edirik. Bir çox müttəhim öz ifadələrində sizin əksinqilabi pantürkist təşkilata üzv olduğunuzu söyləmişlər. Sizə Əziz Qubaydullinin 1937-ci ilin 19-20 mart tarixlərində verdiyi ifadəni oxuyuram: "SSRİ ərazisində millətçi pantürkist təşkilatın fəal üzvlərindən mənə Azərbaycanda Zifeld... məlumdur". Bu barədə nə deyə bilərsiniz?

Cavab: Qubaydullinin mənim barəmdə dediyi ifadəni inkar edirəm. Qubaydullini mən əvvəllər pantürkist ideyası olan şəxs kimi tanıyırdım. Mənim də o sıralarda olduğumu nəyə görə söylədiyini bilmirəm.

Sual: Qubaydullin sizi yalnız əksinqilabi pantürkist təşkilatın üzv olduğunuzu söyləmir, eyni zamanda o, sizin Dil və Ədəbiyyat İnstitutunda işləyərkən əksinqilabçı millətçi kimi aktiv fəaliyyət göstərdiyinizi demişdir: "Əksinqilabi pantürkist təşkilatın aktiv üzvləri arasında alim Zifeld də var idi. İmperializm müharibəsindən öncə "Türk Yurdu" jurnalında işləmişdir. O, ural–altay xalqlarının Turan dövlətində birləşməyi üçün çalışmışdır. 1930-cu ildə "Ural-Altayka" adlı elmi əsər nəşr etdirmişdir. Çobanzadə Bəkirlə pantürkist əməkdaşlıq etmişdir". Siz ifşa edildiniz.

Cavab: Qubaydullinin ifadəsi barədə: Mənim bu əksinqilabi pantürkist təşkilat barəsində xəbərim var idi. Bəzi insanların bu təşkilata üzvlüyünü bilirdim və bu barədə susmamışam. Mənim pantürkist mövqeyim yalnız Odessada tələbəlik dövründə mövcud idi və mövqeyim Birinci Türkoloji Qurultaya qədər davam etmişdir. Qurultaydan sonra mən tamamilə pantürkistlikdən uzaqlaşdım. "Ural-Altayka" kitabına gəldikdə isə orda heç bir pantürkist ideya yoxdur.

Artur Zifeld-Smumyaqi Rodolfoviç 27 mart 1939-cu ildə verdiyi ifadəsində onun B.Çobanzadə, Ə.Qubaydullin və başqaları tərəfindən şərləndiyini bildirir. Müstəntiqin "Çobanzadə xalq düşməni kimi ifşa olunanda siz onu vacib elmi işçi kimi tərifləyərək təbliğ edirdiniz" fikrinə münasibət bildirən Zifeld deyirdi: "Mən təsdiq edirəm ki, həqiqət-

ən 1931-ci ildə Çobanzadəni partiya iclasında qorumuşam. Həmin dövrdə o, cinayət məsuliyyətinə cəlb olunmuşdu. O, mənə məlum olduğu qədər pantürkist fəaliyyətini təsdiqləyirdi. Mən həmin müddətdə Çobanzadəyə öz səhvlərini düzəltməyə şans vermək və onu işdə elmi işçi kimi saxlamağa çalışırdım"[140].

Məlumat üçün bildirməliyik ki, yalnız Zifeld dostları və tanıdıqları əleyhinə ifadə vermirdi, "professional" müstəntiqlər onun da əleyhinə kifayət qədər nüfuzdan salan ifadələr almışdılar. Biz bu barədə yuxarıda da ifadələrdən nümunələr təqdim etdik. Həmin ifadələrdə Artur Zifeld daha çox əksinqilabçı millətçi təşkilatın üzvü kimi ifşa olunurdu. Bəzən Zifeldin şəxsiyyəti və bir alim kimi mövqeyi barədə də ifadələr verirdilər. Belə ki, Zifeld-Smumyaqinin müavini Qulam Bağırov onu xarakterizə edərək deyirdi: "Yaxşı elm xadimi, pis rəhbər və pis təşkilatçı idi".

SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının (EAAF) partiya komitəsinin katibi S.Tevosov isə bildirirdi: "Biz bilirik ki, Artur Zifeld təşkilati işlərdə bacarıqsızdır". Etnoqraf A.A.Klimov Zifeld-Smumyaqinin bəraətindən əvvəl verdiyi ifadədə qeyd edirdi Zifeldin "insan kimi həssas xasiyyəti var idi, hər kəsə inanırdı, heç kimi incitmək istəmirdi. Rəhbər kimi zəif idi, elmə daha çox əhəmiyyət verirdi. İnstitutun ictimai işləri ilə elə çox maraqlanmazdı. Bu işləri institutun digər səlahiyyətli işçilərinə - H.Zeynallı və Q.Bağırova etibar edərdi"[141].

***

27 mart 1939-cu il dindirməsi Artur Zifeldin son dindirməsi oldu Az.SSR XDİK-in 2-ci idarəsinin əməliyyat müvəkkili DT çavuşu Dranişnikov, DT leytenantı Mustafayev 29 mart 1939-cu ildə Zifeld barəsində təqsirləndirici qərar hazırlayır. Qərarda göstərilirdi ki, 1936-cı ilin sonunda Xalq Daxili İşlər Komitəsi Azərbaycanda fəaliyyət göstərən, Sovet hökumətini devirmək üçün silahlı üsyan hazırlamağı qarşısına məqsəd qoyan əksinqilabi millətçi pantürkist təşkilatı aşkarladı və məhv etdi. Bu əksinqilabi təşkilatın Azərbaycan Dil və Ədəbiyyat İnstitutunda da fəal üzvləri olmuşdu. Azərbaycan SSR CM-in 61, 70, 78, 81, 83-cü maddələri ilə ittiham olunan Zifeld Artur Rudolfoviç də əksinqilabi millətçi pantürkist təşkilatın fəal üzvlərindən idi. İstintaqla məlum oldu ki, Artur Zifeld Əziz Qubaydullin, Bəkir Çobanzadə və Qulam Bağırovla sıx əksinqilabi fəaliyyətdə olub.

[140]DTX-nin arxivi. Artur Zifeld Ruldolfoviçin istintaq qovluğu, PR - №22326.
[141]DTX-nin arxivi. Artur Zifeld Ruldolfoviçin istintaq qovluğu, PR - №22326.

Zifeld Mahmud Kaşğarinin pantürkist kitabı olan "Divani lüğət-it türk" əsərinin tərcüməsində iştirak edirdi. Azərbaycan dilinin orfoqrafiya və terminologiya məsələlərində, eləcə də dil və ədəbiyyat tarixi mövzusunda fəaliyyətində millətçi mövqedə dayanıb.

1929-32-ci illərdə fəal pantürkist olan Bəkir Çobanzadə həbs olunanda Artur Zifeld onun pantürkist mövqeyinə bəraət qazandırıb.

1889-cu il təvəllüdlü, Tallin şəhərinin sakini, estoniyalı, SSRİ vətəndaşı, xalq müəllimi ailəsindən çıxmış linqvist, professor, 1906-1907-ci illərdə eser tələbə təşkilatının, 1907-ci ildə eserlərin "Xalq Sosialistlər Partiyası"nın, 1908-1910-cu illərdə anarxistlərin "anarxo-sosialistlər" partiyasının, 1910-1913-cü illərdə menşeviklərin "Sosial Demokratlar" partiyasının, 1913-1914-cü illərdə "plexanovların sosial demokratlar" partiyasının, 1915 ildən bolşeviklərin sosial demokratlar partiyasının üzvü olmuş, ÜK(b)P-nin keçmiş üzvü (həbs ilə əlaqədar uzaqlaşdırılıb) Zifeld Artur Rudolfoviç Azərbaycanda mövcud olmuş millətçi pantürkist təşkilatın fəal üzvü olmuşdur.

O, təşkilatın fəal üzvləri olan Ə.Qubaydullin, X.S.Xocayev, Bəkir Çobanzadə, Q.Bağırov, Mahmudzadə ilə əlaqə saxlamış, institutun işində pantürkist ideyaların təbliği ilə məşğul olmuşdur. Günahını qəbul etməmişdir.

Cari iş SSRİ XDİK-in Xüsusi İclasına göndərilir[142].

***

3 iyun 1939-cu ildə DTK hərbi prokuroru Kuzmin hesab edir ki, antisovet millətçi təşkilatında iştirakına görə Zifeld 8 il müddətinə azadlıqdan məhrum edilsin.

21 iyun 1939-cu ildə SSRİ XDİK-in xüsusi müşavirəsində Artur Zifeldin işinə baxıldı və qərara alındı ki, müddəti 11 fevral 1938-ci ildən hesablanmaqla 8 il müddətinə İslah Əmək Düşərgəsinə - Kolımaya göndərilsin.

Zifeldin istintaq qovluğundakı aktdan aydın olur ki, o, 6 dekabr 1939-cu ildə vəfat etmişdir. Maraqlıdır ki, 50 yaşına çatmayan Artur Zifeldə qocalıq diaqnozu qoyulur və ölümünə səbəb kimi ürək çatışmazlığı göstərilirdi. Təəccüb doğuran odur ki, 19 mart 1939-cu ildə həkimlər tərəfindən tərtib edilmiş arayışda onun tamamilə sağlam olması və şimal iqliminə dözə biləcəyi barədə məlumat vardır.

[142]DTX-nin arxivi. Artur Zifeld Rudolfoviçin istintaq qovluğu, PR - №22326.

Artur Zifeldin həyat yoldaşı Sara Yakovlevna Xovanskaya 7 dekabr 1955-ci ildə təhlükəsizlik orqanlarının rəhbərlərinə və aidyyəti yerlərə ərizə ilə müraciət edərək göstərirdi ki, 1938-ci ildə Az.SSR XDİK tərəfindən 1889-cu il təvəllüdlü, 1915-ci ildən bolşeviklər partiyasının üzvü Artur Rudolfoviç Zifeld-Smumyaqi həbs olunmuşdur.

16 iyul 1939-cu ildə Zifeld, Bakıdan sürgün edilmişdir. Noyabrın sonunda o, Vladivostokdan yazırdı ki, bütün bakılıları Kolımaya, onu və digər "qocaları" isə daha mülayim iqlimli yerlərə göndərirlər.

1947-ci ildə Az.SSR XDİK-ə müraciətimə cavab olaraq şifahi şəkildə bildirdilər ki, o, 1939-cu ilin dekabr ayında vəfat etmişdir.

Növbəti ilin avqustunda mən Az.SSR DİN-in adına Zifeldin işinə yenidən baxılması məqsədi ilə ərizə ilə müraciət etdim və xahiş edərək bildirdim ki, mümkünsə ona tam bəraət verilməsi məsələsinə baxsınlar.

Növbəti ilin sentyabrında Az.SSR DİN-dən mənə bildirdilər ki, mənim ərizəm Moskvaya göndərildi. Lakin bu günə qədər mənim heç bir məlumatım yoxdur.

Mənim Zifeld ilə 1923-cü ildən həbs olunana qədər yaşadığımı nəzərə alsaq, mən onu təmiz, öz mənfəətini güdməyən, əməksevər, Sovet hökumətinə sadiq kommunist kimi tanıyırdım. Sizdən xahiş edirəm ki, onun tam bəraət qazanmasında mənə kömək edəsiniz. Bakı şəhəri. 7 dekabr 1955-ci il[143].

***

Bu müraciətdən sonra Zaqafqaziya hərbi dairəsinin prokurorunun xüsusi işlər üzrə köməkçisi, ədliyyə kapitanı Qarayev 22 iyun 1956-cı ildə Zifeld Artur Rudolfoviçin cinayət işinə baxaraq Qərara almışdır ki, SSRİ XDİK-in Xüsusi Müşavirəsinin hazırkı qərarı ləğv olunsun, cinayət işi isə aşağıdakı səbəblərdən bağlansın:

Ilkin sorğu da Zifeld günahı boynuna almır və heç bir antisovet təşkilatda üzv olmadığını söyləyir.

Həbs üçün səbəb digər cinayət işi üzrə həbs olunmuş, keçmiş müəllimlər Qubaydullin, Xocayev, Çobanzadə, Bağırov, Mahmudzadənin verdiyi ilkin ifadələrdə guya Zifeldin antisovet pantürkist təşkilatına üzv olduğunu söyləmələri olmuşdur.

Bundan əlavə, sorğuya çəkilmiş Kozin, Tevosov, Klimov onu pis tərəfdən xarakterizə ediblər.

Əlavə istintaqla müəyyənləşdirilmişdir ki, yuxarıda adı çəkilən şəxslərin ifadəsi həqiqətə uyğun deyildi.

[143]DTX-nin arxivi. Artur Zifeld Rudolfoviçin istintaq qovluğu, PR - №22326.

Yenidən dindirilən, Zifeldi uzun müddət tanıyan Az.SSR Elmlər Akademiyasının Kimya İnstitutunun Direktor müavini Tevosov və Az.SSR Elmlər Akademiyasının Nizami muzeyinin direktor müavini Kozin onun haqqında müsbət rəy verərək onu böyük sovet alimi adlandırmışlar.

Yuxarıda sadalananları nəzərə alsaq və Az.SSR CM 430-cu maddəsinə əsaslansaq

Hesab edərəm ki,

Cari iş daxil olan materiallarla birlikdə SSRİ XDİK-in Xüsusi Müşavirəsinin Zifeldlə bağlı 21 iyun 1939-cu ildə çıxardığı hökmünün ləğv olunması məqsədi ilə Az.SSR Prokuroruna təqdim edilsin.

Zaqafqaziya hərbi dairəsinin prokurorunun xüsusi işlər üzrə köməkçisi ədliyyə kapitanı Qarayev. Razıyam. Zaqafqaziya hərbi dairəsinin prokurorunun xüsusi işlər üzrə köməkçisi, ədliyyə polkovnik-leytenantı Çesnokov.

27 iyun 1956-cı ildə Azərbaycan SSR Prokurorunun müavini, Dövlət III dərəcəli Ədliyyə Məsləhətçisi Babayev Azərbaycan SSR Ali Məhkəməsinə müraciətlə Zifeldin işinə xitam verilməsini xahiş edirdi.

Uzun uzadı yazışmalardan sonra Artur Zifeld 5 iyul 1956-cı ildə bəraət aldı və işinə xitam verildi.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN TƏLƏBƏ NÜMAYƏNDƏSİ TAĞIZADƏ ABDULLA MƏMMƏD OĞLU

"Qədim türk dilləri və yazılı abidələrinin öyrənilməsi üsulu və yolları", "Dil haqqında elmin inkişaf tarixi", "Azərbaycan dili və şivələrinin izahlı lüğəti", eləcə də Xalid Səid Xocayevlə birgə yazdığı "Müxtəsər üslubiyyat"ı və onlarca başqa əsərləri ilə dilçilik elmimizi zənginləşdirən Abdulla Tağızadə 1897-ci il martın 17-də (istintaq qovluğunda onun doğum tarixi gah 1897, gah da 1898-ci il göstərilmişdir – C.Q.) Gəncə şəhərində anadan olmuşdur.

İbtidai məktəbi başa vurduqdan sonra Gəncə gimnaziyasına daxil olan Abdulla Tağızadə 1916-cı ildə gimnaziyanı uğurla başa vurub Moskva Universitetinin hüquq fakültəsinə daxil olur. Lakin Rusiyanın ictimai-siyasi mühitində yaranmış gərginlik ona təhsilini başa çatdırmağa imkan vermir. Ona görə də, Abdulla Tağızadə təhsilini yarımçıq qoyub Gəncəyə qayıdır.

Təhsilini davam etdirməkdə iddialı olan Abdulla 1919-cu ildə Cümhuriyyət dövründə əasası qoyulan Bakı Dövlət Universitetinin tarix fakültəsinə daxil olur. Universitetdə oxumaqla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin Maarif Nazirliyi yanında yaradılan əlifba komissiyasında fəaliyyət göstərməyə başlayır.

1922-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığının Məktəbdənkənar İdarəsində işə girən Abdulla Tağızadə qısa bir zamanda Məktəbdənkənar Tərbiyə İdarəsinin müdir müavini vəzifəsinə irəli çəkilir.

1922-ci ildə Fərhad Ağazadənin rəhbərliyi altında fəaliyyətə başlayan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Yeni Əlifba Komitəsinə Abdulla Tağızadə də dəvət alır. İşgüzarlığı və tələbkarlığı ilə seçilən A.Tağızadə yeri gələndə Fərhad Ağazadəni də əvəz edir.

Maarif Komissarlığının təşəbbüsü ilə Abdulla Tağızadə təhsilini artırmaq üçün 1924-cü ildə Leninqrad şəhərindəki Şərq Dilləri İnstitutuna oxumağa göndərilir. O, Leninqrad Dövlət Universitetinin dil və mədəniyyət fakültəsinin ikinci kursunun tələbəsi kimi 1926-cı ildə Bakıda kecirilən Birinci Türkoloji Qurultaya dəvət alır. Abdulla Tağızadə 1928-ci ildə Azərbaycana gəlir və burada Ümumittifaq Yeni Əlifba Komitəsinin "Kultura i pismennos Vostoka" toplusunda məsul katib kimi fəaliyyətə başlayır. Eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olaraq Azərbaycan Elmi Tədqiqat İnstitutunda "Qədim Türk dillərinin yazılı abidələri" və "Türk dillərinin qrammatikası" fənlərini tədris edir.

Abdulla Tağızadə Azərbaycan Elmi-Tədqiqat İnstitunda dil-ədəbiyyat və sənət şöbəsində elmi işçi, sonra isə dilçilik və terminologiya şöbə-

sinin müdiri işləyir, “Türk-tatar dillərinin tarixi sərfi-nəhvi” kitabını nəşr etdirir.

Qabaqcıl bir pedaqoq kimi müəllimliklə yanaşı, türkologiyanın tarixi və müasir problemləri ilə də məşğul olan, latın əlifbasının türkdilli xalqların həyatındakı əhəmiyyətini yüksək qiymətləndirən, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin idarə heyətinin və elmi şurasının, tələbə ikən Birinci Türkoloji Qurultayın fəal üzvü olan, 1928-1929-cu illərdə



Ali Pedaqoji İnstitutda qədim türk dilləri - orxon və uyğur dilləri, türk dillərinin tarixi qrammatikası haqqında məruzələr oxuyan, “Dil haqqında elmin inkişaf tarixi” kursunu təşkil edən, gənc nəslə “Qədim türk dilləri”nin sirlərini öyrədən, 1929-cu ilin oktyabrında Azərbaycan Elmi Tədqiqat İnstitutunun nəzdində dil-ədəbiyyat və sənət şöbəsini təşkil edən bir insan təhlükəsizlik orqanlarının diqqətindən kənarda qala bilməzdi. Bir sözlə, ictimai həyatda nüfuzu və mövqeyi olan hər kəs kimi onu da şübhəli şəxs qismində müttəhimlər kürsüsündə əyləşdirməli idilər və buna nail oldular da.

XDİK-in 4-cü bölməsinin rəisi baş leytenant Xoren Qriqoryan 17 mart 1937-ci ildə Tağızadə Abdulla Məmməd oğlu barədə arayış tərtib edir. Arayışda göstərilir ki, 1898-ci il təvəllüdlü, azərbaycanlı, SSRİ vətəndaşı, Elmlər Akademiyasının Azərbaycan Filialında elmi mütəxəssis, APİ-nin kafedra müdiri, bitərəf, 1918-ci ildə bir il 2 ay müddətinə müsəlman ordusunda sıravi əsgər olan, Tağızadə 12493 nömrəli istintaq işində təqsirləndirilənlərin (Çiçkalov, V.Xuluflu, Ə.Kərimov, B.Çobanzadə nəzərdə tutulur – C.Q.) ifadələrindən müəyyən edilmişdir ki, Tağızadə Abdulla Məmməd oğlu Bakı şəhərində fəaliyyət göstərən əksinqilabi millətçi təşkilatın üzvüdür. Bunu nəzərə alaraq Tağızadənin Azərbaycan SSR cinayət məcəlləsinin 72 və 73-cü maddələrinə uyğun təqsirləndirərək məsuliyyətə cəlb edilməsini zəruri hesab edirik.

18 mart 1937-ci il tarixdə 219 nömrəli orderə əsasən Tağızadə Abdulla Məmməd oğlunun Bakı şəhəri, Kolodeznaya küçəsində yerləşən 4 nömrəli mənzilində axtarış aparılır və mənzildən aşağıdakılar götürülərək müsadirə edilir:

1. Pasport № 054656
2. Həmkarlar təşkilatının üzvlük vəsiqəsi № 191349
3. Hərbi bilet
4. Müxtəlif şəxsi sənədlər
5. Fotokartlar və müxtəlif yazışmalar
6. 16 kitab

7. 2 kiçik qeydiyyat kitabçası
8. Məqalələr və əlyazmalar

Yeri gəlmişkən qeyd etməliyik ki, axtarış və müsadirə zamanı mövcud əsasnamənin tələbləri pozulmuş, axtarış və siyahıya alma prosesində qonşuların və mənzil istismar idarəsinin əməkdaşlarının iştirakı təmin edilməmişdir. Bundan başqa, əşyaların adlı siyahısı da tutulmamışdır ki, bu da ciddi qanun pozuntusu idi.

Məhbusun anketi

Tağızadə Abdulla Məmməd oğlu 1897-ci ildə Kirovabad şəhərində anadan olmuşdur.

Bakı şəhəri, Kolodeznaya küçəsi, bina 19, mənzil 4 ünvanında yaşayır.

APİ-nin elmi işçisidir. Elmlər Akademiyasının Azərbaycan Filialında və APİ-nin dillər kafedrasının müdiri vəzifəsində işləyir.

Sosial mənşəyi qulluqçudur.

Atası xırda sənətkar olub, tək yaşayıb.

İnqilaba qədər valideynlərinin himayəsində olub və təhsil alıb.

Ali təhsillidir.

Partiyanın üzvü deyil.

SSRİ vətəndaşıdır.

Bakı şəhərində Elmlər Akademiyasının Azərbaycan Filialında qeydiyyatdadır.

Ağqvardiyaçı deyil.

Repressiyaya məruz qalmayıb.

Anası Zəhra - 68 yaşında.

Bacısı Yaqut - 32 yaşında.

Qardaşı Mirzə - 48 yaşında.

18 mart 1937-ci ildə 4-cü bölmə tərəfindən həbs edilib və XDİK-nın həbsxanasında saxlanılır[144].

Müstəntiq Xoren Qriqoryanla müttəhim Tağızadə Abdulla Məmməd oğlunun 20 mart 1937-ci ildəki ilk dindirmə zamanı qarşılıqlı, lakin qeyri-səmimi dialoqları baş tutur. Biz ona görə qeyri-səmimi ifadəsini işlədirik ki, alimlə cahil, kamillə nadan, ziyalı ilə qəssabın məhbəsdə qarşılaşmasında səmimiyyət axtarmaq olmaz. Daha dözülməzi odur ki, alimi, ziyalını – Abdulla Tağızadəni nadan, qəssab Xoren Qriqoryan Vətənə xəyanətdə, xalqına qarşı çıxmaqda ittiham edirdi. Lakin Tarixi təcrübə təsdiqlədi ki, ziyalı və inkvizsiya qarşıdurması xeyirlə şərin mübarizəsi kimi sonda xeyirin, işığın şərə, qaranlığa qələbəsi ilə nəticələnir. Daha doğrusu, İblis – imperiya və onun nökərləri Qriqoryanlar dərk olunduqca kənara itələnir və rədd edilir. Mütəfəkkir, alim və ziyalı dərk ediləndə isə bütün ideyaları və təfəkkür tərzi ilə birlikdə qəbul olunur.

[144]DTX-nin arxivi. Tağızadə Abdulla Məmməd oğlunun istintaq qovluğu, PR-№28388.

Nə isə, mətləbi uzatmadan Xoren Qriqoryanın Novruz bayramındakı - 20 mart 1937-ci ildəki dindirmə protokoluna qayıdaq.

Sual: Əksinqilabçı millətçilərdən kimləri tanıyırsınız?

Cavab: Şəxsən mən heç bir əksinqilabçı millətçi tanımıram. Yalnız mətbuatda açıqlananları tanıyıram.

Sual: Sizin şəxsən tanıdığınız əksinqilabçılar barədə soruşuram.

Cavab: Mən şəxsən heç kimi tanımıram.

Sual: Suallara səmimi cavab verin.

Cavab: Mən səmimiyəm.

Sual: Siz səmimi deyilsiniz. Bizə məlumdur ki, siz bir çox əksinqilabçılarla əlaqəli olmusuz. Sizdən düzgün ifadə verməyi tələb edirəm.

Cavab: Təkrar edirəm ki, mən şəxsən heç bir əksinqilabçı tanımıram.

Sual: Bir çox müttəhimlərin ifadələri ilə siz aşkara çıxarılmısınız. İstintaqa yaxşı məlumdur ki, siz bir çox əksinqilabçıları tanımırsınız və həbs olunan günə qədər özünüz də əksinqilabçı mövqedə dayanmısınız. Tərslik etməyin, düzgün ifadə verin.

Cavab: Mən şəxsən heç bir əksinqilabçı tanımıram və özüm də əksinqilabçı olmamışam. Düzdür, 1921-ci ilə qədər millətçi fikirlərim olub, amma 1921-ci ildən sonra millətçi olmamışam.

Öz ifadələrimi oxudum, mənim sözlərimə əsasən düzgün tərtib edilib. İmza[145].

Müşahidələrimiz və apardığımız araşdırmalar deməyə əsas verir ki, Novruz bayramında və bayram ərəfəsi dindirmələr digər vaxtlarla müqayisədə daha çoxluq təşkil edirdi. Fikrimizcə, bunlar heç də əsassız deyildi. Ermənilər belə təbliğat aparırdılar ki, guya türklər Novruz bayramında erməni qanı içirlər. Burada Şeyx Şamil yada düşür. Şeyx Şamil Nikolayla danışarkən əsnəyir. Bu zaman Nikolay dilmancına deyir: "Şamilə de ki, yavaş olsun, birdən bizi udar". Şeyx Şamil isə təmkinini pozmadan cavab verir: "Nikolaya de ki, Şamil müsəlmandı və müsəlmanlar donuz əti yemir". Qriqoryanlar da bilməlidirlər ki, türklər müsəlmandı və onlar donuzdan da pis olan erməni qanı içməz. Məsələlərə bir qədər diqqətlə fikir versək görərik ki, Markaryanlar və Qriqoryanlar türkləri ittiham edərkən irəli sürdükləri ittihamların arxasında bir həqiqət dayanırdı, tarixi qisasçılıq hissi. Elə Qriqoryanın 1956-cı ildə Mircəfər Bağırovun məhkəməsində səsləndirilən məşhur məktubu da dediklərimizin təsdiqidir.

22 mart 1937-ci il dindirməsi zamanı Qriqoryanı A.Tağızadənin ünsiyyətdə olduğu əhatəsi düşündürür. O, sual verərkən taktikanı dəyişir. Əgər birinci dindirmədə sual "Əksinqilabçı millətçilərdən kimləri tanıyırsız?" formatında qoyulurdusa, ikinci dindirmədə suallar bir qədər dip-

[145]DTX-nin arxivi. Tağızadə Abdulla Məmməd oğlunun istintaq qovluğu, PR-№28388.

lomatik (Siz dostluq etdiyiniz və yaxın olduğunuz şəxsləri sadalayın) şəkildə qoyulur. Abdulla Tağızadə üçün təkcə bir dilçi kimi deyil, həm də bir insan kimi "əksinqilabçı", "dost", "yaxın" ayrı-ayrı anlayışlar olsa da, Qriqoryan üçün bu anlayışların heç bir fərqi yoxdur. Əziz oxuculara tam aydın olsun deyə həmin dindirmə protokoluna müraciət edək:

Sual: Siz dostluq etdiyiniz və yaxın olduğunuz şəxsləri sadalayın.

Cavab: Mənim yaxınlıq etdiyim şəxslər aşağıdakılardır:

1. Ter-Matevolski Aleksandr – APİ-nin müəllimi, dilçi
2. Həsənov İdris – APİ-nin müəllimi, dilçi
3. Zifeld Artur Rudolfoviç – professor
4. Şaumyan R. – elmi işçi, dilçi, hazırda Leninqrad şəhərindədir

Adını sadaladığım şəxslərdən başqa heç kimlə dostluq etməmişəm.

Sual: 20 mart tarixində keçirilən dindirmə zamanı istintaqın israrla tələb etməsinə baxmayaraq sizə məlum olan əksinqilabçılardan heç birinin adını çəkməmisiz. Bəs indi onların adlarını sadalaya bilərsiz?

Cavab: Mən şəxsən heç bir əksinqilabçı tanımıram.

Sual: Siz qəti şəkildə bunu təsdiq edirsiz?

Cavab: Bəli, mən qəti şəkildə təsdiq edirəm.

Sual: Vəli Xuluflu sizə əksinqilabçı kimi məlumdur, niyə qeyri-səmimi ifadə verirsiz.

Cavab: Bəzi orfoqrafiya və terminologiya məsələlərində Vəli Xuluflu mənə əksinqilabçı millətçi kimi məlumdur.

Sual: Əksinqilabçı millətçilərdən başqa kimləri tanıyırsız?

Cavab: Əksinqilabçılardan aşağıdakı şəxsləri tanıyıram:

1. Xocayev Xalid Said – Elmlər Akademiyasının elmi işçisi
2. Çobanzadə Bəkir – professor, hazırda həbsdədir.
3. Zeynallı Hənəfi – Elmlər Akademiyasının elmi işçisi
4. Əli Nazim – Elmlər Akademiyasının elmi işçisi

Sual: İfadənizi davam etdirin. Başqa kimləri tanıyırsız?

Cavab: Həmçinin Əmin Abidi – Elmlər Akademiyasının elmi işçisini tanıyıram. Bunlardan başqa əksinqilabçı millətçiləri tanımıram.

Sual: Siz özünüzə məlum olan əksinqilabçıların hamısını sadalamadınız. İstintaqa məlumdur ki, siz daha çoxlarını tanıyırsız. Sizə məsləhət bilirəm ki, hamısının adını çəkəsiz.

Cavab: Bəli, mən özümə məlum olan əksinqilabçı millətçilərin hamısının adını çəkməmişəm. Belə ki, Axundov Cavad həmçinin əksinqilabçı millətçidir. Başqa əksinqilabçı millətçiləri tanımıram.

Sual: Bəs sizə əksinqilabçı kimi məlum olan Hüseyn Cavidin adını niyə çəkmirsiz və onu istintaqdan gizlədirsiz.

Cavab: Bəli, tamamilə düz deyirsiz. Mən Hüseyn Cavid barədə deməyi unutmuşam. Hüseyn Cavid mənə əksinqilabçı millətçi kimi məlumdur.

Sual: Siz daha kimləri unutmusuz?

Cavab: Mən Sanılı Hacı Kərimin adını çəkməyi unutmuşam. O, da mənə əksinqilabçı millətçi kimi məlumdur.

Sual: Siz başqa kimləri unutmusuz?

Cavab: Mən başqa heç bir əksinqilabçı millətçiləri tanımıram.

Sual: İstintaq bu suala daha sonra qayıdacaq. İstintaqa məlumdur ki, siz həbs edilənə qədər əksinqilabçı mövqedə dayanmısız və Sovet hakimiyyətinə qarşı mübarizə aparmısız. Bunu boynunuza alırsız?

Cavab: Mən 1921-1922-ci illərə qədər əksinqilabçı millətçi mövqedə dayandığımı boynuma alıram. 1922-ci ildən sonra 1936-cı ilə qədər mənim ideoloji cəbhədə millətçi səhvlərim olub və özümü günahkar sayıram. İfadəmi oxudum və imzalayıram. İmza.

Göründüyü kimi, istintaq prosesində onun tanıdıqlarının və tanımadıqlarının hamısı sonda əksinqilabçı kimi protokollaşdı. Bir maraqlı məqama da diqqət yetirək. Qriqoryan A.Tağızadəni ittiham edərək tez-tez nəzərinə çatdırır ki, "İstintaqa məlumdur ki, siz daha çoxlarını (əksinqilabçı nəzərdə tutulur – C.Q.) tanıyırsız". Bəli, istintaqa hər şey məlum idi. Çünki, istintaqın qarşısında Abdulla Tağızadənin günahlarını və ya cinayətini araşdırıb üzə çıxarmaq vəzifəsi qoyulmamışdı. Daha doğrusu, keçən əsrin 30-cu illərində qarşıya qoyulmuş məqsəd məhbusun cinayətlərini hüququ əsaslarla üzə çıxarmaq yox, əksinə onu cinayətkara çevirmək idi. Ona görə də, bu istintaqlardan yalnız onlara məxsus sovet humanizmi gözləmək olardı. Aydınlıq üçün deməliyik ki, dindirmə zamanı verilmiş "filankəsi və ya filan əksinqilabçını tanıyırsınızmı" sualı heç də adi sual deyildi, bu adı çəkilən şəxsin növbəti məhbusa və ya yeni mühakimə obyektinə çevrilməsi üçün atılan addım idi. Ona görə də bu sual hamıya verilirdi. NKVD müstəntiqləri hesab edirdi ki, "filankəs deyir sən cinayətkarsan, deməli cinayətkarsan" formulu ən doğru formuldu. Bu səbəbdən də, 30-cu illərin repressiyaları total və kütləvi xarakter daşıyırdı.

Tədqiqatlar göstərir ki, istintaq əvvəlcədən hazırlanmış vahid ssenari əsasında aparılır və həmin ssenari bütün mühakimə olunanlara tətbiq edilirdi. Ən çox tətbiq olunan isə saxtalaşdırılmış ifadələrlə müttəhimləri üz-üzə qoymaq metodu idi. Bu metod iki yolla həyata keçirilirdi. Birincisi, müstəntiqlər istədiklərinə nail ola bilmədikdə digər müttəhimin ifadəsi ilə dindirdiyi şəxsi ittiham edirdi. İkincisi, müttəhimlərin üzləşdirilməsi metodu idi. Hər iki metodda məqsəd dindiriləni ifşa etməyə xidmət edirdi. Ümumiyyətlə demokratik rejimlərdə və dövlətlərdə mühakimə tərbiyə etməyə xidmət edirsə, totalitar rejimlərdə məhv etməyə yönəlir. Tərbiyə yox, məhv etmək məqsədə çevriləndə nə yolla olursa olsun onun icrası təmin edilir.

8 mart 1937-ci il dindirməsində Qriqoryan yenidən əvvələ qayıdır və Abdulla Tağızadəni həbs olunan günədək əksinqilabi millətçi təşkilatın üzvü olmaqda ittiham edir və bildirir ki, sizin 22 mart tarixli

dindirmə zamanı verdiyiniz ifadələr səmimi deyil. Siz həbs olunan günədək əksinqilabçı millətçi mövqedə olmusuz. Müqavimət göstərmədən doğru danışmağı təklif edirik. A.Tağızadə isə israrla bəyan edir ki, mən 1922-ci ilədək əksinqilabçı millətçi mövqedə olduğumu təsdiq edirəm. Belə olan təqdirdə Qriqoryan həbsxanada olan müttəhimlərdən fiziki işgəncələr yolu ilə aldığı ifadələrlə onu ifşa etməyə çalışır.

Sual: Siz digər müttəhimlərin ifadələri ilə ifşa olunmusuz. Sizin inkar etməyiniz qeyri-səmimiliyinizin nəticəsidir, etiraf edin ki, Siz həbs edilən günədək əksinqilabçı millətçi mövqedə dayanmısız.

Cavab: İnkar edirəm. Mən yalnız 1922-ci ilədək əksinqilabçı millətçi mövqedə olmuşam.

8 və 31 mart 1937-ci il tarixli dindirmələri zamanı A.Tağızadənin dilini açа bilməyən Qriqoryan Vəli Xuluflunun 25-28 fevral 1937-ci il tarixdə verdiyi ifadədən bəzi parçaları oxumaqla onu səmimi olmağa, əksinqilabi fəaliyyəti barədə istintaqa düzgün məlumat verməyə çağırır. Lakin nə V.Xulufludan, nə Əli Kərimov və nə də B.Çobanzadədən oxunan parçalar Qriqoryanın köməyinə gəlmir. A.Tağızadənin son sözü bu olur: "Mən heç bir əksinqilabi millətçi məzmunlu söhbətlər aparmamışam".

Professor B.Çobanzadə və İsmayıl Hikmətlə Abdulla Tağızadənin münasibətlərinə, nə zaman və harada tanış olmalarına aydınlıq gətirmək istəyən Qriqoryan bu münasibətlərdə də istintaq üçün əhəmiyyətli ola biləcək məlumat əldə edə bilmir. Həm B.Çobanzadə və həm də İsmayıl Hikmətlə 1925, 1926-cı illərdə tanış olan A.Tağızadənin danışıqlarında əksinqilabi və casusluq münasibətlərinin olmadığını öyrənən Qriqoryan dindirməni dayandırır.

4 aprel 1937-ci il dindirməsi bir daha sübut edir ki, B.Çobanzadə, İ.Hikmət, V.Xuluflu, eləcə də Ə.Nazim əksinqilabi söhbətlər aparmamış, onların münasibətləri ədəbiyyat məsələləri, ədəbi mübahisələr üzərində qurulmuşdu.Lakin bizim ədəbi mübahisə adlandırdığımız bu ziyalı söhbətlərinin iç qatında şərləməkdə və ləkələməkdə böyük istedad sahibi olan Qriqoryan əksinqilabi, pantürkist və millətçi notları da görə bilirdi.

Sual: Siz iddia edirsiniz ki, Çobanzadə sizinlə yalnız ədəbiyyat məsələləri ilə bağlı əksinqilabçı pantürkist söhbətlər aparıb.

Cavab: Bəli, mən iddia edirəm ki, Çobanzadə mənimlə yalnız ədəbiyyat məsələləri ilə bağlı əksinqilabçı pantürkist və millətçi söhbətlər aparıb.

Sual: Bu cür əksinqilabçı pantürkist və millətçi xarakterli söhbətlər nə zaman baş tutub?

Cavab: Çobanzadə həbs edilən günədək mənimlə orfoqrafiya və terminologiya məsələlərinin müzakirəsi zamanı əksinqilabçı pantürkist və millətçi söhbətlər aparıb.

Sual: İstintaqa məlumdur ki, siz istər Çobanzadə istərsə də başqaları ilə söhbətlərdə öz əksinqilabçı pantürkist və millətçi fikirlərinizi bildirmisiz. Siz bunu təsdiq edirsiz?

Cavab: Bəli, mən etiraf edirəm ki, dil quruculuğu istiqamətində mənim əksinqilabçı pantürkist və millətçi görüşlərim olub.

Sual: Siz yalan danışırsız. İstintaq sizin həbs edilən günədək əksinqilabçı pantürkist və millətçi mövqedə dayandığınız barədə faktlara malikdir. Siz qəsdən yalan ifadə verirsiz.

Cavab: Mən təkrar edirəm ki, mən həbs edilən günədək dil quruculuğu istiqamətində mənim əksinqilabçı pantürkist və millətçi görüşlərə malik olmuşam[146].

Bu ifadələr, daha doğrusu, A.Tağızadənin işgəncələrə duruş gətirməsi, qeyri-səmimi cavabları Qriqoryanın istədiyinə nail olmaması onları təbdən çıxardı və 5 aprel 1937-ci il tarixdə A.Tağızadə barəsində akt bağladılar. Aktda göstərilirdi ki, biz aşağıda imza edənlər, baş leytenant Qriqoryan və 4-cü idarənin rəis köməkçisi Şer müttəhim Tağızadə Abdulla Məmməd oğlunun iştirakı ilə bu aktı tərtib edirik ona görə ki, müttəhim Tağızadə 4 aprel tarixində istintaq zamanı B.Çobanzadənin onunla əksinqilabi və pantürkist söhbətlər aparması barədə ona verilən suala təsdiq cavabı verməsinə baxmayaraq, 5 aprel tarixli dindirmə zamanı Çobanzadənin onunla bu cür söhbətlər aparmadığını bildirmişdir. Müttəhim Tağızadə istintaq zamanı özünü qeyri-səmimi aparmış və bütün suallara çaşdırıcı cavablar vermişdir. Maraqlıdır ki, müttəhim Tağızadə bu aktı imzalamaqdan imtina etmişdir.

Güman etmək olardı ki, bu aktdan sonra A.Tağızadənin istintaq həyatında yeni bir mərhələ, "etiraf" mərhələsi başlayacaq. Lakin 8 aprel 1937-ci il dindirməsi zamanı da bu baş vermədi. Dindirmə protokoluna müraciət edək:

Sual: Siz Əli Kərimovu əksinqilabi millətçi kimi tanıyırsız, bunu istintaqdan niyə gizlədirsiz?

Cavab: Əli Kərimov əksinqilabi millətçi kimi mənə tanış deyil, amma yeni əlifba komitəsinin Alma-Ata yığıncağında Xuluflu ilə bir yerdə Azərbaycanın nümayəndə heyətinə rəhbərlik etmiş və Azərbaycanın unifikasiya edilmiş əlifba sisteminə keçidin əleyhdarı idi.

Sual: Azərbaycan nümayəndə heyəti onun fikirləri ilə razı idi?

Cavab: Bəli, razı idi.

Sual: Azərbaycan nümayəndə heyətinin tərkibinə kimlər daxil idi?

Cavab: Nümayəndə heyətinə daxil idi: 1) Əli Kərimli, 2) Bəkir Çobanzadə, 3) Vəli Xuluflu və 4) mən - Tağızadə Abdulla.

Sual: Əli Kərimov əksinqilabi göstərişləri kimdən alırdı?

Cavab: Əli Kərimov əksinqilabi göstərişləri Ruhulla Axundovdan alırdı.

[146]DTX-nin arxivi. Tağızadə Abdulla Məmməd oğlunun istintaq qovluğu, PR-№28388.

Sual: Əli Kərimov sizinlə hansı əksinqilabi millətçi söhbətləri aparıb?

Cavab: Əli Kərimov mənimlə əksinqilabi millətçi söhbətlər aparmayıb.

Sual: Siz bunu qəti şəkildə təsdiq edirsiz?

Cavab: Bəli, mən bunu qəti şəkildə təsdiq edirəm, çünki başqa söhbətlər xatırlamıram.

***

21 və 22 aprel 1937-ci il dindirmələrində də əvvəlki kimi yenə də onun əksinqilabi millətçi fəaliyyəti və bunun mahiyyəti barədə danışmaq dindirmənin predmetinin əsasını təşkil edirdi.

Sual: Siz 21 aprel tarixli dindirmənizdə qeyd etmisiz ki, Çobanzadə Bəkir, Xuluflu Vəli, Əli Nazim, Bağırov Qulam, Həsənov İdris və Xocayev Xalid Said 1932 və 1936-cı illərdə söhbətlərində orfoqrafiyanın bəzi məsələlərinə aid əksinqilabçı millətçi görüşlər söyləmiş və bu sahədə əksinqilabçı millətçi mövqedə dayanmışlar. Siz bu ifadənizi təsdiq edirsiz?

Cavab: Bəli təsdiq edirəm. 21 aprel tarixində mən bu ifadələri vermişəm.

Sual: Yuxarıda adı sadalanan şəxslərin əksinqilabçı fəaliyyətləri konkret nədən ibarət idi?

Cavab: 1932-ci ildə orfoqrafiya məslələrinin qarşılıqlı müzakirəsi zamanı bu şəxslər öz əksinqilabçı millətçi mövqelərindən çıxış edərək rus dilində istifadə olunan xarici sözlərin yazılış qaydasına keçidin əleyhinə fikir bildirirdilər. Baxmayaraq ki, bu sözlər artıq azərbaycanlıların dilində istifadə olunurdu. Yuxarıda adları sadalanan şəxslər osmanlı əlifbasına keçməyi təklif edirdilər.

Təəccüb doğuran odur ki, bu gün bizim elmi polimika hesab etdiyimiz bu dialoq, 30-cu illər üçün əksinqilabi millətçi düşüncə kimi dəyərləndirilirdi. Qriqoryan hər vəchlə A.Tağızadəni əksinqilabçı olmasını sübut etməyə çalışır, lakin buna nail ola bilmirdi. O, B.Çobanzadənin ifadəsindən çıxarış etdiyi **"Tağızadə öz əksinqilabçı millətçi görüşlərinə görə müsavatçılara bənzəyirdi. O, hesab edirdi ki, Azərbaycanda ancaq azərbaycanlılar yaşamalıdır və rusları ölkədən çıxarmaq lazımdır, çünki onlar türk xalqının inkişafına mane olurlar. O, mənə dəfələrlə demişdi ki, ruslar türklərə yersizlər kimi baxır və bu mənada imperiyadan heç nə ilə fərqlənmir"**

Eyni zamanda Qubaydullinin "Mən Abdulla Tağızadəni əksinqilabçı millətçi pantürkist təşkilatın üzvü kimi tanıyıram. O, 1928-ci ilin yayında mənim tərəfimdən təşkilata cəlb olunub. Tağızadə buna qədər də məni pantürkist ideoloqu kimi tanıyırdı. Mənimlə söhbətləri zamanı pantürkist fikirlərimlə razılaşdığını və

bütün türk xalqlarını böyük bir dövlətdə birləşdirmək istəyini bildirmişdi" verdiyi ifadəni xatırladır.

12 sentyabr 1937-ci il dindirməsindən gətirilən bu nümunələri də A.Tağızadə inkar edir və deyilənlərin həqiqətə uyğun olmadığını bildirir**. Bundan sonra Qriqoryan B.Çobanzadə ilə A.Tağızadəni üzləşdirmək qərarına gəlir və** 10 oktyabr 1937-ci il tarixdə üzləşmə reallaşır. Üzləşmə zamanı B.Çobanzadə **Abdulla Tağızadənin Azərbaycanda ruslaşdırma siyasətinə etiraz etdiyini, mədəniyyətin inkişafının qəsdən ləngidildiyini deməsini əksinqilabi millətçi pantürkist hərəkət kimi dəyərləndirmişdir. B.Çobanzadə qeyd edirdi ki, son məqsəd Azərbaycanın və digər türk-tatar xalqlarının SSRİ-dən ayrılmasını və vahid müstəqil pantürkist dövləti yaratmaq idi.**

Üzləşmənin ikinci tərəfi kimi məsələyə münasibət bildirən A.Tağızadə ifadəsində göstərirdi ki, Bəkir Çobanzadə düzgün ifadə verirdi. Mən müqavimətdən əl çəkib səmimiyyət yoluna gəlməyə qərar verdim. Mən etiraf edirəm ki, əksinqilabi millətçi pantürkist mövqedə dayanaraq türk-tatar respublikalarının ayrıca dövlət olmasına tərəfdar idim. Əksinqilabçı millətçi pantürkist təşkilatın üzvləri, məqsədləri barədə bilirdim və özüm də onların fəaliyyətində iştirak edirdim. Yuxarıda deyilənlərin hamısı barədə ətraflı və düzgün ifadə verməyə hazıram.

***

Bu üzləşmədən sonra A.Tağızadənin "etiraf" mərhələsi başlayır və o, 15-17 və 18 oktyabr 1937-ci ildə verdiyi ifadələrində "etiraf" edir ki, əksinqilabi millətçi pantürkist təşkilata mən B.Çobanzadənin vasitəsilə tanış olduğum Əziz Qubaydullin tərəfindən 1929-cu ildə cəlb edilmişəm.

19 oktyabr 1937-ci il dindirməsi bu etirafların ümumiləşdirilmiş variantı olduğundan həmin dindirməni oxuculara təqdim edirik.

Sual: Sizin işinizin istintaqının bitməsi barədə protokol təqdim edilir. Əlavə etmək istədiyiniz varmı?

Cavab: İstintaqa demək istəyirəm ki, ifadələrimin hamısını təkrar təsdiq etmək istəyirəm.

Mən bir daha etiraf edirəm ki, 1929-cu ildə Qubaydullin Əziz tərəfindən əksinqilabçı millətçi pantürkist təşkilata cəlb edilmişəm. Mən əksinqilabi millətçi pantürkist təşkilatın sıralarında olarkən onun fəaliyyətində iştirak etmişəm və mədəni-maarifçi sahədə əksinqilabçı iş aparmışam.

Mən bir daha etiraf edirəm ki, mənim praktiki fəaliyyətim pedaqoji və elmi tədqiqat sahəsində əksinqilabçı millətçi pantürkist ideyaların yayılmasından ibarət olub.

Mən bir daha etiraf edirəm ki, Çobanzadə Bəkir və Qubaydullin Əzizin sözlərindən digər türk-tatar dövlətlərində də əksinqilabçı fəaliyyətin həyata keçirildiyi məlum olmuşdur.

Mən bir daha etiraf edirəm ki, əksinqilabçı millətçi pantürkist təşkilatın üzvü kimi türk-tatar xalqlarının SSRİ-dən silahlı qiyam və terror yolu ilə ayrılmasının tərəfdarı olmuşam.

Mənə elan olunan bütün ittihamlarda özümü günahkar bilirəm.

Mən bir daha istintaqa bəyan etmək istəyirəm ki, mən tamamilə ifşa olundum və səmimi və düzgün ifadələr verdim. İstintaqa mənə məlum olan bütün faktları etiraf etdim[147].

***

Beləliklə, A.Tağızadənin etiraf etməsinə nail olan Qriqoryan bir azərbaycanlının da ölüm fitvasını vermək səlahiyyətini əldə etmiş oldu. 22 oktyabr 1937-ci ildə Tağızadə Abdulla Məmməd oğlu barədə ittiham aktı tərtib edilir. Az.SSR CM-nin 64, 70 və 73-cü maddələrində təqsirli bilinən Tağızadə Abdulla Məmməd oğlu aşağıdakılarda ittiham olunurdu:

1. 1929-cu ildə Azərbaycanda fəaliyyət göstərən əksinqilabçı millətçi pantürkist təşkilata cəlb edilmiş və həbs edilənədək təşkilatın üzvü olmuşdur.

2. Bu əksinqilabçı millətçi pantürkist təşkilatın işində fəal iştirak edərək dilçi mütəxəssis kimi öz elmi-tədqiqat istiqaməti üzrə ziyanvericilik fəaliyyəti həyata keçirmişdir.

3. Öz pedaqoji fəaliyyəti zamanı mühazirələrində əksinqilabçı millətçi pantürkist fikirlərini səsləndirməklə əksinqilabçı iş aparmışdır.

4. Silahlı qiyamın hazırlanması və partiya və hökumətin vəzifəli şəxslərinə qarşı teraktların törədilməsi yolu ilə milli dövlətlərin SSRİ-dən ayrılması və vahid pantürkist dövlətin yaradılması mövqeyində dayanmışdır.

1 dekabr 1934-cü il qanununa əsasən cari istintaq işi SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilir. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 1 yanvar 1938-ci il tarixli hazırlıq iclası qərara alır ki, işə qapalı iclasda, şahidlərin, ittihamçı və müdafiə tərəfinin iştirakı olmadan baxılsın. Müttəhim barədə həbs qəti imkan tədbiri saxlanılsın.

2 yanvar 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının səyyar sessiyasının qapalı məhkəmə iclası saat 20:20-də öz işinə başlayır və saat 20:40-da belə bir hökm çıxarır.

[147]DTX-nin arxivi. Tağızadə Abdulla Məmməd oğlunun istintaq qovluğu, PR-№28388.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının səyyar sessiyasının Sovet Sosialist Respublikaları İttifaqı adından

HÖKM

TağızadəAbdulla Məmməd oğlu Az.SSR CM-nin 64, 70 və 73-cü maddələrində nəzərdə tutulmuş cinayətlərin törədilməsində təqsirli bilinsin və ən ağır cəzaya – əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edilsin.

Hökm qətidir və 1 dekabr 1934-cü il qərarına əsasən dərhal icra olunmalıdır[148].

Hökm elə həmin gün - 2 yanvar 1938-ci ildə Bakı şəhərində icra edilir.

***

Keçən əsrin 50-ci illərində repressiya qurbanlarının və onların ailə üzvlərinin işlərinə yenidən baxıldı. Bu zaman A.Tağızadənin bacısı Cəfərzadə Yaqut Məmmədtağı qızı 10 noyabr 1956-cı ildə DTK-nın sədri İ.A.Serova ərizə ilə müraciət edərək bildirirdi ki, mənim qardaşım, Tağızadə Abdulla Məmmədtağı oğlu (1897-ci il təvəllüdlü), Elmlər Akademiyasının Azərbaycan Filialında Azərbaycan dili və ədəbiyyatı üzrə dosent idi. O, mənə məlum olmayan səbəblərdən 18 mart 1937-ci ildə Bakı şəhəri, Kolodeznaya küçəsi, ev 19-da həbs edilmişdir. Mən əminəm ki, qardaşım düzgün adamdı və buna görə də onun işinə yenidən baxılması və taleyi barədə məlumat verməyinizi Sizdən xahiş edirəm.

Bu ərizədən sonra A.Tağızadənin işinə yenidən baxıldı və 6 iyun 1957-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası RSFSR CPM-in 378-ci maddəsinə əsasən qərara alır ki, 2 yanvar 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən Az.SSR CM-in 64, 70 və 73-cü maddələrinə əsasən ittiham edilərək əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edilmiş Tağızadə Abdulla Məmməd oğlu 1929-cu ildən etibarən burjua millətçi təşkilatın üzvü olmaqda və pedaqoji fəaliyyətində və dilçilik sahəsində, eləcə də elmi tədqiqatlarında burjua millətçi ideyaları təbliğ etməkdə təqsirli bilinib.

Bu ittihamnamə Tağızadənin özünün, eləcə də Çiçikalov, Çobanzadə, Zeynallı, Xuluflu, Kərimov, Qubaydullin və Mahmudzadənin ifadələrinə əsaslanmışdır.

[148]DTX-nin arxivi. Tağızadə Abdulla Məmməd oğlunun istintaq qovluğu, PR-№28388.

Tağızadənin ittiham olunması aşağıdakı səbəblərdən düzgün sayılmır:

Tağızadəni antisovet təşkilata cəlb edən şəxslərdən Çiçikalov və Xuluflu reablitasiya olunub. Qubaydullin, Çobanzadə və Kərimovun işləri isə cinayət tərkibinin olmaması səbəbindən bağlanılması üçün SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilmişdir.

1956-57-ci illərdə dindirilmiş şahidlər Pirumov, Drabkina, Valuyev, Məmmədov qeyd etmişlər ki, 1937-38-ci illərdə həbs edilmiş elmi işçilərə Az.XDİK əməkdaşları tərəfindən görünməmiş işgəncələr tətbiq edilmiş və onların əksinqilabi fəaliyyətlə məşğul olduqlarını etiraf etdirməyə nail olmuşlar.

Yuxarıda deyilənləri nəzərə alaraq və RSFSR CPM-in 378-ci maddəsinə əsaslanaraq:

A.M.Tağızadə barədə hökmün ləğvi və RSFSR CPM-in 4-cü maddəsinə əsasən onun işini bağlamaq məqsədilə cari işi əlavə təhqiqat materialları ilə birlikdə baxılması üçün SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərmək zəruridir.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 19 noyabr 1957-ci ildə onun işinə yenidən baxır və qərara olur ki, SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Tağızadə Abdulla Məmməd oğlu barədə 2 yanvar 1938-ci il tarixli qərarı ləğv edilsin və RSFSR CPM-in 5-ci maddəsinə əsasən, yəni cinayət tərkibi olmadığına görə bağlansın. Beləliklə gec də olsa o, reablitasiya olunur.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN KATİBİNİN QƏTLİ

“...Məlumdur ki, bütün burjua kəşfiyyatları sosialist proletariatının nümayəndələrinə qarşı fiziki təzyiqin ən iyrənc üsullarından istifadə edirlər. Sual olunur, nəyə görə sosialist kəşfiyyatı burjuaziyanın agentlərinə, fəhlə və kəndli sinfinin mənfur düşmənlərinə münasibətdə daha humanist olmalıdır? ÜK(b)P MK belə hesab edir ki, hələ tam tərksilah edilməmiş xalq düşmənlərinə qarşı fiziki təzyiq üsulu tamamilə doğru və məqsədəuyğun metod kimi tətbiq edilə bilər”.

İ.V.STALİN

Qasımov Pənah Ələkbər oğlu 1881-ci ildə[149] Füzuli rayonunun Qarğabazar kəndində anadan olmuş, ibtidai təhsilini başa vurduqdan sonra 1901-ci ildə Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinə daxil olmuşdur. 1905-ci ildə Qori müəllimlər seminariyasını bitirən Pənah Qasımov Tiflis Aleksandr Müəllimlər İnstitutuna daxil olur və 1907-ci ildə təhsilini başa vurur. Pedaqoji təhsil alan P.Qasımov gənc nəsli maarifləndirmək məqsədi ilə Lənkəranda fəaliyyətə başlayır. İki il Lənkəranda məktəbdarlıqla məşğul olan P.Qasımov Bakıya qayıdır və “Rus-tatar” məktəbində müəllim işləməklə yanaşı, ana dilli məktəblərin açılmasına xüsusi önəm verir. Ümumiyyətlə, Azərbaycanda pedaqoji təhsilin təşkilində onun mühüm xidmətləri vardır. Belə ki, o, 1921-28-ci illərdə Darülmüəlliminin, 1929-cu ildən Ali Pedaqoji İnstitutun və Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun (həbs olunana qədər - C.Q.) direktoru işləmişdir.

P.Qasımov Azərbaycan SSR Maarif İşçiləri Həmkarlar İttifaqının ilk sədri olduğu kimi, "Maarif işçisi" jurnalının da ilk redaktoru olmuşdur. “P.Qasımovun redaksiyadakı ən böyük xidmətlərindən biri jurnala partiya istiqaməti verməsi, onun ətrafına görkəmli partiya və dövlət xadimlərindən S.Ağamalıoğlunu, Ə.Qarayevi, R.Axundovu, M.Quliyevi, mütərəqqi şair və yazıçılardan M.S.Ordubadini, A.Şaiqi, H.Cavidi, P.Əfəndiyevi, S.S.Axundovu, C.Məmmədquluzadəni, Q.Rəşadı, F.Ağazadəni cəlb etməsi idi”[150].

[149] Qeyd: Onun doğum tarixi bəzi mənbələrdə 1883-cü il göstərilir.
[150] F.Ə.Seyidov. Qori seminariyası və onun məzunları, Bakı, 1988, s. 262.

Azərbaycanın sovetləşdirilməsi istiqamətindəki fəaliyyətini, marksist-leninçi təlimi mənimsəməsini və Sovet hökumətinin ideyalarına sədaqətini nəzərə alan bolşeviklər onu 1920-ci ildə öz sıralarına daxil edərək Kommunist Partiyasının üzvünə çevirdilər. Azərbaycan KP MK bürosunun 1922-ci il 17 dekabr tarixli iclasında S.M.Kirovun təklifi ilə bir çoxları kimi Pənah Qasımov da mədəni inqilabı həyata keçirən qərargahın üzvü seçilir. Bu qərargah qısa müddətdə böyük bir təşkilata çevrilir. Vaxtı keçmiş, köhnə, çürümüş adət və ənənələrə qarşı mübarizənin böyük rolunu görən P.Qasımov yazırdı ki, Sovet hakimiyyəti çar sistemini birdəfəlik süpürüb atdığı kimi, mədəni inqilabda siğə, çadra, cadu, falçı, qız alıb-satmaq, çoxarvadlılıq və s. köhnə adətləri sel kimi yuyub, aparacaqdır. O, inanırdı ki, mədəni inqilab Azərbaycan xalqını başdan-başa savadlılar ölkəsinə çevirib, Şərqə nümunə edəcəkdir. Bu ideyalarla yaşayan və maarifçilik hərəkatının öncüllərindən olan P.Qasımov Birinci Türkoloji Qurultaya da bu amalla – xalqı maarifləndirmək, onu işıqlı gələcəyə aparmaq amalı ilə qatılmışdı. Birinci Türkoloji Qurultayın 5 katibindən biri olan Pənah Qasımovu da totalitar rejimin hüquq mühafizə orqanları 1937-ci ilin repressiya qatarına əyləşdirə bildilər. O, bu qatarda qurultaydakı kimi 5 katibdən biri deyil, "xalq düşməni", "vətən xaini" yarlığı ilə repressiyalara məruz qalan milyonlardan biri idi.

1930-cu illərdən şübhəli şəxs kimi nəzarətə götürülən Pənah Qasımov barəsində aşağıdakı məzmunda bir qərar qəbul edildi. Qərarda göstərilirdi ki, Pənah Qasımov, Əlisəbri Qasımov, Rüstəmbəy Sultanov, Nurməmməd Şahsuvarov, Fətullabəy Rzabəyli, Əşrəf Hacıyev və Ələkbər Mahmudovun əməllərində cinayət tərkibi olduğuna görə Bakı qarnizonunun hərbi tribunalına göndərilsin.

Atakişiyevin təsdiq etdiyi bu qərara uyğun olaraq 14 iyul 1937-ci ildə Azərbaycan XDİK Dövlət Təhlükəsizliyi İdarəsinin 4-cü şöbəsinin rəisi Tsinman 14 iyul 1937-ci ildə 4-cü şöbənin 4-cü bölməsinin rəisi Dövlət Təhlükəsizliyi baş leytanantı Qriqoryanın Qasımov Pənah Ələkbər oğlu haqqında hazırladığı arayışı təsdiq etdi. Qriqoryan arayışda göstərirdi ki, Qubaydullinin ifadələrinə əsasən Pənah Qasımov əksinqilabi millətçi və əksinqilabi ittihadçı təşkilatın üzvüdür. O, Azərbaycan SSR cinayət məcəlləsinin 72-73-cü maddələri ilə ittiham olunduğuna görə dərhal həbs olunmalıdır.

Görəsən, Ə.Qubaydullindən fiziki işgəncələr yolu ilə aldıqları ifadələr, belə bir kommunistin həbsi üçün, hüquqi və ya insani cəhətdən yetərli idimi? Görünür yetərli idi ki, Qriqoryan və Tsinmanın Pənah

Qasımovun həbsi ilə bağlı hazırladığı qərar dövlət təhlükəsizlik mayoru Gerasimov tərəfindən 14 iyul 1937-ci ildə təsdiq edildi.

Xalq kütlələrini ÜK(b)P siyasətindən narazı saldığına, gənc nəsli milli ruhda (ittihadçı kimi) tərbiyyə etdiyinə, Azərbaycanı zorla SSRİ-dən ayırmaq istədiyinə, mədəniyyət cəbhəsində ziyankarlıq işləri apardığına, bir ittihadçı kimi bu təşkilata üzvlər cəlb etdiyinə görə 15 iyul 1937-ci ildə Pənah Qasımovun həbsi və evində axtarış aparılması məqsədilə 755 saylı order imzalandı. Axtarış zamanı onun evindən pasportundan, partiya biletindən, həmkarlar biletindən, bir neçə kitab və kitabçadan başqa bir şey tapılmadı. Bir müəllimin evində bundan başqa nə olmalıydı ki? Beləliklə, Müəllimləri Təkmilləşdirmə İnstitunun direktoru P.Qasımov həbs edildi.

Həbs edilənə qədər onunla birlikdə yaşamışdır:

Arvadı - Əminə (evdar qadın).

Qızı - Nigar (oxuyur).

Qızı - Adilə (Budyonno zavodunda mühəndis).

Oğlu - Hidayət (baş mühəndis).

Bir çox azərbaycanlılar kimi P.Qasımovun taleyini də Qriqoryan və Tsinman həll edirdi. Onların çıxardıqları qərar qeydsiz-şərtsiz icra olunurdu. Maraqlı və eyni zamanda təəccüblüdür ki, NKVD-də olduğu kimi, ictimai həyatda da bir çox məsələlələrdə əsas rolu digər yanlar və yadlar icra edirdi. Məsələn, M.Kasparyan adlı bir ermənin M.C.Bağırova ünvanladığı məktubun məzmununa diqqət yetirək. Mən artıq 15 gündür ki, Müəllimləri Təkmilləşdirmə İnstitutunda işləyirəm və göz yuma bilməyəcəyim bir neçə faktı sadalamaq istəyirəm.

İnstitutda direktor vəzifəsində işləyən Hüseynov Maşi çox şübhəli şəxsdir. O, hələ institutun keçmiş direktoru, xalq düşməni – Qasımovun vaxtında işləyirdi. P.Qasımov və M.Hüseynov instituta böyük zərər vurmuşlar. Keçən il xalq düşməni, casus Qasımovun göstərişi ilə M.Hüseynov casusluq işi üçün material toplamaq məqsədi ilə ölkənin bir sıra sənaye rayonlarına ekskursiyalar təşkil etmişdir.

Ekskursiyadan qayıdan Hüseynovun xalq düşməni, casus P.Qasımova təqdim etdiyi məruzədə göstərilir ki, onların məqsədi yüksək hərbi-strateji əhəmiyyətli bu və ya digər sənaye obyektinin gücü, məkanı haqqında məlumat toplamaq idi.

Hüseynov Müəllimləri Təkmilləşdirmə İnstitutunun işini darmadağın edərək, vacib vəzifələrə şübhəli şəxsləri təyin etmişdir. Belə ki, o, fakültə dekanı vəzifəsinə Rüstəmovu təyin etmişdir. Dərs ilinin 2 aydır başlamasına baxmayaraq, heç bir qiyabiçinin proqram, dərs vəsaiti haq-

qında material əldə etmədiyini nəzərə alsaq Hüseynovun institutun işinin gedişatına mane olduğunu anlayarıq.

Hüseynov mühasibin köməyi ilə istədiyi an dövlət vəsaitinə yiyələnə bilir və heç kəs buna nəzarət etmir. İnstitutun möhürü ilə bir sıra saxta təhsil sənədi verilmişdir. Bütün bunlar institutda düşmən əlinin mövcudluğundan xəbər verir. İnstitutu düşmən elementlərdən təmizləməyə kömək etməyinizi xahiş edirəm.

22.10.37. M.Kasparyan
Müəllimləri Təkmilləşdirmə İnstitutu
Karantin küç., ev 107.

Fikir verin, bu erməni dığası Azərbaycan xalqına nə qədər can yandırır ki, institutdakı problemləri Azərbaycan rəhbərliyinin diqqətinə çatdırmağı vacib və həm də özünə borc bilir. Görəsən necə olur ki, Müəllimləri Təkmilləşdirmə İnstitutunda cəmi 15 gün işləyən bu erməni institutda gedən prosesləri bütün incəliyinə qədər görür və göstərir.

Başqa bir məsələ. Kasparyan iki ay öncə həbs edilən, dindirməsi belə başlamayan P.Qasımovu "xalq düşməni", "casus" elan edir. Daha doğrusu, Bağırova çatdırırdı ki, P.Qasımov və onun ətrafında olanlar xalq düşməni və casusdu. Maraqlıdı, nədən bu tipli məktublar Mir Cəfər Bağırovun poçtundan zibil qutusuna yox, müttəhimlərin istintaq qovluğuna daxil olur? Məsələnin daha iyrənc və daha qorxulu tərəfi ondadır ki, belə məktublar yeni həbslərə yol açır, adları çəkilən hər bir şəxsin NKVD məhbəsinə gətirilməsinə səbəb olurdu.

Dindirmə protokolları ilə Kasparyanın məktubunu müqayisə etsək görərik ki, o, maarifçidən daha çox müstəntiq, müdafiəçidən daha çox mühakimə edəndi. Deməli, o, Azərbaycanın və azərbaycanlıların taleyinə yanmır, neqativ halları üzə çıxarmır, əksinə namuslu oğullarımıza qara yaxmaqla, bir tərəfdən bizi mərkəzin gözündə şübhəli adama, hətta şübhəli xalqa çevirir, digər tərəfdən isə, M.C.Bağırovun və onun himayə etdiyi HKVD-nin əli ilə məhv edirdi. Daha doğrusu, hər vəchlə tarixi düşmənçiliklərini - soyqırımını həyata keçirirdi.

***

Maraqlıdır ki, Kasparyan "institutu düşmən elementlərdən təmizləmək" üçün Bağırova "ümid bəslədiyi kimi" Pənah Qasımov da həbsxanadan qurtarmaq üçün yeganə çıxış yolunu "səmimi dostum" və ya "əziz yoldaşım, Cəfər" deyə müraciət etdiyi Mir Cəfərdə görürdü. Fərq onda idi ki, Kasparyan M.C.Bağırova məhv edən, P.Qasımov isə xilaskar kimi müraciət edirdi. Ona görə də, Kasparyandan bir ay sonra – 24

noyabr 1937-ci ildə yazdığı məktubunda Pənah Qasımov "Xozeyn"ə müraciət edərək deyirdi. Əziz yoldaşım Cəfər! ... səni və partiyamı qəti şəkildə əmin edirəm ki:

1. Heç bir xalq düşməni qruplaşmasına daxil olmamışam və daxil deyiləm. Mənim partiya vicdanım tamamilə təmizdir.

2. Çox hörmətli və əziz yoldaş Stalinin idarə etdiyi partiyamızın ana xəttindən kənara çıxmamışam.

3. Müəllimlərin təkmilləşdirilməsi üçün təşkil olunmuş coğrafiyaşünasların ekskursiyası əvvəlcə nəzərdə tutulmuş və aylarla tərtib olunmuş və Kommunist Partiyası tərəfindən təsdiqlənmiş plan üzrə baş tutmuşdur. Ekskursiyaya rəhbərlik Hüseynova tapşırılmışdır. Onun Yusif Qasımovla görüşü barəsində məlumatım yoxdur. Sən bunu mənə deyəndən sonra mən araşdırma apardım və bu barədə Sənə şifahi və ya yazılı xəbər vermək istərdim.

Əziz yoldaşım, Cəfər! Sənə səmimi deyirəm ki, bir partiya rəhbəri kimi sən düz hərəkət etdin, lakin sənə yalnış məlumat verilmişdir. Səndən yeganə xahişim budur ki, ən ciddi araşdırma keçirilsin və əgər mən günahkar olsam, bu halda düzgün sayılan formada məni cəzalandır. Sənin səmimi dostun Pənah. 24 noyabr 1937-ci il[151].

Hər iki məktuba diqqət yetirdikdə kimin daha çox səmimi və vətənpərvər olduğunun şahidi oluruq. Mir Cəfərə güvənc məsələsinə, onun daha çox xilaskar, yoxsa irticaçı olması məsələsinə gəldikdə isə nəticələrə söykənərək deyə bilərik ki, Kasparyan M.C.Bağırovu P.Qasımovdan daha yaxşı tanıyırmış. Təsadüfi deyildir ki, M.C.Bağırov da vaxtilə ermənilərə inandığını, Azərbaycan xalqının taleyini onlara etibar etdiyini gec də olsa etiraf edirdi: **"Mənim əsas səhvim odur ki, Beriyaya və onunla bağlı olan və onun düşmən mövqeyini müdafiə edən, orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədə olan Sumbatov, Borşev, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır"[152].**

P.Qasımovun "Əziz yoldaş və səmimi dost" - dediyi Mir Cəfərdən səs çıxmır. Elə ona görə də, 7 yanvar 1938-ci ildə 2-ci idarənin 4-cü bölməsinin əməliyyat müvəkkili Məmmədov 1881-ci il təvəllüdlü, Karyaqin rayonu Qarğabazar kəndində doğulmuş, Bakı şəhər sakini,

[151] DTX-nin arxivi, Pənah Qasımovun istintaq qovluğu, PR - № 6399.
[152] Mir Cəfər Bağırovun məhkəməsi. Bakı,1993, s.115.

Azərbaycan vətəndaşı Qasımov Pənah Ələkbər oğlunu cinayətkar qismində dindirir.

Sual: Az SSR-dəki elm xadimləri ilə sıx əlaqələriniz barədə danışın.

Cavab: Mən iş və xidmət müddətində aşağıdakı şəxslərlə yaxın münasibətdə olmuşam

1. Prof. Xuluflu Vəli
2. Prof. Çobanzadə Bəkir
3. Prof. Qubaydullin Əziz
4. Abdulla Tağızadə
5. Dos. Xayfin Nəcib qazax-tata

Sual: Millətçilərdən kim ilə əlaqəniz olub?

Cavab: Millətçilərdən yaxın tanışımdı:

1. Nəriman Nərimanov
2. Xəzərli – keçmiş Xalq Səhiyyə Komissarı
3. Hacıyev Muxtar
4. Əfəndiyev Sultan Məcid

Digərlərin xatırlamıram.

Sual: İstintaqa məlumdur ki, həbs olunana qədər siz millətçi və panturkist yönümlü olmusunuz. Bunu qəbul edirsiz?

Cavab: Xeyr, həbs olunana qədər mən beynəlmiləlçilik mövqeyində olmuşam.

Sual: Doğru deyil. İstintaqda sizinlə əlbir olan, öz əksinqilabi cinayətlərini qəbul edən və sizi əksinqilabi cinayətkar kimi ifşa edən bir sıra cinayətkarın ifadəsi var.

Cavab: Mən qətiyyətlə bildirirəm ki, millətçi və pantürkistlərlə əlaqəm olmayıb. Əgər məni millətçi və pantürkist adlandırır və bu kateqoriya insanların arasında adımı hallandırırlarsa bu doğru deyil.

Sual: Siz ilk istintaqdan yalan danışırsınız. Biz sizə xəbərdarlıq edirik ki, istintaq sizə mənim dəfələrlə dediyim faktları göstərəcək və ifşa edəcək.

Maraqlıdır ki, Pənah Qasımov müstəntiqin protokolu düzgün tərtib etməməsinə, öz istəyinə uyğun sözlər yazmasına etiraz edərək dindirmə protokolunun sonunda yazırdı: ***"Yaxın münasibətdə olmaq" yerinə mən "bu şəxsləri tanıyıram", eləcə də "Mənim tanışlarım idi" ifadəsi əvəzinə isə "mən bu millətçiləri tanıyırdım" dedim. Imza: P.Qasımov.***

P.Qasımovun bu etirazı keçən əsrin 30-cu illərinin istintaqı və ya müstəntiqi üçün ciddi əhəmiyyət daşımasa da müasir tədqiqatçılar üçün böyük əhəmiyyətə malikdir.

Əvvəla, bu sözlər təsdiq edir ki, müstəntiqlər müttəhimlərin ifadələrini düşünülmüş surətdə təhrif etmişlər.

İkincisi, təhlükəsizlik orqanlarının əməkdaşları öz işlərini asanlaşdırmaq, yəni məhbusu cinayətkar elan etmək üçün müttəhimin söylədiklərini deyil, özlərinə lazım olanı yazmışlar. Əslində bütün bunlar saxlanılan şəxsi cinayətkara çevirməyə xidmət edirdi. 15 yanvar dindirməsində də biz bunun izlərini aydın görürük. Müstəntiqin "artıq 5 aydır ki, siz istintaq prosesini çaşdırmaq məqsədi ilə yalan danışır və özünüzün əksinqilabi fəaliyyətiniz barədə məlumat vermirsiz. Sizə məsləhət görürük ki, hər şeyi düzgün danışasınız" sözlərinə P.Qasımov belə cavab verir. **Mən partiya və Sovet hökuməti qarşısında öz günahımı boynuma almağı qərara aldım. Boynuma alıram ki, mən əksinqilabi İttihad təşkilatının üzvü olmuşam, mən ora keçmiş Xalq Maarif Komissarı Mustafa Quliyev tərəfindən cəlb olunmuşam.**

Beləliklə də, P.Qasımovun 24 noyabr 1937-ci ildə Mir Cəfərə ünvanladığı məktubda dediyi mən "heç bir xalq düşməni qruplaşmasına daxil olmamışam", "mənim partiya vicdanım tamamilə təmizdir", "Stalinin idarə etdiyi partiyamızın ana xəttindən kənara çıxmamışam" sözləri də səmimiyyətdən və həqiqətdən kənarda qaldı. Hansı ki, həmin məktubdakılar daha səmimi və daha doğru idi. Bu ifadələri ilə o, M.C.Bağırovu aldatmır, əksinə, özünü şərləyirdi. Özünə böhtan ataraq bildirirdi ki, mən əksinqilabi millətçi İttihad təşkilatına 1928-cı ildə Mustafa Quliyev tərəfindən cəlb olunmuşam. Bu təşkilatın məqsədi Azərbaycanı SSRİ-dən ayırmaq idi. Bu sahə ilə məşğul olan bir araşdırıcı kimi əminliklə deyə bilərəm ki, nə M.Quliyev, nə də P.Qasımov Azərbaycanı SSRİ-dən ayıran heç bir qurumun, heç bir təşkilatın üzvü olmamışlar. Amma bizim dediklərimizin əksinə olaraq müstəntiq nəinki, onların belə təşkilatlarda mövcudluğunu, hətta ciddi iş apardıqlarını sübut edirdi.

Sual: Əksinqilabi İttihad təşkilatı öz planlarını hansı yollarla həyata keçirmək istəyirdi?

Cavab: Sovet hökuməti ilə mübarizədə təşkilat vacib hesab edirdi:

a) ÜK(b)P-nın milliyyət məsələsindəki siyasətdən kütlənin narazılığını oyatmaq.

b) Partiyanın işindən pərakəndə və kütləvi şəkildə narazılıq yaratmaq.

c) Gənc nəsli millətçi ruhda tərbiyə etmək.

d) əksinqilabi İttihad təşkilatına insanları cəlb etmək.

Sual: Siz terror barədə, mühacirlərlə və digər əksinqilabi təşkilatları ilə əlaqələrdən məlumat vermirsiniz.

Cavab: Təşkilatın terror mövqeyindən mənim xəbərim yoxdur. Mühacirlərlə əlaqəyə gəldikdə isə mənə Əmircanov Əbdül Əli bəy, M.Məmmədov və Camalov Hüseyn Mirzənin adları məlumdur. Mühacirlərlə əlaqə 1928-1929-cu illərdə Bakıda olan türk müəllimləri vasitəsilə həyata keçirdi. Daha sonra Türkiyədə yaşayan Cabbar Əfəndizadə vasitəsilə həyata keçirildi.

Sual: Mühacirləırin təşkilata göstərdiyi kömək barədə nə deyə bilərsiniz?

Cavab: Bu barədə məlumatım yoxdu, lakin Xalq Maarif Komissarlığının maarifləndirmə sahəsində maddi köməyi olmuşdur.

Sual: Xalq Maarif Komissarlığının etdiyi maddi dəstək hara xərclənirdi?

Cavab: Təşkilatın maraqları göstərilən dərsliklərin, dərs vəsaitlərinin nəşrinə və təşkilat üzvlərinin xaricə getməyinə, eləcə də xarici üzvlərin Bakıya gəlişinə xərclənirdi.

Sual: Hər hansı bir xarici konsulluq vasitəsilə mühacirlərlə təşkilatın əlaqəsi olubmu?

Cavab: Mənim bu barədə məlumatım yoxdur.

Sual: Siz əksinqilabi İttihad təşkilatının digər əksinqilabi qruplaşmalarla əlaqəsi barədə heç nə demədiniz.

Cavab: Əksinqilabi ittihad təşkilatına hərdən müsavatçılar qoşulurdu.

Sual: Əksinqilabi İttihad təşkilatını əksinqilabi milliyətçi və pantürkistlərlə əlaqədə idimi?

Cavab: Məlumatım yoxdur.

Fiziki və mənəvi işgəncələrə məruz qalan P.Qasımov (özünə də məlum olmayan – C.Q.) gizli İttihad təşkilatının bütün bölgələr üzrə rəhbərlərinin və üzvlərinin adlarını çəkir.

16 yanvar 1938-ci il dindirmə protokolunda müstəntiq ittihadçıların praktiki əksinqilabi fəaliyyətinə aydınlıq gətirmək istəyir. Ona görə də, P.Qasımovdan ittihadçıların mədəni sahədə ziyançılıq fəaliyyətindən danışmasını tələb edir. P.Qasımov isə dərsliklərdə və dərs vəsaitlərində köhnəlmiş terminlərdən, ərəb, fars, eləcə də osmanlı sözlərindən geniş istifadə etməklə, ayrı-ayrı fənlərin tədrisinin keyfiyyətinə az fikir verməklə, kadrların təyinatında şəxslərin qarşısına əhəmiyyətli tələblər qoymamaqla ziyan vurduqlarını vurğulayırdı.

7 mart dindirməsi zamanı o, Məmmədov Rəşid və Tağızadə Baba adlı şəxsləri İttihad təşkilatına necə və nə zaman cəlb etməsindən danışır. 7 mart 1938-ci il ifadəsindən sonra naməlum səbəblərdən P.Qasımov dünyasını dəyişir. Təəccüb doğuran odur ki, istintaq işində P.Qasımov, eləcə də XDİK zindanında dünyasını dəyişən digərlərinin (yüzlərlə belə fakt mövcuddur – C.Q.) nədən vəfat etməsi barədə məlumat yoxdu. Hansı ki, bu müəmmalı ölüm hadisəsi barədə də istintaq işi açılmalı idi.

Azərbaycan XDİK-in 1 saylı türməsinin rəisi respublika prokurorunun xüsusi işlər üzrə müavini Selivertova ünvanladığı məktubda P.Qasımovun həbsxanada öldüyü göstərilir. Musaelyan və Xarazyan tərəfindən tərtib edilmiş meyidin yarılmasına dair aktda göstərilir ki, P.Qasımovun 8 mart 1939-cu ildə pnevmaniya xəstəliyindən ölmüşdür[153].

Dövlət təhlükəsizlik baş leytenantı Markaryanın 9 fevral 1939-cu il tarixdə hazırladığı sənəddən isə P.Qasımovun istintaq başa çatmadan ölməsi barədə aşağıdakı məlumatı öyrənirik. 24373 saylı iş üzrə Pənah Ələkbər oğlu Qasımov, Şahsuvarov Nurməmməd Adilxas oğlu, Sultanov Rüstəmbəy Paşa bəy oğlu, Rzabəyli Fətullabəy Əzizbəy oğlu, Qasımov Əli Səbri Cəlil oğlu, Hacıyev Əşrəf Yunus oğlu, Mahmudov Ələkbər Əbdürrəhim oğlu Azərbaycan SSR CM 73, 64, 72 maddələri üzrə ittiham edilir.

1 oktyabr 1939-cu ildə isə XDİK-in kiçik müstəntiqi Alqiyanın hazırladığı qərardan aydın olur ki, 24373 saylı Qasımov Pənah Ələkbər oğlunun və digərlərinin (7 nəfərin) ittiham olunduğu iş üzrə **Aşkar etdim**

İttiham olunmuş Qasımov Pənah Ələkbər oğlu 29.4.39-cu ildə vəfat etdiyi üçün meyidin yarılması haqqındakı 30 aprel 1939-cu il tarixli arayışa əsaslanaraq

Qərar verdim

Qasımov Pənah Ələkbər oğlunun ittiham işi bağlanılsın[154].

P.Qasımovun ölümündən sonra onun işi dayandırılsa da SSRİ XDİK yanında Xüsusi Müşavirənin 9 fevral 1940-cı ildə Qasımov Əli Sabri müddəti 30 sentyabr 1937-ci ildən hesablanmaqla - 3 il, Mahmudov Ələkbər müddəti 3 fevral 1938-ci ildən hesablanmaqla - 3 il, Hacıyev Əşrəf Yunus oğlu müddəti 3 fevral 1938-ci ildən hesablanmaqla - 3 il, Rzabəyli Fətulla müddəti 22 aprel 1938-ci ildən hesablanmaqla - 3 il müddətinə

[153] DTX-nin arxivi, Pənah Qasımovun istintaq qovluğu, PR - № 6399.
[154] DTX-nin arxivi. Pənah Qasımovun istintaq qovluğu, PR - № 6399.

İslah Əmək Düşərgəsinə, Sultanov Rüstəmbəy müddəti 26 iyul 1937-ci ildən hesablanmaqla Krasnoyarsk diyarına sürgün - 5 il, Şahsuvarov Nurməmməd müddəti 3 mart 1938-ci ildən hesablanmaqla Krasnoyarsk diyarına sürgün - 5 il[155] müddətinə azadlıqdan məhrum etmə hökmü oxundu.

***

1953-cü ildə "ellər atası"nın ölümündən sonra məlum oldu ki, Stalin ata olsa da qayğıkeş yox, milyonlarla insanın ölümünə bais olan qatil ata olub. 1950-ci illərin reablitasiya qovluqları, bəraət sənədləri sübut etdi ki, güllələnənlərin və ya sürgün edilənlərin böyük əksəriyyəti günahsız insanlar olmuşlar. Özünü müqəssir hesab edən P.Qasımov da belə günahsız müqəssirlərdən idi. 1955-ci ildə Pənah Qasımovun cinayət işinə yenidən baxan hüquq müdafiəçiləri belə qərara gəlir ki, o, cinayətkar deyil. Maraqlıdır ki, bu hüquq müdafiəçilərinin hər ikisi (30-cu və 50-ci illərdəki) bolşevik idi və ya bolşeviklərə kifayət qədər sadiq müstəntiqlərdi. Daha doğrusu, onların hər ikisi bu sistemi qoruyurdu. Hətta onlar arasında keçən əsrin 30-cu illərdən qalma ittihamçılar da vardı ki, indi reablitasiya işi ilə məşğul olurdu. O, yenə də sovet idarə sistemini müdafiə edirdi. Necə olurdu ki, o, (bolşevik müstəntiq) dünən məhv etdiyinə bu gün bəraət verirdi? Bəlkə də, buna hüquqi cavab vermək olar (o qanuna tabeydi, mövcud qanunvericilikdən çıxış edirdi və s. demək olar), lakin insanlıq nöqteyindən onu qiymətləndirmək olmaz. Hər halda bu fakt da inkar edilməzdi.

Az. SSR xüsusi işlər üzrə prokuror köməkçisi Kryukov, Azərbaycan CM 64, 72, 73-cü maddələri üzrə ittiham olunmuş Şahsuvarov Nurməmməd Adilxas oğlunun, Sultanov Rüstəmbəy Paşa bəy oğlunun, Rzabəyli Fətullabəy Əzizbəy oğlunun, Qasımov Əli Səbri Cəlil oğlunun, Hacıyev Əşrəf Yunus oğlunun, Mahmudov Ələkbər Əbdürrəhim oğlunun № 803719 saylı cinayət işinə baxaraq aşkar etmişdir ki, 15 iyul 1937-ci ildə XDİK tərəfindən Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktoru Qasımov Pənah Ələkbər oğlu həbs olunmuşdur. Həbs üçün səbəb, həbsxanada olan professor Əziz Qubaydullinin P.Qasımovun pantürkçü mövqeyində olub, B.Çobanzadə və Qubaydullin kimi pantürkistləri dəstəklədiyini və institutda pantürkistliyi təbliğ etdiyini bildirən ifadəsi, eləcə də, Çobanzadənin Qasımovun əksinqilabi İttihad təşkilatının üzvü olduğunu bəyan edən ifadəsi olmuşdur.

[155] DTX-nin arxivi. Pənah Qasımovun istintaq qovluğu, PR - № 6399.

Prokuror köməkçisi Kryukov bildirir ki, Qasımovdan ilk ifadə 7 yanvar 1938–ci ildə alınsa da ondan yarım il ifadə alınmamışdır. Əvvəl Qasımov günahını inkar etmiş, sonra isə 1928-ci ildən əksinqilabi İttihad təşkilatının üzvü olmuş və həmin təşkilata Mustafa Quliyev tərəfindən cəlb olunduğunu bildirmişdir. Öz ifadələrində P.Qasımov əksinqilabi İttihad təşkilatının 18 üzvünün adını söyləmişdir. Onların arasında hazırkı işdə ittiham olunan Şahsuvarov Nurməmməd Adilxas oğlunun, Sultanov Rüstəmbəy Paşa bəy oğlunun, Rzabəyli Fətullabəy Əzizbəy oğlunun, Qasımov Əli Səbri Cəlil oğlunun, Hacıyev Əşrəf Yunus oğlunun, Mahmudov Ələkbər Əbdürrəhim oğlunun da adları var idi.

Kryukovun araşdırmalarından aydın olur ki, 1930-cu illərin müstəntiqi əksinqilabi İttihad təşkilatının üzvlərinin praktiki fəaliyyətindən bəhs edərkən Pənah Qasımov onların mədəni cəbhədə əksinqilabi işlər gördüklərini, xüsusilə, dərsliklərdə və dərs vəsaitlərində bu və ya digər sahəyə aid olan köhnəlmiş terminlərdən istifadə olunduğunu, bəzi maarif ocaqlarında keyfiyyətsiz materialların dərc olunduğunu, ayrı-ayrı fənlərin tədris keyfiyyətinə az fikir verildiyini və kadrların təyinatında şəxslərin qarşısına əhəmiyyətli tələblər qoyulmadığını bildirən ümumi sözlərlə kifayətlənmişdir. P.Qasımov tərəfindən hər hansı bir konkret fakt və ya konkret misal irəli sürülməmişdir.

Kryukov hesab edirdi ki, Qasımov Pənahla bağlı materialları təhlil edərkən aşağıdakılara xüsusilə diqqət yetirilməlidir:

1. İşdə istintaq qovluğa nəzərdə tutulur – C.Qasımov Pənahı əksinqilabi İttihad təşkilatına guya cəlb etmiş Quliyev Mustafanın ifadəsinin olmamasına.

2. Qasımov Pənah tərəfindən guya cəlb olunmuş Məmmədov Rəşid, Tağızadə Baba və Məmmədov Məcidin dindirmə və ya üzləşmə protokollarının yoxluğuna.

3. Bəkir Çobanzadənin Qasımov Pənaha qarşı birbaşa ifadə verməməsinə.

4. Qubaydullin ifadələrində və üzləşdirmə zamanı Qasımov Pənahın pantürkçü əhvalından bəhs edərkən onu əksinqilabi təşkilatın üzvü adlandırmamasına və bu məsələdə mənbə kimi Ə.Pepinovu göstərməsinə.

5. Ə.Pepinov 12 millətçi üzvün, o cümlədən P.Qasımovun adını sayarkən qruplaşma üzvlərinin fəaliyyətini dəqiqləşdirməməsinə və hazırda bəraət almış Musayev Hüseyini bu qruplaşmaya aid etməsinə.

6. Əli Səbri Qasımov özünün təşkilata Pənah Qasımov tərəfindən cəlb olunduğunu bildirməsinə, lakin sonradan bütün ifadələrindən imtina etməsinə.

7. Qasımov Pənahın özünün günahını təsdiq etməsinə, Ə.Qubaydullin və B.Çobanzadə ilə üzləşdirmə zamanı bütün ifadələrindən imtina etməsinə, heç bir əksinqilabi təşkilatın üzvü olmadığını bildirməsinə.

Həqiqətən də, sadalananlar diqqət yetiriləsi məsələlərdi. Lakin Kryukov Pənah Qasımovun həbsdə olarkən vəfat etdyi üçün ondan günahını boynuna alma səbəbini araşdıra bilmədiyini bildirir və cinayət işində Pənah Qasımova fiziki zor tətbiq edildiyini də gizlətmir. İstintaq materiallarında göstərilir ki, Qasımov Əli Səbri müstəntiq Məmmədovla (P.Qasımovu və bu işdə adları keçən digər şəxsləri dindirən – C.Q.) söhbəti zamanı Məmmədov Pənah Qasımov haqqında deyir: "Bu qoca axmaq boynuna almadığı üçün onu əzişdirməli olduq".

Beləliklə, Kryukov hesab edir ki, P.Qasımov barəsində təqsirli şəxslərin ifadələri dəqiq deyil. Qasımovun boynuna alma ifadəsi daha sonra inkar edildiyi üçün ona sorğu vaxtı repressiv üsulların tətbiqini sübut edir. Bu halda Qasımovun əksinqilabi İttihad təşkilatının üzvü olduğu əsassız hesab olunur və sübut olunmur.

Nəzərə alsaq ki,

1. Bu işə digər işlərdən əlavə olunan ifadələr konkret olmadığı və ziddiyyətli olduğu üçün cari işə dəlil kimi qəbul edilə bilmədiyi üçün

2. Qasımov Şahsuvarov, Sultanov və Rzabəyli özlərinin əksinqilabi İttihad təşkilatının üzvü olduğunu bəyan edən ifadələrini inkar etdiyi, Hacıyev və Mahmudov isə ümumiyyətlə bunu qəbul etmədiyi üçün

3. İki ildən artıq sürən istintaq bu təqsirli bilinən şəxslərin hər hansı bir əksinqilabi qruplaşmaya üzv olduqlarını sübut edən fakt tapa bilmədiyi üçün.

Bu cinayət işinin dayandırılmasını və P.Qasımova bəraət verilməsini xahiş edir. Beləliklə də, 1956-cı ildə istintaqı başa çatmayan P.Qasımov bəraət alır.

RZAQULU NƏCƏFOV,
YAXUD TÜRKOLOJİ QURULTAYA
GÜRCÜSTAN XALQ MAARİF KOMİSSARLIĞINDAN
QATILAN NÜMAYƏNDƏ

Görkəmli alim Əziz Şərifin "Keçmiş günlərdən" kitabında oxuyuruq: "1927-ci ildə atamın vəfatından on il keçirdi. O zaman məsul vəzifələr daşıyan və bir müddət "Yeni fikir" qəzetinin baş redaktoru olan Rzaqulu Nəcəfov vaxtı ilə yaxşı tanıdığı, dərin hörmət bəslədiyi, ictimai xidmətlərini yüksək qiymətləndirdiyi Qurbanəli Şərifzadəni yada salıb ona "Hüznlü bir xatirə" başlıqlı məqalə həsr etmişdi. Böyük qardaşı, görkəmli şair Əliqulu Qəmküsar, İran inqilabının iştirakçılarından olan əmisi oğlu Nəcəfqulu Nəcəfov və Naxçıvanın açıqfikirli ziyalı gəncləri kimi, Rzaqulu da Naxçıvan mühitində böyümüş, ərsəyə çatmış və Q.Şərifzadənin təsiri ilə ictimai fəaliyyətə başlamışdır..."[156]

"Dan ulduzu" jurnalında nəşr edilən[157] bu yazıdan az keçməmiş Rzaqulu Nəcəfova qarşı kampaniya başlanır. Məsələ o dərəcədə böyüyür ki, onun həbsi gündəmə gəlir. Cəlil Məmmədquluzadənin müdaxiləsindən sonra R.Nəcəfova qarşı hazırlanan kampaniyaya son qoyulur.

Əziz Şərif kimi bir ziyalının diqqətini çəkən Rzaqulu Nəcəfov kim idi? O, Azərbaycan Xalq Cümhuriyyətinin Tiflisdəki konsulu, Azərbaycanın ictimai həyatında, mətbuat və ədəbiyyat tarixində özünəməxsus yeri olan, Birinci Türkoloji Qurultaya Naxçıvandan qatılan nümayəndə, daha doğrusu, tərcümeyi-halı düşünülmüş surətdə unutdurulan Azərbaycan ziyalısı.

Rzaqulu Məşədi Ələkbər oğlu Nəcəfov 1885-ci ildə Naxçıvan şəhərində anadan olub. Onun atası Məşədi Ələkbər Hacı Nəcəf oğlu az bir zamanda Culfanın məşhur tacirlərindən biri olur. Ələkbər Nəcəfovun həyat yoldaşı Bilqeyis xanım naxçıvanlı Şeyxovların qızı idi.

İbtidai təhsilini Naxçıvanda alan R.Nəcəfov təhsilini İrəvanda və Tiflisdə davam etdirmişdir. R.Nəcəfov atasının vəfatından sonra Naxçıvana gələrək Culfa gömrüyündə işə düzəlir. Molla Nəsrəddin ədəbi məktəbinin nümayəndələrindən olan R.Nəcəfovun atası Ələkbər kişi Əliqulu Qəmküsar kimi bu oğlunun da təhsil almasına xüsusi fikir vermiş-

[156] Əziz Şərif. "Keçmiş günlərdən", Bakı, 1983.
[157] R.Nəcəfov. "Hüznlü bir xatirə", "Dan ulduzu" jurnalı, 1927, №12.

dir. Rzaqulu da qardaşı kimi məktəbdarlıqla məşğul olmuş, tərcüməçilik etmiş, bir ədəbiyyat adamı və qəzetçi kimi yadda qalmışdır. O, 1912-ci ildə böyük qardaşı Əliqulu Qəmküsarın dəvəti ilə Tiflisə gedir və "Molla Nəsrəddin" jurnalında ona yardım edir. Qısa bir müddətdən sonra ikinci redaktor təyin edilir. Paralel olaraq Tiflisdə çıxan mətbuu mənbələrdə, xüsusilə də "Molla Nəsrəddin" jurnalında maraqlı yazılarla çıxış edir. Molla Nəsrəddin ədəbi məktəbindən böyük qəzetçilik təcrübəsi toplayan R.Nəcəfov sonralar "Yeni fikir" qəzetinin redaktoru və "Dan ulduzu" jurnalının baş redaktoru işləyir. Maarifpərvər ziyalı ərəb, fars dilləri ilə yanaşı, rus və gürcü dillərini də dərindən öyrənir.



Sovet hakimiyyəti illərində Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin üzvü olan Rzaqulu Nəcəfovun naxçıvanlı gənclərin Tiflisdə təhsil almalarında mühüm rolu olmuşdur. Belə bir maarifpərvər ziyalı və ictimai xadim keçən əsrin 30-cu illərində başında Stalinin dayandığı totalitar rejimin qurbanı oldu. Rzaqulu Nəcəfovun həyatı və yaradıcılığı barədə geniş bilgiyə malik olmasaq da 2955 saylı cinayət işindəki sorğu anketindən əldə etdiyimiz tərcümeyi-hal materialları bu boşluğu qismən də olsa doldurur.

Sorğu anketi

Nəcəfov Rzaqulu Ələkbər oğlu
Az.SSR Naxçıvan şəh.
Doğulduğu il, 1885.
Ünvanı: Bakı şəhəri, M.Qorki küçəsi.
1 sentyabr 1937-ci ildən Naxçıvan şəhərində yaşayır.
Peşəsi – Ədəbiyyat işçisi və müəllim.
1931-ci ilin yanvarına qədər Bakı şəhərində
Din Tarixi muzeyində elmi işçi vəzifəsində işləmişdir.
Fərdi şəkildə tərcümə və müəllimliklə məşğul olmuşdur.
Təhsili: natamam ali.
Partiyalılığı: İnqilabçı. 1920-1929-cu illərdə ÜK(b)P üzvü olub.
1929-cu ildə partiya sıralarından xaric edilib.
Milliyəti: azərbaycanlı.
Vətəndaşlığı: SSRİ vətəndaşı.

1931-ci ildə o, xarici konsulluqla əlaqə saxlamaqda təqsirli bilindiyinə görə həbs olunub və üç il müddətinə azadlıqdan məhrum edilib. Sürgündən qayıtdıqdan sonra, Bakı şəhərindəki Din Tarixi muzeyində işə düzəlib. 1937-ci ilin yanvar ayında işdən xaric edilib. O vaxtdan etibarən heç bir sahədə çalışmayıb.

Ailə vəziyyəti : Oğlu - Urxan (bəzi mənbələrdə Orxan yazılıb – C.-Q.);

Oğlu – Akif.

Həyat yoldaşı Nəcəfova Bilqeyis 37 yaş.

Sorğu anketini hazırladı Naxçıvan XDİK-in rəis müavini dövlət təhlükəsizlik baş leytenantı Vakulçik [158].

Təəccüb doğuran odur ki, biz Azərbaycan ziyalılarının tərcümeyi-halını istintaq qovluqlarından, vakulçiklərin, şerlərin, qriqoryanların, markaryanların, avetikyanların, təhməzyanların, seyranyanların və digər yanların təqdimatından öyrənirik. Ona görə də, bu bioqrafik göstəricilər ziyalı tərcümeyi-halından daha çox məhbus tərcümeyi-halına oxşayır.

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, Bilqeyis xanım R.Nəcəfovun ikinci arvadıdır. İstintaq qovluğunda adları keçən oğlanları – Urxan və Akif birinci arvadı, gənc ikən dünyasını dəyişən Məsumə Fərəcullayevadan olan övladılarıdır. Onun ikinci həyat yoldaşı Bilqeyis xanım Mir Rzaxan Talışinski ilə general Səməd bəy Mehmandarovun bacısı Məryəm xanım Mehmandarovanın qızı, Azərbaycanın əməkdar artisti, müğənni Cahan xanım Talışinskayanın böyük bacısı idi.

Naxçıvan XDİK-in əməkdaşı Vakulçikin bu təqdimatından sonra, 1937-ci il 27 sentyabrda Nəcəfqulu Nəcəfovun və Rzaqulu Nəcəfovun evində axtarış aparılmış və onlar həbs edilmişdir. Axtarış zamanı onlardan müxtəlif sənədlər, 27 kitab və İrandan gələn bir məktub götürülmüşdür.

Yuxarıdakı məlumatlardan da aydın görünür ki, Rzaqulu Nəcəfovun həbsinə səbəb olan amillərdən biri onun Heydər Vəzirov və Nəcəfqulu Nəcəfovla əlaqə saxlamasında idi. Maraqlıdır ki, həcmcə olduqca kiçik olan PR-22897 nömrəli istintaq qovluğunda Rzaqulu və Nəcəfqulu Nəcəfovların hər ikisi eyni cinayətdə ittiham olunur. Ona görə də, biz hər iki müttəhimin ittiham olunmalarının səbəblərini oxuculara çatdırmağa çalışacayıq.

[158] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.

Nəcəfovlara məxsus istintaq qovluğunda axtarış zamanı Rzaqulunun üzərindən götürülmüş bir dəftər əlyazma da olmuşdur. Həmin əlyazmadan bəziləri istintaq üçün əhəmiyyət daşıdığından onlar 06 oktyabr 1937-ci ildə Əsgərov soyadlı bir şəxs tərəfindən tərcümə edilən şeir nümunələridir. İstintaq qovluğunda "əski əlifba ilə yazılmış əksinqilabi şüarlar" (qovluqda əski əlifba ilə yazılmış heç nə yoxdu. Orada yalnız rus dilinə tərcümə olunmuş bir neçə kiçik qeyd var – C.Q.) adlandırılan bu nümunələrin tərcüməsini oxuculara təqdim edirik.

***

1. Get soruş və öyrən kim onları seçib.
Onların hər biri zor gücünə seçilib.
Hər biri ayda üç min alacaq.
İlahi, dəhşətdən qoru, İlahi, qoru

2. Minlərlə imansız var ki, indi milyonlar yeyir,
Bir müddət lüt dolaşdığı halda indi xəz geyir,
Bülbülün yerində indi qarğalar əyləşir.
İlahi, dəhşətdən qoru, İlahi, qoru

3. Əgər bizdə qəhrəman yoxsa kimdir müqəssir,
Bu millətdən sonda iz də qalmayacaq
İlahi, dəhşətdən qoru, İlahi, qoru

4. Şəhərdə bir damcı su yoxdur, şəhər susuz qalır
Şəhərdə un yoxdur, təmiz çörək bişirmirlər,
Kim deyə bilər ki, oğurlamırlar,
Kim deyə bilər ki, ac qalanda dalaşmırlar, dişləmirlər,
Kasıblar ağa sayılmırlar.

5. Bütün işlər dəlilərə tapşırılıb,
İdarəçilik vəzifəsinə axmaqlar gəlib,
Belə işlər həmişə düşmənçilik yaradır,
Xalq hələ anlamır[159].

[159] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovlğu, PR - № 22897.

"Əski əlifba ilə yazılmış əksinqilabi şüarlar" adlandırılan bu nümunələrə Rzaqulu Nəcəfov ilk dindirməsi zamanı (04 sentyabr 1937-ci ildə) belə aydınlıq gətirirdi.

Sual: - İstintaqa sizin xarici dövlət nümayəndələri ilə münasibətlərinizin xarakteri barədə məlumat verin.

Cavab: - 1934-cü ildə mənim Kərbəla Qafar ağa Məmmədtağı bəy oğlu Səfərəlibəyovla münasibətim olub. Naxçıvan şəhərinə gələndə adını çəkdiyim şəxs məni evinə qonaq çağırdı. Mənimlə birgə qonaqlıqda Naxçıvan şəhər sakini Şeyx Kərim Hacı Molla Tağı oğlu Qədirzadə, əmim oğlu Nəcəfqulu Nəcəfov da var idi. Bu 1934-cü ilin avqust ayı idi. Kərbəla Qafar ağa Məmmədtağı bəy oğlu Səfərəlibəyovla mən bir daha 1936-cı ilin avqust ayında Naxçıvanda Balaca bağın yanında görüşdüm.

Sual: - Sizin tərəfinizdən yazılmış əlyazmalarda Sovet rəhbərlərinin ünvanına bir sıra rəylər (fikirlər) qeyd olunub. Sizə təqdim etdiyimiz bu əlyazmalara açıqlama gətirin. Məsələn,

Minlərlə imansız var ki, indi milyonlar yeyir,
Bir müddər lüt dolaşdığı halda indi xəz geyir,
Bülbülün yerində indi qarğalar əyləşir.
Bunu izah edin.

Cavab: - Məncə, bu yazılar musavat dövründə yazılan əksinqilabi şüarlar deyil, əlavə edirəm ki, bunlar 1919-cu ildə dünyasını dəyişmiş qardaşım Əliqulu Nəcəfova məxsusdur.

Sual: - İstintaqa məlumdur ki, siz mütəmadi olaraq xalq düşmənləri ilə görüşmüsünüz. Aydınlıq gətirin.

Cavab: - Mən heç kəslə əlaqə yaratmamışam, Səfərəlibəyovla dost münasibətim olub və görüşlərim barədə məlumat verdim[160]. İmza: R.Nəcəfov.

Nəcəfov Rzaqulu 8 sentyabr 1937-ci ildə ikinci dindirməsi zamanı müstəntiqin suallarını belə cavablandırmışdır.

Sual: - Sürgündən qayıtdıqdan sonra xarici dövlət nümayəndələri ilə münasibətlərinizin xarakteri barədə məlumat verin.

Cavab: - Sürgündən 1934-cü ildə iyun ayında qayıtdım və Naxçıvana gəldim. Gələn kimi evdə İran konsulluğunun əməkdaşı Kərbəlayı Qafar ağa Məmmədtağı bəy oğlu Səfərəlibəyovla görüşdüm. Sonra o məni evinə nahara dəvət etdi. Mən oraya Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu ilə getdim. Biz orada iki saat olduqdan sonra dağılışdıq. İmza: Nəcəfov[161].

[160] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.
[161] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.

Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğunda R.Nəcəfova məxsus belə bir qeyd də vardır. "Mənim doğma qardaşım Nəcəfov Cəfərqulu mənimlə əsir düşərgəsində olub və 1934-cü ildə vəfat edib. 1932-ci ildə israfçılığa görə həbs olunmuşdu. R.Nəcəfov".

Yeri gəlmişkən qeyd etmək istərdik ki, həmin vaxt Rzaqulu Nəcəfovla bir yerdə məhbəsdə Bəhlul Behcət də olmuşdu. B.Behcət 14 oktyabr 1937-ci ildə verdiyi ifadəsində göstərirdi ki, Dadaş Hacı İbrahim oğlu və Nəcəfov Rzaqulu 1932-33-cü illərdə mənimlə bir dustaqxanada olmuşdular. Orada da biz dostlaşmışdıq. Sürgündən qayıtdıqdan sonra həbs olunduğum günə qədər onlar mənə evimdə baş çəkirdilər[162].

***

Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu

Mənbələrin verdiyi məlumata görə Nəcəfqulunun atası Məmmədhüseyn tacirliklə yanaşı, maarifçiliyə də ciddi önəm vermişdir. Onun "Fani" təxəllüsü ilə farsca qəzəl və qəsidə yazması barədə də məlumatlar vardır. Məmmədhüseynin bir neçə övladı olmuşdur ki, onlardan biridə Nəcəfquludur. Nəcəfqulu 1881-ci ildə, may ayında Naxçıvan şəhərində doğulub. O, 1893-cü ildə Naxçıvan Şəhər Məktəbinə daxil olmuş və 1900-cu ildə oranı bitirmişdir. Orta məktəbi bitirdikdən sonra N.Nəcəfov Culfa gömrüyündə işə girmiş və orada 8 ay fəaliyyət göstərmişdir.

Nəcəfqulu 1901-ci ildə Tiflisdə mühasibat kurslarında təhsilini davam etdirir. Kursu başa vurduqdan sonra o, Culfaya qayıdır və əmisinin yanında ticarət mühasibi kimi əmək fəaliyyətinə başlayır.

1907-ci ilin yanvarında Nəcəfqulu Nəcəfov jandarm idarəsi tərəfindən həbs olunur. Üç aydan sonra onu İrəvan Quberniyasından Vladiqafqaza sürgün edirlər.

Həmin ilin payızında onun Naxçıvana qayıtmasına icazə verilir. Təqib olunacağından qorxan Nəcəfqulu Naxçıvanı deyil, Tiflisi seçir. 1910-cu ildə Naxçıvana qayıdan Nəcəfqulu özəl idarələrdən birində mühasib işləyir.

1912-1915-ci illərdə İsfahanda kontor müdiri və anbardar vəzifəsində çalışır. Burada ona 8 ay həbs cəzası verilir. Həbsdən azad olandan sonra - 1916-cı ilin dekabrından 1920-ci ilədək Naxçıvanda müxtəlif kooperativlərdə mühasib işləyir. 1917-ci ildən Naxçıvandakı "Hümmət" təşkilatının katibi vəzifəsində olan Nəcəfov, 1920-ci ildən sonra bir sıra

[162] DTX-nin arxivi. Bəhlul Behcətin istintaq qovliğu, PR - № 30693

yüksək, məsul vəzifələrdə çalışır. 1922-ci il martın 8-dən 1923-cü ilin iyuluna kimi RSFSR-in Türkiyədəki səfirliyində tərcüməçi diplomat kimi fəaliyyətini davam etdirir.

Bu şəxsiyyətin taleyinin 30-cu illər dövrü barədə məlumat istintaq qovluğunda mühafizə olunduğundan indi həmin qovluğa müraciət edək.

Naxçıvan XDİK-in rəis müavini dövlət təhlükəsizlik baş leytenantı Vakulçik tərəfindən 10 sentyabr 1937-ci ildə Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu barədə də arayış tərtib edildi. Vakulçik göstərirdi ki, Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu – 1881-ci il təvəllüdlü, 1921-ci ildə Ü(b)KP-dan israfa görə xaric edilmiş, mühasib, Naxçıvan şəhər sakinidir. O, 1921-cı ildə 16000 rubl israfa görə partiya sıralarından xaric edilmişdir.

1924-cü ildən başlayaraq sistemli şəkildə xarici dövlət nümayəndələri ilə əlaqə saxlamış, casus xarakterli fəaliyyət göstərmişdir.

Agentura məlumatlarına və özünün 30 sentyabr 1937-ci ildə verdiyi ifadəsinə görə ifşa olunmuşdur.

Onun həyat yoldaşının doğma qardaşı, çar və müsavat ordusunun keçmiş zabiti Tahirov Bağır İrandadır. Nəcəfqulu Nəcəfov və həyat yoldaşı Nazlı Nəcəfova onunla konsulluq və poçt vasitəsilə əlaqə saxlamışdır[163].

Nəcəfqulu Nəcəfovun sorğu anketi

1881 ci il təvəllüdlü
Naxçıvanda doğulmuş
Naxçıvan şəhər sakini
Peşəsi - mühasib
Atası Məmmədhüseyn Naxçıvanda ev kirayəsi ilə məşğul olub
Partiyalılığı: 1921-ci ilə qədər AK(b)P üzvü olmuş və israfçılığa görə partiya sıralarından xaric edilmişdir.
Ailə tərkibi: Yoldaşı Nazlı 43 yaş, oğlu və bir qızı (uşaqların adı verilməyib – C.Q.)
13 Oktyabr 1937-ci il[164].

Onu da diqqətə çatdırmalıyıq ki, Nazlı Məmmədağa qızı Tahirovanın həbsindən sonra Şulan, Cəmilə, Şəfiqə və Namiq adlı kiçik yaşlı övladı olmazın əziyyəti ilə üz-üzə qalmışlar. Məlumdur ki, Nəcəfqulunun həbsi ilə əlaqədar olaraq Nazlı Nəcəfovanı (Tahirovanı) da vətən xain-

[163] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.
[164] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.

inin arvadı kimi həbs edib Qazaxıstana sürgün etdilər. Uzun illər Qazaxıstanda sürgündə qalandan sonra, Azərbaycana qayıdan Nazlı xanımı Naxçıvana buraxmırlar. Məcburi surətdə Göyçayda yaşayır. Xeyli vaxtdan sonra onun Naxçıvana getməsinə icazə verilir. O, 1977-ci ildə Naxçıvan şəhərində vəfat edir.

Nəcəfqulu Nəcəfovun istintaq qovluğunda tərcümeyi-halı da var. Biz onun əhəmiyyətli bir sənəd olduğunu nəzərə alaraq onu burada oxuculara təqdim etməyi məqsədəuyğun hesab etdik.

Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun yazdığı tərcümeyi-hal

Mən 1881-ci ildə may ayında Naxçıvanda doğulmuşam. Atam əmlakı olan evi kirayə verirdi. 1893-cü ildə mən Naxçıvan şəhər 3 sinifli peşə məktəbinə qəbul olmuşam. 1934-cü ilin mayında atam vəfat etdi və mən əmimin qəyyumluğu altında təhsilimi davam etdirdim.

1900-cu ildə mən könüllü olaraq Culfa gömrüyündə mirzə kimi işə başladım və 8 ay fəaliyyət göstərdim. 1901-ci ilin sentyabr ayında mən Tiflisə praktiki mühasibat kurslarında oxumağa getdim. Sonra mən Naxçıvana qayıdıb əmimin yanında 1904-cü ilin aprelinə qədər hesab-ekspeditor işini apardım.

1904-cü il 8 apreldən 1905-ci ilin aprelinə qədər mən Culfa –Təbriz şosesinin tikintisində təchizatçı Hacıyev Məmməd Hüseynin yanında hesab işini apardım. 1907-ci ilin yanvarına kimi qardaşımın yanında işlədim, 3 yanvar 1907-ci ildə İrəvan jandarm idarəsi ilə gizli əksinqilabi fəaliyyətimə görə həbs olundum. 3 aydan sonra İrəvan quberniyasından Vladiqafqaza sürgün edildim. Burada gizli fəaliyyətimə görə 2 dəfə həbs olunduqdan sonra Dərbəndə sürgün edildim. Dərbəndin əvəzinə Tiflisə gəldim və qanunsuz şəkildə bir dostumun yanında yaşadım. 1907-ci ilin noyabr ayının sonunda mən Naxçıvana gəlməyə icazə aldım. Naxçıvana qayıdan kimi Ələmdarda, daha sonra Xoyda inqilabda iştirak etdim. Məmmədəli şahın devrilməsindən və çar ordusunun İrana gəlməsindən sonra mən polis tərəfindən izlənəcəyimdən qorxaraq Naxçıvana yox, Tiflisə gedib 1909-cu ilin aprelinə qədər orada qaldım. Sonda axtarışın dayandırılmasından əmin olub Naxçıvana qayıtdım. 1910-cu ilin mayına qədər işsiz qaldım.

1910-12-ci illərdə fərqli şəxslərin yanında hesab işində işləmişəm. 1912-ci ilin dekabrında İranda anbar rəhbəri vəzifəsinə işə düzəldim. İran inqilabçılarına kömək etdiyim üçün israf çox olmuşdur. 1916-cı ildə cə-

zam bitincə mən qayıdıb Qurbanovun dəri istehsalı zavoduna mühasib vəzifəsinə işə götürüldüm. 1919-cu ildə daşnak hökumətinin gəlişindən sonra işdən uzaqlaşdırıldım. Daşnaklar qovulduqdan sonra 1919-20-ci illərdə Naxçıvanda maliyyə idarəsində baş mühasib vəzifəsində işlədim.

Mənim Hacı Mir Bağırov, Mir Heydərzadə və müəllim Abdul Azim Rustamoviçlə Naxçıvandan tanışlığım var. Bakıda Yusif Rzayevlə və Qasım Camalbəyovla sıx əlaqəm var. Bakıda qohumlarım arasında Rzaqulu Nəcəfov- müvəqqəti olaraq rus dilindən türk dilinə kitab tərcüməsi ilə məşğul olan əmim oğlum var. Tiflisdə Əşrəf Yüzbaşovla (o, Gürcüstan KP üzvüdür) və İsmayıl Camalbəyovla (o, Naxçıvanlıdır) tanışlığım var[165].

30 sentyabr 1937-ci ildə Naxçıvanda NKVD-nin məhbəsində N.Nəcəfovun dindirilməsi prosesi başlayır.

Sual - İstintaqa xarici ölkə nümayəndələri ilə əlaqələrinizdən danışın.

Cavab - Naxçıvan sakini olan və 1925-ci ildə güllələnən Bağırov Hacı Mehdi ilə mənim dostluq münasibətim var idi. 1904-cü ildə mən axşam onun evinə getdim. Orda mən İran konsulu vəzifəsinin icraçısı İsxiqevani Xudadat xanla tanış oldum. Sonra biz üçümüz çaxırla şam yeməyi yedik və çadranın çıxarılmasından danışdıq. Mən qadının azad olunmasından danışırdım. Bu söhbətlərdən sonra biz ayrıldıq. O gündən sonra mən Xudadatxanla mütəmadi görüşdüm, o, bizə gəlirdi, mən onun mənzilində olmuşam. Biz içib, müxtəlif mövzularda danışırdıq.

Sonuncu dəfə o, Naxçıvandan gedərkən görüşmüşəm. 1925-ci ildə Xalq Komissarı həbs olunarkən o, məndən onların həbs səbəbini və yeni təyin olunan xalq komissarının mədəni səviyyələrini, onların yaxşı işçi olub-olmamalarını soruşdu. Mən ona xalq komissarının əsl həbs səbəblərini izah etdim və yeniləri barədə heç bir məlumatım olmadığını söylədim, çünki onlar Bakıdan gəlmişdilər. Xudatxanın gedişindən sonra onun vəzifəsi, yəni İranın Naxçıvandakı Konsulu vəzifəsi Maxodnasr Abbasxan təyin edildi. M. Abbasxan Naxçıvana gələr gəlməz öz katibi Alixan ilə mənim evimə gəldi. Mən onları dəvət etməmişdim, lakin qəbul edib, çay təklif etdim. O, dedi ki, ona mənim barəmdə Xudatxan danışdı, daha sonra söhbət etdik, o, İrandakı mən isə SSR-dəki həyatdan danışdıq. Daha sonralar mən və yoldaşım onun evində olduq, o, bizə şam yeməyi və qəribə içkilər təqdim etdi.

[165] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.

Mən həmçinin Səfərəlibəyov Kərbəlayı Ağa ilə uşaqlıqdan tanışam. O, 1933-cü ildən konsulluqda, bundan əvvəl isə müxtəlif sovet müəssisələrində işləmişdir. 1934-cü ildə mənim yanıma əmim oğlu Nəcəfov Rzaqulu gəldi. Mən Rzaqulu ilə Səfərəlibəyovun yanında nahar vaxtı olduq. Səfərəlibəyov öz ailə vəziyyətindən, Rzaqulu isə əsir düşərgələrindəki vəziyyətdən danışdı. 1935-ci ildə Səfərəlibəyov İranda işlə bağlı səfərdə olanda, İrandan mənim həyat yoldaşım Nəcəfova Nazlı xanıma, 1900-cü ildə İrana getmiş, bundan əvvəl çar ordusu və Qızıl Ordunun zabiti olmuş, qardaşı Tahir Bağırovdan məktub gəldi. Nazlı xanım Tahirə cavab yazdı və konsulluq vasitəsi ilə göndərilməsi üçün Səfərəlibəyova şəxsən çatdırdı. Səfərəlibəyov mənə bildirdi ki, məktub Tahirə göndərildi. Səfərəlibəyov mənə dedi ki, Tahir Bağırov Tehran yaxınlığında şosse yolunda işləyir. İmza. N.Nəcəfov[166].

Müstəntiq Nəcəfqulu Nəcəfovdan 12 oktyabr 1937-ci il dindirməsi zamanı İranda yaşayan qaynı ilə əlaqələrindən danışmağı, ona Səfərəlibəyov vasitəsi ilə göndərdiyi məktublar barədə məlumat verməyi tələb edir.

Nəcəfqulu Nəcəfov bildirir ki, bəli, Səfərəlibəyov İran Konsulluğunun əməkdaşı olarkən, mən ona qohumum Tahir Bağırova çatdırmaq üçün məktub vermişəm. Həmçinin bundan öncə mən ondan Bağırovun məktubunu almaq üçün görüşdüm. Səfərəlibəyov mənə dedi ki, Tahir Bağırovla şəxsən görüşüb və o, Tehran yaxınlığında şosse yolunda işləyir.

Deyilənləri təsdiqləmək üçün baş leytenant Vakulçik elə həmin gün Nəcəfqulu Nəcəfovun həyat yoldaşı, 1893-cü il təvəllüdlü, Naxçıvan şəhər sakini, Naxçıvan şəhər beynəlxalq məktəbinin müəllimi Nazlı xanımı da şahid (bir müddət sonra Nazlı xanım da həbs edilir və şahiddən müttəhimə çevrilir – C.Q.) qismində dindirir.

Sual: - Xarici dövlət nümayəndələri ilə münasibətlərinizin xarakteri barədə məlumat verin.

Cavab: - Mən yoldaşımla birgə İran konsulluğunun əməkdaşları ilə - Xudatxan, Kərbəla Qafar ağa Səfərlibəyovla görüşmüşük. Səfərlibəyovla mən şəxsən 1921-ci ildən İranda yaşayan qardaşım Tahirov Bağıra ünvanladığım məktubu çatdırmışam. Sonra Səfərlibəyovla vasitəsilə qardaşımdan məktub almışam. Mənim qardaşım Tahirov Bağır çar ordusunun və Qızıl ordunun zabiti olmuş, sonra İranda əsir alınmış və ondan sonra orada qalmışdır. İmza: Nazlı Nəcəfova[167].

[166] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.
[167] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.

Bununla da istintaq başa çatır. Dindirmə protokollarına diqqət yetirsək görərik ki, müstəntiqlər qarşılarına qoyduqları məqsədə çox asanlıqla çatırlar. Onların hər üçü asanlıqla İranla əlaqələrindən danışır. Hətta Rzaqulu və Nəcəfqulu casusluq fəaliyyəti ilə məşğul olduqlarını da etiraf edir. Aşağıda da görəcəyik ki, əslində bunlar fiziki işgəncələr yolu ilə alınmış ifadələr idi.

***

Əməliyyat işçisi çavuş Babacanov 15 oktyabr 1937-ci ildə 2955 saylı cinayət işına baxaraq aşağıdakı kimi təqsirləndirici qərar hazırlayır. Mən Az.SSR XDİK-in 5 nömrəli əməliyyat müfəttişliyinin əməliyyat işçisi çavuş Babacanov 2955 saylı cinayət işına baxıb

1) Nəcəfov Rzaqulu Ələkbər oğlu - 1885-ci il təvəllüdlü, SSRİ vətəndaşı, azərbaycanlı, Naxçıvan MSSR sakini, hazırda məşğuliyyəti olmayan, 1929-cu ildə UK(b)P-dan xaric edilmiş, 1931-ci ildə casusluqda təqsirli bilinərək 3 illik əsir düşərgəsinə sürgün olunmuş, savadlı, evli

2) Nəcəfov Nəcəfqulu Məmməd Hüseyn oğlu- 1881-ci il təvəllüdlü, SSR vətəndaşı azərbaycanlı, Naxçıvan şəhər sakini, UK(b)P- dan 1921-ci ildə xaric edilmiş, savadlı, evli, məhkum olunmamış.

Nəzərə alıram ki, Nəcəfov Rzaqulu və Nəcəfqulu milliyyətçi mövqedə və əksinqilabi fəaliyyətdə olub:

a) Nəcəfov Rzaqulu Ələkbər oğlu əsir düşərgəsindən qayıdan kimi Bakıda Din Tarixi muzeyinə düzəlmiş və orada xalq düşmənləri ilə sıx əlaqədə olmuşdur. O, 1937-ci ilin yanvarında ifşa olundu və Naxçıvana getdi, evində əksinqilabi ədəbiyyat saxlayırdı.

Mütəmadi olaraq xarici ölkə konsulluqlarının nümayəndələri ilə, xüsusilə Qafar ağa Səfərəlibəyovla əlaqədə olub, sonuncu xarici kəşfiyyat üçün casus xarakterli məlumatların toplanması ilə məşğul olmuşdur.

b) Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu - 1924-cü ildən mütəmadi olaraq xarici kəşfiyyatla əlaqədə olmuş və onları casus xarakterli məlumatlarla təmin etmişdi.

Öz qaynı ilə (keçmiş müsavat zabiti) həyat yoldaşının qardaşı, İranda olan Tahirov Bağırla İran konsulluğunun əməkdaşı vasitəsilə yazılı əlaqə saxlayıb. Müttəhimlərin günahı öz ifadələri ilə, eləcə də işdə olan şahid ifadələri ilə və materiallarla sübut olunmuşdur.

Sadalananları nəzərə alaraq, vətəndaş Nəcəfov Rzaqulu Ələkbər oğlunun və vətəndaş Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun günahı təsdiq olunsun və vətəndaş Nəcəfov Rzaqulu Ələkbər oğlunun,

eləcə də vətəndaş Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun 2955 saylı cinayət işi Azərbaycan SSR Fövqəladə Üçlüyünə təqdim edilsin[168].

Az.SSR XDİK üçlüyü 21 oktyabr 1937-ci ildə 2955 saylı cinayət işinə baxaraq Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu, 1881-ci il təvəllüdlü və Nəcəfov Rzaqulu Ələkbər oğlu, 1885-ci il təvəllüdlü sürgündən qayıtdıqdan sonra casus Şeyx Kərimlə və İran Konsulluğunun əməkdaşı Kərbəlayı Qafar Ağa Səfərəlibəyovla casus xarakterli məlumatlar çatdırmaqda müqəssir bilinirlər. Fövqəlaldə üçlük qərara alır ki, 27 sentyabr 1937-ci ildən həbsxanada olan N.Nəcəfqulu və R.Nəcəfov əmlakları müsadirə edilməklə GÜLLƏLƏNSİNLƏR[169].

Azərbaycan SSR XDİK-in Fövqəladə üçlüyünün 21 oktyabr 1937-ci il tarixli qərarı ilə Nəcəfov Rzaqulu Ələkbər oğlu və Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu 29 noyabr 1937-ci ildə saat 2:50 də güllələndilər.

İ.V.Stalinin ölümündən sonra bir çox repressiya qurbanları kimi, Nəcəfovların da reablitasiya məsələsi gündəmə gəldi. 10 avqust 1956-cı ildə AZ.SSR prokurorunun müavini Baş Ədliyyə Məsləhətçisi İsmayılov AZ.SSR ALİ MƏHKƏMƏSİNİN KOLLEGİYASINA ünvanladığı etirazda göstərilirdi. Az.SSR XDİK-in Fövqaəladə üçlüyünün 21 oktyabr 1937-ci il qərarı ilə Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu və Nəcəfov Rzaqulu Ələkbər oğlunun işi ilə əlaqədar güllələnmə hökmü yerinə yetirilmişdir.

İşə baxılarkən aşkar olundu ki, Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun və Nəcəfov Rzaqulu Ələkbər oğlunun əksinqilabi fəaliyyətləri Naxçıvandakı MSSR İran Konsulluğunun əməkdaşları olan Səfərəlibəyov, Xudatxan və Mxadcaranın evində qonaq olmalarından ibarət idi.

Bundan əlavə, göstərilir ki, Nəcəfov Rzaqulu Ələkbər oğlu xalq düşməni Vəzirov Heydərlə sıx əlaqədə olub[170].

Nəcəfov Rzaqulu Ələkbər oğlu və Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu istintaqda bildirmişlər ki, həqiqətən onlar İran Konsulluğunun əməkdaşlarının evində qonaq olmuşlar, lakin bu, yalnız dostluq xarakteri daşımışdır.

İşin materialından görünür ki, N.M.Nəcəfov İranda olan qaynı Tahirov Bağır ilə yazılı əlaqəni İran Konsulluğunun əməkdaşı vasitəsilə

[168] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.
[169] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR - № 22897.
[170] DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovliğu, PR - № 22897.

saxlamışdır. Lakin bunu həyat yoldaşı və özü gizlətməmiş, təsdiq etmişdir.

Hətta Nəcəfovun evində axtarış zamanı qaynına yazdığı məktub tapılmışdır, lakin məktub işin materialları arasında yoxdur və məktubun məzmunu barəsində məlumat yoxdur.

N.M.Nəcəfovun və R.Ə.Nəcəfovun casusluq fəaliyyətləri barəsində dəlil yoxdur. R.Nəcəfovun sıx əlaqədə olduğu "xalq düşməni" Heydər Vəzirov isə 17 dekabr 1955-ci ildə bəraət almışdır.

Qeyd olunana əsaslanaraq

Xahiş edirəm

Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu və Nəcəfov Rzaqulu Ələkbər oğlu ilə bağlı Az.SSR XDİK-in xüsusi üçlüyünün 21 oktyabr 1937-ci il qərarına xitam verilsin.

Bu müraciətdən sonra, Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət işləri üzrə məhkəmə kollegiyası 18 avqust 1956-cı ildə qərara alır ki, Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlunun və Nəcəfov Rzaqulu Ələkbər oğlunun işlərinə xitam verilsin.

25 noyabr 1955-ci ildə Nəcəfqulunun qızı Şəfiqə xanım atasının taleyi ilə maraqlanır, Naxçıvan DTK-nın aidiyyatı əməkdaşları bildirir ki, sizin atanız 1941-ci ildə həbsxanada qan təzyiqindən vəfat edib. Yalnız müstəqillik əldə etdikdən sonra arxivlər xalqın ziyalı oğullarının üzünə açıldı, təhriflərə məruz qalan tariximiz təshih olunmağa başladı.

BƏKİR ÇOBANZADƏ, YAXUD İNTELLEKT TƏFƏKKÜRƏ EDİLƏN QƏSD

Bəkir Çobanzadənin həyatı

Türk xalqlarının dilinin, ədəbiyyatının, folklorunun, bütövlükdə mədəniyyət tarixinin araşdırılmasında müstəsna xidmətlər göstərmiş, türkologiya sahəsində ilk elmlər doktoru (1920) və professor (1922) olan görkəmli ziyalı alim, şair, ictimai xadim və böyük düşüncə sahibi olan Bəkir Çobanzadə 1893-cü il may ayının 15-də Krım quberniyasının Qarasubazar bölgəsinin yaxınlığında yerləşən Arqun kəndində "tavanı torpaq olan köhnə bir evdə" anadan olmuşdur. Onun zəhmətdən yoğrulan atası Vahab kişi çobanlıq edər, anası Zübeydə xanım isə özgələrinin qapısında paltar yuyar, çox zaman isə işsiz qalardı. Bu səbəbdən də böyük ailəni çətinliklə dolandırardılar. Bu xüsusda Çobanzadələr ailəsinin sağ qalan yeganə qızı Zuleyha öz xatirələrində yazırdı ki, atamla anamın evliliyindən 8 uşaq dünyaya gəlmişdi. Onlardan "İlki Zeynep, yedi aylıq doğıp, bir-eki saat yaşap öle. Ekinci Seyid-Salih üç-dört yaşında vefat ete. Üçüncisi Seyid-Bekir ola: "Anam üçünci balasını doğura, o da oğlan ola, adını Seyid-Bekir qoyalar." Dört-üncisi Hatice beş yaşında vefat ete. Daa Ediye ve Qurttotay adlı qızları ola, lakin olar da, biri 4-5, ekincisi 3-4 yaşlarında apansızdan öleler. Yedincisi Zılha doğa». Səkkizinci uşaq Zuleyha xanımın özü idi. Zuleyha xanımın xatirələrindən onun adının qardaşı Bəkir tərəfindən qoyulduğunu öyrənirik. "Menim adımı bahtsız ağam professor Bekir Çobanzade, molla aqaynın aldına çıqıp: "Kademnin adını Zuleyha-Şerfe dep qoyınız! Eger qoymazsanız, ne baqarım, ne kadem dermen, beşikni yıqar qaçarman!" degen. Molla aqay ve anam, babam da, munasip körip, adını Zuleyha qoyğanlar".[171]

Böyük və faciələrlə dolu ailənin gəliri Bəkirin təhsil almasına və hətta ondan 11 yaş kiçik olan bacısı Zuleyhanın (1904-1985) lazımi səviyyədə qidalanmasına belə yetmirdi. Lakin kiçik Bəkir bütün çətinliklərə baxmayaraq Qütbəddin adlı bir kənd mollasının yanına gedər, ondan dərs alar, müqabilində isə muzdur kimi mollanın bütün işlərini görərdi.

[171]Sitat Nəriman Abdulvapovun internetdə yerləşdirdiyi «Zuleyha Çobanzadənin hatıralarında ağası Bekir Çobanzadeye dair bilgiler» adlı məqaləsindən götürülmüşdür.

O, ilk yazı-pozunu da, qələm tutmağı da, Şərqin böyük mütəfəkkir alim və şairlərinin əsərlərini oxumağı da bu kənd mollasının verdiyi bilgilər sayəsində öyrənmişdi. 10 yaşına çatan Bəkiri atası Vahab kişi təhsildən ayırır və özü ilə qoyun otarmağa aparır. Bəkir Çobanzadənin bəzi araşdırıcıları onun "7-8 yaşlarından yaz aylarında Karabay yaylasında çobanlıq etdiyini bildirir". Gənc Bəkir şeirlərinin birində bu xüsusda yazırdı.

Kiçik bir çobandım mən on yaşımda,
Dəyəmi qurmuşdum dağın başında.

«İzin verin» şeirində isə şair öz soy-kökünü poetik dillə belə ifadə edirdi:

Soyumda mirzə yox, nə də varlı xan,
Anam sadə qadın, atam bir çoban.

Həyatın onlara bəxş etdiyi böyük çətinliklərə baxmayaraq, bu kiçik çoban qoyun otarmaqla məşğul olsa da, kənd mollası ilə əlaqəsini kəsməmiş, ondan Qurani-kərim və çərəkə ilə yanaşı klassik şairlərin (Nizaminin, Füzulinin, Xəyyamın, Hafizin, Sədinin və b.) şeirlərini oxumaq və öyrənmək imkanı əldə etmişdir. Zuleyha xanım xatirələrində göstərirdi ki, "Anam bizim ilimli olğanımızını can-yürekten ister idi, "ilim qazanı aç qalmaz, ilim qazanı otsız, ocaqsız qaynar"[172] – deyir və qeyd edirdi ki, anam bizi gələcəkdə alim yapmaqda çox israrlı idi.

Şübhəsiz ki, anasının israrlı istəyi, Bəkirin istedadı və elmə olan marağı onu qoyun otarmaqla kifayətləndirə bilməzdi. O, özüdə **«Atamın cütündən daha kar aşmaz, atamın çubuğu mənə yaraşmaz» - deyərək çobanlıqdan uzaqlaşır. Beləliklə də Bəkir atasının qoyun çomağını qələmə dəyişir və elmin, maarifin arxasınca düşür.** Elmə olan həvəs onu 1906-cı ildə Qarasubazardakı yeni üslublu gimnaziyanın nəzdində fəaliyyət göstərən «Rüşdiyyə» məktəbinə gətirib çıxarır. Bəkir elmi, savadı, intellekt təfəkkürü və bacarığı ilə qısa müddətdə müəllim və şagirdlərin sevimlisinə çevrilir. Bu sevimli tələbədən imtahanı dövrünün tanınmış ziyalıları olan İsmayıl bəy Qaspirallı (1851-1914) və Həsən Səbri Ayvazov (1878-1938) götürür. Bəkir bunlardan nəinki əla qiymət

[172] Sitat Nəriman Abdulvapovun internetdə yerləşdirdiyi «Zuleyha Çobanzadənin hatıralarında ağası Bekir Çobanzadeye dair bilgiler» adlı məqaləsindən götürülmüşdür.

alır, üstəlik Çobanzadə soy adını da qazanır. Artıq rəvayətə çevrilmiş həmin hadisə günümüzə bu şəkildə gəlib çıxmışdır. İmtahan vaxtı növbə Bəkirə çatanda müəllimləri Həsən Səbri Ayvazov və böyük türkoloq alim İsmayıl bəy Qaspirallı onu imtahan verməyə dəvət edir. Lakin Bəkir əynindəki nimdaş, yamaqlı və köhnə paltarlarından utandığı üçün qabağa çıxmaq istəmir. Bunu başa düşən müəllimlər özü Bəkirə yaxınlaşır. O isə elə bil bunu gözləyirmiş kimi, uca səslə dil-dil ötməyə başlayır:

- Nə istəyirsiniz, müəllim, soruşun. Sədidən, Hafizdən, Füzulidən sual verin, hamısını əzbər deyəcəyəm. Qurani-Kərimdən soruşun...

Həsən Səbri gülümsünüb köksünü ötürür və ona yaşına görə çətin sayılan suallar verir. Bir-birinin ardınca mürəkkəb sualları cavablandıran uşaq Həsən Səbrinin marağını çəkir və o, həmkarını yanına çağıraraq deyir:

- İsmayıl bəy, sən Allah, bir baxın, burada bir dərya var!

Uşaqdan adını və soyadını soruşurlar. Adını deyir, amma soyadı olmadığı üçün heç nə deyə bilmir.

Yoldaşları onun kəndin çobanının oğlu olduğunu bildirirlər. Müəllimləri də belə qərara gəlirlər ki, onun soyadını "Çobanzadə" yazsınlar. Beləliklə də Rüşdiyyə məktəbinə Bəkir kimi daxil olan bu qeyri-adi istedadlı gənc həmin məktəbi Bəkir Çobanzadə kimi bitirir.

1909-cu ildə Rüşdiyyə məktəbini əla qiymətlərlə bitirən Bəkir Müsəlman Xeyriyyə Cəmiyyətinin köməyi ilə təhsilini davam etdirmək üçün İstanbula gedir. Lakin Bəkir Çobanzadəyə İstanbulda təhsil almaq, məktəbə girmək deyil, çayçı yanında şagird işləmək qismət olur. Səbəb, həmin vaxt Sultaniyyəyə qəbulun başa çatması, başqa sözlə, Bəkirin sənəd qəbuluna gecikməsi idi. İstanbulda Krım tələbə cəmiyyətinin sədri Cəfər Seyid Əhmədlə tanış olan Bəkir onun köməkliyi ilə "Sultaniyyə" məktəbinə daxil olur. O, məktəbin nəzdində fəaliyyət göstərən ərəb, fars və fransız dili kurslarına da gedir. Türkiyədə "Müstəqil tatar Krımı" ideyaları ilə yaşayan Tələbə Cəmiyyətinin yaradıcılarından və rəhbərlərindən birinə çevrilir. Bəkir Sidqi gənclərin siyasi hazırlığına önəm verir və bunun üçün maarifçiliyi əsas götürürdü.

1915-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirən Bəkir Çobanzadə İstanbul Universitetinin Ədəbiyyat fakültəsinin azad dinləyicisi olur. Həmin universitetin professoru macar əsilli Mesaroşun məsləhəti ilə 1916-cı ildə Macarıstana gedərək Peter Pazmani Universitetinin Fəlsəfə fakültəsində təhsilini davam etdirir. İlk illər onun üçün müəyyən çətinliklər olsa da özünün dediyi kimi «fövqəladə qeyrətlə» çalışaraq macar dilini, macar ədəbiyyatını və macar tarixini mükəmməl öyrənir.

Bu xüsusda B.Çobanzadə qohumu Həmdi Atamana göndərdiyi məktubunda yazırdı: "Bu ilin axırında müdhiş imtahanlarım var. Fövqəladə qeyrətlə çalışmam lazımdır. Macarıstanda anadan olan və 12 ildən bəri macarca oxuyan, öyrənən macarlarla bərabər macar ədəbiyyatından, tarixindən imtahan verməm lazımdır. Müvəffəq olduğum təqdirdə böyük şərəf və etibar, kəsilsəm məni abdallıq və mərhəmətsizlik hökmləri gözləyir. İndiyə qədər bütün qeyrətim macar dilini mümkün olduğu qədər mükəmməl surətdə öyrənməyə sərf olundu. Artıq bu xüsusda digərlərindən fərqli deyiləm. Bəzən qüvvəm tükənsə də, inadım və arzum tükənmir. Budlapeşt. 17 sentyabr 1917".[173]



Budapeştdə məşhur şərqşünaslardan İqnas Qoldziher və Qyula Nemetin mühazirələrini dinləyir. İ.Kunoşun rəhbərliyi altında yazdığı «Qıpçaqların Codex Cumanicus yazılı abidələri və türk dillərində tələffüzün təməl problemləri» doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. Tanınmış alim Vilayət Quliyevin təbirincə desək "onun elmi əsəri Kodeks Kumanikus" adı ilə tanınan, 1303-cü ildə venesiyalı missionerlər tərəfindən yazıya alınan nadir kuman mətnlərinə-qədim qıpçaq dili abidəsinə həsr olunmuşdu. Lakin təəssüf ki, alimin bir sıra əsərləri kimi doktorluq dissertasiyasının əlyazması, yaxud hər hansı başqa nüsxəsi qorunub saxlanmamışdır. Yalnız adı bəllidir. Həmin ad isə müxtəlif mənbələrdə fərqli şəkildə göstərilir. Məsələn, F.Aşnin (Bekir Vaqapoviç Çobanzade, "Narodı Azii i Afriki", 1967, N 1, s.212) dissertasiyanın adını "Mnimıe naruşeniya assimlyasii qlasnıx v Kodexe Kumanikuse", S.Naqayev ("Mədəni inqilab əsgəri", Daşkənd, 1991. s.17) "Kodeks Kumanukus yazma edebi yadigarlıqı ve türki dillerde artikulyasiyanın temeli problemleri", azərbaycanlı alimlər A.Tağızadə və Ə.Quliyev ("Professor Bekir Vaqab oqlu Çobanzade", "Sovetskaya tyurkologiya", 1990, N 6, s.78) "Kajuşiesya sinqarmoniçeskie nesootvetstviya v Kodekse Kumanikuse i problema artikulyasionnoy bazı v tyurkskix yazıkax", çağdaş türk alimi İ.Otar "Kıpçaqların Kodeks Kumanikus yazma edebi abideleri ve türki dillerdə teleffuzun temel problemleri" ("Krımlı türk şair ve bilgini Bekir Sidqi Cobanzade". İ, 1999, s. 16) şəklində vermişlər.

[173] Bəkir Çobanzadə. Seçilmiş bədii əsərləri. (Tərtib edəni Ramiz Əskər), Bakı, 2012, s. 230.

Polşa türkoloqu Henrix Yankovskinin dissertasiyanın mətnini tapmaqla bağlı axtarışları uğurla nəticələnməmişdir. Lakin macar həmkarı İştvan Mandoki ona 1963-1968-ci illərdə Budapeşt Universitetində türkologiya üzrə ixtisas kursu keçərkən Çobanzadənin dissertasiyasını gördüyünü, hətta oradan bəzi qeydlər götürdüyünü bildirmişdi. Mandokinin dediyinə görə əsər yüksək elmi tələblərə cavab verən şəkildə hazırlanmışdı. Macar aliminin vaxtsız vəfatından sonra Kodeks Kumanikusa aid tədqiqatla bağlı izlər yenidən itirilmişdir. Çox güman ki, Macarıstan arxivlərində daha diqqətli axtarışlar aktuallığını itirməyən bu maraqlı elmi tədqiqatın izinə düşməyə imkan yaradardı.

Professor Vilayət Quliyevin verdiyi bilgiyə görə, Bəkir Çobanzadənin həyatının Budapeşt dövrü və təhsil illəri ilə bağlı ən son sənədlərdən biri də H.Yankovski tərəfindən aşkara çıxarılmış və Macarıstan EA-nın "Acta Orientalia" məcmuəsində çap edilmişdir. Bu "doktor Bəkir Sidqinin" universitet rektorunun adına yazdığı 15 oktyabr 1919-cu il tarixli ərizədir. Ərizədən onun 1916-cı il oktyabrın 12-də universitetdə dərslərə başladığı, burada altı semestr təhsil aldığı, 1918-ci ilin mayında əsas, 1919-cu ilin aprelində isə xüsusi imtahanları verdiyi bildirilir. Yaxın dövr tədqiqat layihəsi kimi professor Gyula Nemetin təklifi ilə "Türk nəsrinin tarixi" adlı əsər üzərində işləmək istədiyi qeyd olunur. Budapeştdə qalması isə aşağıdakı şəkildə əsaslandırılır: "Son beş-altı ildə vətənimlə heç bir əlaqəm olmayıb. Heç bir yerdən maddi dəstək təmin edə bilmədiyimdən Konstantinopola getməyim imkan xaricindədir. Həm də belə səyahət çətin və olduqca bahadır".

A.B.Taymasın məlumatına görə, B. Çobanzadə 1919-cu ildə (S.Naqayev, A.Tağızadə və Ə.Quliyevin fikrincə 1920-ci ildə) Budapeşt Universitetindən "Türk filologiyası. Ərəb ədəbiyyatı. Macar ədəbiyyatı tarixi üzrə fəlsəfə doktoru" diplomu almışdır. Maraqlıdır ki, diplom hicri "9 Kanuni-əvvəl 1334-cü il" tarixi ilə həmin dövrdə Peşt şəhərində fəaliyyət göstərən osmanlı konsulluğu tərəfindən də təsdiq edilmişdi. Lakin nədənsə diplom öz sahibində deyil, krımlı lider Cəfər Seyidəhməd Krımerdə qalmışdı. Doktor Xaqan Kırımlı hazırda həmin diplomun əslinin Krım tatarlarınını Ankaradakı "Emel" fondunun arxivində saxlandığını yazır[174].

Aldığı mükəmməl təhsillə vətənə qayıdan Bəkir Çobanzadə Tutayk pedoqoji texnikumunda müəllim, eyni zamanda Tatarıstan Xalq Maarif Komissarlığında tatar dili şöbəsinin müdiri vəzifəsində çalışır. Xalqın

[174] Quliyev V. Bəkir Çobanzadə Budapeştdə, «525-ci qəzet», 2010, 30 oktyabr.

maariflənməsi ilə yanaşı onların siyasi azadlıqları uğrunda da mübarizəyə qoşulur və Krımda fəaliyyət göstərən milli firqənin ideoloqlarından birinə çevrilir.

Bəkir Çobanzadə 1921-ci ildə Krım universitetinə dəvət edilir və Şərq fakültəsinin professoru kimi Krım-tatar dili və ədəbiyyatından mühazirələr oxuyur. Göstərdiyi işgüzarlığı, elmi erudisiyası, dövri mətbuatda aktual problemlərə həsr olunmuş elmi-publisist yazılarla çıxışları, kollektiv arasında və ədəbi-elmi mühitdə qazandığı nüfuz 1924-cü ildə onu həmin universitetin rektoru kürsüsündə əyləşdirir. Bəkir Çobanzadənin rəhbərliyə gəlişindən sonra Krım universitetində həm elmi, həm pedoqoji, həm də təşkilati sahədə canlanma müşahidə olunur. Lakin buna baxmayaraq müəyyən qaraguruhçu qüvvələrin tənqid hədəfindən də yan keçə bilmir.

Bəkir Çobanzadənin faciəli taleyi

1920-1950-ci illərdə Azərbaycan ziyalılırının ittihamı dövri mətbuatdan başlanırdı. Elə bir total sistem yaradılmışdı ki, prokuror və ya hakim funksiyasını əvvəlcə ziyalıların özləri həyata keçirirdi. Belə ki, ziyalılar bir-birini qəzet və ya jurnal səhifələrində tənqid edir, özlərini siyasi sayıqsızlıqda, millətçilikdə, marksizmi və leninizmi lazımınca mənimsəməməkdə ittiham edirdilər. Belə demək mümkünsə, ziyalılar əvvəlcə "sovet tənqidçiləri", sonra isə "sovet müstəntiqləri" tərəfindən ittiham edilirdi. Bu yol həmin ziyalını qəzet səhifəsindən və ya qəzet sütunundan, daha doğrusu, mətbuatdan məhbəsə, Xalq Daxili İşlər Komissarlığının (XDİK, rus dilində NKVD) zindanına aparırdı. Dövri mətbuatda belə ittihamlara məruz qalanlardan biri də Bəkir Çobanzadə idi.

Bəkir Çobanzadəyə qarşı yönəlmiş hücumlar başlanğıcını, öz vətənindən – Krımdan alırdı: "Son dövrdə Bəkir Çobanzadə daha ziyadə gizli, fəqət əvvəlki Çobanzadənin rəhbərliyi altında fəaliyyət göstərməklə milli firqənin general yolu indiki Çobanzadə üçün əsas bir yol olub qaldı"[175].

Göründüyü kimi, burada B.Çobanzadə alim kimi deyil, milli firqənin rəhbəri (generalı) kimi, yəni bir millətçi-siyasətçi kimi ittiham olunurdu. Lakin B.Çobanzadə ictimai mühitdə siyasətçi kimi yox, alim kimi tanındığından onun elmi yaradıcılığına münasibət bildirilməli, bu sahədəki siyasi baxışları gündəmə gətirilməli idi və gətirildi də. Belə ki,

[175] Sitat A.Babayevin «Bəkir Çobanzadə» monoqrafiyasından götürülmüşdür.

Bəkir Çobanzadənin 1924-cü ildə yazdığı "Türk-tatar lissaniyyətinə mədxəl" əsərində irəli sürdüyü türk dillərinin eyni kökdən, eyni ailədən olduğu ideyası bir çox alimlərə onu pantürkist adlandırmağa əsas verdi. B.Çobanzadə həqiqəti (pantürkist olmadığını) sübut etmək məcburiyyətində qalsa da həmin adamları inandıra bilmədi. Mikayıl Rəfili "Çobanzadənin burjua metodolojisi əleyhinə" məqaləsində adı gedən kitab barədə yazırdı: "Burada professor B.Çobanzadə türk-tatar xalqlarını vahid bir türk-tatar milləti kibi tədqiq edərək bu xalqların tarixi inkişafını vahid bir halda götürür və öz qarşısında türk-tatar dillərini ümumi bir əsas üzrə birləşdirmək vəzifəsini qarşıya qoyurdu»[176].



Maraqlıdır ki, 1924-cü ildə yazılmış bu kitab 30-cu illərin əvvəllərində müzakirə hədəfinə çevrilirdi. Bu yalnız Bəkir Çobanzadəyə qarşı deyil, bütövlükdə ziyalılara qarşı yönəlmiş siyasi aksiya idi. Ötən əsrin 20-ci illəri sənətin və sənət adamlarının «özəlləşdirilməsi», marksistləşdirilməsi, sovetləşdirilməsi illəri idisə 30-cu illər sovetləşməyənlərin məhv edilməsi mərhələsi idi. Daha doğrusu, bu proses – qarşı-qarşıya qoyma və ya sosializmin maraqlarına xidmət bolşevik partiyasının ziyalıların qarşısında qoyduğu tələb idi. Ona görə də tənqid həmin tələblərə dərhal reaksiya verməli və partiyanın tapşırıqlarını layiqincə yerinə yetirməli idi.

B.Çobanzadənin yaradıcılığındakı türkçülük meyilləri üzə çıxarılmalı, burjua konsepsiyası və ya pantürkizm adı ilə tənqid edilməli idi. B.Çobanzadə yaradıcılığındakı bu meyilləri ilk dəfə «görən və göstərən» Mikayıl Rəfili oldu: «Professor Çobanzadənin burjua konsepsiyası ətrafında ətraflı bir tənqid olmadan, bu konsepsiya bütünlüklə və amansız surətdə ifşa edilmədən Azərbaycanda türk-marksist ədəbiyyatşünaslığının müvəffəqiyyətli bir surətdə qurulması mümkün deyildi. Məsələ çox ciddidir professor Çobanzadənin adı ilə ədəbiyyat və lisaniyyət sahəsindəki bütün elmi tədqiqat işlərimiz, ədəbi, elmi və pedoqoji kadrların hazırlanması məsələsi əlaqədardır. Onun burjua konsepsiyasının ifşası olduqca ciddi siyasi bir vəzifədir»[177].

[176] «İnqilab və mədəniyyət» jurnalı. 1931, № 2.

[177] M.Rəfili. Professor Çobanzadənin burjua metodolojisi əleyhinə, «İnqilab və mədəniyyət» jur. 1931, № 2.

Alimin yaradıcılığını təhlil edən bəzi tənqidçilər isə onu Trotski ilə müqayisə edir, Azərbaycan proletar ədəbiyyatının varlığını danmaqda ittiham edirdi. Bu xüsusda Mehdi Hüseyn «Proletar ədəbiyyatının Lenin mərhələsi uğrunda" adlı məqaləsində yazırdı: "Azərbaycan proletar ədəbiyyatının varlığını belə inkar edən professor B.Çobanzadə əleyhinə apardığımız mübarizə təbii ki, eyni zamanda Trotskizm əleyhinə çevrilmişdi. Lakin ədəbiyyat cəbhəsinə soxularaq marksiszm adı ilə fəaliyyət göstərən bir sıra tənqidçilərin hələ də maskaları sona qədər yırtılmamış, burjua liberalizm məfkurəsini ifadə edən bir çox nəzəriyyəçilər hələ də ifşa edilməmişdir"[178].

Görkəmli alimin siyasi sayıqsızlığını üzə çıxarmaq, onun yaradıcılığındakı sosializmə zidd meyilləri aşkarlamaq istiqamətində M.Quliyevin, Ə.Nazimin, M.Hüseynin, Ə.Sadığın, Q.Bağırlının, O.Əfəndizadənin və başqalarının məqalə və çıxışları "İnqilab və mədəniyyət", "Kommunist tərbiyəsi uğrunda" jurnallarında, "Kommunist" və "Ədəbiyyat"… qəzetlərinin səhifələrində nəşr edildi. Hətta iş o yerə çatdı ki, onun ədəbi-siyasi görüşlərinə həsr olunmuş xüsusi bir iclas da keçirildi. Həmin iclasda Azərbaycan alimlərinin bir çoxu professor Bəkir Çobanzadəni müsavatist, pantürkist, idealist elan etdilər. Tənqiddən daha çox ittiham və mühakimə xarakteri daşıyan bu iclas yalnız B.Çobanzadəyə deyil, bütün ziyalılara dərs vermək üçün təşkil edilmişdi. Azərbaycan Proletar Yazıçılar Cəmiyyətinin 1931-ci ildə B.Çobanzadə ilə bağlı çıxardığı qərarda oxuyuruq: "Çobanzadənin lisaniyyətə aid prinsipləri materialist lisaniyyət nəzəriyyəsinə – yoldaş marrın yafetik nəzəriyyəsinə və marksist dilşünaslığa düşmən prinsiplərdir"[179].



Aleksandr Samoylov, Əbdürrəhim bəy Haqverdiyev və Bəkir Çobanzadə həyat yoldaşları ilə birlikdə. Leninqrad, 1925-ci il.

Şübhəsiz ki, Bəkir Çobanzadə bu cür ittihamlara qarşı çıxır və yeri gəldikcə onların cavabını verməkdən də çəkinmirdi: «1922 sənənin sonlarına və 23-cü sənənin başlarına doğru artıq mənim əsərlərimdə inqilaba yaxınlaşma pək açıq surətdə görünürdü. Öz yoldaşları millətçilərin

[178] «İnqilab və mədəniyyət» jurnalı. 1931, № 11-12.
[179] «İnqilab və mədəniyyət» jurnalı. 1931, № 3-4.

qurbağalar olduğunu və burjua bataqlığında qaldığını anlayan bir adam inqilabamı, yoxsa əks-inqilabamı yaxınlaşar».[180] Bundan başqa alim vaxtı ilə xaricə qaçan və SSRİ əleyhinə kitab yazan B.Pilpiyak və Y.Zamyatkin kimilərini tənqid edir və Azərbaycan ziyalılarını da belələrinə biganə qalmamağa çağırırdı: «Söz yox ki, Azərbaycan proletar yazıçıları cəmiyyəti şura ədəbiyyatı içərisində böyük qara ləkə kimi gözə çarpan bu hadisəyə kənardan baxa bilməzdi. Azərbaycan proletar yazıçıları, öz əksinqilabi əsəri ilə Şura hökumətini ləkələmək və bununla da sosializm quruluşu işində gündən-günə müvəffəqiyyət qazanan Şura hökumətinə, proletar hakimiyyətinə bir zərbə vurmaq istəyən B.Pilpiyaklara qarşı öz nifrət və sədalarını qaldırırdılar.[181]

«20 sənədən yəni Krımda Şuralar hökuməti, işçi-kəndli hakimiyyəti yerləşdikdən sonra milli firqə öz millətçi müzacini qaib etməyərək və etməməyə çalışaraq işləmişdir. Milli firqə Şura hakimiyyəti dövründə də kulaklara öz iqtisadi mövqeyini, eksplatatorluğunu min dürlü hiylələrlə saxlamağa çalışan burjuaziyaya xidmət etmişdir.

Bu sətirləri yazanın milli firqə ilə təması ancaq 1920-ci sənənin sonlarında hasil olmuşdur. Ona qədər yuxarıda bəhs etdiyim kimi məndə ancaq milli ruh, milli ideologiya aşılanmış idi. Bunu da o qədər dərin olmadığını Macarıstan Şura hökuməti ilə rast gəldiyim zaman duymuşdum. Bu zaman macar kommunasının türkcə orqanı olan "Şərq" qəzetəsinin redaktorluğunu ifa etdiyim, III İnternasional taborunun siyasi rəhbərlərindən və təşkilatçılarından birisi olaraq işlədiyim kibi, "Lenin evi", "Lenin haqq" naminə təşəkkül edən Macarıstan milli əqəliyyətlər təşkilatları müəssisəsində şərq şöbəsini idarə etdim. Lakin mən o zamanlar bu surətlə düşünürdüm, kapitalizmin inkişaf etdiyi yerlərdə sosializm etmədiyi koloniyalarda milli azadəlik hərəkatı təbiidir. Bu sözləri 20-ci sənədə I Krım inqilab komitəsinin rəisi sifətilə rast gəldiyim Bela Kun yoldaşa, «Macarıstanda kommunistim, Krımda millətçiyim» demişdim. Təbii, bu sözlərdə ictimai inqilabın mahiyyətin proletariatın kəndlilər və məzlum millətlərə rəhbərlik edə biləcyini anlamaq, bilməmək vardı. Üçdörd illik bərabər işləmək nəticəsində millətçilərin deyil (çünki onları bir dərəcəyə qədər əvvəldən də bilirdim), xüsusilə millətçiliyin nə demək

[180] B.Çobanzadə. «Kırım-tatar ədəbiyyatında qurultayçılıq və millətçilik». Bakı, «Az.ETİ» nəşriyyatı, 1929, s. 31.
[181] B.Çobanzadə. «Daxili mühacirliklə mübarizəyə doğru». «İnqilab və mədəniyyət» jurnalı, 1929, № 9.

olduğunu anladım. Millətçilər kimdi? Burjuaziyanın kirayə ilə tutulmuş rəncbərləri".[182]

"Yanki çolpan" jurnalının 1924-cü sənə 15 mayıs nüsxəsində bizim Nejdanov tərəfindən yazılan "Komsomol marşı"nı tərcümə etməyimizi görən oxucu açıq və düzgün yola çıxdığımızı, başqa cavan şərqlilər kimi "Ələmdən nəşəyə" yıxıcılıq aləmindən quruculuq aləminə getdiyimizi anlayacaqdır».[183]

Professor Nizaməddin Şəmsizadə "İtmiş nəslə uvertüra" adlı əsərində haqlı olaraq yazır: "30-cu illərdə marksizm adından danışan bir sıra cızma-qaraçı vulqar-sosioloqlar B.Çobanzadənin məhz metodoloji baxışlarını yanlış hesab edir, onu antimarksist nəzəriyyələrə bağlayırdılar. O dövrün əksər ilk sovet ədəbiyyatşünasları kimi B.Çobanzadə və onun yaradıcılığı ətrafındakı məzmununu ideoloji və ədəbi ittihamlar təşkil edən mübahisələrin materialları xüsusi araşdırmadan göstərməliyik ki, o, istər ədəbi-tarixi prossesi, istərsə də bədii əsərləri marksist-leninçi metodologiya mövqeyindən tədqiqata cəlb edirdi"[184].

Göründüyü kimi, vahid ssenariyə uyğun olaraq B.V.Çobanzadənin həbsi də əvvəlcə qəzet və ya dövri mətbuat səhifələrində hazırlanmışdı. Daha dəqiq desək, dövri mətbuat artıq öz işini görmüş və indi növbə hüquq mühafizə orqanlarına – Sumbatova, Markaryana, Qriqoryana, Avanesova, Ohanesova, Qalstyana, Badalyana, Şerə çatmışdı.

Az.Fanın Dil və Ədəbiyyat İnstitutunun 11 yanvar 1937-ci il tarixli 5 nömrəli əmrində göstərilir ki, B.V.Çobanzadə yanvarın 15-dən fevralın 15-dək öz hesabına məzuniyyətdə hesab edilsin. 14 fevral 1937-ci il tarixli 9 nömrəli əmrdə isə professor B.V.Çobanzadənin 28 yanvar 1937-ci ildən institut əməkdaşlarının siyahısından çıxarılması göstərilir.

26 yanvar 1937-ci ildə XDİK DTİ-nin 4-cü şöbəsinin, 4-cü bölməsinin rəis müavini təhlükəsizlik leytenantı Şer B.Çobanzadə haqqında belə bir arayış tərtib etdi. B.Çobanzadə – 1893-cü il təvəllüdlü, Simferapol doğumlu, Krım-tatarı, SSRİ vətəndaşı, bitərəf, dilçi. APİ və ADU-da dil və ədəbiyyat kafedrasının rəhbəri SSRİ EA Azərbaycan filialının baş elmi işçisi B.Çobanzadə görkəmli pantürkist xadim, «milli firqə»nin keçmiş katibi Krım qurultayının üzvü olub.

1924-cü ildən Bakıda yaşayır. Fasiləsiz əksinqilabi iş aparır.

---

[182] B.Çobanzadə. «Krım-tatar ədəbiyyatında qurultayçılıq və millətçilik». Az. Elmi-tədqiqat İnstitutunun nəşri, Bakı, 1929, s. 17.

[183] B.Çobanzadə. «Krım-tatar ədəbiyyatında qurultayçılıq və millətçilik». Bakı, «Az.ETİ» nəşriyyatı, 1929, s. 31.

[184] Nizaməddin Şəmsizadə. «İtmiş nəslə uvertüra».

a) 1926-cı ildən firqə MK-sı adından müsavat MK-sı ilə söhbətlər aparır (müttəhim Baharlının ifadəsindən).

b) Bu günə qədər əksinqilabçılarla (Yaqub Zəki, Şirinski və s.) əlaqəsi vardır. Onların arasında əksinqilabi, faşist, dağıdıcı iş aparır.

v) R.Axundov B.Çobanzadə ilə partiya və sovet hakimiyyəti əleyhinə söhbət aparıb (müttəhim Çiçikalovun ifadəsindən).

q) Öz ədəbi əsərlərində və mühazirələrində əksinqilabi millətçi ideyalar yayır.

Deyilənləri nəzərə alaraq, B.Çobanzadəni həbs etməyi və onun Azərbaycan SSR CM 72/73-cü maddələri üzrə məsuliyyətə cəlb olunmasını zəruri sayıram.[185]

Bu arayışdan aydın görünür ki, Bəkir Çobanzadə ilə bağlı heç bir araşdırma aparılmamış, bir neçə nəfərdən fiziki və pisixoloji işgəncələr yolu ilə alınan ifadələr əsasında belə bir **ARAYIŞ-HÖKM** hazırlanmışdır.

Şerin yuxarıdakı təqdimatı XDİK-in sədri Y.D.Sumbatov tərəfindən imzalanan kimi B.Çobanzadənin həbsindən öncə (belə də olurmuş - C.Q.) onun Bakı şəhəri, Voroşilov küçəsi, 3 saylı mənzilində axtarış aparıldı. Axtarış zamanı B.Çobanzadənin evindən əşyayi-dəlil kimi aşağıdakılar götürüldü:

1. Şəxsi kitabxanasından kitablar – 38 ədəd.
2. İran və Türk qəzetləri – Cümhuriyyət və Turan.
3. Məktubları.
4. Foto şəkil – 5 ədəd.
5. Qovluqlara yığılmış əlyazmaları.
6. Bloknot, tələbələrin dərs qiyməti olan dəftər.

1937-ci il yanvarın 28-də Kislovodskda «Qornyak» («Mədən fəhləsi») sanatoriyasında istirahət edən B.V.Çobanzadə (tarixin həmin günü V.Xuluflu və Hənəfi Zeynallı da məhbəsə aparıldı – C.Q.) həbs edildi və nəzarət altında Bakıya gətirildi. İmzalanmış həbsetmə və axtarış aparma orderinə əsasən B.Çobanzadənin üzərində də (Kislovodskdakı istirahət otağında) axtarış aparıldı və ondan aşağıdakı əşyalar götürüldü:

1. Pasport – 1 ədəd.
2. Kislovodskdan göndərdiyi sifarişli məktubun qəbzi (1).
3. 677028 №-li kassaya etdiyi 1000 manat pul.
4. Hərbi bilet.

[185] DTX-nin arxivi. B.Çobanzadənin istintaq qovluğu, PR - № 26926.

5. Dil və ədəbiyyat institutunun verdiyi arayış (12-1-1937), (iş yerindən).

6. Vəsiqə № 686.

7. Özbəkistan Dövlət Universitetindən məktub № 10/1811.

8. Vəkalətnamə № 10/1597.

9. 48 manatlıq haqq-hesab.

10. Qəbzlər № 5001, № 20.

11. Bakı-Minvod (qatarına bilet) № 001719 – 1 ədəd.

12. Dəri portmanat.

13. Telefon nömrələri olan qeyd dəftəri.

14. 41 səhifədən ibarət elmi əsəri.

15. Elmi qeydlər olan dəftər.

NKVD-nin axtarış və müsadirə ilə bağlı təlimatlarında göstərilirdi ki, götürülən (daha doğru olar deyək ki, müsadirə olunan, çünki, həmin əşyalar götürülmür, qanunsuz müsadirə olunurdu – C.Q.) əşyaların adlı siyahısı tərtib edilməli, kitab və əlyazmaların, hətta şəkillərin kimə məxsusluğu, adları və səhifələri qeyd edilməli və sonda istintaq üçün əhəmiyyət kəsb etməyənlər geri qaytarılmalı idi. Lakin bunların heç birinə əməl olunmur, Azərbaycanın (bütövlükdə bəşəriyyətin) mədəniyyət nümunələri, milli mənəvi dəyərləri beləcə, düşünülmüş surətdə məhv edilirdi.



1937-ci il fevralın 7-9-da Çobanzadənin ilk dindirməsi oldu, daha doğrusu, alimin həyat bioqrafiyası, onun kiminlə oturub-durması, hansı antisovet təşkilatının üzvü olması ilk dindirmənin istintaq protokolunun predmetinə çevrildi. Məlum oldu ki, o, 1919-cu ildə Macarıstanda Qızıl Orduda xidmət etmiş, 1920-24-cü illərdə «Krım Milli Firqəsi»nin üzvü, bir qədər sonra isə katibi olmuşdur. Elə bu istintaqdaca B.V.Çobanzadə əksinqilabi millətçi fəaliyyət apardığını etiraf etmiş, müstəntiqin «Əksinqilabi mövqedə duran, əksinqilabi əlaqədə olduğunuz şəxslərin familyalarını deyin» - sualına cavab olaraq o, 1929-cu ildən tanıdığı, SSRİ EA Azərbaycan filialının tarix institutunun direktor müavini Həsən İmanovun, 1929-cu ildən tanıdığı «Əksinqilabi mahnılar oxuyan» Vəli Xuluflunun, 1924-cü ildən tanıdığı ASE-nin əməkdaşı Yusif Əliyevin, 1929-cu ildən tanıdığı SSRİ EA Azərbaycan filialının əməkdaşı Əli Nazimin adlarını çəkmişdir. B.Çobanzadə sonrakı ifadələrində NKVD-nin əksinqilabi, millətçi və pantürkist siyahısına Əziz Qubaydullinin, Ağamir Məmmədovun, Ə.Salamzadənin, Həsən İmanovun, Mövsüm Səlimovun, Yaqub Zəkinin,

Salman Mümtazın, Semaşko adına xəstəxananın həkimi Ələkbər Adıgözəlovun, xalq səhiyyə komissarlığının işçisi Reved Şirinskinin, Ruhulla Axundovun, APİ-nin professoru A.S.Bukşpanın, APİ-nin dosenti İdris Həsənovun, Hənəfi Zeynallının, A.R.Zifeldin, A.V.Baqrinin, Mədinə Qiyasbəylinin, APİ-nin dosenti Qasım Feyzullayevin, aspirant İsmayıl Abbasovun, ADU-nun tarixçisi Baba Əskərovun, bəstəkar A.Refetovun, müəllimə Asiya Akimovanın, professor A.Axundovun, mühəndis Rüstəmbəy Sultanovun… adlarını daxil edir. Əlbəttə bu siyahını kifayət qədər uzatmaq da olar, amma bu tipli adlı siyahı ilə oxucunu yormaq fikrində deyilik.

Yeri gəlmişkən, onu da qeyd etməliyik ki, B.Çobanzadənin üç cilddən, 1036 səhifədən ibarət olan istintaq qovluğunun birinci cildi, demək olar ki, onun öz bioqrafiyasının öyrənilməsinə, ikinci cildi əksinqlabi qrupların fəaliyyət istiqamətlərinə, onların məqsəd və məramına, üçüncü cildi isə üzləşmələrə – «cinayətlərin sübutuna» həsr olunub.

Bəkir Çobanzadənin istintaq qovluğu alimin mükəmməl elmi tərcümeyi-halını, yaradıcılığını, dilçilik və ədəbiyyatşünaslıq görüşlərini, ədəbi-siyasi baxışlarını, SSRİ əleyhinə yönəlmiş ayrı-ayrı türkçü qrupların məqsədini, bu qrupların gələcək planlarını, ən başlıcası türkdilli xalqların müstəqillik uğrundakı mübarizə və mücadiləsini və s. öyrənmək baxımından olduqca və olduqca qiymətli bir mənbədir. Hətta deyərdim ki, üç cilddən ibarət olan bu qovluğun sanballı bir doktorluq dissertasiyası kimi tədqiq etməyin vaxtı çoxdan çatmışdır. Biz də həm məzmunu, həm də faktik materialları ilə zəngin olan cinayət işindəki bəzi məqamları toxunduğumuz mövzunun imkanları çərçivəsində geniş oxucu kütləsinin diqqətinə çatdırmaq istərdik.

1937-ci il martın 3-5-də verdiyi ifadəsində «həbs olunan günədək mən əksinqilabi millətçi mövqedə durmuşam və SSRİ-dən ayrılmaq şərti ilə türk-tatar xalqlarının vahid müstəqil dövlət (Vahid Turan dövləti) halında birləşməsini qarşıya məqsəd qoymuşam» - deyən B.V.Çobanzadə göstərirdi ki: «Biz 1930-cu ildə əksinqilabi millətçi qrup yaratmışdıq.

Birinci qrup azərbaycanlı ziyalılardan ibarət idi (rəhbəri mən idim). Onun tərkibinə aşağıdakılar daxil idi: Cabbar Məmmədzadə, Qarabağlı, Fərhad Ağazadə, Qulam Ələkbərli, Əhməd Seyidov, Əlisəbri Qasımov, Əbdülkərim Əfəndizadə, Abdullayev, Salman Mümtaz, Baba Əskərov, İsmayıl Abbasov, Əmirxanov, İsmayıl Əlizadə, Əli Sultanlı, Feyzulla Qasımzadə, Kitinayev.

İkinci qrupa Krım tatar tələbələri daxil idi və bu qrupa da mən rəhbərlik edirdim.

Üçüncü qrup Azərbaycan ziyalılarından ibarət idi (rəhbəri İsmayıl Hikmət idi). Atababa Musaxanlı, Hənəfi Zeynallı, Cabbar Əfəndizadə, Abdulla Tağızadə, Xalid Seyid Xocayev, Mikayıl Müşfiq, Əli Hüseynzadə, Mikayıl Rzaquliyev, Hüseyn Cavid, Əhməd Cavad, Surxay Yusupov və Abdulla Şaiq (İsmayıl Hikmət gedəndən sonra 1927-ci ildə bu qrupa da mən rəhbərlik edirdim).

Dördüncü qrupu (azərbaycanlı ziyalılar) Əziz Qubaydullin aparırdı. Onun tərkibinə Ə.Salamzadə, Ağamir Məmmədov, A.S.Bukşpan, M.Bayramov, Vəli Xuluflu, Qara İsmayılov, Ələskər Ələkbərov, Mövsüm Salamov və H. Biləndərli daxil idilər.

Beşinci qrup Qazan tatarlarından ibarət idi və onu da Əziz Qubaydullin aparırdı.

Totalitar sistemin müstəntiqlərinin səyi – fiziki və mənəvi təzyiqləri nəticəsində Bəkir Çobanzadə türklərlə əlaqə saxladığını, Bakıda Türkiyə konsulu ilə tez-tez görüşdüyünü, dövlət çevrilişi edəcəklərini, hətta M.C. Bağırovu aradan götürüb yerinə Hüseyn Rəhmanovu gətirəcəklərini də etiraf edir.

B.Çobanzadə 1937-ci il sentyabrın 1-də, yəni sonuncu istintaq dindirməsində günahkar olduğunu bir daha bəyan edir. Sentyabrın 2-də isə NKVD müstəntiqləri B.Çobanzadə barədə aşağıdakı məzmunda qərar çıxarır. «B.V.Çobanzadə praktik olaraq özünün əksinqilabi fəaliyyətində SSRİ-yə qarşı silahlı üsyana hazırlıqla bağlı fəal iş aparmış, xarici dövlətlərin kəşfiyyat orqanları ilə əlaqədə olmuş və onlara SSRİ barədə vaxtaşırı məlumatlar vermiş, SSRİ-yə qarşı üsyan qaldırılacağı halda terror mövqeyində dayanacağı yəqin edilmişdir. Ona görə də müttəhim B.Çobanzadə Azərbaycan SSR CM-nin 21-64, 68, 70-ci maddələrində nəzərdə tutulmuş cinayətlərdə təqsirləndirilir». Artıq heç kəsə sirr deyildir ki, sovet dövlət və partiya rəhbərlərinə edilən sui-qəsd və ya dövlət çevrilişi cəhdləri 1934-cü ildə S.M.Kirovun ölümündən (onu da bolşeviklərin özləri öldürmüşdü – C.Q.) sonra İ.V.Stalinin göstərişi ilə ortaya atılmış bəhanə idi. Böyük ehtimalla demək olar ki, Azərbaycanın ziyalıları və mütəfəkkir şəxsiyyətləri arasında İ.V.Stalinə, M.C.Bağırova, L.P.Beriyaya və başqalarına nifrət edənlər, apardıqları siyasi kursu bəyənməyənlər olsa da, onları silah yolu ilə aradan götürmək, məhv etmək istəyində olanlar yox idi.

Bəkir Çobanzadə 21 sentyabrda «Azərbaycan Sovet Sosialist Respublikası Xalq Daxili İşlər Komissarı 3-cü dərəcəli komissar

Y.D. Sumbatova ərizə ilə müraciət edir: «İstintaq qurtardıqdan sonra icazə verin aşağıdakıları bildirim.

Hər şeydən əvvəl mən öz izahatlarımın tam səmimi düzgün olduğunu təsdiq edirəm. Məhz mənim bu izahatlarım göstərir ki, bu bəyanatım boş-mənasız deklarasiya deyildir. İstintaqa məlum olduğu kimi, mən uzun müddət burjua-millətçi əhatədə olmuşam. Mənim həyatımın əsas mərhələləri izahatlarımda tam əks olunmuşdur ki, mən burada onların bir neçəsini qeyd etməklə kifayətlənəcəm…

…Bu keçmişimdə ağ ləkələr kimi aşağıdakıları göstərə bilərəm:

1. Mən bu ixtisas üzrə Sovet Şərqində ilk professoram ki, mənə bu adı sovet hakimiyyəti vermişdir. Mən bu respublikaların ana dilində ilk mühazirələr oxuyuram. Öz ixtisasım üzrə universitetdə ilk kurslar yaratmışam.

2. Mən bütün elmi yaradıcılığım boyu 150 elmi əsər yazmışam. Bunlardan 100-ü Azərbaycan dilində olub, Azərbaycan dili və ədəbiyyatı problemlərinə həsr edilmişdir. Bu işlərin çoxu indi də öz elmi dəyərini itirməyib.

3. Mən demək olar ki, tamamilə boş bir yerdə yüzlərlə dilçi və ədəbiyyatşünas kadr yetişdirmişəm. Bunlar içərisində onlarla yüksək ixtisaslı elmi işçilər, asisstentlər vardır ki, onlar ölkəmizdən xaricdə də məşhurdur. Təkrar edirəm bununla mən öz cinayət fəaliyyətimi ört-basdır etmək, öz əksinqilabi işimi kiçiltmək istəmirəm. Mən tamamilə səmimiyyətlə bildirirəm: Mən tamamilə tərksilah olmuşam, mən gələcəkdə hər hansı bir əksinqilabi iş görəcəyimdən qəti imtina edirəm və böyük Kommunist Partiyasının rəhbərliyi altında ucsuz-bucaqsız vətənimizdə sosializm quruculuğu işlərində sonsuz əzmlə çalışmağa hazıram. Məni qəti və dönməz olaraq öz keçmişimlə, keçmişdə əlaqədə olduğum bütün əksinqilabi-millətçi təşkilatlar və şəxslərlə əlaqəni tamamilə və qəti şəkildə kəsməyi qərara almışam. Buna görə də mən bu məqsəd üçün istintaqda özümü ifşa etməkdə bütün vasitələrdən istifadə etmişəm. Buna görə də mən böyük Kommunist Partiyasından və Sovet hökumətindən xahiş edirəm ki, mənə öz ixtisasım üzrə işləməyə, habelə Sovet İttifaqının qüdrətinin möhkəmləndirilməsində, habelə hər cür əksinqilabi millətçilərin ifşa olunmasında iştirak etmək üçün imkan yaradasınız. 21.IX.1937. Prof. B.Çobanzadə»[186].

[186] DTX-nin arxivi. B.Çobanzadənin istintaq qovluğu, PR – № 26926.

Müttəhim B.Çobanzadə son sözündə istintaqdan heç bir şey gizlətmədiyinə, hər şeyi açıq şəkildə etiraf etdiyinə, hətta yoldaşlarının adlarını verdiyinə görə onu bağışlamalarını xahiş edir.

Bəkir Çobanzadənin ərizəsi və son sözləri göstərir ki, istintaq zamanı müstəntiqlər onu aldatmış, daha doğrusu, inandıra bilmişdilər ki, əgər o, istintaqa səmimi ifadə versə və hər şeyi boynuna alsa onda humanist sovet hökuməti onun günahlarını bağışlayacaqdır. İstintaq prosesində belə metodlardan çox istifadə olunurdu. Görünür, bu metodu – «etiraf metodu»nu B.Çobanzadəyə çox asanlıqla tətbiq edə bilmişdilər. Etiraf metodu müstəntiqlərin qurduqları tor idi və bu tora minlərlə sadəlövh ziyalı kimi B.Çobanzadə də düşmüşdü. Adətən qətl tələsinə, bir qayda olaraq, ağıl, intellekt və təfəkkür sahiblərini, mənəviyyat adamlarını, xüsusilə də milli ziyalıları salırdılar.

1937-ci il oktyabrın 12-də Matuleviç, Zaryanov və Jiqur üçlüyünün iştirakı ilə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının bağlı məhkəmə iclası keçirildi və saat 11.20-də başlanan iclas 11.40-da başa çatdı.

1937-ci il oktyabrın 12-də B.V.Çobanzadə ən ağır cəzaya – GÜLLƏLƏNMƏYƏ məhkum edildi. Güllələnmə hökmü 1937-ci il oktyabrın 13-də yerinə yetirildi.

Maraqlıdır ki, bir çox ziyalılarımız kimi B.Çobanzadənin də ölümü ilə bağlı bəzi dəqiq olmayan fikir və mülahizələr də qəzet səhifələrində geniş yer almışdır. Fikrimizcə, bunun əsas səbəbi o illərdə repressiv aksiyalara məruz qalan ziyalıların güllələnməsi faktını nəinki ictimaiyyətdən, hətta müttəhimin ailə üzvlərindən belə gizli saxlamaları ilə bağlı idi. Belə ki, «Azad Kırım» qəzetinin 7 avqust 1942-ci il sayında Abdullah İsmayıl imzalı bir şəxs Bəkir Çobanzadənin ölümü ilə bağlı aşağıdakı bilgiləri verirdi: *"1938 yılının Aralık ayında, eksi 38 derece soğuk bir havada, Sibirya'daki küçük akar sulardan biri olan Troyk-Peçorski'nin kenarındaki Pokrovka köyü civarında ucu bucağı olmayan ormanda gardiyanın emri altında odun kesiyordum. Kampımızın karşısından bir mahkümlar sürüsünün geçtiğini gördük. Onlar da bizi görmüş olacaklar ki, sıgara içmek bahanesiyle, durdular.Bizden 10-15 adım kadar uzakta idiler. Nereden geldiklerini sorduk. Kafkaslardan geldiklerini söylediler, merakımız daha da arttı. İnsan kılık ve rengini kaybetmiş olan zavallılar birbirlerine bakıştılar. Bu arada içlerinden birisi benim adımı ağzından kaçırdı. O'na dikkatle baktığım zaman, Bakû'de yayımlanan "Yeni Yol" gazetesinde tam on yıl beraber çalıştığım eski gazeteci ve tarih öğretmeni Hasan İmmof'un solmuş çehresini*

güçlükle tanıyabildim. Sürgün mahkumları içinde, 1924 senesinde Kırım'dan Azerbaycan'a gelip Bakû Üniversitesi'nin Türkoloji kısmında Türk Dili ve Edebiyatı profesörlüğü yapmış olan Bekir Sıtkı Çobanzâde, tanınmış tarihçi Abdullah Takizâde , Cebbar Mehmetzâde ve daha birçok münevver bulunuyordu. "Sizleri niçin kapattılar?" sorumun cevabını aynı soru ile aldım: "Ya seni niçin kapattılar/" Bundan çıkardığım sonuç pek acı ve düşündürücü oldu. GPU ve NKVD bütün Türk-Tatar halklarının aydın kişilerinde kendilerinin düşmanlarını görüyor, onları Sibirye'nın taygalarına ve tunduralarına sürgün ediyorlardı.

Uzaktan, birbirimize yaklaşmayarak, 15 dakika kadar konuştuktan sonra, ÇEKA ajanının yırtıcı "Kaalk!" sesi Kafkas sürgünlerini bizden ayırdı. Uzaklaştılar ve gözden kayboldular. Anlaşıldığına göre daha kuzeydeki Barkut'a gittiler. Şimdi, sevimli şâir ve profesörümüz ve arkadaşlarının kaderi göze görünmeyen o kuvvetin elindedir. Kim bilir, belki yine görüşürüz…"

Bu sürgün hayatından sonra Çobanzâde'den haber alınamadı. Bazı kaynaklarda 40 derece sağuğa dayanamayarak öldüğü, bazılarında da 20 dakikalık bir muhakemeden sonra temyizsiz idam cezasına çarptırıldığı, üç gün içinde, bilgin yazar ve gazetecilerin grubu ile kurşuna dizildikleri belirtilir. Netice itibariyle Çobanzâde ve arkadaşları sırf Türk oldukları, vatanlarını ve milliyetlerini sevdikleri için öldürülmüşlerdi.

Bəkir Çobanzadə hələ gənc yaşlarında – 1919-cu ildə qələmə aldığı "Təsadüf" adlı şeirində sanki özünün gələcək taleyini görərək yazırdı:

Qorxuram bir sabah düyünə getsəm,
Durub ziyafətdə lotuluq etsəm,
Bir güllə mıxlaya ənsəyə gavur,
Təsadüf, tullaya xəndəyə gavur.

və yaxud da:

Mən olum bir ölü, məzarsız, daşsız,
Xətmsiz, zikrsiz, ağısız, yaşsız.
(Yanıq tütək)

B.Çobanzadənin vaxtı ilə incə yumorla söylədiyi yuxarıdakı misralar sonda gerçəyə çevrildi və görkəmli alim gavur gülləsinə, bolşevik qurşununa tuş gəldi, nə məzarı, nə başdaşı, nə də yası oldu. Bir

də yasını saxlayacaq kimi qalmışdı ki, hamısını (qohumlarından dostlarına qədər) həbs etmişdilər.

***

1930-cu illərin ortalarında Çobanzadələr ailəsinə təzyiqlər getdikcə daha da artır. İş o yerə çatır ki, Krımda alimin sağ qalan yeganə bacısı Zuleyha müəlliməyə qarşı da təzyiqlər edilir. Simferopolda pedaqoji məktəbi bitirən, sonra isə Krımda ali təhsil alan və qardaşı Bəkir Çobanzadənin «günahlarına» ortaq edilən Zuleyha xanım işdən çıxarılır. O, çox çətinliklə bir kənddə özünə iş tapır və bir müddət orada qalıb müəllimlik edir. Qardaşı kimi bu xanımın da taleyi acınacaqlı və faciəli olmuşdu. Belə ki, 1940-cı ildə həyat yoldaşı dünyasını dəyişmiş, müharibə illərində isə üç övladını - iki oğlunu və bir qızını itirmişdi. Həyatı məcaralarla dolu olan Zuleyha Xəlilova 1904-cü ildə Qarasubazarda doğulsa da, 1985-ci ildə Özbəkistanın Andijan şəhərində vəfat etmişdir.

Bütün bunlarla kifayətlənməyən NKVD-nin müstəntiqləri alimin həyat yoldaşı Ruqiyyə xanımı da hədəfə almışdı. Fikirlərimizi bir qədər də konkretləşdirsək deyə bilərik ki, 5 noyabr 1937-ci ildə Az.SSR Xalq Daxili İşlər Komissarlığı idarəsinin rəis müavini dövlət təhlükəsizlik mayoru Borşovun imzaladığı arayışlardan biri görkəmli dilçi alim Bəkir Çobanzadənin həyat yoldaşı Ruqiyyə xanım Çobanzadə haqqında idi. Ruqiyyə xanım Bəkir Çobanzadənin ikinci arvadı idi və birinci həyat yoldaşı Əli Bulqakovun qızı Dilara xanım olmuşdu. 1926-cı ildə onlar boşandıqdan sonra Bəkir Çobanzadə 1930-cu ildə Ruqiyyə xanımla ailə həyatı qurmuşdu.



Ruqiyyə xanım kim idi? Ruqiyyə xanım 1904-cü il 14 iyunda Uryanovsk şəhərində doğulmuşdur. O, Bakı şəhərində konservatoriyaya daxil olmuş və oranı bitirdikdən sonra, M.F.Axundov adına Opera və Balet Teatrında əmək fəaliyyətinə başlamışdır. Opera və Balet teatrının istedadlı solistlərindən olan Ruqiyyə xanımın ən böyük arzularından biri də J.Bizenin "Karmen" operasında Karmen obrazını yaratmaq olmuşdur. Bu məqsədlə o, həyat yoldaşı, görkəmli alim B.Çobanzadədən həmin əsərin librettosunu Azərbaycan dilinə tərcümə etməsini xahiş etmişdir. Bəkir Çobanzadə həmin əsərin librettosunu Azərbaycan dilinə çevirmiş və teatrın müdiriyyətinə təqdim

etmişdir. "Karmen"in 1938-ci ildə tamaşaya qoyulması da nəzərdə tutulmuşdur. Lakin borşovların, koqanların imzaladıqları arayışlar bu işə mane oldu. Həmin arayışda oxuyuruq: "2 fevral 1937-ci ildə (düz deyil, B.Çobanzadəni 28 yanvar 1937-ci ildə Kislovodskda "Qornyak" sanatoriyasında həbs etmişdilər-C.Q.) necə bir əksinqilabi casus, vətən xaini kimi Az.SSR XDİK-i tərəfindən Çobanzadə Bəkir Vahab oğlu həbs edilmiş, 12 oktyabr (oxu 13 oktyabr – C.Q.) 1937-ci ildə SSRİ Ali Məhkəməsi Səyyar Sessiyası tərəfindən birinci kateqoriya (güllələnmə – C.Q.) ilə məhkum olunmuşdur. O həbs edilənədək onunla birlikdə yaşamışdır.

1. Arvadı - 1904-cü ildə (onun anketində doğum tarixi 14 iyun 1904-cü il göstərilmişdir-C.Q) Uryanovsk şəhərində doğulmuş, milliyyətcə tatar, SSRİ vətəndaşı, Dövlət Operasının solisti, ali təhsilli, bitərəf, indiyədək məhkum olunmamış Çobanzadə Ruqiyyə Gəray qızı (bəzi istintaq sənədlərində onun atasının adı Girey (Ruqiyyə Gireyevna) göstərilmişdir-C.Q) 00486 №-li əmri əldə rəhbər tutaraq vətən xaininin arvadı kimi həbs edilsin və Bakı şəhərində gözətçi nəzarəti altında ümumi həbsxanada saxlanılsın.

R.G.Çobanzadənin mənzilində axtarış aparılsın, silah, qiymətli əşyalar və əksinqilabi ədəbiyyat götürülsün.

Qalan əmlakı müsadirə edilsin və dövlət hesabına keçirilsin.

Az.SSR XDİK DTİ-nin 8-ci şöbəsinin
rəisi DT leytenantı /Koqan/"[187]

Koqanın bu arayışından sonra 11 oktyabr 1937-ci ildə Az.SSR XDİK DTİ-nin 8-ci şöbəsinin inspektoru Kolçinin imzası ilə SSRİ MİK-in 4 iyul 1934-cü il qərarını əsas götürərək «vətən xaini» Bəkir Vahab oğlu Çobanzadənin həyat yoldaşı Ruqiyyə xanımın həbs edilməsi barədə qərar qəbul edildi (bu qərarı 14 oktyabrda Az. SSR XDİK idarəsinin rəis müavini DT mayoru Gerasimov təsdiq etmişdi). Həmin qərar Gerasimov tərəfindən təsdiq edilən gün Çobanzadə Ruqiyyə Gəray qızı əri Bəkir Çobanzadə güllələndikdən 1 gün sonra (B.Çobanzadə 13 oktyabrda güllələnmişdi-C.Q) həbs edildi və mənzilində axtarış aparılması barədə 1809 №-li order imzalandı. 15 oktyabr 1937-ci ildə Sovetski küçəsindəki 21 №-li evdə axtarış aparıldı. Axtarış zamanı onun evindən bir çox

[187] DTX-nin arxivi. Ruqiyyə Çobanzadənin istintaq qovluğu, PR - № 17259.

əşyalar götürülsə də, istintaq üçün maraq kəsb edə biləcək material tapılmadı.

Göründüyü kimi, Ruqiyyə xanımı Bəkir Çobanzadənin həyat yoldaşı olmaqda günahlandırırdılar. Əslində, onun B.Çobanzadənin həbsindən xəbəri olsa da, güllələnməsindən xəbəri olmamışdı. Çünki o, Kislavodskda həbs edilərkən Ruqiyyə xanım Bakıda idi və onun nə zaman Bakıya gətirilməsi və nə zaman güllələnməsi barədə ailə üzvlərindən heç kəsə məlumat verilməmişdi. Lakin idarə və iş üsulu repressiya olan XDİK-in öz qanunları vardı. İstintaq materiallarından aydın görünür ki, birinci kateqoriya ilə məhkum olunanların böyük əksəriyyətinin ailə üzvləri, xüsusilə də həyat yoldaşları ərlərinə görə **SƏKKİZ İL** müddətinə azadlıqdan məhrum edilmişlər. Nədənsə, ikinci kateqoriya ilə məhkum olunanların ailə üzvlərinə isə dəyməmişlər.

Ruqiyyə xanım 22 oktyabr 1937-ci ildə 8-ci şöbənin baş inspektoru dövlət təhlükəsizlik leytenantı Moşeçkovun suallarını belə cavablandırmışdır:

Sual: Bəkir Çobanzadə ilə nə vaxtdan ailə qurmusunuz?

Cavab: 1930-cu ildən o həbs olunana yəni, 28 yanvara qədər. O zaman o, Kislovadskda idi, mən isə Bakıda.

Sual: Onun əksinqilabi fəaliyyəti barədə sizə nə məlum idi?

Cavab: Onun əksinqilabçı olması barədə mənə heç nə məlum deyildi.

Sual: İşə nə əlavə etmək istərdiniz?

Cavab: Heç nə əlavə edə bilmərəm (İfadə mənim sözlərimlə yazılıb, mənə oxundu, düzgünlüyünü öz imzamla təsdiq edirəm).

Sonralar Ruqiyyə xanım Zaqafqaziya hərbi dairəsinin prokurorunun köməkçisinə yazdığı ərizədə göstərirdi ki, ondan heç nə soruşulmamış, ona heç nə oxunmamış, lakin sənədə imza atdırmışlar ki, guya o ifadəsi ilə tanış edilmişdir.

Bu bir neçə sualdan sonra baş inspektor Moşeçkov Ruqiyyə xanıma istintaqın başa çatdığını elan etdi və onun barəsində aşağıdakı məzmunda ittihamnamə hazırladı.

SSRİ MİK-in 4 iyul 1934-cü il tarixli qərarını əsasən Çobanzadə Ruqiyyə Gəray qızı vətən xaininin arvadı kimi 14 oktyabr 1937-ci ildə həbs edilmiş və gözətçi nəzarəti altında Bakı şəhərində ümumi həbsxanada saxlanılır.

SSRİ XDİK-in 15 avqust 1937-ci il tarixli 00486 №-li əmri əldə rəhbər tutaraq müttəhim Ruqiyyə Gəray qızı Çobanzadənin 6726 №-li istintaq işi CCRİ XDİK-in Xüsusi Müşavirəsinə göndərilsin.

SSRİ XDİK-i yanında xüsusi müşavirənin
9 dekabr 1937-ci il protokolundan
Ç I X A R I Ş

EŞİDİLDİ: 1904-cü il təvəllüdlü Çobanzadə Ruqiyyə Gəray qızının 6726 №-li istintaq işi.

QƏRARA ALINDI: Çobanzadə Ruqiyyə Gəray qızı müddəti 14 oktyabr 1937-ci ildən hesablanmaqla **SƏKKİZ** il müddətinə İslah Əmək Koloniyasına göndərilsin. İş arxivə təhvil verilsin[188].

Beləcə, heç bir günahı olmadan SƏKKİZ il olmazın müsibətlərini çəkən Ruqiyyə xanım 1945-ci ildə Bakı şəhərinə qayıtdı. Lakin o zaman belə bir qərar çıxarılmışdır ki, məhkum olunanlar Bakı şəhərində yaşaya bilməzdi. Ruqiyyə xanım Bakı şəhərində yaşamaq hüququ olmadığından Xaçmaz rayonunda yaşayan bacısının yanına getmək məcburiyyətində qalır.

Xaçmazda da onu dinc buraxmadılar. Oğlu Gərayı və özünü yaşatmaq üçün o işləməli idi. "Vətən xaininin arvadı" yarlığı ilə həbs edilən, cəzasını çəkməsinə baxmayaraq, hələ də həmin adla çağrılan Ruqiyyə xanıma bir müddət Xaçmaz rayonunda iş tapmaq müəssər olmur. Hansı qapını döyürsə ona vətən xaininin arvadı kimi baxır, bəzən də iş verməyə cəsarət etmirdilər. Vəziyyət elə idi ki, təkcə vəzifəli şəxslər deyil, adi adamlar, fəhlə və kəndlilər belə "günahsız müqəssirlər"ə yaxınlaşmağa, onlara xoş üz göstərməyə cəsarət etmirdilər. Stalinizmin əsas mahiyyəti də insanları qorxu və xof altında saxlamaq-dan ibarət deyildimi?

Nəhayət, tale Ruqiyyə xanımın da üzünə gülür və o, 1946-cı ilin 1 iyununda Budyonnu adına tikiş artelində işə başlayır. Burada da «vətən xaininin» arvadına münasibət yaxşı olmadığından 1949-cu ildə onu işdən azad edirlər. Sonra o, Xaçmaz rayon Konserv zavodunda makinaçı vəzifəsinə işə düzəlir.

Rəhbərliyin və bəzi adamların soyuq münasibətlərindən təngə gələn, özünün bütün hüquqlarının tapdanmasını görən Ruqiyyə xanım AZ.SSR Dövlət Təhlükəsizlik naziri general-mayor Yemelyanov Stepan Fyodoroviçə ərizə ilə müraciət edir.

[188] DTX-nin arxivi. Ruqiyyə Çobanzadənin istintaq qovluğu, PR - № 17259.

Xaçmaz rayonunun Sovrabot küçəsi
№4-də yaşayan Çobanzadə Ruqiyyə
Gəray qızı tərəfindən

Ə R İ Z Ə

Mənim ərim Çobanzadə Bəkir Vahab oğlu XDİK orqanları tərəfindən 1937-ci ilin yanvar ayında həbs edilmişdir. 1937-ci ilin oktyabrında isə məni xalq düşməninin arvadı kimi (baxmayaraq ki, mənim onunla nigahım qeydiyyata alınmayıb) **SƏKKİZ** il müddətinə Karlaka göndərdilər.

Nə üçün mənim ərim həbs edilmişdir? Mənə aydın deyil. Mənə elə gəlir ki, onu əksinqilabi cinayətdə ittiham edirlər və bu günədək onun taleyi mənə məlum deyil.

Mənə verilən həbs müddətimi başa vurduqdan sonra, 1945-ci ilin oktyabrında pasportlar haqqında əsasnamənin 39-cu maddəsinə əsasən yaşayış yeri kimi təyin olunmuş Az.SSR Xaçmaz şəhərinə gəldim.

Xaçmaz şəhərinə gəldikdən bir müddət sonra Budyonnu adına tikiş artelində işlədim.

Artelin 1/1.1949-cu il tarixli əmri ilə işdən azad edildim və Xaçmaz Konserv zavodunda makinaçı vəzifəsində işləməyə başladım, hazırda orada işləyirəm.

Mən ixtisasca opera artistiyəm, Bakı konservatoriyasını bitirmişəm. Mən təcrid olunana qədər M.F.Axundov adına Opera teatrında solist vəzifəsində işləmişəm.

Hazırda mənim himayəmdə oğlum Gəray da yaşayır.

Bütün başıma gələnlərə baxmayaraq, mən öz ixtisasımı davam etdir-mək üçün qabiliyyətimi saxlaya bilmişəm, hansı ki, ona mən bütün ömrümü həsr etmişəm. Lakin yaşayış yeri seçmək haqqındakı məhdudiyyət şərti mənə həyat yolumu müəyyənləşdirməyə imkan vermir.

Yuxarıdakıları nəzərə alaraq artıq dərəcədə xahiş edirəm mənim üzərimdən pasport haqqındakı əsasnamənin 39-cu maddəsindəki məhdudiyyəti götürəsiniz.

İş yerimdən və yaşayış yerimdən aldığım iki xasiyyətnaməni təqdim edirəm.

9 iyun 1949-cu il. Az.SSR Xaçmaz şəhəri[189].

[189] DTX-nin arxivi. Ruqiyyə Çobanzadənin istintaq qovluğu, PR- № 17259.

İstintaq materialları arasında qorunub saxlanılan Konserv zavodundan, evlər idarəsindən və yaşayış yerindən göndərilmiş arayışlarda Ruqiyyə xanım müsbət xarakterizə olunur.

Ruqiyyə xanım dinclik bilmir, hər vəchlə üzərindəki ləkənin götürülməsinə can atır, bu məqsədlə müxtəlif təşkilatlara məktubla müraciət edirdi. Çalışırdı sübut etsin ki, o da, həyat yoldaşı Bəkir Çobanzadə də vətən xaini deyil. Ruqiyyə xanım nadanlara, başkəsənlərə, "vətənin qeyrətini çəkənlərə" bunu sübut edə bilməsə də Bəkir Çobanzadə qoyub getdiyi zəngin və qiymətli irsi ilə sübut etmişdir ki, onun Vətən və Vətənə sevginin coğrafiyası minlərlə diktatorun, imperiya qulunun vətən anlayışından daha geniş, daha dərindir. B.Çobanzadə üçün Vətən tikanlı məftillər arasındakı torpaq sahəsi deyildi, türk dünyasının özü idi.

Bütün bunlara baxan kim idi. O, həqiqəti, onların ünvanına yağdırılan böhtanların real olmadığını sübut etməli idi. Yazdığı məktubların cavabları yubansa və ya heç bir cavab verilməsə də, Ruqiyyə xanım yazırdı. Yazırdı ki, daş qəlbliləri inandırsın ki, onun və həyat yoldaşının heç bir günahı yoxdu. Bu məktublarında Ruqiyyə xanım sovet rəhbərlərindən dönə-dönə xahiş edirdi ki, onun üzərindəki ləkə götürülsün. Bəlkə bundan sonra adamların və idarə rəhbərlərinin ona münasibətində bir az da olmuş olsa mülayimlik hiss etsin, o da insan kimi yaşasın. Tənələrdən, dedi-qodulardan, təhqirlərdən uzaq olsun.

Bir neçə məktubdan sonra Dövlət Təhlükəsizlik Nazirliyinin əməkdaşı padpolkovnik (polkovnik-leytenant) Qnezdovun və baş leytenant Teplovun imzası ilə 15.07.49-cu ildə AZ.SSR DTH-in Xaçmaz rayon bölməsinə aşağıdakı məzmunda məktub göndərilir.

Bizə Ruqiyyə Çobanzadənin ləkəsinin üzərindən götürülməsi məqsədilə daxil olan ərizə ilə əlaqədar olaraq Xaçmaz rayonunda yaşayan vətəndaş Çobanzadə Ruqiyyə Gəray qızını çağırın və ona doldurmaq üçün ərizə blankı verin. Ərizə doldurulduqdan sonra qoşulmuş sənədlə və Sizin nüfuzdan sala biləcək arayışı, o cümlədən iş yeri və yaşayış yerindən göndərilmiş arayışı bizə göndərin.

Xaçmaz rayon bölməsindən bildirilmişdir ki, Ruqiyyə xanımı nüfuzdan sala biləcək məlumat yoxdur.

Ruqiyyə xanımı nüfuzdan sala biləcək məlumat olmasa da onun xahişi müsbət həll olunmadı. Belə ki, SSRİ Dövlət Təhlükəsizlik Nazirliyi yanında Xüsusi Müşavirənin 10 dekabr 1949-cu il tarixli 67-a saylı protokolundan çıxarışda göstərilir:

EŞİDİLDİ: 1904-cü ildə Ulyanovsk vilayətində doğulmuş, tatar, SSRİ vətəndaşı Çobanzadə (Abdulin) Ruqiyyə Gəray qızının Azərbaycan SSR DTH-də məhkum olunmasının üzərindən götürülməsi materialları.

QƏRARA ALINDI: Çobanzadə (Abdulin) Ruqiyyə Gəray qızının məhkumluğunun üzərindən götürülməsi rədd edilsin.

Stalin rejimi Ruqiyyə xanıma bəraət almağa imkan vermədi. 23 yanvar 1955-ci ildə Ruqiyyə xanım Az.SSR DTK-ya yenidən müraciət etdi və bildirdi ki, onun əri prfessor B.V.Çobanzadə 1937-ci ilin yanvar ayında həbs edilsə də, bu günədək onun taleyindən və günahlarından bixəbərdir. Bu, həqiqətən belə idi. XDİK orqanları kəsdikləri başı, onun qohumlarından gizlədirdilər.

Ruqiyyə xanım 1954-cü ilin fevralın 14-də və 1955-ci ilin fevralın 21-də ərinin işinə yenidən baxılmasını və ona bəraət verilməsini xahiş edir (Son iki məktub B.Çobanzadənin 3 cilddən ibarət olan PR-№ 26926 saylı istintaq qovluğundadır - C.Q). Lakin bu xahişə də məhəl qoyan olmur.

Bütün bunlardan sonra 30 noyabr 1955-ci ildə Ruqiyyə Çobanzadənin işi ilə əlaqədar olaraq protest verildi.

13 dekabr 1955-ci ildə Zaqafqaziya hərbi Dairəsinin hərbi tribunalı Ruqiyyə xanıma, 1957-ci il iyunun 6-da isə SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının çıxardığı qərara əsasən əməllərində cinayət tərkibi olmadığına görə B.V.Çobanzadəyə ölümündən sonra bəraət verildi.

Təqdim olunan bioqrafik materiallardan da aydın görünür ki, bu görkəmli alimin həyatının və elmi tərcümeyi-halının böyük bir hissəsi Azərbaycanla bağlıdır. Türkdilli xalqlar arasında vahid formatlı yeni əlifbanın qəbulu məqsədi ilə "qonşu türk cümhuriyyətlərinin fikrini almaq" (X.S. Xocayev), təbliğat işini gücləndirmək məqsədi ilə Səməd Ağamalıoğlu, Cəlil Məmmədquluzadə, Vəli Xuluflu və Xalid Səid Xocayevdən ibarət xüsusi nümayəndə heyəti yaradılmış və həmin nümayəndə heyəti 1924-cü il sentyabr ayının 7-dən oktyabr ayının 10-dək Dağıstan, Daşkənd, Krım, Simferopol, Orenburq, Ufa, Kazan və başqa şəhərlərdə yeni əlifbanın tərəfdarları və əleyhdarları ilə görüşlər keçirərək onun türk-tatar xalqlarının ədəbi-mədəni həyatında mühüm hadisə olacağını faktlı, predmetli şəkildə əsaslandırmağa çalışdılar. Nümayəndə heyəti Krımda olarkən professor Bəkir Çobanzadə ilə tanış olur.

Həmin tanışlığı Xalid Səid Xocayev "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsərində belə xatırlayır: "Bir az sonra Səməd Ağa ilə yoldaşlarımız aşağıya enirdilər. Bunların arasında orta boylu, şişmança, yuvarlaq qırmızı yüzlü gənc adam da var idi. Yaxınlaşarkən yoldaşlarımızdan biri:

-Taniş olunuz, professor Çobanzadədir,-dedi.

... Rəngarəng alma, armud və qeyri-meyvələrlə bəzənmiş meyvə bazarına keçərək, həyətə açılan bir darvaza önündə durduq, dört-beş pilləli pilləkandan çıxaraq iki otqalı bir mənzilə girdik. Burası Çobanzadənin mənzili idi. Burada çox qalmaq üçün vaxtımız müsaid deyildi, ancaq birər fincan türk qəhvəsi içə bilərdik. Çünki bu gün Baxçasaraya gedəcək, orada lazım gələn adamlar ilə görüşəcəkdik. Bundan dolayı müsahibəmiz qarışıq və intizamsız gedirdi. Qrıma aid məlumat almaq üçün hər kəs xatirinə gələn şerləru professordan soruşmağa tələsirdi. Bu aralıq Səməd Ağa dedi:

-Bu söhbətləri dırnağa vurağın, yoldaş Çobanzadə, de görüm burada yeni əlifba məsələsi necədir?

Çobanzadə ciddi bir vəziyyət aldı:

- Ha... iştə, buna aid sizə qısa məlumat verəyim-müqəddimsilə sözə başladı:

- Əlifba və imla xüsusunda Qrım gənçliyində üç cərəyan vardır: birinci, islahatçılardır: bunlar ərəb əlifbası üzərində qazanlılar tərəfindən yapılan islah tərzində bir islahat yapmaq istəyirlər.

İkincisi, latın hurufat tərəfdarlarıdır. Bunlar hənuz müəyyən bir şəkil göstərməmişlərdur.

Üçüncüsü, rus hurufatını qəbul etmək istəyənləridr: bunlar da hənuz müəyyən bir şəkil göstərməmişlərdur.

Professor bu qısa izahhı Qrımdakı əlifba cərəyanının da mərkəzdə olduğu haqqında qısa bə qəti məlumat vermişdir" [190].

O da qeyd edilməlidir ki, Bakıdan gedən nümayəndə heyətinə bələdçilik edən, Krımın ictimai-siyasi həyatı, ədəbi-mədəni həyatı, mədəniyyət abidələri barədə müfəssəl bilgilər verən də B.Çobanzadə idi. B.Çobanzadənin geniş erudusiyası, yeni əlifba ilə bağlı yaradıcı düşüncələri, dərin biliyi və təşkilatçılıq qabliyyəti S.Ağamalıoğlunun qiqqətini cəlb etdiyindən onu Bakıya dəvət edir.

S.Ağamalıoğlunun dəvəti ilə Krımda burjua millətçisi kimi təqiblərə məruz qalan B.Çobanzadə dərhal razılaşır və ona qarşı yönəlmiş irticaçı hücumlardan müvəqqəti də olsa uzaqlaşır. Bakıya gələn alim Azərbaycanda Yeni Əlifba Komitəsi yanında elmi şuranın, Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin, eyni zamanda Azərbaycan Baş Elm İdarəsində Terminologiya Komitəsinin rəhbəri kimi fəaliyyət göstərir. Bununla yanaşı, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində kafedra müdiri, bir qədər sonra isə həmin universitetin dekanı vəzifəsinə irəli çəkilir.

Tutduğu vəzifələrdən və tapşırılan ictimai işlərdən də aydın görünür ki, B.Çobanzadənin qarşısında həyati vacib məsələlər dururdu. Bu vəzifələrdən ən mühümlərindən biri yeni əlifbaya keçidlə bağlıydı.

---

[190] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 15-16.

Onun S.Ağamalıoğlu tərəfindən Bakıya dəvət edilməsində əsas məqsəd də bu idi.

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ONUN YEGANƏ QADIN NÜMAYƏNDƏSİ, YAXUD BİR AİLƏNİN HƏYAT HEKAYƏSİ

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 2001-ci il iyun ayının 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanında Birinci Türkoloji Qurultayın fəaliyyətini, eləcə də qurultayın türk xalqlarının tarixində və taleyindəki rolunu yüksək qiymətləndirərək göstərirdi: "Ərəb əlifbasını daha uyğun bir əlifba ilə əvəz etmək məqsədilə 1921-ci ildə əlifba komitəsi yaradıldı və həmin komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tətbiq etmək tapşırıldı. Bir qədər sonra isə yeni əlifbaya keçildi. 1926-cı ildə Bakıda Birinci Türkoloji Qurultay çağırıldı. Bu, türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi".

Göründüyü kimi, Heydər Əliyev Birinci Türkoloji Qurultayı yalnız Azərbaycan üçün deyil, bütövlükdə türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan hadisə adlandırırdı.

Ulu Öndər Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" (18 iyun 2001-ci il) Fərmanında qurultaydan sonrakı proseslərin xalqımızın tarixində və taleyində buraxdığı tragik-dramatik hadisələri böyük təəssüf hissi ilə belə ifadə edirdi: "Təəssüflə qeyd etmək lazımdır ki, sonralar qurultayın qərarlarının yerinə yetirilməsi yolunda süni maneələr yaradıldı, türkdilli xalqların mədəni inteqrasiyasına yönəldilmiş bu nəcib iş siyasi məqsədlərə qurban verildi. Azərbaycanın dilçi alimlərinin böyük əksəriyyəti isə totalitar rejimin repressiyalarına məruz qaldı. 1939-cu ildə latın qrafikası əlifbasından kiril qrafikası əsasında yaradılmış yeni Azərbaycan yazısına qəti və məcburi keçmək haqqında qərar verildi".

Hadisələrin tarixi inkişafı da göstərdi ki, 1926-cı ildə (26 fevral – 6 mart) Bakıda keçirilən Birinci Türkoloji Qurultaydan sonra tədqiqatçı alimlər, eləcə də bir çox qurultay iştirakçısı tam nəzarətə götürüldü və onların böyük əksəriyyəti repressiyalara məruz qaldı. Elə ona görə də qurultayda qəbul edilmiş qərar və qətnamələrin əksəriyyəti öz realizəsini tapmadı, necə deyərlər, kağız üzərində qaldı. Məsələ bununla da bitmədi. 1926-cı ildə Bakıda keçirilən Türkoloji qurultaydan sonra türkçülərə (elə həm də türkçü olmayanlara) qarşı daha sərt mövqedə dayanan bolşevik

hökuməti, onun təhlükəsizlik, eləcə də hüquq-mühafizə orqanları qurultay iştirakçılarının hərəkətlərini addım-addım izləməyə və onların "əksinqilabi-millətçi fəaliyyətlərinin" qarşısını almağa başladı. Bu mənada, Birinci Türkoloji Qurultayı bolşeviklərin türkçülüyə və türkçülərə qurduğu tələ də adlandırmaq olar. Bir qədər də obrazlı desək, Qurultay bolşeviklərin milli əxlaqa, milli təfəkkürə, bir sözlə, "türkləşmək, islamlaşmaq və avropalaşmaq" düşüncəsini çarmıxa çəkmək, eşafota yaxınlaşdırmaq üçün qurduğu dar ağacı idi.

Birinci Türkoloji Qurultayın əsas təşkilatçılarından olan Mirzə Davud Hüseynov (1894-1938), Bəkir Çobanzadə (1893-1937), Ruhulla Axundov (1897-1938), Salman Mümtaz (1894-1941), Hənəfi Zeynallı (1896-1937), Vəli Xuluflu (1894-1937), Qəzənfər Musabəyov (1888-1938), Əziz Qubaydullin (1887-1937), Pənah Qasımov (1881-1938), Mustafa Quliyev (1893-1938), Həbib Cəbiyev (1899-1938) və başqalarının təqib və təzyiqlərə məruz qalması, eləcədə repressiv aksiyalara hədəf seçilməsi buna əyani sübutdur. O da maraqlıdır ki, yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz şəhidlərin böyük əksəriyyəti kommunist partiyasının üzvləri, yəni Azərbaycanda sovet hökumətinin qurucuları idi.

***

Tarixi faktlar göstərir ki, 131 nəfərin dəvət aldığı və təxminən 600 nəfərin iştirak etdiyi Birinci Türkoloji Qurultayda yalnız bir nəfər qadın iştirak etmişdir ki, o da Ayna Sultanova (1895-1938) idi. O, Türkoloji Qurultaya katiblik edən 5 nəfərdən (Pənah Ələkbər oğlu Qasımov, Solomon Lazareviç Veltman, Muxammed Qeldiyev, Xabibulla Abduraşid oğlu Odabaş, Ayna Mahmud qızı Sultanova) biri idi.

Ayna Mahmud qızı Sultanova 1895-ci ildə Dəvəçi (indiki Şabran) rayonunun Pirəbədil kəndində doğulmuşdur. O, 1912-ci ildə Bakıda böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa edilən "Müqəddəs Nina" gimnaziyasını bitirib. Başqa sözlə desək, Ayna Sultanova ilk təhsilini Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Zərdabinin rəhbərlik etdiyi qız məktəbində alıb. O da maraqlıdır ki, bu gənc və istedadlı qız bir müddət həmin məktəbdə pedaqoji fəaliyyətlə də məşğul olub. Yəni Ayna xanım oranın yalnız məzunu yox, həm də müəllimi olub.

1918-ci ildə ailə quran və bolşevik partiyasının sıralarına daxil olan Ayna xanım bir qədər sonra Həştərxana getmiş, Rusiya Kommunist Partiyasının Həştərxan Quberniya Komitəsi müsəlman bölməsi rəyasət heyətinin üzvü və Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlıqda

maarif şöbəsinin müdiri vəzifəsində işləmişdir. A.Sultanovadakı fəallığı və istedadı görən bolşeviklər onu 1919-cu ilin avqustunda Moskvaya Y.Sverdlov adına kommunist universitetində oxumağa göndərmişdir. Azərbaycan sovetləşdirildikdən sonra vətənə qayıdan A.Sultanova Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi aparatında qadınlar şöbəsinin təlimatçısı, fəhlə və kəndli qadınlar şöbəsi müdirinin müavini, sonra müdiri vəzifələrində çalışmışdır. O, Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin orqanı olan "Şərq qadını" jurnalının da ilk redaktoru olmuşdur.

Ayna Sultanova Sovet hökumətinin qurucularından olan Həmid Sultanovun həyat yoldaşı, Qəzənfər Musabəyovun bacısı, deyilənə görə, Mir Cəfər Bağırovun isə, türklərin təbirincə desək, süd qardaşı idi.

Sağlığında "Lenin partiyasının sədaqətli qızı" adlandırılan, sonradan "vətən xaini" yarlığı ilə qətlə yetirilən Ayna Sultanovadan söz düşəndə tez-tez "ilk" və yaxud da "ilk dəfə" sözünü işlətməli oluruq. Ayna Sultanovanın bio və biblioqrafiyasından da aydın görünür ki, o, bolşevik partiyasınn ilk üzvü olan (1918) azərbaycanlı qadın olmuşdur.

Ayna Sultanova Azərbaycanın ilk publisist xanım yazarlarından biri idi. "Şərq qadını" jurnalında, eləcə də "Kommunist", "Pravda", "Bakinski raboçi", "Turud", "Zaraya Vostoka" və s. qəzetlərdə çap etdirdiyi dövrü üçün kifayət qədər aktual olan publisist yazıları ilə sovet hökumətinin marksçı-leninçi ideya-siyasi xəttini axıradək dəstəkləmişdir. Ayna xanımın "Aprel inqilabı mənə nə verdi?, "Firqə təmizliyinə hazırlanmalı", "Firqə qurultayı qadınların işi haqqında nə dedi?", "Rədd olsun çadra", "Türk qadını traktor başında", "Pionerləri unutmamalı", "Azərbaycanda qadınlar təşkilatı canlanmalıdır", "Şura aparatını təmizləməyə hazırlaşın" və s. məqalələrinin adları deməyə belə əsas verir ki, onu "Lenin partiyasının sədaqətli qızı" adlandıranlar yanılmamışlar.

Ayna Sultanova 1937-ci ildə Azərbaycandakı özbaşınalıqlara son qoymaq və həyat yoldaşı Həmid Sultanovun azadlığa buraxılması üçün İ.V.Stalinlə görüşmək məqsədilə Moskvaya gedir. Arxiv materiallarından aydın görünür ki, Azərbaycan Dövlət Təhlükəsizlik İdarəsi tərəfindən 29 avqust 1937-ci ildə Ayna xanım Sultanovanın həbsi və evində axtarış aparılması barədə 1209 saylı order imzalanır. Nədənsə bu müddətdə o, həbs edilmir və 11 oktyabr 1937-ci ildə Azərbaycan SSR XDİK əməkdaşları Ayna xanımın həbs olunması və xüsusi mühafizə dəstəsinin

müşayiəti ilə Bakıya gətirilməsi sifarişini verir. 19 oktyabrda Ayna xanım həbs edilir[191]. O, həbs ediləndə onunla birlikdə yaşamışdır:

Oğlu: Həmid – 16 yaşında.

Qızı: Nazənin - 10 yaşında.

Oğlu: Vladlen – 8 yaşında.

Anası: Quba (Ziba) – 70 yaşında.

21 oktyabrda NKVD-nin Baş Dövlət Təhlükəsizlik İdarəsinin əməkdaşı Bermanın imzaladığı №A402 saylı orderə əsasən məhkumun evində axtarış aparılır. Axtarış zamanı ondan 044804 №-li həmkarlar bileti, məxfi yazılar, şəxsi və xidməti sənədlər, fotoşəkillər götürülmüşdür.



1 noyabr 1937-ci ildə A.Sultanova Butur Türməsinin rəisinə verilən göstərişə əsasən xüsusi kanvoyla, xüsusi vaqonda, tək adamlıq kamerada Moskvadan Bakıya göndərilir. Ayna Sultanova əksinqilabi millətçi təşkilatın üzvü olmaqda, burjua-millətçi təşkilatın işində iştirak etməkdə, ziyankarlıqda, Azərbaycan MK katibinə terror hazırlayan qrupa rəhbərlikdə ittiham edilir.

Müstəntiq B.Martirosyan Ayna xanımı "əksinqilabi millətçi təşkilatın üzvü" olmaqda suçlasa da buna nail olmur. Dediklərimizi 10 noyabr 1937-ci il dindirməsi də təsdiq edir.

Sual: İstintaqa məlumdur ki, siz əksinqilabi burjua millətçi təşkilatın üzvüsünüz. Təklif edirik ki, istintaqa düzgün ifadə verəsiniz.

Cavab: İnkar edirəm ki, mən əksinqilabi millətçi təşkilatın üzvü olmamışam.

Sual: Siz düzgün danışmırsınız. İstintaqa məlumdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz, müqavimət göstərməyin və istintaqa düzgün məlumat verin.

Cavab: Təkrar edirəm, mən heç vaxt əksinqilabi təşkilatın üzvü olmamışam.

Sual: Siz həqiqəti demək istəmirsiniz. Təklif edirik, müqavimət göstərməyi dayandırasınız və düzgün ifadə verəsiniz.

Cavab: Mən müqavimət göstərmirəm və həqiqəti deyirəm. Mən heç vaxt əksinqilabi millətçi təşkilatın üzvü olmamışam.

[191] DTX-nin arxivi. Ayna Sultanovanın istintaq qovluğu, PR - № 3753.

10 noyabrda aparılan ilk dindirmə müstəntiq Q.B.Martirosyanı razı salmadı. Çünki Ayna Sultanovanın cavabları onu qane etmirdi. **Əslində yalan danışan, istintaqı aldadan Ayna xanım deyil, Q.B.Martirosyanın özü idi və O, istəyirdi ki, Ayna xanım özünü əksinqlabçı, burjua millətçi təşkilatın üzvü elan etsin. Ayna xanım bütün mənəvi, fiziki, psixoloji işgəncələrə dözərək özünün müqəssir olmadığını bəyan etdi. Həqiqətən də, Azərbaycanda sovet hökumətinin qurucularından və təbliğatçılarından olan A.Sultanova keçən əsrin 30-cu illərinin günahsız müqəssirlərindən idi.**

02 dekabr 1937-ci il, 15 yanvar 1938-ci il, eləcə də 28 yanvar 1938-ci il tarixlərində verdiyi ifadələrində də o, əksinqilabi təşkilatın üzvü olmadığını bildirdi və bütün bunlar müstəntiq Q.B.Martirosyana başqa tədbirlər görməyə əsas verdi. Ayna Sultanovanı "sındıra" bilməyən Martirosyan onun xaraktercə zəif olan adamlardan ifadələr almağa başladı. Hətta bir çox Azərbaycan ziyalılarından fiziki işgəncələr yolu ilə alınan saxta ifadələr, eləcə də aparılan məkrli, çirkin niyyətli üzləşmələr zamanı da Ayna xanım müstəntiqə yalnız bir söz deyir: "Mən heç vaxt əksinqilabi təşkilatın üzvü olmamışam". Bir sözlə, erməni müstəntiq A.Sultanovanın iradəsini sındıra bilmir.

Yeri gəlmişkən deməliyik ki, bəzi tədqiqatçılar (tanınmış yazıçı-publisist Mehriban Vəzir) yazır ki, "Ayna Sultanovanın üzünə məhkəmədə əri, daxili işlər naziri Həmid Sultanov və qardaşı görkəmli dövlət xadimi Qəzənfər Musabəyov durmuşdur. Yəqin ki, bu üzədurma dəhşətli işgəncələrin nəticəsi idi. Onlar, yəni qardaşı və əri məhkəmədə Ayna Sultanovanın əksinqilabçı qüvvələrlə əməkdaşlığına şahid olduqlarını söyləmişdilər".

Bütün bunlar uydurmadır. Əvvəla, 30-cu illərin məhkəmələri, bir qayda olaraq, şahidlərin və müdafiəçilərin (vəkillərin) iştirakı olmadan keçirilirdi. İkincisi, üzləşmələr məhkəmədə deyil, dindirmələr zamanı, yəni istintaq prosesində baş verirdi? Üçüncüsü, onların istintaq qovluqlarında biri-biri ilə üzləşdirilməsi öz təsdiqini tapmayıb. Yəni belə bir üzləşmə yoxdu. Maraqlıdır ki, müstəntiqlərin bütün işgəncələrinə baxmayaraq onlar Ayna Sultanovanın iradəsini sındıra, dilini açа bilməmişdi. Bir çox kişilərdən (elə həm də qadın məhbuslardan) fərqli olaraq o, axıradək işgəncələrə dözür və özünü müqəssir saymır.

Mətləbdən uzaqlaşmadan deməliyik ki, bütün bunlara baxmayaraq 1895-ci il təvəllüdlü Ayna Sultanova Azəbaycan SSR Cinayət Məcəlləsinin 64, 70 və 73-cü maddələri ilə göstərilənlərlə ittiham edilirdi:

1. Əksinqilabi millətçi təşkilatın üzvü olmaqda və həmin təşkilatın rəhbər heyəti ilə əlaqə saxlamaqda;

2. Şəxsən terrorçu dəstə yaratdığına və idarə etdiyinə, eləcə də Azərbaycan Sov. K(b)P MK-nin katibi yoldaş Bağırova qarşı terror aktı hazırlamaqda[192].

2 iyul 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının hazırlıq iclasında qərara alınır ki, Ayna Mahmud qızı Sultanovanın cinayət işinə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının qapalı məhkəmə iclasında baxılsın.

3 iyul 1938-ci ildə Matuleviç, Kolpakov, Kulik və Kazlovun iştirakı ilə (şahidlərin və vəkilin iştirakı olmadan) Ayna Sultanovanın məhkəməsi baş tutur. İstintaq dövründə olduğu kimi, 55 dəqiqəlik məhkəmədə də Ayna xanım Sultanova özünü müqəssir hesab etmir. O son sözündə də məhkəməyə heç bir əksinqilabi millətçi burjua təşkilatının üzvü olmadığını bildirir. Bütün bunlara baxmayaraq, bolşeviklər "Lenin partiyasının sədaqətli qızı"nı SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının 1938-ci il 3 iyul tarixli hökmü ilə **"XALQ DÜŞMƏNİ"** damğasıyla güllələdilər.

1937-38-ci illər Musabəyovlar ailəsinin soyqrım illəri idi. Belə ki, həmin illərdə Ayna xanımın anası Ziba Hüseyn qızı Musabəyova da həbs edildi. Tanınmış yazıçı və tənqidçi Seyid Hüseynin həyat yoldaşı Ümmügülsüm Sadıqova (Rəsulzadə) özünün «Qala xatirələri»ndə yazırdı:,, Bir gün ümumi qadın təcridxanasının qapısı açıldı və ağzı-burnu qan içərisində olan yaşlı bir qadını itələyib içəriyə saldılar. Həmin qadın döşlərini köynəkdən çölə çıxardı və əllərini göyə uzadaraq uca səslə dedi: "Allahım, mənim verdiyim südü Mir Cəfərin burnundan tök! Məhbəsdə "İlahi, görəsən bu cəllad öz doğma anasınıdamı həbs edib?" - deyə qadınlar arasında bir uğultu qopdu. Sonradan məlum oldu ki, həbs edilən yaşlı qadın Ayna Sultanovanın və Qəzənfər Musabəyovun anası Ziba Musabəyova idi"

O, "vətən xaini"nin anası kimi SSRİ MİK-nin 4 iyul 1934-cü il qərarına əsasən SSRİ Xalq Daxili İşlər Komissarlığının Xüsusi Müşavirəsinin 2 avqust 1938-ci il tarixli qərarı ilə 5 il müddətinə Qazaxıstana sürgün edilmişdi[193].

Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 27 aprel 1956-cı il tarixli qərarına əsasən Ziba Hüseyn qızı Musabəyova bəraət almışdır[194].

---

[192] DTX-nin arxivi. Ayna Sultanovanın istintaq qovluğu, PR - № 3753.
[193]DTX-nin arxivi. Ziba Hüseyn qızı Musabəyovanın istintaq qovluğu, PR - № 23573.
[194]DTX-nin arxivi. Ziba Hüseyn qızı Musabəyovanın istintaq qovluğu, PR - № 23573.

QƏZƏNFƏR MAHMUD OĞLU MUSABƏYOV

Keçən əsrin 30-cu illərində Ayna xanımın qardaşı Qəzənfər Mahmud oğlu Musabəyov da həbs edildi. 26 iyul 1888-ci ildə Qubada anadan olan Qəzənfər Musabəyov 1911-ci ildə Bakıda gimnaziyanı bitirdikdən sonra tibbi təhsil almaq üçün Kiyev şəhərinə gedir. 1912-ci ildə Kiyevdə tibb fakültəsinə daxil olur və 1919-cu ildə təhsilini müvəffəqiyyətlə başa vurur. Qəzənfər Musabəyov tibbi təhsil almasına baxmayaraq siyasi məsələlərlə də ciddi maraqlanır. O, gizli fəaliyyət göstərən tələbələrin təşkilatına daxil olur və az keçmir ki, onun liderlərindən birinə çevrilir. Hətta Kiyevdə onun təşəbbüsü ilə müsəlman tələbələrin gizli qurultayı da keçirilir.

Təhsilini başa vuran Q.Musabəyov doğulduğu Quba şəhərinə gəlib həmvətənlilərinə pulsuz xidmət göstərir. Bu nüfuzundan istifadə edən Musabəyov 1917-ci ilin iyun ayında Quba fəhlə və əsgər deputatları Soveti İcraiyyə Komitəsinin, həmin ilin iyul ayının 11-də isə Quba Qəza Ərzaq Komitəsinin sədri seçilir.

1918-ci il aprelin 25-də yaradılan Bakı Xalq Komissarları Soveti (BXKS) Q.Musabəyovu Bakı quberniyasında və Dağıstan vilayətində məhsul tədarükü üzrə komissar təyin edir. Q.Musabəyov belə bir ağır zamanda Bakının ərzaqla təchiz edilməsində mühüm rol oynayır. 1918-ci ildə Cümhuriyyətin süqutundan sonra Azərbaycanın bir sıra inqilabçıları ilə birlikdə Q.Musabəyov da Həştərxan şəhərinə gedir. Orada N.Nərimanovla birlikdə müsəlman hərbi xəstəxanası yaradır və həmin xəstəxanənın baş həkimi olur. Eyni zamanda o, RK(b)P Həştərxan təşkilatı müsəlman bölməsinin katibi, Hümmət təşkilatının Həştərxan şöbəsinin sədri, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissar vəzifələrini də yerinə yetirir.

Q.Musabəyov Moskvanın tapşırığı ilə gizli iş aparmaq üçün 1920-ci ilin fevral ayında Bakıya gəlir. Bir müddət Dağıstanda fəaliyyət göstərən kommunist Q.Musabəyov Azərbaycanı işğal etməyə hazır olan XI ordu hissələrinə qoşulur və aprelin 27-dən 28-ə keçən gecə Bakıya daxil olan "III İnternasional" zirehli qatarı ilə şəhərə daxil olur .

Q.Musabəyov mükafatsız qalmır. O, XKS-nin tərkibinə respublikanın xalq ərzaq komissarı kimi daxil olur.

1920-ci ilin sentyabr-oktyabr aylarında Q.Musabəyov Quba qəzası kəndlilərinin birinci qurultayında iştirak edərək dövlətin kənddə aparacağı siyasət haqqında məruzə edir.

1922-ci il aprelin 28-i mayın 3-də II Ümumazərbaycan Sovetlər Qurultayı çağırılır və Q.Musabəyov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri seçilir. O, 1922-1930-cu illərdə həmin vəzifədə işləyir.

1930-1931-ci illərdə Q.Musabəyov Azərbaycan SSR MİK-in, 1931-1936-cı illərdə isə ZSFSR Xalq Komissarları Sovetinin sədri vəzifəsinə irəli çəkilir. O, bu vəzifədə çalışarkən Cənubi Qafqaz xalqlarının iqtisadiyyat və mədəniyyətini daha da inkişaf etdirməyə çalışır.

Belə bir mətin və sədaqətli bolşevik də sovet totalitarizminin repressiya maşınının tırtılları altına salınır. Belə ki, 1937-ci il iyul ayının 25-də 3593 №-li orderə əsasən SSRİ Xalq Daxili İşlər Komissarlığının əməkdaşları Q.Musabəyov Moskva şəhərindəki evində (Serafimo küçəsi, ev 2, mənzil 74-də) axtarış aparmış və onu həbs edərək Tbilisi şəhərinə gətirmişdir. Komendant Nikolayevin iştirakı ilə keçirilən axtarış zamanı Qəzənfər Musabəyovun evindən aşağıdakılar götürülmüşdür:

1. 71 №-li mandat;
2. 0000094 №-li partiya bileti;
3. Zaqafqaziya Mərkəzi İcriyə Komitəsinin üzvlük bileti № 284;
4. Vəsiqə № 269;
5. 59 №-li xidməti bilet;
6. 072389 №-li pasport;
7. Hərbi bilet (№ göstərilmir);
8. 50 ədəd patron;
9. Kiçik kalibrlı vintovka 26 ədəd;
10. Fin bıçağı;
11. Hava tapançası №-li 219872 – 1 ədəd;
12. Fotoşəkil 2 ədəd;
13. Musabəyovun məktubları və s. əşyalar.

Maraqlıdır ki, Gürcüstan SSR XDİK-in Dövlət Təhlükəsiziliyi İdarəsinin 1-ci şöbəsinin baş əməliyyat müvəkkili Quves 14 iyul 1934-cü ildə Qəzənfər Musabəyovun evindən götürülmüş silahların siyahısını aşağıdakı kimi təqdim edirdi:

1. 1965 №-li karabin və ona aid olan 60 ədəd patron;
2. Təhlüləli ov tüfəngi №-li 959;
3. Qoşalüləli ov tüfəngi №-li 107656;
4. İki vintovkalı №-li 10144 və 83325 tüfəng;

5. 31061 №-li mauzer tipli kiçik kalibrlı almaniya sistemli beşaçılan;

6. 5618 №-li kiçik kalibrlı "TOZ" beşaçılan silah;

7. 67496 №-li mauzer sistemli tapança və ona aid olan 99 ədəd patron;

8. 7056 №-li revolver sistemli "NAQAN" patronla dolu;

9. Xəncər 1 ədəd;

10. 25 ədəd patronu olan 2 dəri ov çantası;

11. 6,35 kalibrli "BRAUNİNU" 100 ədəd;

12. Xaricdən gətirilmiş kiçik kalibrli 211 ədəd patron;

13. Müxtəlif tipli patronlar 60 ədəd;

14. 4675 №-li revolver sistemli NAQAN və ona aid patron 14 ədəd.

Həbs olunana qədər Qəzənfər Musabəyovla birlikdə yaşamışdır:

1. Həyat yoldaşı Arifə Musabəyova (evdar qadın);
2. Qızı Sara Musabəyova 18 yaş (şagird);
3. Oğlu Oqtay Musabəyov 12 yaş (şagird);
4. Anası Quba Musabəyova 70 yaş (evdar qadın).

1937-ci il avqust ayının 2-də Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığı Dövlət Təhlükəsizliyi İdarəsinin 3-cü şöbəsinin rəis müavini Viner tərəfindən hazırlanmış arayışda göstərilirdi ki, 1889-cu ildə anadan olmuş, Zaqafqaziya RSFSR Xalq Komissarları Sovetinin sabiq sədri Musabəyov Qəzənfər Mahmud oğlu əksinqilabçı terrorçu və casusluq təşkilatının rəhbəri kimi ifşa olunub. Ona görə də o, SSRİ cinayət məcəlləsinin müvafiq bəndləri ilə ittiham edilməlidir. Bu məcəlləni isə müəyyənləşdirən Gürcüstan SSR Dövlət Təhlükəsizliyi İdarəsinin 4-cü şöbəsinin 2-ci bölməsinin rəis köməkçisi, milliyyətcə erməni olan Krimyan oldu. Onun təhqiqatlarının nəticəsinə əsasən Q.Musabəyov Gürcüstan SSR Cinayət Məcəlləsinin 58-1, 58-7, 58-1-ci maddələri ilə ittiham edilməlidir[195].

Nə qədər təəccüblü olsa da, qeyd etməliyik ki, 2 avqust 1937-ci ildə 6-cı şöbənin əməliyyat müvəkkili DT kiçik leytenantı Kozaçenko Musabəyovun Tiflis şəhəri Saba Sulxana küçəsi mənzil 15-də axtarış aparması barədə qərar qəbul etdi. Uzun axtarışlardan sonra 17 avqust 1937-ci ildə Qəzənfər Musabəyovun dindirilməsinə keçdilər:

[195] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.

Sual: Siz Əksinqilabi Millətçi Təşkilatın Azərbaycan Millətçi Mərkəzinin rəhbərlərindən biri kimi ittiham olunursunuz. Özünüzü müqəssir hesab edirsinizmi?

Cavab: Mən heç vaxt heç bir Əksinqilabi Millətçi Təşkilatın rəhbəri və ya üzvü olmamışam.

Sual: İstintaq bir daha sizə xatırladır ki, siz Əksinqilabi Millətçi Təşkilatın fəallarından birisiniz və bunları faktlar təsdiqləyir.

Cavab: Bir daha deyirəm ki, mən əksinqilabi iş aparmamışam.

Sual: Siz yalan informasiya verirsiniz. İstintaq qəti tələb edir ki, siz ifadələrinizi düzgün verəsiniz, çünki bunlar şahid ifadələri ilə təsdiqlənib.

Cavab: Xahiş edirəm, heç olmasa bir nəfər şahid göstərəsiniz[196].

Qəzənfər Musabəyovun bu xahişindən sonra onu vaxtilə bir yerdə işlədiyi Flkqontov Qeorgiy Aleksandroviçlə, Çiçinadze Vissarion Alekseyeviçlə, Mqaloblişvilin Qerman Andreyeviçlə üzləşdirdilər. Üzləşmə zamanı yuxarıda adları çəkilən şəxslər ona qarşı qərəzli mövqedə dursalar da, Qəzənfər Musabəyov özünün Əksinqilabi Millətçi Təşkilatın üzvü olmadığını qətiyyətlə bildirdi. Müstəntiq onu səmimi olmamaqda ittiham etdi və 20 avqust 1937-ci ildə Cakeli Şalde Semyonoviçlə üzləşdirdi. Bütün üzləşmələrə baxmayaraq Musabəyovun müstəntiqə və onun üzləşməyə dəvət etdiyi şahidlərə son sözü bu oldu. "Mən Əksinqilabi Millətçi Təşkilatın tərkibində olmamışam" Bundan sonra müvəqqəti olaraq istintaq dayandırıldı. Daha doğrusu, bir çoxları kimi Qəzənfər Musabəyova da üç nömrəli metod tətbiq edildi. Bu, o deməkdir ki, müttəhim mənəvi-psixoloji, fiziki təzyiqlərə məruz qalır, lakin aylarla dindirməyə cəlb edilmir. Təzyiqlərə duruş gətirə bilməyən müttəhimlər bezərək hər şeyi boynuna alacağını bildirir. İstintaqın gedişindən təngə gələn Qəzənfər Musabəyov da 28 oktyabr 1937-ci ildə təhlükəsizlik orqanlarına aşağıdakı məzmunda ərizə ilə müraciət edir: "bir neçə aydır istintaqa müqavimət göstərir və günahlarımı etiraf etmirəm. İndi isə bildirirəm ki, bütün günahlarımı növbəti dindirmələrdə boynuma alacağam"[197].

Bu ərizədən bir gün sonra, yəni 29 oktyabr 1937-ci ildə Musabəyova tətbiq edilən 3 nömrəli metod aradan qaldırıldı və o, yenidən dindirməyə cəlb edildi. Dindirmə zamanı Musabəyov, qeyd etdi ki, Ruhulla Axundovla, Sultan Məcid Əfəndiyevlə, Həmid Sultanovla, Dadaş Bünyadzadə ilə əlbir olaraq Azərbaycanı SSR-dən ayırmaq, sovet

[196] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.
[197] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.

partiya rəhbərlərinə qarşı terror aktı hazırlayıb həyata keçirməyi planlaşdırırdılar. L.P.Beriyanı və M.C.Bağırovu aradan götürmək işi Həmid Sultanova həvalə edilmişdi. Gecə yarıya qədər sürən 29 oktyabr dindirmə zamanı Qəzənfər Musabəyov müstəntiqə bildirdi ki, "mən indi çox yorulduğuma görə xahiş edirəm dindirməni dayandırasınız" [198].

Q.Musabəyov Krimyana etiraf edir ki, o, əksinqilabi millətçi təşkilata rəhbərlik edib. O həmçinin etiraf edir ki, müttəfiq respublikalarda əksinqilabi, terrorçu, millətçi mərkəzin rəhbərləri (Ukraynada – Lyubanin, Özbəkistanda - Feyzulla Xodayev, Türkmənistanda – Gülümbəyov Tacikistanda - Rəhimbəyov) də onunla birgə əksinqilabi millətçi iş aparmışdır. Hətta etiraf edir ki, onun təmsil olunduğu bu antisovet mərkəz Almaniya, Yaponiya və İran xəfiyyə orqanları ilə gizli əlaqə saxlayır.

22 noyabr, 26 noyabr, 28 dekabr 1937-ci il tarixli dindirmələri zamanı isə o, özünün Əksinqilabi Təşkildakı aktivliyindən, SSR-ni yıxmaq istəmələrindən və Azərbaycanın bir çox siyasi rəhbərləri ilə əlbir olmalarından söz açır.

Əvvəlcədən qurulmuş ssenariyə uyğun olaraq bir çox müttəhimlər dindirildi və Qəzənfər Musabəyovun özü və həmkarları barədə uydurmalarını təsdiq etdi, hətta deyərdik ki, bir qədər də genişləndirdi və təkmilləşdirdilər. Bircə bunu demək kifayətdir ki, 3 cilddən ibarət olan bu cinayət işinin böyük əksəriyyəti digər müttəhimlərdən alınmış ifadələrdir.

31 dekabr 1937-ci ildə - bolşevik müstəntiqlərinə lazım olan informasiyaları əldə etdikdən sonra dövlət təhlükəsizlik serjantı Qoribov Qəzənfər Musabəyova istintaqın başa çatdığını bildirdi.

Krimyan Q.Musabəyovdan istədiyini aldıqdan sonra, yəni 1937-ci il dekabrın 31-də onun istintaq işi Gürcüstan SSR XDİK Üçlüyünün müzakirəsinə göndərilir.1938-ci il fevralın 8-də Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığı yanında xüsusi üçlüyün qərarı ilə Musabəyov Qəzənfər Mahmud oğlu güllələnir[199].

06 dekabr 1955-ci ildə Zaqafqaziya Hərbi Tribunalının qərarına əsasən Qəzənfər Musabəyovun işinə xitam verilir.

Yeri gəlmişkən qeyd etməliyik ki, Q.Musabəyov o qədər fiziki işgəncəyə məruz qalırdı ki, hətta onu dindirməyə aparmaq üçün müstəntiqlərə bir və ya iki saat vaxt lazım olurdu. Belə ki, o işgəncələrdən yaxa qurtarmaq üçün məhbus çarpayılarının altına girərək dəmirlərdən (çarpayının setkasından) bərk-bərk yapışırdı və onu oradan qoparmaq müstən-

[198] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.
[199] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.

tiqlərə asan başa gəlmirdi. Deyilənə görə, hətta onu M.C.Bağırovun özü də döyürmüş.

***

1937-38-ci illərdə kütləvi həbslər zamanı Az.SSR XDİK-in Məxfi-siyasi şöbəsində əməliyyat müvəkkili işləyən Dudiyev Vladimir Mayramoviç 12 noyabr 1954-cü ildə şahid qismində ifadə verərək bildirirdi ki, onun işlədiyi müddətdə bütün müttəhimləri istintaq zamanı vəhşicəsinə döyürdülər. Yumruq, ayaq, rezin dubinka ilə döyür və uzun müddət ayaq üstə saxlayırdılar. Bunları iki məqsəd üçün edirdilər: 1) Müttəhimi məcbur edirdilər ki, özünü əksinqilabi təşkilatın üzvü olmaqda müqəssir hesab etsin; 2) etirafdan sonra qondarma əksinqilabi təşkilatın daha çox iştirakçıları barədə ifadə verməyi tələb etsinlər. Daha doğrusu, müttəhimi hər cür təhqir etdikdən və işgəncə verdikdən sonra, onları özləri və digər şəxslər barədə ifadə verməyə məcbur edir, nəticədə barəsində ifadə verilən şəxsləri həbs edirdilər. **Yadımdadır ki, istintaq zamanı R.Axundovu, Ə.H.Qarayevi, S.M.Əfəndiyevi, Q.Musabəyovu, H.Sultanovu, H.Səfərovu, H.Vəzirovu, D.Bünyatzadəni və b. tez-tez döyürdülər**[200]**.**

Dudiyev Vladimir Mayramoviç qeyd edirdi ki, bir dəfə istintaq zamanı mən dəqiq yadımda deyil, ya Sonkinin, ya da Yermakovun kabinetinə daxil oldum orada əməliyyat müvəkkili Musatov Nikolay (boksçu), şöbə rəisi Tsinman, Xalq Komissarı Sumbatov və işçilərdən kim isə var idi. Müttəhimlərdən isə kabinetdə Sultan Məcid Əfəndiyev idi. O döşəmənin üstündə cırıq köynəkdə, möhkəm döyülmüş halda oturmuşdu. Müstəntiqlərdən hansısa onun üzərinə su atdı və onu özünə gətirdi. Başqa bir müstəntiq isə ona "ifadə ver" dedi. Kabinetdə Sumbatovu görcək mən orada qalmayıb dəhlizə çıxdım. Bizim şöbədə döyənlər içərisində öz qəddarlıqları ilə Sonkin Qriqoriy, Qriqoryan, Qalstyan, Avetikyan, Platonov, Medvedev, Klemençiç, Borisov, eləcə də Yermakov, Xaldıbanov, Antomoni, Musatov Nikolay və başqaları idi. Məsələn, Musatov müttəhimləri döyərkən boksçu əlcəklərindən istifadə edirdi. Şahidiyəm ki, Musatov bir kabinetdən digər kabinetə keçib müttəhimləri necə təhqir edirdi. Buna görə də o, Sumbatovun, Gerasimovun və Tsinmanın yanında böyük hörmət qazanmışdı.

Əməliyyat müşavirələrində şöbə rəisi Tsinman və Xalq Komissarının müavini Gerasimov dəfələrlə müstəntiqlərə "göstəriş" verirdilər ki, müttəhimlərə qarşı bütün üsullardan istifadə edin, onlar hər hansı yol

[200] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.

ilə olursa-olsun əksinqilabi millətçi təşkilatın üzvü olmalarını etiraf etməlidirlər.

Bu cür təhqiredici təcrübəni tətbiq etmək üçün Xalq Komissarı Sumbatov və onun müavini Gerasimov tərəfindən göstəriş verilmişdi. O da unudulmamalıdır ki, bütün bunlardan AK(b)P MK-nın keçmiş katibi M.C.Bağırovun xəbəri var idi[201].

Əməliyyat müşavirələrinin birində, dəqiq yadımda deyil o, ya Gerasimov, ya da Tsinman R.Axundovun işini aparan müstəntiqlərə təxminən belə bir göstəriş verdi: "sahibdən (yəni M.C.Bağırovdan)" sərəncam daxil olub ki, bir sutka ərzində hər hansı yol ilə olursa olsun R.Axundovun əksinqilabi təşkilatın üzvü olması barədə etiraf etməsinə nail olmalıdırlar"[202].

Bu,1937-ci ilin yayında, R.Axundov həbsxanada olarkən baş vermişdi. Məxfi siyasi şöbənin işləri üzrə xarakterik cəhət o idi ki, bir çox müttəhimlər M.C.Bağırova qarşı terror aktı hazırlamaqda ittiham olunurdular. İstintaq zamanı onları vəhşicəsinə döyür və nəticədə onlar "etiraf" edirdilər ki, həqiqətən onlar M.C.Bağırovu öldürmək istəyirdilər. Bütün bunlar Bağırova yaltaqlıq etmək üçün edilirdi, o özü də bunu yaxşı başa düşürdü, buna baxmayaraq saxtalaşdırılmış işlərin nəinki qarşısını almırdı, hətta əksinə bu cür cinayətləri gizlədən müstəntiqləri mükafatlandırırdı[203].

Təhlükəsizlik orqanlarının əməkdaşlarının dedikləri bir daha təsdiq edir ki, Q.Musabəyovun M.C.Bağırov tərəfindən döyülməsi faktı tamamı ilə inandırıcıdır. Buna əsas verən amillərdən biri də Q.Musabəyovun SSRİ Xalq Daxili Işlər Komissari Nikolay İvanoviç Yejova yazdığı məktub idi. DTX-nin arxivindəki Qəzənfər Mahmud oğlu Musabəyova aid olan PR-16646 nömrəli istintaq qovluğunda saxlanılan bir məktubun müasir oxucu və tarixçilər üçün əhəmiyyətini nəzərə alaraq onun tərcüməsini bütövlükdə təqdim edir və Mircəfər Bağırovla bağlı məqamları qara şriftlə veririk:

“Xalq Daxili İşlər Komissari
yol. N.İ.YEJOVA

Əziz Nikolay İvanoviç!

[201] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.
[202] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.
[203] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.

ÜİK(b)P MK-nın iyun plenumunun qərarı ilə mən MK üzvlüyünə namizədlərin tərkibindən qeyri-fəallığıma görə çıxarılmışam. Mən bu qərarın tamamilə düzgün olduğunu qəbul edir və MK-nın qərarını özüm üçün müqəddəs hesab edərək partiyamızın etimadını doğrultmaq üçün işləməyə göndəriləcəyim istənilən sahədə var gücümü əsirgəmədən çalışacağıma söz verirəm[204].

Əziz Nikolay İvanoviç, məni tanıdığını nəzərə alaraq, sənə fəaliyyətimlə bağlı təfsilatı ilə izahat verməyi özümə fürsət bilirəm. Mən, 1889-cu ildə keçmiş Quba qəzasının Perebil *(indiki Pirəbədil - C.Q.)* kəndində azərbaycanlı kəndlisinin ailəsində anadan olmuşam. Yeddi yaşım olanda atam məni bir rus ailəsinə vermiş, burada mən ta Bakı gimnaziyasını bitirənədək yaşamış və təhsil almışam. 1911-ci ildə gimnaziyanı bitirmiş və elə həmin ildə atamı itirmişəm. Təhsilimi başa vurmaq arzusu ilə 1912-ci ildə Kiyevə yollanmış və orada universitetin tibb fakültəsinə daxil olmuşam. Oranı 1917-ci ildə bitirdikdən sonra Bakıya qayıdaraq inqilabi fəaliyyətə qoşulmuşam. Birinci Bakı Kommunası zamanı Çaparidze və Şaumyan yoldaşlarının rəhbərliyi altında ərzaq cəbhəsində çalışmışam. Bakı Kommunasının süqutundan sonra, 1918-ci ilin avqustunda yol. Çaparidzenin təklifi ilə digər kommunarlarla birlikdə Həştərxana təxliyyə edilmişəm. İki il Həştərxanda S.M.Kirovun rəhbərliyi altında əvvəlcə partiya işində, sonra isə 11-ci Orduya xidmət sahəsində (lazaret təşkil etmiş və burada baş həkim işləmişəm) fəaliyyət göstərmişəm. 1920-ci ilin aprelində Orconikidze və Kirov yoldaşlarının tapşırığı ilə Mikoyan və Yefremov yoldaşlarların birlikdə "Beynəlmiləl" zirehli qatarında Bakını döyüşə-döyüşə ələ keçirmişik. Azərbaycanın sovetləşməsinin ilk günlərindən 1931-ci ilədək çoxlu sayda sahələrdə fəal çalışmışam: 8 il Xalq Komissarları Sovetinin sədri və 2 il MİK-in sədri postunda olmuşam. 1931-ci ildən MK-nın qərarına əsasən Zaqafqaziya Xalq Komissarları Sovetinin sədri vəzifəsinə təyinatımla əlaqədar Tbilisiyə köçmüş və 1937-ci ilədək, yəni Zaqafqaziya Federasiyası ləğv edilənədək həmin vəzifədə çalışmışam[205].

Əziz Nikolay İvanoviç, partiyamızın gözü önündə keçən fəaliyyətim bundan ibarətdir.

Fəaliyyətimin bu 19 ili ərzində MK-nın direktivi və dahi rəhbər yoldaş Stalinin göstərişlərinin həyata keçirilməsi uğrunda daim mübarizə aparmışam. Mən, Azərbaycanda və Zaqafqaziyada milli təmayülçülərə

[204] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.
[205] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.

qarşı, Zaqafqaziya Federasiyasının yaradılması uğrunda mübarizə aparmışam. Alçaq, mənfur trotskistləri, sağçıları və onların əməllərini ifşa etmişəm. Lominadzevşşinanı ifşa etmiş və partiyamızın əsas siyasi xəttinin həyata keçirilməsi uğrunda savaşa qatılmışam. Heç vaxt, əziz Nikolay İvanoviç, partiyamız qarşısında riyakarlığa yol verməmişəm. Hər zaman sadiq olduğum və hər an uğrunda canımı fəda etməyə hazır olduğum böyük partiyamızın adına, əziz rəhbərimizin adına and içirəm. Uzun illər rəhbərliyi altında işlədiyim, hədsiz sevdiyim və məni də özünə bir dost hesab edən, həm də sevən S.M.Kirovun adına and içirəm ki, heç vaxt partiyamızın əsas xəttinə qarşı çıxmamışam və partiyamız qarşısında vicdanım təmizdir. Bu 19 il ərzində bir dəfə də olsun partiyamızdan məzəmmət belə almamışam. Əziz Nikolay İvanoviç, sən məni şəxsən kifayət qədər yaxşı tanıyırsan, mənim partiyamıza və dahi rəhbərimiz yol. Stalinə nə qədər səmimi sədaqətlə bağlı olduğumu bilirsən. Sən dahi rəhbərin səmimi və sadiq şagirdisən, insanlardan da yaxşı başın çıxır. Bütün həyatımı və fəaliyyətimi olduğu kimi sənə nəql etməklə səndən bir xahişim vardır. Hazırda partiyamız tərəfindən bütün düşmənlərimizin, bu faşizm casuslarının, böyük vətənimizi satan, ona xəyanət edən alçaq sağçı və trotskistlərin aradan götürüldüyü bir vaxtda həmin alçaq düşmənlər bəzi sadiq və dürüst kommunistlərə də iftira ata bilərlər. Plenumda mənə qarşı əsassız materiallarla çıxışlarından göründüyü kimi, mənə atılan böhtanlara yol. Bağırovun münasibəti heç də obyektiv deyil. Qorxuram ki, düşmənlərimizin mənə atdıqları böhtanlardan mənə qarşı istifadə etsin.

Əziz Nikolay İvanoviç, sənə, rəhbərimizin sadiq şagirdinə, doğma və haqqı sevən qardaşıma deməliyəm ki, yol. Bağırov mənə çoxdandır düşmən kimi münasibət göstərir. Hələ Azərbaycanda mənimlə işlədiyi dövrdə aramızda ayrı-ayrı siyasi məsələlərlə bağlı tez-tez fikir ayrılığı olurdu. Yol. Bağırov bir sıra siyasi səhvlərə yol vermişdir ki, buna görə də iki dəfə işdən azad edilmişdir. 1927-ci ildə DSİ-nin sədri postunda olduğu dövrdə yol. Bağırov aparatdan düzgün istifadə etmədiyinə görə yol. S.Orconikidzenin təklifi ilə həmin vəzifədən azad edilmişdir[206].

1930-cu ildə rəhbərliklə partiya işinə xələl gətirən prinsipsiz dava-dalaşa görə yol. Bağırov yol. Gikalo və digərləri ilə birlikdə MK-nın qərarı ilə vəzifəsindən azad edilərək Azərbaycandan Moskvaya geriyə çağırılmışdır.

[206] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.

Etiraf edirəm ki, yol verdiyi siyasi səhvlərə, qətiyyətsizliyinə və qeyri-səmimiliyinə görə mənim də yol. Bağırova olan münasibətim mənfi olub.

Nikolay İvanoviç, özümə görə qorxmuram, belə ki, partiya və böyük rəhbərimiz qarşısında vicdanım təmizdir. Məni, azərbaycanlı kəndli oğlunu partiyamız böyüdüb, tərbiyə edib və məsul iş sahələrinə işləmək üçün göndərib. Hər zaman partiyamızın və sevimli rəhbərimizin direktivlərini və göstərişlərini yerinə yetirmişəm və indi də bütün ruhumla onlara sadiqəm.Əziz Nikolay İvanoviç, həqiqəti üzə çıxarmaq üçün bütün bunları sənə danışmağı özümə borc bildim. Nikolay İvanoviç, ömrümdə heç vaxt yalan danışmadım. Məni yaxşı tanıyırsan və hər zaman səmimiyyətimə əmin ola bilərsən. Səndən bircə xahişim var və sənə yalvarıram ki, mənə aid materiallara şəxsən özün baxasan, xüsusən də Azərbaycandan olanlara, harada ki, söhbət açılmış ikən, artıq 7 ildir işləmirəm, əsassız böhtanların yalan olduğunu isbat edib həqiqəti üzə çıxarasan. Bu mənim yeganə xahişimdir. Nikolay İvanoviç, çox xahiş edirəm məni qəbul edib dinləyəsən. Sadiq qalıram, y. Musabəyov

Ünvanım: 1-ci Sovetlər evi, mən.74, tel. V-1-74-83”[207].

Qəzənfər Musabəyov həqiqətən partiyanın sadiq və sadəlövh əsgəri idi. Sadəlövh idi ona görə ki, o, “**doğma və haqqı sevən qardaşım**” dediyi Yejova inanır və Mircəfər Bağırova olan mənfi münasibətini yazılı şəkildə bildirirdi. “Əziz Nikolay İvanoviç”ə şəxsən ünvalanan məktub Q.Musabəyovun istintaq qovluğuna qədər yol gəlir.



Qəzənfər Musabəyov ehtiyat edir ki, ÜİK(b)P MK-nın iyun plen-umunda onun barəsində deyilmiş böhtanlardan Mir Cəfər Bağırov yararlanar. Yəni, alçaq sağçı və trotskistlərin aradan götürüldüyü bir vaxtda həmin düşmənlər partiyaya sadiq və dürüst kommunistləri də iftira yolu ilə aradan götürərlər. O yazırdı: “Plenumda mənə qarşı əsassız materiallarla çıxışlarından göründüyü kimi, mənə atılan böhtanlara yol. Bağırovun münasibəti heç də obyektiv deyil. Qorxuram ki, düşmənlərimizin mənə atdıqları böhtanlardan mənə qarşı istifadə etsin”[208].

[207] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.
[208] DTX-nin arxivi. Qəzənfər Mahmud oğlu Musabəyovun istintaq qovluğu, PR - № 16646.

Qəzənfər Musabəyov başa düşmürdü ki, həmin plenumda deyilənlərin ideya müəllifi elə M.C.Bağırovun özü idi.O, "Bir sıra siyasi səhvlər" buraxdığına görə iki dəfə işdən azad edildiyini, 1930-cu ildə rəhbərliklə partiya işinə xələl gətirən prinsipsiz dava-dalaşı, Gikalo və digərləri ilə birlikdə

MK-nın qərarı ilə vəzifəsindən azad edildiyini Yejova çatdırdığına, hətta dilinə gətirdiyinə görə Mircəfər Bağırov tərəfindən ciddi cəzalanmalıydı. M.C.Bağırov Q.Musabəyovun dediyi "Etiraf edirəm ki, yol verdiyi siyasi səhvlərə, qətiyyətsizliyinə və qeyri-səmimiliyinə görə mənim də yol. Bağırova olan münasibətim mənfi olub" sözlərini heç vaxt unutmazdı.

Heç unutmadı da. O, Musabəyovların və Musabəyovlarla ilişkisi olanların hamısını məhv etdi.

Musabəyova Arifə Əhməd qızı
PR №23034

1896-cı ildə Həştərxan şəhərində anadan olmuş, Həştərxan şəhəri, ev 1, mən.2 ünvanında yaşamışdır.

Ailə tərkibi: oğlanları Adrəhman – 24 yaş, Oqtay – 14 yaş, qızı Sara 21 yaşında[209]



Həyat yoldaşı Musabəyov Qəzənfər əksinqilabi-millətçilik hərəkatının iştirakçısı kimi həbs edilmişdir.

Musabəyova Arifə Əhməd qızı əksinqilabi-millətçilik hərəkatının fəal iştirakçısının həyat yoldaşı kimin SSRİ XDİK Xüsusi Müşavirəsinin 13 fevral 1940-cı il qərarına əsasən 27 iyul 1939-cu ildən hesablanmaqla cəzasını İslah-Əmək Düşərgəsində çəkməklə 8 il müddətinə azadlıqdan məhrum olunmuşdur.

Zaqafqaziya Dairə Hərbi Tribunalının 30 mart 1956-cı il qərarına əsasən Musabəyova Arifə Əhməd qızının günahı olmadığına görə bəraət verilmişdir[210].

Musabəyova Quba (Ziba) Hüseyn qızı
PR №23573



1872-ci ildə Quba şəhərində anadan olmuş, Bakı şəhəri, Kommunist küçəsi, 15 ünvanında yaşamışdır.

Ailə tərkibi: qızı Ayna, oğlu Qəzənfər (1936) vətən xaini kimi güllələnmişdir[211].

Oğlu Musabəyov Müzəffər Mahmud oğlu (1896) SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyanın Səyyar Sessiyası tərəfindən 03.01.1838-ci il tarixli qərara əsasən əksinqilabi-millətçi terrorçu təşkilatın üzvü olduğuna görə I kateqoriya ilə güllələnməyə məhkum edilmişdir.

---

[209] DTX-nin arxivi. Musabəyova Arifə Əhməd qızının istintaq qovluğu, PR - № 23034.
[210] DTX-nin arxivi. Musabəyova Arifə Əhməd qızının istintaq qovluğu, PR - № 23034.
[211] DTX-nin arxivi. Musabəyova Quba (Ziba) Hüseyn qızının istintaq qovluğu, PR - № 23573.

Musabəyova Quba (Ziba) Hüseyn qızı vətən xaininin anası kimi SSR MİK 04.07.1934-cü il tarixli qərarına əsasən SSRİ XDİK Xüsusi Müşavirənin 02.08. 1938-ci il tarixli qərarı ilə 5 il müddətinə Qazaxıstana sürgün edilmişdir.

Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 27.04.1956-cı il tarixli qərarına əsasən Musabəyova Quba (Ziba) Hüseyn qızına bəraət verilmişdir[212].

***

Həmid Sultanov

M.C.Bağırovun qəzəbinə düçar olanlardan biri də Ayna xanımın həyat yoldaşı Həmid Sultanov idi. Sultanov Həmid Həsən oğlu 26 may 1889-cu ildə Qazax rayonunun Şınıx-Ayrım kəndində anadan olmuşdur. Leypsiq Politexnik İnstitutunu bitirib (1909-1913); Şaumyan vaxtında Bakı ş. və rayonları Hərbi İnqilab Komitəsinin üzvü, Bakı XKŞ qəza müvəkkillərindəndi. 1919-cu müstəqil dövlətimizə - Azərbaycan Cümhuriyyətinə qarşı fəal gizli mübarizə aparıb, silahlı üsyan təşkilatçılarından olub. Sovetləşmədən sonra Azərbaycan İnqilab Komitəsinin üzvü, Az.SSR daxili işlər komissarı, İran KP katibi, sənaye və ticarət komissarı, AXTŞ sədri, Nax.MSSR XKS sədri, ZSFSR MİK katibi, Azərbaycan SSR kommunal təsərrüfatı komissarı və b. vəzifələrdə çalışıb. Xalqımızın işğalçı kommunistlərə qarşı Gəncə üsyanını xüsusi qəddarlıqla qan içində boğub. Minlərlə günahsız yurddaşımızın məhvinə səbəb olub, ancaq sonda kommunistlər onu da «vətən xaini» adlandıraraq xüsusi qəddarlıqla məhv ediblər. 1938-ci ildə güllələmişdi.

***

Azərbaycanda Sovet hökumətinin qurucularından olan Həmid Sultanovu da 30-cu illərdə idarə və iş üsulu repressiya olan totalitar rejim öz toruna sala bildi. Azərbaycan, XDİK DTİ IV şöbəsinin rəisi təhlükəsizlik kapitanı Tsinman 27 iyun 1937-ci ildə Həmid Həsən oğlu Sultanov haqqında arayış tərtib etdi. Arayışda göstərilirdi ki, Ruhulla Axundov 9 apreldə, Hənəfi Zeynallı 15-17 apreldə verdiyi ifadələrində Həmid Sultanovun əksinqilabi millətçi təşkilatın üzvü və milli təmayülçülərlə əlaqədə olduğunu göstərmişlər. Bunları nəzərə alaraq H.Sultanov həbs olunmalıdır. XDİK rəisi təhlükəsizlik komissarı Sumbatov 28 iyun 1937-ci ildə Həmid Sultanovun həbsi barədə qərar qəbul edir. Elə

[212] DTX-nin arxivi. Musabəyova Diba (Ziba) Hüseyn qızının istintaq qovluğu, PR - № 23573.

həmin gün onun evində axtarış aparılır. Axtarış zamanı onun evindən istintaq üçün əhəmiyyət kəsb edən bir şey tapılmır.

Həbs olunanadək onunla birlikdə yaşamışdır.

Arvadı Ayna – 37 yaş.

Oğlu Həmid – 15 yaş.

Oğlu Vladlen – 12 yaş.

Qızı – Nazənin 8 yaş.

Təxminən bir ay sonra AK(b)P Voroşilov Rayon Komitəsi tərəfindən 1907-ci ildən bolşeviklər partiyasının üzvü olan Həmid Sultanovu millətçi-təmayülçü ziyankar xalq düşməni kimi partiya sıralarından xaric edir.

Azərbaycan SSR CM-in, 64, 68, 69, 70, 79-cu maddələri üzrə H.Sultanov da daxil olmaqla 14161 saylı cinayəti işi açılır və işə rəhbərlik Qriqoryana həvalə edilir.

Bir çox müttəhimlər kimi, Həmid Sultanov da heç nəyi boynuna almır və özünü müqəssir hesab etmir. Ona görə də onun özünə vaxtı ilə özünün tətbiq etdiyi cəza metodlarını tətbiq edirlər. İşgəncələrə duruş gətirə bilməyən H.Sultanov 4 iyul 1937-ci ildə Sumbato-Topuridzeyə müraciət edərək istintaqa düzgün ifadə verəcəyini bildirir.

Sual: 11 iyulda siz yoldaş Sumbatovun adına yazdığınız ərizədə özünüzün partiya ya və Sovet hakimiyyətinə cinayət fəaliyyətinizi boynunuza almağa hazır olduğunuzu bildirmişdiniz. İstintaq sizdən doğruları danışmağı gözləyir, danışın.

Cavab: Boynuma alıram ki, mən Azərbaycanda əksinqilabçı təşkilatın üzvü olmuşam. Mənim partiya Sovet hökumətinə qarşı bu mübarizə yolum çirkin xəyanət, çirkin satqınlıq və ağır cinayət yolu olmuşdur. İndi mən istintaqa bütün həqiqəti açmaq, öz üzərimdən biabırçı yükü, o yükü ki, həmişə daşımış və partiyadan gizlətmişəm, götürmək istəyirəm.

Həmid Sultanov ifadəsində əksinqilabi təşkilata Ruhulla Axundov tərəfindən cəlb edildiyini bildirir. Ruhulla Axundovun əksinqilabi millətçi təşkilatına daxil olan şəxslərin

Səfərov Həsən Azərbaycan K(b)P MK keçmiş Kənd Təssərrüfatı Şöbəsinin müdiri; Əfəndiyev Sultan Məcid- Azərbaycan MİK-in keçmiş sədri; Ağaverdiyev Hüseynbala-Azərbaycan XKS sədrinin keçmiş müavini; Eyvazov Ələsgər-Azərbaycan Dövlət Plan Komitəsinin sədri; Hüseynov Mikayıl-Azərbaycan K(b)P MK mədəniyyət və təbliğat şöbəsinin keçmiş müdiri; Sultanov Qulam-Azərkinonun keçmiş rəisi; Fərəczadə Əsgər-Azərbaycan Dövlət Plan Komitəsi sədrinin keçmiş

müavini; Mirzə Məmməd Qasımov-RİK-in keçmiş sədri; Abdulov Kərim-keçmiş RİK sədri; Xanbudaqov İbrahim-keçmiş Trest direktoru; Eminbəyli İbrahim-Azərbaycan SSR XMK Qlavlitin keçmiş rəisi; Xuluflu Vəli-Azərbaycan EA Tarix İnstutunun keçmiş direktoru; Cuvarlinski Məmməd-Azərbaycan K(b)P Nuxa RK-nin keçmiş katibi; Məmmədov Əli-Azərbaycan Taxıl tədarükü idarəsinin keçmiş direktoru; Nayıbov Məmməd-Azərbaycan Torpaq Komissarının keçmiş müavini; Tağı Şahbazi-yazıçı; Zeynallı Hənəfi-EA Azərbaycan filialının keçmiş elmi işçisi; Hüseynbəyov Balabəy-Azərbaycan Dövlət Universitetinin keçmiş direktoru; Kərimov Əli-Azərbaycan Dövlət Dram Teatrının keçmiş direktoru; Şahbazov Müseyib - keçmiş xalq maarif komissarının adlarını çəkir.

Həmid Sultanov 1 avqust 1937-ci ildə dindirilərkən Şamaxıdakı əksinqilabi təşkilatın rəhbəri olduğunu, (etiraf). O, 10 avqust 1937-ci il dindirməsində isə İranın agenti kimi, İran Konsulu Marzibanla əlaqədə olduğunu da etiraf edir.

Dəfələrlə dindirilən və hər şeyi boynuna alan H.Sultanova 10 oktyabr 1937-ci ildə istintaqın başa çatdığı elan edildi.

XDİK əməkdaşları - Gerasimov və Tsinmanın qəbul etdiyi qərara əsasən H.Sultanovun cinayət işi baxılmaq üçün Azərbaycan SSR Ali Məhkəməsinin Xüsusi müşavirəsinə göndərilir.

27 oktyabr və 2 noyabr 1937-ci il tarixlərində Azərbaycan SSR Ali Məhkəməsinin Xüsusi Müşavirəsinin iclasında T.Quliyevin sədrliyi ilə H.Sultanovun və digərlərinin işinə baxılır. Həmid Sultanov Azərbaycan SSR CM-in 21, 582, 64, 586, 587, 589, 5800, 68, 21, 70, və 79 maddələri ilə ittiham edilir.

Azərbaycan Ali Məhkəməsinin Xüsusi Müşavirəsinin qərarı ilə Sultanov Həmid Həsən oğlu Az.SSR CM-in 21, 64, 68, 21, 70 və 73-cü maddələrilə təqsirkar bilinərək əmlakı müsadirə edilməklə **güllələnməyə** məhkum edilir.

Stalinin ölümündən sonra repressiya qurbanlarının, o cümlədən Həmid Sultanovun işinə yenidən baxıldı. 19 yanvar 1955-ci ildə Azərbaycan SSR Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının qərarı ilə ona bəraət verildi. Beləliklə sovet hökumətinin qurucularından olan günahsız müqəssirlərdən biri də (ölümündən sonra) beləcə bağışlandı.

ƏHMƏD PEPİNOV

Vaxtı ilə Məhəmməd peyğəmbər buyururdu ki, insanlar valideynlərindən daha çox mühitinə oxşayır. Həqiqətən də, insanı formalaşdıran, baxışlar sistemini tənzimləyən onun düşdüyü makro və mikro mühit olur. Əhməd Pepinovun da mühiti ziyalı mühit idi. Bu ziyalılar yalnız Azərbaycanda deyil, ondan kənarda da tanınan, məramı millətə xidmət olan ziyalılar idi. Ə.Pepinovun dayısı Ömər Faiq Nemanzadə, yaşca böyük olsalar da Əhmədin dostuna çevrilən Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və başqaları onun məslək dostları idi. Əhməd Pepinov Azərbaycanın bu məşhur ziyalılarından Vətən əxlaqı, Vətən dərsi almış, harada işləməsindən və yaşamasından asılı olmayaraq gənc nəsli maarifləndirməyi və işıqlı sabahlara aparmağı özünün müqəddəs peşəsinə çevirmişdir. Lakin sirr deyildir ki, Ə.Pepinovun düşdüyü cəmiyyətdə ziyalı mühitlə yanaşı, hamını öz qanunlarına tabe etdirən Sovet imperiyası adlı bir total mühitdə vardı. Bu mühit müstəqil düşüncə sahibi olan yaradıcı ziyalını nəinki qəbul etmir, hətta onu hər vəchlə məhv edirdi. Həmin illərdə qətlə yetirilən ziyalılarımızdan biri də Əhməd Pepinov idi. Biz bu yazımızda onun məhbəsdəki faciəli həyat hekayəsini oxucuların diqqətinə çatdırmaq istərdik.

Ə.Pepinovun qızı Sevda xanımın "Ziyalılar və zaman" adlı müsahibəsindən atası və onu məhv edən total mühit haqqında aşağıdakıları öyrənirik: "Mənim atam milliyətcə məshəti türküdür. Baxmayaraq ki, o, Axaltsixi rayonunda anadan olub, ancaq onun uşaqlığı Şamaxıda və Tiflisdə məşhur dayısı Ömər Faiq Nemanzadənin himayəsi altında keçib. Əhməd bəy Tbilisidə gimnaziyada oxuyub və oranı qızıl medalla bitirib. Onun dayısı ilə yaşadığı binanın birinci mərtəbəsində mətbəə yerləşib, ikinci mərtəbədə isə onlar Cəlil Məmmədquluzadə ilə qonşu olublar. M.Cəlil mənim atama ağır xəstə olan böyük Azərbaycan şairi Sabirə qayğı göstərməyi tapşırıb. Sabir onun gözü qarşısında, az qala qolları arasında həyatla vidalaşıb. Gimnaziyanı bitirdikdən sonra atam oxumaq üçün Moskvaya gedib və orada eyni vaxtda iki fakültədə ali təhsil alıb - hüquq və iqtisadiyyat. O, poliqlot idi, çoxlu dil bilirdi. Moskvada o, eser partiyasına daxil olub. Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə Əhməd bəy, mənim babam, Zaqafqaziya Seyminin üzvü Həsən bəy Ağayevlə birlikdə əvvəl Gəncəyə, sonra isə Bakıya gələrək 1918-ci ildə Parlamentin Rəyasət Heyətinin katibi, sonra isə əmək və torpaq naziri təyin edilib. Sovet hakimiyyəti illərində atam müxtəlif vəzifələrdə işləyib, həbs edildiyi son dövrlərdə isə maarif naziri olub, ali

təhsil və mədəniyyət sahəsinə rəhbərlik edib... XX əsrin əvvəllərində böyük bir ziyalılar dəstəsi yetişmişdi. Onlar xalqa fədakarlıqla xidmət edirdilər və xeyli ardıcılları vardı. 1937-ci ildə mənim fikrimcə, Azərbaycan xalqına qarşı əsl soyqırımı tətbiq edildi. Adamlar məhv edildilər, ailələr dağıdıldı, uşaqları internat məktəblərə verdilər, çünki qohumlar onları öz yanlarında saxlamağa qorxurdular... Həmin dəhşətli illərdə cəmiyyətin qaymaqlarının məhv edildiyi dövrdə bizim ziyalılara ağır zərbələr dəydi... İndi əsl mənada ziyalılar yoxdur. Yazıçılar, alimlər, pedaqoqlar var. Ancaq həqiqi ziyalılar tək-təkdir"[213].

Sevda xanımın dediyi həqiqi ziyalılardan olan Əhməd Pepinov da 1930-cu illərdə Xoren Qriqoryanın şikarına çevrilmişdi. 4-cü şöbənin 4-cü bölməsinin rəisi baş leytenant X.Qriqoryan tərəfindən tərtib edilən arayışı DTİ-nin 4-cü şöbəsinin rəisi dövlət təhlükəsizlik kapitanı Tsinman 9 iyul 1937-ci ildə təsdiq etdi. Həmin arayışdan məlum olur ki, Az. SSR vətəndaşı, 1882-ci il təvəllüdlü, azərbaycanlı Əhməd Pepinov Azərbaycan Milli Mərkəzinin (AMM) əksinqilabi burjua təşkilatında aktiv iştirakına görə 1930-cu ildə Dövlət Siyasi İdarəsi tərəfindən həbs edilib. O, 1936-cı ildə sürgündən qayıdandan sonra da milli əksinqilabi fəaliyyətini davam etdirib. Bundan başqa, tərəfimizdən həbs olunan pantürkist təşkilatının ümumittifaq mərkəzinin üzvü professor Qubaydullin dindirmə zamanı verdiyi ifadəsində göstərmişdir ki, Ə.Pepinov 1937-ci ildə Az.SSR də milli burjua təşkilatının fəal üzvlərindəndir.

Qubaydullin eyni zamanda bildirmişdir ki, Ə.Pepinov 1926-cı ildə Türkoloji qurultayda müsavatçı M.Baharlı ilə yaxından tanış olmuş, B.Çobanzadə ilə sıx əlaqə saxlamışdır. Onun barəsində verilən ifadələri nəzərə alaraq SSRİ CM-in 72, 73 maddələri ilə həbsini zəruri hesab edirəm[214]. Elə bu sonuncu cümlədən də istintaqın necə "obyektiv" gedəcəyi aydın görünür. Bir nəfərin verdiyi ifadəyə görə başqa adamların da taleyi ilə oynamağı və onu məhv etməyi yalnız Qriqoryanlar bacarardı. Aydınlıq üçün deməliyik ki, bu ifadə Qubaydullin tərəfindən verilməmişdi, ondan işgəncə yolu ilə alınmışdı. Bugünkü ictimai yaddaşda belə bir fikir vardır. S.Mümtazla üzləşdirilmə zamanı müstəntiq bir neçə dəqiqəliyinə çölə çıxır, bundan istifadə edən Qubaydulun bildirir ki, nə edim Salman, bacarmıram, məni döyə-döyə

---

213 "Ziyalılar və zaman". Əhməd bəyin qızı Sevda xanımla müsahibə, "Günay" qəzeti, 2000, 26 fevral, № 8.

214 DTX-nın arxivi. Əhməd Pepinov istintaq işi, PR - № 28006.

öldürmək istəyirlər. Məni bağışla və məni başa düş. Bu illərdə yalnız Qubaydullin deyil, NKVD məhbəsində olan hər bir kəsi fiziki və mənəvi-psixoloji işgəncələrlə üz-üzə qoyurdular. Ş.Mümtazın özü də bu işgəncələrə çox məruz qalmışdı.

Mən bir gün Salman Mümtazın qızı Şəhla xanımla görüşdüm. Çox yaşlanmışdı və gözləri, demək olar ki, görmürdü. Mənimlə söhbət zamanı S.Mümtazla görüşlərini xatırlayaraq deyirdi: "bir dəfə anamla babamı (O, S.Mümtaza baba deyirdi – C.Q.) görməyə getmişdik. Bizə görüşmək üçün icazə verdilər. Babam danışmır, susurdu. Axırda anam apardığımız bağlamanı ona verəndə babam soruşdu ki, yeməkdi? Bunu nahaq gətirmisiniz. Orada yeməkdən başqa babamın paltarları da var idi. Babam danışanda mən gördüm ki, onun ağzında bir dənədə olsun dişi qalmamışdı və sifəti şişmişdi. Mən düz 20 ildən sonra anladım ki, babam "bunu nahaq gətirmisiniz" sözünü niyə dedi. Bununla babam demək istəyirdi ki, bunlar, yəni əclaf müstəntiqlər məndə diş qoyublar ki, mən də o yeməyi yeyəm?! Mən sonralar anladım ki, babam həmin gün dişləri olmadığına görə bizimlə danışmırdı. Sən demə,o, susmaqla tökülmüş dişlərini bizdən gizlədirmiş".

Göründüyü kimi, bu tragik-dramatik taleni məhbəsdə olanların hamısı yaşamışdı. Lakin onlarin hamısı eyni iradə və dözüm sahibi olmadığından təzyiq və işgəncələrə də tab gətirə bilmirdilər. Ona görə də, bu gün Qriqoryana çevrilib fiziki təzyiqlərə tab gətirə bilməyənləri ittiham və ya mühakimə etmək lazım deyil. Əksinə həmin adamları dərdləri ilə birlikdə dərk etmək lazımdı.

Yuxarıda təqdim etdiyimiz arayışdan bir qədər sonra - 7 sentyabr 1937-ci ildə Ə.Pepinovun həbsi barədə qərar çıxarılır və 273 saylı orderə əsasən onun Ulyanovsk şəhərində Krasnoqvardeysk küçəsi, bina 24-də yerləşən 1 nömrəli mənzilində axtarış aparılır. Axtarış zamanı istintaq üçün əhəmiyyət kəsb edə biləcək heç nə tapılmasa da, oradan 452558 nömrəli passport, 8 ədəd müxtəlif yazışma, almanca-rusca lüğət, qazax-rus lüğəti, 12 ədəd müxtəlif fotoşəkil, istiqraz vərəqələri və kitab müsadirə edilir.

Maraqlıdır ki, sentyabrda həbs olunan Əhməd Ömər oğlu Pepinov 19 noyabr 1937-ci ildə dindirilir. NKVD müstəntiqlərinin, o cümlədən Qriqoryanın ənənəvi sualı belə olur:

Sual: İstintaq tərəfindən müəyyənləşdirilmişdir ki, siz Azərbaycanda əksinqilabi iş aparmısınız və əksinqilabi millətçi təşkilatın fəal rəhbərlərindən biri olmusunuz.

Cavab: İnkar edirəm. Mən əksinqilabi təşkilatın üzvü olmamışam və heç bir əksinqilabi iş aparmamışam.

Əlbəttə, sual ənənəvi olsa da, cavab ənənəvi olmamalıdır. Bu, 37-nin spesfik xüsusiyyətidir və NKVD məhbəsində bu yaxşı qarşılanmasa da, ənənəvi cavablar verənlər də olurdu. Əhməd Pepinovun 23 noyabr 1937-ci il tarixli dindirmə protokoluna diqqət yetirək:

Sual: Siz əksinqilabi fəaliyyətiniz haqqında danışacaqsınızmı?

Cavab: Mən heç bir əksinqilabi iş aparmamışam.

Sual: Siz düzünü demirsiniz. İnadkarlıq etməyin və istintaqa əksinqilabi fəaliyyətiniz haqqında məlumat verin.

Cavab: Mən istintaqa doğru cavabı verdim. Təkrar edirəm ki, heç bir əksinqilabi iş aparmamışam.

Sual: Əksinqilabi millətçi mövqedə duran hansı elmi işçiləri tanıyırsınız?

Cavab: Heç kimi tanımıram.

Sual: Professor Bəkir Çobanzadə əksinqilabi millətçi kimi sizə məlumdur?

Cavab: Professor Bəkir Çobanzadəni yalnız millətçi kimi tanıyıram.

Sual: Daha kimi tanıyırsınız?

Cavab: Professorlar Qubaydullin və Kazımovu tanıyıram. Başqa heç kimi tanımıram.

Sual: Onlar sizə əksinqilabi millətçi baxışları haqqında danışırdılar?

Cavab: Professor Çobanzadənin millətçi baxışları mənə onunla şəxsi danışıqlarımdan məlumdur.

Sual: Siz onun əksinqilabi millətçi baxışları ilə həmfikir idiniz?

Cavab: Bəzi suallarda mən onların əksinqilabi millətçi baxışları ilə həmfikir idim.

Sual: Partiya və hökumət milli kadrların yaranmasına qarşı idilər? Siz istintaqa doğru məlumat vermirsiniz, təklif edirəm ki, konkret cavab verəsiniz? Adları çəkilmiş şəxslər partiya siyasətinə və Sovet hökumətinə qarşı yönəlmiş konkret iş görürdülər? [215]

Təqsirli bilinən Ə.Pepinov bu suala cavab verməkdən imtina edir. Daha doğrusu, nə cavab verəcəyini bilmir. Qriqoryan istintaqa cəlb edilənlərdən artıq bu suallara cavab almışdı. Ə.Pepinov da bunları

215 DTX-nin arxivi. Əhməd Pepinovun istintaq işi, PR - № 28006.

təsdiqləməli idi, daha doğrusu, bu, saxtalaşdırılmış istintaqa hüquqi don geyindirmək üçün Qriqoryana lazım idi.

Bütün bunları əsaslandırmaq üçün istintaq Ə.Pepinovun mühacirətlə, xarici burjua dövlətləri ilə Azərbaycan ziyalılarının əlaqəsini, maliyyə mənbələrini və xarici dövlətlərlə əlaqənin məqsəd və məramını üzə çıxarmalı idi. 19 yanvar 1937-ci il dindirməsi, demək olar ki, bu məsələlərə həsr olunub:

Sual: Siz 8-9 dekabr 1937-ci ildə öz ifadələrinizdə göstərmisiniz ki, Azərbaycan millətçi təşkilatı Topçubaşovun simasında mühacirətlə əlaqəli idi. Mühacirətdəkilərdən şəxsən kim hansı maddi yardım almışdı və bu yardım necə bölüşdürülürdü?

Cavab: Hacinski Məmməd Həsənin sözlərinə görə, Topçubaşov Azərbaycanın əksinqilabi millətçi təşkilatına maddi köməklik edirdi. 1930-cu ilin payızında ordubadlı Firuzun evində olarkən o, mənə dedi ki, təşkilatın üzvü kimi Hacinski ona təşkilatın ehtiyacları üçün 40.000 rubl göndərib. O, məni təşkilatın bir üzvü kimi məlumatlandırdı ki, onun tərəfindən əldə olunan məbləğ təşkilat üzvlərinin rayonlara getməsi və rayonlarda təşkilati işlərin xərcləri üçün nəzərdə tutulub. Bu pullar ehtiyaca görə onun tərəfindən bölüşdürülürdü. Şəxsən mənə məlumdur ki, onun tərəfindən təşkilatın üzvlərinə, mühəndis Mollayevə 5.000 rubl, Mirzəyev və Bəylərbəyova da həmin məbləğdə pul verilmişdir.

Müstəntiqin bu puldan sizə nə qədər vermişdilər sualına, Əhməd Pepinov mən pul almamışam cavabını verir və nə üçün verilmədiyini əsaslandırmağa çalışır. Lakin bu cavablar müstəntiqi qane etmir, ona görə də o, Ə.Pepinovu əksinqilabi millətçi təşkilatdakı rolunu istintaqdan gizlətməkdə ittiham edir. Ondan xarici dövlətlərin kəşfiyyat orqanları ilə əlaqəni kimin vasitəsilə saxladıqlarını söyləməsini tələb edir. Ə.Pepinov bildirir ki, xarici kəşfiyyat orqanları ilə əlaqəni şəxsən Hacinski Məmməd Həsən Parisdə olan mühacir Topçubaşov vasitəsilə həyata keçirirdi. 1930-cu ildə xidməti işlə bağlı Tiflisə səfərim zamanı mən orada Hacinski Məmməd Həsənlə görüşdüm. O, məni əksinqilabi millətçi təşkilatın üzvü kimi məlumatlandırdı ki, bizim işdə maddi yardım Topçubaşovun əlaqəli olduğu Fransız hökuməti tərəfindən təmin olunacaq. Hacinski kimlə olduğu, o, mənə bu barədə mənə heç nə deməmişdi.

Müstəntiqin "kəşfiyyat orqanlarına casus xarakterli hansı məlumatlar verilirdi? sualnı Ə.Pepinov belə cavablandırırdı: "1930-cu ildə mən Tiflisdə olanda Hacinski məni Fransa hökuməti tərəfindən göstərilən maddi yardım haqqında məlumatlandırdı və dedi ki, onlara

göstəriş verilib ki, ölkənin müdafiə bacarığının, daşınma və neft sənayesinin vəziyyəti haqqında casus xarakterli məlumatlar əksinqilabi millətçi təşkilatın üzvlərinə çatdırılsın. Bununla da Hacinskinin sözlərinə görə, ona Fransız kəşfiyyatı üçün casus xarakterli məlumatlar ölkənin müdafiə qabiliyyəti haqqında - Naxçvanski Şamo, dəmir yolu üzrə mühəndis Mirzəyev, neft sənayesi üzrə Rüstəmbəyov Fətullabəy tərəfindən çatdırılırdı. Bundan başqa, O, neft sənayesi üzrə digər ona tanış olan mühəndislərdən də istifadə edirdi. Bu mühəndislərin kim olduğunu demirdi. Bu mühəndislərin Az.neftdə işlədiyini deyirdi. Bu məlumatların xarici kəşfiyyata kim tərəfindən göndərildiyini bilmirəm. O, mənə bu barədə heç nə demirdi".

Ə.Pepinov fikirlərini davam etdirərək yalnız neft sahəsində deyil, kənd təsərrüfatı, hətta ordu sahəsindəki təxribatlardan da bəhs edir. O, bildirirdi ki, ziyanverici əksinqilabi təşkilatın işi pambıq üçün əkin sahələrinin azaldılması və kollektiv şəkildə keçirilən partiya və hökumət tədbirlərinin qarşısını almaqdan ibarət idi.

Müstəntiq hansı bölgələrdə üsyançı dəstələrin olması və həmin dəstələrə kimin rəhbərlik etməsi məsələsini də gündəmə gətirərək, "rayonlarda hansı ziyanverici işlər aparılırdı? -deyə sual verir. Ə.Pepinov isə cavabında Kirovabad rayonunda üsyançılarla əlaqələrin qurulması üçün təşkilatdan Mollayevlə və üsyançı hərəkatın rəhbəri Hacı Axundovla şəxsi əlaqə qurmağa nail olduğunu qeyd etdi.

Ə.Pepinovla müstəntiq arasında üsyanlarla və digər məsələlərlə bağlı dialoq belə davam edir:

Sual: 1927-ci ildə Nuxa üsyanı (bu üsyan 1930-cu ildə baş vermişdi – C.Q.) zamanı Nuxa rayonuna kim göndərilmişdi?

Cavab: Nuxa üsyanı zamanı mən təşkilatda olmamışam. Nuxa rayonuna kimin göndərilməsi barədə məlumatım yoxdur...

Sual: İndi istintaqa 30-cu ildən sonrakı əksinqilabi fəaliyyətinizdən danışın.

Cavab: 1930-cu il dekabrda həbs olundum və 1933-cü ilə qədər Bakı türməsində saxlanıldım, sonra Ulyanovsk şəhərinə sürgün olundum və 1936-cı ilə qədər orada oldum. 1936-cı ilin mayında Moskvada ЦК ВКП Kazaxstana Mirzoyanla görüşdüm, danışdım və Kazaxstana işə yollandım. Kazaxstanda Mirzoyanın təklifinə əsasən Bakıdan tanış olduğum Kazaxstan..... Teymur Əliyevə yaxınlaşdım. Teymur Əliyev məni iqtisadçı kimi işə düzəltdi. 1936-cı ilin mayına kimi işlədim. Mayda məcbur olub Ulyanovska qayıtdım. Çünki Mizoyanın dəvəti ilə gəlmiş azərbaycanlılar işdən azad olunurdu. Baxmayaraq ki, mən 30-cu ildən

sonra Azərbaycanda yaşamamışam, ona görə də 1-ci növbədə heç bir əksinqilabi iş aparmamışam, ikincisi, 1930-cu ildə bizim təşkilat dağıdılmışdı...

Protokol mənə oxunub, mənim sözlərim doğru yazılıb, ifadəmi təsdiq edirəm. İmza: Pepinov.

Təbii ki, dindirmələr bununla bitmir, şahid ifadələri ilə Ə.Pepinovun cinayətlərini üzə çıxarmağa, onun əksinqilabi millətçi təşkilatın üzvü olduğunu sübut etməyə çalışırdılar. Daha doğrusu, erməni müstəntiqlər bir türkü də beləcə məhv etməyə cəhd edirdilər. İstintaq protokolları ilə tanışlıqdan aydın görünür ki, türklərə qarşı düşmənçilik mövqeyində dayanan erməni müstəntiqlər tarixi qisasçılıq missiyalarını Azərbaycanın NKVD məhbəsində, eləcə də digər hüquq mühafizə orqanlarında asanlıqla, həm də siyasi terror yolu ilə həyata keçiriblər.

Ə.Pepinovun öz ifadələrindən başqa onun əleyhinə Ruhulla Axundovun, Əziz Qubaydullinin, Böyükağa Talıblının, Kərimov Əlinin, Vəli Xuluflunun, Bəhlul Behcətin, Bukuşpan Aleksandr Semyonoviçin, Əskər Fərəczadənin və başqalarının ifadələri də vardır. Birmənalı və qəti şəkildə deyə bilərik ki, istintaq qovluqlarındakı vahid ssenari əsasında müttəhimlərə tətbiq edilən üzləşmə və dindirmələr hüquqi ədalətin bərpasına və .....? içilən anda sədaqətin ifadəsinə deyil, türkə və türkçülüyə qarşı yönəlmiş qəsdin, qətliamın hüquqi cəhətdən əsaslandırılmasına xidmət edir. Digər tərəfdən isə, saxtalaşdırılmış bu sənədlər müttəhimi məhkəməyə aparan yolun qapılarını taybatay açırdı.

***

10 mart 1938-ci ildə istintaq müəyyənləşdirdi ki, Əhməd Pepinov Menşevik, İttihad, daha sonra isə əksinqilabi millətçi təşkilatın aktiv üzvü olmaqda;

Azərbaycanda Sovet hakimiyyətinin zor gücünə devrilməsi mövqeyində durmaqda;

1930-cu ildə Azərbaycan SSR-in rayonlarında üsyanlarının aktiv təşəbbüsçülərindən biri olmaqda;

Narkomprosda məsuliyyətli işdə olduğu zaman sistemli olaraq mədəni cəbhədə əksinqilabi ziyankarlıq işləri keçirməkdə;

Ümumittifaq pantürkist mərkəzin nümayəndələri ilə əksinqilabi əlaqə yaratmaqda təqsirli bilinərək Az.SSR CM-in 64, 69, 70, 73-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərdə ittiham olunur [216].

[216] DTX-nın arxivi. Əhməd Pepinov istintaq işi, PR - № 28006.

17 mart 1938-ci ildə cinayət işinin başa çatması barədə protokol hazırlandı və istintaqın bitməsi müttəhimə elan olundu.

2 iyul 1938-ci ildə Matuleviçin sədrliyi ilə SSRİ Ali Məhkəməsinin Hərbi Kolleqiyasının hazırlıq iclası keçirilir.

İclasda Azərbaycan SSR cinayət məcəlləsinin 64, 69, 70, 73-cü maddələrində təqsirli bilinən Ə.Pepinov barəsində qərara alınır ki, işə bağlı məhkəmə iclasında, vəkillərin, şahidlərin iştirakı olmadan baxılsın.

Çox qəribədi, keçən əsrin 30-cu illərinin repressiyaları zamanı məhkəmə salonuna vəkillər və şahidlər buraxılmırdı. Bu da sirr deyildir ki, bəzən məhkəmənin özü belə olmur, yəni müttəhimin də iştirakı olmadan, ümumi siyahı halında hökmlər oxunur və icrası təmin edilirdi. Bu barədə C.Qasımovun "Bolşevik qurşununun qurbanları" kitabında ətraflı bəhs edilmişdir. Hamıdan ədalət tələb edən müstəntiqlər bəzən hökmü icra etdirir, bir neçə gündən sonra hökm oxuyurdular[217]. Bəzən isə güllələnmə hökmündən sonra, yəni məhkəmə başa çatdıqdan, bütün proses başa çatdıqdan sonra müttəhim yenidən dindirilir və sonra güllələnirdi. Məsələn, görkəmli maarifçi ziyalımız Firudin bəy Köçərli hökmündən sonra ifadə vermişdi[218]. Cəmşid Naxçıvanskiyə 1931-ci ildə oxunan güllələnmə hökmünün icrası 2 fevral 1932-ci ildə ləğv edilmişdir. Beləliklə o, 1937-ci ildə ikinci dəfə NKVD orqanları tərəfindən mühakimə olunmuş və 26 avqust 1938-ci ildə güllələnmişdir. Bu faktları sadalamaqda məqsədimiz dünyaya analoqu olmayan hümanist dövlət olduğunu sübut etməyə çalışan sovet imperiyasının alt qatda həyata keçirmək istədiyi eybəcərlikləri və qanun pozuntularını üzə çıxarmaq, ermənilərin əli ilə günahsız və ya günahlı müqəssirlərin başına açılan oyunları göstərməkdir.

3 iyul 1938-ci ildə saat 21.40-da başlayan iclas 21.55-də, yəni 15 dəqiqə sonra başa çatır. Ə.Pepinov barəsində aşağıdakı məzmunda bir hökm oxunur. Menşevik, ittihad, daha sonra isə əksinqilabi millətçi təşkilatın aktiv üzvü olduğuna, Azərbaycanda Sovet hakimiyyətinin zor gücünə devrilməsi mövqeyində durduğuna, 1930-cu ildə Az.SSR rayonlarında üsyanların aktiv təşəbbüsçülərindən olduğuna, mədəni cəbhədə əksinqilabi ziyankarlıq işləri həyata keçirdiyinə, hakimiyyətə qarşı terrorçuluq mövqeyində dayandığına Ə.Pepinov Az.SSR CN-in 64, 69, 70 və 73-cü maddələri ilə təqsirli bilinir və Az.SSR Ali məhkəməsinin hərbi kolleqiyasının qərarı ilə birinci kateqoriya -

[217] DTX-nın arxivi. Məmməd Kovxanın istintaq işi, PR - № 36659.
[218] DTX-nın arxivi. F.Köçərlinin istintaq işi, PS - № 12206.

güllələnmə hökmü oxunur. Hökm həmin gün - 3 iyul 1938-ci ildə Bakıda icra edilir.

Ə.Pepinovun qızı Sevda xanım 1955-ci ildə məktubla hüquq-mühafizə orqanlarına ərizə ilə müraciət edərək atasının harda olması ilə maraqlanır. O, ərizəsində yazırdı: mənim atam Pepinov Əhməd Ömərovic ixtisasca iqtisadçı idi. 1937-ci ilin sentyabrında Ulyanovskda XDİK orqanları tərəfindən həbs olunur və Bakıya gətirilir. 1938-ci ilə qədər Bakıda saxlanılır. 1938-ci ilin mayında yazışma icazəsi qadagan olunmuş şəkildə sürgün olunur. Müraciətlərimizə baxmayaraq atamın nəyə görə, hansı müddətə və hara sürgün olunması barədə öyrənmək cəhdlərimiz nəticəsiz qaldı. O vaxtdan atam haqqında heç bir məlumatım yoxdur. Xahiş edirəm atamın işini araşdırın və onun nədə təqsirli bilinməsi, neçə il müddətinə sürgünə göndərilməsi və hazırda sağ olub-olmaması barədə mənə məlumat verin.

Xahiş edirəm cavabını Pepinova Sevda Əhməd qızına; Bakı şəhəri, Ostrovski küçəsi, ev 23 ünvanına çatdırasınız. 21.01.1955-ci il.

Oxucunun diqqətini ərizədəki bir neçə məqama yönəltmək istərdim. Fikir verin, müttəhimin nədə ittiham edilməsi barədə ailə üzvlərinə, hətta bəzən müttəhimin özünə heç bir məlumat verilmirdi. Bunun sirr olaraq ailə üzvlərindən gizlədilməsi məntiqsiz görünür və hesab edirik ki, yalnız totalitar dövlətlərdə və rejimlərdə bu yolverilən idi. Keçmiş sovetlər dönəmində də bu, qanunla tənzimlənmişdi və burada hüquq pozuntusu yox idi. Hətta o da qanuniləşmişdi ki, güllələnmiş adamın ölümü və dəfn olunduğu yer barədə mərhumun ailə üzvlərinə heç bir məlumat verilməsin. Bu sonuncu fakt (güllələnmişlərin dəfn yerinin gizli saxlanılması –C.Q.) şifrələnərək üzərinə "məxfi" yarlığı vurulmuşdu. Bir qayda olaraq (çox vaxt), "Vətən xaini", "xalq düşməni" adı altında güllələnmiş adamlarla maraqlananların qohumlarına "sürgün edildi" cavabı verilirdi. Ölümün gizlədilməsi faktının nəyə və ya hansı siyasətə xidmət etdiyi anlaşılan deyildi.

1950-ci illərdə zaman Pepinovların xeyrinə işləyirdi. Stalinizm buzu əridikcə kimin kim olması üzə çıxır, gizli mətləblərin üzərinə işıq çilənirdi. Bu dəfə məhkəmələr "güllələnsin", "sürgün edilsin" yerinə "bəraət verilsin", "sürgündən buraxılsın" (çoxuna da ölümündən sonra – C.Q.) hökmünü çıxarırdı.

30 yanvar 1957-ci ildə baş hərbi prokurorluq idarəsinin hərbi prokuroru Lazurenko Pepinov Əhməd Öməroviçin işi üzrə arxiv-istintaq

materiallarını araşdıraraq müəyyənləşdirmişdir ki, 3 iyul 1938-ci ildə SSRİ Ali məhkəməsinin hərbi kollegiyasının qərarı ilə müttəhim Pepinov AZ.SSR CM-in 64, 69, 70 və 73-cü bəndi ilə güllələnməyə məhkum edilmişdir.

Məhkum olunmuşun qızı Sara xanım Pepinovanın şikayətinə əsasən, onun işində yoxlama keçirildi və müəyyən olundu ki, 1938-ci ildə o, SSRİ Ali məhkəməsinin hərbi kollegiyasında əsassız ittiham olunub.

İlkin istintaqda Pepinov 1930-cu ildə Azərbaycanda əksinqilabi millətçi təşkilata cəlb olunmaqda özünü təqsirli bilsə də 1930-cu ildən sonra o, antisovet fəaliyyətini qətiyyən inkar etmişdir.

Məhkəmə iclasında Ə.Pepinov özünü təqsirli bilməmiş, ilkin istintaqda verdiyi ifadələrdən imtina etmiş və son sözündə özünü günahkar hesab etməmişdir.

Çobanzadə, Xuluflu, Axundov, Qubaydullin, Fərəczadə, Çingiz İldırım, Tağıyevin Pepinovla birgə əksinqilabi fəaliyyəti haqqındakı ifadələri onun təqsirli olduğunun sübutu ola bilməz. Belə ki, Çobanzadə, Xuluflu, Axundov,Qubaydullina, Çingiz, Tağıyev bəraət almışdılar.

Talıblı, Kərimov, Əfəndiyevin ifadələri də əsas götürülə bilməz, çünki onlar Ə.Pepinov haqqında onun müsavatçı və millətçi olduğunu deməkdən başqa konkret heç nə göstərməyiblər[219].

Deyilənləri nəzərə alan hərbi prokuror polkovnik-leytenant Lazurenko hesab etmişdir ki, təqsirli bilinən Ə.Pepinovun işi üzrə materialları SSRİ Ali məhkəməsinin hərbi kollegiyasının 3 iyun 1938-ci il tarixli hökmünü işdə cinayət tərkibi olmadığından ləğv etmək və işə xitam vermək təklifi ilə SSRİ Ali məhkəməsinin hərbi kollegiyasına göndərilsin.

Beləliklə də, Əhməd Pepinova SSRİ Ali məhkəməsinin hərbi kollegiyasının qərarına əsasən 14 sentyabr 1957-ci ildə bəraət verilir.

219 DTX-nİn arxivi. Əhməd Pepinovun istintaq işi, PR - № 28006.

XALQIN SƏRVƏTİNİ TOPLAYAN «XALQ DÜŞMƏNİ», YAXUD HƏNƏFİ BABA OĞLU ZEYNALLI

Görkəmli ədəbiyyat tənqidçisi və folklorşünas alim Hənəfi Baba oğlu Zeynallı 1896-cı ildə Bakıda dəmirçi-nalbənd ailəsində doğulmuşdur. 1912-ci ildə atasını itirən Hənəfi anasının onun-bunun evində qulluqçuluq etməklə qazandığı cuzi əmək haqqı ilə ibtidai təhsilini mədrəsədə başa vurur. Ailənin yaşayışının ağırlığını hiss edən H.Zeynallı qəzet satmaq və küçələrdə çəkmə silməklə ailənin maddi ehtiyaclarını aradan qaldırmağa çalışır, eyni zamanda orta təhsilini rus-tatar məktəbində davam etdirir. Ailə və təhsil həyatındakı çətinliklərə baxmayaraq, bədii yaradıcılıqla (şeir, məqalə, hekayə yazmaqla) da məşğul olur və «Namus» adlı ilk hekayələr kitabı 1914-cü ildə nəşr edilir. Dövri mətbuatda tez-tez yazılarının çap edilməsi onun oxumaq həvəsini daha da artırır və o, 1915-ci ildə Bakıdakı Orta Politexnik məktəbində təhsilini davam etdirir. H.Zeynallı 1916-cı ildə bu məktəbi bitirdikdən sonra Moskvada İmperator Texniki Peşə məktəbinə daxil olur. 1917-ci ildə inqilabi fəaliyyətinə görə həmin məktəbdən xaric edilir və Bakı şəhərinə gələrək bolşevik hərəkatına qoşulur. H.Zeynallı 1917-ci ildə «Tuti» jurnalında nəşr etdirdiyi «Həqiqi bəxtiyar kimdir?» adlı məqaləsində öz ideyaların belə açıqlayırdı: «Ancaq əqli səlim olan hər bir şəxs, əvvəla milləti, sonra bütün insaniyyət üçün çalışarkən kəndində bir şövq, zövq duyar. Millətini və bütün insaniyyəti səfalət və fəlakət-lərdən iraqlaşdırdıqda kəndi də səadətə yaxınlaşar»[220].

Bu məram və məqsədlə 1919-cu ildə bolşevik partiyasına daxil olan Hənəfi Zeynallı 1920-ci ildə İstanbul universitetinin hüquq fakültəsinə daxil olmuş və az müddətdən sonra partiyanın tapşırığı ilə təhsilini yarımçıq qoyaraq vətənə qayıtmışdır. 1922-ci ilədək partiya, sovet, ictimai-təşkilati işlərdə çalışmış, dövri mətbuatda çıxış etmiş və müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

H.Zeynallı 1922-ci ildə Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinə daxil olmuş və 1927-ci ildə oranı bitirmişdir. Əvvəlcə Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı tarixi kafedrasında, sonra isə Azərbaycan Pedaqoji İnstitutunda çalışmışdır.

1923-cü ildən Azərbaycan Dövlət Nəşriyyatında fəaliyyətə başlamış və 1924-1929-cu illərdə bu qurumun baş redaktoru vəzifəsinə

[220] «Tuti» jurnalı, 1917, № 21.

təyin olunmuşdur. 1923-31-ci illərdə Azərnəşrdə işləyərkən o, «Maarif və mədəniyyət», «İnqilab və mədəniyyət», «Maarif işçisi» jurnalları, «Kommunist» qəzeti və digər kütləvi informasiya vasitələri ilə də əməkdaşlıq etmiş, maraqlı ədəbi, elmi, publisistik yazılarla çıxış etmişdir.

H.Zeynallı V.İ.Leninin əsərlərini Azərbaycan dilinə tərcümə etmiş, 1934-cü ildə isə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında işə başlayaraq folklor bölməsinə rəhbərlik etməklə yanaşı, Azərnəşrdə redaktor kimi də fəaliyyət göstərmişdir.

Hənəfi Zeynallı 1920-30-cu illərdə yaradıcılıqla daha fəal məşğul olmuş, dərsliklərin və dərs vəsaitlərinin («Ədəbiyyatdan iş kitabı», «Ədəbiyyat dərsləri», «Ədəbiyyat müntəxəbatı» və s.) hazırlanmasında və tərtibində həmmüəlliflərdən biri kimi yaxından iştirak etmişdir. O, dərsliklərin hazırlanması zamanı iki məsələyə – milli nümunələrin təqdiminə və elmiliyə xüsusi fikir verməyi təqdir etmişdir. Bundan başqa, teatra dair resenziyalar, türk dünyasının görkəmli simalarından olan M.F.Axundov, S.Ə.Şirvani, X.B.Natəvan, Aşıq Pəri, Cəlil Məmmədquluzadə, Salman Mümtaz, İsmayıl Hikmət, H.Cavid, C.Cabbarlı, N.Hikmət, S.Rüstəm və başqalarının yaradıcılığından bəhs edən dəyərli elmi məqalələr yazmışdır. H.Zeynallı ədəbiyyatın müxtəlif sahələrinə dair qiymətli fikirlər söyləsə və böyük ədəbi irs qoyub getsə də, onun yaradıcılıq fəaliyyətinin əsas sahəsi folklorun toplanmasına, nəşrinə və tədqiqinə, bütövlükdə folklorşünaslığın bir elm kimi formalaşmasına yönəlmişdir.

Bu istedadlı gəncin özünün də bir folklorşünas alim kimi formalaşmasında 2 noyabr 1923-cü ildə təsis edilmiş tarix və etnoqrafiya, təbiət, iqtisadiyyat şöbələrindən ibarət olan «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti»nin (ATTC) az rolu olmamışdır. Cəmiyyətin folklor komissiyasının sədri kimi H.Zeynallı şifahi xalq ədəbiyyatının toplanması, nəşri, tədqiqi və tanıdılması, eyni zamanda Azərbaycanın ayrı-ayrı bölgələrinə ekspedisiyaların təşkili sahəsində mühüm işlər görmüşdür.

Xalq yaradıcılığı nümunələrinin toplanmasının əhəmiyyətinin vacibliyindən danışan folklorşünas H.Zeynallı yazırdı: «El ədəbiyyatının toplanması iki tərəfdən xeyirlidir: birinci, gündən-günə dəyişməkdə olan el həyatı, get-gedə yaddan çıxan sözləri, adətləri, zövqü, bir sözlə – dimağ həyatını bunlar vasitəsilə öyrənmək və görmək olacaqdır. İkinci, ayrı-ayrı şəxslərin dimağında doğmuş və heç bir vəchlə xalqımızın adətlərinə, düşüncəsinə, ləhcə və şivəsinə uymayan və ona görə də anlaşılması güc olan yalançı klassik və buna bənzər çürüntülərdən xilas

olub diri, sağlam və get-gedə canlanan ədəbiyyat yaratmaq mümkün olacaqdır»[221].

H.Zeynallının Azərbaycan folklorşünaslığı tarixindəki obrazı həm də onun nəzəri cəhətdən hazırlıqlı bir alim olması ilə əlamətdardır. O, sadəcə olaraq, öz xalqının milli-mənəvi dəyərlərinin inikas olunduğu folklora vurğun ziyalı deyil, həm də öz nəzəri hazırlığını daim təkmilləşdirən, milli folkloru dərin elmi əsaslarla tədqiq etməkdən ötrü elmi-nəzəri yeniliklərə qarşı həssas olan alim idi. Bunu onun yuxarıdakı fikri əyani şəkildə göstərir. Həmin fikri təhlil etməklə biz onun nəzəri düşüncələrinin dərinliyinin, folklora elmi-nəzəri müstəvidə nə qədər aşina olmasının şahidi olarıq. Digər tərəfdən, bu bizə H.Zeynallının simasında varisi olduğumuz nəzəri folklorşünaslıq irsinin real dəyərini görməyə və qiymətləndirməyə imkan verər.

H.Zeynallı «el ədəbiyyatının toplanmasının xeyrini», göründüyü kimi, iki tərəfdən səciyyələndirməklə folklora ilk növbədə funksional-praqmatik aspektdə yanaşmışdır. Tədqiqatçı birinci səciyyələndirməsində folkloru dinamik proses kimi təsvir etmişdir. Burada «gündən-günə dəyişməkdə olan el həyatı», «get-gedə yaddan çıxan sözlər», «adətlər», «zövq» ifadələri folklorun dinamikasını bütöv bir praqmatik-kommunikativ sistem daxilində təqdim edir:

1. «Gündən-günə dəyişməkdə olan el həyatı» folklor gerçəkliyini və folklor-gerçəklik münasibətlərinin qarşılıqlı təsir sistemini eyni zamanda əhatə edir. Gerçəkliyin dinamik ritmi folklorun dinamik ritmini şərtləndirməklə yanaşı, bunları vəhdətdə olan sistem halına gətirir. H.Zeynallı «el həyatının» dinamikasının folklorda əks olunduğunu vurğulamaqla bərabər, folklorun dinamikasının həyatın dinamikasına qarşılıqlı şəkildə təsir etdiyini də demək istəmişdir.

Məsələyə daha dərin nəzəri aspektdə yanaşsaq, görərik ki, bu, gerçəklik (həyat) və mətn (folklor) münasibətlərinin mürəkkəb semantikasını çevrələyir. Mətn (folklor mətni) gerçəkliyi əks etdirir. Gerçəkliyi təşkil edənlər (folklor yaradıcıları) olmasa, mətn də olmaz. Lakin proses heç vaxt birtərəfli olmur. Gerçəklik folklor mətnində yaddaşa çevrilir. Bu halda folklor mətni etnosun düşüncəsinin yaddaş potensiyasını təşkil edir. Etnos öz yaddaşını daim zənginləşdirdiyi kimi, həm də bu yaddaşa qarşılıqlı şəkildə bağlı olur. Folklor yaddaşı zaman-zaman hərəkətə gəlir və etnosun davranışına təsir edir. Beləliklə, gerçəklik (xalq) və mətn (folklor) bir-birinə qarşılıqlı şəkildə təsir

[221] Zeynallı H. Azərbaycan el ədəbiyyatı, «Maarif işçisi» jur., 1926, № 11.

etməklə vahid dinamik sistemi yaradır. H.Zeynallının «gündən-günə dəyişməkdə olan el həyatını bunlar (folklor mətnləri -C.Q) vasitəsilə öyrənmək və görmək olacaqdır» deməsi, belə hesab edirik ki, onun folklorla xalqın həyatının qarşılıqlı təsir dinamikasını aydın şəkildə təsəvvür etdiyini göstərir.

2. H.Zeynallının «get-gedə yaddan çıxan sözlər», «adətlər», «zövq» haqqında danışması onun folklorun mövcudluq prinsiplərini də çox dərin qatlar səviyyəsində təsəvvür etdiyini göstərir. Burada:

«get-gedə yaddan çıxan sözlər» – folklorun;

«adətlər» – etnoqrafik davranış qəliblərinin (formulların);

«zövq» – etnopsixoloji qəliblərin (stereotiplərin) – həm qarşılıqlı təsirdə olan sistem olmasını, həm də folklorun bu elementləri də öz içərisinə alan makrosistem olması anlamına (mənasına) gəlir. Və bunlar öz növbəsində H.Zeynallının folklorşünaslıqla bağlı nəzəri görüşlərinin mükəmməl olduğunu nümayiş etdirir.

H.Zeynallı «el ədəbiyyatının toplanmasının xeyrini» ikinci tərəfdən səciyyələndirərkən folkloru yaradıcı proses, bədii yaradıcılıq müstəvisində dəyərləndirmişdir. O, «ayrı-ayrı şəxslərin dimağında doğmuş və heç bir vəchlə xalqımızın adətlərinə, düşüncəsinə, ləhcə və şivəsinə uymayan və ona görə də anlaşılması güc olan yalançı klassik və buna bənzər çürüntülərdən xilas olub diri, sağlam və get-gedə canlanan ədəbiyyat yaratmaq mümkün olacaqdır» deyərkən folklorla ədəbiyyatın qarşılıqlı təsir dinamikasını nəzərdə tutmuşdur.

Şübhəsiz ki, onun folklor-ədəbiyyat münasibətlərinə yanaşmasında sosializm realizminin (qismən proletkultçuluğun) ideoloji təsiri hiss olunur. Burada «ayrı-ayrı şəxslərin dimağında doğmuş və heç bir vəchlə xalqımızın adətlərinə, düşüncəsinə, ləhcə və şivəsinə uymayan və ona görə də anlaşılması güc olan yalançı klassik və buna bənzər çürüntülər» təyini inqilabi əhvali-ruhiyyəni əks etdirir.

Məlumdur ki, sovet dövləti sinfi quruluşların hər cür təzahürlərinə qarşı düşmən mövqedə olub, onları inkar edirdi. Bunun ədəbiyyatdakı təzahürü olan «proletkultçuluq», ümumiyyətlə, inqilabaqədərki ədəbiyyatı sinfi ədəbiyyat hesab edib, yerli-dibli inkar edir və yeni – sosialist məzmunlu ədəbiyyatın yaradılmasını tələb edirdi. Düzdür, sonralar klassik irsə «seçmə üsulu» ilə – yeni quruluşa yarayan və yaramayan ədəbiyyat prinsipləri ilə yanaşıldı. Bu halda H.Zeynallının da haqqında «yalançı klassik və buna bənzər çürüntülər» adı altında bəhs etdiyi ədəbiyyat yeni dövrün bədii-estetik zövqü üçün yararsız olan ədəbiyyat idi.

H.Zeynallı digər tərəfdən «sağlam və get-gedə canlanan ədəbiyyat yaratmağın mümkünlüyündən» danışmışdır. Alimə görə, bu sağlam ədəbiyyatı folklorun əsasında yaratmaq olar. H.Zeynallının inamı onun folklor-ədəbiyyat münasibətləri haqqında nəzəri görüşlərindən qaynaqlanır. Belə ki, onun folklor əsasında sağlam ədəbiyyat yaratmağın mümkünlüyünə olan inamı folkloru mənəvi cəhətdən sağlam bir təməl hesab etməsindən qaynaqlanır. Şübhəsiz ki, burada «sağlam» sözü siyasi-ideoloji məzmun daşıyır. Yəni folklor yeni quruluşun tələblərinə cavab verən, zəhmətkeş xalqın arzu və mənafelərini ifadə edən əsl xalq ədəbiyyatıdır. Prof. K.Əliyev belə yaradıcı prosesin nəzəri əsaslarına toxunaraq yazır: «Sənətkar mənsub olduğu xalqın folklor irsinə müraciət edir, xalq yaradıcılığından səmərəli şəkildə qaynaqlanır. Belə halda bir bayatı, bir atalar sözü, bir nağıl süjeti də həm təzə həyat yaşayır, həm də zənginliyini, siqlətini yenidən təsdiq edir»[222].

Təbii ki, H.Zeynallı üçün folklor təkcə ədəbiyyat deyildi. O, folklorun ədəbiyyatdan məzmun, forma, funksiya cəhətlərindən fərqli olduğunu bilirdi. Lakin alimin yanaşmasında folklor həm də bədii söz sənəti idi və H.Zeynallı folklorun məhz ədəbi funksiyasına əsaslanıb, yeni ədəbiyyatı onun sayəsində yaratmağın mümkünlüyündən danışmışdır.

H.Zeynallı 1926-cı ildə nəşr etdirdiyi «Azərbaycan atalar sözü» kitabına yazdığı müqəddimədə «hər kəsin dilinin əzbəri olan atalar sözlərinin təsnifi ilə və onu toplamaqla bu birinci kitabımızda xalq ədəbiyyatı qapılarının pasını açmaq istədik»[223] fikrini irəli sürməklə yanaşı, «təəssüflərlə demək lazımdır ki, şifahi el ədəbiyyatımız get-gedə daralmış bir dairədə susuz ağaclar kimi solmağa başlamışdır»[224] – deyərək öz narahatlığını da gizlətmirdi. O, yalnız narahatlığını ifadə etməklə kifayətlənmir, eyni zamanda folklorun «daralmış dairədən» çıxarılması yollarını da göstərirdi. «Bu sahədə beş həvəskarın, üç elmi işçinin çalışması ilə bu qədər geniş bir sahənin öhdəsindən gəlmək olmaz. Elin malını kütlə toplamalıdır, burada yüzlər və minlərlə əl iştirak etməlidir»[225].

Bu çağırış və müraciətdən aydın olur ki, H.Zeynallı folklorun müvafiq elmi prinsiplər və müasir ənənələr əsasında toplanması işinin

---

[222] Əliyev K. Azərbaycan romantizminin folklor qaynaqları / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VII kitab. Bakı, 1987, s. 161.
[223] Zeynallı H. Azərbaycan atalar sözü, Bakı,1926.
[224] Zeynallı H. Seçilmiş əsərləri. Toplayan f.e.d. Rasim Tağıyev. Bakı, 1982, s. 126.
[225] Zeynallı H. Azərbaycan folkloru, «Ədəbiyyat qəzeti», 29 fevral, 1936.

genişləndirilməsinə və sürətləndirilməsinə üstünlük verir, bu prosesə bütün ziyalıların qoşulmasını arzulayır, eləcə də bu işə göz yumanları cinayətkar hesab edirdi: «Yalnız o zaman və yenə də o zaman dilimizin arınması və saflaşdırılması məsələsi mövzu, bəhs ola biləcək, yoxsa bu günkü ölü, çürük, ancaq bir dəstə «əli qələm tutanlar»ın və təkiyənişinlər və ya bunun kimilərin zövqünü oxşayan, nə kəndliyə, nə işçiyə, heç bir məna verməyən söz yığınlarına ədəbiyyat demək və onu da yeni ruh ilə bəslənən balaların oldurmaq bir cinayət sayılsa belə azdır və bu cinayəti işləyənlər həmən xalq ədəbiyyatına göz yumanlardı»[226].

Tədqiqatçı alim göstərirdi ki, atalar sözlərinin məna və əhəmiyyəti qayət böyükdür. Hətta o qədər böyükdür ki, onları araşdıran birisi o sözləri yaradan xalqın adi ailə həyatından başlayıb ictimai münasibətinə qədər, tarix boyu keçirmiş olduğu iqtisadi dövrlərə qədər, hətta o elin bütün bədiyyat, ruhiyyat, əxlaq, din və fəlsəfəsinə qədər bələd ola bilər.

H.Zeynallı folklor nümunələrinin toplanması, nəşri və tədqiqi məsələlərinə bütün yaradıcılığı boyu xüsusi diqqət yetirdi. Belə ki, «Azərbaycan atalar sözü» kitabını hazırlayarkən yalnız xalqdan topladığı materiallarla kifayətlənmir, özünə qədər nəşr olunan SMOMPK məcmuəsindən, Rəşidbəy Əfəndiyevin «Bəsirətül-ətfal», Firudinbəy Köçərlinin «Balalara hədiyyə», Fərhad Ağazadənin «Ədəbiyyat məcmuəsi» kitablarından da bəhrələnirdi. Folklorşünas alim tərtibçisi olduğu kitablarda, xüsusilə də 1928-ci ildə çap etdirdiyi «Azərbaycan tapmacaları»nda Avropa və rus folklorşünaslığının ənənələrindən qaynaqlandığını, adı gedən kitabın həmin elmi prinsiplər əsasında tərtib olunduğunu qeyd edirdi. Eyni analoji hala hələ müəllifin 1926-cı ildə toplayıb nəşr etdirdiyi «Azərbaycan atalar sözü» kitabında da rast gəlirik: «Kitabın quruluşuna gəldikdə, onu söyləməliyiz ki, qəbul etdiyimiz sistem tamamilə başqalarından ayrılmaqdadır. Fransız, alman, rusca kibi bu yoldakı geniş bir ədəbiyyata baxılsa, əvvəla, hər yerdə əlifba sistemləri ilə düzülmüşlər, yəni savda və ya məsəldə ilk sözün baş hərfini alıb tərtibi düzmüşlər»[227]. Göründüyü kimi, tədqiqatçı bütün bunlara ciddi elmi-nəzəri əsasları olan fundamental folklorşünaslıq elminin yaranması işi kimi baxırdı.

El ədəbiyyatının xalqın malına çevrilməsinə can yanğısı ilə yanaşan bu ziyalını folklor nümunələrinin yalnız toplanması deyil, eyni zamanda necə və hansı prinsiplərlə toplanması daha çox düşündürürdü.

O, toplayıcılardan əsasən aşağıdakıları tələb edirdi.

[226] Zeynallı H. Azərbaycan folkloru, «Ədəbiyyat qəzeti», 29 fevral, 1936.
[227] Azərbaycan atalar sözü. (Hazırlayanı H.Zeynallı), Bakı, 1926, s. 24.

1. Folklor materiallarını geniş xalq kütlələri arasında işləndiyi kimi (şivəni, məhəllənin leksikonunu, ifadə şəklini, bədii görüşlərini, cümlə quruluşlarını, səslərdəki dəyişmələri[228] olduğu kimi) yazıya köçürmək.

2. Xalq ədəbiyyatına, xalq məişətinə dərindən bələd olmaq.

3. Regional xüsusiyyətləri nəzərə almaqla materialın toplanıldığı ərazinin etnoqrafik və coğrafi baxımdan təsvirini vermək.

4. Folklor materialları arasında leksik tipoloji paralellər aparmaq.

Alim tərəfindən irəli sürülən bu tələblərin dövrünün ciddi problemləri olmaqla yanaşı adi toplayıcıdan daha çox peşəkar toplayıcı-tədqiqatçıya, folklorşünas alimə aidiyyatı var. Başqa sözlə desək, birinci tələb istisna olmaqla, yerdə qalan tələblər folklor nümunələrinin toplanmasından daha çox tədqiqinə aiddir.

H.Zeynallının qoyduğu tələblər sırasında «folklor materiallarını geniş xalq kütlələri arasında işləndiyi kimi yazıya köçürmək» barəsindəki birinci prinsip xüsusilə aktual olub, onun bir folklorşünas alim kimi folklor mətninin ruhuna dərindən bələd olduğunu göstərir. Göründüyü kimi, görkəmli folklorşünas folklor mətninə hər hansı tədqiqatçı müdaxiləsini yolverilməz hesab etmişdir. Belə ki, folklor mətni şifahi yaradıcılıq hadisəsi kimi özündə keçdiyi zamanların izlərini saxlayır. Həmin izlər toplayıcının yaşadığı dövrün həyat qanunları ilə üst-üstə düşməyə, başqa sözlə, müasir dövrün toplayıcısına məntiqsiz, mənasız da görünə bilər. Lakin folklor mətninin bütün gözəlliyi onun özünəməxsusluğundadır. Toplayıcı həmin özünəməxsusluğu qorumalı və başa düşməlidir ki, folklorun əsl mahiyyəti mətnin bütövlüyündə ifadə olunur. Tədqiqatçı mətndə məntiqsiz, mənasız hesab etdiyi elementləri buraxmaqla, yaxud dəyişdirməklə folkloru özünəməxsusluğundan, onun təbii gözəlliyindən məhrum edir və bununla həm də mətnin dərin qatlarında gizlənmiş mənaların üstünü qaranlıq pərdə ilə örtmüş olur. H.Zeynallı folklor toplayıcılarında regional xüsusiyyətləri nəzərə almağı tələb edirdi. Eyni folklor mətni regional xüsusiyyətlərinə görə fərqlənə bilər. Lakin toplayıcı bu fərqləri aradan qaldırmamalı, onu bütün çalarlarını saxlamaqla nəşr etdirməlidir. O, hətta eyni regionda ayrı-ayrı nağılçılar tərəfindən söylənmiş nağılların da toplanmasını və ona müdaxilə edilməməsini tövsiyyə edirdi: «Öz təcrübəmdən göstərəcək olursam, eyni nağılın iki nağılçı tərəfindən müxtəlif şəkildə yazıla bildiyini qeyd etmək lazım gəlir. Səbəbi? Çünki bunların birində xatirə qüvvətli, digərində bir qədər zəif olduğu üçün təfsilatın buraxıldığını və

[228] Zeynallı H. Azərbaycan el ədəbiyyatı, «Maarif işçisi» jurnalı, 1926, № 11, s. 31.

bununla da nağılın ən gözəl və etnoqrafik və bəlkə də tarixi əhəmiyyəti qayb edilmiş olurdu. Buna görədir ki, bir nağılın nə qədər müxtəlif adamlardan, müxtəlif şəkildə (variantda) eşitməyə baxmayıb hamısını yazmaq vacibdir»[229].

Folklorşünas alim regionların təbii iqlim şəraitinin, təsərrüfat həyatının folklorun yaranmasında mühüm rol oynadığını da diqqət mərkəzinə çəkirdi. O, A.V.Baqrinin 1930-cu ildə çap etdirdiyi «Folklor Azerbaydjana iprileqayuşix stran» kitabına yazdığı «Xudojestvennıy folklor Azerbaydjana» müqəddiməsində bu məsələyə belə aydınlıq gətirirdi: «Təbii iqlim şəraitinin müxtəlifliyi Azərbaycanı iki hissəyə – şərq və qərb rayonlarına bölür. Həmin rayonların iqtisadi qruluşu və təsərrüfat fəaliyyəti müxtəlif olduğu kimi, əhalinin məişəti və psixologiyası da özünəməxsus fərqli xüsusiyyətlərə malikdir».[230] Həqiqətən də, regional xüsusiyyətləri nəzərə alınmadan folklor mətnlərini müəyyən dəyişikliklərlə nəşr etdirmək xalq yaradıcılığımıza sədaqətdən daha çox, ona edilən xəyanətdi. Daha yumşaq desək, xalqın psixologiyasına, etnik yaddaşına, bədii düşüncəsinə edilən çirkin və eybecər müdaxilədir.

Hənəfi Zeynallı ATTC-nin və Azərbaycan Elmi Tədqiqat İnstitutunun folklora dair topladığı materiallara, xüsusilə də aşıq yaradıcılığına istinadən bildirirdi ki, «Qazax-Gəncə vilayətlərində xalq aşıqlarının sayı digər bölgələrinkindən çoxdur. Aşıq sənəti Şərqi Azərbaycanda öz həyatiliyini itirdiyi halda, qərb bölgələrində geniş yayılaraq xalq tərəfindən sevilir, inkişaf etdirilir və qorunur».[231] O, aşıq yaradıcılığına, bütövlükdə folklora qiymət verərkən türk xalqlarının və dünya folklorşünaslarının ən son elmi nailiyyətlərinə söykənirdi. Elə ona görə də H.Zeynallının klassik irsə, folklora dair fikir və mülahizələri, demək olar ki, bu gün də öz aktuallığını itirməmişdir.

Məsələlərə bu prizmadan nəzər salan alim folklorşünaslardan yalnız Azərbaycan folklor nümunələrini deyil, bütün türk xalqlarının ağız ədəbiyyatını tədqiqata cəlb etməyi və müasir elmi-nəzəri ümumiləşdirmələr aparmağı tələb edirdi. Bu isə o deməkdir ki, H.Zeynallı dövrünün bir çox folklorşünas alimləri kimi bu məsələlərə tələbkarlıqla yanaşır və folklorşünaslığın fundamental bir elm sahəsinə çevrilməsinə çalışırdı. Tədqiqatçı alim yaxşı bilirdi ki, folklorşünaslığı fundamental elm

[229] Zeynallı H. Ağız ədəbiyyatı, «Maarif və mədəniyyət» jurnalı, 1926, № 8.
[230] A.V.Baqri. Folklor Azerbaydjana i prileqaöhix stran, Bakı, 1930, s. 2.
[231] H.Xəlilbəyli. Azərbaycanı Təqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətində filologiya məsələləri (1923-1929), Bakı, 1999.

sahəsinə çevirmək üçün yeni cəmiyyətin yeni tələblərinə də cavab vermək lazım idi. Bu, dövrün və zamanın diqtəsi idi. O, yazırdı: «Əski cəmiyyətin zövqünü, düşünüşünü, həyatı anlayışını inkar etmiş yeni sinif özü üçün yeni əsaslar üzrə yeni kultur yaratdıqda əski ədəbi məktəbdən, ədəbi üslubdan tamamilə ayrılacaq, özündən əvvəlki sinifin varlığını inkar edəcək və yeni üslub yaradacaqdır»[232].

Göründüyü kimi, 1920-1930-cu illərdə klassik irsdən, milli mənəvi dəyər və sərvətdən necə bəhrələnməli sualı ədəbi tənqidi, eləcə də folklorşünaslığı düşündürən əsas problemlərdən biri idi. Əslində bu, yeni cəmiyyətin ədəbi deyil, bütövlükdə sənətin imperiyanın maraqlarına uyğunlaşdırılmasına xidmət etmək məqsədi güdən siyasi problemi idi. Hənəfi Zeynallı klassik irsdən imtinaya qarşı çıxır və göstərirdi ki, «yazılı və ağız ədəbiyyatı içində gördüyümüz hər bir əsər öz əsrinin bir vəsiqəsidir. O əsər müəyyən istehsal əlaqələrinə girmiş siniflərin yaratdığı siyasi və ictimai bir mühit içində doğmuş olduğu üçün öz əsrinin dünyaya baxışını ifadə edir... İctimai həyatın məhsulu olduqları üçün bir əsrdə doğan bütün əsərlərin müqayisəsində əsrin ümumi ruhunu aramalı və nəhayət, bunların hamısının təsadüfi olaraq meydana gəldiyini deyil, bəlkə müəyyən nəticəsi olan ictimai, psixoloji proses olaraq doğduğunu nəzərə almalıdır»[233].

Fikrimizcə, H.Zeynallının "klassik irsdən necə bəhrələnməli" sualı ətrafındakı düşüncələri yazıldığı tarixdən xeyli müddət keçməsinə baxmayaraq öz aktuallığını itirməmişdir. Həqiqətən də, hər bir sənət əsəri və ya folklor nümunəsi öz əsrinin vəsiqəsidir və həmin sənət nümunələri yarandığı dövrün ruhunu, ab-havasını özündə ehtiva edir.

Həmin dövrün folklorşünaslıq elminin qarşısında duran əsas problemlərdən biri də xalqın yaratdığı bədii nümunələrin necə adlandırılması məsələsi idi. Hələ 1920-ci illərdən başlayaraq tədqiqatçılar «El ədəbiyyatı», «Ağız ədəbiyyatı», «Şifahi ədəbiyyat», «Şifahi xalq ədəbiyyatı», «Yiyəsiz ədəbiyyat», «Əfvahi ədəbiyyat», «Folklor» və başqa istilahlar işlətməyə çalışırdılar. Daha doğrusu, bu terminlərdən hansının işlədilməsi məqalələrin və tədqiqatların əsas müzakirə predmetinə çevrilirdi. Bəzi toplayıcı və ya folklorşünaslar isə bunun fərqinə varmadan öz tədqiqatlarında bu istilahların bir neçəsindən eyni anda istifadə edirdi. O dövrün mətbu mənbələrindən aydın görünür ki, yeni dövrün folklor nümunələrinin hansı ad altında təqdimatı məsələsi

[232] Zeynallı H. Metodoloji müqəddimə – A.V.Baqri. Ədəbiyyatşünaslıq üçün vəsait, s. 85.
[233] Zeynallı H. Ədəbiyyat tədqiqində metod. Ədəbiyyatdan iş kitabı. Birinci qisim. Bakı, 1928, s. 38.

yalnız folklor tarixinin deyil, həm də folklorşünaslığın problemi kimi ortaya çıxmışdı.

Yeri gəlmişkən qeyd etməliyik ki, H.Zeynallı 1926-cı ildə «Maarif və mədəniyyət» jurnalında çap etdirdiyi «Ağız ədəbiyyatı» məqaləsində xalq ədəbiyyatının adı məsələsinə toxunur və «xalq ədəbiyyatı» istilahının yerinə «ağız ədəbiyyatı»nın işlədilməsini məqsədəuyğun hesab edirdi. H.Zeynallının tədqiqatçılarından olan Nərgiz Qurbanova bu məsələ ilə bağlı yazır: «... məlumdur ki, 20-ci illərdə anlayışlara münasibətin öz tipik xüsusiyyətləri var idi; bu baxımdan H.Zeynallının da mülahizəsi məntiqsiz deyil. Maraqlı burasıdır ki, «xalq ədəbiyyatı» anlayışı müqabilində H.Zeynallı «ağız ədəbiyyatı» terminini doğru sayırdı ki, bunu da o qədər müvəffəqiyyətli hesab etmək olmaz. Birinci termindəki ziddiyyət burada da var. Belə mübahisəni bu gün elmi baxımdan perspektiv hesab etmək olmaz, o 20-ci illərin ruhu ilə aşılanmış hal idi»[234].

Maraqlıdır ki, müəllif H.Zeynallının bu mülahizəsinin həm «məntiqsiz» olmadığını, həm «o qədər müvəffəqiyyətli» olmadığını, həm elmi baxımdan perspektivsizliyini, həm də «20-ci illərin ruhu ilə aşılandığını» qeyd edir və fikrimizcə, məsələni bir qədər də mürəkkəbləşdirir.

Görkəmli folklorşünas alim Paşa Əfəndiyev isə H.Zeynallının bu məsələdə qeyri dəqiqliyə yol verdiyini göstərərək yazır: «H.Zeynallının göstərdiyi kimi Puşkin, Lermontov və başqa sənətkarların yaratdığına heç vaxt xalq ədəbiyyatı deyilməyib. Məsələni də əlbəttə, bu şəkildə qoymaq qeyri-dəqiqdir. Hazırda bizim dövrdə sənətkarlarımız xalq ruhunu, xalq psixologiyasını əvvəlki dövrdə yaşayan sənətkarlardan qat-qat artıq təsvir edirlər. Ona görə də yazılı ədəbiyyatla, şifahi ədəbiyyatı məna, məzmununa görə yaxınlaşdırmaq, istilah məsələsini ortaya qoymaq, müzakirə açmaq yersiz olardı»[235].

Paşa müəllimin özünün də klassiklərlə müasirlərin hansının «xalq ruhunu, xalq psixologiyasını» daha dərindən ifadə etməsi müqayisəsi qüsurlu görünsə də, belə bölgü aparılmasına (yazılı ədəbiyyatla şifahi ədəbiyyatı məna, məzmununa görə yaxınlaşdırmaq) etirazında tamamilə haqlıdır. Lakin araşdırmaların məntiqi nəticəsi kimi demək olar ki, H.Zeynallı folklor nümunələrinin məhz «Ağız ədəbiyyatı» adı altında işlənməsində o qədər də israrlı deyildi. Təsadüfi deyildir ki, o, 1926-cı ildə «Maarif işçisi» jurnalında nəşr etdirdiyi məqaləsini «Azərbaycanda

[234] Qurbanova N. Hənəfi Zeynallı, Bakı, 1989, s. 20-21.
[235] Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-1930-cu illər), Bakı, 1997, s. 64.

el ədəbiyyatı», 29 fevral 1936-cı ildə «Ədəbiyyat qəzetində» çap etdirdiyi məqaləsini isə «Azərbaycan folkloru» adlandırırdı. O, ayrı-ayrı yazılarında hətta «xalq ağız ədəbiyyatı», «el ədəbiyyatı» və «şifahi ədəbiyyat» kimi terminlərdən də istifadə edirdi. Bütün bunlar onu təsdiqləyir ki, H.Zeynallını şifahi xalq ədəbiyyatının adı daima düşündürmüş və onun bu terminlərdən istifadəsi bu adın dəqiqləş-dirilməsinə xidmət edirdi. Ən maraqlı cəhət ondan ibarətdir ki, müasir dövrdə də bu istilahların hamısı sinonim kimi işlədilir və bütün bunların hamısı folkloru yazılı ədəbiyyatdan fərqli düşüncə kodu kimi səciyyələndirməyə xidmət edir.

Tədqiqatçı alim «Ağız ədəbiyyatı» məqaləsində «şifahi xalq ədəbiyyatı nədir?» sualına da cavab axtarır və belə qənaətə gəlirdi ki, «xalqın öz ruhundan çıxan, onun öz əhval-ruhiyyəsini meydana qoyan və eyni zamanda onun öz içində gəzən ədəbiyyat» ağız ədəbiyyatıdır. Müəllif şifahi ədəbiyyatın üç əsas xüsusiyyətini səciyyələndirir və ağız ədəbiyyatının fikrimizcə, dövrü üçün ən mükəmməl tərifini verir.

Maraqlıdır ki, H.Zeynallı şifahi xalq ədəbiyyatına dair hər hansı bir fikir və ya mülahizə yürüdərkən qaynaq və ya mənbə kimi folklor nümunələrinin özünü, eyni zamanda ən son elmi araşdırmaları əsas götürürdü. Ona görə də, folklorşünasın 1920-1930-cu illərdə yürütdüyü elmi-nəzəri fikirlərinin böyük əksəriyyəti bu gün də aktuallığını qoruyub saxlayır. Məsələn, H.Zeynallı şifahi ədəbiyyatı «mənzum» və «mənsur» deyə iki əsas hissəyə bölür və poeziya ilə prozanın (epik-lirik ünsürlərin) bir janr daxilində birləşdiyini də nəzərdən qaçırmırdı: «...Şifahi ədəbiyyatın mənzum qismini bayatı, mahnı, ağı, gap (təsnifat), bağlama, beşik (nəğmə), meyxanə-bədiyə, tərifnamə kimi parçalara ayırmaq olar. Mənsur qismə gəldikdə o da müxtəlif məzmunlu nağıllar, dastan (qəhrəmannamələr), qaravəllilər (sərgüzəştlər), timsal və təmsillər, əfsunlar, tapmacalar, atalar sözü (sınaq və başqaları) kimi şöbələrə ayırdıqda, qəhrəmannamələr, əfsanələr ilə yanıtmaclar və tərifnamələri həm mənsur, həm də mənzum qismdə görmək olur. Ən doğrusu bunlarda hər iki cəhət vardır».

Üzərindən böyük bir zaman keçməsinə baxmayaraq bu təsnifat öz doğruluğunu və aktuallığını bu gün də qoruyub saxlayır. Eyni sözləri kiçik qüsurlarına baxmayaraq, onun atalar sözləri və məsəllərin bölgüsü, eyni zamanda onlar arasındakı fərqlər barədə verilmiş izahına da şamil etmək olar. H.Zeynallı atalar sözü və məsəlləri həm şəkli xüsusiyyətlərinə, həm də məna fərqlərinə görə təsnif edir. Onlar arasındakı fərqi izah edərkən isə belə qənaətə gəlir ki, məsəllər atalar

sözünün hələ daşlaşmamış variantıdır. Daha doğrusu, atalar sözlərində böyük fikirlər lakonik şəkildə tam ifadə olunduğu halda, məsəllərdə bu və ya digər hadisəyə işarə edilir və natamamlıq hiss olunur, müəyyən izahata ehtiyac duyulur.

Tapmacaların janr xüsusiyyətlərindən və formalarından bəhs açan H.Zeynallı onları mənzum və mənsur deyə iki qismə bölür və onların iki, üç və ya dörd misradan ibarət olduğunu göstərirdi.

Folklorşünas alimin tapmaca-bağlamalarla bağlı verdiyi folklor örnəkləri də olduqca maraqlı və diqqət çəkicidir:

Sual:

Zülfün ucu gümüşdür,
Sal boynuma ilişdir.
Bar verər, kölgə salmaz,
Aşıq, necə yemişdir?

Cavab:

Zülfün ucu ilandır,
Sal boynuma dolandır
Bar verər, kölgə salmaz
Aşıq, bu dombalandır.

Bu cür örnəklər bir daha göstərir ki, Azərbaycan şifahi xalq ədəbiyyatı həm sözlərin seçimi, qafiyə qurluşu, ritmi və s. baxımdan olduqca zəngindir. Zeynallının təbirincə desək «Böylə nümunələrin bəzən haman müsabiqə meydanında bədahətən söyləndiyini nəzərə alsaq, ağız ədəbiyyatında sənət və bacarığın nə qədər incə və nə qədər uca olduğuna heyran olmamaq olmaz».[236]

N.Zeynallının tərtib etdiyi «Molla Nəsrəddin məzhəkələri» kitabına (1927) yazdığı ön sözdə bu lətifələrdəki oynaqlığın, düşündürücü gülüşün, nikbinliyin, eləcə də geniş yayılmasının əsas səbəbini el ədəbiyyatının ümumi ruhundan çıxmasında axtarırdı: «Molla Nəsrəddin hekayələrindəki oynaqlıq və gülünclük içindəki ibrətamizlik, el ədəbiyyatının ümumi ruhunda, yəni xalqın özündə vardır».[237]

Folklorşünas alim Molla Nəsrəddin lətifələrini yalnız Azərbaycanla bağlamır, onların daha geniş miqyasda yayıldığını xüsusilə qeyd edir və həmin lətifələrə Şərq ədəbiyyatının ümumi malı kimi baxırdı. Müəllif bunun səbəbini həmin xalqların ictimai həyatlarındakı oxşarlıqla və zehniyyətcə yaxın olmaları ilə izah edirdi.

Maraqlıdır ki, alim aşıq yaradıcılığından bəhs açanda onlara türk xalqlarının ortaq mədəniyyəti kimi baxır. Ümumiyyətlə, aşıq yaradıcılığının mənşəyi, təşəkkülü, inkişaf mərhələləri barədə yazdığı ön sözlərdən[238] və məqalələrdən[239] çıxış edərək demək olar ki,

[236] H.Zeynallı. Azərbaycan tapmacaları (müqəddimə). Bakı, 1928, s. 8.
[237] H.Zeynallı. Molla Nəsrəddin məzhəkələri. Bakı, 1929, s.1.
[238] Salman Mümtaz. El şairləri (1927, 1928, 1936); Hümmət Əlizadə. Azərbaycan aşıqları (1929, 1936).
[239] Aşıq Pəri və müasirləri (1928); Azərbaycan aşıqları haqqında bir neçə söz (1929); Azərbaycan aşıqları (1930).

H.Zeynallının Xəstə Qasım, Aşıq Abbas Tufarqanlı, Şəmkirli Hüseyn, Sarı Aşıq, Aşıq Musa, Aşıq Ələskər, Aşıq Pəri və başqalarının simasında ilkin elmi bilgilər verməsi, aşıq sənətinin tədqiqində və aşıq sənətinin aşıqşünaslıq səviyyəsinə qaldırılmasında özünəməxsus rol oynayır.

Qeyd etməliyik ki, H.Zeynallının folklorşünaslıq irsində onun «Azərbaycan türk mahnıları haqqında» əsəri mühüm yer tutur. Bu əsər müəllif tərəfindən ömrünün son illərində qələmə alınmış və uzun illər çap olunmamışdır. Nəhayət, AMEA-nın Folklor İnstitutu bu qiymətli tədqiqatı üzə çıxararaq «Azərbaycan folklorunun ilkin nəşrləri» seriyasında çap etmişdir. Əsəri nəşrə hazırlamış prof. İ.Abbaslı mətnin taleyi ilə bağlı yazır: «Qırmızı terrorun» yaddaş «tarixçəsi»ndən bəllidir ki, H.Zeynallı 1937-ci il yanvarın 28-də həbsə alınmış və həmin oktyabrın 13-də repressiya qurbanı kimi həyatına son qoyulmuşdur. Bu ziyalı «təmizlənməsi»ndən sonra müəllifin onlarla əsərləri ilə yanaşı, «Azərbaycan türk mahnıları haqqında» araşdırması da Azərbaycan Elmlər Akademiyasının xüsusi fonduna aparılıb burada qorunmuşdur. Hazırda tədqiqat işi Azərbaycan Milli Arxiv İdarəsi Ədəbiyyat və İncəsənət arxivinin 160 saylı fondunun bir nömrəli sənədi kimi həmin ünvanda saxlanmaqdadır. Fondda H.Zeynallının dəsti-xətti ilə latın əlifbasında yazılmış «Azərbaycan türk mahnıları haqqında» adlı əsərin əlyazması və yenə də latın qrafikasında olan makina yazısı saxlanılır ki, təqdim olunan mətn hər iki variantla müqayisədə çapa hazırlanmışdır. Mətn hazırlanarkən orijinala (əlyazması və makina yazısı) heç bir müdaxilə edilməmiş və yalnız zəruri ehtiyac duyulan kiçik düzəlişlər aparılmışdır»[240].

Əsərin elmi aktuallığını xüsusi vurğulayan prof. İ.Abbaslı yazır: «Azərbaycan türk mahnıları haqqında» adlı araşdırma tanınmış ədəbiyyatşünas-tənqidçi Hənəfi Zeynallının (1896-1937) folklorşünaslıq axtarışları sırasında yazıldığı tarixi kəsim üçün öz aktuallığı, mövzu və problemin ilk dəfə qoyuluşu, həlli baxımından bu gün də xüsusi elmi əhəmiyyət kəsb etməkdədir»[241].

Hörmətli professorun fikirləri ilə razılaşmaqla bərabər əlavə etmək istəyirik ki, oxuculara ilk dəfə təqdim olunan bu əsər həm elmi əhəmiyyətinin çağdaş folklorşünaslığın nəzəri nailiyyətləri fonunda dəyərləndirilməsi, həm də H.Zeynallının nəzəri görüşlərinin öyrənilməsi baxımından xüsusi diqqət tələb edir.

[240] Abbaslı İ. Ön söz – Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Bakı, 2004, s. 7-8.
[241] Abbaslı İ. Ön söz – Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Bakı, 2004, s. 4.

H.Zeynallı «Azərbaycan türk mahnıları haqqında» əsərinin başlanğıcında mahnıların janr olaraq mahiyyətini müəyyənləşdirməyə çalışmışdır. O, yazırdı: «Azərbaycanda xalq içində «mahnı», «məni», ədəbi dildə isə «qoşma», Türkiyədə «şərqi», «türkü», «qoşma», «qoşu», «qoşuq», Qaşqayda (H.Zeynallı qaşqayların İranın cənubunda yaşayan köçəbə Azərbaycan türkləri olduğunu səhifənin altında qeyd etmişdir – C.Q.) müxtəlif bəstələrdə çalının, göftədə çağırılan ən ibtidai xırda formalı lirik şeir janrıdır»[242].

Burada diqqət çəkən mahnıların vaxtilə həm də «qoşma» adı ilə də tanınmasıdır. Hazırda qoşma aşıq şeirinin janrıdır. Lakin çox da uzaq olmayan zamanda «qoşma» sözü həm şeir janrının, həm də mahnı janrının adı olmuşdur.

H.Zeynallı aşıq mahnıları ilə xalq mahnılarının bir-birindən üslubi cəhətdən fərqli olduğunu göstərərək yazırdı: «Bizim araşdırdığımız mahnıları stil etibarilə məşrut olsa da, iki başlıca hissəyə ayırmaq lazım gəlir:

1. El mahnıları
2. Aşıq mahnıları.

Bu iki qisim yaradıcılıq – geniş kütlənin və aşıqların yaradıcılığı bir-birini təkmil edir və biri digərinin daha inkişaf etmiş mürəkkəb bir şəkli sayıla bilər. Hər bir müəyyən stil üçün müəyyən janrlar xas olduğuna görə mahnılar da həm məzmunca, həm forma cəhətdən ayrıca bir stilə tabedir»[243].

Beləliklə, tədqiqatçıya görə, el mahnıları və aşıq mahnıları bir-biri ilə qırılmaz şəkildə bağlı olub vahid kökə dayanır. Onlar musiqi üslubu etibarilə müstəqil qolları təmsil etsə də, eyni bir xalqın musiqi dünyasının ayrılmaz qollarıdır. H.Zeynallı el mahnıları ilə aşıq mahnılarının ayrılmazlığını bu üslubların daim bir-birini təkmilləşdirməsi – qarşılıqlı təsir faktoru ilə də əsaslandırmışdır.

H.Zeynallı el mahnıları ilə aşıq mahnılarının janrlar sistemi, məzmun-forma müxtəlifliyi baxımından fərqlənməsinin səbəblərini araşdırarkən rusdilli elmi-nəzəri ədəbiyyatlardakı belə bir fikrə əsaslanmışdır: «Müxtəlif siniflərin ayrı-ayrı inkişaf pilləsindəki bədii

[242] Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Mətni nəşrə hazırlayan və «Ön söz»ün müəllifi İ.Abbaslı. Bakı, «Səda», 2004, s. 11.
[243] Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Mətni nəşrə hazırlayan və «Ön söz»ün müəllifi İ.Abbaslı. Bakı, «Səda», 2004, s. 11.

qiymət prinsipləri başqa-başqa olduğuna görə, müxtəlif ictimai dairələrin nəğmələrinin bədii qiymət və əhəmiyyəti də başqa-başqa olmalıdır»[244].

Beləliklə, H.Zeynallıya görə, el mahnıları ilə aşıq mahnılarının arasındakı fərqlər sosial amillə bağlıdır. Sosial təbəqələşmənin cəmiyyətin strukturunda yaratdığı sosial-zümrəvi rəngarənglik uyğun olaraq cəmiyyətin bədii yaradıcılığının da janr əlvanlığını şərtləndirmişdir.

H.Zeynallı mahnı janrı ilə bağlı müxtəlif dünya alimlərinin fikirlərini təhlil edərək terminoloji dolaşıqlıqlara xüsusi diqqət yetirmişdir. O, bir sıra alimləri qeyri-dəqiqlikdə, daha doğrusu, söz və musiqinin oxşar janrlarının incəliklərinə enmədən, fərqlərinə biganə yanaşmaqla eyni bir termin altında birləşdirməkdə qınamışdır. Bu məsələdə faktlara, dünya elmi-nəzəri fikrinin uğurlarına əsaslanan alimin apardığı tədqiqatın nəticələri ilk növbədə elmi-nəzəri siqləti ilə seçilir. Bu baxımdan, İ.Konu, A.N.Samoyloviç, M.F.Köprülüzadə, İ.Hikmət, Ə.Abid və s. kimi məşhur müəlliflərin fikirləri ilə razılaşmayan H.Zeynallı, məsələn, Kovalski familiyalı müəllifin türk mahnıları haqqında tədqiqatlarına belə münasibət bildirmişdir: «Kovalski, bir tərəfdən, toylarda çağrılan nəğmələri, müasiqə lirik nəğmələrini, satirik nəğmələri alır, o biri tərəfdən, dastanlardakı epik nəğmələri alıb hamısını bir ədəbi növ deyə tədqiq eləyir»[245].

Tədqiqatçı şeirlə musiqinin vəhdəti, türk musiqisi və şeirinin vahid struktur ahəngi haqqında belə bir qiymətli fikir söyləmişdir ki, «...türk şeirinin əsasını təşkil edən türk musiqisidir. Hələ Azərbaycan xalq ədəbiyyatı bu günədək xalq musiqisindən ayrılmamış və məzmun, janrların adları sıx surətdə onların bəstə (musiqi – C.Q.) və kuftəslə (farsca «qofte» kəlməsindən olub, «sözləri» anlamındadır – C.Q.) bağlıdır. Türk xalq vəzninin heca vəzni «barmaq üslubu» olması, yenə də təzyanənin saz tellərinə vurulması sayı ilə və onun ritmi ilə, ahəngi ilə, təqdimi ilə əlaqədardır. Buradakı vahid qıyası olan məqam – musiqi motivi – bir dördlük yaradacaq həcmdə olur. Bu əsas, sonradan musiqi və dil inkişafı ilə əlaqədar olaraq, ehtimal ki, məqam mürəkkəbləşdiyi kibi şeir də mürəkkəbləşir. Məsələn, əvvəldə şikəstə, mahnı, gəraylı və i.a. bəstilə çağrılan şeirlər vardısa, sonralar ehtimal ki, «müxəmməslər» – bəsləmələr meydana gəlmişdir. Daha sonra «cığalı müxəmməslər»

[244] Frice V.M. Problemı iskusstvovedeniə. M., 1930, s. 130; Literaturnaə gnüiklopediə. Tom VIII, s. 588.

[245] Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Mətni nəşrə hazırlayan və «Ön söz»ün müəllifi İ.Abbaslı. Bakı, «Səda», 2004, s. 14.

mürəkkəbləşərək beşləmələrlə dördləmələr toxunulmağa başlamış və bu cığalılar da müxtəlif şəkillərə girmişdir»[246].

Qeyd edək ki, H.Zeynallının «türk şeirinin əsasını türk musiqisinin təşkil etməsi» haqqındakı fikri Azərbaycan xalq poeziyasının melopoetik strukturunun öyrənilməsi baxımından çox qiymətlidir. Bu, aydın bir məsələdir ki, mahnının musiqisi ilə onun mətnini təşkil edən şeir vəhdətdədir. Belə bir vəhdət olmasa, mahnı alınmaz. Lakin H.Zeynallının «türk şeirinin əsasını türk musiqisinin təşkil etməsi» haqqındakı fikri yalnız konkret bir mahnının musiqisi ilə sözlərinin vəhdəti barəsində deyildir, o ümumiyyətlə, türk bədii-estetik düşüncəsində mahnı və musiqi kodlarının struktur vəhdətini nəzərdə tutmuşdur. Türk düşüncəsində melopoetik vəhdət, əslində, şifahi söz yaradıcılığının – folklorun mahiyyətinin dərki baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir Azərbaycan folklorşünaslığında folklorun ədəbiyyat, yaxud bir tərəfi ilə ədəbiyyatla bağlı avtonom sənət və yaradıcılıq kodu olması haqqındakı məşhur mübahisəni[247] bir daha xatırlasaq, bu halda folklorun özünəməxsusluğunun dərkində melopoetik vəhdətin vacib amil olduğu, eyni zamanda H.Zeynallının «türk şeirinin əsasını türk musiqisinin təşkil etməsi» haqqındakı fikrinin aktuallığı üzə çıxar.

Əslində, şeiri və musiqini özündə sintezləşdirən türk folklorunun mahiyyətinin üzə çıxarılmasında melopoetik vəhdət başlıca çıxış nöqtəsidir. Bu məsələ sonrakı tədqiqatlarla təsdiq olunmaqla daha da dərinləşdirilmişdir. Prof. S.P.Pirsultanlı yazır: «Aşığın sazı ilə sözü əkiz doğulmuşdur. Bizə məlum olan aşıq şeirinin bütün formaları: gəraylı, qoşma, divani, təcnis və müxəmməs sazla əlaqəli yaranmış, hər şeir janrı sazın qoluna öz danışan pərdəsini bağlamışdır. Sazın qolunda qoşmanın öz danışan Şah pərdəsi, divaninin və təcnisin də öz müstəqil pərdələri vardır»[248].

Ağsaqqal alimin bu fikri H.Zeynallının fikri ilə birbaşa səsləşib onu təsdiq etməklə yanaşı, folkloru bədii sözlə musiqinin vəhdəti kontekstində öyrənməyin yeganə düzgün yol olduğunu vurğulayır. Prof. S.P.Pirsultanlının yaradıcılıq yolunu tədqiq edən S.Rzasoy onun yuxarıda

---

[246] Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Mətni nəşrə hazırlayan və «Ön söz»ün müəllifi İ.Abbaslı. Bakı, «Səda», 2004, s. 15-16.

[247] Bax: Abdulla B. Bədii yaradıcılıq iməcilik deyil – «Ədəbiyyat qəzeti», 28 aprel, 2006-cı il; İsmayılov H. Folklor: aksiom və absurd arasında // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XX cild. Bakı, 2006, s. 3-17.

[248] Pirsultanlı S.P. Azərbaycan xalq şeiri və onun sazla əlaqəli inkişaf prosesi – «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» III Uluslararası Folklor Konfransının materialları. Bakı, 2005, s. 393; Pirsultanlı S.P. Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə, 2006, s. 393.

sitat verdiyimiz fikrini maraqlı şəkildə təhlil edərək yazır: «Azərbaycan folklorşünaslıq elminin qocaman və görkəmli aliminin bu fikrini söz-söz, cümlə-cümlə təhlil edib, dərindən anlamaq istəsək, ortaya çox dərin elmi məsələlər, mühüm elmi tezislər çıxır. Bu baxımdan, prof. S.P.Pirsultanlının düşüncələrinə görə:

- Aşığın saz yaradıcılığı ilə söz yaradıcılığı qarşılıqlı struktura malik vahid sistemdir: («Aşığın sazı ilə sözü əkiz doğulmuşdur»).

- Burada «ə k i z l i k», sadəcə olaraq, aşıq musiqisi ilə aşıq poeziyasının birgəliyini nəzərdə tutan obrazlı ifadə yox, havacat kodu ilə heca kodunun vahid sistem daxilindəki struktur mütənasibliyini, bu kodların «d u a l» kosmoloji modelini ifadə edən kateqoriya-anlayışdır.

- Poeziya və musiqi kodlarının vahid dual («əkiz») sistemi təşkil etməsi («əkizliyi») sistemin boy-boy duran kod sütunlarını (poeziya və musiqi) və sütunları təşkil edən elementləri (poeziya və musiqinin janrlarını) bir-birinin işarəsi kimi «oxumağa» imkan verir. Başqa sözlə, aşıq şeirinin kosmopoetik strukturunun bütün səviyyələri və həmin səviyyələri təşkil edən ünsürlər bir-biri ilə mütənasib sistem əlaqəsindədir: («Bizə məlum olan aşıq şeirinin bütün formaları: gəraylı, qoşma, divani, təcnis və müxəmməs sazla əlaqəli yaranmışdır).

- Sazın qolunun lad-not strukturu (pərdə düzümü) poeziya-musiqi duallığından irəli gəlməklə aşıq şeirinin janr strukturunu özündə əks etdirir: («...hər şeir janrı sazın qoluna öz danışan pərdəsini bağlamışdır. Sazın qolunda qoşmanın öz danışan Şah pərdəsi, divaninin və təcnisin də öz müstəqil pərdələri vardır»)[249].

Belə hesab edirik ki, H.Zeynallının XX əsrin birinci yarısında söylədiyi «...türk şeirinin əsasını təşkil edən türk musiqisidir» tezisi[250] sonralar digər tədqiqatlarla, o cümlədən S.P.Pirsultanlının araşdırmaları ilə daha da dərinləşdirilmiş və onun «Aşıq şeirini sazla və saz havaları ilə əlaqəli öyrəndikdə, nəinki, təkcə onun şəkli xüsusiyyətləri, hətta tarixən bu xalq sənətinin hansı ruhda yaşadığı da, şifahi və yazılı poeziyamızla

[249] S.Rzasoy. Sazla sözün vəhdəti: musiqi və heca kodlarının poetik struktur semantikası professor Sədnik Paşa Pirsultanlının düşüncə modelində. «Yurddan səslər» dərgisi, № 2, oktyabr-noyabr, 2007, s. 20; S.Rzasoy. Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı. Bakı, 2008, s. 64-65.

[250] Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Mətni nəşrə hazırlayan və «Ön söz»ün müəllifi İ.Abbaslı. Bakı, «Səda», 2004, s. 15.

əlaqəsi də, onun əsas mövzuları da aydınlaşır»[251] fikri ilə, belə demək mümkünsə, postulatlaşdırılmışdır.

«Azərbaycan türk mahnıları haqqında» əsəri H.Zeynallının yaradıcılığının əsas metodoloji bazasını da müəyyənləşdirməyə yardım edir. Əsərdən məlum olur ki, o, görkəmli alim N.Marrın sonralar stalinizm tərəfindən amansız ideoloji məhv etməyə məruz qalmış yafetoloji nəzəriyyəsinə əsaslanırmış. H.Zeynallı yazır: «Bəlkə, xalq şeirləri içərisində ən çox təsadüf edilən şeirlər yeddi hecalı dördləmələr formasında düzəldilmiş olduğunu demək bir qədər həqiqətə yavuq olardı. Bugünkü yafetitologiya isbat edir ki, Hind-Avropa burjua metodolojisini təqib edən lisançılığın dillərin ulu babası olan tezisi əsasından yanlışdır. Əksinə, əvvəl ibtidai bir ulu baba - dil olmayıb, bəlkə, çox-çox dillər olmuş, sonra əmək təsirin altında ovçuluq, balıqçılıq və sairə artelləri təşkil edib işlədikdə ayrı-ayrı dillərdə danışan kütlələrin arasında müştərək dillər əmələ gəlmiş və bu əmələ gələn dillər say etibarı ilə get-gedə azalmışdır. Demək, Babil qülləsinin dağılması ilə dillər pərakəndə düşməmiş, əksinə, Fironların ehramlarını yaparkən o qocaman daşları daşıyan müxtəlif əllərdə toplanan kölələr müştərək bir dil yaratmağa müvəffəq olmuşdur. Həmin Hind-Avropa üsulunun folklordakı davamını təşkil edən burjua metodoloqları burada türk şeirinin ulu babasını tapmağa çalışırlar»[252].

Qeyd etmək istərdik ki, H.Zeynallının «Azərbaycan türk mahnıları haqqında» əsəri təhlil üçün çox geniş material verir. Burada mövzu ilə bağlı dünyanın çox məşhur alimlərinin fikirləri təhlil olunmuş, dərin nəzəri məntiqə əsaslanan polemikalar aparılmışdır. Bütün bunlar H.Zeynallının bir alim kimi elmi-nəzəri səviyyəsini göstərməklə bərabər, onun tədqiqatlarının müasir dövrümüzdəki aktuallığını da nümayiş etdirir. Bu baxımdan onun «Azərbaycan nağılları» toplusuna yazdığı ön söz diqqəti xüsusi cəlb edir.

Bu toplu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən

[251] Pirsultanlı S.P. Azərbaycan xalq şeiri və onun sazla əlaqəli inkişaf prosesi – «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» III Uluslararası Folklor Konfransının materialları. Bakı, 2005, s. 393; Pirsultanlı S.P. Azərbaycan folkloruna dair tədqiqlər. Gəncə, 2006, s. 393.

[252] Zeynallı H. Azərbaycan türk mahnıları haqqında. Mətni nəşrə hazırlayan və «Ön söz»ün müəllifi İ.Abbaslı. Bakı, «Səda», 2004, s. 21-22.

çap olunmuş «Azərbaycan nağılları» beşcildliyinin birinci cildinə daxil edilmişdir[253].

Birinci cildin redaktoru prof. İ.Abbaslı yazır: «Azərbaycan folklorunun toplanması, nəşri və araşdırılmasında xüsusi xidməti olan Hənəfi Zeynallının (1896-1937) irsində indiyədək işıq üzü görməmiş əsərlərdən biri də «Azərbaycan nağılları» toplusudur. Nağıllarımızın böyük bir qismini əhatə edən bu toplama-tərtib işi 1936-cı ildə çapa hazırlanmış, lakin müəllifin həbsindən (28 yanvar 1937) sonra bir sıra əsərləri ilə yanaşı, Azərbaycan Elmlər Akademiyasının xüsusi fonduna göndərilmişdir... «Azərbaycan nağılları» toplusundan bəlli olur ki, H.Zeynallı bu tərtib işini üç cilddə nəşr etməyi nəzərdə tutmuş, bu məqsədlə I cildə 21, II cildə 23, III cildə isə 28 xalq nağılı (cəmi 72) daxil etmişdir[254].

Prof. İ.Abbaslı H.Zeynallının nağıllar üçün yazdığı ön söz barədə qeyd edir ki, nəşrə daxil edilən «Azərbaycan nağılları haqqında» adlı giriş məqaləsi H.Zeynallının xatırladılan fondunda qorunan nağıllar haqqındakı araşdırmaları arasından seçilmişdir. Müəllifin nağıl janrı barədə Azərbaycan və rus dillərində yazmış olduğu bir neçə giriş məqaləsi, nağıllar haqqında olan izahlı biblioqrafiya, izah, şərh və qeydlər təsdiq edir ki, H.Zeynallı ötən yüzilliyin 30-cu illərində Azərbaycan nağılları ilə bağlı çoxyönlü axtarışlar aparan ilk tədqiqatçılardan olmuşdur[255].

Təqribən, 1936-cı ildə yazılmış «Azərbaycan nağılları haqqında» adlı ön söz H.Zeynallının ədəbi-nəzəri, folklorşünaslıq görüşlərini öyrənməyə imkan verdiyi kimi, stalinizm repressiyalarının ədəbi-nəzəri fikirdə, folklorşünaslıq tədqiqatlarında yaratdığı əhval-ruhiyyəni də əks etdirir.

H.Zeynallı nağılı bir janr kimi səciyyələndirərək yazır: «Nağıllar, hekayətlər, qaravəllilər və lətifələr azərbaycanlıların zəngin və müxtəlif şəkilli el yaradıcılığı növlərindən bir qismidir. El yaradıcılığının bu fantastik təhkiyəvi növünün pərdəsi altında Azərbaycan əməkçi elinin tarixi keçmişi, ictimai əlaqələri, əməl və arzuları ilə etiqadları, inanışları canlanan kimidir»[256].

---

[253] Azərbaycan nağılları. 5 cilddə. I cild. Toplayıb tərtib edəni: H.Zeynallı. Nəşrə hazırlayanlar: İ.Abbaslı, R.Xəlilov, M.Teymur. Bakı, 2005.

[254] Azərbaycan nağılları. 5 cilddə. I cild. Toplayıb tərtib edəni: H.Zeynallı. Nəşrə hazırlayanlar: İ.Abbaslı, R.Xəlilov, M.Teymur. Bakı, 2005, s. 4.

[255] Yenə də orada, s. 5.

[256] Zeynallı H. Azərbaycan nağılları haqqında / Azərbaycan nağılları. 5 cilddə. I cild. Toplayıb tərtib edəni: H.Zeynallı. Nəşrə hazırlayanlar: İ.Abbaslı, R.Xəlilov, M.Teymur. Bakı 2005, s. 7.

Göründüyü kimi, H.Zeynallı nağılı hekayət, qaravəlli, lətifə kimi janrlarla bir növə aid edib, onu el yaradıcılığının «növü» adlandırır. Başqa sözlə, indi olduğu kimi, «epik növ» terminindən istifadə etmir. Tədqiqatçı nağıl janrının əsas xüsusiyyətinin fantaziya olduğunu göstərir. Lakin H.Zeynallıya görə, bu fantaziya «nağıl təhkiyəsinin pərdəsi» – zahiri örtüyüdür. Həmin örtüyün alt qatında Azərbaycan xalqınını tarixi və düşüncəsi vardır. Bu cəhətdən, alimin fikrini təhlil etdikdə aydın olur ki:

- Nağıllar ilk növbədə xalqın («Azərbaycan əməkçi elinin») tarixini öyrənmək üçün ciddi mənbədir. Tarix burada fantastik obraz və süjetlər şəklində olsa da, onların epik məntiqinin əsasında real tarixi münasibətlər durur.

- Nağıllarda xalqın həyatının sosial münasibətlər sferası modelləşir: nağıl personajları və onlar arasındakı münasibətlər real həyati münasibətləri epik təhkiyə elementləri ilə təsvir edir.

- Nağıllarda cəmiyyətin sosial istəkləri («əməl və arzuları») ilə onun arxaik düşüncəsi («etiqad və inanışları») bir-birinə qovuşur. Nağıl bir mətn kimi xalqın düşüncəsini bütöv halda inikas edir. Bu bütövlük həmin janrın təkcə bir güzgü kimi cəmiyyətin tarixi əhvalını özündə əks etdirməsində ifadə olunmur. Güzgü yalnız inikas edir, onda inikas olunan güzgünün daxili məzmununa aid deyildir. Güzgü hadisəsinin məzmunu əks etdirməkdən ibarətdir və bu əksolunma mexanikidir. Nağıllar da cəmiyyətin əhvali-ruhiyyəsini əks etdirir. Lakin bu mexaniki əksolunma deyildir. Nağılın poetik güzgüsündə əks olunan məsələlər onun daxili məzmununu təşkil etməklə nağılla xalqın tarixini vahid sistemə tabe edir. Nağıl cəmiyyətin sosial-mənəvi düşüncəsini əks etdirməklə, onu özündə daşıyır. Başqa sözlə, tarix, inanc və etnik psixologiya nağıl janrının strukturunda tarixən yaşayan və onun daxili tərkib ünsürlərini əks etdirən poetik struktur qatlarıdır.

H.Zeynallı nağıl janrının bu xüsusiyətini ilk növbədə onun qədimliyi ilə əlaqələndirir: «Nağıllar onları yaratmış olan insan cəmiyyəti qədər qədimdir. Bunlar el yaradıcılığının bir növü kimi uzun zamanlar bilgi və bədii həyəcanın mənbəyi olmuş, bir sıra həyatı bağları, təbiətlə, ayrı-ayrı şəxslər və kütlələrlə olan əlaqəni sürətləndirmiş, ibtidai insan isə bunların hamısını öz yaradıcılığı ilə bəzəmiş, şəxsləndirmiş, nəsildən-nəslə söyləyərək əbədiləşdirməyə çalışmışdır»[257].

[257] Zeynallı H. Azərbaycan nağılları haqqında / Göst. kitab, s. 7.

Tədqiqatçının bu fikri onun təkcə nağıl janrının yox, həm də bütövlükdə folklorun nəzəri əsaslarına dair zəngin biliklərə malik olduğunu göstərir. Alimin, bəlkə də, indi bir qədər sadə görünən bu fikrində dərin nəzəri yanaşmalar vardır. Belə ki, H.Zeynallı hesab edir ki, nağıllar «el yaradıcılığının bir növü kimi uzun zamanlar bilgi və bədii həyəcanın mənbəyi olmuş»dur. Bu fikir nağıla mətnin funksional struktur qatları səviyyəsində yanaşmadır. Nağılın «bilgi mənbəyi olması» onun ilkin insanların fiziki və mənəvi təcrübəsini özündə əks etdirməsi deməkdir. Nağıllarda insanın yaşadığı dünyadan qavraya bildiyi biliklər sehr-fantastika kodu ilə əks olunur. Lakin bu biliklər nağıllarda mexaniki şəkildə daşınmır: insan onlarla psixoloji əməliyyatlar aparır. H.Zeynallının yazdığı kimi, nağıllar həm də ilkin insanın «bədii həyəcanının mənbəyi»dir.

Göründüyü kimi, H.Zeynallı nağılı bir mətn hadisəsi kimi, «bilgi» və «bədii həyəcan» qaynağı kimi səciyyələndirir. Bu cəhət daha dəqiq incələmə tələb edir:

1. «Bilgi» – informasiya, «bədii həyəcan» – emosiyadır.

2. İnformasiya və emosiyanın əlaqələndiyi vahid müstəvi insan şüurudur.

3. İnformasiya – qavrama və təhlili, emosiya – münasibəti, refleksiyanı ifadə edir.

4. İnformasiya, emosiya, qavrama, təhlil, refleksiya nağılın daha geniş sistemin tərkib hissəsi olduğunu göstərir.

5. Nağıl «bilgi və bədii həyəcan mənbəyi» kimi «gerçəklik-şüur-mətn» qapalı dövriyyəsinin ünsürüdür.

Nağılda ifadə olunan bilgilərin mənbəyi gerçəklikdən gəlir. Gerçəklik, eyni zamanda təbiət, ətraf aləm kimi də səciyyələndirilə bilər. Baxmayaraq ki, bunlar bir-birini əvəz edən anlayışlar deyildir, ancaq bir sırada dura bilir. Nağıl mətninə münasibətdə insandan kənarda olan məkan-zaman müxtəlif əhatə səviyyələrində «gerçəklik», «təbiət», yaxud «ətraf aləm» kimi qəbul oluna bilər. İnsanın gerçəklikdən (təbiətdən, ətraf aləmdən) aldığı impulslar onun «şüurunda» informasiyaya çevrilir. Bu, mexaniki əksolunma deyildir. İnformasiya təhlil nəticəsində, gerçəkliyin hər cür təsirinin təfəkkürdə təhlilindən sonra yaranır. Bu, prosesin bir tərəfidir. Yəni gerçəklikdən şüura doğru prosesdir. Prosesin ikinci hissəsi insandan gerçəkliyə doğru yönəlir. İnsanın gerçəkliklə ünsiyyətdən qavradığı informasiya onun «bədii həyəcanına» qarışdıqdan sonra alınan məhsul mətndir. İnsan mətn vasitəsilə öz refleksiyasını – gerçəklikdən qavradığına münasibətini ifadə edir. Beləliklə, gerçəklik,

şüur və mətn arasındakı dövrə qapanır. Bu deyilənləri nağıl janrına tətbiq etdikdə mənzərə daha da aydınlaşır. Bu halda «gerçəklik-şüur-mətn» qapalı dövriyyəsi «təbiət-insan-nağıl» qapalı dövriyyəsi kimi konkretləşir. H.Zeynallının nağılları «el yaradıcılığının bir növü kimi uzun zamanlar bilgi və bədii həyəcanın mənbəyi» hesab etməsi bu qapalı dövriyyəni nəzərdə tutmaqla ondan qaynaqlanır. Nağıl insanla təbiət arasında durur. O, «bilgi və bədii həyəcanın mənbəyi» olaraq insanla təbiət arasındakı münasibətlərin əlaqələndirmə vasitəsi, tənzimləmə mexanizmi kimi çıxış edir. Bu, nağılın mətn funksiyasından irəli gəlir. Mətn (nağıl) gerçəkliklə insan arasında duran kommunikasiya modelidir. Onda insanın təbiət haqqındakı təsəvvürlər sistemi gerçəkləşir. Həmin təsəvvürlər sistemini elmdə «dünya modeli» adlandırırlar.

Nağıl mətni insanla təbiət arasındakı münasibətlərin əlaqə modeli kimi, doğrudan da əsl dünya modelidir. O, dünya modeli olmasa, yəni mətn dünyanın şüur modeli kimi çıxış etməsə, insanla ətraf aləm arasında baş verən münasibətlərin əlaqə vasitəsi rolunu oynaya bilməz.

Dünya modeli – insanın dünya haqqındakı təsəvvürlər sistemidir. A.Y.Qureviç onu psixoloji model kimi səciyyələndirərək belə hesab edir ki, «dünya modeli» gerçəkliyi qavrayışın zaman, məkan, dəyişmə, səbəb, tale, say, hiss olunanın fövqəlhissi olana münasibəti, təkin tama münasibəti kimi universal anlayışların öz aralarında birləşərək yaratdıqları «koordinatlar torudur»[258].

Görkəmli rus alimi V.N.Toporov yazır ki, dünya modeli ən ümumi şəkildə konkret bir ənənə kontekstində dünya haqqındakı bütün dəyərlərin müxtəsərləşdirilmiş və sadələşdirilmiş təsviri kimi müəyyən olunur. Modeli təsvir olunan «dünya» anlayışının özünü insan və onun mövcud olduğu mühitin qarşılıqlı münasibətləri kimi başa düşmək məqsədəuyğundur[259].

Yada salaq ki, H.Zeynallı da nağılı bilgi mənbəyi hesab etmişdir. Yəni nağılın bilgi mənbəyi olması onun V.N.Toporovun səciyyələndirməsindən istifadə etsək, «dünya haqqındakı bütün dəyərlərin müxtəsərləşdirilmiş və sadələşdirilmiş təsviri» olması deməkdir. H.Zeynallı digər tərəfdən nağılı «bədii həyəcan mənbəyi» hesab etmişdir. Yəni insan gerçəklikdən qavradığı münasibətləri özünün gerçəkliyə münasibətinə çevirir. Bu, yenə də V.N.Toporovun səciyyələndirməsindən istifadə etsək, «insan və onun mövcud olduğu

[258] Qureviç A.Ə. Kateqorii srednevekovoy kulğturı. Moskva, 1984, s. 30.
[259] Toporov V.N. Modelğ mira / Mifı narodov mira. V 2-x tomax. Tom 2. Moskva, 1982, s. 161.

mühitin qarşılıqlı münasibətləri» deməkdir. Yəni belə bir nəticə çıxarmaq olar ki, H.Zeynallı nağılı «bilgi və bədii həyəcan mənbəyi» hesab etməklə onu, əslində, bir dünya modeli – dünya haqqında təsəvvürlər sistemi kimi səciyyələndirmişdir. Doğrudan da, sonralar Azərbaycan folklorşünaslığında folklor mətnləri məhz bu aspektdə (dünya modeli kimi) səciyyələndirildi. Məs., C.Bəydili göstərir ki, mifopoetik dünya modeli özlüyündə dünyanın obrazı kimi bir işarələr sistemidir. Mifoloji dünya modelinin özülündə ikili qarşıdurmalar (binar oppozisiyalar) sistemi dayanır ki, kifayət qədər sayda olan həmin qarşıdurmalar da əsas etibarilə məkan və zamanla bağlıdır[260]. Prof. A.Hacılı qeyd edir ki, mif dünya haqqında təsəvvürlər sistemi, müasir mədəniyyətin genetik kodu tək aşkarlanır. Əsatiri sistemin hər bir ünsürü ümumdünya modelinin tərkib hissəsi kimi əhəmiyyət qazanır[261].

Beləlilklə, dünya modeli – şüurdur və o, mətnlərdə gerçəkləşir. Görkəmli rus folklor nəzəriyyəçiləri V.V.İvanov və V.N.Toporov yazdıqları kimi, dünya modeli insan davranışının müxtəlif formalarında və bu davranışın nəticələrində gerçəkləşir və «hər hansı belə gerçəkləşmə mətn adlanır»[262]. Buradan belə bir nəticə çıxarmaq olur ki, H.Zeynallı müasir terminologiyadan istifadə etməsə də, onun nağılları «el yaradıcılığının bir növü kimi uzun zamanlar bilgi və bədii həyəcanın mənbəyi» hesab etməsi onlara məhz insanın dünya haqqındakı təsəvvürlər sistemini – dünya modelini inikas edən mətn kimi yanaşmasını göstərir. Onun yuxarıdakı fikrində sonrakı məqamlar bizim qənaətimizin təsadüfi olmadığını, H.Zeynallının nəzəri görüşlərini olduğundan artıq göstərmək istəyimizdən irəli gəlmədiyini sübut edir.

Tədqiqatçının yuxarıda verdiyimiz fikrinin «son notlarına» diqqət edək: «...nağıllar el yaradıcılığının bir növü kimi uzun zamanlar bilgi və bədii həyəcanın mənbəyi olmuş, bir sıra həyatı bağları, təbiətlə, ayrı-ayrı şəxslər və kütlələrlə olan əlaqəni sürətləndirmiş, ibtidai insan isə bunların hamısını öz yaradıcılığı ilə bəzəmiş, şəxsləndirmiş, nəsildən-nəslə söyləyərək əbədiləşdirməyə çalışmışdır»[263].

---

[260] Bəydili (Məmmədov) C. Dünya modeli / Azərbaycan filologiyası, V kitab. Bakı, BDU nəşriyyatı, 2003, s. 34.

[261] Hacılı A. Dünya ağacı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XI kitab. B. 2002, s. 55.

[262] İvanov Vəç. Vs., Toporov V.N. Slavənskie əzıkovıe modeliruöhie semiotiçeskie sistemı (drevniy period). Moskva: Nauka, 1965, s. 7.

[263] Zeynallı H. Azərbaycan nağılları haqqında / Azərbaycan nağılları. 5 cilddə. I cild. Toplayıb tərtib edəni: H.Zeynallı. Nəşrə hazırlayanlar: İ.Abbaslı, R.Xəlilov, M.Teymur. Bakı, 2005, s. 7.

Bu cümlənin təhlili alimin nəzəri fikirlərinin nə qədər dərin qatlara malik olduğunu göstərir:

1. Nağılların «bir sıra həyatı bağları, təbiətlə, ayrı-ayrı şəxslər və kütlələrlə olan əlaqəni sürətləndirməsi» onun birbaşa kommunikativ roluna işarə edir. H.Zeynallı təkcə bu rola işarə etməklə qalmır, kommunikativ sistemin ünsürlərini də göstərir:

- «təbiət», yəni gerçəklik, ətraf aləm:

Bu, kommunikativ modelin «insan-təbiət» münasibətləri səviyyəsidir;

- «ayrı-ayrı şəxslər», yəni sosial sistemin ayrı-ayrı ünsürləri, fərdlər:

Bu, kommunikativ modelin «insan-insan» münasibətləri səviyyəsidir;

- «kütlə», yəni bütün sosial sistem:

Bu, kommunikativ modelin «cəmiyyətlərarası» (sosial sistemlərarası) münasibətlər səviyyəsidir.

2. İbtidai insanın nağıllar vasitəsi ilə gerçəkləşən kommunikativ prosesi «öz yaradıcılığı ilə bəzəməsi, şəxsləndirməsi» fikri ilə H.Zeynallı folklor düşüncəsinin arxaik-mifik səciyyəsinə, özünəməxsus metaforizminə işarə etmişdir. Bu metaforizm indiki düşüncə ilə heç cür uyğun gəlmir, fantastik, xəyali, irrasionaldır. Bu metaforizm ən xarakterik formalarında filologiya elmləri doktoru M.Kazımoğlunun təbirincə desək «dağın-daşın, çölün çəmənin, suyun-selin, ayın-günəşin insan kimi nəfəs alması, dil açıb danışması» kimi qəliblərdə ifadə olunur[264]. Y.M.Meletinski yazır ki, mifoloji düşüncədə ictimai kateqoriya və münasibətlər ətrafdakı təbiət mühitinin «obrazları» vasitəsi ilə təqdim olunur və əksinə, təbiət münasibətlər ictimai münasibətlər vasitəsi ilə «şifrələnir»[265]. H.Zeynallının «nağılların bilgi və bədii həyəcan mənbəyi kimi təbiətlə, ayrı-ayrı şəxslər və kütlələrlə olan əlaqəni sürətləndirməsi, ibtidai insanın isə bunların hamısını öz yaradıcılığı ilə bəzəməsi, şəxsləndirməsi» haqqındakı fikri Y.M.Meletinskinin söylədiyi metaforik modeli nəzərdə tutur. Nağıllarda sosial sistemin təbiət mühitinin «obrazları» vasitəsi ilə təqdim olunması və əksinə, təbiət münasibətlərinin ictimai münasibətlər vasitəsi ilə «şifrələnməsi» folkorun kommunikasiya modeli rolunu oynamasını göstərir.

3. H.Zeynallının insanın nağılları «nəsildən-nəslə söyləyərək əbədiləşdirməyə çalışması» haqqındakı fikri həmin kommunikasiya

[264] Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı, 2006, s. 150-151.
[265] Meletinskiy G.M. Poetika mifa. Moskva, 1976, s. 232.

modelinin tarixi-diaxron aspektini vurğulayır. Yəni nağıl bir kommunikası modeli kimi təkcə sinxron münasibətləri yox, eyni zamanda tarixi-diaxron (nəsillərarası) kommunikasiyanı təşkil edərək tənzimləyir.

H.Zeynallı nağılların arxaik-mifoloji düşüncə ilə əlaqəsi haqqında yazır: «Nağıllara diqqət etdikdə bir sıra mifoloji (əsatiri) süjetlərə təsadüf ediləcəyi bəllidir. Bu süjetlərin ən qədim zamanlardan, sinifli cəmiyyət təşəkkül etmədən çox-çox əvvəlki dövrlərdən xəbər verdiyinə şübhə yox-dur. Bu kimi nağıllar onu yaradan, öz mühitində bəsləyən və yaşadan hər hansı bir elin totemik təsəvvürlərini və ya qədim insanın təbiətə qarşı fikir, duyğu və xəyallarını, bir sözlə naturalist və sehri (nağılı) görüşlərini ifadə edir»[266].

Tədqiqatçının söylədiklərində diqqəti cəlb edən məsələ nağıllardakı mifoloji süjetlərin məzmun və mündəricəsidir. H.Zeynallı nağıl mətnində son dərəcə qədim, bəlkə də, ən ilkin qat hesab etdiyi mifoloji informasiya layını məzmununa görə aşağıdakı kateqoriyaların «xəlitəsi» kimi təsəvvür edir:

Totemizm görüşləri:

H.Zeynallının totemizmi insan-təbiət münasibətlərinin ən qədim forması hesab etməsi tamamilə düzgün yanaşmadır.

İnsanın təbiəti emosional-psixoloji qavrama üsulu:

İnsan təbiət haqqındakı totemist obrazları (insan-heyvan, insan-quş, insan-bitki obrazları) öz hərəkət dinamikasını onun «təbiətə qarşı fikir, duyğu və xəyalların»dan götürür.

Naturalist-magik görüşlər:

İnsanın ətraf aləmə münasibətinin əsasında təbiətin özü durur. Başqa sözlə, birbaşa təbiətin özündən gələn impulslar onun mifoloji dünya modelində fantastik obrazlara çevrilir. Lakin bütün fantastik forma və məzmununa baxmayaraq, bu obrazların bütün hallarda təbiəti təcəssüm etdirməsi açıq-aydın bilinir. Digər tərəfdən, təbiətlə insan arasındakı münasibətlər rasional idraka yox, irrasional qavramaya və magik əks-təsirə əsaslanır.

H.Zeynallı öz fikrini əyaniləşdirərək inkişaf etdirir: «Ayin, sehr mahnıları, tapmacalar, ovsunlar, əmək nəğmələri ibtidai tayfalarda mövcud olmaqla bərabər, qədim insanın dünyanı duyuşu və anlayışı əsasında meydana gəlmişdir. Məsələn, Amerika və Avstraliya tayfalarının inanışına görə bir düşmənin heykəlini düzəldib ona əzab

[266] Zeynallı H. Azərbaycan nağılları haqqında / Azərbaycan nağılları. 5 cilddə. I cild. Toplayıb tərtib edəni: H.Zeynallı. Nəşrə hazırlayanlar: İ.Abbaslı, R.Xəlilov, M.Teymur. Bakı, 2005, s. 7.

verilərsə və onun ürəyi çıxarılıb əzilərsə, düşmən ölər. Və ya yaxın bir insanın başına bir müsibət gələcəyi onun buraxıb getdiyi şeydə də öz əlamətni göstərə bilər. Bu zehniyyətin nağıllarda eynilə inikas etdiyini görmək mümkündür»[267].

Həmin zehniyyəti Azərbaycan xalqının etnoqrafiyasından gətirdiyi canlı nümunələrlə təsdiq edən H.Zeynallı göstərir ki, qədim dövrün insanları həyatlarında tətbiq etdiklərinin bir qismini nağılda daha bədii bir şəkildə eşitdikdə ona inanacaqdı! Əlbəttə, buna inanmaqla bəzən o, öz ayinlərindən nağıllarda da istifadə edəcəkdi. İnsanlar nağıllarda göstərilən qəribə şeylər, təbiətin mövhumi qüvvələri içərisində özünün dost və düşmənlərini görürdü. İş belə olduqda mühitə təsir edə biləcək bütün sehri qüvvəyə malik tilsimləri, löhləri, ovsunları, caduları və qarğışları bilmək lazım gəlirdi. İndiki nağıllar bunların heç birisini təkrar etməsə də, onların nə yerdə işləndiklərini, təsirlərini və nəticələrini müəyyən dərəcədə təfsilatilə qoruya bilmişdir[268].

H.Zeynallının «Azərbaycan nağılları haqqında» adlı bu müqəddiməsi onun nağıl poetikasına, xüsusilə nağıl xronotopunun (məkan-zaman sisteminin) poetik özünəməxsusluğuna dərindən bələd olduğunu göstərir. Onun nağıllarda məkanı tipikləşdirilməsi, zaman tipologiyası haqqında elmi təsəvvürləri tamamilə mükəmməldir. Tədqiqatçı yazır: «Nağıllar hadisələri ümumiləşdirir, haqqında bəhs edilən hadisə Misirdəmi, Çindəmi və ya İran şəhərlərinin birində baş verirsə versin, eşidən üçün maraqlıdır. Nağıllarda adamın dost və düşmənləri, ümumiyyətlə, bütün xarakteristikası ilə tanıdılır. Buna görə də, bir hadisədən bəhs edərkən qəhrəmanın «doqquz ölkə arxasından» gəldiyi söylənilir, nağılçı onu dağlardan yel kimi, dərələrdən sel kimi, badeyi sərsər kimi atın üstündə gəzdirir, tipik olaraq, «biri vardı, biri yoxdu, Allahdan başqa heç kəs yoxdu, bir padşah vardı, bunun üç oğlu vardı», «Günlərin birində bir yoxsul kətti getmişdi tikan qırmağa» və s. deyə təqdim edir»[269].

Azərbaycan folklorşünaslığı öz inkişaf tarixi boyunca nəzəri cəhətdən çox kamil səviyyəyə qalxsa da, hələ də bəzi tədqiqatçılar xüsusilə dastan mətnlərinə reallığın təsviri kimi yanaşır, epik məkanı, epik zamanı, epik məkan-zaman obrazlarını real məkan, real zaman kimi qəbul edirlər. Ancaq hələ əsrin əvvəllərində H.Zeynallı bu məsələyə tamamilə doğru-düzgün fikir bildirmişdir. Onun fikrini görkəmli

[267] Zeynallı H. Azərbaycan nağılları haqqında / Göst. kitab, s. 7-8.
[268] Zeynallı H. Azərbaycan nağılları haqqında / Göst. kitab, s. 8.
[269] Zeynallı H. Azərbaycan nağılları haqqında / Göst. kitab, s. 8.

eposşünas alim B.N.Putilovun fikirləri ilə müqayisə etdikdə stalinizm repressiyalarının Azərbaycan elminə necə sağalmaz yaralar vurduğunun, Azərbaycan humanitar-filoloji, fikrinin H.Zeynallının simasında necə bir nəzəriyyəçi folklorşünası itirdiyinin şahid oluruq.

B.N.Putilov folklorun epik məkan haqqındakı təsəvvürlərinə əsaslanıb real tarixi məkanı bərpa etməyin şərtləri haqqında yazır ki, «dastançının nəzərində olan məkan elementləri hansısa bütövün (bütöv, real tarixi məkanın – C.Q.) rekonstruksiyasına xidmət edə bilməz. Çünki bu bütöv epik düşüncədə ümumiyyətlə yoxdur»[270]. Alim epik mətnlərdəki məkan-zaman təsvirlərinin onların həqiqiliyinə inanan tədqiqatçıları pis vəziyyətdə qoymasını göstərir: «Epik məsafə və miqyaslar onların həqiqiliyinə inanan tədqiqatçıların ayağına daim ilişən kötükdür»[271].

B.N.Putilovun 1988-ci ildə çap olunmuş «Qəhrəmanlıq eposu və gerçəklik» monoqrafiyasından verdiyimiz bu sitatları H.Zeynallının 1936-cı ildə yazdığı məqaləsindən verdiyimiz sitatlarla müqayisə etdikdə sonuncunun folklorşünaslıq görüşlərinin mükəmməl səviyyəsini və Azərbaycan tədqiqatçısının bir alim kimi dünya folklorşünaslığının rusdilli elmi məkandakı bütün nailiyyətlərini dərindən mənimsədiyini görürük. Lakin stalinizmin qanlı ölüm maşını bir çoxları kimi onu da məhv etdi. İntellekti böyük zəhmət, gərgin elmi fəaliyyət nəticəsində formalaşmış bu görkəmli folklor nəzəriyyəçisinə və ədəbiyyatşünasına öz biliklərini gənc nəslə verməyə, yeni folklorşünaslar nəsli yetişdirməyə imkan verilmədi...

Əlbəttə, tarixi geri döndərməyin, hadisələrin axarını dəyişdirməyin ixtiyarı bizdə deyil. Biz ilahi dialektikanın ünsurləriyik və bizim bütün imkanlarımız dialektik qanunlarla ehtiva olunur. Dialektika H.Zeynallını «başlandığı, davam etdiyi və sona çatdığı» limit çevrəsində götürməyi, dəyərləndirməyi və bir mədəni-tarixi təcrübə kimi mənimsəməyi tələb edir. Bu baxımdan, H.Zeynallının ömrünün hansı nöqtədə sonlandırılmasından asılı olmayaraq, onun yaşaya bildiyi ömür bir «bütöv»dür. Və bu «bütöv ömür» Azərbaycan naminə, Azərbaycan humanitar-filoloji, folklorşünaslıq düşüncəsinin inkişafı naminə yaşanmış ömürdür. Onun əsərlərinə, adına və irsinə vaxtilə yasaq qoyulmasına baxmayaraq, H.Zeynallı bu gün elmi fikir dövriyyəsində temp götürməkdə olan «baxış sistemidir». Ona «görə baxış» sistemidir ki, o, adi bir alim olmamış, yazmağa (reallaşdırmağa) imkan tapa bildikləri ilə, əslində, müasir

[270] Putilov B.N. Qeroiçeskiy gpos i deystvitelğnostğ. Leninqrad, 1988, s. 19.
[271] Putilov B.N. Qeroiçeskiy gpos i deystvitelğnostğ, s. 30.

folklorşünaslığımız üçün hələ bundan sonra öyrənilməli, əxz və istifadə olunmalı nəzəri sistem qoyub getmişdir. Biz birmənalı şəkildə bildirmək istəyirik ki, onun hətta 1936-cı ildə yazdığı «Azərbaycan nağılları haqqında» adlı bu müqəddiməsində elə mükəmməl nəzəri-metodoloji məsələlər vardır ki, onlara hələ indi bəzi tədqiqatçıların yaradıcılığında toxunulur.

Məsələn, H.Zeynallı yazır: «Xalq yaradıcılığının (folklorun) bütün başqa növləri kimi nağıllar da ən qədim zamanlardan insan nəsilləri, insan cəmiyyəti ilə birlikdə inkişaf edərək cəmiyyət quruluşunun dəyişməsi ilə pədərşahı, quldarlıq və ya feodal mühitlərində mündəricəsini dəyişə bilmişdir. Lakin bu dəyişmə nə qədər dərin olur olsun, keçmiş epoxalardakı ictimai əlaqələrin ayrı-ayrı yönləri nağıla daxil olmuş, yeni ünsürlər ilə çulğalaşaraq bizə qədər gəlib çatmışdır. Məsələn, nağıl içində bir tərəfdən şəhərdə inkişaf etmiş ticarət əlaqələri ilə yan-yana, kənd yoxsullarının – rəncbərlərin mülkədar, padşah, vəzir və s. tərəfindən soyulması, qul əməyinin istismarı və bunların arasında sinifli cəmiyyətdən əvvəlki dövrləri andıran hadisələr və mifoloji dünyagörüşlərin bir nağılda toplandığı hallar da az deyildir. Bu da nağılların nə kimi etaplar keçirmiş olduğuna bir dəlildir. Bu kimi vertikal baxış nağılın, belə demək mümkündürsə, «yaşını» təyin etməyə imkan verir, üfüqi baxış (kursiv bizimdir – C.Q.) isə nağılın eldən-elə, ölkədən-ölkəyə keçməklə nə kimi dəyişmələrə təsadüf etdiyini göstərir»[272].

H.Zeynallının bu fikri bütün məzmun və mündəricə göstəriciləri səviyyəsində nağıl mətninə struktur yanaşmadır. Kursivlə verdiyimiz cümlə və sözlər həmin yanaşmanın təhlil üsulu və kateqorial-terminoloji aparatını açıq şəkildə nümayiş etdirir. O, artıq keçən əsrin 20-ci illərindən elmdə kök atmağa başlayan formalist yanaşmadan xəbərdar alim kimi, nağıl mətninin poetik xronotopunu – bədii məkan-zaman sistemini dəyişən və dəyişməyən elementlərin kombinasiyası kimi götürmüş, tarixi məkan-zamanın onda reallaşmasının struktur qatlarını aşkarlamışdır. Əslində, cəsarətlə demək olar ki, təkcə bu fikir H.Zeynallının öz dövründə bütün folklorşünas müasirlərindən fərqli olaraq, öz çağının akademik standartları səviyyəsində olan folklor nəzəriyyələrini mənimsədiyini inkarolunmaz şəkildə sübut edir. Lakin onun qabaqcıl nəzəriyyələri mənimsəməsi, metodoloji texnologiyaları öyrənməsi işin yalnız bir tərəfidir. O, bu nəzəriyyələri təkcə oxuyub-

[272] Zeynallı H. Azərbaycan nağılları haqqında / Azərbaycan nağılları. 5 cilddə. I cild. Toplayıb tərtib edəni: H.Zeynallı. Nəşrə hazırlayanlar: İ.Abbaslı, R.Xəlilov, M.Teymur. Bakı, 2005, s. 10-11.

öyrənməmiş, həm də yuxarıda sitat verdiyimiz fikirlərdə olduğu kimi praktiki cəhətdən tətbiq edib, inkişaf etdirməyə çalışmışdır. Həmin fikri bir qədər ətraflı təhlil etsək, əslində, H.Zeynallının nəzəri təfəkkürü, nəzəri ümumiləşdirmə qabiliyyəti və imkanlarının hüdudları açıqlanmış olar.

Nəzəriyyəçinin yanaşmasından verdiyimiz sitatın ilk cümləsində nağıl mətni dinamik sistem kimi səciyyələndirilir. O, «xalq yaradıcılığının (folklorun) bütün başqa növləri kimi» ifadəsi ilə nağıl mətninin bu funksional keyfiyyətinin təkcə bu janra yox, eləcə də bütün digər folklor janrlarına xas olduğunu xüsusi vurğulayır. Yəni bu, o deməkdir ki, nağıl bir janr sistemi kimi, ümumfolklor sisteminin bütün funksional keyfiyyətlərini özündə daşıyır.

H.Zeynallıya görə, nağıl mətninin daxili dinamikası cəmiyyətin sosial-siyasi strukturunun dəyişməsi ilə müəyyənləşir. Cəmiyyət öz inkişafında müxtəlif sosial-iqtisadi formasiyalardan keçdikcə bu dəyişmə uyğun olaraq nağılın məzmununda (sitatda: «mündəricəsində») inikas olunur.

Əlbəttə, ilk baxışdan H.Zeynallının cəmiyyətin inkişaf dinamikasının folklor mətnlərinin, o cümlədən nağılların məzmununda öz əksini tapması haqqındakı fikrində nə öz dövrü, nə də indi üçün heç bir yeni yanaşma yoxdur. Yəni nağılların öz məzmunu ilə insanların həyatına bağlı olması, bu həyat dəyişdikcə onun dinamikasının uyğun olaraq nağıllarda da əks olunması adi bir həqiqətdir. Lakin nəzəriyyəçi alimin sonrakı cümləsi əsl məqsədin heç də hamıya aydın olan bir məsələni vurğulamaq olduğunun yox, nağıl mətnini dəyişən (dinamik) və dəyişməyən (struktur) elementlərin konstruksiyası kimi təqdim etmək olduğunu göstərir. O, cəmiyyət həyatındakı dəyişikliklərin mətnin məzmununda əks olunduğunu göstərməklə onu (mətni – teksti) analiz müstəvisinə gətirərək, mətnin dəyişən hissələrini işarələyib, dəyişməyən hissələrindən ayırır. Sonrakı cümlələr bunun məhz belə olduğunu göstərir. «Lakin» qarşılaşdırma bağlayıcısı ilə dəyişəni (məzmunu) dəyişməyənə qarşı qoyan müəllif «bu dəyişmə nə qədər dərin olur olsun, keçmiş epoxalardakı ictimai əlaqələrin ayrı-ayrı yönləri nağıla daxil olmuş, yeni ünsürlər ilə çulğalaşaraq bizə qədər gəlib çatmışdır» fikri ilə həm nağıl mətninin həm məzmununda, həm də bütün poetik strukturunda dəyişməyən layların olduğunu göstərir. Lakin burada məsələni H.Zeynallının «dəyişən» və «dəyişməyənlərə» yalnız işarə etməsi kimi qoymaq bizim tərəfimizdən çox sadə yanaşma olardı. Ona görə də baxış

ölçülərininin mikroskopik miqyasını böyütməyə, sonuncu cümləyə daha geniş ölçüdə baxmağa ehtiyac var.

Alimə görə, nağıl mətninin məzmunu ictimai-iqtisadi formasiyaların dəyişməsinə uyğun dəyişsə də, bu dəyişmə məzmunu bütöv halda, məzmunun son nöqtələrinə qədər əhatə etmir. Bu cəhətdən məzmunun özünün də dəyişən və dəyişməyən hissələri vardır. Hər yeni epoxa nağılın məzmununda dəyişiklik yaratsa da, köhnə epoxanı onun yaddaşından (məzmunun total strukturundan) silə bilmir. Hər bir epoxanının sosial ovqatı, həmin epoxanın «simasını» müəyyənləşdirən struktur səviyyələri (sitatda: «keçmiş epoxalardakı ictimai əlaqələrin ayrı-ayrı yönləri») məzmunda qalmaqda davam edir. Həmin «köhnəni» – «dəyişməyəni» ilk baxışdan müşahidə etmək olmur, çünki «yeni» – «dəyişən» ilə sintezləşərək (sitatda: «yeni ünsürlər ilə çulğalaşaraq») yeni zahiri forma kəsb edir. Demək, H.Zeynallıya görə, nağıl mətninin məzmununda dəyişənlə dəyişməyənin (köhnə ilə yeninin) münasibətləri dəyişənin daim dəyişməyənin fövqünə qalxması, yaxud dəyişməyənin dəyişənin poetik strukturun alt qatlarına enməsi, çəkilməsi ilə müşayiət olunur. Məzmunun bu iki struktur qatı tədqiqatçı laboratoriyasında analizlə bir-birindən ayrıla bilsə də, onlar mətndə üzvi (çulğaşmış) sintez halındadır. Tədqiqatçının (H.Zeynallının) məharəti üzvi strukturu tərkib elementlərinə son dərəcə ehtiyatla, səhvə yol vermədən ayırmaqda, bir-biri ilə qovuşmuş elementlərin bağlarını, tellərini qırmadan «sökə bilməkdə» ifadə olunur. Bunun üçün tədqiqatçıdan dərin nəzəri bilik, analitik təfəkkür və metodoloji baxış sistemi tələb olunur. H.Zeynallıdan sitat verdiyimiz fikrin son cümlələri onun belə bir bilik, təfəkkür və baxış sisteminə malik olduğunu inkarolunmaz şəkildə sübut edir.

H.Zeynallı nağılda real həyatdan gələn müasir sosial münasibətlər modelinin, yəni tarixin miflə yanaşı yaşamasını məhz dəyişən və dəyişməyən elementlərin mətndəki üzvi sintezi kimi ifadə edir. O, fərqli epoxaların «dəyişməyən» adı ilə səciyyələndirdiyi «izlərinin» nağılda yanaşı yaşamasını birbaşa struktur yanaşmanın nəzəri aparatından istifadə edərək «vertikal» baxış adlandırır. Qeyd edək ki, bu baxış başqa adı ilə diaxroniya adlandırılır. H.Zeynallı «vertikal baxış»la məhz diaxroniyanı, yəni tarixi inkişafın dinamika modelini nəzərdə tutur: «Bu kimi vertikal baxış nağılın, belə demək mümkündürsə, «yaşını» təyin etməyə imkan verir...»[273]

[273] Zeynallı H. Azərbaycan nağılları haqqında / Göst. kitab, s. 11.

Yuxarıda da qeyd etdiyimiz kimi, struktur yanaşmada «vertikal (diaxron) baxış» anlayışı analizin bir məkani prizması olub, «üfüqi (sinxron) baxış» anlayışı ilə birgə tətbiq olunur. Öz dövrünün struktur yanaşmalarını mükəmməl bilən H.Zeynallının nağıl mətninə baxışları, heç təsadüfi deyildir ki, birtərəfli (yarımçıq) yox, bütöv, sistemli və mükəmməldir. O, yazır: «...üfüqi baxış isə nağılın eldən-elə, ölkədən-ölkəyə keçməklə nə kimi dəyişmələrə təsadüf etdiyini göstərir»[274].

Beləliklə, biz H.Zenyallıdan verdiyimiz bir sitatın nümunəsində onun folklor mətninə struktur yanaşmanın nəzəri sistemini, kateqorial aparatını və təhlil metodunu dərindən bildiyinin şahidi oluruq. Acı təəssüf hissi ilə qeyd etmək istəyirik ki, stalinizm epoxasının H.Zeynallının ömrünə onun yaradıcılığının çiçəklənən vaxtında qəsd etməsi ilə nağılların bu aspketdə öyrənilməsi işi də yarımçıq qaldı.

H.Zeynallının şəxsiyyətin folklora, şifahi ədəbiyyatın yazılı ədəbiyyata təsiri və onlar arasında fərq, bəzi janrların təsnifatı, spesfik xüsusiyyətləri, xalq ədəbiyyatının mənşəyi barədə yürütdüyü elmi-nəzəri fikir və mülahizələr də daha çox içində yaşadığı dövrün diqtələrindən (sinfilik və partiyalılıqdan) irəli gələn bəzi mübahisəli cəhətlərinə baxmayaraq, cəsarətlə demək olar ki, 1920-1930-cu illərdə Azərbaycan folklor nümunələrinin toplanması, nəşri və tədqiqi sahəsində, eləcə də folklorşünaslıq elminin yaranmasında onun əvəzsiz xidmətləri olmuşdur. Ən acınacaqlısı odur ki, xalqın sərvətini toplayıb xalqın özünə çatdırmağı böyük qədirşünaslıq işi hesab edən və bu istiqamətdə fədakarlıq göstərən H.Zeynallının özünü 30-cu illərin əvvəllərindən (əvvəl dövri mətbuatda, sonra isə NKVD məhbəsində) ittiham etməyə başladılar.

1920-ci illərin sonlarından etibarən Azərbaycan folklorunun ümumtürk folklorunun bir tərkib hissəsi olması ideyası tədricən sıxışdırıldı. «Sıxışdırılmaya» etiraz edənlər isə repressiv aksiyaların hədəfinə çevrildi. «Onun folklorumuzun tarixinə və taleyinə baxışında diqqəti cəlb edən maraqlı cəhətlərdən biri bundan ibarətdir ki, H.Zeynallı Azərbaycan folklorunu əlahiddə, coğrafi sərhədlər daxilində yox, «başqa türk elləri ilə birlikdə tədqiq etməyin» tərəfdarı idi. Lakin vaxtı ilə məhz belə fikirlər onun adının M.Ə.Rəsulzadə, F.Köprülüzadə, İ.Hikmət və s. kimi ümumtürk ədəbiyyatı nəzəriyyəçiləri ilə bərabərləşdirilməsinə səbəb olmuş, məhz öz həmkarları vulqar sosiologizmə qapılaraq onu pantürkizmdə ittiham etməkdən çəkinməmişlər»[275].

[274] Zeynallı H. Azərbaycan nağılları haqqında / Göst. kitab, s. 11.
[275] Qurbanova N. Hənəfi Zeynallı, Bakı, 1989, 22-23.

Maraqlıdır ki, 1920-ci illərin bəzi ədəbi məhkəmələrində «prokuror» sifəti ilə çıxış edən H.Zeynallının özünü 1930-cu illərin ittihamları ilə üz-üzə qoydular. Daha doğrusu, 1930-cu illərdə ədəbi məhkəmədən ədibi ittihamnamələrə keçidin əsası qoyuldu. Ədəbi məhkəmələrdə bədii əsərlərin qəhrəmanlarından biri, ədəbi ittihamnamələrdə isə bədii əsərlərin müəlliflərinin özü azad fikir və düşüncələrinə görə çarmıxa çəkilirdi. Bütün bunlar sovet hökumətnin türkü və türkçülük ideyalarını məhv etmək siyasətindən irəli gəlirdi. 1920-ci illərdən başlayan bu proses 1930-cu illərdə daha da gücləndi. Belə ki, vaxtı ilə Azərbaycanda pedaqoji fəaliyyətlə və elmi araş-dırmalarla məşğul olan Fuad Köprülüzadə, İsmayıl Hikmət və başqa türklər ədəbi tənqidin ittiham obyektinə çevrildilər. Həm də yalnız F.Köprülüzadə və İ.Hikmət deyil, vaxtı ilə onlar haqqında dövri mətbuatda söz demiş şəxslər də tənqid hədəfinə çevrilirdi: «İsmayıl Hikmət idealistmi, materialistmi? Onun siyasi cəbhəsi hansıdır?.. Bu kimi suallarla Zeynallı maraqlanmayır (söhbət A.V.Baqrinin «Ədəbiyyatşünaslıq üçün vəsait» kitabına H.Zeynallı tərəfindən yazılmış «Metodoloji müqəddimə»dən gedir – C.Q) və nəticədə İsmayıl Hikmətin burjua-nasionalist, mürtəce idealist metodolojisinin sinfi mahiyyətini pərdələyir. Onu tənqid və ifşa edəcəyi yerdə onun əsərlərinin faydalı olduğunu irəli sürür»[276].

Burada söhbət daha çox İsmayıl Hikmətin ideoloji-siyasi baxışlarından getsə də, onun türk olması – milli mənsubiyyəti də az rol oynamırdı. Ümumiyyətlə, 1923-cü ildə Müsavat partiyasının gizli fəaliyyətinin üstü açıldıqdan və 1926-cı ildə Bakıda keçirilən «Türkoloji qurultay»dan sonra türk xalqlarına olan mənfi münasibət daha da kəskinləşdi. Əslində isə türkçülüyə qarşı mübarizə hələ XIX əsrin sonlarında çar Rusiyası dövründə süni surətdə ortaya atılmış «pantürkizm»dən qaynaqlanırdı. Ona görə də Türkiyədən gəlmiş hər hansı bir şəxslə əlaqə saxlamaq casusluq kimi qiymətləndirilirdi. Maraqlıdır ki, H.Zeynallı həbs olunan zaman onun İ.Hikmətlə olan ünsiyyəti və Türkiyənin Bakıdakı konsulu Fərid bəylə 1928-ci ildə əlaqə saxlaması ayrıca bir maddə kimi ittiham aktına salınmışdı. Yuxarıdakı nümunədən də aydın görünür ki, o dövrün tənqidçiləri tədqiqat obyektinə çevirdikləri şəxsiyyətlərin hansı ideoloji cəbhəyə mənsub olmalarına xüsusi fikir verməli idilər. Bu isə olduqca çətin idi. Çünki sosializm hər gecə yüzlərlə «vətən xaini», «xalq düşməni» doğurdu. Totalitar rejim

[276] «İnqilab və mədəniyyət» jurnalı. 1931, № 9.

dünən sosializmin dostu elan etdiyini bu gün düşmənə çevirirdi. Məsələn, vaxtı ilə H.Zeynallıya dərs demiş professor Pereverzev və onun elmi-nəzəri fikirləri 30-cu illərdə şübhə altına alınmışdı. Bunun ağrısını Pereverzevlə yanaşı H.Zeynallı da (digər tələbələri də) çəkirdi: «Zeynallı bu günkü sinfi mübarizəni Pereverzev eynəyi ilə «gördüyü» üçün qolçomaqla əsas etibarı ilə sosializm relsində olan xırda burjuanı tamamilə qarışdırır» [277].

Göründüyü kimi, dövrün tənqidçiləri H.Zeynallını vulqar sosiologizmdə, öz tədqiqatlarında sinif və partiya mövqelərini müdafiə etməməkdə və yaxud da ideoloji sistem tərəfindən mühüm hesab edilən amilləri nəzərdən qaçırmaqda, bir sözlə, prinsipial mövqe tutmamaqda günahlandıraraq ittiham edirdilər.

Dövri mətbuat səhifələrində tənqid hədəfinə çevrilən H.Zeynallı 1937-ci il yanvarın 28-də Ruhulla Axundovun əksinqilabi qrupun üzvü olmaqda ittiham edildi və əksinqilabi millətçi kimi həbs olundu. Üstündən bir neçə gün keçdikdən sonra o, «Ədəbiyyat qəzeti»ndə çıxan «Vətən xainləri» məqaləsinin «qəhrəmanına» çevrildi. «Azərbaycanda bu nacinslər, bizim xalqımızın qara bayquşu, qəddar düşməni olan «müsavat» tör-töküntüləri ilə birləşmişlər. Konturrevolyusiyanın bütün xəyalları, yeni dünya, azad həyat əleyhinə birləşmişlər!.. Bu vətən xainlərinin başını amansızcasına əzəlim!..

İllərlə Ruhulla Axundov, Hənəfi Zeynallı kibi konturrevolyusion xəyanətkarların kultura və ədəbiyyat cəbhəsində çalışmaları, biz yazıçılardan daha artıq sayıqlıq tələb edir. Partiyamız ətrafında daha sıx cərgələrlə toplanaraq, vətənimizin müdafiəsi üçün son damla qanımızı belə əsirgəməyəcəyimizə and içirik» [278].

«Vətən xainlərinin başını amansızcasına əzəlim», «son damla qanımızı belə əsirgəməyəlim» kimi ifadə və sözlər, eləcə də həmin dövrdə qəzet səhifələrinə çıxarılmış «Xalq düşmənləri ölümə layiqdir», «Faşist nökərlərinə aman yoxdur», «Alçaqların külünü göyə sovurmalı», «Xainlərin kökünü kəsməli», «Xalq düşmənlərinə qarşı amansız olmalı», «Xalq düşmənlərini darmadağın etməli və onlara «divan tutmalı», «Düşmən yer üzündən silinməlidir», «Qolçomaqlara qəti hücum» və sair kimi başlıqlar şair, yazıçı, müxbir, jurnalist, sənətkar fikrindən daha çox o illərin hakim, müstəntiq və ya zabit (komandir) hədəsinə oxşayır.

DTX-nin arxivində saxlanılan istintaq materiallarından öyrənirik ki, Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri üzrə məsuliyyətə cəlb

[277] «Hücum» jurnalı. 1931, № 9.
[278] «Ədəbiyyat qəzeti». 1937, 6 fevral, № 5 (90).

edilən H.Zeynallını 1917-ci ildə eserlər partiyasının üzvü olmaqda, 1928-ci ildə Bakıda Türkiyə konsulu Fərid bəylə əlaqə saxlamaqda və onun vasitəsilə tanınmış türk millətçi xadimi İsmayıl Hikmətlə məktublaşmaqda, 1929-cu ildən başlayaraq əksinqilabçı və millətçi Haşım Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə, Əhməd Cavad, Cəfər Cabbarlı, Atababa Musaxanlı, Cabbar Əfəndiyev, Əhməd Hacınski, Məmmədsadıq Quliyev, Əliabbas Mütəllibov, Böyükağa Talıblı, Əli Nazim, Vəli Xuluflu, Mikayıl Rəfili, Həsən İmanov, Salman Mümtaz, Əhməd Triniç və başqaları ilə sıx əlaqə saxlamaqda, elmi işlərində əksinqilabi millətçi ideologiyanı yaymaqda ittiham edirdilər [279].

Maraqlıdır ki, 1930-cu illərin qəzet səhifələrində adları çəkilənlərlə istintaq protokollarında adları keçənlər çox vaxt üst-üstə düşür və biri digərini tamamlayırdı. Bu bizə əsas verir deyək ki, ictimai mühit kamera mühiti üçün məhbus hazırlayır və ədəbi tənqid M.F.Axundzadədən, A.Surdan, F.Köçərlidən..., yəni klassik tənqiddən uzaq düşərək bədii materialın təhlilindən daha çox sənət adamının siyasi baxışlarına qiymət verirdi. Beləliklə, ədəbi tənqid də özünün əsas funksiyasını itirərək siyasiləşirdi. H.Zeynallı da istintaq işlərində və dövri mətbuatda ədəbiyyatşünas və tənqidçidən, folklorşünas alimdən və ziyalıdan daha çox əksinqilabçı kimi ittiham olunurdu. Onun 4 fevral 1937-ci ildə verdiyi ifadəsindən də bunu aydın görmək olur: «Bəli, mən əksinqilabi kitablar alırdım, bəli, mən əksinqilabi təşkilatın üzvü idim. Cavad Bağırzadəni, Həbib Səmədzadəni, İmran Babayevi də həmin təşkilata cəlb etmişdim. Bəli, mən əksinqilabi millətçi kadrlar tərbiyə edib yetişdirmişəm. Bəli, mən Türkiyəyə meyl etmək baxımından Azərbaycanın SSRİ-dən ayrılmasına tərəfdar idim» [280].

Fiziki, psixoloji təzyiqlər altında ifadə verən Zeynallı özünün də əksinqilabi təşkilata kim tərəfindən cəlb edildiyini açıqlayır: «1936-cı ilin sonunda Ruhulla Axundovun kabinetində Bakıda və respublikanın rayonlarında gəncləri təşkilata cəlb etmək kimi göstərişlər almış, türk ziyalıları arasında işi genişləndirərək, onları terrora, təxribatçılığa, ziyankarlığa, casusluğa və müharibə vaxtı təslimçiliyə istiqamətləndirmişəm».

1937-ci il fevralın 16-da verdiyi ifadəsində isə deyilənlərə əlavə etmişdir ki, o Türkiyənin mövqeyindən çıxış edərək Azərbaycan SSR-ni SSRİ-dən ayırmaq istəmişdir. Əslində, o illərdə Azərbaycanı SSRİ-dən ayırmaq ideyası, SSRİ-nin Azərbaycanı türklüyündən qoparmaq

[279] DTX-nin arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR - № 26385.
[280] DTX-nin arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR - № 26385.

ideyasından (təqib və təzyiqindən) qaynaqlanırdı. Sovet ideoloji sisteminə qarşı çıxanlar (nə qədər az olsalar da), həqiqətən də, Azərbaycanın mənəvi-siyasi müstəqilliyini tələb edirdi. 1930-cu illərin qətliamlarından sonra Azərbaycanın mənəvi-siyasi müstəqilliyinin tərəfdarları susmaq məcburiyyətində qaldı. Əlbəttə, müstəqillik məsələsində olduqca ehtiyatlı olmaq, repressiya qurbanlarının hamısını bu ideal uğrunda mübarizə aparan günahsız şəhid elan etmək doğru deyil. Burada məsələlərə olduqca ciddi yanaşmaq lazımdır. Ümumiyyətlə, günahsız və ya günahlı müqəssir, qurban anlayışı olduqca mürəkkəb və olduqca incə məsələ olduğundan onlara ehtiyatla yanaşmaq və qiymətləndirmək lazımdır. Belə yanaşmalar zamanı totalitar rejimin zora söykənən repressiya maşını və repressiya mühiti də unudulmamalıdır. Mənəvi-psixoloji, eləcə də fiziki işgəncələr zamanı bir çox ziyalılar NKVD müstəntiqləri tərəfindən onlara atılan, demək olar ki, bütün böhtanları qəbul etmək məcburiyyətində idi. Elə bu təqib və təzyiqlərə dözməyən H.Zeynallı may ayının 5-10-da verdiyi ifadəsində hətta dövlət çevrilişi edəcəyini də etiraf edirdi.

İstintaqın gedişindən aydın olur ki, Hənəfi Zeynallı ədəbiyyatşünas və folklorşünas olmaqdan daha çox püxtələşmiş, professional bir terrorçu imiş. Belə ki, avqustun 26-da verdiyi ifadəsində o, L.P.Beriya və M.C. Bağırovun terror yolu ilə aradan götürülməsi, M.C.Bağırovun MK binasının yanında, MK ilə Xalq Komissarları Şurasının binaları arasında, yaxud da neft rayonlarının birinə qətlə yetirmək istəmələri barədə məlumat verir. Daha doğrusu, müstəntiqlərin işgəncələri altında saxta ifadələr verirdi. Yeri gəlmişkən qeyd edək ki, müstəntiqlər H.Zeynallının elm adamı olduğunu da unutmamışdılar. Ona görə də ara-sıra bu məsələnin də üzərinə qayıdır və onun elm sahəsində də vurduğu «ziyanları» üzə çıxarmağa çalışırdılar.

Müstəntiqlər sentyabrın 20-də «sübut etmişlər» ki, H.Zeynallı Ruhulla Axundovun rəhbərliyi altında elm cəbhəsində də ziyanlı işlər aparmışdır. Belə ki, orta təhsil müəssisələri üçün dil və ədəbiyyat üzrə dərsliklərin müntəzəm buraxılışına mane olmuşdur; Azərbaycan ədəbiyyatı klassiklərindən M.F.Axundovun əsərlərinin və «Molla Nəsrəddin»in nəşrini bilərəkdən saxtalaşdırmışdır; inqilabi folklor tərəfdarlarının əsərlərinin toplanmasını dayandırmış, əvəzinə Koroğlu materiallarını toplamışdır, çünki məhz burada o, təşkilatın Azərbaycanın müstəqilliyi haqqında «ideyasını» əks etdirməli idi; başdan-başa ziyanlı

terminologiya və orfoqrafiya tərtib etmiş və onu ziyalılar arasında yaymışdır» [281].

Əvvəla qeyd edək ki, 1919-cu ildən kommunist partiyasının üzvü olan H.Zeynallı «Koroğlu»nun toplayıcısı və tədqiqatçısı deyildi və onun hər hansı bir folklor nümunəsini toplaması siyasi xarakter daşımırdı.

İkincisi, «Koroğlu» dastanının toplayıcıları və tədqiqatçıları da «Azərbaycanın müstəqilliyi haqqında «ideyanı» əks etdirmə»yi qarşılarına məqsəd qoymamışdılar.

Üçüncüsü, «başdan-başa ziyanlı terminologiya və orfoqrafiya tərtib etmiş» (onun belə bir tərtibat işi olmamışdır – C.Q) anlayışı altında da nəyin nəzərdə tutulması oxucuya aydın olmur. Aydın olan odur ki, belə ittihamlar başdan-başa saxtalaşdırılmış ittihamlardır. Maraqlıdır ki, H.Zeynallının məhbəsdəki bəzi ittihamlardan xəbəri olsa da, çöldəki, dövri mətbuatdakı ittihamlardan və çıxarılan «hökmlərdən» xəbəri yox idi: «Vaxtı ilə Azərbaycan proletar ədəbiyyatına və sonra sovet Yazıçılar İttifaqına qarşı öz alçaq müsavatçı fikirlərini qarşı qoyan Talıblı, Cabbar Əfəndizadə, Zeynallı və Tağı Şahbazi kibi xalq düşmənlərinin ədəbiyyatımızda buraxmış olduqları çirkləri silib təmizləməmişik» [282].

Müstəntiq təhqiqatları ilə yazarların «araşdırmaları» arasındakı oxşarlıqları görmək üçün 1937-ci ilin «Ədəbiyyat qəzeti» və «Gənc işçi» qəzetlərindən götürdüyümüz bəzi nümunələrdən bir neçəsini olduğu kimi oxuculara çatdırmağı məqsədəuyğun hesab edirik: «Xalq düşmənləri – trotskist-müsavatçılar R.Axundov, Əli Nazim, Ə.Cavad, H.Cavid, M.Müşfiq, Hacı Kərim Sanılı, Eminbəyli, Zeynallı, Şahbazi və başqaları öz murdar fikirlərini yürütmək məqsədi ilə yazıçılar arasında ayrı-ayrı şəkillərdə hərəkətlər törətmişlər (intriqa, fitnə və i. a.). Bütün yuxarıda göstərilən xalq düşmənləri və onların çirkin hərəkətləri, ittifaqın rəhbərliyi, idarə heyəti üzvlərinin sayıqlığının kütləşməsi nəticəsində vaxtında ifşa edilməmişlər» [283].

«Xalq düşmənləri (Əli Nazim, Zeynallı, Cavid, Cavad, Müşfiq və başqaları) öz faşist millətçi, müsavatçı fikirləri ilə bir sıra jurnallarımızı, dərs kitablarımızı, nəşriyyat cəbhəmizi zibilləmişlər. Marksist-leninçi ədəbiyyat elminin, həqiqi bolşevik bədii ədəbiyyatının inkişafına çəpər çəkməyə çalışmışlar. Onlar bizim siyasi korluğumuzdan istifadə edərək

[281] DTX-nin arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR - № 26385.
[282] «Ədəbiyyat qəzeti». 1937, 9 iyun, № 25 (110).
[283] «Ədəbiyyat qəzeti». 1937, 9 iyun, № 25 (110).

uzun müddət öz konturrevolyusion əsərlərinə rəvac verməyə müvəffəq olmuşlar» [284].

«Ruhulla Axundov, Mikayıl Hüseynov, Hənəfi Zeynallı, Əli Nazim, Talıblı, Əli Razi kibi konturrevolyusioner millətçilərin kultura, incəsənət və ədəbiyyat sahəsində apardıqları xain ziyançılıqlar, pozğunçuluq və nasionalizm, açıqdan-açığa onların Azərbaycan xalqının düşmənləri olduqlarını isbat etdi. Haman bu konturrevolyusionerlərin Azərbaycan kulturası sahəsində yuva salmaları, bizi daha da artıq sayıqlığa və onlara qarşı amansızlığa vadar edir» [285].

«Bu xalq düşmənləri Azərbaycan pedaqogika institutunda, dövlət universitetində, müəllimlərin ixtisasını artıran qiyabi pedaqogika institutunda uzun zaman cəzasız qalmışlar. Həsənbəyov, Vəli Xuluflu, Buqşpan, Zeynallı, Tixomirov, Çobanzadə, Əli Nazim və başqa əclaflar hər cür ziyançılıq metodları ilə ali məktəblərimizdə yüksək ixtisaslı kadrların və elmi işçilərin hazırlanmasını pozmuşlar. Onlar ikiüzlülüklə maskalanaraq öz antisovet ideyalarını gənclərə aşılamaq ciddi-cəhdində olmuşlar»[286].

Təəccüb doğuran odur ki, H.Zeynallı (və digərləri) barəsində qəzet səhifələrində verilmiş «vətən xaini», «xalq düşməni» hökmləri hüquq mühafizə orqanlarının qərarlarından öncə çıxmışdır. Bir qədər sonra isə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının qərarı oxunacaq və sözdən işə, ittihamdan hökmün icrasına keçidin əsası qoyulacaqdı.

Hələlik hüquq mühafizə orqanlarının hökmlərinə keçməzdən əvvəl Azərbaycan SSR Yazıçılar İttifaqının sənəddə formalizm və naturalizmlə bağlı keçirdiyi iclasındakı bir dialoqla da oxucuları tanış etmək istərdik.

«Şair: Məncə, bir müəllif tənqid edildikdə, konkret surətdə, onun formalizm və naturalizm səhvlərinin nədən ibarət olduğunu və haradan baş verdiyini göstərmək lazımdır. Çox təəssüf olsun ki, çıxışda bulunan yoldaşlar bunu etmədilər.

Bir neçə kəlmə də novatorluq haqqında danışmaq istəyirəm. İndiyə qədər nədənsə bizə belə gəlmişdir ki, novatorluğun nümayəndələri və müsbət nümunələri Rəfili və Rza yoldaşlar olmuşlar. Novatorluq bizdə müəyyən dərəcədə düzgün anlaşılmamışdır. V.Mayakovski Şura poeziyasının böyük şairi olmuşdur. Bu adam bizim əsrimizdə şeir sahəsində novator olaraq yaşayacaqdır. Bunu heç kəs inkar edə bilməz;

[284] «Ədəbiyyat qəzeti». 1937, 9 iyun, № 25 (110).
[285] «Ədəbiyyat qəzeti». 1937, 6 aprel, № 15 (100).
[286] «Gənc işçi» qəzeti. 1937, 3 avqust, № 189 (2725).

lakin demək lazımdır ki, Mayakovski, Azərbaycan ədəbiyyatında özünə layiq olan yeri tuta bilməmişdir. Çox təəssüf ki, bizim «novatorlarımız» Mayakovski poeziyasına bizim şəraitdə bəraət qazandıra bilməmişlər. Bunlar Mayakovskinin əsərlərini eybəcər bir şəkilə salaraq bizim oxucularımıza təqdim etmişlər. Mayakovskinin yaradıcılığı bizdə yaxşı popuyarizə edilməmişdir. Daha doğrusu, Mayakovskinin yaradıcılıq yolu, onun məna və əhəmiyyəti bəzi hallarda təhrif edilmişdir. Əli Nazim və Hənəfi Zeynallı yoldaşların tərtib etdikləri və 1934-cü ildə Azərnəşr tərəfindən buraxılan onuncu illərə məxsus «Ədəbiyyat müntəxəbatı» kitabının bir yerində Mayakovski haqqında belə deyirlər: «Mayakovski əsl proletar şairi ola bilmədi. Onun yaradıcılığında anarxist, fərdiyyətçi ünsürlər qalmaqda idi. Öz üzərində uzun və israrlı bir mübarizədən sonra proletariatın ən yaxın müttəfiqlərindən oldu. Mayakovski ruhi xəstəlik nəticəsində özünü intihar etdi».

Tənqidçi – Onu mən yazmamışam.

Şair – Necə yəni mən yazmamışam? Bu fikirlər 34-cü ildə çıxan «Ədəbiyyat müntəxəbatı» kitabında yürüdülmüşdür. Kitabın müəllifi sən Əli Nazim və Hənəfi Zeynallıdır.

Tənqidçi – Mən deyirəm, onu mən yazmamışam.

Şair – Doğrudur, mən də elə güman edirəm ki, bunu zəhmət çəkib özünüz yazmamışsınız, Mayakovski haqqında yazılmış köhnə kitablardan belə səhv fikirləri alıb öz kitabınıza yapışdırdıqdan sonra çapa vermişsiniz.

Tənqidçi – Kitabın müəyyən hissəsini mən yazmışam, müəyyən hissəsini Hənəfi Zeynallı yazmışdır.

Şair – Mənim nəyimə lazımdır, kitabın üstündə sənin də adın vardır. Siz hər ikiniz bu işə məsulsunuz»[287].

Sənəddə formalizm və naturalizmlə bağlı keçirilən Yazıçılar İttifaqının iclasındakı çıxışlardan götürdüyümüz şairlə tənqidçi arasındakı dialoqda şair əvəzinə müstəntiq və tənqidçi əvəzinə müttəhim yazsaq bizcə, səhv etmiş olmarıq. Çünki bu dialoq qarşılıqlı anlaşmadan daha çox qarşılıqlı ittihamı xatırladır. Repressiya qovluqlarındakı istintaq materiallarında da müstəntiqlə müttəhim arasındakı dindirmə protokolları bu səpkidə aparılır. Əsas fərq ordadır ki, istintaqı aparan müstəntiq nə qədər əzazil və «güclü» görünürsə, onun hüzurunda əyləşən müttəhim və hər vaxt əyləşməsi (həbs olunması) gözlənilən tənqidçi və şair bir o

[287] «Ədəbiyyat qəzeti». 1936, 5 may, № 11 (61).

qədər yazıq və gücsüz görünür. Onları üz-üzə qoyan, yazıq və gücsüz vəziyyətə gətirən isə sistemin və rejimin özü idi.

1937-ci il oktyabrın 5-də Azərbaycan SSR-in xalq daxili işlər komissarı Sumbatov-Topuridze tərəfindən imzalanmış ittihamnamədə oxuyuruq: «1936-cı ilin sonunda Azərbaycan SSR-də əksinqilabi trotskiçi-zinovyevçi təşkilat aşkar edilmiş və tamamilə dağıdılmışdır. Təşkilatın əsas vəzifəsi ziyanvericilik, casusluq, partiya və dövlət rəhbərlərinə qarşı terrordan istifadə etmək, silahlı üsyan hazırlamaq yolu ilə Azərbaycanı SSRİ-dən ayırmaq idi.

H.B.Zeynallı ittiham edilirdi ondan ötrü ki:

1. 1934-cü il dekabrın 1-də Kirovun xaincəsinə öldürülməsini həyata keçirən və sonrakı illərdə (1934-1937) partiya və hökumət rəhbərlərinə qarşı terrorçu aktlar hazırlayan əksinqilabi trotskiçi-zinovyevçi terrorçu təşkilatın üzvü idi.

2. 1925-ci ildən əksinqilabi pantürkist təşkilatın tərkibinə daxil idi, bu təşkilatın üzvü B.Çobanzadə ilə əlaqə saxlamış və həbs olunan günədək partiyaya və sovet hakimiyyətinə qarşı barışmaz mövqedə durmuşdur.

3. 1934-cü ildə əksinqilabi millətçi təşkilatın tərkibinə daxil idi, hansı ki, onun rəhbərlərindən biri olan R.Axundov tərəfindən bu təşkilata cəlb edilmişdir və rəhbərliklə ilə təşkilati əlaqə saxlamışdır.

4. Azərbaycanın ayrı-ayrı rayonlarında əksinqilabi əhval-ruhiyyəli adamları millətçi təşkilata cəlb edərək silahlı üsyanın hazırlanması sahəsində fəal iş aparmış, əhali arasında üsyançılıq meyillərini gücləndirmişdir.

5. Terrorçu mövqeyində dayanmış, ÜK(b)P Zaqafqaziya katibi L.P.Beriya və AK(b)P MK katibi M.C.Bağırova qarşı hazırlanan terrorun işlənib hazırlanmasında və ayrı-ayrı variantların müzakirəsində fəal iştirak etmişdir.

6. SSRİ EA Azərbaycan filialının ədəbiyyat və dilçilik institutunda işləyərkən elm cəbhəsində də ziyanlı fəaliyyət göstərmişdir.

Yəni Azərbaycan SSR CM-nin 64, 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə günahlandırılır»[288].

Bu ittihamnaməni əsas götürən Ali Məhkəmənin Kollegiyası 1937-ci il oktyabrın 11-də keçirdiyi iclasda qərara alır:

1. H.B.Zeynallının işi məhkəməyə verilsin.

[288] DTX-nin arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR - № 26385.

2. İşə bağlı məhkəmə iclasında, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) bağlı məhkəmə iclası oldu. Saat 16.25-də başlayan iclas 15 dəqiqədən sonra başa çatdı və Hənəfi Baba oğlu Zeynallı barəsində ən yüksək cəza – güllələnmə hökmü çıxarıldı. Məhkəmədə son söz deyən H.Zeynallı özünün günahkar olduğunu tamamilə etiraf etdi.

Hənəfi Zeynallının istintaq işindəki arayışdan aydın olur ki, onun güllələnməsi haqqında hökm 1937-ci il oktyabrın 13-də Bakıda icra edilmişdi [289]. H.Zeynallı güllələndikdən 2 gün sonra (15 oktyabr 1937-ci ildə) 1907-ci ildə Bakı şəhərində doğulmuş, ali təhsilli Zeynalova Səyyarə Səttar qızı SSRİ MİK-nın 4 iyul 1934-cü il tarixli qərarına əsasən vətən xaininin həyat yoldaşı kimi həbs olunaraq SSRİ XDİK yanında Xüsusi Müşavirənin 9 dekabr 1937-ci il tarixli qərarına əsasən 8 il müddətinə azadlıqdan məhrum edildi. Cəza müddəti başa çatdıqdan sonra Bakı şəhərində yaşamaq qadağan edildiyindən Zaqatala rayonunda məskunlaşmalı oldu.

Zeynallı Səyyarə Səttar qızı 1952-ci ildə SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinə müraciət edərək məhkumluğunun üzərindən götürülməsini xahiş etsə də rədd cavabı aldı [290]. Yalnız İ.V.Stalinin ölümündən və şəxsiyyətə pərəstiş kultu sındırıldıqdan sonra Azərbaycan SSR Ali Məhkəməsinin 17 fevral 1956-cı il qərarı ilə özünə, 30 mart 1957-ci ildə isə Hənəfi Zeynallıya bəraət verildi.

[289] DTX-nin arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR - № 26385.
[290] DTX-nin arxivi. Zeynallı–Şərifova Səyyarə Səttar qızının istintaq qovluğu, PR- № 16599.

İLYASOV MÜSEYİB İBRAHİM OĞLU, YAXUD GECİKMİŞ HƏBS

"Mən 1889-cu ildə Az.SSR Laçın rayonunun Oğuldərə kəndində orta kəndli ailəsində anadan olmuşam. 1907-ci ilə qədər valideynlərimin himayəsi altında olmuşam, 1900-cü ildən 1912-ci ilə qədər Şuşa və Gəncə şəhərlərində oxumuşam. 1912-ci ildə Tiflis vilayətinin Qori şəhərinin Zaqafqaziya müəllimlər seminariyasını bitirmişəm. 1912-ci ildən 1915-ci ilə qədər Bakı şəhərində ikinci rus-tatar məktəbində müəllim vəzifəsində çalışmışam. 1915-ci ildən 1919-cu ilə qədər qaçqınlara və imperialist müharibəsindən zərər çəkənlərə köməklik göstərən Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşam. 1919-cu ildən həbs olunana qədər müəllim vəzifəsində çalışmışam. 1919-1920 illərdə birinci gimnaziyada, 1920-1923 illərdə Şuşa şəhərində, 1924-1929-cu illərdə Laçında, 1930-1933 illərdə Bakı şəhərində, 1934-cü ildə yenidən Laçında 6 aya yaxın, sonradan Bakı şəhərinə köçərək burada işləmişəm. Atam 1903-cü anam isə 1930-cu ildə vəfat etmişdir. Üç qardaşım- Ağakişi 80-85 yaş, Balakişi 75 yaş, Əli 65 yaş və bacım Avtab İlyasovlar Laçın rayonunun Oğuldərə kəndində yaşayırlar və kolxozda işləyirlər. 4-cü qardaşım Zülfüqar İlyasov keçmişdə molla olmuş, 1937-ci ildə XDİK tərəfindən həbs olunmuşdur...



...Mən rusla ailə qurmuşam, iki qızım var, ikisi də komsomolçudur. Qardaşımın uşaqlarını da mən böyütmüşəm. İlyasov Əhməd həkimdir, partiya üzvüdür. Digəri İlyasov Heydər diş həkimidir, partiyaya üzvlüyünə namizəddir, hazırda Qırmızı Ordudadır"[291].

Bu bioqrafik göstəricilər 21 sentyabr 1941-ci ildə həbs edilən İlyasov Müseyib İbrahim oğlunun Arzumanyana 25 sentyabr və 18 oktyabr 1941-ci ildə verdiyi ifadələrindəndir. Bizcə, bunlar məhbus tərcümeyi-halıdır desək daha doğru olar. İlyasov Müseyib İbrahim oğlu nədə ittiham edilirdi? Nə üçün onu 1937-ci ildə həbs etməmişdilər? Fikrimizcə, bu sualların ən doğru və ən səhih cavabını Mişeev, Qriqoryan və Arzumanyan bilir.

[291] DTX-nın arxivi. İlyasov Müseyib İbrahim oğlunun istintaq qovluğu, PR - № 22319.

Bu şəxslərin araşdırma və təhqiqatlarına əsasən İlyasov Müseyib İbrahim oğlu barəsində həbs qəti imkan tədbiri seçilmişdir. Həmin qərarda göstərilir ki, mən XDİK-in 3-cü şöbəsinin əməliyyat işçisi Mişeev aşkar etdim ki, İlyasov Müseyib 72-ci maddənin 2 hissəsində nəzərə tutulan cinayətdə şübhəlidir. İlyasov Müseyibin azadlıqda olduğunu nəzərə alsaq, istintaq və məhkəmədən qaça bilər. Buna görə də 21 sentyabr 1941-ci ildə qərara alınır ki, İlyasov Müseyib həbsə alınsın. Az.SSR CPM-in 143-cü maddəsinə əsasən qərarın surəti Prokurora göndərilsin, digər bir nüsxə isə şəxsi işinə tikmək məqsədi ilə həbsxana rəisinə verilsin. Beləliklə, 21 sentyabr 1941-ci ildə İlyasov Müseyib İbrahim oğlu həbs edilir.

Müttəhimin anketi:

1.İlyasov Müseyib İbrahim oğlu1889-cu ildə Az.SSR Laçın rayonunun Oğuldərə kəndində anadan olmuşdur

2.Daimi yaşayış yeri Bakı şəh. Lermontov küç. Ev 7

3.Peşəsi: müəllim

4.Axırıncı iş yeri: Çaporidze rayonunda 17 №-li axşam məktəbində müəllim

5.Milliyyəti: azərbaycanlı

6.SSRİ vətəndaşı,

7.Partiyalılığı: bitərəf

8.Orta təhsilli, əvvəl həbs olunmayıb

9.Arvadı İlyasova Ziba - 47 yaş,

10.Qızı Adilə - 21 yaş,

11.Qızı Firuzə - 19 yaş,

12.Qardaşları: İlyasov Ağakişi İbrahim oğlu, İlyasov Balakişi İbrahim oğlu, İlyasov Əli İbrahim oğlu, bacısı: İlyasova Aftab İbrahim qızı.

M.İlyasov 24 sentyabr 1941-ci ildə 705 №-li əmrə əsasən həbs olunub.

***

24 sentyabr 1941-ci il tarixdə 705 №-li orderə əsasən Bakı şəhəri, Lermontovskiy küçəsi, ev 7, mənzil 16-da yaşayan, vətəndaş İlyasov Müseyib İbrahim oğlunun evində axtarış aparılmış və oradan aşağıda göstərilən əşya və sənədlər əldə edilmişdir:

1. Pasport № 506655
2. Doğum haqqında şəhadətnamə № 703
3. Profbilet № 517732

4. İlyasovun əmək kitabçası
5. Şəhadətnamə № 613-542
6. Attestat № 9342
7. Arayış № 350988
8. "Türk-tatar xalqlarının mədəni həyatı" kitabı (1925-ci il)
9. Birinci Türkoloji qurultayın hesabatı – (1926-ci il)

Bundan başqa, həbsxanada İlyasov Müseyib İbrahim oğlunun şəxsi axtarışı (1684 №-li protokol) zamanı ondan aşırma kəmər (1 ədəd), siqaret üçün müştük (1 ədəd) götürülmüşdür.

Lermontov küç., ev 7, mənzil 16 ünvanında yaşayan İlyasov Müseyib İbrahim oğlunun mənzilində olan əmlakın siyahısı

1. güzgülü paltar şkafı - 1 əd.
2. iki nəfərlik yataq dəsti - 1 əd.
3. tək nəfərlik yataq dəsti - 1 əd.
4. yazı masası - 1 əd.
5. mətbəx masası - 1 əd.
6. oturacaqlar - 6 əd.
7. xalça - 1 əd.

1941-ci ilin sentyabr ayının 25-də şübhəli qismində saxlanılan İlyasov Müseyib İbrahim oğlunun ilk dindirməsi başlayır. Dindirməni Az.SSR XDİK-in əməkdaşı leytenat T.Arzumanyan həyata keçirir. Verilmiş sualları cavablandıran M.İlyasov tərcümeyi-halını danışdıqdan sonra Xosrovbəy Sultanovla tanışlığından və münasibətlərindən danışaraq bildirir ki, 1915-ci ildə Xosrovbəy Sultanov Bakı Müsəlman Xeyriyyə Cəmiyətinin başçısı vəzifəsinə təyin olunmuşdu, o vaxt həmin təşkilata işçi axtarırdılar. Mən də həmin təşkilata işə düzəldim və onunla tanış oldum. Mənim Xosrovbəylə əlaqəm 1919-cu ildə kəsildi, ona görə ki, o və qardaşı əhalini incidirdi. Mən bu hərəkətlərə qarşı çıxırdım...

Müstəntiq 27 sentyabr 1941-ci il dindirmələri zamanı yenidən Xosrovbəy Sultanovla münasibətlərə qayıdır və M.İlyasovdan soruşur:

Sual: Siz əvvəl qeyd etmişdiniz ki, Xosrovbəy Sultanovla münasibətləriniz gərgin idi və siz onun hərəkətlərinə qarşı çıxırdınız, bunu nə ilə təsdiq edə bilərsiniz?

Cavab: 1919-cu ilin yayında Xosrovbəy Sultanov məni Şuşa şəhərində kabinetə çağıranda mən onun hərəkətlərinə qarşı çıxdığım üçün məni həbs və güllələməklə hədələdi. Həmin gün evə qayıdıb baş verən hadisəni yoldaşım İlyasova Ziba xanıma danışdım və biz qərar gəldik ki, repressiyadan qurtarmaq üçün Şuşadan qaçaq, beləliklə, biz dərhal Bakıya köçdük. Bundan sonra Xosrov bəy məndən intiqam ala

bilmədi. Lakin intiqamı mənim Laçın rayonunun Oğuldərə kəndində yaşayan qardaşlarımdan alırdı. Onların mal-qarasını qaçırtdırırdı. Bunu Borçu kəndinin sakinləri və Oğuldərə kəndinin qocaları Kazım Mehdi oğlu, Beybud Kazım oğlu və s. təsdiq edə bilərlər. Bunu mənim yoldaşımdan da, Zaqatala və Lolobağırlı kəndlərinin sakinlərindən də soruşa bilərsiniz.

Sual: Xosrovbəyin yanında əməkdaş olaraq nə qədər işləmisiniz?

Cavab: 1915-ci ildən 1919-cu ilə qədər. Şuşadan qaçdıqdan sonra da qayıtmamışam.

Sual: Kim və nə vaxt sizi işə qəbul etdi?

Cavab: Məni 1915-ci ilin mart ayında Xosrovbəy işə qəbul etdi.

Sual: Siz siyasi musavat immiqrantı kimi tanınan Xosrovbəylə əlaqədə olduğunuz üçün həbs olunmusunuz, təklif edirik Xosrovbəylə əlaqələriniz haqqında düzgün məlumat verəsiniz.

Cavab: Bütün məsuliyyəti öz üzərimə götürərək deyə bilərəm ki, 1919-cu ilin yayından həbs gününə qədər mən Xosrovbəy Sultanovla nə dostluq, nə də ki işlə bağlı əlaqəm olmayıb. Haradadır, nə ilə məşğuldur bilmirəm.

Sual: Sizin verdiyiniz məlumatlar doğru deyil. Əgər sizin münasibətlər gərgin olsaydı, Xosrovbəy Sultanov general qubernator kimi heç bir mane olmadan sizi həbs edə bilərdi. Siz yalan deyirsiniz. Təklif edirik Xosrovbəylə münasibətləriniz haqqında doğru məlumat verəsiniz, biz bilirik ki, siz dost olmusunuz[292].

M.İlyasovun nə deməsindən asılı olmayaraq onun cavabları müstəntiqi qane etmir və onu istintaqı aldatmaqda ittiham edirdi. Arzumanyanın dəfələrlə Xosurovbəy Sultanov mövzusuna qayıtmasına baxmayaraq aldığı cavablar eyni olmuşdur: "Mənim 1919-cu ildən bu günə kimi onunla heç bir əlaqəm yoxdur".

Belə olan surətdə Arzumanyan başqa məsələləri gündəmə gətirməli və M.İlyasovun cinayətkar olduğunu sübut etməli idi.

Dəfələrlə dindirilən İlyasov Müseyib İbrahim oğlu bütün fiziki, psixoloji işgəncələrə baxmayaraq özünü günahkar hesab etməmişdi.

***

26 sentyabr 1941-ci il dindirməsində müstəntiq yenidən İlyasov Müseyib İbrahim oğlunun tərcümeyi-halına qayıdaraq onun sənədlərindəki uyğunsuzluğa aydınlıq gətirmək istəyir. T.Arzumanyan

[292] DTX-nın arxivi. İlyasov Müseyib İbrahim oğlunun istintaq qovluğu, PR - № 22319.

bildirir ki, siz 1893-cü ildə anadan olmusunuz, lakin pasportda 1889-cu il yazılıb. Bu uyğunsuzluğa aydınlıq gətirin. M.İlyasov bildirir ki, atam mənim doğum haqqında şəhadətnaməmi 1904-cü ildə almışdır. 1941-ci ilin avqust ayında bizi rayonun hərbi komissarlığına çağırdılar. Varaşilov rayonunun hərbi komissarı məni tibbi komissiyaya göndərdi, tibbi komissiya tərəfindən mənim yaşım 1893-cü il yox, 1889-cu il müəyyənləşdirilmişdir. Bunun əsasında məni Varaşilov hərbi komissarlığında qeydiyyatdan çıxartdılar və sənədlərimi orada saxladılar. Bundan sonra Bakı şəhərinin 2-ci polis şöbəsində pasportda düzəlişlər aparıldı.

Müstəntiq yaşla bağlı dəyişikliyi "fırıldaqçılıq" adlandırır və İlyasov Müseyibdən istintaqa düzgün məlumat verməyi tələb edir. İlyasov Müseyib isə deyir ki, mənim bütün cavablarım həqiqətə uyğundur, doğum ilimin dəyişilməsində heç bir mənfəət güdmürdüm. Dediyim kimi, dəyişiklik rayon hərbi komissarlığının iki həkiminin məsləhətinin nəticəsində baş tutmuşdur.

***

7 oktyabr 1941-ci il dindirməsi zamanı müstəntiqin "özünüzü günahkar hesab edirsinizmi" – sualına İlyasov Müseyib İbrahim oğlu belə cavab verir: Mənə təqdim olunan ittihamlarla razı deyiləm, günahkar deyiləm, sovet hökuməti zamanı mən 21 il işləmişəm, işlədiyim müddət ərzində heç bir siyasi səhvlər etməmişəm və heç vaxt antisovet fəaliyyəti ilə məşğul olmamışam. Xosrovbəy Sultanovla isə, mən yenə təkrar edirəm, əlaqəm 1919-cu ilə qədər olub.

24 oktyabr 1941-ci ildə İlyasov Müseyib İbrahim oğluna istintaqın bitməsi barədə məlumat verilir.

***

Onunla bağlı tərtib olunan ittiham aktında da göstərilirdi ki, İlyasov Müseyib İbrahim oğlu öz tanışları arasında antisovet təbliğatı apardığına görə 24 sentyabr 1941-ci ildə həbs olunub.

O, ittihamlarla razı olmasa da, lakin onun apardığı antisovet fəaliyyəti əldə edilmiş materiallarla ifşa olunur.

M.İlyasov öz yaxınları və tanışları ilə söhbətlərində demişdir:

a) "əvvəlki dövrdə kasıblar yox idi, indi hamı kasıbdı, əvvəl istismar yox idi, indi hamı istismar olunur."

b) "Bolşeviklər ölkəni idarə edə bilmirlər, nəticədə hamını acından öldürürlər".

c) "heç bir demokratik konstitusiya bizdə yoxdur, seçkilər nəzərdə tutulduğu kimi keçirilir".

d) “Almaniya çox güclüdür, o həmişə digər ölkələri məhv edib, onun hərbi gücünə şübhə etmək olmaz”.

Bunları əsas gətirən dövlət təhlükəsizliyi serjantı Kirilin, Dövlət Təhlükəsizliyi leytenantı Akopov və dövlət təhlükəsizliyi kapitanı Qriqoryan hesab edir ki, İlyasov Müseyib İbrahim oğlunun cinayət işinə XDİK-in xüsusi iclasında baxılsın.

14 fevral 1942-ci ildə SSRİ XDİK-in xüsusi müşavirəsində cinayət işinə baxılır və qərara alınır ki, İlyasov Müseyib İbrahim oğlu **8 il müddətinə** azadlıqdan məhrum edilsin və islah əmək düşərgəsinə göndərilsin.

18 iyul 1956-cı ildə Azərbaycan SSR prokuroru əvəzinə Baş Ədliyyə müşaviri İ.İ.İsmayılov Azərbaycan SSR Ali Məhkəməsinin Məhkəmə Kollegiyasına müraciət edərək bildirirdi ki, 14 fevral 1942-ci il Az.SSR XDİK-in xüsusi müşavirəsinin qərarına əsasən İlyasov Müseyib İbrahim oğlu 8 il müddətinə islah əmək düşərgəsinə göndərilmişdir.

M.İlyasov antisovet təbliğatı aparmaqda təqsirləndirilmişdir. Məhkum özünü günahkar hesab etməmiş, işdə heç bir şahid ifadəsi və cinayəti təsdiq edən hüquqi sənəd yoxdur. Xahiş edirəm sübutun olmadığını nəzərə alaraq İlyasov Müseyib İbrahim oğluna qarşı aparılan cinayət işi dayandırılsın və ləğv edilsin.

Bütün bunlar nəzərə alındı və 4 avqust 1956-ci il tarixdə Azərbaycan SSR Ali Məhkəməsinin Məhkəmə Kollegiyası işə yenidən baxaraq İlyasov Müseyib İbrahim oğluna bəraət verdi.

MƏMMƏDOV CABBAR ABBAS OĞLU

Azərbaycanın repressiyaya məruz qalan ziyalılarından biri də Məmmədəv Cabbar Abbas oğlu idi. Azərbaycanın dilçi alimlərindən olan C.Məmmədov barəsində Azərbaycan NKVD 4-cü bölməsinin rəisi kapitan Sinman tərəfindən aşağıdakı məzmunda qərar qəbul edildi. Arayışda göstərilirdi ki, 1882-ci il təvəllüdlü, azərbaycanlı, Azərbaycan SSR vətəndaşı, müəllim işləyən Məmmədov Cabbar Abbas oğlu həbs olunan B.Çobanzadə, S.Vəzirov, X.S.Xocayev, B.Tixomirov və Ə.Qubaydullinin ifadələrinə görə, millətçi, əksinqilabi təşkilatın fəal üzvüdür. Bunu əsas tutaraq Məmmədov Cabbar Abbas oğlunu Azərbaycan SSR Cinayət Məcəlləsinin (CM) 72, 73-cü maddələrinə əsasən cinayət məsuliyyətinə cəlb etmək və bu barədə NKVD-nin işlərinə nəzarət edən prokurora məlumat vermək qərarına gəldim.

İşi aparan NKVD 1-ci bölməsinin rəisi S.Zıkov qərar qəbul edir ki, C.Məmmədovun əməllərində cinayət tərkibi olduğuna görə o, həbs edilsin və NKVD-nin təcridxanasında saxlanılsın.

NKVD 1-ci bölməsinin rəisi S.Zıkovun qəbul etdiyi qərar adi qərar deyildi. Bu əsas verirdi ki, C.Məmmədov dərhal həbs olunsun. Belə də oldu. 10 oktyabr 1937-ci ildə Azərbaycan NKVD-nin 1666 nömrəli orderinə əsasən C.Məmmədov həbs edildi və ona məxsus olan Malıqin küçəsi, mənzil 7-də axtarış aparıldı. Axtarış zamanı onun evindən götürülən əşyaların siyahısında ancaq aşağıdakılar göstərilmişdi.

1. Pasport (Məmmədov Cabbar Abbas oğluna məxsus) – 1 ədəd
2. Bank kitabçası № 47321 – 9950 rubl məbləğində pul – 1 ədəd
3. Müxtəlif şəkillər – 9 ədəd
4. Müxtəlif yazışmalar – 1 bağlama
5. Şəxsi qeyd kitabçası – 1 ədəd
6. Müsadirə olunmalı ədəbiyyat – 1 torba
7. Pensiya kitabçası № 311 – 1 ədəd

13 noyabr 1937-ci ildə 12493 nömrəli cinayət işini araşdıran NKVD müstəntiqi NKVD 1-ci bölməsinin rəisi S.Zıkov qərara alır ki, Məmmədov Cabbar Abbas oğlu əksinqilabi pantürkist təşkilatın üzvü olmuş, Sovet hakimiyyətinə qarşı silahlı müqavimətin sıralarında durmuş, həmçinin xarici kəşfiyyatla sıx əlaqədə olmuşdur. Bunları əsas gətirən S.Zıkov 4-cü bölmənin rəisi kapitan Sinmanla razılaşdırdığı qərarında yazırdı: “Məmmədov Cabbar Abbas oğlunun cinayət işində

qeyd olunanlardan əlavə AZ.SSR CM-nin 21/64, 21/70, 68-ci maddələri ilə ittiham olunması barədə qərar qəbul etdim"[293].

C. Məmmədovun kimliyi barədə məhbusun anketində oxuyuruq: Məmmədov Cabbar Abbas oğlu 1882-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Bakı şəhəri Malıqin küçəsi, mənzil 7-də yaşayır. İxtisca müəllimdir. Xalq Təsərrüfatı İnstitutunda dillər kafedrasının müdiri vəzifəsində işləyir. Sosial mənşəyinə görə qulluqçudur. İnqilaba qədər və inqilabdan sonra müəllim kimi işləyib. Ali təhsillidir. Partiyasızdır. Azərbaycanlıdır.

C. Məmmədov həbs olunana qədər onunla birlikdə yaşamışdır:

1. Arvadı Nəcibə - 40 yaş
2. Oğlu Kamal – 24 yaş
3. Oğlu Camal – 18 yaş
4. Qızı Fəridə - 25 yaş
5. Qızı Naibə - 23 yaş

Müttəhim Məmmədov Cabbar Abbas oğlu 28 oktyabr 1937-ci il dindirməsi zamanı müstəntiqin suallarını belə cavablandırırdı:

Sual: Əksinqilabi pantürkist təşkilatın məqsəd və vəzifələri barədə sizə nə məlumdur?

Cavab: B.Çobanzadənin sözlərindən mənə məlumdur ki, əksinqilabçı pantürkist təşkilatın fəaliyyəti bütün Sovet ərazisinə yayılıb və Azərbaycan, Krım, Tatar, Mərkəzi Asiya ərazilərində yaşayan türk-tatar xalqlarını birləşdirərək SSRİ ərazisində vahid pantürkist dövlət yaratmağı qarşısına məqsəd qoymuşdur.

Sual: Əksinqilabçı pantürkist təşkilat öz məqsədinə necə nail olmağı planlaşdırırdı?

Cavab: Bu, Sovetlər birliyi ilə kapitalist dövlətləri arasında baş tutacaq müharibə zamanı Sovet hökumətinə qarşı silahlı üsyan yolu ilə həyata keçirilməli idi.

Bundan başqa, aşağıdakılar da mübarizə vasitəsi sayılırdı:

- təsərrüfat və ideoloji cəbhədə ziyankarlıq;
- Sovet hakimiyyəti orqanlarının rəhbər vəzifəli şəxslərinə qarşı terrorun tətbiqi...
- ...Sovet hökumətinə qarşı silahlı üsyan;

[293] DTX-nın arxivi. Məmmədov Cabbar Abbas oğlunun istintaq qovluğu, PR - № 27098.

Müttəhim Məmmədov Cabbar Abbas oğlu göstərirdi ki, "mən vahid pantürkist dövlətin yaradılması üçün bu işlərin görülməsini vacib hesab edirdim".

Göründüyü kimi, o, dilçi alimdən daha çox terrorçu və əksinqilabçı kimi danışırdı. Daha doğrusu, fiziki və mənəvi işgəncələr yolu ilə danışdırılırdı. İşgəncələr yolu ilə hər şeyə nail olan müstəntiqləri bu təşkilatın rəhbərləri daha çox düşündürürdü və ona görə də bolşevik çekistlər bilmək istəyirdilər ki, bu pantürkist təşkilatlara kimlər rəhbərlik edir? Aldıqları cavab belə olmuşdu: B.Çobanzadənin sözlərindən mənə aşağıdakılar məlumdur:

1. Tağızadə Abdulla
2. Eminbəyli Neqari
3. Zeynallı Hənəfi
4. Ələkbərli Niyazi
5. Müşfiq Mikayıl
6. Hüseyn Cavid
7. Əhməd Cavad
8. Musaxanlı
9. Xocayev Xalid Seyid
10. Biləndərli Hüseyn
11. Qasımbəyli Qulam

Sual: Əksinqilabçı pantürkist təşkilat tərəfindən sizin qarşınızda hansı konkret tapşırıqlar qoyulmuşdu?

Cavab: Əksinqilabçı pantürkist təşkilatın rəhbəri olan Çobanzadə mənim qarşımda aşağıdakı tapşırıqları qoymuşdu:

- əksinqilabçı pantürkist təşkilata yeni üzvlərin cəlb olunması;
- ideoloji cəbhədə ziyankarlığın təşkili.

Sual: Siz bu məsələlərlə bağlı nə kimi işlər gördünüz?

Cavab: Mən institutda mühazirələr oxuyarkən türk-tatar xalqlarının tarixini öyrətmək bəhanəsilə pantürkist təbliğat aparır, türk xalqları üçün vahid dilin nə qədər vacib olduğunu qeyd edir və Bakı şəhərində nəşr olunan məktəblər üçün nəzərdə tutulan dərsliklərimdə pantürkist təbliğatı aparırdım. Bu fəaliyyət zamanı mənim tərəfimdən təşkilata:

1. Biləndərli Hüseyn – 1930-cu ildə mənim mənzilimdə
2. Qasımbəyli Qulam – 1937-ci ildə mənim və onun mənzilində cəlb olunublar

Sual: Sizin praktiki fəaliyyətiniz yalnız bundan ibarət olub?

Cavab: Bəli.

Sual: Bu düzgün deyil. Siz istintaqdan özünüzün ali təhsil müəssisələrinin müəllim və tələbələri arasında apardığınız əsas əksinqilabçı fəaliyyətinizi gizlədirsiniz. Siz həbs olunana qədər xarici kəşfiyyatla əlaqəli olub AK(b)P MK-nin katibi M.C.Bağırova qarşı sui-qəsd hazırlanmasında iştirak etmisiniz. Həmçinin Azərbaycan neft kombinatı sistemində xalq təsərrüfatı sahəsində ziyankarlıq etmisiniz. Bu barədə ətraflı fikirləşin və bu məsələlərin mahiyyəti barədə danışın[294].

***

Müttəhim Məmmədov Cabbar Abbas oğlunu 10 noyabr 1937-ci il dindirməsi zamanı 1919-20-ci illərdə Xəlil Paşa vasitəsilə Türkiyə hərbi kəşfiyyatı ilə əlaqədə ittiham edirlər. Bununla yanaşı, bolşevik çekistlər onun Möhsüm Xanla, daha doğrusu, Möhsüm Xanın simasında İranla əlaqəsini öyrənməyə çalışırlar. Bu məsələ ilə bağlı olaraq C.Məmmədov bildirirdi ki, 1920-ci ildə mən Bakıya gəldikdən sonra İran konsulunun köməkçisi olan köhnə dostum – Möhsüm Xanla əlaqə yaratdım. O, İrana qayıdana (1931-ci ilə) qədər bu əlaqəni davam etdirdim... Bu görüşlər zamanı mən Xana Azərbaycan intelligentlərinin siyasi fikirləri, onların Sovet hakimiyyətindən narazı olması və hakimiyyəti dəyişmək istəyi barədə danışırdım. Xan isə öz növbəsində mənə xaricdəki azərbaycanlıların fəaliyyəti, SSRİ ilə kapitalist dövlətləri arasında gözlənilən müharibədən danışırdı. Mən Xana onun maraqlandığı şəxslərlə bağlı ətraflı məlumatlar verir, xüsusilə də Bəkir Çobanzadənin, Şahsuvarov Nurməmmədin və Şahtaxtlı Həmidbəyin siyasi fəaliyyəti ilə bağlı danışırdım.

Sual: Möhsüm Xan tərəfindən sizə verilən informasiyalar siyasi xarakter daşıyırdı?

Cavab: Bəli.

Sual: Siz İran konsulu ilə Bakıdakı əlaqənizi necə qiymətləndirirsiniz?

Cavab: Mən etiraf edirəm ki, mənim hərəkətim Sovet hökumətinə qarşı xəyanətkarlıq idi.

Sual: Sizi bu yola nə vadar etdi?

Cavab: Bu dövrdə mən artıq əksinqilabçı təşkilatın üzvü idim və Sovet hökumətinə qarşı mübarizə aparırdım.

Sual: 1930-37-ci illərdə sizin praktiki əksinqilabi fəaliyyətiniz nədən ibarət olub?

[294] DTX-nın arxivi. Məmmədov Cabbar Abbas oğlunun istintaq qovluğu, PR - № 27098.

Cavab: Mən dəfələrlə yerli əksinqilabçılarla görüşüb pantürkist söhbətlər aparmışam: 1. Sanılı 2. Vəzirov; 3. Şahsuvarov; 4. Şahtaxtinski; 5. Qasımbəyli. Adı çəkilən şəxslərin hamısı antisovet keçmişə malik idilər və əksinqilabçı təşkilatın üzvü idilər.

Sual: Bu şəxslər əksinqilabçı təşkilata sizin tərəfinizdən cəlb olunmuşdular?

Cavab: Xeyr. Əksinqilabçı pantürkist təşkilatın mövcudluğu barədə mən onlara danışmamışdım. Lakin onlarla söhbətlər zamanı mən gənclər arasında Sovet hakimiyyəti ilə mübarizə aparmaq məqsədilə pantürkist təbliğatın aparılmasının vacibliyini qeyd edirdim və onlar mənimlə tam razı idilər.

Məmmədov Cabbar Abbas oğlu müstəntiqin AK(b)P MK-nin katibi Bağırova qarşı sui-qəsdin hazırlanması və bu barədə onun müəyyən bilgiyə malik olub-olmaması sualına cavab olaraq bildirirdi ki, mən, AK(b)P MK-nin katibi Bağırova qarşı sui-qəsd hazırlanması barədə bilirdim və bu fikirlə tam razı idim[295].

***

Müttəhim Məmmədov Cabbar Abbas oğlunun 11 noyabr 1937-ci il dindirməsi zamanı ona bildirilir ki, o, indiyə qədər verdiyi ifadələri ümumiləşdirsin. C.Məmmədov ifadələrini belə ümumiləşdirirdi: "Mən etiraf edirəm ki:

1. Əksinqilabçı pantürkist təşkilatın üzvü kimi 1936-cı ildə B.Çobanzadə tərəfindən cəlb olunmuşam.
2. Əksinqilabçı pantürkist təşkilatın aşağıdakı məsələlərlə bağlı ideyaları ilə tam razılaşmışam:
   - Sovet hakimiyyətinə qarşı silahlı qiyam;
   - təsərrüfat və ideoloji cəbhədə ziyankarlığın təşkili;
   - Sovet hakimiyyəti orqanlarının rəhbər vəzifəli şəxslərinə qarşı terrorun tətbiqi
3. 1926-1937-ci illərdə Bakı şəhərinin ali təhsil müəssisələrində mühazirələrimdə pantürkist təbliğat aparmışam.
4. 1927-30-cu illərdə Bakı şəhərinin ali təhsil müəssisələrinin 2 müəllimini əksinqilabçı pantürkist təşkilata cəlb etmişəm.
5. 1919-20-ci illərdə Naxçıvanda hərbi türk casusu Xəlil Paşa ilə əlaqəm olub və ona ölkədəki siyasi vəziyyət, siyasi qruplaşmalar, eləcə də onu maraqlandıran digər məsələlər barədə informasiya vermişəm.

[295] DTX-nın arxivi. Məmmədov Cabbar Abbas oğlunun istintaq qovluğu, PR - № 27098.

6. 1920-1931-ci illərdə Bakı şəhərində İran konsulunun köməkçisi Möhsum Xanla əlaqədə olmuşam və ona azərbaycanlı intelligentlərin siyasi əhvalı, Sovet hakimiyyətinə qarşı mübarizənin hazırlanması barədə məlumatlar vermişəm. Həmçinin Möhsum Xandan sovet dövlətinin beynəlxalq vəziyyəti barədə informasiya almışam.

7. 1932-35-ci illərdə NKVD-nin gizli casusu olmuşam və bunu əksinqilabçı pantürkist təşkilatdan gizlətmişəm, çünki təşkilata xəyanət etmişəm" [296].

10 noyabr 1937-ci ildə B.Çobanzadə və Məmmədov Cabbar Abbas oğlu arasında keçirilmiş üzləşdirmənin protokolu:

Bəkir Çobanzadənin ifadələri	Məmmədov Cabbar Abbas oğlunun ifadələri
Sual: Sizinlə üzbəüz oturan vətəndaşı tanıyırsınızmı və onunla düşmənçiliyiniz varmı?	**Sual:** Sizinlə üzbəüz oturan vətəndaşı tanıyırısınızmı və onunla düşmənçiliyiniz varmısınızmı?
Cavab: Mən qarşımda əyləşən Məmmədov Cabbar Abbas oğlunu 1925-ci ildən etibarən tanıyıram və onunla heç bir düşmənçiliyim yoxdur.	**Cavab:** Mən qarşımda əyləşən Çobanzadə Bəkiri təxminən 1925-ci ildən tanıyıram və onunla heç bir düşmənçiliyim yoxdur.
Sual: Məmmədov Cabbar Abbas oğlu nə zaman əksinqilabçı pantürkist təşkilata üzvdür və oraya kim tərəfindən cəlb olunub?	**Sual:** Əksinqilabçı pantürkist təşkilata üzv olmağınız barədə Çobanzadənin ifadələrini təsdiq edirsinizmi?
Cavab: Məmmədov Cabbar Abbas oğlu əksinqilabçı pantürkist təşkilata mənim tərəfimdən 6 oktyabr 1926-cı ildə onun Malıqin küçəsi, 7 nömrəli mənzilində cəlb edilib.	**Cavab:** Bəli, Çobanzadə Bəkirin məni 1926-cı ildə Malıqin küçəsində yerləşən mənzilimdə əksinqilabçı pantürkist təşkilata cəlb etməsi barədə ifadələrini tamamilə təsdiq edirəm.
Sual: Məmmədov Cabbar Abbas oğlunun nə zamandan əksinqilabçı pantürkist təşkilatda praktiki fəaliyyəti nədən ibarət idi?	**Sual:** Çobanzadə Bəkirin Sizin əksinqilabçı fəaliyyətiniz barədə verdiyi ifadələri təsdiq edirsinizmi?

[296] DTX-nın arxivi. Məmmədov Cabbar Abbas oğlunun istintaq qovluğu, PR - № 27098.

Cavab: Məmmədov Cabbar Abbas oğlu əksinqilabçı pantürkist təşkilatın tapşırığına əsasən aşağıdakı fəaliyyəti həyata keçirirdi: - ədəbiyyatda, eləcə də tələbələr və intelligentlər arasında pantürkist təbliğat aparırdı; - milli intelligentlər arasından, eləcə də ali təhsil müəssisələrinin müəllim və tələbə kontingentindən əksinqilabçı pantürkist təşkilata yeni üzvlər cəlb edirdi; - müsavatçılar və ittihadçılarla əlaqə yaratmaqda mənə öz mənzilində şərait yaradırdı. Mənim vasitəmlə krım tatarları ilə əlaqə yaratmış və mənim mənzilimdə onlardan bəziləri ilə görüşmüşdür.	**Cavab:** Bəli, tamamilə təsdiq edirəm ki: - mən əhatəmdə olan şəxslər, eləcə də mənə tanış olan azərbaycanlı intelligentlər arasında pantürkist təbliğatı aparmışam; - ali təhsil müəssisələrinin müəllim və tələbə kontingentindən əksinqilabçı pantürkist təşkilata yeni üzvlər cəlb etmişəm; - Bəkir Çobanzadəyə mənim mənzilimdə müsavatçılar və ittihadçılarla əlaqə yaratmaqda köməklik etmişəm, həmçinin özüm də müsavatçılar, ittihadçılar və krım tatarları ilə əksinqilabi əlaqədə olmuşam.
Sual: Məmmədov Cabbar Abbas oğlunun xarici kəşfiyyatla əlaqəsi barədə Sizə nə məlumdur?	**Sual:** Çobanzadə Bəkirin Sizin ingilis və türk kəşfiyyatı ilə əlaqədə olduğunuz barədə ifadələrini təsdiq edirsinizmi?
Cavab: Məmmədov Cabbar Abbas oğlunun sözlərindən mənə məlumdur ki, o, ingilis və türk kəşfiyyatı ilə əlaqədə olub. Halhazırda onlarla əlaqəsi olub-olmadığı mənə məlum deyil.	**Cavab:** İngilis və türk kəşfiyyatı ilə mənim əlaqəm olmayıb. 1919-20-ci illərdə Naxçıvan şəhərində ictimai-siyasi fəaliyyətlə məşğul olduğum dövrlərdə Naxçıvan əhalisinin maraqları naminə ingilis komandanlığının yüksək rütbəli zabitləri ilə görüşməli olurdum. Öz ifadələrimi dəqiqləşdirmək üçün demək istəyirəm ki, 1919-20-ci illərdə mən həqiqətən türk kəşfiyyatı ilə əlaqədə olmuşam. Xəlil Paşanın simasında türk hərbi kəşfiyyatı ilə olan əlaqəmi qəbul edirəm. Xəlil Paşanı Naxçıvan ərazisindəki siyasi

	vəziyyət, siyasi qruplaşmalar və onu maraqlandıran digər məsələlər barəsində məlumatlandırmışam. Xəlil Paşa Naxçıvan ərazisindən çıxdıqdan sonra onunla əlaqəm olmayıb.

10 noyabr 1937-ci ildə Ə.S.Qubaydullin və Məmmədov Cabbar Abbas oğlu arasında keçirilmiş üzləşdirmənin protokolu:

Qubaydullin Əziz Salahoviçin ifadəsi	Məmmədov Cabbar Abbas oğlunun ifadəsi
Sual: Sizinlə üzbəüz oturan vətəndaşı tanıyırsınızmı və onunla düşmənçiliyiniz varmı?	**Sual:** Sizinlə üzbəüz oturan vətəndaşı tanıyırsınızmı və onunla düşmənçiliyiniz varmı?
Cavab: Mən qarşımda əyləşən Məmmədov Cabbar Abbas oğlunu 1925-ci ildən etibarən tanıyıram və 1927-ci ildən onunla şəxsən tanışam. Onunla aramızda heç bir düşmənçilik olmayıb.	**Cavab:** Mən qarşımda əyləşən Q.S.Qubaydullini 1925-ci ildən etibarən tanıyıram və 1927-ci ildən onunla şəxsən tanışam. Onunla aramızda heç bir düşmənçilik olmayıb.
Sual: Məmmədov Cabbar Abbas oğlu nə zamandan əksinqilabçı pantürkist təşkilata üzvdür və oraya kim tərəfindən cəlb olunub?	**Sual:** Siz Qubaydullin Q.S. Sizin əksinqilabçı pantürkist təşkilata cəlb olunmağınız barədə veridiyi ifadəni təsdiq edirsinizmi?
Cavab: Çobanzadə Bəkirin sözlərindən 1927-ci ildə mənə məlum olub ki, Məmmədov Cabbar Abbas oğlu təxminən 1925-26-cı illərdə şəxsən B.Çobanzadə tərəfindən əksinqilabçı pantürkist təşkilata cəlb edilib.	**Cavab:** Bəli, təsdiq edirəm ki, əksinqilabçı pantürkist təşkilata 1925-ci ildə Bəkir Çobanzadə tərəfindən cəlb edilmişəm.
Sual: Məmmədov Cabbar Abbas oğlunun əksinqilabçı pantürkist təşkilatın xətti ilə praktiki əksinqilabi işi barədə sizə nə məlumdur?	**Sual:** Qubaydullin Q.S.-nin Sizin əksinqilabçı pantürkist təşkilatın xətti ilə praktiki əksinqilabi işiniz barədə ifadəsini təsdiq edirsinizmi?
Cavab: Bəkir Çobanzadənin sözlərindən mənə məlumdur ki,	**Cavab:** Bəli, təsdiq edirəm ki, əksinqilabçı pantürkist təşkilatın

Məmmədov Cabbar Abbas oğlu onun tapşırığı ilə əhatəsində olan şəxslər, əsasən də azərbaycanlı intelligentlər arasında pantürkist təbliğatı aparmış, Bakı şəhərinin müxtəlif ali təhsil müəssisələrinin müəllim və tələbə kontingentindən əksinqilabçı pantürkist təşkilata yeni üzvlər cəlb etmişdir.	tapşırığı ilə azərbaycanlı intelligentlər arasında pantürkist təbliğatı aparmış və Bakı şəhərinin müxtəlif ali təhsil müəssisələrinin müəllim və tələbə kontingentindən əksinqilabçı pantürkist təşkilata yeni üzvlər cəlb etmişəm.

Adətən üzləşmələr və ya üzləşdirmələr zamanı müstəntiqlər həqiqəti üzə çıxarmağa, aydın olmayan mətləblərə aydınlıq gətirməyə, müttəhimin boynuna almadığı cinayətləri boynuna qoymağa çalışır və yaxud da belə hallarda üzləşdirmədən bir vasitə və ya metod kimi istifadə edirlər. Fikrimizcə, təpədən-dırnağa qədər saxtalaşdırılan və fiziki-mənəvi işgəncələrdən sonra hər şeyi müstəntiqin dediyi kimi edən və ya müstəntiqin yazdıqlarını qeydsiz-şərtsiz imzası ilə təsdiqləyən bir məhbusa bunu tətbiq etmək artıq idi. Görünür, bunu etməyə bəzi müstəntiqlərin özü də məcbur idi. Bu, həm totalitar rejimin, həm də azərbaycanlılara qarşı soyqırım siyasəti yürüdən ermənilərin öz cinayətlərini ört-bastır etməyə xidmət edirdi.

Nəhayət, bütün bunlardan sonra, 15 noyabr 1937-ci ildə 12493 nömrəli cinayət işinə əsasən Məmmədov Cabbar Abbas oğlunun AZ.SSR CM-nin 73, 64, 70 və 631-ci maddələrində ittiham olunması barədə ittihamnamə aktı tərtib edildi. Aktda göstərilirdi ki, 1882-ci il təvəllüdlü, azərbaycanlı, SSRİ vətəndaşı, partiyasız, 1919-cu ildə Naxçıvan vilayətində müsavatın işçisi, 1920-ci ildə Az.FK tərəfindən həbs olunub, sonuncu həbsdən əvvəl Bakı şəhərində ali təhsil müəssisəsində dosent işləmiş Məmmədov Cabbar Abbas oğlu aşağıdakılarda ittiham olunur:

1. Milli dövlətlərin SSRİ-dən silahlı yolla ayrılmasını və vahid türk-tatar dövlətinin yaradılmasını planlaşdıran ümumrusiya əksinqilabçı pantürkist təşkilatın üzvü olmaqda.

2. Əksinqilabçı pantürkist təşkilata yeni üzvlərin cəlb edilməsi işini həyata keçirməkdə.

3. ÜK(b)P-nın və Sovet hökumətinin rəhbərlərinə qarşı terrorun tətbiq edilməsi barədə əksinqilabçı pantürkist təşkilatın fikirlərini tam bölüşməkdə.

4. Türkiyə və İran kəşfiyyatını casus informasiyalarla təmin etməkdə.Yəni Az SSR CM-nin 73, 64, 70 və 631-ci maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirli bilinirdi[297].

Bunlarda ittiham olunan C.Məmmədovun işi 1 dekabr 1934-cü il Qanununa əsasən baxılması üçün SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilir.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Hazırlıq İclasının 1 yanvar 1938-ci il tarixli protokolundan aydın görünür ki, Məmmədov Cabbar Abbas oğlunun Az.SSR CM-nin 73, 64, 70 və 631-ci maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunması barədə cinayət işi dinlənildi və ittihamnamə aktı təsdiq edildi. Qərara alındı ki, işə qapalı iclasda, şahidlər çağırılmadan, müdafiə və ittiham tərəfinin iştirakı olmadan baxılsın. Təqsirləndirilən şəxs barədə həbs qəti imkan tədbiri saxlanılsın.

2 yanvar 1938-ci il tarixli protokola əsasən SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının qapalı iclasında C.Məmmədovun işinə baxıldı.

Məmmədov Cabbar Abbas oğlunun Az.SSR CM-nin 73, 64, 70 və 631-ci maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunması barədə cinayət işinə baxıldı. Məmmədov Cabbar Abbas oğlu özünü təqsirli hesab etdiyini və istintaq zamanı onun tərəfindən verilən ifadələri tamamilə təsdiq etdiyini bildirdi. Təqsirləndirilən şəxs məhkəməyə əlavə heç bir sübut təqdim etmədi.

Məhkəmə bağlı elan olundu və müttəhim son sözündə ona qarşı mərhəmətli olmağı xahiş etsə də, SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının səyyar sessiyasının 2 yanvar 1938-ci il tarixli hökmü ilə məhkəmə Məmmədov Cabbar Abbas oğlunu ən ağır cəzaya – ona məxsus əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edir. Hökm 1 dekabr 1934-cü il Qanununa əsasən dərhal – yəni 2 yanvar 1938-ci ildə icra olunur.

C.Məmmədov güllələndikdən bir neçə ay sonra onun həyat yoldaşı-1901-ci ildə Ermənistan SSR İrəvan mahalının Akara kəndində anadan olmuş, Bakı şəhəri Malıqin 7, mənzil 27 ünvanında yaşayan Məmmədova Nəcibə Əlinağı qızı da NKVD-nin nəzər diqqətinə düşdü. Nəcibə Məmmədova vətən xaininin arvadı kimi SSRİ XDİK-in Xüsusi Müşavirəsinin 9 aprel 1938-ci il tarixli qərarına əsasən 8 il müddətinə

[297] DTX-nın arxivi. Məmmədov Cabbar Abbas oğlunun istintaq qovluğu, PR - № 27098.

azadlıqdan məhrum edilmiş və İslah Əmək düşərgəsinə göndərilmişdir[298].

İ.V.Stalinin ölümündən sonra reabilitasiyalar başlayanda C.Məmmədovun da ailə üzvləri, hüquq-mühafizə orqanlarına müraciət edərək C.Məmmədov barəsində müəyyən məlumat vermələrini xahiş etmişlər. Belə ki, Məmmədov Kamal Cabbar oğlu 9 yanvar 1955-ci ildə Az.SSR Nazirlər Şurası yanında DTK-ya ərizə ilə müraciət edərək Məmmədov Cabbar Abbas oğlu və Məmmədov Maqsud Məmməd oğlunun cinayət işlərinə yenidən baxılmasını xahiş etmişdir.



Və yaxud da Sovet yazıçılar ittifaqının üzvü, Azərnəşrin bədii ədəbiyyat şöbəsinin böyük redaktoru Məmmədov Camal Cabbar oğlu 30 dekabr 1955-ci ildə Azərbaycan SSR Nazirlər Şurası yanında DTK-nın sədri A.M.Qusqova ərizə ilə müraciət edərək bildirirdi ki, mənim atam Məmmədov Cabbar Abbas oğlu 1937-ci ilin oktyabr ayında XDİK orqanları tərəfindən həbs olunub. Həbs olunana qədər o, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda dillər və ədəbiyyat kafedrasına rəhbərlik etmişdir. Atamın həbsindən bir neçə ay keçdikdən sonra bizə bildirdilər ki, o üçlüyün hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilib. Bundan sonra biz onun barəsində heç bir məlumat ala bilməmişik.

Sizə müraciət edərək xahiş edirəm ki, atamın reabilitasiyasının mümkün olması üçün onun işinə yenidən baxılmasına sərəncam verəsiniz[299].

Ərizədən də göründüyü kimi, Cabbar Məmmədovun ölümü barədə onun övladlarına və ailə üzvlərinə düzgün məlumat verilməmişdir. Yeri gəlmişkən qeyd etməliyik ki, yalan informasiya vermək, ailələri intizarda saxlamaq bolşevik çekistlərin iş üsulu idi.

Stalinin ölümündən sonra bir çox repressiya qurbanları kimi Məmmədovlar ailəsinin də üzünə gec də olsa, tale güldü. Əməllərində cinayət tərkibi olmadığına görə 18.08.1956-cı ildə Məmmədova Nəcibə Əlinağı qızına, 25 iyun 1957-ci ildə isə Cabbar Abbas oğlu Məmmədova bəraət verildi[300].

***

[298] DTX-nın arxivi. Məmmədoav Nəcibə Əlinağı qızının istintaq qovluğu, PR - № 23260.
[299] DTX-nin arxivi. Məmmədov Cabbar Abbas oğlunun istintaq qovluğu, PR - № 27098.
[300] DTX-nin arxivi. Məmmədovun Nəcibə Əlinağı qızının istintaq qovluğu, PR - № 23260.

Cabbar Məmmədovun istintaq qovluğunda Abdulla Şaiqə ünvanladığı məktublarından çıxarışlar da verilmişdir ki, biz C.Məmmədovun PR-27098 nömrəli istintaq qovluğunda saxlanılan (sənəd rus dilindədir) həmin sənədin əhəmiyyətini nəzərə alaraq onu, tərcüməsi ilə birlikdə, geniş oxucu kütləsinə təqdim edirik.

Cabbar Məmmədzadənin yazıçı Abdulla Şaiqə yazdığı məktublarından çıxarışlar

Qısa məlumat: Abdulla Şaiq – Sovet Azərbaycanının görkəmli yazıçısı, bu yaxınlarda 75 illik yubileyi ilə əlaqədar SSRİ Ali Sovetinin Prezidiumunun xüsusi göstərişi ilə Lenin ordeni ilə təltif olunub. İnqilaba qədərki yaradıcılığı onun ictimai və pedaqoji fəaliyyəti ilə sıx bağlı olub və inqilabi-demokratik xarakter daşıyırdı. Şaiq və Cabbar Məmmədzadəni şəxsi ideya-yaradıcılıq (pedaqoji sahədə) dostluğu birləşdirirdi. Bu, qocaman yazıçının ev arxivində qorunub saxlanılan məktublardan çıxarışlardan aydın görünür.

***

Mənim əziz qardaşım!

..... Burda vəziyyət sizdəkindən (Bakıdan) daha pisdir. Ətrafda hər yerdə ürək ağrıdan səhnələr görürsən. Sən soruşa bilərsən ki, necə olur ki, İrəvan kimi böyük şəhərdə maraqlı heç kim və heç nə yoxdur? Var, əzizim, məsələn, xalqın vəziyyəti barədə qətiyyən fikirləşmədən çayxanalarda, traktirlərdə, küçələrdə avaralanan çoxsaylı qanacaqsız gənclər var, burda bəy ataları tərəfindən kasıblardan və kəndlilərdən qoparılmış pulları əliaçıqlıqla restoranlarda xərcləyən uzun bığlı bəy oğulları var, bizdə hacı, məşədi, kərbəlayi və seyidlər – insan cildində heyvanlar var ki, öz gözəl və bədbəxt arvadlarını zirzəmilərdə saxlayır, özləri isə əxlaqsızlıq yuvalarında vaxtlarını keçirirlər, bizdə molla, axund, başabəla alimlər var ki, qəzet oxumağı ən ağır cinayət hesab edirlər, bizdə yüzlərlə, minlərlə günahsız, qabiliyyətli uşaqlar var ki, küçələrdə həm fiziki, həm də ruhən məhv olurlar və onların adicə görüntüsü belə ürək ağrıdır...

Bizdə intelligent sözgəzdirənlər və nəhayət bütün ömürləri boyunca başqalarını müflis edib əmlaklarını və arvadlarını ələ keçirmək barədə düşünən bəylər və xanlar var....

.... 25 oktyabrda çox yorğun olduğumdan tez yatdım. Birdən yuxulu halda atamın həyəcanlı səsini eşitdim: “Cabbar, Cabbar, tez bura gəl!”. Mən otağa daxil olanda həyəcandan dondum. Bizim evə jandarm, rotmistr, əsgərlər, pristav, qorodovoy – hamısı birdən 10 nəfər soxulmuşdular. İlk öncə onlar mənim özümü axtardılar – mənim ciblərimdən bütün kağızları çıxartdılar, sonra evdəki əşyaları dağıtdılar – heç nə yaddan çıxmadı. Əsəbimdən babamın köhnə, geyinilmiş paltarlarını onların üzərinə atırdım. Uzun müddət axtardılar! Heç nə tapmadıqlarına görə hirsli, burunlarını sallayıb getdilər.

1912-ci il. İrəvan.

***

... Bir qədər bundan əvvəl mən sənə məlum olan məktəbin xeyrinə tamaşa vermək istəyirdim (formal olaraq – başqa məqsədlər üçün, çünki məktəb qeyri-rəsmidir). Hər şey hazır idi. Amma polisə məlumat verdilər ki, mən saxta icazə əsasında qeyri-rəsmi məktəbin xeyrinə tamaşa göstərmək istəyirəm. Tamaşada iştirak edən gənclər qorxaraq dağılışdılar.....

Mən özümə gəlməmiş, başqa bir bədbəxtçilik baş verdi. Müəllimlərdən biri – insafsız, namussuz bir insan uşaqlardan pul yığaraq onu xəzinəyə vermədən aradan çıxdı.

Həyatda yüksək amalları dərk etməyən xırda, cılız insanlar məni başa düşmürlər. Ruhən təkliyimdən ürəyim parçalanır. Heç kimlə ürəyimi bölüşə bilmirəm, dərhal iradlar, atmacalar yağdırırlar. Mənə gülürlər və deyirlər: “Sən bu işi burax, bəyəm sən müsəlman uşaqlarını professor edəcəksən?”. Bundan da ağır, insanın dilinə yaraşmayan sözlər söyləyirlər.

.... Mən minlərlə biclik elədim, dəridən-qabıqdan çıxdım, xahiş etdim, yalvardım, nəhayət, polis rəisi tamaşaya razılıq verdi, amma təxribatçılar bilet satışını pozmaq üçün əllərindən gələni etdilər və bilet satışı dayandı...

Mən sənin şeirində dediyin fikirlərini təsdiqləyirəm: “Sən və mən – eyni ürəklə yaşayırıq” və əlavə edirəm: “Bizi Allah ayırmasın!”

Sənin şeirin öz yeni ruhuyla məni sevindirir, o, bizim ədəbiyyatımızın parlaq gələcəyinin xəbərçisi kimi səslənir.

Dilcan, 1912-ci il.

****

Əziz və sevimli qardaşım!

... İrəvanda məscidlərin nəzdində 4 məktəb var. Mən bir aydan çoxdur ki, bu məktəblərin müəllimlərinə izah etməyə çalışıram ki, bu məktəbləri birləşdirərək vahid böyük elm məbədi yaratmaq lazımdır, uşaqları rus məktəblərində olduğu kimi yeni üsullarla öyrətmək lazımdır, belə olduqda bu qabiliyyətli, enerjili gənclər təhsil aldıqdan sonra cəmiyyətə və xalqa fayda verə bilərlər.

.... Mən müəllimlər arasında bizim yeni "Uşaq eynəkləri" metodikamızı geniş təbliğ edirəm. Siz özünüz bilirsiniz ki, bu ağaların tənqidi yanaşması mövcud deyil, onlar üçün hər hansı bir kitab olsun fərq etməz ... Əks halda, onlar "Tarixi-Nadir", "Gülüstan" kimi hələ Mirzə Fətəli Axundovun tənqid etdiyi köhnə dərslikləri çoxdan kənara atardılar. Amma bu gün də bu ağalar uşaqları "Tarixi-Nadir"lə öyrədirlər.

Eh, nə deyim! Bizim köhnə məktəblər uşaqların tərbiyəsinə və təhsilinə necə böyük ziyan vururlar! Bütün bunları gördükcə ürəyim parçalanır. Mən yalnız bizim İrəvan məktəblərində qayda-qanun yaratdıqdan sonra sakitləşərəm.

İrəvan, 1912-ci il.

Выдержка из писем Джаббара Мамедзаде писателю Абдулла Шаику

Краткие сведения: Абдулла Шаик – выдающийся писатель Советского Азербайджана, 75-летие которого недавно отмечено особым указам Президиума Верховного Совета СССР о награждении его орденом Ленина. Дореволюционное творчество писателя неразрывно связано с его общественной и педагогической деятельности, носящий революционно-демократический характер. Шаика и Джаббара Мамедзаде связывала личная идейно-творческая /в области педагогики/ дружба, что подтверждают выдержки из писем, оригиналы которых все эти годы бережно хранились и ныне хранятся в домашним архиве старейшего писателя.

***

Любимый брат!

…Здесь намного хуже, чем там у вас / в Баку/. Куда ни поворачиваешься, видишь душераздирающие сцены. Ты можешь сказать: как это так – в таком большом городе как Ереван нет никого и ничего интересного?! Есть, дорогой мой, есть у нас, например, множество невежественных молодых людей, которые совершенно не думая о положении народа, беспечно скитаются по чайханам, трактирам, улицам, есть у нас бекские сынки с длинными усами, которые долгие ночи напролет кутят в ресторанах, щедро раздавая деньги, содранные их отцами с бедных, забитых крестьян, есть у нас гаджи, мешади, кербалаи и сеиды – звери в облике человеческом, которые держа своих красивых и несчастных жен в темницах, проводят время в публичных домах, есть у нас муллы, ахунды, горе-ученые, которые считают чтение газеты злейшим преступлением, есть у нас сотни и тысячи невинных, одаренных детей, погибающих духовно и физически на улицах, один вид которых больно сжимает сердце… Есть у нас интеллигентики-доносчики, есть у нас наконец, беки и ханы, всю жизнь думающие только об одном: как бы разорить побольше людей, овладеть их имуществом, женами…

***

…25 октября, будучи очень утомленным, я лег рано. Вдруг, сквозь сон слышу глухой и тревожный голос отца: «Джаббар, Джаббар, скорее иди сюда!» каково же было мое удивление, когда я бросился в ту комнату: к нам ворвались жандармский ротмистр, солдаты, пристав, городовые – всего 10 человек. Сперва они обыскали меня самого, вытащили из моих карманов все бумажки, потом обрушились на домашние вещи – ничего не забыли. От злости я бросал им целыми кучами все допотопное, дедовское старье. Долго пришлось им повозиться! Ничего не обнаружив, они ушли хмурые, злые, повесив носы.

Ереван. 1912 г.

***

…Недавно я хотел дать спектакль в пользу известной тебе злополучной школы / формально – для других целей, ибо школа не официальная/. Все было готово. Но полиции сообщили, что я собираюсь дать спектакль в пользу неофициальной школы, получив фальшивое разрешение на это. Молодежь, участвовавшая в спектакле, в панике разбежалась…

Не успел я придти в себя, как грянула новая беда: один из преподавателей – бессовестный, безжалостный человек, собрал у учащихся деньги, не сдав их назначению, скрылся.

Мелочные, безыдейные люди, не признающие высоких целей в жизни, не понимают меня. Сердце разрывается от духовного одиночества. Не с кем поделиться: тот час сыпятся упреки, насмешки. Смеются надо мной, говорят: «Брось ты это дело, неужто ты хочешь сделать мусульманских детей профессорами?» что только не говорят, какие глупости, недостойные уст человека!

…Я применил тысячи хитростей, из кожи лез, просил, умолял, наконец, начальник полиции дал разрешение на спектакль, но провокаторы не побрезгали ни чем, чтобы сорвать продажу билетов на рынке. И сорвали…

Я подтверждаю твою мысль, выраженную в стихот-ворении: «Ты и я – мы оба одним сердцем живем» и добавляю: Да не разлучит нас Аллах!

Стихотворение твое радует меня своим новым духом, оно звучит как голос предвестника светлого будущего нашей литературы.

Дильджан, 1912 г.

***

Дорогой и любимый брат!

…в Ереване имеются четыре школы при мечетях. Свыше месяца я стараюсь объяснить учителям этих школ, что надо объединить их, создать один большой храм науки, учить детей так, как их учат в русских школах, по-новому методу, чтобы получив образование, эти способные, энергичные юноши смогли бы принести пользу обществу и народу.

…Я широко популяризирую среди учителей ваш новый учебник «Детские очки». Вы сами знаете, что у этих господ нет критического отношения – для них лишь бы была в сторону «Тарих Надир», «Гюлистан»/ старые «учебники», против которых выступал еще Мирза Фатали Ахундов/ . А ведь и ныне эти господа учат детей по «Тарих Надиру». Эх, что сказать! Какой огромный вред наносят воспитанию и обучению детей народа наши старые школы! Сердце разрывается, когда видишь все это. Я успокоюсь только тогда, когда наведу порядок в наших ереванских школах.

Ереван, 1912.

MİRZƏ DAVUD HÜSEYNOV

Birinci Türkoloji Qurultayın nümayəndələrindən olan Mirzə Davud Hüseynov da 37-nin günahsız qurbanlarından idi. Birinci Türkoloji Qurultaya Tiflisdən qatılan və Zaqafqaziya hökuməti adından danışan M.D.Hüseynov təbrik nitqində qeyd etmişdir ki, bizim böyük Sovet İttifaqının digər xalqları sırasında türk xalqları sayına görə ilk yerlərdən birini tutur. Əgər diqqətlə baxsaq aydın olar ki, onlar Altay dağlarından, böyük Volqadan, Türküstanın tənha qumluqlarından, Qafqazın qarlı zirvələrindən başlayan və gözəl Krımla qurtaran nəhəng bir ərazini tuturlar. Oktyabr inqilabının xalqlara və millətlərə verdiyi azadlığı önə çəkən Mirzə Davud Hüseynov öz nitqində Çar Rusiyasının xalqları necə əzdiyini də diqqətə çatdırdı. Onun fikrincə, qəddar çarizm təkcə Rusiya fəhlə və kəndlilərinə deyil, başqa xalqlara da zülm edirdi. Bu qəddarlığın və zülmkarlığın mahiyyətinə varan natiq bildirirdi ki, Car Rusiyası bu siyasəti ilə "bütün özgə millətlərdən olanları məhv etmək, onları ruslara çevirmək istəyirdi. Yoldaşlar, car hökumətinin Özbəkistan, Azərbaycan və Qazaxıstanın torpaqlarını tədricən tutmasını, "türk" sözünün hətta dilə gətirilməsini qadağan etməsini başqa heç bir şeylə izah etmək mümkün deyil"[301].

Mirzə Davud Hüseynov bilmirdi ki, müdafiəçisi olduğu Sovet Rusiyası çar Rusiyasından daha qəddar və daha amansızdır. O, bilmirdi ki, qırmızı imperiyanın milli, mənəvi dəyərlərimizə vurduğu və gələcəkdə vuracağı zərbələrin miqyası və coğrafiyası daha geniş idi. Yaddaş da, gen də, genezis də, tarixi, müasir ədəbi-mədəni irs də, torpaq da, ziyalı da, milli düşüncə tərzimiz də bolşevik siyasətinin zərbə hədəfləri idi. O, bütün bunları bilmirdi, ona görə bilmirdi ki, Sovet hökumətinə özü qədər inanır və ona sədaqətlə xidmət edirdi. Həmişə belə olub, iblis dərk olunanda rədd edilib. O və onun kimi böyük əksəriyyət bu bədheybət və əzazil iblisin özünü və irticaçı xislətini görmürdü. Elə ona görə də, bu bədheybəti tərifləyir və müdafiə edirdi. O, bu təbrik nitqində Sovet hökumətinin iqtisadi qüdrətinin getdikcə artdığını vurğulayır və partiyanın yalnız bu istiqamətdə deyil, maarifçilik, eyni zamanda mədəniyyət sahəsində də apardığı siyasəti qurultay iştirakçılarına çatdırırdı. M.D.Hüseynov hesab edirdi ki, çağdaş dövrdə türkdilli xalqların inkişafına mane olan amillərdən biri savad məsələsidir.

[301] 1926-cı il I Bakı türkoloji qurultayı (stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri K.V.Nərimanoğlu, Ə.Ağakişiyev), Bakı, 2006, s. 26.

O, əhalinin sürətlə savadlanması üçün latın əlifbasının qəbulunu alqışlayır və ərəb əlifbasını maarifçiliyin inkişafına "tormoz" hesab edirdi. Mane olan amilləri aradan qaldırmaq üçün o, qurultay iştirakçılarını, xüsusilə də türkoloq alimləri hər hansı bir məsələni müzakirə edərkən dəqiq və obyektiv qərarlar qəbul etməyə çağırırdı.

Bəli, bu çağırışın sahibi M.D.Hüseynov idi.

***

1894-cü ilin martında Bakı şəhərində ruhani ailəsində anadan olan Mirzə Davud Bağır oğlu Hüseynov 1906-cı ildə ödənişsiz şəhər məktəbini bitirərək Bakı realnı məktəbində təhsilini davam etdirir. 1913-cü ildə Moskva Kommersiya İnstitutunun iqtisadiyyat fakültəsinə daxil olan M.D.Hüseynov 1917-ci ilin may ayında təhsilini tamamlayır və doğulub boya-başa çatdığı Bakı şəhərinə qayıdır. Fəallığı və işgüzarlığı ilə seçilən bu gənc qısa bir zamanda tələbə komitəsi yaradaraq nüfuz sahibinə çevrilir. 1917-ci ilin iyulunda Müsəlman İctimai Təşkilatları Komitəsinə Bakı müsəlman tələbələrinin nümayəndəsi kimi qatılan M.D.Hüseynov həmin komitənin şurasının üzvü seçilir. 1918-1919-cu illərdə bolşevik "Hümmət" təşkilatının əvvəl sədr müavini, sonra isə sədri, RK(b)P-nın Bakı komitəsinin və partiyanın Qafqaz Ölkə Komitəsinin üzvü olmuşdur. O, eyni zamanda bu dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Maliyyə Nazirliyində şöbə müdiri vəzifəsində də çalışmışdır.

Məlumdur ki, 1920-ci il fevralın 11-i və 12-də Bakıda gizli şəraitdə Azərbaycan kommunist təşkilatlarının I qurultayı keçirilmişdir. Qurultayın keçirilməsi və fəaliyyətində yaxından iştirak edən Mirzə Hüseynov hazırki vəziyyət haqqında məruzə etmişdir. Fevralın 12-də keçirilmiş AK(b)P MK-nın birinci plenumu Büro və Rəyasət Heyəti seçmişdir. Mirzə Hüseynov AK(b)P MK Rəyasət Heyətinin sədri təsdiq edilmişdir.

1920-ci il aprelin 26-da AK(b)P MK-nın və Bakı Bürosunun birgə təcili iclası keçirilmiş və üsyana rəhbərlik etmək üçün Azərbaycan Müvəqqəti İnqilab Komitəsi yaradılmışdır. Onun tərkibinə A.Əlimanov, D.Bünyadzadə, Ə.Qarayev, Q.Musabəyov, N.Nərimanov və H.Sultanovla birlikdə Mirzə Hüseynov da daxil olmuşdur.

Mənbələrin verdiyi məlumata görə, Mirzə Hüseynov N.Nərimanov Bakıya gələnə kimi rəsmi olaraq istər Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə, istərsə də Azərbaycan SSR XKS-ə sədrlik etmiş, Azərbaycan MİK və Azərbaycan SSR XKS-nin verdiyi dekret və sərəncamları imzalamışdır. 1920-ci il mayın 5-də Mirzə Hüseynovun sədr kimi ilk imzaladığı dekretlərdən biri Azərbaycan kəndlilərinin uzun

illərdən bəri həsrətində olduğu torpağın onlara verilməsi haqqında dekret olmuşdur.

Azərbaycanda Rusiyanın müdaxiləsi ilə Sovet hakimiyyəti qurulduqdan sonra o, Azərbaycan SSR İnqilabi Komitəsinin sədrinin müavini, Azərbaycan SSR Xalq Maliyyə naziri, Xarici İşlər Komissarı, Ali İqtisadi Şuranın sədri, ZSFSR XKS sədrinin müavini, ZSFSR Xalq Maliyyə və Xarici İşlər Komissarı vəzifələrində çalışmışdır.

1920-ci il iyulun 20-dən sonra Mirzə Hüseynov Moskvada olmuş, Rusiya ilə Azərbaycan arasındakı münasibətləri aydınlaşdırmış, hər iki Sovet respublikası arasında qarşılıqlı münasibətləri nizama salmağa, Şərqdə görüləcək işlərin planını hazırlayıb əlaqələndirməyə çalışmışdır. O, yuxarıdakı məsələlər haqqında V.İ.Lenin və G.Çiçerin ilə hərtərəfli söhbət etmişdir. Mirzə Hüseynov eyni zamanda III İnternasionalın 29-31 iyul tarixində Moskvada keçirilən iclaslarında da iştirak etmişdir.

1920-ci il mayın 14-də Mirzə Hüseynov Bakıdakı İran, Hollandiya, İsveç, Danimarka, sonra isə Litva və Estoniya nümayəndələri ilə görüşərək Sovet Azərbaycanının onlarla hərtərəfli əlaqələr qurmağa hazır olduğunu bildirmişdir. Mirzə Hüseynov xalq xarici işlər Komissarı kimi bir sıra dövlətlərə məktub, nota və teleqramlar göndərmiş, Tiflisdə ingilis və fransız nümayəndələri ilə əsirlərin dəyişdirilməsinə dair danışıqlar aparmış, Bakıdakı xarici ölkə nümayəndəlikləri, Azərbaycanın xaricdəki nümayəndəlikləri ilə yazışmalar aparmışdır. Bununla belə, onun Xalq Xarici İşlər Komissarı işlədiyi müddətdə Azərbaycanın xarici ölkələrdəki nümayəndəlikləri ləğv edilmiş, Azərbaycanda fəaliyyət göstərən xarici dövlətlərin nümayəndəlikləri respublikadan çıxarılmışdır. Mirzə Hüseynov I Ümumazərbaycan Sovetlər qurultayında Azərbaycan MİK üzvü seçilmiş və Azərbaycan MİK-in mayın 21-də keçirilmiş I sessiyasında Azərbaycan XKS tərkibinə daxil olmuş, Xalq Xarici İşlər Komissarı və Ali İqtisadi Şuranın sədri təsdiq edilmişdir.

1922-ci ildə Moskvaya çağırılmış Mirzə Hüseynov RSFSR Milli İşlər Komissarının müavini, 1922-1929-cu illərdə isə bir sıra rəhbər vəzifələrdə çalışmışdır. O, ZSFSR XKS sədrinin müavini, Xarici İşlər Komissarı, Maliyyə Komissarı olmuşdur[302].

Mirzə Hüseynov 1930-1933-cü illərdə Tacikistan Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsində çalışmışdır.

Mirzə Hüseynov ömrünün son illərində Moskvada işləmişdir. 1934-1937-ci illərdə o, RSFSR Xalq Maarif Komissarlığında qeyri-rus

[302] Musa Qasımlı, Elmira Hüseynova. Xarici işlər nazirləri, Bakı, 2003, s. 64-65.

natamam və orta məktəblər idarəsi rəisinin müavini işləmişdir. O, SSRİ-də sənayeləşmə və kollektivləşmənin başa çatdığı bir dövrdə savadsızlığın tamamilə ləğv edilməsi və ümumi yeddillik təhsil sisteminə keçilməsi, yeni-yeni məktəblərin açılması sahəsində əzmlə çalışmışdır.

Dəfələrlə AK(b)P MK, ÜİK(b)P MK Zaqafqaziya Ölkə Komitəsi, Orta Asiya bürolarının, Azərbaycan, ZSFSR, Tacikistan, SSRİ MİK üzvü, plenum, konfrans, sessiya və qurultayların nümayəndəsi olan Mirzə Davud Hüseynov üçün də 37-ci il uğurlu il olmadı. O da NKVD-nin qara siyahısına salındı. Əksinqilabçı, millətçi təşkilatın rəhbəri Ruhulla Axundovun, əksinqilabçı, millətçi Əliheydər Qarayevin məsləkdaşları siyahısında adı hallanmağa başladı.





Xoren Qriqoryanın 9 iyul 1937-ci ildə hazırladığı arayışından öyrənirik: "1894-cü ildə anadan olmuş, ÜİK(b)P üzvü, Azərbaycan SSR Xalq Komissarlar Sovetinin sədrinin keçmiş müavini, son vaxtlar RSFSR Xalq Maarif Komissarlığında işləyən Mirzə Davud Hüseynov əksinqilabçı, millətçi Əliheydər Qarayevlə və bizim həbs etdiyimiz Azərbaycanda əksinqilabçı, millətçi təşkilatın rəhbəri Ruhulla Axundovla əlaqədə olmuşdur"[303]. **Kiçik bir haşiyəyə çıxaraq maraqlı və maraqlı olduğu qədər də təəccüblü bir məsələni diqqətinizə çatdırmaq istərdik. Fikir verin, Bakı şəhərində 9 iyul 1937-ci ildə müəyyən edilir ki, Mirzə Davud Hüseynov millətçidir. Cəmi iki gün sonra, imperiyanın paytaxtında - Moskvada Xalq Maarif Komissarlığının (XMK) 11 iyul 1937-ci il tarixli qərarı ilə 1918-ci ildən kommunist partiyasının üzvü olan M.D.Hüseynovu xalq düşməni kimi ÜİK(b)P sıralarından xaric edirlər. Belə çıxır ki, Mirzə Davudun millətçi olmasını Qriqoryandan əvvəl XMK müəyyən etmişdi. Moskvanın çevikliyinə heç kim şübhə edə bilməz. Lakin ömrü boyu bolşevik ideyalarına inanan və ona sədaqətlə xidmət edən, Azərbaycan SSR İnqilab Komitəsinin sədrinin müavini, Azərbaycan SSR Xalq Maliyyə Naziri, Xarici İşlər Komissarı, ZSFSR XKS sədrinin müavini və s. yüksək vəzifələrdə**

303 DTX-nın arxivi. Mirzə Davud Hüseynovun istintaq işi, PR - № 16655.

çalışan mətin bir kommunistdən "uf demədən" imtina etməyi yalnız bolşeviklər bacarardı.

Xoren Qriqoryanın adlarını çəkdiyi Ruhulla Axundov və Əliheydər Qarayev təmsil olunduqları partiyaya Xorendən qat-qat sədaqətli idi və onların millətçiliyi Qriqoryanın daşnaksütun düşüncəsindəki millətçilik deyildi. Bu millətçilik bütün millətlərə sevgi və məhəbbət üzərində köklənən millətçilik idi. Bu millətçilik məhəlləçiliyə deyil, bəşəriliyə söykənən və bəşəriliyə aparan millətçilik idi. Bu millətçiliyin arxasında kin, nifrət və qisasçılıq deyil, hamıya və hər kəsə, hətta ermənilərə belə sadəlövhcəsinə inanan məhəbbət dayanırdı.

Maraqlıdır ki, X.Qriqoryan SSRİ-yə o qədər "sədaqətli" idi ki, ona qarşı çıxanları bağışlamır və həmin "cinayətkarları" harada olmasından və işləməsindən asılı olmayaraq məsuliyyətə cəlb edirdi. Onun yuxarıdakı arayış-təqdimatından sonra (Qriqoryanın bu arayışını order də adlandırmaq olar) Mirzə Davud Hüseynovu Azərbaycan SSR CM-in 72 və 73-cü maddələri ilə ittiham edirlər.

Mirzə Davud Hüseynovun təhlükəli bir cinayətkar olduğunu nəzərə alaraq mərkəzə - Moskvaya onun təcili həbs edilməsi barədə müraciət edirlər. Moskva şəhər XDİK-in Dövlət Təhlükəsizliyi İdarəsinin 4-cü şöbəsinin 3-cü bölməsinin əməkdaşı leytenant Qeynətdinov müəllifi Qriqoryan olan 12290 saylı cinayət işi ilə tanış olduqdan sonra böyük uzaqgörənliklə müəyyən edir ki, Mirzə Davud və onun arvadı Hüseynova Tamara Fətəli qızı həqiqətən millətçi və əksinqilabçıdır. Ona görə də onların hər ikisi Moskvada həbs edilir. NKVD-nin 2607 saylı orderinə əsasən M.D.Hüseynovun Moskvadakı mənzilində axtarış aparılır və axtarış zamanı istintaq üçün əhəmiyyət kəsb edən heç nə aşkarlanmır.

Mirzə Davudun ilk dindirməsini də Moskvadakı çekistlər həyata keçirir. Çekistlər - BDTİ IV şöbəsinin əməliyyat müvəkkilləri onu bir neçə dəfə dindirsələr də dilini açıb həqiqətləri öyrənə bilmirlər.

1937-ci ilin sentyabrına qədərki dindirmələr heç bir fayda vermir. Bütün dindirmələri zamanı "Mən heç vaxt əks-inqilabtçı millətçi təşkilatın üzvü olmamışam" - deyən M.D.Hüseynovun iradəsini 13-14 sentyabr 1937-ci il dindirməsi sındıra bildi. Sonrakı dindirmələr zamanı o, trotsksist təşkilatın üzvü olduğunu, R.Axundovun təşkilatının fəallarından olduğunu etiraf etmək məcburiyyətində qalır. Artıq nəyi deyirlərsə təsdiqləyir və imza atır. Hər bir təsdiq ona növbəti maddələrin də verilməsi zərurətini yaradır. Beləliklə M.D.Hüseynova 8 aprel 1938-ci ildə istintaqın başa çatdığı elan edilir. RSFSR CM-in 58-6, 58-68, 58-10

və 58-11-ci maddələri üzrə ittiham edilir[304]. Matuleviç, Zoryanov, İdanın, eləcə də SSRİ prokurorunun müavininin iştirakı ilə 21 aprel 1938-ci ildə M.D.Hüseynovun məhkəməsi olur və məhkəmənin hökmü oxunur:**Güllələnsin və ona məxsus əmlak müsadirə edilsin. Hökm qətidir və dərhal yerinə yetirilməlidir.**

Ölüm hökmü elə həmin gün, yəni 21 aprel 1938-ci ildə yerinə yetirilir.

İ.V.Stalinin ölümündən sonra Mirzə Davud Hüseynovun və onun həyat yoldaşı 1902-ci ildə Bakı şəhərində doğulan Hüseynova Tamara Fətəli qızının işinə yenidən baxılır. Yeri gəlmişkən qeyd etməliyəm ki, Tamara xanım Azərbaycan Xalq Cümhuriyyətinin ilk baş naziri Fətəli xan Xoyskinin doğma qızı idi. O, Mirzə Davudla həbs olunana (1937-ci ilin iyuluna) qədər birlikdə yaşamışdır. Mirzə Davud Hüseynov 1938-ci ildə birinci kateqoriya ilə məhkum edilib güllələndikdən sonra vətən xaininin arvadı kimi Tamara xanım da sürgün olunur. Tamara xanım cəzası 29 may 1938-ci ildən hesablanmaqla 8 il müddətinə azadlıqdan məhrum edilərək Qazaxıstana göndərilir[305]. 1902-ci ildə doğulan Tamara xanım 88 yaşında Bakı şəhərində dünyasını dəyişir. Bizə elə gəlir ki, Hüseynovu məhbəsə aparan amillərdən biri də bolşevik qanunlarına tabe olmaması, onun şərtlərini pozması idi. Belə ki, proletariat xan və ya bəy qızı ilə nəinki evlənməli, onu himayə etməli, əksinə Lenin təliminə uyğun olaraq onu bir sinif kimi məhv etməli idi. Lakin M.D.Hüseynov bu qaydaları da pozmuşdu və buna görə də cəzasını çəkməli idi.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası 7 dekabr 1955-ci il tarixində öz qərarı ilə M.D.Hüseynova bəraət verir. Ölümündən sonra SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə 21 yanvar 1956-cı ildə isə Hüseynova Tamara Fətəli qızına bəraət verilir.

304 DTX-nın arxivi. Mirzə Davud Hüseynovun istintaq işi, PR - № 16655.

305 DTX-nın arxivi. Hüseynova Tamara Fətəli qızının istintaq işi, PR - № 9282.

MUSAYEV HÜSEYN MƏMMƏD OĞLUNUN İSTİNTAQI, YAXUD DİL AÇAN İŞGƏNCƏLƏR

Musayev Hüseyn Məmməd oğlunun **PR 5870 nömrəli** istintaq qovluğu qarşımdadır və bu qovluq Birinci Türkoloji Qurultayın, bütövlükdə isə repressiya qurbanlarının istintaq qovluqlarından bir neçə xüsusiyyətinə görə fərqlənir. Belə ki, bu istintaq işində ittiham edilən Musayev Hüseyn Məmməd oğlu, həm də ittiham edən Musayev Hüseyn Məmməd oğludur. İttiham olunanın həm də ittiham etməsi 30-cu illərin repressiya qurbanlarının cəsarət etmədiyi hallardan biri və birincisi idi. Onun 27 yanvar 1939-cu ildə məhbəsdən İ.V.Stalinə, 4 noyabr 1954-cü ildə Az.SSR Nazirlər Soveti yanında təhlükəsizlik komitəsinin sədr müavini Əlizadəyə ünvanladığı müraciətlərdə onu ittiham edənlərin - Markaryanın, Səfərəliyevin, Malyanın, Mustafayevin humanizm prinsiplərini pozmaqlarını, günahsız insanları fiziki işgəncələrlə günahlı adama çevirmələrini necə cəsarətlə tənqid etdiyinin şahidi oluruq.

İlk istintaq işlərindən biridir ki, NKVD zindanından Stalinə məktub ünvanlanır və müstəntiqlər onu ünvana göndərməsələr də məhv etmir və istintaq işində saxlayırlar. Bu istintaq qovluğu vasitəsilə sovet totalitar rejiminin hüquq-mühafizə orqanlarının istintaq metodlarının anatomiyasını öyrənmək olar.

Bəhs etdiyimiz qovluq ilk istintaq işlərindən biridir ki, müttəhim bu qədər müqavimət göstərə bilir.

Musayev Hüseyn Məmməd oğlunun istintaq qovluğu çox az, hətta barmaqla sayılan qovluqlardandır ki, istintaqın saxtalaşdırıldığı barədə məlumatı günümüzə qədər gətirib çıxara bilmişdir. Bolşevik çekistlər belə səhvlərə yol vermir, bütün saxtakarlıqlarını böyük peşəkarlıqla örtbasdır edə bilirdilər.

Bu istintaq qovluğundan təkcə cinayət işlərindəki saxtalaşdırmanı deyil, həm də onun metodologiyasını öyrənmək olur. Heç kəsə sirr deyildir ki, bəzi yazarlarımız repressiyaya məruz qalan və qalmayan ziyalılarımızın fəaliyyətlərinə qiymət verərkən onları daha çox mühakimə etməyə üstünlük verirlər. Hesab edirik ki, bu qovluqdakılar yalnız Musayev Hüseyn Məmməd oğlunu deyil, 20-50-ci illərdə repressiyaya məruz qalanları və qalmayanları dərk etmək üçün ən ciddi və ən səmimi bir mənbə olacaqdır. Həmçinin hesab edirik ki, bu qovluq mühakimə etməyə meyilli olan müasir yazarlarımız üçün də repressiya dövrünün ziyalılarını dərdləri ilə birlikdə anlamaq üçün etibarlı bir açar olacaqdır.

Bu qovluq analoqu (yaxın və uzaq oxşarı) olmayan qovluq idi. Onu başqa qovluqlardan fərqləndirən isə Musayev Hüseynin və həyat yoldaşı Musayeva Annanın dövlət rəsmilərinə ünvanladıqları üç müraciət idi. Biz həmin müraciətləri şərhsiz verməyi daha məqsədəuyğun bildik. Ona görə ki, istər Anna, istərsə də Hüseyn Musayevlərin hiss, həyacan və yaşantılarını vermək o qədər də asan deyil. Ona görə də keçən əsrin 30-cu illərinin reallıqlarını özündə ehva edən o, ağrı dolu müraciətləri şərhsiz və müdaxiləsiz oxucuların öz mühakiməsinə veririk. Biz oxucunu 30-cu illərin bədheybət iblisi ilə üz-üzə və göz-gözə buraxırıq. Buraxırıq ki, kimin mühakimə edilməsinin gərəkliyinə özü qərar versin.

***

Ümumxalq və partiya lideri böyük yoldaş Stalinə
Azərbaycan SSR XDİK həbsxanasında
həbsdə olan Musayev Hüseyn Məmməd oğlu
tərəfindən

ƏRİZƏ

Böyük lider və bütün məzlumların ümidi! Sizə öz ərizəsi ilə xalq düşməni elan olunmuş və əksinqilabi fəaliyyətdə təqsirli bilinən, Azərbaycan SSR-də Əksinqilabi Təşkilatın mövcudluğu barədə nəşrlərdən öyrənən və bu təşkilatda heç vaxt üzv olmayan, 28 illik pedaqoji təcrübəsi olan, keçmiş xalq müəllimi və keçmiş partiyaçı müraciət edir.

Haqqında danışacağım dözülməz repressiyanın təsiri ilə mən günahı boynuma almalı və özümə böhtan atmalı oldum.

Mənə qarşı repressiya 1937-ci il 15 noyabrdan 16-na keçən gecə mənim həbsim ilə başladı. Məni dərhal daxili həbsxananın zirzəmisində yerləşən, təbii işıqlandırması və havası olmayan 44 saylı kameraya yerləşdirdilər, sonra 15 noyabrda zirzəminin digər kamerasına (102) keçirtdilər. Orada mən 23 dekabra 1938-ci ilə qədər, yəni düz 13 ay 8 gün qaldım. Bu müddət ərzində mən görmə və eşitmə qabiliyyətimi itirdim, revmatizm və əsəb sisteminin pozulması və digər həbsxana xəstəliklərini və orqanizmin tam tükənməsini qazandım.

İkinci repressiya bunda idi ki, 40 gün ərzində, 15 noyabrdan – 25 dekabr 1937-ci ilə qədər, heç kəs məni çağırmamış, heç bir sorğu alınmamış və hətta mənə ittiham səbəbini bildirməmişdir, bununla da həbs haqqında qanunu pozmuşlar.

Aktiv sorğu 25 dekabr müstəntiq vətəndaş Səfərəliyev tərəfindən başlandı. Səfərəliyev məni daim təhqir edir, güllələmə ilə, həyat yoldaşımın həbsi, uşaqlarımı uşaq koloniyasına göndərməklə və əmlakımın müsadirəsi ilə hədələyirdi.

1938-ci ilin ikinci yarısından mənim işim digər müstəntiqə, vətəndaş Malyana keçdi. Vətəndaş Malyan? repressiyanı daha da gücləndirmişdi və 7 mart 38-ci il ayağımın xəstə olduğunu bildirməyimə baxmayaraq səhər saat 10-11 radələrində ayaq üstə durmağa məcbur etdi. Bu proses eyni təhqir və təhdidlərlə müşayiət olunurdu.

Mən davamlı şəkildə ayaq üstə yuxusuz vəziyyətdə 74 saat dayanmalı və dərhal yoldaş Malyanın və bölmə rəisi yoldaş Mustafayevin tələblərini yerinə yetirməli və ifadə verməli idim.

Bir həftə sonra mənim 74 saat ayaq üstə durmağımla əlaqədar olaraq xəstə ayağımda ağrılar başladı və yenidən şiş əmələ gəldi və mən 10-12 gün kamerada yatdım.

Beləliklə, 10 mart tarixində mənim işim bağlandı, lakin vətəndaş Malyan 25 və 29 martda məni çağıraraq işimin bitməyini bildirdi və əlavə etdi ki, 2 aprel məni protokol yazmağa çağıracaq və 7-8 aprel mənim məhkəməm baş tutacaq.

Sonuncu dəfə məni 25 iyuldan 26-na keçən gecə çağırdılar və müstəntiq 10-15 dəqiqə ərzində mənim işimi bağlayaraq bildirdi ki, məhkəməm 12 avqustdan gec olmayacaq. Bu müddəti (14 ay 13 günü) mən həbsdə keçirirəm.

Yuxarıda sadaladığım hallarda mənim müstəntiqlərim yoldaş Səfərəliyev və Malyan tərəfindən qanun pozuntularını, keçmiş partiya üzvünə və yaşlı müəllimə, Sovet ölkəsi üçün on minlərlə gənc Sovet mütəxəssisi yetişdirən və əksinqilabi fəaliyyətdə günahlandırılan pedaqoqa verdikləri əziyyətləri nəzərə alaraq, Böyük Lider, sizdən xahiş edirəm ki, bu məsələyə aidiyyəti insanların baxmasını və günahkar şəxslərin məsuliyyətə cəlb olunmasını, mənim işimin isə Ali Məhkəməyə verilməsini tapşırasınız.

Ümid edirəm ki, mən məhkəmədə öz günahsızlığımı və əksinqilabi təşkilatlara aid olmadığımı sübut edə biləcəm. Mən həmişə partiyanın ana ideyalarına sadiq qalmışam.

Musayev Hüseyn. 27 yanvar 1939.

***

Az.SSR K(b)P MK Katibi
yoldaş M.C. Bağırova
Bakı şəhəri Yuxarı Kladbiş
küçəsi 9 ünvanının sakini
Musayeva Anna tərəfindən

ƏRİZƏ

Mənim həyat yoldaşım Musayev Hüseyn Məmməd oğlu 15 noyabr 1937-ci ildə Az.SSR XDİK orqanları tərəfindən həbs olunmuşdur.

Mənim yoldaşımın həbs səbəbi mənə indiyə qədər məlum deyil. Bir neçə dəfə uyğun orqanlara müraciət etsəm də onun həbs olunma səbəbini öyrənə bilmədim. Əgər XDİK orqanlarında həbs üçün səbəb varsa nə üçün 2 il ərzində istintaq bitməmişdir? Ona görə də mən sizi Musayevin işinin vəziyyəti ilə tanış etmək istəyirəm. Mən konkretləşdirə bilmirəm o, cinayət törətmiş və ya törətməmişdir. Çünki onun ittihamı mənə məlum deyil, mən yalnız bunu deyə bilərəm ki, bu müddət ərzində istintaq bitməli və işi məhkəməyə getməli idi. Mən tam bir əminliklə deyə bilərəm ki, nə mən, nə də onun digər ailə üzvləri yoldaşımın hər hansı bir cinayət işi törədə biləcəyinə inana bilmirik. Biz əminik ki, Musayevin işi üzrə anlaşılmazlıq var və hansısa xalq düşməni ona böhtan atır. Əgər Musayev Sovet hökumətinə qarşı olsaydı, sözsüz ki, iş prosesi boyu ailədə də bu yönümlü fəaliyyət aparmış olardı və ya biz bunu hiss etmiş olardıq. Bu məni təəcübləndirir ona görə ki, o, Sovet hökumətinə sadiq idi və hökumətin bütün tələblərini yerinə yetirirdi. O, partiya və Sovet işlərində fəal iştirak edirdi.

Musayev Hüseyn kasıb ailədə doğulmuş, atası aşpaz idi. Onu Sovet hökuməti və kommunist partiyası tərbiyə etmişdi. 1920-ci ildən başlayaraq, o, kommunist partiyasına işləmiş və bizim partiyanın işinə mane olan yad ünsürlərlə mübarizə aparmışdır. Daha sonra Xalq Təhsil İdarəsinin Quba şöbəsində işləmiş və yaxşı işinə görə Azərbaycan SSR Xalq Maarif Komissarlığına keçirilir. Sonra Naxçıvan MSSR Xalq Maarif Komissarı vəzifəsinə irəli çəkilmişdir.

Onun həyat yoldaşı kimi mənə məlumdur ki, o, xalq düşmənləri ilə əlaqədə olmamış, yalnız öz elmi fəaliyyəti ilə məşğul olmuşdur.

Bakıda o, Xalq Maarif Komissarlığı icraçısı, daha sonra AKTİ-nin direktoru, sonra Lenin adına APİ-nin direktoru vəzifəsində işləmişdir.

Elmi işçi kimi o, bizim Respublikanın elmi bünövrəsini lazımi səviyyəyə yüksəltməyə çalışmış və yorulmadan gecə-gündüz Marks, Engels, Lenin və Stalinin işlərini öyrənirdi. Bunlara baxmayaraq, mənim yoldaşım Musayev Hüseyn istintaq altındadır. Onun işi üzrə istintaq 2 ildir ki, davam edir. Ən pisi odur ki, bu müddət ərzində onun cinayəti aşkarlanmamışdır.

Yuxarıda sadalananları nəzərə alaraq xahiş edirəm ki, Musayev Hüseynin işinə müdaxilə edəsiniz və onun cinayətini müəyyən edib məni şübhə içində saxlamayasınız. Sizə məlumdur ki, xalq düşmənləri vicdanlı insanlara böhtan atmağa cəhd edir və sovet hökuməti kadrlarını zəiflətməyə çalışırlar. Buna görə də mən şübhə etmirəm ki, onu şərləmişlər. Bir daha xahiş edirəm ki, istintaqı sürətləndirib və faktları yoxlayasınız.

A.Musayeva. 18 avqust 1939-cu il.

***

Az.SSR Nazirlər Soveti yanında
Təhlükəsizlik Komitəsinin Sədr Müavini
yoldaş Əlizadəyə
Təqaüdçü, Vaqif küçəsi 9 ünvanında yaşayan
Musayev Hüseyn Məmməd oğlu tərəfindən

ƏRİZƏ

1937-ci il noyabrın 15-dən 16-na keçən gecə, mən Lenin adına APİ-nin direktoru olduğum müddətdə Borşov tərəfindən imzalanmış orderə əsasən həbs olunub Az.SSR XDİK-in daxili həbsxanasına göndərildim.

39 gün ərzində mənə həbs olunmağımın səbəbini bildirmədilər. 40-cı gün məni əksinqilabi fəaliyyətdə ittiham olunmağımı bildirən və etmədiyim günahları boynuma almağa məcbur edən şöbə rəisi Markaryanın qəbuluna apardılar.

Kasıb ailədən çıxan, təhsil və təcrübəsilə xalq müəllimi adını alan, kommunist olan mən heç bir əksinqilabi təşkilata üzv olmamış və bu kimi təşkilatların mövcudluğunu belə bilməmişəm. Bu gecə Markaryan 16 sorğu protokolu tərtib etdi və mən həbsimi səhv hesab etdiyimdən bütün ittihamları rədd etmişəm.

Növbəti 10-15 gün ərzində Markaryan, daha sonra müstəntiq Səfərəliyev Ağcəbədidə keçmiş iri torpaq sahibkarı mənim etmədiyim əməlləri təkid edərək qəbul etməyimi tələb edirdilər. Təqribən bir aydan sonra

mənim işim başqa şöbəyə ötürüldü, orada rəis Mustafayev Mustafa, müstəntiq isə Mixail Malyan idi.

İlk gündən mən insan üzərində işgəncə vermə üzrə hər iki ustanın istintaqın inkvizisiya metodları ilə tanış oldum.

İstintaqın elementar normalarını pozan Malyan və Mustafayev məni təhqir edir və mənə qarşı nalayıq ifadələr işlətməklə, küçə dilində ifadələrlə danışır və mənə qarşı alçaldıcı əməllər edirdilər. Bununla kifayətlənməyərək, məni saysız-hesabsız sorğular müddətində üzü divara ayaq üstə durmağa məcbur edirdilər, üstəlik hərdən əsəbləşən Malyan "Küçük, sən gəbərəcək və güllələnməyə gedəcəksən" deyərək, başımı iki əllərilə tutub qan axana qədər divara vururdu.

Bu işgəncələr 1938-ci il martın 7-nə qədər davam edirdi.

7 mart 1938-ci ildə məni çağırıb "duruş" adlanan işgəncə növünü həyata keçirdilər, yəni 7 mart saat 10:00-dan, 10 mart səhər saat 10:00-dək Malyanın otağında divarın yanında ayaq üstə durmağa məcbur etdilər. Bu müddət ərzində Malyan və ya digər əməkdaşlar mənə nəzarət edirdi, Mustafayev isə hərdən "baş çəkirdi".

Beləcə, 8 mart tarixdə bir azərbaycanlı növbədə olduğu zaman (sərhədçi formasında, soyadını bilmirəm), Mustafayev daxil oldu və gördü ki, mənə çay, qənd və çörək gətiriblər, sözsuz ki, mənə əyləşməyə icazə vermədi və mən səhər yeməyindən məhrum oldum. İkinci gün mənim sağ dizimdə iltihab başladı və qızdırmam qalxdı, məni qarabasmalar tutdu (mənə elə gəlirdi ki, kim isə mənim başıma ağ parça salmağa çalışır və mən əl qol atmağa başladım).

Bu müddət Mustafayev və Malyan mənim bu vəziyyətimi xüsusi sadizm ilə müşahidə edir və ələ salaraq zarafat edirdilər. Üçüncü sutka Malyanın dediyinə görə, mənim bu psixi vəziyyətimdə məni naşatır spirti ilə "ayıldırdı". Bu işgəncənin də bir nəticə vermədiyini görərək məni kameraya apararkən yolda xüsusi işgəncə ilə döydülər. Beləcə, pilləkəni düşərkən Malyan məni təpiklə vuraraq pilləkəndən yıxırdı, digər əməkdaşlar məni qaldıraraq döyməyə davam edirdi. Bu döyülmələr Mustafayevin birbaşa əmri ilə bir neçə ay davam etdi.

Onların əlində öz gələcək ölümümü görürdüm və mən Mustafayev və Malyanın diktəsi ilə iki ərizə yazdım və imza atdım. Bu ərizələrdə mən olmayan günahımı boynuma aldım. Yalnız bundan sonra onlar məndən əl çəkdilər.

Mustafayev və Malyanın simasında Sovet Hökumətinin düşmənini görərək və həyata keçirilən qanun pozuntularının cəzasız qalmayacağına inanaraq mənə verilən və burada hökm sürən inkvizisiyadan bəhs edən bir məktubla Yoldaş Stalinə müraciət etdim.

Mənim məktubum əlbətdə ki, göndərilmədi və mən 27 ay nəm və qaranlıq zirzəmidəki mövcudluğumdan sonra SSRİ XDİK-in Xüsusi

İclasının qərarı ilə RSFSR CM 58/10 maddəsi ilə 5 il müddətinə Az.SSR Komitəsinin düşərgələrinə göndərildim.

Yaşadığım bu əziyyətlərdən sonra mən yırtıq və sol tərəf iflici xəstəliklərini qazandım. Qəlbim Vətən xeyrinə işləmək eşqi ilə dolu olsa da, bu müqəddəs vəzifədən məhrum oldum.

Yuxarıda sadaladıqlarımı nəzərə alaraq xahiş edirəm ki, mənim göstərdiyim faktları ciddi yoxlayıb, lazımi tədbirlər görəsiniz. Qeyd etməliyəm ki, Mustafayev hələ də Sovet vətəndaşlarının namus və azadlığını qorumağa çağıran orqanın mundirini daşımağa davam edir.

Hüseyn Musayev. 4 noyabr 1954-cü il 306.

***

Göründüyü kimi, Hüseynin və Anna Musayevlərin bu müraciətlərini həyəcansız oxumaq mümkün deyil. İnsana qarşı nə qədər haqsızlıqlar etmək olarmış. NKVD müstəntiqlərinin Allahı itirdiklərini bilirdik, lakin bu qədər qansız və vicdansız olduqlarını bilmirdik. Ona da indi şahid olduq. Digər məhbuslara da orada baş verənləri yazmağa imkan versəydilər onda nələrin şahidi olardıq, bunu tək Allah bilir.

Müraciətdə oxuduqlarımız həqiqət idi. Lakin NKVD-nin və onun istintaq qrupunun nə qədər saxta və yalan olsa da öz "həqiqətləri" vardı. Onlar ssenariyə uyğun olaraq öz "həqiqətlər"ini müdafiə etməli və Moskvadan "molades" qazanmalı idi.

Beləcə, iş başında olan Az.SSR XDİK DTİ-nin III bölməsinin rəisi DT mayoru Borşov 25 oktyabr 1937-ci ildə Musayev Hüseyn Məmməd oğlu barədə bir arayış tərtib etdi. Arayışda göstərilirdi ki, əksinqilabi millətçi və üsyançı təşkilatın həbs olunmuş rəhbər heyəti – Səfərov Həsən, Bünyadzadə Dadaş və əksinqilabi təşkilatın üzvü Həsənov Rəhimin ifadələrinə görə, Musayev Hüseyn Məmməd oğlu əksinqilabi millətçi və üsyançı təşkilatın üzvü olub, əksinqilabi praktik fəaliyyət göstərmişdir. Göstərilənləri əsas tutaraq Musayev Hüseyn Məmməd oğlunu Az.SSR CM-in 21/64 və 73 maddələri ilə təqsirləndirib həbs etməyi vacib hesab edirik.

Dövlət Təhlükəsizliyi mayoru Borşovun bu arayışından sonra onun həbsi və evində axtarış aparılması barədə order imzalandı. Az.SSR XDİK DTİ-nin IV bölməsinin əməliyyat müvəkkilinin köməkçisi Molçanov tərəfindən Bakı şəhəri sakini Musayev Hüseyn Məmməd oğlu həbs edildi. H.Musayevin mənzilində 15 noyabr 1937-ci ildə aparılan axtarış zamanı ondan aşağıdakılar götürüldü:

1. Vətəndaş pasportu
2. Hərbi bilet

306 DTX-nın arxivi. Musayev Hüseyn Məmməd oğlunun istintaq işi, PR - № 5870.

3. Müxtəlif kitablar
4. Müxtəlif yazışmalar - 2 ədəd
5. Fotoşəkillər - 26 ədəd

Məhbusun anketi
Musayev Hüseyn Məmməd oğlu
Təvəllüdü: 1889, Şamaxı şəh.
Peşəsi və ixtisası: müəllim
İş yeri: Azərbaycan Pedaqoji İnstitutu
Vəzifəsi: İnstitut direktoru
Pasport: 5 illik, 2 bölmə
Sosial mənşəyi: fəhlə
Təhsili: ali
Partiyalılığı: ÜK(b)P
Milliyyəti və vətəndaşlığı: azərbaycanlı, SSRİ vətəndaşı
Arvadı:Anna Musayeva
Oğlu:Aleksandr - 14 yaş
Oğlu:Teymur - 12 yaş

***

Bizə Musayev Hüseyn Məmməd oğlunun Stalinə müraciətindən aydın oldu ki, o, 40 gün ərzində, 15 noyabrdan – 25 dekabr 1937-ci ilə qədər, heç kəs tərəfindən dindirilməmişdir. O, 25 dekabrda müstəntiq Səfərəliyev tərəfindən dindirilmişdir. Səfəriləyev onu daim təhqir etmiş, güllələmə, həyat yoldaşının həbsi, uşaqlarını koloniyaya göndərmək, əmlakını müsadirə etmək kimi təhqir və hədələrlə üz-üzə qoymuşdur. Bu sözlər Musayev Hüseyn Məmməd oğlunun dediklərindəndir. Lakin ikinci tərəfin də söz haqqını əlindən almayaq. Onun 25 dekabr 1938-ci ildə tərtib etdiyi dindirmə protokoluna nəzər salaq. İstintaq qovluğundan aydın olur ki, dindirmə Səfərəliyev tərəfindən deyil, Malyan tərəfindən aparılmışdır. Bizcə, bunun üçün başsındırmağa dəyməz. Əsas odur ki, dindirmə protokolunda təhqir və hədələməkdən əsər-əlamət belə yoxdur. Təəccüblüdür ki, Malyan H.Musayevə "sən" (tı) yox, "siz" (vı) deyə müraciət edir.

Sual: İstintaqa məlumdur ki, siz Azərbaycanda fəaliyyət göstərən əksinqilabi üsyançı milliyətçi təşkilatın üzvüsünüz.

Cavab: Mən əksinqilabi üsyançı təşkilatının üzvü olmamışam.

Sual: Sizin əksinqilabi üsyançı, milliyətçi təşkilatına fəal üzvlüyünüz barədə istintaqda kifayət qədər material vardır.

Cavab: Xahiş edirəm ki, məni ifadə verən Heydər Vəzirovla, Bünyadzadə Dadaşla və Həsən Səfərovla üzləşdirəsiniz.

Mənim ifadələrim doğru qeyd olunub və mənim tərəfimdən yoxlanılıb. İmza. Musayev.

***

Musayev Hüseyn Məmməd oğlunun 26 dekabr 1938-ci il dindirməsi.

Sual - İstintaqın gedişi müddətində siz doğru söyləmirsiniz, lakin bizə məlumdur ki, siz əksinqilabi, üsyançı, milliyətçi təşkilatın fəal üzvüsünüz. Təklif edirik ki, boynunuza alasınız.

Cavab: Mən əksinqilabi, üsyançı, milliyətçi təşkilatın üzvü olmamışam və bu barədə məlumatım yoxdur.

Sual– İstintaq sizə yenidən təklif edir ki, öz xeyrinizə əksinqilabi üsyançı milliyətçi təşkilatına üzvlüyünüz barədə məlumat verəsiniz.

Cavab: Mən əksinqilabi, üsyançı, milliyətçi təşkilatın üzvü olmamışam və bu barədə məlumatım yoxdur.

Sual – Siz yalan söyləyirsiz.

Cavab: Mən əksinqilabi, üsyançı, milliyətçi təşkilatın üzvü olmamışam və bu barədə məlumatım yoxdur.

Sual: Sizin yalanınız digər əksinqilabi həmkarlarınız tərəfindən ifşa olunacaq.

Cavab: Mən əksinqilabi, üsyançı, milliyətçi təşkilatının üzvü olmamışam və bu barədə məlumatım yoxdur.

Mənim ifadələrim doğru qeyd olunub və mənim tərəfimdən yoxlanılıb. İmza. Musayev.

***

Bu dindirmələrdən sonra Musayev Hüseyn bir müddət dindirilmir və təxminən 3 aydan sonra yenidən yada düşür. 10 mart 1939-cu ildə Malyan onu yenidən sorğu-suala tutur.

Sual: Siz ifadənizdə bildirdiniz ki, bundan sonra istintaqa doğruları söyləyəcəksiniz. Hansı şəraitdə və kim tərəfindən siz əksinqilabi təşkilata üzv oldunuz?

Cavab: Mənə verilən suala cavab verməzdən öncə məni əksinqilabi sıralara gətirən motivlər barədə danışmaq istərdim.

Birincisi, mən uzun müddətdir ki, müstəqil inkişaf etmiş Azərbaycanın yaradılması kimi millətçi fikirlərə malik idim və düşünürdüm ki, Azərbaycanın SSRİ-nin tərkibinə daxil olmağı onun inkişafını ləngidir.

İkincisi, 1929-30-cu illərdən başlayaraq, mən bir neçə yoldaşımla – M.Xasayev A.Raxmanovla birgə kənd təsərrüfatının kollektivləşməsinə mənfi münasibət bildirdik. 1934-cü ilə qədər mən Kirovabad şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda işləyirdim. Yoldaş Vəzirova Kadr Hazırlığı Şöbəsinin işləri barədə məruzə edərkən mən, kənd

təsərrüfatı təhsil müəssisələrinin maliyyələşmə məsələsində narazılığımı bildirdim. Vəzirov bildirdi ki, bu, yalnız Kadr Hazırlığı sahəsinə deyil, bütün Azərbycana aiddir.

"Biz azərbaycanlıları incidirlər" -deyə Vəzirov bildirdi, bizim inkişaf üçün hər şeyimiz var - neft, pambıq, mal-qara... Lakin bunların çox hissəsi ruslara və gürcülərə göndərilir, biz bununla barışa bilmirik.

Bir neçə gündən sonra mən yenə də Vəzirovun qəbulunda oldum. Vəzirov məruzəmi soyuq şəkildə dinlədi və yenidən millətçi ideyaları barədə söz açdı. Vəzirov mənə açıq bildirdi ki, məni milliyyətçi kimi görür və "müstəqil Azərbaycan" məsələsini mənimlə ciddi müzakirə etmək istəyir.

Məndən bunun razılığını alan Vəzirov, "müstəqil Azərbaycan" uğrunda mübarizə etməyin vacibliyindən danışdı, eyni zamanda mənə bildirdi ki, Azərbaycanda əksinqilabi, Millətçi Təşkilat yaradılmışdır. Bu təşkilatın öz idarə mərkəzi var və bu mərkəzə demək olar ki, Azərbaycanın K(b)P MK-nin bütün üzvləri daxildir.

Vəzirov həm də bildirdi ki, təşkilat mübarizənin bütün üsullarına – hətta terrora, diversiya və casusluğa əl atmağa hazırdır.

Vəzirovu dinləyərkən mən bunun həyata keçməyinin mümkünlüyünə şübhə ilə yanaşdığımı bildirdim. Vəzirov onda bildirdi ki, biz azərbaycanlılar mübarizəmizdə tək deyilik və analoji mübarizə digər respublikalarda da aparılır.

Söhbətin sonunda Vəzirov mənə digər Azərbaycan övladları kimi inandığını bildirdi və mən dərhal millətçi təşkilata daxil olmaq barədə istəyimi bildirdim.

Sual: əksinqilabi təşkilatın üzvlərindən kimlərin adını Vəzirov sizə çəkdi?

Cavab: Mərkəzin heç bir üzvünün adını mənə çəkməyib, ola bilər ki, mən azərbaycanlı kimi, mərkəzin idarə heyətinin üzvlərinin adını tanımalı olduğumdan adlarını çəkməyə ehtiyac duymadı.

Sual: Mərkəzin üzvü kimi sizin qarşınızda hansı vəzifələr qoyulmuşdu?

Cavab: Mən kadr hazırlığı işində maneə olmalı idim.

Təqribən 6 gün sonra, Vəzirov mənə kənd təsərrüfatında kadr hazırlığında həyata keçirəcəyim tapşırıqları verdi, xüsusilə Azərbaycan KTİ-ni vurğulayaraq bildirdi ki, orada işi aparmaq çətin olmayacaq. Çünki Vəzirov artıq direktor Tahirov Yusufu və tədris hissəsinin rəisi Kaşiyev İmranı cəlb etmişdir. Onlar artıq tapşırıqlarını həyata keçirirlər.

Sual: Vəzirovun tapşırıqları nədən ibarət idi?

Cavab: tapşırıqlar bunlardan ibarət idi:

a) Tələbələrin qəbulunda normalara riayət etmədən minimum tələblər irəli sürmək;

b) Qəsdən Sovet hökumətinə yad olan kadrları işə cəlb etmək;

c) Proqramda pozuntulara yol vermək;

d) Qəsdən yataqxanaların tikintisinə mane olmaq, tələbələrə təqaüdü gecikdirmək və onlarda narazılığı oyatmaq;

e) Azərbaycan dilində dərsliklərin nəşrinə yol verməmək və bununla azərbaycanlı tələbələrdə narazılığı oyatmaq.

Sual: Vəzirovun ziyanverici tapşırıqlarını kimin vasitəsilə alırdınız?

Cavab: KTİ-nun direktoru Tahirov və tədris hissəsinin müdiri Kaşiyev İmran tərəfindən. Onlarla mən müəyyən əksinqilabi əlaqə yaratdım.

Mənim ifadələrim doğru qeyd olunub və mənim tərəfimdən yoxlanılıb. İmza. Musayev.

***

Musayevin verdiyi cavablar müstəntiqləri qane etmədiyindən onun fəaliyyətinin yoxlanılması göstərişi də verilmişdi. Həmin yoxlamanın nəticəsi kimi 16 avqust 1938-ci ildə tərtib edilmiş aktda göstərilirdi ki,

A.Q.Katkazov (sədr), R.S.Mehdiyev, A.M.Feotov, N.A.Losinskiy və S.M.Əmircanovdan ibarət komissiyanın üzvləri Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun keçmiş direktoru Musayev Hüseynin 1932-ci ilin iyun ayından 1934-cü ilin iyun ayına qədərki fəaliyyətini yoxlamış və aşağıdakı nəticəyə gəlmişdir:

1. Tələbə yataqxanasının tikintisi dayandırılmışdır.
2. Yataqxananın yeməkxana, su xətləri və havalandırılması düzgün planlaşdırılmamışdır.
3. Yataqxana üçün ərazi gələcək tələbə şəhərciyindən uzaqda tikilmişdir.
4. İnstitutun professor-müəllim heyəti antisovet ruhlu insanlarla dolu olmuş.
5. Tədris planında səhvlərə yol verilmişdir.
6. Azərbaycanlılardan kadr hazırlamamaq məqsədi ilə Azərbaycan dilində kitab nəşr olunmamışdır.
7. Tələbələr arasında narazılıq yaratmaq məqsədi ilə təqaüdü gecikdirmiş.

Aktı tərtib edənlər bunu H.Musayevin kadr hazırlanması sahəsində maneəçilik fəaliyyəti kimi dəyərləndirmişdir.

Mixail Malyan tərtib olunmuş bu aktı və müxtəlif adamlardan aldığı ifadələrdən çıxarışları da H.Musayevin istintaq işinə əlavə edərək guya onun cinayətinin hüquqi əsaslarını daha da möhkəmləndirirdi. Necə deyərlər, saxtakarlığını böyük professionallıqla həyata keçirdi. Beləliklə, 1886-cı il təvəllüdlü, azərbaycanlı, SSRİ vətəndaşı, Az.SSR XKS keçmiş sədri, ÜK(b)P-nın keçmiş üzvü Bünyazadə Dadaş 31 avqust 1937-ci ildə;

1898-ci il təvəllüdlü, SSRİ vətəndaşı, azərbaycanlı, 1918-ci ildən ÜK(b)P üzvü, Mərkəzi Komitənin kənd təsərrüfatı şöbəsinin keçmiş müdiri Səfərov Həsən Qulam oğlu 7 iyul 1937-ci ildə;

1881-ci il təvəllüdlü, Bakı ş. sakini, həbsdən öncə müəllim, azərbaycanlı, SSRİ vətəndaşı, 1920-ci ildən ÜK(b)P-nın üzvü Qasımov Pənah Ələkbər oğlu 7-15 yanvar 1938-ci ildə;

1883-cü il təvəllüdlü, Az.SSR Salyan şəhər sakini, tacir oğlu, evli, orta təhsilli Tahirov Mehdi Nazir oğlu 7 yanvar 1938-ci ildə;

1902-ci il təvəllüdlü, azərbaycanlı, SSRİ vətəndaşı, 1925-ci ildən ÜK (b)P-nın üzvü, Şaumyan adına Elmi İnstitutun keçmiş direktoru Həsənov Rəhim Rəşid oğlu 29 iyul 1937-ci ildə;

1899-cu il təvəllüdlü, azərbaycanlı, SSRİ vətəndaşı, evli, 1919-cu ildən ÜK(b)P-nın üzvü Qasımov Mirzə Məmməd oğlu 20 mart 1937-ci ildə verdiyi ifadələrində H.M.Musayevin əksinqilabi fəaliyyətlə məşğul olduğunu təsdiq etdilər.

16 fevral 1939-cu ildə Az.SSR DTİ-nin 6-cı idarəsinin rəisinin köməkçisi Dövlət Təhlükəsizliyi leytenantı Medvedev CPM-in 204-cü maddəsinə əsasən Musayev Hüseyn Məmməd oğluna istintaqın başa çatdığını bildirdi və istintaqa əlavəsinin olub-olmamasını soruşdu. Musayev Hüseyn cavab verdi ki, onun heç bir əlavəsi yoxdur və cinayət işinə etirazını məhkəmədə bildirəcək.

***

20 fevral 1939-cu ildə Azərbaycan SSR CM-in 21/64, 69, 21/70 və 73-cü maddələri ilə təqsirli bilinən Musayev Hüseyn Məmməd oğlu barəsində qərar qəbul edildi. Qərarda göstərilirdi ki, 1936-cı ilin sonunda Azərbaycanı SSRİ-dən ayırmaq və Sovet hökumətini devirmək məqsədilə Azərbaycanda yaradılmış əksinqilabi milliyyətçi təşkilat aşkarlanaraq məhv edilmişdir.

İstintaqla aşkar edilmişdir ki, 1935-ci ildə Musayev Hüseyn Məmməd oğlu adı çəkilən əksinqilabi təşkilata cəlb olunmuşdur. Əksinqilabi təşkilatın məqsəd və vəzifələrindən xəbərdar olan H.Musayev əksinqilabi millətçi təşkilatın üzvü kimi Kənd Təsərrüfatı İnstitutunda ziyanverici fəaliyyət göstərmişdir.

Musayev Hüseyn Məmməd oğlu aşağıdakılarda təqsirli bilinir:

1. Əksinqilabi millətçi təşkilatın üzvü olmaqda.

2. Təşkilatın ÜK(b)P-na və Sovet hökuməti rəhbərlərinə qarşı əksinqilabi millətçi mövqedə olmaqda.

3. Kənd təsərrüfatında ziyanverici fəaliyyət göstərməkdə.

Musayev Hüseyn Məmməd oğlu 27 yanvar 1939-cu ildə öz ifadələrindən tam imtina etmişdir.

Bütün bunlara baxmayaraq DTİ-nin 6-cı şöbəsinin rəis köməkçisi Dövlət Təhlükəsizliyi leytenantı Medvedev hesab edir ki, Musayevin

günahı sübut olunmuşdur, oun işini SSRİ XDİK-nin xüsusi iclasına göndərmək olar.

20 fevral 1939-cu ildə göndərilən materiallarla tanış olan SSRİ-in prokurorluğu 28 fevral 1939-cu ildə qərar qəbul edir. Qərarda göstərilir ki, Az.SSR XDİK-nin təqdim etdiyi istintaq materiallarından görünür ki, Musayev əksinqilabi millətçi təkilatın fəal üzvü olan Vəzirov Heydər tərəfindən bu təşkilata 1935-ci ildə cəlb olunmuş və Kənd Təsərrüfatı İnstitutunun direktoru olduğu müddətdə əksinqilabi təşkilatın tapşırığı ilə kənd təsərrüfatı sahəsində kadr hazırlanmasına və tədris binalarının tikintisinə ciddi şəkildə mane olmuşdur. Ona görə də hesab edirik ki, Az.SSR XDİK-in rəyi ilə razılaşaraq Musayev Hüseyn Məmməd oğlunun Az.SSR CM-in 21/64, 69,21/70 və 73-cü maddələri ilə açılmış cinayət işini SSRİ XDİK-nin xüsusi iclasına göndərilsin.

26 yanvar 1940-cı ildə SSRİ XDİK-nin xüsusi iclasında qərara alınır ki, Musayev Hüseyn Məmməd oğlu əksinqilabi millətçi təkilatın üzvü olduğuna görə, **5 il müddətinə** (müddəti 16 noyabr 1937-ci ildən hesablanmaqla) islah-əmək təcridxanasına göndərilsin.

***

Musayev Hüseyn Məmməd oğlu həbsxanadan çıxdıqdan sonra - 1944-cü ildən etibarən müxtəlif idarələrə üz tutaraq onun əsassız həbs olunduğunu nəzərə alaraq işinə xitam verilməsini xahiş edir. Nəhayət və nəticədə, ona SSR Ali Məhkəməsinin Hərbi Kollegiyasının 12 noyabr 1955-ci il tarixli qərarı ilə bəraət verilir. SSRİ Nazirlər Sovetinin Musayevə 2 aylıq məvacibinin ödənilməsi barədə qərarı da aidiyyəti qurumların nəzərinə çatdırılır.

Nə qədər ağrılı olsa da qeyd etməliyik ki, 1944-cü ildən reabilitasıya edilməsi üçün mücadilə edən H.Musayevin bəraət kağızı onun oğluna verilir. Ona görə ki, özü 15 iyun 1956-cı ildə ağır xəstəlikdən vəfat etmişdi. Təəssüf ki, 12 illik mücadilədən sonra Hüseyn müəllim ona veriləcək məvacibi almadan və bəraət kağızını görmədən dünyasını dəyişdi.

MUSTAFA ZƏKƏRİYYƏ OĞLU QULİYEV, YAXUD GÜNAHSIZ MÜQƏSSİR

Məqsəd güllələnmiş kommunisti yenidən güllələmək deyil, onu bütün dərdləri və tərəfləri ilə dərk etməkdir.

Cəlal Qasımov

Günahsız müqəssir anlayışını sərlövhəyə çıxarmağımız heç də təsadüfi deyil, əksinə düşünülmüş surətdə işlədilən bir ifadədir. Biz ona görə bu məsələyə diqqəti yönəldirik ki, son vaxtlar dövri mətbuatda, demək olar ki, repressiya qurbanlarının az qala hamısını bir nəfər kimi günahsız müqəssir elan edirlər. Əgər bunu demək mütləq vacibdirsə, onda bu tipologiyanı bir qədər də genişləndirib buraya günahlı müqəssirləri də əlavə etmək lazımdır.

1920-1950-ci illərin repressiya qurbanları ilə bağlı **"günahsız və ya günahlı müqəssir"** ifadələrini işlədəndə olduqca ehtiyatlı olmaq lazımdır. Onlara qiymət verərkən fərdi yanaşmaq, bütün fəaliyyətlərin, hətta Sovet hökuməti, eləcə də sosializm quruculuğundakı iştiraklarını nəzərə almaq lazımdır. Bu meyarlarla yanaşanda Cavid əfəndi günahlı, Mustafa Quliyev isə günahsız müqəssirdir. Biz repressiya qurbanına **"günahsız və ya günahlı müqəssir"** təsnifatında Sovet adamı olmaq meyarına ona görə önəm veririk ki, onların, demək olar ki, hamısı Sovet hökumətini (SSRİ-ni) dağıtmaqda, bu rejimi qəbul etməməkdə, bu rejimi idarə edənlərə sui-qəsdlər hazırlamaqda, terror aktları törətmək cəhdində ittiham edilirdi. Vaxtilə M.Quliyevin özü də Cavidi bolşevizm qatarına gec əyləşməkdə qınayırdı: "Bu yaxın zamanlarda Hüseyn Cavidin "Azər" adlı yeni əsəri dərc edilirdi. Bu əsər bizim əlimizdə olmadığı üçün oradakı məfkurəvi dönüşləri haqqında heç bir söz deyə bilmərik. Lakin hər halda "İnqilab və mədəniyyət" məcmuəsində dərc edilən parçalara istinad edərək Cavidin Teymurləng yolundan çıxıb yeni yol aradığını qeyd etmək olar. O, tərəddüd etmişdir, o, bəlkə də, bizim tərəfə dönmək istəyir"[307].

Bir ildən sonra bu məsələyə yenidən qayıdan M.Quliyev yazırdı: "Nəhayət, Azərbaycan şairi Hüseyn Cavid, bizim inqilab qatarımıza oturdu... Görünür, şair "tarixin lokomotivi"nə inanmamış, dal

[307]Yeniyetmələr. İnqilab və mədəniyyət jurnalı 1928, № 9, s. 9.

vaqonlardan birinə minmiş, yolda, yarım stansiyaların birində yavaşca qatardan düşmüşdü”[308].

Bolşevik qatarına əyləşməyən Cavidlə maarif komissarı kimi bolşevik maarifçi ideoloji sistemin başında dayanan, hətta bolşevik qatarının maarifçilik sükanı arxasında əyləşən adamı eyniləşdirmək olmaz. Hər halda, Hüseyn Cavid və Mustafa Quliyev eyni sistemdə yaşasa və eyni vaxtda repressiyaya məruz qalsalar da, eyni sistemə, eyni sədaqətlə xidmət edən adamlar deyildi. Maraqlıdır ki, Cavid əfəndi M.Quliyevin mənsub olduğu partiyanın da üzvü olmadı.

Mehdi Hüseyn «Görkəmli tənqidçi» adlı məqaləsində haqlı olaraq yazırdı: «M.Quliyev Azərbaycan ədəbiyyatı tarixində marksist tənqidin ilk nümayəndələrindən biri idi. O, gənc proletar şairlərinin, ədiblərinin və dramaturqlarının yetişməsində bir dost, müəllim kimi son dərəcə müsbət rol oynamışdır. Səməd Vurğunun, Süleyman Rüstəmin, Mikayıl Müşfiqin, H.Nəzərlinin, Ə.Əbülhəsənin gənclik dövrü yaradıcılığını diqqətlə izləyən M.Quliyev inqilabi ədəbiyyatımızın ardıcıl və ehtiraslı müdafiəçisi idi».

Almanlarda belə bir misal var: “hər cür müqayisə qüsurludur”. Mənim də “inqilabi ədəbiyyatın ardıcıl və ehtiraslı müdafiəçisini”, inqilab (oxu sovet) ədəbiyyatından uzaq olan bir şəxslə müqayisəm qüsurlu görünə bilər. Lakin bunları deməkdə məqsədimiz H.Cavidlə M.Quliyevi müqayisə etmək, onlardan kimin güclü, kimin gücsüz və ya kimin haqlı, kimin haqsız olduğunu üzə çıxarmaq deyil, zəhmətkeş, vicdanlı tədqiqatçıları və araşdırıcıları “günahlı və ya günahsız müqəssir” anlayışlarına diqqətlə və həssaslıqla yanaşmağa çağırmaqdı.

M.Quliyevin 1920-1930-cu illərdə yazdığı "Azərbaycanda Oktyabr düşmənləri" (1927), "Mədəni inqilab və islam" (1928), "Türk qadınının yolu" (1930), "Oktyabr və türk ədəbiyyatı" (1930), "Cinayət nədir və haradan baş verir" (1935) kitabları, “Lenin və maarif”, «Türk ədəbiyyatında sağ uklon», «Hazırkı türk ədəbiyyatı haqqında», «İndiki türk ədəbiyyatı haqqında», «Müasir türk ədəbiyyatı haqqında qeydlər», «Azərbaycanda teatr sənəti məsələləri», «Azərbaycanda musiqi kulturasının inkişafı məsələləri», «Səkkiz il içərisində ədəbiyyat», «Yeniyetmələr», «Yüksəliş», «Sevil» və tənqid», «Türk qadınının faciəsi

[308] Türk ədəbiyyatında sağ uklon. “İnqilab və mədəniyyət” jurnalı, 1929, № 10, s. 35.

haqqında yeni bədii ədəbiyyat barəsində», «Sosializm quruluşu və proletar yazıçılarının vəzifələri», «Azərbaycan proletar yazıçıları qurultayının yekunları», «Proletar ədəbiyyatına doğru», "İndiki türk ədəbiyyatı haqqında", "Türk teatrları haqqında", "Maarif və cəmiyyət", "İncəsənət və hərb", "Pantürkizmlə belə mübarizə etmək olmaz", "Məzmunca proletar və formaca milli incəsənət", "İdeoloji cəfəngiyat əleyhinə"... məqalələri dövrün reallıqlarını, sosializmin tələb və istəklərini bütün təfərrüatları ilə özündə əks etdirirdi. Bunlar göstərir ki, Mustafa Quliyevin yaradıcılığı kimi özü də forma və məzmunca bolşevik idi.

Mərhum professor Şamil Salmanov yazırdı ki "Doğrudur, ayrı-ayrı hadisələrin, milli ədəbi inkişaf xüsusiyyətlərinin qiymətləndirilməsində bəzi yanlış mülahizələrə onun məqalələri də arabir məruz qalırdı. Əruz vəznini sufi poetik forma hesab etmək, bir sıra klassiklərimizin yaradıcılığında mistika axtarmaq belə səhv fikirlərin bir qismidir. Lakin buna baxmayaraq, bütöv halda o, Azərbaycan ədəbi keçmişinin yoxsulluğunu iddia etməkdən tamam uzaq idi, M.F.Axundov, Sabir haqqında maraqlı, məzmunlu fikirlər söyləyirdi. O, Sabirin realist Azərbaycan ədəbiyyatındakı mövqeyini düzgün təyin edir və yazırdı ki, Sabir sosialist inqilabına qədər "on il tamam yorulmadan kütləni inqilabiləşdirmək üçün hazırlıq işi aparmışdır"[309].

Fikrimizcə, M.Quliyevin milli ədəbi inkişafı qiymətləndirərkən yanlış mülahizələr irəli sürməsi yalnız tənqidçinin qəbahəti deyildi, bu həm də və daha çox marksçı-leninçi düşüncədən gələn yanlışlıq idi. Daha doğrusu, klassik irsə nihilist münasibətin ifadəsi idi.

Şamil müəllim bütün bunları çox gözəl başa düşür və qeyd edirdi ki, tənqidçinin tara münasibəti ilə bağlı mülahizələrinə üzdən yanaşmaq doğru deyil. Onun fikrincə, bu, mürəkkəb bir məsələ idi, milli musiqinin gələcək inkişafı ilə əlaqədar problem idi. Buna görə onun tarı inkar etməsini qeydsiz-şərtsiz nihilizm elan etmək, guya onun bu musiqi alətini, muğamatı başa düşməmək mənasında yozmaq əslində mürəkkəb bir problemi sadələşdirmək olardı. Müəyyən mənada M.Quliyevin tara münasibəti M.F.Axundovun Füzuliyə münasibətini xatırladır. Necə Axundov Azərbaycan şeirinə yeni, realist istiqamət naminə, onu Füzuli şeirinin sehrindən xilas etmək naminə Füzulinin şairliyini inkar etməyə məcbur idi, M.Quliyev də eyniylə Azərbaycan musiqisinin gələcək

[309] Fikrin Karvanı. Tərtib edəni, redaktoru və ön sözün müəllifi Elçin. Bakı, 1984, s. 146.

inkişafı naminə, müasir dünyanın nailiyyətləri səviyyəsində dayanması naminə öz üzərinə belə bir ağır günahı götürməli olurdu. O, bununla ciddi etirazla qarşılaşacağını bilməmiş deyildi və bu aktı şüurlu şəkildə icra edirdi. Musiqimizin sonrakı inkişafı M.Quliyevin inkarına haqq qazandırmadı: ancaq məsələ bundadır ki, musiqimiz Avropa musiqi mədəniyyətini və formalarını mənimsəmədən də keçinə bilmədi. M.Arif sonralar görkəmli tənqidçinin tar haqqında çıxışı ilə əlaqədar olaraq yazmışdır: "Bizə elə gəlirdi ki, M.Quliyev özü muğamatı da, tarı da sevir, amma qorxur ki, bu milli musiqi ənənələrinə həddindən artıq çox uyaq, aludə olaq, müasir Avropa mədəniyyətindən geri qalaq"[310].

Məgər bolşeviklər, yəni marksçı-leninçi təlim Avropa mədəniyyətini qəbul edirdi? Əgər edirdisə, nəyə görə Azərbaycan ziyalılarını "iri" və ya "xırda" burjuy adı altında məhv edirdi? Əgər belə idisə, onda nəyə görə həm forma, həm də məzmunca yeni sovet ədəbiyyatı, sovet mədəniyyəti yaradırdı? Bu sualların çox sadə bir cavabı vardı: Marksın və Leninin baxışlar sistemindən kənarda olan bütün mədəniyyətlərdən imtina etmək, bütün mövcud elmi, ədəbi-mədəni örnək və nümunələri marksizm-leninizm qəlibinə salmaq, uyğun gəlməyənləri marksizmə zidd və ya mürtəce elan etmək.

***

20-ci illərin musiqi mübahisələrinin, opera haqqında diskussiyaların mərkəzində duran nə idi? Yalnız tardan, kamançadan, muğamdan yapışıb qalmaq olmaz, musiqimiz dünya sənət vasitələrini mənimsəməlidir, not sisteminə yiyələnməli, xor, simfonik, kamara-vokal janrlarını, müasir opera və balet formalarını yaratmalı, inkişaf etdirməlidir. Bu, aydın həqiqətdir. Diskussiyalarda bunu hamı qəbul və təsdiq edir, amma bu yolla irəliləməkçün muğamı qurban vermək, tarı susdurmaq lazımdırmı, vacibdirmi, mütləqdirmi?[311]

"Oxu tar, oxu tar, səni kim unudar?", yaxud "Oxuma tar, səni istəmir proletar?"

Tara qarşı bu mübarizəni, onun yasaq olunmasını adətən o vaxtki maarif komissarı ədəbiyyatçı-tənqidçi Mustafa Quliyevin adıyla bağlayırlar. Amma insaf xatirinə demək lazımdır ki, Mustafa Quliyev tarın ümumiyytlə qadağan olunmasını deyil, sadəcə konservatoriyada tədris edilməməsini (onu da müvəqqəti bir vaxt ərzində) təklif edirmiş. Əlbəttə, bu təklifin özü də radikal bir təşəbbüs idi və maarif komissarının

[310] Fikrin Karvanı. Tərtib edəni, redaktoru və ön sözün müəllifi Elçin. Bakı, 1984, s. 146.
[311] Anar. Üzeyir bəyin qəribə taleyi, "525-ci qəzet"

göstərişi icra olunanda mətbuat şadyanalıqla car çəkirdi: “Tar konservatoriyadan qovuldu”[312].

Məqsəd tarı çıxdaş etməklə Avropa musiqi alətlərinə maraq oyandırmaq imiş. Ancaq əslində, gərəkli bir məqsədə çox yanlış yolla gedilirmiş. Sonralar özü də repressiya qurbanı olmuş Mustafa Quliyevin xatirəsinə həsr etdiyi yazıda Rəsul Rza bu məsələyə diqqət çəkir: “Onun iş və xarakterində rus tənqidçisi Pisarevə, Nazım Hikmətə, Mayakovskiyə bənzər bir cəhət vardı. O, bəzi tənqidlərində Pisarev kimi sərt idi. Amma bu ayrı hallarda, ədəbi faktlara qarşı amansızlıq bütünlüklə xalqa, onun taleyinə, inkişafına olan böyük məhəbbətdən, bütünlüklə ədəbi prosesə qayğı, qəhmərlik, can yanğısından doğurdu. Mustafa Quliyevin papaq, tar və sairə haqqında bəzi fikirləri inkar pafosundan doğan bir ifrat idi... Mustafa Quliyev sağ olsaydı, mən inanıram ki, o, istər musiqi mədəniyyətimiz, istərsə teatr sənətimiz, ədəbiyyatımız, maarifimiz haqqında bəzi fikirlərini dəqiqləşdirər, təshih edər, bəzi ifratlardan özü geri durardı”[313].

Mustafa Quliyevin təmsil etdiyi təmayüllə bağlı bəzi fikirlərimi də bölüşmək istəyirəm. Əslində, bu təmayül Mirzə Fətəlidən başlayır və ən ümumi şəkildə desək - milli mədəniyyəti, təfəkkür tərzini Qərb meyarlarına yönəltmək təşəbbüsündən doğur. Bu təmayül müxtəlif şəkillərdə - Həsən bəy Zərdabinin qəzet və teatr fəaliyyətində, Mirzə Cəlil Məmmədquluzadənin mübarizəsində, “əcnəbi seyrə balonlarla çıxır, biz hələ avtomobil minməyiriz” yazan Sabirin ağrısında davam edir. Əli bəy Hüseynzadənin ilk dəfə ortaya atdığı, Ziya Göyalp tərəfindən də qəbul olunduğu “İslamlaşmaq, türkləşmək, çağdaşlaşmaq (yaxud qərbləşmək)” düsturunun üçüncü maddəsi də elə bu təmayülə uyğundur. Amma məsələ ondadır ki, bu düsturu bilib bilməməsindən asılı olmayaraq Mustafa Quliyev bu üçlüyün müasirləşmə (yaxud avropalaşma) maddəsinin təsdiqinə çalışsa da, birinci iki maddəsini heç cür qəbul etməzdi. Bu təmayül, əlbəttə, başqa şəkildə, Azərbaycan ictimai və bədii fikrində sonrakı illərdə də davam etdi və buna görə kosmopolitizmdə və nihilizmdə suçlanan Mikayıl Rəfiliylə Cəfər Cəfərov təqiblərlə, təzyiqlərlə üzləşdilər, hər ikisi müxtəlif vaxtlarda Yazıçılar İttifaqının üzvlüyündən xaric olundular. M.Rəfilini gah “Kitabi Dədə Qorqud”dan yazdığı üçün millətçilikdə, pantürkizmdə, gah da gənclik illərində ifrata vararaq Azərbaycan klassiklərinə deyil, Qərb yazıçılarına üz tutduğu üçün kosmopolitizmdə ittiham edirdilər. Cəfər Cəfərovun ədəbiyyatda, teatrda

[312] Anar. Üzeyir bəyin qəribə taleyi, "525-ci qəzet"
[313] Anar. Üzeyir bəyin qəribə taleyi, "525-ci qəzet"

əyalətçiliyə, bəsitliyə, bayağılığa qarşı dediklərini milli dəyərlərə qarşı təhqir kimi qələmə verir, ilk dəfə Azərbaycan teatrının sanballı tarixini yazmış alimi nihilist deyə damğalayırdılar. Cəfər Cəfərovun musiqidə Qara Qarayevi, rəssamlıqda Tahir Salahovu, teatrda Tofiq Kazımovu daha artıq bəyəndiyinə görə "dostbazlıqda" günahlandıranlar da tapılırdı[314].

KİM İDİ MUSTAFA QULİYEV? Mustafa Zəkəriyyə oğlu Quliyev 1893-cü ildə Azərbaycanın qədim şəhərlərindən biri olan Nuxa (indiki Şəki) şəhərində anadan olub. Uşaqlıq illərini Şəkidə keçirən Mustafa 1913-cü ildə Tiflis gimnaziyasını bitirib Kiyev Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olur. O, 1918-ci ildə Kiyevdə bolşevik partiyası sıralarına qoşulur və qısa müddətdən sonra RK(b)P Kiyev Komitəsi müsəlman bölməsinin sədri seçilir. 1919-cu ildə Bakıya gəlib gizli siyasi fəaliyyətlə məşğul olur. 1922-ci ildə RK(b)P-nin XI qurultayına qatılır və orada V.İ.Leninlə görüşür.



Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra o, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinə, Azərbaycan K(b)P MK-ya, Bakı Komitəsinə üzv seçilir.

1920-ci ildə M.Quliyev bir müddət Lənkəranda qəza inqilab komitəsinin sədri vəzifəsində çalışır. 1921-1922-ci illərdə isə Azərbaycan Kommunist (bolşevik) Partiyası Qaraşəhər rayon komitəsinin katibi vəzifələrində işləyir.

Moskvada Kommunist Akademiyasını bitirən Mustafa Quliyev Qarayazı MTS siyasi şöbəsinin rəisi vəzifəsinə təyin edilir. Sonralar Qazaxıstanın Çimkənd Şəhər Partiya Komitəsinin katibi, Odessa Vilayət Partiya Komitəsinin şöbə müdiri olur. Bütün bunlar M.Quliyevin elmi, ədəbi-mədəni, eləcə də siyasi dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

1923-1926-cı illərdə "Maarif və mədəniyyət", 1929-1932-ci illərdə "İnqilab və mədəniyyət" jurnalının məsul redaktoru vəzifəsində fəaliyyət göstərir. Bu illərdə o, elmi-publisistik fəaliyyətlə də ciddi məşğul olur.

[314] Anar. Üzeyir bəyin qəribə taleyi, "525-ci qəzet"

1922-1927-ci illərdə Azərbaycanın xalq maarifi komissarı vəzifəsində çalışır. M.Quliyev "Maarif və mədəniyyət" jurnalında nəşr olunmuş məqaləsində göstərirdi ki, "Hazırda hökumətimiz öz varidatının yarısını maarif işinə xərc edir". Bununla o, keçən əsrin 20-ci illərində savadsızlığın ləğvinə, eləcə də maarif və mədəniyyət işinə dövlət qayğısının güclü olduğuna işarə edirdi.

1920-ci illərdə XMK-nın qarşısında bir sıra mühüm vəzifələr dururdu. Bunlardan ən mühümü ibtidai məktəblər açmaq və savadlı müəllimlər yetişdirmək, savadsızlığı aradan qaldırmaq, gecə məktəbləri yaratmaq, gənc və yaşlı nəsli məcburi təhsil almağa sövq etmək idi. Həmin illərdə uşaqların böyük əksəriyyəti təhsildən yayınmışdı və onları, xüsusilə də qızları təhsilə cəlb etmək Maarif Komissarlığının qarşısında qoyulmuş prioritet məsələ idi.

M.Quliyev «Məktəb işində bəzi nöqtələr» adlı məqaləsində məktəbin qarşısında duran əsas problemlərə diqqət çəkir və göstərirdi: «1. Məktəb işinin böyük bir cəhəti – məktəb binalarının olmamasıdır. Yararlı məktəb binası bizdə iyirmi faizdir. Demək, məktəblərin çoxusu binaya möhtacdır.

2. Bəzi məktəblərimizdə... müəllim öz vəzifəsinə kafi dərəcədə diqqət verir.

3. Üçüncü cəhət, müəllimlərin ehtiyac hiss etdikləri rəhbərlik işidir. Mərkəz ilə müəllimlərin rabitəsi çox sıxılı olmasıdır»[315].

Maarif komissarı M.Quliyev maarifçilik təsisatı sahəsindəki problemləri görmək və göstərməklə kifayətlənmir, onların aradan qaldırılması istiqamətində də mühüm işlər görürdü. O, «Doqquz ildə maarif» adlı məqaləsində qısa zaman kəsiyində - 1920-1929-cu illərdə təhsil sahəsində görülmüş işləri bir hesabat kimi oxuculara çatdırırdı: «Biz maarif və mədəniyyət cəbhəsində bir çox müvəffəqiyyətlər əldə etmişik. Bu müvəffəqiyyətlər bizim iri addımlarla irəli getdiyimizi və mədəni inqilab yarada biləcəyimizi sübut edir»[316].

O, təhsilin başında dayanan bir komissar kimi müvəffəqiyyətləri və uğurları göstərməklə yanaşı, mövcud çatışmazlıqları (zəhmət məktəblərinin, mütəxəssis müəllimlərin olmaması, ümumi ibtidai təlimin həyata keçirilməsi, savadsızlığın tamamilə ləğv edilməsi, təsərrüfatımız üçün yeni kadrların hazırlanması və s.) da göstərir və aradan qaldırmağa çalışırdı.

[315] «Maarif və mədəniyyət» jurnalı, 1926 , № 9.
[316] Doqquz ildə maarif. – «İnqilab və mədəniyyət » jurnalı, mart-apre, 1929, № 3-4.

Mustafa Quliyev "Müəllimlərin hazırlığı" məqaləsində göstərirdi ki, Azərbaycanda 1100 məktəbdə 1450 azərbaycanlı müəllim var. Bunlardan 73 nəfəri ibtidai təhsilə, 320-si orta təhsilə, 50 nəfəri isə ali təhsilə malikdir[317]. Mənbələrin verdiyi məlumata görə, Mustafa Quliyev maarif komissarı olduğu dövrdə, məhz onun səyi nəticəsində yüzlərlə tədris müəssisəsi tikilib istifadəyə verilmişdir.

Bütün bunlarla yanaşı, 1922-1927-ci illərdə maarif sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib. 1923-cü ildə Vahid əmək məktəbinin əsasnaməsi təsdiq edilib, tədris planı və proqramları, yeni dərsliklər yazılıb. 1924-cü ildə fəhlə fakültələri haqqında əsasnamə hazırlanıb, 1925-ci ildən ümumi ibtidai icbari təhsilə keçilib. 1926-cı ildən məktəblər yeni proqramlara keçib, 1927-ci ildə savadsızlıqla mübarizə geniş vüsət alıb, məktəblərin sayı 1478-ə çatıb. Deyilənlər təsdiq edir ki, 1920-ci illərin çətin dövründə və mürəkkəb şəraitdə Mustafa Quliyev bir Maarif komissarı kimi öhdəsinə düşən vəzifəni böyük məsuliyyət hissi ilə yerinə yetirmişdir.

Ömür yolu siyasi mübarizələrdə keçən Mustafa Quliyev keçən əsrin 30-cu illərində müxtəlif vəzifələrdə çalışmış və bütün vəzifələrdə o, sovet hökumətinə, bolşevik partiyasına sədaqətini ifadə etmişdir.

***

1930-cu illər Azərbaycan ziyalıları üçün stress və ağrı illəri idi. Həmin ağrını bütün ziyalılar, hətta təpədən dırnağa kimi kommunist olan ziyalılar da yaşayırdı. Məsələn, Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov 1925-ci ildə Moskvada zəhərlənib öldürüldü (rəsmi məlumata görə, ürək tutmasından vəfat etmişdir); Azərbaycanı işğal edənlərə bir müddət siyasi rəhbərlik etmiş, 1921-1926-cı illərdə Azərbaycan SSR KP MK-nın birinci katibi olmuş S.M.Kirov 1 dekabr 1934-cü ildə terror yolu ilə aradan götürüldü; Bakını işğal əməliyyatının ümumi komandanı marşal M.Tuxaçevski 1937-ci ilin iyun ayının 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası binasının zirzəmisində güllələndi; Bakını işğal edənlərə Rusiya bolşevikləri adından siyasi dəstək vermiş S.Orconikidze 18 fevral 1937-ci ildə öz mənzilində intihar etdi (oxu: öldürüldü); Azərbaycan Xalq Cümhuriyyətini hərbi yolla devirmiş işğalçı XI Ordunun komandanı M.Levandovski 29 iyul 1938-ci ildə güllələndi; Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində,

[317] "Maarif və mədəniyyət" jurnalı, 1923, №10.

Azərbaycanda sovet hökumətinin qurulmasında müstəsna xidmətləri olmuş, Azərbaycan SSR Hərbi Dəniz İşləri, Xalq Yollar Komissarı, Sənaye vergisi yığımı üzrə fövqəladə səlahiyyətli sədr Çingiz İdırım – Sultanov– 1937-ci ildə həbs olunaraq 27 aprel (bəzi qaynaqlara görə, 25 sentyabr) 1938-ci ildə güllələndi; Azərbaycan İnqilab Komitəsinin üzvü, Azərbaycan SSR-in Xarici İşlər Naziri, Tacikistan SSR Mərkəzi Komitəsinin birinci katibi Mirzə Davud Hüseynov (Fətəli xan Xoyskinin kürəkəni) 21 mart 1938-ci ildə güllələndi; Azərbaycan İnqilab Komitəsinin üzvü, Azərbaycan Milli Hökumətinin devrilməsində fəal təşkilatçı, sonralar Azərbaycan SSR Xalq Komissarlar Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Musabəyov 12 yanvar 1938-ci ildə güllələndi; Azərbaycan İnqilab Komitəsinin üzvü, Azərbaycan SSR Daxili İşlər Naziri Həmid Sultanov 3 iyul 1938-ci ildə güllələndi; Azərbaycan Xalq Cümhuriyyətini yıxanların ən fəallarından, Azərbaycan İnqilab Komitəsinin üzvü, Azərbaycan SSR Xalq Hərbi Dəniz İşləri komissarı, Bakı Sovetinin başçısı Əliheydər Qarayev 24 aprel 1938-ci ildə güllələndi…

Keçən əsrin 30-cu illəri (xüsusilə də 1937-1938-ci illər) şübhə və məhv etmə illəri olduğundan ən sadiq kommunistlər belə bolşevik qurşununun hədəfinə tuş gəlirdi. Kommunistlərin güllələnməsinə təsadüfi hadisə kimi baxmaq olmaz. Fikrimizcə, bunun əsas səbəbləri aşağıdakılardır:

1. Bir çox kommunistlərin milli təfəkkürə malik olmaları və imperiyanın yeritdiyi siyasəti dərk etmələri.

2. Funksiyalarını kifayət qədər sədaqətlə yerinə yetirmiş qulun imperiya – Moskva üçün artıq adama çevrilməsi.

3. Totalitar rejimin idarə və iş üsulu. İclaslarda, yığıncaqlarda, dövri mətbuatda qarşı-qarşıya gətirmə, üz-üzə qoyma. Yəni kommunistlərin öz əlləri ilə özlərini ifşa etdirmək.

4. Birini digərinin əleyhinə danos yazdırmağa məcbur etmək. Danosu siyasi janra çevirmək. Danos yazmayan kommunistin özünü ittiham etmək.

5. İstintaq zamanı fiziki və psixoloji işgəncələr yolu ilə Azərbaycan kommunistlərinin əleyhinə ifadələr almaq.

6. Ermənilərin həyata keçirdiyi tarixi düşmənçilik amili. Bu gün də davam edən məkrli soyqırım siyasəti.

7. Azərbaycanlı kommunistlərin türk və müsəlman olması...

Mustafa Quliyev də SSRİ-də gedən prosesləri az-çox dərk edən, lakin imperiyaya müqavimət göstərməyən, daha doğrusu, göstərə

bilməyən kommunistlərdən idi. Onun fəaliyyəti 1930-cu illərin dövri mətbuatında, yığıncaq və iclaslarda açıq, NKVD-də isə qapalı şəkildə müzakirə predmetinə çevrilmişdi. Məsələn, Yazıçılar İttifaqının iclasında çıxış edən Hacıbaba Nəzərli deyirdi: "Mən, S.Vurğun, Ələkbərli yoldaşlarının ittifaqı sinfi düşmənlərdən təmizləmək haqqındakı fikirləri ilə şərikəm. Biz sinfi düşmənləri yalnız ittifaqdan xaric etməklə kifayətlənməməliyik. Bəlkə onların əsərlərini, onların yaradıcılıqlarını dərindən-dərinə tənqid etməli və tamamilə ifşa etməliyik. Azərbaycan Yazıçılar İttifaqının rəhbərlərindən biri kimi mənim də vaxtilə böyük səhvlərim olmuşdur. Mən də kor-koranə Averbaxın fikirlərini Azərbaycan ədəbiyyatına yaymışam. Bununla bərabər, qeyd etməliyəm ki, biz bəzən ən böyük səhv buraxanlar haqqında susuruq. Belə ki, Mustafa Quliyev vaxtilə H.Cavid kimi konturrevolyusionu indiyə kimi kiməsə deməmişdir. Bundan başqa, ittifaqa qəbul vaxtı Ələkbərli, S.Vurğun, Nəzərli ilə bərabər S.Rüstəmin də günahı olmuşdur. Məncə, biz hamımız partiya və hökumət qarşısında cavab verməliyik".

Bəli, elə də oldu, NKVD-nin üz-üzə qoyduğu və məhbəsə gətirdiyi müttəhimlərin hamısı partiya və hökumət qarşısında cavab verdi və onların böyük əksəriyyəti məhv edildi.

NKVD məhbəsində olan kommunist müttəhimlər də M.Quliyevdən xəbərsiz olaraq onun əleyhinə ifadələr vermək məcburiyyətində qaldılar. Bolşevik müstəntiqlər belə bir qənaətə gəlmişdilər ki, M.Quliyevin "Bakinski raboçiy" qəzetinin səhifələrində işıq üzü görən "Milli mədəniyyət" (24.11.27-ci il), "Milli mədəniyyət haqqında" (05.12.27-ci il), "Türk mədəniyyəti və musavatçılar" (15.06.27-ci il) məqalələri burjua-millətçi, musavatçı mövqedən yazılmışdır.

Bundan başqa, 17.12.24-cü ildə "Bakinski raboçiy" qəzetində dərc etdirdiyi "Ali təhsil müəssisələrinin türkləşdirilmə məsələsi" adlı məqaləsində M.Quliyev belə bir fikri irəli sürmüşdür ki, guya ali təhsil ocaqlarında rus dilinə dözmək lazımdır, çünki "Sovet Azərbaycanında ali təhsil ocaqlarında tədrisin türk dilində aparılması günü yaxındadır". HKVD müstəntiqləri sübut etmişlər ki, M.Quliyev hələ 1924-cü ildə rus dilinə və kadrlara münasibətinin mənfi olduğunu gizlətməmiş və onlardan nə vaxt xilas olacağı günü səbirsizliklə gözləmişdir[318].

Bolşevik çekistlər müəyyənləşdirmişlər ki, M.Quliyevin köməkliyi ilə İsmayıl Hikmətin 3 cildlik "Osmanlı ədəbiyyatının tarixi", Firudin bəy Köçərlinin 2 cildlik "Azərbaycan ədəbiyyatı tarixi üzrə materiallar"ı

[318] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.

adlı ideoloji cəbhəyə ziyan vuran əsərləri nəşr olunmuşdur. Bundan başqa o, Hacıbaba Nəzərlinin 1923 və 1924-cü illərdə Mustafa Kamala həsr olunmuş iki əksinqilabi millətçi pyesini hərbi məktəbdəki klubda səhnəyə qoydurmuşdur.

Sən demə, ədəbiyyat cəbhəsinə daxil olduğu gündən Hacıbaba Nəzərli və Mustafa Quliyev bütün musavatçı yazıçı və şairlərə H.Cavidə, Ə.Cavada, Y.Vəzirova, A.Şaiqə, eləcə də ittihadçıların lideri S.M.Qənizadəyə həm maddi, həm də mənəvi kömək göstərmişlər. Guya bu iki şəxs adları çəkilən yazarlara böyük miqdarda pul verərək onları açıq-aşkar əksinqilabi əsərlər yazmağa sövq edirdilər. Hətta M.Quliyev sürgündən qayıtmış musavatçı Qurban Musayevə belə arxa durmuş, onun "Qızıl Çeşmə" pyesinin səhnəyə qoyulmasına şərait yaratmışdır[319]. Əlbəttə, bütün bunlar bolşevik müstəntiqlərinin işgəncə yolu ilə müttəhimlərdən aldıqları uydurma və saxta ittihamlara söykənən, həqiqətdən uzaq fikirlər idi. Əsil həqiqət o idi ki, M.Quliyev müsavatçıların deyil, bolşeviklərin havadarı idi.

Fakt budur ki, artıq 30-cu illərdə onu da əksinqlabçı millətçilərin sırasına daxil etdilər və həbsi üçün bütün hüquqi əsasları hazırladılar. Xalq Daxili İşlər Komissarlığı (XDİK) 2 avqust 1937-ci ildə XDİK-in Dövlət Təhlükəsizlik İdarəsinin 6-cı şöbə 4-cü bölməsinin rəisi Dövlət Təhlükəsizlik baş leytenantı Xocayev tərəfindən tərtib edilmiş arayışda Mustafa Quliyevin əksinqilabi təşkilatın üzvü olması və bununla əlaqədar Az.SSR CM-nin 72/73 maddələri ilə cinayət məsuliyyətinə cəlb olunmasının zəruriliyi bildirilirdi. Hətta onun haqqında ehtiyat tədbirlərinin seçilməsi və ittiham irəli sürülməsi məqsədilə qərar da qəbul edilmişdi[320].



Az.SSR XDİK DTİ-nin 4-cü şöbəsinin rəisi Dövlət Təhlükəsizlik (DT) kapitanı Tsinman göstərirdi ki, 1895-ci ildə (1893-cü il olmalıdır - C.Q.) anadan olmuş, YK(b)P-nin üzvü, Az.SSR keçmiş Xalq Maarif Komissarı, 1929-cu ildən sonra Qazaxıstanda əvvəlcə Xalq Maarif Komissarı, sonra isə YK(b)P-nin Çimkənt RK-nin Katibi işləmiş, hal-hazırda isə Moskva şəhərində olan Mustafa Quliyev əksinqilabi burjua millətçi təşkilatın üzvü olmaqda və təşkilatın

[319] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.
[320] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.

rəhbərliyinə başçılıq etməkdə ittiham olunur. Bunları nəzərə alan DT kapitanı Tsinman **QƏRARA ALIR** ki, vətəndaş Quliyev Mustafa Azərbaycan SSR CM-in 72/73-cü maddələri ilə ittiham olunaraq həbs edilsin və Azərbaycan XDİK-in həbsxanasında nəzarət altında saxlanılsın. Bu qərar 7 avqust 1937-ci ildə müttəhim M.Quliyevə elan edilir.

1937-ci ilin noyabr ayında Az.SSR XDİK əməkdaşı DT baş leytenantı A.Qvozdyov tərəfindən istintaq işi öyrənildikdən sonra M.Z.Quliyevə əlavə olaraq Sovet hakimiyyətini devirmək məqsədi ilə silahlı üsyanın hazırlanmasında və xariclə - Müsavat Partiyasının Mərkəzi Komitəsinin Xarici bürosu ilə qeyri-leqal əlaqə yaradılmasında, yəni Az.SSR CM-nin 64-cü maddəsində göstərilən cinayətlərin törədilməsində iştirakına görə cinayət işi açılır. Onun barəsində eləcə də əksinqilabi millətçi, üsyankar, ziyankar, casus, terrorist təşkilatın fəal üzvü olaraq Sovet hakimiyyəti və YK(b)P-nın rəhbərlərinə qarşı göstərişlərə şərik olması faktı kifayət qədər aşkarlanmışdır. O, əlavə olaraq Az.SSR CM-nin 21-69 və 21-70-ci bəndlərində nəzərdə tutulan cinayətlərin törədilməsində də ittiham edilir[321].

Az.SSR XDİK DTİ tərəfindən verilmiş 2 avqust 1937-ci il tarixli 939 nömrəli orderə əsasən M.Quliyevin evində axtarış aparılır və o, həbs olunur. Axtarış zamanı onun evindən götürülən əşyalar istintaq üçün o qədər də əhəmiyyət kəsb etmədiyindən yandırılmışdır.

Həbs olunan zaman onunla birlikdə yaşamışdır:

Həyat yoldaşı - Yelizaveta İvanovna - 32 yaşında.

Oğlu Saladdin - 15 yaşında.

Qızı Səltənət - 12 yaşında.

Oğlu Boris - 6 yaşında.

Mustafa Quliyevi ilk dəfə 13 avqust 1937-ci ildə DT baş leytenantı Qvozdyov dindirir. Dindirmə protokolunda oxuyuruq:

Sual: Sizin Sovet hakimiyyəti ilə fəal mübarizə aparan əksinqilabi millətçi təşkilatda iştirakınız haqqında istintaqda kifayət qədər məlumat var, sizdən tələb edirik ki, bu məsələ üzrə düzgün ifadə verəsiniz.

Cavab: Bununla bağlı mən heç nə bilmirəm, heç bir əksinqilabi millətçi təşkilatın üzvü olmamışam.

Sual: İstintaqa məlumdur ki, bir neçə il bolşevik partiyasının üzvü olmusunuz. Həmin vaxtlarda əksinqilabi millətçi əhval-ruhiyyədə olduğunuzu öz dostlarınıza da söyləmisiniz. Bu fikirləri eyni ilə onlardan da

[321] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.

eşitmisiniz, lakin nəinki onları ifşa etmisiniz, hətta onlarla həmrəy olmusunuz. Sizə təklif olunur ki, inkarçılığı dayandırasınız və bu məsələ üzrə düzgün ifadə verəsiniz.

Cavab: Xahiş edirəm ki, mənim bu fəaliyyətim haqqında konkret faktlar göstərəsiniz.

Sual: Bu məsələ haqqında istintaqa bir sıra faktlar məlumdur və onlar Sizə göstəriləcək. İndi Siz onda ittiham olunursunuz ki, bir neçə il məsul işçi və ÜK(b)P-nın üzvü olarkən hər cəhdlə musavatçı və digər əksinqilabi ünsürləri müdafiə etmisiniz, ədəbiyyatda və incəsənətdə əksinqilabi musavatçı və əksinqilabi millətçi ideyaları təbliğ etmisiniz, bununla da Azərbaycan SSR-də həqiqi sovet mədəniyyətinin inkişafına mane olmusunuz.

Cavab: Mən heç bilmirəm ki, söhbət nədən gedir. Mən heç vaxt buna bənzər işlər görməmişəm.

Sual: İstintaqa məlumdur ki, 1930-cu ildə Sovet hakimiyyətinə qarşı əməliyyatlar aparan quldur dəstələrinə köməklik göstərmisiniz. Bu haqda istintaqa məlumat verin.

Cavab: Mən bunu qəti inkar edirəm[322].

***

Müsavata və müsavatçılığa qarşı mübarizə bu illərin ən aktual məsələlərindən biri və bəlkə də birincisi idi. Ona görə də, birinci istintaqda olduğu kimi, ikinci istintaqda, yəni 20 sentyabr 1937-ci il dindirməsində M.Quliyevi bu aktual məsələdə - müsavatçılarla əlbir olmaqda yenidən ittiham edirdilər.

Sual: Əgər siz könüllü olaraq öz günahlarınızı boynunuza almır və əksinqilabi fəaliyyətinizi gizlədirsinizsə, biz məcburuq ki, sizi ifşa edək: Sizə 07 dekabr 1936-cı il tarixində M.Kələntərovun ifadəsindən bir parçanı oxuyuruq. Oradan görünür ki, 1919-1920-ci illərdə siz Lənkərandakı gizli bolşevik təşkilatının rəhbərlərindən biri kimi musavatçıların "Hümmət" gizli inqilabi təşkilatına daxil olmasına kömək etmisiniz. Bu ifadələrdən həmçinin görünür ki, siz Əli Məmmədovun Musavatçı Komitə ilə fəal əlaqəsi haqqında bilirdiniz, lakin buna baxmayaraq, onu Bakı şəhərinə bolşeviklərin birinci gizli qurultayına göndərdiniz. Bu ifadədən o da görünür ki, siz Lənkəranda 1920-ci il çevrilişindən sonra sovet partiya təşkilatları aparatında musavatçıların qorunmasını davam etdirmiş, onları işə düzəltmiş və hər cür vasitələrdən

[322] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu PR - № 12493.

istifadə edərək gənc musavatçı nəslindən olan kadrları qoruyub saxlamısınız.

Cavab: Mən bu ifadələri inkar edirəm. Mən o dövrdə bilmirdim ki, Əli Məmmədov və başqaları musavat təşkilatının üzvüdürlər.

Sual: İndi sizə bir neçə ifadə oxuyacam, onlardan da görünür ki, siz məşhur panislamist türklərdən Fikrətə və Hikmətə hər cür köməklik göstərmisiniz və hətta onların aydın panislamist fikirlərlə dolu olan əsərlərini nəşr etməyə imkan yaratmısınız.

Cavab: Mən bu ifadələri rədd edirəm.

Sual: Sizə əksinqilabi millətçi təşkilatda fəal iştirakınızı göstərən Dövlətovun, Talıblının, Rəhim Həsənovun və Rəhim Hüseynovun ifadələri oxunur. Günahkar olmağınızı boynunuza alırsınızmı?

Cavab: Mən heç vaxt heç bir əksinqilabi təşkilatın üzvü olmamışam.

Sual: Sizə 1930-cu ildə əksinqilabi millətçi təşkilat adından (və ya tərəfindən) əksinqilabi üsyana bilavasitə kömək etməyiniz haqqında Əziz Qubaydullinin ifadəsi oxunur.

Cavab: Qubaydullin ilə mən heç bir əksinqilabi söhbətlər aparmamışam. Bu ifadələr həqiqətə uyğun deyil.

Sual: İstintaq sizin öz günahlarınızı etiraf etmək arzusunda olmadığınızı və sizin əksinqilabi fəaliyyətiniz haqqında istintaq tərəfindən müəyyən edilmiş faktları inkar etməyinizi müəyyən etmişdir. Sizə təklif edirik ki, bu taktikaya son qoyasınız və özünüzün əksinqilabi millətçi işiniz haqqında düzgün ifadələr verəsiniz.

Cavab: Mən heç vaxt millətçi olmamışam[323].

***

20 oktyabr 1937-ci il dindirilməsi zamanı müstəntiq Dövlət Təhlükəsizliyi baş leytenantı Qvozdyov müttəhim Mustafa Quliyevin başqa özəlliklərini, həm də indiyə kimi heç kəsə məlum olmayan özəlliyini üzə çıxarır. Müttəhim Sultanov Abbasın 15 oktyabr 1937-ci ildə verdiyi ifadəyə əsasən Dövlət Təhlükəsizliyi müstəntiqi müəyyənləşdirir ki, M.Quliyev

[323] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu PR - № 12493.

1) 1926-cı ildən başlayaraq əksinqilabi İttihad təşkilatının rəhbərlərindən biri olmuşdur;

2) Bu təşkilatın rəhbəri kimi Azərbaycan müəllimləri arasında köhnə milli kadrların saxlanılması üçün mübarizə aparmış, gənclərin əksinqilabi və panislamist ruhda tərbiyə olunmasına çalışmışdır;

3) Bakı və Nuxada əksinqilabi ittihad təşkilatının bir sıra özəklərini yaratmış və ora müəllimləri cəlb etmişdir;

4) Bu əksinqilabi təşkilatın adından Məmməd Əmin Rəsulzadənin şəxsində Müsavat partiyasının Xarici bürosu ilə qeyri-leqal əlaqə yaratmış, ondan istifadə edərək əksinqilabi təşkilatın üzvü Sultanov Abbas ilə əlaqə yaratmışdır.

Müstəntiq M.Quliyevə özünün saxta uydurmalarını sübut etmək üçün müttəhim Həbib Cəbiyevin 13 sentyabr 37-ci ildə, Əziz Qubaydullinin 04 avqust 37-ci ildə verdiyi ifadələri oxuyur. Həmin ifadələrə əsasən M.Quliyev 1929-cu ildən Ə.H.Qarayevin, R.Axundovun və D.Bünyadzadənin başçılığı ilə yeni təşkil olunmuş əksinqilabi təşkilatın üzvü olmuş, Azərbaycan SSR Xalq Maarif Komissarlığında olarkən pantürkist qeyri-leqal əksinqilabi millətçi təşkilatla əksinqilabi əlaqə yaratmış, antisovet qüvvələri sovet hakimiyyəti ilə mübarizəyə sovq etmişdir.

Müstəntiqin bu ittihamlarına M.Quliyevin cavabı belə olmuşdur: "Mən bu ifadələri qətiyyətlə inkar edirəm".

Biz heç bir müdaxilə etmədən müttəhim M.Z.Quliyevin 10 noyabr 1937-ci il dindirməsini oxucuların diqqətinə çatdırırıq.

Sual: Sizə müttəhim Əliyev İsgəndərin 14 oktyabr 37-ci ildə verdiyi ifadəni oxuyuruq. Buradan aydın görünür ki, 1934-35-ci illərdə siz əksinqilabi millətçi təşkilatın mərkəzinin üzvü Ə.H.Qarayevin rəhbərliyi ilə fəal əksinqilabi millətçi iş aparmısınız. Praktiki olaraq sizin Qazaxıstandakı əksinqilabi işinizə Teymur Əliyev vasitəsilə demək olar ki, Ə.H. Qarayev rəhbərlik edirdi. Siz özünüzü bunda günahkar hesab edirsinizmi?

Cavab: Xeyr, hesab etmirəm.

Sual: Sizə Saleh Teymur oğlunun 10 oktyabr 37-ci ildə verdiyi ifadə oxunur. Buradan göründüyü kimi, onun 1934-cü ildən sizinlə əksinqilabi millətçi təşkilatın üzvü kimi əlaqəsi olmuşdur.

Cavab: Mən bu ifadələri inkar edirəm. Onlar yalandır.

Sual: Sizə müttəhim Bünyadzadə Dadaşın 31 avqust 37-ci ildə verdiyi ifadə oxunur, buradan da görünür ki, Qarayazı MTS-nin siyasi şöbəsinin rəisi olanda Azərbaycandakı əksinqilabi millətçi təşkilatın rəhbəri Ruhulla Axundov ilə əksinqilabi əlaqələr yaratmısınız. Bunu təsdiq edirsinizmi?

Cavab: Mən bunu inkar edirəm.

Sual: Sizə müttəhim Həsən Səfərovun 20 avqust 37-ci ildə verdiyi ifadə oxunur, bunlardan görünür ki, siz bir neçə il ərzində əksinqilabi millətçi Azərbaycan təşkilatının üzvü kimi belə bir təşkilatın rəhbərlərindən biri Ə.H.Qarayev ilə əlaqədə olmusunuz. Bunu təsdiq edirsinizmi?

Cavab: Xeyr, mən bunu inkar edirəm.

Sual: Sizə müttəhim Talıblı Böyük Ağanın 21 mart 1937-ci ildə verdiyi ifadə oxunur, burada deyilir ki, Xavər Şabanova ona Sizin Ə.H.Qarayev ilə olan əksinqilabi əlaqəniz və sizin əksinqilabi millətçi təşkilatın Moskva qrupuna daxil olmanız haqqında danışırdı. Bu suala nə deyə bilərsiniz?

Cavab: Bu yalandır.

Sual: Sizə Nəzərli Hacının (söhbət Hacıbaba Nəzərlidən gedir – C.Q.) 2 oktyabr 37-ci ildə verdiyi ifadədən görünür ki, 1935-ci ilin noyabr ayında Siz Bakıda olarkən onunla əksinqilabi əlaqə yaratmısınız, ədəbiyyat və incəsənətdə əksinqilabi millətçi quruluşları təbliğ etmisiniz. Bunu təsdiq edirsiniz, ya yox?

Cavab: Mən bunu inkar edirəm.

Sual: İstintaq ərzində siz onlarla ifadə və üzləşdirmə ilə ifşa olunmusunuz. Bu ifadələr ilə sizin on illər ərzindəki əksinqilabi, millətçi fəaliyyətiniz ifşa olunmuş və buna baxmayaraq siz inadkarlıq göstərir, üstü açılmış və istintaq tərəfindən dəfələrlə sübut olunmuş cinayətlərinizi yenə də gizlədirsiniz.

SSRİ-nin müxtəlif şəhərlərində həbs olunmuş, istintaq zamanı bir-birindən təcrid olunmuş, lakin eyni ifadə vermiş onlarla adam tərəfindən ifşa olunursunuz. Siz bu faktı necə izah edə bilərsiniz ki, bir-biri ilə əlaqəsi olmayan onlarla adam sizi ifşa edir?

Cavab: Mən bunu izah edə bilmərəm.

M.Quliyevin son dindirilməsi 26 dekabr 1937-ci ildə oldu (bu dindirmədən bir gün sonra M.Z.Quliyevə istintaqın başa çatdığı elan

olunur) və müstəntiq onu əlavə olaraq Azərbaycan SSR CM-nin 64, 21-69 və 21-70-ci maddələri ilə ittiham etməyə başladı. Müstəntiq bildirdi ki, siz CM-nin göstərilən bu maddələrində cinayətlərin törədilməsində, yəni silahlı üsyanların hazırlanmasında, illər boyu üzvü olduğunuz əksinqilabi təşkilatın ziyankarlıq və terrorçu fəaliyyəti haqqında məlumatlı olub, lakin onu gizlətmisiniz. Müstəntiq qəti şəkildə, həm də son dəfə M.Quliyevdən soruşur: "Siz özünüzü bütün bunlarda müqəssir hesab edirsinizmi?"

Təpədən dırnağa kimi kommunist olan və bolşevik partiyasına sonadək sadiq qalan M.Quliyev müstəntiqə son olaraq deyir: "Bu cinayətlərdə mən özümü müqəssir hesab etmirəm. Mən heç zaman əksinqilabi millətçi təşkilatın üzvü olmamışam". 1 dekabr 1937-ci ildə M.Z.Quliyevi məhkəmənin (formal olsa belə - C.Q) hökmü olmadan xalq düşməni kimi partiya sıralarından xaric edirlər. **Partiyadan xaric etmə, həm də onun ölüm hökmü idi.**

Beləliklə, SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının hazırlıq iclasının 2 iyul 1938-ci il (protokolu № 6) qərarına əsasən müəyyən edilmişdir:

1.İttihamnamə ilə razılaşsınlar.

2. M.Z.Quliyevi Azərbaycan SSR CM-nin 64, 70 və 73-cü maddələri ilə məhkəməyə versinlər.

3. İşə bağlı məhkəmə iclasında, ittihamçı, müdafiəçi və şahidlər olmadan 1 dekabr 1934-cü il qanuna müvafiq olaraq baxılsın.

4. Cəza tədbiri kimi müttəhim üçün həbsxanada qalmaq seçilsin[324].

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının hazırlıq iclasının qərarına əsasən 3 iyul 1938-ci ildə Matuleviçin sədrliyi, Kolpanov və Kulakın üzvlüyü, Kozlovun katibliyi ilə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının bağlı məhkəmə iclası keçirilir. İclas saat 21.20-də başlayır və 21.40-da başa çatır. İstintaqda olduğu kimi, məhkəmədə də M.Quliyev özünü müqəssir hesab etmir.

Buna baxmayaraq Hərbi Kollegiya M.Z.Quliyevə ən yüksək cəza – **güllələnmə və əmlakının müsadirə edilməsi** hökmünü çıxarır. Güllələnmə hökmü həmin gün, yəni 3 iyul 1938-ci ildə icra olunur[325]**.**

[324] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.
[325] DTX-nin arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - № 12493.

Stalinizm kultu sındıqdan sonra, 19 avqust 1955-ci ildə M.Quliyevin qızı Bakı şəhəri Çkalov küçəsi dalan 1, ev 4-də yaşayan Səltənət Quliyeva xüsusi işlər üzrə hərbi prokurorun müavini Çesnokova məktubla müraciət edir. Bu məktubda o, qeyd edirdi ki, repressiyaya məruz qalan təkcə onun atası deyildi. Bu ailənin bütün üzvləri -anası, qardaşı və özü də repressiyaya məruz qalmışdı. Onun tərcümeyi-halı (vətən xaininin qızı olması – C.Q.) ona vaxtı ilə Azərbaycan Sənaye İnstitutuna daxil olmağa imkan verməmiş və indi də işə qəbul olunmasını çətinləşdirir. Ona görə də Səltənət xanım israrla xahiş edirdi ki, atasının işinə yenidən baxılsın. Məktubda o da qeyd edilirdi ki, bu barədə daha ətraflı məlumatı onun anası Mariya Vladimirovna Quliyeva verə bilər.

M.Quliyevin cinayət istintaq qovluğunda 30-cu illərdə istintaqın aparılması metodunun bəzi cəhətlərinə aydınlıq gətirən ifadələr də vardır ki, onları da geniş oxucu kütləsinin müzakirəsinə veririk.

1932-ci ildən 1938-ci ilin dekabr ayına kimi dövlət təhlükəsizlik orqanlarında işləyən Zelenski Yakov Feliksoviçin 3 avqust 1954-cü ildə verdiyi şahid ifadəsində o, bildirirdi ki, 1937-1938-ci illərdə müttəhimlər dindirilərkən onlara qarşı bütün cinayətkar metodlardan istifadə edirdilər. Bu haqda XDİK-in xadiməsindən tutmuş K(b)P MK-nın birinci katibi M.C.Bağırova kimi hamı bilirdi. Xadimələr ona görə bilirdilər ki, istintaq zamanı müstəntiqlərin döydükləri müttəhimlərin qışqırıqlarını və iniltilərini daima eşidirdilər. Birinci katib isə ona görə bilirdi ki, o tez-tez XDİK-ə gəlirdi. Yadımdadır, vaxtilə XDİK-də işləyən, sonralar isə həbs olunan Qasımov Eyyub, Sapfir, Xentov Pavel, Naumkin istintaq zamanı Xüsusi şöbədə müstəntiqlər tərəfindən döyülmüşdülər. Şübhəsiz ki, belə işgəncələr heç nəyi boynuna almayan Mustafa Quliyevə də tətbiq edilmişdi.

Qızının müraciətindən sonra Mustafa Zəkəriyyə oğlu Quliyevin işinə yenidən baxıldı və əməllərində heç bir cinayət tərkibi olmadığına görə 19 may 1956-cı ildə ona bəraət verildi.

SULTAN MƏCİD QƏNİZADƏ

Əziz Şərif yazırdı ki, fevralın 26-da axşam saat 7-də Türkoloji qurultay açıldı. Hüseyn Cavidlə yanaşı oturmuşdum. Mirzə Cəlil, Sultan Məcid Qənizadə və başqaları ilə görüşdüm[326].

Azərbaycanın elm, maarif və mədəniyyət adamları, başqa sözlə, ziyalılar 30-cu illərdə faciəvi hallarla tez-tez rastlaşırdılar. Demək olar ki, bu illərdə XDİK-in qılıncının altından keçməyən ziyalı qalmamışdı. Həmin adamlardan biri də Sultan Məcid Qənizadə (istintaq işində onun soyadı "Qənizadə" əvəzinə "Qəniyev" kimi qeyd edilmişdi, lakin biz onun soyadını "Qənizadə" yazacağıq) idi. S.M.Qənizadə 1866-cı ildə (istintaq işində onun 1868-ci ildə doğulduğu qeyd edilmişdir – C.Q.) Şamaxı şəhərində doğulmuşdur. Görkəmli şair-pedaqoq S.Ə.Şirvanidən və maarifçi-publisist Cəlal Ünsizadədən dərs almışdır. Şamaxı şəhər məktəbini "əla" qiymətlərlə başa vurduqdan sonra orada birillik pedoqoji kurs bitirib müəllimlik vəsiqəsi almış, 1883-1887-ci illərdə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunda oxumuşdur. S.M.Qənizadə Həbibbəy Mahmudzadə ilə birlikdə Bakı şəhərində ilk "Rus-müsəlman" məktəbinin əsasını qoymuş, müxtəlif dərsliklər, dram əsərləri, publisist məqalələr, hekayələr və s. yazıb çap etdirmiş, ömrünü Azərbaycan xalqının maariflənməsinə və mənəvi yüksəlişinə həsr etmişdir. 1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan parlamentinin üzvü olmuşdur. 1937-ci ilin iyulunda (gün göstərilməyib – C.Q.) Xalq Daxili İşlər Komissarlığının Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbə 4-cü bölməsinin rəisi,dövlət təhlükəsizlik baş leytenantı Qriqoryan Azərbaycanın maarif və mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan, böyük yazıçı və pedaqoq C.M.Qənizadə haqqında arayış hazırladı. Arayışda göstərilirdi ki, ümumittifaq pantürkist təşkilatının həbs olunmuş üzvlərinin ifadələrinə əsasən müəyyən edilmişdir ki, S.M. Qəniyev Azərbaycan SSR-də olan əksinqilabi "İttihad" təşkilatının üzvlərindən biridir. O, Türkiyə və İranda yerləşən əksinqilabi emiqrant dairələri ilə əlaqədədir.

Qriqoryanın bu arayışından sonra Azərbaycan SSR prokuror köməkçisi, istintaq işləri üzrə rəis müavini Yaravoy S.M.Qənizadənin həbs olunması haqda 25 iyul 1937-ci ildə qərar qəbul etdi.

25 iyul 1937-ci ildə Bakı şəhərində Azərbaycan SSR XDİK DTİ-nin 4-cü şöbəsinin rəisi, DT kapitanı Sinman 12493 nömrəli istintaq

[326] Məmmədli Q. Cavid ömrü boyu həyat və yaradıcılıq calnaməsi. Bakı, 1982, s 180.

işinə baxaraq belə qərara gəlmişdir ki, Sənaye Akademiyasında müəllim işləyən azərbaycanlı, Azərbaycan SSR vətəndaşı, bitərəf S.M.Qəniyev əksinqilabi ittihadçı təşkilatın üzvü olduğuna görə Azərbaycan SSR CM-nin 72-73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham edildiyindən həbs edilməli və XDİK-in həbsxanasında nəzarət altında saxlanılmalıdır.

Baş leytenant Qriqoryanın imza atdığı həmin qərarı XDİK-in rəis müavini, DT mayoru Gerasimov təsdiq etmişdir.

S.M.Qəniyevi həbs etmək üçün bütün "hüquqi" sənədlər hazır idi. Hətta mənzilində axtarış aparmaq niyyəti ilə iyulun 25-də 854 nömrəli order də imzalanmışdı. Həmin orderə əsasən, 26 iyul 1937-ci ildə onun yaşadığı Bakı şəhəri Nijni Kladbişenskoye küçəsi, ev 81, mənzil 20-də axtarış aparıldı. Axtarış zamanı onun evindən müxtəlif qiymətli əşyalar, əlyazma və kitablar da götürülmüşdür. Bunların arasında, bizcə, daha çox maraq doğuranı özünün müxtəlif ünvanlara yazdığı və müxtəlif ünvanlardan aldığı qiymətli əlyazmalar, məktublar, eləcə də 15 səhifədən ibarət tərcümeyi-halı idi. Heç şübhəsiz ki, həmin məktublarda Azərbaycan ədəbiyyatının, maarif və mədəniyyətinin bir çox problemləri öz əksini tapmışdır. Axtarış zamanı götürülənlər arasında maraq doğuranlarla yanaşı, təəccüb doğuranlar da vardı. Təəccüb doğuran o idi ki, belə bir yazıçı guya evində revolver (tapança), beşbarmaq və fin bıçağı saxlayırmış.

Həyatı boyu insanları humanizmə, birliyə, dostluğa, qardaşlığa səsləyən yazıçıya, müəllimə, görəsən ,beşbarmaq və yaxud da tapança, bıçaq nə üçün lazım idi?

29 iyul 1937-ci ildə aparılan ilk dindirmə kiçik leytenant N.Musatovu o qədər də razı salmadı. Çünki, müstəntiqin "İttihad" təşkilatına rəhbərliyi siz etmisiniz?" sualına müsbət cavab verilməmişdi. Ona görə də 2 mart 1938-ci ildəki ikinci dindirmədə müstəntiq məhz həmin məsələ ilə bağlı suala daha çox diqqət yetirir.

Sual: İstintaqa məlumdur ki, siz həbs olunana qədər fəal pantürkist olmusunuz və "İttihad" təşkilatında fəal əksinqilabi iş aparmısınız. Bunu boynunuza alırsınızmı?

Cavab: Xeyr, mən bunu boynuma almıram. Keçmişdə mən "İttihad" təşkilatının fəal üzvü olmuşam, lakin Azərbaycanda sovetləşmə gedəndən sonra mən siyasi işlərlə məşğul olmamışam.

Sual: İstintaqa izah edin, inqilabdan əvvəl siz hansı partiyanın üzvü olmusunuz?

Cavab: İnqilabdan əvvəl mən heç bir siyasi partiyanın üzvü olmamışam, ancaq çarın quruluşuna qarşı mübarizə aparmışam.

Sual: Müsavat vaxtında hansı siaysi partiyanın üzvü olmusunuz?

Cavab: Müsavat dövründə mən "İttihad" partiyasının üzvü olmuşam. Mütləqiyyət devrildikdən sonra bu partiya "Müsavat" partiyasının əleyhinə mənim tərəfimdən təşkil edilmişdi və parlamentdə "Müsavat" partiyasından ayrılmışdı. Parlamentdə mən "İttihad" partiyasının nümayəndəsi idim. Mən parlamentin üzvü olanda (Müsavat parlamenti) məni təhsil naziri təyin etmək istəyirdilər. Lakin mən razılıq vermədim və Azərbaycanın sovetləşməsi günündək "İttihad partiyasının nümayəndəsi kimi "Müsavat "parlamentinin pullu üzvü olmuşam. "İttihad" partiyasından orada 11-12 üzv var idi. Parlamentdə bizim "İttihad" partiyası sağ istiqamətli partiya idi və o, sistematik olaraq iqtidar kimi "Müsavat" partiyasının əleyhinə çıxış edirdi. Bunun da əsas səbəbi o idi ki, Müsavat partiyası İrana meyil göstərirdi və inqilabdan qabaq Azərbaycana müstəqillik tələb edirdi.

Sual: Hansı rayonlarda "İttihad" təşkilatı qurulmuşdu və onları kim yaratmışdı?

Cavab: "İttihad" təşkilatı Göyçay, Quba, Şamaxı rayonlarında mənim təşəbbüsümlə yaranmışdı. Azərbaycanda bu təşkilatın neçə nəfər üzvü olduğunu deyə bilmərəm, ancaq qeyd etməliyəm ki, "Müsavat" partiyasına nisbətən olduqca az idi.

Sual: Siz deyirsiniz ki, sovetləşmədən sonra "İttihad" təşkçilatının üzvü olmamısınız. Biz buna inanmırıq. Siz nəinki bu təşkilatın üzvü, hətta rəhbər vəzifədə olmusunuz. Bunu boynunuza alırsınızmı?

Cavab: Mən bir də elan edirəm ki, sovetləşmədən sonra "İttihad" təşkilatının üzvü olmamışam.

Kiçik bir haşiyə çıxıb S.M.Qənizadənin ifadəsində göstərdiyi Azərbaycan parlamentində "İttihad" partiyasından 11-12 nəfər üzv olması fikrini dəqiqləşdirmək istərdik. 1918-ci ildə yaradılmış ilk Azərbaycan parlamentinə cəmi 120 nəfər millət vəkili seçilməli idi. Lakin parlament 120 deyil, 85 nəfərdən ibarət yaradıldı. Bu barədə M.Ə.Rəsulzadə yazırdı: "Məclisi-məbusan 85 məbusdan ibarət idi. Bunlardan 10-u erməni, 5- rus, 5- də müxtəlif millətlərdən olmaq üzərə 20-si qeyri-müsəlman olub, mütəbat 65-i islam və tamamilə türk idi. Firqə etibarı ilə məclis bu surətlə təmsil olunmuşdu: Müsavat firqəsi – 27, Müsavata qoşulan bitərəf qrup – 6, İttihad firqəsi – 11, Sosialist bloku – 11, Əhrar firqəsi – 7, Müstəqil fikirlilər – 3".

İkinci dindirmə zamanı S.M.Qənizadə daha çox müsəlman xalqlarının birləşdirilməsində fəal iştirakına və tanınmış jurnalist, "Tərcüman" qəzetinin redaktoru Qaspirinski ilə Şərq xalqları arasında apardığı təbliğata görə ittiham edilirdi:

Sual: İstintaqa məlumdur ki, siz tanınmış pantürkist Qaspirinski ilə Şərqdə hər yeri gəzərək təbliğat aparmısınız ki, bütün müsəlmanlar birləşsinlər.

Cavab: Bu düzdür. Qaspirinski ilə biz üç gün Buxara əmirliyində olmuşuq və əmirlə cəmi yarım saat söhbət etmişik. Yadımda deyil ki, Qaspirinski çarın əleyhinə, yoxsa lehinə danışıb. Ora getməkdə məqsəd müsəlman xalqlarının birləşməsi məsələsi deyildi. Mən şəxsən Buxara əmirliyinin yanında Qaspirinski ilə görüşmüşəm.

Sual: Siz bir çox şahidlərin ifadələrinə əsasən, bir əksinqilabçı, ittihadçı kimi təsdiq olunmusunuz. Amma buna baxmayaraq, siz təslim olmamısınız. Əks təqdirdə sovet hökumətinin düşməni kimi qalırsınız.

"Sovet hökumətinin düşməni" kimi yadda qalan S.M.Qənizadəyə əksinqilabi millətçi olduğunu, silahlı üsyan mövqeyində durduğunu sübut etmək istəyirdilər. Ona görə də tez-tez ayrı-ayrı həbs edilənlərin ifadələrindən gətirilmiş sitatlarla, eləcə də ayrı-ayrı şəxslərlə üzləşmələrlə onu təslim olmağa çağırırdılar və hər dəfə eyni cavabı alırdılar. İfadələrdən aydın olurdu ki, Qənizadənin mənsub olduğu "İttihad" təşkilatının əsas məqsəd və məramı gəncləri millətçi ruhda tərbiyə etmək, Almaniyada, Türkiyədə, Pakistanda, Fransada və s. yaşayan emiqrantlarla iş aparmaq, Sovet hökuməti ilə mübarizə mövqeyində dayanmaqdır.

Üzləşmə zamanı Qənizadə yenə də Sovet hökuməti qurulduqdan sonra heç bir əksinqilabi millətçi təşkilata rəhbərlik etmədiyini bildirmiş və qeyd etmişdir ki, o özünü günahkar hesab etmir. Müstəntiqlər üçün isə o, günahkardı və ittiham olunmalı idi. "Günahkar" olduğuna görə də heç bir məhkəmə olmadan onun barəsində Azərbaycan SSR XDİK üçlüyünün 14 mart 1938-ci il iclasında aşağıdakı kimi qərar qəbul edildi:

Eşidildi: 10207 nömrəli istintaq işi, 1868-ci ildə doğulmuş, bitərəf Sultan Məcid Qəniyev.

Qərara alındı: S.M.Qəniyev pantürkist olduğuna, mədəniyyət cəbhəsində ziyanverici iş apardığına, silahlı üsyan mövqeyində dayandığına görə **GÜLLƏLƏNSİN VƏ ƏMLAKI MÜSADİRƏ EDİLSİN.** Üçlüyün katibi Savçenko. Bu hökm 1938-ci ildə, mart ayının 21-dən 22-nə keçən gecə, yəni Novruz bayramında yerinə yetirilmişdi. İstintaq qovluğunda bu barədə arayış vardır.

Bu günədək ayrı-ayrı tədqiqat əsərlərində S.M.Qənizadənin ölüm tarixi 1942-ci il kimi qeyd edilmişdir. Bu yanlışlıq da təbii ki, XDİK əməkdaşlarının siyasi repressiyalara məruz qalanların hətta ölümləri barədə də düzgün məlumat verməmələri ilə bağlıdır.

29 oktyabr 1956-cı ildə Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası işə yenidən baxmış və əməllərində cinayət tərkibi olmadığından S.M.Qənizadəyə bəraət verilmişdir.

***

Sultan Məcid Qəniyevin elmi tərcümeyi-halının yazılmasında, eləcə də istintaqın necə aparılması, onun və ailə üzvlərinin narahatlığını dərk etmək üçün həmin materialları da oxucuların ixtiyarına verməyi məqsədəuyğun saydıq.

Az.SSR Daxili İşlər Nazirinə
Bakı şəhəri, Parkovya küçəsi,
ev 69-da yaşayan
Qəniyev Mustafa Hacı Murtuza
Əli oğlu tərəfindən

ƏRİZƏ

Sizə bildirirəm ki, mən 1937-ci ildə qardaşım - Qəniyev Sultan Məcid Hacı Murtuza Əli oğlu ilə birlikdə Parkovya küçəsi, ev 69-da yaşamışıq.

Mənim qardaşım Qəniyev S.M. həbs edilərkən XDİK əməkdaşları bizim evimizdən aşağıdakı əşyaları aparıblar:

Böyük xalça – ölçüsü 12x8 metr
Kiçik xalça – ölçüsü 6x5 metr
2 ədəd divar xalçaları – ölçüsü 7x6 metr
4 ədəd ipək yataq dəstləri – isti örtük, matras və yastıqlar
14 ədəd balaca divar xalçaları – 2,5; 3 və 2 metr ölçülərində
Yun kişi kostyumları – 5 dəst
Qadın ipək donları – 10 dəst
Qızıl qadın boyunbağı 20 ədəd qızıl qəpiklə bəzədilmiş
Brilyant qaşlı qızıl üzük – 5 ədəd
Brilyant qaşlı sırğalar – 2 cüt
8 ədəd müxtəlif mis qablar

Mən 1872-ci ildə Şamaxı şəhərində anadan olmuşam. 4 qızım ailəlidir.

Mənim oğlanlarım 1941 və 1943-cü illərdə sovet ordusu sıralarına çağırılıblar və itkin düşüblər.

Mənim indi 85 yaşım var, arvadım 70 yaşlı xəstə qoca qarıdır. İtkin düşmüş oğlanlarıma görə cəmi 130 rubl müavinət alıram. Sağlamlığım imkan verdiyi qədər müxtəlif artellərdə işləmişəm.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, mənim qardaşımın ədalətsiz həbsini nəzərə alaraq bizdən götürülmüş əmlakın geri qaytarılmasını Sizdən xahiş edirəm

19.10.1956-cı il

Avtobioqrafiya

Qəniyev Sultan Məcid Hacı Murtuza Əli oğlu

Məşhur Azərbaycan maarifçisi və yazıçısı Qəniyev Sultan Məcid Hacı Murtuza Əli oğlu 1856-cı ildə Şamaxı şəhərində anadan olub.

İlkin təhsilini yerli mollaxanada alıb. 3-cü sinif bitirdikdən sonra Şamaxı şəhər məktəbinə daxil olub və 6-cı sinif bitirib. Daha sonra Tibilisi şəhərində Pedaqoji İnstituta daxil olub. 5 illik təhsildən sonra Bakıya qayıdıb.

O, Bakı şəhərində Zərgər-bazarda (indiki Qasım-ismayılov küçəsi) ilk rus-tatar məktəbini açıb. Bir neçə il sonra məktəbin xərclərini Bakı şəhər duması öz üzərinə götürdü, lakin Sultan Məcid bu məktəbdə müəllim kimi fəaliyyətini davam etdirirdi.

1908-ci ildə S.M.Qəniyev Bakı şəhəruması tərəfindən Qori şəhərinə göndərildi və orada onu müəllimlər Seminariyasının direktoru təyin etdilər və təxminən 3 il direktor kimi fəaliyyət göstərdi.

S.M.Qəniyev Qori şəhərində olarkən məşhur Azərbaycan şairi Mirzə Ələkbər Sabirlə mütəmadi yazışırdı.

1908-ci ildə 17 yanvar, 27 yanvar, 23 aprel və 17 avqust tarixli məktublarda Sabir ona Şamaxı dini idarəsi tərəfindən təqib olunduğunu yazaraq ondan kömək istəmişdi. Qəniyev Sultan Məcidin köməyi ilə Sabir Bakıya köçürülmüş və işlə təmin olunmuşdur.

S.M.Qəniyev Bakı şəhərinə qayıtdıqdan sonra Bakı şəhər duması onu Azərbaycanın rayonları: Quba, Şamaxı, Göyçay və digərləri üzrə təhsil inspektoru təyin etdi. Onun birbaşa iştirakı ilə 33 məktəb qurulmuşdur və buna görə dəfələrlə mükafata və təşəkkürə layiq görülmüşdür. Qəniyev S.M. bu işdə 6 il işləmişdir, daha sonra Bakı xalq texnikomunun direktoru təyin edilmişdir.

S.M.Qəniyev şəhər dumasında müsavatçılara qarşı aktiv mübarizə aparmışdır. Eyni zamanda "İslamiyyə" kişi-qadın məktəbində dərs demişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1925-ci ilə "Darül-Muallimat"da və eyni zamanda 31 il müddətində Armiyanskiy küçəsindəki hərbi texnikomda müəllim işləmişdir. Son illərdə o, Azərbaycan Sənaye İnstitutunda rus dili və ədəbiyyat müəllimi işləmişdir.

S.M.Qəniyev yalnız müəllim və fəal ictimai xadim olmamışdır, eyni zamanda öz xalqının maariflənməsinin, bütün Rus xalqının mədəniyyətinin Azərbaycanda yayılmasının yorulmaz mübarizi olmuşdur.

O, özünün pedaqoji fəaliyyətini yazıçılıq fəaliyyəti ilə birgə aparmışdır, aşağıdakı əsərlər onun qələminin məhsuludur:

"Gəlinlər amayili"
"Müəllimlər iftixarı"
"Dursun Əli Ballı Badı"
"Tülkü və Çax-çax bəy"
"Şərabçı"
"Axşam səbri xeyri olar"
"Allah heyfi"
"Nabahar qonşu"
"Qanlını hər yerdə qan tutar"
"Əli qurban bayramı"
"Şeydabəy Şirvani"
"Kili ədəbiyyat"
"Bir neçə cild rus-tatar lüğəti"
"Xor-xor"

1937-ci ildə S.M.Qəniyev XDİK orqanı tərəfindən həbs olunmuşdur, sonrakı taleyi məlum deyildir.

Avtobioqrafiyanın onun qardaşı, Bakı şəhəri, Parkovya küçəsi, ev 69-da yaşayan Qəniyev Mustafa Hacı Murtuza Əli oğlu tərtib etdi.

15 oktyabr 1956-cı il

Az.SSR prokuroru yoldaş Babayevə
Bakı şəhəri, Parkovaya küçəsi,
ev 60-da yaşayan Qəniyev Mustafa
Hacı Murtuza Əli oğlu
tərəfindən

ƏRİZƏ

Məndə olan məlumatlara görə əmim qızı Qəniyeva Ukuma (1920-ci ilə qədər ayrıca yaşamış və müstəqil həyat tərzi keçirmişdir) doğma qardaşım Qəniyev Sultan Məcidin varisi olması ilə bağlı Respublika Prokurorluğuna ərizə ilə müraciət etmişdir.

1937-ci ildə qardaşımın həbsinə qədər mən qardaşım Qəniyev Sultan Məcid Hacı Murtuza Əli oğlu ilə birlikdə Bakı şəhəri, Parkovaya küçəsi, ev 60-da eyni mənzildə yaşamışıq. 1937-ci ildə qardaşımın həbsi zamanı bizim mənzilimizdən aşağıdakı əşyalar götürülmüşdü:

Xalça – ölçüsü 12x8 metr – 1 ədəd
Xalça – ölçüsü 6x5 metr – 1 ədəd
Xalça – ölçüsü 7x6 metr – 2 ədəd
Xalça – ölçüsü 3x2 metr – 14 ədəd
İpək yataq dəstləri (isti örtük, matras və yastıqlar) - 4 dəst
Yun kişi kostyumları – 5 dəst
Qadın ipək donları – 10 dəst
Qızıl qadın boyunbağı (20 ədəd qızıl qəpiklə bəzədilmiş – imperial) – 45 santimetr – 1 ədəd
Brilyant qaşlı qızıl üzük – 5 ədəd
Brilyant qaşlı sırğalar – 2 cüt
Müxtəlif mis qablar - 8 predmet

Mən 1872-ci ildə Şamaxı şəhərində anadan olmuşam. 6 uşağım olub. 4 qızım ailəlidir və 2 oğlum 1941-1945-ci illərdə sovet ordusu sıralarına çağırılıblar və müharibədə həlak olublar.

Mənim indi 85 yaşım, arvadımın isə 70 yaşı var. Hər ikimiz əmək qabiliyyətsiz əlilik və pensiya alırıq.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, bizim mənzilimizdən qeyri-qanuni müsadirə olunmuş əmlakın geri qaytarılmasını xahiş edirəm.

24.11.1956-cı il

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN DAHA BİR QURBANI VƏLİ XULUFLU

Azərbaycanın tanınmış ziyalılarından olan Xuluflu Vəli Məmmədhüseyn oğlu 1894-cü il may ayının 26-da Şəmkir rayonunun Xuluflu kəndində doğulmuşdur. Onun atası Məmmədhüseyn kişi bacarıqlı və qayğıkeş ailə başçısı idi. Daha çox heyvandarlıq və maldarlıqla məşğul olan Məmmədhüseyn kişinin özü təhsil görməsə də, kiçik Vəlinin, eləcə də digər övladlarının təhsil almasında olduqca maraqlı idi. Ona görə də Xuluflu kəndinə yaxın olan Keçili kəndinin mollası ilə razılaşır və Vəlini onun yanında oxumağa göndərir. Bir qədər sonra isə onu Gəncədəki molla məktəblərindən birinə qoyur. İbtidai təhsilini 1905-1907-ci illərdə mollaxanada alan Vəli burada ərəb-fars dillərinə bələd olmaqla yanaşı, islam dininin əsas dəyərləri, şəriətin əsasları və s. ilə yaxından tanış olur. Hələ mollaxanada ikən Qurani-Kərimə, islam mədəniyyətinə, eləcə də klassik Şərq şairlərinin əsərlərinə bələd olmaq imkanı əldə edir.

1907-ci ildən etibarən V.Xuluflu[327] Gəncə şəhərində, Şah Abbas məscidinin yanında fəaliyyət göstərən yeni üsullu «Mədrəseyi-ruhaniyyə»də (rəsmi adı belədir: «Elizavetpolskoy Musulmanskoy Duxovnoy Seminarii», Yelizavetpol (Gəncə) Müsəlman Ruhani Seminariyası - C.Q.) təhsilini davam etdirir.

«Mədrəseyi-ruhaniyyə» öz dövrünün qabaqcıl seminariyalarından hesab olunurdu və özündən əvvəlki məktəblərdən, xüsusilə də molla məktəblərindən təhsilin dövrün tələblərinə uyğun olması və keyfiyyəti, və hətta müəllim və müdavimlərinin xüsusi geyimləri ilə köklü surətdə fərqlənirdi. Azərbaycan Sovet Ensiklopediyasında «Mədrəseyi-ruhaniyyə» barədə oxuyuruq: «Mədrəseyi-ruhaniyyə» – panislamistlər tərəfindən 1908-ci ildə Gəncədə şah Abbas məscidi yanında yaradılmış dini məktəb. Burada Azərbaycan dili əvəzinə türk dili tədris edilir, islamın və Osmanlı imperiyasının tarixi öyrədilirdi. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra «Mədrəseyi-ruhaniyyə» məktəbi bağlanmışdır».[328]

[327] Qeyd. Bu barədə daha ətraflı bax C.Qasımovun "Vəli Xuluflu" monoqrafiyasına.
[328] ASE. 10 cilddə, VI cild, Bakı, 1982, s. 482.

Faktlar göstərir ki, əvvəla, «Mədrəseyi-ruhaniyyə» 1908-ci ildə deyil, 1905-ci ildən fəaliyyət göstərir. Həmin məktəbin ilk buraxılışı 1912-ci ildə olmuşdur. «Mədrəseyi-ruhaniyyə»nin müəllim və tələbələrinin kollektiv şəkildə çəkdirdiyi şəkil (vinetka) də dediklərimizi təsdiq edir. İkincisi, bu təhsil ocağını yaradanlar və orada gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olanlar panislamist deyil, dövrünün ən görkəmli yenilikçi maarifpərvər milli ziyalıları idilər. Digər tərəfdən bu seminariya dini təhsil verməklə kifayətlənmirdi. Molla məktəbindən fərqli olaraq orada dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Məsələn, həmin seminariyada ilahiyyət və Quranın oxunması ilə bərabər, tatar (Azərbaycan) dili, ərəb dili, fars dili, tarix, coğrafiya, təbiət tarixi, gigiyena, həndəsə, cəbr, riyaziyyat fənləri də keçirilirdi. «Mədrəseyi-ruhaniyyə»də verilən yüksək səviyyəli orta təhsil gələcəkdə hərtərəfli və mükəmməl ali təhsil almaq üçün bünövrə, bazis rolunu oynayırdı. Burada osmanlı dili və tarixi deyil, Azərbaycan dili və tarixi öyrədilirdi.

Yelizavetpol (Gəncə) Müsəlman Ruhani Seminari-yasında («Mədrəseyi-ruhaniyyə»də) məktəbin müdiri, dövrünün böyük din xadimi Axund Hüseyn Pişnamazzadə idi. Burada İstanbul Universitetində təhsil almış görkəmli tənqidçi Abdulla Sur Məhəmmədzadə, riyaziyyat elmini dərindən bilən Rza bəy Qaraşarov, Mikayıl Müşfiqin həyat yoldaşı Dilbər Axundzadənin əmisi, tanınmış pedaqoq İdris Axundzadə, Təbriz, Bağdad, İstanbul, Tehran kimi mədəniyyət mərkəzlərini gəzən, Xorasanda və Səmərqənddə dövrünün tanınmış din xadimlərindən dərs alan, seminariyanın tədris bazasını dərslikləri və metodik vəsaitləri ilə daha da zənginləşdirən folklorşünas-pedaqoq Mirzə Abbas Abbaszadə və görkəmli şair-dramaturq Hüseyn Cavid kimi simalar dərs deyirdi. Bu kiçik təqdimatdan da aydın olur ki, seminariyanın müəllimləri gənc nəslin yüksək səviyyədə yetişdirilməsi üçün əlindən gələni əsirgəmirdilər. Daha doğrusu, məktəb rəhbərliyi tanınmış pedaqoqları pedaqoji işə cəlb etməklə tədrisin keyfiyyətini daha da yüksəltməyə və seminariyanın şagirdlərini milli ruhda tərbiyə etməyə çalışırdılar. Qabaqcıl pedaqoji ideyalardan faydalanan belə bir nümunəvi təhsil müəssisəsində yaradıcı pedaqoji mühitin olması Vəli Xulufluya və onun tələbə yoldaşlarına təsirsiz qalmamışdı.

Tədqiqatlardan aydın görünür ki, Məhəmmədzadə Abdulla Tofiq Sur 1908-ci ildə Mirzə Abbas Abbaszadəni, əsrin əvvəllərində isə İstanbul Universitetində birlikdə təhsil aldığı Hüseyn Cavidi 1912-ci ildə Yelizavetpol (Gəncə) Müsəlman Ruhani Seminariyasına dəvət

etmişdir. A.Surun bu mütəfəkkir şəxsiyyətləri seminariyaya cəlb etməsi, yeni maarifçi pedaqoji mühitin yaradılması və seminariyanın nüfuzunun qaldırılması məqsədi ilə bağlı idi. Seminariyada Azərbaycan dilinin tədrisi milli irsimizə, ərəb və fars dillərinin tədrisi ümumşərq dəyərlərinə, tarix, coğrafiya və təbiət tarixinin öyrədilməsi isə Qərb mədəniyyətinə yiyələnməyə əsas verirdi. Akademik M.Cəfər Hüseyn Cavidin həmin məktəbdə nə zaman dərs deməsi ilə bağlı yazırdı: «1912-ci ilin axırlarında Cavid yenə bir daimi iş yeri axtarmaq məqsədilə Gəncəyə gedir. Burada bir neçə aylıq müəllimlik yeri tapırsa da, az sonra işdən çıxarılır. Şair əlacsız qalıb, Gəncə dəmir yolunda mühasiblik edir»[329].

Arxiv materialları, xüsusilə də «Mədrəseyi-ruhaniyyə» ilə bağlı araşdırmalar H.Cavidin Gəncəyə 1912-ci ilin axırlarında deyil, əvvəllərində getdiyini təsdiqləyir. Böyük ehtimalla Cavid əfəndi «Mədrəseyi-ruhaniyyə»də Əhməd Cavada və Vəli Xulufluya da dərs demişdir. Həmin məktəbin ilk buraxılışı 1912-ci ilin may ayında olmuşdur. Buraxılış münasibəti ilə çəkilmiş kollektiv şəkildəki (vinetka) müəllim və tələbələr arasında Cavid əfəndi də vardır.

Başqa bir mühüm fakt: Hüseyn Cavid 1912-ci ilin may ayının 8-də



dünyasını dəyişən ruhaniyyə məktəbinin müəllimi Abdulla Surun 11 mayda keçirilən vida (dəfn) mərasimində iştirak etmiş və nitq söyləmişdir. Dəfnin təşkili və keçirilməsi, orada iştirak edənlər barədə daha geniş məlumatı da Cavid əfəndinin «İqbal» qəzetində nəşr etdirdiyi «Nakamlıq» («İqbal» 12 may) və «Mirzə Abdulla Məhəmmədzadə A.Sur – Abdulla Tofiq» («İqbal» 16-18 may) məqalələrindən öyrənirik. Bunlar əsas verir deyək ki, Cavid əfəndi Gəncə şəhərinə 1912-ci ilin axırlarında deyil, əvvəllərində getmişdir.

«Mədrəseyi-ruhaniyyə»də yüksək təhsil vermək, eyni zamanda tələbələri milli ruhda tərbiyə etmək müəllimlərin qarşısında qoyulmuş əsas vəzifələrdən idi. Həmin seminariyanın müəllim və tələbələrinin günümüzə qədər gəlib çıxmış arxiv materiallarından və şəkillərindən də aydın görünür ki, «Mədrəseyi-ruhaniyyə»nin müəllim və tələbələr üçün hazırlanmış xüsusi geyim formaları olmuşdur. Bu da həmin semina-

[329] Cəfər M. Hüseyn Cavid, Bakı, 1960, s. 34.

riyanın lazımi səviyyədə təşkil olunmuş təminatından və ciddi nizam-intizamından xəbər verir.

Seminariyanın tədris-metodiki vəsaitlərinin bir çoxu məktəbin yüksək pedaqoji hazırlığa malik təcrübəli müəllimlərinin özü tərəfindən hazırlanırdı. Belə müəllimlər arasında Mirzə Abbas Kərbəlayi Ələkbər oğlu Abbaszadənin (1870-1920) xüsusi yeri vardır. O, tərtib etdiyi dərsliklərdə çətin başa düşülən ərəb və fars sözlərindən, mürəkkəb izafət birləşmələrindən imkan daxilində uzaq durmağa, uşaqların anlaya biləcəyi dildə yazmağa çalışırdı. Ona görə də onun dərslikləri sadəliyi və dilinin aydınlığı ilə seçilirdi.

Mənbələrin verdiyi məlumatdan da aydın olur ki, fars dilini tədris edərkən qiraət kitabı tapılmadığından M.A.Abbaszadə şagirdlər üçün dərslik hazırlamalı olmuşdur. Rus dilində olan "Qiraəti-farsi" ("Farsca qiraət") kitabının I cildindən tərcümə yolu ilə belə bir dərslik meydana gətirmişdir. Əvvəlcə həmin kitab mədrəsənin müəllim heyəti tərəfindən müzakirə olunmuş, sonra isə mövcud proqrama uyğunluğu, dilinin sadəliyi, mətnlərin bədii yığcamlığı, uşaqların yaş xüsusiyyətləri nəzərə alınaraq qəbul edilmişdir.

"Farsca qiraət" 1909-cu ildə Gəncədə nəşr olunmuşdur. Dərsliyin sadə və anlaşıqlı olması ondan istifadəni xeyli asanlaşdırmaqla yanaşı şagirdlərin bu dili tez mənimsəmələrinə və öyrənmələrinə təsirsiz qalmamışdır. Görkəmli tənqidçi və yenilikçi pedaqoq Abdulla Məhəmmədzadə Sur Mirzə Abbas Abbaszadəyə məsləhət görmüşdür ki, 1908-ci ildə çap etdirdiyi "Birinci il. Əlifba" dərsliyinin "İkinci kitab. Qiraət" hissəsini mövzu, dil və imla cəhətdən daha da təkmilləşdirsin və yenidən nəşr etdirsin. "İkinci kitab" üzərində onlar birgə işləmiş və oraya təlim-tərbiyə baxımından daha faydalı mətnlər daxil edərək pedaqoji-metodiki cəhətdən kamil bir dərslik hazırlamışlar. Dərslik elə "İkinci kitab" adı altında A.Məhəmmədzadə və A.Mollazadə imzaları ilə 1910-cu ildə "Nəşri-maarif" cəmiyyəti tərəfindən çap olunmuşdur.[330]

Abdulla Surun 1912-ci il mayın 8-də gənc yaşında korbağırsaq xəstəliyindən Tiflisdə cərrahiyə edilərkən vəfat etməsi yalnız qohum-əqrəbalarını, Gəncə əhalisini deyil, elmi ictimaiyyəti, xüsusilə də «Mədrəseyi-ruhaniyyə»nin müəllim və tələbələrini xeyli sarsıtmışdır.

1912-ci ildə «Mədrəseyi-ruhaniyyə»nin sevimli müəllimlərindən olan Abdulla Sur Məhəmmədzadənin dəfn mərasimində iştirak edən və onu «Cavan öldün, dünyadan kam almadın…» sözlərini oxuya-oxuya

[330] Az.wikipedia.orq/wiki/Mirzə_Abbas_Abbaszadə

Səbzikar məzarıstanına[331] qədər gətirən şagirdlər arasında Vəli Xuluflu da olmuşdur. Şübhəsiz ki, mükəmməl təhsil almış belə görkəmli maarifpərvər şəxsiyyətlərin, eləcə də sağlam maarifçi mühitin V.Xuluflunun yalnız baxışlar sisteminin formalaşmasında deyil, eləcə də onun bir şəxsiyyət kimi yetişməsində mühüm rolu olmuşdur.

1912-ci ildə «Mədrəseyi-ruhaniyyə»nin ilk buraxılışının məzunu olan V.Xuluflu bir müddət həmin məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Mənəvi mühitin yeni mərhələsinə – məzunluqdan müəllimliyə qədəm qoyan V.Xuluflunun bu fəaliyyəti bir müddət fasilə verməli olur. Belə ki, müəyyən mürtəce qüvvələrin təzyiqləri nəticəsində «Mədrəseyi-ruhaniyyə» 1913-cü ildə çar çinovniklərinin göstərişi ilə müvəqqəti də olsa, qapadılır. Məktəb bağlandıqdan sonra o doğulduğu kəndə, valideynlərinin yanına qayıdır, təsərrüfat işlərində atasına yardımçı olur.

1917-ci ilin əvvəllərində yenidən Gəncəyə qayıdan Vəli Xuluflu iki aylıq pedaqoji kursa daxil olur. «Kursu bitirdikdən sonra "Mədrəseyi-ruhaniyyə"də aşağı sinif müəllimi təyin edilir. Şəhər həyatı, milli oyanışın və ictimai-siyasi hadisələrin qaynarlığı 22-23 yaşlı gəncin dünyagörüşünə, fəaliyyətinə böyük təsir göstərir. Bəziləri kimi, həmin dövrdə ona da elə gəlirdi ki, millətin tərəqqisinə, inkişafına yol bolşevik inqilabından keçir. O, "Hümmət" təşkilatından uzaqlaşır. Dövrün ictimai-siyasi-ideoloji mühitinin təsiri ilə 1917-ci ildə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının sıralarına daxil olur. Fəhlələrin və məzlum kəndlilərin mənafeyini qorumaq adı altında üsyanlar və inqilablar etmiş bolşeviklərlə əməkdaşlığa üstünlük verir. Təbiətən çox enerjili və çevik olan bu gənc tanış olduğu inqilabçı-bolşeviklərin tövsiyələri ilə mühüm tapşırıqlar yerinə yetirir. Hətta 1919-cu ildə partiya bolşeviklərə və menşeviklərə ayrılanda Vəli bolşeviklərin sırasında qalmağa üstünlük verir. O, bolşeviklər arasında təhsilli və savadlı olması, ərəb, fars və rus dillərini yaxşı bilməsi ilə bərabər, siyasi fəallığı ilə də böyük nüfuz sahibi hesab olunurdu».[332]

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, V.Xuluflu burjua-mülkədar hökuməti adlandırdığı Azərbaycan Xalq Cümhuriyyətinin əleyhinə çıxışlar edir və xalqı bolşevikləri dəstəkləməyə çağırırdı. Nəriman Nərimanov kimi, o da xalqın azad və firavan yaşamasını bolşeviklərin hakimiyyətə gəlməsində görürdü. Lakin bolşevikləşmə

[331] Cavid H. Əsərləri beş cilddə, Bakı, 2007, s. 266.
[332] Salmanlı R. Güllələnəndən 77 il sonra arzuları çin olan alim, "Azərbaycan" qəzeti, 13 iyun, 2014.

illərində Vəli Xuluflu aldanıldığını dərk etdi və bütün bunların ağrısını şəxsi həyatında da yaşadı.

Bolşevikləşdirmə illərində coşqun milli fəaliyyət.

Bacarığı, intellekt təfəkkürü və təşkilatçılığı ilə başqalarından seçilən və Gəncə quberniyasının sovetləşdirilməsində fəal iştirak edən ***V. Xuluflu 1920-ci ilin fevralında Azərbaycan K(b)P-nin Bakı şəhərində keçirilən birinci qurultayına nümayəndə göndərilir və bundan az keçməmiş partiyanın qəza komitəsinin katibi vəzifəsinə irəli çəkilir.***



Lakin o, 1921-ci ildə bolşeviklərin həyata keçirdiyi partiya sıralarındakı təmizləmə işi ilə əlaqədar olaraq Sov.İKP üzvlüyündən xaric edilir. Buna səbəb Qaçaq Əbdüləlinin Vəli Xuluflunun yaxın qohumu olması idi. V.Xuluflunun əməllərində heç bir cinayət tərkibi olmadığından (yəni qaçaq hərəkatı ilə ilişkiləri üzə çıxmadığından və partiyaya sədaqətli olduğundan) o, rahat buraxılır və 1927-ci ildə yenidən partiya sıralarına qəbul edilir.

Təmizləmə illərində Bakıya qayıdan V.Xuluflu 1922-1927-ci illərdə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ali təhsil alır, eyni zamanda 1922-1929-cu illərdə "Yeni Türk Əlifbası" Komitəsinin təlimatçısı kimi fəaliyyət göstərir. Tələbələr arasında fədakarlığı və təşkilatçılığı ilə seçilən Vəli Xuluflu təhsilini davam etdirməklə yanaşı, ictimai işlərdə çalışır, bir təşkilatçı kimi özünü təsdiq edir və ədəbi-elmi fəaliyyətlə məşğul olur.

1924-cü ildə Vəli Xuluflu Yeni Türk Əlifbası Komitəsinin əməkdaşı kimi Şimali Qafqaza, Krıma, Tatarıstana, Türküstana səfər edərək latın əlifbasına keçməyin vacibliyini təbliğ edir. Bakı ədəbi mühiti - Səməd Ağamalıoğlu, Cəlil Məmmədquluzadə, Əbdürrəhimbəy Haqverdiyev, Fərhad Ağazadə, Bəkir Çobanzadə və onlarla başqa mütəfəkkirlərlə qurulan işgüzar ünsiyyət Azərbaycanın, eləcə də Sovet İttifaqının müxtəlif yerlərinə olunan elmi ezamiyyələr, orada dinlədiyi, etdiyi çıxış və məruzələr, türkdilli xalqların folklor mədəniyyəti ilə yaxından tanışlıq V.Xuluflunun dünyagörüşünə, eləcə də elmi yaradıcılığına təsirsiz qalmamışdır. O, 1925-ci ildə elmi

araşdırmalarının məntiqi nəticəsi olan "Yeni türk əlifbası" kitabını nəşr etdirir. Araşdırıcının bu kitabı işıq üzü gördükdən və ədəbi ictimaiyyət tərəfindən müsbət qiymətləndirildikdən sonra onun elmi işə marağı bir qədər də artır.

1923-cü ildə Ə.Haqverdiyevin sədrliyi ilə fəaliyyətə başlayan və Azərbaycanın tarixinin, mədəniyyətinin, etnoqrafiyasının, bütövlükdə elminin inkişafında əvəzsiz yeri olan «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti» Vəli Xuluflunun həyatında və tərcümeyi-halında mühüm rol oynayır.

Xalqımızın dili, tarixi, məişəti, folkloru, etnoqrafiyası, ədəbiyyatı, adət-ənənələri və s. barədə tədqiqatlar aparan «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti»nin elm sahəsində gördüyü işlərin miqyas genişliyini, ciddi elmi araşdırmaları ilə ictimai həyatımızın humanitar sahələrində ölkəşünaslığın – Azərbaycanşünaslığın, sözün daha geniş mənasında türkologiyanın sistemli şəkildə (müəyyən proqrama uyğun olaraq) öyrənilməsində-ki hərtərəfli fəaliyyətini, yeni elmi metodologiyaların tətbiqini nəzərə alaraq onu Azərbaycanın ilk Elmlər Akademiyası da adlandırmaq olar. Daha doğrusu, 70 illiyini təntənəli surətdə qeyd etdiyimiz Milli Elmlər Akademiyasının təməlinin məhz bu cəmiyyət tərəfindən qoyulduğunu cəsarətlə deyə bilərik. Aparılan araşdırmalar deməyə əsas verir ki, fundamental elmi Azərbaycanşünaslığın əsası da «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti», eləcə də onun yaradıcı üzvləri tərəfindən qoyulmuşdur. Maraqlıdır ki, V.Xuluflunun təklifi ilə «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti»nin fəaliyyətini daha da genişləndirmək məqsədilə 1925-ci ildə bu cəmiyyətə iki yüz min manat əlavə vəsait ayrılmışdır[333].

Elmin müxtəlif sahələrində olduğu kimi, folklorun mənşəyinin öyrənilməsi, folklor materiallarının toplanması, nəşri və tədqiqi, şifahi xalq ədəbiyyatı örnəklərinin variantlığı, oradakı şivə, ləhcə və dialektlə-rin nəzərə alınması, eləcə də elmi təhlili kimi aktual məsələlər bu cəmiyyətin qarşısında vətəndaşlıq vəzifəsi kimi dayanırdı.

Folklor mətnlərinin sistemli şəkildə toplanması, nəşri və tədqiqi Azərbaycanın sənət adamlarının diqqətini çəkdiyindən folklor motivləri əsasında bədii əsərlər də yaranmağa başladı. Bir çox hallarda isə folklor

[333] Azərbaycan Dövlət Arxivi. Qovluq 181, s.v.7, sənəd 11, vərəq 6.

materialları (xüsusilə də mahnılar) olduğu kimi folklor xəzinəsinə daxil edildi.

ATTC-nin xətti ilə təşkil olunmuş folklor ekspedisiyalarında yaxından iştirak edən V.Xuluflu Azərbaycanın müxtəlif bölgələrində yaradıcılıq ezamiyyələrində oldu və xalq sərvətinin toplayıcı tədqiqatçılarından birinə çevrildi. 1925-ci ildə onun «Yeni türk əlifbası» komitəsinin nəşriyyatında «Yeni türk əlifbası ilə yazı qaydaları», 1926-cı ildə isə həmin kitabın ikinci nəşri işıq üzü görür. 1927-ci ildə V.Xuluflunun Azərnəşr tərəfindən «Koroğlu» və «El aşıqları», 1928-ci ildə isə «Tapmacalar» kitabı nəşr edilir.

1929-cu ildə «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti»nin bazası əsasında təbiət, biologiya, tarix və etnoqrafiya, dilçilik, ədəbiyyat və incəsənət, fəlsəfə, Sovet Şərqi və xarici Şərq, dövlət və hüquq bölmələrindən ibarət Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (DETİ) yaradılır. V.Xuluflu həmin institutda elmi katib, direktor müavini, bir qədər sonra, yəni 1932-ci ildən 1933-cü ilin dekabrına qədər Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun direktoru vəzifəsində çalışır. Bu dövrdə o özünün «Koroğlu» (1929), «İmla lüğəti» (1929), «Din və Qadın» (1930), «Din və mədəni inqilab» (1930), «Səlcuq dövlətinin tarixi quruluşuna dair» (1930) əsərlərini yazır. Müəllifin bu kitabları marksist-leninçi estetikanın tələblərinə uyğun yazılsa da, ilkin və etibarlı mənbələr kimi bu gün də əhəmiyyətlidir.

Məlumdur ki, 1932-ci ildə Azərbaycan DETİ əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi təsis edilir və həmin şöbəyə R.Axundov rəhbərlik edirdi. Şöbədə 11 bölmə və bir neçə komissiya fəaliyyət göstərirdi. Bir sıra məşhur alimlər – F.Y.Levinson-Lessinq, İ.M.Qubkin, A.A.Qrossheym, N.Y.Marr, İ.İ.Meşşanov, A.N. Derjavin, İ.Q,Yesman, Azərbaycan alimlərindən Bəkir Çobanzadə, Vəli Xuluflu, M.Əfəndiyev, A.Tağızadə, Salman Mümtaz və başqaları burada elmi-tədqiqat işləri aparırdılar. Təbii ki, tanınmış alimlərlə çiyin-çiyinə işləmək V.Xuluflunun elmi dünyagörüşünə təsirsiz qalmır, yaradıcılıq imkanlarını bir qədər də genişləndirirdi.

Elmi fəaliyyətinə görə Vəli Xulufluya 1929-cu ildə dosent, 1931-ci ildə professor adı verilmiş, 1934-cü ildə isə o, Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. Zaqafqaziyanın yaradılmasının 10 illiyi münasibəti ilə V.Xulufluya fəxri fərman və qızıl saat hədiyyə edilmişdir.

1933-cü ildə yenidən Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu ləğv edildikdən sonra o, bir müddət Mərkəzi Arxiv İdarəsinin müdiri, Dövlət Elmi Şurasının sədr müavini vəzifələrində çalışır. 1936-1937-ci illərdə V.Xuluflu SSRİ EA Azərbaycan, Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini vəzifəsinə təyin edilir.

Bütün ömrünü Azərbaycan xalqının mədəni tərəqqisinə və maariflənməsinə həsr edən alim 1928-ci ildə Bakıda keçirilən Azərbaycan Aşıqlarının Birinci Qurultayına dəvət olunur. Folklorşünas alim bu qurultayda bir çox aşıqla təmas yaratmış və folklorun, xüsusilə də aşıq ədəbiyyatının toplanmasında onların da iştirakının vacibliyini qeyd etmişdir.

Keçən əsrin 30-cu illərinin əvvəllərindən etibarən V.Xuluflunun adının qəzet səhifələrində pantürkist və panislamistlərlə yanaşı çəkilməsi, yaxın məsləkdaşlarının «vətən xaini» yarlığı ilə həbs edilməsi onun uğrunda sədaqətlə mübarizə apardığı sovet hökumətinə olan ümid və inamını qırır. Vəli Xuluflu sovet hökumətinə xidməti öz vətəninə, öz xalqına, öz millətinə xidmət kimi başa düşür və bu xidmətdən zövq alırdı. Ona görə də 1932-ci ildə qələmə aldığı «Məhərrəmlik münasibətilə» əsərində yazırdı: «Əski ictimai münasibəti, əski əxlaqı məhv etməklə biz yeni sosialist münasibəti üzərinə kommunist əxlaqı yaratmalıyıq. Bu əxlaq Oktyabr inqilabı ilə yaranmağa başlamışdır. Kommunist əxlaqı istismarçı sinifləri məhv etmək üçün sinif mübarizəsi önündə getməkdir. Kommunist əxlaqı panislamizm, pantürkizm, daşnak, müsavat, menşevizm və sairə ilə mübarizə aparmaqdır. Kommunist əxlaqı proletar diktatorluğunu möhkəmlətməkdir. Firqə daxilində əmələ gələn hər bir təmayüllə mübarizə aparmaq, Lenin xətti-hərəkətilə getməkdir»[334].

Vəli Xuluflu bu inamda idi, lakin ölkədə gedən proseslər, erməni daşnaklarının hegemonluğu, vətənsevər adamların məhv edilməsi və nəhayət, onun özünə şübhəli şəxs kimi baxılması, daha doğrusu, «adının qara siyahıya salınması» alimi sarsıtmağa başladı. Vəli Xuluflu şübhələrində yanılmamışdı. Bir çoxları kimi qarşıda onu da totalitar rejimin giriş qapısı – hamının üzünə açıq olan məhbəsi gözləyirdi...

Vəli Xuluflunun və ailə üzvlərinin taleyi

Repressiyaya məruz qalmış ayrı-ayrı alim, yazıçı və şairlərin elmi-ədəbi mühiti barədə az-çox yazılsa da, onların məhbəs mühiti barədə in-

[334] Xuluflu V. "Məhərrəmlik münasibətilə", Bakı, 1932, s. 26.

diyə kimi bir məqalə də olsun yazılmamışdır. Bizə elə gəlir ki, Azərbaycanda repressiya qurbanlarının məhbəs həyatının elmi və ictimai fikir dövriyyəsinə daxil edilməsinə böyük ehtiyac vardır. Məhbəs və məhbus mühiti yalnız repressiyaya məruz qalmış elm və sənət adamlarının tərcümeyi-halının, şəxsiyyətin xarakter bütövlüyünün öyrənilməsi baxımından deyil, ölkəmizin, eyni zamanda millətimizin özünün tərcümeyi-halını, milli kimliyini, tarixi taleyini, keçdiyi məşəqqətli yolu öyrənmək baxımından da olduqca əhəmiyyətlidir. Müstəqillik illərində əldə edilmiş milli ədəbi-elmi təcrübə, tədqiqatçıların üzünə açılan arxivlər bir daha göstərir ki, bu problemin tədqiqatların predmetinə çevrilməsinin vaxtı çatmışdır.

Repressiya istər bir düşüncə kateqoriyası, istərsə də reallıq hadisəsi kimi özünün ayrıca məxsusi fərdi elmi tarixinə malik olmur. O, qeyri-təbii, qeyri-bəşəri vəzifəni, ekologiya, insan və cəmiyyət əleyhinə çevrilmiş şər və iblis missiyasını sadəcə olaraq bir alət, bir mexanizm kimi yerinə yetirir. Odur ki, onun heç məxsusi hüquqi siması və milli mənsubiyyəti də olmur və repressiyanın tarixi də, əslində, elə bu qəsd və qətllərin xronikası ilə, ölüm sobalarının, əsir düşərgələrinin, şəhid qəbirlərinin düzümü və sırası ilə yazılır.



Repressiya illərində kütləvi ölüm və qətl hökmləri hər yerdə xalis sinfi-siyasi ittiham çərçivəsində, Azərbaycanda isə həm də milli, qövmi, etnik müstəvidə və əsasda irəli sürülürdü. Edam kötüyünə sürüklənən qurbanın, öz məşum qurşununu gözləyən, eşafota, dar ağacına, yaxud sürgünə və konslagerə göndərilən günahlı və ya günahsız məhkumun bir adı var idi: «xalq düşməni». Azərbaycanda isə həm ruha, həm də vücuda eyni vaxtda basılan bu möhürə ikinci, üçüncü damğa, qara ləkə də əlavə olunurdu: «Vətən xaini», «pantürkist», «panislamist»! Hər yerdə hökmü oxuyan və qətli icra edən bolşevik cəlladının səsi və əli idi, Azərbaycana həm şimaldan, həm də qərbdən uzanan kabusun içində isə qoşa əl və qoşa səs həmişə ittifaq təşkil edirdi: bolşevik-daşnak tandemi, erməni-rus kəlbətini!

Repressiya özünün, xüsusilə dəhşətli, amansız formasını «əxlaqi-estetik» doktrina mundiri geyinəndə və mənəviyyata, yaddaşa, şəcərəyə, milli-mənəvi dəyərlərə, folklora qarşı çevriləndə alır. Çünki qəsdin hədəfinə və qurbanına bu zaman ən bəşəri, ən əbədi dəyər və sərvətlər – intellekt, sivilizasiya özü çevrilir.

Azərbaycanda siyasi repressiya anlayışı, adətən, XX əsrin 37-ci ilini yada salır. Lakin siyasi repressiyaların zirvə məqamı, kulminasiya nöqtəsi olan 37-ci il öz başlanğıcını, öz qaynağını çox-çox əvvəllərdən alır. Ona görə də 30-cu illərə aparan yolu müəyyənləşdirmədən siyasi repressiyalara düzgün qiymət vermək mümkün deyil.Məsələyə qlobal tarixi miqyasda və aspektdə yanaşılsa, görərik ki, siyasi repressiya zaman etibarı ilə Azərbaycanda iki müstəqil respublika (Azərbaycan Xalq Cümhuriyyəti və müstəqil Azərbaycan Respublikası) arasındakı məsafədən uzundur və repressiyaya ilk dəfə məruz qalan Azərbaycan Xalq Cümhuriyyətinin özü olmuşdur. Məsələlərə bir qədər də dərindən yanaşsaq, görərik ki, repressiyanı hazırlayan mənbələrin, qaynaqların sorağı Gülüstan, Türkmənçay müqavilələrinin sənədlərindən gəlir.

Genetik qaynağı və sənədi, tarixi-siyasi genezisi Gülüstan və Türkmənçay müqavilələri olan, Azərbaycan Demokratik Cümhuriyyə-tinin süqutundan sonra daha da kütləviləşən miqrasiya, deportasiya və repressiyalar silsiləsi tarixdə türklərin yenidən parçalanması ilə nəticə-ləndi. Bolşeviklər ümumi, ortaq geni parçalamaq üçün xalqların milli mənsubiyyətinə (milli kimliyə) ciddi zərbələr vurdular. Azərbaycanın milli kimliyində ən böyük zərbə milli ideologiyaya, tarixə, coğrafiyaya, ədəbiyyata, mədəniyyətə, dilə, dini adət-ənənələrə və ədəbi abidələrə dəydi.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, siyasi repressiya yalnız ona məruz qalanların, ayrı-ayrı fərdlərin deyil, eyni zamanda bu qiyam və qətllərdən qurtara bilən sənət adamlarının, bütövlükdə xalqın içindən və taleyindən keçdi, bu tragik-dramatik vəziyyəti, faciəli ağrını bütöv bir xalq yaşadı.

Faktlar, sənədlər, istintaq qovluqlarındakı stenoqramlar göstərir ki, Sovetlər İttifaqında totalitar rejim milli genofondunu yaratmış millətlərə və fərdlərə qarşı daha amansız mövqedə oldu. Bu baxımdan **SSRİ-də baş verən repressiv zəlzələnin episentri Azərbaycana düşdü. 1930-1933-cü illərdə Az.SSR XDİK-in sədri vəzifəsində işləyən Frinovski Mixail Petroviç Moskvaya göndərdiyi**

məruzəsində göstərirdi ki, Qafqazda ən çox repressiyalara məruz qalan azərbaycanlılar olmuşdur[335]**.**

Həmin illərdə «məhbəs, kamera mühiti» ilə yanaşı, bir «ictimai mühit» də yaradılmışdı. İctimai mühit kamera mühitindən o qədər də fərqlənmirdi. Hər hansı bir ziyalı mütəfəkkir və ya sadə kolxozçu, adətən, əvvəlcə ictimai mühitdə, sonra isə kamerada ittiham edilirdi. Bir çox hallarda isə «müttəhim» hökmü məhkəmə zalında deyil, iclas salonunda, plenumda özü də müstəntiq yox, respublika rəhbərinin özü oxuyurdu. Cinayətinin nədən ibarət olduğunu hələlik özü də müəyyənləşdirə bilməyən «müttəhim» ölkənin başçısı tərəfindən «vətən xaini» elan edilir və müstəntiqlər onun həqiqətən «vətən xaini», «xalq düşməni» olduğunu sübut etməyə çalışırdılar.

Rəhbər şəxsin dediyi ifadələrin «doğruluğu» təkcə kameralarda, gizli kabinetlərdə sübuta yetirilmirdi, həm də açıq mətbuat səhifələrində, qərəzli yazılarda öz «təsdiqini» və «təsbitini» tapırdı. Millətin yaddaşında həmin şəxsin həqiqətən «vətən xaini» olması imici formalaşdırılır, eybəcərləşdirilmiş siyasi karikaturası cızılırdı.

Çox vaxt əzən və sıxan total mühit hədəf kimi yaddaşı, geni seçir, onları zədələməyə, iflic etməyə çalışırdı. Gen və yaddaş zədələndikcə mühit daha amansızcasına ədəbi abidələri və mütəfəkkir şəxsiyyətləri məhv edirdi. Beləliklə də, repressiya maşınının tırtılları altında qalan da, o maşından kənarda duran da məcburən, mənəvi-fiziki təzyiqlər altında Sovet rejiminin quluna çevrilirdi.

Şübhəsiz ki, həbs olunanlardan alınmış ifadələr də zora və zopaya söykənirdi. Bir qayda olaraq erməni müstəntiqlər müttəhimdən istədikləri cavabı almayanda müvafiq metodlar tətbiq edilir, müxtəlif işgəncələr verilirdi. Bu işgəncələr iki metoddan istifadə etməklə yerinə yetirilirdi:

a) Psixoloji təzyiq metodu b) Fiziki işgəncə metodu.

Psixoloji metodlardan istifadə zamanı daha çox yuxusuz saxlamaq, ironiyalı danışıqlardan istifadə edərək ələ salmaq, doğma adamlarının həbsi ilə hədələmək və ya həbs olunmuş qohumlarından onları uzaq salmaq (məsələn, Əhməd Cavadın həyat yoldaşı Şükriyyə xanımla birgə iki yaşlı oğlu Yılmaz Axundzadə də həbs edilmişdi. Ananın yalvarışlarına və rəsmi müraciətinə baxmayaraq, südəmər uşağı ona verməmiş, başqa kamerada saxlamışdılar), gözləri qarşısında doğmalarına işgəncə vermək, şəxsiyyətini alçaldaraq təhqir etmək,

[335] DTX-nin arxivi. P-283.

günlərlə ac-susuz saxlamaq, məhbusa qohumları ilə görüş verməmək və sair qeyri-insani vasitələrdən istifadə olunurdu.

Psixoloji təsir vasitəsi kimi bir çox hallarda **üç nömrəli metoddan,** yəni istintaqın vaxtını qəsdən uzatmaqdan və müttəhimi aylarla dindirməkdən imtina üsulundan istifadə edirdilər. Müəyyən müddətdən sonra ittiham olunan şəxs məcburiyyət qarşısında qalaraq hüquq-mühafizə orqanlarının rəhbərliyinə «etiraf» ərizəsi ilə müraciət edirdi. Məsələn, üç nömrəli metodun təqib və təzyiqlərinə duruş gətirə bilməyən Sultan Məcid Əfəndiyev Sumbatov-Topuridzeyə ərizə ilə bildirirdi ki, nəyə istəyirsiniz verin imza atım, təki istintaqı başa çatdırın[336].

Başqa bir nümunə. 1937-ci il iyulun 13-də istintaqın müddəti iki dəfə uzadıldıqdan sonra Böyükağa Talıblı Sumbatova aşağıdakı məzmunda ərizə yazdı: «6 ay ərzində mən istintaqa səmimi ifadələr verməmişəm. İndi isə partiya və Sovet hökuməti qarşısında tamamilə təslim olub müqaviməti dayandırıram. Mən əksinqilabi millətçi təşkilatın üzvüyəm və bu məsələ ilə əlaqədar ətraflı ifadələr vermək istəyirəm. Mənim işim üzrə istintaqın sürətini artırmaq üçün sizin əmrinizi gözləyirəm»[337].

Mətbuatda dövlət sirlərini mühafizə edən baş idarənin rəisi İbrahim Abdulla oğlu Eminbəyliyə də istintaq aparanların dili ilə desək, 3 nömrəli metod tətbiq edilir və 1937-ci il avqustun 20-də o, Sumbatov-Topuridzeyə yazdığı ərizədə bildirirdi: «7 aydır ki, mən susuram. Nəhayət, təslim olmağı qərara aldım. Partiya və hökumət qarşısında törətdiyim cinayət işləri, təşkilatdakı fəaliyyətim barəsində ətraflı danışmaq istəyirəm. Bildirirəm ki, təşkilata mən Ruhulla Axundov tərəfindən cəlb edilmişəm»[338]. Psixoloji metod (xüsusilə də üç nömrəli metod) demək olar ki, bütün müttəhimlərə tətbiq edilirdi. Bu cür psixoloji metodların təsiri nəticəsində isə müttəhimlərin bir çoxu özləri-özlərinə böhtan atır, müqəssir olduqlarını, Sovet hökuməti və onun rəhbərləri əleyhinə iş apardıqlarını, hətta "terror törətmək iddiasında olduqlarını" bildirirdilər.

Bir çox hallarda isə istintaqa cəlb olunan müttəhimə iki metodun ikisi də eyni anda tətbiq olunurdu. Belə ki, müttəhimə əvvəlcə fiziki işgəncə verilir, sonra isə başqa bir müstəntiq, guya, humanistlik göstərərək ona öz «doğması» kimi yanaşır, onu döyülməkdən «xilas

[336] DTX-nin arxivi. S.M.Əfəndiyevin istintaq qovluğu, PR - № 16647.
[337] DTX-nin arxivi. B.Talıblının istintaq qovluğu, PR - № 27076.
[338] DTX-nin arxivi. İ.Eminbəylinin istintaq işi, PR - № 16637.

edir» və istintaqı özü aparırdı. O, artistlik məharəti ilə müttəhimi inandırırdı ki, barəsində qaldırılmış cinayətlərdə müqəssir, yəni günahkar olduğunu boynuna alsa və hazırlanmış protokollara imza atsa, «humanist» Sovet hökuməti, eləcə də hüquq-mühafizə orqanları onu bağışlayacaqdır. İstintaqa cəlb olunan müstəntiqdəki bu «xeyirxahlığı» gördüyündən ona inanır və əvvəlcədən hazırlanmış dindirmə protokollarına «həvəslə» imza atırdı. Bu metod da keçmədikdə, onda sərt tədbirlərə, fiziki işgəncələrə yenidən üstünlük verilirdi.

İslah Əmək Düşərgələrində fiziki işgəncələr daha çox məhbusların özləri vasitəsi ilə həyata keçirilirdi. Həbsxana rəisləri və ya nəzarətçilər tərəfindən bir neçə qoluzorlu cinayətkar saxlanılırdı ki, onlar da bu işi məharətlə icra edirdilər. İstintaq materiallarından aydın olur ki, məhbuslarla ən qəddar rəftar edən ermənilər olmuşlar. Ən çətin «tərbiyə» olunan dustaqları onların (Qriqoryanın, Markaryanın, Tevosyanın, Avetisovun və s.) sərəncamına verirdilər.

Bir çox hallarda məhbuslar ölənə qədər döyülür və ya elə ağır şəraitdə saxlanılırdılar ki, sağalmaz xəstəliklərə düçar olurdular. Həbsxanada ölənlər barədə müxtəlif xəstəliklərin diaqnozu qoyulur, iş dayandırılır və çox vaxt isə mərhumun ailə üzvlərinə məlumat verilmir və ya səhv məlumat verirdilər. Ölənləri və ya öldürülənləri nəinki ailə üzvlərinə qaytarmır, hətta onların dəfn olunduğu yerlər barədə də məlumat vermirdilər. Bu «məzarlıqlar» dövlət sirri kimi tam məxfi saxlanılırdı. Təsadüfi hallarda ağır xəstələri həbsdən azad edirdilər[339].

1938-ci il noyabrın 17-də SSRİ XDİK-in fəaliyyətindəki neqativ hallara qiymət verən ÜK(b)P MK-nın qərarında bildirilirdi: «1937-1938-ci illərdə Xalq Daxili İşlər Komissarlıqlarının apardığı istintaqlar böyük çatışmazlıqları ilə bərabər qeyri-insani münasibətləri ilə daxili işlər və prokurorluq orqanlarına ləkə gətirmişlər.

Xalq Daxili İşlər Komissarlığının işçiləri agentura-informasiya mənbələrinə istinad etməyərək istintaq zamanı ittiham olunan şəxslərdən günahlarını boyunlarına aldıqdan sonra, həmin müqəssirlərin ifadələrini təsdiq edən sənədləri üzə çıxarmamışlar. Onlar ittiham olunan şəxslərin ifadələrini protokollara yazdırana qədər istintaqı qeydlərlə aparmışlar. İttiham olunan şəxs günahlarını tam boynuna alandan sonra qeyri-qanuni protokollar tərtib edilmişdir».

MK-nın 17 noyabr qərarı özlüyündə müsbət bir hadisə olsa da, bu heç nəyi dəyişmədi. Əslində, bu qərar N.İ.Yejovu SSRİ Xalq Daxili İşlər

[339] DTX-nin arxivi. D.Axundzadənin istintaq işi, PR - № 15029.

Komissarlığı (XDİK) sədri vəzifəsindən uzaqlaşdırmaq və L.P.Beriyanı hakimiyyətə gətirmək üçün düşünülmüş və qabaqcadan hazırlanmış plan idi. Həqiqətən, belə də oldu. Noyabrın 24-də Yejov işdən azad edildi və onun yerinə Beriya təyin olundu.

L.P.Beriyanın sədrliyi illərində aparılan istintaqlar da özünəqədərki ənənəvi qanun pozuntularını «uğurla» təkrar etdi, Azərbaycanın milli-mənəvi dəyərləri və bu dəyərlərin daşıyıcıları olan ziyalılar yenə də repressiyaların məngənəsindən yaxa qurtara bilmədilər.

Fiziki işgəncələr zamanı rezin dəyənəkdən, təyyarə trosundan, dəmir çubuqla döyməkdən, bədənində siqaret söndürməkdən, 48 saata qədər dizləri üstə və ya stoyka, eləcə də ac və ya susuz saxlamaqdan və s. metodlardan istifadə olunurdu. Bu metodların hər ikisi (psixoloji və fiziki metod) bütün məhbuslar kimi Vəli Xulufluya da tətbiq edilirdi.

Tarixə Azərbaycan ziyalılarının soyqırımı kimi daxil olan 1937-ci il V.Xulufludan da yan keçmədi. Azərbaycan SSRİ XDİK-in Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsinin rəisi Dövlət Təhlükəsizlik (DT) mayoru Gerasimov və DT leytenantı Şer 27 yanvar 1937-ci ildə Vəli Xuluflu barəsində toplanmış materiallar, eləcə də müttəhim ifadələri əsasında aşağıdakı məzmunda bir arayış tərtib etdi:

«Müttəhimlərdən Tixamirovun və Çiçikalovun ifadələrinə və başqa göstəricilərə görə müəyyənləşdirilir ki, SSRİ vətəndaşı, türk, K(b)P-nın üzvü, Azərbaycan EA filialı yanında Tarix İnstitutunun direktor müavini V.Xuluflu əksinqilabçı millətçi təşkilatın üzvüdür.

Şərh edilənlərə əsasən, V.Xuluflu Azərbaycan SSR CM-in 72-73-cü maddələrdə nəzərdə tutulmuş cinayətlərə görə həbs edilməli və keşikçi dəstəsinin nəzarəti altında saxlanılmalıdır»[340].

Vəli Xulufunun həbsi və evində axtarış aparılması ilə əlaqədar olaraq 28 yanvar 1937-ci ildə 68 nömrəli order imzalandı (maraqlıdır ki, həbsetmə və axtarış aparma orderi yanvarın 28-də imzalansa da, axtarış yanvarın 27-də aparılmışdır). Beləliklə də, Azərbaycanın görkəmli ziyalılarından biri Vəli Xuluflu yanvarın 28-də həbs edildi.

Vəli Xulufunun həbsindən bir neçə gün sonra AK(b)P Voroşilov rayon komitəsi 16 aprel 1937-ci ildə iclas keçirdi.

16 aprel 1937-ci il 35 nömrəli protokoldan çıxarışda oxuyuruq:

"EŞİDİLDİ: 1894-cü ildə anadan olmuş, 1927-ci ilin sentyabrından partiyanın üzvü, partiya bileti №1429085, sosial vəziyyəti qulluqçu olan Xuluflu Vəli Məmmədhüseyn oğlunun işi.

[340] DTX-nin arxivi. V.Xulufunun istintaq qovluğu, PR - № 25014.

Məruzəçi Azərbaycan SSR EAF-nın direktor müavini yoldaş Y. Okinşeviç.

QƏRARA ALINDI: 1927-ci ilin sentyabrından partiyanın üzvü olan, partiya bileti №1429085 necə bir əksinqilabi trotsksist və partiyanın düşməni kimi XDİK orqanları tərəfindən həbs edilmiş Xuluflu Vəli Məmmədhüseyn oğlu partiya sıralarından çıxarılsın.

Azərbaycan K(b)P Voroşilov
rayon komitəsinin katibi Y.Okinşeviç."

DTİ-nin 3-cü şöbə, 4-cü bölməsinin rəisi DT leytenantı Qalstyan Az.SSR XDİK DT-nin 3-cü dərəcəli komissarı Sumbatova 23 sentyabr 1937-ci ildə yazdığı rəsmi məruzəsində bildirirdi ki, mən, 12493 nömrəli istintaq işinə baxaraq belə nəticəyə gəldim: Vəli Xuluflu Məmmədhüseyn oğlu əksinqilabi millətçi təşkilatın üzvü, ziyanverici, əksinqilabçı, üsyançı işi aparmış, terrorçu mövqeyində durmuş və Azərbaycan K(b)P-nın MK-nin katibi Bağırov yoldaşa və ÜK(b)P-nın ZKP katibi Beriya yoldaşa hazırlanan terror aktlarından xəbəri olmuşdur.

Qərara aldım: Vətəndaş Vəli Xuluflu Məmmədhüseyn oğlu Azərbaycan SSR cinayət məcəlləsinin 73, 64, 69, 17, 70-ci maddələrinə əsasən, müttəhim kimi ittiham olunsun, istintaqdan və məhkəmədən yayınmaması üçün Azərbaycan SSR XDİK-in həbsxanasında keşikçi dəstəsinin nəzarəti altında saxlanılması davam etdirilsin.

Qalstyanın gəldiyi qənaətdən belə görünür ki, V.Xuluflu olduqca təhlükəli, qatı cinayətkar imiş və onu yalnız keşikçi dəstəsinin nəzarəti altında saxlamaq lazımdır. Sumbatovlar da Qalstyanlarla razılaşır və belə bir qərara imza atırdılar.

V.Xuluflunun sorğu protokolları da təsdiqləyir ki, o heç bir cinayət işi törətməmişdir. Lakin onu ittiham etmək üçün müstəntiqlər kifayət qədər «faktlar» toplamışdılar.

3 fevral 1937-ci il dindirməsinə nəzər salsaq, V.Xuluflunun, əsasən, nədə ittiham edildiyinin şahidi olarıq:

Sual: Axtarış zamanı sizin mənzilinizdən götürülmüş Müsavat partiyasının lideri M.Ə.Rəsulzadənin 1926-cı ilin iyul ayında İstanbulda çapdan çıxmış «Rusiyanın siyasi vəziyyəti» kitabçasını haradan almısınız?

Cavab: Məncə, bu kitabı mən Şaumyan adına institutda oxuyarkən almışam. Onda institutun möhürü olmalıdır.

Sual: Kitab sizə məxsusdur, onda heç bir möhür və ştamp yoxdur. Bu kitabı haradan və necə əldə etmisiniz?

Cavab: Belə surətdə mən, bu kitabı Zeynallı Hənəfidən almışam. Təxminən, 1929-cu ildə, ya da bir az sonra Zeynallı o haqda bildirdi ki, Türkiyədən kitab bağlaması gəlib və o kitabların bir-bir adlarını çəkib, hər hansısa birini oxumaq üçün məsləhət bildi. Zeynallının dediyinə görə, kitab onun tərəfindən deyil, professor İsmayıl Hikmət tərəfindən alınmışdır...

…Sual: Zeynallı Türkiyədə başqa kiminlə əlaqə saxlayırdı?

Cavab: Dəqiq heç nə bilmirəm. Lakin mənə məlumdur ki, 1920-ci ildə H.Zeynallının dostu Əli Kərimov Türkiyədə olmuşdu. Əgər səhv etmirəmsə, Zeynallı da vaxtilə Türkiyədə olmuşdu. Ola bilsin ki, hər hansı bir əlaqəni Zeynallı birbaşa Türkiyə və ya Əli Kərimov vasitəsilə yaratmışdı. Bundan başqa, Zeynallı və Əli Kərimov türk dilini çox gözəl bilirlər.

Sual: M.Ə.Rəsulzadənin qeyri-qanuni (yasaqlanmış) kitabçasını H. Zeynallının verdiyi şəraiti dəqiqləşdirin. O bu kitabçanı sizə verəndə nə dedi?

Cavab: Şəraiti dəqiq xatırlamıram. Xatırlayıram ki, İstanbuldakı kitab barədə o, sevinclə mənə çatdırdı. Bu işdə, məncə, üçüncü bir şəxs iştirak edirdi. Onu xatırlamıram.

Sual: Siz kitabı alan zaman bilirdinizmi bu nə kitabdır və kimindir?

Cavab: Əlbəttə, bilirdim ki, M.Ə.Rəsulzadənindir və o, Hənəfi Zeynallı vasitəsilə Türkiyədən alınmışdır. Bilirdim ki, bu, əksinqilabi nəşrdir.

Sual: Siz başa düşürdünüzmü ki, Rəsulzadənin bu kitabı əksinqilabi, qeyri-qanuni ədəbiyyatdır? Bilirdiniz ki, H.Zeynallı bu kitabları əksinqilabi məqsədlə alır? Siz Zeynallını tənqid etdinizmi?

Cavab: Təsdiq edirəm ki, Zeynallının müsavat ədəbiyyatını alması, doğrudan da, antisovet və əks inqilabi məqsəd daşıyırmış. O zaman mən Zeynallını tənqid etmədim.

Sual: Siz onlarla eyni, həmfikir olmusunuz və onlarla birlikdə əks inqilabi mövqedə durmusunuz. Təsdiq edirsinizmi?

Cavab: Təsdiq etməliyəm ki, 1930-cu ildə mənə məlum oldu ki, Zeynallı əks inqilabi təşkilata meyillənib və mən özümə nəticə çıxartdım ki, bu, antisovet yönlü professor Muxsimitdinlə və İsmayıl Hikmətlə dostluğundan yaranmışdır. Bundan başqa, Zeynallının onlarla əlaqəsi və əksinqilabi ədəbiyyatın mənə verilməsi bu qənaətlərimi daha da möhkəmləndirdi. Şəxsən mən buna liberal yanaşırdım.

Uzun-uzadı davam edən bu dindirmədə XDİK müstəntiqi Avanesyan həbs olunana qədər partiyanın üzvü olan professor Vəlu Xuluflu kimi bir şəxsin M.Ə.Rəsulzadənin «Rusiyanın siyasi vəziyyəti» adlı kitabını oxumasını vətən xainliyinə bərabər tutur və SSRİ-yə qarşı yönəlmiş qatı, eyni zamanda bağışlanılmaz cinayət hesab edir

Sual: Siz vətən xaini adlandırılırsınız. Riyakar hərəkətlər etmisiniz. Zeynallının əks inqilabi hərəkətlərini gizlətmisiniz. Bilərəkdən ona kömək etmisiniz. Siz Zeynallının fəaliyyəti ilə həmfikir olmusunuz və əksinqilabi mövqedə dayanmısınız, əksinqilabi təşkilatın üzvü olmusunuz. İstintaq məsləhət verir ki, inad göstərməyəsiniz və öz əks inqilabi fəaliyyətiniz haqqında açıq ifadə verəsiniz.

Cavab: - Zeynallının əks inqilabi fəaliyyəti ilə mən həmfikir deyiləm və əksinqilabi partiyanın üzvü olmamışam...

Maraqlıdır ki, hələ heç bir ciddi fakt aşkarlamayan, yenicə dindirməyə başlayan müstəntiq elə ilk dindirmədə vəzifə səlahiyyətlərini aşaraq V. Xuluflunu vətən xaini elan edir, məhkəmə olmamış məhkəmənin hökmünü ona oxuyur. Bu həmin illərin reallıqları idi və demək olar ki, bütün müttəhimlərdən eyni üsullarla ifadələr alınırdı - əvvəl vətən xaini elan olunur, bir neçə dindirmədən sonra isə hökm oxunurdu. Daha doğrusu, həbs olunanların böyük əksəriyyəti vətən xaini kimi həbs edilir, sonra isə hökm çıxarılırdı. Bir çox hallarda isə vətən xaini, xalq düşməni hökmləri plenum və yığıncaqlarda dövlət rəsmiləri tərəfindən verilirdi. İstintaq və məhkəmə isə plenum və ya yığıncaqda oxunmuş hökmün doğruluğunu böyük canfəşanlıqla isbata və ya sübuta çalışırdı.

31 yanvar 1937-ci il dindirməsində V.Xuluflu trotskiçilikdə ittiham olunur. Dövlət Təhlükəsizlik İdarəsi (DTİ) 4-cü şöbəsinin rəisi dövlət təhlükəsizlik kapitanı Avanesyan dindirməni belə başlayır:

Sual: Siz trotskiçilərdən kimləri tanıyırsınız?

Cavab: Azərbaycan EA-nın filialının keçmiş direktor müavini trotskiçi kimi həbs edilmiş Qarberi tanıyıram. Həbs edilənədək mən onun trotskiçi olmasını bilmirdim. Mən onu idealist, deborunçu, Deborunun və Plexanovun açıq müdafiəçisi kimi tanıyırdım. Az.FAN nəşriyyatında Şapironu tanıyırdım. Onun trotskiçi olmasını o, partiyadan xaric ediləndə bildim. Mən onu da bildim ki, Ruhulla Axundov 1921-1922-ci illərdə trotskiçi kimi tanınmış və özü trotskiçi cərgədə duran Sarkisə yaxın olmuşdur. Bu haqda 1925-1926-cı illərdə adını xatırlamadığım bir nəfərdən eşitmişəm. Başqa trotskiçi tanımıram.

Sual: Trotskiçilərdən kimdənsə kitab almısınızmı?

Cavab: Mən Qarberdən Trotskinin kitabını almışam. Adını bilmirəm. Səhv etmirəmsə, bu 1934-cü ildə Qarberin direktor müavini olduğu və mənim Az.FAN-a işə düzəldiyim vaxt olmuşdur.

Sual: O, Trotskinin kitabını sizə harada verib?

Cavab: Xatırlamıram.

Sual: O, Trotskinin kitabının nə səbəbə sizə vermişdir? Kitabı verəndə üstü yazılmışdı yoxsa yox?

Cavab: Trotskinin kitabını mənə öz imzası ilə, deyəsən, Leninqrad şəhərinə getmə ərəfəsində, ya da mənim Az. FAN-a qəbul edilməyimdən əvvəl vermişdi.

Sual: Sizin izahatınızdan aydın olmadı, o kitabı sizə hədiyyə yoxsa oxumaq üçün vermişdi?

Cavab: Bu mənə məlum deyil.

Sual: … Bu barədə siz harasa məlumat verdinizmi?

Cavab: Bu haqda mən heç hara deməmişəm. Qarberin Trotskinin kitabını mənə nə səbəbə verdiyini bilmirəm. Mən Qarberin trotskiçi olduğunu bilmirdim. Mənim ondan Trotskinin kitabını götürməyim mənim səhvimdir.

Sual: Təkcə səhvmi? Siz tarix üzrə professorsunuz, Azərbaycan Kommunist Bolşeviklər Partiyasının üzvüsünüz və burada səhv ola bilməz. Dəqiq izahat verinki, Qarber sizə Trotskinin kitabını verdi, siz onu qəbul etdiniz və heç kimə bildirmədiniz.

Cavab: Qarberin Trotskinin kitabını mənə hədiyyə etməsini onun məni Trotskist təşkilata cəlb etməsi cəhdi kimi izah edirəm.

Sual: İşi mürəkkəbləşdirməyək. Qarberin sizi cəlb etməsini indi başa düşdünüz yoxsa ki,kitab veriləndə artıq sizə aydın idi?

Cavab: Mən yalnız indi başa düşdüm ki, o məni təsir altına salmaq istəyirmiş.

Sual: Sizi bu ideyaya nə vadar etdi?

Cavab: Mən onun trotskiçi olması nəticəsinə o həbs ediləndə gəldim.

Sual: İstintaq məcburdur sizə bildirsin ki, siz səmimi deyilsiniz. Siz 1934-cü ildə bilməyə və başa düşməyə bilməzdiniz ki, Trotskinin kitabını kommunistlər bir-birinə hədiyyə verməz. İzah edin. Nə üçün Qarber Trotskinin kitabını şəxsən sizə bağışlamışdır?

Cavab: Köhnə fikrimdə qalıram. Qarberin kitabı nə üçün mənə bağışlaması mənə aydın deyil. Belə ki, Qarberlə mənim ümumi əksinqilabi işim ola bilməz.

Sual: Qarber 1934-cü ildə ilk görüşdə Sizə Trotskinin kitabını verə bilməzdi. İstintaq tələb edir ki, bu faktı düzgün izah edəsiniz.

Cavab: Öz izahatıma heçnə əlavə edə bilmərəm.

Maraqlıdır ki, ilkin dindirmələrdə V.Xuluflu ona verilən və ya bağışlanan kitablara görə ittiham edilir. Dünənə qədər Sovet hökumətinin qurucusu və rəhbərlərindən olan Trotskinin kitabını oxumaq nə dərəcədə böyük cinayətdir? Belə çıxırdı ki, V.İ.Leninin özün də xain elan etsəydilər, onun da əsərlərini nəşr və tərcümə edənləri, eyni zamanda oxuyanları ittiham edəcəkdilər. Lakin erməni müstəntiqləri o qədər də sadəlövh deyildilər. Onlar yaxşı bilirdilər ki, bütün bunlar güllələnmə hökmü çıxarmaq üçün yetərli deyil. Ona görə də, Avanesyan 1 fevral 1937-ci ildə apardığı dindirməsində V.Xuluflunun Elmlər Akademiyasının filialında və başqa yerlərdə olan tanışları ilə maraqlanır.

Sual: Elmlər Akademiyasının filialında sizə yaxın olan yoldaşlarınızın adını deyin.

Cavab: Yaxın dostluq əlaqəsi saxlayıram: Tarix şöbəsinin rəhbəri Bukşpanla, Arxeoqrafiya sektorunun rəhbəri Həsən İmanovla, Dil və Ədəbiyyat İnstitutunun direktoru Z.İ.Zifeldlə, Az.FAN nəşriyyatının müavini Zakirov Zinnətlə, təsərrüfat şöbəsinin müdiri Arutyunovla, Dil və Ədəbiyyat İnstitutunun direktor müavini Qulam Bağırovla, elmi əməkdaş Əli Kazımovla, tərcüməçi Həsənzadə Vahabovla.

Sual: Az. FAN-da olmayan dostlarınızın adını çəkin.

Cavab: Azərbaycan Sovet Ensiklopediyası Terminologiya şöbəsinin rəhbəri Yusif Əliyev, ASE-nin tarix şöbəsinin əməkdaşı Rəşid Ruhullayev, ASE-nin təbiət elmləri şöbəsinin rəhbəri Yaqub Zəki, Azərbaycan SSR Qlavlitin rəisi Eminbəyli İbrahim, Yelenedorfzoo texnik stansiyasının aparıcısı Mirzə Sadıxov, Mərkəzi Arxiv İdarəsinin rəisi Məmməd Bayramov, Azərbaycan Tarix Muzeyinin direktoru Mövsüm Salamov, ADU-nun professoru Qubaydullin, Mərkəzi Arxiv İdarəsinin elmi katibi Gülnəzərov.

Sual: Siz professor Çobanzadəni tanıyırsınızmı?

Cavab: Bəli, onunla ancaq rəsmi surətdə tanış olmuşam.

Sual: Lakin istintaqa məlumdur ki, siz Çobanzadə ilə dostluq əlaqəsi saxlayırsınız. Bunu təsdiq edirsinizmi?

Cavab: Bəli, təsdiq edirəm ki, mən, təxminən, 1927-ci ildən Çobanzadə ilə dostluq əlaqəsindəyəm.

Sual: Çobanzadə haqqında birinci suala nə üçün siz cavab verdiniz ki, onunla ancaq rəsmi tanışam?

Cavab:Mən sizi o dəqiqə başa düşmədiyimdən səhv etdim.

Sual: İstintaq belə hesab edir ki, siz bilərəkdən əlaqənizin həqiqi xarakterini gizlətməyə cəhd etdiniz. Bunu təsdiq edirsinizmi?

Cavab:Təsdiq etmirəm. Mən əvvəldən səhv etdim dedim ki, Çobanzadə ilə əlaqəm rəsmidir.

Protokol şəxsən mənə oxunmuşdur, düzgün yazılmışdır.

Sorğunu apardı: 4-cü şöbənin rəisi Dt kapitanı Avanesyan.

***

Avanesyan V.Xuluflunun yaxın əlaqələrini öyrəndikdən sonra onu konkret olaraq əksinqilabi millətçi təşkilatın üzvü olmaqda suçlayırdı. 25-28 fevral 1937-ci il dindirməsində oxuyuruq:

Sual: İstintaqa məlumdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz, bunu təsdiq edirsinizmi?

Cavab: Qəti surətdə rədd edirəm.

Sual: Bukşpanın ifadəsinə görə, V.Xuluflu AK(b)P-nın üzvü, Az. EA-nın filialının direktor müavini əksinqilabi millətçidir.

Cavab: Bukşpan, yəqin ki, mənim nə vaxtsa ÜK(b)P-dən millətçiliyə meyil etdiyimə görə azad edildiyim üçün belə nəticəyə gəlib.

Sual: Sizin dostunuz H.Zeynallının 09.02.37-ci ildə verdiyi ifadəyə görə, əksinqilabi millətçi təşkilatın üzvlərindən mənə V.Xuluflu məlumdur – demişdir. Siz yenə də əks- inqilabi millətçi təşkilatın üzvü olduğunuzu etiraf etmirsiniz?

Cavab: Mənim əksinqilabi millətçi təşkilatın mövcudluğu haqqında heç bir məlumatım yoxdur və mən ona heç vaxt üzv olmamışam. Zeynallı mənim haqqımda düzgün ifadə verməyib.

Sual: Zeynallı özü haqqında verdiyi ifadədə sizin də bu təşkilatda olduğunuzu bildirir. Zeynallı sizin dostunuzdur. O sizə Türkiyədən gətirilmiş gizli müsavat ədəbiyyatı vermişdir. Siz bunun üstünü açmadınız və əksinqilabi mövqe də durdunuz. Siz səmimi ifadə vermək fikrindəsinizmi?

Cavab: Bilmirəm, nə üçün Zeynallı mənim əksinqilabi millətçi təşkilatın üzvü olduğumu bildirir. Halbuki mən onunla yaxşı ünsiyyətdə

olmuşam, M.Ə.Rəsulzadənin Türkiyədən gətirilmiş qeyri-qanuni kitabçasını mənə verəndə mən onu ələ verməmişəm.

Sual: İstintaq bildirir ki, inadcıllıq göstərməyib düzgün danışasınız. Müttəhim Çiçikalovun verdiyi ifadəyə görə siz, həqiqətən əks inqilabçı millətçi təşkilatın üzvüsünüz.

Cavab: Mən bunu təsdiq etmirəm.

Sual: Sizin inkar etməyiniz mənasızdır. Sizin dostunuz müttəhim professor Çobanzadənin ifadəsinə görə, siz əksinqilabçı millətçi təşkilatın üzvüsünüz. Buna nə deyə bilərsiniz? Müttəhim Çobanzadə öz ifadəsində göstərib: əksinqilabçılardan mənə aşağıdakılar məlumdur. Hansılarla ki, mənim onlarla əksinqilabi əlaqəm var idi – V.Xuluflu AK(b)P-nın üzvü, Az.EA-nın filialının direktor müavini. Xuluflu ilə 24-cü ildən tanışam, ancaq yaxın əlaqələrimiz 29-cu ildən başlayıb və mənim həbs olunduğum günə qədər davam edib.

Cavab: Mən düzgün ifadə vermək qərarına gəldim. Həqiqətən də, Çobanzadə mənə əksinqilabçı millətçi kimi məlumdur və mən onunla əksinqilabi danışıqlar aparmışam.

Sual: İstintaq yenidən birinci suala qayıdır. Siz əksinqilabi partiyanın üzvü olduğunuzu indi boynunuza alırsınızmı?

Cavab: Mən buna etiraz edirəm. Belə bir təşkilatın mövcudluğu haqqında heç nə bilmirdim. Ancaq boynuma alıram ki, bir neçə il müddətində əksinqilabçı millətçilərlə işlədiyimdən onlarla tez-tez ünsiyyətdə olduğumdan mən ruhən millətçilərə yaxınlaşdım və əks inqilabçı millətçilərlə heç bir mübarizə aparmadım.

İstintaqın gedişinə fikir versək, görərik ki, burada kıziyalıların qarşı-qarşıya gətirilməsi, onların verdikləri ifadələrdən çıxarışları oxumaqla müttəhimi ittiham etmək düşünülmüş surətdə həyata keçirilən istintaq fəndlərindən biridi. Eyni halı digər müttəhimlərin də istintaq işlərində müşahidə etmək olur. Bu, onu göstərirdi ki, istintaq və məhkəmələr vahid ssenari üzərində qurulmuş bir oyun idi.

Qalstyan 25 sentyabr 1937-ci ildə CPM-nin 204-cü maddəsinə əsasən V.Xuluflunun istintaq işinin başa çatdığını elan etdi. Vəli Xuluflu isə dediklərinə heç nə əlavə etməyəcəyini bildirdi. Bundan sonra V.Xuluflunun ittihamnaməsi hazırlandı.

Azərbaycan SSR XDİK DTİ-nin 4-cü şöbəsinin rəisi DT kapitanı Sinman tərəfindən 5 oktyabr 1937-ci ildə tərtib edilmiş ittihamnamə Azərbaycan SSR XDİK DT 3-cü ranqının komissarı Sumbatov tərəfindən təsdiq edildi.

Vəli Xuluflu aşağıdakılarda ittiham olunurdu:

1. 1 dekabr 1934-cü ildə Kirovun ölümü ilə əlaqədar hazırlanmış qəsdi həyata keçirən əks inqilabi trotskiçi-zinovyevçi terrorçu təşkilatın üzvüdür, sonra isə (1934-1937-ci illərdə) partiya və hökumət rəhbərlərinə qarşı terror aktları hazırlamışdır;

2. 1925-ci ildən həbs edilənədək Ümumittifaq əks inqilabi pantürkist mərkəzin üzvləri Çobanzadə və Qubaydullinlə əksinqilabi işdə təşkilati əlaqə saxlamış, partiya və Sovet hökumətinə qarşı barışmaz mübarizə mövqeyində durmuşdur;

3. 1935-ci ildə gizli əksinqilabi millətçi təşkilatın heyətinə daxil olmuş və təşkilatın rəhbər heyəti ilə təşkilati əlaqə saxlamışdır;

4. Silahlı üsyanın hazırlanmasında fəal iş aparmış, Azərbaycanın rayonlarında əksinqilabi üsyançı özəklər yaratmışdır;

5. Azərbaycan EAF-nınTarix İnstitutun da işləyərkən elm cəbhəsində də ziyançı iş aparmışdır;

6. Terror mövqeyində dayanmış və MK katibi yoldaş Bağırova qarşı terror aktının hazırlan masında və variantların müzakirəsində fəal iştirak etmişdir[341].

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 11 oktyabr 1937-ci ildə keçirilən hazırlıq iclasında sədr: İ.O.Matuleviç; üzvləri: 1. İ.Zaryanov 2. Y.Jiqur, katib: F.Kostinko, iştirakçı kimi isə SSRİ prokurorunun baş köməkçisi S.Rozovski kimi müəyyənləşdirildi.

Adları çəkilənlərin iştirakı ilə müttəhim V.Xuluflunun cinayət işinə baxılmış və müəyyənləşdirilmişdir:

1. SSRİ prokurorunun baş köməkçisi Rozovskinin təsdiq etdiyi it-tihamnamə ilə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası 1 dekabr 1934-cü ildən qanun çərçivəsində cinayət işini icraata götürməyə razılaşsın;

2. Xuluflu Vəli Məmmədhüseynoğlu Az.SSR CM-nin 64, 69, 70, 73-cü maddələri ilə məhkəməyə təslim olunsun.

3. İşə bağlı məhkəmə iclasında baxılsın;

4. Xuluflu Vəli Məmmədhüseyn oğlu üçün əvvəl seçilmiş həbs qət imkan tədbiri saxlanılsın.

V.Xuluflunun cinayət işinə 12 oktyabr 1937-ci ildə Bakı şəhərində SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyasının bağlı məhkəmə iclasında baxıldı. Qapalı məhkəmə iclası saat 18:00-da öz işinə başladı. Sədr elan etdi ki, Azərbaycan SSR CM-nin 73, 64, 69, 70-

[341] DTX-nin arxivi. V.Xuluflunun istintaq qovluğu, PR - № 25014.

ci maddələri ilə nəzərdə tutulmuş müttəhim Xuluflunun cinayət işi dinlənilir. Katib bildirdiki, müqəssir məhkəməyə gətirilmiş, şahidləri isə çağırılmamışdır. Müttəhim ittihamnamənin surətini aldığını bildirdi. Sədr məhkəmənin tərkibini elan etdi, müttəhim məhkəmədə hüquqlarını bildirdi və ondan soruşdu ki, tərkibə qarşı narazılığı varmı? Müttəhim isə heç bir xahiş və narazılığını bildirmədi.

İttihamnamə oxundu.

Sədr müttəhimə onun müqəssirliyinin mahiyyətini aydınlaşdırdı və ona sual verdi ki, günahınızı təsdiq edirsinizmi?

Xuluflu müqəssirliyini və əvvəlki istintaqlarda verdiyi ifadələri təsdiqlədi. Sədr məhkəmənin bitdiyini elan etdi. Sədr hökmü oxudu. Saat 18:00-da başlayan məhkəmə saat 18:20-də başa çatdı.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının
Səyyar Sessiyasının
H Ö K M Ü

Bağlı məhkəmə iclası 12.10.37-ci ildə Bakı şəhərində keçirilib.

Məhkəmə istintaqlarından məlum olmuşdur ki, V.Xuluflu 1935-ci ildən üsyançı, terrorçu, ziyankar-təxribatçı və millətçi təşkilatın fəal üzvlərindəndir.

Xuluflu terrorçu R.Axundov ilə təşkilatçılıq əlaqələri saxlamış, onun verdiyi tapşırıqlara görə Azərbaycanın rayonlarında üsyançı təşkilatlar yaratmış, üzvlər cəlb etmiş və onları hökumət əleyhinə hərbi üsyana hazırlamışdır. Bağırova qarşı terrorçu aktın hazırlanmasında iştirak etmiş və Tarix institutunda əksinqilabi millətçi terrorçu-ziyançı təbliğat aparmışdır. Beləliklə, istintaq Xuluflunun Azərbaycan SSR CM-in 64, 69, 70, 73-cü maddələri ilə günahkar olduğunu sübut etdi. Bütün bunlara əsaslanaraq Kollegiya CPM-in 316, 317-ci maddələrini rəhbər tutaraq hökm edir:

Xuluflu Vəli Məmmədhüseyn oğlu bütün şəxsi əmlakı müsadirə olunmaqla, ən ağır cəzaya – **GÜLLƏLƏNMƏYƏ** məhkum olunsun.

V.M.Xuluflunun güllələnməsi haqqında hökm Bakı şəhərində 13.10.37-ci il tarixdə həyata keçirilmişdir. Hökmün icrasının həyata keçirilməsi barədə akt SSRİ XDİK-in 1-ci xüsusi şöbəsinin xüsusi arxivində 8-ci cild 33-cü səhifədə saxlanılır[342].

[342] DTX-nin arxivi. V.Xuluflunun istintaq qovluğu, PR - № 25014.

Vəli Xuluflu güllələnməkdən əvvəl təhlükəsizlik orqanları tərəfindən onun həyat yoldaşı Xuluflu Fatma[343] Əli qızı hədəfə alındı və Koqan tərəfindən aşağıdakı məzmunda arayış tərtib edildi.

Azərbaycan XDİK tərəfindən 28 fevral 1937-ci ildə necə bir ziyançı, əksinqilabi terrorçu, Azərbaycanda olan əksinqilabi millətçi təşkilatın üzvü kimi, vətən xaini Vəli Xuluflu Məmmədhüseyn oğlu həbs edilmişdir.

Onun istintaq işi başa çatmış və 12.10.37-ci ildə SSRİ Ali Məhkəməsinin Səyyar Sessiyasının Hərbi Kollegiyası tərəfindən birinci kateqoriya ilə məhkum edilmişdir. Onunla birlikdə həbs olunana qədər yaşamışdır:

Həyat yoldaşı – Xuluflu Fatma Əli qızı 1903-cü ildə Kirovabad şəhərində doğulmuş (İstintaq işində olan sənədlərin bəzilərində onun doğum tarixi 1900-cü il kimi qeyd edilmişdir – C.Q), azərbaycanlı, SSRİ vətəndaşı, bitərəf, orta təhsilli, həbs olunana qədər univermaqda toxuculuq şöbəsində dərzi, məhkum olunmamışdır.

Xuluflu Fatma Əli qızı həbs olunana qədər onunla birlikdə yaşamışdır:

Oğlu: Çingiz-14 yaşında.

Qızı: Sunduz-15 yaşında.

SSRİ XDİK rəhbərliyinin 00486 nömrəli əmrinə əsasən Xuluflu Fatma Əli qızı vətən xaininin arvadı kimi həbs edilsin və Bakı şəhərində ümumi həbsxanada saxlanılsın.

Xuluflu Fatmanın evində silah, qiymətli əşyalar və əksinqilabi ədəbiyyat götürmək məqsədi ilə axtarış aparılsın. Qalan əşyaları müsadirə edilsin və dövlətə verilsin[344].

Təqdim olunan bu arayışdan sonra 26 mart 1938-ci ildə DTİ 8-ci şöbəsinin rəisi DT leytenantı Koqan Xuluflu Fatma Əli qızının istintaq işi ilə tanış olmuş və SSRİ MİK-in 4 iyul 1934-cü il tarixli qərarına əsasən, belə bir qərar qəbul etmişdir ki, Xuluflu Fatma Əli qızı vətən xaininin arvadı kimi istintaqdan və məhkəmədən yayınmaması üçün həbs edilsin.

Həmin qərar 31 mart 1938-ci ildə Q.B.Borşov tərəfindən təsdiq edilmiş və Fatma xanıma 13 aprel 1938-ci ildə elan olunmuşdu.

31 mart 1938-ci ildə Bakı şəhəri V.Kladbişenskaya küçəsi, ev 8-də axtarış aparılması barədə 867 №-li order imzalandı.

---

[343] Qeyd: V.Xuluflunun anasının adı – Fatma, həyat yoldaşının adı isə Fatmanisədir. İstintaq sənədlərində Fatmanisənin adı səhv olaraq Fatma kimi yazılmışdır.

[344] DTX-nin arxivi. Fatma Xuluflunun istintaq qovluğu, PR - № 26117.

Onlar bu evə təzə köçmüşdülər, Vəli Xuluflunun həbsindən əvvəl Bakı şəhəri Kommunist küçəsi, ev 102, mənzil 9-da yaşayırdılar. Ərinin həbsindən sonra 16.07.37-ci ildə məhkəmənin 09.07.37-ci ildə çıxardığı 952 saylı qərarını ona çatdırdılar. Həmin qərara əsasən Xuluflu Fatma yaşadığı evdən çıxaraq 13-cü Kladbiş, ev № 8-ə köçməli idi. Fatma xanım buna etiraz etsə də, ona iki gün vaxt verilməsini xahiş etdi (Fatma xanımı köçürdükdən sonra həmin ev XDİK-in nümayəndəsinə verildi – C.Q). İndi axtarış Fatma xanıma verilmiş kiçik evdə aparılacaqdı.

QEYD: İstintaq işində 1845 №-li order də vardır ki, həmin orderə əsasən Xuluflu Fatma Əli qızı 14.10.37-ci ildə (yəni V.Xuluflunun güllələnməsindən bir gün sonra) həbs edilməli və evində axtarış aparılmalı idi. Nədənsə, F.Xuluflu həmin vaxt həbs edilməmişdi.

Buna baxmayaraq, axtarış 1938-ci ilin 11 aprelində aparıldı. Axtarış zamanı Fatma xanımdan ona məxsus CAA seriyalı 532906 №-li sovet pasportu və onun həqiqətən Bakı univermağında işlədiyini təsdiq edən 207 saylı vəsiqə (həmin vəsiqə bu gün də istintaq işində qorunub saxlanılır.) götürülmüşdür. Axtarış zamanı istintaq üçün maraq kəsb edə biləcək bir şey tapılmasa da, əşyalar siyahıya alınaraq müsadirə edilmiş, mənzil möhürlənmiş və Fatma xanımın 2 uşağı küçəyə atılmışdır.

Fatma Xuluflunun 80 yaşlı anası hər iki uşağı götürüb onların tərbiyəsi ilə məşğul olmaq məcburiyyətində qalır. Özünün qulluğa ehtiyacı olduğu halda, iki uşağa, həm də valideyinləri «vətən xaini» olan uşağa baxmaq onun üçün həm maddi-mənəvi, həm də fiziki cəhətdən çox ağır idi. Bunu yaxşı dərk edən F.Xuluflu 20 mart 1940-cı ildə Azərbaycan SSR XDİK-ə yazdığı ərizəsində satıb xərcləmələri məqsədi ilə evindən götürülmüş əşyaların uşaqlarına qaytarılmasını xahiş edirdi: «Mən həbs edilən zaman 10.04.38-ci ildə ev əşyalarının qeydiyyatı aparılmış və mənə aid olan əşyalar da götürülmüşdür. Mənim uşaqlarım, maddi cəhətdən pis təmin olunmuş qoca anamın himayəsindədirlər. Ona görə də sizdən artıq dərəcədə xahiş edirəm ki, o əşyaları və ya onların bir hissəsini anama qaytarasınız. Ona görə ki onları satıb özünü və uşaqları saxlaya bilsin.

20.03.1940-cı il. Xuluflu Fatma».

Axtarışdan iki gün sonra – 13 aprel 1938-ci ildə dindirilən F.Xuluflu DTİ 8-ci şöbəsinin inspektoru, DT serjantı Matimovun suallarına belə cavab verir:

Sual: Deyin, siz nə vaxtdan öz əriniz Vəli Xuluflu ilə birlikdə yaşayırsınız?

Cavab: Ərimlə 1922-ci ildən həbs edildiyi, yəni 28 fevral 1937-ci ilədək birlikdə yaşamışam.

Sual: Ərinizin əksinqilabi fəaliyyəti haqqında sizə nə məlumdur?

Cavab: Ərimin əksinqilabi fəaliyyəti barədə mənə heç nə məlum deyil. Çünki o mənimlə heç nə haqqında öz fikirlərini bölüşmürdü.

Sual: Öz ifadənizə başqa nə əlavə edərdiniz?

Cavab: Heç nə əlavə edə bilmərəm.

İmza: Xuluflu Fatma[345].

Bu kiçicik dindirmədən sonra DT serjantı Lyubimov Xuluflu Fatma Əli qızının 23338 №-li istintaq işi haqqında aşağıdakı məzmunda ittihamnamə hazırladı. (İttihamnamə DTİ 8-ci şöbənin rəisi DT leytenantı Koqanla razılaşdırılmış və həmin ittihamnaməni 21 aprel 1938-ci ildə Borşov təsdiq etmişdir.): SSRİ MİK-in 4 iyun 1934-cü il qərarına əsasən Xuluflu Fatma Əli qızı vətən xaininin arvadı kimi 10 aprel 1938-ci ildə həbs edilmiş və Bakı şəhərində ümumi həbsxanada saxlanılır.

SSRİ XDİK-in 15.08.37-ci il 00486 №-li əmrinə əsaslanaraq ittiham edilən Xuluflu Fatma Əli qızının 23338 №-li istintaq işi SSRİ XDİK-in Xüsusi Müşavirəsinə göndərilsin.

Beləliklə, F.Xuluflunun işi Xüsusi Müşavirəyə göndərildi və 29 may 1938-ci ildə SSRİ XDİK-in Xüsusi Müşavirəsində Xuluflu Fatma Əli qızının istintaq işinə baxıldı.

29 may 1938-ci ildə SSRİ XDİK-in Xüsusi Müşavirəsinin iclas protokolundan çıxarış:

EŞİDİLDİ: Azərbaycanlı, 1903-cü ildə təvəllüd etmiş Xuluflu Fatma Əli qızının 23338 №-li istintaq işi.

QƏRARA ALINDI: Xuluflu Fatma Əli qızı xalq düşməninin arvadı kimi cəzasını İslah Əmək Düşərgəsində çəkmək və vaxtı 10.04.38-ci ildən hesablanmaqla SƏKKİZ il müddətinə azadlıqdan məhrum edilsin[346].

Günahsız bir qadını doğma yurdundan və övladlarından SƏKKİZ il ayrı saldılar. İndi Fatma xanım bir daha övladlarının üzünü görmək, onların taleyi ilə maraqlanmaq üçün səkkiz il zamanın rəhbərləri kimi soyuq və sərt iqlimlə mübarizə aparmalı idi.

[345] DTX-nin arxivi. Fatma Xuluflunun istintaq qovluğu, PR - № 26117.
[346] DTX-nin arxivi. Fatma Xuluflunun istintaq qovluğu, PR- № 26117.

Fatma xanım yaşanması çox çətin olan bir şəraitdə SƏKKİZ il yaşadı... Yaşadı ki, doğmalarını, uşaqlarını görsün, ərinin naməlum taleyi ilə maraqlansın.

Fatma xanım 10 aprel 1946-cı ildə həbsdən azad edildi. Lakin onu bir vaxt məcburi surətdə ayırdıqları doğma Bakısına qayıtmağa icazə vermədilər. Guya, o, Bakıya qayıtsaydı, əksinqilabi işlə məşğul olardı. Ona görə də ona Bakı şəhərindən uzaqda yaşamağa icazə verildi.

Fatma xanım əvvəlcə Gəncəyə bacısının, bir qədər sonra isə ailəsi ilə birlikdə Mingəçevir şəhərindəki SES-də mühəndis işləyən qızı Sunduzun yanında qalır. Ev-eşiyi əlindən alınan, olmazın məhrumiyyətlərlə üz-üzə qalan bu xəstə qadın qızının yanına getmək və qalan ömrünü orada başa vurmaq məcburiyyətində idi.

Fatma xanım həbsdən azad olduqdan sonra övladlarını görüb bir az təskinlik və rahatlıq tapsa da, həyat yoldaşı Vəli Xuluflunu unuda bilmirdi. Sürgündə olduğu yerlərdə də gözləri ilə onu aramış, elə bilmişdir ki, o da buralarda sürgündədir. Arasa da, tapa bilməmişdi ömür-gün yoldaşını Fatma xanım ağlına da gətirməmişdi ki, onu artıq güllələyiblər. Bir də axı nə üçün güllələməli idilər Vəli Xuluflunu? Bütün bu suallar ona rahatlıq vermədiyindən Fatma xanım eyni suallarla müxtəlif ünvanlara müraciət edərək Vəli Xuluflunu soraqlayırdı. Həmin ərizələrdə oxuyuruq:

SSRİ prokurorluğunun Baş Hərbi Prokuroruna
Bakı şəhəri Nijnaya-Bulvar küçəsi,
ev 643, blok 1, mənzil 14-də yaşayan
Xuluflu Fatma Əli qızı tərəfindən

ƏRİZƏ

23 oktyabr 1954-cü ildə mən ərimin bəraət alması məsələsinə dair narazılıq olduğunu Sizə bildirmişdim.

Siz mənə 10 dekabr 1954-cü il tarixli 2/2n 24525-44 nömrəli məktubla bildirmişsiniz ki, V.Xuluflunun işi barəsindəki narazılığım Baş Hərbi Prokurorluğa çatıb, yoxlamalar aparılacaq və yoxlamanın nəticələri barədə məlumat verəcəksiniz. O vaxtdan 5 ay keçib, lakin heç bir əlavə məlumat almamışam. Mən yaşlı qadınam, layiq olmadığım

alçaqlıqlara məruz qalmışam. Mənim bütün əmlakımı müsadirə etdilər, evimi aldılar, sığınacaqsız qalmışam.

Mənim vəziyyətimə diqqət yetirin. Bu cür yaşayış məni yormuşdur. Qoca vaxtımda özümə sığınacaq qurmaq istəyirəm. Ona görə də bilmək istəyirəm ki, V.Xuluflunun işini yoxlamağa başlamısınızmı? Nə tədbir görmüsünüz, ümumiyyətlə, o sağdırmı və sağdırsa harada yaşayır? Əgər onu ədalət məhkəməsi həbs etmişdirsə, onda mənə qalır ki, əyilmiş başımla taleyi fəth edim. Əgər mənim ərim günahsızdırsa, onda xahiş edirəm, mənə məlumat verin və mən xalqın üzünə dik baxım. Öz vətənimin vətəndaşları ilə eynihüquqlu olum.

Xuluflu Fatma. 17 may 1955-ci il.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının sədrinə
surəti : SSRİ KP MK-nın birinci katibi N.S.Xruşşov
yoldaşa;
SSRİ Nazirlər Soveti sədri H.A.Bulqanin yoldaşa
Bakı şəhəri Nijnaya-Bulvar küçəsi,
ev 643, blok 1, mənzil 14-də yaşayan
Xuluflu Fatma Əli qızı tərəfindən

Ərizə

Xuluflu Vəli Məmmədhüseyn oğlunun işinə 3 may 1956-cı ildə N 1497-s SSRİ Ali Hərbi Prokurorluğunda baxılıb. SSRİ Ali Hərbi Prokurorluğu mənə bildirdi ki, 6 iyun 1956-cı ildə 9d-24525-44 nömrəli işin nəticəsini mənə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası bildirəcək. O vaxtdan 2 aydan artıq keçməsinə baxmayaraq Sizdən cavab almamışam. Mən bədbəxt qoca bir qadın həmişə haqqa ümid bəsləmişəm. İnamla yaşamışam. İnanaraq Sizdən xahiş edirəm ki, ədalət məhkəməsinin qərarı barədə mənə məlumat verin. Mən çox yaşamayacağam, ömrümün son günlərini bəraət alaraq yaşamaq istəyirəm.

Sizdən xahiş edirəm ki, ərimin işi ilə bağlı araşdırmaların nəticəsini yuxarıda göstərdiyim ünvana çatdırasınız.

Xuluflu Fatma. 18 avqust 1956-cı il.

***

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri
K.E.Voroşilov yoldaşa
Bakı şəhəri Nijnaya-Bulvar küçəsi,
ev 643, blok 1, mənzil 14-də yaşayan
Xuluflu Fatma Əli qızı tərəfindən

Ərizə

Artıq 2 ildir ki, mən ərimin işi ilə əlaqədar olaraq ali orqanlara müraciət etməyimə baxmayaraq hələ də nəticəsiz qalmışdır.

Nazirlər Sovetinin sədri H.A.Bulqaninə, SSRİ KP MK-nin katibi N.S.Xuruşova, SSRİ Ali Hərbi prokurorluğuna və SSRİ Ali Məhkəməsi hərbi kollegiyası sədrinə dəfələrlə müraciət etmişəm, lakin hamısı eyni cavab vermişdir ki, bəraət məsələsinə baxılmasına icazə verilmir.

Ola bilərmi ki, iki il ərzində V.Xuluflunun işinə baxmaq mümkün olmasın və mənə sonuncu dəfə əməlli cavab verin. Əgər mənim ərizəm göndərdiyim ünvana çatdırılsa, mən də öz arzuma çataram. Ərizələrim isə ünvanlara deyil, katibliklərə çatır, onlar da, adətən, standart cavablar verirlər.

V.Xuluflu xalq düşməni kimi 28 yanvar 1937-ci ildən Az.SSR XDİK tərəfindən tutulub. Onun işlərinin qaydaya salınması məsələsində mənə kömək etməyinizi xahiş edirəm.

Mən özüm də 8 il xalq düşməninin arvadı kimi cəza çəkmişəm. Bütün əmlakım, evim müsadirə olunub. Həmin gündən sığınacaqsızam. Mənim ərimin işini sürətləndirməyi sizdən xahiş edirəm. Mən bundan sonra çox yaşamayacağam. Həyatımın son günlərində axirətə bəraət almış halda getmək istəyirəm. Bütün gücümlə sizdən yenə xahiş edirəm ki, X.Vəlinin işlərinin qaydaya salınmasının nəticəsi barədə mənə məlumat verəsiniz. Məktubu Bakı şəhəri, Nijnaya-Bulvar küçəsi, ev 643, blok 1, mənzil 14-də yaşayan Aslanovaya (Xuluflu Fatma Əli qızına) göndərəsiniz.

26/09.56-cı il. Xuluflu Fatma.

***

Fatma xanım SSRİ KP MK-nin katibi N.S.Xruşşova, Nazirlər Sovetinin sədri H.A.Bulqaninə, SSRİ Ali Hərbi prokurorluğuna və SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası sədrinə dəfələrlə müraciət etsə də, heç bir müsbət cavab ala bilməmişdir.

Yalnız SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Fatma xanımın «ərim haradadır?» sualına 17 oktyabr 1956-cı ildə belə cavab verilməsini məsləhət görmüşdür:

«V.Xuluflu 12 oktyabr 1937-ci ildə məhkum edilmiş və 19 oktyabr 1941-ci ildə vəfat etmişdir».

1956-cı ildə Fatma xanıma çatdırılan bu sözlər ağ yalan idi. Vəli Xuluflu 1937-ci ilin 13 oktyabrında güllələnmişdi. Fatma xanımın çoxsaylı müraciət və yalvarışlarından sonra V.Xulufluya 17 noyabr 1956-cı ildə bəraət verildi.

Fatma xanımı narahat edən məsələlərdən biri də vaxtilə evindən götürülmüş əşyaların geri qaytarılması idi. O, bununla əlaqədar olaraq SSRİ Baş Prokuroru R.A.Rudenkoya ərizə ilə müraciət etmişdir. Həmin ərizəyə cavab olaraq 22 noyabr 1956-ci ildə Az. SSR Nazirlər Soveti yanında DTK şöbə rəisi Məmmədov tərəfindən bildirilmişdir ki, mənzil məsələsi ilə əlaqədar olaraq məsləhət görürük ki, Bakı Şəhər İcraiyyə Komitəsi yanında hökumət komissiyasına müraciət edəsiniz.

Fatma xanımın mənzil məsələsi də beləcə həll edilmişdir.

Fatma xanımın başı bu kimi işlərə o qədər qarışmışdı ki, özü yaddan çıxmışdı. Bir dəfə də olsun, ərizə ilə müraciət edərək öz bəraəti ilə əlaqədar olaraq xahiş etmirdi. Görünür, bunu görən oğlu Çingiz Xuluflu ərizə yazaraq anasının günahsız olduğunu bildirməyə məcbur olmuşdur.

Zaqafqaziya Hərbi Dairəsinin
Hərbi Prokurorluğunun
baş köməkçisi A.İ.Çesnakov yoldaşa
Bakı şəhəri Nijnaya Bulvarnaya küçəsi,
643-cü məhəllə, blok 1, mənzil 14-də
yaşayan Xuluflu Çingiz Vəli oğlu tərəfindən

ƏRİZƏ

«Mənim anam, Xuluflu Fatma Əli qızı əri Xuluflu Vəli Məmməd-hüseyn oğlunun həbsi ilə əlaqədar olaraq «xalq düşməni»nin arvadı kimi həbs edilmişdir.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarına əsasən atam V.Xuluflu ölümündən sonra bəraət almış və hüquqları bərpa olunmuşdur.

Ona görə də Sizdən xahiş edirəm ki, mənim anamın da istintaq işinə baxasınız və ona bəraət verəsiniz.

04 yanvar 1957-ci il»[347].

Az.SSR Ali Məhkəməsi 1 fevral 1957-ci ildə Xuluflu Fatma Əli qızının istintaq işi ilə əlaqədar olaraq protest verdi. Həmin protestdən bir qədər sonra, daha doğrusu, 15 fevral 1957-ci ildə Fatma Xulufluya bəraət verildi.

Jurnalist Salman Rəhmanov V.Xulufluya həsr etdiyi məqaləsində onun qızı Sunduz xanımla söhbətini də "Azərbaycan" qəzetində nəşr etdirdiyi məqaləsinə daxil etmişdir. Biz də Salman müəllimin məqaləsində yer alan Sunduz xanımın xatirələrini burada verməyi məqsədə uyğun saydıq. O ağır və müdhiş günləri Vəli Xuluflunun qızı, 91 yaşlı Sunduz Xuluflu-Aslanova belə xatırlayır:

"Atamdan sonra anam həbs ediləndə mən və qardaşım ana nənəmin ümidinə qaldıq. Zəmanə pis olduğundan yaxın qohum-əqraba da bizdən uzaq qaçırdı. Mən 3 nömrəli, qardaşım Çingiz isə 132 nömrəli rusdilli orta məktəbdə əla qiymətlərlə oxuyurduq.

Nə anamın, nə də nənəmin təhsili yox idi. Atam həbsdən əvvəl bizə ayrıca müəllim tutmuşdu. Həmin müəllimlər bizə rus və alman dillərini öyrədirdilər. Atam alman dilini də bilirdi, Bakıya gələndən sonra öyrənmişdi. Yadımdadır ki, qonşu binada yaşayan alman dili müəlliməsindən dərs almağa gedəndə məni də aparardı. Bir saatdan çox çəkən məşğələ mənə çox maraqlı görünürdü.

Anam həbs ediləndən sonra üç-dörd aydan bir onunla məktublaşırdıq, amma atamdan heç bir xəbər yox idi. Anam məktublarında həmişə xüsusi vurğulayırdı ki, "İnana bilmirəm, Vəli sağ ola, amma bir dəfə də olsun sizinlə, mənimlə maraqlanmaya".

Mən dərsdən sonrakı vaxtımı nənəmin yanında kitabxanada keçirir, məktəbdə verilən tapşırıqları hazırlayırdım. Həkim olmaq arzusunda idim. O vaxtı orta məktəbi əla qiymətlərlə qurtaranlar qəbul imtahanlarında iştirak etmədən birbaşa Tibb İnstitutuna qəbul olunurdular. Orta məktəbdə attestat qiymətlərim yazılanda məktəbin direktoru sinif rəhbərimi, nənəmlə məni yanına çağırıb dedi:

"Xalq düşməni"nin qızına əlaçı attestatı verə bilmərəm, mən bilirəm, o, xalq düşməni deyil, amma çox xahiş edirəm... mən bunu bacara bilmirəm..."

[347] DTX-nin arxivi. V.Xuluflunun istintaq qovluğu, PR - № 25014.

"Xalq düşməni"nin qızı olduğuma görə heç sənədlərimi instituta daxil olmaq üçün də verə bilmədim.

Sentyabrın sonlarında eşitdim ki, Azərbaycan Sənaye İnstitutunda, indiki Azərbaycan Neft Akademiyasında əlavə qəbul var. Qorxa-qorxa sənədlərimi aparıb ora verdim. Qəbul imtahanında Şeydayev familiyalı imtahan götürən ortayaşlı müəllim familiyamı, adımı, atamın adını astadan oxuyub diqqətlə üzümə baxdı, məni dindirmədən, heç bir sual vermədən başını aşağı salıb imtahan vərəqəmə "5" yazdı... Mənə elə gəldi ki, o adam atamın başına gələnlərdən xəbərdar idi.

Mən də, qardaşım Çingiz də Azərbaycan Sənaye İnstitutunu bitirdik. 1946-cı ildə anam azadlığa buraxılanda mən ailə həyatı qurmuşdum. Anam Bakıya gəldi, bir neçə gün anasının, oğlunun və mənim yanımda gizlin qaldı. O zamanın qanunlarına görə burada qala bilməzdi. Odur ki, Gəncəyə, Səltənət xalamın yanına getdi»[348].

Bütün bunlar sovetlər dönəmində yaşamış günahsız bir ziyalı ailəsinin ağrılı həyat hekayəsi, faciəli ailə dramı idi.

V.Xuluflunun əlifba və orfoqrafiya ilə bağlı görüşləri

Məlumdur ki, sovetləşmənin ilk illərində latın əlifbasına keçmək günün ən aktual problemlərindən birinə çevrildi və bu işin realizəsi məqsədi ilə yeni Əlifba Komissiyası təsis olundu. Lakin yeni əlifbanın qəbulunda Azərbaycan ziyalıları heç də yekdil fikirdə deyildilər. Onlardan bəziləri əski əlifbanı – ərəb əlifbasını saxlamağı və onun üzərində müəyyən islahatlar aparmağı iddia edirdilərsə, digərləri də ondan imtina edib latın əlifbasına keçməyin tərəfdarı və təəssübkeşi kimi çıxış edirdilər. Sovet siyasi-ideoloji sistemi ərəb əlifbası tərəfdarlarını mürtəce, latınçıları isə yenilikçi kimi qələmə verir və təqdir edirdilər. Şübhəsiz ki, yeni əlifbaya keçid Vəli Xuluflunun dediyi kimi yalnız «hərflərin dəyişdirilməsi demək deyildi», bu, eyni zamanda yeni dövrün, xüsusilə də türkdilli xalqların ictimai-siyasi, mədəni həyatında mühüm rol oynaya biləcək tarixi hadisə idi.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlunun rəhbərliyi altında Fərhad Ağazadə, Xalid Səid Xocayev, Cəlil Məmmədquluzadə, Bəkir Çobanzadə, Vəli Xuluflu və başqaları yeni əlifbanın ümumtürk əlifbasına çevrilməsində səy və bacarıqlarını əsirgəməmişlər. Onlar yeni əlifba əleyhinə çıxanları, bu əlifbanın gələcək perspektivlərini görməyən və ya görmək istəməyənləri tənqid

[348] Sunduz xanımın söylədiklərini qələmə aldığına və «Azərbaycan» qəzeti vasitəsilə oxuculara çatdırdığına görə tanınmış jurnalist Rəhman Salmanova öz minnətdarlığımızı bildiririk.

etdikləri kimi, onu dəstəkləyənləri və təbliğ edənləri də alqışlayırdılar. Bu mənada V.Xuluflu yeni əlifba ilə nəşr edilən «Yeni yol» qəzetinin əlifbanın öyrədilməsi və təbliği istiqamətində gördüyü mühüm işləri yüksək qiymətləndirərək yazırdı:

"Yeni yol" kəlməsi çox vaxt yeni əlifba yerinə işlədilirdi. Bizim əleyhdarlarımız çox vaxt yeni əlifbaçı əvəzinə yeni yolçu deyirdilər. «Yeni yol» yeni əlifbanın sinonimi olmuşdur»".[349] Bu sətirlərdən yeni əlifbaya keçid dövründə V.Xuluflunun hansı mövqedə dayandığı da aydın görünür.

Məlumdur ki, yeni əlifba elm, təhsil, dil və maariflə bağlı bir çox problemlərin də həll olunmasının zəruriliyini gündəmə gətirdi. Bu əlifbanın qəbulunda, təbliğində və yazı (imla) qaydalarının hazırlanmasında V.Xuluflunun da müstəsna xidmətləri vardır. Müəllifin 1925-ci ildə "Yeni Türk Əlifba Komitəsi" nəşriyyatında çap etdirdiyi «Yeni türk əlifbası ilə yazı qaydaları» kitabı alimin bu istiqamətdə gördüyü çoxsaylı əməli işlərdən biridir. Onun beş başlıq altında («Türkcədə hərflər və səslər», «Ahəng (harmoniya)», «İsim», «Məsdər», «Ədat») ümumiləşdirdiyi (qruplaşdırdığı) kitabında sözlərin düzgün yazılış (orfoqrafiya) qaydaları barədə müfəssəl məlumat verilirdi.

Kitabdakı mətnlərin və qaydaların həm əski, həm də latın əlifbası ilə verilməsi bir tərəfdən latın əlifbasını yeni öyrənənlərə kömək məqsədi daşıyır və türk dilinin qrammatik özünəməxsusluqlarını üzə çıxarmağa yardım edirdisə, digər tərəfdən də latın əlifbasında oxumağın və yazmağın asanlığını, eyni zamanda yazıdakı «pozuqları» aradan qaldırmağa, mövcud fərqləri göstərməyə və nəhayət, dünyaya inteqrasiyaya xidmət edirdi. Sirr deyildir ki, əski əlifbada saitlər çox vaxt yazılmadığından oxunuş zamanı müəyyən çətinliklər törədirdi. Vəli Xuluflu «Yeni türk əlifbası ilə yazı qaydaları» kitabının başlanğıcında (girişində) öz məqsəd və məramını ümumi şəkildə aşağıdakı kimi ifadə edirdi:

"Ərəb əlifbası ilə yazıldığı zaman səsli hərflər açıqda yazılmırdı. Yeni əlifbaya keçdikdə səsli hərflərin açığa keçməsi və həm də ahəng qaydasının tamamilə tətbiqinə diqqət edildiyinə görə yazıda bir çox pozuqluq baş verdi. Yazı pozuqlarını qaldırmaq üçün qısaca olaraq bir takım qaydaları bir araya topladıq. Yad millətdən alınan kəlmələrin xüsusunda yazdığımız qaydalar üzrə yad kəlmələri türkcəyə uydurmağa çalışmaqla vətəndaşlar türkcəyə böyük köməklik etmiş olacaqlar".[350]

[349] «Yeni əlifba» və «Yeni yol» qəzetinin 10 illiyi məcmuəsi, Bakı, 1932, s. 15.
[350] Xuluflu V. Yeni türk əlifbası ilə yazı qaydaları. Bakı, 1925.

1926-cı ilin fevral ayının 26-dan martın 5-nə kimi Bakı şəhərində davam edən Birinci Beynəlxalq Türkoloji Qurultayı bir çox məsələlər kimi yeni imla mətnlərinin və mükəmməl imla lüğətlərinin hazırlanmasını da Azərbaycan ziyalılarının qarşısında bir vəzifə kimi qoydu. Əslində yeni əlifbaya keçid prosesinin özü də bunu diktə edirdi. Yeni dövrün qarşıya qoyduğu bu həyatı vacib vəzifələrin yerinə yetirilməsində maraqlı olan V.Xuluflu Azərbaycanın xalq dili lüğətinin «Tədqiq və Tətəbbö Cəmiyyəti» ilə bərabər dünyaya gəldiyini[351] qeyd etsə də, bu məsələ ilə bağlı bir çox problemin türkoloji qurultaydan sonra da həll edilmədiyini, böyük çətinliklərlə üzləşdiyini gizlətmirdi. Məhz bunun nəticəsi idi ki, 24 yanvar 1928-ci ildə Bakı şəhərində ilk imla konfransı çağırıldı. Professor Adil Babayevin yazdığı kimi: «Bu konfransda (söhbət birinci imla konfransından gedir – C.Q.) qəbul edilmiş imla qanunlarının bugünkü imla qanunları ilə əlbəttə, oxşar və fərqli cəhətləri vardır. Biz bu fərqli cəhətləri müqayisə etmək, həmin imla qanunlarının bugünkü elmi tələblərə nə dərəcədə cavab verib-verməməsini şərh etmək fikrində deyilik. Həmin konfransda qəbul edilmiş imla qaydaları, əsasən B.Çobanzadənin konfransın müzakirəsinə verdiyi tezislərdən ibarətdir. Buna görə də həmin konfransda qəbul edilmiş imla qaydaları tamamilə B.Çobanzadənin imla qayda və qanunları haqqındakı görüşləri ilə eynidir. Konfrans B.Çobanzadənin məruzəsinə kiçik dəyişiklik və əlavə etməklə 41 maddədən ibarət imla qaydaları qəbul etmişdi».[352]

Professor Adil Babayevin burada söylədiyi «həmin konfransda qəbul edilmiş imla qaydaları tamamilə B.Çobanzadənin imla qayda və qanunları haqqındakı görüşləri ilə eynidir» və yaxud da «Konfrans B.Çobanzadənin məruzəsinə kiçik dəyişiklik və əlavələr etməklə 41 maddədən ibarət imla qaydaları qəbul etmişdi» fikirləri ilə razılaşmaq çətindir. Adı gedən qərarın elə ilk abzasında oxuyuruq: «Birinci Azərbaycan imla konfransı «İmlada ümumi prinsiplər» mövzusuna dair professor Çobanzadə və «Yeni əlifbada imla əsasları» mövzusunda Vəli Xuluflu yoldaşların məruzəsi üzrə olan tezislərə əsaslanaraq aşağıdakı qərara gəldi».[353]

Göründüyü kimi, ilk imla konfransının qəbul etdiyi qərar yalnız professor Bəkir Çobanzadənin deyil, eyni zamanda Vəli Xuluflunun məruzələrinin tezisləri əsasında hazırlanmışdı. V.Xuluflu birinci imla

[351] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3.
[352] Babayev A. Bəkir Çobanzadə, Bakı, 1998, s. 75.
[353] Xuliflu V. İmla lüğəti, Bakı, 1929, s. 9.

konfransının qəbul etdiyi 41 maddədən ibarət olan qərarı nöqtə-vergülünə toxunmadan özünün «İmla lüğəti» kitabına da daxil etmişdir.

Şübhəsiz ki, birinci imla konfransının qəbul etdiyi qərar da mövcud çətinlikləri və orfoqrafiya problemlərini tamamilə aradan qaldıra bilmədi. V.Xuluflu bu xüsusda yazırdı: «Azərbaycan imla konfransının qərarları bütün nəşriyyat və mətbuat idarələri üçün məcburi olmalı idi. Lakin nədənsə bu vaxta qədər bizim mətbuat və nəşriyyat hələ də bir imlaya tabe olmaq istəmir və hər kəs istədiyi kimi hərəkət edir. Mətbuatımızda olan anarxiya qəti surətdə ortadan qaldırılmalıdır. Mətbuat və nəşriyyatın bir imlaya tabe olmaması məktəb və müəssisələrin işlərinə ağır təsir buraxır».[354]

Bu qeydlərdən aydın görünür ki, ayrı-ayrı idarə və təşkilatlar, xüsusilə də nəşriyyatlar imla məsələlərində, idarələrarası yazışmalarda bu qərarın – düzgün yazı qaydalarının tələblərinə məhəl qoymurdular. Şübhəsiz ki, bu da düzgün yazı qaydalarındakı «anarxiyanı» və hərc-mərcliyi aradan qaldırmağa və təshih etməyə mane olurdu.

Marksist-leninçi ideyaların təsiri altında olan Vəli Xuluflu yeni orfoqrafiya qaydalarına əngəl olan və maneəçilik törədən məsələləri də diqqət mərkəzinə çəkirdi: «Yeni əlifbanın təşviqinə başlandığı zaman proletar mədəniyyətin düşməni olan millətçilər – müsavatçılar, feodal ərəb mədəniyyəti tərəfdarları, ruhanipərəstlər, islahçılar yeni əlifbanın ən qəddar düşməni idilər. Onlar öz sinfi düşmanlıqlarını əlifba məsələsində də gizlətmədilər. Çünki əlifba məsələsi, həqiqətən, yalnız hərfləri dəyişmək deyil, sosialist mədəniyyətinə vasil olmak, feodal və burjuaziya ədəbiyyatına, mədəniyyətinə zərbə endirməkdən ibarət idi».[355]

Əslində, V.Xuluflunun bu sözlərində dövrün ideoloji mənzərəsi bütün açıqlığı ilə ifadə olunub. Əlbəttə, "əlifba məsələsi, həqiqətən, yalnız hərfləri dəyişmək deyil, sosialist mədəniyyətinə vasil olmaq, feodal və burjuaziya ədəbiyyatına, mədəniyyətinə zərbə endirməkdən ibarətdir" deyən müəllif öz yanaşmasında tamamilə haqlı idi. Elə bu tezisə əsaslansaq, V.Xuluflunun "proletar mədəniyyətinin düşməni olan millətçilər – müsavatçılar, feodal ərəb mədəniyyəti tərəfdarları, ruhanipərəstlər, islahçılar" adlandırdığı fikir sahibləri də öz mövqelərində haqlı idilər.

[354] Xuluflu V. İmla lüğəti, Bakı, 1929, s. 342.
[355] Xuluflu V. II imla konfransının yekunları. «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 75.

Burada hər kəs özünü haqlı hesab edirdi. V.Xuluflu və digər kommunist-bolşevik ideologiyasının tərəfdarları sosializmi milli qurtuluş ideyası kimi qəbul edərək, köhnə əlifbadan xilas olmağa Azərbaycan xalqının nicatı, onun maariflənməsinin əsası kimi baxırdılar. Bu mənada, "əlifba məsələsi, həqiqətən, yalnız hərfləri dəyişmək deyildi". Lakin yeni əlifbanın əleyhinə gedənlər də bu "əlifba məsələsinin, həqiqətən, yalnız hərfləri dəyişməkdən ibarət olmadığını", bunun altında kommunust-bolşeviklərin milləti öz tarixi məhvərindən qopardacaq məkrli niyyətini də bütün aydınlığı ilə görürdülər. Göründüyü kimi, məsələnin mahiyyəti heç də hərflərin dəyişdirilməsində deyildi. Yeni əlifbaya millətin maariflənməsinin nicatı kimi səmimi qəlbdən inananlarla bu islahatın milli, mənəvi, dini dəyərlərin əleyhinə yönəldiyinə inananlar üzbəüz durmuşdular. Faciə onda idi ki, sovet ölüm maşını öz məqsədinə nail olandan sonra qarşı duran millət övladlarının hamısını heç bir fərq qoymadan dar ağacına yollayacaq, ona xidmət edənlərə, sosializm ideyalarına səmimi qəlbdən inananlara heç bir rəhm etməyəcəkdi. Çünki sovet hökuməti çox gözəl bilirdi ki, yeni əlifbanın tərəfdarları da, əleyhdarları da eyni dərəcədə öz xalqını sevir, onun gələcəyini düşünürdülər. Sovet ölüm maşını onların hamısını məhz bu səbəbə – millət sevgisinə görə məhv edəcəkdi.

Qeyd edək ki, yuxarıdakı fikrində - müsavatçıların yeni əlifbaya mane olması məsələsində V.Xuluflu haqlı deyildi. Çünki yeni əlifbaya keçmək M.Füzulidən M.F.Axundzadəyə qədər bir çox Azərbaycan ziyalılarını düşündürmüşdür. Böyük Füzuli ərəb əlifbasının çətinliklərindən gileylənirdisə, Axundzadə öz sələfindən bir qədər irəli gedərək ərəb qrafikasını islah etməyin və ya latına keçməyin tərəfdarı kimi mübarizə aparırdı. Azərbaycan dilinin özünəməxsusluqlarını dərindən bilən M.F.Axundzadə göstərirdi ki, mən iki cür əlifba düşünmüşəm. Bunlardan biri latın əlifbasıdır ki, onu soldan sağa yazmaq gələcəkdir. İkincisi isə ərəb hürufatıdır ki, onlar üzərində müəyyən dəyişikliklər edilməlidir. Belə ki, bütün nöqtələrdən imtina edilməli, hərflərin bir şəkli saxlanılmalı, sait hərflər samit hərflərin sırasına daxil edilməlidir.

M.F.Axundzadənin bu mütərəqqi ideyalarını görkəmli maarifçilərdən Mirzə Kazım bəy, Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtlı və başqaları dəstəkləyirdi. Bu barədə ardıcıl mübarizə aparan Məhəmməd ağa Şahtaxtılının xidmətləri xüsusilə qeyd edilməlidir. Hətta yeni əlifba məsələsi 1907-ci ildə keçirilən müəllimlərin ikinci qurultayında da müzakirə predmetinə çevrildi.

Bundan başqa, yeni əlifba məsələsi Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin də gündəmində olmuşdur. Məclisi-məbusanın üzvləri bu işlərin intensiv aparılması məqsədi ilə komissiya da yaratmışdır. Komissiya üzvləri tərəfindən Azərbaycan dilinin özünəməxsusluqlarını nəzərə almaqla yeni əlifba layihəsi hazırlanmışdı. Lakin bolşevik işğalı bir çox qlobal məsələlər kimi bu layihənin də reallaşmasına imkan vermədi.

Bütün bunlara baxmayaraq, Vəli Xuluflu yeni əlifbaya keçməyin ən böyük çətinliyini ərəb əlifbasının öz mahiyyətində, indiyə kimi bu əlifbaya dair orfoqrafiya lüğətlərinin hazırlanmamasında, yəni müəyyən bir ənənənin olmamasında axtarırdı. Eyni zamanda o, haqlı olaraq göstərirdi ki, yeni orfoqrafiya lüğətinin tətbiqinə mane olan əsas amillərdən birini də «Azərbaycan ləhcəsinin hələ ədəbi bir dil şəklini almamasında aramalıyız».[356]

Göründüyü kimi, keçən əsrin 20-ci illərində yeni əlifba ilə imla lüğətinin hazırlanması, onların orfoqrafiyanın tələblərinə uyğunlaşdırılması olduqca çətin məsələ idi. Müəyyən çətinliklərin olmasına baxmayaraq V.Xuluflu tərtib etdiyi «İmla lüğəti»ndə fonetik prinsipi əsas götürdüyünü, bununla yanaşı, Azərbaycanın bölgələrindəki ləhcələrində ahəng qanununa lazımınca riayət olunduğunu bildirirdi[357]. Şivələrin xüsusiyyətlərini nəzərə alan alim sözlərin düzgün yazılışı ilə yanaşı, düzgün tələffüzünə, yəni paralel olaraq orfoepiya qaydalarına da diqqət yetirmişdir.

Yeri gəlmişkən qeyd etməliyik ki, alim sonrakı tədqiqatlarında fonetik prinsipin yetərli olmadığını, daha doğrusu, özünü doğrultmadığını görmüş və morfoloji prinsipə daha çox üstünlük vermişdir: «Fonetik prinsipinə danışırsan, eləcə də yaz, - deyir. O halda tarixi, ictimai, iqtisadi, etnoloji və sair səbəblərdən dillərin də bir-birindən xeyli fərqi olan bir çox qruplaşmalar vardır. Əgər bu prinsipə tamamilə riayət etməli olsaq, o zaman bütün şivələrə səlahiyyət verməli və hər birisi özünün şəklini çəkməlidir».[358]

Müəllif alınma sözlərin taleyinə də biganə qalmamışdır. O, «İmla lüğəti»nə yazdığı ön sözdə göstərirdi ki, bu lüğətdə ərəb-fars dilindən leksikonumuza daxil olan, qəzet və jurnalların səhifələrində əksini tapmayan sözlər xalqın tələffüzündə, canlı danışıq dilində olduğu kimi

[356] Xuluflu V. İmla lüğəti, Bakı, 1929, s. 3.
[357] Xuluflu V. İmla lüğəti, Bakı, 1929, s. 4.
[358] Xuluflu V. II imla konfransının yekunları. «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 77.

saxlanılmış, Avropa kəlmələri isə lüğətə ya əslində olduğu kimi, ya da əslinə yaxın şəkildə yazılmışdır[359].

Təqdirəlayiq haldır ki, tərtibçi əski əlifba ilə yazılmış kitablardakı arxaik sözləri də lüğətə daxil etmişdir. Burada məqsəd əski kitablardakı köhnəlmiş sözlərin yeni əlifba ilə yazılışına düzgün əməl etmək olmuşdur. İmla lüğətinin sonunda müəllif oxucuya müraciətində qeyd edirdi ki, «Azərbaycan xalq kəlmələrini toplamaqda imla lüğəti ikinci təşəbbüsdür (birinci təşəbbüs Azərbaycanı Öyrənən Cəmiyyət tərəfindən olmuşdur). Hər halda bu lüğətə Azərbaycanın xalq kəlmələrinin bir çoxu daxil olmamışdır. Ona görə müəllim və başqa həvəskar yoldaşlardan, burada qeyd edilməyən kəlmələri Azərbaycanı Öyrənən Cəmiyyətə göndərmələrini xahiş edirik. Göndərilən kəlmələr əvəzində müəyyən əmək haqqı göndərəcəyimizi ayrıca vəd edirik»[360].

Bu müraciətdəki bir mühüm məqama diqqət yetirmək istərdik: ***Azərbaycan xalq kəlmələrini toplamaqda imla lüğəti ikinci təşəbbüsdür (birinci təşəbbüs Azərbaycanı Öyrənən Cəmiyyət tərəfindən olmuşdur).*** Bunu etiraf edən Vəli Xuluflu 1930-cu ildə «Azərbaycanı öyrənmə yolu» jurnalında nəşr etdiyi «Azərbaycan xalq dili lüğəti» adlı məqaləsində bu məsələyə yenidən qayıdır. O, 1920-ci illərdə bu işlə məşğul olacaq professional mütəxəssislərin az olmasına baxmayaraq, şərqşünas alim professor Aşmarinin rəhbərliyi altında həyata keçirilən xalq lüğətinin yaradılması kimi qədirşünaslıq işini yüksək qiymətləndirirdi.

Hesab edirik ki, bəzi qüsurlarına baxmayaraq, V.Xuluflu 1929-cu ildə nəşr etdirdiyi bu kitabı ilə dövrü üçün aktual olan bir boşluğun doldurulmasında, xalqın sərvətinin, minilliklər boyu yaratdığı və yaşatdığı dil kapitalının «İmla lüğəti» adı ilə onun özünə qaytarılmasında olduqca əhəmiyyətli və əvəzsiz bir iş görmüşdür.

V.Xuluflunun «İmla lüğəti»ndən sonra özünün dediyi kimi «əməkçi xalqın yaratdığı xəzinəyə» maraq artmağa başladı. Buna ilk sistemli və elmi təşəbbüs göstərənlərdən biri də Dövlət Elmi Tədqiqat İnstitutu oldu. Bu tədqiqat institutu xalq dili lüğətinin toplanması və üç dildə (türk, rus və alman) nəşri kimi olduqca məsuliyyətli və ağır bir işi öz üzərinə götürdü.

Azərbaycan xalq dili lüğətinin özünəməxsus xüsusiyyətlərindən və əhəmiyyətindən bəhs açan professor Vəli Xuluflu bu lüğətin ədəbi dilimizin formalaşmasında da əvəzsiz rol oynayacağını göstərərək

[359] Xuluflu V. İmla lüğəti, Bakı, 1929, s. 5.
[360] Xuluflu V. İmla lüğəti, Bakı, 1929, s. 343.

yazırdı: «Bizim nəşr etməkdə olduğumuz «Xalq dili lüğəti» həmən ədəbi dilin genişlənməsi üçün böyük material verəcəkdir zənnindəyiz. Çünki buraya Azərbaycanın ən uzaq guşələrindəki kəndlərdən, əhalinin ən geniş əməkçi kütlələri arasından kəlmələr toplanaraq daxil edilmişdir. Böyləliklə, bu lüğət gələcək ədəbi dil üçün bir mənbə və məxəz təşkil edəcəkdir».[361] «Azərbaycanın ən uzaq guşələrindəki kəndlərdən, əhalinin ən geniş əməkçi kütlələri arasındakı kəlmələr»dən toplanmış bu lüğət təsdiq edir ki, o, kabinetdə hazırlanıb nəşriyyata ünvanlanan kitab deyil, xalq arasından böyük zəhmət hesabına toplanan xalq sözlüyü, xalq kitabıdır.

Bunlar göstərir ki, alim yalnız folklor örnəklərini və ya müxtəlif janrlarda yazılmış şifahi xalq ədəbiyyatı nümunələrini deyil, eyni zamanda canlı danışıq dilində olan sözləri də olduğu kimi toplamağa çalışmışdır.

Kitabın əhəmiyyətindən danışan V.Xuluflu bildirirdi ki, xalq dili lüğəti şovinist millətçilərə də böyük zərbə vuracaqdır. «Çünki akademik Marrın irəli sürdüyü yafetedoloji nəzəriyəsinin ən böyük məziyyət və qiymətlərindən birisi də Hind-Avropa nəzəriyyəçilərinin meydana atdıqları irq məhdudiyyəti fikrini pozmaq və dağıtmaqdır»[362]. Hind-Avropa nəzəriyyəsinə görə dil qrupları bir mənbədən nəşət etmiş və sonradan budaqlara ayrılmışlar.

Hind-Avropa nəzəriyyəçilərinin baxışları ilə razılaşmayan V.Xuluflu akademik Marrın mövqeyini müdafiə edirdi: «Akademik Marr tamamilə bunun əksini isbat edir, yəni əvvəlcə bir çox hədsiz, hesabsız tayfa, qəbilə dilləri olmuş, sonra bunlar siyasi, iqtisadi və ictimai zərurətlərin təsiri altında birləşdiklərindən, lisanlarını bir-birinə qarışdıraraq müəyyən dil qrupları əmələ gətirmişlər».[363]

Yeri gəlmişkən qeyd etməliyik ki, alim «Din və mədəni inqilab» adlı əsərində də marksist mövqedə dayanır və idealistlərin dilin yaranması ilə bağlı düşüncələri ilə razılaşmır. O göstərirdi ki, müasir elm dilin yaranması ilə bağlı idealistlərin fikir və düşüncələrini rədd edir: «Guya, qədimdə insanların hamısı bir dil danışırmış. Babil padşahlarından Nəmrud adlı birisi özü allahlıq iddiasına düşmüş, göyə çıxıb, Allahı öldürüb özü Allah olmaq istəyirmiş. Böyük bir qala binası qoydurur, bunu sürətlə tikdirir, çıxıb oradan Allaha ox atacaqmış. Allah

[361] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 8.
[362] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 8.
[363] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 9.

bunların işinin, doğurdan da, böyük müvəffəqiyyətlə getdiyini görür, əmək prosesini dayandırmaq, yəni qalanı yarımçıq qoymaq üçün bunların hərəsinə bir dil verir. Ona görə də «Babil qalası» yarımçıq qalır»[364].

Fikirlərini davam etdirən V.Xuluflu yazırdı: «Bu nağıl, üç-dörd min il bundan əvvəl keçmiş olan bir dövrə istinad olunur. Belə əfsanələrə inananlar bugünkü mədəniyyəti, bugünkü texnikanı və bugünkü məziyyətləri inkar etməkdir. Belə şeylərə inanmaq üç-dörd min il bundan əvvəl yaşamış insanlara yoldaş olmaq deməkdir.

İnsanların dili Allahın hökmü ilə deyil, əmək prosesi nəticəsində meydana gəlmişdir. Cürbəcür av prosesi və ya kollektiv əmək sərfi zamanı bir-birini imdada çağırma üzündən insanın danışıq orqanı inkişaf etmiş və nəhayət, nitq əmələ gəlmişdir. Dillərin müxtəlif olması da uzun-uzun dövrlər içərisində dünyanın hər tərəfində əmələ gəlib də cürbəcür yerlərə – dağlara, daşlara, ormanlara çəkilib qrup ilə yaşamış olmasındadır. Əlbəttə, burada da ictimai və iqtisadi təsir nəticəsində hər qrupun dili uzun müddət müstəqil bir surətdə istehsal qüvvəsinin inkişafı ilə əlaqədar olaraq genişlənməyə və varlanmağa başlamışdır. Elmin dediyinə görə, ayrı-ayrı dillər getdikcə birləşərək, bir-birinə qarışaraq, bir dil kibi çoxlarının anlaya biləcəyi dil əmələ gəlmişdir»[365].

Alimin fikrincə, Azərbaycan xalq dili lüğəti bu prosesi (dil qruplarının necə yaranması məsələsini – C.Q.) açıq-aydın göstərəcəkdir.

Professor V.Xuluflu hesab edirdi ki, xalq dili lüğəti türkdilli xalqların genetik qohumluğunun üzə çıxmasına elmi dəlillərlə, xüsusilə də dil faktları ilə yardım edəcəkdir. «Bu vaxta qədər Azərbaycan türklərinin hansı qəbilələrə mənsub olduqları müəyyən edilməmişdir. Demək ki, etnoloji cəhətdən bunların sayır yerlərdə yaşayan türklərlə nə kibi münasibətləri (qohumluqları) olduğu tədqiq edilməmişdir. Buna görə də bu lüğət bu xüsusda bizə bir çox kəlmə materialı verə bilər. Böyləliklə, biz, bəlkə də, bir çox həqiqətləri meydana çıkarırız».[366]

Vəli Xuluflu göstərirdi ki, Azərbaycanın bölgələrindəki dialekt, şivə və ləhcələri elmi cəhətdən bu günə kimi lazımi səviyyədə öyrənilmədiyindən, daha doğrusu, tədqiqat predmetinə çevrilmədiyindən onun dil xəritəsi də yaradılmamışdır. Alimin fikrincə, Dövlət Elmi Tədqiqit İnstitutunun "lisan-ədəbiyyat və sənayeyi-nəfisə" şöbəsinin rəhbərliyi altında hazırlanan Azərbaycan xalq dili lüğəti

[364] Xuluflu V. Din və mədəni inqilab. Bakı, 1930. s. 16.
[365] Xuluflu V. Din və mədəni inqilab. Bakı, 1930. s. 17.
[366] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 9.

olduqca böyük elmi əhəmiyyət kəsb edən belə bir dil xəritəsinin də yaradılmasında müsbət rol oynayacaqdır.

Alim qeyd edirdi ki, xalq dili lüğətinin ən böyük əhəmiyyətindən biri də kütlədən ayrılmış ziyalıları əməkçi xalqın dil sərvəti ilə tanış etməsidir. Bu lüğət əməkçi kütlə ilə ziyalılar arasında ünsiyyət yaradacaqdır. Artıq ziyalılarla əməkçi kütlə çətin anlaşılan ərəb-fars birləşmələri ilə dolu olan bir dildə deyil, xalqın özünün «vətəndaşlıq hüququ» verdiyi və yaratdığı sözlərlə danışacaqdır. Dilin aydınlığı və zənginləşməsi baxımından da bu, olduqca əhəmiyyətlidir.

V.Xuluflu nəşri türk (Azərbaycan), rus və alman dillərində nəzərdə tutulan «Azərbaycan xalq dili lüğəti»nin əhəmiyyəti və müsbət tərəfləri ilə yanaşı, onun qüsurlarından və nöqsanlarından da bəhs edirdi. Onun düşüncələrinə görə, lüğətin ən böyük nöqsanına səbəb məlum ərəb əlifbası olmuşdur: «Lüğətdə iştirak edənlərin bir çoxları yeni əlifbanı bilmədiyi üçün sözləri ərəbcə yazmışlar. Yeni əlifba ilə yazanlar isə ərəb əlifbasının təsirindən qurtara bilmədiklərindən hər kəlmənin ərəb əlifbasındakı şəklini yeni əlifba ilə çəkmişlər. Buna görə biz hər okruqun və ya kəndin dil və şivə xüsusiyyətlərini təyin etməkdə çox çətinliklər qarşısında qaldıq. Bu hal işin sürətinə də böyük təsir bağışladı».[367]

V.Xuluflu göstərirdi ki, lüğətin sürətlə və mükəmməl şəkildə ərsəyə gəlməsinə əngəl olan amillərdən biri də xüsusi işçilərin və bu sahədə ixtisaslaşmış elmi əməkdaşların olmamasıdır. Məhz bu səbəbdən lüğət üçün ayrıca bir transkripsiya tərtib edilməmişdi: «Əlbəttə, belə transkripsiyaların olmaması bir çox fonetik xüsusiyyətlərin və tələffüzlərin tamamilə göstərilə bilməsinə də təsir etmişdir».[368]

Maraqlıdır ki, V.Xuluflu 1931-ci ildə keçirilən II imla konfransının yekunlarına münasibət bildirərkən də ümumi məsələləri təhsilin, savadsızlığın ləğvində və ateizmin təbliğində maddi ehtiyatla yanaşı, ixtisaslı kadrlara da böyük ehtiyacın yarandığını xüsusilə qeyd edirdi. Alimin qənaətlərindən aydın olur ki, xalq dili lüğətinin hazırlanmasında çətinlik törədən əsas amil milli kadr qıtlığı məsələsi idi.

Azərbaycan xalq dili lüğətinin redaksiya prosesindəki çətinliklərə diqqəti yönəldən alim göstərirdi ki, redaksiya prosesində hər bir kəlmə ən azı iyirmi əməliyyatdan keçir. Bu əməliyyat bir qədər qəribə və çox görülə bilər. Lakin bu, üç dildə (türk, rus, alman) tərtib və nəşr olunan,

[367] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 11.
[368] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 11.

həm də sırf xam materialdan tərtib edilən bir əsər üçün heç də çox deyildir.[369]

Xalq dili lüğətinin toplanması istiqamətində atılan addımları yüksək qiymətləndirən alim indiyə kimi görülən işlərdə vahid «xətti-hərəkət»in, aydın proqramın və məqsədin olmamasından da gileylənirdi. Görülmüş böyük işlərdəki digər çatışmazlıq kimi o, «burjua sinfinin həyat ehtiyaclarını və mədəni tələblərini ifadə və rəf edən kəlmələri toplamaqdan» vaz keçmələrini qüsur hesab etsə də, «burjua cəmiyyətinin yaratdığı ədəbi dili aldıqda da onun kapitalist cəmiyyətinə aid olan bütün mənhus kəlmələrini və hətta ifadə tərzini belə atmalıyız»,[370] – deyirdi.

V.Xuluflunun burjua dili ilə bağlı nəzəri fikirləri olduqca ziddiyyətlidir. Bu ziddiyyətlər isə təbii ki, bolşevizmin «istehsal edib» elmi dövriyyəyə buraxdığı «burjua dili», «əməkçi xalqın dili» təsnifatından və klassik irsə nihilist münasibətindən qaynaqlanırdı.

Müəllifin «Azərbaycan xalq dili lüğəti» məqaləsində, eləcə də başqa əsərlərində belə ziddiyyətli, hətta zərərli fikirlərinin olmasına baxmayaraq, o, burjuaziyanın yaratdığı ədəbi dildən tamamilə imtinanın mümkünsüzlüyünü də diqqətə çatdırırdı: «Ədəbi dili atıb, yalnız xalq dilini tutanlar və ədəbi dilə qarşı ədavət bəsləyənlər şübhəsiz, traktordan xışa, yaxud şəhərdən kəndə qayıtmağa dəvət etmiş olurlar».[371]

Göründüyü kimi, hər şeyin marksist təfəkkürü ilə ölçüldüyü bir dövrdə V.Xuluflu üstüörtülü şəkildə də olsa burjua cəmiyyətindəki və onun dilindəki yeniləşməni, eyni zamanda digər mütərəqqi halları dəstəkləyirdi. Digər tərəfdən isə ədəbi dilin burjuylar tərəfindən yaradılması fikrini ortaya atanlara da etirazını bildirirdi. Vəli Xuluflu haqlı olaraq göstərirdi ki, bizim nəşr etməkdə olduğumuz «Xalq dili lüğəti» ədəbi dilimizin genişlənməsi və formalaşması üçün də böyük ədəbi material verəcək və onun daha mükəmməl şəkildə formalaşmasına yeni imkanlar yaradacaqdır.

Yeri gəlmişkən, onu da qeyd etməliyik ki, V.Xuluflu imla lüğəti məsələsinə həmişə prinsipial mövqedən yanaşmış, onun elmi-nəzəri prinsiplərinin, tezislərinin və proqramlarının hazırlanmasında yaxından iştirak etmişdir. Bu mənada Azərbaycanda ilk orfoqrafiya lüğətlərinin

[369] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 11.
[370] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 7.
[371] Xuluflu V. Azərbaycan xalq dili lüğəti, «Azərbaycanı öyrənmə yolu» jur. 1930, № 3, s. 7.

hazırlanması və nəşri bəzi ziyalılarımızla yanaşı, Vəli Xuluflunun da adı ilə bağlıdır.

Tədqiqatlar göstərir ki, dil, imla və lüğət məsələsi V.Xuluflunu daima düşündürmüşdür. Alimin apardığı araşdırmalar da təsdiq edir ki, o, keçən əsrin 20-ci illərinin əvvəllərindən 30-cu illərin əvvəllərinə kimi mütəmadi olaraq lüğət və imla məsələləri ilə ardıcıl və fasiləsiz məşğul olmuşdur. Vəli Xuluflunun bu istiqamətdə gördüyü qədirşünaslıq işlərini professor Bəkir Çobanzadənin və Fərhad Ağazadənin xidmətləri ilə müqayisə etmək olar.

V.Xuluflu 1931-ci ildə keçirilən ikinci imla konfransının yekunlarına həsr etdiyi məqaləsində yazırdı:

«Bu məsələ (imla məsələsi – C.Q.) bir cəhətdən elmi, texniki olmaqla bərabər, həm də siyasi bir məsələdir. Konfrans burda iki uklon ilə mübarizə aparmalı idi».[372]

Alim iki uklon deyərkən yeni əlifbaya qarşı çıxan «sağ» və «sol» uklonları nəzərdə tuturdu. «Sağ uklonçular» belə hesab edirdi ki, müstəqil bir Azərbaycan dili yoxdur və o, İstanbul dilinin bir qoludur. Azərbaycan dilini müstəqil bir dil olaraq görməyən «sağları» V.Xuluflu tənqid edərək yazırdı: «Konfransda sağ uklon üzünü göstərmədi. Daha doğrusu, əvvəllər də Azərbaycan dili yoxdu. Ümumi bir türk dili, daha doğrusu, İstanbul dili var, Azərbaycan türkcəsi də onun bir qoludur, – deyənlər cəsarət edib meydana çıxa bilmədilər. Onlar istər-istəməz Azərbaycan dilinin bir qol deyil, müstəqil bir dil olaraq inkişaf etdiyini dinməz-söyləməz qəbul etməyə məcbur oldular».[373]

«Sol uklonçulara» gəldikdə isə alim bildirirdi ki, onlar sağlardan fərqli olaraq özlərini büruzə verdilər. Lakin ikinci imla konfransı solların təklifini rədd etdi. Sollar təklif edirdi ki, imla məsələsində fonetik prinsipi yüz faiz həyata tətbiq etmək lazımdır. «Sol» uklonçular bu prinsipdə bir "demokratiya", bəlkə, "qutləçilik" göstərmək istəyirdilər. Sollar "Xalq nə cür danışır, elə də yazmaq lazımdır", – deyirdilər[374].

V.Xuluflu göstərirdi ki, konfrans haqlı olaraq bunun əleyhinə çıxdı. Əgər çıxmasaydı, «o zaman nəşr edəcəyimiz əsərləri ən azı 5 şivədə çap etməyimiz lazım gələcəkdi... Konfrans bu fikrin zərərli

[372] Xuluflu V. II imla konfransının yekunları. «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 76.
[373] Xuluflu V. II imla konfransının yekunları. «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 76.
[374] Xuluflu V. II imla konfransının yekunları. «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 76.

olduğunu düşündü, ona görə də "solluq" xəstəliyinə giriftar olan yoldaşlar qızarmağa məcbur oldular. Konfrans imla üçün, əsasən, morfoloji və ona köməkçi olan fonetik prinsipi qəbul etdi. Buna görə də Azərbaycan ədəbi dilinin inkişafına zərbə vurmaq deyil, bəlkə, inkişafına böyük xidmət etmiş oldu. Beləliklə, konfrans həm elmi və həm də məntiqi cəhətdən düzgün bir yol götürmüş oldu».[375]

V.Xuluflu qeyd edirdi ki, terminoloji məsələsində də konfrans sağ, sol təmayülə imkan verməyərək düzgün prinsip qəbul etdi. Bundan əvvəl terminolojidə sağ, sol təmayüllər cari idi. İlk Terminoloji Komitəsi tamamilə təsfiyyətçilik ilə məşğul idi. Bunlar ən şovinist sol millətçilik prinsipi ilə gedirdilər. Məsələn, coğrafiya kəlməsini **«yer bil»,** mineralojiyə **«kırılgan bil»** deyərək gülünc, qeyri-həyati istilahlar kandırırdılar. Bu komitənin yaratdığı istilahların heç birisi həyati deyildi, ona görə heç birisi qəbul edilmədi… Konfrans əsas olaraq bu prinsipləri qəbul etdi:

1) İstilahlar ən əvvəl xalq arasında işlənən canlı sözlərə tərcümə edilməlidir;

2) Hərgah tərcümə edilməsi mümkün deyilsə, bəzən mümkün olsa belə beynəlxalq istilahlar olduğu gibi mühafizə edilməlidir;

3) Ədəbiyyat və fənn aləmində istemal edilməkdə olan ərəb, fars istilahlarının münasibətləri olduğu kimi saxlanmalıdır;

4) Şuralar İttifaqı təsərrüfatının ümumi sosialist xarakterini nəzərə alaraq, ittifaq daxilində yeni istehsal üzərinə doğulan istilahlar olduğu gibi mühafizə edilməlidir. Məsələn, uklon, kolxoz, promfinplan və sairə. Bu prinsiplər, həqiqətən həyati termin yaratmaqla bərəbər, gələcək beynəlmiləl dilə də qədəm qoymuş olur.[376] Beləliklə, konfrans əvvəldən axıra qədər firqənin xətti-hərəkətini düzgün anlayaraq, heç bir təmayülə yol vermədən lazımi bolşevik qərarları çıxardı. Konfrans elmi və siyasi imtahan verməklə, elm bayrağının Azərbaycanda yüksəlməkdə olduğunu sübut etdi.[377]

Nəticə olaraq qeyd etməliyik ki, professor Vəli Xuluflu istər əlifba və imla məsələlərinə həsr etdiyi çıxış və məqalələrində, istərsə də «Panislamizm, imperializm və ruhaniyyət» (1928), «Din və qadın» (1930), «Din və mədəni inqilab» (1930), «Məhərrəmlik münasibətilə»

[375] Xuluflu V. II imla konfransının yekunları, «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 77.
[376] Xuluflu V. II imla konfransının yekunları, «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 77-78.
[377] Xuluflu V. II imla konfransının yekunları, «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1931, № 2-3. s. 78.

(1932) və başqa kitablarında marksist-leninçi mövqedən çıxış edərək sosializmin aktual problemlərinə həsr olunmuş məsələlərdən bəhs açmışdır. Ancaq maraqlıdır ki, qaldırdığı elmi-nəzəri problemlərə sosializmin ideoloji mövqeyindən yanaşmasına baxmayaraq, dövrün bolşevik tənqidçiləri, eyni zamanda müstəntiqləri onu marksizmi kifayət qədər mənimsəməməkdə ittiham edirdilər.

XALİD SƏİD XOCAYEV

Birinci Türkoloji Qurultayın Azərbaycandan olan nümayəndələri Ağazadə Fərhad Rəhim oğlu, Ağamalıoğlu Səməd Həsən oğlu, Axundov Ruhulla Əli oğlu, Aşmarin Nikolay İvanoviç, Hüseynov Mirzə Davud (Tiflisdən göndərilib), Qubaydullin Əziz, Cəbiyev Həbib, Zeynallı Hənəfi Baba oğlu, Zifeld-Simumyaqi Artur Rodolfov, İlyasov Müseyib İbrahim oğlu (Laçın), Qasımov Pənah Ələkbər oğlu, Quliyev Mustafa Zəkəriyyə oğlu, Məmmədzadə Cabbar Abbas oğlu (ADU-da müəllim), Məmmədzadə Cəlil Məmməd oğlu (Xalq komissarının müavini), Musayev Həsən Abdulla oğlu (tələbə), Musayev Hüseyn Məmməd oğlu (Naxçıvan xalq komissarının sədri), Pepinov Əhməd Cəvdət oğlu, Nəcəfov Rzaqulu (Tiflis), Sultanova Ayna, Sultanov Həmid Həsən oğlu (Naxçıvan XKS sədri), Ferid Xurşid (Türkiyənin Azərbaycandakı konsulu), Xocayev Xalid Səid (özbək), Çobanzadə Bəkir Vahab oğlu, Şəbistari İbrahim Rza oğlu qurultayın yüksək səviyyədə keçirilməsində yaxından iştirak etmişdir. Bu nümayəndələrin bəziləri keçən əsrin 20-ci illərinin sonu, 30-cu illərinin əvvəllərində dünyasını dəyişsə də, onların böyük qismi 1937-ci ilin repressiv aksiyalarından yaxa qurtara bilmədi.



Həmin repressiv aksiyaların qurşununun qurbanlarından biri də türk-Azərbaycan dilçiliyinin bir elm sahəsi kimi formalaşmasında müstəsna xidmətləri olan Xalid Səid Xocayev idi. Xalid Səid Xocayev 1898-ci ildə (istintaq qovluğunda onun doğum tarixi 1888-ci il göstərilmişdir – C.Q.) Daşkənd dairəsinin Kaşkorqan kəndində anadan olmuşdur. İlk təhsilini Kaşkorqan kəndindəki molla məktəbində alan gənc Xalid bir qədər sonra Daşkəndə gedərək təhsilini mədrəsədə davam etdirir. Mədrəsə təhsilini yarımçıq qoyan Xalid Səid Xocayev İstanbula getmək və təhsilini orada davam etdirmək istəyirdi. Lakin ailənin maddi durumu buna imkan vermirdi.

Daşkəndə gələn yerölçənlərlə birgə işləmək qərarına gələn Xalid Səid 5-6 aylıq maaşını toplayır və həmin pulla İstanbula gedərək təhsilini artırmaq istəyir. Tədqiqatçı alim Əli Şamilin dediyi kimi, "Xalid Səid İstanbula getmək üçün pul toplaya bilsə də, başqa çətinliklə üzləşir. Belə ki, Rusiyanın bölgədəki general-qubernatoru Türküstanlıların xarici ölkələrə getmələrini məhdudlaşdırmışdı. Onlara pasport verilməsi müxtə-

lif bəhanələrlə əngəllənirdi. İstəyinə nail olmaq üçün Xalid Səid dörd-beş rubl verməklə Çin konsulluğundan saxta bir pasport alaraq İstanbula yola düşür.

İstanbulda universitetin hazırlıq kursuna tələbə qəbulu elanını görən Xalid Səid sənədlərini oraya verir. 430 nəfərlik kursa 1750 nəfər qəbul olunmaq üçün sənəd veribmiş. Xalid Səid müsabiqədən uğurla keçərək unversitetin tibb fakültəsinə qəbul olunur. Lakin burada çox oxuya bilmir, xəstəliklər onu diksindirdiyindən tarix-ədəbiyyat fakültəsinə dəyişib".

Beləliklə, 1914-cü ildə Türkiyəyə gedən və tibb fakültəsinə daxil olan gənc Xalid 1918-ci ildə İstanbul Universitetinin tarix-filologiya fakültəsini bitirir. Onu da qeyd etməliyik ki, İstanbul Universitetinin tələbəsi olan Xalid Səid Xocayev İstanbul mətbuatında, eləcə də Krımda İsmayıl bəy Qaspirallının nəşr etdiyi "Tərcüman" qəzetində məqalələrlə çıxış edir. Şübhəsiz ki, onun İstanbul və Krım mətbuatındakı çıxışları həyat və cəmiyyət haqqında hələ o qədər də formalaşmayan gənc tələbənin baxışları idi.

1918-ci ildə Nuru paşanın rəhbərlik etdiyi ordu ilə Azərbaycana gələn Xalid Səid Xocayev Gəncə şəhərindəki gimnaziyada pedaqoji fəaliyyətə başlayır. O, pedaqoji fəaliyyətini 1920-1921-ci illərdə Daşkənddə davam etdirir. X.S.Xocayev "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsərində göstərirdi ki, 1921-ci ildə Daşkənddə ali darülmüəllimində müdir idim[378].

Bəzi mənbələrin verdiyi məlumata görə, Türküstanın havası Xalid Səid Xocayevə düşmədiyindən o, 1922-ci ildə Bakıya qayıdır və bir müddət Özbəkistanın daimi nümayəndəliyinin yataqxanasının müdiri, sonra isə orta və ali təhsil ocaqlarında müəllim vəzifəsində işləyir.

Yeni Əlifba Komitəsinin fəallarından biri kimi 1924-cü ildə S. Ağamalıoğlunun rəhbərliyi ilə yaradılmış nümayəndə heyətinin tərkibində Daşkənd, Krım, Simferopol, Orenburq, Ufa, Kazan və başqa şəhərlərdə yeni əlifbanın tərəfdarları və əleyhdarları ilə keçirilən görüşlərdə yaxından iştirak edir.

X.S.Xocayev 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın fəal iştirakçılarından olur. O, Birinci Türkoloji Qurultayın nümayəndələri ilə görüşlər keçirir yeni əlifbanın qəbul edilməsi istiqamətində aktiv təbliğatçılardan birinə çevrilir.

[378] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 11.

***

Müxtəlif ali məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olan, gənc nəslin maariflənməsində və formalaşmasında mühüm rol oynayan Xalid Səid Xocayev SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialında öz elmi fəaliyyətini də davam etdirir. 1934-cü ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının direktoru, 1924-cü ildən yeni əlifbanın qəbul edilməsi istiqamətində birgə fəaliyyət göstərdiyi və yaxından tanıdığı Vəli Xulufluya müraciətlə yazırdı: «Mən, əsasən, Özbəkistanın Taşkənd şəhərindən olub orta və ali təhsilimi İstanbulda ikmal etmişdim. 1918-ci ildən indiyədək Azərbaycanda orta və ali məktəblərdə türk dili və ədəbiyyatı tədrisi ilə məşğul olmaqdayam; hal-hazırda dəxi ictimai-iqtisadi institut, hüquq fakültəsində, türk dili və ali pedaqoji institutda ərəbcə və farsca tədrisilə məşğulam. Azərbaycan Elmi Tədqiqat İnstitutunda dəxi - ilk təsis edildiyi gündən bağlanan zamana qədər - məşğul olmuşdum; hal-hazırda Akademiyada müqavilə ilə lüğət işlərində çalışıram; ancaq bu elmi idarə ilə daha yaxın və daha sıx surətdə əlaqədar olaraq, elmi sahədə məşğul olmaq arzusundayam. Ona görə və 16 illik xidmətimə bir mükafat olmaq üzrə məni də əsas qulluqçular sırasına daxil etmənizi rica edirəm.

Üçü mətbu, dördü qeyri-mətbu olmaq üzrə yeddi əsərə malik olduğumu da ayrıca ərz edirəm. Xocayev Xalid, Bakı, 26 mart 1934».

Vəli Xuluflu Xalid Səidin bu ərizəsinin üzərinə aprelin 14-də belə bir dərkənar yazır: «Heyət rəyasətə xahiş edirəm, birinci dərəcəli elmi işçi təyin edəsiniz. Əmək haqqının aylıq üç yüz manat olması daha münasibdir. Vəli Xuluflu».

Vəli Xuluflunun, dərkənarından sonra Xalid Səid Xocayev sentyabrın 1-dən etibarən İnstitutun tarix sektoruna birinci dərəcəli elmi işçi kimi qəbul edilir.

Bir ildən sonra, yəni 1935-ci ildə görkəmli türkoloq alim Bəkir Çobanzadə Xalid Səidin elmi fəaliyyətini yüksək qiymətləndirərək ona heç bir dissertasiya işi yazmadan və müdafiə etmədən elmi dərəcə verilməsi təşəbbüsü ilə çıxış edirdi:»Xalid Səid Xocayev yüksək səviyyəli linqvist şərqşünaslardandır. O, türk, ərəb, fars, rus və başqa dilləri də mükəmməl bilir.

Xocayev 10 il ərzində tələbə və aspirantura kurslarında türk dilinin üslub və qrammatikası, qədim abidələrin oxunması və başqa sahələri uğurla tədris edir. Bütün bunları nəzərə alıb Xalid Səid Xocayevə

dissertasiya müdafiə etmədən elmi dərəcə verilməsinin vaxtı çatmışdır. Professor Bəkir Çobanzadə, 1935-ci il»[379].

Böyük alim B. Çobanzadə bilmirdi ki, iki ildən sonra onun X.Səidə verdiyi bu elmi qiymət özünə qarşı yönələcək və onların hər ikisini pan-türkist-millətçi təşkilatın üzvü olmaqda ittiham edəcəklər.



X.S.Xocayevin elmi fəaliyyəti onu "əksinqilabi pantürkist-millətçi təşkilatın üzvü kimi" 1920-ci illərin sonu və 30-cu illərin əvvəllərindən etibarən sovet təhlükəsizlik orqanlarının diqqət mərkəzinə salır. Dövri mətbuatda nəşr olunan sifarişli yazılar və Azərbaycanın pantürkist ziyalıları ilə birgə ittihamlar onu qəzet səhifəsindən məhbəsə gətirib çıxarır.

X.S.Xocayev türkdilli xalqlar arasında ortaq əlifba ilə yanaşı, "bütün türklərin bir-birlərini anlamaları üçün ortaq ədəbi bir dil olmalıdır" ideasını irəli sürür və ortaq türk ədəbi dilinin yaradılmasının qaçılmaz olduğunu bildirirdi. Türkdilli xalqların gen qohumluğunu, ortaq mədəniyyətə və etnoqrafiyaya malik olduqlarını elmi dəlillərlə sübut etmək, ortaq türk əlifbasını, eləcə də ortaq türk ədəbi dilini qurultay səviyyəsində müzakirə predmetinə çevirmək, əslində Turançılıq düşüncəsinin reallaşması ideasına xidmət edirdi. Turançılığa aparan yol isə bolşevik məhbəsindən keçirdi. Elə də oldu, Azərbaycanın bir çox görkəmli simaları – H.Cavid[380], Ə.Cavad[381], M.Müşfiq[382], Hacı Kərim Sanılı[383] kimi Xalid Səid Xocayev də 1937-ci il iyunun 3-dən 4-nə keçən gecə həbs edildi.

O gecə bolşevik müstəntiqlərinin apardıqları axtarış zamanı Xalid Səidin evindən ona məxsus olan pasport, Az. FAN-ın əməkdaşı olduğunu təsdiq edən 59 saylı vəsiqə, Türkiyədə nəşr olunmuş 5 dərgi, 1933-cü ildə yenə də Türkiyədə nəşr edilən «Cümhuriyyət» qəzeti, 2 ədəd fotoşəkil, «Əlifba» kitabı, 27 ədəd müxtəlif adda kitab və xeyli sayda əlyazma götürülərək müsadirə edilmişdir.

---

[379] Azər Turan. Xalid Səid Xocayev. Şəhid türkşünas, Bakı, 2009, s. 39. AMEA RHA, fond 39, siyahı 313, s. 16

[380] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

[381] DTX-nin arxivi. Ə.Cavadın istintaq işi, PR - № 22316.

[382] DTX-nin arxivi. M.Müşfiqin istintaq işi, PR - № 22290.

[383] DTX-nin arxivi. Hacı Kərim Sanılının istintaq işi, PR - № 20888.

SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının tarix, dil və ədəbiyyat institutunun rəhbərinin əmrinə əsasən Xalid Səid Xocayevin adı iyunun 4-də institutun elmi əməkdaşlarının siyahısından çıxarılır. Maraqlıdır ki, yuxarıda adlarını sadaladığımız böyük şəxslərin hamısı 1937-ci il iyunun 5-də ilk istintaq dindirməsinə cəlb edilir. Bu mütəfəkkir şəxsiyyətlərin hamısı birinci dindirmədə əksinqilabi millətçi təşkilatın üzvü, xalq düşməni və vətən xaini olmaları ilə bağlı ittihamları rədd edir. Məsələn, X.S. Xocayev ilk dindirməsi zamanı müstəntiqin suallarını belə cavablandırırdı.

Sual: Siz yataqxananın müdiri vəzifəsindən tələbələr arasında əksinqilabi, millətçi təbliğat apardığınıza görə qovulmusunuz.

Cavab: Mənə belə ittiham verilməmişdir.

Sual: Siz əbəs yerə verilən suala cavab verməkdən çəkinirsiniz. İstintaqa məlumdur ki, siz əksinqilabi pantürküst təşkilatının üzvüsünüz. Bunu etiraf edirsinizmi?.

Cavab: Qəti rədd edirəm[384].

Lakin 1937-ci il iyunun 21-də aparılan ikinci dindirmə zamanı X.S.Xocayev birinci dindirməsinin əksinə ifadə verərək deyirdi: "Bəli, mən etiraf edirəm ki, 1916-ci ildən həbs olunandək pantürkist mövqedə dayanmışdım".

Sual: "Əksinqilabi pantürkist təşkilata nə vaxt daxil olmusunuz?

Cavab: 1925-ci ildə məşhur pantürkist Ə.S.Qubaydullinin Bakıya gəlişindən sonra.

Sual: Pantürkist təşkilatında sizin praktik əksinqilabi fəaliyyətiniz nədən ibarət idi?.

Cavab: Mən tələbə-gənclər arasında pantürkist təbliğat apararaq Sovet hakimiyyətinə qarşı pantürkist kadrlar hazırlayırdım.

Müstəntiqlərin X.S.Xocayevdən zopa və dəyənək gücünə əldə etdikləri bu "etiraflar" istintaqa "daha ciddi mətləbləri üzə çıxarmağa və cinayətkar ünsürləri ittiham etməyə" imkan verirdi. Daha doğrusu, vahid ssenariyə uyğun olaraq "etiraflardan" sonra fiziki-psixoloji işgəncə yolu ilə müttəhimin növbəti "cinayətlərini" üzə çıxarmaq lazım idi. İstintaqın bu mərhələsi müttəhim ifadəsindən daha çox müttəhimin özünü şərləməsinə bənzəyir. Eyni metod Xalid Səidə də tətbiq edilir. Müttəhim 1937-ci il iyulun 7-9-da verdiyi ifadəsində müstəntiqə aşağıdakıları deməyə, yəni özünü və özgələrini ittiham etməyə məhkum edilmişdi: "1926-1928-ci illərdə Bakıda təhsil alan özbək tələbələri arasında

[384] DTX-nın arxivi. Xalid Səid Xocayevin istintaq işi, PR - № 26762.

əksinqilabi iş aparmışam", "Bəli, etiraf edirəm ki, 1935-ci ildə APİ-nin tələbəsi, milliyyətcə özbək olan Səlimsakovu əksinqilabi millətçi istiqamətə yönəltmişəm", "Mən pantürkist təbliğatını öz əsərlərimdə əks etdirmişəm, xüsusilə Mahmud Qaşqarinin "Türk sözləri lüğəti" kitabının tərcüməsində", "Etiraf etməyə məcburam ki, Vəli Xuluflu, Qulam Bağırov, Zifeld, Cabbar Məmmədzadə, Hənəfi Zeynallı və aspiranturadan Çobanzadə (o zaman B.Çobanzadə aspirant deyil, professor idi – C.Q.), Hüseynzadə və Dəmirçizadə ilə əksinqilabi əlaqədə olmuşam", "Bu şəxslərlə mən pantürkist söhbətlər edirdim və onlar da əksinqilabi pantürkist mövqedən danışırdılar. Bundan başqa, Vəli Xuluflu və Zifeld Mahmud Qaşqarinin pantürkist kitabını tərcümə etdiyim üçün məni müdafiə edirdilər".

Əvvəla, bir müəllimin öz həmyerlisi (həm də vətənindən uzaq düşmüş həmyerlisi) ilə yaxınlıq etməsi və həmin tələbəyə dəstək olmasının adı millətçilik yox, vətənpərvərlik və insanpərvərlikdir. Əgər Xalid Səid Xocayev milliyyətcə özbək olan Səlimsakova türk xalqlarının dilini, mədəniyyətini, tarixi köklərini öyrədir və bu qərib tələbəyə diqqət və qayğı ilə yanaşırdısa, bu millətçilik deyil, kökə, yaddaşa, şəcərəyə bağlılıq idi. İmperiyanın maraqlarından çıxış edən bolşeviklər beynəlmiləlçilik adı altında türkləri kökdən, şəcərədən uzaq salır, türk kökənli olduqlarını unutdurmağa çalışırdılar. "Bütün ölkələrin proletarları, birləşin" çağırışı ilə dünyaya səs salan bolşevik beynəlmiləlçiliyi mahiyyət etibarı ilə riyakarlıqdan başqa bir şey deyildi. Bu təlim sovet idarə üsulunu dəstəkləyən hər kəsi mütərəqqi, beynəlmiləlçi elan edirdisə, bu təlimə qarşı çıxanları millətçi, mürtəce adlandıraraq məhv edirdi.

İkincisi, Xalid Səid Xocayevi məcbur edirdilər desin ki, Mahmud Qaşqarinin "Divani-lüğət-it türk" əsəri millətçi əsərdir və o, bundan yararlanaraq əksinqilabi, millətçi fəaliyyətini davam etdirmişdir. Xalid Səid Xocayev bu əsəri tərcümə etməklə türklərə məxsus olan belə bir möhtəşəm ədəbi abidə ilə türkdilli xalqların hamısını tanış etmək kimi nəcib və qədirşünaslıq işini məqsədə çevirmişdi. X.Səid "Divani-lüğət-it türk" əsərini tərcümə etməklə türk xalqlarının tarixin qədim çağlarından boy alan əzəmətli bir abidə yaratdıqlarını dünyaya bəyan etmək idi.

Və nəhayət, Vəli Xuluflu, Zifeld və başqalarının bu nəcib və xeyirxah əməli dəstəkləməsi bolşevik millətçiliyinin deyil, hər şeydən öncə ziyalı vətəndaş mövqeyinin ifadəsi idi. Fikrimizcə, nə o illərdə, nə də bugün elə bir vətəndaş, elə bir ziyalı, elə bir alim tapmaq olmaz ki, o, belə bir möhtəşəm ədəbi abidənin tərcüməsinə etiraz etsin.

Xalid Səid Xocayevin dilindən eşitdiyimiz "etiraf etməyə məcburam", "etiraf etməliyəm ki", "məcburam deyim ki", "bəli, etiraf edirəm ki" kimi söz və ifadələr müttəhimin hansı şəraitdə dindirildiyini və ifadə verdiyini aydın şəkildə göstərir. Elə müstəntiqin dediyi "siz düz danışmırsınız", "bəsdirin, bizə müqavimət göstərməyin", "siz yenə də yalan danışırsınız", "siz düzgün ifadə vermirsiniz", "istintaqı aldatmağa davam edirsiniz" kimi ifadələr də sözdən daha çox qamçı, qırmac, dəyənək və işgəncə təsiri bağışlayır. Bütün bunlar istintaqın nə dərəcədə obyektiv olduğunun əməli göstəricisidir.

Azərbaycan ziyalılarının bir çoxu kimi Xalid Səid Xocayevi də Türkiyəyə casusluq etməkdə ittiham edirdilər. Tədqiqatçı alim Azər Turan "Xalid Səid Xocayev. Şəhid türkşünas" kitabında yazır ki, Qılman İlkinin bir xatirəsindən oxumuşam ki, üslubiyyatdan dərs desə də, Füzulini Xalid Səid kimi bilən ikinci bir adam yox imiş. «Hətta Füzuliyə aid sualla Çobanzadəyə müraciət etdikdə, o bizi Xocayevin yanına göndərirdi. O, Füzulinin bəzən ən sadə görünən misralarında elə dərin mənalar açırdı ki, ağzımız açıla qalardı. Buna görə də sevirdik onu. Tez-tez ona müraciət edərdik. Sonra ondan uzaqlaşmalı olduq. Çünki deyirdilər ki, o, İstanbulda təhsil alıb, xəta çıxa bilər. Doğrudan da belə oldu... «[385]

O illərdə yalnız İstanbulda təhsil almaq, oxumaq yox, hətta İstanbulda olmaq və onun adını rəğbətlə çəkmək də kimisə ittiham, eləcə də mühakimə etmək üçün kifayət qədər yetərli idi. Qəribə məntiqdi - SSRİ-nin mövcudluğu dövründə Türkiyədə olmaq və türk həyatından yazmaq millətçilik, Kubada olmaq və orada yaşayanların həyatından yazmaq beynəlmiləlçilik kimi dəyərləndirilirdi. Deməli, ölkələrin deyil, izmlərin (sosializmlə kapitalizmin) mübarizəsi gedirdi.

Dindirmə protokollarına müraciət edək:

Sual: Türkiyə kəşfiyyatındakı işiniz haqqında danışın.

Cavab: Mən Türkiyə kəşfiyyatında işləməmişəm.

Sual: Siz düz demirsiniz! Bu sualla əlaqədar sizin etirafınızı tələb edirik!.

Cavab: Etiraf etməyə məcburam ki, 1918-ci ildə mən İstanbul universitetinin bir qrup tələbəsi ilə birlikdə Nuru Paşanın rəhbərlik etdiyi türk ordusu ilə Azərbaycana göndərilmişdim[386].

Nuru Paşanın rəhbərlik etdiyi türk ordusunda Azərbaycana gəlmək millətçilikdirmi? Məsələnin mahiyyəti də bundadır. Yəni bunlar əsas

[385] Azər Turan. Xalid Səid Xocayev. Şəhid türkşünas, Bakı, 2009, s. 42.
[386] DTX-nın arxivi. Xalid Səid Xocayevin istintaq işi, PR - № 26762.

verir deyək ki, əslində bolşeviklərin qurduğu bu total istintaq mühakimələri türkün və türkçülüyün mühakiməsi idi. Azərbaycan SSR CM-nin 63-1, 68, 73 və 70-ci maddələri ilə təqsirli bilinən Xalid Səid Xocayevi də elə bunda – türk və türkçü olmaqda, antisovet pantürkist, təxribatçı-terrorçu təşkilatla əlaqədə, xarici dövlətə casusluqda, Sovet hakimiyyətini devirməkdə, vahid türk-tatar burjua dövləti yaratmaqda suçladılar və onu 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyasının hökmü ilə ən ağır cəzaya - güllələnməyə məhkum etdilər. İstintaq qovluğundakı güllələnmənin icrası ilə bağlı arayışdan aydın olur ki, Xalid Səid Xocayevin barəsində çıxarılmış güllələnmə hökmü 13 oktyabr 1937-ci ildə (təxminən bir gündən sonra) yerinə yetirilmişdir.

NKVD-nin yazılmamış belə bir qanunu vardı: "Günahlarını" etiraf edib birinci kateqoriya (güllələnmə) ilə məhkum edilmiş şəxslərin həyat yoldaşları bir qayda olaraq 8 il müddətinə azadlıqdan məhrum edilirdisə, fiziki-psixoloji işgəncələrə duruş gətirərək ikinci kateqoriya (8 il və ondan yuxarı) ilə ittiham olunanların ailə üzvlərini həbs edib mühakimə etmirdilər. Məsələn, R.Axundov, S.Hüseyn, Ə.Cavad, M.Müşfiq, V.Xuluflu, B.Çobanzadə, Ə.R.Şamçızadə, T.Şahbazi və başqaları güllələndiyindən onların həyat yoldaşları da həbs edilmiş Qazaxıstana, Sibirə və başqa yerlərə göndərilmişdir. Lakin H.Cavid, S.Mümtaz və digərləri ikinci kateqoriya ilə mühakimə olunduqlarına görə onların həyat yoldaşlarını həbs etməmişlər.

X.S.Xocayev güllələndiyindən onun həyat yoldaşı Sara Rza qızı Xocayeva da 13 oktyabr 1937-ci ildə həbs edilmişdir. O illərdə müstəntiqlər xalq düşmənlərinin həyat yoldaşlarına ənənəvi olaraq bir-iki sual verirdilər: "Siz həyat yoldaşınızla nə vaxtdan bir yerdəsiniz?

Cavab: Evləndiyimiz gündən o həbs olunana kimi.

Sual: Sizin ərinizin əksinqilabi-millətçi fəaliyyətindən xəbəriniz varmı?

Cavab: Xeyr". Bununla da istintaq başaçatır və müttəhim xalq düşməninin həyat yoldaşı kimi azadlıqdan məhrum edilirdi. Həmin ssenariyə uyğun olaraq Sara Rza qızı Xocayeva da həbs edildi və 1941-ci ilə kimi həbsxana düşərgələrində olmazın müsibətlərlə üz-üzə, göz-gözə qaldı. Sara xanım azadlığa buraxıldıqdan sonra həyat yoldaşının harada olması ilə əlaqədar müxtəlif yerlərə müraciət etdi, lakin onun səsinə səs verən tapılmadı. İ.V.Stalinin ölümündən sonra Sara xanım müxtəlif instansiyalara yenidən ərizə ilə müraciət edir. Bir neçə müraciətdən sonra - 1955-ci il aprelin 16-da S.R.Xocayeva həyat yoldaşının işinə yenidən

baxılmasını hüquq-mühafizə orqanlarının rəhbərlərindən və siyasi xadimlərdən təkidlə xahiş edir. 1955-ci ildə yazılmış şikayət ərizəsinə nəhayət ki, 1957-ci ildə rəsmi reaksiya verilir. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 16 may 1957-ci il qərardadına görə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1937-ci il oktyabrın 12-də çıxartdığı hökm ləğv olunur və X.S.Xocayevin əməllərində cinayət tərkibi olmadığına görə iş xətm edilir.

Xalid Səid Xocayevin istintaq qovluğuna, eləcə də bio və biblio-qrafiyasına əsaslanaraq, təkrardan qorxmadan cəsarətlə deyə bilərik ki, Xalid Səid Xocayevin ittihamı türklüyün və türkçülüyün mühakiməsi idi.

***

Heç kəsə sirr deyildir ki, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın əsas təşkilatçılarından biri də Xalid Səid idi. Maraqlıdır ki, qurultaya gələnlərin bir çoxu onun evində qonaq olub. Bunu Gemer Salamzade belə xatırlayırdı: "Türkoloji kurultayına Türkiye'den de nümayende heyeti gelmişti. Bu heyette Türkiyeli Köprülüzade Muhammed Fuad ve bir de Azerbaycanlı, vaktiyle tanınmış yazar ve gazeteci Alibey Hüseynzade de var idi. Yeni alfabe komitesinin üyelerinden olan Halid efendi Hocayev Özbek idi… Halid efendi Türkiye'den gelen misafirleri evine davet etmişti…. Misafirler arasında Alibey Hüseynzade, Fuad Köprülüzade, Mirze Celil Memmedkuluzade, Rızakulu Necefzade, Hüseyn Cavid, Halid efendinin komşusu, Türkiyede okumuş doktor Orxanbeyli var idi".

X.S.Xocayev müsafirlər arasında təbliğat aparır, latın əlifbasının türk xalqlarının taleyində xüsusi rol oynayacağını, onların bu yolla dünyaya inteqrasiya edəcəklərini bildirirdi.

Yeri gəlmişkən qeyd etməliyik ki, X.S.Xocayevin "Yeni əlifba yollarında əski xatirə və duyğularım" (1929) əsəri kitabın üz qabığında da qeyd edildiyi kimi, yeni türk əlifbası ilə yazılan ilk kitab idi. Araşdırmalar göstərir ki, **Xalid Səidin əlyazma əsərləri onun mətbu əsər və kitablarından qat-qat çox olmuşdur.** Təəssüf ki, həmin əlyazma və kitabların böyük əksəriyyəti Xalq Daxili İşlər Komissarlığı (XDİK) və onun milli-mənəvi dəyərlərimizə qənim kəsilmiş əməkdaşları tərəfindən məhv edilmişdir. Xalid Səid Xocayevin elmi yaradıcılığından bəhs edən filologiya elmləri doktoru, professor Buludxan Xəlilov qeyd edirdi ki, məlumatlara görə, Xalid Səid Xocayevin "Üslubiyyat nəzəriyyəsi", "Sintaksis", "Türk dillərinin tarixi qrammatikası" adlı

kitabları da olubdur. Ancaq bu əsərlərin hər biri yoxa çıxıbdır. Onun 14 çap vərəqi həcmində "Sintaksis" adlı əsərinin redaktoru Bəkir Çobanzadə olmuşdur. Bu əsər redaktə olunub mətbəəyə verildikdən sonra çap edilməmiş, daha doğrusu, itirilmişdir. Xalid Səidin 1936-cı ilin ortalarında çapa hazır olan 14 çap vərəqi həcmində olan "Üslubiyyat nəzəriyyəsi", 12 çap vərəqi həcmində olan "Türk dillərinin tarixi qrammatikası" adlı əsərləri də yoxa çıxıbdır. Xalid Səidin yoxa çıxmış, it-bata düşmüş əsərləri barədə Azər Turanın verdiyi müsahibələrin birində deyilir: "Divan"-dan başqa 11 böyük elmi əsəri (Xalid Səid Xocayevin elmi əsəri nəzərdə tutulur – B.X.) yağmalanıb: "Orxon kitabələrinin izahlı tədqiqi", "Türk dilinin tarixi qrammatikası", "Cığatay ədəbiyyatı haqqında mühazirələr", "Türküstan tarixinin qısa icmalı", "Müfəssəl sintaksis" və s".

Tədqiqatçı alim Əli Şamilov isə "Mahmud Kaşğarlının "Divani-lüğəti Türk" əsərini ilk dəfə tam şəkildə türkcəyə çevirən Xalid Səid Xocayevin ömür yolu və yaradıcılığı" adlı məqaləsində göstərir ki, X.S.-Xocayevin Azərbaycan Milli Elmlər Akademiyasının arxivində saxlanan şəxsi işində çap olunan və olunmayan 125 çap vərəqi həcmində 14 əsərinin hər biri haqqında iki-üç cümlə ilə bilgi var. Bu əsərlər sırasında 12 çap vərəqi həcmində «Türk dillərinin tarixi qrammatikası», 5-7 çap vərəqi həcmində «Türküstan tarixinin qısa icmalı», 18-20 çap vərəqi həcmində «Türk ədəbiyyatı nəzəriyyəsi», 5-6 çap vərəqi həcmində «Cığatay ədəbiyyatından mühazirələr», 6-7 çap vərəqi həcmində «İran dillərinin qrammatikası», «Müqayisəli qrammatika» və b. adlar qeyd edilib.

Alim haqlı olaraq göstərir ki, türkologiyanın bugünkü səviyyəsindən baxanda Xalid Səidin xidmətləri kiçik görünə bilər. Amma 1920-ci illərin səviyyəsindən baxsaq, necə bir nəcib və böyük iş gördüyünün şahidi olarıq. Ölkənin əsas ideologiyası proletar beynəlmiləlçiliyi olduğu, türkçülüklə məşğul olanlara pantürkist damğası vurulub təqib edildiyi, həbslərə atıldığı bir zamanda Xalid Səid Xocayev türkologiyaya dəyərli əsərlər bəxş edib.

Bu qeydlərdən bir daha aydın görünür ki, sovet totalitar rejiminin bolşevik qurşunu latın əlifbasının Azərbaycan, eləcə də digər türk respublikalarında yayılmasında əvəzsiz xidmətləri olan Xalid Səid Xocayevin də təmsil olunduğu türkoloji düşüncəmizi, türkçülük baxışlarımızı, bütövlükdə isə türkləşmək təfəkkürümüzü hədəfə almışdı. Sevindirici haldır ki, siyasi repressiyalar zamanı X.S.Xocayevə qarşı yönəlmiş təqib və təzyiqlər onu fiziki olaraq məhv etsə də, türkoloq

alimin elmi-bədii yaradıcılığını axıradək məhv edə bilməmişdir. Belə ki, onun "Osmanlı, Özbək, Kazak dillərinin müqayisəli sərfi" (1926), "Yeni əlifba yollarında əski xatirə və duyğularım" (1929), Abdulla Tağızadə ilə həmmüəllif olduğu "Müxtəsər üslubiyyat" (1933) adlı kitabları günümüzə qədər gəlib çıxmış, bu gün də aktuallığını və elmi dəyərini itirməmişdir.

Alimin əlimizdə olan ilk mətbu əsəri "Osmanlı, Özbək, Kazak dillərinin müqayisəli sərfi" kitabıdır. XX əsrin əvvəllərində işıq üzü görən bu əsər zamanında türkdilli xalqların qramatikasında mövcud olan elmi boşluğu aradan qaldıran sanballı bir araşdırmadır. Bu kitab yalnız Osmanlı, Özbək, Kazak dillərinin deyil, sonrakı illərdə digər türkdilli xalqların dilçilik elminin yaranmasında və formalaşmasında öz töhfəsini verməklə mühüm elmi mənbələrdən birinə çevrildi. Beş qisimdən və 110 səhifədən ibarət olan bu kitabda müəllif yazırdı: "Bakıda toplaşacaq olan türkşünaslar qurultayının qarşısında bir kaç mühüm vəzifələr var. Bunlardan biri türk oruğları arasında ədəbi bir dil yaratmaq məsələsidir. Bu məsələ xeylidən xeyli zehnimizi işğal ediyor. Bu məsələni əsas etibarı ilə hər kəs arzu ediyor. Çünki bir dil ətrafında toplananlar nə qədər çox olursa, o dildə olan ədəbiyyat, mətbuat o qədər geniş, o qədər əsaslı olur. Bu bir həqiqətdir. Bu xüsusda düşüncəyə və münaqişəyə yer yoxdur. Binaye-əliye 70-80 milyon xalq tərəfindən oxunacaq olan bir ədəbi türk dilinin yaradılmasına qarşı duran kimsə bulunamaz. Bunu hər kəs ürəkdən istər, ancaq burada zehnimizə bir sual gəlir:

Əcaba türk oruğları arasında böylə bir dil yaratmaq mümkünmüdür? Mümkün olduğu təqdirdə bu dil təbii bir dilmi olacaq və yaxud yapma bir şeymi olur? Sualımızı bir az daha aydınlaşdıralım:

Türk dillərinin müxtəlif şivələri arasında öylə bir dil düzəlinə bilirmiyiz ki, onu bütün türk oruğları anlasınlar və yaxud düzəltiləcək ədəbi dil bütün türk oruğlarına yabancı olaraq hər biri tərəfindən ayrıca öyrənməyə lüzumlu olacaq"[387].

Əsərdən məlum olur ki, Xalid Səidin əsas istəklərindən biri türk dillərinin şivələri arasında vahid bir sözün bütün türk dünyasında anlaşılmasıdır. Yəni, istər qərbdə, istərsə də Şərqdə yayılan türkcə əsərlər hər bir türk tərəfindən eyni şəkildə başa düşülsün. Türk türkün dayağı olmalıdır. Bunun üçün isə ortaq bir dilin qəbul edilməsi çox vacib amildir.

[387] Xocayev X.S. "Osmanlı, Özbək, Kazak dillərinin müqayisəli sərfi", Bakı, 1926, s. 3.

Beş hissədən ibarət olan kitab ilk olaraq "Osmanlı, özbək və qazax dilləri arasında sərfcə münasibət" adlı giriş hissəsi ilə başlayır. Daha sonra göstərilən üç ləhcə arasındakı münasibətdə isim, sifət, əvəzlik, feil və ədat arasında olan müştərək nöqtələr haqda məlumat verilir. Kitabda əsasən özbək və qazax ləhcələrinin müqayisəsi təsvir olunmuşdur. Müəllif Osmanlı və Azərbaycan şivələrinin eyni olduğunu söyləyərək, o səbəbdən Azərbaycan ləhcəsi ilə müqayisəyə çox yer vermədiyini qeyd edir. O, üç ləhcənin müqayisəsini aparmış olsa da, digər ləhcələr, məsələn, uyğur, türkmən və s. ləhcələrə gələcək tədqiqatlarında toxunacağını bildirir. İsim adlı birinci hissədə bir-birindən uzaq yaşayan müxtəlif türk oruğlarında qeyri-müştərək məxsusi isimlərin çoxalması müqayisəli şəkildə vurğulanır. Osmanlılarda, əsasən, türkcə olan bir çox isimlər unudularaq yerinə ərəb və ya farsca sözlər daxil edilmişdir. Bu hal özbəklər və azərbaycanlılarda da vardır. Alınma isimlərin eyni nisbətdə və bəzən bir kəlmə alınmadığından dildə ayrılıq meydana gətirmişdir. Ləhcələrin bir-birinə olan yaxınlığını mühafizə edən türkcə müştərək və ümumi kəlmələrin dilə gətirilməsini təklif edən müəllif bununla dilin əcnəbi sözlərdən təmizləyəcəyini vurğulayır.

Müştərək isimlərə belə nümunələr göstərir:

anadolu	**özbəkcə**	**qazaxca**
saç	çaç	şaş
at	at	at
boyun	boyun	moyun[388]

Daha sonra müəllif ismin halları, tək və cəm, izafət, müxtəlif şəkilçilər – çak, çek, ikə, la, lə, da, də və s. ilə düzələn isimlərdən danışır və bunların hər birini müqayisəli şəkildə nümunələrlə izah edir:

osmanlıca	**özbəkcə**	**qazaxca**
qaralaməq	qaralaməq	qaralamaq
otlamək	otlamək	otlamaq

İkinci bölmə sifət bəhsinə həsr olunmuşdur. Sifətin hissələri izah olunur, əsli, qiyasi və səmai başlıqları ilə bölünür. Sifətin mənalarındakı dərəcələri, yəni, adi, müqayisə və üstünlük dərəcələrini ətraflı müqayisə ilə göstərir:

osmanlıca	**özbəkcə**	**qazaxca**

[388] Xocayev X.S. "Osmanlı, Özbək, Kazak dillərinin müqayisəli sərfi", Bakı, 1926, s. 6.

ən yaxşı adam ən yaxşı adam ən cağşı adam

Elə sözlər vardır ki, hər üç ləhcədə eyni və ya əksinə, fərqli tələffüz olunur. Məsələn, təkid sifətləri bəhsində göstərir:

osmanlıca	**özbəkcə**	**qazaxca**
qapqara	qarqara	ğadğara

Şəxs əvəzliyinin cəmdə ifadə forması müqayisəli şəkildə belə verilir:

osmanlıca	**özbəkcə**	**qazaxca**
biz	biz	biz
bizim	biznən	bizdən
bizə	bizgə	bizğə
bizi	bizini	bizini
bizdə	bizdə	bizdə
bizdən	bizdən	bizdən
bizimlə	biziylən	bizsamən
bizim üçün	biz üçün	biz uşun

Sual əvəzliyinə nəzər yetirək:

osmanlıca	**özbəkcə**	**qazaxca**
kim?	kim?	kim?
nə?	nə? nəymə?	ni?
hənki?	qaysi?	qaysi?

Dördüncü bölmə feillər bəhsidir. O biri bölmələrdə qeyd olunduğu kimi, hər üç ləhcədə yetərincə alınma sözlər yer almışdır ki, bu da, əsasən, türkcə olan bir çox sözlərin unudularaq yaddan çıxmasına səbəb olmuşdur. Bu hal Azərbaycan və özbək dillərində daha çox nəzərə çarpır. Feillər bəhsində də öncəki bölmələrdə olduğu kimi müqayisələr mövcuddur:

osmanlıca	**özbəkcə**	**qazaxca**
gülmək	gülmək	gülyək

Kitabda dilçilik baxımından bir sıra xırdalıqlara toxunulur və feillərin “ağır” (səğil) və “yüngül” (xəfif) olaraq qruplaşdırılmasından danışılır və bu şəkildə izah olunur: “Axırında mək (bək, pək) olan

məsdərlərə yüngül məsdər (məsələn, getmək), baq, moq, maq olan məsdərlərə ağır məsdər deyilir (məsələn, asmaq)".

Digər açıqlama təxfifi "yüngülləşdirilən" məsdərlər haqqındadır. "Məsdər-e təxfifi"ni əmələ gətirmək üçün məsdərlərin axırındakı ədatların yerinə "mə" (ma) şəkilçilərinin gətirilməsi vurğulanır. Bu quruluş əsasən osmanlıcaya aiddir.

Bundan əlavə elə məsdərlər var ki, onlar hər üç ləhçədə yer alır:

osmanlıca	**özbəkcə**	**qazaxca**
oxuma	oxu	oxu
yazı	yazu	yazu"

Hasel-e məsdər, esm-e məsdər, yardımçı məsdər başlıqları altında da feil haqqında ətraflı məlumat verilir. Məsələn, məsdər-i motəədded (yəni müxtəlif, çoxlu, saysız) bəhsində müəyyən qaydaya əsasən məsdərlərin bəzi ədatlar sahəsində çoxalması qeyd olunur. Təbii ki, burada da müəllif öz araşdırmasına ciddi yanaşmış, həm hər üç ləhcədə olan müştərək məsdərləri, həm də yalnız bir və ya ikisinə aid olan məsdərləri seçib göstərmişdir.

osmanlıca	**özbəkcə**	**qazaxca**
aparmaq, apartmaq	apartmməğ	ağartməğ

Azmaq-azdırmaq feili isə hər üç ləhcədə azdırmaq kimi işlənmişdir.

Müəllif məlum və məchul məsdərlərdən danışarkən də ətraflı elmi şərh verir və yenə də hər üç ləhcədən nümunələr gətirir. Feillər bəhsində maraq doğuran bölmələrdən biri də tək (bəsit) qoşma, mürəkkəb məsdərlər bölümüdür. Bəsit məsdər tək bir kəlmədən ibarət olan məsdərdir (getmək, gəlmək və s.). Mürəkkəb məsdər isə hər hansı bir məsdərin müştəğlərindən biri ilə yaranan məsdərlərdir. Eynilə də feillərin də bu şəkildə iki yerə ayrıldığı söylənilir.

İltizami (yəni, feilin şəkillərini ifadə edən forma) siğəsi (siğə yəni, qrammatikada zamanlara görə dəyişən feilin müxtəlif formalarından biri) adlı başlığa nəzər yetirdikdə müəyyən sözlərin, məsələn, osmanlılarda yazayım, azərbaycanlılarda yazayın, qazaxlarda cazayın kimi ifadə olunmasına rast gəlinir. Yazalar, yazasınız, yaza, yazsan ifadəsinin isə yalnız osmanlı variantı göstərilmişdir.

Feilin keçmiş zamanı bütün şəkilləri (mazi-ye nəğli, mazi-ye bəid və s.) ətraflı işlənmiş və yetərincə misallarla ifadə olunmuşdur.

Kitabda hərflərə uyğun olaraq da bölgü aparılmışdır, yəni hərfin səsli və ya səssiz (sait və samit) olmasından asılı olaraq göstərilmişdir.

Beşinci hissə ədat haqqındadır. Ədatın tərifin müəllif belə söyləyir: "Kəndi başına, yalnız bulunduqda bir məna ifadə etməyibdə, başqa kəlmə ilə birlikdə bulunduğu surətdə bir məna ifadə edən ləfzlərə "ədat"deyilir".

Ümumiyyətlə, kitabda ədatlara çox yer ayrılmamışdır. Müəllif ədat barəsində ayrıca bir tədqiqat əsəri yazacağını vurğulayır.

Son olaraq onu söyləyə bilərik ki, Xalid Səidin "Osmanlı, özbək, qazax dillərinin müqayisəli sərfi" adlı əsəri gələcəkdə də türkdilli xalqların müqayisəli dilçilik sahəsində tədqiqat aparan alimlərimiz üçün hər zaman dəyərli mənbə olaraq qalacaqdır.

Xalid Səid əsərini sonda belə ümumiləşdirir: "Ümumiyyətlə, türklərdə feilin siğələri çoxdur, biz burada əsas şəkil və nöqtələri göstərməyə eqtefa etdik, təfərrüata girişmədik. Bu kitabçayı yazmaqdan əsas məqsədimiz, bu ləhcələrə vaqif olmayanlara bunların arasındakı sərfcə olan münasibəti qısa bir surətdə göstərmək idi. Zənnimizə görə buna tamamən olmasa belə, qismən müvəffəq olduq. Bu kitabçayı biraz diqqətlə oxuyanlar üçün bu ləhcələrin sərfcə bir birinə pək yaxın olduqlarına dair qənaət hasil olacağından əminiz".

***

Xalid Səid Xocayevin ikinci mətbu kitabı 1929-cu ildə Bakıda nəşr etdirdiyi "Yeni əlifba yollarında əski xatirə və duyğularım"əsəridir. Professor Əziz Qubaydullin "yeni əlifbanın mübarizlərindən" adlandırdığı Xalid Səid Xocayevin "Yeni əlifba yollarında əski xatirə və duyğularım"əsərinin əhəmiyyətini yüksək qiymətləndirərək yazırdı: "Xalid Səid yoldaşın oxucularımıza təqdim edilməkdə olan əsəri bir çox cəhətdən əhəmiyyətlidir. Bu "Səyahətnamə" bir cəhətdən yeni əlifba yolundakı böyük mədəni və inqilabi hərəkətin ilk dövrünü göstərdiyindən türk-tatar xalqı tarixinin mühüm bir səhifəsidir. İkinci tərəfdən bu əsər ədəbiyyatımızda bu dövrdəki türk-tatar ziyalılarının halət ruhiyyələrini göstərən birinci "xatirə-memuar"dır". Azərbaycan ədəbiyyatında janr etibarı ilə "səyahətnamələr"in azlığından şikayətlənən Əziz Qubaydullin göstərirdi ki, Azərbaycan türk ədəbiyyatında "səyahətnamələr" yoxdur demək mümkündür. Bunun üçün bu əsəri mətbuat meydanına çıxararaq Azərbaycan türk ədəbiyyatının hər iki növünə başlanğıc material veririz[389].

[389] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 3.

Həqiqətən də, Ə.Xaqanidən M.F.Axundzadəyə, M.F.Axundzadədən İ. Qurtqaşınlıya, İ.Qurtqaşınlıdan Z.Marağaiyə, Z.Marağaidən Ə.Haqverdiyevə qədərki ədəbi yolda səyahətnamə janrında əsərlər yazılmışdır. Xalid Səid Xocayevə qədərki səyahətnamələr əsasən bədii səyahətnamələr hesab olunursa, "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri yalnız bədii deyil, eyni zamanda elmi, tarixi və publisist bir əsərdir. Xalid Səid Xocayevin bu əsəri sovet dövründə Azərbaycanda yazılmış ilk elmi-tarixi səyahətnamədir. Bu əsər X.Səidin yazıçı, vətəndaş mövqeyini və alim kimliyini ortaya qoyur.

Xalid Səid Xocayevin "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri Birinci Türkoloji Qurultaya aparan yol, qurultay və qurultaydan sonra görülən işlər, eləcə də dilçilik (xüsusilə də əlifba) tarixi barədə günümüzə kifayət qədər ciddi informasiya daşıyan qiymətli və etibarlı bir mənbədir.

Tərəddüd etmədən demək olar ki, indiyədək Birinci Türkoloji Qurultayın keçirilməsi, Azərbaycan ziyalılarının yeni əlifba uğrundakı fədəkarlığı barədə "Yeni əlifba yollarında əski xatirə və duyğularım" qədər geniş və müfəssəl bilgi verən ikinci bir əsər yazılmamışdır.

Yeri gəlmişkən qeyd etməliyik ki, "Yeni əlifba yollarında əski xatirə və duyğularım" əsəri ədəbiyyat tariximizdə elmi təsdiqini tapmamış bəzi fikirlərin təshih edilməsinə də yardım edir. Belə ki, indiyədək ədəbiyyat tariximizdə belə bir fikir formalaşmışdı ki, guya Həsən Səbri Ayvazov qurultayda olarkən B.Çobanzadənin çıxışından təsirlənərək yeni əlifba tərəfdarına çevrilmişdir. Bu məsələlərə aydınlıq gətirən Xalid Səid Xocayev "Yeni əlifba yollarında əski xatirə və duyğularım" adlı kitabında göstərir ki, əlifba məsələsi Krımda müzakirə edilərkən (bu müzakirə B.Çobanzadənin Bakıya gəlməsindən əvvəl idi – C.Q) S.Ağamalıoğlunun çıxışından sonra Həsən Səbri Ayvazov ayağa qalxdı həyəcansız, tələşsiz, gülə-gülə sözə başladı: "Yoldaşlar, mən söz alırkən ehtimal ki, sizə qarşı yeni etirazlar edəcəyimi təxmin etdiniz, ehtimal ki, yeni əlifbanı çürütmək üçün söz aldığımı zənn etdiniz, ehtimal ki, ərəb əlifbasını bütün qüvvətimlə müdafiə edəcəyimi düşündünüz; halbuki, məqsədim heç də öylə deyildir. Mən bu dəqiqələrə qədər əski əlifbanı mühafizə etmək tərəfdarı idim. Bu onun nöqsanlarını bilmədiyimdən dolayı deyil, onun nöqsanlarını məndə hər kəs qədər bilirdim, yenə mühafizə tərəfdarı idim. Səbəbini yuxarıda ərz etmişdim. İndi gərək möhtərəm Ağamalıoğlunun sözlərindən və gərəksə, başqa yoldaşların sözlərindən mənə qənaət hasil oldu. Mənim qorxularım bərtərəf oldu. Bundan sonra, artıq qəti surətdə yeni əlifba tərəfdarı oldu-

ğumu elan edirəm. İştə onun üçün söz aldım. Səməd Ağa sözündə, məsləkində sabit bir adam olduğundan, verdiyi sözləri də yerinə gətirəcəyindən əminəm”[390]. Göründüyü kimi, X.S.Xocayevin haqqında bəhs açdığımız bu əsəri Birinci Türkoloji Qurultay, eləcə də ədəbiyyat tariximizlə bağlı faktların dəqiqləşdirilməsi istiqamətində də olduqca əhəmiyyətli bir tarixi-elmi mənbədir.

Məlumdur ki, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin (MİK) 1924-cü il 27 iyun tarixli qərarı ilə yeni türk əlifbası Azərbaycan əlifbası kimi qəbul edildi. Yeni Türk Əlifbasına keçmək başqa türk-tatar xalqlarının qarşısında duran ümidə vəzifəyə çevrildi. Xalid Səid Xocayev bu xüsusda yazırdı: “Zatən osmanlılar, qazaxlar, özbəklər arasında da bu məsələ yox deyildi; ancaq onlar bu məsələni ortaya atmağa cəsarət etməyirlərdi. Yeni əlifba vasitəsilə əldə edilən müvəffəqiyyət komitəyə (Yeni Türk Əlifba Komitəsi nəzərdə tutulur –C.Q.) daha artıq cəsarət verdi. O, müvəffəqiyyətlərin yekununu göstərməyə və qonşu türk cümhuriyyətlərinin fikrini almağa qərar verdi. Bunun üçün bir konfrans çağırmaq lazım idi. Komitə bundan əvvəl onlar ilə xüsusi surətdə görüşməyi daha müvafiq gördü. 1924-cü ilin sentyabr ayında bir heyət səfəriyyə təşkil edildi. Bunlar Şuralar ittifaqında olan bütün türk cümhuriyyətlərinin mərkəzlərinə gedəcək, səlahiyyatdar adamlar ilə görüşəcəklərdi”.

Xalid Səid Xocayevin dediyi kimi “qonşu türk cümhuriyyətlərinin fikrini almaq” və təbliğat işini gücləndirmək məqsədi ilə Səməd Ağamalıoğlu, Cəlil Məmmədquluzadə, Vəli Xuluflu və Xalid Səid Xocayevdən ibarət xüsusi nümayəndə heyəti yaradıldı. Həmin nümayəndə heyəti 1924-cü il sentyabr ayının 7-dən oktyabr ayının 10-dək Dağıstan, Daşkənd, Krım, Simferopol, Orenburq, Ufa, Kazan və başqa şəhərlərdə yeni əlifbanın tərəfdarları və əleyhdarları ilə görüşlər keçirərək onun türk-tatar xalqlarının ədəbi-mədəni həyatında mühüm hadisə olacağını faktlı, predmetli şəkildə əsaslandırmağa çalışdılar. Nümayəndə heyəti Dağıstana getməkdən vaz keçdi. Bu məsələyə aydınlıq gətirən X.S. Xocayev yazırdı: “Yeni əlifba ilə əlaqədar olan qonşu cümhuriyyətin mərkəzində bulunurduq. Burada qalmadıq, qalmağa da lüzum yox idi. Çünki Dağıstan çoxdan öz fikrini bildirmişdi. Burada yeni əlifba xüsusunda müzakirə ediləcək heç bir şey yox idi. Dağıstan Azərbaycan ilə həmrəy idi. Buna görə boş vaxt keçirmək istəmədik”[391].

[390] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 30.
[391] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 12.

Bu səfər zamanı Azərbaycandan gələn nümayəndə heyəti Krım Universitetinin professoru, tanınmış dilçi alim Bəkir Çobanzadə ilə tanış olur. Səməd Ağamalıoğlu Krımda nümayəndə heyətinə bələdçilik edən B. Çobanzadəni daha yaxından tanıyır. Onun təşkilatçılıq qabiliyyətini, yüksək erudusiyasını və intellektual səviyyəsini nəzərə alan Səməd Ağamalıoğlu professoru Bakıya dəvət edir. Səməd Ağamalıoğlunun dəvətini məmnunluqla qəbul edən B.Çobanzadə 1924-cü ildə Bakıya gəlir.

Səməd Ağamalıoğlunun əsas amalı yalnız Azərbaycan deyil, bütövlükdə türkdilli xalqları yeni əlifba ilə təmin etmək və onları sivil xalqların sıralarına gətirmək idi. Bu S.Ağamalıoğluna həm də ümumtürk, ümumislam dünyasının vahid əlifbasını yaratmaqla onların ortaq mədəniyyətə, ortaq kültürə və ortaq dilə malik olduqlarını dünya ictimaiyyətinə çatdırmaq üçün lazım idi.

Bu böyük amallara çatmaq üçün S.Ağamalıoğlu "bütün qüvvətilə türkoloji qurultayı çağırmağa çalışırdı. Nəhayət, o, Ümumittifaq Mərkəzi idarələrinin nəzər-diqqətini bu məsələ üzərinə cəlb etdi, qurultayın çağırılması xüsusunda qərar qəbul etdirdi"[392].

Xalid Səid Xocayev göstərirdi ki, qurultay çağırmaq, vahid əlifba sistemi yaratmaq heç də asan məsələ deyildi. Əvvala, bir çox türk xalqları mənəvi-ideoloji cəhətdən buna hazır deyildi. Onlar hesab edirdi ki, yeni əlifbaya keçməklə biz dini dəyərlərimizdən, hətta "Qurani-Kərimdən" uzaq düşəcəyik. Bəzi yerlərdə xurafat kifayət qədər güclü olduğundan ziyalıların çoxu bu prosesə qoşulmaq istəmir və ya təqib və təzyiqlərdən qorxurdu. Bəzi ziyalılar yeni əlifbaya keçməyin perspektivlərini görmür, əski əlifbanı dəyişdirməyi məqsədəuyğun hesab etmirdilər. Səməd Ağamalıoğlu mövcud çətinlikləri aradan qaldırmağın yolunu türkoloji qurultayın çağırılmasında görürdü. Onun fikrincə, türkoloji qurultaya gedən yol türk dövlətləri arasında aparılan təbliğatdan, onların mənəvi-ideoloji birliyindən keçir. Təbliğat işi nə qədər yüksək səviyyədə aparılarsa, məqsədə də bir o qədər asan çatmaq olar.

Daşkənddə fikir mübadiləsi aparmaq mümkün olmasa da, keçirilən toplantılardan, müzakirələrdən belə nəticəyə gəlmək olardı ki, "özbək və türkmən mütəxəssisləri yeni əlifba tərəfində idi. Qazaxlar isə yeni əlifbanı qəti surətdə qəbul etməyəcəklərini bildirmişlərdi, lakin məsələnin ümumi türkoloji qurultayında həll edilməsinin əleyhinə

[392] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 87.

deyildilər. Belə bir qurultay çağırıldığı təqdirdə iştirak edəcəklərinə dair söz verdilər. Qurultayda ərəb əlifbasının qələbə çalacağına əmin kimi idilər".

Nümayəndə heyətinin Daşkənd, Orenburq və Kazandan narazı qayıtmasına baxmayaraq bu səfər onlar üçün kifayət qədər əhəmiyyətli olmuşdur. Belə ki, bu səfər bir tərəfdən türk xalqlarının yeni əlifbaya münasibətlərini, digər tərəfdən isə türkoloji qurultayın keçirilməsi zərurətinin qaçılmaz olduğunu ortaya qoyur. Birinci Türkoloji Qurultayın türkdilli xalqların taleyində oynadığı rolu yüksək qiymətləndirən Xalid Səid Xocayev yazırdı: "Bu qurultay Şərq aləmindəki mədəni inqilabın ən mühümü olan əlifba inqilabının rəsmi surətdə təməl və əsasını qoymuş olduğu kimi, əsrlərcə ərəb əlifbasının muşkulatı altında əzilən xalqlar ilə əlifbadan məhrum olan bir çox ibtidai halda yaşayan xalqlar üçün elmi, fənni əsaslar üzərinə qurulan bir əlifba verdi"[393].

Təbliğat işinə önəm verən S.Ağamalıoğlu nümayəndə heyəti ilə yanaşı, ayrı-ayrı türkdilli xalqların mütərəqqi fikirli, yerli-ziyalı nümayəndələrini də bu işə cəlb edirdi. B.Çobanzadə, Xalid Səid Xocayev və başqaları belə ziyalılardan idi. Doğrudur, Xalid Səid onunla birlikdə təbliğat aparırdı. Lakin S.Ağamalıoğlu Xalid Səidin nüfuzunu, ziyalı mövqeyini, türkçülüyünü, milliyyətini nəzərə alaraq özbəklərlə, kazaklarla, hətta Türkiyə türkləri ilə dil tapmağın onun üçün daha asan olacağını görürdü. Maraqlıdır ki, təbliğat işi yalnız 1924-cü ildə həyata keçirilən rəsmi səfərlə yekunlaşmır, qurultay ərəfəsində, hətta qurultaya gəlmiş nümayəndələr arasında da aparılırdı. Xalid Səid Xocayev bu xüsusda yazırdı: "Səməd ağa məni yanına çağırdı. Xalid, - dedi sən özbəklərinlə danış, hər halda onların müəyyən bir fikirləri olacaq. Fikirlərini açıq-aydın söyləsinlər. Biz də ona görə iş görək. Bir də Köprülüzadə Fuad yoldaşla da görüş, gör onların fikirləri nədir?"[394]

Xalid Səid Xocayev əski Avropa otelində yaxşı tanıdığı Bekcan Rəhmanovla və Qazi Alimcan Yunusovla görüşür. Özbəkistan nümayəndə heyəti ərəb əlifbasının dəyişdirilməməsində israrlı olduqlarını bir daha qeyd edirlər. Lakin Xalid Səidin elmi-məntiqi söhbəti, inandırıcı dəlilləri Özbəkistan nümayəndə heyətini öz fikirlərindən daşındırır və onlar da yeni əlifbanı dəstəkləməyə başlayırlar. Xalid Səid Özbəkistan nümayəndə heyətinin üzvü Bekcan Rəhmanovla qurultayqabağı günlərdəki söhbətlərindən birini belə xatırlayırdı: "Arxamdan – Ortaq! Ortaq, Xalid, ortaq!

[393] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 147.
[394] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 88.

– səsini eşitdim. Bu Bəkcan idi. Gülərək mənə yaxınlaşdı, Qazini gördünüzmü? – sualını verdi.

- Xeyr. Bir şeymi var? – dedim

- Bəli, bir şey var.

- Xeyirli olur?

- Xeyirdir: bu sabah öz aramızda iclas yapdıq, əski qərarımızı dəyişdirdik, artıq yeni əlifbanı müdafiə etmək, onun lehinə səs verməyə qərar verdik. Doğrudan da, xeyirli bir xəbər idi"[395].

Yeni Avropa otelində Fuad Köprülüzadə və Əlibəy Hüseynzadə ilə görüşən Xalid Səidin xatirə və duyğularını şərhsiz və müdaxiləsiz verməyi daha məqsədəuyğun bildik. Xalid Səid yazırdı: - «... Sabah oldu. Mənim üzərimə qoyulan vəzifəni əda etməli idim. Bunun üçün «Yeni Avropa» otelinə getməli idim, çünki türk ədəbiyyatının iki böyük alimi... burada yerləşdirilmişdi. Fuad bəylə birinci dəfə tanış olmayırdım... Fuad bəy zəif və nazik vücudu ilə masa arxasında oturmuş, dodaqları arasında sıxışdırılan papirosundan həlzunlu dumanlar buraxaraq, əlindəki jurnal ilə məşğul idi. Məni görər-görməz «ay əfəndim, buyurunuz, buyurunuz, rica edirəm, buyurunuz» deyə ayağa qalxdı. Bir neçə addım irəliləyərək bərk-bərk əllərimi sıxdı... Hənuz əllərimi buraxmamış, masanın o biri tərəfində, pəncərə önündə kitab mütaliəsi ilə məşğul olan gözü çeşmekli, ağ saqqallı, bəyaz saçlı, ixtiyarca bir adamın yanına qədər gətirdi:

- Əli bəy, - dedi, sizə əski dostlarımızdan Xalid Səidi təqdim ilə şərəfyab olmaq istəyirəm - dedi.

- Mən də:

- Aman əfəndim, məhcub ediyorsunuz, - deyə müqabilə etdim. Əli bəy əlindəki kitabı buraxaraq ixtiyarlara məxsus bir tövr ilə yavaş-yavaş ayağa qalxdı, sevimli çöhrəsinə xüsusi bir əda verən təbəssümlə mənə əllərini uzadaraq: - «Müşərrəf oldum», - dedi. Əli bəy... mənim üzərimə dərin bir təsir buraxmış, Azərbaycan ədəbi həyatında mühüm işlər görmüş məşhur Hüseynzadə Əli bəy idi. Əlini iki əlimlə tutmuş, bir dürlü buraxmaq istəmirdim.

Əli bəy oxumaqda olduğu kitabın arasına çeşmələrini qoydu, stulunu masa yanına çəkdi. Otaqda üç adamdan başqa kimsə yoxdu, necə gəldiklərindən, yolda əziyyət çəkib-çəkmədiklərindən bəhs edən ufaq bir müqəddimə müsahibəsindən sonra mövzunu yeni əlifbaya çevirməyə tələsdim, çünki gəlib-gedənlər çoxalırsa bu barədə müsahibə etmək, bəlkə mümkün olmayacaqdı.

[395] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 93.

- Fuad bəy, - dedim, - təbii yeni əlifba məsələsindən dolayı təşrif etdiniz. Bu xüsusda Türkiyə əfkari-ümumiyyəsilə, siyasi dairələrinin fikirləri sizcə məlum olduğundan şübhə yoxdur.

- Fuad bəy yanındakı qurşun qələmi əlinə alaraq, masa üzərindəki bloknotuna bir taqım işarələr qoyduqdan sonra:

- Əfəndim, Türkiyənin bugünkü vəziyyəti həpimizə məlumdur; məğlubiyyətlə nəticələnən ağır və uzun müharibələrdən çıxdıq, iqtisadi vəziyyətimiz bizi məmnun edə biləcək bir halda deyil, bilxassə, böyük bir inqilab həyatı yaşayırız, zehnimiz hənuz daha mühüm məsələlər ilə məşğuldur. Bununla bərabər, elmi müəssisələrimiz, Azərbaycan tərəfindən ortaya atılan yeni əlifba məsələsinə də biganə deyillər. Bu yaxınlarda Maarif Nəzarəti tərəfindən xüsusi bir komision təşkil edildi. Bu komision imla və hürufatı tətbiq ilə məşğul olur, hənuz qəti bir fikir və qərara gəlmədilər. Zənn edərəm, bu tətbiqat yenə bir qaç ay davam edəcəkdir.

- Şu halda dedim, qurultayda Anadolu türkləri namına yeni əlifbanın lehinə və ya əleyhinə bir fikir verəmiyəcəksiniz?

- Təbii deyilmi? Ancaq şurasını ərz edəlim ki, yeni əlifbanın əleyhinə rəy vermək üçün əlimizdə bir əsas yoxdur, lehinə rəy vermək üçün də maləsəf hənüz hazırlığımız olmadığı kibi hökumət tərəfindən də bu xüsusda əlimizdə bir təlimat yoxdur.

- Çox gözəl, bu xüsusdakı öz fikrinizi öyrənə bilərmiyəm?

- Əfəndim, əsas etibarı ilə mənim fikrim yeni əlifbanın lehindədir, ancaq ümumi vəziyyətimizlə hesablaşmaq məcburiyyətindəyəm. Bizim halımız başqa, Şərqdə yaşayan ayrı türk xalqlarının vəziyyəti bambaşqadır. Türkiyə ədəbiyyatı - təbii, Avropa ilə müqayisə etməyirəm, o qədər fəqir deyildir, yeni əlifbaya keçdiyimiz təqdirdə bir çox kitablarımızı yeni əlifbaya keçirməyə məcbur qalacağız, bunun üçün iqtisadi vəziyyətimiz müsaid olmadığını yuxarıda ərz etmişdim. Əlifba məsələsi bizdə çox əskidir, bunun üçün müxtəlif zamanlarda müxtəlif komissiyalar təşkil edildi, hətta cahan hərbi zamanında Ənvər paşa tərəfindən də əsgəri işlərdə bir yeni əlifba təcrübəsi yapıldı, ancaq həyata keçiriləmədi. Mən də bu nöqteyi-nəzərdən öz fikrimdən də ehtiyatla davranmağa məcburam.

- Fuad bəy, müsaidə edərsəniz yenə bir şey də soruşmaq istəyirdim.

Xəfif bir təbəssümlə:

- Rica edirəm, yenə bir şey deyil, daha bir çox suallar verə bilərsiniz, vaxtımız da müsaiddir.

- Dediyiniz kibi, biz Şərq türkləri yeni əlifbaya daha qolay surətdə keçə biləriz, keçməyə də şiddətli surətdə lüzum görüyoruz... Şayəd Şərq türkləri yeni əlifbaya keçərlərsə, Anadolu türkləri yenə əski əlifba üzərində qala bilərmi?

Fuad bəy bir az düşündü.

Əli bəy:

- Zənn edərəm, bu iş mümkün olmayacaq.

Fuad bəy təsdiq etdi:

- Əvət, o halda bütün çətinliklərə, iqtisadi ağırlıqlara qatlanaraq yeni əlifbaya keçməyə məcbur olacağız (bu təbii, mənim öz fikrimdir. Hökumət dairələrinin bu xüsusda nə düşündüklərinə aid bir şey deyəməm). Çünki əsrimizdəki mətbuat mədəniyyəti geniş sahələr, çox miqdarda oxucular istəyir. Bundan dolayı Şərq türkləri ilə mədəni münasibətimizi saxlamaya məcburuz, vaqiən hürufatın ayrı olması dilcə olan münasibəti kəsməz, ancaq çocuqlarımıza, gənclərimizə, ayrı-ayrı hərfləri öyrətməyə məcbur qalacağız, bu da bir çox vaxtımızı boş yerə sərf etməyə səbəb olacaq...Bugünkü texnika da yeni əlifbaya keçməyi tələb edir. Ərz etdiyim kibi buna bizim iqtisadi şəraitimiz hənuz müsaid deyildir. Bu xüsusda çalışmaqda olan komision lazım görürsə, bizim də keçməmiz ehtimaldan uzaq deyildir, ancaq hənüz rəsmi, qəti bir şey deyəməm...»[396].

Alimlərin bu səmimi dialoqundan aydın olur ki, Türkiyənin elmi dairələri Azərbaycanın qəbul etdiyi yeni əlifbaya biganə deyildir. Mövcud reallığı və Türkiyənin iqtisadi vəziyyətini nəzərə alan alim gələcəkdə bu işin qaçılmaz olduğunu da diqqət mərkəzinə çəkirdi.

Türkiyə nümayəndələrinin fikirlərinə münasibət bildirən Səməd Ağamalıoğlu qeyd edir ki, Anadolu türklərinin yeni əlifbaya keçməsinə arxayınam. Ona görə ki, Mustafa Kamal böyük inqilabi işlər aparır. Həmin inqilabi işlərdən biri də əlifba inqilabıdır.

Xalid Səid göstərirdi ki, məruzələrdən sonra münaqişələr şiddətləndi. Hər iki əlifbanın məziyyətlərilə nöqsanlarının ən incə, ən gizli nöqtələrinə qədər təhlil və tənqid edilirdi, münaqişə bütün şiddətilə,

[396] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 91-92.

bütün hərarətilə bir neçə gün davam etdi; nəhayət, Dağıstan mürəxxəsi Qorxmazov yoldaşın rəyasəti altında təşkil edilən komisyion tərəfindən tənzim edilən qərar böyük bir əksəriyyətlə qəbul olundu. Bu qərara görə latın əsası üzərinə qurulan yeni türk əlifbasının ərəb əlifbasından hər cəhətdən üstün olduğu qəbul edildi[397]. X.S.Xocayev eyni zamanda bildirirdi ki, "Türkoloji qurultay sayəsində Anadolu türkləri bitərəf, qazaxlar ilə kazanlılar tamamilə qarşı oldu; qalan türk-tatar ölkələrinin isə qəti olaraq yeni əlifbanı qəbul etmiş olduqlarına hökm edilə bilərdi"[398].

Yeni əlifbanın qəbulu və yeni əlifbaya keçid türkdilli xalqların tale-yində tarixi bir hadisə oldu.

[397] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 94-95.
[398] Xalid Səid Xocayev. Yeni əlifba yollarında əski xatirə və duyğularım, Bakı, 1929, s. 96.

ƏZİZ QUBAYDULLİN

Birinci Türkoloji Qurultaya Bakıdan qatılan alimlərimizdən biri də Əziz Saleh oğlu Qubaydullin idi. O, müxtəlif illərdə yazdığı "Xəzərlərin mənşəyi məsələsi", "Tatar burjuaziyasının tarixindən", "Azərbaycan bəyləri və onların tabeliliyində olan kəndlilər", "Teymur imperiyasının tənəzzülü və özbəklər mərhələsi", "Tatarların mənşəyi məsələsi", "XVI-XVII əsrlərdə tatarların kəndli hərəkatlarında iştirakı", "İsmayıl Qaspıralının ideologiyasına bir nəzər", "Didərgin tatarların sosial inkişafının mərhələləri", "Bakı və ətrafı kəndlər", "Fatih Əmirxanov və tatar ədəbiyyatı", "Türk-tatar xalqlarının elminin inkişaf tarixi", "Feodal epoxasında SSRİ xalqlarının tarixi kursu", "Kəndli müharibələri" və başqa əsərləri ilə elmimizi zənginləşdirmişdir. Ə.Qubaydullin rus, tatar, Azərbaycan və özbək dillərində yazıb-yaratmış, 100-dən çox əsərin, kitab və məqalələrin müəllifi olmuşdur.

1887-ci ildə Kazanda tacir ailəsində anadan olan Əziz Saleh oğlu Qubaydullin ibtidai təhsilini mollaxanada almış, kiçik yaşlarından dini elmləri və islamın əsaslarını dərindən öyrənmişdir. Əziz Qubaydullin təhsilini Xalidiyyə məktəbi ilə məhdudlaşdırmır, paralel olaraq Rus-tatar məktəbində də davam etdirir. Rus-tatar məktəbində oxumaq ona dünyəvi elmlərlə, xüsusilə də rus dili və ədəbiyyatı, Rusiyanın və onun müstəmləkələrinin tarixi, eləcə də dünyanın bir çöx görkəmli şəxsiyyətlərinin əsərləri ilə yaxından tanış olmaq imkanı qazandırır.

Əziz Qubaydullin mədrəsədə təhsilini başa vurduqdan bir qədər sonra, 1909-cu ildə Kazan Universitetinin hüquq fakültəsinə qəbul olur. Hələ universitetdə oxuduğu illərdə elmi yazıları ilə müəllimlərinin diqqətini cəlb edir. Onun 1909-cu ildə yazdığı "Türk xalqlarının qəhrəmanlıq eposu "Seyd Battal"ın yaranması", sonrakı illərdə qələmə aldığı "Marko Polo monqol tarixinin araşdırıcısı kimi" (diplom işi), "Türk-tatar xalqlarında qadınların vəziyyəti – qədim dövrdən Teymura qədər", "Mərcani və bədii incəsənət" əsərləri onu dövrünün görkəmli alimləri ilə elmi ünsiyyət qurmağa şərait yaradır. Kazan Universitetini bitirdikdən sonra onun oradan uzaqlaşması hər şeydən öncə gənc Əzizin elmi mühitdən, elm adamlarından uzaq düşməsi demək idi.

1916-cı ildə universiteti əla qiymətlərlə başa vuran Əziz Qubaydullinin işləmək üçün Orenburq vilayətinin Troitsk şəhərinə göndərilməsi heç də ürəkaçan deyildi. Daha doğrusu, bura iş yerindən daha çox sürgün yeri idi. Ona görə də o, oradan Kazana gəlib elmi işlərini davam etdirmək uğrunda mübarizə aparır. Apardığı mücadilə

bəhrəsini verir, 1917-ci ilin sonlarında o, Kazan universitetində tarix kafedrasında işləməyə başlayır. Əziz Qubaydullin burada təhsilin növbəti pilləsi olan magisturaturaya da qəbul olur.

Müəyyən obyektiv və subyektiv səbəblərdən Əziz Qubaydullin magistraturanı başa vura bilmir. Tədqiqatçı alim Əli Şamil bu xüsusda yazır: "Yenidən Kazana qayıdan Əziz Qubaydullinin universitetdə işə düzəlməsi 1917-ci ilin noyabrına kimi yubadılıb. Çünki II Nikolay taxtdan uzaqlaşdırılsa da, monarxiya dövründə verilmiş qanunlar hələ də qüvvədə idi. Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra köhnə qanunların qüvvədən düşdüyünü elan etdikdə Əziz Qubaydullinin unversitetdə magistraturaya qəbuluna yol açıb. 1919-cu il iki professorun, milliyətcə xakas olan türkoloq N.F.Katanov və rus tarixçisi N.N.Firsovun himayəsilə o, universitetin tarix kafedrasında işə götürülüb və az bir zamanda, yəni 1918-ci ildə "Din tarixi kursu", 1919-cu ildə "Rusiya tarixi kursu" və "Qədim dünya tarixi kursu" dərsliklərini yazıb.

1921-ci ildə Sovet təhsil sistemində magistratura pilləsi ləğv edilib. Əziz Qubaydullin son imtahanlarını verib magistr adı almadan həmin ildən Şərq Akademiyası və Şərq Pedaqoji İnstitutunda müəllim işləməyə başlayıb. "Xəzər xaqanlığının tarixi təcrübəsi", "Bir tatar salnaməsinin məhvi", "Puqaçev üsyanında tatarların iştirakı" və "Puqaçev üsyanı və tatarlar" mövzusunda apardığı araşdırmalar ona böyük hörmət qazandırıb".

Əziz Qubaydullin 1925-ci ildə Bakıya gəlir və 1909-cu ildə Kazan Universitetində bir yerdə oxuduğu və dostluq etdiyi Sultan Məcid Əfəndiyevlə yenidən görüşür. S.M.Əfəndiyevin köməkliyi ilə Ə.Qubaydullin Azərbaycan Dövlət Universitetinə dosent seçilir və tarix-ictimaiyyət şöbəsinə müdir təyin edilir. Yeri gəlmişkən qeyd etməliyik ki, Ə.Qubaydullin 1937-ci il iyunun 6-da verdiyi ifadəsində bildirirdi ki, "Sultan Məcid Əfəndiyevi 1909-cu ildən tanıyıram. Kazan Universitetində onunla birgə təhsil almışam. O, panislamist görüşlərin qızğın ifadəçisi olduğu üçün "Məcid Müsəlmanski" ləqəbi qazanmışdı"[399].

1925-1926-cı illərdə Birinci Türkoloji Qurultayın türkdilli xalqların tarixində və taleyində oynayacağı rolun əhəmiyyətini dərindən dərk edən Ə.Qubaydullin onun ideyalarının həyata keçməsində həm təşkilatçı, həm də bir yaradıcı şəxs kimi, çıxış, məqalə və tezisləri ilə yaxından iştirak edir.

[399] DTX-nin arxivi. Əziz Qubaydullinin istintaq qovluğu, PR - № 25993.

Qurultayın türk xalqlarının tarixi və müasir vəziyyəti, etnoqrafiyası, təsviri sənət tarixi məsələlərinə həsr edilmiş ikinci iclasında (27 fevral 1926-cı il) çıxış edən Ə.Qubaydullin türk tatar xalqlarının tarixinin Şərqdə lazımi qədər araşdırılmadığını bildirir. Onun təsnifatına görə, həmin alimlərdən bir qismi Avropa alimlərinə və Avropa mənbələrinə istinad etmədən (Lətif Əfəndinin "Şəki xanlığı tarixi", Xusain Əmirxaninin "Bolqarlar və Qazanın tarixi") tədqiqatlarını ənənəvi Şərq üslubunda yazırlar. Digər qrup tədqiqatçılar isə Avropa mənbələrinə və alimlərinə (A.Bakıxanov, Mərcani, Murad Məkki kimi) istinad etsələr də, yenə də ənənəvi Şərq üslubundan yan keçə bilməmişlər[400].

Qərbi Avropa tarix elminin müəyyən təsiri altında yaranan əsərlərdən bəhs açan Əziz Qubaydullin XIX əsrin əvvələrində tatar tarixçisi İbrahim Halfinin 1822-ci ildə çap etdirdiyi "Çingizxan və Axsaq Teymurun həyatı" hekayələr toplusundakı bir çağırışı xüsusilə qiymətləndirirdi: "Topluya əlavə etdiyi çox maraqlı girişdə o, (İbrahim Halfin nəzərdə tutulur – C.Q.) tatar əhalisini məhv olmaqda olan tarixi əlyazmaları və tarixi xarakterli xalq ədəbiyyatını toplamağa çağırmışdır"[401].

"Gülüstani-İrəm" əsərinin müəllifini yüksək qiymətləndirən Ə.Qubaydullin göstərirdi ki, tarixi amilləri üzə çıxararkən coğrafi amillərə önəm verən Mərcani ilə müqayisədə A.Bakıxanov tamamilə avropalıdır və onun düşüncə tərzi də bizə Avropa və rus tarixçilərini xatırladır. Belə bir müqayisə aparmasına baxmayaraq Qubaydullin Mərcanini (1818-1889) "Rusiyanın Avropa səhnəsinə çıxan ilk tarixçisi" adlandırırdı. Mərcaninin digər əsərlərinin əhəmiyyətindən danışan Qubaydullin Mərcaninin tarixçilər tərəfindən "çoxlu yenilik gətirən ciddi alim" adlandırıldığını diqqət mərkəzinə çəkirdi. Müəllifin fikrincə, Mərcaninin ən böyük xidmətlərindən biri onun sayəsində türk tayfalarının tarixinin geniş şəkildə tədqiqata cəlb edilməsi, digəri isə tatar və rus arasında yaratdığı əlaqə idi ki, bu əlaqə də onun ölümündən sonra qırıldı.

Qayım Nəsirovun yaradıcılığına müəyyən yer ayıran müəllif İ.Qaspirallının "Rus müsəlmanlığı haqqında" (1881) əsərlərindəki ziddiyətli məqamları qabardırdı: "500 il bundan əvvəl Kulikovo çölündə tarixi tale

[400] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 47.

[401] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 47.

şimal və şərq müsəlmanlarının, o cümlədən də türk-tatar tayfasının ruslara tabe olması məsələsini birdəfəlik həll etdi. Çoxəsrlik sınaq və mübarizədən sonra, yetkinləşən və möhkəmlənən rus iradəsi, nəhayət, tatarların möhtəşəm və özəl hakimiyyətini çökdürdü. Və həmin andan etibarən, rus hakimiyyəti addım-addım Tatarıstanın içərilərinə doğru irəliləyir, vaxtilə vahid və qüdrətli türk-tatar tayfasının indi pərakəndə olan şaxələri tədricən Rusiyanin hakimiyyəti altına keçir və onun ayrılmaz tərkib hissəsi olur.Beləcə, tarixi zərurət anlarında bir-birinin ardınca Ryazan, Qazan, Həştərxan, Sibir, Krım çarlıqları, sonra Zaqafqaziya xanlıqları, son zamanlar isə bir sıra Orta Asiya xanlıqları böyüməkdə olan Russiyanın tərkibinə daxil oldu və fikrimizcə, Rusiya öz tarixi hüdudlarına yetişdi.Düşünürük ki, gec-tez Rusiya hüdudları bütün türk-tatar tayfalarını ehtiva edəcək, müvəqqəti dayanmalara baxmayaraq, bu sərhədlər Asiyada türk-tatarların məskunlaşdığı yerlər bitənədək uzanıb gedəcək..."[402]

Təəccüb doğuran odur ki, Ə.Qubaydullin İ.Qaspirallının bu tarixi həqiqətlərini şübhə altına alır, onu "qondarma vətənpərvərlik pərdəsi altında öz məhrəm fikirlərini ifadə etmək üçün hansı fəndlərə əl atmaqda" məzəmmət edirdi. Qubaydullinin nədən bu mövqedə dayandığı, həqiqətən təəccüb və təəssüf doğurur.



XX əsrin əvvəllərində Ənüddin Əhmədovun, Riza Fəxrəddinovun, Həsən Ata Əbaşinin türklərin tarixinə dair yazdığı əsərlərə münasibət bildirən Qubaydullin Zəki Vəlidinin yaradıcılığı üzərində xüsusilə dayanır. Onun 1912-ci ildə nəşr edilən "Türklər və tatarların tarixi" əsəri həm Rusiya, həm də xarici alimlərin diqqətini çəkdi. Onun siyasi əhəmiyyətini, təsnifləndirmə prinsiplərini və faktik materialların elmi-nəzəri təhlilini nəzərə alan Yusif Akçura bu əsəri "türk xalqlarının ilk ümumdünya tarixi" adlandırırdı.

Qubaydullinin fikrincə, Fevral inqilabının qısa müddətdə irəli sürdüyü bir sıra praktiki məsələlər türk xalqlarının tarixinin öyrənilməsinə təkan verdi. Fevral inqilabı ilə ziyalılar üçün yeni fəaliyyət

[402] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 51.

meydanı açıldı, dövrü mətbuatda və ayrı-ayrı kitablarda türk-tatar xalqarının tarixi ilə bağlı yeni-yeni əsərlər yazılmağa başladı. Azərbaycan, özbək, qazax, başqırd, krım və başqa xalqların tarix və etnoqrafiyasının kimlər tərəfindən tədqiqi məsələsinə diqqət yetirir. Çıxışının sonunda öz fikir və düşüncələrini ümumiləşdirən alim deyir: "İcazə verin, bəzi nəticələr çıxarım: birincisi, demək olar ki, bütün türk tarixçilərində metod çatışmır və onlarda səriştəsizlik müşahidə edilir ki, bu da bəziləri istisna olmaqla, onların əksəriyyətinin xüsusi hazırlıq keçməmiş adamlar olmalarından irəli gəlir. İkincisi, türk-tatar dilində yazılan əsərlərin əksəriyyəti populyar xarakter daşıyır. Üçüncüsü, bu əsərlərdə tarixi mənbələr və xüsusi ədəbiyyatlar, xüsusən də Qərbi Avropa ədəbiyyatı ilə tanışlığın çox az olduğu nəzərə çarpır"[403].

Bu məruzə türk-tatar xalqlarının tarixinə və tarixşünaslığına dərindən bələd olan ciddi bir alimin elmi-nəzəri qənaətləridir. Burada faktlar sadalanmır, ehkam kimi qəbul edilmir, əksinə tarixi hadisələrə və tarixi-etnoqrafik əsərlərə sistemli yanaşma vardır.

Əziz Qubaydullin fikirlərini ümumiləşdirərək belə qənaətə gəlmişdir ki, Türk-tatar xalqlarının tarixinin öyrənilməsini asanlaşdırmaq və bu elmi xalq kütlələrinə yaxınlaşdırmaq məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirmək lazımdır. Əksər hallarda mədəni mərkəzlərdən uzaqda yaşayan türk-tatar alimləri müxtəlif jurnallarda, toplularda və Şərqi Avropa və qədim dillərdə nəşr olunmuş mənbələrdən istifadə edə bilmirlər. Türk-tatar alimlərinin bütün bu dilləri bilmələri şərt deyil. Alim tövsiyə edirdi ki, bu boşluğu aradan qaldırmaq üçün SSRİ-də daha geniş yayılmış türk dillərindən birində türk-tatar xalqlarının tarixini nəşr etmək lazımdır.

Eyni məsələ tarixi mənbələrə də aiddir. Onların əksəriyyəti indiyədək nəşr olunmayıb və hələ də arxivlərdə saxlanılır. Qubaydullin hesab edirdi ki, həm bu günə qədər nəşr olunmuş, həm də nəşr olunmamış və arxivlərdə olan materialların türk dilinə tərcümə olunaraq sistemli qaydada nəşr edilməsi olduqca vacibdir. Bu və ya digər xalqın tarixi ilə bağlı bütün arxiv materialların nəşr olunması mümkün olmadığına görə bu materialların qısa açıqlanması, saxlandığı yer, fond nömrəsi, səhifə və s. məlumatların əks olunduğu göstərişlərin nəşr olunmasına ehtiyac var. Alim yazırdı ki, bizim xalqlarımızın tarixi ilə bağlı rus və xarici alimlərin bir çox əsərləri türk-tatar alimləri üçün

[403] 1926-cı il I Bakı türkoloji qurultayı. (Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri, Professor Kamil Vəli Nərimanoğlu, elmi işçi Əliheydər Ağakişiyev), Bakı, "Çinar-Çap" nəşriyyatı, 2006, s. 64.

əlçatmaz olaraq qalır. Bunun səbəbi ya nadir nüsxələrdə əks olunması, ya da türk-tatar alimlərinin bu əsərlərin yazıldığı dilləri bilməmələridir. Ona görə də bu əsərlərin türk dillərinə tərcümə olunması vacibdir.

Qubaydullin təəssüflə qeyd edirdi ki, Sovet İttifaqında yaşayan türk-tatar xalqlarının əcdadları yazılı mənbələri heç saxlamamışlar, ya da bu mənbələrin sayı çox azdır. Bu səbəbdən bu xalqların qədim tarixinin öyrənilməsi üçün mənbə qismində maddi mədəniyyət abidələrinin qalıqları və xalq danışıq dili çıxış edə bilər. Ona görə də bir tərəfdən arxeoloji qazıntılarının gücləndirilməsi, digər tərəfdən isə mədəniyyətin və zamanın təsiri altında məhv olmaq təhlükəsi ilə üz-üzə qalan xalq danışıq dili nümunələrinin daha sürətlə toplanılmasına ehtiyac var. Göründüyü kimi, edilən tövsiyələr və təkliflər kifayət qədər aktual, məntiqli və elmidir.

***

Alimin Birinci Türkoloji Qurultayda iştirakı və böyük türkoloqların qarşısındakı çıxışı, müxtəlif yerlərdən gəlmiş alimlər ordusu arasında onun nüfuzunun daha da artmasına səbəb olur.

Yaradıcı və istedadlı alim kimi tanınan Əziz Qubaydullin 1928-ci ildə Şərq tarixi kafedrasının, 1930-cu ildə isə Moskva Dövlət Universitetinin professoru seçilir.

1931-ci ildə Yaxın Şərq tarixi kafedrasının müdiri olur. 1931-37-ci illərdə müxtəlif vəzifələrdə çalışan Qubaydullin üçün də bütün ziyalılar kimi ağır olur. Ölkədə hamıdan şübhələnmə və xüsusilə də tanınmış ziyalıların təqib edilməsi və həbsi onun üçün də qaçılmaz oldu.

17 mart 1937-ci ildə Az.XDİK-in 4-cü şöbə 4-cü bölməsinin rəis köməkçisi, təhlükəsizlik leytenantı Şerin, 4-cü şöbə 4-cü bölməsinin rəisi, dövlət təhlükəsizlik baş leytenantı Qriqoryan, Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbəsinin rəis müavini, dövlət təhlükəsizlik baş leytenantı Tsinman V.Xuluflu, Tixomirov, Bukşpan və B.Çobanzadənin ifadələrinə əsasən belə qərara gəlmişlər ki, Qubaydullin Əziz Salahoviç Az.SSR Cinayət Məcəlləsinin 72/73-cü maddələri ilə təqsirləndirilərək həbs edilsin və NKVD-nin həbsxanasında saxlanılsın.

Bu arayışdan çıxış edən NKVD-nin idarə rəisinin müavini dövlət təhlükəsizlik mayoru Qerosimov 12493 №-li istintaq işi ilə tanış olduqdan sonra 17 mart 1937-ci ildə belə bir qərara imza atmışdır. Az.SSR Cinayət Məcəlləsinin 72/73-cü maddələri ilə təqsirləndirilən Qubaydullin Əziz Salahoviç istintaqdan və məhkəmədən yayınmaması üçün həbs edilsin və NKVD-nin həbsxanasında saxlanılsın.

Bu qərardan sonra Az.SSR XDİK-in sədri Sumbatov-Topridze Qubaydullinin həbsi ilə əlaqədar olaraq 17 mart 1937-ci ildə 221 saylı order imzaladı. 2 gün qüvvədə olan orderə əsasən mart ayının 18-də Ə.Qubaydullin həbs edildi və elə həmin gün Bakı şəhəri, Kommunist küçəsi, ev 6 ünvanında axtarış aparıldı. Axtarış zamanı ondan 122841 №-li pasport, bir çox elmi əsərlər (təəssüf ki, onlar siyahıya alınmayıb - C.Q.) və ədəbiyyatlar götürüldü.

Həbs olunan zaman onunla birlikdə yaşayırdı:

həyat yoldaşı: Rabiqa - 46 yaş

oğlu Salman: - 21 yaş

oğlu Mikayıl - 14 yaş

18 mart 1937-ci ildə Novruz bayramı ərəfəsində həbs edilən Qubaydullinin ilk dindirilməsi həmin ilin 22 martında baş tutdu. O, elə ilk dindirmədə özünün B.Çobanzadə ilə birlikdə əksinqilabi millətçi pantürkist əlaqədə olduğunu etiraf etdi.

İkinci dindirməsi (9-20 aprel 1937-ci il) zamanı o, 1925-ci ildən Bakıda özünün əksinqilabi əlaqələri, daha doğrusu, SSRİ-dən ayrılaraq vahid türk-tatar dövləti yaratmaq istəkləri barədə danışır. O, bildirir ki, vahid türk-tatar dövləti yaratmaq üçün biz "Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti"nin üzvlərini ələ almışdıq. Bu sahədə bizə X.S.Xocayev, Ə.Haqverdiyev, T.Şahbazi, A.Ələkbərov, M.Baharlı və b. yaxından kömək edirdi. Onlar cəmiyyətin xətti ilə əksinqilabi kitabların nəşrində də bizim istəklərimizi yerinə yetirirdilər. Müstəntiqin "hansı əksinqilabi kitablar həmin cəmiyyətin xətti ilə nəşr edilmişdi?" sualına Ə.Qubaydullin B.V.Çobanzadənin "Türk-tatar dialektologiyası", X.S.Xocayevin "Türk dillərinin müqayisəli qrammatikası", M.Baharlının "Azərbaycanın tarixi-iqtisadi icmalı", özünün "Xəzərlərin mənşəyi məsələsinə dair" və b. kitabların adını çəkir.

Təşkilatın üzvlərinə hansı göstərişləri verirdiniz sualını isə Qubaydullin belə cavablandırırdı:

1) leqal imkanlardan, yəni dil-ədəbiyyat və disputlardan istifadə yolu ilə pantürkizmin təbliği;

2) tələbələr arasında pantürkist ədəbiyyatın yayılması, pantürkizm və millətçilik baxımdan tədris planlarının tərtib edilməsi;

3) əksinqilabi əhval-ruhiyyəli tələbələrdən və Bakı şəhəri ali məktəblərinin akademik tərkibindən əksinqilabi millətçi təşkilata yeni üzvlərin cəlb edilməsi;

4) əksinqilabi millətçi təşkilatın təsiri altında ali məktəblərin partiya-ictimai təşkilatların rəhbərlərinin ələ alınması, əksinqilabi millətçi təşkilatın üzvlərinin bu təşkilatın rəhbərliyinə salınması;

5) kənddə işləməyə gedən əksinqilabi millətçi təşkilatın üzvü olan tələbələrin gələcəkdə kənddə təşkilatın özəyini yaratmaq məqsədi ilə tə-limatlandırılması.

Əziz Qubaydullin 1937-ci ilin mayında verdiyi ifadələrində Türkiyə və Almaniya mühacirləri, onlarla apardıqları əksinqilabi işdən danışırsa, həmin ilin iyununda alman kəşfiyyatı ilə əlaqələrindən bəhs edir.

1937-ci il iyunun 16-da Q.C.Qubaydullin Tatarıstanın görkəmli millət xadimi - Soltan Qaliyev, iyulun 4-də və 5-də Əhməd Pepinov, S.M.Əfəndiyev, D.Bünyadzadə, B.Talıblı, T.Şahbazi, P.Qasımov, C.Məmmədzadə, M.Quliyev, H.Cəbiyev və başqaları ilə münasibətindən danışır.

1937-ci il avqustun 7-də müttəhim "ittihadçı" Sultan Məcid Qənizadə və ittihadçılar qrupu – Həmidbəy Şahtaxtinski, Çahanbaxış, Nurməmməd Şahsuvarov, Ağa Axundov, Səməd Acalov, Rəşidbəy Əfəndiyev; 1937-ci il avqustun 16-17-də RSFSR XKŞ-ın sədr müavini Rıskulovun rəhbərlik etdiyi Ümumittifaq pantürkist mərkəz barədə məlumat verir. Risikulov və onun ümumittifaq pankürtist mərkəzi barədə bildirir ki, etiraf edirəm ki, mən bütün bu vaxt ərzində ümumittifaq pantürkist təşkilatı barədə tam ifadə verməmişəm. Mən onun yaradılması anına keçmədən öncə onun yaradılması mərəhlələrini ardıcıl şəkildə şərh etmək istəyirəm. 1925-ci ildə mən Kazan şəhərindən Mərkəzi Asiyaya yola düşdüm, daha sonra Sultan Qaliyev təşkilatının tapşırığı ilə Azərbaycana gəldim, pantürkist təşkilatın üzvü Mənsurov mənə xüsusi tapşırıq vermişdi. Mən yaxın Şərqdə paralel pantürkist təşkilat yaratmalı idim və ilk təşkilatın məhvi baş verdikdə ikinci təşkilat SSRİ ərazisində əksinqilabçı pantürkist fəaliyyəti davam etdirməli idi. Daha əvvəlki dindirmələrimdə dediyim kimi, 1926-cı ildə mən professor Çobanzadə və Yunusov Həzi Hələt ilə birlikdə Bakıda pantürkist mərkəz yaratdım. 1930-cu ilə qədər Sultan Qaliyev təşkilatının tapşırığına əsasən əksinqilabçı pantürkist fəaliyyətlə məşğul oldum. Sultan Qaliyev təşkilatı dağıdıldıqdan sonra, bizim paralel təşkilat bütövlükdə SSRİ ərazisində pantürkist fəaliyyətə rəhbərlik etməyə başladı və Tatarıstanda, Krım və Özbəkistandakı təşkilat üzvləri ilə əlaqə yaratdı. 1934-cü ildə mən Bakıdan Kazan şəhərinə gedərkən ÜK(b)P-nın üzvləri Atnaquklov Saleh və Seyfi Fateh, Raxmattulin İsak əksinqilabi əlaqə yaratdılar.

1934-cü ilin noyabrında adını çəkdiyim şəxslər məni Seyfi Fatehin evinə dəvət etdilər və orada mənimlə birlikdə SSRİ ərazisində pantürkist fəaliyyətin təşkili ilə bağlı söhbət etdilər. Atnaqulov Saleh mənə dedi ki, həbsdən qorunan Riskulov türk-tatar respublikalarında və əyalətlərində əksinqilabi milli hərəkata rəhbərlik edir. Atnaqulovun sözlərinə görə, ümumittifaq pantürkist təşkilatı SSRİ ərazisində bütün siyasi müxalifətlə, əsasən də trostkiçilər və milli kommunistlərlə sıx əlaqəli şəkildə fəaliyyət göstərir. Atnaqulov Saleh Rıskulovun tapşırığına əsasən mənə və Çobanzadə Bəkirə və Yunusov Həzi Hələtə pantürkist təşkilata daxil olmağı təklif etdilər və mən qəbul etdim... Biz belə bir ümumi qərara gəldik ki, bizim yaratdığımız pantürkist təşkilat üzərinə qoyulmuş vəzifələri tam yerinə yetirmişdir və gizli şəkildə fəaliyyət göstərən ümumittifaq təşkilatı yaradıldıqdan sonra bizim təşkilata gərək qalmadı. Buna görə də 1934-cü ildə paralel təşkilat bağlandı.

Ümumittifaq pantürkist təşkilatın tərkibinə Azərbaycandan Sultan Məcid Əfəndiyev, Bunyadzadə Dadaş, Ruhulla Axundov; Qazaxıstandan İsfəndiyarov Səncar; Şimali Qafqazdan Əliyev Ömər (böyük), Taxo Qodi; Krımdan Şuqu Əmir Asan, Çobanzadə Bəkir; Tatarıstandan Ataqulov Saleh, Seyfi Fateh, Raxmattulin İsak, mən - Qubaydullin; Mərkəzi Asiyadan Rəhimbayev, Yunisov Həzi Halət və mərkəzin rəhbəri Riskulov daxil idi.

Qubaydullin 1937-ci il avqustun 27-28-də "Bakıda çalışan rus professor heyətinin və elmi işçilərin əksinqilabi təşkilatları" və onun üzvlərinin fəaliyyət istiqamətləri; 1937-ci ilin avqustun 29-da Azərbaycan SSR-in keçmiş xalq maarif komissarı Müseyib Şahbazovla bağlı və s. ifadələr verir və onların əksinqilabi fəaliyyətlərindən danışır.

Əziz Qubaydullinin 7 sentyabr 1937-ci il dindirməsi onun əksinqilabi fəaliyyətinin bütün tərəflərini özündə əks etdirdiyindən ondan işgəncələr yolu ilə alınmış son ifadəsini kiçik ixtisarlarla oxuculara təqdim edirik. O, deyirdi: Etiraf edirəm ki, mən 1910-cu ildən etibarən pantürkistəm və bolşevik Rusiyasında Sovet hakimiyyətinin qurulması anından həbs edildiyim günədək Sovet hakimiyyətinə qarşı fəal mübarizə mövqeyində olmuş, vahid pantürkist dövlətinin yaradılması üçün türklərin və tatarların yaşadığı milli respublikaları silah gücünə SSRİ-dən qoparılmasını qarşıma məqsəd qoymuşam. Bu məqsədlə:

1. 1917-ci ilin noyabrında mən Ufa şəhərində müsəlman milli şurasının rəyasət heyətinin və tatar ərazi muxtariyyətinin yaradılmasına hazırlıq üzrə komissiyanın tərkibinə daxil oldum;

2. 1919-cu ilin əvvəlində mən pantürkizmin ideoloqlarından mühacirətdə olan Yusuf Akçurinlə əksinqilabi əlaqəyə girdim və ondan RSFSR ərazisində vahid pantürkist dövlətinin qurulması məqsədilə Tatarıstan və digər türk-tatar milli respublikaları və vilayətlərində əksinqilabi pantürkist fəaliyyətinə başlamaq haqqında tapşırıq aldım;

3. 1919-1920-ci illərdə pantürkizmi ziyalı təbəqəsinə aşılamaq üçün Tatarıstanda Sultanov, Qayas Maqsudov və başqalarının şəxsində "sağçı komunistlər"lə bloka daxil oldum, onların fəaliyyətini Tatarıstan MSSR-də millətçiliyin inkişafı və pantürkizmin təbliği istiqamətinə yönəltdim;

4. 1921-1923-cü illərdə Qazan şəhərində mənim fəal iştirakımla bir-birinin ardınca pərdələnmiş əksinqilabi millətçi mərkəzləri yaradıldı:

1) "Tatarıstan MSSR XKS yanında Elmi kollegiya".

2) "Şərq akademiyası".

3) "Akademik mərkəz".

5. 1923-cü ildə mən, qohumum – SSRİ-də Türkiyənin xeyrinə casusluq edən Moskva şəhərindəki Türkiyə səfirliyinin əməkdaşı Əbdülrəhman Şəfiyevin vasitəsilə Qayas İsxakov və başqalarının şəxsində tatar mühacir dairələri ilə əlaqəyə girərək onların tapşırığı ilə Sultan Qaliyevin qeyri-leqal əksinqilabi təşkilatına üzv oldum və əksinqilabi fəaliyyətimi gücləndirməyə başladım;

6. 1925-ci ildə Mansurov, Qayas Maqsudov və başqalarının şəxsində Sultan Qaliyevin əksinqilabi millətçi mərkəzinin direktivi əsasında mən Özbəkistan və Azərbaycanda olan əksinqilabçı millətçilərlə əlaqənın qurulması və onlarla birlikdə Səmərqənddə, yaxud Bakıda Sultan Qaliyevin ümumittifaq əksinqilabi təşkilatının ləğv edildiyi təqdirdə onu əvəz edəcək ehtiyat paralel mərkəzin yaradılması məqsədi ilə Səmərqənd və Bakı şəhərlərinə yollandım;

7. 1926-cı ildə mən - Qubaydullin, Bəkir Çobanzadə (Krım) və Qazi Qələm Yunusov (Özbəkistan) Tatarıstan, Başqırdıstan, Özbəkistan, Tacikistan, Azərbaycan və Krımın əksinqilabçı millətçiləri və pantürkistlərini birləşdirərək silahlı qiyam yolu ilə vahid pantürkist dövlətini qurmaq məqsədi ilə Bakı şəhərində pantürkist mərkəzi yaratdıq;

8. 1926-1933-cü illərdə paralel fəaliyyət göstərən ehtiyat pantürkist mərkəzi tərəfindən aşağıdakı istiqamətlərdə böyük təşkilati işlər aparılmağa başladı:

a) Şəhərlərdə əksinqilabi pantürksit təşkilatına yeni üzvlərin cəlb edilməsi.

b) Kəndlərdə üsyançı özəklərinin (Azərbaycan, Krım, Özbəkistan, Tatarıstan) yaradılması.

c) Türk-tatar respublikalarında "Müsavat", "İttihad", "Milli-firqə", Sultan Qaliyevin tərəfdarları, milli təmayülçü və digər antisovet əksinqilabi təşkilatlarla əksinqilabi əlaqənin yaradılması.

9. 1929-cu ildə mən pantürkist təşkilatının Moskva filialının üzvü olan türk-alman casusu Əbdülrəhman Şəfiyevin vasitəsilə mühacirətdən (Qayas Isxakov, Sədri Maqsudov, Yusuf Akçurin) türk-tatar xalqları arasında üsyançı dəstələrinin hazırlanmasını sürətləndirmək, eləcə də SSRİ ilə kapitalist ölkələri arasında ehtimal olunan müharibə dövründə müdafiə təyinatlı obyektlərin dağıdılması məqsədilə təxribatçı özəklərinin təşkilinə başlamaq haqqında tapşırıq aldım ki, bu məsələdə də daha çox mühacirətdə olan əksinqilabi tatar millətçilərini dəstəkləyən Polşa və Türkiyənin hökumət dairələri maraqlı idilər;

10. 1929-cu ildə mən alman kəşfiyyatından Əbdülrəhman Şəfiyevin vasitəsilə üsyançı dəstələrinin və müdafiə təyinatlı obyektlərdə təxribatçı özəklərinin təşkili ilə bağlı xərclər üçün 83.000 rubl aldım. Bu məbləğdən bizim təşkilatın Qazan filialına 23.000 rubl verdim, qalan pulları isə Krım, Özbəkistan və Azərbaycana xərclədim;

11. Müdafiə təyinatlı, xüsusilə də neft sənayesi obyektlərində təxribatçı qruplarının təşkili ilə bağlı alman kəşfiyyatının tapşırığını mən qismən təşkilatımızın üzvü olan Alim Sagitovun vasitəsilə yerinə yetirmişəm, hansı ki, 1935-ci ilin sonlarına doğru Stalinski (Bibi-Heybət) və Leninski (Sabunçu) neft rayonlarında tərkibi 8 nəfərdən ibarət təxribatçı özbəklər yaratmışdır;

12. Əbdülrəhman Şəfiyev SSRİ-ni tərk etdikdən sonra mən onun tapşırığı ilə kəşfiyyat və mühacirət xətti ilə alman kəşfiyyatı ilə bərabər yapon kəşfiyyatı ilə bağlılığı olan pantürkist təşkilatımızın (Moskva filialı) üzvü Əbdül Həmid Kazakovla əlaqə yaratdım. Beləliklə, 1930-cu ildə mən həm də, yapon kəşfiyyatı ilə əlaqə qurmuş oldum;

13. Türk, alman və yapon kəşfiyyatları ilə əlaqədə olduğum müddətdə onları Əbdülrəhman Şəfiyev və Əbdül Həmid Kazakovun vasitəsilə aşağıdakı məlumatlarla təmin etmişəm:

- Pantürkist təşkilatımızın praktiki əksinqilabi fəaliyyəti barədə.
- Azərbaycan, Özbəkistan, Tatarıstan və Krımda üsyançı dəstələrinin hazırlığı barədə.
- Qızıl Ordunun, xüsusilə də onun Azərbaycan, Özbəkistan, Tatarıstan və Krımdakı milli birliklərinin hazırlığı və mənəvi vəziyyəti barədə.

- Müdafiə sənayesinin, xüsusilə də onun Azneftkombinatın xətti ilə müharibəyə hazırlığı barədə.

- Kənd təsərrüfatının inkişafı və ərzaq təminatı məsələlərinin vəziyyəti barədə.

- Kəşfiyyat orqanlarını maraqlandıran bir sıra şəxslər barədə.

14. 1931-1933-cü illərdə mənim əksinqilabi fəaliyyətim Şimali Qafqazda (Mahaçqala, Nalçik, Pyatiqorsk), Krımda və Tatarıstanda təlimatlandırıcı səfərlərdə keçirdi;

15. 1934-cü ildə Qazan şəhərinə növbəti səfərim zamanı mən "sağçı kommunistlər" – Salah Atnaqulov, Seyfi Fatix və Isxak Raxmatullinlə əksinqilabi əlaqəyə girdim və həmin vaxt onlar mənə Sultan-Qaliyev tərəfdarlarının qalıqlarının "sağçı kommunistlər"lə blok yaradaraq öz əksinqilabi fəaliyyətlərini bərpa etməsi, eləcə də Sultan-Qaliyevin gizli tərəfdarlarından olan RSFSR XKS-nin sədr müavini Riskulovun rəhbərliyi altında ümumittifaq pantürkist mərkəzinin yaradılması haqqında məlumat verdilər;

16. 1934-cü ilin noyabrında Qazan şəhərində Seyfi Fatixa məxsus mənzildə Atnaqulov, Seyfi Fatix və Raxmatullinlə keçirdiyimiz müşavirədə həmin şəxslər ümumittifaq pantürkist mərkəzinin rəhbəri Riskulovun adından mənə paralel fəaliyyət göstərən pantürkist mərkəzinin üzvləri Bəkir Çobanzadə və Qazi Qələm Yunusovla birlikdə ümumittifaq pantürkist mərkəzinin tərkibinə qatılmağı təklif etdilər, mən də buna razı olduğumu bildirdim;

17. Paralel fəaliyyət göstərən pantürkist mərkəzi ləğv edildikdən sonra, 1934-1937-ci illərdə mən – Qubaydullin, Bəkir Çobanzadə və Qazi Qələm Yunusov ümumittifaq pantürkist mərkəzinin üzvləri kimi əksinqilabi işi sırf həmin mərkəzin direktivləri əsasında davam etdirirdik;

18. Həmin dövrdə (1934-1936-cı illər) ümumittifaq pantürkist mərkəzinin direktivləri əsasən aşağıdakılardan ibarət idi:

a) SSRİ ilə Almaniya-Yaponiya arasında 1936-cı ildə başlanması gözlənilən müharibə ilə əlaqədar türk-tatar milli vilayətlərində və respublikalarında üsyançı kadrların formalaşdırılması üzrə işlərin sürətləndirilməsi.

b) Müdafiə təyinatlı obyektlərin məhv edilməsi və arxa cəbhədə normal həyat ahənginin pozulması məqsədilə təxribat qruplarının hazırlanması.

c) ÜK(b)P-nin rəhbər işçiləri və Sovet hökumətinə qarşı terror aktlarının törədilməsi məqsədilə terrorçu qruplarının yaradılması.

d) Üsyançı və təxribat-terror qruplarının tərkibində tapşırıqların yerinə yetirilməsində istifadə olunacaq yerli millətçi dəstələrlə sıx əlaqənin qurulması.

19. 1936-cı ildə mən ümumittifaq pantürkist mərkəzinin tapşırığına əsasən həmin mərkəzin üzvü və eyni zamanda Azərbaycan əksinqilabi millətçi təşkilatının rəhbəri olan Ruhulla Axundovla əlaqə yaratmış və sonrakı praktiki əksinqilabi fəaliyyətimi o həbs edilənədək onunla sıx əlaqədə həyata keçirmişəm;

20. 1936-cı ilin noyabrında alman-yapon casusu Əbdül Həmid Kazakovun təklifi ilə (o, mənə bu tapşırığı 1935-ci ildə Moskva şəhərində həbsindən öncə vermişdir) mən Bakı şəhərində alman-yapon kəşfiyyatçısı Xasyan (Xasan) Ləyişovla əlaqə yaratdım, lakin onunla praktiki kəşfiyyat işini yerinə yetirə bilmədim, belə ki, əvvəlcə LƏYİŞOV Moskva şəhərinə ezam olundu, sonra isə mən həbs edildim;

21. Alman kəşfiyyatının siyahılarından mən "Cəfər Əziz" təxəllüsü ilə keçirdim.

Dindirilmə haqqında protokol mənim sözlərimdən düzgün tərtib olunub. İmza. Qubaydullin.

Bu **ETİRAFNAMƏDƏN** sonra, elə həmin gün - sentyabrın 7-də Ə.S.Qubaydullinə istintaqın başa çatdığı elan edilir.

16 sentyabr 1937-ci ildə Sumbatov-Toprudze Əziz Qubaydullinin əksinqilabi fəaliyyətini əks etdirən ittihamnaməni təsdiq edir. İttihamnamədə göstərilir ki, 1937-ci ilin əvvəlində Az.SSR XDİK tərəfindən silahlı üsyan hazırlamaqla, eləcə də ziyanvericilik, təxribat, casusluq, ÜK(b)P və Sovet hökumətinə qarşı terror törətməklə milli respublikaların SSRİ-dən ayrılmasını qarşısına məqsəd qoyan əksinqilabi pantürkist təşkilatı aşkarlanaraq ləğv edilmişdir.

Azərbaycandakı həmin pantürkist təşkilat özünün əks inqilabi fəaliyyətini ümumittifaq pantürkist mərkəzi və öz növbəsində sağçıların əks inqilabi təşkilatı, digər respublikaların əksinqilabi millətçi təşkilatları, habelə kapitalist ölkələrinin kəşfiyyat orqanları ilə əlaqədə həyata keçirməyə cəhd etmişdir.

İş üzrə aparılan istintaq zamanı müəyyən edilmişdir ki, təqsirləndirilən Əziz Saleh oğlu Qubaydullin SSRİ ərazisində pantürkizmin ideoloqlarından biri və ümumittifaq pantürkist mərkəzinin üzvü kimi bolşevik Rusiyasında Sovet hakimiyyəti qurulandan həbs edildiyi günədək Sovet hakimiyyətinə qarşı mübarizə mövqeyini tutmuşdur. O, ifadələrində də etiraf etmişdir ki, 1910-cu ildən etibarən pantürkistəm və bolşevik Rusiyasında Sovet hakimiyyətinin qurulması

anından həbs edildiyim günədək Sovet hakimiyyətinə qarşı fəal mübarizə mövqeyində olmuş, türk-tatar xalqlarını silah gücünə SSRİ-dən qoparılmasını qarşıma məqsəd qoymuşam"[404].

Oktyabr inqilabından sonra, 1917-1925-ci illər arasındakı dövrdə Qubaydullin müsəlman milli şurasının rəyasət heyətinin tərkibində yer alır və tatar ərazi muxtariyyətinin yaradılmasına hazırlıq üzrə tatar-başqırd milli komissiyasının işində iştirak edir. Sonradan mühacirətdə olan pantürkist dairələrinin tapşırığı ilə "sağçı komunistlər"lə Sultan Qaliyevin əksinqilabi təşkilatının üzvləri ilə blok təşkil edir, daha sonra isə həmin təşkilatın üzvləri sırasına qatılır. O, öz ifadəsində bildirirdi ki, "1917-ci ilin noyabrında mən Ufa şəhərində müsəlman milli şurasının rəyasət heyətinin və Tatar ərazi muxtariyyətinin yaradılmasına hazırlıq üzrə tatar-başqırd milli komissiyasının tərkibinə daxil olmuşam. ...1919-cu ilin əvvəlində mən pantürkizmin ideoloqlarından mühacirətdə olan Yusuf Akçurinlə əks inqilabi əlaqəyə girmiş və ondan RSFSR ərazisində vahid pantürkist dövlətinin qurulması məqsədilə Tatarıstan və digər türk-tatar respublikalarında əksinqilabi pantürkist fəaliyyətinə başlamaq haqqında tapşırıq almışam. 1919-1920-ci illərdə pantürkizmin ziyalı təbəqəsinə aşılamaq üçün Tatarıstanda... "sağçı komunistlər"lə bloka daxil olmuşam... 1923-cü ildən Sultan Qaliyevin qeyri-leqal təşkilatına üzv qəbul edilərək əks inqilabi fəaliyyətimi gücləndirmişəm" (təqsirləndirilən Ə.Qubaydullinin ifadəsindən, v. 394, 395).

Ə.S.Qubaydullin 1926-1933-cü illərdə, xüsusən də Sultan Qaliyevin əks inqilabi təşkilatı darmadağın edildikdən sonra paralel fəaliyyət göstərən ehtiyat pantürksit mərkəzi Ə.S.Qubaydullin, Bəkir Çobanzadə və digərlərinin rəhbərliyi altında türk-tatar milli respublikalarında (Tatarıstan, Krım, Özbəkistan, Azərbaycan və s.) böyük təşkilati işlər aparmağa başladı ki, bu işlər sırasında SSRİ-yə qarşı silahlı üsyanın təşkili məqsədilə üsyançı dəstələrinin yaradılmasına xüsusi önəm verilirdi.

1934-cü ildə Ə.S.Qubaydullin Kazan şəhərinə gələrək "sağçı komunistlər" - S.Atnaqulov, Raxmatullin və digərləri ilə əksinqilabi əlaqəyə girmişdir. Həmin şəxslər Qubaydullinə RSFSR XKS-nin sədr müavini Riskulovun rəhbərliyi altında ümumittifaq pantürkist mərkəzinin yaradıldığını bildirərək sonuncunun adından ona, habelə Bəkir Çobanzadəyə və Q.Q.Yunusova həmin mərkəzin üzvlüyünə daxil omağı təklif etmiş, həmin təklifə Qubaydullinin cavabı müsbət olmuşdur.

[404] DTX-nin arxivi. Əziz Qubaydullinin istintaq qovluğu, PR - № 25993.

“1934-cü ildə mən “sağçı komunistlər” - Atnaqulov ilə əksinqilabi əlaqəyə girmişəm. Həmin vaxt onlar mənə Riskulovun rəhbərliyi altında ümumittifaq pantürkist mərkəzinin yaradıldığı haqqında məlumat vermişdilər. Həmin bir qrup şəxs Riskulovun adından Çobanzadə və Yunusovla yanaşı, mənə də ümumittifaq pantürkist mərkəzinin tərkibinə qatılmağı təklif etmiş, buna cavab olaraq mən öz razılığımı bildirmişəm”.

İstintaq müəyyənləşdirmişdir ki, 1935-1937-ci illərdə Ə.S.Qubaydullin özünün pantürkist fəaliyyətini əsasən ümumittifaq pantürkist mərkəzinin tapşırıqlarına uyğun surətdə, Azərbaycan millətçi təşkilatının rəhbəri və eyni zamanda ümumittifaq pantürkist mərkəzinin üzvü olan Ruhulla Axundovla sıx əlaqədə həyata keçirmişdir.

“1934-1937-ci illərdə mən - Qubaydullin və başqaları ümumittifaq pantürkist mərkəzinin üzvləri kimi həmin mərkəzin direktivləri əsasında aşağıdakı istiqamətlərdə əksinqilabi iş aparırdıq:

1) SSRİ ilə Almaniya,Yaponiya arasında 1936-cı ildə başlanması gözlənilən müharibə ilə əlaqədar türk-tatar respublikalarında üsyançı kadrların formalaşdırılması üzrə işlərin sürətləndirilməsi;

2) Müdafiə təyinatlı obyektlərin məhv edilməsi və arxa cəbhədə normal həyat ahənginin pozulması məqsədilə təxribat qruplarının hazırlanması;

3) ÜK(b)P-nin rəhbər işçiləri və Sovet hökumətinə qarşı terror aktlarının törədilməsi məqsədilə terrorçu qrupların yaradılması;

4) Yerli millətçi dəstələrlə sıx əlaqənin qurulması.

1936-cı ildə mən ümumittifaq pantürkist mərkəzinin tapşırığına əsasən həmin mərkəzin üzvü və eyni zamanda Azərbaycan əksinqilabi millətçi təşkilatının rəhbəri olan R.Axundovla əlaqə yaratmış və sonrakı əksinqilabi fəaliyyətimi hər ikimiz həbs olunanadək onunla sıx əlaqədə həyata keçirmişəm”. (təqsirləndirilən Qubaydullinin ifadəsindən, v. 398)

İtthamnamə aktında göstərilirdi ki, 1923-1937-ci illər ərzində Ə.S.Qubaydullin xeyrinə casusluq etdiyi mühacir pantürkist dairələri və xarici (türk, alman, yapon) kəşfiyyatlarla fasiləsiz olaraq əlaqə saxlamışdır. Alman kəşfiyyatının tapşırığı ilə Ə.S.Qubaydullin SSRİ ilə kapitalist ölkələri arasında ehtimal olunan müharibədə istifadə etmək məqsədilə 1931-1935-ci illərdə Azneftkombinatın neft mədənlərində təxribat-ziyançı qrupu yaratmış və orada bir neçə ziyançılıq aktı təşkil etmişdir.

İstintaq Qubaydullindən belə bir ifadə də almışdır ki, guya o, türk, alman və yapon kəşfiyyatları ilə əlaqədə olduğu müddətdə həmin dövlətləri aşağıdakı məlumatlarla təmin etmişdi:

1) Üsyançı dəstələrinin hazırlığı barədə;

2) Pantürkist təşkilatının əksinqilabi fəaliyyəti barədə;

3) Qızıl Ordunun hazırlığı və mənəvi vəziyyəti barədə;

4) Müdafiə sənayesinin müharibəyə hazırlığı barədə;

5) Kənd təsərrüfatının inkişafı və ərzaq təminatı məsələləri barədə.

Göstərilənlərə əsasən, Az. XDİK DTİ-nin 4-cü şöbəsinin rəisi, dövlət təhlükəsizliyi kapitani Tsinman qərara alır ki, Ə.S.Qubaydullin 1987-ci il təvəllüdlü, tatar, SSRİ vətəndaşı, pantürkist, kapitalistin oğlu, evli, həbsdən əvvəl Azərbaycan Dövlət Universitetinin professoru Az. SSR CM-nin 73, 21/64, 68, 69-cu maddələrində nəzərdə tutulan cinayətlərin törədilməsində ittiham edilir:

1. Milli respublikaların silah yolu SSRİ-dən qoparılmasını və vahid türk-tatar dövlətinin yaradılmasını qarşısına məqsəd qoyan ümumittifaq pantürkist təşkilatı mərkəzinin üzvü olmaqda;

2. Bilavasitə Tatarıstan, Özbəkistan, Krım və Azərbaycanda fəal pantürkist təşkilati və cəlbetmə fəaliyyətini həyata keçirməkdə;

3. Təxribat-ziyançı qrupu yaratmaqda və Azneftkombinatın neft mədənlərində bir sıra ziyançılıq aktlarını təşkil etməkdə;

4. Türk, alman və yapon kəşfiyyatlarının casusu kimi fəal casusluq fəaliyyəti ilə məşğul olmaqda.

Müttəhim təqsirli olduğunu tam etiraf edib.

Təqsirləndirilən şəxslər - Bəkir Çobanzadənin, N.Xalfinin, İsmayil Novruzinin, A.Saqitovun, Altinbayevin ifadələrində və Bəkir Çobanzadə ilə üzləşdirmədə ifşa edilib.

Bu istintaq-məhbus işi 1 dekabr 1934-cü il tarixli qanuna müvafiq olaraq SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilməlidir[405].

Belə bir "əsaslandırılmış" ittihamnamənin Sumbatov-Topuridze tərəfindən təsdiqindən sonra 1937-ci il oktyabrın 11-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Səyyar Sessiyasının (Matulevic, Zaryanov, Jiqur) hazırlıq iclasının protokolu tərtib edilmiş və müəyyən olunmuşdur:

1) ittiham qərarı razılaşdırılsın və işə 1 dekabr 1934-cü il qərarına müvafiq qaydada SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasında baxılsın.

2. Qasiz Salihoviç Qubaydullinin işi Azərbaycan SSR CM-nin 73, 64, 63-1, 69 və 70-ci maddələri üzrə məhkəməyə verilsin:

3. İşə bağlı məhkəmə iclasında müdafiəçisiz, ittihamçısız və şahidlərsiz baxılsın.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Səyyar sessiyasının bağlı məhkəmə iclası oldu. Cəmi 20 dəqiqə çəkən iclasda "Müttəhim Ə.C.Qubaydullin özünün günahkar olduğunu bir daha etiraf etdi. İlkin istintaqda verdiyi ifadələri tam təsdiqlədi və məhkəmə istintaqına heç bir əlavəsi olmayacağını bildirdi".

Hökm oxundu: Qasiz Salihoviç Qubaydullinin şəxsi əşyaları müsadirə edilməklə, ən ağır cəzaya – güllələnməyə məhkum olunsun. Hökm qətidir, şikayət qəbul edilmir və 1 dekabr 1934-cü il SSRİ MİK-in qərarına müvafiq hökm dərhal yerinə yetirilməlidir.

Güllələnmə ilə bağlı arayışda göstərilir ki, hökm 1937-ci il oktyabrın 13-də icra edilmişdir.

[405] DTX-nin arxivi. Əziz Qubaydullinin istintaq qovluğu, PR - № 25993.

Onu da qeyd etməliyik ki, Qubaydullinin həyat yoldaşı 1893-cü ildə Həştərxan şəhərində anadan olmuş, Bakı şəhəri, Kommunist küçəsi, ev 6, mənzil 2 ünvanında yaşayan Qubaydullina Rəbiqə Şakir qızı vətən xaininin həyat yoldaşı kimi SSRİ MİK-in 04 iyul 1934-cü il tarixli qərarına əsasən, SSRİ XDİK Xüsusi Müşavirəsinin 28 dekabr 1937-ci il tarixli qərarı ilə cəzasını islah əmək düşərgəsində çəkməklə Azərbaycan SSR CM-in 72, 73-cü maddələri ilə təqsirli bilinərək 15 oktyabr 1937-ci il tarixdə, yəni ərinin ölümündən 2 gün sonra **5 il müddətinə** azadlıqdan məhrum edilmişdir[406]. Azərbaycan SSR Prokurorluğunun 19 fevral 1990-cı il Qubaydullina Rəbiqə Şakir qızına bəraət verilmişdir[407].

1955 ci il iyulun 16-da Q.C.Qubaydullinin həyat yoldaşı Rəbiqə Şakir qızı SSRİ Ali Soveti Rəyasət heyətinin sədri Voroşilova ərinin işinə yenidən baxılması məqsədilə ərizə yazır. Həmin ərizədə oxuyuruq.

SSRİ Ali Sovetinin rəyasət heyətinin
sədri yoldaş K.E.Voroşilova
1890-cı il təvəllüdlü, Tatar MSSR-i,
Kazan şəhəri, Nərimanov küç., ev 98,
mənzil 4 ünvanında yaşayan
Qubaydullina Rəbiqə Şakirovna tərəfindən

ƏRİZƏ



Mənim həyat yoldaşım S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin professoru Qubaydullin Qazis Salixoviç 18 mart 1937-ci il tarixdə NKVD orqanları tərəfindən həbs edilmişdir.

Mən onun həbs olunmasının səbəblərini müəyyənləşdirmək məqsədilə müstəntiqlə görüşmək üçün icazə istədim. 8 iyun 1937-ci il tarixdə müstəntiq yoldaş Zıkov tərəfindən qəbul olundum və ərimin nədə suçlandırıldığı barədə maraqlanan zaman mənə bildirdi ki, o, əksinqilabçı fəaliyyətində günahlandırılır.

Onunla 23 il birgə həyat sürmüş insan kimi mən buna heç cür inana bilmədim, indi də bu yaşlı vaxtımda inana bilmirəm və hesab edirəm ki, onu saxta ifadələr verməyə məcbur etmişlər.

Həbsdən bir müddət keçdikdən sonra "Bakı fəhləsi" və "Kommunist" qazetlərindən Azərbaycanın Kommunist Partiyasının

[406] DTX-nin arxivi. Qubaydullina Rəbiqə Şakir qızının istintaq qovluğu, PR - № 35682.
[407] DTX-nin arxivi. Qubaydullina Rəbiqə Şakir qızının istintaq qovluğu, PR - № 35682.

Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırovun məqalələri dərc olunmuşdur ki, həmin yazılarda həyat yoldaşım millətçilik fəaliyyətində ittiham olunaraq, "xalq düşməni" kimi qələmə verilmişdir. Bu ittihamların hamısı saxtadır.

Əsassız olmamaq üçün mən çalışacam ki, həyat yoldaşımın fəaliyyətini qısa şəkildə işıqlandıracam və bununla da onun keçdiyi həyat yolu özü-özlüyündə bir çox məsələlərə aydınlıq gətirəcək.

Ə.S.Qubaydullin 1887-ci ildə Kazan şəhərində, sahibkar ailəsində anadan olmuşdur. Valideynləri səkkiz yaşında onu məhəllə məktəbinə-mədrəsəyə göndərmişlər. Tez bir zamanda o, ərəb və fars dillərini mənimsəyərək mədrəsəni bitirmişdir. Mədrəsədə oxuyarkən o, Avropanın inkişaf etmiş xalqlarının ədəbiyyatına, elmi və mədəniyyətinə böyük maraq göstərmiş, atasının etirazına baxmayaraq Kazan Universitetinə daxil olmuş və 1916-cı ildə buranı bitirmişdir. Universitet divarları arasında o, qısa yumoristik hekayələr yazmağa başlayır və bu yazılarında milli burjuaziyaya və ruhanilərə istehza edir.

Eyni zamanda çar rejiminə qarşı gərgin mübarizə aparır və buna görə o, universitetdə təhsil aldığı illər ərzində polis nəzarətinə götürülür və sonda 1916-cı ildə çar hökuməti tərəfindən Troitsk şəhərinə sürgün edilir.

Sürgünlükdə o, çarizmlə mübarizəsini davam edir və "Ol lənət" adlı məqaləsini yazır.

Oktyabr inqilabı onu Kazan şəhərində yaxalamışdır. Bu vaxt burjua yazıçıları F. Toktarov və s. ona xaricə getməyi təklif etmişlər. Hazırlıq işlərinə baxmayaraq o, emmiqrasiyadan qəti şəkildə imtina edir ki, öz həyatını və gələcək fəaliyyətini yalnız xalqa və gənc Sovet Respublikasına fəda etsin. Lakin Qubaydullin inqilabdan əvvəl marksist və yaxud digər siyasi partiyaya mənsub olmamışdır.

O, marksizmi dərində öyrənərək ilk tatar marksist-tarixçisi olur. Buna şahid olan onun 1917-ci ildən sonra işıq üzü görən elmi araşdırmaları və işləridir. Əsərləri bunlardır: "Didərgin tatarların sosial inkişafının mərhələləri", "Tatarların tarixi", "Xəzər xaqanlığının tarixi təcrübəsi", "Azərbaycanda ipəkçiliyin tarixi", "Puqaçev üsyanında tatarların iştirakı", "Volqayanı tatarların tacirlər sinfinin tarixi", "Azərbaycanın XIX əsrdəki feodal sinifləri və türk kəndlisi", "Xanlığın təsərrüfatı", "Azərbaycan bəyləri və onların tabeliyində olan kəndlilər", "Azərbaycan türklərinin sosial tarixi", "Rusiya türklərindən olan ilk şərqşünaslar", "Özbəklərin tarixinə dair mareriallar", "Buxaranın XIX əsrdəki iqtisadi və sosial durumu barədə", "Azərbaycanın qul tarixi barədə" və s. bütün bu işlər Böyük Oktyabr inqilabından sonra yazılmışlar. Cəmi 300-ə yaxın işdir.

1919-21-ci illərdə Qızıl Ordunun Kazandakı müsəlman komandirlərinin kurslarında dərs keçmişdir; 1922-25-ci illərdə Tatar Kommunist

Universitetində müəllim işləmişdir; 1925-26-cı illərdə Azərbaycan Dövlət Universitetinin Şərq tarixi fakültəsinin təşkilində fəal iştirak etmiş və 1927-ci ildə həmin fakültənin dekanı olmuşdur. Şərq tarixi fakültəsi mədəni-maarif, elm müəssisələri üçün dərəcəli mütəxəssilər orta məktəblər üçün isə müəllimlər hazırlamışdır. Azərbaycan Dövlət Universitetinin Şərq tarixi fakültəsi ilk dəfə SSRİ-də türk xalqlarının tarixini marksizm əsaslarında tədris etməyə başlamışdır.

Qubaydullin ölkənin ictimai həyatında da fəal iştirak etmişdir. 1929-cu ildə IV Ümumazərbaycan Sovetlərinin qurultayında həlledici səsə malik olan nümayəndə seçilir. 1931-ci ildə Bakı şəhər sovetinin üzvü seçilir. Şəhər müəssisələrində fəhlələrə mühazirələr oxuyur.

1927-ci ildə o dosent, 1928-ci ildə isə əvvəl Azərbaycan, bir qədər sonra isə Özbəkistan Dövlət Universitetlərinin professoru olur. Son vaxtlara kimi S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində işləmişdir. 1928-ci ildə Şərq tarixi kafedrasına professor seçilən Əziz Qubaydullinin şöhrəti Bakıdan uzaqlara yayılır. Belə ki, 1930-cu ildə o Moskva Dövlət Universitetində də professor seçilir və Qubaydullin oradada mühazirələr oxuyur.

Beləliklə, inqilabdan sonrakı dövrdə Qubaydullin bir tarixçi-şərqşünas kimi tatarların, azərbaycanların, özbəklərin tarixinə dair işlərin yaradılması ilə məşğul olur. Elmi işlərində o, daima panislamizmə, pantürkizmə və millətçiliyin bütün təzahürlərinə qarşı mübarizə apararaq, tarixçi-marksist mövqeyində qalmışdır.

İlk tatar professorun həyat yolu belədir. O, 300-ə yaxın elmi işin müəllifidir.

Qubaydullinin həbs olunması qəzəbləndirici səhvdir. Onun verdiyi ifadələr təzyiq altında olmuşdur.

Buna görə, SSRİ Ali Sovetin Prezidium sədri, mən sizdən xahiş edirəm ki, aidiyyəti orqanlara şəxsi göstəriş verəsiniz ki, həmin işə yenidən baxılsın və ona tam reabilitasiya verilsin.

Mənə məlum deyil hazırda Qubaydullin sağdırmı? Əgər o, sağ deyilsə, məndən və onun övladlarından biabırçı ləkənin götürülməsini və tatar xalqının ilk tarixçi sovet aliminin adının bərpa olunmasını istərdim.

Mən həyat yoldaşımla iki övlad tərbiyə etmişik: Qubaydullin Salman Əbdüləzizoviç 1915-ci il təvəllüdlü və Qubaydullin Mikayıl Əbdüləzizoviç 1923-cü il təvəllüdlü. Onlar vicdanlı sovet vətəndaşları kimi davranmışlar. Hər iki oğlum Böyük Vətən Müharibəsində cəbhədə olmuşlar. Vicdanla Vətən qarşısındakı borclarını yerinə yetirmişlər. Müharibədən sonra kiçik oğlum orta məktəbdə müəllim işləyir, böyük oğlum isə mühəndis- layihələndiricidir. **Qubaydullina 16/VII-1955-ci il.**

Türkdilli xalqarın, eləcə də Azərbaycanın elmi, ictimai fikir tarixində müstəsna xidmətləri olan daha bir alimin də taleyi beləcə yarımçıq qaldı. Təkcə alimin ömrü deyil, həm də onun onlarla əsəri və

türk xalqlarının tarixinə və taleyinə işıq sala biləcək düşüncələri də məhv edildi.

CAVİD TARİXDƏ VƏ TARİX CAVİDDƏ

Bu can çəkişməyə verdim riza ki, bəlkə yarın
Bu zülmü görməyərək, bəxtiyar olur onlar,
Yerim deyildi bu kirli, paslı zindanlar,
Yerim deyildi, fəqət, kəndim ixtiyar etdim.
Hüseyn Cavid

Əziz Şərif yazırdı ki, fevralın 26-da axşam saat 7-də Birinci Türkoloji Qurultay açıldı. Hüseyn Cavidlə yanaşı oturmuşdum. Mirzə Cəlil, Sultan Məcid Qənizadə və başqaları ilə görüşdüm[408]. Deməli, qurultayda iştirak edənlərdən biri də Hüseyn Cavid idi. Cavidi məhbəsə aparan yol həm də qurultaydan keçirdi.

H.Cavidin ömür yoluna nəzər salsaq görərik ki, o, 4 epoxa yaşayıb: Çar Rusiyası dövrü, Azərbaycan Xalq Cümhuriyyəti dövrü, Sovet dövrü və növbəti mərhələ kimi, NKVD-dəki məhbəs həyatı dövrü. Maraqlıdır ki, bu dövrlərin heç biri Cavidi dəyişdirə, ikiləşdirə, bütövlüyünə xələl gətirə bilməmişdi. İstintaq materiallarından da aydın olur ki, o heç kim haqqında «danos» yazmamış, heç kimin üzünə durmamış, heç kimə böhtan atmamışdır. Hətta onun öz üzünə duranlara qarşı da çıxmamış və həmişə Cavid bütövlüyünü, Cavid əxlaqını, Cavid dəyanətini qoruyub saxlamışdır. Onun ilk təxəllüslərindən biri olan (Salik) və son (Cavid) təxəllüsü də ədibin xarakter bütövlüyündən, dəyişməzliyindən xəbər verir. Sanki mütəfəkkir şəxsiyyət bununla da sübut edir ki, Cavidləşməyə (əbədiləşməyə) aparan yol öz başlanğıcını Salikdən (bir yol ilə gedən, yolunu dəyişməyən) alır.

İnkaredilməz faktdır ki, sənətkar bütövlüyü onun yaradıcılığı ilə şəxsiyyətinin vəhdətində özünü tapır. Yəni onun bütövlüyü sözü, ideyaları, yaratdığı sənət nümunələri ilə, şəxsiyyəti, insanlarla ünsiyyəti və sənətkar «mən»i arasında olan birlikdədir. Başqa sözlə desək, Cavid sənətdə və həyatda ikiləşmir, bir tam olaraq qalır. Həyatdakı Cavid sənət-dəkini, sənətdəki Cavid isə həyatdakını tamamlayır. Sənətkar ikiləşəndə xırdalanır, kiçilir və bütövlüyünü itirir. Bu zaman uduzan sənət və şəxsiyyət olursa, mənəvi zərərçəkən xalq və millət olur. Bu vəhdət pozulanda sənətkarla sənət, sənətkarla zaman arasında harmoniya pozulur, əlaqə qırılır. Bu vaxt sənətkarın şəxsiyyətinə ləkə düşür, üzü

[408] Məmmədli Q. Cavid ömrü boyu, həyat və yaradıcılıq salnaməsi, Bakı, 1982, s 180.

əbədiyyətə tuşlanan sənət isə yarı yolda qalır, zədədən və fəsaddan xilas ola bilmədiyi üçün zamanın sınağından çıxa bilmir.

Zəmanənin sərhədlərini dağıdıb yırtan sənət əsəri isə vahid zaman və məkandan çıxaraq zamansızlaşır, əbədiləşir. Bu mənada Cavid sənəti də coğrafi hüdudları aşaraq əbədiyyətə doğru gedən və hər hansı bir zaman tanımayan sənətdir. Zamana və məkana sığmayan sənət və sənətkar insanların fövqünə qalxdığından bir müddət qəbul olunmaya da bilər. Lakin ictimai şüur formalaşdıqca, cəmiyyət demokratikləşdikcə həmin sənət və sənətkar «mən»i, sənətkar bütövlüyü də dərk olunur. Cavidi də uzun müddət dərk olunmağa qoymadılar, hətta ona 20 ilə yaxın bir müddətdə «vətən xaini», «xalq düşməni» yarlığı vurdular. Belə ki, 27 may 1937-ci ildə dövlət təhlükəsizlik idarəsinin leytenantı Klemençiç tərəfindən hazırlanmış arayışda Hüseyn Cavidin həbs olunması zəruri hesab edildi: «Mən, Azərbaycan Xalq Daxili İşlər Komissarlığı idarəsi I şöbəsinin rəisi, leytenant Klemençiç təhqiq olunan 12493 nömrəli işi nəzərdən keçirərək, 1882-ci ildə doğulmuş, azərbaycanlı, Azərbaycan SSR vətəndaşı, bitərəf, şair, teatr texnikumunun müəllimi Hüseyn Cavidin həmin işdə dəqiq ifşa olunmasını nəzərə alaraq, onun gizli millətçi əksinqilabi təşkilatda iştirakı barədə qərar qəbul etdim»[409]. Göründüyü kimi, artıq Cavidi cəllad kötüyü ilə üz-üzə gətirmək üçün xüsusi xidmət orqanlarında əməliyyat tədbirləri hazırlanırdı və onun «nazı ilə oynamağa» vaxt qalmamışdı. Ona görə də 3 iyun 1937-ci ildə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı (XDİK) dövlət təhlükəsizlik komissarı Sumbatovun təsdiqi, birinci bölmənin rəisi, dövlət təhlükəsizlik leytenantı Klemençiçin icrası və Azərbaycan SSR XDİK-in dövlət təhlükəsizlik idarəsinin 4-cü şöbəsinin rəisi, DT kapitanı Sinmanın razılığı ilə Hüseyn Cavidin həbsi barədə 509 saylı order imzalandı. H.Cavid gizli əksinqilabi millətçi təşkilatda iştirakına görə Azərbaycan SSR CM-nin 72 və 73-cü maddələri ilə ittiham edilirdi (qərarın altında H.Cavidin öz dəsti xəttilə, latın əlifbasında bu sözlər yazılmışdı: "Mən bu qərarı eşitdiyimə qol çəkirəm. 07.06.37)"[410].

Bir məsələni xatırladaq ki, 1921-ci ilin dekabr ayının 30-da Darülmüəllimin salonunda şura ziyalılarının ümumi iclası keçirilir və həmin iclasa sədr H.Cavid, katib isə A.Şaiq seçilir. Cavid həmin iclasa sədrlik etməkdən imtina edir. O, bundan imtinanın səbəbini belə izah edirdi: «Komissiyonda ərz etdiyim kimi, mən nə latınçıyam, nə də islahçı...

[409] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.
[410] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

olsa-olsa mən yalnız türk dünyasının haqqı ilə anlayan, alim, mütəxəssis, lisançı və əlifbaçı vətəndaşların gələcəkdəki təcrübələrindən istifadə edən bir müəllim ola bilərəm və şimdilik heç bir komissiyonda iştirak etməm».

Bütün bunlar göstərir ki, Cavid latın əlifbasına keçməyin dildə, iclaslarda deyil, əməldə, daxildə tərəfdarı idi. Buna görə də o, "NKVD" təcridxanasında verdiyi ifadələrə atdığı imzanın altında kirillə deyil, məhz latın əlifbası ilə yazırdı. Doğrudur, həmin illərdə təkcə Cavid deyil, demək olar ki, hamı bu əlifba ilə yazırdı. Lakin istintaq materiallarında belə hallarla təsadüfən rastlaşmaq olur. Müstəntiq qarşısında dayananların demək olar ki, böyük əksəriyyəti rusca ifadə vermiş və ya kirillə yazmışlar. İstintaq materiallardan, xüsusilə də «Haman qərar mənə Azərbaycan dilində məlum edildi», «mən eşitdiklərimə imza atıram» ifadələrindən görünür ki, Cavid dindirmələr zamanı türkcə (Azərbaycanca) ifadə vermişdir. Digər tərəfdən isə Cavidin imzaladığı sənədlərin altında yazdığı sözlər istintaqın necə aparılmasının da (müstəntiqlərin iş prinsiplərinin) üzərinə işıq salır. Buradan görünür ki, dindirmələr və üzləşmələr zamanı müttəhimlərə öz ifadələrini oxuyub imzalamağa icazə vermirdilər.

1937-ci ilin qasırğa və tufanlarına məruz qalmış bir adamın təcrid-xanada latın əlifbası və osmanlı şivəsi ilə yazması böyük cəsarət tələb edirdi. Bəzi istintaq materialları ilə tanışlıq göstərir ki, istintaqa cəlb edilənlərin bir çoxu xilas olmaq naminə müxtəlif bəhanələr gətirmiş, ayrı-ayrı şəxsiyyətlərin adlarını çəkmək məcburiyyəti qarşısında qalmışlar (O, dövrün, zamanın diqtəsi idi və buna görə kimi isə ittiham etmək düzgün deyil). Böyük iradə və dözüm sahibi olan Cavid isə heç kəsin adını çəkmədən bütün əzab və işgəncələrə dözmüşdür.

Cavidin ömür yoldaşı Mişkinaz xanım Cavidin və Cavidlər ailəsinin iyunun 3-də və 4-də keçirdiyi hiss və həyəcanları belə xatırlayır: «3 iyun. Həmişəki kimi şad və gülər üzlə Cavid saat 10-da «salamat qal» deyib evdən çıxdı. Mən də həmişəki kimi onu pilləkənin yanına qədər yola saldım. Qayıdıb öz işimlə məşğul oldum. Uşaqların biri məktəbdən, biri institututdan qayıtdı. Cavidi gözləyirdik ki, gəlsin bir yerdə nahar edək. Nədənsə bu gün çox gec gəldi. Uşaqların xörəyini verib özüm Cavidi gözlədim. Axşam saat 6-da gəldi. Qapıdan girən kimi dedi: «Nə istəsən alacam. Ancaq birinci mən deyəni alacam»[411].

[411] Mişkinaz Cavid. Cavidi xatırlarkən, Bakı, 1976.

Onun qulağa yapışan brilyant sırğadan xoşu gəlirdi. Çoxdan istəyirdi ki, mənə bir cüt belə sırğa alsın.

Mən əlimi qaldırıb uşaqları göstərdim: «Mənim pudlarla brilyantlarım var. Ona ehtiyacım yoxdur». Sonra da əlavə elədim ki, xeyir ola bu sərvət əcəb?

Dedi: "Bu saat kinostudiyadan gəlirəm. Bu gün «Koroğlu» ssenarisinin müqaviləsini bağladıq. Ayın beşində 5 min alacam. Qalanını da film çəkilib qurtardıqdan sonra».

Qara günün yelimi dəymişdi, ya nə idisə çox narahat idim. Adama bir bədbəxtlik üz verəndə elə bil əvvəlcədən duyur.

Saat 8-də Cavid yuxudan durdu, üzünü yudu, çay içdi. Dedi: «Hə, indi işləmək lazımdır».

Üzümə baxdı: "Deyəsən kefin yoxdu?"

- Heç bilmirəm. Elə darıxıram ki, bilmirəm nədəndi.

- Darıxma, bu gün işim çoxdur. Sabah gedərik gəzməyə. Amma istəyirsən elə indi çıxaq bir saat hava alaq, sonra gəlib işləyərəm.

- Yox, yorularsan sonra işləyə bilməzsən.

- Əslində elə özümündə bu gün işləməyə sən deyən həvəsim yoxdur. Ancaq bəzi kağızlar var ki, gərək yazıb sabah təhvil verəm.

... Cavid işləyirdi, uşaqlar yatmışdılar. Mən həmişəkindən tez - saat 11-də keçdim yataq otağına. Bir qədərdən sonra qapını açıb dedi: «Yatmısan?»

- Yox, nə lazımdı?

- Heç elə bildim yatağına girməmisən. Qəhvə istəyirdim. Mən qalxdım ki, geyinim. Qoymadı:

- Özüm bişirərəm. Sən yat.

Çox vaxt qəhvə qabını qoyardım bufetin üstünə, gecələr işləyəndə özü bişirərdi.

... Yuxuda gördüm böyük bir ilan mənə tərəf gəlir. Çığırıb yuxudan ayıldım. Yarıyuxulu, qorxmuş halda özümə gələndə evdə qarışıq səslər eşitdim. Heç bir şey ayırd edə bilmədim. Elə bu vaxt Cavid qapını açıb ömrümdə eşitmədiyim narahat bir səslə: «Qalx geyin», -dedi.

Qapının arasından baxıb tanımadığım adamları gördüm. Aman allah bunlar kimdi?

O vəziyyəti demək çox çətindir. Əllərim əsirdi, geyinə bilmirdim. Saniyələr bir il qədər uzun idi. Birtəhər geyinib çıxdım. Cavid qapının yanında ayaq üstə durmuşdu. Rəngi ağappaqdı. Onu elə görəndə başım hərləndi. Mən onun hər dəqiqəsinin rahat olmasına fikir verərdim. Bu qara bulud haradan gəldi? Qolumdan tutmasaydı yıxılardım. Qolumu

bərk sıxdı: «Otur, sakit ol». Qolumu sıxmaqla demək istəyirdiki, bu başlanğıcdı.

Qapını açıb bu biri otağa keçən də birinci bufetin üstünə baxdım ki, görüm qəhvə qabı ordadımı, Cavid qəhvə bişiribmi? Qəhvəqabı orda yox idi. Buda mənə bir niskil oldu. İçərimdə özümü danladım ki, niyə sözünə baxdım? Niyə özüm durub qəhvə bişirmədim.

O vaxtdan indiyədək bir dəfə də olsa qəhvə içməmişəm. Baxmayaraq ki, özüm qəhvə xoşlayanam.

Gələnlər 3 nəfəridilər. Bir nəfər də qonşudan çağırdılar. Gecə birin yarsından səhər yeddinin yarsınacan evi ələk-vələk etdilər. Baxılmayan yer qızımın yataq otağı oldu. Kiçik olduğu üçünmü, ya nəsə onu oyatmadılar. Amma onlardan biri hey deyinirdi ki, niyə ora baxılmadı?

Cavid o gecə bir qutu yarım papiros çəkdi. Kibritini yandıranda onlardan da biri cibindən papiros çıxardı. Cavid öz papirosunu yandırıb, ev sahibi kimi odu qonağa sarı tutdu. Oyandırmadı. Cavid çöpü söndürüb udqundu. Nələr dedi o udqunmaqla! Qəmli-qəmli üzümə baxdı. Qaşlarını qaldırıb ah çəkdi.



O gün dən bəri bir-birinin papirosunu yandıran adamları görəndə Cavidimin əsəbi üzü, dərdlərimin başlanğıcı yadıma düşür"[412].

Çox təəssüf ki, Mişkinaz xanımın yuxu da gördüyü ilan çin çıxdı. İlanın ağına da lənət, qarasına da.

İyun ayının 4-dəXDİK-in 509 N-liaxtarışaparma orderinə əsasən (bu orderdə 3 iyun 1937-ci ildə imzalanmışdı - C.Q) Bakı şəhəri, Kommunist küçəsi ev 8-də yaşayan H.Cavidin mənzilində axtarış apardılar. (27 sentyabr 1937-ci ildə Bakı Soveti evləri dairəsinin rəisi Jurbanın 11/03 N-li sərəncamına əsasən H.Cavidin ailəsi -36 yaşlı həyat yoldaşı Mişkinaz xanım, 16 yaşlı oğlu Ərtoğrul və 13 yaşlı qızı Turan Sovetski küçəsi, 92 nömrəli evə, bir otaqlı mənzilə köçürülür). Axtarış zamanı XİDİK əməkdaşları tərəfindən Cavidə məxsus olan 549349 N-li pasport, 23 ədəd müxtəlif fotoşəkil, 115 ədəd türk, ərəb, fars və başqa dillərdə yazılmış müxtəlif kitablar - bir zənbil H.Cavidə məxsus əl yazmalar 1 səbət, 15 rubl məbləğində gümüş sovet pulu və bir çox başqa əşyalar götürülmüşdür. (Cavidə məxsus istintaq qovluğunda olan materiallardan aydın olur ki, sonradan - 14 mart 1939-cu ildə 15 rubl istintaq üçün

[412] Mişkinaz Cavid. Cavidi xatırlarkən, Bakı, 1976.

əhəmiyyət kəsb etmədiyindən şairin həyat yoldaşı Mişkinaz xanıma qaytarılmışdır)[413].

Yeri gəlmişkən qeyd etməliyik ki, ən böyük qanun pozuntularından biri də axtarışlar və müsadirələr zamanı baş verirdi. Belə ki, adətən, müsadirə edilən qiymətli əşyalar xüsusi xidmət orqanlarının əməkdaşları və axtarışı aparan şəxslər tərəfindən götürülür, qeydiyyata alınmır, əhali incidilir, təhqirlərə və fiziki təqiblərə məruz qalırdı.

Axtarışlarla bağlı təlimatın olmasına baxmayaraq, bu kimi qanun pozuntularına tez-tez təsadüf edilirdi. Həmin təlimata əsas axtarış aparmaq üçün təhlükəsizlik orqanları tərəfindən xüsusi orderlər verilir, evlər idarəsinin müdiri və onun nümayəndəsinin, eyni zamanda qonşulardan kiminsə iştirakı ilə mənzillərdə, ambarlarda, damlarda və s. axtarış aparılırdı. Evlər idarəsinin müdiri, yaxud onu əvəz edən şəxs olmadıqda axtarış təhlükəsizlik orqanları tərəfindən həyata keçirilirdi.

Təlimata uyğun olaraq axtarışı aparan şəxslər evdə olan bütün əşyaları müsadirə edə bilərdi. Əmlakı müsadirə olunan şəxslərə yalnız bir cüt altpaltarı, bir kostyum, bir baş örtüyü, bir cüt ayaqqabı götürmək ixtiyarı verilirdi. Hətta evdə olan ərzaq məhsullarınının alver məqsədilə saxlanılıb-saxlanılmadığını da axtarışı aparan şəxslər müəyyən edirdi. Axtarışı icra edənlərə müqavimət göstərilsə və ya mənzilə buraxılmazsa onlar silah gücünə olsa belə işi başa çatdırırdılar.

Mənzildə axtarış aparılarkən hər bir əşya qeydiyyata alınmaqla iki nüsxədən ibarət akt tərtib edilməli, aktın bir nüsxəsi evlər idarəsinin müdiri və ya onu əvəz edən şəxsə verilməli, bir nüsxəsi isə təhlükəsizlik orqanlarında qalmalı idi. Evlər idarəsinin nümayəndəsi axtarışda iştirak etmədikdə akt bir nüsxədə tərtib olunurdu[414].

Cavidin də evində axtarış apararkən bütün hüquq qaydaları pozulmuş və onun evindən götürülən əşyaların, əlyazma və əsərlərin adlı siyahısı tərtib olunmamışdır. Daha doğrusu, adlı deyil ümumi siyahı tərtib olunmuşdur. Ona görə də, bu gün Cavidin mənzilindən hansı kitab və əlyazmaların götürüldüyünü və ya müsadirə edildiyini demək olduqca çətindir.

Cavid ilk dəfə 1937-ci ilin 5 iyununda müstəntiq Platonov tərəfindən dindirildi. Həmişə bəşəri ideyalar carçısı olan, nəhəng filosov Platonla daxili dialoqa, danışığa girən və estetik irsi, eləcə də fəlsəfi baxışları ilə ona söykənən, ondan qidalanan Cavid, bu gün cılız,

[413] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

[414] Azərbaycan Respublikası MDA. F. 1, si. 2, iş 96, v. 21.

hissiyyatsız müstəntiq Platonovla təkbətək, üzbəüz dayanmışdı. Bu dindirmə qəribə bir məqam üzərində qurulmuşdur. Müstəntiq hər şeyin asanlıqla başa gələcəyini düşündüyündən birbaşa mətləbə keçir:

Sual: İstintaq müəyyən etmişdir ki, siz gizli əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu boynunuza alırsınızmı?

Cavab: Qəti rədd edirəm.

Sual: Sizə əks inqilabçılardan və müsavatçılardan kimlər məlumdur?

Cavab: Keçmiş müsavatçılardan mənə Əhməd Cavad Axundov, Seyid Hüseyn Sadıqov və Xəlil İbrahim məlumdur. Bu gün onların müsavatçı olmaları mənə məlum deyil və mənim onlarla heç bir əlaqəm yoxdur. Bunlardan başqa müsavatçılardan və millətçilərdən heç kəsi tanımıram[415].

Cavidin sərrast və sərbəst cavabları müstəntiqi əlavə suallar verməkdən çəkindirir. Müstəntiq anlayır ki, kimdənsə döyə-döyə aldıqları ifadələrlə Cavidi ram etmək mümkün deyil. Buna görə də müstəntiq iki sualla öz işini bitmiş hesab edir və uzun müddət Cavidlə sorğu aparmır. Görünür, müstəntiq Platonovun suallarına onu qane edəbiləcək cavablar verilmədiyindən Cavidi "tərbiyə etmək" lazım idi. Beləliklə, onu təxminən altı ay "tərbiyə" edirlər. Sabit xarakterli Cavidi "tərbiyə etmək", onu belə asanlıqla ələ almaq mümkün deyildi. İstintaq işlərindən, eləcə də Sümbatova ünvanlanmış məktublardan aydın olur ki, müttəhimin dindirilməməsinin özüdə bir müstəntiq metodu, tərbiyə üsulu idi. Onlar ipə-sapa yatmayanları gec-gec dindirir və bununla da ittiham olunana psixoloji təzyiq edirdilər. Bu sürüdürməçiliklərdən təngə gələn müttəhimlər işin tez başaçatması üçün necə gəldi ifadələr verirdilər. Məsələn, S.M.Əfəndiyev Sumbatova yazdığı ərizədə bildirirdi ki, nəyə deyirsiniz verin qol çəkim, lakin istintaqı tez qurtarın[416]. İndi böyük mütəfəkkir yazıçını da həmin metodla «tərbiyyə» etmək istəyirdilər. Lakin Cavid bu gərginliyədə duruş gətirir və belə ərizələr yazmırdı.

Onunla ikinci sorğu-sual 21 dekabr 1937-ci ildə aparıldı və birincidən fərqli olaraq bu dəfə Cavidə suallar başqa adam tərəfindən verilirdi. Dindirmə protokolundan görünür ki, müstəntiqi Cavidin soyuqqanlılığı çox əsəbləşdirir. Budur cılız və heysiyyatsız, izsiz və

[415] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

[416] DTX-nin arxivi. S.M.Əfəndiyevin istintaq qovluğu, PR - № 16647.

imzasız, manqurtlaşdırılmış müstəntiqlə, təmkin və müdrikliyi, daxili və mənəvi bütövlüyü ilə heykəlləşən Cavid qarşılaşması:

Sual: Siz bütün istintaq boyu inad göstərərək əksinqilabçı və millətçi təşkilatın tərkibinə daxil olmağınızı inkar etməyə cəhd edirsiniz. İstintaqa düzgün ifadə verməkvə boynunuza almaq niyyətiniz varmı?

Cavab: Bir daha bildirirəm ki, mən – Hüseyn Cavid millətçi əksinqilabçı təşkilatda olmamışam.

Bu dindirmə zamanı Cavidə onun haqqında ayrı-ayrı şəxslərin verdiyi ifadələrdən müəyyən parçalar oxunsa da, o, qəti olaraq heç bir əks-inqilabi millətçi təşkilatın üzvü olmadığını, onlarla əks-inqilabi iş aparmadığını bildirdi. Bunlar tamamilə həqiqət idi. Hüseyn Cavid heç bir siyasi partiyanın, heç bir mərkəzin üzvü deyildi və heç bir siyasi təbliğat aparmırdı. Onun ən böyük «qəbahəti» kökə, şəcərəyə, türkçülüyə sədaqəti idi. Bu isə sovetlər dönəmində antisovet təbliğatı hesab edilirdi. Cavidin ən böyük «qəbahəti» ondan ibarət idi ki, o sosializm qəlibinə, sosializm modelinə sığmırdı. Öz idealına və əqidəsinə axıradək sadiq idi. O, sovet mülkiyyətinə çevrilmədən, öz baxışlar sistemini marksçı-leninçi təlimə tabe etdirmədən özünün modern ədəbiyyatını yaradırdı. Dindirmə zamanı Cavid onu da qeyd edirdi ki, "1926-cı ilə qədər mənim əsərlərimdə "səhvlər" olub, həmin səhvlər bunlardan ibarətdir: birincisi, öz əsərlərimdə mən sovet mövzusundan uzaq olmuşam və sovet həqiqətlərindən yazmamışam; ikincisi, mən əsərlərimi kütlənin başa düşmədiyi bir dildə yazmışam; partiya və sovet təşkilatları tərəfindən təklif olunan sovet həqiqətlərindən yazmağı rədd etmişəm və mən öz səhvlərimi boynuma alıram, lakin bu səhvlərimi sonrakı illərdə tədricən düzəldirdim"[417].

Doğurdan da, Cavidin yaradıcılığına diqqətlə nəzər salsaq görərik ki, onun dediyi bu "qüsurlar" həqiqətən də vardır. Lakin Cavidin sovet mövzusundan uzaq düşməsi daha çox öz idealına sadiq qalmaqdan irəli gəlirdi. Cavid vahid konsepsiyası, tendensiyası olan şair idi və bir qrup zümrə üçün yazmırdı, kütlə üçün yaşamırdı, o, xalqın və millətin taleyini düşünürdü. Onu daha böyük amallar və ideyalar yaşadırdı. Elə bu amal və idayalar da Cavidi buraya - XDİK zindanlarına gətirmişdi.

«Partiya və sovet təşkilatları tərəfindən təklif olunan sovet həqiqətlərindən yazmağı rədd etmişəm» - deyən H.Cavid həmin illərdə (hətta NKVD məhbəsində belə) sənətin və sənətkarın taleyi məsələsinə də işarələr vururdu. Göstərirdi ki, totalitarizm dövründə yazarlar

[417] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

«Hökmdar hüzüründa» əyləşmişdi. Hökmdarların çaldığı havanı oynamaq lazım olduğu halda mən başqa havanı oynamışam. Əslində sovet həqiqətləri hər yerdə və hər sahədə olduğu kimi sənətdə də yeni siyasi-ideoloji iqlimə, inzibati amiranə sistemə – total rejimə tabe edilmişdi. Ona görə də totalitar rejimə tabe olanlar və olmayanlar, «ələmdən nəşəyə» keçənlər və keçməyənlər, bolşevik partiyasını «bəşərin vicdanı, eşqi, ürəyi» elan edənlər və etməyənlər sosializm güzgüsündə aydın görünürdü. Az keçməmiş sosializm güzgüsünün sahmanı əyilir, nizamı pozulur, min illik mənəvi dəyərlər və onları yaşadanlar totalitarizm maşınında filtirasiyadan keçir. Filtrasiya üçün baş məbədgah NKVD, cəlladlar isə Markaryanlar, Qriqoryanlar, Toprudzelər seçildi.

Cavidin «mən əsərlərimi kütlənin başa düşmədiyi bir dildə yazmışam» fikrinə gəldikdə isə deməliyik ki, onun «dili barədə nisbətən müfəssəl və obyektiv qənaətləri ilk dəfə Mustafa Haqqı Türkəqul yazdı: «Cavidin dili istər Azərbaycan daxilində, istərsə Azərbaycan xaricində ən çox münaqişə və mübahisə olunan bir mövzudur. Məlum olduğu kimi, İstanbul türkcəsi ilə Azərbaycan türkcəsi arasında ufaq da olsa bir ləhcə fərqi vardır. Cavid İstanbul türkcəsini mənimsəmiş, bu şivəni bütün incəliklərinə qədər öyrənmişdir. Yaradıcılığının ilk dövrlərində, bilxassə şeirlərində İstanbul şivəsini məharətlə işlədən şair, sonralar yaratdığı əsərlərində bu şivəni Azərbaycan ədəbi türkcəsinə yaxınlaşdırmağa çalışmış və demək olar ki, bu işdə müvəffəq olmuşdur. Bunun üçün də Cavidin türkcəsinə nə tamamilə İstanbul türkcəsi, nə də tamamilə Azərbaycan ədəbi türkcəsinə demək qabildir. Cəsarətlə deyə bilərik ki, Cavid bu iki türkcə şivə arasında bir körpü yaratmış və bu iki şivə arasındakı məsafəni qısaltmışdır… Cavidin işlətdiyi türkcə olduqca dadlı və işlənmiş, gözəl bir türkcədir. Şimali və Cənubi Azərbaycan, Türkiyə və Türküstan və s. türk ellərində tək bir münəvvər bulunmaz ki, Cavidi oxusun və anlamasın»[418].

Mütəfəkkir sənətkar bununla türk dövlətlərinin ünsiyyət vasitəsi olan turanın dilini yaradırdı. Cavid yaxşı görürdü ki, bəşəriyyətə «kommunist cənnəti» vəd edən bolşeviklər türk dilli xalqların milli mənəvi dəyərlərini ortaq ədəbi-mədəni abidələrini, xüsusilə, dilini məhv edir. İtən təkcə dillər olmadı, bəzi millətlərin özü və mədəniyyəti də asimliyasiyaya məruz qalaraq imperiyanın içində əridildi. Görkəmli qumuq tədqiqatçısı Murad Adcı «Qıpçaq çölünün yovşanı» adlı əsərində

[418] H.Cavid. Əsərləri, 5 cilddə, I cild, Bakı, 2005, s. 5.

yazır: «İlk siyahıya almaya görə 1917-ci ildə Rusiyada 196 xalq yaşayırdı, sovet hakimiyyətindən sonra yüzə qədəri qalıb. Qalanlarını komissarlar sadəcə olaraq siyahıdan siliblər, rusların və ya başqa xalqların üstünə yazıblar; o zamanlar hakimiyyətin göstərişi ilə insanın milliyyətinə onun əmlakına baxılan kimi baxıblar»[419].

Türkdilli xalqları belə bir assimliyasiyadan mühafizə etmək və Turanın ideoloji sistemini yaratmaq üçün isə mütləq və mütləq ortaq dildən başlamaq, bir-birini anlamaq lazım idi. Sovet ideoloji sistemini yaradanlar bunu yaxşı bilir, ona görə də Cavidləri, Əli bəy Hüseynzadələri tənqid atəşinə tutur və mistik burjua sənətkarları adlandırırdılar. İstintaq prosesində isə Cavidi təqib və təzyiqlərlə, fiziki işgəncə və mənəvi iztirablarla üz-üzə gətirən müstəntiqlər idi. Lakin H.Cavid sabit xarakterə malik idi. Onun üstünə qışqırmaqla, hədələməklə və ya işgəncələr verməklə istədiyinə nail olmaq mümkün deyildi. Şairin həyat yoldaşı Mişkinaz Cavid "Cavidi xatırlarkən" adlı kitabında yazırdı: "Cavid uşaqlıqda başına gələn bir hadisəni belə nağıl edərdi:

- Bir gün həyətdə oynayırdım, anam evdə heç kəs olmayanda məni yanına çağırdı ki, ay Hüseyn, gəl sənə təzə köynək tikmişəm. Gey görüm necədir? Demə anamın məqsədi başqa imiş. Mən evə getdim. Anam dərhal qapını bağladı, təzə köynəyi göstərib dedi: "al, bunu gey, baxım". Elə ki, əynimdəki köynəyi çıxartdım, o, əvvəlcədən hazırladığı çubuqla məni döyməyə başladı. Nazik çubuq, çılpaq bədən, gəl buna döz görüm, necə dözürsən? Vurduqca mənə deyirdi: "Sən molla olmaq istəmirsən?!" İşin xarab olduğunu görüb and-aman elədim ki, daha sabahdan molla məktəbinə gedəcəyəm. Anam qapını açdı. Tez köhnə köynəyimi götürüb otaqdan qaçdım. Həyətdəki tut ağacının başına çıxıb oradan dedim: Nə edirsən et, mən molla məktəbində oxumayacağam, istəyirsən əlli təzə köynək tik, məni də döy öldür, molla olmayacağam vəssəlam!"[420].

Cavidin inadcıllığı və sözündə bütöv olması barədə həmin kitabın başqa bir yerində Mişkinaz xanım belə yazırdı: "Cavid deyərdi ki, xoş səsi və gözəl moizələr ilə məşhur olan atam məni körpəlikdən elmlə məşğul olmağa sövq etmişdir. Atamla mənim aramda ağlım kəsəndən sonra, tarix, ədəbiyyat, sənət haqqında çox ciddi söhbətlər olardı. Biz bəzən ata-oğul kimi-yox qarşı-qarşıya durmuş rəqiblər kimi, bu və ya başqa tarixi hadisələr, şəxsiyyətlər haqqında söhbətlər edər, hər birimiz

[419] Murad Adjı. Qıpçaq çölünün yovşanı, Bakı, 1997, s. 5.
[420] Mişkinaz Cavid. Cavidi xatırlarkən, Bakı, 1976, s. 51.

öz fikrimiz üstündə möhkəm durardıq. Deyəsən inadkarlıqda mən ona oxşamışam"[421].

Cavidin inadkarlığı hisdən, emosiyadan deyil, ağıldan, zəkadan, intellektdən qaynaqlanırdı. Ona görədə molla Hacı Abdullanın oğlu Cavidi ana çubuğu, ana kötəyi molla edə bilmədiyi kimi, müstəntiq tənbehi, "NKVD" xofu və dəyənəyidə "tərbiyə edə" və qorxuda bilməzdi. Çünki Cavid böyük bir həyat məktəbi keçməklə yanaşı, həm də xaricdə mükəmməl təhsil almışdı, türk və Avropa mədəniyyəti nə dərindən yiyələnmişdi.

Cavid "tərbiyə" olunmadıqca müstəntiqlər onu "yola gətirmək" üçün müxtəlif metodlara əl atırdılar. Bu dəfə onlar Cavidi öyrənməyə, həm də başqalarından deyil, Cavidi Caviddən öyrənməyə məcbur oldular. 21 mart (Cavidi 21 mart "Novruz" bayramı günü dindirirdilər. Bu günü təkcə H.Cavidin, Ə.Cavadın və M.Müşfiqin ailəsi deyil, bütün Azərbaycan bayram kimi qeyd etmirdi. Çünki "Novruz" bayramı Caviddən, Cavaddan və Müşfiqdən əvvəl siyasi repressiyaya məruz qalmışdı) 1938-ci ilin dindirmə protokolundan oxuyuruq:

Sual: İnqilabdan əvvəl sizin atanız nə işlə məşğul olmuşdur?

Cavab: Mənim atam Molla Hacı Abdulla dini fəaliyyətlə məşğul olub.

Sual: Bəs siz inqilabdan əvvəl nə işlə məşğul olmuşsunuz?

Cavab: Mən 13-14 yaşından "Rus-tatar" məktəbində oxumuşam.

Sual: Neçənci ildə Siz xaricdə olmusunuz?

Cavab: "Rus-tatar" məktəbini bitirdikdən sonra mən İrana - Təbriz şəhərinə getmişəm. Onda mənim 20 yaşım var idi.

Sual: Siz Təbrizdə nə işlə məşğul idiniz?

Cavab: Təbrizdə mən ruhani məktəbində oxuyaraq, ərəb dilini öyrənirdim. Mənim böyük qardaşım Məmməd Rasizadə də Təbrizdə idi və ruhani seminariyasında oxuyurdu. Mən də oraya getdim və bir il ərzində ruhani məktəbində oxudum.

Sual: İrandan neçənci ildə qayıtdınız və nə işlə məşğul oldunuz?

Cavab: İrandan 1 ildən sonra qayıtdım və Naxçıvandakı "Məktəbi-tərbiyyə" məktəbində türk və fars dili dərslərini deməyə başladım. İl-yarımdan sonra, yəni 1905-ci ildə ticarətlə məşğul olmağa başladım.

Sual: Türkiyədə neçənci illərdə olmusunuz?

Cavab: 1905-ci ildə mən bir neçə xalça aldım və onları satmaq üçün Türkiyəyə getdim. Bu xalçaların ümumi məbləği o vaxt 2000 rubl

[421] Yenə orada. s. 8.

edirdi. Xalçaları satandan sonra mən gözümü müalicə etdirmək üçün Konstantinapolda tanınmış göz həkimi Ziyaya müraciət etdim. Ziya həkim dedi ki, oxumaq sənin gözlərinə zərər verməz. Ona görə də mən Konstantinapol şəhərində evdə şair Rza Tofiqdən təhsil aldım. 1 ildən sonra mən onun zəmanəti ilə tarix-ədəbiyyat fakültəsinə daxil oldum. 1910-cu ildə mən Türkiyədən Naxçıvana qayıtdım.

Sual: Siz Türkiyədən qayıdandan sonra nə işlə məşğul olmuşsunuz?

Cavab: Mən Türkiyədən xəstəliyimə görə qayıtdım. 2-3 ay Naxçıvanda müalicə olunduqdan sonra Bakı şəhərinə gəldim və burada Bakıda yaşayan İranlılar üçün İran səfiri tərəfindən təşkil edilmiş "İttihad" məktəbində Azərbaycan dili müəllimi kimi fəaliyyətə başladım. Bu məktəbdə azərbaycanlılar da təhsil alırdı. Məktəbə rəhbərlik İran səfiri tərəfindən edilirdi. Mən bu məktəbdə 1,5 il işlədim.

Sual: "İttihad" məktəbində dərs demək üçün Sizə zəmanəti kim vermişdi?

Cavab: Türkiyədə Rza Tofiqin yanında Kirovabaddan olan Abdulla Məmmədzadə (söhbət Azərbaycanın görkəmli simalarından olan Abdulla Surdan gedir -C.Q) ilə birlikdə təhsil alırdıq. O, Türkiyədən məndən əvvəl qayıtdı. Mən Bakıya gələndə onunla görüşdüm və onun zəmanəti ilə həmin məktəbə işə qəbul edildim. Belə ki, Abdulla Məmmədzadə özü də həmin məktəbdə dərs deyirdi. Sonra o vəfat etdi.

Sual: "İttihad" məktəbindən gedəndən sonra nə işlə məşğul oldunuz?

Cavab: "İttihad" məktəbindən mən maddi təminatımı ödəmədiyimdən getmişəm. 1912-ci ildə Gəncəyə - indiki Kirovabada getmişəm. Burada mən təxminən 1913-cü ilə kimi "mədrəseyi-ruhaniyyə" də dərs demişəm. 1913-cü ildə mən Kirovabaddan Tiflisə getdim. Burada mən imperialist müharibəsinə kimi (1914-cü il) İran səfirliyinin rəhbərlik etdiyi "İttifaq" məktəbində dərs demişəm.

Sual: "İttifaq" məktəbindən gedəndən sonra nə ilə məşğul olmuşsunuz?

Cavab: "İttifaq" məktəbindən gedəndən sonra mən Kaxetiyaya getdim. Burada mən Dəmiryolu xətti üzrə işçi qüvvəsini qeydiyyata alan tabelçi kimi xidmət etmişəm.

Ora mən xəstəliyimlə əlaqədar – havamı dəyişmək üçün getmişəm. Oradan mən xəstəliyimlə əlaqədar Yesuntikiyə getdim. Bütün bunlardan sonra mən Bakı şəhərinə gəldim və 1918-ci ilə kimi Tağı Nağıyev tərəfindən təşkil olunmuş "Səfa" məktəbində dərs dedim. Mart

hadisələrində mən İrana getdim və 2 aydan sonra Naxçıvan şəhərinə qayıdıb məktəbdə müəllim işlədim.

Sual: 1918-19-cu illərdə siz harada idiniz və nə işlə məşğul olmuşsunuz?

Cavab: "Müsavatın" hökmranlığı dövründə mən seminariyada, sonra qızlar məktəbində şəriətdən dərs demişəm.

Sual: 1919-cu ildə "Müsavatın" hökmranlığı dövründə siz hansı əksinqilabi müsavat jurnallarında iştirak etmişsiniz?

Cavab: 1919-cu ildə "Müsavat" hökmranlığı illərində mən "Qurtuluş" və "Yaşılqələm" jurnallarında iştirak etmişəm.

Sual: 1919-cu ildə "Müsavat" partiyasına, xüsusilə də onun lideri M.Ə.Rəsulzadəyə münasibətiniz necə olub?

Cavab: O vaxt mən "Müsavat" partiyası və onun lideri M.Ə.Rəsulzadə ilə heç bir əlaqədə olmamışam.

Sual: Sovet hakimiyyəti qurulduqdan sonra Siz neçənci ildə və hansı xarici ölkədə olmuşsunuz?

Cavab: 1926-cı ildə mən müalicə olunmaq məqsədi ilə Almaniyada - Berlində, Badenbadendə olmuşam. Mən ora keçmiş Azərbaycan xalq təhsili komissarı Mustafa Quliyev tərəfindən göndərilmişəm.

Sual: Xaricdə olarkən siz müsavatçılardan kimlərlə görüşmüşsünüz?

Cavab: Mən xaricdə olanda müsavatçılardan heç kimlə görüşməmişəm.

Sual: Xaricdə olanda sizi gizli polisə çağırıblarmı və harada?

Cavab: Mən xaricdə olarkən heç bir gizli polis tərəfindən çağırılmamışam. Mən 1914-cü ildə Tiflisdə "İttifaq" məktəbində işləyərkən, yalnız çar gizli polisi tərəfindən çağırılmışam.

Sual: Çar gizli polisi tərəfindən siz hara çağrılmışdınız?

Cavab: Məni Tiflisdə çar gizli polisinin rəisi çağıraraq yarım saat müddətinə söhbət etdi.

Sual: Belə uzun bir söhbət nə barədə idi? (Qoy, çar gizli polisinin apardığı yarımsaatlıq söhbətin XDİK müstəntiqinə uzun görünməsi oxucuya qəribə gəlməsin. Doğrudan da 15-20 dəqiqəlik vaxt ərzində hər hansı bir adama ölüm hökmü oxuyanlar üçün bu çox böyük vaxt idi).

Cavab: Mənim şəxsiyyətimi müəyyənləşdirəndən sonra, rəis mənim harada təhsil almağımla maraqlandı. Mənim cavabımdan sonra o haqdaki, mən təhsili Türkiyədə almışam gizli polisin rəisi mənə yenə sual verdi. Mən siyasi partiyalarla hər hansı bir əlaqə saxlayırammı? O

cümlədən Sosial Demokrat partiyası ilə. Mən cavab verdim ki, yox. Bu söhbətlərdən sonra çar gizli polisinin rəisi dedi ki, mənim şəxsiyyətim onlar tərəfindən şübhə altına alınmışdı. Ona görə də mənim şəxsiyyətimi aydınlaşdırmaq məqsədi ilə məni çağırmışdır. Bundan sonra mən getdim. Çar gizli polisi tərəfindən çağrılana qədər ibtidai məktəbin süpürgəçisi və evimin qulluqçusu mənə dedilər ki, bir neçə gündür, yaşadığım evə və məktəbə hansısa vətəndaşlar gəlir və mənim haqqımda soruşurlar. Bu barədə mən çar GPR məlumat verdim.

Sual: Tiflisdəki çar gizli polisinə sizin tərəfdən hansı iltizam verilmişdir?

Cavab: Mənim tərəfimdən çar gizli polisinə heç bir iltizam verilməmişdir.

Sual: Tiflisin çar gizli polisi sizə hansı tapşırıqları verirdi?

Cavab: O, mənə heç bir tapşırıq vermirdi.

Sual: Sizin cavablar səmimi deyil? İzah edin, 1914-cü ildə Tiflisdə çar gizli polis rəisi sizə hansı tapşırıqları vermişdi?

Cavab: Mən öz cavablarıma heç nə əlavə edə bilmərəm.

Sual: Siz düzgün cavab verməkdən yayınırsınız? Sizdən bir daha soruşuruq: Tiflisdə çar gizli polisi casusluq işi üzrə sizə hansı tapşırıqları verirdi?

Cavab: Casusluq xətti ilə çar gizli polisinin rəisi mənə heç bir tapşırıq verməmişdi.

Sual: Siz çar gizli polisinin xeyrinə olan işinizi istintaqdan gizlətməyə cəhd edirsiniz. Biz israr edirik düzgün danışasınız.

Cavab: Mənim cavablarım səmimidir. Çar gizli polisinin xeyrinə mən qətiyyən işləməmişəm.

Sual: Bəs Türkiyədə Siz hansı pantürkistlərlə əlaqə saxlamışsınız?

Cavab: Türkiyədə mən pantürkistlərdən heç kimlə əlaqə saxlamamışam.

Sual: Bəs Bakıda türklərdən kiminlə əlaqə saxlamışsınız?

Cavab: Mənim Bakıda türklərdən İsmayıl Hikmət və Xəlil Fikrətlə təsadüfi tanışlığım olub.

Sual: Siz İsmayıl Hikmət və Xəlil Fikrətlə əlaqənizi nə ilə izah edə bilərsiniz?

Cavab: Mən onlarla ildə bir dəfə Yazıçılar İttifaqında olan gecələrdə və görüşlərdə rastlaşırdım (İmza Cavid)[422].

[422] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

21 mart 1938-ci ildə aparılmış bu dindirmə protokolunu bütünlüklə və olduğu kimi təqdim etməkdə məqsəd Cavidin ömür yoluna aydınlıq gətirə biləcək bəzi vacib mətləbləri onun tədqiqatçılarına və oxucularına çatdırmaqdan ibarətdir. Belə ki, şairin Türkiyədən təhsildən nə zaman qayıtması məsələsi bu gün də öz elmi həllini tapmamışdır. Mərhum professor Ə.Şərifovun Türkiyədən 1910-cu ildə, M.Cəfər isə 1909-cu ildə Azərbaycana qayıtdığını qeyd edir.

H.Cavidin 1909-cu ilin axırında Bakıda olmasını görkəmli jurnalist Q.Məmmədli də təsdiqləyir.

Naxçıvanda Qurbanəli Şərifova (5 mart 1910-cu il) sözləri ilə başlayan məktub haqqında professor Ə.Şərifin 1977-ci ildə nəşr etdirdiyi "Keçmiş günlər" adlı əsərinin 69-cu səhifəsində oxuyuruq: "Bu məktubu yazıb göndərəndən təxminən 9 ay keçəndən sonra H.Cavid İstanbuldan öz səkkizinci və sonuncu məktubunu yazır".

Buna etiraz edən yorulmaz tədqiqatçı və görkəmli jurnalist Qulam Məmmədli yazırdı: "H.Cavidin 1909-cu ilin dekabrından 1910-cu il iyunadək "Həqiqət" qəzetinin səhifələrində günaşırı şeir və məqalələrlə çıxış etdiyi nəzərə alınarsa, "səkkizinci məktubun" İstanbuldan deyil, Bakıdan yazıldığı aydın görünər"[423].

Cavid özü isə ifadəsində Türkiyədən 1910-cu ildə Naxçıvan şəhərinə gəldiyini qeyd edir. Bunları nəzərə çarpdırmaqda məqsədimiz bu sahədə xüsusi tədqiqat aparmaq olmasa da, "şübhədir həqiqətin atası" - deyən Cavidin elmi tərcümeyi-halını yaratmaq istəyən tədqiqatçıların nəzər diqqətini bu faktlara yönəltməklə gümandan həqiqətə gedən yola azacıq da olsa işıq çiləməkdir.

Bu ifadənin üzə çıxardığı başqa bir mətləb ondan ibarətdir ki, çar dövrünün müstəntiqi Cavidi demək olar ki, eyni məsələdə ittiham edirdi. Buradan da aydın görünür ki, hər iki dövrdə yeridilən siyasət eyni idi. Azadlıq ideyalarını boğmaq üçün eyni metoddan, eyni ssenaridən istifadə olunurdu. Maraqlı olan isə cəzanın rəngi idi. Birincidə «ağ», ikincidə isə «qırmızı» irtica hakim idi. Deməli, ikinci birincidən daha amansız idi.

Dindirmə zamanı Cavidi başqa bir məsələdə - millətçilikdə də ittiham edirdilər. "Mənim tanrım gözəllikdir, sevgidir!.." - deyə bəşəriyyətə sevgi ilə yanaşan Cavid imperiyanın yürütdüyü sevgidə özgədən başlamaq fəlsəfəsinə qarşı çıxaraq, özündən başlamaq fəlsəfəsini qoyur və bildirirdi ki, özünü - öz millətini, öz Vətənini sevməyən başqasını sevə və belə bir fəlsəfi fikir yaşaya bilməz.

[423] Qulam Məmmədli. Cavid ömrü boyu, Bakı, 1980, s. 44.

Doğrudur, Cavid millətçi idi. Lakin Caviddəki millətçilik məhəlləçiliyə deyil, bəşəriliyə aparan millətçilikdir. Tarix bir daha sübut etdi ki, bəşəriyyətə sevgi üstündə köklənən millətçiliyin heç bir qorxusu yoxdur. Cavid Şekspiri də, Puşkini də, Tolstoyu da eyni dərəcədə sevirdi və Cavid sevgisinin miqyas və tutumu ümümtürk dünyasının coğrafi hüdudlarından daha böyük idi. Daha doğrusu, Cavid sənəti və Cavid dünyagörüşü millətçilikdən türkçülüyə, türkçülükdən turançılığa, turançılıqdan isə bəşəriliyə qədər inkişaf yolu keçmişdir. Deməli, Cavid millətçiliyi özünün zirvə məqamına bəşərilikdə çatır, Cavid özünü bəşərilikdə tamamlayır və bəşərilikdə təsdiq edir. Bolşevik müstəntiqlər (elə həm də tənqidçilər) isə Cavidin özünü təsdiqində (bəşərilikdə) beynəlmiləlçilik axtarırdılar. Cavid Türkiyə həyatından yazdığına görə beynəlmiləlçi deyil, millətçi olurdu. Cavid sovet imperiyasını mədh etmədiyinə görə iri və ya xırda burjuy adlandırılırdı. Əslində beynəlmiləlçiliklə bəşərilik arasındakı fərq sovet ideoloji sistemində daha aydın görünürdü. Sovet sisteminin və sovetləşən dövlətlərin həyat tərzinin bədii düşüncədə əksi beynəlmilətçilik, digər inkişaf yolu tutmuş dövlətlərin həyatından bəhs etmək isə millətçilik hesab olunurdu. Deməli, əsas mübarizə sistemlərin – sosializmin və kapitalizmin mübarizəsi idi. Cavid sənəti isə sistem, sinif, qövm, partiya tanımırdı. Cavid sənəti böyük hərifli ZAMANA sığırdı, lakin içində yaşadığı ZƏMANƏYƏ (sistemə, rejimə) sığmırdı, onun fövqündə dayanırdı. Cavidin faciəsi də ağıldan doğan faciə idi. Əslində bu, Cavidin faciəsi yox, uzaqgörənliyi və böyüklüyü idi.

Cavidi millətçilik də ittiham edənlər sübut etməyə çalışırdılar ki, o, söhbətlərində rus dili ilə Azərbaycan dilinin morfoloji strukturundakı qeyri-oxşarlıqlardan danışmış, eləcə də alınma sözlərin rus dili vasitəsi ilə deyil, birbaşa alınmasının tərəfdarı olduğunu bildirmişdir. Əlbəttə, rus dili ilə Azərbaycan dili arasındakı leksik, morfoloji, semantik… yaxınlıqdan daha çox uzaqlıqdan danışmaqda və alınma sözlərin birbaşa kök sözdən, alman və ya ingilis dilindən, bütövlükdə isə Şərq və ya Avropa dillərindən alınmasında da Cavid haqlı idi.

22 mart 1938-ci ildə aparılmış dindirmə protokoluna müraciət edək:

«**Sual:** İstintaqa məlumdur ki, sizin əsərləriniz pantürkizm və Tükiyə meyli ilə doludur.

Cavab: Mən etiraz edirəm, mən öz əsərlərimdə Tükiyəyə meyil etməmişəm.

Sual: Siz yalan danışırsınız. Biz sizin yalanınızı sübut etmək üçün gənc yazıçı Rzaquluyev Mikayıl Manaf oğlunun ifadəsindən bir parçaya müraciət etmək məcburiyyətindəyik: "Mənimlə şəxsi söhbətində H.Cavid

deyirdi ki, Siz cavan yazıçılar rus siyasətinin təsiri altına düşərək köhnə yazıçıları tənqid edirsiniz və (özünüz) "Azərbaycan dilinin ruslaşdırılmasını" həyata keçirirsiniz. O, iddia edirdi ki, rus ədəbiyyatına deyil, osmanlı-türk ədəbiyyatına meyil etmək lazımdır. Və deyirdi ki, rus terminalogiyasının sonluğu "üiə"- stanüiə, kollektivizaüiə və s. Azərbaycan dilinin quruluşuna uyğun deyil. Əcnəbi sözləri biz gərək rus dili vasitəsi ilə deyil, birbaşa alaq". Bu barədə Siz nə deyə bilərsiniz?

Cavab: Mən Rzaquliyevə demişəm ki, bəzi terminlər xüsusən "üiə" sonluğu ilə bitənlər Azərbaycan dilinin quruluşuna uyğun deyil. Bunu mən ona görə deməmişəm ki, mən rus dilinin və ya ədəbiyyatının əleyhinəyəm və Türk ədəbiyyatının istiqamətində olan meylimə görə də yox. Rzaquluyevin qalan ifadələri ilə razı deyiləm.

Sual: Siz əksinqilabi məsələnin mahiyyətinin üstünü malalamaq və istintaqdan öz əksinqilabi baxışlarınızı gizlətmək istəyirsiniz. Biz məcburuq həmin yazıçı Rzaquliyevin ifadəsindən daha bir parça ilə Sizin yalan ifadələrinizin üstünü açaq: "H.Cavid mənimlə müasir ədəbiyyat və yaradıcılıq mövzusunda vaxtaşırı söhbətlərində öz əksinqilabçı millətçi mövqelərini bildirərək iddia edirdi ki, Azərbaycanda milli kadrları "sıxışdırırlar" və Azərbaycan dili rus ədəbiyyatının təsiri altında qalarkən tədricən öz mənasını itirir, ruslaşır və s". Biz sizdən tələb edirik ki, inadınızı yerə qoyasınız və düzgün ifadə verəsiniz.

Cavab: Mən buna etiraz edirəm, çünki Rzaquliyev yalan danışır. Rzaquliyevlə mənim söhbətlərim əksinqilabi millətçi xarakter daşımırdı»[424].

Maraqlıdır ki, M.Rzaquliyev 20 fevral 1956-cı ildə verdiyi ifadədə Cavidin heç bir burjua əksinqilabi fəaliyyət göstərmədiyini, öz ədəbi-bədii yaradıcılığında Türkiyəyə meyilli olmadığını, Sovet hökumətinin ünvanına heç nə demədiyini, bir sözlə, siyasətdən uzaq olduğunu bildirir və 13 mart 1938-ci ildə isə Cavidin millətçiliyi, əksinqilabi təşkilatla əlaqəsi, Türkiyəyə meyilliliyi barədə heç bir ifadə vermədiyini və həmin dövrdə onun verdiyi ifadələrin təhrif edildiyini qeyd edir:

«**Sual:** Siz Azərbaycan şairi Hüseyn Cavidi tanıyırsınız və onunla hansı münasibətdə olmusunuz?

Cavab: Hüseyn Cavid Azərbaycanın məşhur şairidir, onu mən təxminən 1926-cı ildən tanıyırdım, ancaq onunla yaxın münasibətdə olmamışam. Şair kimi olduqca güclü idi. O bir sıra iri əsərlər və pyeslər

[424] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

yaratmışdır. Ən yaxşı və məşhur əsərlərinə "Şeyx Sənan", "Səyavuş", "Dəli Knyaz" və s. aiddir. İri pyeslərinin əksəriyyətini Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra yaratmışdır. Həbs olunmamışdan əvvəl Azərbaycan Yazıçılar İttifaqının üzvü idi.

Sual: Şair Hüseyn Cavidi siyasi cəhətdən xarakterizə edin?

Cavab: Hüseyn Cavid hələ inqilaba qədər də böyük şair idi, o əmək və fəhlələr haqqında bir sıra əsərlər yazmışdı. Bu əsərlərin adı mənim yadımda deyil, bu əsərlərində o, fəhlələrə rəğbət bəsləyir, istismarçılara isə nifrət edirdi. Özünün "İblis", "Dəli Knyaz" kimi əsas əsərlərində xırda burjua şairi kimi siyasi məsələlərə də toxunurdu. Mən bildiyimə görə o heç bir siyasi partiyaya mənsub deyildi. O belə hesab edirdi ki, poeziya siyasətdən kənarda yaşamalıdır. İncəsənət incəsənət üçündür.

Sual: Hüseyn Cavidin əksinqilabi və millətçilik fəaliyyətindən Sizə nə məlumdur?

Cavab: Hüseyn Cavidin əksinqilabi və millətçilik fəaliyyətindən mənə heç nə məlum deyil. Təbiətinə və xasiyyətinə görə o əksinqilabçı və millətçi ola bilməz, ona görə ki, o siyasətdən kənar adam idi, siyasət ilə məşğul olmağı xoşlamırdı.

Sual: Hüseyn Cavid ilə əlaqədar Siz 1938-ci ildə dindirilmisinizmi? O vaxt Siz onun haqqında hansı ifadəni vermisiniz?

Cavab: Bəli, həqiqətən 1938-ci ildə mən Hüseyn Cavid ilə əlaqədar olaraq dindirilmişəm, ancaq hansı ifadələr verdiyim yadıma gəlmir.

Cavab: 1938-ci il 13 mart dindirilməsində Siz aşağıdakıları demisiniz: "Onunla tanışlığımdan Hüseyn Cavid burjua əksinqilabçı, millətçi, öz bədii və ədəbi fəaliyyətində Türkiyəyə istiqamətlənən, siyasi baxışları olan bir adam kimi mənə məlumdur". Bu haqda nə deyə bilərsiniz?

Cavab: 1938-ci il 13 mart dindirilməsində mən Hüseyn Cavidi əksinqilabçı və millətçi kimi xarakterizə etməmişəm. Mən onda da indi verdiyim ifadəni vermişəm, lakin məni dindirən müstəntiq ifadələrimi təhrif edərək yuxarıdakı "əksinqilabçı və millətçi" sözlərini artırmışdır. Bir daha bildirirəm ki, Hüseyn Cavid haqqında bu cür ifadələr verməmişəm. O, əksinqilabçı olmamışdır. Mən heç vaxt dindirilmə zamanı deməmişəm ki, o özünün ədəbi və bədii fəaliyyətində Türkiyəyə istiqamətlənmişdir. O vaxt, dindirilmə zamanı, mən göstərdim ki, Hüseyn Caviddə türk dilinə meyil var idi.

Sual: O vaxt dindirilərkən Siz göstərmisiniz ki, Hüseyn Cavid Sizinlə söhbət zamanı YK(b)P-nin və Sovet hakimiyyətinin milli siyasəti haqqında böhtanlar demiş, böhtançılıqla təsdiq etmişdir ki, guya Azərbaycan ədəbiyyatında və yaradıcılığında ruslaşma siyasəti aparılır. Bu haqda nə deyə bilərsiniz?

Cavab: Mənimlə söhbətdə Hüseyn Cavid heç vaxt partiyanın və Sovet hakimiyyətinin ünvanına böhtan deməmişdir, lakin o, bir dəfə, mənimlə söhbət zamanı demişdir ki, Azərbaycan ədəbi dili, guya bəzi rus sözləri ilə zibillənmişdir.

Sual: Sizə 1938-ci il 13 mart tarixində Hüseyn Cavid haqqında verdiyiniz ifadə oxunur. Siz sözünüzün üstündə dursunuzmu?

Cavab: ....Mənim 13 mart 1938-ci il dindirilməm təhrif edilmiş və qeyri-dəqiqliyə yol verilmişdir. Bu haqda yuxarıda göstərmişəm. Hüseyn Cavid burjua ideologiyasına malik olan böyük Azərbaycan şairi idi, onun poetik dili türk sözləri ilə dolu idi»[425].

Cavid yaradıcılığına bələd olanlar yaxşı bilirlər ki, o, bütün dinlərə və dillərə məhəbbət və hörmətlə yanaşırdı. Onun, Türkiyədə oxuduğu zaman yazdığı məktublardan da görünür ki, Türkiyə təhsili ona başqa millətlərə nifrət aşılamamışdır. O, əcnəbi dillərinin mükəmməl öyrənilməsinin tərəfdarı idi və çox dil bilməyi alqışlayırdı. Alman və ingilis dillərini öyrənməyə xüsusi səy göstərən şair məktublarının birində yazırdı: "Bir əcnəbi lisanını mükəmməl bilməyə... əcnəbilərin özləri kimi mükəmməl bilməyə ehtiyac vardır".

Konkret rus dilinə gəldikdə isə, "hər gününün 2-3 saatını rus dilini öyrənməyə səy göstərən" tələbə Cavidin görkəmli maarifçi Qurbanəli Şərifova Türkiyədən göndərdiyi 14 iyun 1909-cu ildə yazdığı məktubda oxuyuruq: "Ən məsləhətlisi budur ki, ruscanı mükəmməl öyrənməyə çalışalım".

Q.Şərifova göndərdiyi başqa bir məktubda isə ondan xahiş edir ki, Türkiyədə təhsilini başa vurub qayıtdıqdan sonra ona elə bir yerdə müəllimlik işi tapsın ki, orada rus dilini öyrənməyə şərait olsun. Hətta Cavid rus dilini öyrənmək məqsədi ilə bir rus ailəsində qalmağı da arzulayır: "Mən dərs verdiyim yerdə gecələri bir tərbiyəli rus ailəsi içərisində yaşamağı arzu edirəm"[426].

Əcnəbi dilə və mədəniyyətə yiyələnməyi milli inkişafın əsas xüsusiyyətlərindən biri hesab edən şair "Şərqi-rus" qəzetinin 24 avqust

[425] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

[426] H.Cavid. Seçilmiş əsərləri, IV cild.

1909-cu il sayında yazırdı: "... o rus dili ki, bizim Vətəndə bəzi həqiqətləri və məsələləri bilmək və dərk etməkdə ən lazımlı vəsait sayılır, o dili öyrənmək və bilmək lazım və vacibdir. Əgər biz yeni ixtira olunan elmlərin lüzumunu nəzərə alırıqsa, Qafqaz ərazisində rus dilindən başqa, yuxarıda adını çəkdiyimiz dillərin (türk, fars və ərəb dillərinin-C.Q) heç birində buna nail ola bilmərik. Bunun əksini düşünmək bihudə fikir və mənasız xəyaldır".

Bununla belə H.Cavid dilin "zorlanmasının", başqa təsir altına salınmasının əleyhinə idi. O görürdü ki, dilin "zorlanması" ilə imperiya xalqın geninə, milli yaddaşına təsir edir, fərdləri deyil, bütöv bir xalqı manqurta çevirir. Əsrimizin 20-30-cu illərində əlifbanın ərəbdən latına, latından kirilə dəyişdirilməsi də soydan, ənənədən uzaqlaşmağa, yaddaşsızlaşmağa, manqurtlaşmağa xidmət edirdi. Ümumiyyətlə, bolşeviklər Azərbaycanda uzun illər işlədilən əlifbanı bir neçə dəfə dəyişdirməklə irslə varis, baba ilə nəvə arasındakı genetik bağları qırmağa çalışırdı.

Göründüyü kimi, Cavidi millətçiyə çevirən amillərdən biri də Azərbaycan dilinin saflaşması, ümumtürk dilləri ilə ünsiyyət və əlaqəsi idi.

Xalq şairi Məmməd Rahim "Qüdrətli sənətkar" adlı xatirə yazısında Cavidin millətçilik baxışlarını belə anırdı: "...Cavid tez tutulan idi. Hətta nərddə uduzanda da qanı qaralırdı. Ona görə də bəzən bilərəkdən uduzmaq istəyərdik. Az qalmışdı bu gün də belə olsun. Bunu biləndə, duyuq düşəndə acığı daha çox tuturdu. Nə isə, düşbərə gəldi, ədəbi söhbət kəsildi. Süfrə yığıldı, çay gəldi, yenə söhbət başlandı: Cavid dedi: "Mən bu fikirdəyəm ki, əsəri zümrələr üçün deyil, insanlar üçün, dünyanı sevənlər üçün yazmaq gərəkdir". Faruq "insan məfhumu mücərrəddir"-dedi. Cavid "insan məfhumu müqəddəs və konkretdir" - deyə etiraz elədi. O, bu sözləri deyəndə ahəngində ciddilik vardı.

Torpaq vətənim, nəvi bəşər, millətim insan,
İnsan olur, ancaq buna izanla inandım! -

misralarını oxuyub, "böyük Tofiq Fikrətdən öyrənin" - dedi"[427].

Bunlar bir daha göstərir ki, Cavid millətçiliyi bəşəriliyə aparan, bəşəri dəyərlərə söykənən millətçilikdi. Müstəntiqin Cavid əsərlərində pantürkist meyillər tapması onu ittiham etmək üçün bir vasitə idi. Araşdırmalar göstərir ki, repressiya illərində azərbaycanlıların türk,

[427] Cavidi xatırlarkən (məqalələr toplusu). Bakı, 1986.

azərbaycanlı olmaları onların həbs olunmaları və məhv edilmələri üçün kifayət idi.

Bütün bu dindirmə və üzləşmələrdən sonra Cavid haqqında 8 mart 1939-cu ildə daha bir qərar qəbul edildi. Qərarda bildirilirdi ki, bundan əvvəlki həbs olunma qərarı öz qüvvəsində qalmaqla H.Cavid əlavə olaraq Azərbaycan SSR CM-in 68-ci maddəsi ilə də günahlandırılsın[428].

Cavidin istintaqının bu qədər uzadılmasının (1937-ci ilin iyunundan, 1939-cu ilin martına kimi) əsas səbəblərindən biri də üzləşmələrə, şahid ifadələrinə baxmayaraq, bütün əzab və işgəncələrə dözərək, özünün "müqəssir olduğunu" boynuna almaması idi.

Yeri gəlmişkən bir məsələyə də öz münasibətimizi bildirmək istərdik. Belə ki, Cəmil Həsənov yazır: "Hətta istintaq orqanlarının heç nəylə məhdudlaşmayan hər cürə yaramazlıqlarından sonra H.Cavid kimi möhkəm iradəli bir dahi özünə belə "böhtan" atırdı: "...Axırıncı üç gündə 23 fevral 1937-ci ildən (bu, 1938-ci il oxunmalıdır. Görünür, məhbusa verilən işgəncənin təsirindən illərin də yeri dəyişik düşüb) sonra istintaq qarşısında mən özümün iyrənc, biabırçı hərəkətimi tam aydınlığı ilə başa düşdüm. Bəli, mən cinayət etmişəm, rəhbərliyin etimadını doğrultmayıb onları aldatmağa çalışmışam. Mən bütün deyilənləri boynuma alıram. Mən yaramaz və provakatoram. Sizə müraciət etməkdə məqsədim odur ki, partiya rəhbərliyinin yüksək humanizmi naminə mənim bir dəfəlik məhv olmağıma kömək edəsiniz"[429].

Cəmil müəllimin bu sətirləri haradan götürdüyünü deyə bilmərik (təəssüf ki, müəllif mənbə göstərməmişdir). Lakin H.Cavidin istintaq işində buna rast gəlmədik. Əksinə, Cavid istintaq boyu özünün müqəssir olmadığını bildirmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi Cavidin istintaqının təxminən iki il (1937-1939) davam etməsinə əsas səbəb də özünü müqəssir bilməməsi idi. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, həmin dövrdə az-az adamın istintaqı iki il çəkirdi. İstintaqı aparan müstəntiqlər SSRİ Xalq Daxili İşlər Komissarlığı yanında Xüsusi Müşavirəyə göndərmək üçün 11 mart 1939-cu ildə tərtib etdikləri "İttihamnamədə" yazırdılar ki, "o özünü müqəssir bilmir"[430].

Tədqiqatlar göstərir ki, repressiv aksiyaların kütləviləşdiyi dövrdə Sovet İttifaqında iki mühit formalaşmışdı.

1. İctimai mühit.

---

[428] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

[429] Cəmil Həsənov. «Ağləkə»lərin qara kölgəsi, Bakı, 1991, s. 135-136.

[430] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

2. Kamera mühiti.

İctimai mühitlə kamera mühiti demək olar ki, bir-birini tamamlayırdı. Bir çox hallarda hökmlər açıq və ya qapalı məhkəmələrdə deyil, birbaşa qurultaydan, plenumdan və ya hər hansı bir yığıncaqdan elan olunurdu. Mir Cəfər Bağırov deyirdi: «Bir baxın Yazıçılar İttifaqında kimlər əyləşmişdir. Vətən xainləri H.Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Hacı Kərim Sanılı və başqa əcilaflar». Bu artıq məhkum haqqında hökm idi və müstəntiqlərin vəzifəsi bu hökmü əsaslandırmaqdan ibarət idi. Daha dəqiq desək, kamera mühitini ictimai mühitin özü hazırlayırdı. Həmin dövrün ictimai mühitində hazırlanan yazılara fikir verək. «Yazıçılar içərisində Azərbaycan həyatı ilə daha az maraqlanan və Azərbaycan əməkçilərinin mübarizəsinə yad olan əsərlər yazmaqdan əl çəkməyən Hüseyn Caviddir. Biz bilirik ki, Hüseyn Cavid burjua romantizmi məktəbində yetişmişdir. Bununla bərabər o, Azərbaycan sovet və partiya təşkilatlarının onun üçün yaratdığı imkanlara və hətta əsərinə verdiyi mükafatlara baxmayaraq, yenə Azərbaycan əməkçilərinin mübarizəsinə dair bir şey yazmamışdır…». Başqa bir sənəddə isə oxuyuruq: «Yoldaş Hüseyn Cavidi neçə ildir ki, tənqid edirik. Hüseyn Cavid Azərbaycan xalqının həyatından yazmayır, burada onu haqlı tənqid edirik. O, ədəbiyyatımıza panislamizm, pantürkizm gətirmişdir. Hüseyn Cavid Azərbaycan dilinə qarşı olaraq osmanlı türklərinin dilini ədəbiyyatımıza gətirmişdir. Bu tənqidlə biz daima haqlıyıq. Burada heç bir güzəştə getməyəcəyik. Bu haradan gəlir? Hüseyn Cavid Azərbaycan xalqını kiçik, məhdud tarixli bir xalq hesab edir. Buna görə o öz yaradıcılığında özünəməxsus burjuaziya romantikası ilə osmanlı xalqına arxalanır, öz dilini, dinini və öz tematikasını da oradan alır. Biz, Azərbaycan xalqının oğulları bu təsirlə mübarizə etmişik və edəcəyik, biz heç kəsə haqq verməyəcəyik ki, özünün minillik ədəbiyyat tarixi olan bir xalqa yuxarıdan baxsın və onu məhdud xalq adlandırsın»[431].

Yeri gəlmişkən qeyd edək ki, həbsxanaya düşənlərə müxtəlif işgəncələr verilirdi. Bu işgəncələr iki metodan istifadə etməklə yerinə yetirilirdi: a) Psixoloji metod, b) Fiziki metod.

«Vətən xaini», «xalq düşməni», millətçi, pantürkist, panislamist, zinovyevçi və s. adlarla ittiham edilən məhbuslara aşağıdakı psixoloji metodlar tətbiq olunurdu; yuxusuz saxlamaq, xüsusi qurğulardan istifadə etməklə kameraya soyuq hava üfürmək, döşəməyə soyuq su buraxmaq,

[431] «Kommunist» qəzeti, 17 mart, 1937.

ironiyalı danışıqlardan istifadə edərək ələ salmaq, doğma adamlarının həbsi ilə hədələmək, gözlərinə güclü işıq salmaq, söymək və sair vasitələrdən istifadə olunurdu.

Bəzən müttəhimə iki metodun ikisi də eyni anda tətbiq olunurdu. Belə ki, müttəhimə əvvəlcə fiziki işgəncə verilir, sonra isə başqa bir müstəntiq guya humanistlik göstərərək ona öz «doğması» kimi yanaşaraq onu döyülməkdən «xilas edir» və istintaqı özü aparırdı. O, artistlik məharəti ilə müttəhimi inandırırdı ki, barəsində qaldırılmış cinayətlərdə özünü müqəssir hesab etsə və protokollara imza atsa, sovet hökuməti və hüquq-mühafizə orqanları onu bağışlayacaqdır. İstintaqa cəlb olunan bu müstəntiqdəki «xeyirxahlığı» gördüyündən ona inanır və əvvəlcədən hazırlanmış dindirmə protokollarına imza atırdı. Bu metod da keçmədikdə onda sərt tədbirlərə, fiziki işgəncələrə üstünlük verilirdi.

Fiziki işgəncələr zamanı rezin dubinka, təyyarə trosu, dəmir çubuqla döyməkdən, bədənində siqaret söndürməkdən, 48 saata qədər dizləri üstə və ya stoyka, eləcə də ac və ya susuz saxlamaqdan və s. metodlardan istifadə olunurdu. Bu metodların hər ikisi iki il ərzində NKVD zindanında istintaq altında yatan H.Cavidə də tətbiq edilmişdir.

1939-cu ilin 8 martında H.Cavid son söz olaraq bildirmişdir ki, mən öz ifadələrimə heç nə əlavə etmirəm, bir onu əlavə edirəm ki, əks inqilabçı təşkilatda olmadığım kimi, casusluq işi ilə də məşğul olmamışam[432].

Cavid müstəntiqə son söz deməkdən imtina etsə də, o bəşəriyyətə öz son sözünü (mənəvi, əxlaqi, estetik tərbiyə anlamında) bəyan etmişdir: "Mənim təbiyyətimi bilirsiniz. Mən hamballığı, xidmətkarlığı çox sevirəm. Fəqət... mənliyimi satmaq, əsir olmaq istəməm (Əsir olduğum bir şey varsa o da həqiqətdir). Əsarət zəncirinə bağlanmaq, o müləvvəs qeydi çəkməyə razı olmayıram"[433].

9 may 1938-ci ildə Azərbaycan SSR prokurorunun müavini – xüsusi işlər üzrə şöbənin rəisi Pinkis Hüseyn Cavidin Azzərbaycan SSR CM-in 72, 73-cü maddəsilə cinayət məsuliyyətinə cəlb edilməsi üzrə 10497 №-li cinayət işinə baxaraq aşağıdakı məzmunda rəy vermişdir: «Hüseyn Cavid 1937-ci il iyulun 4-də Az. SSR XDİK-də olan materiallar əsasında Az. SSR CM-nin 72, 73-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilmişdir. İstintaqla müəyyən olunmuşdur ki, Hüseyn Cavid əksinqilabi müsavatçı mövqedə olmaqla Bakıdakı əksinqilabi müsavatçı

[432] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

[433] Yaşar Qarayev. Ədəbi üfüqlər, Bakı, 1985, s. 113-114.

təşkilatın tərkibinə daxil olmuş və müsavatçı pantürkist mövqedə qalmaqla həmin təşkilatın fəalları ilə əksinqilabi əlaqədə olmuşdur. O, Az.SSR-dəki Bakı və Türkiyənin əksinqilabi müsavatçı təşkilatları ilə ədəbiyyat və dramaturgiya sahəsində praktik əksinqilabi iş aparmış, sovet tematikasından bilərəkdən uzaqlaşmışdır. Eləcə də, o, İranda və Türkiyədə tərbiyə və təhsil almaqla, gənc yazıçılara millətçi təsir göstərmiş, onları pantürkist ruhda tərbiyə etməyə və rus ədəbiyyatını bilərəkdən təkidlə rədd edərək onun türk ədəbiyyatına meyil göstərməsinə çalışmışdır.

Təqdim edilmiş ittiham üzrə Hüseyn Cavid özünü təqsirli bilməmişdir. Lakin, o, ittiham edilən T.Nərimanov, B.Çobanzadə, R.Axundov və başqalarının ifadəsinə görə ifşa olunmuşdur. Buna görə də, Az. SSR CM-nin 72, 73-cü maddəsi üzrə Hüseyn Cavidə elan edilən ittihamı sübuta yetirilmiş hesab edirəm və işin SSRİ XDİK-in Xüsüsi Müşavirəsində baxılması üçün göndərilməsinə razıyam».

Bundan sonra 17 mart 1939-cu ildə 3-cü korpusun hərbi prokuroru briqada hərbi hüquqşünası Qusev belə bir nəticəyə gəlmişdir ki, Azərbaycan SSR CM-nin 68, 72, və 73-cü maddələri ilə ittiham edilən H.Cavidin istintaq işinə baxılmaq üçün SSRİ-i yanında XDİK-in Xüsusi Müşavirəsinə göndərilsin[434].

Moskva şəhərində 4 iyun 1939-cu ildə Cavidin işi ilə tanış olan prokuror Pate də hesab etmişdir ki, onun istintaq işi SSRİ XDİK-i yanında Xüsusi Müşavirəsinə verilsin və cəzasını islah-əmək düşərgəsində çəkməklə **SƏKKİZ** il müddətinə azadlıqdan məhrum edilsin.

İyunun 9-da SSRİ XDİK-i yanında Xüsusi Müşavirəyə göndərilmiş 24938 N-li istintaq işinə baxıldı və belə bir qərar qəbul edildi ki, 1882-ci ildə Naxçıvan şəhərində doğulmuş, bitərəf, Hüseyn Abdulla oğlu Rasizadə (Cavid) antisovet təşkilatında və təbliğatında iştirakına görə, cəzasını islah əmək düşərgəsində çəkməklə, vaxtı 4 iyun 1937-ci ildən hesablanmaqla SƏKKİZ il müddətinə azadlıqdan məhrum edilsin.

1939-cu ilin 8 martında Bakı şəhərində mühakimə edilən H.Cavidin sağlamlığını yoxlayan həkim komissiyasının qənaəti aşağıdakı kimi idi:

"Diaqnoz: damarların kirəcləşməsi (skleroz sosudov)

Əmək qabiliyyəti: yararlıdır

Şimal iqliminə davamiyyəti: bacarar"[435].

---

[434] DTX-nin arxivi. H.Cavidin istintaq işi, PR - № 18845.

[435] Yenə orada.

Beləliklə, Cavid doğma Azərbaycanından uzaq Sibirə sürgün edildi və orada dünyasını dəyişdi.

Cavidin ölümü ilə bağlı verilmiş 59 N-li aktda göstərilir ki, 5 dekabr 1941-ci ildə saat 22.30-da hər iki ayağı donduğundan, sepsis vermiş və bu xəstəlikdən böyük şair əbədi olaraq gözlərini yummuşdur.

Məlumdur ki, repressiyalara məruz qalanların böyük əksəriyyəti pantürkizmdə, panislamizmdə – millətçilikdə ittiham edilmişdir. Heydər Əliyev böyük siyasi ustalıqla 59 yaşında pantürkist-millətçi kimi Sibirə sürgün edilən Hüseyn Cavidi 100 yaşında vətənə gətirdi. Sanki o, millətçilərin ən dahisini, ən dühasını vətənə gətirməklə milli hissə və duyğuya malik olan şəxsiyyətlərin hamısının cənazəsini, ruhunu, öz doğma vətənlərinə - Azərbaycana qaytardı.

Bizə elə gəlir ki, xalqın milli mənlik şüurunun formalaşmasına təsir göstərən çox ciddi amillərdən biri də H.Cavidin dönüşü idi.

Heydər Əliyev böyük siyasi ustalıqla 59 yaşında pantürkist-millətçi kimi Sibirə sürgün edilən Hüseyn Cavidi 100 yaşında vətənə gətirdi.

1982-ci ildə Vətənə qayıdan təkcə Cavidin cənazəsi deyil, həm də turançılıq-türkçülük baxışlarımızın özümüzə dönüşü idi.

Vətənə qayıdan təkcə şair-dramaturq Cavid əfəndi deyil, həm də milliliyimiz idi.

Vətənə qayıdan təkcə filosof Cavid əfəndi deyil, həm də dini-irfani düşüncəmiz, sufi-təsəvvüf əxlaqımız idi.

Vətənə qayıdan təkcə şair-dramaturq Cavid əfəndi deyil, həm də milli mənəvi əxlaqi dəyər və sərvətlərimiz idi...

Və nəhayət, cəsarətlə demək olar ki, Cavidin dönüşü, Cavidə dönüşün başlanğıcı idi.

Sanki ulu öndər millətçilərin ən dahisini, ən dühasını vətənə gətirməklə milli hissə və duyğuya malik olan şəxsiyyətlərin hamısının cənazəsini, hamısının ruhunu, öz doğma vətənlərinə - Azərbaycana qaytardı. Lakin Cavid əfəndinin nəşini Sibirdən gətirmək olduqca və olduqca çətin idi. Bununla Heydər Əliyev sovetlər dönəmində mümkün olmayanı mümkün etdi.

Cavidin uzaq ellərə və uzaq illərə necə və nə ilə getdiyini heç kəs bilmədi. Onun uzaq ellərdən və uzaq illərdən dönüşünü isə bütün Azərbaycan sevinc və həyacanla qarşıladı.

***

1923-cü ildə «Yeni fikir» qəzeti yazırdı: «Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır. Şairimiz bir tərəfdə sakit oturub əsərlərini yazır. Tarix isə

qulaq asır və gözləyir. Şəksiz, tarix vaxtında onu sənət mühakiməsinə alacaq, təbiətin ona verdiyi qüdrət və istedadın hesabını istəyəcəkdir»[436].

«Hələ tarix Hüseyn Cavidə əl vurmayıbdır», «Yeni fikir» qəzetinin bu hökmü 1923-cü ilin martında verdiyini nəzərə alsaq onunla müəyyən qədər razılaşmaq olar. Həqiqətən də, (bəzi yazıları istisma etsək) o illərə qədər, demək olar ki, Cavid ədəbi tənqidin diqqətini o qədər də cəlb etməyib. Elə hər şey də ondan sonra başlayıb. Bundan sonrakı illərdə tarix Cavidə nəinki əl vurub, həm də sənət mühakiməsinə çəkib. Belə ki, 1923-cü ildən etibarən sənət mühakiməsi Cavidi bütün yaradıcılığı boyu izləyib və bu yalnız onun sənəti ilə məhdudlaşmayıb. Cavid əfəndini ədəbi mübahisələrdən ədəbi mühakimələrə, ədəbi mühakimələrdən ədəbi məhkəmələrə, ədəbi məhkəmələrdən senzor qadağalarına, senzor qadağalarından NKVD məhbəsinə qədər aparıb çıxarıb. Onu da qeyd etməliyik ki, Cavidin sənəti öz müəllifinə xəyanət etməyib, onu tarixin bütün mühakimələrindən, hətta məhbəsdən belə üzü ağ, alnı açıq çıxararaq əbədiyyətə qovuşdurub, **CAVİDLƏŞDİRİB.**

Başqa sözlə desək, 1920-ci illərin əvvəllərindən Cavid tarixə, tarix isə ədəbi tənqid vasitəsilə Cavidə əl vurub. Ədəbi tənqid Cavidi ikiləşdirib, özgələşdirib, təhrif edib, Cavid isə tarixə və tarixi şəxsiyyətlərə xəyanət etməyib. Zamanından və məkanından asılı olmayaraq, həm şəxsiyyət kimi özünün və ədəbi-tarixi qəhrəmanlarının bütövlüyünü qoruyub saxlayıb.

Cavid və tarix mövzusuna müraciət edən tədqiqatçılar, demək olar ki, həmişə və hər yerdə mütəfəkkir şəxsiyyətin tarixə və tarixi qaynaqlara sədaqətini önə çəkiblər. Belə bir hökmü də mübahisəsiz qəbul etməliyik ki, Cavid tarix yazmayıb, əsər, dram yazıb.

Bizi Cavidin tarixə sədaqəti yox, tarixə nə zaman və nə üçün müraciəti düşündürür. Tərəddüd etmədən demək olar ki, Cavidin tarixə və tarixi şəxsiyyətlərə müraciəti, hər şeydən əvvəl, ədibin tarixi yaddaşa müraciətidir. Bu tarixdə yalnız tarixi hadisələr və tarixi şəxsiyyətlər iştirak etmir, burada xalqın və millətin taleyi iştirak edir, həm də yalnız uzaq və ya keçmiş tarix yox, elə həm də Cavidin mövcud olduğu, içində yaşadığı və ondan sonrakı tarix. Ona görə də, cəsarətlə demək olar ki, Hüseyn Cavidi milli tarix və çağdaş milli tale paralel olaraq düşündürüb. Lakin Cavid əfəndinin milli tarix və milli tale düşüncəsi bizim bilgilərimizdən xeyli fərqlidir və o, Azərbaycanın, ümumilikdə türkün müasir coğrafiyasından çox-çox genişdir.

[436] «Yeni fikir» qəzeti, 1923, 4 mart.

Cavidşünas alim professor Kamran Əliyev haqlı olaraq yazır: «H.Cavidin tarixə yanaşması bir çox sənətkarlarda olduğu kimi, tarixi hadisədən və tarixi faktdan istifadə və yararlanmaq vasitəsi deyil. H.-Cavidin tarixə baxışı fövqəladə istedada malik sənətkar şəxsiyyətinin qeyri-adi fəhmindən doğulan və istər Azərbaycan, istərsə də dünya ədəbiyyatı klassiklərindən heç kəsi təkrar etməyən fəlsəfi bir sistemdir»[437]. Əsas məsələ də bu sistemdədir. Nə idi bu sistemin mahiyyəti? Bu sistem vasitəsi ilə Cavid əfəndi gələcək nəsillərə hansı mesajı göndərirdi?

Məlumdur ki, mütəfəkkir şair, görkəmli dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri və mövqeyi olan əvəzsiz ədəbi simalardandır. Öz yaradıcılığı ilə H.Cavid Azərbaycan dramaturgiyasının mövzu və janr sərhəddini genişləndirmiş, romantik tragik qəhrəmanların kamil obrazlarını yaratmışdır. O, ilk dəfə olaraq şəri – iblisi (həm də üç dəfə) bədii əsərin qəhrəmanına çevirmiş və sərlövhəyə çıxarmışdır. Bütün bunlarla yanaşı H.Cavid Azərbaycan ədəbiyyatı tarixinə və Azərbaycanın teatr səhnəsinə mənzum və həm də tarixi mənzum əsərləri ilə daxil olmuş, onu humanist, milli və bəşəri ideyalarla daha da zənginləşdirmişdir. Cavidin mənsur dramları klassik dramaturgiyamızın janr ənənələrinin davamı idisə, Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə müraciət olunan mənzum dramlar isə ədibin janr və mövzu novatorluğu idi. Dünya ədəbiyyatından milli ədəbiyyatımıza gətirdiyi orijinal, romantik dramları ilə o, mənzum dramaturgiyanın banisi olmaq səlahiyyətlərini də öz əlinə aldı. Cavid Azərbaycan ədəbiyyatına yalnız mənzum dramlar gətirmədi, eyni zamanda dünya ədəbiyyatının klassik nümunələri ilə səsləşən mənzum ədəbi-tarixi əsərlər gətirdi.

Cavidşünasların aşağıdakı fikirləri ilə razılaşaraq deməliyəm ki, həqiqətən də H.Cavid tarixi və tarixi şəxsiyyətləri təhrif etməmiş, ona axıradək sadiq qalmışdır. Doğrudur, Cavid tarixi təhrif etmədi, lakin totalitar rejimin marksçı-leninçi tənqidçiləri ondakı sufi-irfani düşüncəni, təsəvvür fəlsəfəsini, tarixə, yaddaşa, şəcərəyə, türkçülüyə və islami dəyərlərə sədaqətini təhrif etdilər. Cavidşünaslığın son mərhələsinin tədqiqatçıları yalnız Cavidin tarixi şəxsiyyətlərini sintez-analiz etmir, həm də tarixi şəxsiyyət olan H.Cavidin öz yaradıcılığını sovet ehkam və stereotiplərindən təmizləyir. Məkan və zaman amilinə toxunan tədqiqatçılar Cavidin Orta Asiyadan, İrandan, Türkiyədən və vaxtı ilə

[437] Əliyev K. Hüseyn Cavid: həyat və yaradıcılığı, Bakı, 2008, s. 146.

Cavidi «köhnə mövzular yaratmaqda», «tarixi romantizmə qapılmaqda», «Teymuru idealizədə», «tarixi hadisələri qarışdırmaqda», «sosializm qatarına əyləşməməkdə» və s. kimi konyuktiv, birqütblü sənət mübahisələrinə tutarlı elmi cavabı da sonuncu mərhələdə yazılmış əsərlərdə tapmaq olur. Lakin bu da etiraf olunmalıdır ki, ədəbi-tarixi əsərləri obyektiv şəkildə qiymətləndirmək və sovet tənqidçilərinin deyə bilmədiklərini dəyərləndirmək baxımından mühacirətdə yaşayan Azərbaycan ziyalılarının bəxti gətirmişdir. Belə ki, onların bir çoxu Cavidin atqatda gizlətdiklərini, üstüörtülü şəkildə dediklərini görməyi və göstərməyi bacarırdı. **«Peyğəmbər» Hüseyn Cavid bəyin sair əsərləri kimi aydın, şirin, təmiz türkcə ilə mənzum olaraq yazılmış dahiyanə bir əsərdir… Hüseyn Cavidin «Peyğəmbər»ini oxuyarkən islamiyyət, qüdsiyyət və əzmiyyəti, bəşəri, müqəddəs bir iman yolunda mübarizə və mücadilə etmək duyğusu bütün varlığımı bürümüşdü. Təsəvvür edirəm «kommunizm əlifbası»ndan başqa sair əsərləri oxumamağa məhkum edilən Azəri gəncliyi üçün şu qaranlıq qanlı istibdad günlərində «Peyğəmbər» nə qədər ümid mənbəyi, iman və təsəlli tələqinçisi olacaqdır.**

«Peyğəmbər» doğurdan da bir Peyğəmbərdir ki, hər bir həqq və hürriyyətin, şərəf və insanlığın məhv edildiyi bir dövrdə zühur etmiş azğın və «qızıl müşrikləri» doğru yola dəvət ediyor.

«Peyğəmbər» doğurdan da bir «Altun kitabdır» ki, bu gün məzlum və məhkum Azəri xəlqinə kəndi dilində islamiyyəti və insanlığı tələqin ediyor, onlara mübarizə, qurtuluş və hürriyyət yolunu göstəriyor. (Mirzə Bala Məmmədzadə)

Mirzə Bala Məmmədzadənin bu sözlərindəndə aydın görünür ki, Cavid əfəndinin tarixə və tarixi şəxsiyyətlərə müraciəti təsadüfi olmamışdır. Həqiqətən də, Cavid «Peyğəmbər»i elə bir dövrdə (1923-cü ildə) yazmışdır ki, artıq dini dəyərlərə qarşı «Allahsızlar cəmiyyəti»nin xətti ilə ateizm təbliğatı adı altında səlib yürüşü başlanmışdı. Cavid əfəndi «Peyğəmbər» əsərində Peyğəmbərin dili ilə yalnız VII əsrin deyil, elə həm də XX əsrin astanalarının ictimai-siyasi mənzərəsini verir.

Öylə bir əsr içindəyim ki, cihan
Zülmü vəhşətlə qavrulub yanıyor.
Yüz çevirmiş də Tanrıdan insan,
Küfrü haq, cəhli mərifət sanıyor.
Dinləməz kimsə qəlbi, vicdanı,
Məhv edən haqlı, məhv olan haqsız…

Başçıdır xalqa bir yığın cani,
Həp münafiq, şərəfsiz, əxlaqsız.
Gülüyor nurə daim zülmət,
Gülüyor fəzlə qarşı fisqi fücur.
Ah, ədalət, hüquq və hürriyət
Ayaq altında çignənib gediyor.

«Peyğəmbərin bu bədbin həbsi-halındakı qaranlıq tablonu sovet tənqidçiləri, təbii ki, kapitalist və burjua aləminə aid edirlər. Lakin oxucu və ya tamaşaçılar burada «kommunist cənnəti» içindəki reallıqları görürlər. Bir dəstə cahillərin ayaqları altında insanlıq haqlarını tapdalayanlar onlar deyilmi? «İmansızlıqda həqiqət» və «biliksizlikdə mərifət» görənlər onlara hakim olan xamlar onların özləri deyilmi? «Zülmü vəhşətlə qovrulub yanan» ölkə onların öz yurdlarıdır!»[438]

İnsanın Tanrıdan üz çevirməsi, Məhəmməd peyğəmbərin dövründən daha çox Cavidin öz dövrünə aiddir. Peyğəmbərin dövründə tanrını tanımağa dəvət, Cavidin dövründə isə artıq yüz illiklər boyu tanınan və qəbul edilənin - ALLAHIN inkarı prosesi gedirdi. Belə bir dövrdə Cavid tarixə, yaddaşa üz tutur və İslamın yaranmasında Məhəmməd peyğəmbərin və onun tərəfdarlarının mübarizə və mücadiləsini gündəmə gətirir, dini dəyərlərimizi qorumağa səsləyirdi. Bu Cavidin bolşevizmə və onun yeritdiyi siyasətə qarşı yönəlmiş ilk üsyanı idi, desək yanılmarıq.

***

1920-ci ilin tənqidi Cavidi "Leniniana" yazmağa, "həyatın nəbzini tutmağa" çağırırdı. Cavid isə "Leniniana"nı deyil, "Teymurnamə"ni yaradırdı, buna görə də zaman və zamanı idarə edənlər tərəfindən "döyülürdü". Doğrudur, Topal Teymur da şair Kirmaniyə "Teymurnamə" yazdırırdı. Fərq oradadır ki, XIV əsrin Teymurunun "Sənin kimi dəyərli simaların qiyməti anlaşılsaydı, mənim kimi topallar soldakı sıfır qədər mənasız qalardı" - deyə qiymətləndirdiyi şair Kirmanini XX əsrin Teymuru (Stalini, Mir Cəfər Bağırovu –C.Q.) məhv edirdi. XIV əsrin Teymurunda tiranlığın, topallığın, "məğrurları əzmək üçün yaradılmış bir allah bəlası" olmağın etirafı və acı dərki, XX əsrin Teymurunda (Stalinində) insan öldürməyin, qan tökməyin böyük həvəs, ehtiras və qüruru duyulurdu. Hətta «Teymurnamə» müəllifi şair Kirmani Teymur

[438] Məmməd Əmin Rəsulzadə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi, Bakı, 1991, s. 63.

haqqında həcv yazanda belə ondan mükafat alardı. Cavidlər isə XX əsrin Teymurunun üstüörtülü şəkildə kiçik bir qüsurunu göstərəndə belə yalnız bolşevik tənqidçilərin deyil, bolşevik hakimlərin və bolşevik müstəntiqlərin də qəzəb və kini ilə rastlaşardı. Bütün bunları Divan bəyinin dediyi sözlərdə də görürük: «Şair Kirmani böyük ruhişünasdır. O, pək gözəl biliyor ki, Teymur hökümətləri yıqar, məmləkətləri yaqar; ən məğrur hökmdarları əzər, ən şücaətli qəhrəmanları qəhr edər, fəqət dəyərli şair və ədiblərə, alim və fazil şəxslərə qarşı da o nisbətdə hörmət və məhəbbət bəslər».

Teymurun dövründə bəxtiyar olan şair, Cavidin dövründə isə bəxtiyar olan hökmdardır. Tiran adlandırdığımız Teymur ziyalı ilə, şairlə davrananda öz yerini bilir. Onu nəinki əzmir, hətta təhqir belə etmir. Teymur insan taleyi ilə oynayanda (müharibə etmək istəyəndə) şura çağırır, başqalarının fikirlərinə hörmətlə yanaşır və qərar qəbul edir. Cavidin dövründə isə repressiv aksiyaları həyata keçirənlər (repressiyalarda ölənlərin sayı müharibələrdə ölənlərdən heç də az deyildi – C.Q) şurasız-filansız, hətta istintaqsız və məhkəməsiz qərar qəbul edirdi. Teymur təkəbbürlüləri və məğrurları, Stalin isə aqilləri və müdrikləri əzmək üçün göndərilmiş bir allah bəlası idi.

M.C.Bağırov XIII qurultayda deyirdi: "Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdi. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi və başqa əclaflar". Qurultaydan səslənən bu fikirlər sadəcə söz deyildi, həm də təcili olaraq icrası təmin edilməli ölüm hökmü idi.

Sanki Əmir Teymur Mir Cəfərin bu sözlərini eşidərək üzünü ona tutur və deyirdi: "...bən şimdiyə qadar qurultaysız, şurasız bir şey yapmadım, çünki şurasız bir məmləkət cahil bir şəxsə bənzər ki, tutduğu işlər, söylədiyi sözlər həp nədamət və fəlakət doğurur. Bən daima həkim və aqil şəxsləri dinlədim, böyük sərdarlar ilə müşavirə yapdım. Yalnız hərb ilə mübarizəyi deyil, sülh mənafeyini də düşündüm. Əvət, bən şu nihayətsiz ölkləri gah tədbir və siyasətlə, gah sülh və məhəbbətlə, gah təhdid və şiddətlə, gah əfv və mülamiyyətlə idarə etmək istərim. Bən hər işdə səbat və istiqaməti sevdiyim kibi, həzm və ehtiyatdan da xoşlanırım, lazım gəlirsə, bəzən düşmanlarıma qarşı səbr və təhəmmül göstəririm, bəzən də qafil və cahil görünməkdən zevq alırım"[439].

Bu sözləri böyük bir imperiyanın başında duran, dünyanı diz çökdürən Əmir Teymur deyir. O, Teymur ki, qafil və cahil görünəndə də

[439] Hüseyn Cavid. Əsərləri (tərtib edəni Turan Cavid), 5 cilddə, III cild, Bakı, 2005, s. 261-262.

daima həkim və aqil şəxsləri dinləyir. Bəşəriyyətə "Bütün ölkələrin proletarları birləşin!" şüarı ilə müraciət edən kommunizm qurucuları isə intellekt təfəkkür sahiblərini məhv edirdilər. Daha dəhşətlisi o idi ki, xüsusilə 1920-ci illərdə Azərbaycanın bir çox əraziləri havadarlarının sayəsində ermənileşdirilirdi. Bunları görən Cavid əfəndi türkün səhnəsinə Teymuru gətirir.

H.Cavid bolşeviklər «panturanizm», «pantürkizm» adı ilə turançılığımızı, türkçülüyümüzü təhlükə altına qoyanda iki böyük türk sərkərdəsini, «türklüyün ümumi qəhrəman tipi»ni (M.Ə.Rəsulzadə) Teymuru və Bəyazidi səhnəyə gətirir. Cavid bir tərəfdən bu iki hökmdarın türkçülüyə vurduğu zərbələri, digər tərəfdən isə onların dövründə türkün qüdrətini önə çəkir, əcdadla baba, babayla nəvə arasındakı genetik əlaqələri daha tutarlı tellərlə bağlamağa çalışır. Cavidin Teymura müraciəti bir tərəfdən orta əsrlərdə turkün qüdrətini göstərmək idisə, digər tərəfdən də XX əsrdə onun düşdüyü vəziyyəti nəzərə çapdırmaq idi. Türkü türkə qarşı qoymağın ağır fəsadlarını bu böyük türk sərkərdələrinə bağışlamayan Cavid əfəndi Əmir Teymuru "topal", Yıldırım Bəyazidi isə "kor abdal" adlandırır. Bu mənəvi korluq və mənəvi topallıq bizi imperiyadan əyalətə çevirdi. Cavid bununla türk xalqlarının mənəvi birliyini və mənəvi ittifaqını istəyirdi.

***

1920-30-cu illərin tənqidçiləri Cavidi «Azərbaycan inqilabının altıncı ilində… fəthlər yaparkən insan qafalarından ehramlar tikən Teymurləng kimi bir tipi idealizə etməkdə» də (M.Quliyev), "Teymur kimi qəddar bir istilaçını və o zamankı həyatı ideallaşdırmaqda" (M.K.Ələkbərli) günahlandırırdılar. 1960-cı illərin tənqidi də həmin fikri təsdiqləyir və bəlkə bir qədər də irəli gedərək Cavidi qövmi təəssüfkeşlikdə suçlayırdı: «Bu illərdə Caviddə belə bir qənaət vardı ki, avropalılar öz isgəndərlərini, napoleonlarını idealizə edib göylərə qaldırdıqları, onların şəninə abidələr, heykəllər, bədii əsərlər yaratdıqları halda nə üçün Şərq xalqları öz böyük şəxsiyyətlərini qiymətləndirməsin, onlar haqqında əsər yazmasın, onlara abidələr, heykəllər qoymasın? Əgər Cavidin bu fikri həqiqətən bir vətənpərvərlik hissi olsaydı, əgər onu babəklər, cavanşirlər, səttərxanlar düşündürsəydi, ruhlandırsaydı, biz hər zaman bu haqlı təəssübkeşliyə görə şairi alqışlaya bilərdik. Lakin Cavid «Topal Teymur» əsərində bu həqiqətdən çox-çox uzaqlaşmış, Şərqin və öz vətəninin həqiqi qəhrəman oğulları ilə deyil, Şərqdə, o cümlədən Azərbaycanda faciələr törədən, dünya xalqlarına böyük bəla kəsilən

teymurlarla, çingizlərlə ruhlanmış, onları hörmətə layiq qəhrəman saymışdır. Buna görə də həqiqətdə bu yerli, haqlı bir təəssübkeşlik deyil, məhz Cavidi hələ 20-26-cı illərdə də tamamilə tərk etməyən, türkçülük fikirləri qalıqları ilə əlaqədar olan mənasız və zərərli bir qövmi təəssübkeşlik idi»[440].

1980-ci illərin tənqidi isə burada idealizə olmadığını iddia edir və əsas arqument onu gətirirdilər ki, əgər belə olsaydı, Cavid Teymura "topal" deməzdi. Həmin illərin qəbul olunmuş tənqidi fikri belədir: «Cavid Teymurun bütün bioqrafiyasının faktlarını məsxərəçi-təlxəyin dili ilə sadalayır: «Əvət, mənəm cahangiri-dahi!..», «Mənəm hərb allahı!», «Mənəm sarsılmaz imperator!». Bu «dahi», «imperator», «allah» sözlərinin arxasından isə axsayan liliputun-təlxəyin-»Cücə»nin vücudu görünür. Etiraf edək ki, Teymuru belə bir məsxərənin hədəfi etmək «idealizə» janrı və üslubu üçün həddən ziyadə qeyri-münasib bir bədii vasitədir. Elə topal sifətini Teymur adı ilə yanaşı qoyub sərlövhəyə çıxarmaq (Teymur, Teymurləng, Tamerlan haqqında yazılmış digər əsərlərin adında biz belə birləşməyə rast gəlmirik) özü çox şey ifadə etmirmi?»[441].

Həqiqətən də, müəllif öz qəhrəmanını idealizə etməmişdir. İdeal qəhrəman məsxərəyə qoyularmı? Şübhəsiz ki, yox. Fikrimizcə, əsərdə Teymuru məsxərə üçün seçilmiş Cücə də Cavidin tapıntısı hesab olunmalıdır. Əks təqdirdə başqa bir obrazın dili ilə (Teymur özü istisna olmaqla) Teymuru ittiham bu qədər təsirli və inandırıcı çıxmazdı. Ümumiyyətlə, nəyin və ya kiminsə idealizəsi obyektivlikdən uzaq düşmək, obyekti olduğundan daha güclü, daha şişirdilmiş formada verməkdir. Cavidin seçdiyi qəhrəmanlar, Məhəmməd, Səyavuş, Xəyyam... eləcə də Teymur idealizədən tamam ilə uzaqdırlar. Əgər Cavid Teymuru idealizə etsəydi onun göstərdiyi qəhrəmanlıqlarla dolu hərbi yürüşlərini, cahangirlik və cəngavərlik səhnələrini qələmə alardı. O isə bunların əksinə olaraq iki böyük türk sərkərdəsinin apardığı müharibəni daha çox qabartmışdır.

Belə bir əsəri yazmağa Cavidi nə vadar etmişdi? Bu barədə tənqidin yekdil fikri olmasa da tədqiqatçılar daha çox aşağıdakı fikirləri təqdir edirdi: "...Cavid nifrət və lənət etdiyi "qan püskürən, atəş sovuran" "şahlar, ulu xaqanlar" haqda da mədhiyyə yaza bilməzdi. Teymurləng də

[440] M.Cəfər. Hüseyn Cavid, Bakı, 1960, s. 177.
[441] Y.Qarayev. Ədəbi üfüqlər, Bakı, 1985, s. 150-151.

bu məqsədlə seçilməmişdi. Cavid "İblis"də şəri şər dühasının – iblisin dili ilə təhlil və tənqid etdiyi kimi, "Topal Teymurda"da eyni üsuldan istifadə edir: tiranları ifşa üçün tiranların ən zalımını və ən dahisini-Teymuru seçir!"[442]

Bizcə, bu əsərdə Cavid Teymurda özünün turançılıq ideyalarına zidd cəhətlər gördüyünə görə müraciət etmişdir. Cavidi Teymurdakı tiranlıqdan daha çox (Cavid ümumiyyətlə tiranlığın əleyhinə idi), əcdadlarından – hunlardan, avarlardan, Göy türklərdən, oğuzlardan və nəhayət, Çingiz xandan miras qalmış turançılığın zəifləməsi və süqutu narahat edirdi. Başqa bir mühüm məqam ondan ibarət idi ki, sovetləşmə illərində turan elləri yenidən, bu dəfə başqaları tərəfindən işğala məruz qaldı. Həm də dili, dini, mədəniyyəti, mütəfəkkir şəxsiyyətləri və torpaqları ilə birlikdə. Cavid görürdü ki, bir kökdən, bir gendən olanlar bir-birindən uzaq salınır, ayrı-ayrı millətlər kimi tanıdılır və yadlaşdırılır. Türkçülüyün ideoloqlarından və təəssübkeşlərindən olan Cavid əfəndini daha çox düşündürən və narahat edən də bu taleyüklü məsələlər idi.

Burdan belə bir nəticəyə gəlmək olmaz ki, Cavid Teymuru başqa millətləri deyil, məhz türkü türkə qırdırdığına görə ittiham edirdi. Yox, Cavid "ümumi məhəbbət" fəlsəfəsinə burada da sadiq qalırdı. O nəinki türkün, bütövlükdə insanın öldürülməsinə razı deyildi.

Cavidin turançılığında bəşəriyyət üçün qorxu törədə biləcək heç nə yoxdur. Çünki Caviddə turançılıq məkan və ərazi bütövlüyünə, torpaq iddiasına, coğrafi hüdudların genişləndirilməsinə yox, bütün türkdilli xalqların mənəviyyat, əqidə, ünsiyyət, ədəbiyyat, din və mədəniyyət bütövlüyünə xidmət edirdi.

Turana qılıncdan daha kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!

- deyən Cavidin turançılıq fəlsəfəsinin məzmununda və mahiyyətində, mündəricəsində və siqlətində də yalnız bunlar dayanır və estetik amala çevrilirdi. Cavidin fikrincə, Teymur bir hökmdar kimi turançılığı işğal və müharibələr yolu ilə deyil, türkü türkə dost etməklə qorumalı idi. Bu isə Teymurun xislətinə yad idi, ona görə ki, o, turançılığın ideoloqu deyil, «hərb allahı», sərkərdə idi. Özünü «hərb allahı» elan etmiş tiranlar isə tarixin yaddaşında yaradan, quran kimi deyil, dağıdan, viran edən diktatorlar kimi qalıb. Əslində Teymur da

[442] Qarayev Y. Ədəbi üfüqlər, Bakı, 1985, s. 148.

tiranlığını, dəli topal olduğunu Yıldırım Bəyazid qarşısında etiraf edir: «Sən kor bir abdal, mən dəli bir topal! Əgər dünyanın zərrə qədər dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı yox məmləkətlərə… sənin kimi bir kor, mənim kimi bir topal müsəllət olmazdı»[443]. Yıldırım bəyazid «dəli» və «abdal» ifadəsini Teymurdan əvvəl Cücədən (təlxəkdən) eşidir. Bu sözlər onu silkələsə də təlxək sözüdür deyə ciddiyə almır.

Əsərin sonunda Teymurun "əcaba məğrur Yıldırım nə düşünüyor?" sualına Y.Bəyazid belə cavab verir: "Düşünəcək bir şey yox. Əvət, sən qalibsin. Lakin bu qələbə türk əqvamının deyil, yalnız fürsət bəkləyən qonşu hökumətləri məmnun etdi (acı bir köks keçirdikdən sonra, pək mütəəssir və şiddətli). Ah, daha doğrusu islam aləmini başsız qoydu"[444]. Yıldırım Bəyazidin türk və ya islam təəssübkeşi kimi görünməsi ona bəraət qazandırmır. Əksinə onu bir qədər də yazıq və aciz göstərir. Əsər boyu onu ölkənin və ya islamın taleyi deyil, başına topladığı məstedici xanımlar və xumar gətirən şərablar narahat edib. O yalnız bir dəfə – məmləkətin böyük bir hissəsi əldən getdikdən sonra ayılıb və vəzirinin «Mən sultanımı kefsiz görürəm» - sözlərinə, «Kefli vəzirlərin sultanı da kefsiz olar!» cavabını verib. Əslində isə Yıldırım Bəyazidi kefsiz edən vəzirin sərxoşluğu deyil, özünün daima kefli olması və kefli vəzirləri başda əyləşdirməsi idi. Ona görə də, turançılığa vurulmuş zərbədə Yıldırım da Teymur qədər məsuliyyət daşıyır.

Maraqlıdır ki, Caviddəki turançılıq ideyalarını 20-ci illərin tənqidi görmüş, göstərmiş və bununla şairi ittiham etmişdir. Ədibin bəraətindən sonrakı illərdə isə turançılıq ideyası tədqiqat obyektindən kənarda qalmışdır. Daha doğrusu, sosializmin sonrakı mərhələlərində də turançılıq tamamilə zərərli və mürtəce bir ideya kimi təbliğ olunduğundan, Cavid sənətinin böyüklüyünə "xələl gətirən və onu yenidən ittiham obyektinə çevirə biləcək faktor olduğuna görə" tədqiqatçılar bu məsələyə, demək olar ki, düşünülmüş surətdə toxunmamışlar. Belə demək mümkünsə Cavidi qorumuşlar.

H.Cavid «dram əsərlərinin əksəriyyətini şeirlə yazmış, öz şairlik istedadını, qələm qüdrətini də ən çox bu sahədə göstərmişdir. O, şeiri səhnəyə gətirən, səhnədə yüksək ahəngli şeir dilini dəb salan, bu cəhətdən klassik dünya dramaturgiyasının yaxşı ənənələrini bizim ədəbiyyatda əsaslandıran, beləliklə də öz xələflərinə güclü təsir göstərən

[443] H.Cavid. Əsərləri, 5 cilddə, III cild, Bakı, 2005, s. 302.
[444] Yenə orada.

qüdrətli sənətkardır»[445]. H.Cavidə qədər Azərbaycan dramaturgiyası və Azərbaycan səhnəsi nəsr dilində, Cavidlə isə həm də poeziya dilində danışmağa başladı. Yəni mənzum dramı Azərbaycan dramaturgiyasına gətirən H.Cavid oldu. Bununla Cavid bir tərəfdən klassik dram ənənələrini davam etdirirdisə, digər tərəfdən novotorcasına Avropa ənənələrini ədəbiyyatımıza gətirirdi. Onun belə mənzum dramlarından biri də Şərqin mütəfəkkir filosof şairlərindən Ömər Xəyyama həsr olunmuşdur. Daha doğrusu, Cavid əfəndinin 1935-ci ildə sənət və sənətkarları təkləyən total mühitə etiraz və üsyan aktı kimi mənən, fikrən sərbəst olan Xəyyama müraciət edir. Cavidə Xəyyamın ideya üsyanı lazım idi. Başqa sözlə desək, milli mənəvi dəyər və sərvətlər, sənət və sənətkar təhdidə, təhlükəyə məruz qalanda Cavid zəmanəsinə müxalifətdə olan Xəyyamı elmi təfəkkürü və rübailəri ilə birlikdə XI əsrdən XX əsrin teatr səhnəsinə gətirir. Akademik İsa Həbibbəyli haqlı olaraq yazır: «Cavidin dramaturgiyası «Xəyyam» dramı ilə tamamlanır. «Xəyyam» dramı ədibin yaradıcılığını təkcə xronologiya baxımından deyil, ideya-bədii cəhətdən də tamamlayır. Bu əsərdə Cavid böyük şair və mütəfəkkir Ömər Xəyyamın simasında dövrünün fövqünə yüksələ bilən bir romantik qəhrəmanı canlandırmışdır. Xəyyamın ayıq şübhələri və həyat eşqi Cavidə sənətkar və cəmiyyət probleminə münasibətini ifadə etmək üçün münasib şərait yaratmışdır. Böyük türk hökmdarı Alp Arslanın və onun oğlu Məlik şahın elmi-ədəbi fəaliyyət üçün yaratdığı münbit mühitin Xəyyam kimi sənətkarı yetişdirə biləcəyini vurğulayan müəllif sanki məntiqi mənada yeni qurulmuş sovet dövrlərində bütün bunları tapa bilmədiyini vurğulamışdı. Qanlı-qadalı repressiya rejiminin başlanması ərəfəsində irəli sürülən bu ideya xeyirlə şərin əzəli-əbədi mübarizəsinin yeni şəraitdəki əks-sədası kimi səslənirdi»[446].

Dramaturq sərlövhəyə çıxarılmış qəhrəmanları ilə yanaşı (Peyğəmbər, Topal Teymur, Xəyyam) digər tarixi şəxsiyyətlərin də bədii obrazını yaradır. Belə ki, Həzrəti Əli, Fatimə, Şəmsa, Ömər, Yıldırım Bəyazid, Əli Paşa, Şair Kirmani, Şeyx Buxari, Xacə Nizam, Alp Arslan, Məlik şah və başqaları dediklərimizə sübutdur. O, əsərdəki yardımçı obrazlara da münasibətini bildirir və onların da tarixdə mövcudluqlarını mənbələrin verdiyi faktlara söykənərək təsdiqləyir. Məsələn, Cücə obrazı. Həqiqətən də, tarixdə hökmdarları əyləndirən cücələr və ya təlxəklər olmuşdur. Cavid əfəndi isə Cücə vasitəsilə həm hökmdarı əyləndirir, həm saraydakı (oxu iqtidardakı – C.Q.) eybəcərliklərə gülür,

[445] Mir Cəlal, Firudin Hüseynov. XX Azərbaycan ədəbiyyatı, Bakı, 1982, s. 354
[446] İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik, Bakı, 2007, s. 216.

həm də bundan ədəbi fənd kimi istifadə edərək Teymurun və ya Bəyazidin tərcümeyi-halını da verə bilir.

Göründüyü kimi, Cavid tarixi qəhrəmanlarını mühiti ilə birlikdə öz yaşadığı dövrə gətirir və hər iki mühit arasındakı oxşarlıqları da tarixilik və müasirlik güzgüsündə real boyalarla təsvir edir. Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, Cavid «Peyğəmbər» əsəri ilə ateizm təbliğatının gücləndiyi bir dövrdə dini dəyərlərimizin, «Topal Teymur»la pantürkizm adı altında təqib və təzyiqlərə məruz qalan türkçülüyümüzü, «Xəyyam»la isə totalitar rejimlərin belə əzə və məhv edə bilmədiyi sənətin, milli mənlik şüurunun ölməzliyini və əbədiliyini sübuta yetirirdi. Fikrimizcə, H.Cavidin tarixi dramlarının sovetlər dönəmində yazılması və Cavidin uzaq və yaxın tarixə müraciəti əsasən bu amillərlə bağlıdır. Bütün bunlar Cavidin romantik-dramatik ənənəyə sədaqətindən daha çox, genetik koda, şəcərəyə, əcdada, tarixə, yaddaşa türkə və türkçülüyə, folklora, eləcə də islami və bəşəri dəyərlərə sədaqəti idi.

***

Repressiyanın tırtırları altından salamat çıxanları isə sovet totalitar rejimi H.Cavidin vəsiyyətinə uyğun («imlasına toxunmamalı») şəklində çap etdirməyə imkan vermədi. Gah dilini, gah üslubunu, gah da məzmununu bəhanə gətirərək Hüseyn Cavidin imlasına çox toxundular və onu olduğu kimi təqdim etməyə şərait yaratmadılar. Turan xanım bildirirdi ki, 1958-ci ildən etibarən nəşr edilməkdə olan kitablarını istisnasız olaraq mən tərtib etsəm də, dilinin, imlasının qorunması naminə göstərdiyim bütün cəhdlər uğursuzluqla nəticələnib. Bəzən Mərkəzi Komitə, bəzən Yazıçılar İttifaqı, bəzən də nəşriyyatlar səviyyəsində yaradılan əngəlləri ortadan qaldırmaq mümkün olmayıb. Cavid əsərlərinin indiyə qədərki bütün nəşrlərinin redəktələrini onun dilinə kobud müdaxilədən başqa nə adlandırmaq olar? Cavid yaradıcılığına bəzən hətta kobud zorakılıq səviyyəsində müdaxilələr çox olub. Bu baxımdan təkcə «Hərb və fəlakət» şeirini xatırlatmaq bəs edər. Şeir əslində üç hissədən ibarətdir. 1958-ci ildə onun yalnız birinci hissəsi, 1984-cü ildə nəşr olunan dördcildlik «Əsərlər»də də birinci və üçüncü hissələri çap olunub. «Hərb və fəlakət»in başlıca qayəsi isə onun ikinci hissəsində ifadə olunur. Bu, artıq imla məsələsindən daha ciddi bir problemdir. Yaxud, 1918-ci ildə yazdığı və bütün digər nəşrlərdə «Məzlumlar üçün» başlığı ilə verilmiş şeirin əsli «Kars və Otlu ətrafında səbəbsiz (!?) olaraq alçaqcasına qətl və

yəğma edilən məzlumlar için» adlanır[447]. Bundan başqa, Cavidin reablitasiyasından sonra işıq üzü görən üç cilidliyinə onun bəzi əsərləri («Topal Teymur», «Peyğəmbər» və s.) salınmadı.

Oxucularda tam aydınlıq yaratmaq üçün vaxtı ilə repressiyaya məruz qalmış (montaj olunmuş) «Hərb və fəlakət» əsərindəki Turanın qüdrətini və sonradan türkün çəkdiyi zillətləri əks etdirən ikinci hissəsini olduğu kimi təqdim edirik:

Bir zamanlar şərəfli Turanın,
O cihani ğəyuri qavğanın
Qəhrəman, bərgüzidə evladı,
Türklərin anlı-şanlı əjdadı
Saldırıb titrətirdi yer yüzünü,
Hökm edər, dinlətirdi hər sözünü.
Nə zaman kişnəsəydi türkün atı,
Qırılırdı bir ölkənin qanatı.
Həp krallar, prenslər, xanlar,
Ulu şahlar, kibirli xaqanlar,
Papalar, həp xəlifələr hər gün
Diz çökərlərdi türkə qarşı bütün
Çünki parlardı ərlərin qılıncı,
Həpsi qartal kibiydi saldırıcı.
Həpsi bir zevq alırdı qüvvətdən,
Ululuqdan, müzəffəriyyətdən.
Bunu gördükdə qomşu devlətlər,
Məmləkətlər, zavalı millətlər
Həp boyun bükdü, türkə yalvardı,
Mərhəmət gördü… canın qurtardı.
Sonra lakin bu mərməhət, bu aman,
İşdə tarix!.. Türkə verdi ziyan.
Qavrulub əski sızlayan yaralar,
Fışqırıb durdu odlu qumbaralar.
Mərhəmətkarı mərhəmətlə deyil,
Qəhrü şiddətlə qıldılar tənkil.
Böylə dəhşətli, qanlı mənzərələr,
Hər zaman eyləməkdə cəlbi-nəzər
İşdə bir levhə! Görmək istərsən,

[447] H.Cavid. Əsərləri, 5 cilddə, I cild, Bakı, 2005, s. 4.

Baq da gör!.. Ah bir baqıb görsən?!
O şəhamətli türkün evladı
Şimdi torpaq yiyor da, fəryadı
Çıkmış əflaka, həp yanar, sızlar.
İştə baq! Yavrular, xanım qızlar
Titriyor pənceyi-fəlakətdə,
Həp ölüm qarşısında, zillətdə…
Həpsi avara, həpsi ac-çıplaq,
Həpsi biçarə… Baq, gözündən iraq?!
Həpsi qan ağlıyor da zarü zəbun,
Həpsi məhzun, şikəstəpər, dilğun…
Həpsi qardaşca bir nigah arıyor,
Bir kömək, bir pənahgah arıyor.
Dinləyən kim… fəqət o fəryadı?
Avutan kim… o qəlbi-naşadı!?
Nə fəlakət bu, həm nasıl müthiş!?
Ah, ölüm ən böyük səadət imiş…[448]

Deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, Cavidin tarixə müraciəti təsadüfi deyil, düşünülmüş şəkildə olmuşdur. O, dini dəyərlərimiz allahsızlar təşkilatı və ya allahsızlar ittifaqı tərəfindən təqiblərə məruz qalanda Peyğəmbərə müraciət edir və dinimizin təəssübkeşi kimi çıxış edir.

O yerdə ki, torpaq və şəxsiyyət hədəf seçilir. Cavid səhnəyə iki böyük türk sərkərdəsini - Teymuru və Yıldırım Bəyazidi çıxarır. Əvvəla, bununla Cavid əfəndi bizim babalarımızın kimlər olduğunu, dünyaya necə ağalıq etdiklərini bizə xatırladır. İkincisi, onlara bizim durumumuzu göstərərək belə bir vəziyyətə düşməyimizdə onların da müəyyən rolu olduqlarını nəzərlərinə çatdırır. Üçüncüsü, gənc nəsli tarixin dərslərindən nəticə çıxarmağa çağırır.

Cavid əfəndi milli mənəvi dəyər və sərvətlər repressiyaya məruz qalanda yenə də Şərqin yaddaşına – şair filosof Xəyyama üz tutur, onu səhnəyə gətirir. Deməli, H.Cavid bolşeviklərin ateizm təbliğatına qarşı "Peyğəmbər"ə, torpaq və şəxsiyyətlər totalitar rejimin məngənəsinə salınanda "Topal Teymur"a, mənəvi sərvətlər məhv ediləndə isə "Xəyyam"a üz tutur.

[448] Hüseyn Cavid. Dram əsərləri, 5 cilddə, I cild, Bakı, 2007.

Bu deyilənlərdən aydın görünür ki, bununla Cavid “Türkləşmək, İslamlaşmaq və Müasirləşmək” formuluna sədaqətini ifadə edirdi.

KÖHNƏ MÖVZULARIN «GAH İRANDAN, GAH DA TURANDAN» GƏLƏN QƏHRƏMANLARI

Cavid haqqında yazılan xatirələrin birində deyilir ki, bir gün xalq maarif komissarı Mustafa Quliyev Hüseyn Cavidi evinə çay içməyə dəvət edir. Cavid bu təklifi məmnuniyyətlə qəbul edir. Çay içdikdən sonra M.Quliyev onu özünün kabinetinə aparır. Cavidin diqqətini maarif komissarının kabinetinin divarına vurulmuş şəkillər cəlb edir. Yağlı boyalarla çəkilmiş bu şəkillərin içərisində təbiət təsvirləri, gözəl qadın portretləri, natürmortlar və sair var imiş… Onlar kabinetdə söhbət edərkən M.Quliyev Cavidə deyir: - Yoldaş Cavid! Siz böyük şairsiniz, xalq sizi çox sevir. Lakin sizin poeziyanız bizim yeni həyatımızdan çox geri qalır. Siz ancaq təbiət, məhəbbət, gözəl qadınlar və s. bu kimi apolitik mövzularda yazırsınız. Siz kəndlərimizdə yaranan dəyişiklikləri görmürsünüz? Kənddə həyat kökündən dəyişilib, kolxozlar təşkil olunub, çöllərdə traktorlar işləyir. Lakin təəssüflə deməliyəm ki, sizin şeirlərinizdə traktora təsadüf etmirik. Bəs siz nə vaxt traktor haqqında yazacaqsınız?

Böyük sənətkar özünəməxsus müdrikliklə kabinetin divarlarından asılan tabloları göstərib kinayəli təbəssümlə ona belə cavab verir: - Yoldaş Quliyev! Sizin kabinetinizin divarlarında nələr görürəm? Təbiət, məhəbbət, gözəl qadın, alma, armud, qədəh, kuzə və sair. Nə üçün bu qadın portretlərinin yanında bir dənə də olsun traktor şəkli asmayıbsınız?

Cavidin gözlənilməz cavabından sonra Quliyev deyir: - Siz nə danışırsınız, yoldaş Cavid?! Bunlar bədii lövhələrdir. Traktorun bunların yanında nə işi var?

Cavid yenə kinayə ilə cavab verir: - Yoldaş Quliyev! Siz nə fikirdəsiniz, bəs mənim şeirlərim bədii lövhələr deyil? Siz niyə öz tırtıltı traktorlarınızı mənim şeirlərimin içinə salırsınız? Əgər sizin divarlarınızdan, heç olmasa, bircə traktor şəkli asılsa, o zaman siz traktorun səsini mənim şeirlərimdən də eşidərsiniz. Cavid bu sözləri deyərək xalq maarif komissarı ilə vidalaşıb onun evini tərk edir[449].

Bu nümunədəki iki mühüm xüsusiyyəti önə çəkmək istərdik. Birincisi, sənətin və sənətkarın qarşısında qoyulmuş tələblər. İkincisi isə, sənətkarın təfəkkür və düşüncə azadlığının əlindən alınması, nədən yazmağın sifarişinin əvvəlcədən verilməsi.

[449] Cavidi xatırlarkən. Bakı, 1982.

Cavidin baş qəhrəmanlarının «gah İrandan, gah da Turandan» gəlməsi təkcə 1920-ci illərin deyil, sonrakı illərin də ədəbi-elmi mübahisələrinin predmeti olduğundan bu məsələ üzərində bir qədər geniş dayanmaq istərdik. İndiyədək Cavidşünaslıqda buna az qala ritorik sual kimi yanaşılıb və demək olar ki, cavab axtarılmayıb. Həm də belə bir fikir formalaşdırılıb ki, guya bu ideya Səməd Vurğunun düşüncələrinin məhsuludur. Lakin S.Vurğuna qədər, yəni poetik örnəyə çevrilməyənə qədər həmin fikirlər bu və ya digər dərəcədə ədəbi tənqidin diqqətini cəlb etmişdi. Səməd Vurğun bu fikir və mülahizələri sadəcə poetikləşdirmişdir desək yanılmarıq.

Nümunələrə fikir verək. «Əcəba Cavidin hankı bir əsəri yaşadığı mühitin, içində dolandığı xalqın, cəmiyyətin, xüsusilə Azərbaycan türk xalqının ifadeyi-hal və keyfiyyətidir. Qoy bir nəfər çıxsın və barmağını uzadaraq tərəddüdsüz, Cavidin filan yazısı cəmiyyətimizin ifadeyi-hal və keyfiyyətidir, söyləsin. Bunu kimsə deyə bilməz»... «Nə olursa-olsun, hər halda Cavid burada, Azərbaycanda yoxdur»… «Türkiyənin ziyalı olaraq, daha doğrusu, planetlərin birindən əsərləri üçün mövzu arayır. Ona Azərbaycan mövzuları əl vermir»… «Cavidin əsərləri mühit və cəmiyyətimizin ifadeyi-hal və keyfiyyəti deyildir» (C.Cabbarlı).

«Şübhəsiz ki, məmləkətin son hadisələrindən az mütəəssir olan bu ədəbiyyat zümrəsi, təəssüflə deməliyəm ki, kəndisini bitərəf bir cəbhəyə doğru çəkir. İlhamını ya əski Turan istilalarından («Topal Teymur»), ya əski Ərəbistan çöllərindən («Peyğəmbər») alır» (Ə.Nazim).

«Hüseyn Cavid öz ədəbi icadı üçün köhnə mövzular axtarır və öz yaradıcılığı üçün «İblis», «Peyğəmbər», «Şeyx Sənan», «Keçmiş günlər» kimi köhnə mövzuları intixab edir» (Ə.Şərif).

Mustafa Quliyev «Knyaz» əsərinin ədəbi həyata gəlişi münasibəti ilə yazırdı: «Nəhayət, Azərbaycan şairi Hüseyn Cavid bizim inqilab qatarımıza oturdu… Cavid inqilabi yaşayışımızı həqiqi surətdə təsvir etməyə başlamışdır. Hüseyn Cavid dəli Knyazdan dəli xanlara keçməli, inqilabçı türk həyatını, Azərbaycan əməkçilərinin mübarizəsini təsvirə başlamalıdır».

H.Cavid «uzaq mühitlər və mövzular ətrafında dolaşır» (B.Çobanzadə «Azəri ədəbiyyatının yeni dövrü»).

«Cavid Azərbaycan şairidir. Lakin Azərbaycan həyatından çox az yazır» (S.Şamilov "Ədəbiyyat qəzeti", 27 mart 1937-ci il).

Əkrəm Cəfər 1930-cu ildə Moskvadan yazdığı "Cavidə açıq məktub"unda da böyük şairə xitabən "Şeirlərim şeirlərinlə vidalaşdı, gedib girdilər komsomola!" - deyərək onu "köhnə şair" adlandırırdı.

İnsanların içində,
Görməmək üçün,
Nə burjua, nə dilənçi
Olacağam o rəhbərin qapısında dilənçi
Əkrəm Cəfər

***

«Nədən şeirimizin baş qəhrəmanı
Gah Turandan gəlir, gah da İrandan,
Bəs mənim ölkəmin varlığı hanı
Böyük bir şairin yazdığı dastan
Gah Turandan gəlir, gah da İrandan»
S.Vurğun

Gətirilmiş nümunələrdən də göründüyü kimi, Cavidin mövzularını uzaq ellərdən və uzaq illərdən alması ideyasını ilk dəfə ortaya atanlardan biri C.Cabbarlı olmuşdur. Qeyd etdiyimiz ki, C.Cabbarlı və Seyid Hüseyn Tenin ədəbiyyat haqqındakı düşüncələri prizmasından yanaşaraq Cavidi dəyərləndirmək istəyirlər. Əgər onu hər hansı bir tərifə sığışdırmaq məcburiyyətindəyiksə, onda İ.Tenə yox, Cavidin özünə müraciət etmək lazımdır. Cavid yazır ki, «Ədəbiyyat", bir millətdəki əhvali-ruhiyyənin inikası deməkdir»[450]. Burada millət sözünə fikir vermək vacibdir və bolşeviklərin millətə verdiyi tərifl Cavidin millət anlayışını eyniləşdirmək olmaz. Caviddə millət yalnız azərbaycanlıları deyil, bütün türk qövmünü, türk etnosunu, türk mədəniyyətini öz içinə alır. Elə ona görə də, Cavidin əsərlərində yalnız Azərbaycanın yox, ümumtürk və imumislam «əhvali-ruhiyyəsinin inikası» görünür. **Bu əsərlərdəki türk ruhunu, türk əhvali-ruhiyyəsini (Azərbaycan da daxil olmaqla) ümumtürk və ümumislam xalqlarının əhvali-ruhiyyəsi kimi almaq lazımdır. Bax, türkçülük, islamçılıq və Cavid bu nöqtədə, bu ümumiliyin vəhdətində öz bütövlüyünü qoruyub saxlaya bilir. Əks təqdirdə Caviddəki türkçülük, Caviddəki islamçılıq, Caviddəki millilik və müasirlik, elə həm də bir şəxsiyyət kimi Cavidin özü bütövlüyünü itirər. Ona görə də, Hüseyn Cavidi yalnız Azərbaycanda deyil, bütövlükdə türkün içində, sözün daha**

[450] H.Cavid. Əsərləri, 5 cilddə, V cild, Bakı, 2007, s. 282.

geniş mənasında Şərqdə, hətta Qərbdə axtarmaq lazımdır. Yer adlı planetdə desək, bəlkə də daha doğru olar.

Cavidin əsərlərinin mövzu və süjet xəttinin «gah İrandan, gah da Turandan» gəlməsi həm də bu, ideala xidmət edirdi. Bu mənada Cavid qədər türk ruhuna, türk həyatına və türkün taleyinə yaxın olan sənatkar elə bir də Cavidin özüdür. Bütün bunlar Hüseyn Cavidin Azərbaycanda və azərbaycanlı olmasına mane olmur, bəlkə də onu daha çox milliləşdirir və azərbaycanlı edir. Cavidin Azərbaycan dramaturgiyasına gətirdiyi ən böyük yeniliklərdən, ən böyük xidmətlərdən biri də Şərqin və Qərbin Azərbaycan ədəbiyyatına və dramaturgiyasına daxil olması idi.

Fikrimizcə, Azərbaycan reallıqlarını, Azərbaycan mühitini, 1920-ci illərdə gedən ictimai-siyasi prosesləri, həmin cəmiyyətin «ifadeyi-hal və keyfiyyətini» romantik Cavid qədər dəqiq müşahidə və təsvir edən ikinci bir sənətkar olmamışdır. Etiraz doğuran o idi ki, Cavid bolşeviklərin diqtə etdiyi sovet reallığını, sovet həyat tərzini təsvir etmirdi. Yuxarıda da deyildiyi kimi uzaq keçmişdən aldığı «Şeyx Sənan»ı, «Peyğəmbər»i, «Topal Teymur»u ədəbiyyata gətirirdi. Sovet traktoru, sosializm quruculuğu, Stalin, Lenin isə kənarda qalırdı. **Daha doğrusu, cəmiyyət sovetləşsə də, kolxozlaşsa da, sənayeləşsə də, NEPləşsə də, leninləşsə də, stalinləşsə də Cavid özü kolxozlaşmırdı, sovetləşmirdi, leninləşmirdi, stalinləşmirdi…**

Professor Yaşar Qarayevin təbirincə desək: «Cavidin şeirində canlı həyatın, təbii gözəlliklərin, bədii düşüncələrin və mənəvi mübarizələrin özünün musiqisi, ahəngi və ləngəri eşidilir. Köhnə qafiyə düzümünü, məcaz və rədiflərin zəncirini və qəliblərini sındırıb sərhədsiz səmada pərvaz edən Cavid vəzninin musiqisi yeni ritm, yeni bəhr kəşflərinin dalğasında havalanır. Onun məlahət və təravəti tamam ayrı təqti üstündə köklənir. Klassik əruzun bütün bəhrlərini, hecanın bütün məlum vəzn biçimlərini mənimsəyən şair hər iki vəznə sərbəst bir ahəng və nəfəs gətirir. Hecanın əruzla hibridini, «əruzun sərbəstini» («Azər») yaradır. «Şeyx Sənan»da ilk dəfə olaraq eyni əsərdə «vəzn vahidliyi» qanununu pozur. Əruzun bir neçə bəhrindən və hecadan eyni vaxtda istifadə olunur. «Dəli Knyaz»da misra daxilində vəzn çevikliyi, gözlənilməz ritmik ləngər, avaz əlvanlığı daha güclüdür. «İblis»də bir neçə bəhr, xalq mahnı vəznlərinin ahəngi var. Cavidin vəznlə ən zəngin əsəri olan «Xəyyam» isə klassik, ədəbi, dəyişməz əruza sərbəst yaradıcı münasibətin daha qabarıq nümunəsidir. Cavid lirikasına sərbəst vəznli, qafiyəsiz şeirin nümunəsi də aid deyildir.

Onun həm Füzulidən, həm də folklordan bəhrələnməsi tamam yeni məna və ruh daşıyır. Füzuli ilə, bayatı, ağı, layla, şərqi, mahnı ruhu və forması ilə bağlılıq elə xalqla, ellə bağlılıq deyildimi? Təəssüf ki, xalqla bağlılığı bəziləri daha çox zahiri, əyani bir mövzu, süjet bağlılığından aramışlar. Onun ərəb, fars, türk, ispan, gürcü, ləzgi libaslı qəhrəmanlarının daxilində Cavidin mənsub olduğu xalqın öz milli ruhunu, dilini və mənəviyyatını tanımaqda çətinlik çəkmişlər»[451].

Professor Teymur Kərimli isə H.Cavidin tarixi əsərlərinin mövzularının haradan gəlməsi və eləcə də böyük mütəfəkkirin Azərbaycana bağlılığı məsələsinə belə aydınlıq gətirir: «Cavidin beş tarixi dramından ikisi Ərəbstan, biri İran, biri Turan, biri isə qarışıq – İran-Turan mövzusuna həsr olunmuşdur. Əlbəttə, bütün bunlar problemin formal tərəfidir və əslində, aydındır ki, Cavid nədən yazırsa yazsın, bir an belə doğma ədəbi-ictimai mühitindən, klassik irsinin ənənələrindən ayrı düşmür; Ərəbistandan, İrandan, Turandan yazmasına baxmayaraq, qızğın patriotizm mövqeyindən ayrılmır. Bu mənada Cavid klassik Azərbaycan poeziyasının birbaşa varisi olmaqla yanaşı, həm də bu poeziyanın formalaşdığı ümummüsəlman ədəbi-ictimai mühitinin qoyduğu zəngin humanist ənənələrin də varisidir»[452].

Y.Qarayev isə bunun səbəbini belə izah edirdi: «Qəhrəmanı uzaq ellərdən və uzaq illərdən seçməsi – şairin o zamankı dövlət və idarə xadimlərinə, dövrünün əksər ziyalı tiplərinə etirazının bir ifadəsi idi: onlardan heç biri Cavidin ideal və qəhrəman axtarışlarına uyğun gəlmirdi».[453]

Yeri gəlmişkən deməliyik ki, Cavidin qəhrəmanlarının uzaq ellərdən və uzaq illərdən gəlməsini sovet dövrü ilə bağlamaq və onu məhdudlaşdırmaq olmaz. Cavidin ilkin dövr yaradıcılığında («Hübuti-Adəm»dən, «Nəcmi-geysudar»a, «Yadi-mazi»yə və s. qədər) da qəhrəmanların uzaqdan gəldiyinin şahidi oluruq.

Cavidin qəhrəmanlarından olan Adəm və Həvva («Hübuti-Adəm») yaradılışın başlanğıcından, səmadan yerə enir. Əlində haqq fərmanı olan «səmavi bir pərizad»:

---

[451] Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər, Bakı, 2002, s. 535-536.
[452] Cavidşünaslıq (tərtib edən Gülbəniz Babaxanlı). I cild, Hüseyn Cavid və klassik irs, Bakı, 2005, s. 213.
[453] Yaşar Qarayev. Ədəbi üfüqlər, Bakı, 1985, s. 127.

Demiş: Çıq, ey səfalətpərvər insan!
Çıq, ey qafil bəşər! Dəf ol, çəkil, get!
Bu lahutitəfərrücgahı tərk et!
Degil layiq sana gülzari-cənnət…

«Hübuti-Adəm»də Adəm və Həvva səmadan yerə enir, o isə qəhrəmanlarını yerdən göyə, bitməyən, sonsuz dərinliyə səsləyir və onun səbəbini belə izah edir.

Göydə bir bitməyən dərinlik var
Ki, donar hər düşüncə heyrətdən.
Uça bilsəydi bəlkə insanlar,
Bir şey anlardı bəlkə qüdrətdən…
Bu dərinlikdə bir həqiqət var,
Gizlidir gərçi kor beyinlər içün;
Lakin ülviyyətilə həp parlar,
Bəllidir görmək istəyənlər için.
(«Dəniz Tamaşası»)

Şair «Nəcmi-geysudar» şeirində isə yerə yaxınlaşmaq istəyən ulduza da müraciətlə «bu alçaq yer sana layiq deyil, yüksəl, yaqın gəlmə» - deyir.

Bu şeirlərdə təkcə zaman yox, məkanın özü də uzaqdır. Hətta kosmosa, səmaya qədər gedib çıxır. Bütün gözəlləri və gözəllikləri uzaqda görmək istəyən Cavid «Bən istərəm ki…» şeirində bu məsələyə öz münasibətini belə ifadə edirdi:

Gözəl mələksə…bulutlarda, göy yüzündə yaşar:
Uzaq, bəşərdən uzaq bir mühitə mail olur.
Uzaq, bəşərdən uzaq, gizli bir fəzaya qoşar;
Yaşar mələk kibi, xoş bir xəyali-müğfil olur.

Uzaqda yaşamağın səbəbi?

Əvət, uzaqda səadət var, eşqə hörmət var,
Yaxın zəhərlidir, ama uzaqda cənnət var.
Uzaqda var əbədiyyət ki, başqa nemətdir…
(«Bən istərəm ki…»)

H.Cavidin bədii-fəlsəfi, ictimai-siyasi fikirlərini əks etdirən «Qoca bir türkün vəsiyyəti» şeirində müdrik bir qocanın, eləcə də şairin özünün gənc nəslə «alnı açıq oğullarına, gözəl, yosma qızlar»ına xitabən etdiyi «Yer üzünü qardaş bilin, insan qanı tökməyin» nəsiyyəti, bütövlükdə bəşəriyyətə ünvanlanmış sülh, əmin-amanlıq, həmrəylik çağrışıdır. Bütün bunlarla yanaşı şair zalımlara, cəlladlara boyun əyməməyi də tövsiyə edirdi.

Milli etnik yaddaşa dönüş, tarirxi keçmişimizə müraciət də qoca türkün vəsiyyətində özünəməxsus yer tutur və bu yeniləşmə tarixdən uzaqlaşmağa yox, tarixə daha çox yaxınlaşmağa xidmət edir.

Bir millətin tarixidir kökü, yurdu, yuvası,
Tarixiniz baş ucundan hərgiz əskik olmasın.
"Altay" dağı, "Makan" çölü, həm də "Yasın " ovası,
Birər aydın səhifədir, hər türk gərək anlasın.

«Qoca bir türkün vəsiyyəti»ndə dəyişən və yeniləşən zamanda Cavidin diqqətindən yayınmırdı. Şair aslan yavrularını təzələnən zamanla ayaqlaşmağa, tərəqqiyə, bunun üçün isə elmə, hikmətə, maarifə və mədəniyyətə üstünlük verməyə səsləyirdi.

Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,
Elmas kibi ləkəsizdir, saqın, qafil olmayın.
Əsr, iyirminci əsrdir! Vəzifəsi pək ağır...
Arş iləri!
Qomşular yol aldı, geri qalmayın!

Bu poetik örnəklərin sayını artırmaq da olar, lakin deyilənlərdən də aydın görünür ki, uzaq ellərə və uzaq illərə müraciət Cavid yaradıcılığında əvvəldən axıra kimi müşahidə olunur. Professor Kamran Əliyev Cavidi qəhrəmanlarını uzaq ellərdən və uzaq illərdən aldığına görə ittiham edənlər barədə yazır: «Doğrudur, H.Cavid əsərlərində zaman məhdudiyyəti olmadığı kimi, məkan məhdudiyyəti də yoxdur. Bütün bunlara baxmayaraq, H.Cavidi «uzaq mühitlərdən» yazmasına görə ittiham etmək doğru deyildir. Çünki mövzuları uzaq yaxud yaxın məkanlardan götürmək, obrazları uzaq və yaxın adamların taleyi ilə

bağlamaq romantizmin təbii və özünəməxsus xüsusiyyətlərindəndir. Eyni zamanda bunlar milli əlamətləri də qətiyyən rədd etmir»[454].

Biz də hesab edirik ki, Cavidin qəhrəmanlarının uzaq ellərdən və uzaq illərdən gəlməsi romantizmin prinsiplərindən, türk romantik ənənələrindən irəli gəlir. Lakin unutmaq olmaz ki, Cavid üç mədəniyyətin İran, Ərəb və Türk mədəniyyətlərinin daşıyıcısıydı. Ona görə də o, türk-müsəlman mədəniyyətini, bəlkə də belə demək daha doğru olar, Şərq və Qərb mədəniyyəti ilə vəhdətdə təqdim edirdi. Fikrimizcə, ədibin qəhrəmanlarının gah İrandan, gah da Turandan gəlməsinin əsas səbəblərindən biri də bu idi.

Cavidin qəhrəmanlarının uzaq ellərdən və uzaq illərdən gəlməsi onu formalaşdıran türk-islam mühitindən qaynaqlanırdı. Digər bir mühüm məqam ondan ibarətdir ki, **mütəfəkkir Cavid üçün VƏTƏN içində yaşadığın deyil, içində yaşatdığındır. İçində yaşadığın VƏTƏN sərhəddən, içində yaşatdığın VƏTƏN isə milli yaddaşdan başlanır. Cavidi ittiham edənlər üçün VƏTƏN sərhədin içindəki, Cavid üçün isə həm də çölündəki idi. Deməli, Cavidin ədəbi qəhrəmanları da İrandan və Turandan deyil, eyni mənşədən, eyni kökdən, eyni şəcərədən - milli yaddaşdan gəlirdi. Məqsəd də bu idi; Cavidin TURAN boyda olan VƏTƏN əxlaqını, VƏTƏNÇİLİK düşüncəsini yaddaşdan qoparıb Azərbaycan SSR-in coğrafi hüdudları boyda və biçimdə etmək. Bütün bunlar göstərir ki, Cavid Vətəndən uzaq deyildi, əksinə VƏTƏNƏ bəlkə də hamıdan və hər kəsdən daha yaxın idi.**

Əslində uzaq ellərdən və uzaq illərdən gələn qəhrəmanlar Cavid əfəndinin turançılıq idealının sistemlləşdirilmiş özünü ifadə forması idi. Yəni o, bununla Turan dövlətinin ədəbi coğrafiyasını, ədəbi xəritəsini cızırdı.

Bəzilərinin köhnə hesab etdiyi bu mövzular mütəfəkkir dramaturqun yaddaşdan qaynaqlanan müasirliyi idi. Çünki Cavid «Şeyx Sənan», «Peyğəmbər», «Topal Teymur», «Səyavuş», «Xəyyam» və başqa bu kimi əsərlərində köhnə mövzulara toxunmur, əksinə, türkün dünəni ilə bugunkü tarixi və taleyi arasında paraleliklər aparır, türkün milli mənəvi əxlaqi dəyər və sərvətlərini müdafiə, eləcə də özünəməxsus şəkildə mühafizə edirdi. Başqa sözlə desək, tarixiliklə müasirliyin vəhdətini yaradırdı.

[454] «Axtarışlar» jurnalı. Naxçıvan, 2011, № 1, s. 44.

H.Cavid düşüncə və təfəkkür azadlığını qoruyub saxlayan sənətkar idi. Onun bir çox müasirlərindən ən böyük fərqi də bu idi. Təfəkkür və düşüncə azad olanda nə əsər, nə də müəllif zaman və məkan tanımır. Elə total sistem də məkan və zaman tanımayan sənətkarı və onun əsərini qəbul etmir, hər ikisini ləkələyib kənara atır. Sistem dəyişəndə isə Cavidlər yenidən doğulur və həmişəyaşarlıqlarını təmin edirlər. "İblis dərk ediləndə rədd edilir, mütəfəkkir dərk ediləndə qəbul olunur" tezisi də özünü bu zaman bir daha təsdiqləyir.

SALMAN MÜMTAZIN
VƏ KİTABXANASININ TALEYİ

Alim tanıyıram qoca Qafqazın
Çeşmətək durulub dibindən çıxır.
Alim var, sağ əli Salman Mümtazın,
Sol əli Hümmətin cibindən çıxır.
Hüseyn Arif

1920-50-ci illər Azərbaycan ziyalılarının mənəvi sarsıntı və stress illəri idi. Yeni cəmiyyətin qarşısına qoyduğu məqsədlərdən biri də yeni ziyalı nəsli yetişdirmək və onları öz ideyalarının daşıyıcısına çevirmək idi. Bu yeni ziyalı nəsli demokratik yox, diktator rejmin ağrılarını yaşaya-yaşaya yetişirdi. Sosializm qəlibinə sığmayanlar, xalqın, millətin tarixini, mədəniyyətini, adət-ənənəsini yaşadanlar və yaradıcılıqlarında irslə varis, dünənlə bu gün arasına körpü atanlar Stalinin və onun əyalətdəki qullarının qəzəbinə düçar olurdular. İrtica və istibdad prosesi əsasən dövri mətbuatda, yığıncaqda, plenum və qurultaylarda ifşa və təhlükəsizlik orqanlarının təcridxanalarında ittihamla həyata keçirilirdi. Əslində yığıncaq, plenum, və qurultaydakı ifşalar da xarakter etibarı ilə ittiham idi. Bəzən elə olurdu ki, həbs olunmuş hər hansı bir şəxs haqqında müstəntiqlərin çıxarmadıqları hökmü ilk öncə "tənqidçilər" çıxarırdı. Hətta belə də olurdu ki, istintaq zamanı özünün müqəssir olmadığını təkidlə bildirən hər hansı müttəhimin dövri mətbuatda və ya toplantıda, plenum və ya yığıncaqda "vətən xaini" olduğu (istintaq başa çatmamış) elan edilirdi. Sonra isə "tənqidçilərin" və ya siyasi liderlərin çıxardıqları "hökmlər" müstəntiqlər tərəfindən reallaşdırılırdı. Ayrı cür ola da bilməzdi, çünki belə hökm verənlərdən biri və birincisi M.C.Bağırov idi. Belə ki, o, Moskvada trotskizmlə mübarizəyə həsr edilmiş plenumda çıxış edən Stalinin "indi biz trotskizmlə, millətçilərlə 10 il bundan əvvəlki kimi mübarizə apara bilmərik, indi biz məhv etmə yolunu tutmalıyıq"[455] devizini əldə rəhbər tutaraq Azərbaycanda da trotsksist, millətçi, müsavatçı ünsürlər axtarmağa və onlara divan tutmağa başladı.

Belə ittihamlara məruz qalanlardan biri də Azərbaycanın görkəmli ziyalılarından olan böyük tədqiqatçı alim, Şərqin mənəvi sərvətlərinin

[455] «Şərq Qadını» jurnalı. 1937, № 7.

toplayıcısı, mətnşünas, şair və publisist Salman Mümtaz idi. 30-cu illərin qanlı repressiyalarının qurbanı olmuş bu şəxsiyyət Azərbaycan elm və mədəniyyət tarixində silinməz izlər buraxmış və milli yaddaşda təkcə görkəmli ədəbiyyatşünas kimi yox, həm də parlaq mənəvi-milli keyfiyyətlərə malik insan kimi qalmışdır.



S.Mümtazın ümumfiloloji fəaliyyəti həm ədəbiyyatşünaslıq, həm də folklorşünaslıq istiqamətlərində tədqiq edilmişdir. Lakin bu görkəmli millət ziyalısının elmi fəaliyyətinin yenidən dəyərləndirilməsinə hazırda böyük ehtiyac vardır. Və bu, ilk növbədə təkcə S.Mümtaza yox, eləcə də sovet dönəmindəki elmi-mədəni irsə yenidən nəzər salmaq, XX yüzilin elmi təcrübəsini təkrarən nəzərdən keçirib, yeni əsrin ehtiyaclarını ödəyəcək aktual dəyərləri müəyyənləşdirmək zərurətindən irəli gəlir. Bu baxımdan, S.Mümtazın yaradıcılığı hazırkı dönəmdə aktuallıq kəsb edən, elmi tədqiqatlar üçün yeni mövzular, araşdırma istiqamətləri verən qiymətli irsidir.

Daha çox ədəbiyyatşünas kimi tanınmış S.Mümtazın bir folklorşünas kimi də dərindən öyrənilməsinə ehtiyac vardır. On illər boyu arxivlərdə işləyərək Azərbaycan folklorşünaslıq elminin tarixini yaratmış professor P.Əfəndiyevin yazdığı kimi, «... ədəbiyyatşünas və folklorşünas Salman Mümtaz... böyük işlər görmüşdür. Mümtaz bütün ömrü boyu folklor nümunələrini yığmış, səliqəyə salmış və mümkün olanlarını çap etdirmişdir. Beləliklə, o, böyük xəzinə qoyub getmişdir. Bu xəzinə Azərbaycan xalqının dünyagörüşünü, bədii təfəkkürünü öyrənmək işində gözəl mənbədir»[456].

S.Mümtazın folklorşünaslıq irsinin öyrənilməsi ilk növbədə onun bu sahədəki fəaliyyətinin tədqiq tarixinə nəzər salmağı tələb edir. O, tanınmış alim olmuş, əsərləri bu gün də öz aktuallığını itirməmişdir. Şərqşünas alim H.Araslı S.Mümtazın Sarı Aşığın irsinin öyrənilməsi sahəsindəki fəaliyyətini dəyərli hesab etmiş və göstərmişdir ki, onun fəaliyyəti Sarı Aşığın irsinin öyrənilməsinə marağı artırmışdır[457].

Prof. Ə.Ağayev alim haqqında yazmışdır: «Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi, ədəbi nümunələrin və əlyazmalarının toplanması, zəngin folklor xəzinəmizin tədqiq edilməsi sahəsində böyük xidmətləri

[456] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, 1992, s. 59-60.
[457] Araslı H. Sarı Aşıq haqqında, "Ədəbiyyat qəzeti", 1936, 15 may.

olan görkəmli ədəbiyyatşünaslarımızdan biri Salman Mümtazdır. Ədəbi hüquqları bərpa edilmiş Salman Mümtazın əsərləri, Azərbaycan ədəbiyyatını öyrənmək sahəsində onun vaxtı ilə apardığı tədqiqat işi indi də öz əhəmiyyətini saxlayır, həm oxucular, həm də mütəxəssislər üçün faydalıdır».[458]

Tədqiqatçı N.Nəcəfov S.Mümtazın folklorşünaslıq fəaliyyətindən bəhs edən məqaləsində göstərmişdir ki, o, Azərbaycan ədəbiyyatının araşdırılması, təbliği işində çoxyönlü fəaliyyət göstərdiyi kimi, bir folklor toplayıcısı kimi də fərqlənmiş, şifahi söz sənəti irsinin nəşrində misilsiz xidmətlər göstərmişdir.[459]

Prof. İ.Abbaslı Azərbaycan folklorşünaslığının təşəkkülü və inkişaf mərhələləri haqqında zəngin fakt və biblioqrafik baza əsasında yazdığı məqaləsində S.Mümtazın folklorşünaslıq fəaliyyətinə müstəqil oçerk həsr etmişdir[460]. O, S.Mümtazın toplama və tədqiqatlarını xronoloji ardıcıllıqla təsvir etmiş və alimin Azərbaycan folklorşünaslıq elmi tarixindəki rolunu yüksək qiymətləndirmişdir.

Müəllif S.Mümtazın toplama irsini ümumi şəkildə belə səciyyələndirmişdir: «Azərbaycanın ayrı-ayrı bölgələrində elmi axtarış səfərlərində olmuş S.Mümtaz külli miqdarda aşıq və el şairlərinin şeirlərini toplamaqla bərabər, onlarla bayatı, atalar sözü, rəvayət və s. janrlara dair örnəklər də yazıya almışdır»[461].

AMEA-nın müxbir üzvü prof. A.Nəbiyev «Azərbaycan xalq ədəbiyyatı» adlı dərsliyinin birinci hissəsində S.Mümtaz haqqında yazmışdır: «Həmin illərdə (30-cu illərdə - C.Q.) Azərbaycan ağız ədəbiyyatının toplanma və öyrənilməsinə böyük əmək sərf edən ziyalılardan biri də Salman Mümtaz (1884-1938) oldu. S.Mümtaz hər şeydən əvvəl böyük folklor toplayıcısı idi. O, 1927-1928-ci illər ərzində iki cildlik «El şairləri», 1923-cü ildə Qurbaninin şeirlərini, Sarı Aşığın şeirlərini, bayatı, atalar sözü və məsəl, ümumiyyətlə, ağız ədəbiyyatımızın bir çox dəyərli nümunəsini yazıya ala bilmişdir. O, eyni zamanda milli folklorşünaslığın önündə gedən, bir sıra tarixi faktları açıqlayan, onlara ilk şərh verən, «Kitabi-Dədə Qorqud», Sarı Aşıq, Aşıq

[458] Ağayev Ə. Görkəmli ədəbiyyatşünas, "Ədəbiyyat və incəsənət" qəz., 12 may, 1962.
[459] Nəcəfov N. S.Mümtaz və folklor, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, V cild, Bakı, 1977.
[460] Abbas İ. Azərbaycan folklorşünashğı: təşəkkülü və inkişaf mərhələləri, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, IX cild, Bakı, , 2000, s. 18-19.
[461] Abbaslı İ. Azərbaycan folklorşünasığı: təşəkkülü və inkişaf mərhələləri, Göst kitab, s. 18.

Qurbani, aşıq sənəti, ozan yaradıcılığı, xalq şeiri və s. barədə ilk dolğun nəzəri mülahizələrin müəllifi idi»[462].

S.Mümtazın folklorşünaslıq fəaliyyətindən geniş və məhsuldar şəkildə prof. P.Əfəndiyev də danışmışdır. Professor Azərbaycan folklorşünaslıq elminin 1920-1930-cu illər tarixindən bəhs edən kitabında S.Mümtazın folklorşünaslıq fəaliyyətinə geniş həcmli oçerk həsr etmiş,[463] o cümlədən özünün «Azərbaycan şifahi xalq ədəbiyyatı» adlı dərsliyində də S.Mümtaza kifayət qədər yer vermişdir[464].

Prof. P.Əfəndiyev S.Mümtazın folklorşünaslıq fəaliyyətinə ilk növbədə onun bütöv elmi fəaliyyəti fonunda qiymət verməyə çalışmışdır. Çünki S.Mümtaz əsasən ədəbiyyatşünaslıq fəaliyyəti ilə məşğul olmuşdur. Bu cəhətdən onun ədəbiyyatşünaslıq və folklorşünaslıq fəaliyyəti bir-birinə qovuşmuşdur. Bu da öz növbəsində alimin folklorşünaslıq fəaliyyətinin sərhədlərini müəyyənləşdirməyi və ona bu zəngin fəaliyyətinin fonunda obyektiv qiymət verməyi tələb edir. O, S.Mümtazın folklorşünaslıq irsini konkret şəkildə tədqiq etməzdən öncə ona ümumi qiymət verməyə çalışmışdır. Bu qiyməti alimin S.Mümtaz irsinə yanaşmasının nəzəri-metodoloji aspekti saymaq daha doğru olar. Professor yazır: «Salman (Əsgərov) Mümtazın biz yalnız Azərbaycan folklorunun toplanması, nəşri və öyrənilməsi sahəsindəki fəaliyyətini işıqlandırmağa çalışacağıq. Onun folklorşünaslıq və ədəbiyyatşünaslıq fəaliyyəti qoşa getmiş, hər ikisi eyni bir dövrə təsadüf edir. Doğrudur, indiyə qədər S.Mümtazın ədəbiyyatşünaslıq sahəsində də gördüyü işlərə sanballı elmi-tədqiqat əsəri həsr edilməmişdir. Salman Mümtaz folklorumuzun lirik janrlarının toplanması, çap edilməsi ilə məşğul olurdu. Əsasən isə qədim əlyazmaları və bəyazlardan bu nümunələri tapıb sahmana salırdı. Toplama işi onun bütün ömrü uzunu davam etdirilmişdir. Ancaq hansılar mümkün olubsa, onları çap eləmişdir. Beləliklə, S.Mümtaz çap elədiyi və eləyə bilmədiyi böyük bir xəzinə qo-yub getmişdir. Həmin xəzinə Azərbaycan xalqının dünyagörüşünü, psixologiyasını, bədii təfəkkürünü öyrənmək işində gözəl materialdır»[465].

Fikrimizcə, ağsaqqal professor, Azərbaycan folklorşünaslıq elmi tarixinin yaradılmasına bütün ömrünü sərf etmiş P.Əfəndiyevin S.Mümtazın folklorşünaslıq fəaliyyəti haqqındakı bu ümumi dəyərləndir-məsi yuxarıda sadaladığımız alimlərin fikirləri ilə bərabər «Salman

[462] Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, I hissə, Bakı, 2006, s. 74.
[463] Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-1930-cu illər), Bakı, 1997, s. 31-46.
[464] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, 1992, s. 59-61.
[465] Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-1930-cu illər), Bakı, 1997, s. 31-32.

Mümtazın folklorşünaslıq fəaliyyəti» mövzusunun problematik aktuallığını sərrast şəkildə əsaslandırır.

Professor P.Əfəndiyev S.Mümtazın «Aşıq Abdulla» kitabına yazdığı ön sözü təhlil etmiş, onun «Sarı Aşıq və Yaxşı» adlı dastanının izinə düşdüyünü göstərmiş, xüsusilə «bayatı» sözü ilə bağlı apardığı leksik, filoloji, tarixi etimologiyanı yüksək qiymətləndirmişdir. Alim kitaba ümumi şəkildə belə qiymət vermişdir: «Burada S.Mümtazın xidməti, zəhməti xüsusilə tərifəlayiq idi. Bütün bunlarla yanaşı, S.Mümtazın bir sənətkar kimi Sarı Aşığın özü haqqında, onun ədəbi irsi, xüsusilə bayatıları haqqında söylədiyi bütün mülahizələr o zaman üçün yeni, təqdirəlayiq idi və maraq doğururdu».



P.Əfəndiyev tərtibçinin kitabda verilmiş bayatıların düzümündə əsaslandığı prinsiplərə də toxunmuşdur. Alim S.Mümtazın cinas bayatılara münasibətdə tətbiq etdiyi tərtib prinsipi ilə razılaşmamışdır. Paşa Əfəndiyev göstərir ki, Salman Mümtazın Sarı Aşığın bayatılarında başa düşülməyən cinasları təshih etməsi, sadələşdirməsi doğru deyildir: «Əlbəttə, bu, təəccüb doğurur, cinasları asanlaşdırmaq, təshih eləmək nə deməkdir?! Başa düşülməyənləri heç çap eləməmək doğrudur, çünki mənası anlaşılmırsa, nə üçün onlar çap olunsun. Burada müəyyən iş görmək, zəhmət çəkmək olardı. Belə ki, çətin anlaşılan və yaxud heç anlaşılmayan bayatılar başqa variantlarla tutuşdurulsun, yaxud qarşılığı axtarılsın»[466].

S.Mümtaz Sarı Aşığın bədii irsinin toplanması sahəsində böyük zəhmət çəkdiyi kimi, onun bayatılarının xalq bayatılarından seçilməsi sahəsində də ciddi işlər görmüşdür. Bilindiyi kimi, bayatılar lakonik poetik struktura malikdir və bu mətnlərdə qoşma, gəraylıda və s. olduğu kimi müəllifin adı göstərilmir. Qoşma, gəraylı, divanidə və s. möhürbənd olur və orada müəllif öz adını verir. Bu cəhətdən, S.Mümtazın Sarı Aşığın bayatılarını müəyyənləşdirmək sahəsində tətbiq etdiyi bir sıra əsas prinsiplərlə P.Əfəndiyev razılaşmamışdır: «Bəzən eyni bir bayatı gah «mən aşıq», gah da «əzizim», gah «aşiqəm», gah da «eləmi» və s. sözlərilə başlanmışdır. Ona görə də «mən aşıq», «aşiqəm» sözlərilə başlayan bütün bayatıları Sarı Aşığın adına yazmaq hələlik tezdir. Elə kita-

[466] Əfəndiyev P. Göst. əsəri, s. 34.

bın əvvəlində nəşriyyat bu məsələdə haqlı olaraq S.Mümtaza öz etirazını bildirmişdi. «İdarədən» adı altında verilən qeyddə ümumi fikir belə idi ki, S.Mümtazın çap elədiyi bütün bayatıları bir şəxsin (Sarı Aşığın - C.Q.) adına çıxarmaq düzgün deyil. Burada dastanlarımızda olan nümunələr, sağıcı arvadların çağırdığı parçalar, mahnılar və s. də vardır»[467].

P.Əfəndiyev belə hesab edir ki, «Sarı Aşığın... bayatıları şifahi yarandığı üçün xalqın dilinə düşmüş, ümumi bayatı axarına qoşularaq bu böyük ümmanın içində qaynayıb qarışmışdır. Ona görə də indi Sarı Aşığın çoxlu bayatılarını el bayatılarının içərisindən seçib çıxarmaq qeyri-mümkündür. Ona söz ola bilməz ki, Aşığın ta qədim zamanlardan, yəni XVII-XVIII-XIX əsrlərdə bu və ya digər əlyazmasında və s. mənbələrdə yazılıb saxlanmış bayatıları seçilir: onların Sarı Aşığa məxsus olması öz-özlüyündə aydındır»[468].

Tədqiqatçı bu məsələ ilə bağlı o dövrün elmi mübahisələrinə də toxunmuşdur. P.Əfəndiyev yazır: «Salman Mümtazın kitabı çap olunandan sonra bu məsələ barəsində o zamanlar mübahisələr olmuşdur. Bu mübahisələr də, əsasən, həmin fikir ətrafında idi ki, bayatıları yaradan kimdir: Sarı Aşıq, yoxsa xalq. Bu cəhətdən professor Ə.Dəmirçizadənin o zamanlar mətbuatda çap olunan məqaləsi[469] çox əhəmiyyətli idi. O göstərirdi ki, Sarı Aşığa istihad edilən bayatılar daha çox el, xalq yaradıcılığıdır»[470]. (Bu elmi-ədəbi mübahisələr barədə Bəhlul Bəhcətdən bəhs açarkən ətraflı məlumat veriləcəkdir – C.Q.).

Yeri gəlmişkən, qeyd etmək istəyirik ki, S.Mümtazın «Sarı Aşıq» kitabı ətrafında 30-cu illərdə yaranmış bu mübahisənin predmeti təkcə o zaman üçün yox, elə bu gün də Azərbaycan folklorşünaslığının aktual problemlərindən biridir. Belə ki, P.Əfəndiyev Ə.Dəmirçizadənin 1936-cı ildə «Ədəbiyyat qəzeti»ndə bayatılarda müəlliflik məsələsi barəsində söylədiyi fikri özünün 1997-ci ildə çap olunmuş kitabında aktual hesab etmişdir: «Professorun (Ə.Dəmirçizadənin - C.Q.) o zaman deyilmiş bu fikri xalq ədəbiyyatının yaranması və yaradıcıları barədə indi də öz əhəmiyyətini saxlamaqdadır. Doğrudan da, hər bir bayatını əvvəlcə bir nəfər deyib, ümumxalq isə onu əsrlər boyu öz malı kimi yaşatmışdır, dəyişdirmiş, işləmiş və s. Onda belə bir sual verək: bəs Sarı Aşığın

[467] Əfəndiyev P. Göst. əsəri, s. 35.
[468] Əfəndiyev P. Göst. əsəri, s. 36.
[469] Dəmirçizadə Ə. Sarı Aşıq, "Ədəbiyyat qəzeti", 24 may 1936.
[470] Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-1930-cu illər), Bakı, 1997, s. 36.

bayatılarını ümumxalq bayatılarının içərisindən seçmək olarmı və olarsa necə və nə yolla?»[471].

Maraqlıdır ki, bizim günlərdə də bu elmi problem yenidən aktuallaşmış və mübahisə predmetinə çevrilmişdir. Fikrimizcə, mübahisənin poetik-fəlsəfi kökləri var. Bu köklər «bayatı fəlsəfəsinin sirrinə» bağlıdır. Ümumiyyətlə, «nə vaxt yaranması məlum olmayan»[472] «bayatı şifahi xalq ədəbiyyatımızın ən çox yayılmış janrlarından biridir. Bunlar çox dərin mənalı, fəlsəfi, əxlaqi, ictimai fikirlər ifadə edən qısa, yığcam, lirik parçalardır. Bayatı yaratmaq asan deyildir. Çünki dördcə misrada bədii və təsirli şəkildə tamamlanmış bir fikir ifadə etmək tələb olunur. Bayatı ən çox hisslə, həyəcanla, insanların daxili iztirabları ilə əlaqədar yaranır:

Dərya ollam, bulannam,
Sucaq ollam, sulannam,
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam.

Məgər bu kiçik şeir parçasında ömrünü, səadətini, varlığını, həyatını övladının yolunda fəda edən bir ananın geniş qəlbinin döyüntüləri eşidilmirmi?»[473]. «Yaranma tarixi yada gəlməz, çox qədimlərlə səsləşən bayatılar qədər Azərbaycan xalqı içərisində və həmçinin türkdilli xalqlar arasında dillər əzbəri olan, toy, nişan, bahar, zəhmət, yas mərasimlərində geniş yayılan ikinci bir lirik şeir növünü təsəvvür etmək çətindir. Mənbələr bayatının vaxtilə Bayat qəbiləsinə məxsus olduğunu, adının ondan formalaşdığını xəbər versə də, sonralar o, xalqımızın yaşadığı oba-oymaqların bütün guşəsində canlı kitab kimi səhifələnmişdir. Bayatılar mövzu və qayəsinə görə insanı anadan olandan ta məzara qədər müşayiət etməklə məhdudlaşmır. O, sözün geniş mənasında, Azərbaycan və həmçinin türk xalqlarının məskən saldığı ərazidə qanlı-qadalı güzəran keçirən, yadelli işğalçılara qənim kəsilən, dosta həlim münasibət bəsləyən, acılı-şirinli ömür sürən babaların adət-ənənəsini, psixologiyasını əsrlərcə nəsillərdən-nəsillərə yaşadan bədii-tarixi bir salnamə kimi əvəzsiz qiymətə malikdir»[474]. «Bayatı

[471] Əfəndiyev P. Göst. əsəri, s. 36-37.
[472] Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq, Ensiklopedik lüğət, Bakı, 1998, s. 24.
[473] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, Bakı, 1981, s. 145.
[474] Xalqımızın deyimləri və duyumları (Toplayıb yazıya alanı və tərtib edəni: filologiya elmləri doktoru M.İ.Həkimov), Bakı, 1986, s. 24.

Azərbaycan folklorunun qədim janrlarındandır. Xalq həyatının bütün sahələrini özündə əksetdirən, oynaq, dərin məzmunlu, yüksək fəlsəfi fikirlərlə dolu olan bu lirik şeirlərdən şifahi ədəbiyyatla yanaşı, yazılı ədəbiyyatda da istifadə edilir. Bayatıların belə geniş yayılmasına əsas səbəblərdən biri onun musiqi ilə bağlı olmasıdır. İnsanlar toylarda, iş zamanı, beşik başında, bu və ya başqa bir münasibətlə öz daxili həyəcanlarını ifadə etmək üçün bayatıya müraciət etmiş və onu kövrək bir havacatla oxumuşlar. Məhz buna görə də folklorumuzun başqa janrlarına nisbətən bayatıda da geniş yayılmışdır. Bayatılar bütün türk dilli xalqların şifahi və yazılı ədəbiyyatında özünə layiqli yer tutmuş, qədim tarixə malik olan poeziya nümunələridir»[475]. «Azərbaycan ədəbiyyatşünaslığında bayatını bəzən janr (...), bəzən də forma (...) kimi qəbul edirlər. Bizcə, bayatı bədii-estetik zənginliyinə və fəlsəfi-hissi dərinliyinə görə janrdır və bir sıra (məhdud) formalara və şəkillərə malikdir»[476]. «Bayatılar nəinki Şirvan mühiti, eləcə də Azərbaycan və türk folklor dünyasının ən geniş yayılmış, kəmiyyətcə ölçüyə gəlməz bir janrıdır. Bu janr onun nümunələrini qoşanların, mənəviyyatı, arzu-istəkləri, milli xarakter dünyası, üzərində yaşadıqları torpağa bağlılığı, məişəti haqqında ən poetik, ən incə bilgilər daşıyır və onların bu istiqamətdən öyrənilməsi ilə onu qoşanların haqqında «hərşeyi» bilmək olar. Bu baxımdan Şirvan bayatılarınıda Şirvanın «güzgüsü» adlandırmaq mümkündür. Bu «güzgüdə» Azərbaycanla Şirvan boya boy görünür. Məhz bu güzgüyə baxıb Azərbaycanın zəngin folklor dünyasında Şirvan folklor mühitinin bayatılardan boy verən regional özünə məxsusluqlarını görmək olur»[477].

Bayatı, əslində, milli poetik mədəniyyətimizin, bəlkədə, özülünü təşkil edən janrdır. Müasir tədqiqatlarda bu janr hətta milli poetik özünü dərk modeli kimi səciyyələndirilmişdir: «Azərbaycan folklorunun ən qədim janrlarından olan bayatılar sadəlik və mürəkkəbliyin, aşkar və gizlinin, ilkinlik və çağdaşlığın qəribə vəhdətiylə müasir oxucunu heyrətə salır. Ancaq bu heyrətdən və bayatı müdrikliyinin ani dərkindən doğan hisslər ən munis duyğulardır. Bayatı təfsiri, əslində, mədəniyyət və dilimizin, özlüyümüzün dərki deməkdir»[478]. Bu özünü dərk modeli bayatının arxaik milli düşüncə sisteminin ilkin poetik-fəlsəfi əsasları ilə bağlılığından doğur: «Bayatılar istər tarixi inkişaf prosesində semantik mərkəzlərinin dəyişməzliyi, istərsə də formal poetik strukturunun

[475] Vəliyev V. Azərbaycan folkloru, Bakı, 1985, s. 122-123.
[476] Elçin, Quliyev V. Özümüz və sözümüz, Bakı, 1993, s. 17.
[477] Qəniyev S. Şirvan folklor mühiti, Bakı, 1997, s. 17-18.
[478] Hacılı A. Bayatı poetikası, Bakı, 2000, s. 3.

stabilliyi baxımından daha çox mətn tipləridir. Bu lakoniklik janrın çevrələdiyi konkret sərhədlər daxilində lakonikliklə şərtlənir. Bayatılara xas bu xüsusiyyətlərə üçüncü bir cəhəti də əlavə etsək, onda janrın müəyyənlik keyfiyyəti nisbətən aydınlaşar. Bu isə xalq lirizmidir... Bayatı lirizmi digər janrların lirik keyfiyyətinin müəyyənlik göstəricisi, etalonudur. Biz bu cəhətlər üzərində ona görə xüsusi dayanırıq ki, bayatılardakı dünya modelinin rekonstruksiyası, yaxud da müəyyənləşdirilməsi bu üç xüsusiyyətin nəzərə alınmasından birbaşa asılıdır. Beləliklə:

1. Bayatı – lakonikdir:

Bu xüsusiyyət özündə məhdud formal-poetik və semantik janr hüdudlarında struktur bütövlüyünü işarələyir.

2. Bayatı – kanonikdir.

Bu xüsusiyyət özündə bədii fikrin tarixi inkişaf prosesində janrın semantik mərkəzlərinin stabilliyini, variantla invariant arasındakı əlaqənin qırılmazlığını, hətta müxtəlif variantların invariantın üslubi dəyişməsi şəklində olmasını işarələyir.

3. Bayatı – xalis lirikdir.

Bu xüsusiyyət özündə janrın iri poetik struktur daxilində – ənənəvi ədəbiyyatşünaslıqda bu, «növ» adlandırılır – həmin struktur vahidinin xüsusiyyətlərini özündə maksimum əks etdirməsini işarələyir»[479]

Beləliklə, bayatı yaranma tarixi bilinməyən, poetik strukturu milli düşüncənin təşəkkül dövrünə aid janrdır. Bu halda onunla bağlı mübahisələrin təkcə S.Mümtaz və digərlərini yox, eləcə də gələcək tədqiqatçıları da öz çevrəsinə çəkəcəyi məlum perspektivdir.

Salman Mümtaz yazır: «Türki – türk-i, mani – mahan-i, varsağı – varsaq-ı, türkmani – türkman-i, gəraylı – gəray-lı, ovşarı – ovşar-ı, bayatı – bayat-ı. Bu adlar ulusların, ellərin hünərləri və bacarıqları sayəsində yaradılmış şeirlərə, mənzumələrə verilən adlardır ki, bunların vasitəsilə hansı şeirin hansı ulusa, elə nisbəti olduğu meydana çıxır. Hər bir adın axırına, qurtaracağına bir «yeyi-yayı» nisbi izafə edildiyi də buna bir dəlildir. Gəraylı elinin yaratdığı mənzuməyə gəraylı deyildiyi kimi, əfşarların qoşduqlarına da ovşarı deyirlər. Yalnız mani təhrif olunmuşdur ki, o da mahan elinin düzdüyü düzmədir. Mahnı, mahnu, mani hər üçü də mahani deməkdir. Türkmani türkmanilərə, varsağı isə varsa elinə aid şeirlərdir. Bayatı da bunlar kimi. Bayat haqqında dahi şairimiz olan böyük Füzuli adına qaraladığım kitabçada müfəssəl məlumat verildiyinə

[479] Xavəri S. Bayatılarda dünya modeli, «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» II Uluslararası Folklor Konfransının materialları (17-21 mart, 2004-cü il), Bakı, 2004, s. 346.

görə burada yalnız mövzi-bəhsimiz olan beyatı-bayatıya dair qısaca izahat verəcəm. «Lüğəti-türk», «DədəQorqud», «Oğuznamə», «Şəcəreyi-türki» və başqa bəzi ərəbi, farsi, türki mənbə və məxəzlər bəyat boyunun, bəyat elinin mövhum olmayaraq gerçək və həqiqət olduğunu isbat etmədədirlər. Bu ad haqqında bu günə kimi heç biri xtilaft öyrənməmişdir. Bəzi müəlliflərin yazmalarına görə Beyat Oğuz xanın nəvəsi və Günxanın ikinci oğludur. Ağıllı, fərasətli, bay, varlı olduğu üçün onu Beyat adlandırmışlar. Bu təsmiyənin və chi isə Beyatın öz qardaşlarından hər bir cəhətdə üstün və bay, başqa igidlərdən də cəsur və ötgün olması imiş. Adın mənası da təqribən adlı, sanlı, məruf və məşhur deməkdir. Bay- varlı, bəy, bəg, bey; at – ad, isim, nam.

Bu münasibətilədir ki, Bəyatən isbəti olan ulusa, elə, xalqa, bəyat, boyat və biyard deyirlər. El şairlərindən olan Əzizi bəyat kəlməsini boyat şəklində işlətmişdir:

Əziziyəm Beylaqani,
Boyatı Beylaqani,
Hamının bilkası gəldi,
Bəs bizim bilka hanı?»[480]

Görkəmli folklorşünas alim S.Mümtaz bayatıların mənşəyi məsələsinə də toxunur və onun bayat elindən gəldiyini göstərirdi: «Bəyatlıların yaratdıqları ədəbiyyata bəyatı adı verilmişdir ki, bu gün belə yurdumuzda məşhur, hafizəmizdə məhfuz olan bəyatılar bəyat elinin hünəri və o xalqın nümuneyi-qabiliyyətidir. Bəyatı söyləmək, bəyatı çağırmaq şərəfi bəyatlılara və o istedadlı elə aiddir»[481].

1927-1928-ci illərdə S.Mümtaz iki cilddən ibarət «El şairləri» kitabını çap etdirir. Qeyd edək ki, S.Mümtazın «El şairləri» kitabı Azərbaycan xalq poeziyasının təqdimi baxımından son dərəcə zəngin mənbədir. Kitabı 2005-ci ildə filologiya elmləri namizədi, əməkdar incəsənət xadimi Ağalar Mirzə nəfis şəkildə yenidən nəşr etdirmişdir. Burada 140-dan çox sənətkarın şeirləri verilmişdir.

Kitaba iki səhifəlik giriş yazmış prof. A.Nəbiyev S.Mümtazın fəaliyyətinə böyük qiymət verməklə yanaşı, onun irsi ilə bağlı acı bir həqiqətə də toxunmuşdur: «S.Mümtaz ömrünün ən gözəl çağlarında, elmi və ictimai fəaliyyətinin genişləndiyi bir dövrdə repressiyaya məruz qalmış, onun arxivi, zəngin kitabxanası tonqallarda yandırılmışdır. Nəşr

[480] Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı, 1986, s. 159-160.
[481] Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı, 1986, s. 160.

etdirdiyi əsərlərin müəyyən qismi də sonralar müxtəlif müəlliflər tərəfindən mənimsənilmişdir»[482].

S.Mümtazın «El şairləri» kitabını əski əlifbadan latın qrafikalı Azərbaycan əlifbasına transliterasiya edərək ona «El şairləri XX əsrdə» adlı ön söz yazmış mərhum alim Ağalar Mirzə də göstərir ki, Salman Mümtaz toplamaları informatorun dilindən isti-isti yazıya alındığına görə orijinala yaxınlığı, dominant keyfiyyəti ilə dəyərli təsir bağışlayır. Sonrakı nəsil tədqiqatçıları bu toplama və tədqiqatlara akademik sığal çəkərkən bir çox hallarda mətn-məzmun təhrifinə yol vermişdir ki, bu da nəticə etibarilə klassik aşıqlarımızın yaradıcılığında süni müasirləşmə, dil-üslub xətalarına gətirib çıxarır[483]. Ona görə də A.Mirzə belə hesab etmişdir ki, «böyük folklorşünas alim, tədqiqatçı, fədakar söz, sənət adamı Salman Mümtazın yaradıcılığı, xüsusən, ədəbiyyatşünaslıq istiqamətində gördüyü fövqəladə xidmətlər müxtəlif vaxtlarda elmi-nəzəri təhlilə cəlb edilmiş, məqalələr külliyyatı çap olunmuşdur. Lakin yeni nəsil müstəqil ölkənin vətəndaşı kimi milli özünü dərkin faktorlarından və elmi-mənəvi qaynaqlarından biri kimi folklor irsimizin tədqiqinə başlarkən bir vaxtlar ömrünü bu yolda qurban vermiş Salman Mümtazın folklor tapıntılarını əldə görməsə, bu, biz orta nəsilə şərəf gətirməz»[484].

Əlbəttə, «El şairləri» S.Mümtazın zənginliyi və qiyməti haqqında bütün Bakıda vaxtilə əfsanələr dolaşan arxivindən sanki dəryada bir damla nisbətindədir. Prof. P.Əfəndiyev S.Mümtazın elmi arxivinin zənginliyi haqqında bunları yazmışdır: «Salman Mümtazı folklorumuzun bütün janrları eyni dərəcədə maraqlandırmışdır. Onun arxivində hər cür nümunəyə rast gəlmək olar. Bütün bunlar görkəmli ədəbiyyatşünasın xalq yaradıcılığına olan hədsiz məhəbbətinin ifadəsidir. S.Mümtazın folklorşünaslıq fəaliyyəti göstərir ki, o, şifahi dildən daha çox əlyazmaları, köhnə bəyazlar vasitəsilə xalq ədəbiyyatı nümunələrini əldə etmişdir. Ədibin arxivində xalq ədəbiyyatımızın müxtəlif janrlarına dair çoxlu nümunələr vardır. Bunlar müxtəlif ölçülü kağızlarda, dəftərlərdə saxlanmaqdadır. Həmin bollu nümunələr içərisində elələri vardır ki, onların tədqiqi, öyrənilməsi, hətta sistemə salınıb çap olunması bu

[482] Nəbiyev A. Folklor irsinə səmərəli qayıdış, S.Mümtaz, El şairləri (Transliterasiya və tərtib edən, ön söz, izah və şərhlərin müəllifi A.Mirzə, elmi redaktoru H.İsmayılov), Bakı, 2005, s. 3.
[483] Mirzə A. «El şairləri» XX əsrdə, S.Mümtaz, El şairləri (Transliterasiya və tərtib edən, ön söz, izah və şərhlərin müəllifi A.Mirzə, elmi redaktoru H.İsmayılov), Bakı, 2005, s. 14.
[484] Mirzə A. «El şairləri» XX əsrdə, Göst. kitab, s. 19.

fədakar insanın ədəbi fəaliyyətinin daha ətraflı işıqlandırılmasını təmin etmiş olur».[485]

Araşdırmalar göstərir ki, S.Mümtaz folklorun tədqiqindən daha çox, onun toplanması və çapı işi ilə məşğul olmuşdur.

Bütün bu deyilənlər «Salman Mümtaz və Azərbaycan folklorşünaslığı» mövzusunun tədqiq perspektivləri ilə əlaqədər aşağıdakı nəticələrə gəlməyə şərait yaradır:

1. S.Mümtaz Azərbaycan folklorşünaslığı tarixində görkəmli xidmətləri olan şəxsiyyətdir. Bu baxımdan onun irsinin tədqiq edilməsi vacibdir. Alimin folklorşünaslıq fəaliyyəti iki əsas istiqaməti əhatə edir: folklorun toplanması və tədqiqi.

2. S.Mümtazın folklorun toplanması və nəşri sahəsindəki fəaliyyəti onun tədqiqatçılıq fəaliyyətindən daha zəngin və çoxyönlüdür.

3. Fədai alimin folklorşünaslıq fəaliyyəti onun ədəbiyyatşünaslıq fəaliyyəti ilə birgə (paralel) getmişdir.

4. O, Azərbaycan folklorunun, demək olar ki, bütün nümunələrinə dair folklor mətnləri toplamışdır. Lakin toplama fəaliyyətində əsas yeri poetik nümunələr tutmuşdur.

5. Alimin folklorşünaslıq fəaliyyətində əsas işlərdən birini onun Sarı
Aşığın poeziyasının toplanması və çapı sahəsindəki fəaliyyəti təşkil edir.

7. S.Mümtazın folklorşünaslıq fəaliyyətinin digər əsas istiqaməti onun Azərbaycan xalq poeziyasının (el şairləri və aşıqların yaradıcılığının) toplanması, çapı sahəsində gördüyü işləri əhatə edir.

8. S.Mümtazın folklorun çapı sahəsindəki fəaliyyəti tərtibat prinsipləri baxımından elmi maraq kəsb edir. Bu prinsiplərin öyrənilməsi onun bir folklorşünas alim kimi elmi biliklərinin keyfiyyət və səviyyəsini göstərmiş olar.

9. Alimin folklorşünaslıq fəaliyyətinin öyrənilməsində onun məqalələrinin də özünəməxsus yeri vardır. Bunlarda Salman Mümtazın elmi-nəzəri bilikləri, elmi qənaət və mülahizələri öz əksini tapmışdır…

Qeyd edək ki, S.Mümtazın folklorşünaslıq irsinin öyrənilməsi Azərbaycan folklorşünaslıq tarixinin öz həllini çoxdan gözləyən problemlərindəndir. Bu məsələnin öyrənilməsi Azərbaycan folklorşünaslıq elminin bu günkü inkişafının tələbatıdır. Folklorşünaslıq elmimizin dolğun, obyektiv və dəqiq tarixi yaradılmasa və bu tarixdə S.Mümtaz kimilərin fəaliyyəti öz qiymətini almasa, sağlam bünövrə

[485] Əfəndiyev P. Azərbaycan folklorşünaslığı (1920-1930-cu illər), Bakı, 1997, s. 45-46.

üzərində inkişafdan söhbət gedə bilməz. Məsələnin bu tərəfi P.Əfəndiyev tərəfindən çox dəqiq və sərrast şəkildə ifadə olunmuşdur: «... S.Mümtaz ədəbiyyat tariximizdə görkəmli bir folklorşünas kimi də mövqe tutmaqdadır. Xüsusilə şifahi xalq ədəbiyyatının toplanmasında o, böyük zəhmət çəkmiş, gələcək tədqiqatçılar üçün zəngin xəzinə qoyub getmişdir. S.Mümtaz toplayıcılıq, nəşr və tədqiqat işlərilə müasir Azərbaycan folklorşünaslığının formalaşmasında müəyyən rol oynamışdır. Bir sözlə, S.Mümtazın folklorşünaslıq fəaliyyəti xüsusi bir tədqiqatın mövzusudur. Burada onun çap olunan əsər və məqalələri, həm də çap eləyə bilmədiyi çoxlu nümunələr əhatə oluna bilər»[486].

Folklorşünas alim P.Əfəndiyevin bu gün xüsusi aktuallıq kəsb edən bu sözlərinə bunları əlavə etmək olar ki, Azərbaycanın müstəqillik əldə etməsi indi S.Mümtaz haqqında hər cür ideoloji çərçivədən uzaq olan obyektiv söz deməyə imkan verir. Bu baxımdan, S.Mümtazın folklorşünaslıq fəaliyyətinin ayrıca bir monoqrafiyada öyrənilməsi 30-cu illər qanlı Stalin repressiyasının qurbanı olmuş alimin şərəfinə qoyulmuş abidə olmaqla, onun narahat ruhunu sakitləşdirərdi.

1930-cu illərin dövri mətbuatında onun da adı bir millətçi kimi tez-tez hallandırılırdı. Belə hallanmalar isə onu tezliklə NKVD məhbəsinə aparmalı idi və apardı da.

Xalq Daxili İşlər Komissarlığının (XDİK) əməkdaşı Sinman 8 oktyabr 1937-ci ildə 12493 saylı istintaq işi ilə tanış olduqdan sonra belə qərara gəlmişdir ki, Salman Mümtaz Əsgərov əksinqilabi millətçi təşkilatın fəal üzvü olduğuna görə Azərbaycan SSR CM-in 72, 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə müqəssir bilinsin və həbs edilərək Xalq Daxili İşlər Komissarlığının həbsxanasına göndərilsin.

S.Mümtazın həbsi ilə əlaqədar hazırlanmış qərar bir gün sonra (9 oktyabr 1937-ci ildə) XDİK-in 3-cü ranqının dövlət təhlükəsizlik komissarı Sumbatov tərəfindən təsdiq edildi. (Bu qərar ona 1937-ci ilin 15 oktyabrında elan edilmişdi – C.Q). Və beləliklə də, oktyabrın 9-da Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri olan S.Mümtaz 1669 saylı orderə əsasən həbs edildi.

Ənənəvi olaraq XDİK əməkdaşları həbs etdikləri şəxslərin evlərində axtarış aparır və onlarda olan müxtəlif əşyaları, yazı-pozu işlərini, eləcə də kitabları əşyayi-dəlil kimi özləri ilə götürürdülər. Bunakskaya küç. 25 mən 16 ünvanında yaşayan S.Mümtazın da evində axtarış aparıldı və ondan:

[486] Əfəndiyev P. Göst. əsəri, s. 46.

1.Pasport JQ - № 083533

2. Həmkarlar bileti № 191443

3. Əsgərova aid müxtəlif elmi işlər- 3 kisə (əlyazmalar və işlənməmiş materiallar).

4. Əsgərov ilə seçilmiş xüsusi materiallar.

5. Müxtəlif kitablar -121 ədəd (bu barədə bir qədər sonra ətraflı danışılacaqdır).

6. Bir qutu neqativ (foto üçün) götürüldü.

Müttəhimin anketi:

Əsgərzadə Salman Mümtaz
Təvəllüd: 1884, Nuxa şəh.
Ünvan: Bakı Buynakskaya 25
Peşə və ixtisası: Yazıçı
İş yeri: Elmlər Akademiyasının Azərbaycan filialı
Kiçik elmi işçi
Pasportu: 5 illik
Sosial mənşəyi: tacir oğlu
İnqilabdan əvvəl ticarətlə məşğul olmuş
Təhsili: Ali
Azərbaycan SSR vətəndaşlığı
Ailə üzvləri: həyat yoldaşı Zeynəb Əlihüseyn qızı- 44 yaş
Anası Zəhra -78 yaş,
Nəvəsi Laçın - 8 yaş,
Toqra - 11 yaş,
Bacısı Sara - 40 yaş.

9 oktyabrda həbs edilən S.Mümtazı 10 oktyabrda XDİK-in 4-cü şöbənin 3-cü bölməsinin rəisi Azərbaycan xalqından qisas almaq üçün əlindən gələni əsirgəməyən Qalstyan dindirdi və ilk dindirmə zamanı ona cəmi bir sual verdi:

Sual: İstintaqa məlumdur ki, siz həbs edilən günədək ÜK(b)P ilə mübarizədə millətçi mövqedə durmusunuz və əksinqilabi millətçi təşkilatın üzvü olmusunuz. Siz bunu boynunuza alırsınızmı?

Cavab: Xeyr, almıram. İmza.

Çoxları kimi onu da əksinqilabi millətçi təşkilatla əlaqədə və həmin təşkilatın üzvü olmaqda ittiham edirdilər. O isə bu təşkilatla heç bir əlaqəsi olmadığını bildirirdi.

7 dekabr 1937-ci il dindirməsi zamanı Qalstyan ayrı-ayrı şəxslərin ifadələrindən gətirdiyi sitatlarla onun əksinqilabi təşkilatla əlaqəsini sübut etməyə çalışsa da buna nail ola bilmədi.

Sual: - Üzləşmələr zamanı sizin əksinqilabi fəaliyyətiniz tam ifşa olunub. Məsləhət görürəm ki, öz əks inqilabi fəaliyyətiniz barədə ifadə verməyə başlayasınız.

Cavab:– Əks inqilabi təşkilata üzv olmamışam və heç bir əksinqilabi fəaliyyətim olmayıb.

Sual: - Siz əks inqilabi təşkilatın rəhbərlərindən biri olan Ruhulla Axundovun ifadələrində əksinqilabi millətçi təşkilata cəlb edilmiş şəxs kimi ifşa olunursunuz. Buna nə deyirsiniz?

Cavab: - Ruhulla Axundov yalan söyləyir, o məni əksinqilabi millətçi təşkilata cəlb etməyib.

Sual: - İstintaq müəyyən etmişdir ki, siz əksinqilabi təşkilata üzv olub mədəniyyət sahəsində zərərverici fəaliyyət göstərmisiniz. Sizə Ruhulla Axundovun ifadəsindən çıxarış təqdim edirik. "Mədəniyyət cəbhəsində zərərverici fəaliyyəti mən özüm də aparırdım. Mənimlə birgə fəaliyyət göstərirdi...Salman Mümtaz"... Buna nə deyirsiniz?

Cavab :- Buna mən qətiyyətlə etiraz edirəm.

Sual:- Sizin əksinqilabi fəaliyyətiniz, eyni zamanda Məmməd Kazım Ələkbərlinin ifadəsində ifşa olunur.

Cavab: - Məmməd Kazımı mən tanıyıram, lakin onunla hər hansı bir əksinqilabi fəaliyyətdə olduğumu qətiyyətlə inkar edirəm. Ələkbərli yalan danışır.

Sual: - Sizin əksinqilabi fəaliyyətiniz Çobanzadənin, Qubaydullinin, Axundovun və Ələkpərlinin ifadələrində ifşa olunur. İstintaq, həmçinin, sizə Çobanzadənin və Qubaydullinin üzləşmə protokolundan çıxarış təqdim etdi. Sizcə, bütün bu insanlar niyə yalan söyləyir?

Cavab: - Mən bu sualın cavabını verə bilmərəm. İmza. S.Mümtaz.

İmperiyanın əyalətlərə qarşı apardığı siyasətdən başqa, qriqoryanların, qalstyanların, avetikyanların da Azərbaycanla, Azərbaycan ziyalıları ilə öz haqq-hesabları var idi. Bu "yanlar" yaxşı dərk edirdilər ki, ziyalılar xalqın tarixi keçmişini gözəl bilən yaddaş kitabı, mənəvi sərvətidilər. Belə mənəviyyat adamlarını məhv etmək üçün dəridən-qabıqdan çıxır, hər hansı bir vasitə ilə onları müqəssir etməyə çalışırdılar. Fiziki-psixoloji təqib və təzyiqlər köməyə

gəlmədikdə Azərbaycan ziyalılarını qarşı-qarşıya gətirərək onları üzləşdirirdilər. S.Mümtazı da Çobanzadə və Qubaydullinlə üzləşdirdilər.

Atasının həbsindən sonra daima mənəvi-psixoloji gərginliklər içərisində yaşayan Salman Mümtazın qızı Şəhla xanım xatırlayır ki, atama ailəsi ilə 15 dəqiqəlik görüş verdilər. "Həmin görüşdə atası danışdı ki, professor Çobanzadə və Übeydulin (Qubaydullin olmalıdır-C.Q) yalandan şahidlik edib üzünə durublar. Übeydulinə çox yaxşılıqları keçmiş Salman Mümtaz haqqı-çörəyi itirdiyinə görə professoru məzəmmət edir. Übeydulin ona sarı atılıb kədərli bir səslə: "Məcburam, Salman, məcbur eləyirlər, bacarmıram" - deyir. Sonra təpiklə professorun başına, ağzına vurub qan içində sürüyə-sürüyə aparıb gedirlər".

Üzləşmələr də bu cür işgəncə, iztirab və sitəmlərlə aparılırdı. Özünün əksinqilabi təşkilatın üzvü olduğunu etiraf etməyənlər isə ikiqat cəzalandırılırdı. Salman Mümtaz da əksinqilabi millətçi təşkilatın üzvü olduğunu inkar etdikcə qriqoryanların, qalstyanların, avetikyanların təpikləri altında işgəncələrə məruz qalırdı. Şəhla xanım xatırlayır ki, atasını da çox incitmişdilər, NKVD müstəntiqlərinin amansız rəftarı nəticəsində onun dişlərinin çoxu sınmışdı. Bütün təqib və təzyiqlərə baxmayaraq S.Mümtaz və H.Cavid axıradək duruş gətirmiş və özlərinin xalq düşməni olmadıqlarını bildirmişlər. Elə ona görə də Cavid və Mümtaz güllələnməmişdi. ***O illərin yazılmamış bir qanunu vardı. Kim ki, «günahlarını» boynuna alır, özünün «xalq düşməni», «vətən xaini» olduğunu etiraf edirdi, onlar birinci kateqoriya (güllələnmə) ilə ittiham olunur və ailə üzvləri 8 il müddətinə azadlıqdan məhrum edilirdi. Kim ki, özünün müqəssir olduğunu etiraf etmirdi, onun özünə 8-15 il verir və ailəsini müttəhimlər kürsüsündə əyləşdirmirdilər.*** Deməli, belə şəxslər özlərini güllələnmədən, ailə üzvlərini isə (mənəvi iztirab və streslərdən qurtara bilməsədə) həbsdən xilas edirdi. Doğrudur, müttəhimlərin bu proseslərdən xəbəri yox idi və olsaydı, yəqin ki, çoxları fiziki və psixoloji əzablara dözər və ailə üzvlərini xilas edərdi. Müstəntiqlər müttəhimlərə yalan vədlər verir, guya onlar öz günahlarını boyunlarına alsalar sovet hökuməti humanist addımlar ataraq onları bağışlayacaqdır. Bu məkrli niyyət baş tutmayanda isə üzləşmələrə əl atırdılar.

Fikrimizin təsdiqi üçün Mümtazla Qubaydullinin 10 sentyabr 1937-ci il üzləşmə protokoluna nəzər yetirək.

Sual (Qubaydullinə): Nə zaman siz Əsgərzadə ilə əksinqilabi əlaqəyə girmisiniz və bu əlaqə nədən ibarətdir?

Cavab: S.M.Əsgərzadə ilə ilk dəfə mən Bakı şəhərində, Türkoloji qurultayda, 1926-cı ildə tanış olsam da, onunla daha yaxın 1927-ci ildə olmuşam. Ümumi söhbətlər zamanı mənə aydın oldu ki, S.Mümtazı necə bir pantürkist-əksinqilabçı millətçi, yerli millətçi cəhətləri ilə tanımışam. Bizim əlaqələrimiz yaxşılaşanda S.Mümtaz mənə Orenburqda, Türkistanda olması və Orenburqda çap olunan "Şura" və "Vaxt" qəzetlərinin redaktorları ilə yaxınlıqları barədə danışmışdır. Bu qəzetlərin naşiri məhşur panislamist və pantürkist Fəxrəddinov və Fattik Kərimli idi. S.Mümtaz həmçinin mənə deyirdi ki, o, Tatarıstanın, Başqırdıstanın və Türküstanın bir hissəsinin əksinqilabi pantürkist hərəkatının mesenat və himayəçisi Xusainovla əlaqədə idi. Mən və S.Mümtaz necə bir pantürkist kimi Tatarstanın, Başqırdstanın və Türküstanın pantürkist hərakatının rəhbərlərinə böyük hörmətlə yanaşırdıq. Biz ikimiz Sovet hökuməti və ÜK(b)P-sı ilə mübarizədə əksinqilabi pantürkist millətçi mövqelərində dayanmışdıq və hesab edirdik ki, ancaq Sovet hökuməti ilə mübarizə yoluyla Azərbaycanı SSRİ-dən ayırmaq və müstəqil Azərbaycan dövlətini burjua demokratik idarə üsulu ilə yaratmaq lazımdır. Mən necə bir pantürkist kimi sözsüz ki, məsələləri daha geniş qoyurdum. Məsələn, vahid Türk-tatar dövlətini yaratmaq və onu SSRİ-dən ayırmaq. S.Mümtaz da mənimlə həmfikir idi, ancaq o məndən fərqli olaraq yerli millətçi təmayüllü mövqedə idi. 1926-cı ildə Bakıda pantürkistlərin mərkəzi yaranmışdı və həmin mərkəz mənə Azərbaycanın görkəmli hökumət işçilərini bu təşkilata cəlb etməyi həvalə etmişdi. Bu təşkilata S.Mümtaz da cəlb edilmişdi. S.Mümtazı bu təşkilata cəlb etmək üçün böyük səy göstərilməmişdi. Ona görə ki, o, əksinqilabi millətçi pantürkist mövqedə dururdu. Mən həbs edilənədək S.Mümtazla əksinqilabi əlaqələr saxlayır və biz görüşən zaman partiyanın və Sovet hökumətinin milli məsələlər üzrə siyasətini əks-inqilabi mövqedən tənqid edirdik. 1936-cı ildə əksinqilabi millətçi təşkilatın fəal üzvlərinin birindən mənə məlum oldu ki, S.Mümtaz əksinqilabi millətçi təşkilat tərəfindən cəlb edilib və orada işləyir.

Sual (Mümtaza): Bunlar düzdürmü?

Cavab: Mən təsdiq edirəm ki, Qubaydullinlə 1926-cı ildə Türkoloji qurultay zamanı Bakı şəhərində tanış olmuşam və mən ona öz olduğum və başqa şəhərlər barəsində danışmışam. Ancaq mən Qubaydullinlə əks-inqilabi əlaqədə olmağımı qəti surətdə rədd edirəm. Mən əksinqilabi

mövqedə durmamışam və Qubaydullin məni əksinqilabi təşkilata cəlb etməyib. Qubaydullinin ifadələri yalandır, mən onlara qəti etiraz edirəm[487].

Dindirmə protokollarında çox təəccüblü bir hal da müşahidə olunmaqdadır. Sanki XDİK-in müstəntiqləri müttəhimlərlə danışıqlarında bütün etik normaları gözləyir və hətta onlara "Siz" deyə müraciət edirlər. Lakin minlərlə fakt gətirmək olar ki, onlar həbs edilənləri istintaqa qədər müxtəlif cəza tədbirləri ilə incitmiş, necə deyərlər, istintaqa hazırlamış və sonra dindirmişlər.

7 dekabr 1937-ci ildə istintaqın qurtardığı S.Mümtaza elan edildi və bildirildi ki, CPM-nin 206-cı maddəsinə əsasən, istintaq işi prokurorluğa göndəriləcəkdir.

Az.SSR XDİK-in 3-cü ranqın DT komissarı Sumbatovun təsdiq etdiyi ittihamnamədə Salman Mümtaz əsasən aşağıdakılarda ittiham edilirdi:

1. 1926-cı ildən əksinqilabi təşkilatın üzvü olmuş və 1937-ci ildə həbs edilənədək Çobanzadənin və Qubaydullinin yaratdığı əksinqilabi pantürkist təşkilatın mərkəzi ilə təşkilati əlaqəsi olmuşdur.

2. Azərbaycanı SSRİ-dən silahlı üsyan yolu ilə ayırmağı, ÜK(b)P-nın və sovet hökumətinin rəhbərlərinə qarşı terror aktları hazırlamağı və təxribat-zərərçilik aktları yolu ilə ayırmağı qarşısına məqsəd qoymuş, Bakıdakı gizli əksinqilabi millətçi təşkilatın üzvü olmuşdur.

3. Əks-inqilabi millətçi təşkilatın mərkəzinin üzvü Ruhulla Axundovun tapşırığı ilə Azərbaycan Elmlər Akademiyasının Filialında zərərli iş aparmışdır.

Az.SSR CM-in 64, 18-70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə müqəssir bilinən S.Mümtaz bütün ifadələrində özünün müqəssir olmadığını bildirir.

9 yanvar 1938-ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hazırlıq iclası keçirilir və qərara alınır ki, Salman Mümtaz Az.SSR CM-nin 64, 18-70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilsin və onun işinə şahidsiz, ittihamçısız və müdafiəçisiz bağlı iclasda baxılsın.

9 yanvar 1938-ci ildə Bakı şəhərində sədr İ.T.Hikitçenko, üzvlər V.İ. İyevlev və P.E.İşenko, katib isə L.H.Kudryavçev olmaqla SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının bağlı iclası öz işinə

[487] DTX-nin arxivi. S.Mümtazın istintaq qovluğu, PR - № 25082.

başladı. İclas saat 15-də başlamış, 15.30-da öz işini bitmiş hesab etmişdir.

Bağlı iclasda ona siyasi hüquqları **BEŞ** il əlindən alınmaqla **ON** il müddətinə azadlıqdan məhrum edilməsi hökmü oxunmuşdur.

1950-ci illərdə Stalin rejiminin buzu əridiyi zaman onun bəraəti ilə əlaqədar müraciətlər oldu. İlkin olaraq 23 aprel 1956-cı ildə Azərbaycan Sovet Yazıçılar İttifaqı tərəfindən Zaqafqaziya Diyar Hərbi Prokrorunun Baş Köməkçisi, ədliyyə plokovniki Çesnokova Əskərov Salman Mümtaz barəsində yaradıcılıq xasiyyətnaməsi təqdim etdilər. Yaradıcılıq Xasiyyətnaməsində göstərilirdi ki, Əskərov Salman Mümtaz hələ inqilabdan əvvəl ədəbiyyatla maraqlanır, satirik şeirləri ilə "Molla Nəsrəddin" jurnalında dərc olunur, klassik ədəbiyyat nümunələrini toplayırdı.

Azərbaycanda Sovet hökumətinin ilk illərindən etibarən Əskərov Salman Mümtaz "Kommunist" qəzetinin nəşrində klassik yazıçıların əsərlərini dərc edirdi. Ağa Məsih, Qövsi, Vaqif, Zakir, Mirzə Şəfi, Nəsimi və başqaları.

Əskərov özünün topladığı, milli şairlərin əsərlərinin iki cildlik toplusunu çapa hazırladı və nəşr etdi. Salman Mümtazın topladığı klassiklərin və milli şairlərin əsərləri Azərbaycan ədəbiyyatının öyrənilməsində böyük rol oynadı və hazırda da əhəmiyyətini qoruyub saxlayır.

15 iyun 1956-cı ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Əskərov Salman Mümtazın işi üzrə belə qərara gəldi ki, 9 yanvar 1938-ci il tarixində SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası CM-in 64, 18-70, və 73-cü maddələri ilə ittiham edilərək siyasi hüquqlarının 5 il dondurulması və ona aid olan bütün şəxsi mülkünü müsadirə etməklə 10 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Aşağıdakı əsaslarla Əskərova aid hökm ləğv olunur və işə xitam verilir:

1. İstintaqda və Məhkəmədə Əskərov özünü müqəssir hesab etməmişdir.

2. Əvvəl məhkum olunmuş, Ruhulla Axundov və Az.SSR XKS – nin sədr müavini Mirzə Davud Hüseynov SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə tam bəraət qazandıqları üçün onların verdiyi ifadələr S.M.Əskərovun günahını sübut etmir.

3. Xuluflu və Şahbazinin cinayət işlərinə Baş Hərbi Prokurorluq tərəfindən baxılıb və hökmün ləğvi, eləcə də işə xitam verilməsi qərarı SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına təqdim olunub.

4. Azərbaycan Yazıçılar İttifaqının Rəyasət Heyətinin verdiyi yaradıcılıq xasiyyətnaməsinə görə yazıçı Əskərov Salman Mümtazın əməyi hazırda da öz əhəmiyyətini saxlayır.

5. İş üzrə istintaq aparmış XDİK-in keçmiş əməkdaşları Tsinman, Qalstyan, Avanesyan və Borşov məhkum olunmuş, Sumbatov isə istintaq işlərinin saxtakarlığına görə həbs olunmuşdur.

Sadalananları nəzərə alaraq **hesab edirik ki,** Əskərov Salman Mümtaza bəraət verilməsi məqsədilə onun işi aidiyyatı materiallarla birgə SSRİ Ali Məhkəməsinin Hərbi Kolleqiyasına göndərilsin.

Bütün bunları nəzərə alan SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası 17 noyabr 1956-cı ildə Əskərov Salman Mümtazın işinə yenidən baxır və ona bəraət verilir.

Şərqin mənəvi sərvətlərini toplayan, öyrənən və geniş oxucu kütləsinə çatdıran görkəmli publisistin və mətnşünas alimin özü bəraət alsa da, özü ilə həbs edilən kitablarına bəraət verilmədi. Daha doğrusu onun özünə 10 il həbs cəzası versələr də, kitablarına əbədi iş kəsmişdilər. Məhv edilən kitablar içərisində təkcə nadir əlyazma və cünglər, qiymətli kitablar olmamış, eyni zamanda xalqın zaman-zaman yaddaşında yaşatdığı folklor nümunələri də olmuşdur.

S.Mümtaza və onun sərvətlərinə dəyən zərbə milli mənəviyyata və əxlaqa, zəngin fəlsəfi və bədii-estetik fikir irsimizə dəydi. ***Mənəvi sərvət itkisi xalqın milli yaddaş itkisidir. Milli yaddaş itkisini bərpa etmək olduqca ağır və çətin və bəlkə də, mümkün deyil.*** Bütün bunlar təkcə Azərbaycanın deyil, bütövlükdə Şərqin yaddaş repressiyası idi. Nadir əlyazmaların məhvi Azərbaycan tarixinin şübhə altına alınması, "montajı" onu həm də elat və köçəri etmək ideyasına xidmət edirdi. Bu isə fərdlərin yox, millətin faciəsi idi.

Salman Mümtazın yaradıcılığı ilə yaxından tanış olduqca tez-tez "ilk dəfə" sözünü işlətməyə məcbur olursan. Belə ki, o:

- ilk dəfə olaraq Şərqin qiymətli və az yayılan əlyazmalarını toplamış;

- ilk dəfə olaraq Azərbaycanın bir çox şairləri haqqında qiymətli fikirlər söyləmiş;

- ilk dəfə olaraq bir çox sənətkarların tərcümeyi-hal materiallarını apardığı elmi axtarışlar nəticəsində müəyyənləşdirmiş və ya dəqiqləşdirmiş;

- ilk dəfə olaraq Vaqif və Vidadinin hansı əsrin nümayəndəsi olmalarını göstərmiş;

- ilk dəfə olaraq az tanınan və ya tanınmayan klassiklərin əsərlərini toplamış və tədqiqata cəlb etməyi vacib saymış;

- ilk dəfə olaraq İsmayıl bəy Qutqaşinlinin "Rəşid bəy və Səadət xanım" əsərini tapıb üzə çıxarmış;

- ilk dəfə olaraq…

Xalqın mənəvi-estetik sərvətlərini toplamaq olduqca vacib və xeyirxah bir əməl idi. "Çünki Vaqif ilə Füzuli, Xətai, Həbibi, Nəimi və Nəsimidən daha neçə əsr qabaqca gəlmiş şairlərimizin aralarında sənətkarlar əlləri ilə işlənilib, o silsileyi-şeirin zərif və zərrin həlqələri artıq bir-birlərindən ayrılmış və daha doğrusu, qırılıb tökülmüşdür. O silsiləni qurmaq və qırılan ədəbi zəncirləri gözəl bir surətdə bir-birlərinə bitişdirmək üçün iki cəbhədə də çalışmalıyam".

Göründüyü kimi, onun əsas məqsədlərindən biri şairlər və onlar arasındakı mənəvi ünsiyyəti, milli bədii düşüncə kodunun fasiləsizliyini bərpa etməkdən ibarət olmuşdur. Lakin bu mənəvi körpünü bərpa etmək o qədər də asan deyildi: "Məxəzlərim mürgənələr, güvələr ağızlarından, siçanlar və kəsəyənlər boğazlarından artıq qalmış cırıq-mırıq yarpaqlar və darmadağın cünglər və bəyazlardır. Qaynaq, mənbə - istoçniklərim isə uçuq, yıxıq qəbir daşları ilə səqfi çökmüş məscid tağları olmuşdur. İstifadə etdiyim qəzetə və jurnallar da qoca kişilərin və çox yaşamış qadınların hafizələri və hövsələləridir, məndən qabaq gələn mühərrirlərdən bu yolda bir hazırlıq görən olsa idi, şəksiz, mən bir bu qədər də çətinliyə uğramazdım. Tarixi-ədəbiyyatımızı meydana çıxarmaq imkan xaricində olduğu üçündür ki, bu günə kimi yaxşı-yaman belə bir əsər meydana çıxmamışdır"[488].

Azərbaycan ədəbiyyatının belə bir çətin dövründə, yəni klassik bədii materialların olmadığı bir vaxtda S.Mümtaz, necə deyərlər, qollarını çırmalayaraq ortaya atılmış və yüz illiklərin arxasında qalan yeri və ünvanı naməlum Şərqin ən qiymətli sərvətlərini toplamağa başlamışdır. Salman Mümtazın bu sahədəki xidmətlərini Azərbaycanda yalnız bir nəfərlə, F.Köçərli ilə müqayisə etmək olar. Xalqın bu iki oğlu milli mədəniyyətimizlə bağlı olan materialları toplamış, tərtib etmiş və bir qismini nəşr etdirməyə müvəffəq olmuşlar.

Bunlar elə bir sərvət idi ki, onları əldə etmədən mükəmməl Azərbaycan ədəbiyyatı tarixini yazmaq, ayrı-ayrı sənətkarlara düzgün qiymət vermək, onların Şərq mədəniyyətindəki yerini, klassik irslə müasir irs arasındakı ənənə və əlaqəni müəyyənləşdirmək, Azərbaycan

[488] Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı, 1986, s. 26.

ədəbiyyatının qədimliyini və zənginliyini göstərmək mümkün deyildi. Doğrudur, S.Mümtaza qədər bu sahədə müəyyən işlər görülmüşdür. Belə ki, F.Köçərli 1903-cü ildə rus dilində bir ədəbiyyat dərsliyi yazıb çap etdirmişdir. Eyni zamanda Abdulla Sur Məhəmmədzadə də hələ Türkiyədə oxuduğu illərdə (1906-1910) "Türk ədəbiyyatı tarixi" adlı 1000 səhifəlik əsər yazıb 1908-ci ildə çap olunmaq üçün "Molla Nəsrəddin" jurnalına vermiş, lakin həmin əsər bəzi səbəblərdən çap edilməmiş və müəmmalı şəkildə itmişdir. (İndi ondan yalnız bəzi fraqmentlər qalmışdır. Bax. Azərbaycan Əlyazmaları İnstitutu, FR-544/3577).

Bütün bunlardan S.Mümtaz xəbərdar idi. Lakin S.Mümtaz belə hesab edirdi ki, Şərqin klassik şairlərinin əsərlərini kifayət qədər toplamadan mükəmməl Azərbaycan ədəbiyyatı tarixi ortaya qoymaq olmaz. Ona görə də o, əsər və əlyazmaların toplanmasını özü üçün birinci dərəcəli işə çevirmişdi. S.Mümtaz harada və hansı şəraitdə olmasına baxmayaraq, qədim kitab və əlyazmaları toplayır, həmin mənbələr əsasında materiallar çap etdirirdi. S.Mümtazın tədqiqatçılarından olan Nəcəf Nəcəfov yazır ki, onun tədqiqat əsərlərində bir pərakəndəlik vardır ki, bizcə bu onda olan materialların çoxluğundan irəli gəlirdi.

Çox materialı toplamaq və tədqiqata cəlb etmək o qədər də asan iş deyildi. O hər hansı bir əsərin sorağını eşitsəydi həmin yerə gedib əlyazmaları axtarıb tapmağa çalışardı. Digər maraqlı cəhət ondan ibarətdir ki, S.Mümtazın materialları toplamaq həvəsi onları tədqiq etmək həvəsindən daha böyük idi. S.Mümtaz materialları toplanmasını, onun Azərbaycana gətizdirilməsini tədqiqat əsərlərindən daha üstün tutur və belə hesab edirdi ki, materiallar xammal kimi nə qədər çox toplanarsa, bir o qədər də onları tədqiq etmək, doğru və düzgün elmi qənaətlərə gəlmək asan olar.

S.Mümtazı artıq qədim əlyazma və kitabları toplayan bir şəxs kimi çoxları tanıyır və bunlar arasında tapdıqları kitabları ona göndərənlər də vardı. O isə həmin əlyazmalar üzərində böyük həvəs və can yanğısı ilə çalışır, onları geniş oxucu kütlələrinə çatdırmağa səy göstərirdi. Bəzən elə olurdu ki, tədqiqatçı aylarla bir əlyazma üzərində işləyir, lakin ondan yalnız bir beyt ələ gətirə bilirdi: "Təqarüb vəznində rişteyi-nəzmə çəkilmiş o "Şahnamənin" (Ağa Məsih Şirvaninin "Şahnaməsi" nəzərdə tutulur – C. Q) bir və bəlkə də, yeganə nüsxəsini Şamaxı mütəəxxirin üləmasından mərhum Mir Mehdi Ağa tapıb, mənə göndərmişdi. Nə fayda ki, iki əsrdən bəri güvələr, mürgənələr ağızlarından çıxmış və

illərcə yağışlar altında qalmış o kitabdan min məşəqqətlə yalnız bir beyt oxuya bildim ki, o da tarixlərdə Quba, Bakı, Dərbənd, Şirvan və Salyan xanı olan Fətəli xanın haqqındadır".

Hazırda təqaüddə olan Nəcəf Şeyxzamanlının dediklərinə fikir verək: "Mənim əmim Əhməd Kərbəlayi Qənbər oğlu Şeyxzamanlı (1905-ci il təvəllüdlü) 70-ci illərdə mənə belə bir əhvalat danışdı. "1936-37-ci illərdə görkəmli yazıçı Salman Mümtaz Gəncədə olarkən Hacı İsa bəy Şeyxzamanlının evində olub və rəhmətliyin arvadı Böyükxanım xala ilə söhbət edərkən deyib ki, Azərbaycanın böyük şairi Şeyx Nizaminin 800 illik yubileyinə hazırlıq gedir və bilirik ki, Şeyxzamanlıların nəsil şəcərəsi Şeyx Nizamiyə qədər gedib çıxır. Xahiş edirəm, icazə verin, Sizdəki əlyazma və kitablarla tanış olum. Böyükxanım xala deyib ki, mən savadsız qadınam, ona görə də heç nədən xəbərim yoxdur. Lakin bizdə qalmış kitablar, kağızlar hamısı taxtapuşdadır (evin banında). İstəyirsən qalx, gör nə tapırsan. S.Mümtaz bir kisə kitab və başqa kar-kağızı yığıb özü ilə Bakıya aparır. İmza Nəcəf Şeyxzamanlı. 11.02.97". (Əlyazma bu sətirlərin müəllifindədir).

Təsadüfi deyildir ki, S.Mümtaz hər hansı bir elmi mübahisə düşəndə və ya hər hansı bir məsələyə aydınlıq gətirəndə həmin materiallara istinad edər, öz həmkarlarına faktik materiallara söykənərək elmi nəticələr çıxarmasını məsləhət görərdi. Fikrimizi akademik H.Araslının 1963-cü ildə S. Mümtazın kitabxanasının taleyi ilə bağlı Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə yazdığı bir məktub da təsdiqləyir: "Mən Salman Mümtaz Əsgərovu şəxsən tanıyırdım. Onun çox zəngin kitabxanası var idi. O, hələ inqilabdan əvvəl nadir əlyazmalarını toplayırdı. Onun kitabxanasında ərəb, fars, türk, Azərbaycan və s. dillərdə əlyazmaları və nadir kitablar: divanlar, külliy-yatlar, təzkirələr, cünglər, tarix kitabları, ayrı-ayrı şair və yazıçıların məktubları mövcud idi. 1936-cı ildə mən Yazıçılar İttifaqında Sarı Aşıq haqqında məruzə etmişdim. Mübahisədə Bəhlul Bəhcət Salmanın kitabını tənqid etdi. Salman sabahı iclasa bir böyük çemodan, əlyazması gətirmişdi. Öz fikirlərini o, yazmalarla sübut etmək istəyirdi"[489]. Lakin zaman elə gətirdi ki, onun bu zəngin kitabxanası XDİK əməkdaşları tərəfindən müsadirə edildi və geri qaytarılmadı. Əldə olan bəzi nümunələr isə Şəhla xanımın dediyi kimi evdən oğurlandı.

[489] DTX-nin arxivi. S.Mümtazın istintaq qovluğu, PR - № 25082.

Əlyazma və kitabların axtarışı ilə məşğul olan Şəhla Mümtazzadə ərizə ilə müxtəlif ünvanlara – Azərbaycan Sovet Yazıçılar İttifaqına, Azərbaycan SSR Dövlət Təhlükəsizlik Nazirliyinə, N.Xruşşova və s. müraciət etmiş, onların üzə çıxarılması istiqamətində xeyli əziyyət çəkmiş, əlyazma və kitabların ümumi siyahısını tərtib etmişdir. Onun yazdığı ərizə əsasında Moskva Az.SSR Nazirlər Soveti yanında DTK-nın sədri S.K.Sviquna, Az.SSR Maliyyə nazirinin müavini M.Hüseynova aşağıdakı məzmunda bir məktub göndərmiş və öz tapşırıqlarını vermişdir. Məktubda göstərilir ki, S.M.Əsgərovun həbsi zamanı onun evindən "3 kisə, 1 çemodan elmi iş (qaralama və əlyazmalar), bir bağlama Əsgərovun seçdiyi xüsusi materiallar" və 12 cild "müxtəlif kitablar" götürülmüşdür. Əsgərovdan götürülmüş kitabların, əlyazmaların taleyi və onların adları məlum deyil. Az.SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi ilə 3 oktyabr 1963-cü ildə tərtib edilmiş, nəticədə (əlyazmaların və kitabların qaytarılması haqqında) Əsgərovun varislərinin əmlak haqqındakı narazılıq iddiaları kifayət qədər əsaslandırılmamışdır. Götürülmüş əlyazma və kitablara aid ayrı-ayrı vacib suallar (göndərdiyiniz məktubda) özünü tam dolğun göstərməmişdir. Bu səbəbdən bəraət almış S.M.Əsgərovun varislərinə onun qızı tərəfindən tərtib edilən 238 adda əlyazma və kitablara qoyulmuş qiymətin ödənilməsini əsaslandırılmış hesab etmək olmaz. Yoxlama materiallarını qaytararaq sizdən xahiş edirik ki, Əsgərovun varislərinin iddialarının əlavə yoxlamalarını aparasınız. Bu məqsədlə ərizəçini, şahidləri, qonşuları və həbs zamanı müsadirə edilmiş kitabxananı təsdiq edən şəxsləri dindirmək lazımdır.

Adı gedən məktubda yuxarıda sadalanan şəxslərə veriləcək suallar da əvvəlcədən konkret göstərilmişdir:

1. Əsgərovun maddi və ailə vəziyyətini nəzərə alaraq qiymətli kitabxanasındakı əlyazma və kitabların nə zaman və haradan əldə edilməsi; bu kitabxananın həcmi və onun mənzilin harasında yerləşməsi; Əsgərovun mənzilinin sahəsi.

2. Əskərov həbs edilərkən onun hansı kitabları və əlyazmaları götürülməmişdir, onlar kimin öhdəsində qalmışdır və onların sonrakı taleyi necə olmuşdur.

Xahiş edirik, S.M.Əskərovun varislərinə vermək üçün yoxlamanın nəticələri rəydə əks etdirilsin, Maliyyə Nazirliyinə göndəriləcək müsadirə edilmiş əlyazma və kitabların qiymətlərinin qoyulması və ödənilməsi məqsədi ilə müəyyən edilmiş qaydada qərar çıxarılsın.

Moskvanın bu tapşırığından sonra DTK-nın əməkdaşları məsələni aydınlaşdırmaq məqsədi ilə 8 may 1964-cü ildə Şəhla xanımı yenidən dindirdi.

Sual: Atanız Əskərov Salman Mümtaz (müstəntiq bir çox yerdə Salman Mümtazın atasının adını Mümtaz yazmışdır ki, bu tamamilə səhvdir. Onun atasının adı Məmmədəmindir – C.Q) oğlunun müsadirə edilmiş kitabxanası haqqında müfəssəl danışın.

Cavab: Necə ki, mən xatırlayıram, atam Əskərov Salman Mümtaz oğlu 9 oktyabr 1937-ci ildə həbs edilmişdir. Həbsin icrasını bizim mənzilə gecə saat 12-də gəlmiş Az.SSR XDİK-in iki nümayəndəsi yerinə yetirirdi. Göstərilən əməkdaşların familiyasını bilmirdim və indi də bilmirəm. Bütün gecəni onlar mənzilimizdə axtarış apardılar. Səhər saat 6-7 radələrində yük maşını çağırdılar. Maşını çağırmamışdan əvvəl kitablar qabaqcadan aşağıya daşınmışdı və podyezdə bir-birinin üstünə yığılmışdı, oradan isə onları maşına yüklədilər. Ondan əlavə kitabların və əlyazmaların ayrılmış hissəsini minik maşınına yükləmişdilər. Həmin maşında mənim atamı da həbs edib apardılar. Göstərilən əməkdaşlar tərəfindən kitabxanadan ayrılmış və aparılmış kitablar və əlyazmalar axtarış protokoluna salınmışdır. Hazırda həmin protokol atamın istintaq işində qorunub saxlanılır. Kitabxananın əsas hissəsi ayrıldıqca şagird dəftərindən də qalın olan vərəqlərdə qeydiyyatdan keçib. Siyahının surəti bizə verilmişdi, lakin bir neçə vaxtdan sonra bizim evdə ev əşyaları ilə birgə çemodanlar da oğurlanan zaman ofisdə çamadanların içində olmuşdur.

Qeyd etməliyəm ki, kitabların qeydiyyatı zamanı onların içində bir neçə adi, ucuz kitab seçildi və ayrıca çemodana yığıldı. Bu karzinkada, təxminən, 100-150 ədədə yaxın kitab, bundan başqa bir neçə jurnal və əl-yazma qaldı. Qalanlarını isə apardılar. Kitablar götürülən zaman dəvət edilən olmamışdı və qonşulardan, eləcə də qohumlarımızdan heç kəs iştirak etmirdi. Evdə yalnız bizim ailənin üzvləri, yəni mənim anam Əsgərova Zeynəb Əlhüseyn qızı, 1938-ci ildə vəfat edən nənəm Zəhra xanım və mən var idim.

Sual: Atanız S.Mümtazın kitablarının müsadirə edilməsi faktını kim təsdiq edə bilər?

Cavab: Atamın kitablarının müsadirə edilməsi faktını axtarış aparan və kitabları götürən XDİK-in 2 əməkdaşı, mənim anam Əsgərova Zeynəb və mən təsdiq edə bilərik. Qonşulardan heç kəs iştirak etmədiyindən onların adlarını şahid kimi çəkə bilmərəm.

Sual: Atanızın müsadirə edilmiş kitabxanasının tutumu (obyomu) haqqında danışın.

Cavab: Hər şeydən əvvəl mənzilimizin ümumi görünüşünü təsvir etmək istəyirəm. Bizim mənzilimiz 3 otaqdan ibarətdir. Hər otağın ayrıca karidora çıxışı vardır. Birinci otağın sahəsi 25 kv.m., atamın kabineti idi. Atamın kitabxanasının əsas hissəsi aşağıda göstərilən şkaflarda yerləşdirilmişdir...

Şəhla xanım evlərinin neçə kvadrat metr olmasını belə izah edir:

1. Birinci otaq - 25 kvadrat metr.
2. İkinci otaq - 16 kvadrat metr
3. Üçüncü otaq - 14 kvadrat metr.

Bundan başqa, mətbəx 10 kvadrat metr, qalereya 25 kvadrat metrə yaxın, dəhliz 6 kvadrat metrə yaxın.

Sual: Sizin atanızın kitabxanası hansı müddətdə və hansı vəsaitlə alınmışdır?

Cavab: Mənim atamın babası və babasının atası varlı idilər, ticarətlə məşğul olurdular. Onların var-dövləti atama qalmışdı. Mənim atam nadir və qiymətli kitabların həvəskarı idi. Atasının vəsaitlərini, sonra isə 30 il öz vəsaitlərini istifadə etmiş, ondan da bu kitabxana əmələ gəlmişdir...

Sual: Bu kitablar sizin evinizdən hara aparılıb?

Cavab: Atamın kitabxanasının hara aparıldığını mən bilmirəm. O barədə mənə heç kəs izahat verməyib. Ancaq yadımdadır ki, o günün səhəri (bizdə axtarış aparılan günün səhəri) atamı tutdular və yuxarıda göstərilən XDİK-in işçiləri telefon vasitəsi ilə 1 yük maşını, sonra isə 2-ci yük maşını çağırmışdılar.

Birinci maşın telefon çağırışından, təxminən, 15-20 dəqiqə sonra gəlmişdi, kitabları ona yüklədilər və göndərdilər. Elə o vaxtın ərzində də 2-ci maşın gəldi. İkinci maşın kiçik tipli avtobusa oxşayırdı, üstü bağlı idi. Həmin maşında özləri ilə atamı, 3 kisə, 2 çemodan və bir neçə bağlama kitab və əlyazmanı qoyub apardılar. Bir neçə gündən sonra atamın saxlandığı yeri çətinliklə müəyyənləşdirdim. Sorğu protokolu mənə oxundu. İmza[490].

7 iyul 1964-cü ildə Şəhla xanım bu ifadəsinə aşağıdakıları əlavə edirdi.

Mən 1964-cü il 8 may tarixdə verdiyim ifadəyə əlavə olaraq aşağıdakıları demək istərdim: Hazırda şahidlərdən, atamın kitabxanasını

[490] DTX-nin arxivi. S.Mümtazın istintaq qovluğu, PR - № 25082.

evimizdən aparmaq faktını görənlərdən heç kəs qalmayıb. Bizim qonşulardan heç kəs bunu görməyib, ona görə ki, bu hadisə kitabların, əlyazmaların siyahıya alınması evin içərisində olub... Bir neçə dəftər vərəqindən ibarət olan kitabların siyahısı oğurlanan çemodanda idi. 1943-cü ildə oğurluğu qonşumuzun oğlu etmişdi, oğurluq barədə biz milisə məlumat vermək istədik, lakin oğlana hayıfımız gəldi. Təkrar edirəm ki, kitabları və əlyazmaları bizim kitabxanadan atamı həbs edən günü aparmışdılar, bizi isə 3 ay sonra Bakı şəhər sovetinin əməkdaşları evdən çıxardılar. Bizimlə bərabər mebeli də evdən çıxarmışdılar. Mebeli heç bir yerə qoymaq olmurdu. Ona görə də biz ən qiymətlilərini komisyon mağazasına qoyduq və satdıq. Çünki yaşayış üçün bizim heç bir vəsaitimiz yox idi. "09.10.37-ci il" tarixi bizim kitabxanamızın evdən çıxarılan günüdür. Həmin gün hamıya məlum gün idi. 1937-ci ildə ağızdan-ağıza kitabxananın aparılması barədə şayiələr yayılırdı. Ancaq atamın işçilərindən heç kəs, hansılar ki, atamın yanına gəlib kitab və əlyazmalardan istifadə edənlər kitabxananın aparılmasını görməyiblər. Kitabların hara aparılması və hazırda harada olması barədə mənə heç kəs heç nə deməyib. Amma mən bir şeyi bilirəm ki, bütün kitabxananı evdən Az.SSR XDİK-in 2 əməkdaşı... aparıb...

...Atamın varisləri barədə iş bu yerdədir: əsas varis mənim anam Əsgərova Zeynəb, mən və mənim qardaşım. Ancaq qardaşım İsgəndər Əsgərov 3 il bundan əvvəl 23.09.61-ci ildə Moskvada vəfat edib. Hazırda onun arvadı və 3 uşağı var, mənim isə 6 uşağım var. Qardaşımın arvadı uşaqları ilə Moskvada yaşayır, təqaüdçüdür, uşaqları isə böyükdür. Mənim sözlərimə uyğun yazılıb. İmza.

Moskvadan göndərilmiş suallarla 8 may 1964-cü ildə S.Mümtazın həyat yoldaşı, 1890-cı ildə Nuxa şəhərində doğulmuş Zeynəb Əlhüseyin qızına da müraciət etdilər. O da Şəhla xanım kimi S.Mümtazın həbsindən və kitabların, eləcə də əlyazmaların necə aparılmasından bəhs edir.

Şəhla Mümtazzadə böyük əziyyətlərlə atasının əlyazma və kitablarının siyahısının bir qismini tərtib etmişdir. Həmin siyahıda olan əsərlərin, həqiqətən, S.Mümtazda olduğunu yoxlamaq məqsədi ilə DTK-nın tapşırığı ilə Azərbaycanın görkəmli alimləri və S.Mümtazı tanıyan şəxslər yazılı şəkildə kitabların onda olması barədə məlumat verirlər. Biz Salman Mümtazın istintaq qovluğunda olan (DTX-nin arxivi. S.Mümtazın istintaq qovluğu № PR- 25082) həmin məlumatları, təhlil etmək fikrindən daşındıq və onları oxuculara olduğu kimi çatdırmağı daha məqsədəuyğun hesab etdik: **Əvvəla** ona görə ki, həmin yazılar

S.Mümtaz, onun kitabxanası və bu əlyazmaların necə toplaması haqqında ümumi təsəvvür yaradar.

İkincisi, biz yazı ilə əlaqədar bəzi problemə toxunsaq da, bir çox məsələlər işlənməmiş qalacaqdır.

Üçüncüsü, bu yazılarda müəlliflər özləri haqqında da bəzi məlumat vermişlər ki, bu da onların elmi tərcümeyi-hallarının öyrənilməsi baxımından maraqlıdır.

Dördüncüsü, bunlar S.Mümtazın ədəbi mühiti və Azərbaycan ədəbiyyatında ədibin yeri məsələlərinə, eləcə də sovet totalitarizm dövründə etnik milli yaddaşa münasibətə də aydınlıq gətirə bilər.

Nəhayət, bunlar indiyədək qeyri-mətbu olduğundan geniş oxucu kütləsinin, eləcə də ədəbiyyatşünasların marağını kəsb edə bilər.

Azərbaycan SSR
Nazirlər Soveti yanında
Dövlət Təhlükəsizlik Komitəsinə

İ Z A H A T

Mənə verilən şifahi suala cavab olaraq bildirmək istəyirəm:

Mən Əjdər Əli oğlu Ələsgərzadə mərhum Salman Mümtazı "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin mövcud olduğu zamandan tanıyırdım. O, adı çəkilən cəmiyyətdən sonra Azərbaycanda təsis edilən elmi müəssisələrdə işləmiş və axırda da Az.SSR EA-da çalışmışdır. Mən Akademiyanın yaranmasından etibarən orada işləməyə başlamış və S.Mümtaz ilə yaxından tanış olmuşam. Salman Mümtazın çox zəngin bir kitabxanası var idi. Bu kitabxana xüsusi ilə çox qiymətli, nadir əlyazmaları ilə insanın nəzərini cəlb edirdi. Salman Mümtaz bir zaman Füzulinin elmi-tənqidi mətnini tərtib edirdi. Həmin iş onun kitabxanasında aparılırdı. Füzulinin elmi-tənqidi mətninin işlənib başa çatması müddəti ərzində mən Mümtazın kitabxanası ilə daha yaxından tanış oldum. Kitabxana haqqında xatirimdə qalanlar aşağıdakılardan ibarətdir:

Kitabxanada,ümumiyyətlə, Yaxın Şərq ölkələri və xüsusilə Azərbaycan, İran və Türkiyə klassik ədəbiyyatına aid əlyazmaları mövcud idi. Bunların içərisində Nəsiminin, Füzulinin, Xətainin, Ruhi Bağdadinin və başqa şairlərin müxtəlif tarixlərdə yazılmış divanları vardı. Əlyazmalar içərisində təzkirələr, qədim "cüng"lər və "bəyaz"lar da xüsusi yer tuturdu. Ayrıca olaraq bunu da qeyd etməliyəm ki, kitabxanada az tapılan

çoxlu daş çapı kitablar da var idi. Kitabxanadakı əlyazmaların və çap kitabların sayına gəldikdə, onların miqdarı irili-xırdalı dörd-beş mindən əskik olmaz. Tarix elmləri namizədi Ə.Ə.Ələsgərzadə Bakı 1/IV.63-cü il.

***

Yoldaş Seyidzadə üçün

Salman Mümtazı mən birinci dəfə görəndə 16-18 yaşında idim. O zaman mən darülmüəllimin tələbəsi idim. Əvvəllər biz, tələbələr onu şair tanıyırdıq. Sonralar bildik ki, o, kitab aşiqi, bir tacirdir. Deyirdilər ki, onun gecə-gündüz işi-gücü, nə yol ilə olur olsun, xüsusi əlyazma kitabları ələ gətirməkdir. Deyirdilər ki, akademiyanın kitabxanası S.Mümtazın başındadır. Mən də o zamanları (1920-ci illərdə) şair olduğum üçün şairlərimizin əsərlərini yığıb saxlayan Salman Mümtaza hörmət bəsləyirdim. 1926-cı ildə – "Türkoloji qurultay" günlərində Salman Mümtaz rus və türk alimlərindən bir neçəsini evinə qonaq çağırmışdı, bu alimlər onun kitabxanası ilə tanış olanda, ondakı nadir əlyazmalara heyran qalmışdılar. "Elə kitab vardı ki, biri Londonda, Britaniya muzeyində, ikinci nüsxəsi Salman Mümtazda idi". Bu sözləri rus akademiklərindən Oldenburq demişdi. S.Mümtaz evindəki əlyazmaları sonralar bir-bir çap etməyə başlamışdı. İyirmiyə qədər şairin əsərini və tərcümeyi-halını nəşr etdi. Bu hələ başlanğıc idi. Məni Salman Mümtazla dostum şair M.Müşfiq tanış edəndə bilavasitə onunla mən uzun-uzadı söhbət etdim. Bu zaman mən ali təhsilli ədəbiyyatçı idim. Kitab mədəniyyətindən xəbərdar idim. Bilirdim ki, Salman Mümtazda çox qiymətli təzkirələr, cünglər, bəyazlar, əlyazma nadir divanlar, miniatürlər, qiymətli kilişələr var. Onda təxminən, 4-5 min kitab vardı. Məsələn, Füzulinin, Nəsiminin, Xətainin, Vaqifin, Seyid Əzimin, Zakirin, Mirzə Şəfinin, Mirzə Fətəlinin yüzlərlə və köhnə alimlərimizin əlyazma əsərləri vardı ki, onlara qiymət qoymaq çox çətindir. Bu adam ömrü boyu Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan, Orta Asiya, İran və s. yerləri kitab yığmaq məqsədi ilə gəzmiş, nə qiymətdə olur-olsun, mədəniyyət, ədəbiyyat, elm, tarix əsərlərini məhv olmaqdan xilas etmişdir. İndi siz onun ailəsinə bunun əvəzinə nə qədər əvəz versəniz, yenə az olacaq. Şərqşünaslıq institutunun baş elmi işçisi ƏKRƏM CƏFƏR 5/-IV.63-cü il.

***

Mənə 1920-ci ildən məlumdur ki, bizim məşhur ədəbiyyatşünasımız Mümtaz Salmanın öz xüsusi kitabxanasında çox dəyərli nadir tapılan kitablar və bir çox qədim Şərq şairlərinin əlyazmaları var idi. Təxminən, 1933-34-cü illərdə mən Azərnəşrdə işləyərkən Mümtaz Salmanın mənə özü demişdi ki, onda Firdovsinin "Şahnamə"sinin əlyazması, Hafiz Şirazinin "Divan"ının əlyazması, Ürfi Şirazinin "Divan" kitabı, Sədinin "Büstan" və "Gülüstan"ının əlyazmaları vardı. Bunlardan başqa mənə məlumdur ki, Şərq şairlərinin "cüng"lərinin bir neçəsi onda var idi. Bu cür kitablardan S.Mümtazın kitabxanasında mindən çox olardı. Lakin mənim yadımda qalan bunlardır. Bundan başqa bildirmək istəyirəm ki, 1933-cü il Firdovsinin 1000 illiyində S.Mümtaz EA-a Füzulinin bir divanını bəxşiş etmişdir. Həmin "Divan" Füzuli öləndən 16 il sonra (1578-ci ildə) yazılmışdır. Həmin kitablardan onun evində çox idi, lakin adlarını bilmirəm. Az.SSR EA Respublika Əlyazmalar Fondunun şöbə müdiri Fazil Seyidov 26.03.63-cü il.

***

S.Mümtazın kitabları və əlyazmaları haqqında

O və mən kitab həvəskarı və ədəbiyyatçı olduğumuz üçün söhbətləşərdik. O, bacım Zeynəbxanım Əliyevanın əri köhnə inqilabçı Baba Əliyevin yanına gələrdi. İstər yeznəmlə olan söhbətlərindən, istər Bakıda ədəbiyyat məclislərindəki çıxışlarından və istərsə mənimlə etdiyi söhbətlərdən mənə məlum oldu ki, onda çox qiymətli çap kitabları və əlyazmaları var. (1926-27-ci il haqq-hesabı ilə) Biri 500, 1000 manatlıq kitab onda yüzlərlə idi. Əlyazmaları hər halda mindən az olmazdı. Novruz Ağayev (o da köhnə kitab həvəskarlarından idi) söhbət zamanı mənə dedi ki, S. Mümtazın kitab və əlyazmaları 6-7 min olar. Özü onda olan qiymətli kitab və əlyazmalarının hamısını açıb söyləmək istəməzdi; yeri gələndə adını çəkər və ya göstərərdi.

Bir əhvalatı heç unuda bilmirəm: 1931-ci ilin yay və ya payızın əvvəlləri idi. S.Mümtaz Kommunist küçəsində mənə rast gəldi. Əhval tutduqdan sonra mənə dedi ki, deyirlər səndə 311 il (1932-də) bundan əvvəl Daşkənddə yazılan bir Füzuli kitabı var. Dedim ki, var, özü də bu biri kitablarda olmayan 2 qəzəl o kitabda artıqdır, ancaq kitabın axırından bir neçə vərəq düşdüyü üçün kitabı köçürən bilinməyir. Dedi ki, onu ver bir gözdən keçirim və ya sat alım. Kitabı satmaq fikrim yox idi. Ona da verməkdən qorxurdum, mənə günəş qədər aydın idi ki, kitabı

versəm, ala bilməyəcəyəm. Mən onda olan kitabı alıb qaytarmamaq xəstəliyini bilirdim. Ona görə də onda və ondan sonrakı görüşlərimizdə müxtəlif bəhanələr gətirdim və kitabı ona vermədim.

Xülasə, S.Mümtazın kitabxanasının qiyməti çox-çoxdur. Onun kitabxanası, 1926-27-ci ilin haqq-hesabı ilə 300 min manata dəyərdi. Onun kitabxanası Azərbaycanda birinci idi. Mən dövlət kitabxanasından sonra onun kitabxanasından qiymətli kitabxana bilmirdim. O şəxsiyyətə pərəstişin qurbanı olmasa idi, tarix və ədəbiyyatımıza dair çox işlər görəcək idi, əfsus, əfsus! Azərbaycan SSR Şərqşünaslıq institutunun biblioqrafı İsmayılzadə Cəfər B-Ə oğlu 25.03.63-cü il

***

Mən, yazıçı Məmməd Əkbər bizim görkəmli ədəbiyyatşünasımız S. Mümtazı, təxminən, 1928-ci ildən, "Kommunist" qəzetində işlədiyim günlərdən tanıyırdım. Həmin illərdə S.Mümtazın ədəbiyyatşünaslıq sahəsində yaradıcılıq işi əsas etibarı ilə "Kommunist" qəzeti redaksiyası və nəşriyyatı ilə bağlı idi. Azərbaycanın klassik şairləri haqqında onun hazırladığı bir sıra kitablar məhz həmin illərdə "Kommunist" qəzeti nəşriyyatında çapdan çıxmışdır. S.Mümtazın şəxsi kitabxanası ilə də tanış idim. Onun bir xəzinə adlandırıla biləcək zəngin kitabxanasında yüzlərlə ən nadir kitablar görmüşdüm. Həmin siyahıda göstərilən kitablar və lüğətlər mərhumun kitabxanasında var idi. Öz qiymətli kitabxanası sayəsində də S.Mümtaz klassik ədəbiyyatımızın, xüsusən poeziyamızın məşhur bilicilərindən idi. Məmməd Əkbər. 22.07.63-cü il.

***

Mən Əjdər Ələsgərzadə (baş elmi işçi, Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutu mətnşünaslıq və mənbələri nəşretmə şöbəsinin rəhbəri) siyahıda qeyd olunan əsərlərin (Şəhla xanımın tərtib etdiyi siyahıdan söhbət gedir – C.Q) mərhum Salman Mümtazın kitabxanasında olduğunu təsdiq edirəm. Ayrıca olaraq bunu da qeyd etməliyəm ki, S.Mümtazın kitabxanasındakı əlyazmaları içərisində elə nadir nüsxələr mövcud idi ki, onlar elm aləminə məlum olan yeganə ən qədim nüsxələr hesab olunur. 22.06.63-cü il.

***

Mən, yazıçı Sabit Rəhman bu siyahıda qeyd olunmuş kitabların mərhum S.Mümtazın şəxsi kitabxanasında olduğunu təsdiq edirəm.

S.Mümtaz Azərbaycan ədəbiyyatına aid ən nadir kitabları toplamış bir tədqiqatçı idi. 25.06.63-cü il.

***

Mən, Mir Cəlal Paşayev (yazıçı, universitetin professoru, ədəbiyyat kafedrasının müdiri) 12 səhifəlik siyahıda göstərilən mərhum S.Mümtazın kitablarına bələdəm. S.Mümtazı yaxşı kitab həvəskarı, ədib və şairlərimizin əsərlərini toplayan, nəşr edən fəal ədəbiyyatçı kimi tanıyıram. 20-30-cu illərdə bütün nəşriyyatlarda, qəzet və jurnallarda S.Mümtaz bir çox klassik ədib və şairlərimizin əsərlərini birinci dəfə səliqəli və izahlı nəşr etmişdir. Elə bir ədəbiyyatçı yoxdur ki, həmin kitabları oxumamış, istifadə etməmiş olsun. Mərhum Mümtazın hüquqlarının bərpa olunmasına tamamilə tərəfdaram. 08.07.63-cü il.

***

Mən, Mehdi Hüseyn (yazıçı, Azərbaycan Sovet Yazıçıları İttifaqının birinci katibi) təsdiq edirəm ki, bu siyahıda qeyd olunmuş kitablar mərhum S.Mümtaz Əsgərovun şəxsi kitabxanasında vardır. Azərbaycanda ən zəngin əlyazmaları, doğrudan da S.Mümtaz tərəfindən toplanmışdı. Bu kitablar hər cəhətdən qiymətli və nadir kitablardır. 20.06.63-cü il.

***

Mən, yazıçı Əli Səbri Qasımov illər boyu mərhum S.Mümtazla dost olmuşam. Onun evinə gedərək nadir kitabları ilə də tanış olmuşam, bir çoxundan vaxtı ilə istifadə etmişəm. Buradakı 12 səhifədən ibarət siyahıda qeyd olunmuş kitabların hamısının Salman Mümtazın şəxsi kitabxanasında olduğunu təsdiq edirəm. 15.07.63-cü il.

***

Bunlardan başqa həmin siyahıdakı kitabların S.Mümtazda olmasını M.F.Axundov adına APDİ-nin Azərbaycan dili və Ədəbiyyatı kafedrasının müdiri, dosent Bağırov Qulam Kərim oğlu, yazıçı-tənqidçi Əkbər Ağayev, Jurnalistlər İttifaqının üzvü Adil Əfəndiyev, Azərbaycan SSR EA Respublika Əlyazmaları fondunun kiçik elmi işçisi Avadyayev Avadyay Aşur oğlu, AZ.SSR Xalq rəssamı, İncəsənət elmləri namizədi Lətif Kərimov, Azərbaycan SSR EA müxbir üzvü, professor Feyzulla Qasımzadə, Mirzəağa Quluzadə Yüzbaşı oğlu və s. sənət adamları təsdiqləmişlər.

***

Salman Mümtaz haqqında

Azərbaycan Kommunist Partiyası MK-nin orqanı olan "Kommunist" qəzeti redaksiyasında redaktor Həbib Cəbiyev tərəfindən 1924-cü il avqust ayında çağırılan Azərbaycan ədibləri və ədəbiyyat müəllimlərinin yığıncağında, mərhum S.Mümtazla tanış olmaqla onun Azərbaycan ədəbiyyatının möhkəm patriotu olduğunu görərək dost da olmuşdum. Ondan sonra da, istər "Kommunist" qəzeti klubunda istərsə də, Azərbaycan ədəbiyyat cəmiyyəti binasında (indiki Akademiya binası) ayda bir-iki dəfə ədəbiyyat yığıncaqları keçirilirdi. Bu yığıncaqlarda, həmişə S.Mümtaz da olurdu. Ədəbiyyatçı "Qızıl qələmlər" təşkilatının üzvləri və s. bir sıra yazıçılar da aktiv iştirak edirdilər.

"Kommunist" redaksiyasında keçirilən bir yığıncaqda şair Füzulinin əsli və mənşəyi haqqında bəzi ədəbiyyatçılar məsələ qaldıraraq: guya Füzuli Azərbaycan şairi deyil, Türkiyə-Osmanlı şairidir, özü də İraqda anadan olmuşdur deyirlərdi. Burada S.Mümtaz özünəməxsus olan gur səsi ilə Füzulini Azərbaycandan uzaqlaşdırmaq istəyənlərə qarşı şiddətli çıxış etdi, Füzulidən bəzi parçalar oxudu, Füzulinin İraqa hicrət edib orada yerləşən azərbaycanlı əfşarlar qəbiləsindən olduğunu tarixi sənədlərlə sübut etdi. Ondan sonra Füzuli haqqındakı məzkur mübahisə əbədi olaraq kəsildi. Hamıya məlum idi ki, bir sıra əsrlər boyu qalmaqda olan Azərbaycan ədəbi irsinə aid bir çox əsərlər və əlyazıları S.Mümtaz tərəfindən uzun illər müddətində toplanmış və onun çox zəngin kitabxanasında saxlanmaqdadır. Ona görə "Kommunist" redaksiyası adından redaktor Cəbiyev S. Mümtazla saziş bağlayaraq onun Azərbaycan ədəbiyyatına dair tərtib etdiyi bir sıra əsərləri S.Mümtazın müqəddiməsi və adı, "Kommunist"in nəşriyyatı

ünvanı ilə buraxırdı. Yaxşı xatırlayıram ki, AQHİ binasında (indiki Akademiya binası) Azərbaycanda Sovet hakimiyyətinin 15 illiyi münasibəti ilə çağırılan iclasda, o vaxt XK-nın sədri olan Qəzənfər Musabəyov S.-Mümtazın (AZKİ) bağışlamış olduğu Füzulinin nəfis əlyazma divanı əlində olduğu halda kitabı vərəqləyərək S.Mümtaza hökumət adından təşəkkür elan edirdi. İclasda olanlar da onu sürəkli surətdə alqışlayırdı. 1924-cü ilin axırlarında mən Azərbaycan yeni əlifba komitəsinin orqanı olan "Yeni yol" qəzetində işləməyə başladım. Çox keçmədi ki, Azərbaycan ədiblərindən mərhum M.S.Ordubadi bizə redaktor olaraq gəldi. Mən isə redaksiyanın katibi idim. 1931-ci ilə qədər bərabər işlədik. Salman Mümtaz dostumuz bəzən redaksiyaya gəlirdi. Çünki o, Ordubadinin də köhnə dostu idi. Yadımdadır, bir dəfə söhbət əsnasında S. Mümtaz köhnə kitabları və əlyazmaları axtarmaq üçün Qutqaşenə, Kəlbəcərə, Bərdəyə getdiyini, oralarda toz-torpaq altında hər tərəfə saçılmış və çürüməkdə olan neçə qiymətli əsərlər tapdığını, sahiblərinə pul verərək o əsərləri məhv olmaqdan xilas edərək, gözəl cildlərlə kitabxaneyi-Mümtaziyə yerləşdirilmiş olduğunu sevinə-sevinə nəql edirdi.

Bir dəfə də söhbət edərkən: "Elə əsərlər tapıram ki, birinci və axırıncı səhifələri yox, kimin tərəfindən yazıldıqları məlum deyil, başsız ayaqsız gözəl parçalar və şeirlər. Bu əsərləri mən tədqiq və təxmin ilə ayrı-ayrı şairlərə istinad etməkdən başqa çarə tapa bilmirəm" – deyirdi.

Ordubadi Məmməd Səid S.Mümtaz kimi uzaqlara gedib köhnə əsərlər toplaya bilmədiyi üçün çox təəssüf edirdi. Çar hökuməti birinci cahan müharibəsi başlananda siyasi töhmətlə Ordubadini Rusiyaya sürgün etmişdi. O zamanlarda S.Mümtaz özünə 100 ianə göndərmiş olduğunu M.S.Ordubadi mərhuma təşəkkürlə yad edirdi. S.Mümtaz, alçaq Bağırov terrorlarının qurbanı olmasa idi, o, son dərəcə sağlam bədənli, papiros çəkməkdən və içməkdən uzaq və ehtiyatlı bir şəxsiyyət olduğuna görə, ehtimal ki, daha çox illər yaşayardı və Azərbaycan ədəbiyyatı tarixinə daha böyük xidmətlər göstərə bilərdi. Eyni zamanda, Azərbaycanda ən zəngin olan kitabxanası da dağılıb məhv edilməzdi. Bu münasibətlə axır söz olaraq mən təklif edirəm ki, S.Mümtazın adı və peçatı olan kitablar axtarıla, bu kitablar müəyyən bir kitabxanaya toplana, S.Mümtazın şəkli və büstü də bu "Salman Mümtaz kitabxanası"na qoyula. Partiyaçı, şəxsi təqaüdçü, sabiq müəllim və jurnalist: Məmmədkərim Sədullayev 27.07.63-cü il.

***

Şəhla xanım bütün süründürməçiliklərə baxmayaraq, atasının əlyazmalarını və kitablarını tapmağa səy göstərirdi. O, axırıncı dəfə 1989-cu ildə DTK-nın sədri İ.İ.Qorelovskiyə müraciət etdi.

Azərbaycan SSR DTK-nın sədri
İ.İ.Qorelovsk yoldaşa

Hörmətli İvan İvanoviç!

Sizə adına uzun illər böhtan atılmış və bizim xalqın tarixindən silinmiş, Azərbaycanın maarifçisi və ədəbiyyatşünası Salman Mümtaz Əsgərovun qızı müraciət edir. Bu çox tanınmış adam, R.Taqor və L.Tolstoyla görüşmüş, M.Qorki, S.Ayni, A.Tolstoy, alimlərdən Marr, Meşşaninov, Bartold və Bertelslə məktublaşmış və dostluq əlaqəsi saxlamış nadir kitabların və əlyazmaların toplayıcısıdır. Bartold qeyd edib ki, Mümtaz "yığdığı əlyazmalarla gözəl danışır" (Əsərləri, 8-ci cild, Moskva 1973-cü il, səh. 440).

9 oktyabr 1937-ci ildə qanunsuz olaraq həbs edilmiş, onun kitabxanası isə müsadirə edilmişdir, böyük zəhmətlə toplanmış mədəni irsdən məhrum edilmiş, azad fikirli, qiymətsiz mülkü müraciət etmədən götürüldü, ən nadir əlyazmalar itdi, onların izi Stalin NKVD-sinin padvalında itir. S.Rəhmanın, Mir Cəlalın, M.Hüseynin və başqalarının xatirələri əsasında tərtib edilmiş siyahıda 238 adda antikvar əsər və əlyazma var idi. Bunu demək kifayətdir ki, 207-ci nömrədə böyük əhəmiyyətə malik "Dədə Qorqud", iki nüsxədən ibarət olan, oğuz ədəbiyyatının yadigarı, Vatikan və Drezden kitabxanalarında qorunub saxlanılır. Mən istərdim ki, sizin diqqətinizi ən vacib olan kitabxananın, heç olmasa, qalıqlarının axtarışına cəlb edəm. Mən bu məsələ ilə əlaqədar 1963-cü ildə respublika orqanlarına müraciət etmişəm, lakin kitabların yeri haqqında heç bir cavab almamışam. 3 oktyabr 1964-cü ildə mənə tamamilə simvolik bir qiymət, "zərərin haqqı" 6010 rubl 60 qəp. təklif olundu, hansı ki, heç bir vəchlə götürülmüş kitabxananın qiyməti hesab etmək olmaz. Sizdən çox xahiş edirəm ki, kitabxananın axtarılması və onun dəyərinə ədalətli qiymət verilməsi ilə bağlı komissiya yaradasınız. İstəyirəm Sizə bildirəm ki, mən ərimə görə aldığım pensiyanın hesabına yaşayıram (30 r.), paralicəm, şəkər xəstəliyim var, ağır bir yük kimi uşaqlarımın üstündə qalmışam, ciddi müalicəyə ehtiyacım var. Böyük hörmətlə Ş.Mümtazzadə. Ünvan: Bakı şəhəri, Buynaksk küçəsi 25, mənzil 18, Telefon: 92-44-77. 13.03.89. İmza.

***

Şəhla xanımın 1989-cu ildə yazdığı ərizəyə baxıb ona müsbət cavab verilmədi. Azərbaycanın mənəvi sərvətləri olan kitab və əlyazmaların harada olduğundan soraq verən bir kəs tapılmadı.

Biz Şəhla xanımın 60-cı illərdə tərtib etdiyi əlyazma və kitabların siyahısını olduğu kimi oxuculara təqdim edirik.

1937-ci ildə Əsgərov Salman Mümtazın evindən götürülmüş əvəzsiz kitabların və əlyazmaların SİYAHISI:

1. İbrahim Mirzə. Fərhəng İbrahim - əlyazması
2. Etimadüs səltənə -Kitab müasir-vəlasar - çap
3. Ənisul arifin - əlyazması
4. Osafil-aləmin - əlyazması
5. Bəyanül Məxmud - əlyazması
6. Bəyazül Xansahib - əlyazması
7. Təzkireyi-Hüseyni - əlyazması
8. Təzkirəyi-Dilgüşa - əlyazması
9. Təzkirəyi-Səməri-İsfəhani - əlyazması
10. Həzin-Təzkirəyi-müasirin - çap
11. Təzkirəyi-ürəfatul aşiqin - əlyazması
12. Təzkirəyi-Həştbəhişt - əlyazması
13. Təzkireyi-Yusif Əlixan - əlyazması
14. Təzkireyi-xoşnəvisan - əlyazması
15. Daniş-Təzkirətüş-şüara - əlyazması
16. Təzkireyi-Fətullah - əlyazması
17. Cavahirül əcayib - əlyazması
18. Sirəcəddin-Çariği-Hidayət - əlyazması
19. Hədiqətüş-şüari - əlyazması
20. Kaşani-Xilasətül-əşar - əlyazması
21. Azad Bəkrami-Xəzanəyi-Amirə - çap
22. Xəzinəyi-gecilahi - əlyazması
23. Mirzə Əbutalib Təbrizi-Xiasətül əfkar - əlyazması
24. Şəqaiyi-Həminiyyə - çap
25. Zeyl Şəqaiq Hoizadə - çap
26. Rovzətül-əthar - əlyazması
27. Riyazül-üləma - əlyazması
28. Rəşəhat-öynül heyvətə - əlyazması
29. Ruzi-rovşən - əlyazması

30. Riyazül-cənnətə - əlyazması
31. Dərviş Hüseyn-Rovzatül-cinan - əlyazması
32. Qulaməlixan Azad - çap
33. Səfinə nəzm və nəsr - əlyazması
34. Səadətnamə - əlyazması
35. Səfinəyi-xoşgu - əlyazması
36. Şeirüləcəm - çap
37. Şəmi-əncümən - əlyazması
38. Sübxi-gülşən - əlyazması
39. Səhəfi-İbrahim - əlyazması
40. Sfutəlsfa - əlyazması
41. Təbəqatül-əlşafəyə - əlyazması
42. Ürəfatül aşiqin - əlyazması
43. Əcaibül əlbüldən - əlyazması
44. Əraimin-məcalis - çap
45. Əlfeyiz Qudsi - əlyazması
46. Şamlü-Qisəsi-Xaqani - əlyazması
47. Süfutül səfa - əlyazması
48. Kələmati-şüara - əlyazması
49. Kəbeyi-ürfan - əlyazması
50. Kəlami-müluk - əlyazması
51. Kitabi-Maarif - əlyazması
52. Gülüstani-məsərrət - əlyazması
53. Gülüstani-hünər - əlyazması
54. Xilasətüt təvarix - əlyazması
55. Təzkirəyi-səlatin - əlyazması
56. Mirza Tahir «Gəncşayigan» - çap
57. Ləbütəl-təvarix- əlyazması
58. Bəqai-Təzkirəyi-lətaifül xəyal - əlyazması
59. Fətulla-Məcmuətül-əşar - əlyazması
60. Müratül-Cahannüma - əlyazması
61. Məqasidül-ilhan -əlyazması
62. Müratül-advar - əlyazması
63. Müasiri-Rəhimi - əlyazması
64. Müratül-kainat - əlyazması
65. Müxtəsərül düvəl - əlyazması
66. Mətrəhülənzar - əlyazması
67. Münisül-əhrar - əlyazması
68. Müratül-cinan - əlyazması

69. Əbədani-Müntəxəül - əlyazması
70. Higaristani-süxsn - əlyazması
71. Amili-Həfisül-Fünun, fiəraisil-üyun- əlyazması
72. Həfaisül-müasir - əlyazması
73. Hətayicil-əfkar - əlyazması
74. Həqdüt-təvarix- əlyazması
75. Hameyi-fərhangiyan - əlyazması
76. Vəqfnameyi-Rəşidi - əlyazması
77. Yədi-beyza - əlyazması
78. Qamusül-əlam (6 cild) - çap
79. Qamus-türki (2 cild) - çap
80. Lüğəti-Haci - çap
81. Təzkirəyi-dövlətşah - çap
82. Divan Qətran Təbrizi - əlyazması
83. Təzkireyi-Əmin Əhməd Razi - əlyazması
84. Divan-Xətai – əlyazması (Bu kitabın birinci nüsxəsi S.Mümtazda, ikinci nüsxəsi Britaniya müzeyindədir.)
85. Şah İsmayıl Xətai "Dəhnamə" - əlyazması
86. Divan Ruhi Bəğdadi - əlyazması
87. Divan Nəsimi (2 cild) - əlyazması
88. Divan Zakir - əlyazması
89. Təzkireyi-Sam Mirzə - əlyazması
90. Cəmi-Həfəhatül-üns - çap
91. Divan-Füzuli (5 cild) - əlyazması
92. Münşəati Firidun (2 cild) - çap
93.Əhməd-Rəfiq-Ləhceyi-osmani - çap
94. Fərhəngi-nasiri - çap
95. Şeyx Süleyman-Lüğəti-cığatay - çap
96. Farsnamə - çap
97. F.Köçərli - əlyazması və çap
98. Qamuş Füruzabadi (4-cild) - əlyazması
99. Bürhani-qate - əlyazması
100. Fərhəngi-şüuri - əlyazması
101. Bürhani-came - əlyazması
102. Təzkirətül xəttatəyi (2 cild) - əlyazması
103. Divan-Sədi - əlyazması
104. Divan-Hafiz - əlyazması
105. Rübaiyyati-Xəyyam – çap (Hüseyn Daniş tərəfindən nəşr edilmişdir)

106. Tarixi-Vəssaf Bombey - çap
107. Atəşgədəyi-Azər - çap
108. Güloğlan - əlyazması
109. Həsən Rumlu Əhsənüt-təvarix - əlyazması
110. Ənsab Səmani - çap
111. Şəhristani-Əlmələlül-vəlnəhəl - əlyazması
112. Bustanis-siyahə - çap
113. Tarixbiyhəqi - çap
114. Tarix Cahangüşayi-cuyini - çap
115. Tarix Sərəcam Mülküm - çap
116. Tarix Təbəri - çap
117. Tarixi-Firiştə - çap
118. Təzkireyi-lübabül-əlbab (2 cild)- çap
119. Dərbəndnamə - əlyazması
120. Həmdulla Qəzvini Tarixə Gözide - çap
121. Təzkirətül xəvatəyi - çap
122. Katibi-Çələbi Cahannüma - çap
123. Katibi-Çələbi Kəşfüz-zünün (2 cild) - çap
124. Xəmseyi-Əmir Xosrov - əlyazması
125. Xəmseyi-Nizami (2 cild) - əlyazması
126. Cahar məqalə - çap
127. Divan ənvəri - əlyazması
128. Divan-Səlman Savəci - əlyazması
129. Divan Zəhir Fariyabi - əlyazması
130. Divan-Fərəst - əlyazması
131. Divan Qaani - çap
132. Divan Mənuçehri - çap
133. Divan Vüsal - əlyazması
134. Divan Yəğma - əlyazması
135. Ravəndi-Rahiqülsüdür - çap
136. Rəhləibn Bətutə (2 cild) - çap
137. Mirxond-Rovzətüs Səfa (7 cild) - çap
138. Xuavandəmir –Həbibüssiyər - çap
139. Rzaquluxan Hidayət-Riyazül-arifin - çap
140. Şəmsüllüğət - çap
141. Müratül-büldan - çap
142. Şərəfəddin Yəzdi- Zəfərnamə - əlyazması
143. Müftahül-kinzül-quran - çap
144. Həsəxüt-təvarix(11 cild) - çap

145. Məhəmmədhəsən xan-Xeyrəti-hisan (3 cild)- çap
146. Cəlalpur Fətəlişah-Hameyi-Xosrəvan 3 cild - çap
147. Qəzvini –Higaristan Bombey - çap
148. Haməyi Danişvəran (7 cild) - çap
149. Şahnamə-Firdovsi - Təbriz, Bombey, Tehran çapı, (3 cild)
150. Ömər Xəyyam - əlyazma
151. Babatahir Üryan - çap
152. Tarixi-Aləmarayi-Abbasi - əlyazması
153. Tarix Nadir - çap
154. Divan Xəqani (2 cild) - çap
155. Rəsmli Qamus Osmani (Əli Seydi) (2 cild) - çap
156. Qamus Xəlic Oqyanus (3 cild) - çap
157. Divan Cami - əlyazma
158. Divan Əscədi - çap
159. Riyazül-aşiqin (3 cild) - çap
160. Quraninəfis – böyük ölçüdə əlyazması
161. Divannəfis – kiçik ölçüdə əlyazması
162. Quran – tərcümə, (3 cild) əlyazmasl
163. Tövrat - əlyazma
164. İncil - əlyazma
165. Övliyayi-Çələbi (6 cild) - çap
166. Türk tarixi (1 cild) - çap
167. Hədim divanı - əlyazma
168. Mirzə Əbdülxalıq Cənnəti-külliyyat - əlyazma
169. Müniri - əlyazma
170. Həbati - əlyazma
171. Asart-Camal-türkcə, Qarabağ tarixi - əlyazma
172. Berjə məcmuəsi - çap
173. Təzkirəyi-Nəvvab - çap
174. Nigaristan - çap
175. Mirzə Adıgözəl "Qarabağnamə" - əlyazma
176. Mirzə Möhsün Nəvvab –Təzkirə - əlyazma
177. Əxtər Kəbir Lüğət (2 cild) - əlyazma
178. Van Qulu, lüğət (2 cild) - əlyazma
179. Bruqqauz Veyfrun Ensiklopediya– (82 cild, rusca)-çap
180. Əli Səlahi Lüğət– (6 cild) - çap
181. Zülali - əlyazma
182. Rəşid - əlyazma
183. Raci Şirvani - əlyazma

184. Hali - əlyazma
185. Xaliqi - əlyazma
186. Şakili Zakir - əlyazma
187. Fikri - əlyazma
188. Asi - əlyazma
189. Nakam - əlyazma
190. Səraci - əlyazma
191. Şuxi - əlyazma
192. Noras - əlyazma
193. Məxvi - əlyazma
194. Hadi - əlyazma
195. Kəminə - əlyazma
196. Aşiq - əlyazma
197. Katib - əlyazma
198. Nəbi külliyatı - əlyazma
199. Mirzə Tahir - əlyazma
200. Mir Məhəmmədəli Saib - əlyazma
201. Mirzə Məhəmmədrza - əlyazma
202. İsfirayinli Azəri- əlyazma
203. Süruri - əlyazma
204. Cəlili - əlyazma
205. Məxdumqulu divanı - əlyazma
206. Şah Fəzlulla Hürüfi - əlyazma
207. Dədə Qorqud - əlyazma
208. Çahar Dərviş - əlyazma
209. Ənisül üşşaq - çap
210. Cami-Silsilət-üz-zəhəb - çap
211. İbn Sina-Qanun - əlyazma
212. Xacə Nəsirəddin Tusi-Şərhi-işarət - əlyazma
213. Məhəmməd Mömin-Məhəmmədin möminin - əlyazma
214. Feyzi Dərbəndi - əlyazma
215. Asari-əcəm - çap
216. Əbülqasimi-Fərəhani-Münşəat - çap
217. Səccadiyyə - çap
218. Mövlazadə-Təfsir-quran– (2 cild), əlyazma
219. Müasiri-sültaniyyə - əlyazma
220. Dəmirhüyutül-heyvan - əlyazma
221. Tarixi-Al-Osman - əlyazma
222. Tarix Darüssəltənəyi-Təbriz - çap

223. S.Ə.Şirvani – arxivi, birsandıq
224. Bir çox qədim “bəyaz”lar
225. Müxtəlif dövrlərə aid tarixi fərmanlar
226. Bir çox qədim cünglər
227. Dəri üstündə miniaturlar
228. Qarabağnamə
229. Xurşid banu Natavan – əlyazmaları, fotoşəkillər
230. Qəmərbəyim (şeirlər) – «foto».
231. Xanoğlan - əlyazma
232. Mənzumeyi-İsmayıl Əfəndi Şəmsəbədi - əlyazma
233. İskəndər bəy Rüstəmbəyov - əlyazma
234. Şükühi - əlyazma
235. Rəşid bəy və Səadət xanım (fransız dilində) - əlyazma
236. Məhəmməd Təqi Sidqi - əlyazma
237. Bakıxanov - əlyazma
238. Təbkatələtəbi - əlyazma

ƏSLİ İLƏ DÜZDÜR:

Azərbaycan SSR Nazirlər Soveti yanında
Dövlət Təhlükəsizliyi Komitəsinin şöbə rəisi XƏLİLOV

Azərbaycan SSR Nazirlər Soveti yanında
DTK əməkdaşı PETROSYAN

BOLŞEVİKLƏRİN GÜLLƏLƏDİKLƏRİ

BOLŞEVİK

Ruhulla Əli oğlu Axundov 1897-ci il yanvarın 13-də Bakı quberniyasının Şüvəlan kəndində müəllim ailəsində doğulub. Ruhullanın atası Əli 1901-ci ildə vəfat edir. Kiçik yaşlarından atasını itirən Ruhulla qohumlarının himayəsində böyümək məcburiyyətində qalır. Doğmalarının köməkliyi ilə o, 1902-1907-ci illərdə Bakı müsəlman mədrəsəsində oxuyur. 1908-ci ildə Bakı realnı peşə məktəbinə daxil olur və 1912-ci ildə həmin məktəbdə təhsilini başa vurur. 1913-cü ildə Bakı ticarət məktəbinə daxil olan Ruhulla Axundov burada iki il mühasibatlığın sirlərini öyrənməyə çalışır.



Ruhulla Axundov 1916-cı ilin aprel ayında Orucov qardaşlarının mətbəəsində işlə başlayır. O, burada əvvəlcə fəhlə, mürəttib sonra isə, korrektor vəzifələrində çalışır. 1917-ci ildən inqilabi hərəkata qoşulan Ruhulla sol eserlərin sıralarına daxil olur və onlarla birlikdə siyasi fəaliyyətə başlayır.

1918-ci ildə o, bolşeviklərin mətbuat orqanı olan "Bakı Şurasının əxbarı" qəzetinin redaktoru olur. Maraqlıdır ki, 1919-cu ilin avqustunda gizli şəkildə nəşrə başlayan "Kommunist" qəzetinin redəktəsi də Ruhulla Axundova həvalə edilir. R.Axundov elə həmin il Kommunist Partiyasının sıralarına daxil olur.

Ərəb, fars, faransız və rus dillərini dərindən bilən Ruhulla Axundov 1919-cu ilin oktyabrında Bakı şəhərində hökümət tipoqrafiyasında tərcüməçi-korrektor vəzifəsinə düzəlmişdir. R.Axundov 1918-1921-ci illərdə bir jurnalist kimi xüsusi ilə fəal olur. Belə ki, o, "Bakı ətrafı fəhlə, əsgər və matros deputatları şurasının əxbarı" (1918), "Hürriyyət" (1919), Azərbaycan dilində çıxan gizli bolşevik "Kommunist" qəzetlərinin (1919) redaktoru olur. Moskvada V.İ.Leninlə görüşür. Sonralar AK(b)P BK-nın katibi, AK(b)P MK-nın katibi, "Azərnəşr"in direktoru, ÜİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin katibi kimi mühüm vəzifələrdə çalışıb.

Marksizm-leninizm klassiklərinin əsərlərinin, Kommunist Partiyasının ikinci proqramının Azərbaycan dilinə tərcüməsində iştirak edir, "Kənd füqərası", "Bakinski raboçi" qəzetlərinin redaktoru və ikicildlik "Rusca-türkcə lüğət"in tərtibçilərindən biri olur. Azərbaycan SSR və SSRİ MİK-in üzvü, ÜİK(b)P-nın bir neçə qurultayına, Kominternin II konqresinə nümayəndə seçilir. Lenin ordeni ilə təltif olunur[491].

1919-cu ilin sentyabrında Bakı şəhərində Müsavat hökumətinin Əmək Nazirliyində ümumi şöbənin rəisi vəzifəsinə təyin edilən R.Axundov 1920-ci ilin yanvarında işdən çıxarılır və Moskvaya RK(b)P MK-ya ezamiyyəttə göndərilir, 1920-ci ilin iyununda isə geri qayıdır. 1920-ci ilin iyulunda Bakı şəhərində Az. K(b)P MK-da kənd təsərrüfatı işləri üzrə şöbənin rəisi vəzifəsinə irəli çəkilir, 1921-ci ilin iyun ayında öz arzusu ilə işdən çıxır.

1921-ci ilin iyunundan 1921-ci ilin dekabrına kimi Az.K(b)P MK-da katib vəzifəsində işləyir. 1921-ci ilin dekabrından 1922-ci ilin mayına qədər Moskva şəhərində Şərq zəhmətkeşlərinin kommunist universitetində çalışır.

Ruhulla Axundov 1922-ci ilin mayından 1923-cü ilin noyabrınadək Bakı şəhərində nəşr edilən “Kommunist” qəzetinin redaktoru olur.

1923-cü ildən yeni əlifbanın qəbul edilməsi məsələsində fəallıq göstərən Ruhulla Axundov Yeni Əlifba Komitəsinin orqanı olan "Yeni yol" qəzetinin səhifələrində bu mövzuda bir sıra məqalələrlə çıxış edir. Və həmin məqalələrdə yeni əlifbanın Azərbaycan xalqının mənəvi inkişafında mühüm rol oynayacağını xüsusilə qeyd edirdi. O, 1928-ci ildə etdiyi çıxışlarının birində deyirdi: “Bu əlifba məhz Azərbaycan Kommunist Partiyasının və bütün partiyamızın çox böyük nailiyyəti, təntənəsi, dünya miqyasında qələbəsidir”.

Ruhulla Axundov Azərbaycan xalq maarif komissarı olarkən kənd məktəblərində kənd təsərrüfatı təmayülü üzrə geniş tədbirlər həyata keçirir, şagirdlərin ictimai-faydalı əməyinə xüsusi diqqət yetirir. Xalq maarifi sahəsində məktəbəqədər tərbiyə müəssisələrinə özək kimi dəyər verən Ruhulla Axundov tədris planlarının və proqramlarının keyfiyyətini yaxşılaşdırmağı vacib sayır, kurslar təşkil edir, kitabların qiymətini

[491] https://www.muallim.edu.az/www.old/arxiv/2011/23/17.htm

ucuzlaşdırır[492] və savadsızlığın aradan qaldırılmasına nail olmağa çalışırdı.

Tanınmış tərcüməçi və ictimai xadim olan Ruhulla Axundov 1923-cü ilin noyabrından 1924-cü ilin mayına qədər səhhəti ilə əlaqədar İtaliya və Almaniyada olur. 1924-cü ilin mayından 1926-cı ilin yanvarına kimi Bakı şəhərində Az. K(b)P MK-da katib vəzifəsində işləyir. O, 1926-ci ilin yanvarından Bakı şəhərində Azərbaycan Dövlət Nəşriyyatının redaktoru və direktoru vəzifəsində çalışır və həmin ilin martında işdən azad edilir.

Mənbələr yazır ki, "1927-ci ilin martın 27-də R.Axundov Azərbaycan Xalq Maarif komissarı təyin edilir. Lakin bu uğurlardan başı gicəllənən R.Axundov bir səhvi nəticəsində bütün vəzifələrini itirir. Belə ki, 1928-ci ildə R.Axundov Moskva-Xarkov sərnişin qatarının vaqon-restoranında sərnişini döyür. Buna səbəb sərnişinin pəncərənin pərdəsini onun israrlarına rəğmən qapamaması olub. Akt tərtib olunarkən, Ruhulla Mərkəzi İcraiyyə Komitəsinin (MİK) üzvü olduğunu təsdiqləyən bileti göstərir... Və bütün vəzifələrindən azad olunur"[493].

Fikrimizcə, bunlarla razılaşmaq olmaz. Əgər elə olsaydı, həmin ərəfədə Azərbaycanda yeni əlifbanın tətbiqini böyük nailiyyətlərdən sayan Ruhulla Axundov, Azərbaycan ədəbi dilinin inkişafına həsr olunmuş tədbirlərin əsas təçkilatçılarından və təşəbbüskarlarından biri ola bilməzdi, yəni onu belə bir mühüm sahədən kənarlaşdırardılar.

Əgər elə olsaydı, onu 1928-ci ilin noyabrından 1929-cu ilin iyununadək Moskva şəhərindəki Krasnıy Professura İnstitutuna dinləyici qismində göndərməzdilər. Əgər elə olsaydı, o, 1929-cu ilin iyunundan 1930-cu ilin aprelinədək Bakı şəhərində Az. K(b)P MK-da redaktor və katib vəzifəsinə irəliyə çəkilməzdi. 1931-ci ilin yanvarından 1933-cü ilin iyulunadək Moskva şəhərində Lenin institutunda, 1933-cü ilin iyulundan 1934-cü ilin iyununadək isə Bakı şəhərində Şaumyan institutunda çalışa bilməzdi.

Əgər elə olsaydı, K.Marksın, F.Engelsin, V.Leninin əsərlərinin, eləcə də Rusiya Kommunist Bolşeviklər Partiyasının ikinci proqramının

---

492 https://www.muallim.edu.az/www.old/arxiv/2011/23/17.htm

493 https://kultura.az/news/20140821121434631

və Kommunist İnternasionalının 1-ci konqresinin Manifestini Azərbaycan dilinə tərcümə etmək kimi məsuliyyətli işləri ona həvalə etməzdilər. Məlumat üçün bildiririk ki, məhz R.Axundovun səyi və təşəbbüsü ilə 1927-1932-ci illərdə K.Marks və F.Engelsin 5 əsəri (15 min tirajla), V.İ.Leninin 19 əsəri (106 min nüsxə ilə) Azərbaycan dilində çap olunub.

Əgər elə olsaydı, onu 1934-cü ildə SSRİ Yazıçılar İttifaqının üzvü seçməzdilər[494]. Və nəhayət o, 1934-cü ildən həbs olunana qədər SSRİ EA-nın Azərbaycan Filialının direktoru və incəsənət işləri üzrə Azərbaycan idarəsinin rəisi vəzifəsində işləməz, 1936-cı ildə isə Azərbaycan SSR-in 15 illiyi münasibətilə Lenin ordeni ilə təltif olunmazdı.

Bunlar əsas verir deyək ki, 1927-ci il R.Axundovun karyerasının sonu deyil, bəlkə də zirvə məqamı idi. Faktlar göstərir ki, o, bolşeviklərin qara siyahısına 1927-ci ildə deyil, 1936-cı ildə düşmüşdü. Belə ki, həbs edilənlərdən alınan ifadələr, eləcə də dövri mətbuatda onun əleyhinə yazılan məqalələr belə bir sədaqətli kommunisti də bolşeviklərin özləri yaratdığı Xalq Daxili İşlər Komissarlığının (XDİK) məhbəsinə apardı. Beləliklə də, görkəmli ictimai xadim olan R.Axundov 1936-cı il dekabr ayının 17-də imzalanan 1718 saylı orderə əsasən Azərbaycan XDİK-i tərəfindən həbs olundu[495]. 1937-ci il iyunun 20-də isə Frida xanım tutuldu və xalq düşməninin həyat yoldaşı kimi 8 il müddətinə azadlıqdan məhrum edildi .

Həbs olunana qədər R.Axundovla birlikdə yaşamışdır:

Həyat yoldaşı Şlemova Frida Naumovna - partiya işçisi,

Oğlu Axundov Fərid Ruhulla oğlu – 14 yaş.

Qızı Axundova Anelia Ruhulla qızı – 3 yaş.

Fərid Böyük Vətən muharibəsində iştirak etmiş və həlak olmuşdur[496].

1937-ci il iyunun 8-də "Pravda" qəzetində Rıklinin imzası ilə "Düşmənin hiylələri" adlı məqalədə R.Axundova qarşı ağır ittiham irəli

---

494 Teymur Əhmədov. Azərbaycan sovet yazıçıları, Bakı, 1987, "Yazıçı" nəşriyyatı, s. 478.

495 DTX-nin arxivi. Ruhulla Axundovun istintaq qovluğu, PR - № 16629.

496 Qasımov C. Məhbus tərcümeyi-halı, Bakı, "Səda" nəşriyyatı, 2003, s. 58.

sürüldü. Məqalədə deyilirdi: "Trotskiçi və müsavatçı Ruhulla Axundov mədəniyyət cəbhəsində uzun zaman nəzarətsiz olaraq istədiyini edib. O, Elmlər Akademiyasının Azərbaycan filialının başçısı olmuş, incəsənət işləri komitəsinə rəhbərlik etmiş, yazıçılar ittifaqına ağalıq etmişdir. O, bütün təşkilat və idarələri öz adamları ilə, gizli və açıq düşmənlərlə "zibilləmişdir"[497].

Dövri mətbuat səhifələrində tənqid hədəfinə çevrilən H.Zeynallı 1937-ci il yanvarın 28-də Ruhulla Axundovun əksinqilabi qrupunun üzvü olmaqda ittiham edildi və əksinqilabi millətçi kimi həbs olundu. Üstündən bir neçə gün keçdikdən sonra o, «Ədəbiyyat qəzeti»ndə çıxan «Vətən xainləri» məqaləsinin «qəhrəmanına» çevrildi. «Azərbaycanda bu nacinslər, bizim xalqımızın qara bayquşu, qəddar düşməni olan «müsavat» tör-töküntüləri ilə birləşmişlər. Konturrevolyusiyanın bütün xəyalları, yeni dünya, azad həyat əleyhinə birləşmişlər!.. Bu vətən xainlərinin başını amansızcasına əzəlim!.. İllərlə Ruhulla Axundov, Hənəfi Zeynallı kibi konturrevolyusion xəyanətkarların kultura və ədəbiyyat cəbhəsində çalışmaları, biz yazıçılardan daha artıq sayıqlıq tələb edir. Partiyamız ətrafında daha sıx cərgələrlə toplanaraq, vətənimizin müdafiəsi üçün son damla qanımızı belə əsirgəməyəcəyimizə and içirik»[498].

Buradakı bir məqama xüsusilə fikir vermək lazımdır. Baxın, nəinki məhkəməsi, hətta istintaqı belə başa çatmayan Ruhulla Axundovu, Hənəfi Zeynallını, eləcə də onlarla başqa ziyalılarımızı məhkəmədən öncə qəzetlər və qəzet yazarları ittiham edirdi. Təəccüblüdür ki, keçən əsrin 30-cu illərində istintaqla maraqlanmağa belə cəsarəti çatmayan, mühakimə olunanların adını qorxa-qorxa çəkən jurnalistlər heç bir məlumat əldə etmədən hökm oxuyur, bir çox ziyalılarımızı terrorçu, əksinqilabçı, hətta vətən xainləri adlandırırdılar.

Məlumdur ki, Hənəfi Zeynallı 26 yanvar 1937-ci ildə həbs edilib, barəsində güllələnmə hökmü 12 oktyabr 1937-ci ildə çıxarılıb və o, 13 oktyabr 1937-ci ildə qətlə yetirilib. Ruhulla Axundov isə 17 dekabr 1936-cı ildə həbs edilib, 1938-ci ilin 20 aprelində barəsində güllələnmə hökmü çıxarılıb və hökmün icrası bir gün sonra - aprelin 21-də həyata

---

497 "Düşmənin hiylələri". “Pravda” qəzeti, 1937, 8 iyun.

498 “Ədəbiyyat qəzeti”. 1937, 6 fevral, № 5 (90).

keçirilmişdir. Uzaqgörən sovet mətbuatı isə Ruhulla Axundov və Hənəfi Zeynallı... barəsində 6 fevral 1937-ci ildə "Vətən xainləri" adlı məqaləsilə ("Ədəbiyyat qəzeti") təhlükəsizlik orqanlarını qabaqlayır və "Bu vətən xainlərinin başını amansızcasına əzəlim!" hökmünü verirdi. Göründüyü kimi, "baş əzmək" hökmünü qəzetçilər verir, hüquq-mühafizə orqanları isə icra edirdi.

Ruhulla Axundov sözün bütün mənasında kommunist idi və belə bir kommunisti ləkələmək, eləcə də məhv etmək üçün erməni müstəntiqlərin əlinə böyük fürsət düşmüşdü. Mövcud vəziyyətdə totalitar rejimin və Mir Cəfər Bağırovun verdiyi bu fürsəti və şansı qaçırsaydılar Markaryanlar və Qriqoryanlar bunu özlərinə bağışlamazdı. Ona görə də, onlar müttəhimlərə fiziki, mənəvi-pisixoloji işgəncə verməklə R.Axundovun əleyhinə ifadə almağa çalışırdılar.

Fiziki-psixoloji təzyiqlər altında ifadə verən H.Zeynallı bildirirdi ki, mən 1936-cı ilin sonunda Ruhulla Axundovdan Bakıda və respublikanın rayonlarında gəncləri əksinqilabi təşkilata cəlb etmək göstərişi aldıqdan sonra, türk ziyalıları arasında işi genişləndirərək, onları terrora, təxribatçılığa, ziyankarlığa, casusluğa və müharibə vaxtı təslimçiliyə istiqamətləndirmişəm[499].

31 yanvar 1937-ci il dindirməsində V.Xuluflu trotskiçilikdə ittiham olunur. Dövlət Təhlükəsizlik İdarəsi (DTİ) 4-cü şöbəsinin rəisi dövlət təhlükəsizlik kapitanı Avanesyan V.Xuluflu ilə dindirməni belə başlayır:

Avanesyan: Siz trotskiçilərdən kimləri tanıyırsınız?

V.Xuluflu: Azərbaycan EA-nın filialının keçmiş direktor müavini trotskiçi kimi həbs edilmiş Qarberi tanıyıram. Həbs edilənədək mən onun trotskiçi olmasını bilmirdim. Mən onu idealist, deborunçu, Deborunun və Plexanovun açıq müdafiəçisi kimi tanıyırdım. Az.FAN nəşriyyatında Şapironu tanıyırdım. Onun trotskiçi olmasını o, partiyadan xaric ediləndə bildim. Mən onu da bildim ki, Ruhulla Axundov 1921-22-ci illərdə trotskiçi kimi tanınmış və özü trotskiçi cərgədə duran Sarkisə yaxın olmuşdur. Bu haqda 1925-26-cı illərdə adını xatırlamadığım bir nəfərdən eşitmişəm. Başqa trotskiçi tanımıram[500].

[499] DTX-nin arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR - № 26385.
[500] DTX-nin arxivi. V.Xuluflunun istintaq qovluğu, PR - № 25014.

25 avqust 1954-cü ildə Azərbaycan Xalq Daxili İşlər Komissarlığının əməkdaşı İ.A.Xanumov isə başqa mətləblərin üzərinə işıq salırdı. O deyirdi: "Sumbatov və Bağırovun tez-tez ifadə alıb danışdırdığı R.Axundov Sumbatovun otağında davamlı şəkildə döyülürdü. Bağırov mütəmadi olaraq tutulanların sorğulanmasında iştirak etmək üçün Daxili İşlər Komissarlığına gəlirdi. Ruhulla Axundov o dərəcədə döyülürdü ki, axırda onu Sumbatovun otağından xərəkdə çıxarırdılar. Ruhulla Axundovun Sumbatovun otağında vəhşicəsinə döyüldüyünü orada uzun müddət işləyənlərin çoxu bilirdi. Biz xəstə bir insanın, üstündə aparılan bu eksperimentlərə və bir insanın bu qədər zülmlərə necə dayana bildiyinə təəccüb edirdik"[501].

Başqa bir misal: 1 noyabr 1954-cü ildə Şabanboyov Həmzə verdiyi şahid ifadəsində bildirirdi ki, "Məhbusları yumruqla döyür, onları çəkmələrinin dabanı ilə əzirdilər. Martinosovun 60-70 santımetr uzunluğunda xüsusi bir rezin dəyənəyi vardı. Onunla müttəhimləri döyürdü. Bundan əlavə müttəhimləri məcbur edirdilər ki, uzun müddət əlləri yuxarı qalxmış vəziyyətdə, ayaq barmaqlarının üstündə dursunlar. Bu metodu tez-tez tətbiq edən Martirosov idi. İndi familyasını unutduğum, bir müttəhimi Xoren Qriqoryan elə döymüşdü ki, üç qabırğası sınmış, daxili qanaxması olmuşdu".

Fiziki və mənəvi-psixoloji işgəncələrdən sonra Həmid Sultanov 4 iyul 1937-ci ildə Sumbatova yazırdı ki, mən 3 günlük müqavimətdən sonra qərara gəlmişəm ki, hər şeyi deyim. Bundan sonra Həmid Sultanovla müstəntiq apasındakı belə bir dindirmə - dialoq olur:

Müstəntiq: 11 iyulda siz yoldaş Sumbatovun adına yazdığınız ərizədə özünüzün partiya və Sovet hakimiyyətinə qarşı cinayət fəaliyyətinizi boynunuza almağa hazır olduğunuzu bildirmişdiniz. İstintaq sizdən tam tərk-silah olmağı gözləyir, danışın.

Müttəhim: Boynuma alıram ki, mən Azərbaycanda əksinqilabçı təşkilatın üzvü olmuşam. Mənim partiya Sovet hökümətinə qarşı bu mübarizə yolum çirkin xəyanət, çirkin satqınlıq və ağır cinayət yolu olmuşdur. İndi mən istintaqa bütün həqiqəti açmaq, öz üzərimdən biabırçı yükü, o yükü ki, həmişə daşımış və partiyadan gizlətmişəm, indi isə onu götürmək istəyirəm.

---

501 http://www.moderator.az/news/239974.html

Müstəntiq: İndi təşkilatın tərkibini deyin.

Buna cavab verən müttəhim Azərbaycan əksinqilabi millətçi təşkilatın üzvlərindən 21 nəfərin adını çəkir ki, onların arasında birincisi Ruhulla Axundov idi.

Heç şübhəsiz ki, bütün bu ifadələr özlərini humanist elan edən bolşeviklərin verdikləri işgəncələr nəticəsində əldə edilirdi. Maraqlıdır ki, 1930-cu illərin dindirmələrində bir qayda olaraq ittiham olunanlar mühakimə edilirdisə, 1950-ci illərin dindirmələrində (şahid ifadələrində) mühakimə edənlər və onların tətbiq etdikləri total metodlar ifşa olunurdu. Fikrimizin təsdiqi kimi, Novruzov Müseyib Mayil oğlunun 25 oktyabr 1954-cü ildə verdiyi şahid ifadəsinə diqqət yetirək. O bildirirdi ki, 26 iyun 1937-ci ildə rəhbərlik (NKVD-nin rəhbərliyi nəzərdə tutulur – C.Q.) məni qəbul etdi və dedi ki, rayona qayıt, bizə Şabanbəyov kimi kömək edin. Mən ona dedim ki, Şabanbəyov Qavrilov kimi hərəkət edir. Onda o, mənim üstümə qışqırdı, üzümə 2 sillə vurub kabinetdən qovdu. Rəhmanov Ələkbərə əmr etdi ki, məni kabinetdə tutub saxlasın. 10-11 saat mən Rəhmanovun kabinetində oturdum. Məni evə buraxdılar və gecə saat 12 də həbs etdilər. Gerasimov məndən 15 nəfər haqqında ifadə aldı.

Bildirdilər ki, mən əgər Ruhulla Axundov, Sultan Məcid Əfəndiyev, Mikayıl Hüseynov, Dadaş Bünyadzadə, Həbib Cəbiyev haqqında ifadə versəm məni azad edəcək və mən partiya işində işləyəcəm .

10-15 gündən sonra məni H.Sultanovla üzləşdirdilər. Mən ifadə verən kimi Həmid Sultanov dedi: "Novruzov, nə qədər ki, gec deyil, qol çək". Bunun müqabilində mən onun üzünə tüpürdüm və dedim ki, mən heç bir üsyançı təşkilat tanımıram. Üzləşdirmədən dərhal sonra məni başqa kabinetə apardılar və vəhşicəsinə döydülər. Məni döyənlər kim idi: Atakişiyev, Qriqoryan, Qalstyan və bir nəfər də boksçu, familyasını bilmirəm.

Atakişiyev mənim qarnıma təpik vurdu. Boksçu bir neçə güclü zərbə endirdi, kimsə də ayağımdan vurub yerə sərdi. Qriqoryan üzümə bir əski parçası atdı, sonra məni rezin dəyənəklə döydülər. Mən huşumu itirdim... Məni elə vəhşicəsinə döydülər ki, kameraya gətirəndən neçə saat sonra yemək verəndə yeyə bilmədim. Görünür, mən ölüm ayağında imişəm... Mən sözün əsl mənasında tərpənə bilmirdim.

Boynuma heç nə qoya bilmirdilər. Atakişiyev yenə məni döydü. Mən özümü öldürmək istədim, bucaqdakı yanar peçin üstünə atıldım. Müstəntiq Məmmədov məni tutdu".

Yeri gəlmişkən onu da qeyd etməliyəm ki, müstəntiqlər hər hansı bir müttəhimdən istədiklərini döyə-döyə ala bilmədikdə ona 3 nömrəli metodu tətbiq edirdilər. Mətbuatda dövlət sirlərini mühafizə edən baş idarənin rəisi İbrahim Abdulla oğlu Eminbəyliyə də 3 nömrəli metod tətbiq edilir. O, 1937-ci il avqustun 20-də xalq daxili işlər komissarı Sumbatov-Topuridzeyə yazdığı ərizədə bildirirdi: «7 aydır ki, mən susuram. Nəhayət, təslim olmağı qərara aldım. Partiya və hökumət qarşısında törətdiyim cinayət işləri, təşkilatdakı fəaliyyətim barəsində ətraflı danışmaq istəyirəm. Bildirirəm ki, təşkilata mən Ruhulla Axundov tərəfindən cəlb edilmişəm»[502]. Beləcə, susan dillərdən birini də bu metodla açdılar və İbrahim Abdulla oğlu Eminbəylini Ruhulla Axundovun əleyhinə ifadə verməyə məcbur etdilər.

Bu özünü "doğruldan" metod olduğuna görə, demək olar ki, hamıya tətbiq edirdilər. Elə Ruhulla Axundova da. Onun 24 iyul 1937-ci ildə verdiyi ifadədən kiçik bir epizod dediklərimizi təsdiq edir: "Mən Qosplana işə girdikdən sonra dil, tarix və ədəbiyyat sektoruna işçi toplayarkən Hənəfi Zeynallı, Vəli Xuluflu və Salman Mumtaz mənim tərəfimdən əksinqilabi fəaliyyətə cəlb olunublar. Xuluflu isə öz növbəsində Xalid Said Xocayevi bu fəaliyyətə cəlb etdi. Daha sonra Mikayıl Hüseynov Həsənbəy Balabəyovu, Əhməd Triniç rəssamlardan Xalıqov və Mustafayevi, artistlərdən Ülvi Rəcəbi, Darablını, Hacı Ağa Abbasovu, Əli Kərimov isə Abbas Mirzə Şərifzadəni və Mirzəağa Əliyevi cəlb etdilər"[503].

Maraqlıdır ki, həmin metod R.Axundovun özünə də tətbiq edilmişdi. O, SSRİ xalq daxili işlər komissari N.İ.Yejovun adına yazdığı ərizədə bildirirdi: "Doqquz aydır ki, həbsxanada yataraq həqiqəti deməkdən imtina edirdim. Mən öz partiyama, xalqıma qarşı olan bütün cinayətləri gizlədirdim. İndi hiss edirəm ki, inadkarlıqla nəyəsə nail olmaq boş cəfəngiyyatdır" [504].

[502] DTX-nin arxivi, İbrahim Eminbəylinin istintaq qovluğu, PR - № 16637
[503] DTX-nin arxivi. Ruhulla Axundovun istintaq qovluğu, PR - № 16629.
[504] DTX-nin arxivi. Ruhulla Axundovun istintaq qovluğu, PR - № 16629.

